84
İ-40



# CƏBRAYIL ŞƏHİDLƏRİ

İsmayıl İmanzadə
Tariyel Abbaslı

84(5Aze)
İ 40

İSMAYIL İMANZADƏ
TARİYEL ABBASLI

# CƏBRAYIL ŞƏHİDLƏRİ

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 83082

Bakı – "Təknur" -- 2013

**Redaktor: Yaqub Məğrur**
**Rəssam: Yavər Əsədov**

***Cəbrayıl şəhidləri*** *(Torpağın qanlı köynəyi - I hissə, Qəm leysanı - II hissə, təkrar nəşr)*
***Bakı, "Təknur" nəşriyyatı, 2013, 672 səh.***

***"Cəbrayıl şəhidləri" kitabı əzəli-əbədi yurdumuz Qarabağ uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş soydaşlarımıza yanıqlı bir ağıdır. "Torpağın qanlı köynəyi" və "Qəm leysanı" adlı iki hissədən ibarət olan bu kitabda yaralı Cəbrayıl torpağında və ayrı-ayrı bölgələrimizdə şəhid olan 371-dən çox igidin dan üzünə bənzəyən qanlı köynəkləri bizi qaniçən erməni faşistlərindən intiqam almağa səsləyir. Müəlliflər ayrı-ayrı oçerklərdə hər bir şəhidin nakam ömür yoluna işıq tutur, onları sonsuz sevgilərlə yad edirlər.***

***Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

İSBN: 978-9952-445-45-7

© İSMAYIL İMANZADƏ
© TARİYEL ABBASLI

**"Şəhidlik həyatın davamıdır.**
**Şəhid adı elə yüksək zirvədir ki,**
**o ucalığa hər kəsin əli çatmaz"**
**"Qurani-Kərim"dən.**

**Bu torpaq sənindir, onu ək və yağılardan qoru!**
**Torpağı əkib becərməsən yağılardan**
**qorumağa dəyməz, yox əgər onu yağılardan**
**qorumasan əkib-becərməyə dəyməz".**
**"Kitabi-Dədə Qorqud"dan.**

## ALIN YAZISI

*Bayraqları bayraq yapan üstündəki qandır,*
*Torpaq uğrunda ölən varsa, Vatandır...*

Şəhidliyin ən böyük həqiqəti və sarsılmaz məntiqi türk şairinin bu qoşa misrasında mükəmməl ifadə olunmuşdur.

İnsanın ən halal haqqı təbiət tərəfindən ona verilmiş sadə bir həyatı sonacan yaşamaqdır. Dünyadan, insanlardan və öz qəlbindən bir an belə qopmadan yaşanan bir ömür, əlbəttə, bəxtiyarlıqdır...

Fəqət, ən qüdrəqli iradəyə belə əyilməyən alın yazısı deyilən bir həqiqət də var ki, orada enişlər və yoxuşlar, yarğanlar və sıldırımlar, zülmət və işıq, bəxtiyarlıq və göz yaşı, acı və şirin... fövqəl bir gözlənilməzliklə sıralanmışdır. Şəhidlik də alın yazısıdır!

Amma necə ayırasan ki, şəhidlik faciədir, yoxsa bəxtiyarlıq...

Şəhidliyin əbədiyyət olması isə şəksizdir.

Adi insanlar ölür...

Şəhidlər əbədiyyətə qovuşur... Hər bir şəhidin ömrü nə az, nə çox, uğrunda can qurban elədiyi torpağın yaşı qədərdir...

Azərbaycan torpaqlarının bütövlüyü uğrunda erməni işğalçı ordusuna qarşı aparılan qanlı döyüşlərdə igid Cəbrayıl camaatı yüzlərlə şəhid vermişdir. Bu azdır, yoxsa çox? Qəhrəmanlıq məqamında «bir nəfərin ölümü faciədir, minlərin ölümü statistika» deyənlərin məntiqi özünü doğrultmur. Çünki cəbrayıllıların, bütün Azərbaycan xalqının tam bir on illik boyunca apardığı bu savaş Vətən savaşıdır. Əgər xalq bircə nəfəriylə şüurlu ölüm zirvəsinə, şəhidlik zirvəsinə yüksələ bilirsə, deməli, o xalq ləyaqət haqqına sahibdir! Cəbrayıl şəhidləri əvəzinə Azərbaycan şəhidləri deyilsə fikir bəlkə də daha dəqiq ifadə olunardı. Çünki bu kədərli kitabın qəhrəmanları Cəbrayıl ərazisi ilə yanaşı, Qarabağ uğrunda gedən döyüşlərin bütün qaynar xətti boyunca düşmən gülləsinə sinə gərmişlər. Onlar yalnız Cəbrayılı deyil, bütün Azərbaycanı qorumuşlar...

Bütün şəhidlərimizin bir amalı olmuşdur: Vətən torpağını yağıdan qorumaq. Onun nə fərqi var ki, könlündə yurd məhəbbəti gəzdirən vətən əsgəri Cəbrayılda yaxud Ağdamda, Laçında yaxud Şuşada, Qubadlıda yaxud Zəngilanda, Kəlbəcərdə yaxud Ağdərədə əbədiyyətə qovuşub...

Burda, bu kitabda Azərbayçanın Cəbrayıl deyilən ulu torpağında ən müxtəlif sənədlərdə dünyaya göz açmış, fəqət əksəriyyəti 90-cı illərin əvvəlində «Torpağın qanlı köynəyi»ni geyib «Qəm leysanı»na çevrilərək



yurdun daşlarına, sal qayalarına səpələnmiş insanların nakam taleyindən teleqraf üslubu ilə söz açılır. Hətta ən çox çəkən ən uzun ömür də belədir, ani, qaşla göz arasında... Nə bilmək olar, bəlkə ən qısa ömür ən uzun ömürdü, yaxud əksinə ən uzun ömür də ən qısa ömürdü...

Bəlkə bu da adi həyat adamlarına uyar bir məntiqdir. Bir qədər öncə, şəhidlik adi məntiqə sığmır, deyildi. Deməli, bu insanlar da hansı oymaqda, hansı ildə doğulduqlarından asılı olmayaraq eyni yaşdadırlar; şəhidlik yaşında...

Sağ qalsaydılar hərəsi bir-birinə qətiyyən bənzəməyən tale yaşayacaqdılar. Fəqət indi onların hamısının alın yazısının cəmi bircə kəlməsi var: Şəhidlik!

Ad və şöhrət onlara gərək deyil. Sonuncu şərəf duyğusu onların al qanına boyanaraq torpağının ən dərin qatlarına hopub. Onlar bizə Vətəni nə gücdə sevməyi, mərdanəliyi nə sayaq yaşatmağı, ən başlıcası isə yurd uğrunda necə ölməyi öyrətmişlər. Onlar onsuz da müqəddəs olan, saysız-hesabsız düşmən ordularını diz çökdürən, hər qarışı igidlər qanıyla suvarılan torpağımızın qəhrəmanlıq yaddaşını yenidən oyatmışlar.

İnanırıq ki, ən azı buna görə müəlliflərin göynər bir ürəklə «Cəbrayıl şəhidləri: Torpağın qanlı köynəyi, Qəm leysanı» adlandırdıqları bu kitabı əziz tutacaqsınız. Bir də ən azı ona görə ki, onlar sənin, mənim, hər birimizin əvəzinə... ölümə gediblər; onlar – cəbrayıllı şəhidlər!

***Mahmud Quliyev***
***Cəbrayıl RİH-nin başçısı***

*Redaktordan*

# TANRI BİZİ BAĞIŞLAMAZ

***Oğullar doğulur yurdun çəpəri,***
***Vətən siperidir mərdin təpəri.***

Rəsuli-Əkrəm buyurub ki, şəhidlik həyatın davamıdır. ŞƏHİD adı elə yüksək zirvədir ki, o ucalığa hər kəsin əli çatmaz. Çünki, o zirvənin ən uca nöqtəsində öz dini və əqidəsi uğrunda ömrü boyu şərəfli mübarizə apardıqlarına görə Kərbəla müsibətinə düçar olaraq dünyada ilk şəhadət alan Həzrəti Əli Əleyhissəlamın iki oğlu İmam Hüseyn və İmam Həsən Əleyhissəlam dayanmışlar. Həmin müsibətdən on beş əsr keçsə də onların şərəfli ömür yolu insanların qəlbində yaşadığı kimi, özləri də Allah dərgahının, Cənnət guşəsinin ən yüksək mərtəbəsində ruhən əbədi yaşayırlar. Deməli Şəhidlər həqiqətən də ölmürlər, əksinə ölümü öldürürlər. Şəhid o adama deyilir ki, ən ali varlıq olan Ulu Tanrıya daim itaət və ibadət etsin, mənsub olduğu dinə inam və iman gətirsin, əqidəsindən dönməsin, Vətənə, millətə şərəflə xidmət etsin və lazım gələndə torpaq, xalq yolunda şirin canını əsirgəməsin.

Şair demişkən:

***Daim Vətənə, millətə xidmətdi Şəhidlik,***
***Ən ali olan zatə itaətdi Şəhidlik.***
***Dünyada şəhadət alana öldü deməzlər,***
***Çünki, ölümü öldürən alətdi şəhidlik.***

Şəhidlər haqqında yazmaq həm şərəflidir, həm də çətin. Şərəflidir ona görə ki, bu şəxslər xalqımızın müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda şirin canlarını uf demədən qurban vermişlər. Çətindir ona görə ki, Qarabağ müharibəsində şəhid olmuş iyirmi min nəfər insanla bərabər, iyirmi min kvardrat kilometrlik ərazimizi də itirdik. Açığı, bu haqda nəinki yazmaq, ümumiyyətlə danışmaq belə, mənə ən azı doğma yurdum Cəbrayıldan uzun müddət kənarda didərgin həyatı keçirmək qədər çətindir. Bu çətinliyi isə kimsəyə arzulamıram, düşmənlərimdən savayı.

Bəli, biz doğma Cəbrayıldan getməli olduq. Ermәni vəhşiliyindən qurtulmaq və başımızın salamat qalması üçün canımız qədər sevdiyimiz doğma Vətəni tərk etməli olduq. Düşünürəm ki, bu, doğru qərar idi. Çünki təpədən dırnağa kimi silahlandırılmış azğın düşmən qarşısında hətta ov tüfəngi də əlindən alınaraq məhvə məhkum edilmiş əliyalın bir xalq olaraq bütövlükdə qurban getməkdənsə hər halda sağ qalmağımız daha ağıllı çıxış



yolu idi. Odur ki, doğma yurdu tərk etməyə məcbur edildik. Tərk etdik ki, yenidən səfərbər olub Qarabağ savaşına qatıla bilək. Ancaq, çox təəssüf ki, düz iyirmi ildir ki, Bütöv Azərbaycanın qanlı Qarabağ yarasına məlhəm qoya bilmir, qovrula-qovrula həsrət çəkirik.

Təsəvvür edin ki, mən Qarabağın ən ucqar kənd və obalarında gəzib-dolaşmağı, Cəbrayılın səfalı dağlarını, doğma Böyük Mərcanlı kəndinin saf havasını, çala-cuxur küçələrini hətta Bakının ən gözəl küçələrindən, yaraşıqlı binalarından, dəbdəbəli həyat tərzindən üstün tuturam. Çünki, paytaxtın bu dəbdəbəli həyatının içində ola-ola mən özümü həqiqətən də qərib hiss edirəm. Bəlkə kimlər üçünsə bu belə deyil. Ancaq mənim üçün Cəbrayıl, B. Mərcanlı qəlbimin başında göyür-göyür göynəyən doğma Vətənim olmaqla bərabər, həm də Qarabağı mənə sevdirən bir diyardır. Çünki, mən orada doğulub boya-başa çatmış, Qarabağın nə demək olduğunu anlamışam...

Mən bəlkə də doğma yurdumdan didərgin düşəndən sonra B. Mərcanlını, Cəbrayılı, Qarabağı daha çox, hətta Azərbaycan qədər sevməyə başladım. Yəqin ki, bu sevgini qəriblik hissi alovlandırdı. Yalnız o həqiqətdir ki, mən Qarabağı sevirəm və bu sevgi uğrunda ömrümün sonuna qədər mübarizə aparmağa hazıram. Əminəm ki, heç kim, heç nə məni bu sevgidən ayıra bilməz. Çünki bu, Şəhidlərimizin qanı ilə suvarılmış müqəddəs Vətən sevgisidir.

Tarix çox müharibələrin, ölkələrin viran qalmasının, saysız-hesabsız insanların həlak olmasının şahidi olub. Ancaq, bəşəriyyət zaman-zaman erməni barbarlarının türklərə qarşı törətdikləri vəhşilik səviyyəsində ikinci bir faktla qarşılaşmayıb. Min illər boyu türkçülüyün güc qaynaqlarından biri olan, zaman keçdikcə kiçik hissələrə parçalanıb rus-fars şovinizminin əsarəti altında inləyən azəri türkləri iyirminci yüzilliyin sonunda zamanın daha ağır sınağıyla üzləşdi. Dünyanın ədalət tərəzisi pozuldu. Nahaq haqqa, şər xeyirə, namərd mərdə qənim kəsildi. Əsil kişilər nakişilərə möhtac qaldılar...

Hələ on doqquzuncu yüzilliyin əvvəllərində Azərbaycan ərazisində Rusiya-İran müharibələri dövründən etibarən məqsədyönlü şəkildə torpaqlarımıza erməni axını başlandı. Rusiyanın vasitəçiliyi ilə İran və Türkiyədə yaşayan ermənilər Naxçıvana, Zəngəzura, Göyçəyə və Qarabağa köçürüldülər. Ancaq çox təəssüf ki, ən səfalı və bərəkətli torpaqlarımızda məskunlaşmış bu zatıqırıqlar pənah gətirdikləri torpağa, onun əsilli-köklü sahiblərinə sonralar xəyanət etdilər. İyirminci əsrin əvvəllərində Zəngəzur işğal olundu. Əsrin axırlarında isə Qarabağ müharibəsinin od-alovu sərhədləri aşaraq Araz boyu yurd yerlərimizi də qarsıdı. Torpaq, ağac, qoca, cavan, qadın və uşaqlar şəhid oldular.

Əsrlərin qınaq hədəfi olan Araz da sanki öz günahlarını yumaq istədi.

Sakit-sakit axıb ev-eşiyindən, yurd-yuvasından zorla qovulan, maddi, mənəvi və cismani zərbələr alan binəvalara kömək etmək istədi. Ancaq bunun da bir xeyri olmadı. Beləliklə, Azərbaycanın kiçik Soçisi adlanan Cəbrayıl bölgəsi də 1993-cü il avqustun 23-də ermənı vəhşiləri tərəfindən işğal olundu.

1050 kvadrat kilometr ərazidə yerləşən bir şəhər, 90 kənd düşmən əlinə keçdi. 381 nəfər qəhrəmancasına ŞƏHİD oldu. 60 minə yaxın Cəbrayıl əhalisi doğma yurdlarından didərgin düşərək, müstəqillik yolunda ilk addımlarını atan ölkəmizin bütün kənd, qəsəbə və şəhərlərində məskunlaşmağa məcbur edildilər.

Qoruya bilmədik Cəbrayılı. Başqa bölgələrimiz kimi Cəbrayıl da qurban getdi düşmənə. Tərəddüd etmədən ölümdən qorxmayan oğullar da qoruya bilmədi torpaqlarımızı. Çünki Millət, Torpaq, Vətən anlayışının nə məna kəsb etdiyini bir millət kimi hamımız anlaya bilmədik. Çünki, müharibə gedən ölkəmizdə vətənpərvərlik, qəhrəmanlıq təbliğ olunmaq əvəzinə, şəhər və kəndlərimiz od tutub yanan zaman milli radiomuzda və televiziya ekranlarımızda keyf və çal-çağır məclisləri düzənləyirdilər. Sanki gedən torpaqların, tökülən qanların onlara ümumiyyətlə dəxli yox idi. Məhz bu biganəlik sonucda millətin döyüş ruhunun, iradə və əzminin qırılması ilə nəticələndi.

Vahiməyə düşüb qaçan mülki əhali ilə bərabər əsgərlərimiz də geri çəkilirdilər. O zaman Arazdan keçib gələrkən, mən özüm şəxsən gördüm ki, bizimlə bərabər doğma yurdu tərk edən əskərlərimizə İran ərazisində necə baxırlar. İran türkləri əsgərlərimizdən soruşurdular ki, "Niyə cəng etmirsiniz? Axı Vətəni qoyub qaçmaq günahdır. Buna görə Allah sizi bağışlamayacaq ".

Bəli, əsgər öz mövqeyini lüzum olmadan tərk edirsə, deməli o məğlubdur. Ona görə də orduya döyüş ruhu, torpaqlarımızın müqəddəsliyi və vətənpərvərlik hissləri hərbin sərt qanunları ilə paralel aşılanmalıdır. Ancaq çox təəssüf ki, məhz elə bu cəhətlər bizdə çatışmadı. Ona görə də doğma Vətənimizi, müqəddəs yurd yerlərimizi, el-obamızı itirdik. Haqq-ədaləti, on minlərlə vətənpərvər övladlarımızı, torpaqları şəhid qanları ilə suvarılmış yaralı Vətəni, lap sonda isə özümüzü itirdik. Çünki Vətənə atılan güllələrin gilizi elə biz özümüz olduq. Müharibəni təxribatla apardıq. "Erməni sizi qıracaq, hamınız qaçın!" prinsipi müharibəni idarə edirdi.

Əsil təbliğat maşınımız isə ya susur, ya da yalan məlumatlar yayırdı. Ona görə də Milli Ordunun əsgərləri mövqelərini mülki əhalidən əvvəl tərk edirdi. Bu və digər səbəblər bizi faciələrə, məşəqqətlərə gətirib çıxardı. Müharibə niyə oldu, nə üçün uduzduq? – kimi suallar cox olsa da cavab birdir: olan oldu, keçən keçdi.



İstedadlı qələm dostlarım İsmayıl İmanzadə və Tarıyel Abbaslının qələmə aldıqları bu kitab şəhidlərimiz haqqında ağrılı bir elegiyadır. 1994-cü və 1999-cu illərdə kiril əlifbası ilə, həm də çox keyfiyyətsiz çap olunan bu kitabların bir yerdə latın qrafikası ilə çap olunmasına böyük ehtiyac duyulur və alqışlanmalı bir təşəbbü

İndi yağı düşməndən yalnız intiqam almaq, Şəhidlərin qisasını almaq, itirdiyimiz müqəddəs torpaqlarımızı geri qaytarmaq uğrunda müqəddəs cihada qalxmalıyıq. Yoxsa bu dünyada qaçqın-köçkün adıyla gəzib-dolaşdığımız kimi, torpaqlarımızı qoruya bilmədiyimizə görə bizə o dünyada da rahatlıq və yer verilməyəcək. Bizdən sonra gələn nəsillər isə bizi qorxaqlıqda və fərarilikdə günahlandıracaq və Vətən satqınları adlandıracaqlar. Ona görə də parçalanmış, təhqir olunmuş müqəddəs Vətənimizin Milli Heysiyyatı olan hər bir övladı bu təhqirlərdən qurtulmalı, tapdanmış namus-qeyrətimizi qara ləkələrdən təmizləməlidir. Özü də bunu təkcə ölkənin bütün bölgələrinə səpələnib didərginlik həyatı yaşayan, əzizlərinin qəbirlərinə həsrət qalan, fələyin bütün qəm yükünü çiyinlərində daşıyan insanlar deyil, onlarla birlikdə bütün Azərbaycan xalqı etməlidir. Yalnız onda Müqəddəs Şəhidlərimizin ruhları qarşısında mənəvi borcumuzdan çıxmış olarıq. Çünki,

*Qarabağı əsarətdə*
*Qoyub getsək bu dünyadan,*
*Bağışlarmı qiyamətdə*
*Allah bizi o dünyada?*

*Olmarıqsa qisas günü*
*Doğma yurdun gorgahında,*
*Bağışlamaz səni, məni*
*Tanrı uca dərgahında.*

**Yaqub Məğrur**
***Şair-publisist,***
***"Təhqiqat" qəzetinin***
***təsisçisi və baş redaktoru***

## ŞƏHİD ÖLÜMÜNƏ DEYİLƏN AĞI

Ata yurdum Cəbrayılın torpaq yaddaşında ulu Qurbaninin, aşıq Pərinin, Mücrüm Kərimin, Aşıq Surxayın, Aşıq Humayın izləri - nişanələri yaşamaqdadır. Hələ qan yaddaşımızda unudulmaz Sərdar Əsədin, Sabir Süleymanovun, Faiq Dərgahovun, İsmayıl Hacıyevin, Şəhriyar Quliyevin, Çərkəz Məcidin, İsmayıl Quliyevin... adları çinar ömürlüdür. Onlar sənətləri ilə torpağın yurd daşları kimi əbədiyyətə qovuşublar. Cəbrayılın dünənindən Temir Quliyevin, Mehdi Mehdizadənin, Əşrəf bəy Hüseynovun, Allahverdi Verdizadənin, Tofiq Hacıyevin, Kamil Vəliyevin, Vaqif Cəbrayılzadənin, Əşrəf Mehdiyevin, Nadir İsmayılovun, İsmayıl İmanzadənin səsi-sədası gəlir. Bu torpağın sabahının qayğılarını sinəsində, çiyinlərində yaşadacaq oğullarımız, qızlarımız, tumurcuq-tumurcuq böyüməkdədir. Tumas ata, Diri dağı, Divlər sarayı, Hacı Qaraman bu yurdun ulu ocaq daşlarıdır. Oğuz elimizin dünya şöhrətli Xudafərin körpüləri o taylı-bu taylı Azərbaycanın birlik rəmzi, tale payı, alın yazısıdır.

Bu ulu körpünün Bakıdakı qan qardaşı "Xudafərin" cəmiyyəti dərdlərimizdən, cəmiyyətimizdə, birlik istəyimizdən doğulub. Topxana harayımızdan sonra dünyaya gələn "Xudafərin"də Araz nisgili, Gəyən düzünün hərarəti, Sirik meşələrinin həzinliyi, Dədə Çinarımızın vüqarı və bir də Bakı və Sumqayıtda yaşayan Cəbrayıllıların yurd həsrəti, ana torpağa sonsuz sevgisi, istəyi yarpaq-yarpaq göyərməkdədir. Bu torpağın güvənc yeri olan həmyerlilərimizdən Sabir Əhmədlinin, Kamil Vəliyevin, Tofiq Hacıyevin, Əşrəf Mehdiyevin, Aydın Əsgərovun, Gülövşə Məmmədovanın, Mobil Aslanlının, Fazil Abbasovun, Musa Mərcanlının xeyir-duası ilə dünyaya göz açıb «Xudafərin». Bu gün – Vətən öz oğullarından borcunu istədiyi bir vaxtda «Xudafərin»ə rəhbərlik etmək, onun qayğıları ilə yaşamaq mənim payıma, mənim qismətimə düşüb. Onun sıralarında istedadlı ziyalılarımızın olması onun qüdrətini, nüfuzunu günbəgün artırmaqdadır. «Xudafərin»də bizim dərdlərimiz, düşüncələrimiz birləşir. «Xudafərin» biz Cəbrayıllıların bir ovuc Vətən torpağıdır, ümid, güvənc yeridir. 1988-ci ilin fevral hadisələrindən sonra başlayan xalq hərəkatında Bakıda və Sumqayıtda yaşayan cəbrayıllıların da fəal iştirakı bizim azadlıq ruhumuzdan, yurdsevərliyimizdən nişanədir. Bu gün qibləgahımız, and yerimiz «Şəhidlər Xiyaban»ında Cəbrayılın qeyrətli oğulları uyuyur. Bizim Qarabağımız, Gəncəmiz, Şəkimiz, Qusarımız, Lənkəranımız, Naxçıvanımız, Laçınımız, Cəbrayılımız... bu müqəddəs xiyabandan başlayır. Torpağı şəhidlər Vətən edir – deyiblər. Cəbrayıllı igidlərimiz Ağdərədə, Laçında, Qubadlıda, Füzulidə, Ağdamda, Coranboyda... canlarından keçib, şəhidlik zirvəsinə ucalıblar. Bu gün Cəbrayılın dədə-baba qəbiristanlarından neçə-neçə şəhid məzarları boylanır, dünyamıza. «Xudafərin» şəhid ailələrinin dərdlərinin ortağı, nisgillərinin şərikidir. Ulu peyğəmbərimiz buyurub ki, yaxşılıq məqamında sağ əlin verdiyini sol əl bilməməlidir. Biz şəhid ailələrinə etdiyimiz köməyi sadalamaq, özümüzü təbliğ etmək niyyətindən uzağıq. Bu dar gündə əlimizdən nə gəlibsə, əsirgəməməliyik doğmalarımızdan. Çalışmışıq ki, hər bir şəhid ailəsini ziyarət edib, onların dərdlərini az da olsa yüngülləşdirək və bir də şəhidlərimizin adlarının əbədiləşdirilməsini istəmişik. Bu yolda axıra qədər çalışmağa Allahın köməyi ilə özümüzdə güc, qüvvə tapacağıq.



Bu gün Cəbrayılın ayrı-ayrı məktəblərində oxuyan ən istedadlı şagird balalarımız üçün Milli Qəhrəmanlarımız Şikar Aslanov, Kazım Məmmədov, Vüqar Hüseynov, Mətləb Quliyev adına 22 təqaüd təsis etmişik. İstədiyimiz budur ki, parta arxasında əyləşən balalarımız doğma Vətəni, Ulu torpağı qeyrət qalası olan şəhid oğullarımız kimi sevə, göz bəbəyi kimi qoruya bilsinlər. Bu ilin əvvəllərində Cəbrayıl şəhidlərinin ruhunu əbədiləşdirmək üçün kitab nəşr etdirmək niyyətində olduğumuzu şəhid ailələrinə bildirəndə eşitdik ki, rayonda yaşayan şair İsmayıl İmanzadə və tarix-diyarşünaslıq muzeyinin direktoru Tarıyel Abbaslı artıq bu işə xeyli vaxtdır ki, başlayıblar. İşimiz, amalımız üst-üst düşdüyündən istedadlı qələm dostlarımıza xeyir-dua verib, uğur dilədik. Və bu xeyirxah işdə hər cür yardımçı olacağımıza söz verdik. Artıq «Torpağın qanlı köynəyi» adlı bu kitab qarşımızdadır. Səksənə yaxın şəhid-oğul, qızlarımız bizə boylanır şəkillərindən, öz ağılarından. Yaşasaydılar oğuz elimizin sabahıydı onlar. Torpağı sevdiklərindən şəhid oldular. Kitabdakı hər yazı bir şəhid ağısıdır. Bu yazılarda Vətən torpağı şəhid oğullarımızı qanlı köynək kimi bağrına basıb ağı deyir, icin-icin ağlayır. Dərdlərimiz, əməllərimiz birləşdirir bizi bu kitabda. Birləşirik ki, namərd düşmənin qarşısında alınmaz qala kimi dayanaq. İnşallah, qovuşmağımız qələbə günümüzə uzanan yol «Torpağın qanlı köynəyi»ndən keçib gedir. Ana torpaq bizi özünün qanlı köynəyindən keçirə-keçirə doğmalaşdırır...

Mən bu kitabı oxuya-oxuya dərdimizin böyüdüyünü bir daha duyub yaşadım. Böyük xalqın yaşamaq amalı da, dərdi də böyük olur, - deyiblər. Gün o gün olsun ki, ümman sevincimizə qovuşaq...

***Rafiq Quliyev***
***«Xudafərin» cəmiyyətinin sədri,***
***hüquq elmləri namizədi, dosent,***
***BDU-nun hüquq fakültəsinin dekan müavini***
***1994-cü il***

# QƏHRƏMANLIQ HAQQINDA HEKAYƏT

Əsas qayəsini Vətən, torpaq sevgisi təşkil edən, lazım gələndə onun yolunda canını əsirgəməyən mərd oğullarımızın hünəri, igidliyi böyük məhəbbətlə, vətəndaş qeyrəti ilə lakonik bir dildə əks olunaraq ərsəyə gətirilmiş "Cəbrayıl şəhidləri" kitabı hər birimizin qəlbini ovundurub ürəyinə toxtaqlıq verməklə yanaşı gənclərimizin hərbivətənpərvərlik tərbiyəsində və bpppaqlarımızın mudafıəsi uğrunda hazır olmaları istiqamətində əvəzsiz rolu inkar edilməzdir.

Kitabı oxuduqca gözlərimiz önündə yaralanmış torpaqlarımızın qisasını almaq uğrunda aparılan ölüm-dirim mübarizəsinin dəhşətli mənzərəsi canlanır. Qəhrəman əsgərlərinin qorxmazlığı, şücaəti adamda daxili bir qürur hissi oyatsa da, hələ həyatdan əməlli-başlı kam dadmayan. köksləriндə gəzdirdikləri şirin arzulara çatmadan omür yolları yarımçıq qırılmış şəhid balalarımızın vaxtsız əbədiyyətə qovuşmalarına heyfslənməyə bilmirsən.

Hər sətrinə müəlliflərin qəlblərinin göynərtisi ürəklərinin qanı hopmuş kitabı həyəcansız oxumaq mümkim deyil. Onu vərəqlədikcə adamı dəhşət bürüyür, inanmaq istəmirsən ki, tarixin sərt Sınaqlarından həmişə başıuca, üzüağ çıxan ulu Cəbrayıl torpağı altı ildir erməni təcavüzkarlığının işğalına mə'ruz qalıb, Axı necə də inanasan? Məgər hər daşı, qayası, hər evi, məktəbli çantasını silahla əvəz edərək əfsanəvi qəhrəmanlıq göstərən 11 yaşlı Samirləri, əsir düşməmək üçün qumbaraya əl ataraq düşmənlərb bərabər özünü də məhv edən Cabbarları, ən ağır işgəncələrə dəyanətlə dözərək erməni cəlladları qarşısında baş əyməyən, Vətənin namusunu ölümdən üstün tutaraq varlığımızın simvolu kimi bayrağımızı öpüb gözünün üstünə qoymaqla düşmənin özünü də heyrətə salan İlqarları, ulu babalarının mətanətini, igidliyini, dönməzliyini özündə yaşadan Muradları, Şakirləri, Faiqləri və yüzlərlə ürəyi təpərli qəhrəman oğulları olan bir torpaq heç erməni faşistlərinin qanlı caynağına keçə bilərdimi?! Artıq bütün dünyaya səs salan məlum həqiqətlər bir daha xatırladılır, başımıza gətirilən faciənin səbəbkarları lənətlə damğalanaraq oxucuya təqdim olunur. Zəngin sərvətə malik Azərbaycana zəhərli dişlərin qıcanması, imperiyapərəst qüvvələrin onu yenidən kölə vəziyyətinə salmaq istəyi ərazimizin bir hissəsinin itirilməsinin əsas səbəbi kimi kitabda öz əksini tapmışdır.

Əsərdə ermənilərin hec bir günahı olmayan dinc əhalini, qocaları, uşaqları, qadınları atəşə tutaraq qəddarcasına məhv etmələri ürək ağrısı ilə verilərək faşist xislətli Milli düşmənlərimizin insanlıqla bir araya sığmayan iyrənc əməllərinə qarşı oxucuda dərin nifrət hissi oyadır. Bizi xalqımızın sonrakı taleyi barədə düşünməyə, bədnam düşmənlərimizin bəd niyyətbrinin puça çıxması üçün daha sayıq olmağa çağırır.



Bu kitab təkcə şəhidlərimiz haqqında qələmə alınan qəhrəmanlıq dastanı deyil, o həm də tarixin şəhidlik ağrısı yazılmış bütöv ellərimizin, yandırılmalı evlərimizin, qiyməti heç nə ilə ölçüyə gəlməyən, qədim tarixə malik maddi və mədəniyyət abidələrimizin harayından söhbət açan, habelə quduzlaşmış ermənilərin məmləkətimizi yer üzündən silmək kimi azğın məqsədlərini ürək ağrısı ib, daxilən qovrula-qovrula təsvir edən bir tarixi sənəddir.

Kitabın iki bölümdə "Torpağın qanlı köynəyi" və "Qəm leysanı" adlandırılması tamamilə məzmuna uyğun səslənir. Çünki neçə illərdir ki, başımız üstündə fırlanaraq Milli varlığımızı təhlükə altına alan qara kabus yurdumuzu qan leysanına bürüyüb. Ancaq təsəllimiz onadır ki, belə leysanlar uzun çəkə bilməz və biz inanırıq ki, yaxın vaxtlarda səmamız üzərindən qara buludlar yox olacaq. O zaman şəhid balasının qəbri üstünə bir ovuc Vətən torpağı atmaq üçün əlləri havada uzalı qalan ağ saçlı ananın, gözünün ağı-qarası itkin düşmüş yeganə oğlunun intizarından qəddi kaman kimi əyilmiş ixtiyarın, gözbri üzünü görmədikləri şəhid atalarının yollarına dikilmiş körpə fıdanlarımızın, qardaş həsrəti ib gecə-gündüz şam tək əriyən bacıların göybrə bübnd olan nablərinin intiqamı alınar. Əks təqdirdə qəzəbindon qəbri çat-çat olmuş babalarm, şəhidlərimizin başımız üste narahat-narahat dolanan nigaran ruhları bizi bağışlmaz.

Ümumiyyətlə, şəhidlər üçün bir kəlmə söz söyləmək də savabdır deyən İ.İmanzadə və T.Abbaslı böyük zəhmət bahasına çox nəcib və xeyirxah bir iş görərək yurdu yaşatmadf üçün canlarından keçən şöhid oğullarımız haqqında gəbcək nəsillərə nümunə ola biləcək bir qəhrəmanlıq abidəsi ucaltmışlar.

Qələmləri ilə xeyirxah iş görən müəlliflərin fıkrinə şərik çıxır, onların sözlərinə bircə onu əlavə etmək istəyirik ki, şəhidlərimizin yolunda az-çox zəhməti olan hər kəs böyük ehtirama layiqdir və belələrinin adlarını yeri gəldikcə xatırlamamaq mümkün deyil. Burada köçkünlüyün ağrılı-acılı günləri yada düşür. Didərginliyin ilk günlərində şəhidlərimizi yerlərdə 03 doğmaları kimi hörmətlə dəfn edən, onların ruhuna dua oxuyan, ehsan verilməsinə köməklik göstərən insanlarm yaxşılıqlarını cəbrayıllılar heç vaxt unutmayacaq, həmişə minnətdarlıq hissi ilə xatırlayacaqlar.

Köçkünlərimizin məskunlaşdıqları ərazini ev-ev gəzərək yuxusuz gecələr hesabına şəhidbrimizin keçdikləri həyat və döyüş yolları haqqında faktlar toplayan müəlliflərə, dəyərli köməklik göstərən icra hakimiyyətinin əməkdaşlarına, ərazi nümayəndəliklərinə, kitabın sponsorlarına, ümumiyyətlə, onun işıq üzü görməsində əməyi olanların hamısına.

***Kərəm Əliyev***
***İqtisad elmləri üzrə fəlsəfə doktoru.***





## KİMİN QARĞIŞINA GƏLDİ BU TORPAQ...

Bu torpağı kimin qarğışı tutdu, ilahi? Ərən oğullarımızın Tomris qeyrətli qızlarımızın nə idi günahı? Niyə tarixin dərslərini bele tez unuduruq? Babəki xəyanət toruna salan Sumbatın Zori Balayan, Sero Xanzadyan, Silvan Kapitykyan, Yervand Qəhrəmanyan adlı nəvələrinin fitnə-fəsadlarını niyə vaxtında görə bilməmişdik? Birinci Pyotrun vəsiyyətnaməsini oxuyandan sonra niyə qəflət yuxusundan ayılıb özümüzə bir gün ağlamadıq? Gülüstan-Türkmənçay bağlaşmalarında bu yurdun taleyini kimlər idi həll edən? Harda qalmışdılar, niyə dinmirdilər ağı qaradan seçməyi bacaran ağsaqqallarımız o vaxtlar. Qriboyedovun xeyir-duasıyla durnagözlü, şah vüqarlı torpaqlarımızda İrandan-Turandan gələn o qaraçı köçünə yer-yurd verəndə niyə Ərdəbildə məzarı od tutub yanan Xətainin harayını, hayını eşitmədik! Göyçədə, Zəngəzurda ulu yurd yerlərimizin adları dəyişdiriləndə harda qalmışdıq? 1918-ci ildə Bakıda, Şamaxıda, Naxçıvanda, Zəngəzurda minlərlə azəri türkünün qanını axıdan şaumyanlara. mikoyanlara mədhiyyələr yazmağa əlimiz necə var gəldi? Niyə yaddaşımız korlaşdı, dostu-düşməndən seçə bilmədik illər uzunu? Xankəndinə Stepanakert, Ağdərəyə Mardakert, Xocavəndə Martuni… deyə-deyə qondarma «Beynəlmiləl» havasına züy tutduq. Andranik nəvələri ocağımızın başında gəlin olandan qanımız it qanına calandı. Axçiləri yarlı-yaraşıqlılarını biqeyrət başçılarımız özlərinə katibə-məşuqə edəndə başladı bu yurdun faciəsi. Ermənilər Göyçədə, Zəngibasarda, Dərələyəzdə, Qafanda, Mehridə… soydaşlarımızı ulu yurd yerlərindən qovub çıxaranda biz xalqımızı səbrə-təmkinə çağırdıq. Əli Moskvanın ətəyində ola-ola fil yuxusuna gedən manqurd başçılarımızın qulağına yurd yerlərimizin, ana-bacılarımızın harayı yetişmədi. 20 yanvar müsibəti də ayıltmadı bu riyakar vəzifə düşgünlərini…

Torpaqlarımızın müdafiəsinə ilk dəfə qalxan da elə xalqımızın say-seçmə oğulları oldu. Sədərəkdən Gədəbəyə, Qubadlıdan Laçına, Kəlbəcərə, Zingilandan Füzuliyə, Ağdama ordan Tərtərə, Ağdərəyə… kimi uzanan yaralı torpaqlarımızın harayına yetişən mərd oğullarımızın sırasına Cəbrayıllı igidlər də qoşuldular ilk gündən. Oğuz elimizin Xudafərin, Tumas ata, Qaladağı, Gəyən, Arazbarı səmtindən olan cavanlarımız si-

nələrini torpağa sipər etdilər. Onların cərgəsindən şəhidlik zirvəsinə ucalanlar torpaq uğrunda, Vətən yolunda ölməyi özlərinə şərəf bildilər. «Torpağın qanlı köynəyi» şəhid oğullarımız məzar-məzar səpildilər oğuz elimiz Azərbaycana. Bu oğulların yurd sevgisini, Vətən məhəbbətini, ömür istəyini, şəhidlik hünərini qələmə alıb, ərməğan veririk oxucularımıza. «Torpağın qanlı köynəyi» və «Qəm leysanı» içimizdəki göynərtidir, nakam oğullarımızın səsi ünudür, qələbə istəyimizdir, ana-bacılarımızın ağısıdır: bundan sonra dərdlərimizə tablaşa-tablaşa ona öyrəşək gərək. Yadımızda saxlayaq ki, Məhəmməd Peyğəmbər özü demişkən: «Millətimizin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz»…

Və bir də unutmayaq ki; «Zülmün topu var, gülləsi var, qələsi varsa – haqqın da bükülməz qolu, dönməz üzü vardır». Haqq yolunda qurban gedən şəhidlərimizə Allah rəhmət eyləsin! Haqq yolunda sinələrini torpağa sipər eyləyən igidlərimizə Tanrı özü yar olsun!



## AĞRILI QAN YADDAŞI

***(1993-cü il)***

| | |
|---|---|
| Ərazisi | 1050 km$^2$ |
| Əhalisi | 54 430 nəfər |
| Əhalisinin tərkibi: | |
| Kişilər | 26 580 nəfər |
| Qadınlar | 27 850 nəfər |
| Peşə məktəbi | 1 |
| Ümumitəhsil məktəbi | 72 |
| Xəstəxanalar | 8 |
| Tarixi abidələr | 132 |
| Mədəniyyət ocaqları | 149 |

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 83082

# YÜZ İLLƏRİN YADDAŞI

Cəbrayıl Azərbaycanın zəngin tarixə malik, istiqanlı, mərd insanları və bənzərsiz təbiəti ilə seçilən bölgələrindən biridir. Bu gün igid oğulları şəhidlik zirvəsinə yüksələn Cəbrayıl barədə nə bilirik?

Cəbrayıl adlı tarixi şəxsin 8-12-ci əsrlərdə Elxanilər, Cəlayirilər, yaxud da Ağqoyunlular zamanında, Sultan Əhməd adında üç hökmdardan birinin hakimiyyəti illərində yaşaması elmə məlumdur.

Eyni adlı məqbərə Cəbrayıl adlı şəxsin böyük nüfuz sahibi olduğunu göstərir. Buna görə də o, dövrün adətinə uyğun olaraq, ona məxsus torpaqların yuxarı başında, Alıpaşa dağının hündür və tamaşalı bir yerində ayrıca dəfn edilmişdir.

Cəbrayıllı tayfası haqqında məlumatlara A.Bakıxanovun, Mirzə Həsən Əfəndinin əsərlərində, 19-cu əsrdə yazılmış bir çox kitab və rəsmi dövlət sənədlərində, habelə sovet dövrü alimlərinin tədqiqatlarında rast gəlinir. Belə görünür ki, Cəbrayıl hələ öz sağlığında «ata» kimi tanınan el ağsaqqalı olduğu kimi, onun övladları da öz dövrünün sayılan adamları olmuşlar. S.Onullahi 15-17-ci əsrlərdə Qarabağ əhalisini təşkil edən məşhur Şahsevən, Cavanşir, Əfşar və s. tayfalarla yanaşı Cəbrayıllı tayfasının adını çəkmişdir. Cəbrayıllı tayfası və bu tayfaya daxil olmayan kəndlərin əhalisi Azərbaycanda yaranmış siyasi vəziyyətlə əlaqədar olaraq 15-ci əsrdə Qaraqoyunlu və Ağqoyunlu, 16-17-ci əsrlərdə qızılbaşlar və şahsevənlər, 18-ci əsrdə əfşar, nəhayət Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil idilər. Ona görə də 19-cu əsr müəllifi D.Zubarev və ona əsaslanan bəzi tədqiqatçılar cəbrayıllıları gah Cavanşir, gah da Əfşar tayfasının bir tirəsi, 1878-ci ildə Londonda türkcə nəşr edilmiş bir topluda isə Şahsevənlərin bir qolu kimi göstərmişlər. 19-cu əsrin 30-cu illərindən sonrakı yazılı mənbələrdə və rəsmi dövlət sənədlərində Cəbrayıllı tayfasının adına rast gəlinmir.

Cəbrayıl torpaqları e.ə. 7-ci əsrdə Mil düzündən başlayaraq Urmiyə gölünün şimalınadək ərazilərdə mövcud olmuş çarlığın, e.ə. 7-6-cı əsrlərdə Midiya dövlətinin və Əhəməni imperiyasının, e.ə. 4-3- cü əsrlərdən isə Qafqaz Albaniyasının tərkibində olmuşdur. O dövrlərdə Cəbrayıl əraziləri Pazkang, sonralar isə Əhristan və nəhayət, Dizaq adlanan mahalın tərkibinə daxil idi. Əhristan mahalı Qarabağın, o cümlədən, Cəbrayılın dağətəyi ərazilərini və Mil düzünün bir hissəsini, Dizaq mahalı isə Quruçay (Füzuli), Araz və Həkəri (Qubadlı) çayları arasındakı zonanı və Cəbrayılın Araz-



boyu hissəsini əhatə edirdi. Diri dağının adı Şumer-türk sözü olan diri, dirilik, həyat mə'nalarını verən tir, tar, tiri səzlərindən yaranmışdır. Diri sözünü Qafqaz Albaniyasının bir əyalətinin adı kimi alban tarixçisi Musa Kalanqatlı da (7-8-ci əsrlər) işlətmişdir. Diri dağı səmtində olan Tiri kəndinin (Zəngilan) adı da diri, tiri səzlərindən əmələ gəlmişdir.

4-7-ci və 11-12 əsrlərdə Azərbaycana gələn çoxlu türk tayfalarının əksəriyyəti əsasən Aran əyalətində, Kür-Araz ovalığında yerləşmişdilər. Onlar yerli türk tayfaları ilə qaynayıb-qarışdı. Professor T.Hacıyevin verdiyi məlumata görə, Cəbrayıl şivələrində süzmə, tuşax, dağar, surquşlamaq və s. sözlər o dövrdə gəlmə türk tayfalarından qalma sözlərdir. Bu sözlərin bəziləri Azərbaycanın başqa regionlarında da işlənir.

1502-ci ildə görkəmli sərkərdə və siyasi xadim 1 Şah İsmayılın başçılığı altında Səfəvilər dövləti yarandı. Cəbrayıl ərazilərinin daxil olduğu Dizaq mahalı mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinə daxil edildi. 16-cı əsrin 40-cı illərindən 1 Şah İsmayılın oğlu 1 Şah Təhmasib əsli Qacar tayfasından olan Şahverdi Ziyad oğlunu Qarabağın ilk bəylərbəyisi təyin etdi və bundan sonra bəylərbəyi vəzifəsi Ziyadoğullarının əlində oldu. Xudafərin körpülərinə qədər bütün torpaqlar Ziyadoğullarına məxsus idi. Azərbaycan Səfəvi dövləti yarandıqdan sonra məhsuldar qüvvələr inkişaf etməyə başladı. 16-cı əsrin 30-50-ci illərindən etibarən Qarabağ İranla Türkiyə arasında döyüş meydanına çevrildi. Səfəvi hökmdarı I Şah Abbas Türkiyənin hücumları üçün şərait olmasın deyə Arazboyu ərazilərdə yaşayan əhalinin çox hissəsini İranın mərkəzi əyalətlərinə köçürdü. Qarabağda, o cümlədən, Cəbrayılda Əhmədli tayfasına məxsus olan Şahvəlli, Qalacıq, Hacı İsmayıllı, Gödəklər, Quşçular və s. kəndlərin camaatı və Çaxırlı tayfası doğma yurdlarını tərk etməkdən boyun qaçırıb inadlı müqavimət göstərdilər. Şahın əmri ilə onların çoxu məhv edildi, qalanları isə 1 Şah Abbası müdafiə edən şahsevənlərin tərəfinə keçməyə məcbur oldular.

1747-ci ildə Nadir şah xaincəsinə öldürüldükdən sonra Azərbaycanda ayrı-ayrı feodal dövlətlər - Qarabağ, Naxçıvan, Şəki, Şirvan, Quba və s. xanlıqlar yarandı.

Qarabağ xanlığı Naxçıvandan Araz və Kür çaylarının qovuşduğu yerə, Kürəkçaydan (Gəncə) Tərtər çayına, oradan da Göyçə gölünə qədər əraziləri, Zəngəzur və Sisiyan mahallarının bir hissəsini əhatə edirdi. Cəbrayılın ərazisi də Qarabağ xanlığına daxil idi.

Qarabağ xanlığının ərazisi 22 inzibati vahidə - mahala bölünmüşdü. Cəbrayılın əraziləri Xırdapara-Dizaq, Dizaq-Cavanşir, Xudafərin və Çovundur (İranda indi də Oxçu çayına Çovundur deyilir) mahallarına daxil

idi. Xırdapara-Dizaq mahalı Hadrut kəndindən Şəybəy, Nüzgar kəndlərinə qədər əraziləri əhatə edirdi. Dizaq-Cavanşir mahalına Horadiz-Maralyan-Soltanlı kəndləri istiqamətində olan ərazilər, Xudafərin mahalına Dağtumas-Sirik kəndləri və Diri dağı zonası, Çovundur mahalına isə Diri dağından Oxçu çayına qədər ərazilər daxil idi.

Təəssüf ki, Azərbaycan xanlıqları arasında birlik yox idi, bəziləri arasında hətta düşmənçilik də var idi. Bundan istifadə edən Rusiya Şimali Azərbaycanı öz hakimiyyəti altına almağa çalışırdı. Bu zaman İran hökmdarı Ağa Məhəmməd şah Qacar Rusiyanın bu niyyətinə qarşı çıxdı.

Hələ 1802-ci ildə Rusiyanın Qarabağa yeritdiyi qoşunun bir hissəsinin qərargahı Çərəkənçayın (Füzuli rayonu) sahilində, ön dəstələri Qarğabazar-Daşkəsən-Cəbrayıl-Soltanlı-Xudafərin istiqamətində yerləşdirilmişdi. Diri dağında müşahidə məntəqəsi yaradılmış, Cəbrayıl və Yarəhmədli kəndləri arasındakı təpəlikdə hərbi şəhərcik salınmışdı. Bu zaman bütün Qarabağda olduğu kimi Cəbrayılda da bəziləri İrana, bəziləri də Rusiyaya meyl edirdi.

Rusiya-İran müharibələrinin gedişi dövründə İran ordusu kiçik həmlələr istisna olmaqla doqquz dəfə Xudafərin körpüləri, üç dəfə Soltanlı-Maşanlı-Alıkeyxalı, üç dəfə də Maralyan istiqamətində Arazı keçib Cəbrayıl ərazilərindən Qarabağa girmiş, irimiqyaslı hərbi əməliyyatlar aparmışdılar. Ona görə də Cəbrayıl əraziləri əsas qanlı döyüş meydanlarından birinə çevrilmişdi.

1828-ci ildə Türkmənçay sülh müqaviləsinə əsasən sərhəd xəttini müəyyən etmək üçün Xudafərin körpülərinin yaxınlığında rus komandanlığının nümayəndələri ilə Abbas Mirzə arasında görüş oldu. Bu görüşdə müəyyən edildi ki, Qarabağla İran arasında keçid ancaq Xudafərin körpüsü olacaq. Çar hökuməti ölkənin ayrı-ayrı əyalətləri arasında əlaqələr yaratmaq pərdəsi altında 1822-ci ildə Qarabağ xanlığını ləğv edib əyalətə çevirdi. Qarabağ əyaləti Şəki, Şirvan və Talış əyalətləri ilə birlikdə mərkəzi Şuşada yerləşən müsəlman əyalətləri rəisinə tabe edildi. Əyaləti Qafqaz baş komandanı tərəfindən təyin olunan rus zabiti-komendantı idarə edirdi. Qarabağ əyalətinin keçmişdəki kimi mahallara bölünməsi saxlandı.

Rus hərbçiləri də çox haqsızlıqlara yol verirdilər. Onlar 1804-1813-cü illərin hərbi əməliyyatlarında fəal iştirak etmiş cəbrayıllı tayfasının başçısı Cəfərqulu ağanı 1822-ci ildə ailəsi ilə birlikdə Simbirsk şəhərinə sürgün etdilər ki, bu da yerli əhalinin böyük narazılığına səbəb oldu. 1824-cü ildə Cəfərqulu ağa keçmiş xidmətləri nəzərə alınaraq Peterburqa göndərildi, ona general-mayor rütbəsi verildi. Çar hökuməti gələcəkdə yerli bəylərdən



özünə dayaq yaratmaq məqsədilə Cəfərqulu xanın oğlanlarını hərbi qulluğa götürdü.

19-cu əsrin 30-40-cı illərində Cəbrayıl ərazilərində dənli bitkilər əkini və heyvavdarlıq inkişaf edirdi. Türkmənçay sülhünə baxmayaraq İranla sərhəd bağlanmamışdı. Ticarətdə canlanma nəzərə çarpırdı. İsfahandan pambıq, ipək, parça, çadra, istiot, sarıkök, İran qəndi, Təbrizdən bez, qanovuz, portağal, parça, saqqız və s. gətirilirdi. Xudafərin körpüləri vasitəsilə İrana Şəkidən silah, Gəncədən meyvə, Cəbrayıldan xalça məmulatı aparılırdı. Xarici ticarətə nəzarət etmək üçün hələ əvvəllərdə Xudafərində fəaliyyət göstərən gömrükxana yenidən təşkil edilərək 1831-ci ildə Cəbrayıl gömrük kontoruna çevrildi.

1841-ci ildə Qarabağ əyaləti, o cümlədən, Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə yeni yaradılan Şuşa qəzasının tabeliyinə verildi. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tabeliyindən çıxarılıb Yelizavetpol (Gəncə) quberniyasının tərkibində müstəqil Cəbrayıl qəzası təşkil edildi. Şuşa qəzasının ərazisi böyük olduğundan qəza idarələri yerlərlə, xüsusilə Cəbrayılın Arazboyu məntəqələri ilə əlaqə saxlaya bilmirdi. Cəbrayıl kəndi strateji cəhətdən çox mühüm yerdə olduğundan rus hərbi qarnizonu hələ 1802-ci ildə burada hərbi şəhərcik salmışdı.

Cəbrayıl qəzasının sahəsi 6.63 min kv. km, əhalisi 66,360 min idi (1897-ci il). Qəza indiki Cəbrayıl, Füzuli, Hadrut rayonlarını, Qubadlı rayonunun Xanlıq kəndindən Araza və oradan da Zəngilan rayonunun Bartaz kəndinə qədər əraziləri əhatə edirdi. Qəzanı Yelizavetpol qubernatoru tərəfindən təyin edilmiş rəis-rus zabiti idarə edirdi.

Qəza Cəbrayıl, Horadiz və Bəhmənli polis məntəqələrinə bölünmüşdü. Sonralar Bartaz kəndləri olan zonalarda da dairələr təşkil edildi. Polis məntəqələrini qəza rəisinin təyin etdiyi pristavlar, kəndləri isə yüzbaşılar, kəndxudalar və bəylər idarə edirdilər. 1887- ci ildə Cəbrayıl-Ağdam poçt yolu salındı.

Cəbrayıl əraziləri vasitəsilə karvan yolları hələ qədim zamanlardan var idi. 18-ci əsrdə Şamaxı-Cavad-Xudafərin, İran-Böyük Maralyan-Cəbrayıl, Böyük Maralyan-Meşkin-Dori-Təbriz və Xudafərin-Böyük Maralyan-Cəbrayıl karvan yolları fəaliyyət göstərirdi. 19-cu əsrdə isə əsas karvan yolları Şuşa-Ağdam-Qarabulaq-Cəbrayıl yolu idi. Təbriz-Cəbrayıl karvan yolu daha işlək idi. İranla Qarabağ arasında digər bir karvan yolu da Böyük Maralyan kəndindən keçir və Cəbrayıla yollanırdı.

1905-ci ildə Kürəkçay sazişinin 100 illiyi ilə əlaqədar olaraq çar fər-

manı ilə Qarabulaq kəndinin adı dəyişdirilərək ona rus-İran müharibəsinin fəal iştirakçısı, rus polkovniki Qaryaginin adı verildi. Qəzanın mərkəzi Cəbrayıldan Qaryaginə köçürüldü, qəza Qaryagin qəzası adlandırıldı.

1918-ci il mayın 28-də Gəncədə Azərbaycan Milli Şurası Azərbaycan Demokratik Respublikası yaradılmasını elan etdi. Bu yeni quruluş bütün islam aləmində xalqın ilk respublika üsul idarəsinə qədəm qoyan, Azərbaycanın Rusiyadan və başqa ölkələrdən asılı olmayan müstəqil hakimiyyəti idi.

Cəbrayıllılar Azərbaycan Respublikasının yaradılması xəbərini böyük sevinclə qarşıladılar. Müsavatçılar Balyand, Süleymanlı, Soltanlı, Cəbrayıl və s. kəndlərdə iclaslar keçirib yeni hökumətin məqsəd və vəzifələrini xalqa izah edirdilər. Gənclərdən bir çoxu Azərbaycan Demokratik Respublikasının yeni yaratmağa başladığı milli orduda könüllü xidmətə getməyə başladılar. 1918-ci ilin dekabrında Azərbaycan Demokratik hökumətinin qərarı ilə çarizm müstəmləkə siyasətinin rəmzi olan Qaryagin qəzasının adı dəyişdirilib əvvəlki kimi yenə də Cəbrayıl qəzası, Qaryagin kəndinin adı Qarabulaq adlandırıldı. 1918-ci ildə Cəbrayıl qəzası 12 Azərbaycan türkü icmasından, 3 erməni icmasından (indiki mənada kənd sovetindən) ibarət idi. Cəbrayıl qəzası 1929-cu ildə ləğv edildi və 1930-cu ildə qəzanın altıda bir hissəsində Cəbrayıl rayonu təşkil edildi.

## DAĞLAR... DAĞ KİMİ İNSANLAR!

Cəbrayıl rayonu kiçik Qafqaz dağlarının cənubi şərqində yerləşir, cənub tərəfdən İran İslam Respublikası, cənubi qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Rayonun ərazisi 1050 kv.km və yaxud 105 min hektardır. Ərazinin 58676 hektarı kənd təsərrüfatına, o cümlədən 19175 hektarı əkinə yararlıdır. Əhalinin sayı rayon işğal olunanadək 52604, hazırda isə (1998-ci il) 54430 nəfərdir. Rayon 1 şəhər və 90 kəndi əhatə edirdi.

Cəbrayıl torpağı ən qədim geoloji dövrün məhsuludur. Burada qədim insanların yaşamaları üçün əlverişli şərait olmuş, münbit torpaq, təbii sərvətlər insanları özünə cəlb etmişdir.

Yeraltı və yerüstü sərvətlərlə zəngin olan bu diyar maddi və mədəni abidələrlə də məşhurdur. Dağ Tumas kəndi yaxınlığındakı «Divlər sarayı» mağarası əhəng dövrünə aid edilir. O, Azıx mağarası tipindədir. Qalacıq kəndi yaxınlığındakı «Məscid təpəsi», Mahmudlu kəndi yaxınlığındakı «Canqulu» və «Qumtəpə» kurqanları tunc dövrünün yadigarlarıdır. Tatar



kəndi yaxınlığındakı Siklop tikintisi, Şıxlar kəndi yaxınlığında «Şəhərcik», «Qışlaq yeri», «Mazan nənə», «Mərmər nənə», «Ağ oğlan», 'Tumas ata» qədim arxeoloji abidələrdir.

Rayonun ərazisi başdan-başa memarlıq abidələri ilə zəngindir. Xubyarlı kəndindəki Səkkizguşəli türbə, Dairəvi türbə, Şıxlar kəndindəki Dairəvi türbə, Dağ Tumas kəndindəki «Başı kəsik» gümbəz, Sirik kəndindəki «Qala», Diri dağındakı «Qız qalası», məşhur Xudafərin körpüləri, Çələbilər kəndindəki məscid kompleksi, rayon mərkəzindəki Soltan Məcid hamamı dediklərimizə əyani sübutdur.

Burada epiqrafik abidələr də az deyil. Ağ oğlan pirindəki daş kitabələri xüsusi ilə qeyd etmək olar. Ümumiyyətlə, rayonun ərazisində 127 maddi və mədəniyyət abidələri, o cümlədən 5 məscid var idi.

Rayonun ərazisi əsasən dağlıqdır. Araz çayı boyunca əkinə yararlı xeyli torpaqlar vardır. Ərazi şimala doğru getdikcə kolluq və meşəliklərlə əhatə olunur.

Rayonun ərazisində sement istehsalı üçün qiymətli xammal sayılan küllü miqdarda vulkan külü yataqları, mərmər və başqa tikinti materialları ehtiyatları, dəmir filizi, hətta, neft yataqlarının olduğu da məlumdur.

Əhali işğaldan əvvəl, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi. Orta hesabla hər il 55-60 min ton üzüm istehsal olunurdu. Rayonda tikiş, xalça, cihazqayırma sexləri, ümumiyyətlə, 8 sənaye obyekti mövcud idi.

Cəbrayıl aşıqların ulu babası sayılan Aşıq Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərimin, Aşıq Humayın vətənidir. Elm, mədəniyyət bu yerlərdə həmişə inkişaf edib. İşğaldan əvvəl rayonda 72 məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 23 daimi, 4 səyyar kino qurğusu fəaliyyət göstərirdi. Rayon tarixdiyarşünaslıq muzeyində 20 min eksponat vardı. Rayon zəhmətkeşlərinə 210 çarpayılıq mərkəzi xəstəxana, Mərcanlı kəndində 60 çarpayılıq, Karxulu kəndində 50 çarpayılıq rayonlararası vərəm dispanseri, Mahmudlu və Soltanlı kəndlərinin hər birində 30 çarpayılıq, Dağ Tumas, Quycaq, Balyand kəndlərinin hər birində 25 çarpayılıq xəstəxana, 11 həkim məntəqəsi, 52 feldşer-mama məntəqəsi əhaliyə xidmət göstərirdi. Həmin müəssisələrdə 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 301 texniki işçi çalışırdı.

Yetişməkdə olan nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Belə ki, 72 ümumtəhsil məktəbində 11846 şakirdin təlim-tərbiyəsi ilə 1600 müəllim məşğul olurdu.

Rayon güclü kadr potensialı, yüksək intellektə malik ziyalıları, gör-

kəmli alimləri ilə respublikamızda özünə ad-san çıxarmışdır. Belə ki, keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki Mehdi Mehdizadənin, Azərbaycan Elmlər Akademiyasının akademiki Əşrəf Hüseynovun, pedaqogika və riyaziyyat elmlərinin inkişafında, elmi kadrların hazırlanmasında əvəzsiz xidmətləri olmuşdur.

Tanınmış yazıçı və şairlərdən xalq yazıçısı Sabir Əhmədlinin, Sərdar Əsədin, Sabir Süleymanovun, Oruc Qüdrətovun, Yasif Nəsirlinin, Vaqif Bayatlı Önərin, İsmayıl İmanzadənin və başqalarının qələmlərindən çıxan əsərlər maraqla qarşılanmışdır.

Alimlərimizdən Tofiq Hacıyevin, Qəzənfər Kazımovun, Hüseyn Hüseynovun, Rafiq Mehdiyevin, Fazil Abbasovun, Aydın Əsgərovun, Kamil Vəliyevin, Nailə Verdizadənin, Oqtay Vəliyevin, Məhəbbət Nəcəfovun, Çingiz Quliyevin, Dərgah Qüdrətovun, İsmayıl Məmmədovun, Cəbrayıl Məmmədovun, Cəfər Süleymanovun, Asif Həsənovun, Telman Hüseynovun, Aydın Şirinovun, Nadir İsmayılovun, Əhliman Həmidovun, Novruz Quliyevin, Bəşir Mirzəyevin, Bəkir Quliyevin, Astan Şahverdiyevin, Hamlet Quliyevin, Nailə Hacıyevanın adları elm aləmində tanınmışdır.

Cəbrayıl rayonu respublikada təhsil sahəsində əldə etdiyi nailiyyətlərlə, yüksək pedaqoji ustalığa malik savadlı müəllimləri ilə də fərqlənirdi. Mərhum Rəşid Məmmədov, Bəhlul Həsənov, Əli Əlizadə, İslam Məmmədov və Hüseyn Əliyev kimi əməkdar müəllimləri ilə cəbrayıllılar həmişə fəxr edirlər.

Halal əmək cəbrayıllıların həyat tərzidir. Əmək qəhrəmanları Bəyaz Həsənovanın, Şahnaz Əhmədovanın, Məhəmməd Əhmədovun, Köçəri Babayevin, Yusif Fərzəliyevin, Qaçay Səfərovun, habelə ikinci dünya müharibəsində Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülən 19 yaşlı Cəmil Əhmədovun adları təkcə Cəbrayılda deyil, onun hüdudlarından çox-çox uzaqlarda məşhur idi.



## ONLAR BU OBALARDAN DÖYÜŞƏ YOLLANDILAR

1. Cəbrayıl şəhəri
2. Yarəhmədli kəndi
3. Xudaverdili kəndi
4. Qurbantəpə kəndi
5. Şahvələdli kəndi
6. Xubyarlı kəndi
7. İmambağı kəndi
8. Horovlu kəndi
9. Çapand kəndi
10. Safarşa kəndi
11. Çərəkən kəndi
12. Papı kəndi
13. Əfəndilər kəndi
14. Balyand kəndi
15. Qaracallı kəndi
16. Doşulu kəndi
17. Süleymanlı kəndi
18. Daşkəsən kəndi
19. Qışlaq kəndi
20. Quycaq kəndi
21. Şəybəy kəndi
22. Nüzgar kəndi
23. Şahvəlli kəndi
24. Niyazqulular kəndi
25. Göyərçin Veysəlli kəndi
26. Tinli kəndi
27. Qovşudlu kəndi
28. Hacı İsaqlı kəndi
29. Qoşabulaq kəndi
30. Şükürbəyli kəndi
31. Şıxalıağalı kəndi
32. Stansı Mahmudlu
33. Fuğanlı kəndi
34. Dəcəl kəndi
35. Əmirvarlı kəndi
36. Sarıcallı kəndi
37. Məzrə kəndi
38. Yuxarı Məzrə kəndi
39. Soltanlı kəndi
40. Yanarxac kəndi
41. Alıkeyxalı kəndi
42. Maşanlı kəndi
43. Hasanlı kəndi
44. Böyük Mərcanlı kəndi
45. Mehdili kəndi
46. Çaxırlı kəndi
47. Cocuq Mərcanlı kəndi
48. Minbaşılı kəndi
49. Sədi kəndi
50. Ağ təpə kəndi
51. Daş Veysəlli kəndi
52. Kavdar kəndi
53. Mirək kəndi
54. Hüseynalılar kəndi
55. Hacılı kəndi
56. Tulus kəndi
57. Küfülyataq kəndi
58. Dağ Tumas kəndi
59. Qaraağac kəndi
60. Sofulu kəndi
61. Çələbilər kəndi
62. Dağ Maşanlı kəndi
63. Çullu kəndi
64. Qazanzəmi kəndi
65. Söyüdlü kəndi
66. Xanağabulaq kəndi
67. Maralyan kəndi
68. Karxulu kəndi
69. Mahmudlu kəndi
70. Cəfərabad kəndi
71. İsaqlı kəndi
72. Qalacıq kəndi

73. Hovuslu kəndi
74. Sirik kəndi
75. Aşağı Sirik-Sutökülən kəndi
76. Şıxlar kəndi
77. Mollahəsənli kəndi
78. Əsgərxanlı kəndi
79. Xələfli kəndi
80. Qərər kəndi
81. Kürdlər kəndi
82. Nüsüs kəndi
83. Tatar kəndi
84. Qumlaq kəndi
85. Məstəlibəyli kəndi
86. Stansı Qumlaq
87. Dərzili kəndi
88. Xudafərin kəndi
89. Stansı Xələfli kəndi
90. Niftalılar kəndi

**Qanlı xronika:**
**1991-ci il**

23 FEVRAL - Nüsüs kəndi atəşə tutulur.
– Qışlaq kəndi və postu atəşə tutulur.
– Qışlaq və Süleymanlı kəndləri atəşə tutulur, bir nəfər yaralanır.
– Qışlaq kəndinə hücum edilir, bir nəfər yaralanır.
17-18 MART - Qışlaq və Süleymanlı kəndləri atəşə tutulur, sonra isə hücuma məruz qalır.
– Doşulu, Quşçular kəndləri atəşə tutulur.
22 MART - Sur kəndi atəşə tutulur.
25- 26 MART - Suleymanlı və Qışlaq kəndləri ara-sıra atəşə tutulur.
27 MART - Qışlaq və Süleymanlı kəndləri atəşə tutulur.
28 MART - Dolanlar kəndinə gedən «KamAZ» maşını partladılır, iki nəfər həlak olur, bir nəfər yaralanır.
– Sirik, Süleymanlı, Qışlaq, Doşulu kəndləri atəşə tutulur. Şıxlar, Tatar, İsaxlı kəndlərinə hücum edilir.
30 MART - Çələbilər, Şıxlar kəndləri atəşə tutulur.
1 APREL - Quşçular, Qaracallı kəndləri atəşə tutulur.
2-5 APREL - Qışlaq, Quşçular, Süleymanlı, Sirik kəndləri atəşə tutulur.



10 APREL - Sirik, Qışlaq, Süleymanlı kəndləri atəşə tutulur. Yuxarı Məzrə kəndindəki post atəşə tutulur, bir nəfər yaralanır.
17 APREL - Doşulu kəndi atəşə tutulur.
20 APREL - Qışlaq və Doşulu postları atəşə tutulur.
– Daşbaşı kəndi atəşə tutulur.
21 APREL - Süleymanlı, Nüsüs, Qışlaq kəndləri atəşə tutulur, bir nəfər yaralanır.
– Daşbaşı, Sirik, Sur kəndləri atəşə tutulur.
28 APREL - Cəbrayıl şəhəri, Süleymanlı kəndi atəşə tutulur.
9 MAY - Süleymanlı, Doşulu, Qışlaq kəndləri atəşə tutulur.
10-11 MAY - Qışlaq və Doşulu postları, Süleymanlı, Qışlaq kəndləri atəşə tutulur.
14 MAY - Qışlaq və Doşulu gözətçi məntəqələri atəşə tutulur.
20 MAY - Qışlaq kəndi atəşə tutulur, bir ev dağıdılır.
– Süleymanlı, Qışlaq, Sirik, Dolanlar kəndləri, Cəbrayıl şəhəri atəşə tutulur. Şəhərdə dağıntı var.
21 AVQUST - Şayaq postuna gedən avtobus partladılır, bir nəfər həlak olur, üç nəfgr yaralanır.
14 SENTYABR - Zamzur kəndi ətrafında Cəbrayıl polisinin UAZ-469 markalı maşını partladılır, iki nəfər polis əməkdaşı həlak olur.
15 NOYABR - Şayaq postu atəşə tutulur və güclü hücuma məruz qalır.
4 nəfər polis işçisi həlak olur, 3 nəfər yaralanır. Şayaq postu ermənilərin əlinə keçir.
– Zamzur kəndi atəşə tutulur və güclü hücuma məruz qalır, 4 nəfər həlak olur, Zamzur kəndi ermənilərin, əlinə keçir.
23 DEKABR - Daşbaşı kəndi güclü hücuma məruz qalır, iki nəfər həlak olur, iki nəfər yaralanır.

**1992-ci il**

1 İYUN - Qışlaq kəndi atəşə tutulur.
13 İYUN - Cəbrayıl şəhəri atəşə tutulur.
16 İYUN - Cəbrayıl şəhəri atəşə tutulur.
– Qışlaq və Sur kəndləri atəşə tutulur.
27-28 İYUN - Azərbaycan Silahlı Qüvvələri tərəfindən Sur əməliyyatı həyata keçirilir. 22 nəfər həlak olur, 50 nəfər yaralanır. Sur kəndi ermənilərdən azad edilir. Şayaq yüksəkliyi uğrunda döyüşlər gedir.

28 İYUN - Cəbrayıl şəhəri atəşə tutulur, çoxlu dağıntı və mülki əhali arasında tələfat var. 30-dan çox adam yaralanır.

1 İYUL Cəbrayıl rayonunda dağ kəndləri atəşə tutulur, tələfat və dağıntı var.

2 İYUL Şayaq kəndi istiqamətində döyüşlər gedir.

3 İYUL - Cəbrayıl şəhəri və bir sıra yaşayış məntəqələri atəşə tutulur. Bir nəfər həlak olur, dağıntılar var.

– Şayaq yüksəkliyi istiqamətindən Sur kəndi atəşə tutulur.

13 İYUL - Sur kəndi atəşə tutulur, bir nəfər yaralanır.

– Sur kəndi atəşə tutulur.

– Qışlaq və Sur kəndləri atəşə tutulur.

17 İYUL - Bir sıra kəndlər atəşə tutulur.

22 iyula keçən gecə - Sur kəndi atəşə tutulur.

29 İYUL - Daşbaşı və Sur kəndləri atəşə tutulur.

30-NƏ KEÇƏN GECƏ, İYUL - Süleymanlı, Sur və Daşbaşı kəndləri atəşə tutulur. Süleymanlıda üç nəfər yaralanır.

3-NA KEÇƏN GECƏ, AVQUST - Sur kəndi atəşə tutulur. Tələfat və dağıntı var.

7-NƏ KEÇƏN GECƏ, AVQUST - Hadrut rayonu ilə həmsərhəd kəndlər atəşə tutulur.

10-NA KEÇƏN GECƏ, AVQUST - Quşçular, Sur, Süleymanlı kəndləri atəşə tutulur, bir nəfər yaralanır.

12-NƏ KEÇƏN GECƏ, AVQUST - Sur kəndindəki post, Sur və Doşulu kəndləri atəşə tutulur.

12 AVQUST - Sur kəndi ətrafındakı postlar, Süleymanlı kəndi atəşə tutulur.

13 AVQUST Cəbrayıl cəbhəsində tank döyüşü olur, itkilər var.

– Rayonun kəndləri atəşə tutulur. Bir nəfər həlak olur, bir nəfər yaralanır.

15 AVQUST - Azərbaycan Silahlı Qüvvələri tərəfindən Şişqaya əməliyyatı keçirilir. 30 nəfərə yaxın adam həlak olur, 100 nəfərə yaxın adam yaralanır.

17-NƏ KEÇƏN GECƏ, AVQUST - Sur kəndindəki post atəşə tutulur.

– Süleymanlı kəndi atəşə tutulur.

20-NƏ KEÇƏN GECƏ, AVQUST - Sur kəndi ətrafındakı postlar atəşə tutulur.

– Sur, Süleymanlı, Qışlaq, Quşçular kəndləri atəşə tutulur.

31 AVQUST - Cəbrayıl şəhəri və Süleymanlı kəndi aramsız atəşə tutulur. 4 nəfər mülki şəxs həlak olur, 30 nəfər yaralanır.



1-NƏ KEÇƏN GECƏ, SENTYABR - Qışlaq və Süleymanlı kəndləri atəşə tutulur.

7 SENTYABR - Qaracallı kəndi atəşə tutulur.

14-NƏ KEÇƏN GECƏ, SENTYABR - Quşçular, Süleymanlı, Qışlaq kəndləri atəşə tutulur.

16-NA KEÇƏN GECƏ, SENTYABR - Azərbaycan Silahlı Qüvvələrinin Sur kəndindəki mövqeləri atəşə tutulur.

23-NƏ KEÇƏN GECƏ, SENTYABR - Şişqaya adlanan strateji yüksəklik istiqamətində əməliyyat davam etdirilir.

23 SENTYABR - hava şəraiti ilə əlaqədar Şişqaya əməliyyatı dayandırılır, iki nəfər yaralanır.

27 SENTYABR - Azərbaycan Respublikasının prezidenti «Füzuli və Cəbrayıl rayonlarında fövqəladə vəziyyət rejimi müddətinin uzadılması haqqında» fərman verir.

29-NA KEÇƏN GECƏ, SENTYABR - Quşçular postu ara-sıra atəşə tutulur.

30-NA KEÇƏN GECƏ, SENTYABR - Sur kəndi yaxınlığında yerləşən müdafiə postları atəşə tutulur.

1 OKTYABR - Cəbrayıl istiqamətindəki postlar atəşə tutulur.

12 OKTYABR - Hadrut rayonu sərhədindəki kəndlər atəşə tutulur.

19 OKTYABR - Cəbrayıl istiqamətində yerləşən Quşçular postu atəşə tutulur.

9 NOYABR - Rayonun yaşayış məntəqələri atəşə tutulur.

13 NOYABR - Rayonun bir sıra postları atəşə tutulur.

22 NOYABR - Cəbrayıl istiqamətində Sur və Dolanlar məntəqələri atəşə tutulur, bir nəfər yaralanır.

24-NƏ KEÇƏN GECƏ, NOYABR - Sur müdafiə postu atəşə tutulur.

7 DEKABR - Sur kəndi atəşə tutulur.

17 DEKABR - Azərbaycan Respublikasının prezidenti «Azərbaycan Respublikasının Cəbrayıl rayonu ərazisində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verir.

**1993-cü il**

6 YANVAR - Sirik kəndindəki post atəşə tutulur.

22 MART - Rayonun bir sıra yaşayış məntəqələri atəşə tutulur.

26-NA KEÇƏN GECƏ, MART - Cəbrayıl istiqamətində müdafiə postları atəşə tutulur.

2 İYUL - Artilleriya hazırlığından sonra düşmən Cəbrayıl istiqamə-

tində hücuma keçir. Sur, Quşçular, Qışlaq, Süleymanlı, Doşulu kəndləri atəşə tutulur. Quşçular kəndi ətrafında ağır döyüşlər gedir.

4-NƏ KEÇƏN GECƏ VƏ 5 İYUL - Rayon mərkəzi, Qışlaq, Süleymanlı, Banazur, Daşbaşı, Mülkədərə, Quşçular və Qaracallı kəndləri atəşə tutulur.

7-NƏ KEÇƏN GECƏ, İYUL - Rayonun kəndləri atəşə tutulur.

8-NƏ KEÇƏN GECƏ, İYUL - Rayonun kəndləri atəşə tutulur.

19-NA KEÇƏN GECƏ, İYUL - Rayonun Quşçular kəndi atəşə tutulur.

22 İYUL - Erməni silahlı qüvvələri Füzuli istiqamətində hücum edərək Cuvarlı, Qoçəhmədli kəndlərini işğal edir və Füzuli-Cəbrayıl magistral yolunu kəsməyə cəhd göstərir.

1-NƏ KEÇƏN GECƏ, 1 AVQUST - Rayonun Quşçular və Sur kəndləri atəşə tutulur.

– Quşçular kəndi atəşə tutulur.

15-NƏ KEÇƏN GECƏ, AVQUST - Cəbrayıl istiqamətində hücuma keçən Ermənistan Silahlı Qüvvələri Zamzur, Sur, Banazur, Quşçular, Qışlaq, Doşulu, Qaracallı, Balyand, Süleymanlı və Əfəndilər kəndlərini işğal edərək, Cəbrayılın iki kilometrliyinə yaxınlaşır. Mülkədərə və Sirik kəndləri istiqamətində döyüşlər gedir. Ölən və yaralananlar var.

– Daşbaşı kəndi və Daşbaşı postu işğal edilir. 18 nəfər vəhşicəsinə qətlə yetirilir.

15 AVQUST - Daşbaşı kəndi işğalçılardan azad edilir.

16-NA KEÇƏN GECƏ, AVQUST - Gecə əməliyyatları nəticəsində bəzi işğal edilmiş ərazilər geri qaytarılır.

17 AVQUST - Daşkəsən kəndi işğal edilir.

17-18 AVQUST - Ermənistan Silahlı Qüvvələrinin Füzuli və Cəbrayıl şəhərləri istiqamətində hücumu davam edir.

18 AVQUST - Düşmən Cəbrayıl şəhəri istiqamətində hücumu genişləndirir.

20 AVQUST - Şəhər ətrafında döyüşlər davam edir.

– Cəbrayıl rayonunun daha bir sıra kəndləri işğal edilir. Xeyli ölən və yaralanan var.

23 AVQUST - Cəbrayıl şəhəri və rayonun şimal ərazilərini əhatə edən 50-yə qədər kənd ermənilər tərəfindən ələ keçirilir. Şəhər süqut edir.

18 OKTYABR - Quycaq, Safarşa kəndləri işğal olunur.

23-24 OKTYABR - Ermənistan Silahlı Qüvvələrinin hücumları genişlənir, Arazboyu ərazilərdəki 40-a yaxın kənd işğal edilir. Qərbdən Xudafərin, Şərqdən Horadiz keçidi tutulduğundan dinc əhali Araz çayından İran ərazisinə keçir. Ölənlər və yaralananlar var. Cəbrayıl rayonu ərazisi tamamilə işğal edilir.



## VƏTƏN, DAĞIN-DAŞIN OLLAM*

Şöhrət igidlərin
Ömür yelkəni,
Həyatın mənası
Kim deyər nədir?
Şəhidlik ucalıq,
Şəhidlik həyat,
Şəhidlik ucadan
Uca zirvədir...

***

Vətən, dağın, daşın ollam,
Yazın ollam, qışın ollam.
Dar gündə sirdaşın ollam,
Təki unutma məni.

Düşmən üstə od ələrəm,
Sənə xoş günlər dilərəm.
Ölsəm qeyrətlə ölərəm, -
Təki unutma məni!

***

Bir dünyayam, təbiətin
Nəfəsindən yaranmışam.
Gözlərindən alov yağan
Bir şimşəyin həvəsindən
Yaranmışam.
Anam günəş başım üstə
Nur çələngi.
Zaman-zaman igidlərə
Bayraq olub «Yallı», «Cəngi».
Xəritədə bir nöqtəyə
Bənzəsəm də,
Ürəklərdə gur nəğməyəm,
Solmaz duyğu yarpağıyam.
Ölkə-ölkə, qitə-qitə
Sözü gəzən
Azərbaycan torpağıyam...

***

Sığınmışdın təmiz ada,
Niyə qəfil düşdün oda?
Vətən üçün doğulanlar,
Unudulmur bu dünyada...

***

Bu torpağın yad önündə
Məğrur duran əsgəriyəm.
Düşmənləri nişan alıb,
Gözdən vuran əsgəriyəm.

Xətainin nəvəsiyəm,
Yerin, göyün nəfəsiyəm.
Bu torpağın gur səsiyəm,
Ulu Turan əsgəriyəm...

***

Qəlbimi isidən ocağım, odum
Dünyaya sığmayan şöhrətim, adım.
Mənim bükülməyən qolum, qanadım -
Tükənməz saflığım, heyrətim Vətən.

Qarqarım, Arazım, Kürüm də sənsən
Gor evim, ocağım, pirim də sənsən.
Kəpəzim, Murovum, Dirim də sənsən
Namusum, ismətim, qeyrətim Vətən...

** **Kitabda dərc olunan şeirlərin müəllifi İsmayıl İmanzadədir***

## OĞUL, OĞUL DEMƏKDƏN

Bir məkrdən, fitnədən
Aranım, dağım şəhid.
Heç bilmirəm ki, nədən
Çəmənim, bağım şəhid.

İnsafmı axa qanım,
Bu zilləti nə danım.
Güllələnib gümanım -
Ötən hər anım şəhid.

Taleyin donüb üzü,
Kimlər qarğadı bizi?
Sinəmdə güllə izi -
Daşım, torpağım şəhid...

***

Oğul, çərxi-fələyin
Sözünə niyə uydun?
Namərd, əlin qurusun -
Balama necə qıydın?

***

Ocaqda köz qalmadı,
Cığırda iz qalmadı.
Sənə ağı deməkdən
Dilimdə söz qalmadı.

Qanı sel olan balam,
Dili lal olan balam,
Dünyadan nakam getdin,
Bəxti kül olan balam.

Yaz idin, qışa döndün,
Bir qara daşa döndün.
Ürəyimdə nisgilə,
Gözümdə yaşa döndün...

***

Tayada bəlim yandı,
Əl atdım, əlim yandı.
Oğul-oğul deməkdən,
Ağzımda dilim yandı.

Apardı çaylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Yordu bu taylar məni.

Ürəyimdə dağım var,
Talan olmuş bağım var.
Allah, görən qabaqda -
Daha hansı çağım var?..

***

Allah, gümanım nəydi,
Zaman qəddimi əydi.
Yağı atdığı güllə,
Qəfil balama dəydi.

***

Üç bacının qardaşı,
Qurumur gözüm yaşı.
Gücüm çatmır qaldırım,
Fələk atdığı daşı.

***

Düşmənə uyan fələk,
Bir azca dayan, fələk!
Ürəyimə dağ çəkib,
Oğluma qıyan fələk!





***Quşçular kəndində tarixi əsrlərlə ölçülən Çinar ağacı***



*İbtidai insan məskəni. "Divlər sarayı". Dağtumas kəndi*





*Sirik qalası (V-VI əsrlər. Sirik kəndi)*



*Şıxlar türbəsi (XIV əsr, Şıxlar kəndi)*



*Qəbirüstü abidələr*



*Siklop tikintiləri. e.ə. III minillik. (Tatar kəndi)*



*On bir aşırımlı Xudafərin körpüsü, (e.ə. V əsr, Qumlaq kəndi)*



*On beş aşırımlı Xudafərin körpüsü, (VII əsr, Qumlaq kəndi)*





*Siklop tikintisi (Tatar kəndi)*



*Sultanməcid hamamı (XVIII əsr. Cəbrayıl şəhəri)*



*Başıkəsik kümbəz (XIII-XIV əsrlər. Dağtumas kəndi)*



*Hacı Qaramanın məzarı - Pir. (XIV-XV əsrlər. Çələbilər kəndi)*





*Cəbrayıl şəhərinin ümumi görünüşü*



*Şəhər parkının ümumi görünüşü*



*Şəhər stadionu*



# TORPAĞIN QANLI KÖYNƏYİ

## *I hissə*

# QARA XAÇ YAĞIŞI



**Quliyev İsmayıl Hidayət oğlu**
**(23.02.1972-24.05.1991)**

Doxsanıncı ilin yanvarı özüylə dərd-bəla gətirmişdi yurdumuza. Şah İsmayıl zəmanəsindən üzübəri Bakı hələ bu qədər silahlı əsgər görməmişdi. Heybətli səslər, gurlayan tanklar bu dinc müsəlman şəhərini xıncım-xıncım eyləməkdə idi. Güllə səslərindən «qulaqları» batmışdı, heyrətdən «gözləri» bərələ qalan evlərin. Yanvarın «dabanı» bizim üçün yaman ağır oldu həmin il. Küçələrə imperiyanın qara xaçları yağırdı. Şimaldan əsib gələn ölüm küləyi gətirmişdi onu. Avropalıların lüləsindən çıxan güllə şəklinə düşüb sancılırdı adamların, ağacların, evlərin sinəsinə. Adamları küçə uzunu qovmaqda idi bu xaçlar. Aman diləyənləri tankların xaça bənzər tırtılları basıb əzirdi. Qara xaç altında çimirdi Bakı. Xaç şəkilli güllələr qanına susamışdı o gün...

O qanlı Yanvar gecəsində xaç şəkilli güllələr şəhəri dolaşa-dolaşa hədəf axtarırdı özünə. Bu güllələrdən biri dərələrdən-təpələrdən keçə-keçə Xabarovkiyə çatan kimi 1991-ci ilin may ayının iyirmi dördündə Quliyev İsmayıl Hidayət oğlunun sinəsinə sancıldı. Doxsanıncı ilin yanvarında Bakıda atılan bu güllə düz bir ildən çox idi ki, hirsini, hikkəsini soyutmaq üçün üzü Sibirə yol gedirdi. Türk oğlunun qanına susayan bu güllə qətlə yetirdiyi Azərbaycanlı İsmayılın və özbək Mankulovun qanından doyunca içəndən sonra səngiyib yavaşıdı.

İsmayıl kim idi? Adi bir azərbaycanlı balası. Kimə neyləmişdi. Onun fəhlə atası Hidayət kişi-Allahın ən sakit bəndələrinidən olan bu kişi ömründə heç qarışqanı da incitməmişdi. Səkinə ana hansı günahın sahibi idi ki, oğul dağı çəkməli oldu. Günahı yox idi bu ananın. Yarı tox, yarı ac on uşaq böyütmüşdü,beşik əvəzi qolları üstə və bir də səhərdən axşamacan illər boyu pambıq və sonra da üzüm yetişdirib nübarını göndərmişdi Moskvadakı ağalarımıza. Bunun əvəzində şər yuvası bu şəhərdən nal böyüklükdə zərbəçi nişanı və bir də quruca bir «malades» almışdı. Özgə heç nə. Bir düjün uşağı böyütmək üçün iki cüt əl dəridən-qabıqdan çıxmışdı illər boyu.



İsmayıl 1972-ci ilin 23 fevralında Qızıl Ordunun yarandığı gün dünyaya gəlmişdi. On səkkiz il üç aydan sonra bu oğlanı «xilaskar ordu»nun əsgəri qətlə yetirdi. Səkinə ana o vaxtlar Vətən bilib böyüklüyü ilə öyündüyümüz SSRİ-yə oğul etibar etmişdi. İsmayıl orduya yola düşəndə anası onun arxasınca bir qab su atıb: – «Əsgərlik kişilik, mərdlik məktəbidir, arzu edirəm evimizə, elimizə başucalığı ilə qayıdasan» – demişdi. Ana hardan biləydi ki, namərd sarı iblislər oğlunu bu «məktəbdə» axıracan «oxumağa» qoymayacaqlar. Ana hardan biləydi ki, oğlunu əlindən alıb, əvəzində bir qara tabut göndərəcəklər ona. Ana o vaxt bunları bilsəydi ümmana, tufana çevrilib balasını şimala aparan qatarın qarşısını kəsərdi. Yox, səhv elədik, bu qatarı dayandırmağa Səkinə ananın gücü çatmazdı. İşığa, suya, tufana, ümmana dönə bilərdi, təkcə o qatarı yolundan saxlaya bilməzdi. O qatarı çəkib aparan hələ kardan-kəsərdən düşməyən imperiya qanunları idi. Bu məkrli ölkənin fərmanları idi. Səkinə ananın oğlunu sarı iblislərin şeytan dəyirmanına tərəf itələyən... çoxuşaqlı ailədən olduğu üçün o vaxt İsmayılın respublikada qulluq etməyə imtiyazı var idi. Pul gücünə, zor hesabına hər addımda pozulan imperiya qanunları onun kimi kasıb uşaqlarına arxa durmamışdı heç vaxt. Yadımızdadır, on il davam edən Əfqanıstan müsibətimiz. İllər boyu o uzaq ölkədən qara tabutlarda üstümüzə qayıdan oğullar kimlərinki idi? Niyə nakam «əfqanlar»ın cərgəsində tək bircə nəfər də raykom katibinin, DTK işçisinin, deputatın, ali məktəb müəllimlərinin, kolxoz sədrinin uşağı yox idi? Niyə o torpağa təkcə kasıbların uşağı göndərilirdi?..

Onda İsmayılı da qoymadılar ki, imtiyazından istifadə edib əsgərliyini respublikamızdakı hərbi hissələrin birində çəkə. Onunçün kiminsə saqqalının altından keçmək lazım idi. Hidayət kişi bacarmadı bunu. Daha doğrusu pulu olmadı ki, verib balasını doğma yurdda saxlasın. Səkinə ana deyir ki, balam Vətənində şəhid olsaydı dərdim nə idi. Bunu ona çox gördülər...

Xabarovskda türk millətindən olan əsgərlərin günü-dincliyi yağlı əppəyə dönüb yoxa çıxmışdı. Qanlı Yanvardan sonra onları vəhşi, kütbeyin adlandırıb hər addımında təhqir edirdilər. İsmayıl birinci dərəcəli tankçı kimi ad-san qazanmışdı burda. Kuşnaryov familiyalı bir rus leytenantının onu görməyə gözü yox idi. Neçə dəfə mübahisə etmişdi, ölümlə hədələmişdi ki, sənin kimilərini doxsanıncı ildən bu yana buraxmaq lazım deyilmiş. Sonra dilimizə, dinimizə sataşmışdı, yanvar şəhidlərinin ünvanına artıq-əskik danışmışdı. İsmayıl özünü saxlaya bilməyib əl qaldırmışdı onda bu arxalı köpəyə...

Quyruğu tapdanmış ilana dönmüşdü Kuşnaryov. İsmayılın hər addımını izləyirdi. Əlinə fürsət keçən kimi iki türk oğlunu qətlə yetirdi bu cəllad.

İsmayılı və onun özbək dostunu öldürən Kuşnaryovun avtomatından atılan güllələr deyildi. Bu güllələr doxsanıncı ilin yanvarında atılmışdı. İsmayılı tapıncan Bakıdan uzaq şərqə qədər yol keçmişdi bu güllələr. O vaxtlar kiminsə anası namaz üstündəymiş Bakıda. Ondan yan keçən bu güllə gəlib Xabarovskda İsmayılın ürəyinə sancılmışdı...

İsmayılın cənazəsini 28 mayda torpağa tapşırdılar. Bir məzar odsuz-ocaqsız yandırırdı Mərcanlı torpağını. El-oba İsmayılın xatirəsini əziz tutdu, onun adını kəndindəki doğma məktəblərdən birinə verdilər. İsmayıl bir vaxt burada oxumuşdu. Müəllimlərin sevimli şagirdi olmuşdu. Yaşasaydı, Ağdarə, Laçın ya da elə bizim Cəbrayılda şəhid olacaqdı. İsmayıl kimi oğullar dar ayaqda şəhid olmaq amalı ilə doğulurlar...

Doxsanıncı ilin yanvarında Bakıda atılan güllələr hələ də dolaşır yer üzünü. Bu güllələr türk dünyamızın üstünə ünvanlanıb bu güllələrin «gözləri» türk qanından doymayıb hələ. Ayıq olun qardaşlar qara Yanvarda atılan güllələr yurdumuzun bütövlüyünə, azadlıq ruhumuza tuşlanıb...



# SƏN YADA DÜŞƏNDƏ

**Quliyev Şəhriyar Paşa oğlu (1924-1992)**



Ölməyə nə var ki, uşaq da, cavan da, ahıl da bacarar onu. Vaxtın çatdımı, köçüb gedirsən. Canın qurtarır bu dünyanın əzabından, nisgilindən, qayğısından – bir dadım sevgisindən. Hünər odur ki, dünyanı dəyişəndən sonra da əməllərinlə, söz-söhbətlərinlə, dünyada qoyub getdiyin nişanələrinlə yaşayasan.

Sən fikri, duyğusu işıqlı, üzü nurlu, ürəyi nəmnazik bir kişiydin. Sən sözün həqiqi mənasında ziyalıydın, müəllimlərin müəllimiydin, ədəb-ərkanlı, özünə-sözünə sadiq ağsaqqal idin, Şəhriyar Sən Fikrətin, Fuadın ana yanımlı atasıydın, dili sözlü, nəğməli Mərcan balamzın müdrik babasıydın, İsmayılın, Hürriyyətin, Tariyelin, Yaqubun, Afərin... dostlarıydın, güvənc yeri idin. El-obanın inancı, sayılan-seçilən ağsaqqalı idin. Yadındadırmı, 1988-ci ilin noyabr ayının iyirmisi? Topxana harayı ilə Bakıda Azadlıq meydanına toplaşan yüz minlərlə soydaşlarımıza Cəbrayılda ilk dəfə səs verdik, mitinq keçirdik o gün. Oğuz elimizin dəliqanlı balası Hürriyyətin çağırışı ilə həyatımızda ilk dəfə idi ki, illər boyu «kiçik padişahların», onların vəzir-vəkillərinin dayanıb xalqa üsdən aşağı baxdıqları tribunada ehtirasları şahə qalxan kütləylə üz-üzə çıxırdıq, kimisi tamaşaya, kimisi yurdumuzun harayına toplaşmışdı o gün.

- Xalq bizdən imdad gözləyir, belə bir vaxtda yaxamızı kənara çəkə bilmərik – deyib, Hürriyyətlə, İsmayılla, Çərkəzlə birlikdə dayandın tribunada. Hadisələr məcrasından çıxıb ayrı səmtə yönələndə xalqın qarşısında ağsaqqal sözü dedin – hamı eşitdi səni. Sonrakı günlərdə sıralarımız artıb çoxaldı. Bu torpağın yanımlı övladları Vaqif, Südabə, Eldar, Mikayıl, Kərim... də qoşuldular bizə. «Mən də bu xalqın oğluyam, siz harda, mən də orda» - deyən vəzifə adamlarının əsl üzünü, sifətini gördünmü onda. Yox onda bu sifətlər ütülüydü, maskalıydı – bizə xalq arasında nüfuzu olan beş-üç adama yarınmaq üçün Cəbrayılın baş meydanında, Qız qalasının ətəyində, Xudafərin körpüsünün yanında əldən-ayaqdan

gedirdi bu vəzifədə qartıyan xalq «Vətənpərvərlər»i. Qanlı \yanvardan sonra xalq hərəkatı bir az səngiyəndə, 1990-cı ilin otuz bir yanvarında rus tankları bizim Cəbrayıla gəlib çıxanda – İsmayılın, Nurəddinin, Xanışın, Mamedin, Vaqifin, Eldarın, Sarının... həbsindən sonra gördük içi «kiçik padşah» Əli Rzayev qarışıq o vəzifə düşgünlərinin gözlərindən qurd sevincini, yalquzaq fərəhini. Dostumuzla düzmənimizi onda ayırd edib tanıdıq. Onda bildik Cəbrayılın hərbi «komendatına anonim zənglər vuran, «danoslar» yazan «sapı özümüzdən olan baltaları». Onda bizimlə yanaşı səni də məhşər ayağına çəkdi bu vicdan dəllalları. Hürriyyətlə, İsmayılla, Tarıyellə rayondakı abı-havanı, tayfabazlığı respublika rəhbərliyinə çatdıran bu torpağın «həyəcan təbili» Əlisahibi üz-üzə qoymaq istədilər. Qorxuzdular, təzyiq etdilər, şantaja, yüz it fəndinə əl atdılar, bir Allah şahiddir ki, kökümüzdən qopara bilmədilər bizi. Tanrı arxa durdu, şeytan yolumuzdan azdıra bilmədi bizi...

AXC yarananda onu rayon şöbəsinə ağsaqqal kimi xeyir-dua verdin, «dara düşsəniz yanınızdayam, heç nədən qorxmayın» - dedin...

Sənin işlərin çox idi, onu başa çatdırmağa bir ömür bəs eləmirdi. Sinən xəzinə idi – söz xəzinəsi. Bu varı xalqa verməkçün dostlarından «qaçırdın» bəzən. Bir kiçik iş otağın olurdu, qələm-kağız, bir də sən. Ömrün gilə-gilə damcılayırdı ağ vərəqlərin üstə. Gözəl tarixçi idin. Yurdumuzun ulu qalalarının, bürclərinin mahir bilicisi idin. Ermənilər ulu abidələrimizi öz adlarına çıxanda onlara tutarlı cavablar verirdin. Xudafərinin, Diri dağındakı Qız qalasının, Dağtumasdakı Başıkəsik gümbəzin, Sirikdəki Qaladığının üstündəki Dədə Qorqud yadigarı Qalanın «sirri»ni açıb çatdırırdın xalqımıza. Şahmatın, nərdin «leylacı» idin. Bu qədim oyunların tarixi ilə bağlı neçə-neçə samballı kitab müəllifiydin. Rəhmətlik Fərman Kərimzadə ilə, Sabir Rüstəmxanlı ilə möhkəm dost idin – yolları bu torpağa düşəndə ilk dəfə səni itirib-axtarırdılar. Həmyerlilərimiz Xalq yazıçısı Sabir Əhmədli, məşhur alim Kamil Vəliyev xətrini yaman istəyirdilər sənin...

Çox ürəyitəmiz, kinsiz, küdurətsiz bir kişi idin. Ana ürəkli, kövrək duyğulu bir ata idin. Ömrünün cavanlıq çağlarında ürəkdən sevdiyin həyat yoldaşını itirəndən sonra tay evlənib eləməmişdin. Nakam məhəbbətinin davamını Fuadda, Fikrətdə, Fəridədə tapmışdın. Ana sevgisi ilə, ata yanğısı ilə böyütmüşdün onları. Ümman zəkandan, üzünün günəş nurundan balalarına da, onların taleyinə də pay düşmüşdü. Dəli-dolu Fuad balan sözü üzə şax deyəndir – yaxşı əl qabiliyyəti var. Sakit təbiətli yadigarın Fikrətin barmaqlarından nəğmə damcılayır. Rəssamlıq duyğusu, ağsaqqal müdrik-



liyi var onda. İtirdiyi səadətini balalarının xoşbəxtliyində tapmışdı. Mərcangözlü nəvən Mərcan Şəhriyarinin ilk şeirlərindən qəlbin isinirdi...

Heç vaxt soyuqluq görmədik səndən, Şəhriyar müəllim! Özünə, geyimkeçiminə çox diqqətli idin. Boylu-buxunlu, yarlı-yaraşıqlı bir kişi idin. Aralığa çıxanda çoxları həsəd aparırdılar sənə. Şlyapanın altından çiyinlərinə kimi tökülən saçların üzünə, nurlu sifətinə, hündür boy-buxununa ilahi bir yaraşıq verirdi. Bu torpağın nur timsallı adamı idin. Bir az asta, bir az həzin danışığın, duzlu-məzəli söz-söhbətin var idi. Əsl məclis adamı idin, dostlarınla yeyib-içməyi – ən çox da bizimlə – Hürriyyətlə, İsmayılla, Tariyellə oturub dururdun. Hürriyyət «dayı», İsmayıl «bəy», Tariyel «müəllim» deyə müraciət edirdilər sənə. Vaxt imkan verəndə bizimlə yeyib-içməkdən zövq aldığını üzündən-gözündən oxuyurduq. Belə vaxtlarda hamıdan əvvəl əlini cibinə salıb: «Qoca kişiyəm, könlümə dəyməyin, pensiyamı almışam, yazılarımın qonorarını göndəriblər, qoyun sizə xərcləyim, ürəyim açılsın» - deyərdin.

Barmaqlarının arasında tüstülənən siqaretinin arxasından bir az tutqun, bir az düşüncəli baxışların boylanırdı dünyamıza. Ermənilər üstümüzə ayaqlandığı gündən «bir müsəlləh əsgər kimi» döyüşürdün onlarla. Tez-tez yaranmaqda olan könüllü ordumuzun əsgərləri arasında olub onlara ağsaqqal nəsihəti verirdin. «Balalarım, bu namərd qocalıq olmasaydı sizinlə bir sırada dayanardım» - deyirdin onlara. İlk direktoru olduğun rayon tarix-diyarşünaslıq mazeyinin, şahmat məktəbinin üstə yarpaq kimi əsirdin. Bu muzey də, o şahmat məktəbi də sənin canlı yadigarlarındır indi...

Səndən yazmazdan qabaq Fikrətlə, Fuadla görüşdük. Sənli dünyamıza qayıtdıq bir anlıq. Səndən yadigar qalan üç kitabınla, hələ çap üzü görməyən əlyazmalarınla görüşüb doluxsunduq. Ayrılanda pasportunu və bir də qeyd dəftərçəni götürdük özümüzə. Pasportdakı bizə doğma şəklinə dönə-dönə baxıb təsəlli tapdıq. Baxışların həmişəki kimi canlı və təmiz idi. Ölüm səndən, sənin odlu baxışlarından heç nə qoparıb apara bilməmişdi. Qeyd dəftərçəni vərəqlədik. Dostlarının ünvanlarını, telefon nömrələrini yaddaşımıza köçürdük elə bil. Özün kimi dostların da say-seçmədi, yurdun dərdinə məlhəm oğullardır. Bu dəftərçədən Sabir Rüstəmxanlının, İsmayıl İmanzadənin, Hürriyətin, Musa Yaqubun, Zəlimxanın misraları pıçıldayır. Sən gözəl şeirlərin, sənət incilərinin xiridarı idin. Diqqətini cəlb edən, ürəyini, duyğularını kökləyən misraları yaddaşında yaşadırdın...

İndi də səni biz yaşadırıq, Şəhriyar kişi! Ürəyimizin dərinliyində bir itkinin yeri göynədir bizi. Bu yanğı sənin – Quliyev Şəhriyar Paşa oğlunun

ölümündən sonra 1992-ci ilin üçü fevralından başlayıb. Bu nisgil ömrümüzün axırınacan dirigözlü yandıracaq bizi. Bircə təsəllimiz bu olacaq ki, altmış səkkiz illik ömründən bizim də taleyimizə işıq düşüb...

Sən bizim narahat ömürlü Azərbaycan dünyamızın Fərman Kərimzadə, Xudu Məmmədov, Hafiz Baxış, Çərkəz Məcid, Hamlet Xanızadə, Şahmar Ələkbərov taleli övladısan. İncimə sən şəhid deyərdik adına. Bu adı sən əqidənlə, məsləkinlə, əsil kişi ölümünlə qazanmısan. Allah sənə və cəmi şəhidlərimizə rəhmət eləsin...

## ÖLÜMÜNÜ GÖRƏN ADAM



*Quliyev Səxavət Balay oğlu*
*(1940-1990)*

İgid oğullarımızın sorağıyla yaşadığımız günlərin birində Bürhanəddin kişi – Qanlı Yanvar şəhidlərindən olan Quliyev Səxavətin böyük qardaşı – özü gəlmişdi yanımıza. Qardaşıyla bağlı xatirələrini də yazıb gətirmişdi. İstəyirdi ki, Səxavəti duyub-qavradığı kimi görsün. Ona görə də bizimlə xeyli söhbət etdi. Səxavətli dünyasının ovqatına qovuşurdu, bir şəhid ömrünün ağrısına-acısına ortaq etdi bizi. Ayrılanda:

– Şəhidlərdən yazanların hamısının qadasın alım – dedi. «Şəhidlər» kitabının müəllifi Rafiq Səməndərdən yerdən-göyəcən razıyam, amma...

Bu «əmma» «şəhidlər» kitabı çapdan çıxandan bizim də ürəyimizi göynədirdi. Yaxşı ki, bu düyünü Bürhanəddin kişi özü açıqlayıb bizi ağır bir yükdən, bir nisgildən qurtardı.

Səxavət qağam kitabda təsvir edildiyi qədər də mağmın-aciz deyildi. Ölümünü çoxdan, 1988-ci ilin fevral hadisələrindən sonra görürdü, ona həmişə hazır idi. Azadlıq meydanında keçirilən mitinqlərdə əvvəldən axıra kimi iştirak etmişdi. Əbülfəz bəyin, Nemət Pənahlının, Sabir Rüstəmxanlının ağızlarından çıxanı quran ayəsi kimi qəbul edirdi. Ölümündən qorxan, xoflanan, kitabda yazılan kimi üşüyən deyildi qağam.

Qələminə, şəxsiyyətinə böyük ehtiramımız olan Rafiq bəy yəqin ki, bu yerdə bizdən inciməz. «Şəhidlər» kitabı 20 yanvar müsibətimizə deyilən bir ağıdır. Bu ağıda torpaqlarımızın sinəsinə tuşlanan, igidlərimizi al qana



boyayan imperiya siyasəti lənətlənir. Şəhidlərimizin adlarını əbədiləşdirən bu kitab haqlı olaraq müəllifinə böyük şöhrət, ehtiram gətirib. Üç-dörd ayın içində yüz əlliyə yaxın şəhidin ağrı-acısını yaşamaq, hər bir ailədə olub, nakam oğullarımızın dolğun obrazını yaratmaq çətindir. Ədalət naminə Rafiq Səməndər qardaşımız öz məqsədinə demək ola ki, nail olub. Kaş o vaxt müəllif imkan tapıb Səxavətin ata ocağı İsaxlı kəndinə gələ biləydi. Onda görərdi ki, Səxavət necə ailədə böyüyüb. Onda bilərdi ki, Səxavət kimi oğulların kürəyi heç vaxt üşənməz. Müəllifi qınamağa haqqımız yoxdur. Bizim yazdıqlarımızı «Şəhidlər» kitabında Səxavətin ömür yolundan söz açan sətirlərin davamı hesab elə, Bürhanəddin kişi. İncimə Rafiq Səməndər qardaşımızdan. Sənin Səxavətdən bir vaxtlar söz açarkən gözündən yayınıb, qalanları xatırlanmaqdır indi niyyətimiz.

Balay kişinin ata yurdu Zəngəzurdakı Dəstəyird kəndi gözü yaşlı qalıb nə vaxtdır. Bolşevikləri özlərinə arxa bilən daşnaklar otuzuncu illərdə oradakı ulu yurd yerlərimizdən soydaşlarımızı didərgin salmaq üçün min cür fitnə-fəsada əl atırdılar. Andranikin quldur dəstəsi qarşısında mərd-mərdanə dayanan Dəstəyird camaatı qırmızı imperiyanın amansız qanunlarının hökmü ilə dədə-baba torpaqlarında müsibət çəkirdilər. Otuzuncu illərdə Səxavətin atası Balay kişini müsavatçı olduğu üçün tutub Goruş türməsində, Qaçaq Nəbinin bir vaxtlar yatdığı kamerada düz iki il saxlamışdılar. İki il ərzində Balay kişinin əzmini qıra bilməmişdi daşnak zindanı. Burdan çıxandan sonra Cəbrayılın İsaxlı kəndinə köçüb gəlmişdi ailəlikcə. İsaxlı camaatının demək olar ki, hamısı Zəngəzurdakı Ulu yurd yerlərimizdə yaşayıblar illər boyu. İndi də sisli-dumanlı dağlardakı Vətən torpağının həsrəti ilə üzü o tərəfə boylanır kənd camaatı. Balay kişinin indi də orda qoyub gəldikləri buz bulaqlar, barlı-bəhərli torpaqlar yuxusuna girir hərdən.

Səxavət belə bir ailədə böyümüşdü. İsaxlı kəndində və sonra Cəbrayılın rayon mərkəzində oxuduğu illərdə tez-tez o ulu yurd yerləri çəkirdi onu. Neçə dəfə ürəyindən keçirmişdi ki, əli çörəyə çatandan sonra əbədi olaraq qayıtsın o yerlərə. Bunu 1962-ci ildə əsgərlikdən gələndə demişdi atası Balay kişiyə, böyük qardaşı Bürhanəddinə. Onda hələ dünyanın düz vaxtları idi, heç kimin ağlına gəlməzdi ki, Zəngəzurdakı ata-baba yurdları iyirmi altı ildən sonra düşmən ümüdinə qalacaq. Onda Balay kişi Səxavətə demişdi ki, ailə qur, sonra qismət olsa mən özüm də qayıdıb o dağlardakı yurdumuzun işığını yandıracağam. Bu arzu nə o dağlar üçün qəribsəyən ataya, nə də Bakının cazibəsindən çıxıb bir də geri qayıda bilməyən Səxavətə qismət oldu. Kəndlərindən olan Müxəstə adlı bir qızla ailə qurub şə-

hərə köçəndən sonra qayğıları artıq çoxaldı Səxavətin. Ticarət texnikumunu qurtarıb, əvvəlcə satıcı, sonra da mağaza müdiri işləyirdi Bakıda. Üç oğlu, bir qızı dünyaya gələndən sonra ta öyrəşdiyi şəhər həyatından uzaqlaşa, bir də geriyə qayıda bilmədi. Dağlar, meşələr üsün burnumun ucu göynəyəndə vaxt tapıb bir-iki günlüyə İsaxlı kəndinə baş çəkir. Yaşıl donlu meşəni, ayna bulaqları gözlərinə köçürəndən sonra təzədən şəhərə qayıdırdı. Dağların saflığını, kəkotu, çiçək qoxusunu da özü ilə bərabər aparırdı Bakıdakı mənzilinə...

O gecə Bakı od içindəydi: Tank nərəsindən, güllə səsindən qulaq tutulurdu. Səxavət Respublika Stadionunun yaxınlığındakı mənzildən çölə çıxanda uşaqlarına üzünü tutub:

– Qorxmayın, bu saat qayıdıram, – demişdi.

Ancaq bir də geriyə rayıtmaq ona qismət olmadı. Ölüm hardansa qəfildən peyda olub yolunun üstə dayandı onun. Qoymadı ki, balaları İlhamın, Şahinin, Namiqin, Gülnarənin üzünə baxsın bir də...

O müdhiş gecədən sonra Muxəstə bacı, onun atasız qalan balaları Səxavətlə «Şəhidlər Xiyabanı»nda görüşdülər. Səxavət burada qismətinə düşən bir məzardan, bir parça qara mərmərdən boylanır dünyamıza. Şəkildəki baxışlarında bir nisgil, bir nigarançılıq yağır dünyamıza.

Qardaşı deyir ki, o çox nikbin, gülərüz, zarafatcıl adam olub. Çoxlu şeir bilirmiş, özünün də hərdən yazmağı varmış. Elə-belə marağa edirmiş bunları. Dosta-tanışa, el-oba adamlarına çox yanımlıymış. Qapısından qonaq-qara əskik olmazmış. İndi də qəbrinin üstündə adam əskik olmur. Gor qonşusu olan şəhid dostları ilə birlikdə səsi Tanrı dərgahından gəlir Səxavətin. Bu səsdə torpaq sevgisi, yurd qeyrəti var. Bu səs əllərimizdən yapışıb dünyamızın sabahına aparır bizi. Bu səsdən yarpaq pıçıltısı, bulaq zümzüməsi, nəğmə səsi eşidilir.



## ÖMRÜN SON HARAYI

### *Çərkəz Məcid (1937-1989)*



Ömrü boyu düzlüyü, həqiqəti gəzib aramışdı, onu yetmiş il zillət çəkən bir cəmiyyətin dərdlərinin məlhəmi bilmişdi Çərkəz Məcid. Heyif ki, sağlığında əli çatmamışdı ona. Ömrü boyu axına qarşı üzmüşdü, azman vəzifəlilərin üstünə getmişdi bu üsyankar ruhlu insan. Qanında əsl türk oğullarının qanı varıydı. Sözünü udmaq, dilini çeynəmək adəti deyildi onun. Gözəl müəllim idi – qədrini bilmədilər. İstedadlı şair idi – başqaları üçün gen açılan qapılar onun üzünə bağlıydı. Ara-sıra çap olunan şeirlərini döyüşə-döyüşə qəzet-jurnal səhifələrinə çıxarırdı. Sağlığında kəpənək qanadlarına bənzəyən iki kitab balası – «Ağ çiçəklər» və «İşıq telləri» dünya işığına baxa bilmişdi. Onu da çox görmüşdülər Çərkəz Məcidə.Düşəndə kölgəsini qılınclayırdılar. 1973-cü ildə «Ağ çiçəkləri» bahar nəfəsi görəndə ömrü boyu yaltaqlıqla Sov. İKP çörəyi yeyən bir iblis xislətli «şair» «Ulduz»da nahaq yamanlamışdı onu. Heç nəyi vecinə alan deyildi. Müəllimlərin konfranslarında söz verməmək istəmirdilər ona. Bilirdilər ki, qıpqırmızı sözlər yağdıracaq üzlərinə. Qorxub çəkinirdilər ondan pulu, rüşvəti insanlıqdan uca tutanlar. Bütün qadağalara, yasaqlara baxmayaraq hər yerdə sözünü deyirdi, ürəyindən keçənləri tərs şapalaq kimi vururdu ləyaqətsiz adamların üzünə. Yetmişinci illərdə on bir ilə yaxın «allahlıq» eləyən Şeyx Nəsrullah xislətli Kamal Ağayev onu susdurmaq üçün hansı yollara, hansı şər-şəbədələrə əl atmamışdı? Onun üstə ağzı-dualı atası Müğdət kişinin başına nə oyun açmamışdılar? Quran oxumağı, ölü namazı qılmağı qadağan etmişdilər allahdan xəbərsiz o iblislər. Çərkəz əyilməyi, yarınmağı bacarmırdı. Belə işlər onun təbiətinə yad idi. Özüylə üz-üzə qalanda qəlbində sığala yatmayan duyğularını kağıza köçürərdi. Onlarca şeiri, səhnə əsərləri var – hələ işıq üzü görməyib. Qədrini-qiymətini bilənlər də az deyildi onun. Əli Tudə, Fikrət Sadıq, Xəlil Rza Ulutürk, Məmməd İsmayıl kimi ustad sənətkarlar yüksək qiymətləndirmişdilər onun özünü-sözünü. Gözəl şairimiz Ələkbər Salahzadə vurğunuydu onun. «Ağ çiçəklər»in dünyaya gəlməsində Ələkbərin qayğısı sonsuz idi.

Kitabın redaktoru da, araya-ərsəyə gətirən də, Çərkəzi haqsız hücumlardan qoruyan da elə Ələkbər Salahzadə olmuşdu bir vaxtlar...

1988-ci ilin fevral hadisələrindən sonra sıyrılan qılınca bənzəyirdi Çərkəz Məcid. Topxana harayı Cəbrayılın rayon mərkəzində və Xudafərin körpüsünün yanında keçirilən mitinqlərə gətirib çıxartmışdı onun yolunu. Burda xalq hərəkatının ilk liderlərindən Şəhriyar Quliyev, Hürriyyət Məmmədov, İsmayıl İmanzadə ilə birlikdə tribunadan lənətləyirdi saxta imperiyanın fitnə-fəsadlarını. Arazın beş-on adamlığından keçib gedən sərhəd dirəklərinə sarılan tikanlı məftilləri didib-parçalamaq istəyirdi Çərkəz Məcid. Çoxlarını vahiməyə, qorxuya salırdı onun sözləri. Kreslolarını itirəcəklərindən qorxan vəzifə adamları onun yerə-göyə sığmayan səsi-sədası önündə tir-tir əsirdilər. Şairi susdurmaq üçün hər sifətə girə bilən əl tulalarını üstünə qısqırdırdılar onun. İşlədiyi, yaşadığı böyük Mərcanlı kəndində onu gözdən salmaq üçün min sifətə düşürdülər. Öz ailəsində kişi kimi hesaba alınmayanlar üstünə kəkələnirdilər, «dərs» verirdilər ona. Geri çəkilmirdi, sözündən dönmürdü Çərkəz -qaya kimi tərpənməz, möhkəm idi.

Atalar demişkən, elə bil daş qayaya rast gəlmişdi. Belə olanda taktiki fənd işlətmək qərarına gəldilər – Çərkəzin kölgəsini qılınclayan qaragüruh. 1989-cu ilin yanvar ayının altısında rayon mərkəzində keçirilən müəllimlərin yanvar müşavirəsində onu o ki, var sözlə döyəclədilər. Hadisələrin drijoru arxada – gizlində dayanmış raykom katibi idi, cəlladın kişiliyi çatmamışdı ki, yığıncaqda Çərkəzlə döş-döşə gəlməyə. Ortada meydan sulayan buyruq qulları idi.

Təhqiramiz ifadələri eşidəndə Çərkəz Məcidin tribunadan gurlayan səsi o iblis sifətli adamları divara dirədi. Çərkəzin oxuduğu şeirin hər kəlməsi bir oxa dönüb onu məhşər ayağına çəkən namərdlərin ürəyinə sancıldı:

***Meydan oğruya gen, düzə dardısa,***
***Qarğa könlü açıq, bülbül xardısa,***
***Başçılar millətə canavardısa –***
***Axı, bu dünyanın nəyi yaxşıdır?***
***Çərkəz, dolanmasın üzdə nəzərin,***
***Hikmətin mənası dərindir, dərin.***
***Gədalar tutubsa ağsaqqal yerin –***
***Axı, bu dünyanın nəyi yaxşıdır?***

Bu Çərkəzin ömrünün son harayı, son sədası oldu. Şeirin sonuncu misralarını deyib güclə başa çatdırdı. Ürəyinin ağrı-acısı gözlərindən boylandı onun...



Çərkəzin qəfil ölümü dostlarını dirigözlü yandırdı. Bakıda istedadlı cavan şair, Çərkəz Məcidin pərəstişkarı Hüseyn Əfəndidən bu ölüm barədə eşidəndə şair İsmayıl İmanzadənin qəlbində bir hüzünlü ağıya çevrildi bu xəbər:

***Cəsarət səndə***
***allah vercisiydi,***
***Nə qorxu bilirdin,***
***Nə hürkü.***
***Bir parça buz salı***
***idin***
***Nadanların ağrımaz***
***başında***
***Elə bil ki...***
***Sən dinəndə***
***Sancı tutardı***
***Neçəsinin***
***Zirehli ürəyini.***
***Halallıq adlı***
***Dağa söykənmişdin***
***Söz meydanında***
***Basılmayan kürəyini.***
***Çoxları anlaya bilmirdi***
***Niyyətini, dərd-sərini.***
***Yaman sevindirdin***
***Ölümünlə***
***Səndən qisas almaq***
***İstəyən düşmənlərini...***

Bu torpağın qan yaddaşında Çərkəz Məcid adlı bir şair zaman-zaman yaşayacaq hələ. Hamı ölüb gedəcək əzəl-axır. Bu Tanrının hökmüdür, insanın ilk alın yazısıdır. Çərkəzə ömrü boyu qara yaxanlar da gedəcək bu dünyadan. Onlardan yamanlıq, Çərkəz Məciddən heç vaxt saralıb-solmayan söz yadigar qalacaq. O həm də bu yurdun şəhidliyə gedən azadlıq yolunun ilk yolçularından biri kimi həmişə xatırlanacaq. Və əbədi olaraq yaşayacaq Çərkəz Məcid.



## *DƏDƏ ÇİNAR – ŞƏHİD ÇİNAR*

Cəbrayılda bir çinar var, yaşı yüz illərlə ölçülən çinar. Cəbrayılda yaşayan çinar. İllər boyu duruşuna, boy-buxununa heyranlıqla baxmışıq bu çinarın. Yayın qızmarında bu çinarın köklərindən süzülüb gələn büllür kəhrizin sularından içə-içə torpağımızın möcüzəsindən ürəyimiz dağa dönüb. Bu çinar zaman-zaman kövrək şeirlərdən, el-oba söhbətlərindən boylan□b dünyamıza. Onun çətiri altında dayanıb yay uzunu günəşin şuasından qoruna-qoruna yelpik budaqların sərinliyinə üzümüzü söykəmişik. Bu çinar bizim qəlbimizdə adi bir ağacdan çox müdrik bir insan kimi yer tutub. Hər dəfə onunla görüşəndə qəlbimizin ümman dərinliyində uyuyan ən gizli sirrimizi belə bu çinara demişik. Bu çinar dodaqlarımızda şeirə, misraya, nəğməyə çevrilib.

*Salam bizim Cəbrayılın*
*Ağsaqqalı, ulu çinar.*
*Koroğlunun həmyaşıdı,*



*Nəsiminin hünərindən*
*Halı çinar.*
*Yenə manqal qəlyanından*
*Tüstü qalxar səhər-səhər.*
*Babam çinar,*
*Elə bircə sənə görə*
*Yüz illərdir bu oymağa*
*Qibtə edir neçə şəhər.*
*Sinəndəki o zədələr*
*Nadanların hədəsimi,*
*Əsrlərin cizgisimi?*
*Köklərini sığallayan*
*Büllür kəhriz*
*Bir gözəlin yaddan çıxıb*
*Burda qalan güzgüsümü?*
*Salam, mənim torpağımın*
*Möcüzəsi, bükülməyən*
*Qolu çinar.*
*Keçmişimdən, bu günümdən*
*Sabahımdan halı çinar.*
*Zaman-zaman, nəsil-nəsil*
*Vurulmuşuq baharına,*
*Qışına biz.*
*Cəbrayılın sinəsində*
*Çinarlaşan babamızsan –*
*Oba-oba, oymaq-oymaq*
*Yığılmışıq başına biz...*

Bu çinar adi ocaq deyildi, yaşıl yelpiyiydi, abidəsəydi bu torpağın. Səksəninci illərə kimi onun qamətinə yaraşıq verən üçmərtəbəli talvarın məhəccrlərinə dirsəklənib elə bil özünün çinar bəxtəvərliyini yaşayırdı. Bir zamanlar «sapı özümüzdən olan baltalar» bu bəxtəvərliyi də ona çox gördülər. Buraya gəlişlərinin birində külli ixtiyar sahibi olan bir akademik bu ulu çinarı baxımlı, yaraşıqlı edən binanın sökülməyini tövsiyyə etdi. Rayonda ağalıq etdiyi on bir il ərzində daşı daş üstə qoymayan Şeyx Nəsrullah xislətli Kamal Ağayevin əlinə fürsət keçdi elə bil: Tez olun, sökün bu talvarı – dedi. Ağsaqqal, qarasaqqal minnətə getdi – xeyri olmadı. İllər boyu Cəbrayılın sorağını ellərə yayan o çinar – çayxananın daşı-taxtası

kimlərinsə evinin boyu üstə boy gətirdi. Bax, onda qollarını söykəməyə dayaq tapmayan çinarı laqeydliyimiz təpədən köklərə kimi üşütdü...

Ağaclar insanlar kimi kinli-küdurətli olmurlar. Dədə çinar nankor başbilənlərin qeyzli hərəkətlərini eyninə də almadı. O yenə də insanları qoynuna səslədi. Yayın qızmarında bu torpağa sərinlik gətirdi...

Düz beş il əvvəl torpaqlarımız, ilk şəhid oğullarımız üçün kəhriz gözlərindən yaş axıtdı bu çinar. Şayaqdan ölüm yüklü «qrad»lar Cəbrayılda günahsız adamların qanını axıdanda əli üzündə qaldı bu çinarın. Bir zamanlar Cəbrayılın havasına, suyuna ortaq olub onun çörəyiylə böyüyən Sərkislər, Yervandlar, Valeriklər, Beniklər düşdü yadına. Dədə çinar bu nankorlara da illər boyu kölgəsində yer vermiş, başlarının üstündən yelpik çəkmişdi. Sən demə görəcəkli günləri qabaqdaymış bu çinarın. Ötən ilin avqust ayında hər gün olduğu kimi yenə də kölgəsində dəstə-dəstə adamlar dayanmışdı Dədə Çinarın. Bircə anın içərisində bayquş ulartılı «qrad»lar yağdı bu torpağa. Bu «qrad»ların bir neçəsi elə bil Dədə Çinarın sinəsinə tuşlanmışdı. Dədə Çinar qəfil zərbəyə mərdliklə sinə gərdi. Yanlara uzalı qollarını itirsə də təmkininin, vuqarlı duruşunu itirmədi. Son nəfəsində də sipərə dönüb neçələrini qəfil ölümdən qorudu...

İllər boyu bu torpağın yaraşığı Dədə Çinar yurdumuzun müsibətlərinə çinar gözləriylə yaş axıda-axıda son günlərini yaşayır indi. Ömrünün müdrik çağlarında qanına qəltan olan çinar babamız bu günkü duruşuyla nəhəng bir başdaşına bənzəyir. Zaman-zaman başı üstdən ötüb keçən tufana-qasırğaya boyun əyməyən bu çinar sinəsinə sancılan namərd güllələrinə dözə bilmədi – sonuncu dəfə dünyamıza boylanıb şəhid oğullarımız kimi ölümü mərdliklə qarşıladı...

Şəhid çinarın iki-üç addımlığında bir pəhrə böyüməkdədir. Nə vaxtsa bu Dədə Çinarın bu şəhid çinarın özü kimi qolu-budaqlı bir ağac olacaq bu pöhrə çinar. Elə bil, günbəgün, saatbasaat böyüyür bu pöhrə çinar. Və böyüdükcə Cəbrayıldan üzü günbatana sıralanan dağların o üzündə yarasa kimi daş çatında gizlənib zülməti gözləyən düşmənə:

- Mən Dədə Çinarın ömrünün davamını yaşayıram – deyir. Hər şəhid oğulun əvəzi kimi neçə-neçə körpələr doğu bu torpaqda. Bir kök üstdən neçə pöhrə boylanır dünyamıza. Bu torpağı, bu yurdu diz üstə çökdürmək hələ heç kimə qismət olmayıb. Ehheyy, Harsın oğlu, yaxşı eşit, yaxşı eşit, bu günkü pöhrələr sabah böyüyüb ataların, şəhid oğulların qisasını alacaqlar səndən. Ölümünü gözlə, çox qalmayıb o günə...



## ÖLÜM AMAN VERSƏYDİ

**Ağayev Rəşid Əli oğlu**
**(11-06-1974-29-12-1992)**



Yaşının az olmasına baxmayın, qardaşım od parçasıydı, ölüm aman versəydi... Yox, ölüm aman vermədi. Bir də ölümün nə günahı? Erməni xislətindən yağan kin yağışını dayandırmağa ölümün gücü çatan deyil, qardaş! On doqquz yaşına təzəcə çatan Rəşidi də, onun qönçəykən solan yüzlərlə yaşıdını da qəfil gülləyə tuş eləyən erməni namərdliyidir. Bu namərdlik kol dibində, təzək altında, daş çatında daldalana bilir. Gərək onu gözdən qoymayasan, atam. Ondan aman gözləmək özü avamlıqdır, acizlikdir. Bu kəmfürsətlik Meşəlikdə, Cəmillidə, Qaradağlıda baş qaldırıb, Xocalıda ayaq tutub, Şuşanın, Laçının üstə yüyürə-yüyürə gedib. Ona aman verdinmi gərək kəfənini satın alasan...

Rəşidin bu namərdlikdən xəbəri yoxuydu vallah. Axı, harda görmüşdü əsl erməni sifətini. Erməni adını tanıdığı Dolanlarlı Ömrün kirvənin qılqurda bənzəyən pinəçi oğlu Aslan (İlahi, işə bax, doğmaca adamlarımızı da girlərinə keçirmişdi bu dəyyuslar. Ermənidən pişik, siçan və bilim lap uzunqulaq olar, ancaq bu xislətli adamlardan aslan çıxmaz, vallah) idi. O, mürtəd oğlu da dilsizin-ağızsızın biri idi. İllər boyu fağır hesab edib halına yandığımız bu Aslan deyilən demə lap daşnağın yepyekəsiymiş. 1988-ci ilin fevral ayında Dolanlar kəndinin mərkəzindəki iri daşın üstünə çıxıb "Artsax", "Miatsum" deməkdən yorulmurdu.

Onda Rəşid belə-belə işlərdən xəbərsiz idi. Nəğmə dərslərində xorla ifa etdikləri mahnının dilində, dodağında göyərən

*Qardaş olub hayastan, Azərbaycan –*

sözlərini nəqarət yerinə oxuduqca "çörəyi, diləyi, ürəyi bir olan" ellərimizin sabahına uz tutmaqda, addımlamaqda idi. "Bir bayraq altında birləşən bayraq ellərin" səmimiyyətinə, ürək açıqlığına bütün varlığı ilə inanırdı, Rəşid onda. Yox, gəlin, Rəşidin qınamayaq. Beş-altı il qabaq çoxlarımız inanırdı bu dostluğa, bu peymana...

Özümüzə Koroğlu, Babək, Xətai nəvələri deyə-deyə aludə olmuşduq bu dünyanın eyş-işrətinə. Girəvəni, fürsəti əldən vermişdik. Dolanların Hərəkülün tut ağacı, Daşbaşının, Ağcakəndin axçiləri saqqımızı oğurlamışdı. Evlərimizin yuxarı başında əyləşən dığaların tərifindən məst olmuşduq o zamanlar. 1905-ci ildəki erməni namərdliyini, 1918-1920-ci illərdəki daşnak azğınlığını unutmuşduq. Unutqanlığımız bizimlə diz-dizə oturub dostluqdan, etibardan dəm vuran düşmənə ləzzət eləyirdi.

Rəşid necə tanıyaydı onda bu tülküsifət "yanları". Yox elə bizim kimi tanıya bilmədi düşməni Rəşid. Başımız əhlət daşına dəyəndən sonra anladıq ki, təpədən dırnağa qədər məkrli bir məxluqla üz-üzə dayanmışıq. Bu məxluğun üzündən kin, gözündən qəzəb, dilindən zəhər, nəfəsindən üfunət yağır. Babaları tayqulaq Andranik kimi, Dro kimi, Şaumyan kimi yalquzaq amansızlığı tülkü hiyləgərliyi var bu düşmənin...

Bağışla, Rəşid, bağışla bizi, səni bu hiylədən vaxtında xəbərdar edə bilmədik. Nə yaşın vardı axı, onda. On səkkizi təzəcə tamam eləmişdi. Orta məktəbi bitirdiyin cəmisi bir il idi. Düz bircə il də Bakıdakı texniki-peşə məktəblərindən birində oxumuşdun. Arzun avtomobil çilingəri olmaq idi. Ürəyində yaşatdığın arzuya tərəf addımlamaqda idin. Torpaqlarımızda gedən müharibə olmasaydı indi yəqin ki, atan Əli kişinin, anan Mehniyar xanımın əhliyyətindən çıxmış idin. Ailədəki doqquz baş uşağın əziyyətini çəkə-çəkə kirpikləriylə od götürən valideynlərini xoşbəxt etmək arzusunda idin, qismət olmadı...

Qardaşın Allahyarın dediyinə görə orduya da həvəslə getmisən. Əlinə silah götürmüsən ki, ata yurdun Yarəhmətlinin camaatının əli əkindən-biçindən soyumasın. İyun ayında orduya gedəndə şagird yaddaşın, həmkəndlin Kazım da sənə qoşulub, hamıdan da çox səni yandıran elə Kazımın ölümü olub. Cəmisi doqquzca günün əsgəri olan Kazım ölümüylə şəhidlik zirvəsinə yüksəlib. Uşaqlıq dostunun dəfn günü ad içmisən ki, Kazımın qanını alacaqsan. Elə bu niyyətlə də düşmənin başına od yağdırardın döyüşlərdə. Əvvəlcə ZPD-də nişançı idin, sonra top atıcısı oldun. Atdığın mərmilər düşmənin külünü göyə sovururdu. Ötən ilin oktyabr ayında kiçik komandir təyin edilməyin məsuliyyətini daha da artırmışdı...

Rəşid ötən il dekabr ayının 29-da Banazur postunu düşmən həmləsindən qoruyanda həlak olub. Vətən eşqiylə döyünən bir şəhid ürəyi bundan sonra Yarəhmədli kəndindəki ulu qəbristanda bir məzarı isindirib...

Bu şəhidə hələ son ehtiramımızı bildirməmişik. Hardasa bir küçəyə, bir daş parçasına Ağayev Rəşid Əli oğlunun adı yaraşıq verə bilər. Rəşidin ailə üzvlərinin umacağı da, istəyi də elə bu barədədir...



– Qardaşım yaşasaydı nə dərdimiz vardı ki,.. bu sözləri Rəşidin qardaşı Allahyarın dilindən eşidəndə biz özümüz də kövrəldik. – Nə yaşı vardı qardaşımın. Ölüm aman versəydi, qələbə günümüzü görəcəydi...

Fikir eləmə, Allahyar, Rəşidin və onun şəhid yoldaşlarının əvəzindən biz özümüz, onların doğmaları allah qoysa tezliklə qələbə günümüzü görəcəyik. Və bu qələbə günündə şəhid oğullarımızın adlarını yadımıza salıb deyəcəyik:

– Ruhunuz şad olsun, arzuladığınız, uğrunda candan keçdiyiniz günlər gəlib yetişdi...

## ÜZÜ BƏRİ BAXAN DAĞLAR

### Allahverdiyev Mahmud Həbib oğlu (29.06.1973-15.08.1992)



Çullu kəndi Gələn düzünün Qubadlı torpaqları ilə qovuşduğu yerdə- Həkərinin bəri üzündədir. Bundan baxanda dərələrin dibiylə qıvrıla-qıvrıla axan Araz çayı və bir də Qubadlının ulu dağlarının sinəsinə sığınan yurd yerləri düz Əyinəcən açıq-aşkar görünür. İndi bu dağlarda müsibətli günlərini yaşayan oğuz elimizin dincliyini pozan güllə səsləri ara vermir. Beş ildən bəri torpağımızın Qarabağ dərdi Çullu camaatının da sinəsinə çalın-çarpaz dağ çəkib. İndi bu kəndin Mahmud adlı şəhid oğlunun qədim qəbiristanın sinəsinə yaraşıq olan məzarını öpüb oxşayır dağ küləkləri. Elə bil bu şəhid qəbrinə sığınan Mahmud adlı igid eloğlumuz yaxındakı dağlara üzünü tutub səhər-axşam:

Üzü bəri baxan dağlar,
Mənim sizdə nəyim qaldı – deyir.

Bu dağların zirvəsində iyirmi yaşının dan yerini görmədən şəhid olan Mahmudun uşaqlığı, gəncliyi və əbədiyyətə qovuşan adı qalıb. Bu dağların o üzündə Mahmudun qanı çilənən Şişdağın yamacları dərdli-dərdli boylanır dünyamıza. Buradakı hər daş parçası, hər qaya salı şəhid oğullarımızın heykəllərinə bənzəyir. Elə bil bu ilahi heykəllər igid-oğullarımız kimi yan-yana düzülərək düşmənin yolu üstə dayanır. Bu daş heykəllərin

sərt duruşuna Cəbrayılın şəhid oğulları Elşənini, Pəhləvanın, Savalanın, Mirələmin, Faiqin... və bir də Mahmudun igidliyi qovuşub... ömrünün şəhidlik zirvəsinə gedib çatana qədər Mahmud neçə-neçə ağrılı-acılı günlər yaşayıb. On iki yaşındaykən atasızlıq nisgili üzündən, baxışlarından boylanıb. Pərvanə timsallı Fatma ana beş uşağını kasıblığın cəngindən qurtarmaq üçün özünü oda-gözə vurub. Gözünün ilk ovu Sarvanın toyunu edəndə elə bilib ki, dünyanın sevincini ona bəxş ediblər. ailənin sonsuz qayğılarının çiyinlərində daşıyan Mahmud orta məktəbi bitirəndə istəyib ki, kənddə qalıb işləyə-işləyə özündən kiçik məktəbli qardaşı Loğmanın, bacıları Rozanın və Əslinin qayğısız böyümələri üçün anasının köməyinə yetişə. Fatma ana razı olmayıb.

– Rəhmətlik atana söz vermişəm ki, uşaqların əlini çörəyə çatdıracağam. Get hələ oxu, - deyib.

1990-cı ildə Bakının Əhmədli qəsəbəsindəki texniki peşə məktəbində qaynaqçı peşəsinə yiyələnib Mahmud. 1991-ci ilin mayında Ukraynada əsgəri xidmətdə olsa da el-obamızı bircə gün də yadından çıxara bilməyib. Od içində inləyən torpaqlarımızın harayı altı aydan sonra Mahmudu da azərbaycanın qeyrətli oğulları ilə birgə Vətənə çağırıb. Doğma el-obaya qayıdan kimi milli ordumuzun Cəbrayıldakı batalyonuna üz tutub.

Fatma ana deyir ki, bizim nəsil ermənilərin fitnə-fəsadı ilə hələ 1918-ci ildə üzləşib. Mükəmməl dini təhsil alan atam Məşədi Allahyar, anam Bədircahan Sisyan rayonundakı dədə-baba torpaqları Vağüdü kəndindən o vaxtlar qovulanda Çullu kəndinə pənah gətiriblər. Fatma ana bizimlə görüşəndə ürəyi odlana-odlana nağıl edirdi ki, anam Badircahan doğma yurd yerlərinin həsrətinə heç tablaşa bilmirdi. 1988-ci ildən on səkkizinci il faciələrinin təkrar olunduğunu görüb üzünü göyə tutataq:

– Sənə qurban olum, ay allah, – demişdi. Torpağımıza tamah salan düşməni kor elə, qalsın öz başının həşirinə. Ermənistandakı dədə-baba torpaqlarından zorla qovulan soydaşlarımızın müsibətini eşidəndə anam tay dözə bilməyib dünyasını dəyişdi. Bizdən də, o vaxtlar qürbət eldə olan nəvəsi Mahmuddan da nigaran getdi. Yaxşı ki, Mahmudun faciəsindən xəbəri olmadı, yoxsa qəbri od tutub yanardı Bədircahan qarının...

Hər dəfə komandirlərindən icazə alıb bir neçə saatlığa evlərinə gələndə Çulluda böyük-kiçik hamı tamaşasına durardı Mahmudun. Hündür boylu, yaraşıqlı sir-sifəti varıydı. Elə boynuna və hünərinə görə də qabaqda gedərdi həmişə. Bir dəfə anası Fatma bacıya deyib ki, ermənilər körpə uşaqları turbaya yığıb onlara divan tutublar. Ölməyib qalsam onlara divan tutacağam. Sözünün ağasıydı Mahmud. Sur döyüşündə əvvəldən axıra kimi döyüşün ən qızğın yerlərində olmuşdu. Necə düşmən quldurunu cəhənnəmə vasil eləmişdi. Mübariz vurulanda qışqırıb demişdi ki, onun qanını almasam burdan geri dönən deyiləm. Dağtumasdan olan Şərif sağlığında deyərmiş ki, Mahmud yanımda olanda vallah ölümdən bircə tikə də qorxmuram. Belə oğula süd verən anaya qurban olum. Mahmud qranatamyotun dilini gözəl bilirdi.

Demə amansız ölüm erməni qiyafəsinə girib qabaqara izləyirmiş Mahmudu. 1992-ci ilin avqustunda addım-addım öz ölümünə yaxınlaşırmış bu igid oğlan. Şişdağ əməliyyatı başlayanda Elşənlə, Savalanla, Pəhləvanla, Ariflə....birlikdə düşmənin sığındığı qayalara tərəf irəliləyirdi. Döyüşlərin qızğın çağında düşmənin atdığı sərrast güllə sinəsinə sancılanda Mahmud arzularını söyləməyə macal tapmadan dünyasını dəyişdi. Döyüşçü dostları bu igid oğlanın meyitini düşmən caynağından qopara bildilər...

O qızmar yay günlərində Çullu kəndini bir ana faryadı gəzib dolaşdı:

*Səndən sonra kəsilib*
*Səsim-ünüm, Mahmudum.*
*Səndən sonra başlayıb*
*Qara günüm, Mahmudum.*

*Dağı duman almayıb,*
*Əkdiyin gül solmayıb.*
*Adına qurban olum,*
*Adın yerdə qalmayıb.*

Fatma ana düz deyirdi. Torpaqlarımızın bütövlüyü uğrunda canından keçən Allahverdiyev Mahmudun adı yerdə qalmadı. Çullu camaatı kənddəki məktəbə özlərinin şəhid oğullarının adını verməklə onun xatirəsinə ehtiramlarını bildirdilər...

Çullu kəndinin dağ yamacına sığınan ulu qəbiristanından bir şəhid məzarı zirvəsi dumanlı- çənli dağlara boylanır. Elə bil özünün gor evindən səhər-axşam o dumanlı dağlara üzünü tutan igid el oğlumuz Mahmudun yarpaq hənirli səsi qayaların daş yaddaşında yaşayır.

*Üzü bəri baxan dağlar,*
*Mənim sizdə nəyim qaldı.*

Deyən bu haray, bu səs elimizi-obamızı oymaq-oymaq dolaşmaqdadır.

# TORPAĞIN QANLI KÖYNƏYİ



***Allahverdiyev Hikmət Əsəd oğlu***
***(17-01.1965-28-07-1992)***

– Salam, Hikmət!

– Salam, əzizim!

İki ürəyin ritmləri bir anlıq birləşən əllərdə duyuldu.

– Çoxlu gözlətdim səni, Hikmətim!

– Əzizim, özün ki,bilirsən ömrüm boyu səni gözləməkdən yorulan deyiləm.

Bu dəfə baxışlar uc-uca düyüldü. Əl-ələ tutuşub Bəhramgur heykəlindən üzüyuxarı qalxdılar. Hər şeydən danışırdılar – bir neçə aydan sonra olacaq toylarından, istəklərindən, cəbhə yeniliklərindən... Və bircə sabahkı ayrılıq gününü yada salmamağa çalışırdılar. Gəlib 20 yanvar şəhidlərinin qəbirlərinə çatanda tay susdular. Azadlıq yolunda şəhid olan igidlərimizin qara mərmər üzərində donan şəkillərinə baxa-baxa axıra çatanda hər ikisinin gözlərindən dərin bir hüzn boylanmaqda idi. Qız əlindəki qərənfilləri İlhamla Fərizənin qəbri üstə qoyub:

– Allah hamınıza rəhmət eləsin – dedi – cavanlarımız qeyrətdə sizə çəksinlər, ancaq taleyiniz bir də kiminsə ömründə təkrar olunmasın...

– Amin!- bu sözü də Hikmət dedi və dönüb baxanda sevgilisinin kirpiklərindən aşağı yuvarlanan inci damlalar ürəyini yandırdı. Utanmasaydı cib yaylığını çıxarıb gözlərini silərdi sevdiyi qızın...

Sonra aşağı cərgələrdə sıralanan şəhid məzalarını ziyarət eləyib gəldikləri yolla geri qayıtdılar. Ayrılmaq vədəsi çatanda Hikmət sevgilisini bağrına basıb:

– Bilirsən ki, sabah Ağdərəyə yola düşürəm-dedi, sən allah, özünü özmə, tez-tez zəng edəcəyəm. qardaşım Qənimətin telefon nömrəsi səndədi, utanma hərdən zəng edib, məni soruş...

– Hikmətim, ayrılıq da ölümə bənzəyir, yadında saxla ki, səni bu dünyada canından artıq sevən bir qız var. Ölsəm torpağın, qalsam səninəm. Qurban olum, özünü qoru, məni gözüyaşlı qoyma...

Hikmət sevgilisinin əlini sonuncu dəfə ovcunun içərisində sıxıb:

– Arxayın ol, allah sevənlərin tərəfindədir, gözlə, tezliklə qayıdacağam...



Və bundan sonra ayrıldılar...

O sonuncu görüşə qədər Hikmət bu dünyada iyirmi altı ildən bir az artıq ömür payı yaşamışdı. Yaşadığı illər ömür yolunda neçə-neçə iz salmışdı...

Dünyaya Cəbrayılın Qaracallı kəndində göz açmışdı Hikmət. Atası Əsəd müəllim kəndin ötkəm ağsaqqallarından idi. Uzun müddət kənd məktəbində direktor işləmişdi. 20 yanvardakı hadisələr saf ürəkli Əsəd kişiyə elə ağır gəlmişdi ki, elə bilirdi ki, sinəsindən daş asılıb. Elə şəhidlərimizə yana-yana da dünyasını dəyişdi Əsəd müəllim. Mənzər ana Hikmətlə yanaşı qalan altı balasının xoşbəxtliyi üçün həyatda kirpiyiylə od götürmüşdü. Böyük oğlu elm dalınca getmişdi-müdafiə edib iqtisad elmləri namizədi olmuşdu. İndi Bakıda yaşayır. Kiçik oğlu Farizi gözündən qırağa buraxmamışdı ana. Kənddə sürücü işləyir indi. Qızları Laləzar, İmarət, Şayəstə tibb bacıları idilər-yaşadıqları kənddə ev-eşik sahibi olublar. Ananın sonbeşiyi Kifayət fizika-riyaziyyat möəllimədsidir. Atası Əsəd müəllimin yolunu davam etdirir. Mənzər ananın nəzərində oğlu Hikməti bötön uşaqlarından fərasətli çıxmışdı. Elə rəhmətlik Əsəd möəllim özö də Hikməti övladlarının hamısından çox istəyirdi. Bu istək Hikmətin əllərindən yapışıb irəli aparmaqda idi. Orta məktəbi bitirdikdən sonra Hikmət bir il kənddə qalıb kolxozçu işlədi. Sonra 1983-85-ci illərdə "Qırmızı Ordu"da qulluq edib Bakıya qayıdır və Azərbaycan Dövlət Tibb Universitetinə qəbul edilir. Üçüncü kursun sonunda əla qiymətlərlə oxuduğundan onu Saratov Tibb Akademiyasının hərbi-tibb fakültəsinə göndərirlər. akademiyanı qırmızı diplomla qurtarıb Zaqafqaziya hərbi hissəsinə təyinat alır...

Xidmət etdiyi vaxt Sovet Ordusunun törətdiyi cinayətlərin dönə-dönə şahidi olur. Bu cinayətlərdən biri də Akstafanın Saloğlu kəndində törədilmişdi o vaxtlar. Silah anbarının partlayışı çoxlarını yerlə yeksan eləmişdi Saloğluda. Onda ulu tanrı Hikmətin tərəfində olmuşdu-o, bu xatadan salamat qurtarmışdı. Respublikamızın suverenliyinə qarşı törədilən bu təxribatdan sonra Hikmət sovet ordusunda hərbi həkim kimi işləməkdən imtina edib öz milli ordumuzda xidmətə başlayır. Həmin günlərdə Hikmət Qazax, Akstafa və Şəmkir rayonlarındakı xalq cəbhəsi üzvləri ilə sıx əməkdaşlıq edərək torpaqlarımızın qorunması naminə yorulmadan çalışır. Hikmətin yurdsevər olduğunu həmin bölgələrdə indi də yaxşı xatırlayırlar...

Sonra Hikmətin hərbi həkim işlədiyi hissə hansı qüvvələrin təsiriylə ləğv edilir və bu vətənpərvər oğlan iki ay işsiz qalır.

**Haşiyə:** burada necə deməyəsən ki, İlahi, sən bizi "sapı özümüzdən olan bata"lardan qoru, Hikmət kimi mütəxəssislərə ehtiyac duyulduğu bir vaxtda o, özünün sağlığında dediyi kimi iki ay Müdafiə Nazirliyində bürokratlarla kabinet döyüşləri aparır. Ona təklif edirlər ki, Bakı şəhərində qalıb hərbi qospitalda işləsin. O bütün varlığı ilə buna etiraz edib:

– Axı, siz cəbhənin od-alovundan uzaqsınız. Kaş orda nələr olduğunu öz gözlərinizlə görəydiniz, hamımız Bakıda qalacağıqsa bəs, orda qanına qəltan olan igidlərimizi kim xilas edəcək – deyir.

Hikmət həmin gönlərdə ADTU-nun o vaxtkı rektoru Yaqub Məmmədovla da bir neçə dəfə görüşüb təklif edir ki, Tibb universitetində səhra qospitalı özrə terapevt həkimlər hazırlansın. Lakin Hikmət bəyin təklifinə laqeydlik göstərilir.

Hikmət Allahverdiyev nəhayət Müdafiə Nazirliyinin təyinatı ilə hərbi həkim kimi Qarabağın qaynar nöqtələrinə yola düşür. Tərtərdə və Ağdərədə aparılan uğurlu hərbi əməliyyatlara həkim-döyüşçü kimi qeyrətlə vuruşur, yaralı əsgərlərimizi həyata qaytarmaq üçün dəfələrlə ölümlə və bir də erməni quldurları ilə öz-özə dayanır...

1992-ci ilin iyirmi səkkiz iyulunda Ağdərədəki Kasapet kəndi uğrunda qanlı döyüşlər gedirdi. Düşmən igid oğullarımızın təzyiqinə davam gətirməyib geri çəkilirdilər. həmin gün yağış kimi yağan güllələr altında mərdliklə dayanan qeyrətli oğullarımızdan biri də Hikmət idi. O, yaralı əsgərlərimizi döyüş meydanından çıxarır, onlara ilk tibbi yardım göstərirdi. Axşamüstü əsgərlərimizin cərgəsində mətanətlə dayanan Hikmət Allahverdiyevi düşmənlər qətlə yetirdilər. Bir türk oğlunun Vətən torpağına sipər olan odlu ürəyi döyünməkdən qaldı...

Qaracallı camaatı şəhid eloğullarının ölümündən sarsıldılar. Kəndin qeyrətli oğulları düşməndən Hikmətin qisasını almaq üçün silahdan daha möhkəm yapışdılar. Qaracallıdan uzaqlarda yaşayıb bu torpaqda gedən döyüşləri ürək çırpıntısı ilə izləyən bir qız sevgilisi Hikmətin yadigar şəklini dodaqlarına söykəyib zülüm-zülüm göz yaşı axıtdı. Gönlərin birində o qız tay özünü saxlaya bilməyib Hikmətin məzarı üstə gəldi. Göz yaşlarıyla Hikməti haraylayıb:

– Daha səndən sonra bu dünyada yaşamağım mənasızdır-dedi.

Mənzər ana saçlarını yola-yola

– Hikməti niyə mənə çox gördün, ilahi, axı o balalarımın gözü idi – deyib şivən qopardı. Qardaşı Qənimət siqareti siqaretə caladı o gün. Bacıları Laləzar, İmarət, Şəyəstə, Kifayət Hikməti ağılarda öpüb oxşadılar. Kiçik qardaşı Fariz: Qağamın qisasını özüm alacağam –dedi.



Həmin gön yer üzündə bir şəhid qəbri də artdı. Torpaq ana Hikmət balasının qanlı köynəyini o şəhid məzarında bağrına basıb göz yaşı axıtdı. Şəhid oğullarımızın qanı çilənən Ağdərəyə, Tərtərə, Gülablıya, Cəbrayıla, Sədərəyə bulud haraylı leysan yağdı o ki, var...

Dönyagörmüş, ağzıduală nənələr o leysanlı gündə əllərini tanrı dərgahına uzadıb:

– Qurbanı olduğumuz şəhid balalarımızın ruhuna sərinlik gətirir-dedilər. o nahaq qanı yerdə qoyan deyil.

## ÖMRÜN ŞƏHİDLİK ÇAĞI

**Allahverdiyev Elşən Güloğlan oğlu**

***(1973-18.08.1992)***



Elşən Araz vadisi boyunca gündoğandan günbatana altı-yeddi kilometr uzanan Böyük Mərcanlı kəndində dünyaya göz acıb. Sol tərəfindən bahardan qışa kimi bulanıq sularının diliylə min bir nəğmə deyən Xan Araz, sağında üzü Ziyarata səmtləndikcə pillə-pillə yüksələn təpəlikləri boylanır bu kəndin. Dədə-babadan yaylaqdan-qışlağa uzanan el yollarında sürü haylayan camaatın sonrakı taleyi torpaqla, onun ruzusi ilə bağlı olub. Əllinci illərin ortalarında Ermənistanın Sisiyan, Əzizbəyov rayonları ərazisindəki ulu dədə-baba torpaqlarından əli üzülən kənd camaatı bu itki ilə barışmayıb. Əslində elə 1989-cu ilə kimi yaylaq yolları yenə də Sisyandakı Pəni, Qısır, Erkək qala yurd yerlərinə uzanıb.

1973-cü ildə dünyaya göz açan Elşən Allahverdiyevin ömrünün on-on iki ili Mərcanlının Ermənistandakı ulu yurd yerlərində keçib. İllər boyu yay aylarında rəhmətlik çoban əmisi Xaləddinin köçünə qoşulub haça bel dəvənin üstündə yaylaqlara yollanıb. Onda ağlına da gəlməyib ki, əmisinin çadırında, ocaq başında yağlı qabırğa kababı yeyə-yeyə xalqımıza yarınan Aşot, Benik kirvələr bir neçə ildən sonra duz-çörəyə dönük çıxacaq. Onda ermənilərin bizlərə "Barev" verən vaxtları idi. Onda ulu yaylaqların

bəxtəvər çağları, dövrü idi. Onda obaların ellərin "bir bayraq altında" çal-çağır dövrü idi...

Elşən gözünü açandan zəhmətlə ülfət bağlamışdı. O, əvvəlcə əmisinin qoyun-quzu sürülərinin arxasınca əlindəki kiçik dəyənəyini sürütləyə-sürütləyə elat yolları ilə addımlayırdı. Belə vaxtlarda böyüyəndə könlündən çoban olmaq arzusu boylanırdı. Ancaq kənd məktəbinə yolu düşəndən üç-dörd il sonra atası Güloğlanın dülgərlik peşəsinə aludə oldu və bir də onda xəbər tutdular ki, Elşən əməlli-başlı usta olub qapı-pəncərə düzəldir, ev tikir. Səkkizinci sinfi bitirəndən sonra tay oxumadı-kənddə atası ilə birlikdə camaata yurd-yuva tikməyə başladı.

Onun əllərinin ilk düyünləri evlərin divarına, damına, qapı-pəncərəsinə köçüb yaşamaq haqqı qazandı.

Azğın ermənilərin torpaqlarımızda törətdiləri vəhşiliklər olmasaydı bəlkə də Elşən sevimli dülgərlik peşəsindən ayrılmaz, eloğlularına illər boyu ev-eşik tikməkdə kömək edərdi. Əgər yurdumuza yağı ayağı dəyməsəydi Elşən günlərin birində qabarlı əlləri ilə özünə də bir ev tikər və bir payız günündə çoxdan bəri gözaltı elədiyi qonşu qızı ilə toy edib ömür-gün sürərdi. Azğın erməni faşistlərinin Xocalıda, Şuşada törətdikləri vəhşilikləri eşidəni, mişarı yerə qoyub əlinə silah götürdü. 1991-ci ilin may ayının sonralarından ordumuzun Cəbrayıldakı hissəsində qulluq etməyə başladı. Əvvəlcə kəşfiyyat bölməsində fəallıq göstərdi. Kəşfiyyatçı yoldaşları ilə birlikdə dəfələrlə düşmən mövqeləri haqqında məlumat topladı. Dəfələrlə düşmənlə üz-üzə gəldi, Ulu tanrı onun tərəfində oldu-döyüşlərdən sağ-salamat döndü.

Azğın düşmənlə vuruşmada həlak olan, yaralanan, itkin düşən eloğlu - larının qisasını almaq üçün snayperlik peşəsinə yiyələndi və öz "aynalı"sı ilə erməni dığalarına divan tutdu. Ötən ilin yayında Sur əməliyyatında yaxından iştirak etdi. Atdığı sərrast güllələrlə düşmənə qan uddurdu və Ağ yoxuşda qəlpədən yüngülcə yaralandı. Bir həftəlik müalicədən sonra yenidən torpaqlarımızın bütövlüyü keşiyində dayandı...

1992-ci ilin on beş avqustunu Cəbrayılda yaxşı xatırlayırlar. Həmin bürkülü yay günü Cəbrayıl torpağına müsibət gətirmişdi. Şişqaya yüksək - liyi uğrunda döyüşlər gedirdi. Yüksəklikdə əlverişli mövqelər tutan erməni dığaları igidlərimizi qanlarına qəltan etməkdə idilər. döyüşçülərimiz hər qarış torpaq uğrunda ölüm-itim savaşına çıxmışdılar. Igid əsgərlərimiz xeyli canlı tələfat versələr də düşmənə irəliləmək imkanı vermədilər.

Şiş-qaya döyüşlərində Elşən düşmən mövqelərinin beş-on addımlığında



həlak olsa da onun meyidini əldə etmək mümkün olmurdu. El-oba, qohum-qardaş düz iki həftədən sonra Elşənin və onun şəhid yoldaşlarının meyidini min bir əziyyətlə murdar erməni caynağından qurtarıb ana torpağa tapşırdılar. Güloğlan kişi əsl ata təmkini göstərdi. Gözlərinin yaşını qəlbinin dərinliyinə axıda-axıda:

–Oğlum ölməyib, şəhidlik ömrü qazanıb-dedi. Təki Vətən sağ olsun, yerdə qalanlarımız yaşasınlar, oğullar dar ayaqda torpağa çəpər, düşmənə sipər olmalıdılar....

Ömrünün on doqquzuncu baharında ömrün şəhidlik zirvəsində ucalan qeyrətli kənd cavanları Azərbaycanın Milli Qəhrəmanı Kazım Məmmədovla, Elşən Allahverdiyev doğma kənd qəbristanında ömrün şəhidlik çağlarını yaşayır.

Elə bil başdaşlarındakı əl boyda şəkillərindən boylanan bu cavanlar buraya yolu düşənlərə pıçıltılı-pıçıltılı:

***Dərə olsun, dağ olsun***
***Hər bir tərəf bağ olsun***
***Təki şəhid biz olaq –***
***Təki Vətən sağ olsun-deyirlər...***

# BIR HƏZİN NƏĞMƏYƏ BƏNZƏYƏN OĞLAN



**Allahverənov İlham Rəşid oğlu**
***(06.1972-03.07.1992)***

– Alo.....alo...
– Buyurun, eşidirəm, kim lazımdır sizə?
– İsmayıl İmanzadə, ya da Tariyel Abbasov.
– Hər ikimiz burdayıq, buyurun sözünüzü deyin.

Zəng vuran adam hardasa rayon mərkəzindən uzaq kəndlərdən idi. Səsi sərt keçən bu ilki yanvarın özü kimi adamı üşüdürdü. Bir ara xəttin o üzündən gəlib çıxan titrək səs elə bil itib-batdı, sonra isə dəstəkdən xışıltı qarışıq kəlmələr sapa düzüldü:

– Hovuslu kəndindən danışıram. Şəhid Allahvərənov İlhamın atası Rəşid kişiyəm. Eşitdim ki, rayonumuzdan olan şəhid balalardan kitab yazırsınız ha istədim yanınıza gəlim, yollar buz bağladığından mümkün olmadı. Oğlum haqqında topladığımız sənədləri bu gün Eldar müəllimdən göndərmişik, yəqin ki, çatdıracaq-deyən o kövrək səs bir anlıq kəsildi. Sehirli xətlə ürəyimizdən keçən sualı çatdırmaq üçün:

– Rəşid qağa, dedik, oğlunuz yadınızda necə qalıb?

Sual yanımızdan otuz kilometrlik uzaqda telefon dəstəyindən asılı qalan adamı elə bil dirigözlü yandırıb yaxdı. Dərindən çəkilən ahın bir qalam közünün şöləsi gözlərimizin qabağında qəfil şimşək kimi çaxdı.

– Oğlum İlham bütün əlamətləri ilə yadımızdadır. İyirmi il boy-buxununa tamaşa etdiyim şəhid balamın üzünün ən kiçik ifadəsi də, həzin bir nəğmə kimi pıçıltılı səsi də ölənə qədər yadımdan çıxası deyil...

Rəşid kişinin səsi elə bil şüşə kimi düşüb çilikliklındi. Haçandan-haçana:

– Anası Güldəstə indi istəməsin, rəhmətliyin xətrini yaman istəyirdi. Mənə deyib ki, balamdan kitab yazan qardaşlarıma çatdır ki, oğlumun dəfnində dilimdə göyərən bu ağını da yazıya köçürsünlər:



*Min fitnə quran fələk,*
*Üzümə duran fələk*
*Sinəm üstə dağ çəkib,*
*Belimi qıran fələk...*

– Alo, alo Rəşid kişi...uzaqdan gələn o hüznlü səs bu dəfə elə bil min yerdən qırıldı. Dəstəkdən kəsik-kəsik hənir eşidildi: du...du...du...

Cəbrayıllı şəhidlər haqqında toplanan yazıları araşdırıb İlhamın ömür yolundan söz açan tərcüməyi-halı gözdən keçirməyə başladıq.

İlhamın ömrünün kövrək izlərindən.

1972-ci ilin payızında Hovuslu kəndində anadan olub. Kənd məktəbinin səkkizinci sinfini qurtarandan sonra təhsilini Sarıcallıdakı 131№-li texniki peşə məktəbində davam etdirib. Burada çilingər-mexanik ixtisasına yiyələnib.

Torpaqlarımızın sinəsi azğın ermənilərin yağdırdıqları güllələrdən şan-şan olanda İlham da dözə bilməyib 1992-ci ilin iyununda Cəbrayıldakı hərbi hissəyə gəlib yurdumuza sipər oğulların sırasına qoşulub...

İşlədiyimiz otağın qapısı açıldı və Hovusludan bizə İlhamın sorağını gətirən Eldar müəllim içəri daxil oldu. Çoxdan bəri dost bildiyimiz, gözəl şeirlər müəllifi Eldar Məmmədvəliyev yaddaşında donub qalan İlhamla bağlı xatirələrin işığında sözləri isidə-isidə:

– İlhama mən də dərs demişəm. Çox mülayim, zəhmətkeş, vətənpərvər oğlan idi. Torpaqlarımıza yağılar həmlə etdiyi gündən eynəsi açılmırdı...Cəbhəyə yollananda ona xeyir-dua verənlərdən biri də mən idim. İlham bizdən ayrılanda:

– Məndən nigaran qalmayın, - dedi-qələbə gününə kimi vuruşacağam. Ölsəm də şəhid kimi öləcəyəm...

İlham dediyi sözün üstündə kişi kimi durdu. Arzuladığı günə əli çatmasa da, ömrün şəhidlik zirvəsinə qovuşdu. Həyatının sonuncu on səkkiz günü onun həzin bir nəğməyə bənzəyən ömür yolunu yaddaşlara köçürdü. 1992-ci ilin üçü iyul səhəri İlhamın bu dünyada sonuncu günü oldu. Döyüş meydanında zədələnən tankı yağış kimi yağan güllələr altında çıxarmağa gedəndə düşmən onu alnından vurdu. Ata yurdu Hovuslunun qəbiristanında uğrunda canından keçdiyi torpağa tapşırdılar onu. Hovuslunun İlham adlı şəhid oğlunun bir obaya sığışmayan ünvanı həzin bir nəğmə kimi dildə, ağızda gəzməyə başladı...

## YURDUNU ÜRƏKDƏN SEVƏNLƏR ÖLMÜR...



**Aslanov Şikar Davud oğlu**
***(10.06.1970-02.07.1992)***

Ötən ilin iyul ayının axırlarından Cəbrayıl camaatının torpağımız uğrunda canlarından keçən igid eloğullarımıza göz yaşı axıtdıqları bir vaxtda şəhid bacısı Nətəvan bu yazının müəlliflərindən birinin – İsmayıl İmanzadənin iş yerinə gəlib:

– Rəhmətlik Şikarın bacısıyam – dedi-qardaş, qurban olum, ha ağlayıram ürəyim soyumur, mənə qağamla bağlı, ağı yaz, ağlayım, bəlkə ürəyim soyuya...

Şikar elə hünərli oğul idi ki, o ağıya torpağa sığası deyildi. Şəhid bacısının istəyinə əməl edib hər kəlməsindən göz yaşımız boylanan misraları yazıb Natəvana çatdırdıq. Bu ağılar şəhid qardaşımız Şikarın yarımçıq ömrünün pıçıltısı, bu nisgildən ürəyi göynəyən ana-bacılarımızın harayı idi:

*Dağlar duman içində,*
*Qəlbim güman içində,*
*Yaralarım sağalmaz-*
*Məzarım qan içində.*

*Halım pərişan oldu,*
*Bağrım başı qan oldu-*
*Sinəm torpaq yolunda-*
*Gülləyə nişan oldu.*

*Bulaqda daş qurumaz,*
*Başımda saç qurumaz*
*Şikarım yaralıdır-*
*Gözümdə yaş qurumaz.*



*Bu necə gündü, qardaş*
*Dağ-dərə dindi, qardaş,*
*İyirmi iki yaşında-*
*Ölmək çətindi, qardaş...*

*Ellərin gözü qardaş*
*Ocağın közü qardaş*
*Qayıt gəl, evimizə-*
*Sevindir bizi, qardaş.*

*Bu bəla nəydi, allah*
*Qəddimi əydi, allah*
*Surdan güllə atıldı-*
*Sinəmə dəydi, allah*

*Dövlətim, varım qayıt*
*Qeyrətim, arım, qayıt*
*Gözümü yolda qoyma-*
*Qayıt Şikarım, qayıt.*

*Bircə ovuc suyam mən,*
*Dərdin açısıyam mən*
*Qəlbimə söz tez dəyir-*
*Şəhid bacısıyam mən...*

Bu Şikarlı ağılar Natəvan bacımızın dilində, dodağında göyərdi və günlərin birində o bizimlə görüşəndə:

– Sağ olun – dedi – Elə bilirəm qağamı dirildib mənə qaytardınız...

Biz ömrünün ilk gənclik illərindən taleyinə şəhid bacısı olmaq yazılan Natəvan bacımıza təsəlli verməyə çalışıb:

– Şikar kimi oğullar heç vədə ölmürlər, el-obanın məhəbbətində əbədi ömür yaşayırlar – dedik.

Natəvan bacımız sinə dolusu köks ötürüb:

– Qağam yurdumuzu fanatikcəsinə sevirdi-dedi Respublikamızın müstəqilliyi, ərazi bütövlüyü üçün hər dəqiqə canından keçməyə hazır idi. Biz ona, "ehtiyatlı ol, özünü qoru"-deyəndə -Vətənsiz, torpaqsız biz heç nəyik torpaq əgər qorunmursa bizim yaşamağımız mənasızdır-deyərdi. Elə

bu amalla da düşmən üstünə gedərdi...

Şikar Aslanov Cəbrayılın dağlar qoynuna sığınan axarlı-baxarlı Süleymanlı kəndində dünyaya göz açıb. Atası Davud müəllim xeyirxah kişi olub. İmkanı dairəsində əl uzadana əl tutub, yıxılanın, büdrəyənin qolundan yapışıb. Süleymanlı kəndindən bir az yuxarıda yerləşən Surda xeyli erməni dost-tanışı da olub. Çörəkləri dizlərinin üstə olan erməni "dostları" sonralar Davud müəllimin yaşadığı kəndi güllə yağışına tutub, neçə-neçə yurdun külünü göyə sovurublar. Onun şümal boylu oğlu Şikarı qanına qəltan ediblər. düşmənin mərkli sifəti üzə çıxanda bu torpağın qeyrətini qoruyan Şikar da başqa həmyerliləri kimi silaha sarılıb. Bir vaxtlar – 1988-90-cı illərdə uzaq Rusiyada hərbi qulluqda olarkən dözülməz əsgər həyatının çətinliyinə öyrəşməyi karına gəlib. Vətənimizin başı üstündə erməni kabusunun dolaşdığı bir gündə-1991-ci ilin fevral ayında Cəbrayıl Daxili İşlər şöbəsinin post-patrul xidməti rotasında fəaliyyətə başlayıb. Keçmiş Hadrut rayonunun Daşbaşı, Zamzur, Sur, Ağcakənd kəndlərində pasport rejiminin yoxlanması və qanunsuz silahların yığılması məqsədiylə keçirilən əməliyyatlarda Şikar da yaxından iştirak etmişdir. Yüksək fəallıq və qətiyyət göstərərək döyüş dostlarıyla birlikdə bölgədə on yaşayış məntəqəsini erməni yaraqlılarından tamamilə təmizləmişlər.

Şikar Aslanov bu torpağın cəsur oğlu kimi xidmətə başladığı gündən ən qaynar nöqtələrdə olmuş, yüksək peşə hazırlığı, sərrast atıcılıq qabiyyəti və cəsurluğu ilə yoldaşlarını ruhlandırmışdır.

Bu gün Şikar Cəbrayılda hamının sevimlisidir. Qoca da, cavan da məktəbli də onun ölümünə heyifsilənir.

Cəbrayıl rayon Polis Şöbəsinin rəisi, polis podpolkovniki V.Məhərrəmov onun igidliyini xatırlayıb:

– Şikar kimi oğullar Babəkin, Xətainin varisləridir-deyir-onun mərdliyi hamımız üçün örnək idi. Çox soyuqqanlı döyüşçü, istiqanlı dost idi. Döyüş əməliyyatlarında yoldaşlarını qorumağa çalışırdı...

Şikarın həyatının son anlarını hafizəsində yaşadan rayonun baş həkimi H.Əhmədov söz düşəndə:

– Şikar iyul ayının birində keçirilən əməliyyatlarda Sur ətrafında alnından ağır güllə yarası almışdı-deyir. Həmin günlər getsin, bir də qayıtmasın. Cəbrayılın təlatümlü günləri idi. Düşmən şəhəri mərmi yağışı altda saxlayırdı. Xəstəxananın zirzəmisində Şikarı həyata qaytarmaq üçün əlləşirdik. Bu cəsur oğlan son nəfəsdə də torpağımızdan, onun taleyindən nigaran idi. – qoymayın yurdumuza yağı ayağı dəysin-deyirdi. Bu torpaqda



dədələrimizin ruhu yatır. Ölüm aman versə bu murdar ermənilərin axırına çıxacağam...

Ancaq ölüm aman vermədi. İyul ayının ikisində Şikar dünyamızdan köçdü. Sağlığında ölümdən çəkinməyən, sərrast güllələri ilə düşmənə qan udduran bu igid oğlan ömrün şəhidlik zirvəsinə əbədiyyətə qovuşdu....

Bu yurdun, bu torpağın qanlı yaddaşında Aslanov Şikar Davud oğlu şöhrət rəmzinə çevrildi. Azərbaycan Respublikası Prezidentinin 08 oktabr 1992-ci il tarixli fərmanı ilə ölümüylə Cəbrayıla başucalığı gətirən 22 yaşlı bu oğlan "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Qədirbilən Süleymanlı camaatının arzusu ilə ata yurdundakı məktəbə əbədi gəncliyə qovuşan Şikarın adı verildi. Bu ilin əvvəllərində bu məktəbin gözəgəlimli həyətində qəhrəmanın heykəlinin açılışında şəhidin bacısı, Natəvan:

*- Obam Süleymanlıdı,*
*Sinəm üstü qanlıdı,*
*Qardaşım ölməyibdi*
*O, sağdı, o, canlıdı-*

– Deyib Şikarın daşa köçən qaynar gözlərindən öpdü...

Bu gün Cəbrayılda Aslanov Şikarın adı camaatın and-aman yerinə dönüb. Neçə-neçə ailə dünyaya göz açan ciyərparalarına Şikarın adını verib:

– Şikar kimi qeyrətli, cəsarətli oğul olasan deyirlər. Şikarın adı, onun müqəddəs ruhu səngərdə də, qızğın döyüşlərdə də xatırlanır, yad edilir. Azərbaycanımızın firavan günlərini, qələbəmizi görmək istəyilə döyüşlərə atılan şəhid qardaşımızı düşündükcə hər dəfə bu misraların sehriylə nikbin bir ovqatla üz-üzə dayanırıq:

*Həyat öz sirrini yetənlə bölmür,*
*İgidlər məlhəmdir äləmə, dərdə.*
*Yurdunu ürəkdən sevənlər ölmür-*
*Yaşayır əbədi xatirələrdə...*

# "ANA MƏNİ SƏSLƏMƏ"



**Aslanov Azər Hümbət oğlu**
**(1973-15.08.1992)**

– Səxavət bəy, şəhid oğullarımızın sorağıyla yanınıza gəlmişik, bilmək istəyirik ki, onların hansıları daha çox yadınızda qalıb?

Rənginin-rufunun qaralmağından hiss etdik ki, sualımız Cəbrayıl hərbi hissəsinin batalyon komandiri Səxavət Mirzəyevin aylardan bəri qaysaq tuta bilməyən yarasının gözünü qopardı. Dayandığımız yerdən qarlı zirvəsi güclə görünən dağlara tərəf üzünü tutub:

– O qarlı dağların sıldırımlı yamaclarında nər kimi oğullarımızı itirdik-dedi. Mirələmin, Faiqin, Elşənin, Savalanın, Azərin ölümündən sonra vallah özümə yer tapa bilmirəm. bu cür oğullar bir də dünyaya çətin gələrlər. Hərəsi bir qala, bir səngər misallı idi onların. Döyüşlərdə bərkdən-boşdan çıxmışdılar. Hamısıyla duz-çörək kəsmişdik. Tale onları mənə çox gördü. Deyirlər ki, rəhmətlik Aslanov Azərlə daha yaxın olmusunuz.

– Hə, düzdür Daşveysəlli balası Azər ürəyimin özəyiydi. Onda əsl hərbçi duyumu var idi. Çox mehriban, sirr saxlayan idi Azər. Bir dəfə-Səxavət müəllim ötüb keçənləri yada salmaq üçün elə bil yaddaşını ələkdən keçirir, sonra təzədən söhbətin üstünə qayıdır - hə, bir dəfə Azərlə birlikdə kəşfiyyata getmişdik - bu Şişqaya döyüşündən bir az qabaq olmuşdu, sürünə-sürünə düz düşmənin Hadrut yaxınlığındakı postlarına qədər gedib çıxmışdıq. Bizdən beş-on addım qabaqda olan ermənilərin qurbağa qurultusuna oxşar səsləri aydınca eşidiləndə Azər silahı üzünə yaxınlaşdırdı. Qolundan yapışıb pıçıltı ilə:

– Nə edirsən-dedim-onların iki-üçünü cəhənnəmə göndərməkdən kar aşmaz. Axı, biz buraya ayrı məqsədlə gəlmişik...

Düşmənin qüvvəsi barədə xeyli məlumat toplayıb geri qayıdanda sürünməkdən dirsəklərimizin dərisi didim-didim olmuşdu. Azər elə hey deyirdi ki, komandir, qoymadın onda o köpəyuşağının anasını ağladım.. Peysərləri gülləyə elə tuş gəlirdi ki.....



– Şişqaya döyüşündə uğursuzluğa səbəb nə olmuşdu?

– Vallah , indi hər uğursuz döyüşdən sonra xəyanətkar axtarmaq deyərdim ki, mərəzə çevrilib. Şişqaya döyüşündə say-seçmə oğullarımızı itirməyimiz döyüşün yarımçıqlığında idi. Bizə arxadan niyə kömək gəlmədi, niyə nəzərdə tutulduğu kimi Füzuli tərəfdən düşmənə zərbə endirilmədi, hələ də bilən yoxdu....

Səxavət müəllim kövrək baxışlarını başı qarlı uca dağlarda gəzdirərək dərindən nəfəs alıb:

– Azəri heç unuda bilmirəm, hərənin öz qisməti, öz əcəli var, hərdən deyirəm kaş ona atılan güllə mənə dəyəydi. Çox namuslu, qeyrətli oğlan idi. İmkan tapsanız anası ilə görüşün-ağbirçək bir qadındır. Hər dəfə görüşəndə elə bilirəm yaxamdan tutub soruşacaq:

– Niyə qoydun balamı öldürsünlər, axı demişdin ki, onu göz bəbəyim kimi qoruyuram, Ancaq Solmaz ana belə demir. Kövrələ-kövrələ əllərimdən yapışıb:

– Balama qardaş əvəzi olmusan, amandır, özünü qoru, oğlumin qisasını yerdə qoyma-deyir.. Çox ürəyi yuxadır Solmaz ananın. Məsləhət görürəm Azərdən yazanda onunla da görüşəsiniz...

Səxavət müəllimə, onun döyüşçü dostlarına uğur diləyib ayrılandan bir neçə saat sonra Solmaz anayla və Habillə (Azərin qardaşı) görüşüb Azərlə bağlı söhbətimizi təzələdik. Habil Azərin pasportunun arasından çıxardığı şəkli bizə verib:

– Qardaşım boy-buxunda cinara bənzəyirdi. Ukraynanın Xarkov şəhərindəki hərbi hissədə doqquz aydan bir neçə gün artıq xidmət etdikdən sonra hissədə olan on nəfər azərbaycanlı ilə sözü bir yerə qoyub Vətənə qayıtmışdılar. Gəlişindən çox narahat olduğumuzu görüb:

– Vallah, torpağımızın harayını eşidəndə orda dayana bilmədim. Gəlmişəm ki, Yurdumu düşmən tapdağından qoruyam. Qardaşım hələ orta məktəbdə oxuyanda hərbçi sənətinin vurğunu idi. İki gündən sonra Milli Ordumuzun əsgər formasını əyninə geyib kəndə gələndə üzü gülürdü...

Solmaz ana oğlunun şəklini dodaqlarına yaxınlaşdırıb:

– Anası ölmüşün qollu-gövdəli olmağına baxmayın, nə yaşı vardı ki... On doqquzu hələ tamam etməmişdi. 1973-cü ilin uşağı idi. Allah qoysa mayın on səkkizində iyirmi yaşını qeyd edəcəyik Azərin, qoy, heç olmasa ruhu şad olsun: Habil qardaşının adını dilində əzizləyə-əzizləyə:

– Azər ailəmizdəki beş uşağın ən fərasətlisi, ən dilli-dilavəri idi. Kaş görəydiniz orta məktəbdə oxuyanda onun şeir söyləməyini, səhnədə iştirak

etməyini. Musiqini, şeiri çox xoşlayırdı rəhmətlik. Özündən sonra bizə bir cib dəftərçəsi də yadigar qalıb. Qardaşımın kövrək ürəyindən süzülüb gələn neçə-neçə şeiri yaşayır bu dəftərçədə...

Solmaz ana nəmli gözlərini başındakı yaylığının uçu ilə silib:

– Nailəynən Sahibəni heç ovundura bilmirik, yaman istəyirdilər qardaşlarını-deyir. Azərin ciblərindən milli bayrağımızın şəkli və şeir dəftərcəsi çıxmışdı. Nailə dəftərçənin arasından bir gözəl-göyçək qız şəkli də tapmışdı. Arxasında: "Sevgilim Azərə S-dən yagidar-aprel 1991-ci il-Gəncə" sözləri yazılmışdı bu şəklin. Öyrəndik ki, əsgərliyə getməmişdən qabaq Gəncədəki 37 nömrəli texniki peşə məktəbində oxuyarkən sevdiyi qız veribmiş bu şəkli. Tinli kəndindən olan Elşad adlı əsgər oğlan (Gəncədə Azərlə bir yerdə oxuyublar, sonra Cəbrayılda bir yerdə hərbi xidmətdə olublar) deyir ki, o qız Azəri yaman çox istəyirdi. Yəqin ki, indi dərddən ürəyi qovrulur....

– Qardaşımın yaşı az olsa da dost-tanışı çox idi. Evimizə həmişə əsgər dostları Elşadla və Mehdili kəndindən olan İsgəndərlə bir gələrdilər. Azərin ölümündən bir az sonra Sirik postundan geri qayıdarkən İsgəndər özü də həlak oldu....

***Bu dağlar qala əvəzi,***
***Yamacı tala əvəzi***
***Ürəyim alışıb yanır-***
***Nə verər bala əvəzin.***

– deyən Solmaz ana bir himə bənddir ki, hönkür-hönkür ağlasın.

– Oğlunuz, ölməyib, şəhid olub. Şəhidlik yalnız qeyrətli oğullara qismət olur-deyirik.

– Adam da oğlunun ölümünə şükür edərmi, ilahi bu sözləri də Solmaz ana kövrələ-kövrələ deyir. On beşi avqustdan sonra balamın meyitini üç gün axtardıq. Yağı əlinə düşmədiyini görəndə elə bildim Azəri təzədən dünyaya gətirmişəm. İlahi, sənə şükür dedim bax onda. Solmaz ana bir az toxdayandan sonra oğlunun qara xəbərini aldığı günü təzədən yaşayır elə bil.

– Döyüşdən sonra oğlumun meyitini gavur əlinə keçmiş bilirdik. Namərdlər igid oğullarımızın bir neçəsinin meyitini özləri ilə aparmışdılar. Arada xəbər çatdı ki, düşmən deyir diri girov erməni verin meyitləri qaytaraq. Azərimin atası Hümbət kişi onda etiraz edib:

– Onsuz bizə olan olub. Quldurun birini qaytaracağıq sabah da o biri



balalarımızı qanına qəltan edəcək-dedi. Sonrakı gün allah üzümüzə baxdı balamın meyitini salamat tapıb torpağa tapşırdıq...

Taleyin qəribə işləri var-elə bil ölümü əyan imiş Azərə. Şəhid olmamışdan iki gün əvvəl anasına müraciətlə "Ana məni səsləmə" adlı bir şeir yazıb.

*Qəlbimdə min arzu var,*
*Ömrə yoxdur etibar*
*Görsən ki, yoxam daha*
*Qəlbində qəm bəsləmə-*
*Ana məni səsləmə...*

Nə vaxtdır ki, Solmaz ana nə qədər çalışırsa Azər balasının bu sonuncu vəsiyyətinə əməl edə bilmir. Səhər-axşam üzünü dumanlı-çənli dağlara tutub: ömrün şirinliyini duymadan şəhid olan Azər balasını səsləyir...

# ON DOQQUZ YAŞ NƏDİR Kİ...



**Aslanov Novruz Fazil oğlu**
***(06.05.1973-28.06.1992)***

1992-ci ilin iyun ayının iyirmi səkkizi Cəbrayılın qiyamət günüydü desək yanılmarıq. Sur əməliyyatında onlarca igid oğullarımız şəhid olmuş, qeyrətli cavanlarımızın qanları axıdılmışdı. Cəbrayıl şəhərinə "qrad" yağışı düşdüyündən yaralıları mərmi, güllə mənzilindən uzaq Böyük Mərcanlı kənd xəstəxanasında yerləşdirib onlara tibbi yardım göstərirdilər. Xəstəxananın həyətində iynə atsaydın yerə düşməzdi. Havada dövrə vura-vura adamların açıq taladan uzaqlaşmalarını gözləyən tibb vertolyotu nəhayət yerə enə bildi. Heç yarım saat keçmədi ki, xərəkdə uzadılan ağır yaralıları vertolyota daşıyıb Bakıya-hərbi qospitala yola saldılar:

O günləri təkrar yada salanda bəzi mətləbləri açıqlamaq məqsədiylə xəstəxananın baş həkimi Sabir Atalıyevlə görüşdük....

– Deyəsən xəstəxanada dünyasını dəyişənlər də oldu...

– Hə, belələri var idi. Bəhruz adlı bir igidin ölümünü həyəcansız xatırlaya bilmirəm. böyrəyini qəlpə didim-didim eləmişdi. Hiss olunurdu ki, son dəqiqələrini yaşayır. O sonuncu dəfə üzümə baxıb:

– Allahıma şükür edirəm ki, düşmədən qisasımı dönə-dönə aldım. Tay ölsəm də dərdim yoxdu-dedi.

İlham adlı bir gəncəlinin cibindən "Quran" çıxmışdı. Öpüb əzizlədik. Şəhidləri yuyub tabuta qoydu kənd camaatı. Meyitləri yola salanda Sabir adlı bir gəncəli camaatın hörmət-izzətini yüksək qiymətləndirib:

– Bu millətin, bu elin yolunda ölməyə dəyər deyəndə tay göz yaşlarımızı saxlaya bilmədik...

– Həmin gün xeyli şəhid balasını bağrına basdı Cəbrayıl torpağı. Sur döyüşündə düz 22 nəfər igidimiz şəhid olmuşdu, onların içərisində Cocuq Mərçanlıdan olan əmim oğlu da var idi.

– Yəqin ki, Aslanov Novruz Fazil oğlunu nəzərdə tutursunuz? Düzü



yaxın qohumunuz olduğunu indi eşidirik.

– Hə, Novruz mənim dost-doğma əmim oğludur, iyunun 28-də o da şəhid olub...

– Onda zəhmət olmasa indi də şəhid qardaşımız Novruzun həyat yolundan söz açaq...

Sabir həkim Novruzdan onun həyatından, ailə üzvlərindən xeyli danışdı. Bizim gözlərimizin önündə çox yığcam, lakin şərəfli günlər yaşayan nakam bir cavanın ömrünün kövrək izləri dayandı...

Fazil kişinin ailəsində səkkiz uşaq böyüyüb. Onlardan ev sahibi olanı da, məktəblisi də var. Novruz ata-anasının ən istəklisi idi. Üzügülər, zarafatçıl bir oğlanıydı. Kənddə ağsaqqal da, cavan da xətrini istəyirdi onun. Bircə adamın da xətrinə dəyməmişdi. Orta məktəbi bitirəndən sonra Füzuli rayonunun Qarğabazarı kəndində oxuyub sürücülük vəsiqəsi də əldə etmişdi. 1991-ci ilin mayından bu yana düz yeddi ay. Rusiyada hərbi xidmətdə olmuşdu. Respublikamız müstəqillik yoluna qədəm qoyanda Novruz da başqa azərbaycanlı gənclərlə birlikdə vətənimizə qayıdıb gəlmişdi. Kənddəki tay-tuşlarıyla və qohum-əqrabalarıyla görüşəndən sonra Novruz milli ordumuzda qulluq edəcəyini evdəkilərə bildirmişdi. Onu heç kim fikrindən daşındırmağa çalışmadı. Atası Fazil kişi oğlunun mərdlik yağan üzünə iftixarla baxıb dedi:

– Lap yaxşı eləyib gedirsən orduya, vətənimizin bu dar günündə lazım gəlsə oğlumun altısını da döyüş meydanına göndərməyə hazıram. Balaynaz bacı Novruzu yola salanda onun arxasınca bir qab su atıb:

– Ana qurban-dedi-özündən dostlarından muğayat ol. Düşmənin min gizli sifəti var-ehtiyatı əldən verməyin...

Novruz orduda da komandirlərin, əsgər yoldaşlarının rəğbətini qazandı. İntizamlı, cəsarətli bir əsgər kimi ad çıxardı. Dönə-dönə ən qaynar nöqtələrdə, ən təhlükəli mövqelərdə dayanıb düşmənin hərəkətlərini izlədi...

Sabir həkim deyir ki, ölümündən üç gün qabaq kəndə gəlmişdi Novruz. Son günlərdə boyu xeyli uzanmışdı. Üz gözündən nur tökülürdü.

Gedəndə qardaşı Fərəcin fidan balaları Zəkiyyənin və Atamoğlanın üzündən öpüb:-Bəlkə bir də sizləri görmədim"-dedi...O qanlı-qadalı Sur döyüşlərində Novruzun qardaşı Xanlar da iştirak edirdi. Döyüşlərdən bircə gün qabaq gedib qoşulmuşdu əsgərlərə. Yaxşı tank sürməyi, müasir silahlardan istifadə etmək qabiliyyəti var Xanların. Macal tapmamışdı ki, Novruzla görüşüb döyüşə birgə getsin onunla. Qardaşı Xanların Sur

döyüşündə iştirak etməyindən də xəbərsiz idi Novruz. Elə xəbər tutmadan da şəhid oldu Sur döyüşündə.

Novruz ən igid oğullarla birlikdə lap qabaqda, düşmən səngəri yaxınlığında şəhid olmuşdu. Bir neçə qeyrətli igidlərimizlə yanaşı onun da meyiti düşmən çalağanlarının caynağına keçmişdi. Vaqif Əlisoyun və digər AXC fəallarının köməyi sayəsində Novruzun meyitini dörd gündən sonra geri almaq mümkün oldu...

Şəhid Aslanov Novruzu Cocuq Mərcanlının ulu Lələ təpəsindəki kənd qəbirstanlığında dəfn etdilər. Atası Fazil kişi:

– Oğlumu ağlamayın dedi- o qeyrət üstə şəhid olub. Belə oğullar doğulduqları torpağa başucalığı gətirirlər...

Bir neçə aydan sonra Novruzun müqəddəs adı bir vaxtlar oxuduğu doğma kənd məktəbində əbədiləşdi. Bu igid oğlanın xatirəsi hər evdə, hər ailədə əzizləndi. Analar dünyaya gələn övladlarına Novruz adı verdilər ki, bu oğullar böyüyəndə onun kimi hünərli olsunlar...

Təkcə Novruzun ana nənəsi Gülən qarı ovuna bilmir hələ də. Cocuq Mərcanlıdan baxanda aydın görünən Lələ təpəsindəki o şəhid qəbrinə üzünü tutub:

*Bir vaxtlar təzə-tərdin,*
*Gül əkib tikan dərdin,*
*On doqquz yaş nədir ki,*
*Nə yaşadın, nə gördün –*

– Deyə-deyə Novruz nəvəsini şirin bir yuxu kimi xatırlaya-xatırlaya xəyalən öpüb oxşayır...



## NAĞILLARA SIĞAN ÖMÜR

**Veysəlov Əsgər Tahir oğlu**
***(13.03.1971-10.09.1991)***



Bu dünya başdan başa nağıldır-deyiblər. Gözümüzü açandan şirin-şəkər nağılların sehrinə düşürük. Bəlkə də elə buna görədir ki, ömrümüz boyu uşaqlıqda nənələrimizdən eşitdiyimiz nağılların ovsunundan qurtara bilmirik. Bu nağıllardan Babək hünərli, Xətai qüdrətli, Koroğlu haraylı ər oğullarımızın səsi-sədası gəlir. Qəlbimizdə, ruhumuzda yaşayan şəhid nağıllarından üçünü də biz sizə ərmağan veririk....

### Birinci nağıl

Biri varıydı, biri yoxuydu dünyanın qarışıq vaxtlarında Ziyaratdan üzü aşağı sıralanan dağların qolları arasındakı Cəbrayıl şəhərində Veysəlov Əsgər Tahir oğlu adlı bir oğlan varıydı. Atalı-analı bəxtəvərliyini yaşayan ortaboylu, sarıyanız bu oğlan buğum-buğum böyüməkdə, boy atmaqda idi. O, hələ bu qarı dünyanın üzünün qırışlarından xəbərsiz idi. Onun nəzərində hər şey nağıla bənzəyirdi. Cəbrayıl şəhər orta məktəbini bitirəndən sonra oxuyub sürücülük peşəsinə yiyələnmişdi. Sovet imperiyasının amansız qanunlarının hökmü ilə onun həyat yolu Macarıstan adlı qərib bir ölkədən də keçmişdi. O, burada düz iki il əyninə sonra 1990-cı ilin 20 yanvar qırğınını törədən ordunun əsgər mundirini geyməli olmuşdu. Uzaq ölkədən yazdığı məktublarla evdə qoyub getdiyi doğmalarını ovundururdu. Sonra yenidən ata ocağına pənah gətirdi. Buraya qayıdanda gözəl Qarabağımızı od içində gördü...

### İkinci nağıl

Əsgər əzəl gündən hiss etdi ki, hadisələrdən kənarda qala bilməyəcək. Elə ona görə də öz arzusu ilə Zamzur milis bölməsində əməkdaşlıq etməyə başladı burada daş da, torpaq da yaralı idi. Ana torpağın yarasının qaysaq tutması üçün

Əsgər kimi oğullarımız gecə-gündüz hiyləgər erməni quldurlarının addımlarını izləyirdilər. O vaxtlar igidlərimizin erməni əsarətindən xilas etdikləri Zamzur, Hərəkül, Daşbaşı, Ağacakənd, Dolanlar..-ondan artıq yaşayış yerlərinə dədə-baba torpaqlarından zorla qovulan yurddaşlarımıza təzə həyat bəxş etmək arzusuyla gəlmişdilər.

Dağ yamaclarında necə ildən bəri ilk dəfə olaraq taxıl zəmiləri göyərirdi. Əsgər Zamzur bölməsinin rəisi Zahid Əhmədovun xidməti maşınını idarə edir, gecə-gündüz onunla birgə gəzib dolanırdı. Bu igid komandirlə gündə necə yol el-obalarından didərgin düşənlərə baş çəkir, onların qorxusuz-hürküsüz yaşamaları üçün əlindən gələni edirdi. Arada ölüm-itim də olurdu. İlk dəfə Zamzur yolunda milis işçiləri minaya düşdülər-avtobus sürücüsü, rəhmətlik Əhmədov Şamil şəhid oldu. Ancaq Əsgər də, Zahid də erməni fitnəsindən qorxub çəkinmədilər...

Əsgərin yaxın qohumu dərzi Hüseyn nağıl edir ki, ona dəfələrlə deyirdim ki, şoferlikdən əl çək, Şamilin aqibəti səni də gözləyir. İnciyib deyirdi ki, məni Zahid qağamdan ancaq ölüm ayıra bilər. Bir dəfə deyəsən öləcəyi gündən bir gün qabaq idi. Təptəzə milis paltarını gətirib dedi ki, qağa əynimə böyükdür, düzəlt, geyinim. Paltarı düzəltdim, ertəsi gün gəlib aparanda:

– Bu gün ilk dəfə əynimə milis forması geyəcəyəm deyə-sevinə-sevinə getdi.

Elə həmin gün də Zamzur kəndinin üstündə Zahidlə birlikdə ermənilərin yolda basdırdıqları minaya düşdülər. Əsgər elə ordaca keçindi. Başdan ayağa yanmış Zahid isə bir neçə gündən sonra dünyasını dəyişdi. Onda 1991-ci ilin sentyabr ayının on dördü idi...

**Üçüncü nağıl**

Bu nağılı nənələr hardasa özləri qoşub söyləyəcəklər. Bu nağıl erməni gürzələrinin başını əzib torpağımızı yağı tapdağından xilas edən igid oğullarımızın şərəfinə söylənəcək. Bu nağılda neçə-neçə ər oğullarımızla birlikdə Sirik kəndindəki qəbirtanda ruhu Fatma nənənin müqəddəsliyinə qovuşan Veysəlov Əsgər də dirilik tapacaq. Bu nağılın sonunda göydən düşən üç almanı nəvələr yeməyib, deyəcəklər:

– Nənə, aparaq bu almaları şəhid əmilərimizin ruhları toplanan yerə



qoyaq. Nənələr gülüzlü nəvələrinin əllərindən tutub Cəbrayıllı şəhidlərin qara mərmərdən boylanan şəkillərinin qarşısına aparacaqlar. Bax, onda bu alyanaq körpələrdən biri şəhid Əsgərin şəkli önündə dayanıb:

– Bu mənim əmim Veysəlov Əsgərdir-deyə iftixarla dillənəcək. Və onda körpə əllərinin süd qoxusu nağıllardan düşən alma ətrinə qarışıb bu igid oğlanın və onun amal yoldaşlarının şəkli üstə sığal çəkəcək....

## ŞƏHİDLİK ZİRVƏYƏ BƏNZƏR HƏYATDA



**Qasımov Mübariz Yusif oğlu**
***(07.08.1966-26.06.1992)***

– Deyirlər dünənki, döyüşdə Mübariz də həlak olub

– Bizim Yusif müəllimin oğlu Qasımov Mübarizimi deyirsən?

– Hə, onu deyirəm - rota komandiri idi, Sankt Peterburqda ali hərbi məktəbi bitirmişdi. Sur döyüşündə qəhrəmanlıqla vuruşub-şəhid olanacan.

– Tay, deynən yazıq Yusif müəllimin beli qırılıb dana. Deyirlər Mübariz çox qocaq, savadlı hərbçi imiş....

İki nəfərin arasında gedən söhbətə avtobusdakı digər sərnişinlər də qoşuldular.

– Görəsən özümünkülərdən zaval gəlməyib ki, ona? Axı, deyirlər kombatın onunla arası yox imiş qulağına çatıbmış ki, Mübariz bu gün sabah Cəbrayıl hərbi hissəsinə komandir təyin ediləcək. Bəlkə burda da bir xəyanət əli var...

– İnanmıram, bu cür qeyrətli oğula qıyan adam ermənidən də betərdir.

– Rəhmətliyin nəvəsi, nə qoyub, nə axtarırsan. Şuşada, Laçında, Ağdamda belə hadisələr azmı olub. İnsan ciy süd əmib ondan nə desən gözləmək olar...

– Yazığın ev-eşik olduğu heç beş il deyildi. İki körpəsi, cavan yoldaşı boynuburuq qaldı.

– Uşağa nə var, ay bacı pisin-pisin böyüyəcək. Denən heyf onun cavan canından. Onu Rusiyadan çəkib gətirən də torpaq qeyrəti, yurd istəyi olmuşdu.

– Atası Yusif müəllim çox cəngavər kişidi. Haqsızlığa qarşı barışmaz olduğundan başı çox bəlalar çəkib.

– Deyirlər Mübariz rəhmətə getməzdən qabaq ölən igidlərimizin qanını alıb. Neçə-neçə quldurun nəfəsini kəsib. Əlbəyaxa döyüş zamanı bir heyvərə zənciyə qırx iki bıçaq zərbəsi vurub. Daşkəsənli Hüseynov Ariflə Sofulu Elşən də yanında olub Mübarizin....

– Oğlum Malik də o döyüşdə yaralanıb. O deyir ki, dədə, Mübariz düşmənlə şir kimi vuruşurdu. Onun dəstəsindəki igidlərin çoxu bu döyüşdə şəhid olsalar da bircə addım da geri çəkilmədilər...

Mübarizin həyat yolunun cizgiləri on iki vərəqdən ibarət dörd şagird dəftərinə sığışıb. Bu dəftərdəki bişmiş xətlə yazılan ağrılı cümlələr Mübarizin atası Yusif müəllimin qələmindən süzülüb kağız üstə. Bu sətirlərdə elini, obasını dərin məhəbbətlə sevən qeyrətli bir eloğumuzun sözü-söhbəti yaşayır....

Mübariz Yusif müəllimə təkcə oğul deyildi. Həm də ona arxaydı, əqidə yoldaşı idi. Ailənin böyük oğlu Azər kimi Mübariz də taleyini hərbçi peşəsiylə bağlamışdı. 1983-cü ildə Leninqraddakı ali hərbi məktəbə qəbul olanda heç ağlına gəlməmişdi ki, bir vaxtlar doğma torpaqlarımızda ermənilərlə düşmən kimi üz-üzə dayanacaq. Onda hələ erməni nankorluğu pərdənin arxasında rişə atmaqda idi. Mübariz hərbi təhsil alırdı ki, Vətən deyib böyüklüyüylə öyündüyümüz bu dövlətin şimalında və yaxud cənub səmtində dayanıb torpaqlarımızın keşiyini çəksin. Onda hələ Uzaq Şərqə də, Orta Asiyaya da, Pribaltikaya da, Ermənistana da... Vətənm deyirdik 20 yanvarda başımız əhlət daşına dəyəndən sonra gördük ki, o yad ellər bizə Vətən deyilmiş. Vətənimiz Göyçəymiş, Zəngəzurmuş, Qarabağıymış...ki, onu da mərkli imperiyanın siyasəti əlimizdən alıb. Mübariz SSRİ adlı imperiyanın iblis sifətini 1987-ci ildə hərbi təhsilini başa vurub Moskva hərbi dairəsinin Yaroslavl korpusunda xidmətə başlayanda görmüşdü. O vaxtlar iliyinə-qanına qədər millətçi olan rus generalı ilə üz-üzə dayansa da bu qart şovinistdən qorxub çəkinməmişdi. Ordu korpusunda özünə qarşı mənəvi həmlələrin gücləndiyini görüb onda Mübariz Voloqda şəhərindəki polka dəyişmişdi burda bir müddət rotalar üzrə siyasi rəhbər işləmişdi Mübariz. Qorbaçovun yenidəqurması Mübarizin də həyatına təlatüm gətirdi. Bakıda güclənən xalq hərəkatını boğmaq üçün imperiya generalları gecə-gündüz yurddaşlarımıza hiylə toru qurmaqda idilər...

Tale elə gətirdi ki, qanlı-qadalı doxsanıncı ilin 20 yanvarını Mübariz Bakıda, Azərbaycan torpağında qarşıladı. Həmin axşam Binədə təyyarədən



düşüb şəhərə yollanan Mübariz Qasımov dəmiryol vağzalına gələndə yol uzunu qalanan tonqalların ətrafında dövrə vuran adamlarla rastlaşır. Bu dəstələrdən birinə yaxınlaşıb:

– Qardaşlarım-deyir-nə tüfənglə, nə də yola düzdüyünüz bu maşınlarla 60-80 tonluq tankların qabağına çıxmaq olmaz. Amandır, ehtiyatlı olun. Moskva bizi məhv etmək üçün hər cür alçaqlığa əl atmağa hazırdır...

O axşam Mübariz Bakı-Mincivan qatarıyla doğma Cəbrayıla gəlirdi. O axşam Biləcəridə daldalanan tanklar bir azdan on birinci Qızıl Ordu meydanında xalqımızı güllələbaran edəcəkdilər. Bu xəbəri sabah tezdən Karxuludakı evlərinə çatanda eşidib biləcəkdi Mübariz...

– Mən indi bildim ki, rus zabitlərinin son illərdə niyə bizi görməyə gözləri yox idi. Millətimizin qanına susayan o cəllad generallarla bundan sonra bir yerdə xidmət edəcəyimi düşünəndə varımdan yox oluram. Orduya qayıdandan sonra əzablı günləri başlayır Mübarizin. General onun istefa barədəki ərizəsinə dərkənar yazmır. Mübariz məcbur olub sərt üsula əl atanda general onu ləkələməyə çalışır...

Bundan sonra Mübariz Yaroslavl şəhərində "KAMAZ" avtomobilləri üçün mühərrik buraxan zavodda fəhlə işləyir. "İnterpol"a qəbul olunmaq üçün Yaroslavl Daxili İşlər idarəsinə müraciət edirsə də azərbaycanlı olduğundan onun xahişini yerə salıb:

– Respublikanız ayrıldıqdan sonra bizim sizə veriləsi işimiz də yoxdur. Gedin, müstəqil ölkənizin qanunlarını qoruyun!-istehza qarışıq kinlə deyilən bu sözlər onda Mübarizi odsuz-ocaqsız yandırdı...

Ötən il mayın əvvəllərində Mübariz "Vesti"yə baxanda öyrəndi ki, güvənc yerimiz, milli iftixarımız Şuşa əldən gedib. Üzeyirlərin, Bülbüllərin, Xanların, Mir Möhsüm Nəvvabların...yurdunda bayquş ermənilər ulayır daha. Bax, onda-bu xəbərdən sonra gecə-səhərə qədər yerinin içində qovruldu Mübariz. May ayının iyirmisində həyat yoldaşı Səidəylə və bir də iki körpə uşağıyla birlikdə ata yurdu Kalxuluya gəlib çıxdı.

Sübh tezdən qarşısına çıxan anası Gürcüstanın dən düşən saçlarından öpüb:

– Yurdumun harayına dözə bilmədim, ana-dedi. Belə bir ağır vaxtda qeyrəti, vicdanı olan adam gərək kənarda qalmasın. Günü sabahdan torpağımızın müdafiəsinə qalxacağam...

Mübarizin Cəbrayıdakı hərbi hissədə də yolu hamar olmayıb. Bir neçə günlük xidmətdən sonra başa düşüb ki, təzəcə boy atan milli ordumuzun hələ təcrübəli zabitləri azdır. Zabit adıyla hərbi hissədə vəzifə tutanların əksəriyyəti səriştəsiz və qətiyyətsizdir. Ömrü boyu qorxu nə olduğunu bilməyən Mübariz

Qasımov burda da dilini dinc saxlamayıb. Hərbi hissəyə rəhbərlik edənlərin nöqsanlarını üzlərinə deyib. Çoxları içləridən qırıla-qırıla qalsalar da Mübarizin haqlı iradları qarşısında susmalı olublar. O vaxt Mübariz sözünün sonunda:

– Sizin çoxunuzun məsuliyyətsizliyi ucbatından Cəbrayıla qan-qada gətirən "Şayaq" yüksəkliyini ötən il ermənilər ələ keçiriblər-dedi. Mən bu mövqeyi ya geri qaytaracaq, ya da onun uğrunda şəhid olacağam. Kimin qeyrəti varsa gərək belə etsin...

Onda bu kabus görünüşlü yüksəkliyi geri almaq üçün igid oğullar səfərbər oldular. Ancaq "Şayaq"dan qabaq öndə Sur döyüşü, "Şişdağ" əməliyyatı durdu. Mübarizin qocaq oğlanlardan ibarət rotası Suru ələ keçirmək üçün əməliyyat meydanında səngərlərə sığınmışdılar o gecə. Bir-birindən 80-100 metr aralıda qurulan üç düşmən istehkamını, alınmaz qala hesab edilən "Armud" postunu bu qeyrətli oğullar yerlə yeksan edib irəliləyəndə düşmən sonuncu gücünü toplayıb həmlə etdi. Mübariz üstünə gələn quldurları yaxına buraxıb onlara divan tutdu. Döyüş meydanında iyirmidən artıq quldur cəsədi qaldı. Şayaq tərəfdən köməyə gələn ermənilər yerə yatıb Mübarizin üstünə gülləni dolu kimi yağdırırlar. Atılan güllələrdən biri onun boynunun sol tərəfindən dəyib sağından çıxır. Mübariz son gücünü toplayıb əlindəki qumbaranı ona yaxınlaşan düşmənin üstünə atır. Ölümündən bir az əvvəl üç erməni quldurunu məhv etməklə özü öz qisasını alır...

Vətənimizin azadlığı naminə canından keçən Mübariz Qasımov bu gün özünün layiqli qiymətini almasa da xalq onu qəhrəman kimi əzizləyir, adını yaşadır. Atası Yusif müəllim gileylənir ki, oğluna indiyə kimi layiq olduğu "Milli Qəhrəman" adı verilməyib. Ata oğlunun qəhrəmanlığından bəhs edən bədii əsərlərin yazılmasını da arzulayır bu gün. İnanırıq ki, nə vaxtsa belə bir addım atılacaq. Təkcə Mübariz Qasımovdan yox, yüzlərcə qeyrətli şəhid oğul-qızlarımızdan sənədli roman, povest, poema və şeirlər yazılacaq. Onların ən cəsurlarından bəhs edən kino-süjetlər də, bədii filmlər də həyata vəsiqə alacaq. Bu nə vaxtsa dinc dövrün, gələcəyin işidir. İndisə əsas borcumuz Mübarizin yadigarları olan dörd yaşlı Elvinin, iki yaşlı Pərvinin və atasının ölümündən düz yeddi ay sonra dünyaya gələn körpənin qayğı ilə böyüməléri üçün onlara mənəvi köməyimizdir. Bunu gözləri yol çəkən bu körpələrin baxışlarından boylanan ata həsrəti tələb edir bizdən...

Hər səhər Elvin nənəsinin əlindən yapışıb:

– Atamı istəyirəm-deyir-o niyə yanımıza gəlmir?...

Gürcüstan ana göz yaşları içərisində boğula-boğula:

– Dərdin mənə gəlsin,-deyir.-Atan sənə pul göndərib-sonra özü də



gələcək...

– Neynirəm pulu, mənə atam lazımdır, atam...

Elvin atasını soraqlayır, Pərvanə atasını gözləyir. Gürcüstan ana, Yusif kişi oğul həsrətinə, Səidə xanım ər itkisinə dözə bilmirlər. Bircə onunla ovunurlar ki, Mübariz xalqımızın qan yaddaşında əbədi olaraq yaşamaq haqqı qazanıb. O bu haqqı qanıyla canıyla qazanıb. Şəhidlik ən ulu, ən uca zirvəyə bənzəyir. Bu zirvəyə qorxaqlar, riyakarlar yox, qeyrətli igidlər qalxıb ucala bilirlər...

# ONUN ADI YAŞAYACAQ



**Qasımov Çingiz Musa oğlu**
***(12.03.1970-24.12.1991)***

Cəbrayıl camaatı 1991-ci ilin dekabr ayının iyirmi üçünü heç vaxt yaddan çıxarası deyil. Onda qışın sazağı duyulsa da Cəbrayılın aran üzündə qardan əlamət yox idi. Onda təkcə üzü Ziyarata tərəf getdikcə pillə-pillə ucalan dağlara xeyli qar yağmışdı. Elə camaatı təşvişə salan xəbərlər də erməni quldurlarının hücuma keçməyə girəvə axtardıqları o qarlı dağlardan gəldi. Günortaya yaxın ratsiya ilə Daşbaşıdan bildirmişdilər ki, yeddi-səkkiz ay əvvəl düşməndən təmizlənən bu kəndi geri almaq üçün quldurlar hücuma keçiblər. O vaxtlar igidliyi ilə cəbrayıllıların böyük hörmətini qazanan milis rəisi Rəşid Məmmədovun bayıra çıxmağı ilə Koroğlu sayaq nərə çəkməyi bir oldu:

– Qardaşlarım, Daşbaşı düşmən əlinə keçsə tay gərək Cəbrayıl şəhərindən əlimizi üzək. Bu qeyrət günümüzdə kim ora getmək istəyirsə çınarın yanında avtobusa minsin!-deyib maşına tərəf addımladı...

Həmin dəqiqələrdə buradan təsadüfən keçən Çingiz rəisin sözlərini eşidəndə qayıdıb avtobusa tərəf üz tutdu. Onun dayısı Fazil də, Çingiz kimi ilk könüllülərdən təzə-təzə təşəkkül tapan milli ordunun Cəbrayıl batalyonundan olan komandiri də burada idilər. Komandiri Çingizi dayandırıb:

– Hara gedirsən-dedi-məgər bilmirsən bu axşam Qışlaqdakı postda olmalısan?

– Torpağımızın bundan da betər dar günümü olacaq? Başa düşürsünüzmü, rəis demişkən allah eləməmiş Daşbaşı düşmən əlinə keçsə gərək bu torpaqdan baş götürüb qaçaq...

Dayısı Fazil Çingizi yolundan saxlamaq üçün bir daha dilə tutdusa da inadkar oğlan milis işçiləriylə birlikdə irəlilədikcə atışma səsləri aşkar eşidilən dağlara tərəf üz tutdu...

Çingizlə polis işçisi Zakir qarşılarındakı evdən onları güclü atəşə tutan ermənilərə səsgücləndirici vasitəsiylə müraciət edib:



– Beş dəqiqə vaxt veririk, silahınızı atıb təslim olun!-deyəndə quldurlar atəşi daha da şiddətləndirdilər. Belə olduqda Cingiz Zakirə üzünü tutub:

– Sən bu namərdlərin başını qat, mən binaya od vuracağam-dedi. Çingiz sürünə-sürünə hiss olunmadan binaya bitişik ot damına od vurdu. Alovun dilləri göyə ucalanda onlar düşmən tərəfdən gələn hənirin kəsildiyini görüb binanın ikinci mərtəbəsinə qalxdılar. Evin küncündə dayanıb hadisələri izləyən bədheybət quldur, qapı açılan kimi Zakiri və sonra da Çingizi vurub aradan çıxmaq istəyəndə özü də döyüş yerinə tələsən milis işçilərinin gülləsi ilə cəhənnəmə vasil oldu....

O yanmış binadan altı quldurun kömürləşən cəsədi də tapıldı. Onda Çingizlə Zakir öldürmüşdü quldurları...

Daşbaşı uğrunda döyüşlərdə Çingizlə Zakir şəhid olsalar da düşmənin Cəbrayıla gedən yolunu bağladılar. Quldurlar bu qeyrətli oğulların cəsarəti qarşısında dözüm gətirməyib yarasa kimi zülmətə çəkildilər...

– Çingizin ölümünə yanmıram ha-Vətənin oğlu idi-lazım olanda Vətən yaşasın deyə canından keçdi. Məni yandıran özgə şeydi-Cingizin atası Musa kişi bizimlə söhbətə belə başladı:

– Öləndə iyirmi bir yaşının içindəydi. 1988-ci ilin may ayında əsgəri xidmətə yollanmışdı. Xarkov şəhərindən düz iki il evimizə, anası Şəfiqəyə, bacıları Elzayla Məlahətə istək dolu məktubları axıb gəlirdi. 1990-cı ilin 20 yanvar hadisələrini eşidəndə bərk sarsılmışdı. Sonralar deyirdi ki, Xarkovdakı hərbi hissədə mənimlə birlikdə qulluq edən beş erməni var idi. İdarə etdiyim maşının sükanı arxasına keçib (Çingiz əsgərə getməmişdən əvvəl Füzulidə sürücülük kursunu bitirmişdi) qəfildən onların üstünə gedəndə Bakıdan olan bir azərbaycanlı oğlan məni niyyətimdən daşındırdı. Çingizin qolundan tutub:

– Burada az olduqları üçün bizə yaltaqlanan beş-üç erməni dığasını öldürməkdən kar aşmaz. Gərək gedib torpaqlarımızda bu dəyyusların gözlərinin odunu alaq-demişdi onda. Çingiz əsgəri xidmətdən qayıdandan sonra bir müddət Cəbrayıl kolxozunda çalışdı, sonra da mədəniyyət şöbəsində maşın götürüb işlətdi...

– 1991-ci ilin oktyabr ayında sərhəd bölgələrində könüllü batalyonlar təşkil olunanda Çingiz də dinc peşəsini buraxıb milli ordumuzun ilk əsgərləri sırasına qoşuldu. Bir müddət Hərəkülə yaxın postda, sonralar isə Qışlağın üstündəki postda dayanırdı. Ortaboylu, qarayanız bir oğlan idi Çingiz. O qanlı qadalı gündə ölməsəydi yazda toyu olasıydı,-qismət olmadı.

– Musa kişi, söhbətimizin əvvəli giley-güzarlı keçsə də mətləbinizi axıracan açıqlamadınız...

– Atalar uman yerdən küsərlər-deyib. Bilirsiniz bayaq dediyim kimi, məni oğlumun ölümündən artıq onun hünərinə lazımi qiymət verilməməsi yandırır. Hamı bilir ki, Daşbaşı Cəbrayılın şimal üzünün astanasındadır. O vaxt düşmən bu kəndi tutsaydı vallah indi burada-bizim bu Cəbrayıl şəhərində allah eləməmiş bayquş ulayırdı. Axı, mənim oğlum bu kəndin azad olunmasında canından keçib. Niyə igid oğullarımızın hünərini, döyüş rəşadətini xalqımıza bəyan etməyək? Axı, Çingiz o Daşbaşı döyüşünə getməyə də bilərdi. Ancaq torpaqlarımızın od tutub yandığı bir zamanda qeyrətinə sığışdıra bilmədi bunu...

Hiss olunur ki, oğlunun döyüş hünərinin üstünə kölgə salan laqeydliyə Musa kişi daha dözə bilmir.

– O günü rayonumuzdakı hərbi hissəyə gedib komandirlə görüşəndə də bu barədə giley-güzarımı bildirmişəm. Mənə nə desə yaxşıdır? –suala özü cavab verir:

– Mən burada təzə adamam-deyir-gərək oğlunuzun döyüş hünəri barədə sənədlər indiyə qədər lazımi yerlərə çatdırılaydı...

Zəhmət olmasa indi də bizim sualımıza cavab verin, cənab komandir! Bu qanlı-qadalı vaxtlarda camaat öz balalarını ölümün ağzına uf demədən atmaqdan belə çəkinmirsə, bəs igidlərimizin qanlarıyla yazılan o döyüş səhnələrini lazımi yerlərə kimlər çatdırmalıdır? Fərariylə qəhrəmanın fərqini hansı meyarla ölçməliyik bəs? Niyə qeyrətli oğul itirən ixtiyar ata, ağbirçək ana hərbi hissə komandirlərinin, müdafiə Nazirliyinin kreslolarda qartıyan bəzi zabitlərinin qapısı ağzında günlərlə dayanıb haqq ədalət soraqlamalıdırlar? Niyə ağa ağ, qaraya qara deyə bilmirik? Niyə hərənin öz qiyməti vaxtında verilmir? Bircə ondan qorxuruq ki, bu "niyə"lərə cavab tapana qədər bir tikə ümidlərimiz üzülə...

Musa kişini yandıran odur ki, Cəbrayıl batalyonunun ilk şəhidi olan Çingiz balasının adı haradasa xəfə bir dolaydakı döngəyə-buna küçə deməyə adamın dili gəlmir verilsə də burada bu əlaməti bildirən heç bir lövhə-filan yoxdur.

– Vallah, xəcaləti çəkirəm oğlumun adını daşıyan o döngədən keçəndə. Palçıq dizə çıxır, orada abadlıqdan da heç danışmağa dəyməz.

– Darıxma, Musa qağa-deyirik-gün gələcək ki, müharibə qələbəmizlə sona çatacaq. Oğlunuzun adını daşıyan o beş-on arşınlıq küçə də şəhidlərimizin əvəzindən doğulan fidan balalarımız kimi böyüyüb çinar



boylu olacaq. Onda oğlunuzun adını daşıyan küçənin sakinləri:– Çingiz Qasımov Cəbrayılın ilk şəhid əsgəridir, Allah onun ruhunu yaşatsın-deyəcəklər. Bax onda alacaq Çingiz həqiqi qiymətini. Gözləri yaşaran Musa kişi bizim təsəlli dolu sözlərimizdən sonra:

– Allah ağzınızdan eşitsin, tez görək o günü- deyərək bizimlə vidalaşıb getdi...

## AD GÜNÜ

**Qasımov Şahin Yaqub oğlu**
***(23.03.1973-28.06.1992).***



– Üç gündən sonra qardaşımın ad günüdür. Gəlmişəm sizi də dəvət edim, imkanınız olsa gələrsiniz...

Novruz bayramının işığıyla qızındığımız günlərin birində şəhid Qasımov Şahin Yaqub oğlunun qardaşı Elçinin dilindən eşitmişdik bu kəlmələri. Elçin bizə qardaşı Şahinin mənalı həyat yolundan da söz açmışdı... Qardaşının bir az kövrək, bir az hüznlü xatirələrindən dirilik tapıb elə bil təzədən doğulmuşdu Şahin Təzədən dünyaya gəlmişdi ki, namərd erməni quldurlarından yaralı torpağımızın, nakam şəhidlərimizin qisasını alsın. Elçinin xatirələrində Şahin yenə də canlıydı, yenə də dilində-dodağında göyərən "Qarabağ" mahnısını zümzümə edə-edə Surun, "Şişqaya"nın yanında dayanıb düşmənin başına od yağdırırdı...

Adicə bir kənd uşağı idi Şahin. 1973-cü ilin Novruz nəfəsli mart ayının iyirmi üçündə gəlmişdi dünyaya. İlk dəfə duyub gördüyü ana nəfəsi, günəş ziyası və bir də torpağın hərarəti idi. Böyüyəndə anlamışdı ki, torpaq namusdur, ruzudur-yurd yeridir-Vətən torpağıdır. Ona görə də bu torpağın güneyini, quzeyini də, aranını, dağını da sevmişdi, özü də bütün varlığıyla sevmişdi. Onun nəzərində Dəli Kür, Xan Araz dünyanın ən böyük çayları, mavi gözlü Xəzər, su sonasına bənzəyən Göy göl yer üzünün yarlı-yaraşıqlı

ümmanıydı. Şahinin qəlbində bu torpağın Muğanı, Mili, Şirvanı, Gəyəni var idi. Ziyaratı, Diri dağını, Tumas atanı Şahin dünyanın ən ulu, ən uca zirvəsi bilirdi. Belə ürəklə, belə amalla yaşayırdı Şahin. Əcəl aman versə idi işıqlı bir sabah gözləyirdi onu. Orta məktəbi yüksək qiymətlərlə başa vurmuşdu. Niyyəti əmisi oğlanları Azər kimi, Mübariz kimi hərbçi olmaq idi. Karxulu və sonra da Maralyan kənd məktəblərində oxuduğu illərdə müəllimləri: -"Səni qabaqda gözəl günlər gözləyir"-demişdilər ona. Bu işıqlı sözləri dedikləri zaman müəllimləri hardan biləydilər ki, bir neçə ildən sonra Şahinin və onun kimi minlərlə oğullarımızın yolu üstə torpağımızın Qarabağ dərdi, Xocalı müsibəti, Şuşa yanğısı, Laçın həsrəti dayanacaq. Bu nisgildən, bu faciədən hamı xəbərsiz idi onda...

1991-ci ilin may ayında Şahini də imperiya ordusuna səfərbər etmişdilər. Doxsanıncı ilin 20 yanvarında bu "şanlı ordu"nun mərkli sifətini görən Şahin Moskva ətrafındakı hərbi hissədə cəmisi üç ay qulluq etdi. İşığı sönən yurd yerlərimizin harayı onu da doğma ocağa qaytardı. Vətənə gəlib çatan kimi Şahin Qasımov Nasosluda yerləşən hərbi hissədə əsgəri xidmətini davam etdirdi. Doğma torpaqlarımızın yağı tapdağı altda qaldığı bir gündə uzaqda dayanmağı qeyrətinə sığışdıra bilmirdi. Şahin. Elə buna görə də ötən ilin martında rayonumuzdakı hərbi hissəyə gəlib igid əsgərlərimizin sırasına qoşuldu. Burada ilk günlər minaaxtaranların rotasında qulluq edirdi. Bu işin ağırlığını yaxşı bildiyindən minanı tapıb zərərsizləşdirməyin üsulunu yaxşı mənimsəmişdi. Çalışırdı ki, səhv etməsin. Ehtiyatsız bir hərəkətin sonunda qəfil bir ölümün, faciənin dayandığından yaxşı xəbəri var idi. Ona görə də həmişə diqqətli, hər zaman ehtiyatlı idi. Az vaxt ərzində özü öz əlləriylə on yeddi düşmən minasını tapıb ölümü ram eləmişdi. Bu ölüm igid oğullarımızın külünü havaya sovurmaq üçün hardasa torpağın altında gizlədilən etməni sifətli minaların arxasında dayanıb fürsət gözləyirdi. Yaxşı ki, bu rotada olduğu günlərdə Şahin bircə dəfə də girəvə vermədi ona. Zamzur, Daşbaşı, Ağcakənd, Dolanlar kəndlərinin ətrafında pusquda dayanan ölümü kəməndə, tora saldı...

Sonra öz xahişiylə zenitçilərin dəstəsinə keçdi. Əsgər yoldaşlarının, komandiri Əhmədov Ədalətin gözlərinin işığıydı Şahin. Onun ürəyində ölüm, qorxu məfhumu yox idi. Bircə onu bilirdi ki, hardasa dumanlı dağların o üzündə dişinə kimi silahlanan düşmən var. Bu düşmən yurdumuzun ruzu yetirən torpağına göz dikib. Ona fürsət versən gərək doğma ocaqdan, yurd yerindən, dədə-babaların ruhu dolaşan qəbiristanlardan əlini üzəsən. yeddibaşlı təpəgözə, qana həris divə bənzəyir bu düşmən. onu



öldürməsən, ulu yurd yerlərindən izini-tozunu silməsən hələ çox fitnə-fəsad törədəcək, çox evlərin işığını söndürəcək. Ona görə də Şahin düşmənin hər bir hərəkətini izləyirdi, onun məkrli niyyətini üzə çıxarmaqdan ötrü postlarda, səngərlərdə minbir əziyyətə tablaşıb aylıq-sayıq dayanırdı. Bir neçə dəfə bu düşmənin mürdəşir sifətini lap yaxından görmüşdü. Ötən ilin iyun ayının iyirmi səkkizində uğursuz Sur döyüşlərində iştirak edənlərdən biri də Şahin idi. Onda tale onu odun-alovun içəsindən sağ çıxartmışdı. Onda Sur əməliyyatında qəhrəmanlıqla vuruşub həlak olan əmisi oğlu Mübarizin və digər şəhid oğullarımızın qisasını ala bilmişdi. Üç erməni quldurunu öldürəndən sonra ürəyi bir azca soyumuşdu onun. Erməni quldurlarından birinin belindən açdığı enli kəmər Sur döyüşündən yadigar qalmışdı ona. Mübarizin meyitini öz əlləriylə tanka qoyandan sonra heç özünə gələ bilmirdi Şahin. Gözlərinin qabağında şəhid olanları, yaralıların harayını unuda bilmirdi. İgid gəncəlilərin, qeyrətli Saatlı uşaqlarının, cəsur sabirabadlı döyüşçülərin ölümü yandırırdı onu. Bu uğursuz əməliyyat üçün cavab verəsi adamların məsuliyyətdən uzaqda qalmasını sınıra bilmirdi. Bu qanlı-qadalı döyüşdə Tanrı qoruyub saxlamışdı onu. Çiynindən yüngülcə yara almışdı bu döyüşdə Şahin. Ən dərin yara onun qəlbindəydi, hisslərində, duyğularındaydı. Bu yaranı ona müharibəni qazanc yerinə çevirən, insan ölümü ilə, ana-bacıların göz yaşları ilə alver edən gözəgörünməz adamlar vurmuşdu. O adamlar ki, onlar müharibənin qurtarmasını heç vaxt istəmirlər. Bu müharibə onlar üçün var-dövlətdir, əyin-başdır, arvadlarının-qızlarının əynində işım-işım işıldayan zər-zibalı geyimdir. Belə adamlar ermənidən betərdir, bığ yeri təzəcə tərləyən on doqquz yaşlıları ölümün ağzına verir...

Yaxşı bilirdi, yaxşı duyurdu bunları Şahin. Ancaq bu qiyamət günündə xəlvətdə baş girləməyi qeyrətinə sığışdırmırdı. Elə ona görə də ölümün üstünə dik gedirdi. Həmişə də igidliyinə qibtə etdiyi Mirələm kimi dilində nəğmə dolaşırdı bu qeyrətli oğlanın. "Qarabağ" mahnısını oxuya-oxuya Qarabağ torpağını müsibətdən qurtarmağa gedirdi Şahin:

*Bu çəmənlərdə gəzib*
*Vaqifin şux gözəli,*
*Ruhunu burdan alıb*
*Natəvanın qəzəli.*

*Anadır arzulara hər zaman Qarabağ,*
*Danışan dil-dodağı tar-kaman Qarabağ*

Özü də "Qarabağ" kimi həzin bir nəğmə idi, bir güvənc yeri idi. Əsgər dostlarının böyük hörməti var idi ona. İyul ayının 27-də keçirilən ikinci Sur əməliyyatında da iştirak edib düşmənə divan tutmuşdu. Ölüm bu dəfə də möhlət vermişdi ona. O, bu möhlətdən istifadə edib Kazımın, Zahidin, Çingizin, Fuadın, Mübarizin, Şəmilin...qanını, qisasını almışdı. Ölüm aman, möhlət versə idi...Yox ölüm tay ona möhlət vermədi. Verməyə hünəri də çatmazdı. Onun alın yazısı Şişqaya döyüşünəcən idi. Burda tamamlanırdı alın yazısı, burda başa çatırdı ömür möhləti, Tanrı amanı...

Şahin Sur ətrafındakı Şişqaya döyüşlərində igidliklə vuruşub qeyrətli əsgər yoldaşları Savalanla, Azərlə, Elşənlə, Pəhlivanla, Mirələmlə birlikdə Vətən yolunda canından keçdi. Beş gündən sonra meyitini düşmən caynağından qoparıb ürəkdən sevdiyi torpağa tapşırdılar onu....

Sabah ad günüdür, iyirmi yaşı tamam olacaq Şahinin. Bütün dostları, qohumları toplaşacaq onlara. Biz özümüz də iştirak edəcəyik bu ad günündə. Yaqub kişi, Əsli bacı, Şahinin hər iki qardaşı gələnləri qarşılayacaq. Təkcə Şahinin özü gələ bilməyəcək doğma ocaqlarına. Məzar qonşusu, əmisi oğlu Mübariz də dərgahına qovuşan ruhları və bir də əbədi yaşamaq haqqı qazanan adları dolaşacaq Yaqub kişinin bir az hüzünlü evində, həyətində. Şahinin ölümündən sonra rayon Daxili İşlər Şöbəsində polis nəfəri kimi işə başlayıb torpaqlarımızın keşiyində dayanan Elçin qardaşının qara haşiyəli şəklini əzizləyib:

Ölüm aman versə idi Şahin Vətənimizin azadlığını, qələbə günümüzü görəcəydi-deyəcək. Və bundan sonra Şahinlə bağlı xatirələr dil acacaq bu ad günündə...



## AĞLAMA ŞƏHİD ANASI...

**Qasımov İlham Qasım oğlu**
**(20.05.1967-28.06.1992)**



Araz vadisinin günbatan səmtilə uzanıb gedən dağların yamacından tarazı pozulan dünyamıza bir kənd boylanır. Torpağımızın Qarabağ dərdi Sarıcallı adlı bu kənddən də yan ötməyib. Bu kəndin igid cavanları neçə ildir ki, torpaqlarımızdan qarı düşməni qovub çıxarmaq üçün qeyrətlərini səngərə döndəriblər. Bu kəndin camaatı ötən ilin iyunundan özlərinə şəhid həmyerliləri İlhamın və Vüqarın məzarını müqəddəs and yeri bilirdilər.

Yanvar ayının küləkli, sazaqlı bir günündə, axşamüstü şəhidlərdən birinin-Qasımov İlham Qasım oğlunun sorağı ilə Sarıcallı kəndinə gəldik. Kəndin girəcəyində qarşımıza çıxanlardan biri yamacdakı kiçik evi nişan verdi. İlhamın iyirmi iki, iyirmi üç yaşlı bacısı Pərvanə kənd qızlarına məxsus utancaqlıqla bizi içəri, evə dəvət etdi. Həyət bacasından ağrı-acı yağan bu ev düz iyun ayının 28-dən İlhama, bu ocağın dünyadan nakam gedən oğluna yas tutur...

Qasımov İlham 1967-ci ilin may ayının iyirmisində Cəbrayıl rayononun Sarıcallı kəndində doğulub. Kənd məktəbini bitirəndən sonra rayondakı 131 №-li texniki peşə məktəbində traktorçu peşəsinə yiyələnib. Sonra uzaq Rusiyada ordu sıralarında qulluq edib. 1987-ci ildə əsgəri xidmətini başa vurduqdan sonra kənddə buldozerçi işləyib. Könül verdiyi bir el qızı ilə ailə qurub.

Şəhid balasının ömür yolunu kövrələ-kövrələ xatırlayan Zərif bacı oğlunun şəklini ürək yanğısıyla öpə-öpə:

– İlham gözümüzün ilk ovu idi, onun toyunda özümü dünyanın ən bəxtəvər anası hesab edirdim-deyir. Anası ölmüş çox mehriban, ailəcanlı idi. Qız balaları-dörd yaşlı Günayı, üç yaşlı Aytəni öpüb əzizləməkdən doymazdı. 1992-ci ilin mart ayında, ölümündən üç ay qabaq Jalə dünyaya gələndə sevincindən yerə-göyə sığmırdı...

Zərif ana yanağı ilə üzüaşağı gilələnən göz yaşlarını silə-silə şəhid balasının su sonasına oxşar övladlarını qolları arasına alıb:

– Bunlar, İlham balamın bar çiçəkləridir,-dedi-onları verən Allaha qurban olum..

Bayaqdan ayaqüstə dayana-dayana kirpiklərindən yaş ələndərən yarlı-yaraşıqlı şəhid bacısı Pərvanə:

– Qağamın adına qurban olum-deyir, qağam qeyrətli oğul idi. Ailəsi, iki uşağı olmasına baxmayaraq torpaqlarımız haray çəkəndə könüllü olaraq onun müdafiəsinə getdi. Deyəndə ki, "Ay İlham, qurban olum, balaların var, onları düşün-zarafatla deyirdi ki, qorxmayın Allahın əli kürəyimizdədir, heç nə olmaz. Bir də deyirdi ki, belə çətin gündə hamımız yaxamızı qırağa çəksək, bəs torpağı kim qoruyar...

Elə bu amalla da düşmən üstünə gedirdi İlham. Arabir icazə alıb evlərinə, qız balalarına baş çəkməyə gələrdi. Hər dəfə geri qayıdanda bacıları Yeganəyə, Pərvanəyə, Təranəyə və bir də kiçik qardaşı Mehmana toxtaqlıq verə-verə:

– Fikir eləməyin, Allah qoysa tezliklə qələbə çalacağıq. Harşın oğlunda hünər nə gəzir ki, qarşımızda duruş gətirsin-deyərdi...

İlhamın şəhid olduğu gündən indiyə kimi bu ailənin dərdinə məlhəm olan qonşuları Qətibə bacı kövrək sözlərlə Zərif bacını ovundurmağa çalışır:

– İlham həyat yoldaşım Məzahirin (Qasımov Məzahir polis əməkdaşıdır. Döyüşlərdə bir qıçını itirib, hazırda İran İslam Respublikasında müalicə olunur) əmisi oğludur. Böyük kiçik yeri bilən idi. Məzahir deyirdi ki, İlham qorxu-hürkü bilən deyil. Ölümlə üz-üzə dayananda kirpiyini də qırpmazdı. Zarafatçıl, deyib-gülən oğul idi. Rəhmətlik şəhid olmazdan bir-iki gün qabaq eşitmişdi ki, bacısı Yeganə sevdiyi oğlana qoşulub gedib. Məzahirdən sifariş göndərmişdi ki, bacımın xətrinə dəyməyin. İstədiyi oğlana gedib, təki xoşbəxt olsun. Bir də demişdi ki, onun cehizini özüm alacağam...O, qeyrətlə vuruşub iyun ayının iyirmi səkkizində Sur döyüşündə həlak oldu.

İki-üç saatdan bəri davam edən söhbətimizin üstünə evin sahibi Qasım kişi gəlib çıxır:

– Sonra qəhərdən boğula-boğula on-on beş addım kənardaskı evi göstərib: -İlhamın yurd-yuvasıdır. Sağlığında tamamlaya bilmədik ki, özü öz işığını yandıra indi də...

Ata sözlərinin dalısını deməsə də gözlərindəki giley-güzarı aydınca oxunurdu.



Bu şəhid ailəsinin özgə təmənnası, umacağı olmasa da "Dostluq" kolxozunun rəhbərlərinin biganəliyinə dözə bilmir. İllər boyu Qasım kişi, bu kolxozun yolunda can qoyub. İndiki çətin günlərimizdə oğlunun tikintisi yarımçıq qalan evinə, onun ailəsinin çətin güzəranına baxanda ürəyi didim-didim olur. Oğlunun ölümündən artıq yerli rəhbərlərin laqeydliyi yandırır atanı. İlham torpağımız üçün canından keçib. Onun üç fidan qız balasına arxa durmaq, ailəsini kasıbçılığın caynağından qurtarmaq hamımızın borcudur. Gərək ürəyin daşdan ola ki, şəhid ata-anasının nisgilini eşitməyəsən. Sarıcallı camaatı, yerli kənd rəhbərləri İlham Qasımovun xatirəsini əbədiləşdirmək üçün öz mənəvi borclarını ödəməlidirlər...

Divarına, daşına nisgil hopan bu evlə onun boynubükük sakinləri ilə vidalaşıb ayrılanda Zərif bacı göz yaşlarını dalımızca çiləyir. Biz ürəyimizdə.

– Ağlama şəhid anası deyirik, oğlun bu elə, bu ocağa başucalığı gətirib. Belə igid oğulları olan Vətən heç vaxt basılmaz...

## BU ANA HƏLƏ DƏ OĞUL SORAQLAR...

***Qəhrəmanov Qürbət***
***Səmərqənd oğlu***
***(22.07.1973 - 27.10.1992)***



– Açın, balamın tabutunu, oğlumun üzünü görməsəm qoymaram onu torpağa basdırasınız... Nubar ananın bu sözləri təkrarlamaqdan dil-dodağı pöşdələnsə də əri Səmərqənd qarışıq heç kim onun sonuncu istəyini yerinə yetirməyə ürək eləmirdi.

– Ay insafsızlar, niyə qoymursunuz balamla görüşəm, harda görünüb ki, ananı baladan zülmünən ayıralar, axı?..-dərdli ananın səsi elə burada kövrək şüşə kimi çiliklənib eşidilməz oldu-o bayılıb kiminsə qolları üstə düşdü...

– Balam dörd uşağımın gözü idi, o mənim son beşiyim, son laylam idi-bu da şəhid anası Nübar bacının sözləridir, bizimlə görüşəndə kövrələ-kövrələ-deyir:

– Anası ölmüş həyatda nə görmüşdü ki...Təzə-təzə dünyanın istisini-soyuğunu hiss edəyirdi. On doqquz yaşının içindəydi. Sürücülük peşəsinə yiyələnsə də bircə dəfə də sükan arxasında oturmaq ona qismət olmadı. Yamanca həvəsi varıydı bu işə... Eh.. Ananın baxışlarından bir bulud harayı boylanır. Bir himə bənddir ki, hönkürsün:

– Ölüm Allahın əmridir-deyir-Oğlumun ölümünə yanmıram, balam heç kimdən artıq deyil-ona yanıram ki,-deyir-balamla birlikdə minaya düşüb həlak olanların əzaları tikə-tikə olub bir-birinə qarışmışdı. Kimin-kim olduğunu ayırmaq, seçmək mümkün deyildi. Elə bil ki, Qürbətimin ata-baba yurdu Sirik kəndindəki qəbrində doqquz ürək, doqquz bədən dəfn olunub. Ağlayanda təkcə oğlumu ağlamıram-o bədbəxt taleli doqquz şəhidin hamısına göz yaşı axıdıram...

Nübar ana bu sözləri deyəndə tay özünü saxlaya bilməyib zülüm-zülüm ağladı. Dünyanın ən daş ürəkli adamı olmaq lazım idi ki, bu müsibətdən kövrəlməsin. Ana kirpiklərimizdən boylanan göz yaşlarını görəndə özünü ələ alıb:

– Qardaşlarım-dedi-siz möhkəm dayanın, qoyun, biz analar, bacılar ağlayaq, hərdən deyirəm kaş oğlum Qürbət şəhid balalarımız kimi Surda, Şayaqda, Ağdərədə, Laçında öləydi, lap cəsədi aylarla çöldə qalaydı, ancaq bütöv bədənlə torpağa tapşıraydım onu. Anası ölmüşün qəribə taleyi varmış demə...

HAŞİYƏ: Qəhrəmanov Qürbət Səmərqənd oğlu 1992-ci ilin iyun ayında Cəbrayılda əsgəri xidmətə başlayıb. Sur kəndinin ermənilərdən azad edilməsində və "Şişqaya" əməliyyatında fəal iştirak edib. Mahir topçu kimi ad çıxarıb-yoldaşları ona topçu Qürbət deyərdilər. Sonra onu on dörd nəfərlə birlikdə Füzuli hərbi hissəsinə göndəriblər. Bir neçə gündən sonra onunla gedən yoldaşları fərarilik edib aradan çıxıblar. Qürbət belə hərəkəti özünə, ailə üzvlərinin adına kəsir bilib. Burada qorxmaz və cəsarətli bir əsgər kimi verilən tapşırıqlara əməl edib. 1992-ci ilin oktyabr ayında döyüş tapşırığını yerinə yetirərkən doqquz nəfər yoldaşıyla birlikdə həlak olublar...

Bütün bunları Nubar ana oğlunun qırxı çıxandan sonra Füzuliyə gedərkən öyrənib. Həmin günə qədər əsil həqiqəti anadan gizlədib deyiblər ki, Qürbətə snayper gülləsi dəyib...

Nübar ana bizimlə söhbət zamanı:

– Eşitdim ki, Füzulidə Ema (Elmira) adlı bir qadının oğluma əhliyyəti çox olub. Əliylə ona dönə-dönə çörək verib. Halallıq almaq üçün onu



axtarıb tapdım:

– Oğlun əsl igid idi-dedi. Həmişə öndə getməyə can atırdı. Bir dəfə ona dedim ki, xala qurban, ehtiyatlı ol, qayıdıb mənə-ay xala-dedi-erməni nədir ki, onun qarşısında bir əyiləm də... Bax, belə oğul idi, mənim nakam Qürbətim. Bir dəfə bacısı Arzuya deyib ki, anama demə, ancaq yadında saxla ki, sevdiyim qızın adını səndə olan dəftərçəmin ilk vərəqinə yazmışam. Onun adı... O bu adı bacısının qulağına pıçıldayandan sonra əlavə edib demişdi:

Qız özü də bilir, əhdi-peymanımız var, müharibədən sonra onu mənə alarsınız...

Nübar ananın dərdi yerə-göyə sığmır:

– Oğlum ölüb-deməyə dilim gəlmir. Onun adını Cəbrayıldakı küçələrdən birinə versəydilər elə bilərdim ki, Qürbətim yenidən dünyaya gəlib...

Biz ona təsəlli verib:

– Nübar bacı-deyirik-arxayın ol şəhidlərimizin adını yaşatmaq hamımızın borcudur. Ömrün ən gözəl çağlarında canlarından keçən Vətən fədailərini unutmağa heç kimin haqqı yoxdur...

## HEYKƏLƏ DÖNƏN ŞƏHİD



**Quliyev Mətləb Kamran oğlu**
**(09.01.1959-31.08.1992)**

Azərbaycan Respublikasının Milli Qəhrəmanı Quliyev Mətləb Kamran oğlunun əsli bizim Sileymanlıdır.

– Axı, pasportunda Beyləqan rayonunda doğulduğu yazılıb onun?

– Ona qalsa Mətləbi sumqayıtlı da hesab etmək olar-uşaqlığı, ilk gənclik illəri burada keçib. Sumqayıt şəhərindəki 13 nömrəli məktəbin səkkizinci sinfini bitirəndən sonra taleyini ömürlük hərbçi peşəsiylə bağlamaq məqsədiylə C.Naxçıvanski adına hərbi liseydə təhsilini davam etdirib. Burada oxuyarkən özünün qabiliyyəti sayəsində şagird yoldaşlarından seçilmiş, hərbi müəllimlərinin

diqqət mərkəzində dayanmışdır. Məktəbi qurtaranda ali hərbi məktəb üçün tələb olunan yaşının tamamına dörd ay qaldığından, o, arzusuna qovuşa bilmədi. Taleyin və imperiya qanunlarının sərtliyini ilk dəfə duyub yaşasa da ruhdan düşmədi. Bəxtini qabarlı əllərində aradı. Bir müddət Giləzi quşçuluq fabrikində, sonra isə Ceyranbatan avtomobil nəqliyyat trestində çilingər işlədi. Uşaqlıqdan zəhmətə öyrəncəli əlləri burada da üzünü ağartdı onun. Halal əməyinin nəticəsi kimi aldığı hədiyyə və mükafatlar onun hərarətli ürəyinin təpərindən və fəhlə əllərinin qüdrətindən xəbər verirdi. O zamankı illərin təbirincə desək gələcəyi olan bir əmək qəhrəmanı yetişirdi onun şəxsində. Təkcə Mətləbin bundan xəbəri yox idi. Onun ümman duyğusu, gənclik temperamenti və bir də hərbçi olmaq istəyi o zamankı qəhrəmanlıq qəliblərinə sığmırdı. Hərbi xidmətə çağrılanda elə bildi ki, üstündən ağır bir yük götürüldü. Qurtardı onun canı təriflərdən, yaxasında sıralanan beşilliyin qabaqcıl döş nişanlarından...

Demə ömrü boyu qismətinə şöhrət payı düşübmüş Mətləbin. Ata-babalar "şöhrəti gəzməzlər" deyiblər. Mətləb hərbi xidmətdə olanda şöhrət barədə heç düşünməsə də əməksevərliyi ilə Ukrayna Respublikasının Luqansk şəhərindəki hərbi hissənin sevimlisi oldu. Onda hələ milli zəmində münaqişələr cücərməmişdi. Onda hələ Sovet İttifaqı deyilən ucsuz-bucaqsız bir ölkədə qurd quzuyla gəzib dolanırdı. Onda hələ bəşəri dəyərlər uca tutulurdu. Mətləbin zəhmətsevərliyi və intizamlı olması komandirlərinin xoş sözlərinə bükülüb Kamran kişinin və Valya xalanın yaşadıqları Sumqayıt şəhərinə üz tutan təşəkkür məktublarını isidirdi. Əsgəri xidmətini başa vuranda bacarıqlı bir hərbçi kimi onu orduda saxlamaq istəsələr də Mətləb arzularının dalınca düşüb doğma el-obamıza qayıtdı...

Sonralar Mətləb deyirdi ki, komandirlərim mənə orduda qalıb qulluq etməyi təklif edəndə, xeyli tərəddüd etdim. Nə gizlədim, hərbçi olmaq istəyim bir anda baş qaldırdı. Ancaq bu imperiyanın astar üzünü az-çox gördüyümdən əl-qolum yanıma düşdü. Otuzuncu illərdə ata babam Nəriman babam dünyanın ən üzüyola adamı, tanrının ən halal bəndəsiymiş. Müsavatçı olduğundan ixtiyar yaşlarında Sibirin sərt üzünü görə-görə dünyadan nisgilli köçüb getmişdi. On birinci Qızıl Ordunun başımıza açdığı oyunları yaxşı bildiyindən Mətləb hərbi hissədə qalmağı özünə və xalqımıza təhqir bilmişdi...

Kamran kişiylə Vayla xanım oğlanlarını savadlı bir ziyalı kimi görmək istəklərini büruzə verəndə Mətləb ADPİ-nin(indiki N.Tusi adına APU) ibtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə qəbul olunmaqla onlara



sevinc gətirdi. Tələbəlik illəri Mətləbin yeni-yeni keyfiyyət və üstünlüklərini üzə çıxardı. O, hər şeyə diqqət yetirməyi, hadisələrdən nəticə çıxarmağı, ani vaxt ərzində qərar qəbul etməyi bacarırdı. Bəlkə də məhz bu keyfiyyətləri sonralar torpağımızın müdafiəsi naminə od-alovun içinə atılanda onu qəhrəmanlıq zirvəsinə ucaltdı. Ancaq onda nə müharibə arzulayırdı, nə qəhrəman olmaq istəyirdi Mətləb. Arzuladığı qulaq dincliyi və bir parça halal ruzi idi. Bu istəyə əli yetişəndə özünü dünyanın ən bəxtəvər adamı hesab edirdi. Leytenant hərbi rütbəsiylə Sumqayıt məktəblərində bir müddət ibtidai hərbi hazırlıqdan balalara dərs dedi. Sevdiyi bir el qızının məhəbbətindən bəxtinə düşən işıqla da burada-Sumqayıt şəhərində qovuşdu...

1988-ci ilin fevral ayından sonra onun həyat yolu Bakının Azadlıq meydanına uzandı. Buradakı mitinqlər Mətləbin də şüurunda güclü əks-səda verdi. Göyçə dərdi, Zəngəzur harayı, Qarabağ yanğısı onun taleyindən keçib getdi. Və onda Mətləb özünə söz verdi ki, neçə ki, nəfəsi var həyatını yurdumuzun azadlığına həsr edəcək. Elə bu amalla da könüllü olaraq Daxili İşlər Nazirliyinin daxili qoşunlarının sırasına üz tutdu. Hərbi işə olan marağı və bu sahədəki biliyini nəzərə alıb Qazıməmmədəki təlim-məşq poliqonuna komandir-müəllim vəzifəsinə təyin etdilər onu. Baş leytanant Mətləb Quliyev təlim başa çatandan sonra gənclərlə birlikdə cəbhəyə yollanır. Burda iki-üç gün qalıb onlara snayperlik peşəsini də öyrətməyə çalışırdı...

Sonra isə orduya cəlb olunan yeni-yeni dəstələrlə yenidən hazırlıq işləri başlanırdı. Gənc əsgərlərin təlim-məşq hazırlığı həddən artıq fiziki gərginlik tələb etsə də onu yorub əldən salmırdı. Düşünəndə ki, hərbi hazırlığı mənimsəyə-mənimsəyə püxtələşən bu cavanları taleyüklü bir səfərə yola salanlar arasında onun da yeri var, qüruru sinəsinə sığmırdı...

Mətləb gün ərzində bütün diqqətini əsgərlərimizin hərbi hazırlığına yönəltsə də cəbhə xəbərlərinə biganə qalmırdı. Bu xəbərlərsə gah təzadlı, gah ağrılı olurdu. Özlərini millət qəhrəmanları kimi qələmə verən səriştəsiz komandirlərin, özfəaliyyət batalyonları düzəltməklə öz çirkin niyyətini sadəlövh gənclərin iradəsiylə həyata keçirməyə çalışan bəzi vəzifə düşgünlərinin iç üzünü gördükcə, acı Meşəli, Cəmilli.. faciələri baş alıb getdikcə xalqımız addım-addım Xocalı qırğınına yaxınlaşmaqda idi. Xocalıda azğın erməni quldurları və onların havadarı olan rus hərbiçiləri iyirminci əsrin heç bir ölçüyə gəlməyən vəhşiliyini törətdilər. Minlərlə dinc əhalinin, qocanın, uşağın, qadının qanı axıdıldı. Ana-bacılarımızın namusuna təcavüz edildi. Bax, onda Mətləb başa düşdü ki, hakimiyyət davası, şöhrət azarı və bir də varlanmaq ehtirasıdır bu xalqı birləşməyə qoymayan.

Onda bütün varlığıyla elə bil üsyana qalxdı:

– Ay qardaşlar-dedi, bu torpaq bizdən imdad diləyir, vallah şəxsi maraqlarımızı bir yana atıb yumruq kimi birləşməsək başımıza od-alov yağacaq. İnsaf edin!...

Onda Mətləbin və Mətləb kimi minlərlə qeyrətli eloğullarımızın həyəcan təbilinə bənzəyən harayı daş ürəkləri yumşaltmadı. Ali kreslolara dikilən gözlər Qarabağdakı uc-uca düyülən musibətləri görmürdü onda...

Və ona görə də Xocalı yaraları qaysaq tutmayan dərdimizin üstünə Şuşa nisgili, Laçın itkisi də calandı o nəhs aylarda...

1992-ci ilin yayında Ağdərədə burnu ovulan dığalar Ağdama, onun sərhəd kəndlərinə diş qıcıtdılar...Gülablı ətrafında gedən döyüşlərdə Mətləb Quliyev də iştirak edirdi onda. Düşmən kəndin yaxınlığındakı strateji əhəmiyyətli yüksəkliyi ələ keçirib əsgərlərimizi göz açmağa qoymurdu. Mətləbin snayperlik bacarığı burada harayına çatdı. Tez-tez yerini dəyişdikcə pulemyotla yüzdən artıq qulduru məhv elədi. Düşmən Mətləbin dayandığı yeri aramsız atəşə tutsa da igid eloğlumuz axıracan möhkəm dayanıb mühasirəyə düşmək təhlükəsi altda olan əsgərlərimizin xilasına nail oldu. Sonuncu güllələriylə düşməni biçib tökən Mətləb Quliyev Gülablıdakı döyüşlərdə alnından və gözlərindən güllə yarası alıb həyatını qəhrəmanlıqla sona çatdırdı. 1992-ci ilin avqust ayının otuz biri Quliyev Mətləb Kamran oğlunun bu dünyada sonuncu günü oldu "Şəhidllər xiyabanı"nda torpağa tapşırılan igid eloğlumuzun dəfnində onun həmyerliləri, silah yoldaşları iştirak etdilər. Başı bəlalı torpağımızda bir şəhid qəbri artdı həmin gün. Mətləbin ölümüylə cavan bir gəlin ərsiz, iki fidan körpə atasız qaldılar. Süleymanlıda, Beyləqanda, Sumqayıtda şəhid eloğlumuz Mətləbin ölümündən yana-yana danışdılar. Bir ana harayı ürəkləri sızlatdı həmin gün:

*Bu dağda gəzmək olmur,*
*Güllərin üzmək olmur.*
*Mətləbim cavan öldü,*
*Bu dərdə dözmək olmur..*

Azərbaycan Respublikası prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Quliyev Mətləb Kamran oğlu heykələ dönüb Süleymanlı kəndini özünə əbədi məskən seçdi...

Heykəlin on-on beş addımlığındakı kənd məktəbinin şagirdləri bayaqdan bu məsələ barəsində elə hey mübahisə edir, ortaq fikrə gələ bilmirdilər.

– Görürsünüz, deyirdimmi Quliyev Mətləbin əsli bizim kənddəndir.



– Onu Beyləqan camaatı da öz həmyerliləri hesab edirlər.

– Sumqayıtda Mətləbi bizdən də çox istəyirlər. Axı, o orada böyüyüb, boya-başa çatıb. Qəhrəmanın ata-anası Kamran baba da, Valya nənə də orada yaşayırlar.

– Mətləb Quliyev həm Süleymanlının, Beyləqanın, Sumqayıtın və həm də bütün Azərbaycanın qəhrəman oğludur. Hər eldə, hər obada onun adını məhəbbətlə yad edirlər...

Uşaqlar arxaya çevriləndə sevimli müəllimlərini gördülər yanlarında saçlarından son beş ilin ağrı-acısı boylanan müəllimlərinin baxışlarında Mətləbin daşa çevrilən istəyini arayıb axtaran bu uşaqlar o gözlərdəki işartını görəndə bir buğum ucaldılar, boy atdılar elə bil...

## DUMAN, GƏL GET BU DAĞLARDAN...

**Quliyev Sahib İslam oğlu**
**(26.12.1968-15.08.1992)**



Qaracallı kəndinin şəhid balası Mirələmin (Bu igid oğlanın bütün sənədlərində Quliyev Sahib İslam oğlu yazılsa da onu hamı Cəbrayılda Mirələm adıyla tanıyır və biz də bu müqəddəs adın işığına üz tutub onun şöhrətiylə isinirik) adı çəkiləndə "bir dəli ağlamaq keçir adamın könlündən. "Mirələm bu torpağın Babək vüqarı, Xətai yadigarıdır. İnsan necə də sevilərmiş, əzizlə - nərmiş. Bu sevgini, bu ümman istəyi Mirələm özü qazanmışdı. Elə şən, elə gülərüzlü bir oğlanıydı ki, tayı-bərabəri yoxuydu. Toylar yaraşığıydı Mirələm. Qol götürüb oynayanda el-oba tamaşasına yığılardı. Ən çox xoşladığı da "Baş sarıtel" idi. Bu saz havası çalınanda sümüyü oynağa gedər, barmaqlarının ucundan nəğmə süzülərdi. Elə ölümün üstünə də oxuya-oxuya gedərdi. Həzin, yanıqlı bir səsi varıydı. Hərdən döyüşlərdən başı açılanda döyüşçü dostlarına üzünü tutub:

– Özüm ölüm, birinizin də toyunu buraxmaram-deyirdi-hamısında da

toybaşı özüm olacağam və sonra da dodaqaltı:

– Duman gəl, get bu dağlardan,

Dağlar təzə bar eyləsin!-deyə-deyə silahını söküb təmizləyər, düşməni zağasında yaxalamaq üçün ürəyində əməliyyat planı qurardı...

Mirələm polis sıralarına 1990-cı ildə gəlmişdi. Ondan əvvəl iki il hərbi xidmətdə olmuşdu. Doxsanıncı ilin 20 yanvarında imperiyanın məkrli sifətini görəndə:

– İlahi, gör biz yetmiş il kimlərə inanmışıq. Heyif qırx bir-qırx beş arasında həlak olan igidlərimizdən. Və həmişə ürək ağrısıyla xatırlayırdı ki, həmin müharibədə - üzünü görmədiyi əmiləri Bayram, Müslüm, Məhəmməd də qurban gediblər... Böyük Ermənistan xülyasından məst olan ermənilərin iç üzünü görəndən sonra Mirələm qınından çıxarılan qılınca dönmüşdü. Cəbrayıl polisində xüsusi hücum qrupunun ən fəal üzvlərindən biri idi. Ermənilərin üstünə Əliyarla, Faiqlə, Şikarla, Kazımla,Əliylə... birlikdə gedəndə gözünə heç nə görünmürdü, bilirdi ki, arxasında qala kimi oğullar dayanıb. 1991-ci ildə Cəbrayılla həmsərhəd erməni kəndlərini də ürəkdən inandığı, qeyrətinə sığındığı dostları ilə birlikdə təmizləmişdilər. O vaxtlar Cəbrayılda komandirlik istedadı ilə şöhrətlənən Rəşid Məmmədov Mirələmi dönə-dönə bağrına basıb:

– Sən mənim şahin ürəkli qardaşımsan-deyərdi-səni doğan ananın qarşısında baş əymək lazımdır.

Mirələm neçə dəfə düşmənlə qəfildən üz-üzə gəlsə də özünü itirməmiş, sərrast güllələri ilə onları geri çəkilməyə məcbur etmişdi. O, yurdumuzun Laçın, Qubadlı, Füzuli bölgələrində gedən döyüşlərdə də yaxından iştirak edib və hər dəfə də düşmənin canına vəlvələ salıb...

Güləbirdli Vaqif deyirmiş ki, bu cəsur Cəbrayıllı balası döyüşlərə oxuya-oxuya gedərdi. Onun dodaqlarında Məmməd Arazın:

Bəlkə bu yerlərə bir də gəlmədim,

Duman salamat qal, dağ salamat qal!...-misraları səslənəndə adam bu ulu dağların avazıyan işığı altında ölümün özünə də meydan oxumaq istəyirdi...

– Cəbrayılda neçə-neçə adamın ürəyində Mirələmli xatirələr pöhrə-pöhrə dil açır.

Daxili İşlər Şöbəsinin xidmət işləri üzrə rəis müavini Vaqif Hüseynov:

– Mirələm özünə, sözünə yiyə duran oğlan idi, son dərəcə qorxmaz və cəsur idi. Döyüşlərin qızğın çağlarında belə nikbinliyini saxlayar uşaqlara ürək-dirək verərdi. Şayaq yüksəkliyi uğrundakı döyüşlərdə mühasirəyə düşən yüz əlliyə qədər əsgərlərimizin xilas olunmasında göstərdiyi hünəri hamımız xatırlayırıq. Pulemyotu əlinə alanda düşmənə



göz açmağa aman verməzdi...

Sevindik Məmmədov - milli ordunun əsgəri: –Mirələmin qeyrətinə qibtə edirdik. Məni orduya gətirən də o, olub. Belə oğullar sərkərdə hünəriylə doğulur...

Arif Məhərrəmovı müəllim): kəndimiz Şişdağıyla üz-üzədir. Mirələm yanımızda olanda heç nədən qorxumuz olmurdu. O, strateji əhəmiyyəti olan bu dağın alınması üçün keçirilən üç əməliyyatda iştirak edib və çoxlu erməni quldurunu məhv edib...

Mirələmin atası İslam kişi:–Mirələmi kasıblıqla tutaşa-tutaşa böyütmüşdüm. Müharibədə itirdiyim qardaşlarımın əvəzi hesab edirdim onu. Ölümüylə anası Qızxanımı da, məni də boynuburuq qoyub getdi...

Atanın qəlbinə dəyməsəydi onun bu sözlərinə etiraz edib:

– Belə fikirləşmə İslam kişi,– deyərdik.– Mirələm kimi oğullar heç vədə ölmürlər, onlar əbədi gəncliyə qovuşub əbədi ömür sürürlər. Bunu təkcə biz yox, oğlunu ürəkdən tanıyanlar da deyir. Necə ki, dünyamızda Azərbaycan adlı başı bəlalar çəkən Vətənimiz var, Mirələm kimi oğullar ürəyimizin təpəri, dilimizin əzbəri olacaqlar....

Torpağın barıt qoxulu yaddaşında Mirələm itkisi, Mirələm göynərtisi zaman-zaman yaşayacaq hələ. On beş avqust min doqquz yüz doxsan ikinci ildəki Sur döyüşləru yada düşəndə sinəsi güllələrdən parça-parça olan bu igidin dodaqlarında qızıl qana boyanan:

*Duman gəl, get bu dağlardan,*
*Dağlar təzə bar eyləsin!..*

– misraları hələ hansı toydasa bizi varımızdan yox edəcək...

İndi bizim Cəbrayılda "Baş sarıtel"ə Mirələmin havası da deyirlər. İndi bu oymaqdakı toylarda heç kim bu havanı çaldırıb oynamır. Cəbrayıllı igidlər əhd ediblər ki, dava qurtarandan sonra bu havanı çaldırıb doyunca oynayacaqlar. Onda ömrünün iyirmi dördüncü baharında dünyaya göz yuman Mirələmin ruhu sevinəcək. Onda Qaracallı kəndində iyirmi dörd il əvvəl Sahib adıyla dünyaya gəlib Mirələm adıyla ölməzlik qazanan bir şəhid qəbri dil açıb deyəcək:

*Duman gəl, get bu dağlardan,*
*Dağlar təzə bar eyləsin!..*

## ATA OĞUL GƏZİRDİ...

### Quliyev Savalan Ömər oğlu
### (09.02.1973-15.08.1992)



– Nənə, ay nənə, Savalan əmim hardadı, niyə bizə gəlmir?

Qəfil sualın doğurduğu acılıq Gülnaz ananın boğazında qəhərə çevrildi. Gözlərinin bulud harayı kirpiklərini islatdı. Birtəhər özünü ələ alıb başındakı şalın ucu ilə göz yaşlarını sildi. Ciblərini eşələyib çıxardığı bir cüt konfeti iki yaşını təzəcə tamamlayan oğul nəvəsi Niyaməddinə uzatdı və qəhərini gizlətməyə çalışaraq:

– Dərdin mənə gəlsin, al ağzını şirin elə, Savalan əmin uzaqlara gedib, tezliklə qayıdacaq...

– Gələndə deyəcəyəm ki, əmi səndən küsmüşəm. Niyə gedəndə məni də aparmamısan. Bir də demişdi ki, sənə şar alıb gətirəcəyəm... Yox, konfet istəmirəm, heç şar da almasın. Mən Savalan əmimin özünü istəyirəm...

Evdəkilər kövrələ-kövrələ körpəni ovutmağa çalışdılarsa da o uşaq inadı ilə hər kəlmə başı "Savalan əmimi verin mənə, mən əmimi istəyirəm"- deyə-deyə axır ki, yuxuya getdi...

Gülnaz ana əllərini dizinə çırpıb:

– Allah, dilsiz-ağızsız körpəyə necə deyim ki, Savalan əmin tay bir də gəlməyəcək-uşaq uşaqlığı ilə dözmür, mən yurdu itmişin qızı bala dağına necə tablaşım, ilahi!...

Ömər kişinin içəri girməyiylə evdəkilər özlərini yığışdırdılar. Gülnaz ananın ara-sıra hıçqırığından bilinirdi ki, hələ sakitləşməyib.

Ömər kişi böyük oğlu Salmana üzünü tutub:

– Savalan qağanın tərcümeyi-halını yaz, hazırla, rayondan istəyiblər. Ölümündən əvvəl çəkdirdiyi şəklinin birini də verərsən, sabah aparacağam...

Salman şagird dəftərindən bir qoşa vərəq çıxarıb qələmi əlinə götürdü. Şəhid qardaşı Quliyev Savalanın ömür yolu gəlib gözlərinin qabağından keçdi...

Savalan 1973-cü ilin doqquz fevralında anadan olmuşdu. Daş Veysəlli camaatının yaddaşında ürəyi təmiz bir uşaq kimi qalıb Savalan. Ailələrində



özündən savayı yeddi qardaş-bacısı böyüyüb. Böyük bir külfəti dolandırmaq üçün Ömər kişi, Gülnaz ana özlərini oda-közə vurublar. Uşaqlar böyüdükcə valideynlərinin hayına-harayına yetiblər. Savalan orta məktəbin son siniflərində yay tətilini kolxozun taxıl-zəmisində, biçənəyində keçirib. Hələ bərkiməmiş qolları ilə ot toplayıb, kip bağlayıb-ailə süfrəsinə ruzi gətirib. Yaxşı oxuyan şagirdlərdən olsa da orta məktəbi bitirəndən sonra təhsilini davam etdirə bilməyib. "Atamın bir çətən külfəti var, istəmərəm ki, onların boğazından kəsib məni oxutsunlar. Yaxşısı budur ki, işləyim, sonra qismət olsa oxuyaram" - deyib.

1991-ci ilin mayında əsgər gedib. Qorki vilayətinin Dzerjinski şəhərindəki SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissəsində on aya qədər qulluq edib. Orada türklərə qarşı törədilən vəhşiliklərdən zara gələrək günlərin birində çıxıb Azərbaycana gəlib. Ömər kişi onu yanına salaraq rayon hərbi komissarlığına gətirib. Savalan ötən ilin aprel ayından ordumuzun Cəbrayıl bölməsinin ikinci rotasında doğma torpaqlarımızı erməni vəhşiliklərindən qorumağa başlayıb...

Quliyev Savalanın yığcam tərcümeyi-halını dönə-dönə vərəqləyəndən sonra Ömər kişi ilə görüşməyə ürəyimizdə ehtiyac duyduq. Zəng edib görüşdük. Oğul dağı ortaboylu bu kişini bürüb-büküb yumağa döndərmişdi. Danışdıqca özündən asılı olmayaraq gözlərindən yaş gilələnirdi:

– Uşaqlarımın içərisində Savalanın öz yeri var idi. Çox təpərli, cəsarətli uşaq idi. Doğulduğu torpağa hədsiz məhəbbət bəsləyirdi. Onun yolunda ölümə belə getməyə hazır idi. Axırda getdi də. Ömər kişi özünü toxtatmaq üçün bir müddət susduqdan sonra:

– Milli Ordumuzun sıralarına həvəslə getmişdi. Oradakı uşaqlardan çox razı idi. Elə komandiri Cəfərov Ceyhundan da ağızdolusu danışırdı... Ancaq bir dəfə evə çox qanıqara gəlmişdi. Səbəbini soruşdum, əvvəl demədi. Təkid edəndən sonra:

– Ay qağa, (rəhmətlik atasına belə müraciət edirdi) vallah, torpaqlarımızın dərdi olmasa orada bircə gün qalmaram. Kim nə bilirsə onu da edir. İntizam, yox, böyük-kiçik sözünə məhəl qoyan yox... Özlərini cəbhəçi adlandıran bir neçə adamın orada könlündən şahlıq keçir. Hərbi hissənin komandirlərinə təzyiq göstərməklə bildiklərini edirlər. Kənddən gələn uşaqlara göz verib, işıq vermirlər....Özün bilirsən ki, mən belə şeylərə dözən deyiləm. Ancaq nə edim, Vətənin dar günüdür, gərək dözək.

Ömər kişi deyir ki, Savalan balam elimizin adət və mərasimlərini ürəkdən sevirdi. Novruz bayramı yaxınlaşanda kənd uşaqlarıyla birgə oyun

hazırlayıb göstərirdilər. İdmana güclü marağı varıydı. Kürəyi üstə şüşə qırıntıları döşənmiş yerdə uzandıqdan sonra sinəsinə iri taxta parçası qoyub üstünə neçə adam mindirərdi. İki pudluq daşı dişində qaldırar, əlində fırfıra kimi oynadardı. Kənd uşaqları, özündən yaşlılar gücünə həsəd aparırdılar onun. Sonuncu sinifdə məktəbin "Çeşmə" ədəbi-bədii dərnəyinin fəal üzvü olmuşdu. Müəllimləri: "parlaq gələcəyi var oğlunun"–deyirdilər mənə...

Rəhmətə getdiyi günə qədər bir neçə döyüşdə iştirak etmişdi. Hamısından da üzağ çıxmışdı. Əsgər yoldaşları yaman çox istəyirdilər oğlumu. Hərdən icazə alıb iki-üç yoldaşları ilə evimizə gələrdi–yaxşı yoldaşlığı var idi balamın...Evə gələndə anası yalvarırdı ki, qurban olum, ay Savalan, bir az ləngi, qoy şumal boyuna doyunca baxım. O, zarafata salıb:

Əziziyəm qalasız,
Şəhər olmaz qalasız.
Mən çıxıb gedəsiyəm–
Siz sağlıqla qalasız

Ömər kişi Savalanın son günlərini yana-yana xatırlayır:

–Şişqaya əməliyyatı uğursuzluqla başa çatmışdı. Xeyli ölən-itən var idi...

HAŞİYƏ. İllər ötəcək bu müharibədə haqq işimiz qalib gələcək. Hansı bir hərb tarixçisi isə olub keçənləri araşdıracaq. Onda uğursuzluqla, çoxlu qurbanlarla nəticələnən döyüşlər də yada düşəcək. Yəqin ki, onda səriştəsizliklə aparılan Şişqaya döyüşləri də diqqətdən kənarda qalmayacaq. Bu əməliyyatda niyə məhz orduya cəmisi son iki-üç ay ərzində cəlb olunanların iştirak etməsi də diqqəti cəlb edəcək. Bu neçə illərdən sonra olacaq. Onda da yəqin ki, bu əməliyyatın uğursuzluğuna cavabdeh olanlar heç bir cəza almayacaq, heç vicdan əzabı çəkməyəcəklər də. Axı, məhz bu kimliyi üzə çıxarılmayanların günahı üzündən Şişqaya əməliyyatında onlarca döyüşçümüz şəhid olublar. Əksəriyyəti də on doqquz yaşında...

Döyüşdən sonra hamı öz uşağını axtarırdı. Tapmayanlar yaralılarla dolu xəstəxanalara üz tuturdular. Bir neçə əsgəri mənim oğlum Savalan qarışıq gördüm deyən yox idi. Döyüş yerlərini ələk-ələk edə-edə əldən düşmüşdük. Balalarının meyitini tapanlar şükür edirdilər. Böyük Mərcanlıdan olan Güloğlan kişinin də Elşən balasından soraq verən yox idi. Savalanımın şəklini böyütdürüb qarşıma çıxan əsgərlərə göstərə-göstərə:

– Ay uşaqlar, bu mənim oğlum Quliyev Savalandır, bəlkə onu



görəniniz olub–deyə-deyə dağa-daşa ün salmışdım...

Ümidimin üzüldüyü yerdə Mərcanlıdan olan Cəbrayılov Fərman adlı bir əsgər oğlan şəkilə baxandan sonra:– Əmi, oğlun Savalan əməliyyatdan qabaq Şişqaya postunda idi. Döyüşlər başlayanda bizə qoşuldu. Hamıdan qabaqda gedirdi. Döyüşün qızğın yerində Daş Veysəllidən olan İsayev Nəbini vurdular, ağır yaralandı. Savalan dedi ki, onu qırağa apar, mən ermənilərin qabağını saxlayacağam. Şişqayanın düz altında idi. Axırıncı patronuna kimi atışıb şəhid olmuşdu oğlum...

Axır ki, öyrənib bildik ki, ermənilərin əlində iki meyit qalıb. Biri Savalanın, biri də Mərcanlı Güloğlan kişinin oğlu Elşənin. Düz on iki gün allah düşmənimə də göstərməsin, dağda-daşda qaldıq. Rayonumuzun qeyrətli oğlu Səmədov İdrisin ("Textəminat" birliyinin rəisi) bizə çox köməyi dəydi onda. AXC-nin rayon fəalı Vaqif bəyin də əziyyəti az olmayıb. On birinci gün Elşənin, ondan bir gün sonra isə Savalanın meyitlərini geri aldıq...

Balaca Niyaməddin hələ də gündə neçə dəfə Gülzar ananın yaxasından yapışıb:

– Nənə, Savalan əmim niyə bizə gəlmir, hara gedib əmim? – deyir. Gülzar ana uşağın sualına düzgün cavab verməyə acizlik çəkir. Deyə bilmir ki, əmin bu torpağın azadlığı naminə canından keçib. Düşünür ki, bir neçə ildən sonra Niyaməddin böyüyüb əsl həqiqəti biləcək. Onda özü görəcək ki, bu yurdda şəhid gedən oğulların adları həmişə hörmətlə xatırlanır...

# TƏKİ VƏTƏN SAĞ OLSUN



**Quliyev Rufiz Telman oğlu (06.12.1973-28.06.1992)**

Keçəlməmmədli Cəbrayılın sayılan-seçilən kəndlərindəndir. Bir üzü Arazın qırağına, bir yanı barlı-bəhrəli Topcaq düzünə söykənir bu kəndin. Hələ dünyanın düz vaxtlarında böyük-böyük şəhərlərdə alim övladları ilə öyünürdü bu oymaq. İndi bu kəndin qeyrətli övladı Quliyev RufizTelman oğlunun şəhid adına söykənir Keçəlməmmədli camaatı. İndi dünənə qədər yaşıdlarından seçilməyən Rufizin adı qeyrət simvoluna dönüb dolaşır bu kəndi. Ağsaqqal da, cavan da, əli təzəcə qələm tutan məktəbli də bu igid oğlanın adının işığına üz tutur. Bu kəndin kiçik məktəbli balası Abbasova Nərminin ürəyində Rufiz misra-misra şeirə çevrilir:

*Bir qeyrətli oğul idin,*
*Dünya boyda ağıl idin.*
*Nəğmə idin, nağıl idin,*
*Rufizim, bu dünyada.*

*Qorxutmurdu ölüm səni,*
*Arxa bilir elim səni.*
*Əzizləyir dilim səni,*
*Rufizim, bu dünyada.*

*Həyatın bir baxım işıq,*
*Adın bizə yar-yaraşıq.*
*Qeyrətinə sığınmışıq,*
*Rufizim, bu dünyada...*



Bu kəndin xeyrində, şərində gündoğanında, qürubunda dolaşır Rufizin şəhid ruhu. Bu adın hikmətindən neçə-neçə ünvana işıq düşür.

1973-cü ilin dekabr ayının altısında dünyaya göz açan, iyirmi yaşının zirvəsinə çatmamış ömrün şəhidlik zirvəsinə ucalan bu qeyrətli oğul indi Keçəlməmmədlidə təkcə Telman qağanın, Şahbaz bacının balası deyil, həm də şəhid balalarımızın qeyrətindən güc alan Azərbaycanımızın övladıdır.

Rufiz həmkəndlilərinin yaddaşında özünün təkrarsız dünyası ilə yaşayır, xatırlanır:

Abbas Abbasov (kənd orta məktəbinin müəllimi): – Rufizə yazıb oxumağı ilk dəfə mən öyrətmişəm. Çalışqan, dəcəl uşaq idi. Qaynar gözlərindən bir aləm boylanırdı. Ölümü ilə öz müəllimlərinə, ailə üzvlərinə baş ucalığı gətirdi...

Rufizin yaxın qohumu Sədətquliyev Rafiq deyir ki, bir dəfə Rufiz mənə yanaşıb dedi ki, əmioğlu, sən Soltanlı kənd sovetində hərbi komissarlığın nümayəndəsisən, xahiş edirəm mənə oradan çağırış vərəqi gətirəsən – sonra əlavə etdi ki, əgər gətirməsən öz xoşumla gedib qoşulacağam əsgərlərə...

Zalxa Rüstəmova (kənd xəstəxanasının həkimi):- Yaxşı yadımdadı, Rufizi yenicə yaranmaqda olan ordumuzun sıralarına yola salmaq üçün toplaşmışdıq. Ona xeyir-dua verirdik. Rufiz üzünü Marat həkimə tutub əmi, – adınızı doğruldacağam. Allah qoysa tezliklə düşmənin niyyətini gözündə külə döndərəcəyik. Əsl şənliyimiz bax onda başlayacaq....

Rufizin yaxın qohumu, respublikanın əməkdar həkimi Rəhilə xanım deyir ki, o, həddən artıq istiqanl, təpərli oğul idi. Orta məktəbu qurtaranda instituta oxumağa aparmaq istədik, razı olmadı:

– Oxumaq qaçmır ki, – dedi–hərəmiz bir bəhanə ilə aradan çıxsaq bəs bu torpaq kimin umuduna qalar. Hərdən deyərdi ki, onsuz da arzum hərbçi olmaq idi, elə bu başdan bərkdən-boşdan çıxmağım lazımdır. Rufizin anası Şahbaz bacı oğlunun adını əzizləyə-əzizləyə:

– Qurbanı olduğum çinar boylu idi. Hərdən deyərdim ki, Rufiz, ana qurban ehtiyatlı ol, qabağa düşmə! Bu sözümdən acığı tutardı. Bəzən zarafata salıb:

– Ay ana, deyərdi, allah mənə boy-buxun verib. Bu qədd-qamətlə arxada dayanmaq mənə yaraşmaz. Qadasın aldığım çox ürəyi yumşaq idi. Atasının qabarlı əllərini görəndə deyərdi ki, darıxmayın, bu quldur ermənilərin axırına çıxandan sonra, qoymayacağam bircə gün də işləyəsiniz. Tay əziyyətinizi özüm çəkəcəyəm. Özündən kiçik qardaşları

Hafizə və Eldənizə dönə-dönə tapşırırdı ki, yaxşı oxusunlar. Onun barəsində narahat olduğumuzu görəndə:

Qorxmayın–deyərdi– bu quduz ermənilərə divan tutmamış ölümə can verən deyiləm.

Ata-anası Rufiz üçün yurd yeri götürüb ona ev tikmək arzusunda idilər. Rufiz bunu eşidəndə zarafatla:–Özüm ölüm demişdi, müharibə qələbəmizlə başa çatan kimi evlənəcəyəm. Özü də...

Yox, o ürəyində sirr kimi saxladığı gizli sevgisini bacı dediyi əmisi qızı Nilufərin qulağına pıçıldamışdı. Ona demişdi ki, onuncuda oxuyan o qızla əhdi-peyman bağlamışam. Söz verib ki, məni gözləyəcək...

Özünün bir dünyalıq məhəbbətinə və bir də torpaq istəyinə söykənmişdi Rufiz. Elə onu azğın düşmən gülləsindən qoruyan da bu istək idi. Elə bu amalla da 1992-ci ilin mart ayından düşmənlə vuruşurdu.

Evdəkilər nigaran qalmasınlar deyə axıncı dəfə döyüşə getməzdən qabaq sifariş göndərmişdi ki, bir neçə günlüyə iş dalınca Bakıya gedirəm. İstəmirdi ki, evdə onun fikrini çəksinlər.

Demə o öz ölümünə doğru addım-addım getməkdə imiş. Bu igid oğlan iyun ayının iyirmi səkkizində Sur kəndi uğrunda döyüşlərdə ömrün şəhidlik zirvəsini fəth elədi. Ölməzdən qabaq özünün də, özündən qabaq həlak olan yoldaşlarının da qisasını aldı...

Rufiz Quliyev ölümüylə bir elə, bir ocağa şərəf-şan gətirdi. Keçəlməmmədli camaatı torpağımızın azadlığı uğrunda canından keçən bu qeyrətli eloğlumuzun adını uca tutur, onun xatirəsini əbədiləşdirmək barədə düşünürlər. Bu, gözünün ilk ovunu, ilk murazını itirən Şahbaz bacımız, Telman qardaşımız üçün böyük toxtaqlıqdır. Elə buna görədir ki, ağlayıb ürəyini boşaldandan sonra Şahbaz ana əsl ağbirçəklər kimi:

– Təki vətən sağ olsun–deyir–oğullar dar ayaqda Vətən yolunda canlarından keçməsələr torpağımız yad ayaqlar altda tapdaq olar...



# GƏNCLİYİN YOL YOLDAŞI

**Quliyev Baloğlan Əlif oğlu**
**(24.01.1962-22.03.1992)**



Sən ömrünün otuzundan o üzə heç vaxt adlayıb keçə bilməyəcəksən. Əslində ömrün otuzuncu baharının sonunu heç sağlığında da görmək sənə qismət olmadı. Məzarın üstə dikələn baş daşından dünyamıza gileyli-gileyli baxan şəklinin altında "24 yanvar 1962-ci il–22 mart 1992-ci il Quliyev Baloğlan Əlif oğlu" sözləri bir nakam ömrün ağrı-acısından xəbər verir. Ölümünlə Şıxalıağalı camaatının başını ucaltdın. Bundan sonra söz düşəndə kənd adamları bir az hüznlə və bir az da fəxrlə deyəcəklər ki, bizim kəndin də şəhidi var – O, Əlif kişinin oğlu Baloğlandır!!!

Həmyerlilərin kimi böyüyəndə iki yaşlı oğlun da fəxr edəcək səninlə. Ancaq o hələ nəyin yolunda qurban getməyindən xəbərsizdir. O hələ atasızlığın necə böyük faciə olduğundan xəbərsizdir. Bu körpə şəhid balasını hamı əzizləyir deyə o kimin kim olduğunu ayırd eləyə bilmir. Hələ bir neçə il keçəcək, bu körpə də dünyanın işlərini eşidib biləcək və görəcək ki, bir yerdə oynadığı qonşu uşaqları "atam gəldi" deyib evlərə dönən əmilərin üstünə qacacaqlar. Bax onda başa düşəcək ki, o, "atam gəldi" sözlərini heç vaxt işlədə bilməyəcək. Və sən özün də bu körpəni bir də heç vaxt öpüb oxşaya bilməyəcəksən. Elə bir uzaq səfərə çıxıbsan ki, bu səfər yolu əbədiyyətə qədər uzanır. Bu yolla gedənlər bir daha geri dönmək barədə düşünmürlər. İlahi dərgahına qovuşan ruhun hərdən baş çəkəcək oğluna. Və bir də hərdən yuxularda görüşəcəksən onunla. Özün istəsən də qayıda bilməyəcəksən bu daşı-torpağı od tutub yanan dünyaya...

Ancaq səni arayıb axtaracaqlar. Çox illər keçəcək, bu gün iki yaşında qoyub getdiyin oğlun böyüyüb ev-eşik sahibi olacaq. Günlərin birində dili təzəcə söz tutan balaca bir qız uşağı əlini divardakı şəklə uzadıb: "Baba,baba" –deyəcək. Onda fikrinə gələcək ki, sən "baba" deyə çağrılsan da, otuz yaşından o yana adlaya bilməyən cavanca bir oğlansan...

Bax, onda xalqımızın igid oğullarının ömür yolunu araşdıranlar səni

də yad edəcəklər. Öyrənib biləcəklər ki, iyirminci əsrin sonuncu onilliyində başımıza müsibətlər açan azğın erməni quldurlarına qarşı sən də cəsarətlə döyüşmüsən. Bir də onu öyrənəcəklər ki, Cəbrayıldakı hərbi hissədə qulluq edən azadlıqsevən oğulların sırasına qoşulana qədər özünəməxsus bir həyat yolu keçmisən. Orta məktəbi qurtarandan sonra 1979-cu ildə Ağdam şəhərində oxuyub sürücülük peşəsinə yiyələnmisən. 1980-82-ci illər arasında "Xilaskar ordunun" sırasında Əfqanıstan döyüşlərində iştirak etmisən. Bu sözdən xəcalət çəkmə, qoy səni və bizi illər boyu öz siyasəti ilə, məkrli ideologiyası ilə aldadan imperiya başçıları, onlara züy tutan respublika rəhbərləri utansınlar. Onda sən hardan biləydin ki, Əfqanıstanı qan içində boğan bu imperiya yeni müstəmləkə əldə etmək xülyasındadır. Əfqanıstanda həlak olan oğullarımızın, cəsədi belə tapılmayanların əvəzində Vətənə boş tabutlar yola salınanlara dönə-dönə göz yaşı axıtmışdın. Allahın kimə yazığı gəlmişdisə, o qanlı-qadalı döyüşlərdən salamat qayıtmışdın geri. İki illik əsgər həyatı, qan-qada səni qaya kimi möhkəmləndirmişdi. Ordu həyatı özünə çəkirdi səni. Əsgəri xidmətini başa vurduqdan sonra Özbəkistanın Fərqanə şəhərindəki hərbi məktəbdə oxuyub əsgəri səriştəni bir az artırdın. Və bundan sonra taleyini həmişəlik olaraq hərbi işə bağladın. Elə burada da ailə həyatı qurdun. Həmişə arzulayırdın ki, oğul atası olasan. Tanrı diləyini eşidib ölməmişdən iki il qabaq sənə oğul bəxş etdi...

1988-ci ilin fevralından sonra sənin də az-çox axarına düşən həyatının nizamı pozuldu. Hiss elədin ki, Qarabağdan uzaqda yaşaya-yaşaya bu cənnət diyarın müsibətlərinə dözə bilməyəcəksən. Köçüb respublikamıza gəldin. Rayonumuza erməni "qrad"ları yağanda bir qeyrətli oğul kimi torpağımızın imdad diləyən uzalı əlindən yapışdın. Cəbrayıldakı Ərazi Müdafiə batalyonunda rota komandiri işlədiyin günlərdə döyüşə yollanan əsgərlərə böyük qardaş kimi qayğı göstərdin. Onlar səni ürəkdən sevdilər. Batalyonda hörmət, nüfuz sahibi oldun. Bir neçə döyüşdə fəal iştirak edib düşmənin xeyli hərbi sursatını ələ keçirmişdin. Çalışırdın ki, döyüşlərdə nahaq qurban verilməsin, hər bir əsgərin üstə yarpaq kimi əsirdin. Heç ağlına da gətirmirdin ki, qəfil ölüm sənin arzularını gözündə qoyacaq, qələbəmizi görmədən iki yaşlı balanı atasız qoyub dünyadan köçəcəksən. Atalar – "Tale yazdığını pozan tapılmaz" – deyib. Sənin alnına nə yazılmışdısa onu da gördün. 1992-ci ilin mart ayında döyüşən orduya silah və sursat gətirməyə gedərkən qatil güllləsi axır ki, səni yaxaladı. Bu yaşda ölmək çətindir, qardaş! Axı, sənin ölüb dar bir şəhid məzarına sığan vaxtın



deyildi. Sən dünyaya yaşamaq, yaşatmaq arzusuyla gəlmişdin. Yaşamağın nə olduğunu doyunca görüb duymadan şəhid olmaq düşdü qismətinə. Bu şəhidlik anında sən əbədi gənclik səadətinə qovuşdun, Baloğlan! Bu səadət hər yerdə səninlə olacaq, sən hər vaxt otuz yaşlı cavanların yaşdaşı olacaqsan. Bu, sənə şəhid ömrün verdiyi əbədi səadət payıdır...

## ÖMÜR YOLU DAMAR-DAMAR

**Quliyev Ramazan Əhəd oğlu**
**(28.06.1951-16.12.1992)**



İnsan hardasa bir ovuc su saflığına, bir tikə ümidə, bir baxım işığa tapına-tapına ömrün dolaylarından ötüb keçir. Bu amal, bu kövrəklik insan dediyimiz o ali varlığın canında, qanında yaşayırsa onu xəbislikdən xırdalıqdan uzaqda saxlayır. Belə adam təkcə beş-üç nəfərlik ailəsi üçün yaşamır – o hamının dərdini-sərini özününkü bilir. Köhnə kişilər "dünyamız yaxşı adamların çiyinləri üstə dayanır"– deyiblər.

Bütün bunları həyat həqiqətləri kimi qəbul etdiyindən bu dünyada kimlərəsə yaxşılıq etmək, kimlərəsə əl tutmaq üçün yaşayırdı Ramazan. Kirpiyiylə od götürə-götürə ömrün qırx birinci dolayına gəlib çıxmışdı. Dünya malında gözü yox idi. Öz nəfsinin ağası olan bu insanın güvənc yeri qabarlı fəhlə əlləri və bir də halallıq idi. Qulaq dincliyini dünyada hər şeydən üstün, hər şeydən qiymətli hesab edirdi. Ömrü boyu ürəyinin su saflığına söykənib ata ocağı Alıkeyxalı kəndini Azərbaycanın başlanğıcı, çıxış nöqtəsi sanırdı. Harda olmuşdusa doğulduğu torpağa, mənsub olduğu xalqa ehtiram qazanmışdı...

Qırmızı imperiyanın qara yeli onu uzaq Macarıstana aparıb çıxarmışdı. İki illik əsgəri xidmətini 1972-ci ildə başa vurub Azərbaycan tibb institutuna qəbul olmuşdu. Həmin illərdə şəhərdə təhsil alan sevimli bacısının və tələbə qardaşının xatrinə təhsilini yarımçıq qoyub yenidən kəndə

qayıtmışdı. Ramazan.

– Oxumaq qaçmır ha, – demişdi– təki qardaşım, bacım korluq çəkməsinlər, qismət olsa özüm sonra da oxuyaram..

Özünə, öz idarəsinə yaxşı bələd idi– qarşısına çıxan çətinlikləri dəf etməyi bacarırdı...

Əvvəlcə səkkiz nömrəli ərazi trestində, sonra isə altmış altı nömrəli səyyar mexanikləşdirilmiş dəstədə sürücü işlədiyi müddətdə idarə etdiyi yük maşını ilə ev-eşik, yurd-yuva quranların karına gəldi.

– Balıq susuz yaşaya bilmədiyi kimi bu torpaqdan uzaqda özümü gücsüz sayıram-deyirdi. Hayıf deyil adamın öz vətəni...

1988-ci ildə ermənilər torpaqlarımıza göz dikəndə Razaman:

– A kişilər,-dedi-belə də iş olar, sığınmağa yurd ver, ruzi ver, ayaqlarına yer eləyəndən sonra desinlər ki, bu torpaq elə əzəldən mənimdir. Bu mənfur ermənilərin buynuzlarının qarınlarında olduğunu heyif ki, gec bilmişik. Bu hadisələrdən sonra bütün qeyrətli yurddaşlarımız kimi Ramazanın da narahat günləri başlamışdı. Tez-tez könüllü müdafiə dəstəsinə gedir, qeyrətli oğullarımızla birlikdə torpağımıza keşik çəkirdi. Evdəkilər xasiyyətinə yaxşı bələd olduğundan etiraz etməyi mənasız bilirdilər. Anlayırdılar ki, Vətənin bu ağır günündə Ramazanı heç bir qüvvə yolundan saxlaya bilməz. Hər dəfə evdən çıxanda balaları Natiqi, Nəsimini, Güneli bağrına basırdı.

1992-ci ilin avqust ayının otuz birində Cəbrayıl şəhəri “qrad” yağışına düşmüşdü. Şayaq yüksəkliyindən atılan mərmilər əvvəlcə Ulu Çinarın sinəsinə sançılıb onu yarımcan etdi. Bu vaxt oradan keçən Ramazan Quliyev on yaşlı bir uşağı bədəni ilə qorudu. Ölüm nəfəsli qəlpələr səkkiz yerdən Ramazanın bədəninə sancılsa da uşaq salamat qaldı. Başqa yaralılarla birlikdə Ramazanı da Bakıdakı mərkəzləşdirilmiş hərbi qospitala çatdırdılar. Həkimlər onu həyata qaytarmaq üçün əllərindən gələni etsələr də bütün daxili orqanları erməni xislətli qəlpələrdən didim-didim olan bu xeyirxah insan ötən il dekabr ayının on altısında torpağımızdan nigaran halda dünyasını dəyişdi.

Son nəfəsində başının üstündə dayananlara:

– Amandır, qoymayın torpağımız yad ayaqlar altda tapdaq olsun, balalarımdan nikaran gedirəm-dedi...

Doğulduğu torpaq ona öz qoynunda əbədi yurd verdi. Bir şəhid qəbri də artdı dünyamızda. Üç körpə uşaq atasız, arxasız qaldı. Bir ana fəryadı ürəkləri kövrəltdi. Hamıya yaxşılıq etmək istəyi ilə yaşayan Ramazan adlı



xeyirxah bir insan nizamı pozulan dünyamızdan nisgilli, gileyli getdi...

Günlər keçəcək, müharibə qələbəmizlə başa çatacaq. Ramazanın ölüm yüklü qəlpələrdən xilas elədiyi o on yaşlı uşaq ailə-uşaq sahibi olacaq. Hər dəfə o dəhşətli günü xatırlayanda Quliyev Ramazan Əhəd oğlunu minnətdarlıqla yad edib:

– O, məni ölümdən qurtarıb. Mən bu qeyrətli insanın əvəzindən yaşayıram deyəcək...

## VÜQAR İGİD OĞUL İDİ

**Quliyev Vüqar Hətəm oğlu**
**(20.11.1973-20.11.1992)**



Doxsan ikinci ilin noyabrı el-obamıza- Ağdərədən, Laçından, Qubadlıdan... neçə-neçə cəbhə bölgələrindən şəhid oğulların ölüm xəbərini, döyüş hünərini gətirməkdə idi. Onda hələ Vüqar ömrünün şəhidlik zirvəsinə yol gedirdi. Onda hələ Vüqar düşmən gülləsinin düz yeddi gün uzaqlığında idi. Onda hələ noyabr ayının on üçü idi...

Sübhün toranlığında Vüqargilin ailə üzvləri yaxın-uzaq, qohum-qardaş qılçındakı yarası hələ yenicə sağalmaqda olan on doqquz yaşlı, şümal boylu bu oğulu Ağdərəyə-döyüş dostlarının yanına yola salmaq üçün enli dəmir darvazanın çölünə yığışmışdılar. Vüqar hamı ilə sağollaşıb maşına sarı üz tutanda səhərdən bəri özünü toxdaq saxlayan Sehran ana tay dözə bilmədi–özünü yenidən Vüqarın üstə atdı:

– Vüqarım, ana qurban–dedi–Özündən muğayat ol. Nəm yerdə çox uzanma, yaranı simlədərsən. Ayağın incitsə, utanma yoldaşlarına de. Ay Allah, mən necə rahat olum, balamın yarası hələ qaysaq tutmayıb...O qolu ilə nəmli gözlərini silib Vüqarı sonuncu dəfə bağrına basdı:

– Həmişə alnından öpmüşəm, allah qoysa sağ-salamat qayıt, yenə alnından öpüm–dedi.

Vüqar qılçında qalan düşmən mərmisinin qəlpəsini özü ilə apardı. Atası

Hətəm kişi:

– Səni Ağdərəyə özüm aparmasam rahat olmaram - deyib onunla birlikdə yola çıxdı...

Vüqar sonuncu dəfə doğulduğu Yuxarı Mərcanlı kəndinin qarşısına çıxan evlərinə, adamlarına baxa-baxa Ağdərəyə–döyüş dostlarının yanına yollandı Hətəm kişi. Ağdərədə oğlunu döyüş dostlarına, komandirlərinə tapşırdıqdan sonra:

– Allah amanında olun!–deyib geri qayıtdı.

Sehran ananın ürəyinə elə bil nəsə dammışdı. Evdə, bayırda özünə yer tapa bilmirdi. Ağdərədən barıt qoxulu xəbərlər qəzetləri, tele-ekranı, radio dalğalarını dolaşmaqda idi. Hətəm kişi ömür-gün yoldaşının iztirablarına dözə bilməyib yenidən döyüş zonasına–Ağdərəyə getdi. Oğlunu, onun vuruşduğu hərbi hissəni soraqladı. Vüqarla görüşə bilməsə də ona ürəkdirək verib yola saldılar. Noyabrın on doqquzunda axşam üstü kəndə gəlib çıxdı...

Sehran ana "Allaha pənah" deyib bir az toxdamışdı. Noyabrın iyirmi birində axşam üstü qapılarında sanitar maşını dayananda yer-göy bir anda başına hərləndi. Üz-gözünü didə-didə tabutda uyuyan oğlunu oxşamağa başladı:

*Gün ötər ildən gedər,*
*İgidlər eldən gedər.*
*Vüqarım yaralıdır–*
*Dincliyim əldən gedər.*

*Çəmənim, çölüm ağlar,*
*Ağzımda dilim ağlar.*
*Vüqarım yaralıdır*
*Yas tutub elim ağlar.*

*Vüqar yaram dərindi,*
*Dərdə-qəmə büründüm.*
*Boyuna anan qurban*
*Məzarın and yerimdi.*

*Çəmənim oldu Vüqar,*
*Gözlərim doldu, Vüqar.*
*Bilmədim son nəfəsdə*
*Sözün nə oldu Vüqar!...*



Sehran ana haray çəkib, bir həftə qabaq sağ-salmat yola saldığı oğlundan nişanə axtarırdı...

Dünyanın qəribə işləri varmış, demə. Taleyə bax,ölümə bax.1973-cü ilin 20 noyabrında dünyaya gəlişiylə bir ailəni, bir nəsli sevindirən Vüqar on doqquz il sonra noyabrın 20-də də ölümüylə bir ailəni, bir eli gözüyaşlı , boynubükük qoydu. Noyabr ayının 20-si həm ad günü, həm ölüm günü oldu, Vüqarın. Bu alın yazısını, bu taleyin hökmü idimi Bircə ulu Tanrı bilərdi bunu. Vüqarın müsibətinin sorağına yığışanlar bircə onu bilirdilər ki, hələ ömrünün yeniyetməlik çağlarından əli üzülməmiş qismətinə şəhidlik yazılan bu hünərli oğul ölüm gününə qədər hamının yadında ürəyi təmiz, üzüyola bir uşaq kimi qalıb. Yaşıdları kimi onun da kövrək səsi kənd məktəbinin sinif otaqlarını dolaşıb. Düz səkkiz aya yaxın tələbə sevinci dadıb. 1991-ci ildə Mingeçevir şəhərindəki Politexnik texnikumunun mülki tikinti şöbəsində oxuyub. Arzusu məktəbi bitirəndən sonra elə-obaya xeyir vermək olub. Sehran ana ürəyində oğluna gözaltı da seçib...

Erməni faşistlərinin azğınlığı Vüqarın da ömrünün üstündən qəfil tufan kimi keçib. O da tələbə dostları kimi təhsilini yarımçıq qoyub, 1992-ci ilin martında cəbhəyə yollanıb. Daxili İşlər Nazirliyinin Ağdərədəki hissələrində vuruşub. Döyüşlərdə şəxsi igidliklər göstərib, neçə-neçə azğın düşməni məhv edib...Sentyabrın iyirmi beşindəki vuruşmada qılçasından yaralanıb. Yaralandığını, Qəbələdəki hərbi qospitalda müalicə olunduğunu evlərinə bildirməyib. Qorxub ki, anasının xəstə ürəyi dözməz. Sağalar-sağalmaz evlərinə gəlib, elə yarasının sapını da Mərcanlıda kənd xəstəxanasında söküblər. Qılçasındakı qəlpəni çıxara bilməyiblər...

Vüqarın cəbhəyə getməməyə haqqı olsa da o, bunu etməyib. "Torpaq bizdən imdad gözləyir"-deyib...

Əslində hərbi hissədə də Vüqar yarasının hələ tamam sağalmadığını gizlədib. Döyüş yoldaşları ilə birlikdə Sırxavənd, Vəng uğrunda döyüşlərdə iştirak edib. Əsl igidlər kimi alnından vurulub. Vüqarın igidliyini, cəsarətini, dar ayaqda yoldaşlarını mühasirədən çıxarmağını batalyon komandirinin müavini, mayor T.İslamov yerli-yataqlı xatırlayır: Vüqar kimi övladı olan Vətən basılmaz"– deyib. Və bir də, Vüqar ölümündən qabaq ondan artıq düşməni məhv edib, onun igidliyi barədə sənədlər Müdafiə Nazirliyinə təqdim ediləcək – deyib...

Sehran ana oğlunun tabutundan ayrıla bilmir. Açın oğlumun üzünü onu görüm, sonra aparın - deyir. Ana qanlı üzünü, göyərmiş dodaqlarını ciyərparasının yaralı alnına söykəyir:

– Demişdim qələbə ilə qayıtsan alnından öpəcəyəm, şəhid kimi qayıtdın, oğul südüm sənə halal olsun...

Ananın dilindən qopan sözlər ürəkləri sızladır, duyğuları dondurur adamı dirigözlü yandırır:

*İgid torpaq üstə öləndi, Vüqar*
*Ellər qədir-qiymət biləndi, Vüqar.*
*Getdin şəhid kimi Vətən yolunda–*
*Qanın torpaq üstə çiləndi, Vüqar...*

Yuxarı Mərcanlının qəbiristanında bir şəhid qəbri var. Bu məzar ömrünün on doqquzuncu baharında şəhidlik zirvəsinə ucalan Quliyev Vüqarındır. Vüqar ölümü ilə ana vətənə sevgisini bildirib. Vüqar indi təkcə Sehran ananın oğlu deyil, O bütün azərbaycanlı anaların şəhid balasıdır. Hələ üstünə qar düşməmiş bu məzara baxanda ürəyimizdən bircə düzüm yanıqlı misralar boylanır:

*İzin qalıb dağ-dərədə,*
*Bir sorağın var hərədə,*
*Mərcanlıda doğulmuşdun–*
*Şəhid oldun Ağdərədə...*



# KAMİL YADDAN ÇIXAN DEYİL

**Əliyev Kamil İdris oğlu**
**(17.01.1953-28.09.1992)**



Kamilin ömür yolu otuz doqquz il qabaq Cəbrayıl şəhərindəki dağın yamacına sığınan ata ocağından başlayıb neçə elə-obaya uzanıb gedir. Azərbaycan adlı dünyamızın hansı səmtində oğuz elimizin harayı-həniri duyulurdusa ora Kamilin nəzərində suyunu içib, havasıyla nəfəs aldığımız Vətən idi. 1988-ci ilin fevralından sonra bu Vətənin dincliyi pozulanda onun harayına üz tutan minlərlə oğullardan biri də Kamil oldu. Əslində Kamil 1974-cü ildən bu yurdun əsgəri idi. O, hərbi xidməti başa vurandan sonra Bakıdakı Səkkizinci Kilometr qəsəbəsində sıravi milis nəfəri kimi işə başlamışdı. İşi-gücü halal zəhmətiylə özünə gün-güzaran düzəldən adamların asayişi keşiyində durmaq idi. Başqasının ruzusuna göz dikənlərlə dönə-dönə qarşılaşsa da cızığından çıxanlara aman verməmişdi. Onun nəzərində cinayətkar dünyanın ən rəhmsiz adamı idi. İllər boyu dilsiz-ağızsız bilib rəhm elədiyi ermənilərin beş il qabaq məkrli sifətini görəndə Kamilin ünü qaçdı. Bu dəfəki düşmən dönə-dönə gördüyü cinayətkara bənzəmirdi. O daha amansız, daha qəddar idi. Nağıllardakı eyməağız divlər kimi oğuz elimizi, dədə-baba torpaqlarımızı udmağa hazır idi bu düşmən. Onun əsil sifəti Əsgəranda, Sumqayıtda, sonralar Zəngibasarda, Göyçədə üzə çıxanda Kamil xidməti silahından daha möhkəm yapışdı. Gözlərinin qabağından Bakıda, Sumqayıtda, Cəbrayılda qılığımıza girə-girə illər boyu namussuz qızgəlinlərinin əlləri ilə tora düşən eloğullarımız gəlib keçdi. Kamil onda bütün varlığıyla hiss etdi ki, dünyanın böyük dövlətlərinə arxalanan bu quduz düşməni ram eyləmək asan olmayacaqdır. Həyatın hər üzünü görən bu cəsur insan yurdunu qorumaq naminə canından belə keçməyə hazır idi...

Elə bu amalla 1991-ci ilin sentyabr ayının sonlarında rəhbərlik etdiyi rota ilə birlikdə Qubadlı Laçın bölgəsinə gəlmişdi. Rotadakı 108 nəfər polis işçisinin hamısı Əliyev Kamilin hünərinə yaxşı bələd idilər. Bilirdilər

ki, mayor rütbəli bu cəngavər oğlan Bakının Nizami rayonundakı 24 nömrəli polis bölməsində rəis müavini işləyir. Və bir də onu bilirdilər ki, Kamil bu döyüşə öz təkidi ilə gəlib...

O qanlı-qadalı günlərdə yurdumuzun Qubadlı– Laçın bölgəsi od içində idi. Düşmənin Gorus səmtindən atılan mərmiləri göz açmağa aman vermirdi. Bizimkilər nəyin bahasına olur-olsun Laçın dəhlizinə yanaşıb düşmənin buradan Qarabağa canlı qüvvə və döyüş sursatı keçirməsinə mane olmaq məqsədində idilər. Həmin günlərdə ermənilər atəşi dayandırmaq barədə olan sazişi pozaraq torpaqlarımıza od yağdırırdılar. Sentyabrın 28-də sübh tezdən başlayan leysan böyük çətinliklər yaratsa da igidlərimiz məqsədlərinə doğru getməkdə idilər. Laçınla Qubadlı arasındakı Səfiyan kəndi uğrunda gedən döyüşlərdə əsgərlərimizlə birlikdə Kamil Əliyevin başçılıq etdiyi DİN-in polis rotası da mərdliklə vuruşurdu. Döyüşlərin qızğın çağında minamyotdan atılan düşmən mərmisi Kamilin lap yaxınlığına düşdü. Vətənini bütün varlığıyla sevən bir igidin düşmənə qəzəb hissiylə dolu ürəyi elə həmin andaca döyünməkdən qaldı. Ağdamlı polis yoldaşı Zahid birinci olaraq özünü Kamilə çatdırdı. Düşmən sifətli ölüm artıq öz işini görmüşdü. Döyüşlərə komandir kimi gedən Əliyev Kamil İdris oğlu ata ocağı Cəbrayıla şəhid kimi qayıtdı...

Neçə eldən-obadan İdris kişinin ünvanına başsağlığı teleqramları axıb gəldi. Onlardan biri də Daxili İşlər Naziri İsgəndər Həmidovdan idi: "Hörmətli İdris Əliyev, Azərbaycan Respublikası DİN-nin bütün şəxsi heyəti adından oğlunuz Kamilin vaxtsız ölümü münasibətilə dərin hüznlə başsağlığı verir və dərdinizə şərik oluruq. Söz veririk ki, Kamilin qanı yerdə qalmayacaqdır.

Dərin hüznlə: Respublika Daxili İşlər Naziri general-mayor İsgəndər Həmidov".

Bu şərəfli ölümdən sonra Kamilin şəhidlik ömrü başladı. Respublikamızda nəşr olunan neçə-neçə qəzetlər bu cəsur insanın həyat yolundan söz açıb ölümünə heyfsiləndilər...

Cəbrayıl rayonunda çıxan "Xudafərin" qəzetinin əməkdaşı Afər Əhmədovun yazdıqlatından:

"...Tabor Laçın döyüşlərinə hazırlaşırdı. Sabah erkən yola düşəcəkdi silahdaşları.

– Mayor Kamil Əliyev, rəis sizi çağırır.

– Kamil bəy, bəlkə siz getməyəsiniz bu səfərə. Sizin üçün burada da çoxlu iş var.



– Qala bilmərəm, rəis–bəlkə ilk dəfəydi ki, özündən böyüyün cavabını qaytarırdı Kamil–uşaqlar nə deyərlər? Yox, yox, xahiş edirəm...

Rəis naəlac qalıb uğurlu səfər dilədi:

– Yaxşı, görüşənədək–dedi.

– İnşallah görüşərik...

"Azad Azərbaycan" qəzetində Gülşən İmamverdiyevanın "Yoxluğuna inanmıram" adlı yazısından sətirlər:

Kamil Əliyevin şəhid olduğu gündən artıq qırx gün keçir. Onu yad etmək üçün ailə üzvlərinin, dostlarının xatirələrini azacıq da olsa oxucularımıza çatdırmağı özümüzə borc bildik.

Həyat yoldaşı Tərgül xanım:

– Kamil xalqımızın çəkdiyi bu əzablara dözə bilməyib könüllü olaraq Qarabağa yola düşdü. O, sanki şəhid olacağını hiss edirmiş kimi oğlu Murada, qızı Kəmaləyə onun işini davam etdirməyi vəsiyyət etdi...

Nizami rayonunun Polis İdarəsinin rəisi Qəniyev Aşur:

– Kamil çox qeyrətli, namuslu, təmiz bir insan idi. Onun simasında nəinki xalqını sevən gözəl bir insanı, həmçinin dəyanətli vətənpərvər bir polis işçisini itirmişik...

Nərimanov rayonunun Polis İdarəsinin rəisi Mahir Hümbətov:

– Kamil haqqında danışmaq mənim üçün çox ağırdır. Biz onunla çox yaxın dost olmuşuq. Tapşırıqları vaxtlı-vaxtında yerinə yetirər, ən ağır cinayət işlərini belə çalışıb bir-iki gün ərzində açardı...

"Millət" qəzetində A.Zeynalovun ürək sözlərindən: "Sabah Kamilin qırx yaşı tamam olmalıydı. Sağ qalsaydı yəqin ki, harda olsa da bu yubiley gününü qeyd edəcəkdi. Sözü, söhbəti də Vətəndən, onun dərd-sərindən olacaqdı. Çünki o, Vətən üçün doğulmuşdu, Vətən yolunda da əbədiyyətə qovuşdu.

"Mübariz keşikdə" qəzetində Esmira Bayramovanın yazdıqlarından: "Kamil orta məktəbi Cəbrayılda bitirdi, iki il əsgəri xidmətdən sonra Vətənə döndü. Bir neçə müddət Bakıda neft buruqlarında işləməli oldu. Sonralar Nizami RDİŞ-nə işə girdi. 1977-ci ildə isə Bakı xüsusi orta milis məktəbində təhsil almağa başladı...1989-cu ildə təhsilini davam etdirmək məqsədiylə BDU-nun hüquq fakultəsinə daxil oldu. Kamil həqiqətən işini, peşəsini çox sevirdi. Yaxşı işlədiyinə görə ona bir çox təltif və təşəkkürlər verilmişdi. Amma ən gözəl təltif o olardı ki, işinə davam etsin. Onda neçə ürəkləri yaşadardı Kamil".

"İki sahil" qəzetində Aytən Əliyeva və Nazilə Rafiqin "O, cinayətkar - ların qənimi idi" adlı məqaləsindən:

"Döyüş səhnəsinin şahidi olmuş İlqar Əliyev–polis leytenantı–Bakıxanov qəsəbəsinin inspektoru:...Düşmən tərəfdən böyük qüvvə ilə qorunan üç böyük yüksəkliyi aldıq. Lakin o qələbənin sevincləri nə qədər çox idisə, geri qayıdarkən qəlbimizdə daşıdığımız kədərin, qəmin acısı o qədər ağır idi. Çünki biz geri dönərkən aramızda nə o dağ cüssəli Kamil, nə Əli, nə də ki, mənim ən yaxın dostum..İlqar yox idi. Çox ağırdır belə oğulları göz görə-görə itirəsən.."

Kamil kimi oğulları itirmək nə qədər ağır olsa da bircə təsəllimiz budur ki, onlar əbədi olaraq yaşamaq haqqı qazanırlar. Bu gün Kamilin həyat yoldaşı Tərgülə, onun sevimli balaları Muradla Kəmaləyə el-oba, yaxın-uzaq tez-tez baş çəkir, dərdlərini yüngülləşdirməyə çalışırlar. Kamilin unudulmaz adının işığı illər boyu bu ailənin üstünə düşəcək, həyat yollarında onlara həyan olacaqdır. Hardasa ulu tanrının və bir də qeyrətli oğullarımızın köməyi sayəsində haqq işimiz ayaq tutacaq, harsın oğulları xəcil olacaqlar. Həyatımız öz məcrasına, öz axarına düşəcək, sönmüş evlərin işığını yandıranlar da tapılacaq. Fəqət, Kamil hünərdə, Kamil nişanda bir də kimsə doğulmayacaq. Bu igid eloğlumuzun yoxluğundan sızlayan ürəyimizdən həmişə bu torpağın Kamil sevgisi, Kamil istəyi boylanacaq..



## BU AD QEYRƏT SİMVOLUDUR

**Əliyev Vüqar Zülfüqar oğlu (26.09.1969-08.05.1992)**



Cəbrayılın şəhid oğullarının cərgəsində həmişə sonsuz iftixarla çəkilir Vüqarın adı. Vüqar Sarıcallıda, Zülfüqar kişinin ailəsində dünyaya gələn yeddi uşaqdan biri idi. Sonbeşik olduğundan ata-anası, qardaş-bacıları çox istəyirdilər onu. Bu istəyi, bu "üstünlüyü" addımbaşı hiss etsə də "çızığından" çıxmamışdı. Ərköyünlük, nərmə-naziklik təbiətinə yad idi onun. Çox yanımlı, qəlbə yatımlı bir oğlan idi. 1969-cü ilin sentyabr ayının on altısında dünyaya göz açmışdı. Sonra kənddəki yaşıdları ilə məktəbdə oxumuşdu. Qayğısız, dərddən-bəladan uzaq uşaqlığın şirinliyini doyunca yaşaya bilmişdi. Ailədə həmişə qayğı ilə əhatə olunduğundan qəlbi, gözü tox böyümüşdü. Böyüyün-kiçiyin yerini bilən idi. O vaxtlar Nabat ana oğlunun enli kürəyinə, uca boyuna, geniş alnına baxıb ürəyindən keçənləri dilinə gətirərdi:

– Boyuna qurban olduğum, çinar kimi qollu-budaqlıdır. Ədəbdə-ərkanda atasına çəkib. Sayılıb-seçilən cavan olacaq Vüqar balam.

Ana gümanında yanılmamışdı. Vüqar elə bil günbəgün, saatbasaat böyüyürdü. Enli kürəkli, əzələli qolları, zəkalı baxışları daxili gücündən, qeyrətindən xəbər verirdi...Onda hələ ayrılıq deyilən ömür amansızlığı araya düşməmişdi. Onda hələ həyat dümdüz yollar kimi hamar idi. Hələ ayrılığa, bu dümdüz yolların pırtlaşıq düşməyinə çox var idi onda. Bütün bunlar sonradan baş verəcəydi. Sonradan başlayacaqdı Zülfüqar kişinin ailə ocağının müsibətli günləri..

Orta məktəbi qurtarandan sonra Vüqar uzağa getməmişdi. Kəndlərindəki texniki peşə məktəbində oxuyub traktorçu-maşinist sənətinə yiyələnmişdi. Sonra da Rusiyada iki illik əsgəri xidmətdə olmuşdu. Daxili qoşunların sırasında qulluq etdiyindən Vüqar çox şeylər öyrənmişdi. Çox çevik idi, müxtəlif silahlarla vəziyyəti qiymətləndirib qətiyyət göstərməyi bacarırdı. Bütün bunları həyat özü öyrətmişdi ona. Onda bu günlərə tərəf

hamılıqla yol gəlirdik, hələ hərdən oxumaq da keçirdi Vüqarın könlündən. Hətta bir dəfə, deyəsən onda 1988-ci il idi–buna təşəbbüs də göstərmişdi. Hə, onda sənədlərini indiki APU-nun hərbi fakültəsinə vermişdi Vüqar. Əsgəri hissədən göndəriş də gətirmişdi. Hesaba, nəzərə almadılar "daşdan keçən o kağızı". Eh, kim idi o vaxtlar nağdını qoyub quru kağıza məhəl qoyan? Bax, onda beləcə arzusunu gözündə qoymuşdular onun. Tay, o haqsızlıqdan sonra Vüqar bir də oxumaq həvəsinə düşməmişdi. Əslində, tay vaxtı olmamışdı o barədə düşünməyə. Kəndlərindəki kolxozda işləyə-işləyə ailəyə kömək əlini uzadırdı. Hər iztiraba, hər əziyyətə dözə bilirdi Vüqar. Təkcə ana yoxluğuna, ana həsrətinə tablaşmırdı. Tez-tez yuxusuna girirdi anası, yəqin ki, ondan nigaran idi. Vüqar əsgərə gedəndən on altı gün sonra dünyasını dəyişmişdi Nabat ana. O zaman Vüqara bildirməmiş-dilər bunu. Evlərinə məktub yazanda anasına da salam göndərirdi. İki ildən sonra qayıdıb evlərinə gələndə bilmişdi anasının yoxluğunu. Onda gedib anasının qəbri üstə ürəyinin yanğısı soyuyana qədər ağlamışdı. Elə sonralar da anasıyla tez-tez yuxularda görüşürdü Vüqar...

Günlərin birində Qazaxıstanda yaşayan dayısının yanına getmək istəmişdi. Səfər ərəfəsində ordudan tərxis olan cavanların rayon Daxili İşlər Şöbəsində işə götürüldüyünü eşidib fikrindən daşındı. Ertəsi gün onu da burada xoşüzlə qarşıladılar. 1991-ci ilin fevral ayının on səkkizindən DİŞ-də post patrul rotasının xüsusi qrupunda qulluq etməyə başladı. Rayon Daxili İşlər Şöbəsinin o vaxtkı rəisi Rəşid Məmmədovun (bu cəsur, igid insan cəbrayıllıların qəlbində həmişə hörmətlə xatırlanır) rəhbərliyi ilə keçmiş Hadrut rayonunun on iki kəndinin erməni quldurlarından təmizlən-məsində yaxından iştirak etdi. Şikarla, Kazımla, Mirələmlə, Yahyayla, Əliyarla birlikdə torpaqlarımızın keşiyini çəkdi. Şayaq yüksəkliyində və Zamzur, Nüsüs, Dolanlar, Banazur postlarında dayanıb dinc əhalinin əmin-amanlığını qorudu...

Rayon polis şöbəsinin xidmət işləri üzrə rəis müavini Vaqif bəy Hüseynov deyir ki, Vüqar çox nikbin, qorxu bilməz oğul idi. Bir dəfə əməliyyat zamanı yoldaşları deyirlər ki, Vüqar, əyil, yoxsa səni vurarlar. Acığı tutur Vüqarın bu sözdən. Ona ehtiyatlı ol, deyən dostlarına üzünü tutub:

– Mən öz torpağımda, düşmən qarşısında əyilə-əyilə gəzə bilmərəm. Əyilmək mənim təbiətimə yaddır. Qoy düşmən qarşımızda əyilsin ki, o əzəl-axır ölümə məhkumdur...

Belə əqidəli, belə cəsur oğlan idi Vüqar. Ermənilər onun adı gələndə



tir-tir əsirdilər. Arabir icazə alıb evlərinə gələndə atasıyla, bacı-qardaşlarıyla görüşəndən sonra hökmən anasına baş çəkirdi. O müqəddəs qəbirin başdaşına üzünü söykəyib dinməz-söyləməz dayanırdı. Fikrində anasıyla, onun tanrı məkanına qovuşan ruhuyla danışırdı elə bil.

– "Dərdin mənə gəlsin, ehtiyatlı ol, düşmənimiz amansızdır".

– "Bilirəm ana onlar məni məhv etmək üçün girəvə gəzirlər".

– "Bacıların Mahizərin, Abuzərin, Südabənin, Sitarənin gözlərini yolda qoyma, tez-tez gəl evimizə".

– "Gələ bilmirəm, ana. Macalım yoxdur. Düşmənin iştahı çox itidir. Bütün torpaqlarımıza göz tikib".

– "Toyunu görmək istəyirdim, arzum gözümdə qaldı, oğul. Düşmən gülləsindən, namərd xəyanətindən gözlə özünü...

– "Arxayın ol, ana, yaxşı, etibarlı dostlarım, igid yoldaşlarım var. Onlarla düşməni inşallah Göyçədən, Zəngəzurdan üzü o yana qovacağıq. Allah qoysa ondan sonra toyumu da görəcəksən. Torpağın, ruhun sevinəcək.."

Ölümü özünə yovutmurdu, hələ yaşamaq istəyirdi, torpağımızın düşməndən azad edilməsi üçün vuruşmaq istəyirdi Vüqar.

Qardaşının ölümünün son günlərini yaxşı xatırlayan Əlipənah deyir ki, Vüqar ölümündən bir gün qabaq evimizə gəlmişdi. Milis formasını əynindən çıxarıb yenicə aldığı hərbi paltarı geyindi. Həmişə deyib-gülən, zarafatçıl qardaşım o gün çox fikirli, narahat idi. Xeyli söhbət etdik. Süfrədəki xörək payına əlini də vurmadı. Bircə stəkan çay içib bizimlə vidalaşıb ayrıldı. Gedəndə dedi ki, məndən nigaran qalmayın, tezliklə görüşəcəyik, onda biləcəksiniz ki, niyə narahatam. Özü deməsə də hiss edirdik ki, hansısa bir döyüş əməliyyatına yollanır. Axı, bundan əvvəl də o, Şuşada, Goranboyda, Ağdamda keçirilən əməliyyatlarda iştirak etmişdi...

Əlipənah onu da deyir ki, ürəyim elə bil mənə deyirdi ki, nəsə bir xəbər eşidəcəyəm. Sübhün gözü açılmamış evdən çıxmaq istəyəndə xəbər gəldi ki,Vüqar yaralanıb. Həyət qapısından necə çıxdığımdan xəbərim olmadı. Asfalt yola çatanda qardaşımı gətirən maşınla rastlaşdım. Vüqarın başında qanlı sarğını görəndə gözlərimə zülmət çökdü. Elə bil dərin yuxuya getmişdi qardaşım. Bu ölümlə həyatın səddindəki yuxu idi.

Bu yuxu Vüqarı əbədiyyətə qovuşdurmuşdu. Əliyev Vüqar Zülfüqar oğlunun gözlərinə 1992-ci ilin iyul ayının 3-də çökmüşdü bu yuxu. Bu yuxu onu Nabat ananın nigaran ruhuyla görüşdürdü. Bu yuxu onu əbədiyyət adlı bir dünyanın şəhidlik zirvəsinə ucaltdı...

Cəbrayılın şəhid oğullarının cərgəsində həmişə sonsuz iftixarla çəkilir

Vüqarın adı. Bu ad indi Sarıcallı kənd orta məktəbinin ünvanını bəzəyir. Bu ad dünyamızın nur timsalıdır, neçə-neçə ulu oğuz ocağının güvənc yeridir. Bu ad Vüqardan sonra doğulan neçə körpənin yaş kağızını bəzəyir indi. Bu ad qeyrət simvolumuzdur, üç rəngli bayrağımızın özü kimi doğmadır, əzizdir bizə...

## ÜRƏKLƏRƏ DÜŞƏN İŞIQ



**Əliyev Ramil Fərzalı oğlu**
**(20.01.1973-28.06.1992)**

Ailənin sonbeşiyi, istəklisiydi Ramil. Yaşasaydı indi iyirmi yaşına adlamışdı. Ancaq on doqquz yaşın səddini keçib ömrün iyirminci baharıyla görüşə bilmədi. Əcəl aman vermədi ki, yaşasın Ramil. Əcəlmi dedik, yox burada əcəlin ayağına yazılası bir şey yoxdur. Bu dağların əlçatmayan, ünyetməyən o üzündən gələn erməni sifətli gülləyə əcəl neyləsin axı? Bu, alın yazısıydı, on doqquz il idi ki, Ramil öz ölümünə tərəf addımlayırdı. Onu bu müdhiş səfərdən saxlamaq sadəcə olaraq mümkün deyildi. Bu, tanrı işiydi. Bu qəzavü qədərin hökmüydü. Ondan yan keçməyi hələ heçkim bacarmayıb. İyirmi yaşına çata bilmədi Ramil. Çox-çox illər keçəcək, on doqquz yaşının zirvəsində dayanıb duran Ramil buradan o yana ömründə bircə yol da adlaya bilməyəcək. Onun əvəzindən şəhidlik zirvəsinin əbədiyyət lövhəsinə yazılan adı dolaşacaq bundan belə gələn illəri...

Cəbrayılın şəhid oğullarının ruhu dolaşan kiçik bir meydanında 20 yanvar müsibətində sinəsi parçalanan körpəsini qoynuna sıxıb imperiya əsgərlərinin güllələriylə həlak olanlara göz yaşı axıdan o daş ana, o heykəl ana Ramilin də adını bundan sonra öpüb əzizləyəcək. Yaşıdlarının xatirələrində və bir də el-obanın məhəbbətində yaşayacaq Ramil...

– Ramilə öldü demirik – o şəhidliyin ədəbiyyət xoşbəxtliyinə qovuşub. Bu səadəti qazanmaqdan ötrü gərək canından keçməyi bacarasan– bu sözləri də Nüsrəddin deyir. Ramili yaxından tanıyan, onun adını xatirələrdə yaşadan Horovlu kənd sakini Nüsrəddin:



– Ramildən cəmisi dörd yaş böyük olsam da onun təmkininə, çətinliyə sinə gərməyinə, çalışqanlığına qibtəylə baxmışam həmişə. Çox gülərüzlü idi, hazırcavab bir oğlan idi. Horovlu kənd orta məktəbini yüksək qiymətlərlə bitirmişdi. Attestatını alıb evə gələndə üz-gözündən bəxtəvərlik yağırdı. Onu təbrik edəndən sonra:

– Ramil –dedim–yəqin ki, instituta gedəcəksən, eləmi?

– Sən nə danışırsan, ata-anamı, dincliyi pozulan bu torpaqları kimin umuduna qoyub şəhərə gedim axı...

– Bəs müəllimlərin, şagird yoldaşların nə fikirləşirlər, axı sən bu ilki buraxılışın ən savadlı məzunlarından olmusan.

– Düzdür, müəllimlərim yaxşı şagird kimi gələcəyimə həmişə ümidlə baxıblar. Əmrah müəllim elə bilir ki, onun yoluyla gedib xarici dil müəllimi olacağam.

– Elə biz özümüz də belə düşünürük.

– Yox, Nüsrəddin, mənim fikrim ayrıdır.

– Yəqin evlənəcəksən hə, bilirəm səninlə bir sinifdə oxuyan o sarışın qızla əhdi-peymanınız var, yadındadırmı, özün demisən mənə.

– Yox, tapa bilmədin, Nüsrəddin, nə oxuyacaq, nə də evlənəcəyəm hələ. Bunlar hamısı olacaq, ancaq bir neçə ildən sonra.

Nüsrəddin maraqlı bir sirr eşidəcəkmiş kimi Ramilə bir az da yaxın gəlib:

– Yaxşı, qaqaş, sirr deyilsə söylə görüm evdə qalıb nə iş görəcəksən?

– Evdə niyə qalıram, iki-üç aydan sonra əsgərlik vaxtım çatır. Orduya gedib qayıdandan sonra həm işləyib ata-anamı saxlayacağam, həm də Əmrah müəllimin arzuladığı kimi institutda...

Bu söhbətdən dörd ay sonra Ramilin məktubları uzaq Krasnoyarsk şəhərindən gəldi. Bu məktubların hər sətrinə şimal qışının buz soyuqluğu, orduda tuğyan edən özbaşınalığın səksəkəsi və bir də Ramilin Azərbaycandan sonsuz nigarançılığı qarışıb üşüdürdü Horovluda Nayran ananı. Üzünü ömür-gün yoldaşı Fərzalı kişiyə tutub:

– Ay evi tikilmişin oğlu,–onda dedim ki, qoyma uşağı o xarabaya gedə, yetmiş ildə o nankorlardan nə görmüşük? İllər boyu əlimizin qabarıyla ərsəyə gələn ruzumuzu acgöz div kimi həzm eləyib əvəzində sinəmizə "Şəhidlər xiyabını" boyda bir dağ çəkdi sovet imperiyası.

– Ay pir olmuşun qızı, topum-tüfəngim olsa bu namərd ermənilərin qabağına çıxaram. O boyda imperiyanın əleyhinə getməkmi olar? Görmədin doxsanıncı ilin yanvarındakı müsibətimizi...Fikir eləmə, allah kərimdir, sağ-salamat qayıdar bir gün Ramil...

Beş aydan sonra ordudan yarımçıq qayıdıb gəlsə də bədənində salamat yer yox idi Ramilin. Bakıda Xarici Dillər İnstitutunda müəllim işləyən qardaşı Qədir gedib gətirmişdi onu. Qədir müəllim deyirdi ki, getməsəydi Ramilin sağ qalacağına güman yox idi. Hərbi hissədə ermənipərəst əsgərlər Ramilgili döyüb incitdiklərindən o, iki nəfər azərbaycanlı gənclə birlikdə ordudan qaçır. Sverdlovsk şəhərində onları tutub zindana atırlar. Ramilin harayını eşidən Qədir özünü ona yetirib çətinliklə də olsa az vaxt ərzində başı daşdan-daşa dəyən qardaşını doğma torpağımıza gətirə bilir. Bütünlüklə dekabr ayını Ramil Bakıdakı hərbi qospitalda müalicəyə sərf etdi. Bədənindəki saysız-hesabsız qançırlar və zədələr sağalandan sonra Milli ordumuzun Cəbrayıldakı bölməsində qulluq etməyə başladı. Sovet Ordusu sıralarında olanda elə sarsılmışdı ki, doğma torpaqlarımızı qorumaq üçün əlinə silah götürəndə elə bildi ki, uzaq şərqdə onun mənliyini tapdayan erməni dığalarının üstünə gedir.

– Ramilin düşmənə nifrəti saya-hesaba gəlmirdi

– Bu sözləri onun anası Nayran bacı deyir–ölüb deyin tərifləmirəm–istiqanlı, xeyirxah bir uşaq idi. Zəhmətsevərlikdə atası Fərzalı kişiyə çəkmişdi. Böyüyün, kiçiyin yerini bilən idi.

Heyif ki, qızıl gülləyə tuş gəldi balam...

Bu güllə Ramili Surda yaxalamışdı. 1992-ci ilin iyun ayının 13-də postda növbəni başa çatdıranda snayper gülləsi haqlamışdı onu. Torpaqlarımıza tuşlanan bu gülləni sinəsiylə qəbul etdiyi günə kimi Millli Ordumuzun əsgərləri sırasında altı aylıq şərəfli bir yol keçmişdi Ramil. Bu altı ayda onun çətin günləri də, asudə dəqiqələri də, az olmamışdı. Dönə-dönə səngərdə dayanıb qarşı tərəfdən törədiləcək iblis fitnəsinin qarşısını almaq üçün diqqətini cəmləmişdi. Və belə gərgin günlərin birində hardansa atılan snayper gülləsi ölümcül yaralamışdı onu...

Düz iki aya qədər Bakıdakı hərbi qospitalda müalicə olundu Ramil. Horovluya gəlişindən beş gün keçməmiş güclü ağrılar onu yenidən çarpayı dustağı elədi. Bakı şəhərində ağır cərrahiyyə əməliyyatından sonra düz on gün ölümlə üzbəüz dayandı. Zəhərli gülləylə böyrəkləri parçalanan bu igid oğlanı həyata qaytarmaq mümkün olmadı...

Amansız ölüm arzu-muradını gözündə qoydu Ramilin. Nə doyunca yaşaya, nə də ürək dolusu sevinə bildi.

Bir evin sonbeşiyi idi Ramil. Bir evin çırağını yandırmaq onun payına düşmüşdü. Əcəl aman vermədi. Nisgildən qovrulan o evə Ramilin şəhidlik adının işığı düşür indi. Neçə ki, Dədə Qorqud yadigarı yurd yerlərimiz var bu işıq, bu nur həmişə gəzib dolaşacaq halallığa söykək olan elimizi, obamızı və bir də ürəklərimizi.



## ÜZÜNDƏN NUR YAĞAN ŞƏHİD

**Əliyev Məhəmməd Hüseyn oğlu**
**(1924-26.06.1992)**



Sən mələk xislətli, büllur ürəkli bir insan idin, Məhəmməd müəllim. Nurlu sifətinlə, işıqlı fikirlərinlə başqalarından seçilirdin. Çox yanımlı, təvazökar adam idin. Ürəyin kaman siminə bənzəyirdi. Allah səni başqalarına yaxşılıq etməkdən ötrü yaratmışdı. Ünvanına üz tutanları naümid qaytarmırdın. Gücün nəyə çatırdısa kömək edirdin sənə dilək üçün ağız açanlara. Dağ boyda ürəyinlə sən adidən adi, sadədən sadə idin. İntellektual səviyyənlə çoxlarından yüksəkdə dayansan da bunu heç vaxt hiss etdirmirdin. Bir minnətdarlıq yağırdı üz-gözündən. Sən heç kimə yox, təkcə özünə bənzəyirdin, bir qarışqanı da ayaqlamamışdın. Kövrək ürəklə doğulmuşdun, həssas bir qəlblə yaşayırdın...

Bəs haradan urcahına çıxdı belə ölüm, belə müsibət? Haradan gəldi bu qara yel? Sən belə qismətə niyə tuş gəldin axı? Kimə neyləmişdin, kimin toyuğuna "kiş" demişdin? Kövrək, həssas ürəyinə və bir də işıqlı fikirlərinə söykənərdin həmişə....

Sənin dünyagörüşün, ağsaqqal məsləhətlərin hələ bizə çox lazımıydı. Sən ömrün ixtiyar çağında həyat yoldaşın Adilə xanıma arxa-dayaq, təzə-təzə ərsəyə çatan balalarına – İlqara, Vüqara, Hüseynə, Sevdaya güvənc yeri idin. Mobilin, Aynurənin şirin-şəkər "baba"kəlmələrini eşidəndə "can" sözü qopurdu dilindən həmişə. Sən sayılan, seçilən ağsaqqal, zəkalı müəllim, dinc, sakit qonşu idin, Məhəmməd müəllim.

Belə üzüyola, sadə olduğundanmı bu müdhiş ölüm səndən yan keçmədi. Üstünə gələn o kabusdan yana çəkilə bilmədin, kimlərinsə üstünə gedən o dəhşətli ölümün yolunu sinənlə kəsdin. Halal qazancla tikdiyin evin necə od tutub yanmağından xəbərin olmadı. Yaxşı ki, bu gorkahın damından bünövrəsinə qədər külə dönməyini duyub hiss eləyə bilmədin. Ömrün ahıl çağında bu nə iş idi gəldi başına sənin. İndi ağrılı-acılı ömür yolundan yadigar şəkillərin və bir də baxışlarının hərarəti hopub qalan kitab-dəftərlərin yaşadır izlərini. Bu şəkillərdə altmış səkkiz illik bir ömrün səsi-ünü donub qalıbdır. Bu şəkillər sənin taleyindən alın yazından bir

nişanədir. Səndən, sənin xatirələrlə yaşayan varlığından xəbər verən bu şəkillərə biz də dönə-dönə nəzər yetirdik. Ömür yolun gözlərimizin önündən aram-aram gəlib keçdi...

Hacılı kəndi ata yurdun, ana vətənindir. Sənin nəzəində burdan başlayırdı Azərbaycan. Qarabağa, Milə, Muğana, Şirvana, Xudafərinə gedən yollar buradan şaxələnib uzanırdı yer üzünə, sənin fikrincə Azərbaycan dünyanın ən qədim, ən ulu yurd yeri idi. Bu yurdun təpərli, qeyrətli bir oğlu kimi ömür boyu onun işığına üz tuturdun. Sənin nəzərində halallıq tanrı payıydı, alın yazısıydı. Sənin gözlərində atan Kərbəlayı molla Hüseyn kişi dünyanın ən müqəddəs insanıydı. Yeddi il Bağdad universitetində dini təhsil alandan sonra iki il də qurban olduqlarımızın ruhu dolaşan Nəcəf şəhərində oxuyub el-obasına qayıtmışdı Hüseyn kişi. Təbrizdən Gəncəyə qədər ən savadlı, ən mötəbər bir şəxs kimi tanınan bu mömin kişiyə el-oba yüksək ehtiram bəsləyirdi. İlk təhsilini və bir də ərəb, fars dilində yazıb oxumağı Hüseyn kişidən öyrənmişdin. Üzü nurlu, sözü bütöv, ağzı dualı bir kişiydi Hüseyn babamız. Belə bir kişini otuz yeddidə eldən iraq saldı bu yurdun keçmişini topa tutan bolşevik xislətli nadanlar. Onda Hacı babanın müqəddəs ocağını, onun Çələbilərdəki gorgahını dağıtmaqdan belə çəkinmədi bu bayquş məsləkli "sarı ilan"lar. Molla Hüseyn kimi ağzı dualı köhnə kişilərin getməyiylə uralandı bu xalqın mənəviyyatı, kökü-soyu. Sonra əlifbamızı dəyişib bizi türk dünyasından araladı "böyük qardaşlarımız". Stalinin, Beriyanın və onların əl quzusu, hiyləgər Mikoyanın xalqımıza bəslədikləri kin-küdurət soydaşlarımızın başında çatladı. Minlərlə türk oğlu Ermənistandakı yurdlarından köçürüldülər...

Sən onda həyatın sərtliyini təzəcə duyurdun, Məhəmməd müəllim. Universitetin şərqşünaslıq fakültəsini bitirəndən sonra tale səni bir vaxtlar mahnılarda, nağıllarda adı dolaşan Neft daşlarına aparıb çıxarmışdı. Buradakı fəhlə-gənclər məktəbində direktor işlədiyin illərdə Xəzərin mavi ləpələri gözlərin önündə göy göyərçinə bənzəyirdi. Və bu göyərçinlər hər dəfə yurdun Hacılı kəndini yadına salırdı. Günün-güzarının yaxşı keçsə də unuda bilmirdin o kəndin yovşanlı təpələrini. Günlərin birində yadından çıxara bilmədiyin o yovşan qoxusu səni təzədən doğma ocağa qaytardı. Bir müddət rayondakı qiyabi orta məktəbin dikrektoru işlədin. Bundan sonra düz on bir il Hacılı kənd orta məktəbində çalışdın. Kənd camaatı, rayon ziyalıları ən bacarıqlı bir məktəb direktoru kimi ehtiramını gətirdilər. Balaların böyüdükcə köçəri quşlar kimi hərəsi bir səmtə üz tutdu. Böyük oğlanların İlqarla Vüqarı ali təhsilli mütəxəssis kimi görəndə sevincin sinənə sığmadı. İndi onların sədası Moskvadan gəlir. Ailə uşaq sahibidirlər.



Yaxşı dolanışıqları var. Uşaqların içərisində Hüseyni hamıdan çox istəyirdin–atanın adını vermişdin ona. Onun gələcəyinə ümidin böyük idi. Hüseyn Moskvadakı Maliyyə-İqtisad institutunu bitirib doğma ocağa qayıdanda özünü ən bəxtəvər ata hesab edirdin. Əcəl aman versəydi payızda toyunu görəcəydin, qismət olmadı. Hüseyn ölümünə heç dözə bilmir indi. Külü göyə sovrulan evinə, tifaqı dağılan ocağına–yurd yerinə baxanda ömür-gün yoldaşın Adilə xanım nə Hüseyni, nə də sonbeşik balanız Sevdanı ovundura bilmir. Divarları kösövə dönən o evin hisdən qaralan hər daşı səndən söz açır elə bil. O evin həyətində sonuncu harayın, axırıncı nidan yaşayır. Yadındadırmı ömrünün axırıncı dəqiqələri. İyun ayının iyirmi doqquzunun sübh çağları idi. Sevdayla Adilə xanım Mahmudludakı qohumlarınızın evində qalırdılar. Rayon mərkəzinə od yağırdı o Şayaq deyilən yüksəklikdən. Şəhərə ilk "qrad"lar düşəndə Hüseyni yuxudan oyadıb həyətə endiniz. Elə bil ürəyinə dammışdı ki, nəsə olacaq. Bircə onu bacara bildin ki, Hüseyni özündən aralaşdırdın. Elə bil namərd ermənilərin atdığı "qrad" mərmisi bunu gözləyirmiş. İllər boyu halal zəhmətə qatlaşıb tikdirdiyin ikimərtəbəli o səliqə-səhmanlı ev bir anın içində yanıb külə döndü. İki ildən bəri rayon tarix-diyarşünaslıq muzeyində ziyalılara ərəb-fars əlifbasını öyrədirdin– məşğələlərin yarımçıq qaldı. Həyətdə əkdiyin meyvə ağacları bara düşmüşdü–nübar etmək qismət olmadı sənə. Moskvada yaşayan sevimli nəvən Aynurə görüşünə gəlirdi o gün. Özünü yox, dədə-baba yurdun Hacılıdakı qəbrini görmək qismət oldu ona...

Sən ixtiyar çağında şəhid oldun. Həmişə erməni tapdağı olan Şuşamızdan, Laçınımızdan yana-yana danışırdın, Milli Ordumuzun igid əsgərləri ilə tez-tez görüşüb onlara ağsaqqal xeyir-duası verərdin. Ölümün hamımızı yandırdı. Səninlə illər boyu duz-çörək kəsən, bir yerdə işləyən Əyyub Quliyevin hələ də ürəyindədir bu təşnə, bu od:

– Məmməd müəllim qeyrətli vətəndaş, müdrik ağsaqqal idi. Bu yurda, bu torpağa bütün varlığıyla bağlıydı. Həmişə deyərdi ki, arxasıza, büdrəyənə əl tutun, arxa olun! Heyif ki, sağlığında qədri-qiyməti bilinmir belə ziyalılarımızın... Nə rütbə, nə fəxri ad almışdın, ancaq əsl alim zəkası var idi səndə. Ömrü boyu halal çörək yemişdin, heç kimin qarşısında gözükölgəli deyildin. Ölüm şəhid adı qazandırdı sənə. Bundan sonra dünyamızda bu adla yaşayacaq, xatırlanacaqsan. İnnən belə şəhid oğullarımızın ağsaqqalı, güvənc yeri olacaqsan...

# ÖLÜMƏ TƏLƏSƏN OĞLAN



**Əsədov Fuad Qərib oğlu**
**(25.11.1972-28.06.1992)**

Əsədov Fuad Qərib oğlu. 1972-ci ildə anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun IV kurs tələbəsi. Cəbrayıl ərazi müdafiə batalyonunun könüllü əsgəri. 1992-ci ilin 28 iyununda Sur kəndi uğrundakı döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur.

Neçə vaxtdır qələm götürmək, sənin haqqında yazmaq istəyirik. Amma əlimiz gəlmir, Fuad, yaza bilmirik. Təsəvvür eləyə bilmirik ki, sən cəbhədə həlak olmusan, inanmırıq, inana bilmirik. Axı bizim nəzərimizdə sən həmişə uşaq idin, körpəcə, məsum bir uşaq. Məhəllə uşaqları tez-tez başına toplaşardı. Hərəsinə yadigar olaraq bir patron vermişdin. Bunu bizə Fudu verib deyirdilər. Demə sən uşaqları əyləndirirmişsən. Sən böyüklə-böyük, kiçiklə-kiçik, tədbirli, ağsaqqal, hər şeyin yerini bilənmişsən. Bunu bizə sonra dostların dedilər. Şəklinə baxdıqca bu körpəlik, məsumluq daha çox sirayət edir indi bizə. 4-cü kursa keçmişdin, amma biz elə bilirdik sən hələ ya 1-ci ya da 2-ci kursda oxuyursan. 20 yaşına təzəcə qədəm qoymuşdun. Bu 20 yaşın sevincini də duymağa amansız ölüm imkan vermədi, Fuad. Həmişə anan şəhid analarının dərdinə qalardı, onların halına acıyırdı. Axır özü də şəhid anası oldu. Solmaz ana. Bu dərdin atanın da qəddini əydi, tək bacının, dostlarının, yoldaşlarının da. Dostların yaman çox istəyirmiş səni, ay Fuad, xətrin yaman əzizmiş onların yanında, öz sərbəst mühakimələrin, ağıllı məsləhətlərinlə. Orta məktəb yoldaşların səni yada salıb yana-yana danışırlar. Azay, Mehman, Vüqar, Etibar...

Beləcə səni yada sala-sala onlarla-orta məktəb yoldaşlarınla, tələbə dostlarınla söhbət elədik. Azay kövrələ-kövrələ, ağır bir kədərlə, sonsuz bir həsrətlə danışırdı:

– Həmişə bir yerdə olardıq. Tətil vaxtlarında da. Birimizin işi olanda kollektiv toplaşıb o işi görərdik. İşin təşəbbüskarı da həmişə o olurdu. Mən onunla postlarda da olmuşam. Çox arxayın idi, heç ölümü yaxınlaşdırmırdı özünə.

Mehman: – Fuad çox təmkinli, həm də hazırcavab idi. Uşaqlardan biri bikef olanda o onlardan da artıq fikir çəkirdi. Hamının dərdini öz dərdi



hesab edirdi. Ümumiyyətlə, bizdə ayrı-seçkilik yox idi.

Fuad qəlbinin hökmü ilə dörd aydan artıq idi ki, könüllü orduya yazılmışdı. Canından artıq sevdiyi doğma torpağın azadlığı onunçün hər şeyin fövqündəydi. Bəlkə də elə ona görə idi ki, özü də bilmədən canını bu torpağa qurban demişdi. Lap yaxınların söhbəti idi: atası ona deyəndə ki, daha bəsdir, get Bakıya, bir az da dərslərinlə məşğul ol. Onda Fuad təmkinini pozmadan özünəməxsus ciddiliklə demişdi: – Yox mən Bakıya getsəm orada dayana bilmərəm, buraya da gəlməsəm Şuşaya gedəcəyəm. Qoca nənəsi yaylığını onun qabağına atanda isə, yaylığı götürüb onun başına bağlamış, zarafatla bir az da sıxmış, sonra isə demişdi: – Ay nənə, əziyyət çəkmə onsuz da gedəcəyəm, sağ-salamat da geri qayıdacağam.

Posta getmədiyi vaxtlarda evlərinin ikinci mərtəbəsindəki balkonda oturub əlində durbin daim döyüş gedən dağlara-qətlə yetirildiyi bədnam Sur kəndi tərəfə baxardı. Bəlkə də ömrünün elə oradaca qırılacağı gizli tellərlə aydın idi ona. Bir də axırıncı posta gedəndə 3 dəfə dayanıb arxaya-evlərinə, həyətlərinə baxıb. Bu da taleyin bir gərdişi, bir hökmü imiş görünür. Boyu balaca idi, asta-asta yeriyirdi, danışığı da asta idi, hərəkətləri də. Amma nə qədər asta olsa da bir tələskənlik var idi Fuadda. Bunu hamımız sonra bildik. Ölümə tələsirmiş sən demə Fuad. Neçə dəfə dostları onu postdan qaytarıb, vaxtın qurtarıb deyiblər. Amma o qayıtmayıb, döyüşməliyəm–deyib–vuruşmalıyam. Elə bilirəm mən burada olmasam postumuzu alarlar. Bax, bu idi ondakı tələskənlik. Biz Fuadın bu ölümünü ilanın gülləyə doğru uçuşuna bənzədirik. O da güllədən qorxmadı, güllənin üzərinə mərd-mərdanə getdi.

Tələbə yoldaşları Hacıbaba, İlham, Azər, Namiq də Fuad haqqında ürək dolusu danışırlar:

Hacıbaba:–Fuad əsl kişi idi, sözü üzə şax deyirdi, daldada danışmaqla arası yox idi. Söz götürən deyildi, dostluğa, yoldaşlığa çox möhkəm idi. Xarakterində bir az qapalılıq var idi. Amma bu qapalılığın özündə də qeyri-adilik hiss olunurdu.

İlham:–həmişə özünü qabağa verərdi. Qrupda birinə bir söz deyilsə, ən birinci Fuad cavabını verərdi. Onun öz aləmi, bir az da xəyalpərvərliyi var idi. Çox vaxt təkliyə can atırdı.

Azər:– Biz hamımız memarlıq fakültəsində oxuyurduq. Onu heç vaxt unuda bilmərik, buna haqqımız yoxdur. Bəlkə elə ona olan dostluq və yoldaşlıq borcumuzu onun qəbirüstü abidəsini milli arxitektura üslubuna uyğun şəkildə hazırlamaqla verə bildik. Görək, allah bizə də bu yolda kömək olsun.

Fuadın döyüşdüyü atıcı vzvodun komandiri, baş leytenant Səxavət Mirzəyevin söhbətindən:

–Əsgərlikdə olmamasına baxmayaraq bütün silahların dilini bilirdi. Pulemyotu beşbarmağı kimi söküb yığır, minamyotdan, qranatamyotdan sərbəst istifadə edirdi. Hərbi aparaturalardan, xətsiz ratsiyalardan baş çıxarırdı. Soruşurdum:–Fuad, bunları haradan öyrənmisən?–Komandir–deyirdi–Hərbi hazırlıq dərslərindən, bir də özümün marağım olub. Yüksək görmə və eşitmə qabiliyyəti var idi. Çox qorxmaz oğlan idi. Xüsusən gecə əməliyyatlarında yaxından iştirak edirdi. Son aylarda keçirdiyimiz əməliyyatların hamısında iştirak edib. Yorulmaq nə olduğunu bilməzdi. Bu iş üçün bütün canını, varlığını qoymağa hazır idi. Həmişə yalvarırdı ki, məni də əməliyyatlardan saxlama, daldada boynumu qucaqlayırdı ki, qoy mən də gedim. Getmə, təhlükəlidir deyəndə–deyirdi:–Mən ölümdən qorxmuram, yəni sonu ölüm deyil? Boyu balaca olsa da, fizianomiyasında yüksək hərbçilik keyfiyyətləri var idi. Çox güclü idi. Səngər qururduq, qumu iri kisələrlə yığıb tək qaldırırdı, yaxşı əl qabiliyyəti var idi. Döyüş yerlərinin dəqiq və aydın xəritəsini öz rotamızın düşmən mövqeləri də daxil olmaqla müdafiə və hücum çertyojunu çəkmişdi. Çox ciddi, ciddi olduğu qədər də şən idi. Çox böyük ümidi var idi ki, biz qalib gələcəyik. Xankəndinin adını çəkirdi. Heç vaxt Stepankert adını deməzdi, tezliklə Xankəndində bayram edərik deyərdi. Erməni sözü də işlətməzdi–"lənətullah" deyərdi. Arzuları böyük idi. Heyf ki, amansız ölüm bu arzuları həyata keçirməyə ona imkan vermədi.

Bir dəfə mərmi düz yanına düşmüşdü. Xoşbəxtlikdən heç nə olmamışdı. Soruşanda, soyuqqanlıqla boş şeydir demişdi. Rus dilini yaxşı bilirdi. Bütün hərbi terminləri, parolları (ermənilərinkini) tərcümə edirdi bizimçün. Tez-tez parolları dəyişirdik, milli adlar verirdi parollara. Tələbə idi. Deyirdim. Fuad, kitablarını da gətir, yaxşı təmiz havadır, burada oxu. Deyirdi, eh komandir, indi kitab düşür yadıma? Xocalı hadisəsi ona çox sarsıdıcı təsir göstərmişdi. Sonralar uşaqlar mənə dedilər ki, Fuad ürək dərmanı atır. Belə, oğul idi, belə Vətən oğlu, torpaq oğlu idi Fuad, heyif ondan.

Səxavət müəllim danışdıqca bayaq sənin haqqında öz fikirlərimiz düşür yadımıza, Fuad. Demə, biz səni yaxşı tanımırmışıq. Daha yaxşı dostların, cəbhə yoldaşların tanıyırmış. O vaxtlar heç səninlə maraqlanmamışıq. İndi isə artıq gecdir. Sən əbədiyyətə qovuşmusan. Ancaq sənin əməllərin yaşayacaq, qardaş, dostlarının, yoldaşlarının, həmvətənlərinin əməllərində.



Qarabağı da geri qaytaracağıq, ancaq sənsiz, elə fikirləşmə ki, sən o döyüşlərdə olmayacaqsan. Yox, bu hücumların lap ön cərgəsində sən və sənin kimi həyatdan nakam getmiş oğullarımız olacaq.

Qarşımızda bir gündəlik var. yarımçıq qalıb. Fuadın qısa ömrü kimi yarıda qırılıb. Gündəlik elə-belə gündəliyə bənzəmir, hər biri bitmiş, kamil bir əsər təsiri bağışlayır, sanki püxtələşmiş yazıcı qələminin məhsuludur. Gündəlikdən sətirlər:

**5.02.1992.**

Əgər mənim bütün ömrümdə "alnıma yazılanlar" olacaqsa, mən həyatda "tutulmuş proqram" üzrə yaşayacağam, mənim şüurum müşahidəçi rolu daşıyacaqsa onda insan həyatı ilə digər canlıların həyatının heç bir fərqi olmazdı.

Həyat-mübarizədir. mən ancaq "alnıma yazılanları" yaşayıramsa, mən nə ilə mübarizə edirəm? Belə çıxır ki, insan ömrü mənasız vaxt axımıdır.

**23.02.1992.**

Atam ayın 16-na bilet almışdı. Evdəkilərlə görüşüb aşağı düşdüm, maşına oturub yola düşdük. Maşın gedə-gedə pəncərədən ətrafa, evlərə, adamlara zülmətdən uzanan düzlərə, bir-birinin arxasından boylanan təpələrə elə acgözlüklə baxırdım ki, elə bil bir daha buralara qayıtmayacaqdım...

Qatar bu dəfə həmişəkindən bir az tez gəlmişdi. Vaqonda yerbəyer olmuşdum. Qatar vaxt axınına bənzəyirdi. Hey gedir stansiyaların sayrışan işıqları isə ömrün xoş xatirələri kimi arxada qalırdı. Qatar isə hey gedir, gedirdi... Sanki məni alıb qaçırdı, var gücü ilə qaçırdı qatar. O xoşbəxt həyatdan, o havadan, sudan, Qurban təpəsindən valideyn nəvazişindən, bacı mehribanlığından, qardaş səmimiyyətindən ayırıb çətinliyə doğru aparırdı məni.

**13.05.1992.**

Mən martın 15-dən Bakıdan çıxmışdım. Səsli-küylü Bakıdan, sonra rayonumuzu elə vəziyyətdə gördüm ki...Artıq qonşu Füzulini raket atəşinə tutmuşdular. Cəbrayıl üçün də təhlükə gözlənirdi. Mən evdə heç nə deməmişdim. 17 martda gedib Milli Ordunun dəstəsinə yazıldım. Əvvəl mənə etimad göstərmədilər. Çox xahiş-minnətdən sonra (bizdə belədir də gərək ölümə gedəndə də yalvarasan) məni yoxlayıb nəhayət 28 martda ən

qaynar nöqtədə olan Qışlaq kəndinə göndərdilər.

Son vaxtlar məndə qəribə dəyişiklik olmuşdu. Mənim həyata olan marağım ölüb getmişdi elə bil. Heç bir gələcək plan, heç bir arzu yox idi mənimçün. Bəlkə elə buna görə idi ki, məndə qorxu hissi də tamam yox olmuşdu. Mən fikirləşirdim ki, bəlkə son ayaqda can adama şirin gələr. Amma sonra bir neçə dəfə az qala ölümlə də üzləşməli oldum və gördüm ki, elə deyil.

"Artıq mən xalqıma da nifrət eləməyə başlamışdım. Nə qədər əzilmək olar, nə qədər qırılmaq olar, nə qədər alçalmaq olar, nə qədər tapdanmaq olar, nə qədər yatmaq olar, niyə oyanmır bu xalq, niyə qalxmır ayağa bu xalq..."

**24.10.1992.**

Bu gecə anamı görmüşəm yuxumda. Uzun, qara hörüklərini görmüşəm. Tezdən kövrəlmiş halda yuxudan durdum. 3-4 gün idi ki, bərk xəstə idim. Ona görə kövrəldim ki, məhz xəstə olanda girdi anam yuxuma. Əli çatmasa da yuxumda dərdimə şərik oldu. "Dərd" dedim yenə anamın saçları yadıma düşdü. Hamını heyran qoyan, topuğuna qədər uzanmış gecə kimi saçlara indi dən düşmüşdü. Dərddən vaxtsız ağarmış o saçlar yadıma düşəndə öz-özümə fikirləşirəm ki, o saçların ağarmasında mənim də "zəhmətim" var. Kaş ilahi bir qüvvəyə malik olaydım, anama fikir, dərd çəkdirib ağartdığım saçları qaralda biləydim".

*Əzizim balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?*

Bu da Solmaz ananın ağısı, laylasıdır. Ağlama, Solmaz bacı, Fuad tək sənin yox, bizim hamımızın balasıdır. Uğrunda canını verməyə hazır olduğu doğma torpağımızı çox sevirdi. Elə ona görə də ana torpağı səndən əziz tutdu, doğma torpağı bir ovuc artırmaq naminə torpağa qovuşdu. Sənin oğlun, bizim oğlumuz, bizim oğullarımız heç vaxt unudulmayacaq. Qədirbilən xalqımız onların xatirəsini əbədiləşdirəcək. Buna əmin ola bilərsiniz.



## MƏN SİZDƏN AYRILMAZDIM

**Əhmədov Zahid Fərrux oğlu**
**(10.01.1960-17.09.1991)**



Vaqif bəy (Cəbrayıl rayon DİŞ-nin polis rəisinin müavini Vaqif Hüseynov) bizim "Zahid necə insan idi?" sualımızı eşidən kimi:

– Hansı Zahidi deyirsiniz, bizim polis şöbəsində Zahid adında üç nəfər əməkdaşımız var, hamısı da...

– Biz rəhmətlik Zahidi soruşuruq.

– Hə, bizim Əhmədov Zahidi deyirsiniz. Qardaş o, ayrı oğul idi. Bu torpağın qeyrət bürcüydü Zahid. Qorxu-hürkü nəydi eyninə də gətirməzdi. Onun adı gələndə dığaların canına üşütmə düşərdi. Dosta etibarlı, torpağa sədaqətli idi bu igid oğlan. Rəhmətliklə bir yerdə o qədər duz-çörək kəsmişik ki....Adam belə qoçaq oğulun ölümünə də inana bilmir...

Vaqif müəllim sözünə ara verir, ahəngi dəyişməkdə olan səsindən hiss edirdik ki, Zahidlə bağlı söz-söhbətimiz onu yamanca kövrəldib. Araya çökən sükutu yenə Vaqif müəllim özü pozur:

– Ona ölübdür deməyə adamın dili gəlmir. Əsl allah adamıydı, ömründə dilinə bir damla içki dəyməmişdi. Gözü-könlü tox insan idi. Müqəddəs ocağımız Hacı Qaraman onun and yeri, inancı, qibləsi idi...

Yox, deyəsən Vaqif müəllimə danışmaq çox çətindir. Daha kirpiklərindən asılı göz yaşlarını gizlədə bilmir. Yaxından tanıdığı, duz-çörək kəsdiyi bir insanın nakam taleyi onun cızdanağını çıxardır.

– Kim nə deyir desin "biz kişi ağlamaz" – fikriylə razılaşmırıq. Məgər kişi insan deyil? Dostundan, doğmasından ayrılıbsa, sinəsinə qardaş dağı çəkilibsə necə ağlamasın bu kişi? Onda da hər dəqiqə ölüm-itim xəbəri eşitdiyimiz indiki zəmanə ola...

Arada bir siqaret çəkimlik sükut yaranır. Zahidin bir neçə vərəqə sığan ömür yolunun dolayları gözlərimizin qabağında dayanır...

Zahid 1960-cı il yanvar ayının onunda Cəbrayıl bölgəsinin Qalacıq kəndində anadan olub. Zahidgilin ailə üzvləri iki ildən sonra bu doğma torpaqdan ailə vəziyyəti ilə əlaqədar Beyləqan rayonunun Günəşli qəsəbəsinə

köçüblər. Zahid ömrü boyu ata ocağı, qala misalı Qalacığı yaddan çıxarmayıb. Kənd camaatının xeyrində-şərində iştirak edib. 1978-80-ci illərdə imperiya ordusunda hərbi xidmətdə olub. Qırmızı imperiyanın vətəndaşı olduğu illərdə harda olubsa, saxtalığın, milli və dini ayrı-seçkiliyin, vətəndaş hüquqlarının hər addımda pozulduğunun şahidi olub. Elə ona görə də hələ orta məktəbin son siniflərində demokratik bir cəmiyyətin qurucusu olmağı, onun ali qanunlarının keşiyində durmağı arzulayıb. 1982-ci ildə BDU-nun hüquq fakultəsinə qəbul olanda özünü dünyanın ən bəxtəvər adamı hesab edib. Zahidin əməksevərliyi burada da özünü qabarıq göstərib. Yay aylarında tələbələrin bir qismi min bir bəhanə ilə o vaxtlar dəbdə olan tələbə inşaat dəstələrindən uzaq qaçanda Zahid Əhmədovun yay aylarında quruculuq fəsli başlayıb. Ovuclarındakı qabarlar hünərindən soraq verib bu oğlanın. Təsadüfi deyildir ki, səksəninci illərdə Respublikada Tələbə İnşaat Dəstələrinin yaradıcılarından hesab edilən Əhmədov Zahid Fərrux oğlu o zamanın ən yüksək mükafatına –"Şərəf nişanı" ordeninə layiq bilinib. Tələbəlik həyatından yadigar olan bu ordenin saxlandığı mücrüdə Zahidin qırmızı diplomu da saxlanılır indi. Universiteti fərqlənmə diplomu ilə bitirən bu hünərli oğlan ata yurdu Cəbrayıla gəlib burada əvvəlcə sahə müvəkkili, sonradan isə cinayət axtarışı üzrə müvəkkil işləyir.

1991-ci ildə keçmiş Hadrut rayonunun ondan artıq erməni kəndinin quldurlardan təmizlənməsində şəxsi igidliklər göstərib..

Bayaqdan bəri hərəmiz öz dünyamıza çəkilib Zahidin ölümündən doğan bir ovqatla düşünməkdə idik. Sükutun ağırlığına birinci olaraq dözməyən yenə də Vaqif bəyin özü oldu. O, Zahidin adıyla bağlı söhbətimizi təzədən araya-ərsəyə gətirdi:

– Zahidin o vaxt şöbəmizdə tutduğu rahat işdən əl çəkməyi çoxları üçün gözlənilməz olsa da, onu yaxşı tanıdığımdan məndə təəccüb doğurmadı. Məsələ ondaydı ki, Hadrutun erməni çaynağından azad edilmiş kəndlərinə Ermənistandakı dədə-baba torpaqlarından qovulan yurddaşlarımız köçürülürdü. Əslində bu iş ilk köçkünlər dəstəsinin respublikamıza gəldiyi vaxt 1988-ci ildə görülməli idi. O vaxt başsız başçılarımız bu məqamı əldən verdilər. 1991-ci ilə kimi başı müsibətlər çəkən, ömür boyu qisməti binəsiblik olan bu zavallı adamları təzədən Çaykəndə, Ağdərəyə, Cəbrayıla gətirmək, qardaş mənim barəmdə heç bir qanuna sığmayan nadanlıq idi. Bax, onda Zahid də mənim kimi varından yox olmuşdu. Yazıq iki-üç gün qaşqabaqlı gəzib dolandı, axır ki, ürəyini mənə açıb dedi:



– Vaqif–dedi Zamzur bölməsinə keçmək istəyirəm–Bakıda min bir əziyyətlə əldə edib sığındıqları mənzillərdən çıxarılaraq keçmiş erməni kəndlərinə qovulan bu yazıq camaatı qorumasaq elə bilirəm ki, başımıza qoyduğumuz papağı gəzdirməyə bizim haqqımız olmamalıdır. Açığını bilsəniz Zamzur bölməsinə rəhbərlik etməyə o vaxt yalnız Zahid kimi oğullar könüllü gedə bilərdilər. O bölmənin xidmət sahəsi od alovun içərisində idi. Hər daşın, hər kolun arxasından bir məkrli erməni sifəti boylanırdı...

Mən o vaxt Zahidə uğur dilədim. Bilirdim ki, getmə qardaş, desəm əhəmiyyəti olmayacaq. Zahidi yolundan döndərmək sadəcə olaraq mümkün deyildi.

Zahid Zamzur bölməsinə üç aydan bir az artıq rəhbərlik etdi. Bilsəniz onu burada yurd tikib torpaq becərən yurddaşlarımız necə istəyirdilər. Elə Zahidin də üzü-gözü onlara öyrəşmişdi. Göyçədən, Zəngibasardan olan bu taleyi kəm insanların başına pərvanə kimi dolanırdı. Bir xahişlərini, bir istəklərini də yerdə qoymazdı. Dəfələrlə erməni dığaları ilə üz-üzə gəlib dərslərini vermişdi. Kazımı, Əlini, Cingizi, İmamverdini, Əsgəri... özünün sağ əli hesab edirdi Zahid. Evdə ailəsinin, balalarının üzünü doyunca görə bilməyəndə öz-özünə təsəlli verib:

– Bu murdar ermənilərin burunlarını ovandan sonra hər işimiz qaydasına düşəcək–deyirdi.

– Həmişə ona deyərdim ki, Zahid sən allah ehtiyatlı ol, körpə balan var!. cavabında:

– Ermənilərdən qorxum yoxdur, onlarda kişilik nə gəzir ki, adamla üzbəüz dayanıb döyüşsünlər. Bircə minaya düşməkdən qorxuram-dedi...

Yazığın ağlına gələn başına gəldi–1991-ci ilin on dördü sentyabrında Zamzurun üst tərəfində silah yoldaşı Veysəlov Əsgərlə minalı sahədən keçərkən mindikləri maşınla birlikdə havaya sovruldular. Əsgər elə yerindəcə həlak oldu. Ağır bədən zədəsi ilə birlikdə təpədən dırnağa yanan Zahidin də həyatını xilas etmək olmadı. Hamıya yaxşılıq etmək arzusuyla yaşayan bu igid oğlan üç gündən sonra ailə üzvlərini, yenicə doğulmuş balasını gözüyaşlı, dostlarını boynuburuq qoyub getdi...

Elə bil qonşu otaqda əyləşən Cəbrayıl rayon polis şöbəsinin rəisi, podpolkovnik Vaqif Məhərrəmovun ürəyinə dammışdı ki, vaxtilə Zahid Əhmədovun işlədiyi binada ondan söz açırıq. Gözlənilmədən qapını açıb içəri girdi. Zahidlə bağlı söhbətimizin sonluğuna qulaq asandan sonra:

– Zahid bizim iftixarımız, güvənc yerimizdir–dedi. Heyif ki, bizə çox

gərək olduğu bir vaxtda dünyadan getdi. Belə gözəl oğulları yaddan çıxarmaq çətindir...

Bəli, onu yaddan çıxarmayıblar. Tez-tez onun nişanəsini yaşadan balası Rüfətə baş çəkirlər. Qəbrinin üstündən adam əskik olmur. Qalacıq kəndindəki məktəbə Zahid Əhmədovun adını verməklə həmkəndliləri ona olan sevgilərini ifadə ediblər. Xalqımızın qəhrəmanlıqla dolu azadlıq tarixində Zahid kimi oğullar əbədi olaraq xatırlanacaqlar. O, bu torpağı ürəkdən sevirdi, elə onun azadlığı, bütövlüyü yolunda da canından keçdi. O, həyatdan, yaşamaqdan, başqalarına əl tutmaqdan yorulmamışdı. Hələ illər boyu yaşamaq istəyirdi. Bu qeyrətli şəhid qardaşımızın məzar daşından boylanan şəkli elə bil axşam-səhər dil açıb:

– Erməni qiyafəsinə girən bu amansız ölüm olmasaydı deyir–mən sizdən-ürəkdən sevdiyim dostlarımdan, doyunca üzünə baxmağa macal tapmadığım Rüfətimdən, harayı ərşə qalxan torpağımızdan ayrılan deyildim...



## BU QAN YERDƏ QALAN DEYİL...

**Əhmədov Şəmil Heydər oğlu (1948-26.08.1991)**



Şəmil kişinin yaxşı tanıyırdıq. Cəbrayıl şəhərinin beş yüz addımlığında Araz səmtindəki daşlı-çınqıllı təpələrə sığınan 20-30 evli Xudaverdili kəndində yaşayırdı. Ruzusunu iyirmi ildən artıq sükandan yapışan qabarlı əlləri ilə qazanırdı. Elə bu əllərlə də özünə-altı gül balalarına ev-eşik, gün-güzəran qurmuşdu. İstiqanlı, üzügülər bir insan idi. Ömür-gün yoldaşı Şahnaz bacının nəzərində tanrının ən halal, ən sədaqətli bəndəsi idi. Sübhün gözü açılan kimi idarə etdiyi avtobusun sükanı arxasında əyləşib yola çıxar, axşam toranlığına kimi eli elə, obanı obaya qovuşdurardı. Arzusu el-obanı xoşbəxt görmək, balalarını ərsəyə çatdırmaq idi. Özgə təmənnası, ayrı fikri yox idi. Güvəndiyi ulu tanrının taleyinə bəxş etdiyi qisməti və bir də qabarlı kişi əlləri idi. Dünyanın düz vaxtlarında qulaq dincliyi ilə tapdığı bir parça ruzu üçün əllərinə minnətdar idi. Hamıya istiqanlı olan Şəmil kişinin dostu-tanışı da çox idi. Başqaları kimi dünya malında gözü yox idi. "Sağ ol" kəlməsini ən böyük varidat, tükənməz qazanc bilirdi. Bu "qazancı", bu "hörməti" o, illər boyu qətrə-qətrə, damla-damla "yığmışdı".

İllər boyu qılığımıza girib süfrələrimizin başında əyləşən erməniləri Şəmil kişi dünyanın ən üzüyola, ən zəhmətkeş adamları bilirdi. Bizim çoxlarımız kimi, Şəmil kişi də bu məkrli millətin iç üzündən, xəbis ürəklərindən xəbərsiz idi...

1988-ci ilin fevralında buynuzları qarınlarında olan ermənilərin gizli sifətlərini, fitnə-fəsadlarını görəndə ən çox sarsılanlardan biri də Şəmil kişi oldu:

– Pah atonnan dedi-millətdə zatı qırıqlığa bax,-əşi bizim onlara nə pisliyimiz keçib. Mən yazıq illər boyu onların qocasını-cahılını müftə-müsəllah nə qədər Mahmudlu stansiyasına, ordan da Sura, Zamzura, Banazura, Hərəkülə, Hadruta...daşımışam. Allah, dünyanın ən fağır bəndələri hesab etdiyimiz bu məxluqda neçə üz, neçə sifət olarmış?

Şəmil kişi bax onda hiss etdi ki, aldanıb, qurda, yalquzağa quzu deyib...

Əvvəl istədi ki, yenicə yaranmaqda olan ərazi müdafiə hissələrinə yazılıb torpağımızı erməni quzğunlarından qorusun.

–Qeyrətli cavanlarımız çoxdur, onlar sənin əvəzindən də döyüşürlər-dedilər. Bu cavab onu qane etmədi. Xahişi bu oldu ki, heç olmasa onun avtobusunu yerli döyüşçülər üçün ayırsınlar. Arzusuna əməl etdilər...

1991-ci ilin may-iyun ayları idi. Yerli özünü müdafiə bölmələrinin uğurlu əməliyyatları sayəsində Cəbrayıla yaxın erməni kəndləri Hərəkül, Daşbaşı, Dolanlar, Zamzur, Mülkədərə, Banazur, Şayaq... düşmənlərdən azad edilməkdə idi. Həmin günlərdə köçüb gedən yerli ermənilər içərisində millətçiliyi ilə bədnam ad çıxaran Azərbaycanın Əməkdar müəllimi Yervand Qəhrəmanyan da var idi. Şəmil kişi axırıncı dəfə üz-üzə gələndə:

–Əhliyyətimiz burnundan gəlsin!-dedi. Cəbrayıllıların yanında dağ boyda hörmətin vardı. Bizim hesabımıza özünə saray tikib, fəxri ad almışdın. Çörəyimizin qədrini bilmədin...

O vaxt boşalan kəndlərdə Göyçədən, Masisdən qovulan yurddaşlarımız məskunlaşıb özlərinə yurd-yuva qurmaqda idilər. Şəmil kişi onların təzə yurd yerlərinə isinişməkləri üçün əlindən gələni edirdi. Onlara gündə neçə yol ürək-dirək verib:

–Qorxmayın,-deyirdi-hər gün postlara aparıb gətirdiyim bu qeyrətli cavanlarımız daha sizi darda qoymazlar. Əkin-biçininizlə məşğul olun! Təbiətən zəhmətkeş olan, taleyinə didərginlik qisməti düşən yurddaşlarımız təzə yurdda sinəsi güllələrdən yaralı torpağa təzə nəfəs verdikcə Şəmil kişinin ürəyi dağa dönürdü. Axşam, səhər onların yanından ötdükcə maşınını yanlarında saxlayıb:

–Başınıza dönüm, fikir eləməyin-deyirdi-yaman günün ömrü az olar, nəyə ehtiyacınız olsa, hara getmək istəsəniz deyin-mən də sizin qardaşınız.

–Hamıya qardaş, dost-doğma olmağa çalışırdı, Şəmil-bu sözləri ömür-gün yoldaşı Şahnaz bacı deyirdi indi. 1991-ci ilin avqust ayının 21-də tezdən Şəmili qapının ağzında yola saldım. Mənimlə yanaşı dayanan Arzunun, Aynurənin, sonbeşiyimiz Vasifin üzündən öpüb:

- Aynurə, Arzu sizə bu gün məktəbli donu alıb gətirəcəyəm, tapşırmışam, saxlayıblar-dedi və yola düşdü...

Həmin gün Cəbrayıl rayon polis şöbəsinin beş əməkdaşını Şayaqdakı posta apararkən qırx beş yaşlı Şəmil Əhmədovun avtobusu məkrli erməni quzğunlarının minasına düşdü. Güclü partlayış avtobusu havaya sovurdu. Şəmil bir an içərisində həlak oldu. Və bir də Şəmil heç kəsin yüksəlmədiyi və çata bilmədiyi bir yüksəkliyə ucaldı: Cəbrayılın Cəbrayıl torpağında ilk



şəhidi, erməni fitnəsinin ilk qurbanı oldu.

Şəmilin avtobusunda olan polis əməkdaşları ağır yaralandılar...Yaxın-uzaq, dost-tanış Şəmilin ölümünə vaysındılar. Altı gözüyaşlı balasının ahnaləsi ərşə qalxdı...

İndi o gündən xeyli keçsə də el-oba Şəmili, onun ailə üzvlərini unutmur, tez-tez onlara baş çəkirlər. Şəmil Əhmədovun vaxtilə çalışdığı avtonəqliyyat müəssisəsində indi oğlu Vasif çilingər işləyir. Ortancıl oğlu Kazım C.Naxçıvanski adına hərbi məktəbdə təhsilini davam etdirir. Atasının ölümünə ürəkdən yanan Kazım-bu qan yerdə qalan deyil-deyir. Allah qoysa evimizi başsız qoyan yüzlərlə igidlərimizi qanına qəltan edən ermənilərdən qisasımızı alacağıq. O gün uzaqda deyil.

Çox-çox illər keçəcək, torpaqlarımız yağı tapdağından azad olacaq. Onda hələ atasızlığın ağrı-acısını o qədər də dərk etməyən balaca Vaqif böyüyüb iftixarla:

–Mən şəhid oğluyam, atam Əhmədov Şəmil Heydər oğlu torpağımızın azadlığı uğrunda canından keçib-deyəcək...

O gün inşallah tezliklə gələcək...

# ADİ ÖLÜM DEYİLDİ BU...



**Əhmədova Qızbəs Topuş qızı
(1931-29.06.1992)**

Qarşımızdakı 3310283 saylı bu şəhadətnamə yaş kağızı deyil, bir insanın ölümündən soraq verən sənəddir. Hiss olunur ki, onu yazan adamın əlləri əsirmiş ölümün dəhşətindən. Bu ölüm kağızının sahibi indi haqq dünyasındadır. Adına yazılan qara haşiyəli bu sənəddən xəbəri olmayıb. Ölüm haqqında şəhadətnamə doldurularkən "ölümün səbəbi" yerində "Bütün bədəndə III-IV dərəcəli termiki yanıq" sözləri yazılıb. Bu əzablı, işgəncəli bir ölümün bir parça kağızdan boylanan harayıdır. Əhmədova Qızbəs Topuş qızını kim yandırıb, nəymiş onun günahı? Günün günorta çağı evində oturduğu yerdə bu bəla hardan tuş gəlib ona? Ömrünün doxsanıncı aşırımında Topuş kişiyə kim göstərib övlad dağını? Adam da qadına əl qadırarmı? Adam da insan bədənindən ocaq çatarmı? Yox, səhv edirik. Bu vəhşiliyi törədən, sapsağlam bir insanı bir ovuc külə, kösövə döndərən adam deyil. Türk qanına susayan təpəgöz divin quldur balasıdır–ermənidir. O faşistdən də, goreşəndən də, quzğundan da betərdir. İllər boyu bu quduzların, qaniçənlərin xislətindən xəbərimiz olmayıb. Kimə neyləmişdi bu dilsiz, ağızsız qadın? Tale onu onsuz da yarıtmamışdı. Bəxt niyə sındırdı onu? Gözünü açandan öldüyü günə kimi ata ocağının hənirinə sığınmışdı. Atası Topuş kişinin dərd yoldaşı, qəm ortağı idi. Tanrıdan gördüklərini alın yazısı hesab edib toxtaqlıq tapırdı. Cəbrayıl şəhərinə ilk "qrad" yağışı yağanda doğma ata ocağını tərk edib heç yana getməmişdi.– Allahın yanında elə günahım yoxdu ha, ölümündən də qorxam–demişdi. Demə ölüm haqlıya, haqsıza fərq qoymurmuş yeri gələndə. Fərq qoysaydı Qızbəs bacıdan yan keçərdi. Ömrünün ixtiyar çağında bəyaz saçlarına qan çiləməzdi onun.

Ölümdə insaf olsaydı qıymazdı bu qadına. Ölümdə ürək olsaydı Topuş kişiyə bağışlayardı, Qızbəs bacını. Bu işdə ölümmü suçlu idi? Yox, ölümü o qədər də nainsaf bilməyin. Bu qadını doxsan ikinci ilin iyirmi doqquz



iyununda yandırıb kömürə döndərən ölüm deyildi, erməni nifrətinin odu, ocağı idi. Bu alov erməni kinindən, erməni hiyləgərliyindən güc almışdı. Hara düşürdüsə yandırıb yaxırdı o yeri. Ölümün də yaxşısı-yamanı, insaflısı, amansızı olur. Qızbəs bacının ürcahına çıxan bu ölüm şeytandan, cindən törəməydi. Nə vaxtdır ki, qanımıza yerikləyib bu ölüm. Bu ölümü Babək qeyrəti, Xətai qılıncı susdura bilər ancaq. Ehheyy, türk oğlu, qan qardaşımız, ayağa qalx, gözü yaşlı qadınlarımız, müqəddəs Azərbaycan torpağımız bizdən imdad diləyir. Bu məhşər ayağında ya qazi ol, ya şəhid...

# ATA HÜNƏRİNƏ SIĞINAN UŞAQ

**Zalov Zakir Hidayət oğlu
(15.11.1962-24.12.1991)**



Gəyən çölləriylə Topçaq düzünün qovuşduğu yerdə axarlı-baxarlı bir kənd var. Bakıdan Zəngilana qədər uzanıb gedən asfalt yol bu kəndin düz ortasından keçib gedir. Göyərçin Veysəlli adlanan bu kənd dünyanın düz vaxtlarında özünəməxsus acılı-şirinli günlərini yaşayıb. Yetmiş il ərzində bu kəndin yaddaşında iz salanlar da, bir gecəlik yuxu kimi unudulanlar da az olmayıb. Zaman-zaman təzələnib dəyişən bu kəndin təkcə bərk ayaqda bir-birinə həyan olmaq vərdişi dəyişilməyib. İllər boyu ağsaqqal zəkasına, ağbirçək sözünə söykənə-söykənə kökünü, soyunu, saflığını qoruyub-yaşayıb Göyərçin Veysəlli camaatı. İndi də Zakir adlı şəhid oğlunun bir elə sığışmayan adının işığına söykənir bu kənd. Zakirin adı indi hamının dilinin əzbəridir. Cəbrayılın Cocuq Mərcanlıdan Qazanzəmiyə qədər neçə el-obasında qeyrət simvoluna, and yerinə dönüb Zakirin adı.

Ömrünü-gününü balaların təlim-tərbiyəsinə sərf edən Səkinə müəllimə Zakirə, onun xatirəsinə göstərilən bu diqqətdən məmnun qaldığını bildirib:

– Zakir can-çiyərimdir–qaynım Hidayət müəllimin oğludur. Anası Göyçək bacıya mənə fərq qoymazdı. Uşaqlığı, gəncliyi gözlərimin qabağında keçən oğlanın xətrini dünyalarca istəyirdim. Uşaq vaxtı çox

dəcəl idi. Yaşa dolduqca ciddiləşdi–elə bil bulanmaz göl idi Zakir balamız. Ölümüylə sinəmizə çalın-çarpaz dağ çəkib getdi. Səkinə xanımın kövrəldiyi açıq-aşkar hiss olunur. Gözlərini silib söhbətinə yenidən davam edir:

– Sağ olsun qədir-qiymət bilən xalqımızı, bu cür igid oğulun adını qoymadılar yerdə qala. Direktoru olduğum G. Veysəlli kənd orta məktəbi bu ilin əvvəllərindən Zalov Zakirin adını daşıyır. Hər dəfə məktəbin girəcəyində onun adı yazılan lövhəyə baxanda elə bilirəm rəhmətliyin özüylə görüşürəm. Dərdli ata-anasını, yetim qalmış üç körpə qız balasını, otuz yaşa çatmamış boynubükük bənövşə timsallı həyat yoldaşını ovundurmağa çalışıram...

Hidayət kişi el-obanın yaddaşında əbədi ömür tapan şəhid oğlunun adına sığındığı gündən əsl ər dözümü göstərib, ürəyi göynəyə-göynəyə:

– Zakirim ölməyib ha,-deyir-Vətən yolunda şəhid olub. Lazım gəlsə torpağımızın bütövlüyü naminə bu yaşımda mən də canımdan keçməyə razıyam-təki Vətən yaşasın...

Ata dərdini, ana kədərini üstələyən bu sözləri eçidəndə Hidayət kimi ağsaqqalların qarşısında necə baş əyməyəsən. Harsın oğulları bu torpağa göz dikəndə unudublar ki, onun hər bucağında Dədə Qorduq kimi müdrik el ağsaqqalları, Babək, Cavanşir, Xatai timsallı oğullar yaşayır. Belə arxası olan Vətən, belə dayağı olan torpaq heç vədə yağıya baş əyən deyil...

Rayon Daxili İşlər şöbəsində Zakiri yaxından tanıyanların hamısı bu cəsarətli oğlandan iftixarla söz açdılar:

Polis şöbə rəisinin müavini podpolkovnik Vaqif Hüseynov:

– Zakir son dərəcə etikalı, yer-yurd bilən intizamlı oğlan idi. Bütün tapşırıqları vaxtında yerinə yetirirdi...

Polis serjantı Əli Xankişiyev:

– Zakirlə möhkəm dost idik. 1991-ci ilin aprel-may aylarında keçmiş Hadrut ərazisindəki ondan artıq kəndi erməni quldurlarından təmizləyəndə misilsiz hünər göstərmişdi. Gülləni gözünə sıxsan da qorxu nə olduğunu bilməzdi. O bu günümüz üçün çox lazım idi. Heyif ki, əcəl onu tez yaxaladı...

Polis mayoru Vaqif Zeynalov:

– Qardaş, siz allah inciməyin, danışa bilmirəm. Kaş polis yoldaşlarım Zahidin, Əsgərin, Faiqin, Kazımın, Zakirin... ölümlərini görməyəydim. Gül kimi oğullarımız vaxtsız-vədəsiz getdilər dünyadan...

Zakir Zalovun həyatının ilk illəri başqa şəhidlərimizin ömür yoluna bənzəyir. Orta məktəbi qurtarıb, iki il Almaniyada hərbi xidmətdə olub.



Vətənə qayıdandan sonra Sumqayıt şəhərindəki Kimya Texnologiyası texnikumunda təhsil alıb. Və bundan sonrakı həyatını xalqımıza, onun azadlığına, Vətən torpaqlarının qorunmasına sərf edib. Bakının Azadlıq meydanında millətin vətənpərvər oğullarının çıxışlarını dinlədikcə azadılğın necə böyük bir nemət olduğunu duyub-anlayıb. Ancaq bir həqiqəti yadında saxlayıb ki, azadlıq fərmanla verilmir-gərək onu dişinlə-dırnağınla qazanasan. Rus ordusunun Bakıda törətdiyi vəhşiliyi görəndən sonra SSRi adlı imperiyaya olan sonuncu ümidi də yoxa çıxıb. 1991-ci ilin martında rayon Daxili İşlər Şöbəsinin post-patrul batalyonunda serjant rütbəsi ilə xidmətə başlayıb. Andicmə mərasimində:

– Düşmənimiz çox hiyləgərdir. Onun güclü arxası, himayədarları var,-deyib-əgər bu torpağı özümüz canımızla, qanımızla qorumasaq məhvə məhkumuq...

Zakir verdiyi sözün üstündə möhkəm dayandı. Bundan sonra onun ömrünün son doqquz ayı səngərdə, döyüş mövqeyində keçdi. Hələ bərkə-boşa düşməyən cavan döyüşçülərlə bir yerdə olanda onlara:

– Çətini əlinə silah alıb səngərə sinincədir. Ondan sonra gözlə qaş arasında dayanan ölümdən qorxmaq heç yada da düşmür. Elə bilirsən ki, sığındığın səngər öz evindir, onu talançıdan qoruyursan. Bir də ki, Babək demişkən qırx il qul olunca bircə gün azad nəfəs almaq hər şeydən qiymətlidir...

Zakir həmişə ölümün üstünə cəsarətlə, kirpiyini belə qırpmadan gedirdi. Hərdən söz düşəndə "vallah, dığaların üstünə gedəndə rəngim-rufum açılır-deyirdi-Allah qoysa tezliklə onları qovub buradan ilim-ilim itirəcəyik...

Ancaq o günləri görmək demə Zakirə qismət deyilmiş. Bu çinar boylu oğul özünə ölümü yavıtmırdı. Demə erməni sifətli ölüm onu qarabaqara izləyirmiş. 1991-ci ilin dekabr ayının iyirmi üçündə Zakirgil Daşbaşı kəndində postda dayanmışdılar. Ermənilər qəfildən böyük canlı qüvvə və hərbi texnika ilə kəndə doluşdular. Zakir milli ordudan olan döyüşçü dostu Qasımov Çingizlə döyüş mövqeyi tutub düşməni göz açmağa qoymadılar. Ernənilərin daldalandıqları bir binanı atəş altda saxlaya-saxlaya Zakirgil buradakı quldurlardan bir neçəsini məhv etdilər. Döyüş zamanı düşmən əsgərlərindən biri Çingizi vurdu. Zakir dostunu öldürən qulduru qanına qəltan elədi. Bundan sonra mühasirədən çıxmağa çalışan Zakiri də vururlar. Özünü yetirən döyüş dostları Zakirin və Çingizin meyitinin düşmən əlinə keçməsinə imkan vermirlər.

Bu gün Göyərçin Veysəlli kəndində Zakirin igidlik rəmzinə dönən şəhid adıyla yanaşı üç fidan qız balası da yaşayır. Bu qızların ən kiçiyi Zakirə atasının ölümündən on beş gün sonra dünyaya göz açıb. Zakirə atasızlığın nə olduğunu hələ heç eyninə gətirmir. Böyüyüb atasının adını daşıyan məktəbdə oxuyanda bu qızcığaz Zakir Zalovun heykəlinin qarşısında fəxrlə dayanıb:

– Bu mənim atamdır, o, torpağımızı düşmənlərdən təmizləyəndə canından keçib. Mən onun adını yaşadıram-deyib şəhid adına sığınacaq.

## BİR OCAĞIN HƏRARƏTİ

**Zamanov Füzuli Qulu oğlu**
**(25.03.1966-16.08.1992)**



İyirmi altı il ömür sürmüşdü Füzuli bu dünyada. Nə az, nə çox iyirmi altı qış, iyirmi altı bahar. Əcəl aman vermədi ki, ömrünün iyirmi yeddinci qapısını açıb içəri keçsin. Buna əcəl demək də düzgün deyil, əcəl özü yaxşı bilir nə etdiyini. Kimin vaxtı nə vaxt çatıbsa əzrayılın fərmanıyla kəsdirir başının üstünü, şəhid ölümündən əcəlin xəbəri olmur deyirlər. Bu ölümü insan özü qazanır. Bu ölüm tanrı dərgahından yol gəlir üzü bəri. Bu ölüm əsl kişi ölümüdür. Babək, Nəsimi ölümüdür. Bu ölümdən sonra yaşayır insan ikinci ömür payını. Bu ölüm qeyrətlilərin, torpaq sevgisi, yurd istəyi olanların alın yazısıdır. Bu ölümə qovuşanlar ömrün şəhidlik zirvəsinə ucalırlar. Bu ucalıq hər yetənə, hər yoldan keçənə qismət olmur...

Balyand kəndinin şəhid balası Füzulinin də bəxtinə düşüb bu şərəfli ad. Füzuli öz şəhid adıyla təkcə ata ocağına şərəf-şan gətirməyib. Bu addan Balyanddakı ulu yurd yerlərinə də, çınqı-çınqı od-alov düşüb...

Heç kəs anadan qəhrəman doğulmur deyiblər. Məqamı gələndə bircə anın içərisində hamı qəhrəman ola bilər. Bu şərtlə ki, gərək ölümün üstə gedəsən, ondan bircə tikə də qorxmayasan...

Zamanov Füzuli Qulu oğlu ömrünün düz iyirmi beş ilini adi bir insan



kimi yaşayıb. Yaşıdları kimi orta məktəbi qurtarıb. Halal ruzi sorağıyla 1984-cü ildə Ağdamdakı sürücülük kursunu bitirib. Sonra da düz iki il Vətəndən uzaqlarda, imperiya ordusunda canı-dildən qulluq edib. Əsgəri xidmətdə olduğu illərdə Qorbaçovun xalqlara göz yaşı, müsibət gətirən yenidənqurması təzə-təzə ayaq açırdı bəşəri dəyərlərin üstünə. O vaxtlar Füzulinin yatsaydı yuxusuna da girməzdi ki, Surun güneyindən həftədə iki-üç yol düşüb evlərinin yuxarı başında əyləşən Samvel kişi, onun törəməsi belə namərdlik edə. Axı, Füzuli dönə-dönə eşitmişdi Samvel köpəyoğlu - nun, atası Qulu kişiyə dil-ağız eləməyini. Hər dəfə yağsız araba təkəri kimi səs çıxaran Samvel üzü yoxuşa qalxmazdan qabaq özü kimi dünyanı yorub-yortmuş ulağın üstündəki paya-bəxşişə işarəylə:

– Qulu kirvə, süfrənizə bərəkət, siz olmasaydınız, indi çoxdan o dünyalıq idik. Köç-külfətimin ruzusu sizdən bərəkət tutub-deyərdi.

Bax o çörəyi dizinin üstə olan Samvel köpəyoğlunun oğul-uşağı atdan, itdən törəyən soydaşları torpaqlarımıza göz dikdilər, o yenidənqurma deyilən illərdə. Onda SSRİ deyilən o şər ölkəsində bircə nəfər yüksək vəzifə adamı ortaya çıxıb o xallıbaş Qorbaçova demədi ki, bu ölkənin azadlığı naminə milyonlarla insan Qafqaz dağlarından tutmuş Berlinə kimi canlarından keçiblər. Ay arvadağız nakişi, yığ bu ermənilərin ipini. O sözləri deyən tapılmadı o illərdə. Stepanakertdə, Hadrutda,Əsgəranda qana-qan deyən ermənilər dillərini uzatdılar. Yerevanın Teatr meydanı iblis yığnağına çevrildi. İki yüz əlli mindən artıq soydaşlarımız dədə-baba yurdlarından qovuldular...Onda qabarlı əlləri bir parça çörəyə təzəcə çatmışdı Füzulinin. Əvvəlcə Cəbrayıdakı 67 №-li PMK-da qaynaqçı işləyirdi. Sonra iş yerini dəyişib Füzuliyə getmişdi. Buradakı avtobazada işləyirdi. Yaxşı da xətiri, hörməti var idi. Axşamlar işdən qayıdanda bacıları Gülzarı, Esmiranı, qardaşları Elşəni, Səyyafı xoş dillə dindirərdi. Ana Taybəs bacı özünü dünyanın ən bəxtəvəri hesab edərdi belə günlərdə. 1991-ci ildə Kəmalə adlı bir el-qızı ilə ailə həyatı qurmuşdu. Oğlunun toy günündə Taybəs ana, Qulu kişi doyunca sevinib şadlanmışdılar. Tale bu sevinci də onlara çox gördü...

1992-ci ildə may ayında torpaqlarımızın harayı Füzulini də Cəbrayıl - dakı hərbi hissəyə gətirdi. Əvvəlcə Taybəs ana Füzulini niyyətindən daşındırmağa çalışmışdı onda.

– Boyuna anan qurban, heç olmasa hələ qırxı çıxmayan Samirə balana yazığın gəlsin. Onsuz da işdən vaxt tapan kimi postlara-əsgərlərin yanına qaçırsan. Sən getməsən dünya dağılmaz ki... Böyük qardaşın Elşən də

ordudadır. Elə hesab et ki, sənin də əvəzindən vuruşur...Füzuli bütün varlığıyla etiraz etdi:

– İncimə ana, ömrümdə birinci dəfədir ki, sözünə qulaq asmıram. Bağışla məni, belə ağır gündə o dumanlı dağlardakı nəm səngərlərdə dayananların yanında olmasam bu torpaq mənə halallıq verməz. Sevimli şairimiz Məmməd Araz demişkən:

*"Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim..*

Və bundan sonra ikinci dəfə əsgərlik həyatını yaşadı Füzuli. Bu dəfə Vətənimizin müstəqilliyini qorumaq üçün əlinə silah götürdü... Füzulini bütün ürəyi ilə sevən əmisi Zaman müəllim indi ondan kövrələ-kövrələ söz açır.

– Ortaboylu, enli kürəkli bir oğlan idi. Cəld, iti yerişi varıydı. Füzulinin. Döyüş mövqelərinə, postlara gedəndə deyirdin bəs toya yollanır. Həmişə canıdildən dayanırdı keşikdə. Sur əməliyyatında da iştirak edib sağ-salamat qayıtmışdı geriyə. Görünür onun tanrıdan əli üzülməmişdi hələ. "Şiş qaya" əməliyyatı keçirilən gün Surdakı postda idi. Bu döyüşdə iştirak etməyə də bilərdi. Ancaq Surda daldalanıb qalmağı qeyrətinə sığışdırmadı. "Ağ yol" səmtində erməni quldurları ilə atışa-atışa dağın zirvəsinə tərəf irəlilədi. Şəhid olmazdan qabaq əsgərlərimizlə birlikdə neçə-neçə qulduru aradan götürdü. "Şiş qaya"nın güney üzündən Elşənlə, Savalanla və digər qeyrətli cavanlarımızla birgə şəhid oldu...

– Avqustun 16-da, əməliyyatdan bir gün sonra meyitini ermənilərdən geri ala bildik. Namərdlər onun ağzındakı qızıl dişlərini çıxartmış, bir qıçını kəsmişdilər. Baxanda adamın başının tükü biz-biz olurdu-bu sözləri də Füzulinin əmisi Zaman müəllimlə birlikdə yanımıza gələn Balyand kəndinin yerli hakimiyyət başçısı Baxşalıyev Yanvar deyir...

Kəndin ağbirçəyi Tamara nənə Füzulinin cənazəsi üstə ağını-ağıya çaladı o vaxtlar:

*Bu dağda daş qalmadı,*
*Yuvada quş qalmadı.*
*Sənə ağı deməkdən,*
*Közümdə yaş qalmadı.*



*Bu torpaq ana torpaq*
*Gələydi cana torpaq*
*Füzulim şəhid olub-*
*Boyanıb qana torpaq...*

Füzulinin həmyerliləri Balyand kənd xəstənasına onun adını veriblər nə vaxtdı. Bu şəhid oğlan indi özünün ikinci alın yazısını, ikinci ömür payını yaşayır. Bir vaxtlar arzu edirdi ki, yurdumuzun başı üstündən duman-çən dağılsın. Düşmənə qalib gələndən sonra ata ocağında ev-eşik tikib çıraq yandırmaq istəyirdi Füzuli. Arzusuna çata bilmədi. Ölüm aman vermədi ona. Böyüyəndə Samirə yandıracaq atasının işığını: Şəhid atanın ruhu sevinəcək onda. Bir ulu ocağın hərarəti bir az da artıb çoxalacaq. Əbədiyyətə qovuşan Füzulinin ürəyi döyünəcək həmişə bu ocaqda...

## DƏRD VAR Kİ, DÖZMƏK OLMUR

**Zeynalov Şərbaz Allahqulu oğlu.**
**(1970-15.08.1992)**



Hər dəfə yolumuz Bakıya düşəndə torpa - ğımızın azadlığı üçün ölümün üstünə yeriyən oğullarımızın uyuduqları "Şəhidlər Xiyabanı"na baş çəkir dünyadan nakam gedən vətən övladlarına xitabən:

– Qəbriniz nurla dolsun, qalan igidlərimiz torpağınız sanı yaşasınlar, – deyirik. – Siz bu yurdun azadlıq toxumusunuz, ürəyimizdə məzar-məzar göyərirsiniz...

Burda, müqəddəs ruhların uyuduğu bu yüksəklikdə ürəyimizi şəhid oğullarımızın əvəzsiz itgisi göynədir, çınqı-çınqı yandırır. Burda güvənc yeri bildiyimiz oğulların məzarları da əsgər sırasına bənzəyir. Torpağımızın harayına səs verib neçə eldən, obadan səfərbər olan oğullar elə bil "Şəhidlər Xiyabanında cərgəyə düzülüb yurdumuzun Laçın, Şuşa, Xocalı sitəminə son qoymaq üçün yola çıxırlar. Burda el-elə, yurd-yurda söykənib. Bu müqəddəs məkanda uyuyanlar içərisində bizim Cəbrayılın da igid oğulları var. 20 Yanvar qırğınında

sinəsinə imperiya əsgərinin gülləsi sancılan Səxavət Quliyev, Şişqaya əməliyyatında mənfur erməni mərmisindən həlak olan Sərbaz Zeynalov... bu müqəddəs torpaqda uyuya-uyuya ana-bacılarımızın göz yaşlarından doğulan ağılarda yaşayırlar...

Sərbazın, onun ailə üzvlərinin qəribə taleyi, bənzərsiz alın yazısı var. Onlar 1970-ci ilə kimi Cəbrayıl rayonundakı Sofulu kəndində yaşayıblar. Sonra o vaxtkı dünyanın düz vaxtlarının ovqatına sığına-sığına Ermənistan Respublikasının Sisiyan (Qarakilsə) rayonundakı dədə-baba torpaqları Ərəfsə kəndinə üz tutublar. Təbiətən zəhmətkeş olan Allahqulu kişi buradakı həmyerlilərinin köməyi ilə özünə gün-güzaran, ev-eşik düzəldib. Zərifə bacı balalarının xoşbəxt böyümələri üçün dişiylə-dırnağıyla ruzu qazanıb. Onda hələ Sərbazın bircə yaşı varıydı. Onda hələ Sərbaz xoşbəxt uşaqlıq dünyası ilə əhatə olunmuşdu. Sərbaz böyüdükcə anladı ki, dünyada hər şeydən əziz, alınıb-satılası mümkün olmayan torpaq adlı bir müqəddəslik var. Bu müqəddəslik bütün istəklərdən, bütün sevgilərdən uludur-ucadır. Sərbaz özlüyündə yəqin etdi ki, ata-anasını Cəbrayıldan çəkib Ərəfsəyə gətirən də elə bu yurd istəyi, Vətən yanğısıdır...

Sərbaz Zeynalov Ərəfsədəki orta məktəbdə oxuya-oxuya ailənin işinə-gücünə də əl atdı, zəhmətin, halallığın dadını hiss etdi, anladı. Və böyüdükcə bir də onu anladı ki, dünənə qədər onlarla dinc qonşuluq edən Aşot, Mkırtıç kirvələr günbəgün onları burunlayır, dədə-baba torpaqlarından iraq salmağa çalışırlar. Öz gözləriylə gördü ki, yenidənqurma deyilən imperiya havası erməniləri havalandırıb, onlar daha əvvəl gördükləri deyil... Elə bu nigarançılıqla da 1987-ci ildə Rusiyada hərbi xidmətə başladı. 1988-ci ildə Sərbazgilin ailəsi erməni tuğyanına dözə bilməyib qarlı-boranlı havada dədə-baba torpaqlarından baş götürüb Azərbaycana pənah gətirdilər. Sərbaz hərbi hissədən qayıdandan sonra bir neçə gün ailə üzvlərini soraqladı. SSRİ adlı imperiyaya inamı itən, zəhmətlə tikdiyi ev-eşiyi əlindən çıxan ailə üzvlərini Əhmədli qəsəbəsində tapdı. Daha ağlamağın-sıtqamağın yeri deyildi. Sərbaz qollarını çırmayıb ailənin dayağında durdu. Gecə-gündüz işləyib ruzu qazandı..

Bir vaxtlar doğulduğu Cəbrayılın darda olduğunu eşidəndə:

– Orda qohumlarımızın, el-obamızın yaşadıqları torpaqlara erməni vəhşilərinin göz dikdikləri bir gündə mənim kimilərin yeri səngərdir– deyib – Cəbrayıla – könüllülərin batalyonuna gəldi...Sərbaz imperiya ordusunda xidmət edəndə bərkə-boşa az düşməmişdi. Elə ona görə də Cəbrayılın müdafiə postlarının möhkəmləndirilməsində əlindən gələni edir, döyüşlərdə düşmən hücumlarını dəf edəndə yoldaşlarına ürək-dirək verirdi. Arzusu



müharibə qurtarandan sonra toy edib evlərinə sevinc-fərəh gətirmək idı. Hərdən döyüşçü yoldaşlarına:

– Allah qoysa, toyumu Cəbrayılda edəcəyəm ki, hamınız gələ biləsiniz-deyirdi. Xəlvətə düşəndə döş cibində, ürəyinin başında əzizlədiyi sevdiyi qızın şəkilinə dönə-dönə baxardı....Onu yaxından tanıyan, cəsarətinə, qeyrətinə bələd olan ordumuzun Cəbrayıl hissəsinin zabiti S.Mirzəyev:

– Sərbaz Zeynalov intizamlı, qətiyyətli gənc idi. Postlara ürəklə gedirdi. Gözündən heç nə yayınmazdı. Yaxşı, sərrast atıcı idi. Tapşırıqlara canla-başla əməl edirdi. Heyif ki...

Heyf ki, amansız ölüm Sərbazı tez yaxaladı, ona öz sözünü axıra kimi deməyə imkan vermədi. 1992-ci ilin 15 avqustunda Şişqaya əməliyyatında yaralı döyüşçü dostunu atəş altından çıxarıb düşmən mövqeyinə tərəf sürünəndə özü də şəhid oldu. Yaxın qohumlarının və anası Zərifə bacının istəyilə Sərbazı "Şəhidlər Xiyabanı"nda dəfn etdilər. Zərifə bacı istəkli oğlunun cənazəsi üstündə üz-gözünü didə-didə:

– Balama qurban olum, -dedi-onu qoy əlim çatan yerdə dəfn etsinlər ki, hər gün görüşünə gələ bilim..

Sərbazın qırxı çıxandan sonra Zərifə ana Cəbrayıla gəlib:

– Məni balamın həlak olduğu yerə aparın, oranı balamın qanı tökülən o torpağı gözlərimə köçürüm.-dedi.

Zərifə bacının istəyinə əməl etdilər. Ona Şişqaya yamacında, oğlunun qanı axan yeri göstərdilər. Zərifə ana oğlunun son harayı hopan torpağı dönə-dönə öpüb:

– Balamı son nəfəsdə bağrına basan Vətən torpağına qurban olum,-dedi-sonra göz yaşları içərisində:-igidlərim, amandır, qoymayın yoldaşla - rınızın qanı tökülən torpağa murdar düşmən nəfəsi dəysin!

1988-ci ildən bu yana Cəbrayılan ağrılı-acılı yaddaşında Sərbaz adlı bir eloğlumuzun da xatirələri yaşayır. Bu xatirəyə şəhidlərin adlarını gözləri üstə yaşadan el-oba məhəbbəti tumurcuq-tumurcuq göyərir. Bu istəkdən əbədi bir kövrəklik boylanmaqdadır:

*Gülləri üzmək olmur,*
*Yollara düzmək olmur.*
*Sərbazım nakam gedib-*
*Dərd var ki, dözmək olmur.*

## O GÜNAHSIZ İNSAN İDİ...

**İbrahimova Rəfiqə Musa qızı**
**(08.03.1948-31.08.1992)**



– Anamın heç bir günahı yox idi. Ermənilərə pisliyi-zadı da keçməmişdi. Onu həyətimizdə qanına qəltan elədilər. Allah, anamı o halda görəndə niyə gözlərim kor olmadı-bu sözləri göz yaşları hələ də qurumayan Afaq demişdi bizimlə görüşəndə.

– Rəfiqə bibim mələk kimi qadın idi. Sözündən inciyən-küsən olmamışdı ömrü boyu. Kəndimizdən üst tərəfdə yerləşən Sur ermənilərinə o qədər yaxşılığı keçmişdi ki, saymaqla qurtarmaz. Xəstələrinə dava-dərman vermişdi, diləyə gələnlərinə əl tutmuşdu. Elə o Sur xarabadan atılan "Qrad"la da qətlə yetirildi bibim-bu sözləri də Natəvan deyir-Milli Qəhrəmanımız Aslanov Şikarın bacısı Natəvan.

– Rəfiqənin ölümü belimi qırdı, yeddi balamı boynuburuq, gözüyaşlı qoydu. Tay, ovundura bilmirəm onları. Nə deyim ki, ovunsun, toxtaqlıq tapsın bu tifillər. Bu, ölüm deyildi, zülüm idi-allah heç kafirə də göstərməsin. Rəfiqədən sonra evimin-eşiyimin nizami elə pozulub ki, inanmıram bir də düzələ.-Adışirin kişinin bir dünyalıq dərdinin "qəlpələri"dir bu sözlər. Dinlədikcə adamı dirigözlü yandırır. Oğulsan döz görək bu aləmə, bu müsibətə...

Natəvan deyir ki, Rəfiqə bibim Şikarın yolunda şəhid oldu. Qağam öləndən sonra özünü-sözünü bilmirdi. Yalvarırdıq ki, "bibi, nə olar sən də yığış başqaları kimi mənzilindən uzaqdakı Arazboyu kəndlərimizə get". Bizə sözü bu olurdu ki, "dişimlə-dırnağımla tikdiyim evimdən hara gedim?"Mənə deməzlərmi ki, Şikar kimi oğulun sovxasını ortada qoyub hara gedirsən?"...

Ötən ilin yayında erməni faşistləri "Şayaq"dan Süleymanlını "Qrad" yağışına tutanda kənddən çıxmayanlardan biri də Adışirin kişinin ailəsi idi. Əslində qadınlardan, qocalardan və bir də uşaqlardan başqa əli silah tutanların hamısı öz doğma ocaqlarında idilər. Camaat yurd yerini və bir də bu elin şəhid oğulları Şikarın , Hümbətin, Pəhlivanın hələ hərarəti soyumayan məzarlarını qoyub gedə bilməmişdilər. Qışlaqdan bir az üzü yoxuşa səngərlərə sığınıb düşmənin yolunu kəsən igid əsgərlərimizə arxa-dayaq idi bu oymağın camaatı. Ən çətin anda belə kəndi tərk etməyi onlar heç ağıllarına da gətirmirdilər...



O yay səhərində sübhün gözü yenicə açılmışdı. Afaq deyir ki, səhər-səhər həyətimizdə hərəmiz bir işlə məşğul idik. Həyat-bacanı süpürənimiz də, toyuq-cücəyə dən səpənimiz də, malları örüşə ötürənimiz də, əl-üzünü yuyanımız da var idi. Birdən elə bil yer-göy lərzəyə gəldi. Həyətimizə qəlpə yağışı yağanda anam qışqırıb bizə tərəf yüyürdü. Heç iki-üç addım atmamış göydən dolu kimi yağan qəlpələr onun qollarına, sinəsinə sançıldı. Sonuncu harayı dodaqlarında donub qaldı anamın...

Nə idi bu qadının günahı? Ömrünün qırx dördüncü dolayında dünyadan ahu-zarlı getdi. Evində, eşiyində oturduğu yerdə bu musibət gəldi başına. Körpə, fidan balaları Afaqın, Şəfəqin, Şəhlanın, Almazın, Elnarənin, Aynurənin və bir də adar-madar Elnurun üzünə doyunca baxa bilməmişdi hələ. Nə qız köçürmüşdü, nə də oğul toyu görmüşdü. Hələ çox vardı bunlara. Yaşasaydı hamısını görəcəkdi. Faşist erməni sifətli ölüm aman vermədi Rəfiqə bacıya...

Tanrının ən dinc bəndəsiydi bu qadın. 1969-cu ildən qonşuluqdakı Qışlaq kəndini erməni quzğunları dağıtdığı günə kimi orada tibb bacısı işləmişdi. Çox mülayim, dilli-dilavər bir gəlin idi Rəfiqə bacı. Köməyini kimsədən əsirgəyən deyildi. Bir vaxtlar Surda yaşayan ermənilərin də ümid yeri idi. Onların xəstələrinin harayına az çatmamışdı. Həmişə deyərdi ki, "sən balığı at dəryaya, balıq bilməsə də xalıq biləcək". Xaliq yaxşı bilirdi Rəfiqə bacının gözəl niyyətdə olduğunu. Elə kənd camaatı da yaxşı tanıyırdılar onu. Bircə onun yaxşılıqlarını unudan ermənilər idi, onların qançıq südü əmən dığaları idi. Onlar əl qaldırdılar qadına, atdıqları mərmiylə görünməmiş bir vəhşiliklə qətlə yetirdilər onu. Nəydi bu qadının günahı, bilən olmadı. Düşmən caynağında inləyən Şuşanı, Laçını, Xocalını, Malıbəylini... çox sevirdi, lap çox. Bir də evində oturub hələ-qırxı çıxmayan şəhid həmyerlisini ağlayırdı. Belə "günaha" görə də adamı öldürərlərmi ilahi? Niyə daş yağdırmadın bu ermənilərin başına bu müsibətdən sonra? Türk oğlu, qan qardaşımız, bu müsibəti görəndən sonra gərək qılınc tutan əlin titrəməsin. Burdan belə tay aman yoxdu bu zatıqırıq harsın oğullarına...

Hər səhər dan yeri sökülənə yaxın Süleymanlı kəndində tifaqı dağılan bir ailə ocağında yetim qalan yeddi uşağın ah-naləsi İbrahimova Rəfiqə

Musa qızının gor evinə də gəlib çatır. Onun ruhunu yandırıb yaxır:

*Ay gedib batmaz, allah,*
*Dərdlilər yatmaz, allah,*
*Anamıza bir daha-*
*Əlimiz çatmaz, allah!..*

Deyirlər yetim ahı, yetim qarğışı yerdə qalmaz. O daşa dönüb yağar düşmənin başına. Təki bu günü görək, tez qurtaraq bu baladan, ilahi!....

## BİR ELİN ARXASI



**İsmayılov Məhəmməd Fətullah oğlu (01.04.1930-28.03.1992)**

Deyirlər uşaq atasını, qadın ərini (həyat yoldaşını ürəkdən sevən qadın) dünyada hamıdan, güclü, hamıdan qüdrətli hesab edir. Məhəmməd kişi on uşağının, ömür-gün yoldaşı Fatma bacının nəzərində mehriban, zabitəli-ötkəm bir ata, həssas ürəkli bir kişiydi. Bu kişi bir-birinin dalınca dünyaya gələn uşaqlarına bir gün ağlamaq üçün ömrünün axırına kimi özünü oda-közə vurmuşdur. Halallığınan on uşaq böyütmək hər kişinin hünəri deyil. Bu ağır yükün altında gərək dayanmağı, durmağı bacarasan. On uşağın ağzını bir yerə yığmaq, onları vətən üçün gərəkli böyütmək adamdan qeyrət, təpər istəyir. Bu boyda külfəti dolandırmaqçün gərək əzəb-əziyyətə, ağrı-acıya tablaşmağı bacarasan. Məhəmməd kişi yaxşı bacarırdı bunları. Ömür-gün yoldaşı Fatma bacıyla birgə çox məhrumiuyyətlər görmüşdü, neçə-neçə dərdlə üz-üzə durmuşdu. Həyat onu qaya kimi bərkitsə də ürəyi yuxaydı. Öz dərdi-qəmi bir yana, özgə nisgilinə belə dözə bilmirdi. Allah belə yaratmışdı, belə xəlq etmişdi Məhəmməd kişini...

1930-cu ilin aprelində Şıxlar kəndində göz açmışdı dünyaya. Bu kənd illər boyu quldur yuvası Dolanlar ermənilərindən çox zillət görmüşdü. Şıxlar camaatı yurd yerinə, doğma od-ocağa çox bağlıdırlar. Torpaq onlarçün ruzudur, yurd-yuvadır, gor evidir-namus-qeyrətdir. 1988-ci il



hadisələri başlayanda kənd adamları öz torpaqlarının müdafiəsinə qalxdılar. Kəndin Dolanlarla sərhədlərində postlar quruldu, səngərlər qazıldı. Məhəmməd kişi də, onun əli silah, bel tutan balaları da iştirak etdi bu işdə. Düz iyirmi beş ildən artıq idi ki, Sirik kənd rabitə şöbəsinin rəisi işləyirdi Məhəmməd kişi. Yaşadığı kənddə, onun hüdudlarından kənarda böyük hörmət sahibi idi. İllər gəlib keçdikcə ərsəyə çatan balaları ata ocağına daha ürəkdən bağlanırdılar. Görünür taleyin də hardasa insafı olurmuş. O imkan vermişdi ki, Məhəmməd kişi böyük uşaqları Ələkbəri,Tahiri, Sabiri və bir də Məryəmi ev-eşik sahibi kimi görə bilsin. Torpaqlarımıza diş qıcıdan erməni quldurları olmasaydı o ata bəxtəvərliyini, baba ömrünün şirinliyini yaşayacaqdı. Namərd ölümlə üz-üzə gəlməsəydi Kazıma, Arifə, Mehmana da gün güzəran düzəldəcəkdi. Ondan sonra məktəbli balaları Məhərrəmin, Ələsgərin və Zibeydənin işlərini sahmana salacaqdı. Ancaq bu işləri görmək Məhəmməd kişiyə qismət olmadı. Görünür alın yazısı, tanrı məsləhəti beləymiş...

Torpaqlarımızın müsibətli günləri başlayanda Cəbrayılın qeyrətli oğulları ayağa qalxdılar. 1991-ci ilin mayında rayon Daxili İşlər Şöbəsi əməkdaşlarının igidliyi sayəsində keçmiş Hadrut rayonunun bir sıra kəndləri erməni quldurlarından təmizləndi. Bu kəndlərin içərisində daşnaq yuvası Dolanlar da var idi. Bir neçə il əvvəl Yerevandan buraya xüsusi məqsədlə göndərilən Valerik adlı bir daşnağın başçılığı ilə ermənilər Dolanları alınmaz qalaya çevirmişdilər. vaxtlar Məhəmməd kişi kənd camaatını başına toplayıb:

– Ehtiyatı əldən versək ev-eşiklərimiz, torpaqlarımız bir yana, dədə-baba qəbiristanımızı bu goreşənlər dağıdacaqlar-dedi. Gərək birimiz də ayağımızı kənara qoymayaq. Ya hamımız öləcəyik, ya da düşməni yaxına buraxmayacağıq...

Dolanlar kəndinin ermənilərdən təmizlənməsində Şıxlar, İsaxlı camaatı da yaxından iştirak etdilər. Erməni quldurları igidlərimizin qarşısında duruş gətirməyib Ziyaratın o üzündən köhnə Tağlar kəndinə çəkildilər. Rayondakı DİŞ-in o vaxtkı rəisi Rəşid Məmmədov Dolanlar azad olanda Şıxlar camaatına üzünü tutub:

– Cəbrayılın əzəli torpağını, yurd yerlərini igid oğullarımızın hünəri sayəsində geri qaytardıq. İndi əsas işimiz onları əldə saxlamaqdır. Məhəmməd kişi o zaman kənd camaatı adından danışıb:

– Yüz altmış ildən sonra ulu torpağımız Dolanlar təzədən özümüzə qayıtdı-dedi. Bir vaxt dədə-babalarımız onu İrandan köçüb gələn

ermənilərə vermişdilər. Özlərinə yer eləyəndən sonra bizimlə torpaq davasına başladı bu namərdlər. Tay gərək bir də ürəyiyumşaqlıq edib aldanmayaq...

Məhəmməd kişi bir də onu dedi ki, innən belə Dolanlardakı postda keşik çəkən oğullarımıza gərək arxa olaq, onları korluq çəkməyə qoymayaq....

Məhəmməd kişinin məsləhəti ilə kənd adamları növbəylə Dolanlara gedib buradakı qeyrətli oğullarımızın qayğıları ilə tanış olur, onlara kömək əli uzadırdılar. 1992-ci ilin mart ayının 28-də Məhəmməd kişi üç nəfər yoldaşıyla birlikdə Dolanlardakı cavan döyüşçülərə baş çəkmək üçün "KAMAZ"la ora yollanmışdılar. Məhəmməd kişinin oğlu da burada Vətən torpağının keşiyini çəkirdi. Özləriylə xeyli ərzaq, siqaret də aparırdılar. Bu dəfə Dolanlara çatmaq Məhəmməd kişiyə qismət olmadı. Kəndin girəcəyində düşmənin gizlicə basdırdığı minaya düşüb həlak oldu. Torpaq ömrünün ahıl çağında şəhid olan İsmayılov Məhəmməd Fətullah oğlunu da bağrına basdı. Böyük bir ailənin nizamı pozuldu. Neçə oğul-qız atasız, neçə uşaq babasız qaldı. Məhəmməd kişi oğullarının çiynində dünyadan getmək istəyirdi. Onun qanlı tabutundan bir el yapışdı. O bu elin arxasıydı. Bu el indi də onun şəhid adını əzizləyir, yadında saxlayır...



# ONU UNUTMAQ OLMUR

**Kərimova Səmayə Qiyas qızı**
**(1935-31.08.1992)**



– Yazıq mələk kimi qadın idi. Heç kimə pisliyi keçməmişdi. Bir evin qayğısını çiyinlərində daşıyırdı həmişə.

– Tanrı bircə övlad vermişdi. Bakıda yaşayan oğlundan, nəvələrindən ötrü burnunun ucu göynəyirdi rəhmətlik Səmayənin. Ölüm aman vermədi ki, son dəfə balalarıyla görüşüb dünyasını dəyişə..

– Eh, rəhmətliyin nəvəsi, nə qoyub, nə axtarırsan. Kimin ağlına gələrdi ki, günün günorta çağı sapsağlam bir arvad erməni bəlasına tuş gələcək...

– Yazıya pozu yoxdu bajı,-bir gün yaranan bir gün də öləcək. Allah betərindən saxlasın, çəkiləsi dərd deyil...

Bu dərdi çəkmək hər adamın işi deyil. Bu dərdə hər oba tab gətirməz. Qarabağın, Laçının, Şuşanın, Xocalının, Cəbrayılın... taleyinə düşüb bu dərd. O taylı bu taylı bütün Azərbaycanın taleyindən keçir bu ələm, bu nisgil. Borçalıdan tutmuş Diyarbəkirə qədər bütün türk dünyasını yandırıb yaxır bu dərd. bu yanğı...

O gün başımız üstündəki göy, ayağımız altındakı yer od tutub yanırdı. Cəbrayıldakı evlərin "başından" burum-burum tüstü qalxırdı elə bil. Şayaqdan atılan "qradlar" yağırdı bu yarlı-yaraşıqlı şəhərin üstə. Ölümdən qaçmaq sadəcə olaraq mümkün deyildi o gün. Hara qaçacaqdın? Ömrü boyu yurd-binə bildiyin isti ocaqdan o yana didərginlik həyatı başlayır. Allah heç kimə qismət eləməsin didərginliyi...

Səmayə bacı bu adı üstünə götürmək istəməmişdi. İstəsəydi gedərdi Bakıya-oğlunun, nəvələrinin yanına. Oğlu anasından bezməmişdi ki, ..Getsəydi sevindirərdi gül üzlü nəvələrini. Ancaq gedə bilməmişdi. Ayrıla bilməmişdi doğma yurd yerindən. Demişdi ki, ölsəm də elə bu torpaqda öləcəyəm. Bahardan payıza əkib becərdiyi bir parça torpağı qoyub gedə bilməmişdi. Bilirdi ki, ayağını çölə qoyan kimi rəngbərəng güllər, çiçəklər doluxsunub üşüyəcək, ağacların yarpaqları solub saralacaq, tənhalıqdan üşənəcək həyət –baca. Bilirdi ki, balıq susuz yaşaya bilmədiyi kimi o da bu torpaqdan, bu eldən uzaqda yaşaya bilməz. Gücü çatmazdı buna, dö-

zəmməzdi bu ayrılığa, bu yurd həsrətinə. Tez-tez Bakıyla-nəvələriylə zəngləşib danışırdı. Oğlu, gəlini Cəbrayıldan ayıra bilmirdilər onu. Deyirdi ki, bircə gün Dədə Çinarın, o büllur kəhrizin üzünü görməsəm bağrım çatlayar. Yamacdakı evlərindən üzü aşağı boylananda şəhərin gözəlliyini seyr etməkdən doymurdu Səmayə bacı...

Çox gülərüz, zarafatcıl bir qadın idi. Elin dərdini özününkü bilirdi. Nə toylardan, nə yas yerindən qalardı. Cəmisi əlli yeddi il yaşamışdı bu dünyada. Əlli səkkiz yaşının astanasına çatmamış yaşadığı evin həyətində nurlu sifəti, bəyaz saçları qana boyandı. Şəhid oğullarımızın ölümünə çox vaysınmışdı, göz yaşı axıtmışdı. Tanrı onun özünü də belə ölümlə "görüşdürdü". Yurdunu ürəkdən sevdiyindən onun qanını axıtdı namərd erməni faşistləri...

1992-ci ilin otuz biri avqustunda Cəbrayıl torpağı od tutub yanırdı. Yer-göy üz-üzə gəlmişdi elə bil. Həmin günü xatırlayanda nahaqdan gündaza gedənlərin cərgəsində Kərimova Səmayə Qiyas qızının da adı düşür yada. Və bu günahsız ananın taleyindən bir nisgil, bir giley boylanır dünyamıza...



# MƏRCANLININ İLK ŞƏHİDİ

**Məmmədov Kazım Ərşad oğlu (10.10.1969-15.11.1991).**



Böyük Mərcanlı camaatı dövri-qədimdən sayılan-seçilən olub. Kənd adamları indinin özündə də qonaq-qara üçün axırıncı tikəsini verməyi, dara düşənə arxa olmağı müqəddəs borc hesab edir. Köhnə kişilərin qoyub getdikləri halallıq anlayışı kənd adamlarının canına-qanına hopub. Mərcanlı duz-çörəyiylə və bir də dosta sədaqətli oğullarıyla tanınır bu torpaqda. Cəbrayılda söz düşəndə: Mərcanlılar varından keçər, ancaq bir qarış torpağını əldən verməz deyirlər...

Bəlkə də elə buna görədir ki, 1988-ci ilin fevral hadisələri başlayanda kənd camaatı torpaqlarımızın qorunması üçün elliklə ayağa qalxdılar. Bir vaxtlar Sisiyan rayonu ərazisindəki "Pəni", "Erkəkala", "Qısır", "Hacı Bayram yurdu", "Qəbirli" adlı yaylaqları əldən çıxanda torpaq itgisinin nə olduğunu görmüşdü kənd adamları. "Topxana" harayından sonra kəndin qeyrətli oğulları ilk özünümüdafiə dəstələrinə üz tutdular. Belə igidlərdən biri də Məmmədov Kazım idi. Kazım halal zəhmətin nə olduğunu uşaqlıqdan duyub anlamışdı. O vaxtlar Ermənistandan qovulan yurddaşlarımızın başlarına gələn müsibətləri eşitdikcə Kazım qəzəbindən özünə yer tapmırdı. Onda hələ Kazım qırmızı ordunun sıralarında idi. Bakıdakı 20 Yanvar qırğınını da o, uzaq Rusiyada eşidib ürəkdən sarsılmışdı. Ona görə də, bütün varlığı ilə nifrət etdiyi bu ordunun sıralarında keçirdiyi hər gün ona sıxıb əzirdi. 1991-ci ilin yanvar ayında Vətənə qayıdan kimi Gəncədəki İnşaat texnikumunun (O, texnikuma 1988-ci ildə qəbul olunmuşdu) qiyabi şöbəsinə keçib Cəbrayıl rayon DİŞ-nin post-patrul xidməti rotasında polis nəfəri kimi xidmətə başladı. Həmin ilin yaylaq mövsümündə Kazım bir neçə polis yoldaşı ilə bərabər Laçın və Kəlbəcər yaylaqlarında çobanların erməni təcavüzündən qorunması üçün gecəni gündüzə qatıb keşikdə dayandı...

1991-ci ilin may ayında keçmiş Hadrut rayonundakı on iki yaşayış məntəqəsinin erməni quldurlarından təmizlənməsində şəxsi igidliyi ilə püxtələşib təcrübə qazandı. Həmin vaxtlarda boşalan kəndlərdə özlərinə

gün-güzəran düzəldən didərginlərin həyatının qorunması üçün Kazım öz döyüşçü dostları ilə postlarda sayıq dayanmaqda idi. Təzə yurda isinişən qaçqınlar bu cəsarətli oğlanın hünəri sayəsində əkin-biçində idilər. Düşmən yurddaşlarımızı təzə yaşayış yerlərindən qovmaq üçün min hiyləyə əl atırdı. Ratsiya ilə sifariş göndərmişdilər ki, çıxıb getməsəniz sizi diri-diri yandıracağıq. Erməni quldurları hücuma keçmək üçün məqam gözləyirdilər. Belə bir fürsət onların əlinə düşdü. 1991-ci ilin noyabr ayının 15-də saat dörd radələrində Kazımgilin Zamzur kəndindəki polis postu saqqallı quldurlar tərəfindən mühasirəyə alındı. Kənd camaatının bir hissəsi atışmanın şiddətləndiyini görəndə düşmən qarşısına əliyalın çıxmağın mənasız olduğunu görüb ölümün caynağından xilas olmuşdular. Hadisə yerini tərk etməyə macal tapmayanlar Kazım başda olmaqla digər iki polis nəfərinin qeyrətinə sığınmışdılar. Kazımgildən savayı kəndin beş sakini-üç kişi, iki qadın döyüşlərdə fəal iştirak edir, Kazımgilə ürək-dirək verirdilər. Erməni quldurları tez-tez səsgücləndirici ilə:

– Ara, təslim olun, yoxsa hamınızı məhv edəcəyik-deyirdilər.

Kazım və onun igid yoldaşları Abdullayev Şükür, Aslanov Elçin, Babayev Akif, Aslanov Yolçu, Həcər hünərli Fazilə, Müşgünaz:-ya son nəfəsə kimi vuruşacağıq, ya da düşmən əlinə keçincə sonuncu patronu ürəyimizə çaxacağıq, -deyə and içmişdilər. Şiddətli atışmalarda Kazımın polis yoldaşı Şükür öldürüldü. Elçin isə ağır yaralandı. Az keçməmiş Kazım və Akif də yaralandılar. Ermənilərin sırası get-gedə artmaqda idi. Kazımgilin harayı artıq Cəbrayıla çatmırdı. Yeganə əlaqə vasitəsi olan ratsiya sıradan çıxarılmışdı. Erməni quldurları Kazımgilin səngərə çevirdikləri binanı ala bilməyəcəklərini görüb ona od vurdular. Kazım binanın taxtapuşunun alovlandığını görüb pilləkənlə aşağı endi. Onun atdığı sərrast güllələr düz on bir nəfər erməni quldurunun nəfəsini kəsdi. O, aşağı enib zirzəmidə döyüş mövqeyi tutmaq istəyəndə pilləkənin qarşısında sinəsindən ağır yara aldı.

Və bundan sonrakı hadisələrdən xəbəri olmadı...

Quduz ermənilər Zamzuru aldıqdan sonra kənddəki evlərə od vurub sağ qalan kişini əzabla qətlə yetirdilər və kəndin iki axırıncı sakini Fazilə ilə Müşgünazı əsir apardılar.

Ərşad kişi Zamzurda baş verən hadisələri ertəsi gün eşitdi. Mərcanlı camaatının say-seçmə oğulları Kazımın taleyindən xəbər tutmaq üçün Zamzura-hadisə yerinə yollandılar. Burada Kazımın öldü-qaldısından xəbər tuta bilməyəndə Ağdamın qeyrətli oğlu rəhmətlik Allahverdi Bağırova müraciət etdilər. Allahverdi bəy çox çalışsa da Cəbrayılın igid balası Kazım Məmmədovdan bir soraq eşidilmədi...



Təxminən bir aydan sonra Kazımla axıra qədər birgə olan və həmin döyüşdə əsir düşən Fazilə və Müşgünaz düşmən caynağından qurtarandan sonra Ərşad kişi ilə görüşüb əsl həqiqəti söylədilər:

– Ermənilər bizə zülm etdilər. Başımıza gətirilənləri təsvir etmək mümkün deyil. Oğlunuz Kazım son nəfəsə qədər düşmənlə vuruşdu. Zamzurun girəcəyindəki evə gedin. Kazım ağır yaralı halda od tutan binanın pilləkənin qarşısında düşüb qalmışdı. Düşmən bizi əsir alıb aparanda onun sonuncu harayını eşitdik...

Ərşad kişi, onun həmyerliləri deyilən yerə gəldilər. Yanıb kömürləşmiş cənazəni görəndə hamı varından yox oldu. Ərşad kişi boy-buxunlu igid oğlunun əvəzinə bir parça kömürləşən cəsədin qalıqlarını bağrına basıb:

– Oğlum torpağı sevdiyindən səməndər quşu kimi külə dönüb-dedi.- O, bu yurdu dəlicəsinə sevirdi. Oğlumu öldü deyib ağlamayın, elə bilirəm ki, o, dünyaya təzədən gəlib. Kazımı Böyük Mərcanlıdakı “Saz” qəbiristanlığında torpağa tapşıranda rayon DİŞ-nin rəisi, polis polkovniki, bu bölgədə igidliyi ilə həmişə xatırlanan (İndi Lənkəran şəhər polis şöbəsinin rəisidir) Rəşid Məmmədov göz yaşlarını axıda-axıda:

– Kazım Mərcanlının ilk şəhid oğludur. O, ölümü ilə sübut etdi ki, Azərbaycan türkləri üçün torpaq qeyrəti hər şeydən güclüdür...

Kazımın qisasını alsınlar deyə onun ölümündən sonra Mərcanlının neçə-neçə övladı cəbhəyə yollandı. Kəndin ağsaqqaları, ağbirçəkləri bir yerə cəm olub bu qeyrətli Vətən oğlunun adını yaşatmaq üçün əlaqədar təşkilatlara müraciət etdilər. Camaatın arzusu ilə Kazımın oxuduğu məktəbə onun adı verildi. Bu tədbir kəndin on minə yaxın sakininin ürəyindən oldu. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli fərmanı ilə Məmmədov Kazım Ərşad oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı veriləndə bu igid oğlanın həmyerliləri, onunla çiyin-çiyinə vuruşan döyüş yoldaşları ürəkdən sevindilər...

1993-cü ilin əvvəlində K.Məmmədovun adını daşıyan Böyük Mərcanlı kənd orta məktəbinin həyətində qəhrəmanın abidəsinin açılısı rayon camaatının sevincinə səbəb oldu...

İndi Mərcanlıda söz düşəndə K.Məmmədovu xatırlayıb:

– Bizim ilk şəhid balamızdır,-deyirlər. Allah ona və cəmi şəhidlərimizə rəhmət eləsin...

# O, YAŞAMAQ İSTƏYİRDİ...



**Məmmədov Hümbət Həşim oğlu (17.01.1964-28.06.1992)**

"Şişqaya" əməliyyatının başlanmasından iki-üç saat əvvəl milli ordumuzun Cəbrayıl bölməsinin əsgərləri döyüş mövqelərindəki səngərlərə sığınıb hücum əmrini gözləyirdilər. Düşmənin qarşıdakı postlarda toplanan canlı qüvvəsi və hərbi sursatı barədə kəşfiyyatçılarımızın əldə etdikləri məlumatlar bu döyüşün uğurlu sonluqla başa çatacağına təminat verirdi. Süleymanlı kəndindən bir az yuxarıdakı yalın-yamacın hər daşına uşaqlıqdan bələd olan Hümbət qarşıdakı döyüşlərdə qələbə çalacağımıza ürəkdən inanır və bu hissləri əsgər yoldaşlarına da təlqin edirdi. Döyüşlərin başlanmasına az qalmış əsgərlərə bildirmişdilər ki, milli ordunun Füzuli bölməsi o üzdən Məlikcana və Hadruta hücum etməklə "Şişqaya" əməliyyatının qısa vaxt ərzində uğurla başa çatmasını təmin etməyi nəzərdə tutublar. Bu xəbər əsgərlərimizi daha da ruhlandırdı. Onlar inandılar ki, hər iki səmtdən edilən hücumlar ermənilərin Şişqayadakı postlarına əlavə qüvvə yeritməyə imkan verməyəcəkdir. Döyüşdən qabaq yoxuşdakı səngərdə dayanıb düşmən tərəfin hər bir hərəkətini izləyən Hümbət qürur hissiylə düşünürdü ki, bir neçə saatdan sonra qeyrətli oğullarımızdan ağır zərbə alan erməni quldurları bir daha Balyand, Quşçular, Doşulu, Qışlaq, Qaracallı camaatının və onun doğma ata ocağı Süleymanlının dincliyini poza bilməyəcəklər. Ürəyindən keçən bu duyğuları əsgər yoldaşları ilə bölüşdürmək istəyirdi ki, hücumun başlanması üçün işarə verildi. Hümbət irəli şığıyıb komandiri olduğu bölmənin əsgərlərini də arxasınca apardı. Cinahlarda mövqe tutan əsgərlərimiz də qabağa yeridilər. Hümbətgil itgi vermədən "Çildağ" adlanan yerdəki erməni postunu tutub bir neçə quldunu məhv etdilər. Aşağıda-güllə tutmayan yerlərdə dayanıb igid əsgərlərimizin hücumunu həyəcan hissiylə izləyən Süleymanlı camaatı "Çildağın" zirvəsində dayanıb pencəyini başı üstündə fırlayan Hümbəti görəndə:

– Allah, özün igidlərimizi düşmən gülləsindən iraq elə! -dedilər.

Çıldağı alandan sonra Hümbətin dəstəsi düşmənin başına od yağdıra-yağdıra irəliləyib dağın Hadruta səmt aşırımındakı istehkamı da ələ keçirtdilər. Hümbət Şişdağın zirvəsinə dırmana-dırmana əsgərlərimizə müraciətlə:



– Qardaşlarım, bu gün harsın oğlanlarına əlimizin zərbini göstərməyə ulu Tanrı özü bizə fürsət verib-deyərək əlindəki üç rəngli bayrağımızı dağın zirvəsinə sancdı. Şişdağdan sıxışdırılıb kənara atılan düşmən ratsiya ilə əlavə kömək istəyir Hadrutdan. Əsgərlərimizin Füzuli səmtdən gözlədikləri hücumdan səs-soraq eşidilmirdi. Hümbətgil Şişdağda mövqe tutaraq düşmənin aramsız hücumlarının qarşısını mərdliklə alırdılar. Döyüşün qızğın yerində Hümbət sol qıçından güllə yarası aldısa da mövqeyini tərk etmədi. Şişdağdakı qayalara sığınıb düşməni yaxına buraxmayan əsgərlərimizə ürəkdirək verə-verə:

– Düşmən "Şişdağı" geri alsa heç birimizə aman verməyəcək, axır nəfəsimizə qədər buranı tərk etməməliyik. Aşağıda yurd-yuvası dağılan camaat, igidlərimizin qanına bələnən torpaq bizdən imdad gözləyir...

Hümbəti bu dəfə də sağ qılçından vurdular. O bintlə yarasını sarıyıb yenidən barmağını tətiyə uzatdı. Hadrutdan gələn canlı qüvvənin hesabına düşmən tərəfin hücumu get-gedə güclənməkdə idi. Biz tərəfdən gələnlərsə Hümbətgilin harayına vaxtında çata bilmədilər. Artıq Hümbətin döyüş yoldaşları həlak olmuşdular. Hümbətin yaralarından axan qan onun heyini azaltmaqda idi. O, son gücünü toplayıb daraqdakı axırıncı güllələri yaxınlaşmaqda olan düşmənin üstünə yönəltdi. Və sonra alnını parçalayan namərd gülləsi onun son harayını dağlarda əks etdirdi. Otuz iki yaşın sonunu görmədən 1992-ci ilin iyun ayının iyirmi səkkizində şəhidlik zirvəsində heykəlləşdi bu qeyrətli oğlan...

Hümbətin həyatda özünəməxsus neçə-neçə izi, nişanəsi qalıb. Ata adının işığına doyunca sığına bilməsə də (Atası Həşim kişi 1969-cu ildə-Hümbət beş yaşında olanda rəhmətə gedib) anası Nərgiz xalanın sonsuz qayğısını duya-duya böyüyüb. Nərgiz ana oğlunu ürəyi odlana-odlana xatırlayır.

Hümbət orta məktəbi bitirəndən sonra düz iki il Almaniyada hərbi xidmətdə olmuşdu. Oradan hərbi hissənin komandirlərindən Süleymanlıdakı Nərgiz anaya dönə-dönə razılıq məktubları gəlmişdi o vaxtlar. Nərgiz ana indi də oğlunun xoş sorağını gətirən o kağızları və bir də Hümbətin əsgər məktublarını gözünün üstə saxlayıb əzizləyir. Hümbət ordudan qayıdıb atası Həşim kişinin Süleymanlıdakı ocağını isitmək arzusunda idi. Ancaq o zamankı imperiya qanunlarının sərtliyi Hümbət Məmmədovu da doğma yurd yerindən didərgin saldı. Ev-eşik tikmək üçün yurd yeri ala bilməyən bu qeyrətli oğlan o zamankı minlərlə gənclərimiz kimi qürbət ellərə üz tutdu. Tale onu Sankt-Peterburq şəhərinə aparıb çıxardı. Əlləri bir tikə ruzuya çatan Hümbət ata ocağı Süleymanlını bircə gün də unutmadı. Yad ellərdən göndərdiyi məktublar və imkanı dairəsindəki maddi kömək, Nərgiz ananı dönə-dönə kövrəltdi. İstəkli oğlunun həsrətinə dözə bilməyən Nərgiz ana

dönə-dönə ona sifariş etdi ki, geri qayıtsın... 1988-ci ilin fevralından başlayan hadisələr onsuz da Hümbətin yuxusunu, dincliyini ərşə çəkmişdi. Sankt-Peterburqda olan azərbaycanlılar vaxtaşırı bir yerə toplaşır, doğma yurd yerlərindən gələn həyəcanlı xəbərlərə öz münasibətlərini bildirirdilər. Öz sadəliyi və diribaşlığı ilə Peterburqlu azərbaycanlılar içərisində seçilən Hümbət Məmmədov onu tanıyan soydaşlarımız arasında böyük hörmətə malik idi. 1990-ci ilin 20 yanvarında Bakıda millətimizin qanını axıdan qırmızı orduya bütün varlığıyla nifrət edirdi. Söz düşəndə-Vallah atalar yaxşı deyib: Arxalı köpək qurd basar. İmperiya ordusu onlara kömək etməsəydi dillərini üstümüzə uzada bilməzdilər-deyirdi.

1991-ci ilin sonralarında ata yurdu Süleymanlının başı üstünü ölüm kabusu alanda Sankt-Peterburqdan qayıdıb kəndlərinə gəldi. Ötən ilin mart ayında Milli ordumuzun Cəbrayıl bölməsində hərbi xidmətə başladı. Qeyrətli eloğlanlarımız Şikar Aslanovla, Pəhləvan Rüstəmovla bərabər ata ocağı Cəbrayıl torpaqlarına göz dikən düşmənlərin qarşısında dayandı...

Süleymanlının ağzı-dualı ağsaqqalarından olan Nəriman kişi Hümbətin adını əzizləyə-əzizləyə:

– Çox qeyrətli, qohumcanlı oğul idi-deyir Boylu-buxunlu, nər biləkli bu oğlanın ölümü bizi odsuz-ocaqsız yandırdı. Belə igidlərə arxayın olduğumuzdan indiyə kimi Süleymanlını tərk etməmişik. Ermənilərin bu kəndə atdıqları "Qrad"lar neçə-neçə evi yerlə-yeksan edib, dinc əhalidən ölən, yaralananlar da az deyil. Hümbətin, Şikarın, Pəhləvanın uyuduqları kənd qəbiristanını qoyub getməyi qeyrətimizə sığışdırmadığımızdan hamımız bir yerdə and içmişik ki, öləcəyik, ancaq Süleymanlını tərk etməyəcəyik...

– Hümbət Tanrının ona verdiyi ömür payını axıracan yaşaya bilmədi. O, hələ yaşamaq istəyirdi. İstəyirdi ki, qələbə gününə qədər vuruşub torpaqlarımızın dincliyini geri qaytarsın. Və istəyirdi ki, Süleymanlıdakı evlərinin oğul həsrətli divarlarına öz əliylə sığal çəkə-çəkə doğma ocağın işığını gur yandırsın. O, yaşamaq istəyirdi-qismətinə şəhidlik düşdü. O, innən belə ömrün şəhidlik zirvəsində yaşayacaq. Bu zirvəyə qalxmaq hər oğulun işi deyil...



# RAM HEÇ VAXT UNUDULMAYACAQ

**Məmmədov Ram Əşrəf oğlu**
**(27.05.1974-22.09.1992)**



Əşrəf kişiylə, onun üç aydan bəri göz yaşları qurumayan ailə üzvləriylə görüşüb şəhid Ramdan yazı hazırlamaq niyyətilə Araz qırağında yerləşən Hasanlı kəndinə getmək fikrində olduğumuz bir vaxtda yanımıza altmış-altmış beş yaşlı bir kişi gəldi. Əlindəki qovluğu stolun üstə qoyub:

– Mən Ramın atası Məmmədov Əşrəfəm, – dedi – eşitdim ki, oğlumla maraqlanırsınız, özüm gəldim. Gətirdiyim qovluqda oğlumun həyat yolundan bəhs edən xeyli yazı var. Müəllimlərinin əsgər yoldaşlarının ürək sözləridir. Sinəmdə Ramın neçə-neçə sözü yaşayır. Elə bilirəm bir ata kimi oğlumu məndən də yaxşı tanıyan ikinci adam tapılmaz...

Əşrəf kişinin dediklərindən – oğlum yetmiş dördün iyirmi yeddi mayında anadan olub. Ailəmizin altıncı uşağı – sonbeşiyimiz idi. Mehriban, xoşrəftar bir oğlan idi. Yadıma gəlmir ki, hardasa Ram bir sözümüzü iki eləsin. Anası Sitarə bütün varlığıyla bağlanmışdı Rama. Beş uşağımızın beşi də ailə, ev-eşik qurub çoxdan ata ocağını tərk etmişdilər. Ümidimizi Rama bağlamışdıq. Düşünürdük ki, qocalan vaxtlarımızda bizə dayaq olar. Özü də yaxşı bilirdi ki, evimizin çırağını yandıran o olacaq. Başı aşağı, sözü-gözü özündə bir oğul idi. Aşağı siniflərdə oxuyanda dərsdən gələn kimi-evimizin, kənd adamlarının xarab olan radiosunu, televizorunu, maqnitofonunu sazlayıb düzəldərdi. El havalarının, xalq mahnılarının dəlisi idi. Kənd uşaqları başına fırlanardılar balamın. Hamının möhübünü görər, heç kimi özündən incik salmazdı. Orta məktəbi qurtarandan sonra Bakıya – texniki-peşə məktəbində oxumağa getmişdi. Radio-televizor təmiri mexaniki sənətinə yiyələnirdi orda. Ötən ilin iyun ayında rayonumuzdakı məişət xidməti kombinatında praktikada idi. Bir axşam süfrə başında üzünü mənə tutub – Ata, – dedi – günü sabahdan rayonumuzdakı hərbi hissəyə əsgəri xidmətə gedəcəyəm. Hərbi komissarlıqda bu barədə ərizəm də var. Mən onu niyyətindən çəkindirmək məqsədiylə:

Ram, oğlum, – dedim – hələ məktəbini qurtarmağa bir ilin var. Oxu, bir sənət qazan, sonra gedərsən orduya. Ömründə ilk dəfəydi ki, Ram sözlərimə etiraz etdi:

– Ata, torpaqlarımızda hər gün neçə-neçə igidlərimizin qanı axıdılır. Vətənimizin dar günündə ona həyan olmasam, tay-tuşlarımın üzünə baxa bilmərəm...

Ram iyunun iyirmi səkkizindən əyninə əsgər paltarı geyib torpaqlarımızın müdafiəsinə getdi. Həftədə, on gündə bir yol evimizə baş çəkir, sonra çıxıb gedirdi. Hər gedəndə də özüylə xeyli mer-meyvə, yemək aparardı. Anası onu yola salıb:

– Dərdin mənə gəlsin, Ram, o qədər adamın içində bu mer-meyvəni kimə verəcəksən, – deyəndə Ram əlüstü cavab verərdi:

– Kimin qismətidir ona da çatacaq. Evdən əliboş niyə gedim axı?

Bir dəfə Sitarə dedi ki, a kişi xəbərin varmı Ram balamız kəndimizdə filankəsin qızıyla alışıb verişib? Əhdi-peyman bağlayıblar ki, müharibə qurtaran kimi toy edib evlənsinlər. Dedim nolar arvad, o qız yaxşı ailənin qızıdır, qismət olsa payızda elçi gedib nişan taxarıq. Elə bil Sitarəyə dünyanı bağışladılar. Yaman şeir vurğunu idi oğlum. Dəftərçəsinə xoşu gələn şeirləri yazıb, əzbərləyərdi. Öləndən sonra bildim ki, özü də xəlvəti şeir yazırmış. Ölməmişdən bir həftə qabaq evimizə gəlmişdi. Çıxıb gedəndə anasına deyib ki, ölüb eləsəm ağlayıb özünü üzmə, bircə sevgilimə mənim dilimcə de ki:

*Dağların üstünü duman, çən aldı,*
*Ram lalə kimi açıldı, soldu.*

Öləndən sonra bildim ki, bu misralar da özününküymüş. Züriyyə müəllimənin Ram haqqında yazdıqlarndan: – Ram Məmmədova dörd il dərs demişəm. Bu illərdə həm də sinif rəhbəriydim onun. O, mənim ən sevimli şagirdlərimdən biriydi. Ram balacaboylu, sakittəbiətli, gülərüzlü bir oğlan idi. Dərslərə hazırlıqlı gələrdi. Hərdən zarafatla deyərdim: – "Nə vaxt yekələcəksən, Ram?". Gülə-gülə cavab verərdi: – "müəllim, gələn il uşaqların hamısından uzun olacağam..."

Məktəbimizdə Novruz bayramı keçirməyə hazırlıq görürdük – Ram onda səkkizdə oxuyurdu. Kosanı oynamağa heç kəs razı olmurdu. Ram ayağa qalxıb. "– Müəllim, – dedi – sizin xətrinizə mən Kosa rolunu oynayaram"...

Ram qəhrəmanları çox sevərdi. Bir dəfə sinifdə "Sən qəhrəman olmaq istərdinmi?" mövzusunda inşa yazdırırdım. Ram ayağa qalxıb:



"Eh, müəllim – dedi – müharibə olmayacaq ki, biz də qəhrəman olaq..." Ram belə oğul idi, heyif ki, bu cür saf ürəkli oğlan həyatdan tez getdi. O, əsl qəhrəmandır...

Orta məktəbdə Rama dərs deyən Bayram Quliyevin və Həsən Xəlilovun dediklərindən – Ram qabiliyyətli oğlan idi. Vətən hissi, torpaq məhəbbəti köksünə sığmırdı. Eşidəndə ki, özü öz könlü ilə orduya gedib, təəccüblənmədik – Ram kimi vətənpərvər oğlan məhz belə etməli idi. O, döyüşə gedəndə ürəyimiz yarpaq kimi əsirdi. Bilirdik ki, heç nədən qorxub çəkinən deyil. Ölümünə həmişə hazır idi. Son nəfəsinə kimi mərdliklə vuruşub həlak olmuşdu Ram...

Bizim qeydlərimizdən: Cəbrayıl hərbi hissəsinin qərargah rəisi, kapitan Eldar Quliyevin arayışında bildirilir ki, Məmmədov Ram Əşrəf oğlu 1992-ci ilin iyirmi iki sentyabrında Sur postunda qəhrəmanlıqla vuruşub və sonra da şəhid olub. Bu bir parça kağız Əşrəf kişi üçün qızıl qiymətindədir – onu ürəyinin üstündə əzizləyə-əzizləyə saxlayır indi. Ramın komandiri Mübariz və bir də batalyonun zabiti Məmmədov Vəli (Ramın atası deyir ki, V. Məmmədov oğlumun xətrini çox istəyər, ona həmişə bacıoğlu deyərmiş) bu igid oğlanın qoçaqlığına heyran idilər...

Əşrəf kişinin ürəyindən keçir ki, oğlunun adı əbədiləşdirilsin. Bu barədə hələ ki, addım atılmayıb, şəhid oğullarının hamısı bizimdir – onlara fərq qoymadan xatirələrini əziz tutmalı, adlarını yaşatmalıyıq. Burada da hərə öz həqiqi qiymətini almalıdır. Yaşamaq haqqını vətən yolunda qurban getməklə qazanan şəhidlər hər addımda bizə örnəkdirlər. Bu şəhidlərin cərgəsində Məmmədov Ram Əşrəf oğlunun öz yeri, öz səsi vardır. Neçə ki, başımız üstə səma, ayağımız altında Vətən torpağı var, Ram və onun dünyadan nakam gedən şəhid dostları həmişə bizə doğma və əziz olacaqlar...

# DAĞTUMASDA BİR MƏZAR VAR



**Məmmədov Vahid Əmrah oğlu**
**(12.04.1973 - 15.08.1992)**

Dağtumas kəndi Cəbrayılın axarlı-baxarlı ulu yurd yerlərindəndir. Gündoğan səmtində Diri dağdan üzü bəri uzanan Gəyən çölləri, günbatan tərəfində qalaya bənzər Tumas ata bağrına basır bu kəndi. Tumas atadan baxanda üzü Araza tərəf uzanıb gedən Gəyənin sinəsində üzümlüklər, taxıl zəmiləri, otlaq yerləri bir xalının əlvan naxışlarına bənzəyir. Bu naxışlar Dağtumas camaatının işlək əlləri sayəsində dünyamıza boylanır. Bu əllərin sahibləri yaz-qış beldən, dəryazdan, bağ qayçısından, traktor-maşın sükanından yapışa-yapışa illər boyu özlərinə, böyük-böyük şəhərlərdə əlləşib cadar-cadar kəndli əllərinə həqarətlə baxan "başbilən"lərə ruzu qazanıblar. Bəlkə də torpaqlarımızın üstə qəfildən başlanan "erməni tufanı" olmasaydı özündən yaşlı həmyerliləri kimi Vahid də Dağtumas camaatı ilə birlikdə taleyini torpağa bağlayacaq idi. Elə bu niyyətlə də 1988-ci ildə kənd məktəbinin səkkizinci sinfini bitirən kimi rayonun Sarıcallı kəndindəki 131 №-li texniki-peşə məktəbinə üz tutdu. Məqsədi mexanizator olub torpaqla ömürlük ülfət bağlamaq idi.

1990-cı ildə təhsilini tamamlayan kimi Sovet Ordusu sıralarına çağırdılar. Onda yurdumuzda 20 Yanvar qırğını törədən bu orduya hələ çağırışlar davam etməkdə idi. Hələ bu orduya, hələ imperiya paytaxtı Moskvaya inananlar tapılırdı. Çoxları ümid edirdi ki, 1941-1945-ci illərdə faşizmi diz çökdürən bu ordunun ağlı başına gələcək. Nankor erməni quzğunlarına ibrət dərsi verməklə yurddaşlarımızı soyqırımından, didərginlik müsibətindən qurtaracaq bu "xilaskar ordu"...

Möcüzə baş verməditi və qanlı keçmişi ilə günbəgün gözdən düşən bu ordu Qarabağda, onun hüdudlarında ermənilərlə canbir-dilbir oldu.

Bütün bunları qürbətdə-Ukraynanın Rostov şəhərində əsgər yoldaşları ilə birgə izləyən Vahid Məmmədov:

– Orda, doğma ellərimdə erməni quduzlarının qan axıtdığı, yurdumu taladığı bir vaxtda burada qala bilmərəm – deyib doğma respublikamıza qayıtdı...

Onda hələ Xocalı faciəsinə çox var idi. Onda hələ Cəmilli, Qaradağlı, Meşəli..müsibəti qabaqda idi. Onda hələ Şuşa, Laçın ağrısı təzəcə-təzəcə cücərməkdə idi...



1991-ci ilin mart ayının əvvələrində doğma kəndləri Dağtumasa gəlib çıxandan sonra:

– Belə bir vaxtda qeyrəti olan hər kəsin yeri səngər olmalıdır! – deyib hərbi komissarlığa müraciət etdi və könüllülərin sırasına qoşuldu...

Vahidin Cəbrayıldakı döyüş yolu 1991-ci ilin mart ayının on beşindən başlayır. O vaxtlar cəsurluğu ilə təkcə Cəbrayılda yox, bütün Azərbaycanda ad çıxaran milis rəisi podpolkovnik Rəşid Məmmədovun (heyif ki, o Cəbrayıla daha çox lazım olduğu bir vaxtda 1991-ci ilin sonlarında Ağdama göndərildi) şəxsi igidliyi döyüşçü dostları ilə birlikdə Vahidə də qol-qanad verdi. O, R. Məmmədovun rəhbərliyi altında aprel-iyun döyüşlərində yaxından iştirak etməklə Cəbrayılın ulu torpaqları (Hadrut rayonun ərazisində) Zamzur, Dolanlar, Daşbaşı, Hərəkül, Ağcakənd, Mülkədərə və s. kəndlərin alınmasında şəxsi igidliklər göstərdi.

Bu kəndlər erməni nankorlarından təmizləndikdən sonra burada talesiz qaçqınların sığınacaq tapıb məskunlaşmaları üçün Dolanlar, Banazur, Quşçular, Sur postlarında əsgər yoldaşları ilə birlikdə sayıq dayandı.

Cəbrayıl torpaqlarının müsibətli günləri əslində 1992-ci ilin iyun ayından başlandı. Rayon mərkəzinin şimal səmtindəki Şayaq yüksəkliyinin əldən verilməsi Cəbrayıl faciəsinin başlanması oldu. May, iyun aylarında Şayaqdan yağdırılan "qrad"lar neçə yurd-yuvanın dağılmasına, neçə ömrün yarımçıq qırılmasına səbəb oldu. Şayaq kəndinə və buradakı yüksəkliyə sahib olmaq cəhdi uğursuzluqla nəticələndi. Bu savaşda onlarla gəncəli, sabirabadlı, imişlili, qəbələli, cəbrayıllı döyüşçü şəhid oldu. Neçə-neçə qadın, uşaq, qoca dünyadan nakam getdi.

Bütün bunları duyduqca Vahid qəzəbindən qovrulur, düşməndən qisas alınacağı günü gözləyirdi. Vahidin və onun döyüş dostlarının əlinə belə bir fürsət 1992-ci ilin yayında düşdü. Şişdağın yamacında, Ağ yolun üstündəki Sur kəndində güclü istehkam yaradan erməni faşistləri rayonun Süleymanlı, Qışlaq, Qaracallı, Bayland kəndlərini müntəzəm olaraq atəş altda saxlayırdılar.

Cəbrayıl batalyonunun igid döyüşçülərinin cərgəsində Vahid Məmmədov da Sur əməliyyatında fəal iştirak etdi. Onun və dostlarının sərrast atəşi ilə neçə-neçə erməni dığasının murdar cəmdəyi yerdə qaldı...

1992-ci ilin avqust ayının on beşi Məmmədov Vahid Əmrah oğlunun bu dünyada sonuncu günü oldu. Həmin gün Vahid Şişqaya ətrafına kəşfiyyata gedərkən iki nəfər döyüşçü dostu ilə bərabər mühasirəyə düşdülər. Onlar sonuncu güllələrinə qədər döyüşə-döyüşə mühasirədən çıxmağa çalışırdılar. "Ağyol"un üstündəki daşlı-çınqıllı yamacda Vahidi namərd erməni gülləsi haqladı.

Üç tərəfdən Tumas ataya sığınan Dağtumasın ulu qəbiristanında bir şəhid məzarı var. Bu, ömürünün on doqquzuncu baharında torpağımızın azadlığı uğrunda canından keçən Məmmədov Vahidin məzarıdır. Üstünə yenicə qar düşən bu məzardan, onun ay-ulduz nişanlı başdaşından Vahid nigaran-nigaran yollara boylanır, oğul müsibətinə tablaşa bilməyən istəkli anasına şəkildən boylanan dilsiz baxışları ilə sanki təsəlli verir:

*Ana, məni az ağla,*
*Bahar ağla, yaz ağla,*
*O bəxtəvər günlərim*
*Bir də qayıtmaz, ağla...*

## ÖMRÜN QU NƏĞMƏSİ



### *Məmişov Kazım Məmiş oğlu (15.04.1974 - 28.06.1992)*

Dünyaya yaşamaqçün gəlmişdi Kazım. Onun nəzərində həyat enişli-yoxuşlu bir yola bənzəyirdi. Bu yolun axırına çatammadı, bu yolun son ucunu görəmmədi. Macal tapmadı ki, kiməsə sevgi dolu məktub yazsın. İlk məhəbbəti Vətən idi, torpaq idi və bir də..Yox, ürəyində əzizlədiyi o qıza sevgisini bildirməyə macal tapmadı Kazım. Vətənin dar günündə sevmək - mi yada düşürdü? Özü də hələ bir tikə uşağıydı. Təzəcə-təzəcə boyu çıxırdı. Tale onu Yarəhmədlidən olan həmyaşıdı Rəşidlə bir yoğurub bir yapmışdı elə bil. Alın yazıları da, həyat yolları da bir-birinə bənzəyirdi bu cavanların. İkisi də 1974-cü ildə anadan olmuşdular. Orta məktəbi də bir yerdə oxumuşdular. Bakıdakı texniki peşə məktəbinə də bir yerdə yollanıb avtomobil çilingəri peşəsinə yiyələnmişdilər. Müharibə olmasaydı əhd eləmişdilər ki, bir yerdə işləsinlər. 1992-ci ilin iyun ayında Vətənimizin müdafiəsi üçün əsgərlərimizin sırasına qoşulmuşdular. Əllərinə silah alıb ilk dəfə Banazur postuna yollananda Kazım dostu Rəşidə üzünü tutub 20 Yanvarda şəhid olan cavan şair Elvinin:



*"Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik" –*

misralarını söyləyəndə Rəşidin də dodaqlarından Məmməd Arazın:

*"Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim –*

sözləri boylanmışdı...

Bu hikmətli misraların arxasında topdan da, gülədən də güclü hisslər dayanmaqda idi. Bu misralara vətəndaşlıq qüruru, Vətən sevgisi, yurd böyüklüyü sığırdı. Bu sehirli misralar ömrün güney üzündə hələ doyunca qızınmağa macal tapmayan Kazımın taleyindən keçib getdi. Cəmisi doqquzca günün əsgəri olan bu ortaboylu, qarayanız oğlan görəsən onda hansı hisslərlə gedirdi Vətən torpağını qorumağa. Bu torpaq Kazım üçün beşik idi, işıq idi. Onda hələ eyninə də gəlmirdi ki, günlərin birində bu torpaq ona məzar yeri-gor evi olacaq. Yox, onda ölümü özünə yavıtmırdı, əcəli yaxına buraxmırdı Kazım. Səngərə ölməkdən ötrü yox, şəhid gedən igidlərimizin qanını almaqdan ötrü sığınırdı. Xəbəri yox idi ki, cəmisi yüz-yüz əlli addım qabaqdakı daş koğuşunda daldalanan ölüm onu qarabaqara izləyir. Bu ölümün özü də erməni kimi kəmfürsət idi. Gərək onu gözdən qoymayaydı Kazım. Gərək onun nəfəsini vaxtında kəsəydi. Eh, hardan görəydi, hardan biləydi bu namərdliyin gürzə sifətini. Dünyanın ən ürəyi təmiz, üzüyola uşağı idi. Böyük yanında dillənməyi də ar bilirdi. Gözünü açanda atası Məmiş kişinin, anası Dilbər bacının qabarlı əllərini halallığa söykək görmüşdü. Vaxtı olanda beli götürüb həyətlərindəki bir parça torpağa dirilik gətirirdi. Azərbaycan adlı Vətən torpağı, əzəli-axırı görünməyən qarımış-qartımış bu dünya o bir parça yurd yerindən başlayırdı. Və bu bir parça torpaq onunçün Qarabağ idi, Şuşaydı, Laçındı, Ağdərəydi, Kəlbəcər idi. Naxçıvanın dünyaya səs salan Batabatıydı. Bu bir parça torpağın məhəbbətiydi Kazımı könüllü əsgər edən...

- Çox istiqanlı, vətənpərvər oğlan idi Kazım – bu sözləri bizimlə görüşəndə dedi Zahid. Qardaşı haqqında Zahid bir də onu dedi ki, uşaqlıq dostu Rəşidə elə bağlıydı ki, ondan bircə gün də ayrı dura bilmirdi. Taleyin işinə bax, ölüm də ayıra bilmədi onları. İndi onların qəbirləri də Yarəhmədli

kəndində yan-yanadır. Rəşidin "xoşbəxtliyi" ondadır ki, əcəl Kazımdan sonra düz yarım il möhlət verib ona – əcəl aman verib ki, Rəşid dostu Kazımın qisasını yerdə qoymasın. Rəşid Tanrı möhlətindən istifadə edə bilib. Həm Kazımın və həm də dünyadan nakam gedən cavanlarımızın qisasını ala bilib Rəşid. Kazımın gor evi də, Tanrı dərgahına qovuşan ruhu da sakitləşib bu qisasdan sonra.

Deyirlər qu quşları ömürlərində bicə yol-ölümdən qabaq oxuyurlar. O iyun ayının iyirmi doqquzunda ölümü ayan idimi Kazıma? Tanrıdan və bir də özündən savayı bilən yox idi. Həmin gün yuxusuzluqdan qızaran gözləri dan yerinə bənzəyirdi. Bu gözlərdən yuxu qarışıq şirin bir nəğmə doğulmaqda idi. Bu, ömrün qu nəğməsiydi:

*Dünya kimin yaşıdı,*
*Sinəmdə od daşımdım,*
*Nə gördüm, nə yaşadım,*
*Söyləyən yox, bilən yox.*

*Ocaqda göz ağlayır,*
*Yamacda iz ağlayır,*
*Dilimdə söz ağlayır,*
*Göz yaşımı silən yox..*

Bu nəğməni oxuya-oxuya şəhidlik zirvəsinə qalxırdı, Kazım Qarşıdan atılan qəfil güllə bu zirvəyə qanını çilədi onun. Kazımın ömrünün qu nəğməsi yarıda qaldı. Bu yarımçıq nəğmənin axırını onun şəhid ruhu oxuyur indi. Bu, Kazım adlı qeyrətli bir cavanın ömür harayıdır, sonuncu qu nəğməsidir...



# TANRI DƏRGAHINA QOVUŞAN ŞƏHİD

**Mehdiyev Faiq Nazim oğlu**
**(20.01.1971-15.08.1992)**



Gözünün yaşını sil, atam balası!Qismətdən, alın yazısından qaçmaq hələ heç kimə müyəssər olmayıb. Bu ölüm haqdan gəlib, ay atam, düzəlt qəddini! Bu ölüm Tanrının işidir, ay anam, üzmə özünü! Bu adi ölüm deyil, şəhid ölümüdür. Peyğəmbərimiz Allahın diliylə buyurub ki, şəhidin yeri Cənnətdir. Torpaq uğrunda şəhid olanların ruhu Allahın dərgahına qovuşar – deyib ağzı dualılarımız. Ağlamaqla, sızlamaqla ötüb keçəni geri qaytarmaq olmaz, ay anam-bacım. Bu dünyanın qara daşını Babəkin qələm olan qollarından damcılayan şəhid qanı da göyərdə bilməyib. Faiq kimi igidə oğul deyən ata-anada dağ dözümü olsun gərək. Siz Allah, qəddinizi əyməyin, yoxsa Faiqin ruhu inciyə bilər...

Bu gün şəhid adının işığına üz tutduğumuz Faiq Mehdiyev təkcə sizinçün əziz deyildi – onu döyüşçü dostları da, tay-tuşları da, müəllimləri də ürəkdən sevirdilər. Bu elin neçə gözəl qızı Faiqin dalınca heyranlıqla baxa-baxa ürəklərində:

– Kaş belə nişanlım olaydı, – deyərdilər. Vətənin dar günündə Faiq eşqdən, məhəbbətdən yüz mənzil uzaqda idi hələ. Onun sevgisi də, istəyi də Vətənlə bağlı idi. Erməni caynağında inləyən gözəl Şuşamızın, qartal oylağı Laçınımızın dərdi, Xocalının alınmayan qisası onu rahat buraxmırdı.

1988-ci ildə erməni azğınlığı tuğyan edəndə Faiq rayon mərkəzində keçirilən mitinqlərə ayaq açdı. Əvvəl eşitdikləri sözlərdən gözləri alacalandı. İnana bilmədi ki, evlərinin cəmisi iki-üş kilometrliyində yaşayan, atası Nazim müəllimlə, əmiləri Mehdiylə, Vaqiflə, Kamranla, Kazımla indiyə kimi dostluq edib dəfələrlə bir yerdə duz-çörək yeyən Hərəkül erməniləri bu işə qol qoyalar. Sonrakı günlərdə ermənilərin Masisdə, Vardenisdə, Artaşatda soydaşlarımızın başına gətirdiklərini qulaqları ilə eşidəndə tay onda şübhə yeri qalmadı. Elə buradaca yumruqlarını düyünləyib havaya qaldıran minlərlə insanlar kimi yurdumuzu yağılardan təmizləyəcəyinə and içdi...

1989-cu ilin may ayında ona hərbi xidmət üçün çağırış gələndə boyun qaçırmaq istədi. Ancaq onu başa saldılar ki, neçə ki, sovet imperiyasının

caynaqları gücdən düşməyib, onun qanunlarına qarşı təklikdə çıxmaq heç kəsə xeyir gətirməz. Faiq etiraz edib sözünün üstündə durmaq istədi, ancaq bu hərəkətiylə ailələrini zərbə altında qoyacağını anlayıb inadından döndü. Tale onu Minsk şəhərinə-tank polkuna aparıb çıxardı. Faiq elə bil sövq-təbii olaraq duymuşdu ki, xalqımız sonu görünməyən bir savaş yoluna sürüklənməkdədir. Elə ona görə də hərbi hissədə silahla, texnika ilə davranmağın incəliklərini öyrənirdi. Azərbaycandan olan əsgər yoldaşlarına da məsləhət görürdü ki, dəqiq nişan almağı, hərbi təlimləri öyrənsinlər.

– Vətənimizin başının üstünü qara buludların aldığı bir vaxtda öyrəndiklərimiz bizə lazım ola bilər – deyirdi Faiq. Aldığı məktublar, qəzetlərdən oxuduqları Azərbaycanda hadisələrin məcradan çıxdığını erməni xislətindən xəbərsiz resbublika rəhbərlərinin acizliyini günbəgün söyləməkdə idi. O vaxtlar Faiqin yatsa da yuxusuna girməzdi ki, sırasında olduğu Sovet ordusu belə amansızlıqla Bakıda 20 Yanvar qırğını törədə. Bir neçə gündən sonra hissədəki Azərbaycandan olan türk oğullarının əlinə "Səhər" qəzetinin o vaxtkı matəm sayı gəlib çatdı. Küçələrdə tankların tırtılları altında əzik-əzik edilən, tanınması qalmayan soydaşlarımızın qanlı sifətlərini görəndə Faiq belə orduda xidmət etməyin ən böyük rəzillik olduğunu duydu. Elə həmin gün oradan çıxıb imperiyanın hələ nəfəsi üstündə olan dəmir caynaqlı qanunlarından gizlənə-gizlənə Bakıya gəlib çıxdı. "Şəhidlər xiyabanı"nda təzəcə sıralanan qəbirlərin önündən keçə-keçə ürəyində and içdi ki, bu torpağın bütövlüyü uğrunda son nəfəsinə kimi döyüşəcək...

Faiq əsgəri xidmətini əvvəlcə Sumqayıtda davam etdirdi. Buradan onun yolu Bakı dəmiryol idarəsinə düşdü. Fəhlə işləyən Faiq Mehdiyev Cəbrayılın böhranlı günlərinin çatdığını görüb rayona qayıtdı. 1992-ci ilin aprel ayında könüllü olaraq rayon Daxili İşlər Şöbəsində qulluğa başladı. Polis serjantı rütbəsiylə torpaqlarımızın müdafiəçilərinin sırasında dayandı.

İlk gündən döyüş əməliyyatlarında fəal iştirak etdi. Minsk hərbi hissəsində bir vaxtlar öyrəndikləri karına gəldi. Mina axtarıb tapmağı, onu zərərsizləş - dirməyi əla bilirdi Faiq. Çox çevik və soyuqqanlı hərəkət edirdi döyüşlərdə. Döyüş zamanı qumbara ilə təkbaşına düşmənin BMP-sini darmadağın etmiş- di. Həmin döyüşdə həmişə çiyin-çiyinə vuruşduğu dostu Şikar Aslanovun ağır yaralandığını görəndə and içmişdi ki, "Şikar, sənin qanını yerdə qoymayaca - ğam"... Faiq sözünə bütöv oğlan idi. 1992-ci ilin on beşi avqustunda "Şişdağ" uğrunda gedən döyüşlərdə dostu Şikarın və neçə-neçə şəhidimizin qisasını alan Mehdiyev Faiq Nazim oğlunun özü də həlak oldu.

Faiq rəhmətlik Şikardan sonra Sahib Quliyevə (Mirələmə) mehr salmışdı. Onunla bir gəzib dolaşırdı. Döyüşə gedəndə də birgə gedirdilər. Ürək dostu,



səngər, döyüş yoldaşı idilər. Elə ikisi də eyni gündə yan-yana döyüşdükləri yerdə şəhid oldular...

Milis mayoru Vaqif Hüseynov Faiqdən məhəbbətlə söz açıb:

– Çox hazırlıqlı, qorxmaz oğul idi, – dedi. Şöbəmizdə onun xətrini çox istəyirdik. Rəhmətlik Mirələm ona "bacıoğlu" deyərdi. Mirələmlə Faiq postda olanda, əməliyyatda birgə iştirak edəndə bilirdik ki, yersiz ölüm-itim olmay- acaq. Elə ikisi də eyni anda, eyni yerdə şəhid oldular. Allah onlara rəhmət eləsin...

Hələ Faiq də, Mirələm də igid oğullar kimi həqiqi qiymətlərini almayıblar. Günlər keçəcək, xalqımız bu müharibəni qələbəylə başa vurub şəhid oğullarının döyüş rəşadətindən xəbər tutacaqlar. Bax onda Faiq də , Mirələm də, elə onların şəhid dostları da dildə, ağızda əzizlənəcəklər. Onların adları məktəb və küçələrdə ünvan tapacaqdır.

Başınızı dik tutun, Faiqin qohum-qardaşları. Gözünün yaşını sil, Faiqin təkcə bacısı, Aynur! Deyirlər rəhmətlik səni, indi istəməsin, sağlığında çox istəyirmiş. Səni bağrına basıb:

– Mənim bircə bacım – deyərmiş. Faiqə öldü deməyin, əzizlərimiz, Faiq kimi oğullar heç vədə ölmürlər. Faiq Tanrı dərgahına qovuşub. Vətəni Faiq kimi oğullar Vətən edirlər. Türk şairi Namiq Kamal demişkən:

Bayraqları bayraq yapan üstündəki qandır –
Torpaq, əgər uğrunda ölən varsa vətəndir!..

# O ÖLÜMDƏN GÜCLÜ İDİ...

## Mehdiyev Hüseyn Ağa oğlu
## (10.05.1952-18.08.1991)



Bu kəndə Allah hər şeyi min əlnən verib. Dağı-yamacı, dərəsi-təpəsi, bağı-bağatı, diş göynədən kəhrizi var bu kəndin. Bu kəndin ulusu-ucası, köhlən atların belinə qalxıb Xətai, Koroğlu dünyasına igidlik-ərənlik qibləsinə üz tutan ərləri-ərənləri çox olub. Bu kəndin adıynan deyilən varlı-karlı kişiləri dünya malını əl çirki hesab ediblər. Yoxsula-yolçuya əl tutub xoş üz göstərən bu şənliyin ağzıdualı, üzü nurlu kişiləri Bu elin toylarını, yaslarını urvata mindirib Daşkəsənin ağbirçəkləri. Bu kənd Dədə Qorqud yaşıdıdır, onun yonulu —yatımlı hər daşından bir tarix boylanır...

Allah Daşkəsən kəndinə hər şeyi min əlnən verib. Onun unudulmaz Mehdi Mehdizadəsi, Aşıq Humayı, Murad İsmayılovu, Şahmar Ələkbərovu... var. Bu kəndin altunlu-axçalı kişiləri də, dəliqanlı oğlanları, sərv boylu qızları da var idi. Bircə şəhidləri yox idi – iki il qabaq onu da verdi Allah bu kəndə...

İndi Daşkəsən kəndinin dörd şəhidi, dörd and yeri var. Vüqarın, Hüseynin, Arifin və Aydının adları dilindən düşmür kənd camaatının...

Şəhidlərin də yaşlısı, cavanı-dəliqanlısı olur – deyiblər. Mehdiyev Hüseyn Ağa oğlu Daşkəsənli şəhidlərin "ağsaqqalı", "böyüyüdür". Ömrü qırxıncı otağının qapısına çatar-çatmaz dünyasını dəyişib. Qırxıncı otaqda yaşamaq qisməti deyilmiş onun. Bunun əvəzində əbədiyyət dünyasının qapıları açılıb üzünə. İndi ömrün ucalığını yaşayır Hüseyn - bu haqqı torpaq sevgisiylə, qanıyla qazanıb. Həyat yolu enişli-yoxuşlu, daşlı-kəsəkli olub. Şəhidlik dünyasına qovuşana qədər əziyyət də, zillət də, sevinc də görüb. Orta məktəbi doğma ata ocağında qurtarandan sonra taleyin hökmüylə Bakıya üz tutub. Ordan da yolu Rusiyaya düşüb. 1973-cü ildə hərbi xidməti başa vurandan sonra yenidən ömür dincliyini, bəxtəvərliyini Bakıda arayıb. Əvvəlcə Serebrovski adına NQÇİ-də qazma köməkçisi, 1974-75-ci illərdə Bakı şin zavodunda çilingər və sonra da Xətai rayonundakı 138-nömrəli orta məktəbdə təsərrüfat işləri üzrə direktor müavini vəzifəsində çalışıb. İşləyə-işləyə 1981-ci ildə BDU-nun tarix fakültəsini bitirib. 1979-cu ilin yanvarında Bakı şəhərindəki mühafizə alayının ikinci rotasında milis nəfəri kimi işə başlamışdı



Hüseyn. Onu bu çətin sahəyə gətirən ürəyinin hökmü, qəlbinin istəyiydi. 1986-cı ilin mart ayından alaydakı üçüncü rotanın komandir müavini idi. Çox məsuliyyətli, cəsur bir işçi kimi çoxlarının diqqətini cəlb etmişdi. Tələbkar olduğu qədər də ürəyiyumşaq idi, İş yoldaşları ürəkdən sevirdilər onu. Yaxşı idmançıydı, yanımlı dost idi, mehriban ailə başçısıydı Hüseyn. Qız balası Şəhlanın, babasının adını yaşadan Mehdinin xoşbəxtliyi üçün özünü oda-közə vururdu. Halallığı, düzlüyü hər şeydən ulu-uca bilirdi. Özgə loxmasında, özgə qismətində nəfsi-gözü yox idi. Həmişə söz düşəndə deyərdi ki, "dünyada ən böyük rəzillik başqasının səadətini, ruzusunu əlindən almağa çalışmaqdır. Ocağı belə çatılmışdı atası Ağa kişinin. Daşkəsən camaatının güvənc yeri idi Hüseyn 1990-cı ilin mart ayında vəzifəsini bir az da böyütdülər-xidmət etdiyi alayda qərargah rəisiydi. Təzə işə, yüksək vəzifəyə keçəndə doyunca sevinə bilməmişdi. Ay yarım qabaq Bakıda minlərlə soydaşlarımızın qanını tökən "xilaskar ordu"nun vəhşiliklərini öz gözləriylə görüb sarsılmışdı. Bir yandan da cəbhədən gələn uğursuz xəbərlər varından yox etmişdi onu. "Şəhidlər xiyabanı"na tez-tez gəlib buradakı aramgahda uyuyan igidlərimizi ziyarət etməyi özünə borc bilirdi həmişə. Gözlərinin qabağında neçə şəhid torpağa tapşırılmışdı, əmanət verilmişdi bu müqəddəs məkana. Ağladığı, sızladığı vaxtlar da az olmamışdı. "Şəhidlər xiyabanı"Azərbaycan adlı dünyamız boyda dərddir-ələmdir. Hünərin var bu nisgil önündə ağlama. Dünyanın ən ürəyi bərk, toxdaq adamı da burda göz yaşlarını saxlaya bilmir. Hüseyn hər dəfə buraya gəlib Ülvinin, Səxavətin, Larisanın, Təbrizin, Qabilin, Yusifin...say-seçmə oğul-qızlarımızın məzarlarını görəndə ürəyinin dərinliyindən bir göynərti, bir yanğı başlayırdı. Şəhidlərin baş daşlarından boylanan nur timsallı şəkillərinə baxıb: – Onlar yaşasaydılar millətimizin gələcəyi necə də xoşbəxt olardı, İlahi" – deyərdi həmişə. Və bir də onu deyərdi ki, "Tanrı" adama öləndə də belə şərəfli ölüm qismət eləyə."

Demə belə şərəflə ölmək Hüseynin də qismətiymiş, alın yazısıymış. Düz otuz doqquz ildən bir az artıq idi ki, o, öləcəyi günə tərəf addımlayırdı. Ölüm hardasa gizlənirdi, qəfildən yaxalamaq istəyirdi onu. Bakıda – ailə üzvlərinin, dostlarının yanında ona yaxınlaşmağa ölümün cəsarəti çatmamışdı. Bilirdi ki, Hüseyn çox çevik, qoçaq oğuldur-yüz onun kimi ölümə can verən deyil. 1991-ci ilin avqustunda Hüseyn polis dostları ilə birlikdə Goranboya yola düşəndə o məkrli ölüm qarabaqara arxasınca düşüb izləməkdə idi onu. Qabaq-qabağa, üz-üzə gəlməyə kişiliyi, mərdliyi çatmadığından bu iblis xislətli ölüm erməni cildinə, dığa qiyafəsinə girdi. Əlinə, ayaq barmaqlarına, eybəcər dişlərinə silah alıb girəvə gözləməyə fürsət axtarmağa başladı. Goranboy rayonunun Buzluq, Manaşid, Erkəc kəndlərini düşmən həmləsindən qorumağa gedən Hüseynin

bu ölümdən xəbəri yox idi. Bilsəydi ki, qarşı tərəfdəki daşların çatında, külü havaya sovrulan evlərin xarabalıqlarında gizlənib ermənisifət ölüm, onun nəfəsini kəsərdi, qoymazdı ki, qəddini düzəldə. Ancaq xəbərsizdi ölümün bu cür alçaqlığından, rəzilliyindən. Əslində özünü heç düşünmürdü də. Bakıda bənövşə kimi boynubükük qalan ömür-gün yoldaşını da, bir cüt körpə-kövrək balasını da unutmuşdu, yaddan çıxartmışdı döyüş meydanında. Yadında qalan didərgin düşən soydaşlarımızın naləsiydi, şəhid balasının cənazəsi üstə saçını-birçəyini yolan anaların səsiydi, qız gəlinlərimizin Tanrı dərgahına qədər ucalan ah-fəğanıydı. Bu səsin, bu harayın içərisində "özünü gözlə, bizi atasız qoyma"-deyən Şəhlanın, Mehdinin səsini-ününü ayırd edə bilmirdi. Bu səslərin içərisində bir hayqırtılı, nərəli səs də var idi- onu bütün varlığıyla eşidirdi, "görürdü" Hüseyn. Bu igid Koroğlunun Tanrı məkanından gələn sədasıydı. Ordan: - "Hoydu dəlilərim hoydu,yeriyin düşmən üstünə!"-deyirdi bu səs.və Hüseyn də bu səsin "izinə" düşüb igid oğullarımızla birlikdə düşmənin üstünə yeriyirdi. Əlində silahı, üstündə qumbarası, ürəyində qeyrəti var idi onun. Düşmən bu qüvvətin, qüdrətin qarşısında aciz idi- elə ona görə də koramal kimi, yarasa kimi zülmətə çəkilməkdə idi. Düşmənin üstünə kişi kimi, mərd kimi gedirdi Hüseyn. Əyilmək təbiətinə yad idi onun. Bax belə bir məqamda əlinə fürsət keçdi ölümün. Erməni avtomatının gülləsi şəklinə düşüb Hüseynin ürəyinə sancıldı. Bu odlu-alovlu, Vətən üçün yanımlı ürəkdən qan töküldü torpağın yanğısı üstə...

O qanın səpildiyi torpaqda lalələr bitəcək bu bahar. Bu bağrı qan lalələr Hüseyndən – onun qeyrətindən dönə-dönə söhbət açacaq. Goranboyda bitən o lalələrin ləçəklərini külək özüylə gətirib Hüseynin ata ocağı Daşkəsəndəki qəbrinin üstə də səpələyəcək. Daşkəsən kəndinin dərəsi-təpəsi, bağı-bağatı Hüseynin ömründən soraq verən lalə qoxusuna boyanacaq. Bu lalələrin ləçəklərindən onun qanının rəngi də duyulacaq...

Bu kəndə Tanrı hər şeyi min əlnən verib. Barı-bərəkəti də, dağı-yamacı da, Vətən şəhidlərini də. Bu şəhidlərdən biri də adının işığına sığındığımız Mehdiyev Hüseyn Ağa oğludur. Allah onun cəmi şəhidlərimizlə birgə, qəbrini nurlu, xatirəsini işıqlı etsin!



## BU YOL HARA GEDİR GÖRƏN...

**Mehdiyev Zahid Təbriz oğlu**
**(01.1974-03.07.1992)**



Ata üçün dünyada ən müsibətli iş oğul dağı görməkdir. Ana üçün bala itirmək, onu soyuq üzlü torpağa tapşırmaq sağalmaz dərddir. Bu boyda dərdə tablaşmaq adamdan fil dözümü istəyir. Bu dərd ömrün altmışına üz tutan Təbriz kişinin belini sındırıb, neçə aydır ki, Zahid deyən dili-ağzı qabar-qabardır. Bu sitəm Zəri bacının saçlarından, titrək kəlmələrindən boylanır. Bu bəla xəmiri halallıqla yoğrulan ocağa necə yan aldı,xəbəri olan yoxdur...

Ata oğul bötütmüşdü ki, ixtiyar çağlarında onun enli kürəyinə sığınsın. Ana Zahid adlı balasını dünyaya gətirmişdi ki, onu yurd-yuva sahibi edib dünyadan ahi-zarlı getməsin..

Ata-anasının, ona dərs deyən müəllimlərin nəzərində Zahid fərasətli oğul idi. Kənd məktəbində yaxşı oxuduğu kimi evdə çöl-bayır işlərinə də əl atırdı. Səkkizinci sinfi qurtaranda oğlunun riyaziyyata olan həvəsini görüb Təbriz kişi onu rayon mərkəzində adlı-sanlı riyaziyyat müəllimi mərhum Sahib Bayramovun dərs dediyi internat orta məktəbinə apardı. Zahid burada ən ümid verən gənc riyaziyyatçı kimi şagird yoldaşlarından seçilməyə başladı. Hamı Zahidin gələcəyinə nikbinliklə baxırdı. Özünə, öz gücünə inanan bu qaynar gözlü oğlan Bakıdakı Neft Akademisında oxumağı qət eləmişdi..

1974-cü ilin yanvarında Böyük Mərcanlı kəndində dünyaya gələn Z.Mehdiyevin qəlbində ən müqəddəs duyğulardan biri torpaq eşqi, yurd istəyi idi. Hamının gözlədiyinin əksinə olaraq 1991-ci ildə orta məktəbi bitirən ili o, ali məktəbə getməyib kənddə – öz doğmalarının yanında qaldı.

– Oxumaq qaçmır ha – dedi – Allah qoysa gələn il gedərəm...

Zahidin dünənə qədər qələm-dəftər tutan əlləri ailənin ruzusundan ötrü indi də işdən-gücdən yapışdı. Halallıqla qazanılan çörəyin şirinliyini duya-duya ömrün bir ilini də arxada qoydu – gəlib 1992-ci ilin iyununa qovuşdu. Həmin günlərdə cəbhənin barıt qoxulu xəbərləri Mərcanlı evlərini dolaşmaqda idi. Kimlərsə ağzını açıb yeni-yeni qurbanlar istəyən cəbhəyə can atır, kimlərsə gözdən-könüldən uzaqda baş girləmək üçün bəhanə axtarırdı. İyun ayının

ortalarında ali məktəbə getmək üçün il boyu səylə hazırlaşan Zahid birdən-birə bu fikirdən daşındı. O, əsl kişi qətiyyətiylə atası Təbriz kişiyə üz tutub:

– Qağa dedi – günü sabahdan Cəbrayıldakı ordu bölməsinə gedəcəyəm. Vallah gün axşamacan Mərcanlı stansiyasında boş-boşuna dayananları görəndə özümə yer tapa bilmirəm. Axı Şuşa da, Laçın da, Xoçalı da Cəbrayıl da hamımızındır. Bizim sabahımız da diriliyimiz də bu torpaqla bağlıdır. Allah eləməmiş bu doğma yurd əlimizdən çıxıb yağı təpiyi altda inləsə tay yaşamağın nə mənası...

– Təbriz kişi elə bil oğlunu ilk dəfə görürdü. Onun müdrik sayağı görkəminə gizli bir qürur hissi ilə tamaşa edib ürəyində sevindi ki, zəhməti hədər getməyib, ciyərparası ürəyincə böyüyüb.

Zəri ana oğlunu niyyətindən daşındırmağa çalışıb:

– Ömrüm-günüm ,– dedi – axı sən bir tikə uşaqsan, silah tutmağı, güllə atmağı harda görübsən ki, döyüşə gedəsən.

Zahid anasının nəmli gözlərindən öpüb:

– Ay ana, - dedi – narahat olma, onu da öyrənərəm. Sən ki, mənim hünərimə bələdsən...

1992-ci ilin 26 iyununda Zahid Mehdiyevin əsgərlik həyatı başladı. Sən demə o iyirmi altı iyun günündən Zahidin ömrünün sonuna cəmisi yeddicə gün qalıbmış. Bu bir həftəlik əsgərlik həyatı Zahidi ömrün şəhidlik zirvəsinə qaldırdı...

1992-ci ilin iyulun üçündə Mərcanlını ev-ev, küçə-küçə acı bir xəbər dolaşdı. Dedilər ki, Mehdiyev Zahid Təbriz oğlu sərhəd kəndlərindən olan Qışlaq yaxınlığında erməni gülləsinə tuş gəlib. Həmin gün çoxları Allaha üz tutub:

– İlahi, kaş bu xəbər yalan olaydı. Axı hələ əli, avtomat silaha təzə-təzə öyrəşən bu yeniyetmənin günahı nədir ki, onun qanı tökülə - deyirdilər. Ancaq xəbər yalan olmadı. Günortadan sonra Zahid qara örtüklü tabuta sığınıb evlərinə qayıtdı. Bu qeyrətli oğulun məktəbli bacısı Sahilə qardaşının hərarəti soyuyan cənazəsi üstə saçlarını tökərək:

*Şöhrətim, adım Zahid,*
*Qolum,qanadım Zahid.*
*Getdin, qaldı gözümdə –*
*Arzum, muradım, Zahid!*

- deyib tabutu bağrına basdı...

Ulu Tanrının müqəddəs torpaq məkanına mərhumu yola salmazdan qabaq ölü namazına yığışanlara üz tutan İsa kişi:



– Bu xəmir deyəsən hələ çox su aparacaq ay camaat! – dedi. Bir ucdan şir ürəkli oğullarımız şəhid olur, bir ucdan da...

Bəlkə də İsa kişi demək istəyirdi ki, bir ucdan da xəyanət baş alıb gedir. Şuşa, Laçın, Xocalı, əldən gedən neçə-neçə yurd yerlərimiz kimlərinsə xəyanətinin qurbanı olur. Axı kim idi cəmisi bircə həftəlik əsgər həyatı yaşayan Zahid kimi oğullarımızı hərbi hazırlıq görmədən ölümün ağzına atanlar? Nəhayəti, sonu görünməyən bu yol hara gedir?

Zahidin, Zahid kimi yüzlərlə oğullarımızın bizdən incik qalan ruhları bu sualların cavabını gözləyir. Gedər-gəlməzə üz tutan bu yolun əzəli-axırı görünmür hələ də...

## BİR GÜMAN YAŞAYIR ÜRƏYİMİZDƏ

**Nəcəfov Elsevər Serbiya oğlu**
**(14.01.1973-28.06.1992)**



– Mən şəhid Elsevərin dayısıyam, adım Məhərrəm, soyadım Gülməmmədovdur. Cəbrayıl şəhidlərindən kitab yazdığınızı eşidib yanınıza gəlmişəm.

Qarşımızda dayanan 55-60 yaşlı ucaboylu, qarayanız kişi evin ağrı-acısını da özüylə bərabər gətirib elə bil.

– Eşitdiyimizə görə itkin düşüb bacınız oğlu, bəlkə heç ölməyib, hardasa sağdır hələ.

– Bir müddət biz də belə güman eləyirdik. Yüz səmtə, yüz yerə un saldıq. Soraq verən olmadı. Axırda əlimizi üzdük ondan...

– Bəlkə heç onu şəhid kimi qələmə verməyək. Bəlkə hardasa ermənilərin caynağındadır, bir gün Allahın köməyi ilə azad olub qayıdacaq.. Məhərrəm kişi nəmli gözlərinə barmağını toxundurub dərindən ah çəkdi:

– Allah ağzından eşitsin. Müharibədə belə hadisələr azmı olur? Ancaq biz ümidimizi itirmişik. Ötən ilin iyirmi səkkizi iyunundan bu yana Elsevərin nişanəsini gördüm deyən yoxdur..

– İnsan ömrü boyu bir baxım işıqdan, bir tikə ümiddən yapışıb durur...

– Bacım Simuzərin sözləri olmasaydı elə mən də sonuncu gümandan yapışıb durmuşdum. O günü bacım uşaqları xəbər gətirdilər ki, anamız səni

çağırır. Çatanda gördüm ki, mənim dərdli bacım dizlərini qucaqlayıb yollara baxır. Könlünü almaq istədim, ovunmadı.

– Qağa –dedi –indiyə kimi elə bilirdim Elsevər balam sağdı. Günlərin birində evimizə qayıdacaq. Tay bu gündən sonra...

Bacım özünü saxlaya bilməyib əllərini dizinə şappıldatdı.

– Anası ölmüş axşam yuxuma girmişdi. Əllərini mənə tərəf uzatdı. Nə qədər çalışdımsa əllərindən tuta bilmədim. Birdən Surun yamacından üzüaşağı bir topa duman gəldi. Çatan kimi Elsevəri özüylə götürüb aparmağa başladı. Ha yüyürdüm dalınca, çata bilmədim.

– Ana, məni axtarma, bir də qayıtmayacağam. Yerim göylərdədir...

O gündən bəri bacımı ovundura bilmirəm. Tay Elsevəri şəhid kimi ağlayır...

Məhərrəm kişi özünü toxdaq saxlamağa çalışsa da bacarmır. Hiss olunur ki, sevimli bacısının ölcüyə gəlməyən dərdi onu yandırıb yaxır...

– Bircə səhv elədim o vaxt – Sur əməliyyatından sonra bir naməlum şəhid meyiti var idi. Allah göstərməsin tanınmalısı qalmamışdı. Gərək onu Elsevər adıyla dəfn edəydim, bacımın gözü yığışaydı özünə, qohum əqraba razı olmadı. Dedilər bəlkə heç Elsevər deyil. Bəlkə əsir aparıblar onu, bir gün qayıdacaq...

– Bəs necə oldu o meyitin taleyi?

– Rayon camaatı ehtiramla dəfn etdilər onu. Elə bilirəm ki, rayon mərkəzindəki o məzarda bütün şəhidlərimizlə yanaşı Elsevərin də ruhu uyuyur. Heç bilirsiniz necə oğul idi Elsevər? Allaha and olsun bacımoğlu olduğu üçün demirəm – elə oğul idi ki, adam iki göz istəyirdi ki, tamaşa etsin. Ucaboylu, sağlam görünüşlü, ürəkli, təpərli bir uşaq idi...

Qəribə taleyi, ağrılı-acılı ömür payı var Elsevərin. Özündən sonra bir dünya dərd-ələm qoyub gedib. Doyunca ömür sürmədiyi kimi, taleyindən də yarımayıb. On yaşına çatanda atasızlıq nisgili çiyinlərinə yüklənib. Simuzər ana ailədə böyüyən yeddi uşağın hamısından artıq Elsevəri istəyib. Elsevər bu məhəbbəti ürəyinin təpəriylə qazanıb. Bir tikə vaxtından çəlimsiz çiyinlərini evlərinə dayaq edib. Anasının və qardaş-bacılarının ümidi, pənahı olub. Orta məktəbi qurtarandan sonra uzağa getməyib. Füzuli rayonunun Qarağbazarı kəndində sürücülük kursunu bitirib. Əli bir tikə ruzuya çatanda onu uzaq Rusiyaya hərbi xidmətə aparıblar. Burada narahat günləri, səksəkəli anları başlayıb onun. 1991-ci ilin sonralarında əsgər yoldaşı – dayısı oğlu Kamalla sözü bir yerə qoyub Vətənimizə qayıdıblar. Sonra da Cəbrayıl rayon hərbi komissarlığına gəlib ikisi də eyni gündə torpaqlarımızı yağılardan qorumaq üçün əllərinə silah alıblar. Sur əməliyyatı başlanan günə qədər Elsevər Kamalla



birlikdə dönə-dönə Quşçular postunda torpaqlarımızın keşiyini çəkib. Tale bu igid oğlanı neçə-neçə sınaqdan keçirib. Silah yoldaşları onu sözü bütöv, ciyərli bir oğlan kimi tanıyıblar...

Məhərrəm kişiylə söhbətimiz uzandıqca Elsevər gözlərimizdə buğum-buğum böyüyür, zirvə-zirvə ucalır. Bu söhbətdən səsi-ünü gəlir elə bil Elsevərin.

– Bacıoğlum döyüşlərə yollananda elə bil toya-bayrama gedirdi. Üz-gözündən sevinc yağırdı həmişə. Çox nikbin, təmkinli bir oğlan idi. Şəhid olmazdan on gün qabaq evlərinə gəlmişdi. Anasının üzümlükdə yer bellədiyini eşidib birbaşa oraya yollanmışdı. Həmin gün anasıyla və bacısı Mahruxla o ki, var işləmişdi burda. Evə qayıdana yaxın qohumu Salman kişiyə üzünü tutub:

– Salman əmi, tay bir də Allah bilir nə vaxt gələcəyəm buraya. Sən Allah mənim əvəzimdən anama kömək edərsən – demişdi onda...

Ondan sonra kəndə tay bir də qayıtmadı Elsevər. Qayıtmaq istəyirdi, əcəl aman vermədi ona...

Uğursuz Sur əməliyyatında xeyli şəhid vermişdi Cəbrayıl torpağı. Çoxları Banazur, Quşçular, Sirik, Dolanlar... postlarını gəzə-gəzə balasını soraqlayırdı. Məhərrəm kişi hər yanı ələk-ələk etsə də Elsevəri gördüm deyən yox idi. Axırda Kamal özünü saxlaya bilməyərək:

– Qağa, –dedi– mən də o döyüşdə idim. Elsevərgil bizdən çox qabaqdaydılar. İnanmıram onlardan sağ qalan ola –deyib ağladı..

Cəbrayıldakı hərbi hissənin rota komandiri Rəşid Əliyevdən Elsevəri soruşduq:

– Çox yapışıqlı oğlan idi. Yoldaş yolunda canından da keçərdi. Torpaq uğrunda, qeyrət yolunda şəhid oldu. Heyif ki, meyitini torpağa tapşıra bilmədik –dedi. Elə Simuzər ananı da yandıran budur. Başqa şəhid analarına nə var axı, Simuzər ana onlara ürəyində qibtə edir. Heç olmasa o analar balalarının məzarına baxıb təsəlli tapırlar. Heç olmasa o analar şəhid balalarının yadigar qanlı köynəklərinə üzlərini söykəyə bilirlər. Heç olmasa..

Bəs, Simuzər ana neyləsin? Əli çatmır, ünü yetmir cinərparasına. Barı nişangahı, yadigarı qalmayıb ki, üzünü ona çevirə. Bu dərdli ananın ürəyinin lap dərin qatından bircə işartı boylanır hərdən. Anaya hərdən elə gəlir ki, indicə möcüzə baş verəcək və onun Elsevəri o dağların quzey üzündən çıxıb evlərinə qayıdacaq.

Dünyada azmı möcüzə olur? Nə ola Ulu Tanrı Simuzər ananın o sonuncu gümanını göyərdə. Elsevərə şəhid yox, itkin deyək. Bu itkin oğul ömrün dumanından çıxıb ata ocağının işığını öz əlləriylə yandıra. Nə ola, ay Allah, görək bu günü...

# O GÜN UZAQDA DEYİL...



**Rüstəmov Pəhlivan Zaman oğlu**
**(1965-28.06.1992)**

Beş ildir ki, bu kəndin yuxusu ərşə çəkilib. Beş ildir ki, yalda-yamacda taxıl əkən, üzümlük becərən, bir parça torpaqdan ruzusunu çıxaran camaat perik düşüb bu kənddən. Dünyanın çalçağırlı vədəsində qonağı-qarası əskik olmayan bu kəndin diş göynədən bulaqları indi tənhalıqdan doluxsunur. Tanrının yadından çıxıb elə bil Qışlaq kəndi. Yamacdan gündoğana boylanan evlərin xarabalıqlarını görəndə adam iliyinə qədər titrəyir, üşüyür burada. Bu doğma torpaqdan əli çıxan Qışlaq camaatı nə vaxtdır ki, Araz boyu kəndlərə sığınıb sabahkı talelərinə nigaran-nigaran boylanırlar. Beş ildir ki, erməni dığalarının yüz addımlığında olan bu kəndin işıqları daha yanmır. Buradakı evlərin uçuq divarına sığınan igid oğullarımız düşmənin Süleymanlıya uzanan yolu üstə sipərə dönüblər. Və bu kəndi bir də qoruyan Qışlağın şəhid balası Pəhlivanın ruhudur. Bu igid oğlanın rahatlıq bilməyən ruhuna hörmət əlaməti kimi milli ordumuzun əsgərləri erməni dığalarının buraya dikilən gözlərini ovmaq üçün möhkəm dayanıblar. Əslində igid əsgərlərimizlə üzbəüz döyüşdən çəkinən quldurlar uzaq vuran silahlarla bu kəndin külünü havaya sovurublar. İndi burada Qışlaq cavanları milli ordumuzun əsgərləri ilə kürək-kürəyə dayanıb öz doğma yurdlarını qoruyurlar yağı həmləsindən. Onlar Pəhlivanın qisasını almaq üçün gecə-gündüz məqam gözləyirlər burada. Hər dəfə postlara yollananda şəhid Pəhlivan Rüstəmovun məzarını gözləri önünə gətirib:

– Rahat yat eloğulu, – deyirlər – doğulduğun torpağa qoymarıq düşmən ayağı dəyə. İnşaallah bu gün-sabah onların nəfəsini kəsəcəyik. Bu sözlərdən sonra hardansa şəhid Pəhlivanın qaibanə səsi eşidilir elə bil:

– Möhkəm durun, qardaşlarım – deyir – yurdumuzun qiyamət günüdür – Allahın əli kürəyinizdə olsun...

Və bu sözlərdən sonra Pəhlivanın iki-üç səhifəlik kağıza sığan iyirmi yeddi illik ömür yolu keçir adamın gözləri qarşısından.

Dünyaya gəldiyi gündən torpağın namus, qeyrət və bir də ruzu olduğunu öz gözləri ilə görüb. Başa düşüb ki, Vətən onun zəhmetkeş atası Zaman kişinin



minbir əziyyətlə sərt dağ yamacında əkib-becərdiyi bir parça torpaqdan başlayır. Bu torpaq dirilər üçün yurd yerinə, dünyadan köçənlər üçün gor evinə çevrilir. Pəhlivana görə dünyaya gələn hər kəs bu torpaqda bir nişanə qoyub getməlidir. Bir zamanlar o belə duyurdu, belə qavrayırdı torpaq istəyini, yurd anlayışını. Elə bir peşə qazanmaq istəyirdi ki, ondan hamı faydalana bilsin. Bəlkə də buna görədir ki, o, böyük məktəblərdə oxumaq həvəsinə düşmədi – Bakıdakı texniki peşə məktəblərinin birində dülgərlik sənətinə yiyələnməklə kifayətləndi. İki illik əsgəri xidmətdə də bu peşənin hərarəti ilə qabarlı əllərini isitdi. Vətənə qayıdıb bir müddət Bakıda soydaşlarına ev-eşik düzəldə-düzəldə ruzu qazandı. Arzusu doğma kəndləri Qışlağa qayıdıb öz əlləriylə özünə yaraşıqlı bir ev tikmək idi. O zamanlar yüz minlərlə yurddaşlarımızı respublikadan uzaq Rusiya ellərinə sürükləyən dəmir manеələr arzusuna çatmağa imkan vermədi. Bir parça çörək dalınca qarlı-buzlu Saxalinə gedib çıxdı. Ömrünün düz üç ili qürbətdə dolanışıq axtarmaqda keçdi...

Saxalində yaşadığı illərdə doğma Qışlaq kəndini, ata-anasını, kənd camaatını dədə-baba qəbristanlığını bircə gün də yaddan çıxara bilmirdi. Axır ki, torpaq həsrəti üstün gəldi ona. Vətənə gəlib Xudafərin SES-in tikintisində işə düzəldi. Burada çalışan eloğlularımıza yurd-yuva tikdikcə elə sevinirdi ki, elə bil dünyanı ona bağışlamışdılar...

Bir dəfə ata-baba yurdu Qışlağa gəlib doğmaları ilə görüşmək istədi. Onda hələ Qışlaq camaatı kəndi tərk etməmişdilər. Süleymanlını keçib kəndin ilk evlərinə çatanda başının üstündən neçə-neçə ölüm yüklü mərmi ötüb keçdi. Sabahısı qayıdıb işlədiyi idarədəki iş yoldaşları ilə vidalaşdı:

– Orda mənim doğmalarımın həyatı təhlükədədir. Daha burda qala bilmərəm. Sağlıq olsun, bir də müharibə qurtarandan sonra buraya qayıdacağam – dedi...

Elə həmin gün əlinə silah alıb Cəbrayıl polislərinə qoşuldu. Onlarla birlikdə gecə-gündüz postlarda dayandı. Pəhlivandan nümunə götürən Qışlaq cavanları da həvəslə orduya gəldilər.

Bir dəfə ( bu hadisə – 1991-ci ilin payızında olmuşdu, onda bu yerlərdə indinin özündə hörmətlə xatırlanan Rəşid Məmmədov Cəbrayıl rayon DİŞ-nin rəisi idi) Sura girmək üçün əməliyyat hazırlanmışdı. Bu döyüşdə Pəhlivan Rüstəmov da iştirak edirdi.Yoxuşun ayağında BTR minaya düşdü. Bir neçə əsgərlərlə birlikdə Pəhlivan da yaralandı. Qolundan və qıçından xeyli qan itirmişdi. Yarasının sağalmağını gözləməyib yenidən postlara getdi. Milli ordumuzun Cəbrayıl bölməsində qranatamyot hissəsinin komandiri kimi tanıyırdılar onu. Hər bir əsgər yoldaşının üstündə yarpaq kimi əsirdi Pəhlivan. Deyirdi ki, Surda çox ölən-itənlərimiz olub. Eşitmişəm ki, daşnak yuvası Yere-

vanda qəhrəman kənd adı veriblər Sura. Həmin kəndin külünü göyə sovurmasam dünyada yaşamaram. Ötən ilin yayındakı Sur əməliyyatında digər döyüşçülərlə yanaşı Pəhlivan da cəsarətlə vuruşurdu. Erməni dığalarına qanlı divan tutub özü öz əlləriylə üç rəngli bayrağımızı Surdakı evlərin birinin üstə sancdı. Sonra əməliyyat meydanındakı yaralı əsgərlərimizi BMP-yə yığıb arxaya apardı. Bundan sonra yoxuşdan düşüb qalan əsgərlərimizin meyitlərini arxaya göndərdi. Düşmənə Sur kəndində elə bir divan tutulmuşdu ki, onların sağ qalanları canlarının hayında idi. Pəhlivan və onun əsgər yoldaşları hərbi texnika ilə Surun küçələrini dolaşır, buradakı mövqelərimizin möhkəmləndirilməsi üçün əllərindən gələni edirdilər. Onların mindikəri BMP Surun mağazası yanında erməni quldurlarının mərkli fəndlə gizlətdikləri minaya düşüb partladı. Surdakı uğurlu əməliyyatın sevincini doyunca yaşaya bilməyən Pəhlivan həlak oldu. 1992-ci ilin iyirmi səkkiz iyunu Rüstəmov Pəhlivan Zaman oğlunun məzarındakı baş daşına ölüm tarixi kimi yazıldı...

Pəhlivanın və onun igid yoldaşlarının şəhid olduqları axırıncı Sur əməliyyatından bəri bu kəndin başı çox bəlalar çəkib. Gün gələcək ki, bu kənddə yurddaşlarımız torpağı əkib becərəcəklər. Onda bu kəndin sakinləri Pəhlivan kimi oğullarımızı yada salıb:

– Allah onlara rəhmət eləsin – deyəcəklər – bir vaxtlar torpaqlarımızın azad olması üçün canlarından keçib bizə əmin-amanlıq bəxş ediblər. O gün uzaqda deyil, o gün tezliklə gələcəkdir.



## BURDAN QATARLAR KEÇƏR...

**Süleymanov Qabil Oruc oğlu (12.12.1962-27.08.1992)**



Qumlağın Gəyən düzünə uzanan səmtindəki kənd qəbristanında ötən ilin avqustundan bir şəhid məzarı ürəkləri göynədir. Bu məzarda torpağımızın azadlığı yolunda erməni faşistlərinə qan udduran qeyrətli bir oğul uyuyur. İllər boyu Xudafərin nisgilini yaşayan Arazın kövrək nəğmələrinə üzünü söykəyən bu məzarın baş daşında bir igid ömrünün beş-üç kəlməsi: "Süleymanov Qabil Oruc oğlu – 1962-1992-ci il 27 avqust" sözləri yazılıb. Bu sözlərin arxasından otuz illik bir ömrün ilk nidası, son harayı boylanır.

Qabil Qumlaq kəndində dünyaya göz açıb. Ağlı kəsəndən ilk dəfə gördüyü evlərinin otuz-qırx addımlığından gecə-gündüz ötüb keçən qatarlar olub. Bir dəfə iri yanacaq çənlərini üzü yoxuşa güclə çəkib aparan qatara baxıb uşaq marağı ilə atası Oruc kişidən soruşub:

– Dədə, bu qədər yanacağı hara aparırlar?

Ata oğlunun saçlarına əlini çəkib:

– Yerevana aparırlar, mənim balam. Erməni dostlarımıza onu göndəririk ki, rahat yaşasınlar.

– Ay dədə, bəs niyə qatar oradan qayıdanda vaqonlar boş olur, niyə onlar bizə heç nə göndərmirlər?

– Oğlum, verilən paya əvəz istəməzlər. Axı, biz hamımız bir ölkənin vətəndaşıyıq...

Onda hələ dünyanın düz vaxtlarıydı. Onda hələ saxta sovet imperiyasının təbirincə desək bütün millətlər bir bayraq altında qardaş idilər. Onda hələ Qabil, elə Oruc kişinin özü də səksən səkkizinci ildən başlayacaq müsibətlərimizdən uzaqda idilər. Oruc kişi gecəni gündüzə qatıb vicdanlı bir dəmiryolçu kimi Bakıdan Yerevana uzanan polad qolların sahmanda olmasına çalışırdı. Onda hələ Oruc kişi qabarlı fəhlə əlləri ilə bu yollara sığal çəkirdi. Qabil atasının peşəsinə elə vurulmuşdu ki, "o vaxtlar din ayrı qardaş" hesab etdiyimiz qonşularımıza həyat yükü daşımaq üçün böyüyəndə qatar maşinisti olmaq arzusunda idi...

Elə bu arzu ilə də 1979-cu ildə Bakı Dəmiryol texnikumunun elektrovoz maşinisti şöbəsinə daxil oldu. Onun ömür yolu 1979-cu ilin payızında buradan şimala-Zabaykalye hərbi hissəsinə uzandı. Əsgəri xidmətdə olduğu illərdə tankçı peşəsinə yiyələndi. Sonra yenidən doğma respublikamıza qayıdıb Dəmiryol texnikumunda təhsilini davam etdirdi. 1982-ci ildən Biləcəri elektrovoz deposunda əvvəlcə maşinist köməkçisi, sonra isə maşinist işləməyə başladı...

1988-ci ilin fevral hadisələri başlayanda dönük qonşularımızın məkrli sifətini görüb qəzəbindən yerə-göyə sığmadı. Yadına illər boyu evlərinin yanından Araz boyu keçən ağır yüklü qatarlar düşdü. Yüz dəfə yana-yana:

– Əhliyyətimiz burnunuzdan gəlsin! – dedi:

1992-ci ilin əvvəllərində ordumuzun yaradılması üçün ilk addımlar atılanda ürəyindən keçdi ki, cəbhəyə yollansın. "Buradakı xidmətin əsgər hünərinə bərabərdir – dedilər – hələ qal, işlə, sonrasına baxarıq"...

Bir neçə gündən sonra Xocalı faciəsini eşidəndə tay Qabili saxlamaq mümkün olmadı:

- Orada, Qarabağda xalqımın qeyrəti, namusu hərraca qoyulduğu bir vaxtda mən burada qalıb işləyə bilmərəm –dedi.

İşdən çıxıb birbaşa Binəqədi rayon hərbi komissarlığına gəldi. Onu bacarıqlı bir mütəxəssis kimi tank hissəsinə göndərdilər. Bir vaxtlar öyrəndikləri köməyinə gəldi. Bildiklərini əsgər yoldaşlarından əsirgəmədi.

May ayının əvvəllərində Şuşanın süqutundan sonra Ağdamdakı hərbi hissəyə yollandı. Tank komandiri, baş leytenant Qabil Süleymanov sürücü və atıcı dostları Bəxtiyar və Elxanla birlikdə Naxçıvanik uğrunda döyüşlərdə fəal iştirak etdilər. Xocalıda, Şuşada azğınlıqlar törədən düşmənlərin başına od yağdırdıqca, Qabil gündə neçə yol:

– Mənfur köpəkuşağı, hələ harasıdır – sizə öz yuvanızda od vuracağam – dedi. Yurdu-yuvası dağılan, sinəsinə oğul-qız dağı çəkilən ata-anaları, ömrün cavan çağlarında dul qalan gəlinləri, yetim qalan boynu-buruq körpələri düşündükcə qəzəbindən yumruqları düyünləndi. Şəhid tankçı dostları Şəhriyarın, Qurbanın, Mehmanın qanını yerdə qoymadı. Düşmənin torpağımıza sərələnən murdar cəmdəklərinə tüpürüb iraliyə şığıdı. Hissə komandiri, döyüşçü dostları onun hünərindən ruhlandılar, ünvanına xoş sözlər dedilər. Komandiri neçə dəfə bu qeyrətli eloğlumuzu bağrına basaraq:

– Əhsən, qardaşım – dedi– sən əsil qəhrəmansan, sənin kimi igid oğulların alnından öpməyi özümə borc, şərəf bilirəm.

Oruc kişi Qabilin döyüş yolundan söz açanda ürəyi göynəyə-göynəyə xatırlayır ki, yazıq balam neçə dəfə deyib ki, Ağdamda, onun ətrafında üzdəniraq neçə-neçə "millət qəhrəmanları" nəinki döyüşür, əksinə



irəliləməkdə, azğın düşməni torpağımızdan vurub çıxarmaqda bizə mane olublar, niyyətimizdən düşməni hali ediblər. Oruc kişi bir də onu deyir ki, bir dəfə Qabil yana-yana – Ay camaat,– deyib – vallah bu Qatır Məmməd deyilən adam vuruşmaqla yox, talançılıqla, var-dövlət yığmaqla məşğuldur. Beləleri heç vaxt istəməzlər ki, müharibə qurtarsın...

İyun-iyul aylarında Qabil Ağdərə torpaqlarının düşməndən təmizlənməsi uğrunda vuruşub. Döyüş dostları ilə yüzlərlə düşmən yaraqlısını birlikdə məhv edib, neçə-neçə erməni quldurunu əsir alıblar. Döyüşlərdə Qabilgil düşmənin üç tankını, iki qrad qurğusunu, on zirehli maşınını məhv edib, xeyli hərbi sursat ələ keçiriblər. Sonra..sonra isə Drambon uğrunda döyüşlərdə Qabil özü də qəhrəmancasına həlak olub. Onun qəhrəmanlığı barədə tank hissələri komandiri podpolkovnik E.Orucov ürək dolusu danışır. Onun igidliyindən Müdafiə Nazirliyinə tərtib edilib göndərilən sənədlər də söz açır...

Oruc kişi oğlunun ölümündən sarsılsa da yeri düşəndə özünə təsəlli də tapır:

– Oğlum Vətən yolunda şəhid gedib. Belə ölüm şərəflidir – deyir. Bu ixtiyar atanın incikliyi ondadır ki, oğlunun ölümündən rayonumuzdakı hakimiyyət orqanları gec xəbər tutublar.

– Əslində- deyir- bizə adicə başsağlığını da çox görüblər. Vallah, heç kəsi qınamaq olmur, bəlkə baş qarışıqdır deyə, şəhid oğlum, onun ailə üzvləri yada düşməyiblər.

Biz oğul itirən bu ixtiyar atanın dözümü qarşısında baş əyib:

– Oruc dayı – deyirik – fikir eləmə, Allah qoysa azğın düşmənin susdurandan sonra şəhidlərimizi də, onların nisgilli ailə üzvlərini də gözlərimiz üstə yaşadarıq..

Oruc kişi:

– İnşallah, təki o günü tezliklə görək-deyir.

Qabilin dünyaya göz açdığı Qumlaq kəndindəki evlərinin otuz-qırx addımlığından gecə-gündüz qatarlar ötüb keçir. Həyat yüklü, tale yüklü, azuqə yüklü qatarlar. Bu qatarlar dərənin dibi ilə qıvrıla-qıvrıla üzü Xudafərin körpülərinə tərəf axan Araza və bir də Qumlaq kəndinin qəbristanında uyuyan Qabilin məzarına boylana-boylana ötüb keçirlər. Bu qatarların harayını eşidəndə Oruc kişinin ürəyindən "dəli bir ağlamaq" keçir. Ata nisgilinə, ana hıçqırığına bir bayatı kövrəkliyi qarışır:

*Balamı kimlər ağlar,*
*Taleyi kəmlər ağlar.*
*Yarama toxunmayın –*
*Ürəyim simlər, ağlar...*

## ATA NİSGİLİNƏ SIĞIŞAN ÖMÜR...



**Süleymanov Ərəstun Tariyel oğlu (23.01.1973-28.06.1992)**

Yanvarın iyirmi doqquzu gecəsi Süleymanovlar ailəsinin ən əziz günüydü. Bu evin bir az hüznlü, bir az solğun işığı altda yığılan qohum-qardaş dünyadan vaxtsız-vədəsiz gedən şəhid Ərəstunun on doqquz yaşını qeyd edirdilər. Təkcə Ərəstunun özü yox idi burada. Özü istəsəydi də daha bura gələ bilməyəcəkdi. Onun əvəzindən böyüdülüb divardan asılan qara lentli şəkli iştirak edirdi özünün ad günündə. On doqquz yaşının içərisindən çıxıb gələ bilməmişdi Ərəstun bu məclisə. Bu gecədən o yana uzanan çığırla elə bil bu şəhid oğlanın təzəcə hünəri eşidilən iyirmi yaşı addımlamaqda idi:

İnnən belə Ərəstun on doqquzdan bu yana adlaya bilməyəcək heç vədə. On doqquz yaşının üstünə gələn illəri onun xatirəyə dönmüş adı yaşayacaq bundan sonra...

Ortada soyumaqda olan çay stəkanlarına kimsə əlini uzatmağa çətinlik çəkirdi elə bil. Tariyel kişi oğlunun ad gününə toplaşanlara üzünü tutub:

– Siz Allah, Ərəstunumun xatirinə çayınızı için, onun ruhu incik qalmasın! Səkinə ana divardakı şəkilə üzünü tutub: – Boyuna qurban olum, doğmaların, dostların ad gününə yığışıb, nolar bircə kəlmə də sən de!...

Şəkildən boylanan bu igid oğlanun fikri hardasa uzaqlarda, burdan Araz qırağının beş addımlığından aydın görünən başı qarlı o dağların yanında idi. Dağların o üzündə gecə-gündüz top-güllə səsi kəsilmək bilmirdi. Ərəstun o dağların güney üzündə igidliklə şəhid olmuşdu. İndi onun ömür yolu, döyüş rəşadəti ən kiçik ritmlərinə qədər hamının yaddaşında iz salmışdı...

Ağlı kəsəndən hər şeyin mahiyyətini dərk etməyə çalışırdı. Orta məktəbi də yaxşı qiymətlərlə qurtarmışdı. Texniki peşə məktəbində oxuyanda Məmiş müəllim bir dəfə ona:

– Ərəstun, sən ki, bu qədər çalışqansan, təəccüb edirəm, niyə yüksək biliyin ola-ola traktorçu peşəsini öyrənmək istəyiylə bura gəlmisən. Axı, sən institutda oxumağa layiq tələbəsən. Ərəstun fikirləşmədən:

– Müəllim – dedi – Allah qoysa institutda da oxuyacağam, özünüz görəcəksiniz...

Doxsanıncı ilin 20 yanvar qırğınının səhəri – onda hələ Ərəstun rayondakı 131 nömrəli peşə məktəbində oxuyurdu – məktəbin həyətində qalaqlanan o



vaxtkı Siyasi Büro üzvlərinin portretlərinə və şüarlar yazılan plakatlara öz əliylə od vurub: Yalan üstə qurulan bir imperiyanın ordusundan ölümdən, qandan savayı nə gözləmək olar – dedi.

Atası nağıl edir ki, iki il qabaq pasport almışdım ona. İlk dəfə onu əlinə götürüb üstündəki gerbə baxandan sonra ikrahla dedi:

– Mən belə bir iyrənc ölkənin vətəndaşı olmaq istəmirəm, onun ordusu Bakının küçələrində xalqımın qanını axıdıb. Qarabağda başımıza müsibət açıb.

Müəllimi Novruz Quliyevin dediyinə görə çox vətənpərvər, ürəyi təpərli oğlan imiş Ərəstun. Çoxlu şeir bilirmiş. Xoşuna gələn mahnıların sözlərini, ilhamla yazılan şeirləri tez əzbərləyərdi. Müəllimləri məktəbdə keçirilən bir tədbirdə Ərəstunun dilindən:

*Bəlkə də borcundan çıxmadım, Vətən,*
*Ömür bahar deyil, geri qayıtsın.*
*Öləndə qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın.*

–misralarını eşidəndə sevindilər ki, torpağımıza ürəkdən bağlı olan şagirdləri var. Bu misralar o zaman Ərəstunun dilində bir and kimi səslənmişdi. Bu misraları dediyi vaxt eyninə belə gəlmirdi ki, xalqımızın 20 Yanvar müsibətlərinə addım-addım yaxınlaşmaqdadır...

Ərəstun Milli ordumuza gəlməmişdən əvvəl bir ilə yaxın Ukraynada hərbi xidmətdə olub. Orada yaxşı tankçılardan sayılıb. Məzuniyyət alıb doğma ellərə gələndən SSRİ-nin işğalçı ordusunda milli ayrı seçkiliyin gücləndiyini xatırlayıb xidmət yerinə tay qayıtmayıb. Ordumuzun Cəbrayıl hissəsinə gəlib ötən ilin aprel ayından igid əsgərlərimizlə birlikdə ana bacılarımızın namusu keşiyində dayanıb. Onu tanıyan əsgər yoldaşları nağıl edirlər ki, Ərəstun heç nədən qorxub çəkinən deyildi. Fiziki cəhətdən çox sağlam və boylu-buxunlu olan bu oğlan postlarda dayandığı ilk günlərdən ölüm xofunu içində boğmuşdu. Ölüm ona yaxın düşməyə cəsarət etmirdi. Bizimlə söhbət zamanı atası Tariyel kişi də bunu təsdiq etdi.

– Oğluma ölüm yaxın düşə bilməzdi, o çox çevik və hazırlıqlı idi. Döyüş zamanı arxadan kömək gəlsəydi o qanlı döyüşdə balalarımız nahaqdan qurban getməzdilər...

Səkinə ana kövrələ-kövrələ: – Ərəstun sonuncu döyüşdən bir gün qabaq icazə istəyib evimizə gəlmişdi. O axşam xeyli gec yatdıq – söz-söhbətimiz gecə yarıya kimi uzandı. Səhər obaşdan durub yola düzəldi. Biz qalmasını təkid edəndə – söz vermişəm gərək özümü vaxtında çatdıram – dedi...

Tariyel kişi deyir ki, iyun ayının ortalarında Ərəstundan nigaran olduğumdan rayona gedib onu soraqladım. Dedilər ki, postdadır. O vaxt heç özləri də tapa bilmədilər ki, hansı postda dayanır oğlum. Məcbur olub özüm axtarmağa getdim. Axır ki, Quşçular postunda görüşdüm Ərəstunla. Burada Ərəstundan başqa beş cavan əsgər yoldaşı da var idi. Möhkəm dostlaşmışdılar. Sonradan eşitdim ki, altısı da and içiblərmiş ki, ayağımızı bir addım da geri qoymayacağıq. Birinci Sur əməliyyatı zamanı axırıncı patronlarına qədər atışıb bir yerdə şəhid olmuşdular...

İyunun iyirmi səkkizində şəhid olan oğlunun meyitini dörd gün sonra geri ala bilmişdi Tarıyel kişi. Bu dörd gündə bir allah bilir çəkdiyi əzab-əziyyəti. Altı əsgər meyitinin geri alınmasında Vaqif Əlisoyun çox köməyi olmuşdu şəhid atalarına...

Tariyel kişi deyir ki, oğlumun ölümünə o qədər də yanmıram – o, Vətənin balasıydı, onun yolunda da gedib. Məni yandıran odur ki, oğlumun meyiti erməni caynağında qaldığı günlərdə hərbi hissədən bircə adam da (söhbət komandir və zabitlərdən gedir) dərdimizə şərik çıxmadı. Oğlumun qırxının çıxmasına beş gün qalmış o vaxtkı batalyon komandiri Nazim Yusifov qapımıza gəldi. Ev idi, qapım idi, ürəyimdən keçənlərin heç yüzdə birini də üzünə çırpa bilmədim. Məni yandıran odur ki, uğursuz Şişqaya, Sur əməliyyatlarında neçə igid oğullarımız nahaqdan qızıl gülləyə tuş gəldi. Müdafiə Nazirliyindən bircə adam gəlib soruşmadı ki, bu cavanları qırğına verən əməliyyat planını kim hazırlayıb, onun icrasına kim cavabdeh idi. Döyüş zamanı Füzuli tərəfdən də hücum nəzərdə tutulmuşdu. Niyə o kağız üzərində qaldı? Bu "niyə"lərdi indi Tariyel kişini üzüb əldən salan. Oğlunun ölümünə günlərlə göz yaşı axıtsa da indi xeyli toxtaqlıq tapıb, balam. Ata-ana borcunu qaytara bilməsə də Vətənə oğulluq borcunu qaytarıb – deyə təsəlli tapır Ərəstunun ölümündən...

Atanı bir də ağrıdan odur ki, - özü deyir bu hadisəni yadıma salanda təpəmdən tüstü çıxır – kəndlərindən orduda qulluq edən Seyruz Ərəstunun ölümündən düz on gün keçəndən sonra batalyondakı siyahıda onun adının qarşısında "ordudan qaçıb" – sözlərinin yazıldığını görüb. Oğlunun ölümündən sınmayan atanı bu laqeydlik varından yox eləyib. Bircə:

– İlahi, gör balalarımızın taleyini kimlərə tapşırmışıq ey, – deyə bilib...

Ərəstun şəhid olan gün bacısı Səranənin Zeynəb adlı bir qızı dünyaya gəlib. Hələ Zeynəb təzə-təzə iməkləməyi öyrənir. Ərəstun dayısından, onun qəhramlığından hələ xəbərsizdi bu qızcığaz. Ancaq böyüyəndə biləcək ki, oxuduğu Araz Maşanlı kənd məktəbi dayısının adını daşıyır. Bu kəndin qəhrəman oğlu Süleymanov Ərəstun Tariyel oğlu da bir vaxt onun kimi bu



məktəbdə oxuyub. Və bir də onu öyrənəcək ki, üzərində dayandığı Vətən torpağından düşməni qovub çıxaran Ərəstun kimi minlərlə oğullar ona görə şəhid olublar ki, yurdumuzun qəhrəmanlıq tarixini gələcək nəsillər vərəqləyəndə iftixar hissi keçirə-keçirə:

– Babək qeyrətli, Xətai hünərli oğulları olan bu torpaq erməni dığalarını diz çökdürüblər – deyə bilsinlər..

## LALƏLƏR BOYLANIR BURDAN HƏR BAHAR

**Süleymanov Tofiq Mustafa oğlu**
**(15.04.1959-30.08.1992)**



Torpaqlarımızın Qarabağ dərdi, Şuşa həsrəti, Laçın harayı olmasaydı Tofiq həyatda çox şeyə nail ola bilərdi. Yarımçıq qalmış evinin tikintisini tamamlayardı, Aytənlə Rüfətin xoşbəxt böyüməlerinə çalışardı, ömür-gün yoldaşı Qətibə xanımın iftixar, güvənc yeri olardı Tofiq. Taleyinə düşən yarımçıq ömür imkan vermədi ki, Tofiq ürəyindəki arzularının heç olmasa yarısını həyata keçirsin. Bundan belə Tofiqin sevimli balalarına əli çatmayacaq bir də. Kövrək balası beş yaşlı Aytənlə və bir də evin yaş yarımlıq "kişisi" Rüfətlə tay yuxularda görüşəcək. Ürəkdən sevdiyi Qətibəsinin dən düşən saçlarına bir də heç vaxt sığal çəkə bilməyəcək Tofiq. Qətibə sevgilisinin səsini yuxularda eşidib üzünü röyalarda görəcək. Ancaq tikintisi şəhid ömrü kimi yarımçıq qalan bu evdən Tofiqin həniri heç vaxt kəsilməyəcək. Qətibə xanım da, onun körpə-fidan balaları da Tofiqin ölümünə heç vaxt inanmayacaqlar...

Biz Qətibə xanımla, onun Aytən və Rüfət balalarıyla, Tofiqin zəhmətkeş anası Səkinə xalayla görüşəndə bu inamı, bu istəyi duyduq onların baxışlarından. Çərəkən kəndindəki natamam orta məktəbdə müəllim işləyən Qətibə xanım göy üzlü bir şagird dəftərini bizə verib:

– Tofiqlə bağlı ürəyimdən keçənləri bu dəftərdəki sətirlərlə köçürmüşəm. Ondan danışanda dilim od tutub. Bircə xahişim budur ki, nə yazmışamsa onu mənim dilimnən verin, heç olmasa...

Qətibə xanım tay bundan artıq dillənə bilmədi. Onun əvəzindən göz

yaşları danışdı. Onlardan ayrılanda bir azca toxdamışdı elə bil. Pıçıltıyla "Allah amanında olsun!" – dedi.

Qətibə xanımın bizə verdiyi o şagird dəftərində nələr yox idi. Bir şəhid ömrünün istəyi, ər sevgisi, ata arzuları, yurd qayğısı, torpaq məhəbbəti, zəhmərkeş təpəri və axırda da nakam taleyin harayı...

"...Tofiqim, eşidirsənmi məni. İndi sənsiz yaşamaq mənim üçün dünyanın ən böyük dərdi-nisgilidir. Bir vaxtlar biz özümüzü hamıdan xoşbəxt hesab edirdik. Elə bilirdim ki, Tanrı uşaqlıqda çəkdiyim əziyyətlərin əvəzi olaraq səni mənə bəxş edib. Uşaq vaxtlarımdan tanıyırdım səni. İkimiz də yastı-yapalaq təpələrin üstündən Araza boylanan Qumlaq kəndində böyümüşdük. Sonralar siz ailəlikcə Cəbrayıl şəhərinə köçmüşdünüz. Ağıllı baxışların, qara saçların işləməkdən dərisi codlaşan əllərin gözlərimin qabağından getmirdi. Sonralar orta məktəbi qurtarıb ordu sıralarına yollananda da unutmadım səni. Arabir yuxularda görüşüb danışırdıq. 1979-cu ildə qayıdıb gələndə hamıdan artıq mən sevinirdim. Nə gizlədim o vaxtlar ürəyimdə yüz dəfə arzulamışdım ki, kaş sənin kimi nişanlım olaydı. Tofiqim, yadındamı bir dəfə kəndə, qohumlarının toyuna gəlmişdin. Hiss edirdim ki, gözlərini məndən çəkə bilmirsən. Ertəsi gün bacım mənə dörd bükülmüş bir məktub verib: – Oxu, sonra cavabını verərsən – dedi.

Barmaqlarım titrəyə-titrəyə zərfin ağzını açdım... Qətibə, sən mənim taleyimsən, elə bilirəm qovuşsaq xoşbəxt olarıq...sözlərini oxuyanda elə bil dünyanı mənə verdilər. Sonra elçilərin gəldi, toyumuz oldu...

Hər səhər idarə etdiyin maşının sükanı arxasına keçəndə:-hələlik, sağ olun-deyirdin və bundan sonra əlimdə tutduğum qabdakı suyu səpib ürəyimdə:

– Sağ gedib, salamat qayıdasan, Tofiqim –deyirdim...

Çox əliaçıq, üzügülər, ürəyi təpərli bir oğlan idin, Tofiq. İş yerində çox istəyirdilər. Hamıya kömək etməyə çalışırdın. Yadımdadır yurd yeri alıb evimiz üçün bünövrə qazanda heç yorulmaq bilmirdin. Əllərin, ovucların qabar bağlasa da beli yerə qoymurdun. Sənə – "hovur-hovur işlə, özünü üzmə" – deyəndə – bir az ciddi, bir az zarafatla:

Heç bilirsən, Qətibə, bu günü nə qədər arzulamışam. İstəyirəm hər işi bircə gündə görəm. Evimizi tikib içinə yığışsaydıq tay dərdim olmazdı. Onda gör həyətimizdə nə qədər gül-çiçək əkəcəyəm, elə hey sula ki, sulayasan – deyərdi.

Tofiqim, indinin özündə də anlaya bilmirəm ki, çiçəklərin, güllərin içərisində laləni niyə çox istəyirdin. Həyətimizdə də lalə toxumu əkmişdin. Mayın əvvəlindən iyunun ortalarına kimi həyət-bacamız al rəngə bürünürdü. Axşamlar qayıdanda bir qom lalə ilə gələrdin evimizə. Yadımdadır, evimizin üstü vurulandan sonra dedin ki, Qətibə, atalar demişkən ayağımızı yorğanımıza görə uzadaq – əvvəlcə otaqdan birini düzəldib içəri köçək. Dedim nolar, təki ürəyimiz geniş olsun. Onda özün öz əllərinlə ən işıqlı otağımızı düzəltməyə, bəzəməyə başladın. Divarlardan bağrı qan lalələr boylananda dedim ki, Tofiq, qurban olum, olmaz ki, ayrı naxışlar çəkəsən. Onsuz da həyatimiz başdan-başa lalədir. Gülüb dedin ki, dəlisən nəsən, bəs qışın sazağında hardan tapım bu lalələri...

Tale qoymadı ki, Tofiqim, min bir əziyyətlə tikdiyimiz o evdə ömür-gün sürək. Eh, talemi dedim. Burda talelik işmi var? Erməni namərdliyi qarşısında tale də, qismət də acizdi...

1988-ci ilin fevralından bu yana əziyyətin çox olmuşdu, Tofiqim. İşdən macal tapan kimi postlarda dayanan əsgərlərin yanına qaçırdın, maşınınla döyüş yerlərindəki tanklara, BMP-lərə o qədər yanacaq daşımışdın ki, hərdən sənə: – ehtiyatlı ol – deyəndə etiraz edirdin:

– Məgər səngərlərdəki oğullarımızı analar doğmayıbmı? Bəs, oğul dağı görən ata-analar neyləsinlər? sonra da toxtaqlıq üçün: – Qorxmayın, Allahın izniylə heç nə olmaz mənə – deyib Aytəni, Rüfəti öpürdün...

Heç ağlımıza gətirməzdik ki, bizdən belə tez ayrılacaqsan, Tofiqim. Yaxşı xatırlayıram onda 1992-ci ilin iyun ayının üçüydü. Həyətimizdəki ağacın kölgəsi altda əyləşib çay içirdin. Bilirdim ki, bərk tələsirsən, yanacaq aparacaqdın cəbhəyə. Hər şey bir anın içərisində oldu. Evə girib çıxmağınla səni qan içində görməyim bir oldu. Yaxşı ki, uşaqlar kənddə idilər. Özümü üstünə atdım, son sözlərini işığı avazıyan gözlərindən oxudum onda. Lalələr bitən yerdə evimizin qabağı başdan başa qanına boyanmışdı. Güllərin-çiçəklərin içərisində laləni çox istədiyindən ölümündən qabaq elə bil lalə əkmişdin həyətimizdə. Bu lalələrin rəngi hələ də solmayıb. Bu lalələrin ləçəklərini öz qanınla boyadığından onlar heç vaxt solmayacaqlar. Tofiqim, sənin barəndə kim yazsa, ondan xahiş edəcəyəm ki, aşağıdakı şeirimi də qatsınlar öz yazılarına:

*Dünyadan vədəsiz çıxıb gedənim,*
*Ömrün bahar çağı, hara gedirsən?*
*Arxanca həsrətim boylanar mənim,*
*Ömrün bahar çağı hara gedirsən?*

*Lalələr kövrəlib həyətimizdə,*
*Səndən söhbət açır cığır da, iz də.*
*Bir nisgil yaşayır baxışda, gözdə,*
*Ömrün bahar çağı hara gedirsən?*

*Aytənin, Rüfətin ovunmur hələ,*
*Ağrılı kəlmələr yatmayır dilə,*
*Sənsiz ömrüm-günüm gəlməyir ələ,*
*Ömrün bahar çağı hara gedirsən!..*

Bu şeirin sonundakı üç nöqtə Qətibənin göz yaşlarıdır. Bu göz yaşları Tofiqdən sonra dönə-dönə bir evin həyatinə səpilib. İndi bu göz yaşları Tofiqin qanı çilənən torpaqdan boylanan lalələrin təşnəsi üstə səpilir. Bu lalələrin ləçəklərində qeyrətli bir şəhidin ömrün – otuz dördüncü baharında dünyasını dəyişən Süleymanov Tofiq Mustafa oğlunun nəfəsi və bir də ürəyinin hərarəti duyulur...

## TORPAĞIN DAN YERİ...



**Tahirov İskəndər Kamal oğlu (07.02.1973-30.12.1992)**

Ölümün min bir üzü, min bir fitnəsi olur. O, yaxşıya, yamana fərq qoymur çox vədə. Fərqinə varmır ki, kiminsə qəlbində qalaq-qalaq arzuları var. Bəlkə elə buna görədir ki, ulularımız "əcəldən" qaçmaq olmaz" – deyiblər.

Ölümü ilə görüşdüyü gün İsgəndər döyüşçü yoldaşları ilə Sirik postunda tapşırığı yerinə yetirib geriyə qayıdırdı. Qəfil atılan güllədən kəndin aşağısında yüksək gərginlik altda olan elektrik xətti qırılıb BTR-in üstünə düşdü. Erməni cildinə girən amansız ölüm onu bir anda haqladı. Həmin gün İsgəndərin iyirmi yaşının tamam olmasına düz qırx gün vardı...

Taleyə bax, 1993-cü il fevral ayının yeddisində Kamal kişi oğlu İsgəndərin ad günündə qurban kəsməyi arzulamışdı, ancaq həmin gün İsgəndərin qırxı verildi. Mina ana oğlunun böyüdülmüş şəklinə tərəf qollarını geniş açaraq:

– Ad gününə qurban olum, oğul – dedi – El- oba evimizə, həyətimizə yığışıb, səni görməyə gəlib. Erməni dığalarına qan udduran balam, indi üstündəki bir qalaq torpağı kənara atıb ayağa dura bilmirsən...

Ananın naləsi unudulmaz şairimiz Əli Kərimin məşhur misralarını yada salır:



*Ana oğul böyütdü, oğul deyirəm sənə –*
*Ana oğul böyütdü, gur çatmaqaş, gen sinə...*

Ana Mehdili kəndində İsgəndər adlı oğul böyütmüşdü. Elə bir oğul ki, arzusu el-obaya arxa-dayaq olmaq idi. Elə bu arzi ilə də İsgəndər pöhrə kimi buğum-buğum, tumurcuq-tumurcuq böyüyürdü. Böyüyürdü ki, yolunda əziyyət çəkən ata-anasının, sevimli müəllimlərinin haqqı-sayını qaytarsın. İsgəndər nağıllarda deyildiyi kimi böyüyürdü ki, beş il qabaq yurdumuzu ölüm-dirim savaşına çəkən azğın dığalara qulaqburması versin...

Onda hələ respublikamız müstəqilliyə təzəcə can atırdı. Onda hələ torpağımıza min bir müsibət gətirən, Bakıda qanlı yanvar qırğını törədən, Lənkəranda, Cəlilabadda, Gəncədə, elə bizim Cəbrayılda imperiya əsgərlərinin qanlı süngüləri ilə amansız qanunları işləyən bu ölüm kabuslu nəhəng, İsgəndəri də yerindən-yurdundan uzaqlara – Rusiyanın İvanovo şəhərinə qovub aparmışdı. Tahirov İsgəndər 1991-ci ilin may ayından buradakı hərbi hissədə qulluq edirdi. Əli qan içində olan yurdumuza, doğmalarına uzalı olan bu yeniyetmə oğlan Azərbaycanlı əsgər dostları ilə birlikdə günlərin birində qaçıb respublikamıza gəldi. Və Bakıya çatan kimi hamısı and içdi ki, Xocalı faciəsinin qisasını almaq üçün birbaşa hərbi hissələrə gedəcəklər. Andına sadiq olan İsgəndər 1992-ci ilin mart ayından Cəbrayıldakı Ərazi Müdafiə batalyonunda xidmət etməyə başladı. Az vaxt ərzində döyüşçü yoldaşları arasında qorxmaz bir əsgər kimi tanındı. Bərkdən-boşdan çıxdıqca döyüş təcrübəsi topladı. Dar ayaqda sərrast atəş ilə düşmənin neçə-neçə mənfur zağasını darmadağın etdi. Çətinə düşəndə dostlarına ürək-dirək verdi.

Sinəsini torpağımız üçün sipərə çevirən bu qeyrətli oğul 1992-ci ilin iyirmi səkkizi iyununda keçirilən Sur və Şişqaya əməliyyatlarında yaxından iştirak etdi. "Bir qaşıq qanından qorxanda azərbaycanlı sifəti yoxdur" – deyib düşmənin neçə illərdən bəri canavar yuvasına döndərdiyi Sur kəndinə doğru irəlilədi. Həmin döyüşdə neçə-neçə igid oğullarımız daşnaq güllələrinə tuş gəlsələr də əməliyyat uğurla başa çatdı. Sur kəndində Məmməd Əmin yadigarı üç rəngli bayrağımız dalğalandı. Həmin əməliyyatda döyüş zamanı həlak olan Vüqar adlı dostunu öldürən saqqallı yekələr qulduru sərrast güllə ilə cəhənnəmə göndərən bu igid oğul cəsarətlə irəli şığıyıb öldürdüyü düşmənin qulaqlarını kəsdi və Vüqarın meyitini güllə yağışı altdan çıxarıb düz dörd kilometr məsafəyə qədər özü ilə gətirdi.

O, güllə mənzilindən uzaq bir yerdə hərarəti soyumaqda olan döyüşçü dostunun qanlı dodaqlarından öpüb:

– Qisasını aldım, qardaş – dedi. Arxayın ol, necə ki, nəfəsim var, bu bic daşnakların başına od yağdıracağam. İsgəndər öldüyü günə qədər sözünün

üstündə durdu. Yurdumuzun Cəbrayıl səmtində düşmənin torpaqlarımıza uzanan əlini kəsdi..

Kim bilir, bəlkə də o faciəli gündə ölüm İsgəndəri haqlamasa idi, o indi də qorxmaz bir oğul kimi yurdumuzun sipərinə dönəcəkdi. Nə etmək olar, bu da tale hökmü, alın yazısıdır. Demə bir vaxtlar bir ailəyə sevinc doğulan İsgəndər iyirmi yaşının tamamına qırx gün qalmış şəhidlik ömrünə qovuşacaqmış...

Şəhidlər heç vaxt ölmürlər – əbədi gəncliyə qovuşurlar. Onlar da əbədi günəş kimi qürub edib hər səhər sevdikləri, uğrunda canlarından keçdikləri anamız torpağın dan yerindən dünyamıza boylanırlar...

## DÜNYANIN ƏN AĞIR YÜKÜ



**Feyziyev Qafil Bulud oğlu (08.11.1974-26.01.1993)**

– Bu meyit kimindir, tanıyan varmı onu? Ucaboylu qarayanız oğlan səs gələn səmtə üzünü tutub göz yaşlarına boğula-boğula:

– Rəhmətlik Feyziyev Qafil Bulud oğludur. Cəbrayıl rayonundakı Aşağı Maralyan kəndindəndir. Mən də ordanam, Dağtumasdan...

Şəhidin meyitini yumaq üçün bir azdan Ağdamdakı məscidə gətirdilər. Buradakı boş tabutlardan biri neçə vaxt idi ki, öz sahibini gözləyirdi. Elə bil ki, təklikdən, tənhalıqdan üşənirdi bu tabut. Bir şəhidin hələ soyumayan cənazəsinin hərarətini duyan kimi canlandı, "qırışı" açıldı...

Bu tabut birinci və sonuncu dəfəydi ki, yola çıxırdı. "Sərnişin"i olduğu aypara maşında yol gedə-gedə Qarabağın dərdli-nisgilli kəndləriylə vidalaşırdı elə bil. Bu tabut özüylə Araz qırağındakı Maralyan kəndinə bir dünya dərd-qəm aparırdı. Dünyanın ən ağır yükünü güclə çəkib aparan bu maşının yan tərəfdə qara lent bağlanan güsgüsündən hüzn yağırdı Qarabağ torpağına. Dağtumaslı Məqsədlə birlikdə Azər adlı leytenant maşının salonundakı tabuta baxa-baxa şəhid dostlarının ölümünə göz yaşı axırdırdılar. Ürəyindən qara qanlar axan sürücünün gözlərindən şimşək çaxırdı elə bil.



Dünyada allah heç kimə tabuq daşımağı, qara xəbər aparmağı qismət eləməsin. Deyiləsi, çəkiləsi dərd deyil bu dərd...

– Rəhmətliklə 1992-ci ilin noyabr ayının on altısında Biləcəridə tanış olmuşdum. Bir rayondan olsaq da ilk dəfə çağırış zamanı bir-birimizin üzünü görürdük.

– Quzanlıdakı bir aylıq hərbi təlim zamanı ilk gündən diqqətimi cəlb etmişdi bu oğlan. Çox intizamlı, hər şeyi tez öyrənən idi. Deyilənləri tez mənimsəyirdi.

– Atası Bulud kişiylə, qardaşı Mətləblə də məni Qafil özü tanış etmişdi. Çox mehriban, istiqanlı bir oğlan idi rəhmətlik.

– Döyüş zamanı, qorxu-hürkü nəydi bilmirdi. Ağdam ətrafındakı döyüşlərdə yaxından iştirak etmişdi. Yüz oğulun əvəziydi Qafil...

– Ailələrindəki səkkiz uşağın sonbeşiyi idi. Ata-anasını, qardaş-bacılarını çox istəyirdi, lap çox. Macal tapanda tez-tez evlərinə məktub yazardı. Cibindəki dəftərçənin arasındakı bir şəklə baxmaqdan doymazdı heç. Döyüşə yollanmazdan qabaq sevdiyi o qızın şəklindən boylanan gözlərindən öpərdi. Eh...

– Mənə deyərdi ki, komandir, allah qoysa qələbəmizi bizim Maralyan kəndində qeyd edəcəyik. Səni Cəbrayılın gözəl torpağıyla tanış edəcəyəm, Sirik meşələrini, Xudafərini birgə gəzib dolaşacağıq. Taleyə bax, doğma elində özü yox, tabutu bələdçilik edir bizə..

Dünyanın ən ağır yükünü aparan bu maşını Maralyan camaatı neçə saat idi ki, gözləyirdilər. Qafilin ölüm xəbəri tabutundan qabaq çatmışdı kəndə.

1974-cü ilin noyabr ayında dünyaya gəlmişdi Qafil. On səkkiz il sonra elə noyabr ayında da ana vətənin çağırışıyla torpaqlarımızı qorumaq üçün Qarabağa yollanmışdı. Bu on səkkiz ildə beşikdən məzara uzanan ömrünün yolçusu olmuşdu. Bu yolun hər qarışında onun izləri yaşayır indi. Orta məktəbi qurtarandan sonra atası Bulud kişi kimi mexanizator olmaq arzusunda idi. Kənddə traktorçu işləyən qardaşı Mətləbin məsləhətiylə Bakıdakı 12 nömrəli texniki-peşə məktəbinə daxil olub soyuducuları təmir etməyin sirlərini öyrənmişdi. Çox qabiliyyətli oğlan idi Qafil. Əgər müharibə olmasaydı, xoşbəxt bir gələcəyə qovuşacaqdı. Orta məktəbdə ona dərs deyən Vilayət müəllim deyir ki, Qafil yaxşı futbol oynamağı da, ətrafda gördüklərindən yaxşı baş çıxarmağı da bacarırdı. Ən intizamlı şagird idi. Uşaqlıqdan zəhmətə alışmışdı. Həmişə ailəyə kömək etməyə çalışırdı...

– Abırlı-həyalı bir oğlan idi – Qafil, böyüyün-kiçiyin yerini bilirdi. Kənd uşaqlarının, tay-tuşlarının sevimlisiydi. Evimizin gur işığı, çırağıydı – bu sözləri şəhid atası Bulud kişi demişdi bizimlə görüşəndə...

Qafilin şəhid adıyla indi təkcə Bulud kişi, onun ailə üzvləri yox, bütün Maralyan camaatı fəxr edir, öyünür. Aşıq Pərinin ruhu dolaşan bu kənd şəhid ağılarına üzünü söykəyir indi. Qafilin anası Zibeydə bacının dilində durna qatarına bənzəyir bu oğul soraqlı ağılar:

*Dərd yetənə əl açmaz,*
*Arzularım gül açmaz.*
*Səsləyirəm nə vaxtdı–*
*Şəhid balam dil açmaz.*

*Dağı-daşı izlərəm,*
*Adını əzizlərəm.*
*Sən qayıdıb gəlincə*
*Yol üstündə gözlərəm...*

Zebeydə ana hərdən yuxularda görüşür oğlu Qafillə. Ona elə gəlir ki, ciyərparası ölməyib, haradasa düşmənlə vuruşur yenə də. Oğlunun ölümünə inana bilmir, inanmaq istəmir ana. Ağdamdakı hərbi hissədən göndərilən sənəddəki "Feyziyev Qafil Bulud oğlu 25 yanvar 1993-cü ildə Ağdam ətrafındakı döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur" sözlərini oxusa da yenə də gözləyir oğlunun yolunu. Ana yaxşı bilir ki, şəhidlər heç vaxt ölmür. Hər bahar təzədən gəlir dünyaya bu igid oğullar. Yurdu yurd, torpağı Vətən edən Qafil kimi igidlər əbədi olaraq yaşamaq haqqı qazanıblar ölümləriylə...



# BİR ELƏ SIĞMAYAN ÖMÜR

**Fərzəliyev Zeynal Qədir oğlu**
**(1973-28.06.1992)**



Göyərçin Veysəlli camaatı 1992- ilin iyun ayının iyirmi səkkizində bu kəndin şəhid balası Zeynalın dəfninə toplaşmışdılar. Kənd qəbiristanı son yeddi aydan bəri hələ bu qədər adam görməmişdi. O vaxt kəndin ilk şəhidi Zakiri torpağa tapşıranda demişdilər ki, son qəmimiz olsun, bir də şəhidlər üstə göz yaşı axıtmayaq. Ancaq tale bu kəndə ikinci bir şəhid oğul da qismət elədi. Rəhmətlik Zalov Zakirin ili çıxamamış Zeynaln ölüm xəbəri camaatın ürəyini sızlatdı. Qədir kişinin həyətinə toplaşan el adamlarını Əntiqə ananın oğul harayı yandırıb yaxdı:

*Söhbətim, sözüm Zeynal,*
*Ocağım, közüm Zeynal,*
*Səni belə görüncə –*
*Çıxaydı gözüm Zeynal!...*

İndi o hüznlü gündən xeyli keçib. Ömrün on doqquzuncu baharını belə tamamlamağa macal tapmayan Fərzəliyev Zeynal Qədir oğlundan bu dünyada əvvəli-sonu görünməyən şəhidlik ağrı-acısı və bir də bu qəhrəman oğlunun öz əliylə yazdığı bir yarımçıq gündəlik qalıb. Bu gündəlik yarıda qırılan bir ömrün həzin pıçıltısı, nakam harayıdır. Zeynalın igidliyi barədə söz açmazdan əvvəl bu gündəliyi biz də dönə-dönə vərəqlədik....

Doğulduğum Göyərçin Veysəlli kəndi Azərbaycanın minlərcə obasından az fərqlənir. Burada da səhərdən toran qovuşanadək əli işdə-gücdə olan camaatın ruzusu elə bil daş altdan çıxır. Mən zəhmətin nə olduğunu üçüncü sinifdə oxuyanda duymuşam. Yaxşı yadımdadı, mənə dərs deyən sevimli müəllimim Rəna xanımın riyaziyyatdan evə verdiyi məsələni düzgün həll edə bilməmişdim. Atam bunu eşidəndə o axşam məni tənbeh eləmədi, sadəcə olaraq əllərini mənə göstərib:

– Ovcumdakı bu düyünləri görürsənmi – dedi – çəkdiyim zəhmətin izləridir. Elə bilirsən çörək qazanmaq asandır? Ağlın olsun, oxu, bir yana çıx...

Bu sözlərin ağırlığı hələ də sinəmin üstə qalmaqdadı. Atamın əllərindəki qabarları görəndən sonra tay kitab-dəftər əlimdən düşmədi. Rəna müəllimənin sevimlisi oldum...

Orta məktəbi bitirəndən sonra heç yana getməyib evimizin bir dünya qayğısına ortaq oldum. Evdəkilərə demişdim ki, hərbi xidmətdən sonra oxuyacağam. 1991-ci ildə sürücülük kursunu bitirib Sankt Peterburq şəhərində xidmət etməyə başladım. Vallah məndən olsa heç bura gəlməzdim, qalıb respublikamızda qulluq edərdim.Madam ki, gəlmişəm, gərək çalışam birinci olam. Əvvəldən xasiyyətim belədir, hər işdə qabağa düşməyi xoşlayıram. Həmişə Rəna müəlliməm deyərdi ki, Zeynal, sən çox inadkar oğlansan, irəliyə can atansan. Komandirlərim evimizə neçə yol razılıq məktubu göndərmişdilər – təsəvvür edirdim ki, atam-anam, adımı güvənc yeri bilən qardaşım necə sevinirlər...

Əsgərdə olanda Vətəndə baş verən hadisələri diqqətlə izləyirdim. Hərdən "Vremya" ermənilərə tərəfkeşlik edib bizim xalqı gözdən salanda özümə yer tapa bilmirdim. 1992-ci ilin aprel ayında yaxşı xidmətimə görə mənə məzuniyyət verdilər. Yola düşməzdən qabaq komandirimizlə vidalaşıb:

– Onsuz da qayıtmayacağam, indi mənim kimilər orda daha çox lazımdır – dedim. Komandirim elə bildi ki, zarafat edirəm.

– Evimizdə də sözümün üstə durdum. Cəbrayıl rayon hərbi komissarlığına gəlib yeni yaranmaqda olan milli ordumuza xidmət etmək fikrində olduğumu bildirdim. Müstəqillik yoluna qədəm qoyan Vətənimizin əsgəri olduğum gün elə bil dünyanı mənə bağışladılar...

Hələ əsgərə getməmişdən qabaq xoşuma gələn o qıza bu gün axır ki, ürəyimi açdım. Yanaqları lalə kimi alışıb yandı. Gördüm ki, utandığından danışa bilmir. Ona üzümü tutub dedim:

*Sən mənim qədrimi biləsən deyə –*
*Bu cavan yaşımda ölümmü indi?...*

– Bıy, başıma xeyir, sənin şairliyin də varmış – demə.

– Yox- dedim – bu misralar rəhmətlik Əli Kərimindir – mənim kimiləri nəzərdə tutaraq deyib bu sözləri.

– Namına qıyıb "yox" deyə bilmirəm, əsgər oğlansan dayna...

Elə bil dünyanı mənə verdilər, istədim ki, qışqırıb deyəm:

– Eheyy, insanlar, məni də ürəkdən sevən var, ancaq qorxdum ki, özüm bir yana, qızı dilə-dişə salaram...

Evdəkilər tezliklə "sirrimdən" hali oldular. Anam əllərini saçlarımda gəzdirib:



– Boyuna qurban olum, sevdiyin qız ağıllı, ismətli baladır. Allah qoysa, payızda toyunuzu eləyərik. Toyluq paltarı, nişan üzüyünü sənə hələ o Peterburqda olanda atan alıb...

Əsgər dostlarım içərisində qızıl kimi oğullar çoxdur. Onlar ermənilərin əlindən zəncir ceynəyirlər. Bilmirəm nə vaxta qədər müdafiədə dayanmalıyıq. Düşmən bizim Cəbrayıla da göz dikib. Onların gözünü ovmasaq əl-ayaqlarını yığışdırmayacaqlar. Dünən axşam bunu Milli Ordunun zabitlərindən olan V.Məmmədovla S.Mirzəyevə də dedim. Gülümsəyib:

– Darıxmayın, onlara bir toy tutacağıq ki, səsləri Yerevanda eşidiləcək – dedilər. Bəs, nə vaxt? Bilən yoxdur.

Bu gün iyun ayının iyirmi yeddisidir. Komandirim səhər tezdən məni yanına çağırıb:

– Zeynal, bilirəm eviniz üçün darıxırsan, get-ata-ananla görüş-dedi-ancaq axşam qayıt gəl!...

Evimizə gedib qohum-qardaşla görüşdüm. Yola çıxanda könül verdiyim qız çiynində səhəng yoluma çıxdı. Odlu baxışlarıyla mənə uğur diləyib:

– Özündən muğayat ol!..-dedi.

Elə bilirəm ki, sabah üçün nəysə hazırlanır. Ancaq bizə heç nə bildirmirlər...

Və gündəlik elə buradaca bitir. Əslində bu gündəliyin sonunu yazmağa Zeynalın macalı olmayıb. Obaşdan Zeynalgili ayağa qaldırıb Sur ətrafına aparıblar. Sübhün gözü açılar-açılmaz əməliyyat başlayıb...

O qanlı döyüşlərdə həlak olan igidlərdən biri də Zeynal idi. Zeynal öldüyü anadək Vətənə övladlıq borcunu yerinə yetirib və sonra da igidliklə həlak olub. O gün Zeynal və onunla birlikdə şəhid olan oğullarımıza bütün Cəbrayıl camaatı göz yaşı axıtdı. O gün Əntiqə ananın dilində Zeynal yanğılı qalam-qalam ağılar göyərməkdə idi:

*Yamacda izin qaldı,*
*Ürəkdə sözün qaldı,*
*Özün getdin dünyadan*
*Gecən-gündüzün qaldı...*

# BU DAĞLAR, ULU DAĞLAR



**Xəlilov Elşən Məhəmməd oğlu**
**(17.01.1973-28.06.1992)**

Dağların döşünə sığınan və uzaqdan baxanda qartal yuvasına bənzəyən Sofulu kəndində dünyaya göz açan Elşən Xəlilov Məhəmədlə Mahnisənin gözlərinin ilk ovu idi. Elşən doğulanda Məhəmməd bütün varlığıyla inandığı Hacı Qaraman ocağına üz tutub:

– Şükür sənə İlahi, mənə arxa, dayaq verdin – demişdi. Elşən doğrudan da bu evin dirəyi idi. Uşaq vaxtlarından gücü çatan işdən yapışmışdı. Gah yamacda qoyun-quzu otarırdı, gah meşədən odun toplayıb gətirirdi... Mahnisə ana Elşənin fərasətinə görə ürəyində taleyinə razılıq edir, ciyərparasını dildən, bəd nəzərdən qorumaq üçün hərdən aşağı enib Hacı Qaraman ocağını və buradakı qəbiristanda uyuyan müqəddəslərin ruhunu yad edir, sonra da əllərini yuxarı qaldırıb:

– Dərgahına min şükür, İlahi deyirdi – balam Elşəni sənə tapşırıram. Onu və cəmi millətimizi salamat eylə!

Ana nə biləydi ki, dünyamız məhvərindən çıxıb. İblisi, şeytanı azman gücündədir yer üzünün. Ana nə biləydi ki, yalquzaq xislətli ermənilər illər boyu mələk cildinə girə-girə evlərimizin yuxarı başına adlayıblar. Ananın bu fitnə-fəsaddan xəbəri yox idi. Gündüzlər kolxoz işinə gedir, sonra isə külfətin bitib-tükənməyən qayğıları tökülürdü Mahnisə ananın çiyinlərinə. Xalqımız Əsgəranda ilk iki oğul balasını şəhid verəndən sonra ermənilərin qana susadıqlarını eşidib Mahnisə ananın matı-qutu qurudu. Əllərini dizlərinə şappıldadıb:

– Allah, dada yet, atalar demişkən xəşil də daşarmış, sonra üzünü Məhəmmədə tutub davam etmişdi – Yadındadır Dolanlardan olan əl ermənisi Arakel həftə səkkiz-mən doqquz eşşəyini qabağına qatıb bizim Sofuludakı evimizə gələrdi. Sonra da xurcun dolusu ruzu ilə çıxıb gedərdi. Onu yazıq, dilsiz bilən kənd adamları nəzirdən-niyazdan gətirib xurcununa doldurardılar o kafirin. Dünən eşitdiyim bir xəbərdən ünüm qaçıb. Deyirlər Dolanlar ermənilərinin mitinqlərində həmin o fağır hesab etdiyimiz Arakel birinci olaraq çıxış edib. Özü də deyib ki, Sofulu da, ondan üzü aşağı Gəyən tortaqları da bizimdir o dinsiz köpəyoğlu danışırlar ki, utanmadan deyib ki, Xudafərin körpüsünü də ermənilər salıb. Allah, daş tök, gör nələr eşidirik!...



Elə həmin gündən də Mahnisə bacının ürəyinə dammışdı ki, tay bu xına o xınadan deyil. Onda hələ Cəbrayıl şəhər internat məktəbində oxuyurdu Elşən. 1990-cı ildə orta təhsilini başa vurub Gəncədəki texniki peşə məktəbinə üz tutur. Burada bir il oxuyub toxucu-usta peşəsinə yiyələndi. Arzusu adamlara gün-güzaran bəxş eləyən bu peşənin qulpundan yapışıb ömür sürmək idi. Onu sevib seçdiyi peşəsinin dalınca getməyə qoymadılar. 1991-ci ilin sovet imperiyası qanunları onu caynağına alıb soyuq Sverdlovsk torpağına gətirdi. Burada altı ay əsgəri xidmətdə oldu. Vətəndən gələn həyəcanlı xəbərlər Azərbaycandan olan başqa türk oğulları kimi Elşən Xəlilovun da yuxusunu ərşə çəkmişdi. Sözü bir yerə qoyub imperiya ordusundan qaçdılar. Min bir müsibətlə gəlib Azərbaycana-ata yurdlarına çıxdılar. Elşən Sofuludakı evlərinə gəlib ata-anası, bacı-qardaşları ilə görüşəndən sonra atasına üzünü tutub:

– Qağa-dedi-mən və əsgər dostlarım ona görə rus ordusunda xidmət etməkdən boyun qaçırıb gəldik ki, bu ordu qanlı caynağı ilə Bakıda azadlıq sevən oğul-qızlarımızı qətlə yetirib. Neçə-neçə adamı ömürlük şikəst edib. Altı ay ərzində rahatlıq nədir bilməmişəm, bizə hər yerdə yuxarıdan aşağı baxırdılar. Bu ordunun sırasında alman faşizmindən Rusiya torpaqlarını qoruyarkən canlarından keçən yüz minlərlə eloğlumuzdan heyif. Onların qədir qiyməti bilinmədi. Elşən sözünə bir qədər ara verəndən sonra əlavə etdi:

– Fikrimi bilmək istəsəniz, niyyətim günü sabahdan Cəbrayıla gedib hərbi xidmətimi davam etdirməkdir. Belə vaxtda daldada baş girləmək kişiyə yaraşmaz...

Bu sözdən sonra Mahnisə ana elə bil oğlunu təzədən gördü. Onun boyuna-buxununa göz dolusu tamaşa edib:

– Qurban olum, ay Elşən – dedi – get Allah işini avand eləsin. Ancaq özünü qoru, ehtiyatlı ol! Heç bilmirəm sənsiz necə dözəcəyəm-deyə ananın gözlərindəki bulud harayını görəndə Elşəngilin evlərinin daşı-divarı da kövrəldi...

Elşənin ordumuzdakı döyüş yolu ayrı-ayrı şəhid oğullarımızınkından xeyli uzundur. Tale ona aman vermişdi ki, dünyadan vaxtsız-vədəsiz köçən şəhid oğullarımızın qanını alsın. Cəbrayıldakı hərbi hissənin ikinci bölümündə düz doqquz aya qədər döyüş yolu keçən bu cəsur oğlan xeyli püxtələşmişdi. Güllə, top, tank səsinə alışmışdı. Müdafiədə və hücumda işə yarayan hərbi fəndləri mənimsəmişdi. Bölümün komandiri baş leytenant Mübariz Qasımovdan çox şeylər öyrənmişdi...

1992-ci ilin iyirmi səkkiz iyununu illər keçsə də Cəbrayıllılar-həmin döyüşdə balaları şəhid gedən ata-analar qiyamət gününə kimi unudan deyillər.

Elə bil Tanrıdan da gizli hazırlamışdılar Sur müsibətini. Torpağın başına od-alov yağırdı. İgidlərimiz şəhid qurban verə-verə yoxuşla üzü yuxarı

sürünməkdə idilər. Hərdən yamacda düşüb qalan murdar erməni cəmdəkləri əl-aya dolaşırdı. Elşən sərrast güllələriylə yolların üstündə qayaya daldalanıb onlara irəliləməyə aman verməyən odlu nöqtəni susdurdu. Ordan keçib irəli gedəndə baxıb gördü ki, üç quldur yerə sərələnib. Bir az irəli sürünmüşdülər ki, erməni faşistləri aşağı dığırlanan daş parçasının üzü aşağı çıxardığı səsdən Elşənin yerini müəyyən etdi. Burada çeviklik də kara gəlmədi. Düşmən gülləleri Elşənin Vətənlə birgə döyünən ürəyini həmişəlik susdurdu. Bir azdan onun sevimli komandiri Mübariz Qasımovu da vurdular. Sur döyüşlərində çoxlu ölüm-itim olsa da əsgərlərimiz bu kəndi erməni quldurlarından azad edib şəhid yoldaşlarının ruhunu sevindirdilər.

Taleyə bax, ölümə bax – dağ döşündən dünyanın qəribəliklərinə heyrətlə tamaşa edən bir kənddə doğulan Elşən Xəlilov bu torpağın Qaracallı, Balyand, Süleymanlı adlı obalarını atəş altında saxlayan Suru düşməndən azad edərkən dağ yamacında dünyasını dəyişdi. Dağlar oğluna dağın ağuşunda qismət oldu şəhid ölümü. Ulu dağlar günahsız cavanların ölümünə bulud gözləriylə yaş axıtdı. Sofulu kənd qəbiristanındakı şəhid Elşənin məzarına üz tutan bir el ağbirçəyi qovrula-qovrula:

*Bu dağlar ulu dağlar,*
*Bu dərddən hali dağlar,*
*Şəhid balam Elşəni*
*Kövrələn bulud ağlar.*

– deyib didərgin şəhid ruhlarının dolaşdığı Tanrı dərgahına nəzər yetirməkdədir hələ də. Bu ana hələ də möcüzə baş verəcəyinə, nağıllarda olduğu kimi oğullarımızın ayağa qalxacağına bütün varlığı ilə inanır. Bu ana hər səhər uca dağ yamacından üzünü Ziyarata tərəf tutub:

Bu dağlar ulu dağlar –deyə-deyə oğul soraqlayır...



## SƏSİMİZƏ SƏS VER, QARDAŞ!..

**Xudiyev Füzuli Cəmil oğlu**
**(12.10.1963-26.01.1992)**



Səni necə adlandıraq, səndən necə söz açaq, Füzuli, itkinmi deyək adına? Daşaltı xəyanətinin, Daşaltı rüsvayçılığının qurbanımı deyək sənə? Axı, sən bu xəyanətlərdən, siyasi oyunlardan xəbərsiz idin: Min mənzil uzaq idin bu gidi dünyanın Keçəl Həmzə bicliyindən. Xalq deyə-deyə xalqın mənəviyyatını qumara qoyan torpaq dəllallarının, yurd alverçilərinin məkrindən, hiyləsindən baş çıxara bilmirdin hələ. Səni niyə qınayaq, ay ruhu didərgin qardaşımız, biz özümüz də kələfi dolaşıq dünyamızın gedişatını yozmaqda, açıqlamaqda acizik hələ. Bu sirli düyünlər, bu tilsimli qapılar açılacaqmı? Bu vicdan dəllallarının niyyətləri başlarında çatlayacaqmı? Ya qismət...

Qardaş, sən bu qarı dünyanın iç üzünü görə bilmirdin. İstəsəydin də heç görə bilməzdin. Bacarmazdın bunu. Onu görmək üçün gərək iblis, şeytan olasan, itin-qurdun dilini biləsən. Sən bu dili bilmirdin, bircə onu bilirdin ki, torpaq aman istəyir, işığı sönən obalar-ellər dar ayaqdadır. Bircə özünə gücün çatmışdı bu harayı eşidəndə. Əlinə silah alıb oğulluq borcunu ödəmək üçün cəbhəyə yollanmışdın bu çağırışdan, bu nidadan sonra.

Buraya qədər ağlı-qaralı, sevincli-iztirablı bir insan ömrü yaşamamışdın. Bu ömrün xoşbəxtliyi, bəxtərəvərliyi hələ qabaqdaydı. Ona çatmaq üçün neçə-neçə ayları, günləri keçib getməliydin. Bu günlər uzaq ulduzlar kimi əlçatmaz, ünyetməz idi hələ. Ona çatmaqdan ötrü ömrün dolaylarından keçməliydin. Bu dolaylar dolanbaclar qatı zülmət içindəydi. Bu zülmətə, bu dumana baş vurmaq üçün özündə güc tapmalıydın. Bu güc, bu cəsarət səndə var idi. İyirmi səkkiz illik ömründə qətrə-qətrə qazanmışdın bu gücü, bu taqəti...

Atan Cəmil kişi ömrünün axırına kimi halallıqla qazanmışdı bir qismət ruzusunu. Özünü oda-közə vura-vura Dilşad ana üç uşaq-üç oğul böyütmüşdü bu ocaqda. Böyük qardaşların Vidadi və Nizami kimi sən də evə, ailəyə yanımlı idin. 1981-ci ildə orta məktəbi bitirəndən sonra ali məktəbə üz tutmuşdun. Aktyor olmaq arzusunda idin, müsabiqədən keçə bilmədin. Bəlkə də arada o lənətə gəlmiş rüşvət olmasaydı həyatın başqa yönə, ayrı səmtə düşəcəydi onda. Ali məktəb tələbəsi olmaq qismətin deyildi bəlkə də.

Taleyində, alın yazında belə bir şey yox idi. Tay bundan sonra ali məktəbin üzünə bağlanan qapısını bir də açmadın. Axına qarşı üzmək üçün gərək ayrı yollarla yeriməyi bacaraydın. Sənə düz yolla getməyi öyrətmişdilər. Sən gizli yolların yolçusu deyildin. Sən mələk xislətli, başı aşağı bir uşaq idin. Yalan danışmağı bacarmırdın...

1981-83-cü illərdə Sverdlovsk viyayətindəki hərbi hissələrdən birində də sidqi-ürəkdən qulluq etmişdin. Onda hələ qurdun quzuyla birgə yol gedən çağları idi. Onda hələ SSRİ adlı imperiyanı Vətən bilirdik özümüzə. Bu Vətənin sərhədlərini qorumağı özünə borc bilirdin onda, qardaş...

1988-ci ildə soydaşlarımız Ermənistandakı ulu yurd yerlərindən qovulanda sən də bizim kimi ilk dəfə anladın ki, özümüzə, öz qeyrətimizə arxalanmasaq yadlardan bizə haray yoxdur. Ona qədər az-çox inanırdın hələ Moskvanın ədalətinə. Deyirdin ki, gecə-gündüz işləyib o ali kreslolarda əyləşənləri ona görə dolandırırıq ki, onlar heç olmasa haqqı-nahaqdan ayırd edə bilsinlər. Ancaq sənin, bizim fikrimizdən keçənləri etmədilər başları hakimiyyət dumanından məst olan o "başbilənlər". Ona görə dilləri dilimizdən, dinləri dinimzidən deyildir. Ona görə də bizi ölümə, qana sürüklədiılər onda. Sən onda qabarlı əllərinə güvənirdin. Bu qabarlı əllər baş ucalığın, çörək ağacın idi. Bu əllər ömrün boyu sənə həyan olmuşdu. Əsgərdən qayıdan kimi bir müddət Bakıdakı Aqreqat İstehsalat Birliyi zavodunda, sonra isə rayonumuzdakı kolxozlararsı tikinti idarəsində işləmişdin. Axırıncı iş yerin Bakı elektrik maşınqayırma zavodu idi. Tokar işləyirdin burada yaxşı əl qabiliyyətin var idi. Fəhlə dostların xətrini çox istəyirdilər. Onların yolunda ölümə belə getməyə hazır idin...

Gözəl Qarabağımızın başının üstünü duman-çən alanda əllərin işdən soyudu. 1991-ci ilin oktyabrında fəhlə dostlarınla vidalaşıb Şıxovdaklı batalyona gəldin. Onda torpaqlarımızın taleyi sual altında idi. Onda manqurd başçılarımızın əli hələ Moskvanın ətəyində idi. Yenicə təşəkkül tapan Milli Ordumuz ilk addımlarını atmaqda idi. Sən bu ordunun ilk əsgərlərindən oldun. Səni bu orduya yenilməz qeyrətin, torpaq istəyin gətirmişdi. Ömrü boyu ürəyinin təpərinə və bir də sükandan yapışan əllərinə güvənən atan Cəmil kişi təzəcə dünyasını dəyişmişdi. İstəyirdin ki, onun ruhu sakit uyusun, gor evi düşmən tapdağında olmasın. İstəyirdin ki, elindən, obasınbdan didərgin düşənlərin sırası artıb çoxalmasın. Ana-bacıların göz yaşı idi, torpağın lal harayı idi səni döyüşçülərin sırasına gətirən...

Onda hələ Kərkicahan iblis yuvası Stepanakertə (ona Xankəndi deyə bilmirik hələ İnşallah oradakı erməni quldurlarını qovub çıxarandan sonra o şəhər Xankəndi adını daşıyacaq) meydan oxuyurdu. Onda hələ gözəl Şuşamız



igid oğullarımıza səngər idi. O şəhərin Qənbərov Ramizi var idi hələ - başına topladığı igidlərlə düşmənə göz açmağa aman vermirdi. Onda hələ Meşəli, Cəmillli, Qaradağlı kəndləri düşmənlə döş-döşə dayanmışdı. Onda sən də o torpaqları qoruyanların sırasında idin, Füzuli. 1991-ci ilin noyabrından 1992-ci ilin yanvar ayının ikisinə kimi əvvəlcə Şuşanın və sonra da Kərkicahanın keşiyini çəkirdin. 1992-ci ilin yanvar ayının on səkkisi yadındadırmı? Həmin gün əsgər dostlarınızla birlikdə Şuşaya gətirdilər sizi. Ulu Cıdır, düzünü İsa bulağını düşmən həmləsindən qorumaq üçün qeyrətinizi səngərə döndərmişdiniz. "Öldü var, döndü yoxdu"-deyirdiniz. Bunu sən deyirdin, sənin kimi bu torpağı sidqi ürəkdən qorumağa gələnlər deyirdilər. Bu sözü dildə deyib ürəkdə ayrı cürə düşünənlıər də var idi. Onları düşündürən torpaq namusu deyildi, alqı-satqı marağı idi. Harsın südü əmənlərlə milləti-şübhə doğuran vicdan dəllalları gizlicə saziş bağlamışdılar onda. Sizin aqibətiniz, torpağın taleyi düşündürmürdü onları. Onları düşündürən var-dövət idi, qazanc idi. Siz əvvəlcədən yazılmış ssenaridə epizodik rollarda oynayan adsız-sansız aktyorlara bənzəyirdiniz. Çəkiliş meydanı, canlı səhnə Daşaltı kəndində olmalıydı. Bu ssenarini yazanlar da, onun rejissorları da eyni adamlar idi. Siz hökmən rollarınızı oynamalı idiniz...

Daşaltı əməliyyatından indi neçə-neçə aylar keçib. Səndən, sənin taleyindın hələ də xəbər yoxdur, Füzuli. Milli Ordumuzun Kəlbəcərdəki bölməsində qulluq edən qardaşın Vidadi hələ də ümidini üzməyib səndən Şükürbəyli kəndində ağlamaqdan gözlərinin yaşı quruyan Dilşad ana ovuna bilmir hələ də. Uzaq Rusiyanın Amur vilayətində yaşayan qardaşın Nizami bir xoş xəbər sorağıyla yollara göz dikib. Biz sənin adını şəhidlərin cərgəsində yazsaq da hələ ümidimizi üzməmişik. Ulu Tanrı günahımızdan keçsin, səni ölənlərin cərgəsinə qatmışıq deyə. Əgər sağsansa səsimizə səs ver, qardaş! Düşmən səni dillənməyə qoymasa üzü bəri əsən küləklərə sözünü pıçılda. De ki, eh-hey, eşidin, mən Xudiyev Füzuli hələ sağam, gözləyin, günlərin birində düşmən əlindən qurtulub yanınıza qayıdacağam...

# DAĞLARA ÇƏN DÜŞƏNDƏ

**Xudiyev Ramiz Süleyman oğlu**
**(03.12.1968-15.08.1992)**



Dərd özü də alın yazısı, tale payıdır-ondan yan keçmək hər adama qismət olmur. Dərd özü də korun-korun, çınqı-çınqı yanan ocağa bənzəyir. Ürəyə kövrəklik, duyğuya zəriflik gətirən müsibətin son ucu insan səbrinə, el-oba təsəllisinə söykənir. Dərd içində üzüldüyümüz bir vaxtda bircə kəlmə xoş söz, bircə tikə ümid bizi sabaha bağlayır və göz yaşımızın nəmli işığına üzümüzü söykəyib "hələ yaşamağa dəyər dünyada" deyirik...

Nə yaxşı ki, şəhid oğullarımızın ata-analarının, bacı-qardaşlarının baxışlarının dərinliyindən boylanan bu sonuncu işartı ölməzimәyib. Nə yaxşı ki, cavan yaşlarında ər itirən qız ismətli gəlinlərimizin gözlərindən ağbirçək dözümü boylanır. Və bütün bunları duyduqca Tanrıya şükür edirik ki, atasız qalan qönçə balalarımızın nisgili laqeydliyin qar soyuqluğundan min addım uzaqdır...

Şəhid oğullar ölümləriylə neçə elə, neçə obaya şərəf-şan gətiriblər. Dağların daş qolları üstə dayanan Daş Veysəlli camaatı da özlərinin Savalan, Azər, Ramiz adlı balalarının adlarını ulu Ziyaratdan da uca bilirlər.

Şəhid Ramizin böyük qardaşı Ədalətlə saatyarımlıq söhbətimiz bu ovqatın işığı altda keçdi...

– Atam Süleyman kişinin ailə ocağında dörd bacım və məndən savayı üç qardaşım göz açıb. Ramiz biz səkkiz qardaş-bacının sonuncusu olsa da, sonbeşiklərə xas olan ərköyünlüyü, nərmə-nazikliyi onun simasında görməmişik. Bizim kimi o da böyük bir ailənin qayğılarına ortaq olub.

– Hər halda bəzən ailədə böyüyən uşaqlar bir-birlərinə bənzəmir, hardasa...

Ədalət sözümüzü yarıda kəsir:

– Ramizin öz xarakteri, təkrarsız dünyası var idi. Qardaşım sözün yaxşı mənasında inad və çox fanatik bir oğlan kimi yadımda qalıb. İlahi, insan el-obaya, dost-tanışa nə qədər bağlı olarmış. Ramiz ürəkdən sevməyi də bacarırdı. Onunçün orta hədd yox idi.

– Ramizin ömür yolu barədə bir neçə kəlmə danışsanız ürəyimizcə olar..

– Qardaşımın həyatı beş-on kəlməyə sığan deyil, 1968-ci ilin dekabr



ayının üçündə dünyaya gəlib. Ötən il iyirmi dörd yaşını qeyd elədik,bircə özü yox idi rəhmətliyin...Ədalətin kövrəldiyini görüb araya düşən sükutu yenidən qovmaq üçün:

– Eşitdiyimizə görə Bakıda işləyirmiş, onu cəbhədən saxlamaq imkanınız olub..

– Ay pir olmuşlar, qardaşımı cəbhədən saxlamaqmı olardı? Düzdür, istəyirdik ki, hələ qalıb Bakıda işləsin, ancaq özü öz ayağı ilə gəlib rayonumuzdakı əsgərlərə qoşuldu. Qağam bizdən uşaq olsa da həyatda bərkdən-boşdan az çıxmamışdı. Kənd məktəbində onuncunu bitirəndən sonra 1987-89-ci illərdə Macarıstanda hərbi xidmətdə olmuşdu. Ramiz əlaçı əsgər olub. BMP-nin dilini əzbər bilirdi. Ordudan serjant kimi qayıtmışdı. Anamız Dilarə, atamız Süleyman kişi çox istəyirdi ki, qalıb kənddə yaşasın. Ancaq Ramiz arzularının dalınca getdi. Bakıda oxuyub rabitəçi sənətinə yiyələnəndən sonra da evimizə qayıtmadı. Oradakı H.Z.Tağıyev adına Toxuculuq kombinatında rabitəçi kimi işləməyə başladı.

Necə oldu ki, Ramiz dinc işini buraxıb odun-alovun içinə atıldı?

– Bayaq dedim ki, qardaşım torpağa bütün ürəyiylə bağlıydı. Rayonumuzda baş verən hadisələr onun diqqətindən yayınmırdı. 1992-ci ilin iyun ayında evimizə gəldi. Düzü gəlişini gözləmirdik. Elə yetirən kimi də:-"Tay dözə bilmirəm dedi-belə bir çətin vaxtda əlimə silah götürüb yurdu qorumasam özümü bağışlamaram. Günü sabahdan cəbhəyə gedəcəyəm. Bilidik ki, uşaqlıqdan sözünün üstə durandır-elə dediyi kimi də etdi. Özü öz könlü ilə gedib Cəbrayıldakı əsgərlərimizə qoşuldu.

– Orduda olduğu günlərdə hansı hissləri keçirirdi qardaşınız!?

– Vallah, ölüb deyə tərifləmirəm Ramizi. Onun əsgər yoldaşları da, komandiri Ceyhun bəy də qardaşımın igidliklərindən indi də ürək dolusu danışırlar. Çox intizamlı, çox cəsur idi. Ramiz ölümün gözünə dik baxmağı bacarırdı. Çörəyi dizlərinin üstə olan namərd qonşularımıza nifrəti yerə-göyə sığmırdı. Hərdən deyərdim ki, ay Ramiz, düşmənin fitnə-fəsadından özünü qoru. O saat etiraz edib deyirdi ki, ay qağa ölüm Allah əmridi,qismətimdə varsa ondan yan qaçmağa dəyməz. Bir də deyirdi ki, çətini döyüşə girincədi. Ondan sonra qorxu da, hürkü də qeybə çəkilir. Bilirsən ki, ölümlə üz-üzə, daban-dabanasan. Ədalət dərindən ah çəkib: -Bircə ona yanıram ki, əcəl aman vermədi ki, Ramiz nəyə qadir olduğunu axıracan göstərsin. Döyüşdən qabaq demişdi ki, Şişdağa BMP-lə çıxacağam. Boy-buxunlu, sarıyanız bir oğlan idi rəhmətlik. Gözlərindən igidlik yağırdı. 1992-ci ilin avqust ayının 15-də Şişdağ əməliyyatında ölümünə qovuşana kimi çox igidliklər göstərmişdi. Həmin döyüşdə ürəyindən güllə yarası alıb əsgər yoldaşları Savalanla, Sərbazla, Mahmudla, Elşənlə, Pənahla birlikdə şəhidlik məkanına üz tutdu.

– Qardaşınızın meyiti düşmən caynağından necə qurtarmışdı, axı?...

– Bilirəm nə deyəcəksiniz, Ramizin meyitini əsgər yoldaşları aradan çıxara bilmişlər. Allah göstərməsin həmin döyüşdən sonra balalarının meyiti gavur əlində qalan ata-anaların ah-naləsi indi də qulaqlarımdan getməyib. Tanrı bu dağı bizə göstərmədi. Bu da bir alın yazısıydı, düşmüşdü Ramizin bəxtinə.

– Qardaşınızın dəfn gününü necə xatırlayırsınız?

– Elimə-obama qurban olum, bizi dərdimizlə üz-üzə qalmağa qoymadılar. Vallah elələri varıydı ki, heç haralı, kim olduğunu da bilmirdik. Müsibətimizi yüngülləşdirməyə gələnlər Ramizin əsgər dostları və Bakıdan iş yoldaşları da gəlmişdilər. Bakıdan gələnlər içərisində bir ahıl rus qadını da var idi. Gözlərindən qanlı yaş axıdırdı bu arvad. Deyirdi ki, Ramizin xətrini balamdan artıq istəyirdim. Heç ölməli oğul deyildi. A qardaş rus olanda nə olar, onun da yaxşısı çoxdu...

– Rəhmətliyin gözaltıdan, sevgilidən nəyi var idi?

Saatyarımlıq söhbətimiz ərzində qardaş itkisinə mərdliklə tablaşan Ədalət qardaşımız tay bu yerdə dözə bilmədi. Kövrələ-kövrələ:

– Rəhmətliyin dilindən eşitmişdik ki, iş yerində sevgilisi var. Payızda elçi gedib nişan aparmaq fikrimiz var idi: fələk arzumuzu gözümüzdə qoydu... Qağamın qırxında o qız özü də gəlmişdi... Gözəl-göyçək, yaraşıqlı bir qız idi. Anamın, bacılarım Sədaqətin, Məmləkətin, Nəzakətin, Təranənin boynuna sarılıb zülüm-zülüm ağladı. Ramizin kəndimizdəki qəbrinin üstə gedib göz yaşı axıtdı. Öyrəndik ki, Ucardandır-Ramizlə bir yerdə işləyirmişlər. O ucarlı qızın dilindən eşitdiyimiz:

*Dağlara çən düşəndə,*
*Sünbülə dən düşəndə.*
*Ruhum bədəndən oynar, ay Ramiz,*
*Yadıma sən düşəndə –*

– Kəlmələri bizi təpədən dırnağa yandırdı. Vallah qardaşım öləndə o qədər ağlamamışdıq ki, onda ağladıq.

Günlər keçəcək bu ilki sərt qışın qarına-sazağına mərdliklə sinə gərən dağlara bahar gələcək. Onda sinəsi güllələrdən didim-didim olan Şişdağa yenə də hər səhər çən düşəcək. Dağların zirvəsini görünməz eyləyən, bu dumanın bir əlçim sərinliyindən Xudiyev Ramiz Süleyman oğlunun adını daşıyan Minbaşılı kənd orta məktəbinə də pay düşəcək. Bu dumanı, bu çəni görəndə Ramizlə birgə əbədiyyətə qovuşan şəhidlərimiz gözlərimizin qabağından keçəcək. Bax onda Ramizin sevgilisi Ucarlı qızın dilindən qopan o ağı bahar küləyinə qovuşub yurdumuzu misra-misra dolaşacaqdır...



## ELİN YADDAŞINDA YAŞAYAN OĞLAN

**Xudiyev Təvəkkül Əvəz oğlu**
**(03.12.1973-13.08.1992)**



Kənd poçtalyonu Əvəz kişinin evinə çatıb taybatay açıq darvazadan həyətə keçdi. Qışın sazağı açıq-aşkar duyulsa da həyətdə xeyli kənd adamı var idi. Əvəz kişinin oğlu Təvəkkül ötən ilin yayında Banazur ətrafında şəhid olduğu gündən bəri Şıxalıağalı camaatı bu evin sakinlərinin dərdlərini yüngülləşdirməkdən ötrü yollarını tez-tez bu həyətdə salırlar. Poçtalyon oğlan əlindəki məktubu adamların əhatəsində dayanan Əvəz kişiyə uzadib:

– "Xudafərin" cəmiyyətindəndir, rayondan göndəriblər-dedi.

– Aç, özün oxu görək nə yazıblar, a bala?

Paçtalyon oğlan məktubun ağzını açıb makinada yazılmış yarım vərəqlik mətni oxumağa başladı:"Xudafərin" cəmiyyəti– Torpaqlarımızın bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsini əbədiləşdirmək məqsədilə onlara həsr olunmuş kitab nəşr etdirmək arzusundadır. Ona görə də xahiş edirik ki, sinəsini düşmən gülləsinə sipər edən şəhidlərimizin şəkillərini, döyüş rəşadətlərini əks etdirən...məlumatları icra aparatına çatdırasınız.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun!

Hörmətlə: R.İ.Quliyev

Məktub oxunub qurtaranda həyətdəkilərdən kimsə:

–Yaxşı tanımadım, hansı Quliyevdir bu?

Suala Əvəz kişi özü cavab verdi:

– Bizim cəbrayıllı Rafiq Quliyevdir, hüquqşünas alimdir, universitetdə dərs deyir. Yanvarın 20-də rayonda şəhid ailələri ilə keçirilən yığıncaqda çıxışına qulaq asdım. Çox kəlləli adamdır.

Bayaqdan bəri danışıqlara diqqətlə qulaq asan kənd məktəbinin dərs hissə müdiri Həsən müəllim də söhbətə qarışdı:

– "Xudafərin" cəmiyyəti Bakıda yaşayan Cəbrayıllıları birləşdirir. Görkəmli yazıçımız Sabir Əhmədli, məşhur alimlərimiz Tofiq Hacıyev, Kamil Vəliyev, İsmayıl Məmmədov, Nailə xanım Verdiyeva, İsmət Rüstəmov, Əhliman Süleymanov, Mobil Aslanlı, Nadir İsmayılov, Qəzənfər Kazımov, Çingiz Quliyev, Yaşar Məmmədli, Musa Mərcanlı bu cəmiyyətin təməl daşını qoyanlardır...

– Sağ olsunlar, rayonumuzun bu dar günündə bizə çox köməkləri olub Bakıdakı həmyerlilərimizin.

– Onların hansıları yazır görəsən şəhidlərimiz haqqında olan kitabı?

Kənd mexanizatorunun verdiyi suala bu dəfə Zahid müəllim ətraflı cavab verdi:

– Kitabı Mərcanlı kəndində yaşayan şair İsmayıl İmanzadə və rayondakı muzeyin direktoru Tariyel Abbaslı yazırlar. İsmayıl müəllim bir neçə şeir kitabının müəllifidir, Tariyel bəy də işıqlı ziyalılarımızdandır, Allah işlərini avand eləsin...

Kənd adamları bir ağızdan "amin" dedilər və bundan sonra Əvəz kişi üzünü oğlu Hümbətə tutub:

– Təvəkkül qağan barəsində olan sənədləri və bir də onun tərcümeyi-halını sabahdan aparıb məktubda göstərilən ünvana çatdırarsan. Təvəkkül balamın sonuncu dəfə çəkdirdiyi şəklini də apar, yəqin ki, gərəkləridir.

Hümbət bizimlə görüşə gələndə kiçik çillə iki gün idi ömrünü başa vurub qarlı dağların quzey üzünə çəkilmişdi. Torpağın don vurmuş bənizi isinməkdə idi. O, şəhid qardaşı Xudiyev Təvəkkülün on doqquz illik ömür yolu sığışan yazılı vərəqləri bizə verib qarşımızdakı stulda əyləşdi. Ömrünün on doqquzuncu baharını axıradək yaşaya bilməyən bir şəhid oğlanın həyat yolunu sətirbəsətir nəzərdən keçirməyə başladıq.

Təvəkkül Əvəz kişinin, İmarət bacının sonbeşikləri-yeddinci uşaqlarıdır. Elə ailədə dörd qızın, üç oğlanın ən xətirlisi olub. Valideyinlərinin sonsuz istəyini hiss eləsə də Təvəkkül onlara həmişə, hər yerdə başucalığı gətirib. Ata-anasının qabarlı əlləriylə qazanılan ruzunun qədir-qiymətini bilib. Şıxalıağalı kənd məktəbinin səkkizinci sinfini bitirəndən sonra 191 nömrəli Sarıcallı kənd orta texniki-peşə məktəbində oxuyub. Traktorcu peşəsinə yiyələnəndə elə bilib ki, dünyanı ona veriblər. Bir ildən artıq kəndlərindəki M.Ə.Rəsulzadə adına kolxozda işləyib. Həmişə tay-tuşlarına deyərmiş ki, əgər bu lənətə gəlmiş müharibə olmasa oxumaq üçün çoxdan şəhərə gedərdim. Ancaq nə edim, torpaqlarımızı od içində qoyub getməyə vicdanım yol vermir. Əsgərlik yaşı çatan kimi milli ordumuzun sıralarına qoşulub Təvəkkül. Hərbi and içən zaman milli bayrağımızı öpərək deyib ki,nə qədər canım sağdır şəhid oğullarımızın qisasını alacağam bu dılğır ermənilərdən. Əvvəlcə tankçı olub, sonralar öz xahişi ilə ZEPO-ya dəyişilib. Hər şeyi tez duyub qavramağı döyüşlərdə köməyinə gəlib onun. Əməliyyatın uğurlu keçməsi üçün mərdliklə vuruşub. Yarasa kimi zülməti xoşlayan düşmənin başına od yağdırıb. Komandir yoldaşı Yusifəli Təvəkkülün döyüş ustalığını yüksək qiymətləndirərək dönə-dönə deyib ki, kaş bütün əsgərlərimiz onun kimi qorxmaz, onun kimi cəsarətli olaydılar. Zalım balası düşmənlə üz-üzə gələndə kipriyini heç



qırpmırdı. Təvəkkül ölümün özündən belə güclüymüş, heç inanmazdım ki, ölüm ona yan düşə bilər...

Ancaq demə amansız ölüm qarabaqara onu izləyirmiş.1992-ci ilin on üçü avqustunda Banazur postunda dayanarkən düşmən mövqelərimizi tanklardan və iri çaplı pulemyotlardan atəşə tutmuşdu. Təvəkkül əsgər dostu Atakişi ilə yanbayan dayanıb düşmənə cavab atəşi açırdılar. Göz açmağa, irəli getməyə imkan yox idi. Düşməni bircə addım da qabağa buraxmayan igidlərimiz həmin döyüşü uğurla başa çatdırsalar da sevinə bilmirdilər. Təvəkkülün ölümü, Atakişinin ağır yaralanması onları yandırıb yaxırdı. Həmkəndlisi Vilayət silahını sinəsinə sıxıb:

– Təvəkkül, and içirəm ki, sənin qanını yerdə qoymayacağam–demişdi həmin gün..

Toran qovuşana yaxın Təvəkkül şəhid kimi qayıtmışdı öz doğma kəndlərinə. Onun meyitini gətirən əsgər yoldaşları dərddən özlərinə yer tapa bilmirdilər. İmarət ananın səsi-ünü Arazın o tayına kimi gedib çatırdı.

*Evimdə daşım ağlar,*
*Kipriyim, qaşım ağlar,*
*Şəhid gedən balamı*
*Qohum-qardaşım ağlar.*

*Bu dağı kim aşıdı,*
*Kim getdi, kim yaşadı.*
*Balama qurban olum –*
*Balam vətən daşıdı...*

Şıxalıağalı camatı Xudiyevlər ailəsini dərdlə üzbəüz qalmağa qoymurlar indi. Kənd ağsaqqalları, ürəyi təpərli ziyalılar özlərinin igid həmyerliləri Xudiyev Təvəkkül Əvəz oğlunun adını Şıxalıağalı kənd orta məktəbinə ver - məklə şəhid oğullarına öz borclarını verdilər. İndi bu qeyrətli oğlanın kənd qəbiristanındakı məzarı da səliqə-sahmanlıdır. Hər gün bu məzarın üstə neçə-neçə həmkəndlisi, əsgər dostları gəlib Təvəkkülün adını ehtiramla anırlar. İmarət ana beş yaşlı nəvəsi Gülsadənin əlindən yapışıb hər gün Təvəkkül balasına baş çəkir. Balaca Gülsadə əmisinin başdaşından boylanan şəklinə üzünü tutub:

– Bu mənim Təvəkkül əmimdir-deyir.

İki-üç ildən sonra Gülsadə əmisinin adını daşıyan məktəbin şagidi olacaq və həmişə fəxr edəcək ki, Təvəkkül əmisi Vətənimizin qəhrəman oğulları ilə bir cərgədə dayanır.

# BİLSƏYDİM AYRILIQDI...



**Həsənov Mehman Elman oğlu**
**(22.06.1964-15.01.1992)**

Cəbrayıl yeddilik uşaq məktəbinə gedib Səadət xanımla görüşmək istədiyimizi bildirəndə pianonun şirmayı dillərindən süzülüb gələn musiqili otağa işarəylə:

– İçəridə məşğuldur, on dəqiqədən sonra tənəffüs olacaq. Tay onsuz da dərsi yoxdur, evə gedəsidir. Deyərik gəlib görüşər sizinlə...

On beş-iyirmi dəqiqədən sonra iş otağımızın qapısı açıldı:-Şəhid Mehmanın həyat yoldaşı Əhmədova Səadatəm-deyən cavan bir qadın özünü təqdim edib təklif etdiyimiz yerdə,-bizimlə üzbəüz əyləşdi. Səadət xanım hələ ömrün gənclik çağlarını təzə-təzə yaşayır. S.Hacıbəyov adına Sumqayıt musiqi texnikumunu bitirib, işlədiyi məktəbdə pianodan dərs deyir. Çox həssas qəlbli, duyumlu musiqiçidir. Şeir, sənət vurğunudur. Özünün dediyi kimi hərdən dərdlə, ələmlə üzbəüz qalanda qəlbinin ağrı-acısını şeirə çevirir. Hiss olunur ki, ürəkdən sevdiyi, məhəbbətinə sığındığı Mehmanın həsrəti onun şəvə saçlarından, nəmli baxışlarından və bir də nisgilli dodaqlarından boylanmaqdadır. Bircə onunla təsəlli tapır ki, iki fidan balası Mehmanın səsini, istəyini yaşadır.

– Mehman çox ailəcanlı, həssas, qabiliyyətli oğlan idi. Dörd il qabaq əhdinə-sədaqətinə ürəkdən inandığımdan könül vermişdim ona. Birgə yaşadığımız illərdə gözlərimdə daha da ucaldı, zirvələşdi Mehman. Həyatimizdəki torpağı əkib becərirdi, lazım olanda qapı pəncərəni düzəldirdi, xarab olan elektrik avadanlıqlarını təmir edirdi, yaxşı rəngsazlıq da bacarırdı. Əlindən hər iş gəlirdi. Ev-eşiyi səliqə-sahmanda olması üçün işdən qayıdan kimi iş paltarını əyninə geyib nəyisə təzədən düzəldərdi...

– Eşitdiyimizə görə ticarətdə də səriştəsi var imiş...

– Hə, düzdür. Axı, Mehman Bakı Kooperativ Texnikumunu bitirmişdi. Milli orduya gedənə qədər üç ildən artıq iaşə birliyində işləmişdi. Universamın altında iki göz otaq var idi. Bax, orda yeməkxana açıb bir müddət işlədi Mehman...

– Bəs necə oldu ki, dinc, açığını desək gəlirli bir sahəni buraxıb özünü odun-alovun ağzına atdı?

– Qəribə təbiəti var idi Mehmanın. Qaynar həyatı çox xoşlayırdı. Nə gizlədim istəsəydi heç orduya getməzdi də. Əvvəllər 1982-83-cü illərdə Sovet ordusu sıralarında nümunəvi qulluq edib serjant rütbəsiylə qayıtmışdı.



İstəsəydi başqa imkanlı adamlar kimi (onlar respublikamızın hər yerində olduğu kimi bizim Cəbrayılda da az deyil) kimlərəsə görüm-baxım edib əvvəlki işində qaz vurub qazan doldurardı. Ancaq bu rəzaləti heç zaman yaxın qoymazdı-elə ona görə də Vətən igid oğullarımızı haraylayanda Mehman hamıdan əvvəl səs verdi ona. Bax onda gözlərimdə Ziyarat dağı kimi ucaldı sevdiyim bu insan...

– Orduda olanda hansı hisslərlə evinizə dönürdü, yəqin yadınızdan çıxmaz?

– Mehman Cəbrayıl batalyonunun təchizatçısı idi. Tez-tez əsgərlərimizin döyüşdükləri yerlərdə də olurdu. Qorxu-hürkü onun təbiətinə yad idi. Bir dəfədeyəsən 1991-ci ilin noyabr ayı idi. Evimizə qayıdanda gözlərindən qanlı yaş tökürldü. Səbəbini soruşanda:-Səadət-dedi-bu gün Zamzurda qəhrəmancasına vuruşub həlak olan igidlərimizin-Kazımgilin yanıb kömürləşən cəsədlərini görəndən özümə gələ bilmirəm. Bu namərd erməni faşistləri necə də amansız imişlər. Vallah, bu qan yerdə qalmayacaq. Bir də rəhmətlik Zahidlə Veysəlov Əsgər kələk olanda varından yox olmuşdu Mehman.

– Əsgəri xidmətdə olanda kimlərlə durub otururdu, yadınızda qalıbmı?

– Halal xoşları olsun. Bax bu əllərimlə onun əsgər dostlarına o qədər xörək hazırlamışam ki...Vaqif və Etibar adlı dostlarıyla çox vaxt birgə gəlirdi evə. Çatan kimi onda hələ yaşı tamam olmayan Elbəyi başı üstə qaldırıb:

– Səadət, yaxşı yadında saxla, Elbəyimiz böyüyüb nişanəmi yaşadacaq mənim. İstərdim ki, o elə indidən düşmənin kim olduğunu bilib tanısındeyərdi. Sonra da Elbəyin burnundan, yanaqlarından, süd qoxulu dodaqlarından dönə-dönə öpüb mənə qaytarardı. Eh, o vaxtlar aləmiydi Mehman. Heyif o ötüb keçən günlərə, kaş o günləri geri qaytara biləydim.

*Ötən günlərimi qaytaraydılar,*
*Gələn günlərimi qurban verərdim.*

– Deyən şair elə bil mənim könlümdən keçənləri qələmə alıb...

Səadət xanıma təsəlli üçün: - Allah rəhmət eləsin cəmi şəhidlərimizə-heç olmasa Mehmanın iki yadigar balası qalıb-onlara baxıb toxdaqlıq tapın! – deyəndən sonra növbəti sualımızı veririk.

– Mehmanla sonuncu dəfə nə vaxt görüşmüşdünüz?

– Ötən ilin müsibətlərini Allah bizə bir də göstərməsin! Rayonumuzun torpaqlarına erməni təcavüzü günbəgün artmaqda idi. Sizdən üzr istəyirəmbu sözləri deyəndən sonra Səadət xanım utancaqlıqla səsinin tonunu bir az aşağı salıb əlavə edir: Sonuncu uşağımızın dünyaya gəlməyinə lap az qalmış Elman əminin (Mehmanın atası) təkidi ilə Mehman məni Sumqayıta yola salırdı. Maşın yola düşməzdən əvvəl:-Səadət dedi-özün bilirsən ki, sənsiz

mənimçün çox çətindir-heç getməyinə razı deyiləm, elə bilirəm ki, əbədi ayrılırıq. Yanında olanda heç vaxt belə hisslər keçirməzdi. Ölümü elə bil əyan olmuşdu ona. Bilsəydim ki, ayrılıqdır onda Mehmanın yanından getməzdim. Eh, bu da taleyin işiymiş, olacağa çarə yox imiş –deyib göz yaşlarına boğula-boğula özünə təsəlli verirdi Səadət xanım.....

Səadət dörd gün idi ki, getmişdi Sumqayıta. Mehman hər gün zəng vurub vəziyyəti ilə maraqlanırdı, gəlirəm Bakıya. Bilirdi ki, harada olsa axşama yaxın yanında olacaq Mehman. Ancaq Mehman özü yox, onun yaralanmaq xəbəri çatdı Səadətə. Bu xəbəri Mehmanın qardaşı Tehranın dilindən eşitmişdilər onda. Bu geçikmiş xəbəri Səadət xanıma vaxtında çatdırmamışdılar. Qorxmuşdular ki, dünyaya təzə körpə gətirən ananın səhhətini alt-üst edə bilər bu xəbər. Səadət xanıma demişdilər ki, Mehman yüngül yaralanıb rayon xəstəxanasında yatır. Əsil həqiqəti o, əri evinə çatanda öyrəndi. Dedilər ki, Mehman on beş apreldə ağır yara alandan sonra həlak olub. Həkimlər çox çalışsalar da onu həyata qaytara bilməyiblər....

Taleyə bax, dünyanın işinə bax. Mehmanın Cəbrayıldakı xəstəxanada həyatla vidalaşdığı gündə və deyilənə görə eyni saatda Sumqayıtdakı doğum evində onun sonuncu körpəsi dünyaya göz açdı. Mehmanın yarımçıq ömrünün davamını yaşayan bu körpəyə Mehmanə adını verdilər, ilk dəfə şəhid atanın müqəddəs adını əbədiləşdirən də Mehmanə oldu...

Səadətin xahişi ilə onu Mehmanın uyuduğu Xubyarlı qəbiristanına apardılar. Buraya çatan kimi diz çöküb Mehmanın təzə qəbrini qucaqladı, üstündə təzə-təzə göyərən yaşıl otlara əlləri ilə sığal çəkib:- Mehmanım-dedi-bağışla-dəfninə gələ bilmədim. İndi gəlmişəm ki, ürəyimin yanğısından boylanan misraları sənə çatdırım. Axı, sən mənim barmaqlarımdan damcılayan musiqi ilə, dodaqlarımdan süzülən şeirlə nəfəs alırdın.İndi də dinlə məni:

*Sevirdin bu eldə gülü, yarpağı,*
*Adicə daşa da istəyin vardı.*
*Müqəddəs bilirdin ana torpağı-*
*Sevgidən savayı tay nəyin vardı?*

*İzlərin göyərib o dağ yolunda,*
*Hər şəklin yaşadır neçə anını.*
*Azadlıq uğrunda, torpaq yolunda*
*Lazım gələn kimi verdin canını.*

*Elbəyin, Mehmanən ovunmaz hələ,*
*Ayrılıq qəfildən düşdü araya*
*Mehmanım, sən Allah, barı gəl dilə-*
*Məni tənha qoyub getdin haraya...*



Elə bil Mehmanın məzarının başdaşından boylanan baxışları canlandı bu sözlərdən sonra. Səadət bu şəkli bağrına basıb:

Bilsəydim ayrılıqdır
Öpərdim gözlərindən

Qanı qaçmış dodaqlarıyla sevgilisinin soyuq daşda donub qalan gözlərindən öpə-öpə göz yaşları axıtdı...

## BİR ŞİRİN NAĞILA DÖNÜB RAMİZ

**Həsənov Ramiz Surxay oğlu**
**(05.11.1958-30.08.1992)**



Çərəkənli şəhid Ramiz haqqında yazmazdan qabaq Papıya – Akif Həsənova zəng vurduq. Bizə demişdilər ki, "Qarabağ" kolxozunda sürücü işləyən Həsənov Ramiz Surxay oğlu həlak olduğu günə qədər Akiflə birgə olub, onu Akifdən yaxşı tanıyan çətin tapılar.

Akif telefonun dəstəyini qaldırıb:

– Ramizimi soruşursunuz?-dedi. O yüz oğulun bərabəri idi. Ondan saatlarla danışsam da ürəyim soyumaz. Çox təpərli, yanımlı insan idi. Onun ömrü 2-3 dəqiqəlik telefon söhbətinə sığan deyil. Yaxşısı budur yerinizi deyin, yanınıza gəlim. Gözləyin, onca dəqiqəyə ordayam..

Akif heç on dəqiqə keçməmiş gəlib çıxdı. Özüylə Ramizin şəklini və yığcam ömürnaməsini də gətirmişdi.

– Bizim Ramiz bir aləm idi – dedi-sözü bütöv, zəhmətsevən bu oğlan qəfil ölümüylə sinəmizə dağ çəkdi. Rəhbərlik etdiyim kolxozda sürücü işləyirdi. İşsiz dayana bilmirdi. Tez-tez kəndimizin üst tərəfindən postlara baş çəkib buradakı əsgərlərin vəziyyəti ilə tanış olurdu. İmkanı nəyə çatırdısa, onu kimsədən əsirgəmirdi. Ordumuzun Cəbrayıl hissəsində düşmənlə döyüşən igid əsgərlərimiz Ramizi yaxşı tanıyırdılar. Bəzən bir yerə getməli olurdum, Ramiz gözümə dəymirdi, soruşanda:

– Əfəndilərdən yuxarıdakı postda dayanan uşaqlardan sifariş gəlmişdi, yanlarına gedib – deyirdilər. İncimirdim, bilirdim ki, Ramiz intizamlı oğlandır,

vacib işi olmasa, icazəsiz getməz. Rəhmətlik Sur, Şişdağ əməliyyatlarında güllə dolu kimi yağanda da uşaqları darda qoymadı. Gah patron daşıdı, gah yaralıları arxaya apardı.

Akif danışdıqca gözlərimiz qarşısında otuz beş yaşında dünyadan köçən bir insanın surəti dayanır. Bu insanın ömür yolunun sonu əbədiyyətə-şəhidlik zirvəsinə calanır. Buraya çatana qədər Ramiz orta təhsil alıb imperiya ordusunda xidmət, etmiş sürücülük peşəsinə yiyələnmişdir. Bundan sonra ruzunu özünün dinc peşəsiylə tapmışdır. Kəndlərində idarə etdiyi maşınla çoxlarına əl tutmuşdu. Kiminin dənini dəyirmana aparırdı, kiminə hərbi hissədə qulluq edən əsgər balasından sifariş-soraq gətirirdi. Vaxtı olanda beli əlinə götürüb qapısındakı bir parça dirriyi əkib-becərirdi. Bütün atalar kimi harda olsa üç balasının işığına uçurdu. Döyüş yerlərindən atılan top-tüfəng səslərini eşidəndə nigarançılıqla:

– Təzəcə-təzəcə qəddimizi düzəldib müstəqilliyimizə sevinmək istəyirdik, çörəyi dizlərinin üstə olan erməni köpəkuşağı imkan vermədilər – deyirdi. Kaş bu günlərin sonu qələbəylə başa çataydı..

Bax belə təmiz ürəkli bir insan idi Ramiz. Başqaları üçün yana-yana yaşayırdı.

Akif bulud kimi dolmuşdu, kirpiyinin uclarında zərrə-zərrə damlaların işığı görünməkdə idi.

Rəhmətlik şəhərin düz ortasında, bankın yanında üstünə düşən qraddan maşınıyla bərabər yanıb külə döndü. Harayına çata bilmədik. Allah göstərməsin, həmin 1992-ci ilin otuzu avqust günü Cəbrayıl məhşər ayağında idi. Yenə sağ olsun igid oğullarımız. Düşmənin başına od yağdıra-yağdıra onları susdura bildilər. Özümüz də güc tapıb şəhidlərimizi yerdən qaldırdıq...

Həmin gün Ramizi Çərəkən kəndindəki qəbiristanda dəfn etdilər. Sevdiyi yurdun və qönçə balalarının taleyindən nigaran gedən bu igid oğlanı bütün el-oba göz yaşlarıyla torpağa tapşırdı. Ramiz indi də xatırlanır, şirin bir nağıl kimi ürəklərdə, duyğularda yaşayır...



## BİZİM QƏLBİMİZİ GÖYNƏDİR O SƏS

**Həsənov Məhəmməd Həsən oğlu (05.11.1958-02.03.1992)**



Bu bəla hardan gəldi torpağımıza. Oğuz elimizi kimin qarğışı tutdu, ay Allah? Bu torpağın otuz yeddinci il müsibəti təzəcə qaysaq tuturdu. Bu yurdun qırx birdən qırx beşə məzar-məzar yer üzünə səpələnən oğullarının ruhu Tanrı dərgahında təzəcə təsginlik tapırdı. Hardan göyərdi bu dərd Niyə "Ocağ"ı püləyib kül içində qor axtaranda Hacı Qaraman ocağı Zori Balayana qənim olmadı? Niyə "Yol"u qələmə kimi getdiyimiz cığırlarla sancanda haqqın yolu tutmadı o bayquşu? Silva Kaputikyanlar, Samvel Qriqoryanlar, Yervand Qəhrəmanyanlar, Aşot Manuçaryanlar, Gevorkovlar, Poqosyanlar üstümüzə dil uzaqdanda hardaydıq görən? Anuşlar, hayqanuşlar, Martalar evlərimizdə gəlin olanda niyə duymadıq bu ifritələrin niyyətlərini..

Bağışla, eloğlu, bağışla Məhəmməd, bizi. Dərd yandırıb yaxanda adamın adı da yadından çıxır. Barı oxucuya qoy indi deyək ki, bu yazıda səndən Qalacıqlı Həsənov Məhəmməd Həsən oğlundan söhbət açacağıq. Sən dünyaya yarlı-yaraşıqlı dağ kəndində gəlmisən. Əslində Qalacıq kəndi dağla aranın nəfəs-nəfəsə dayandığı bir yerdədir. Bu kəndin adamları Allaha-müqəddəslərə çox inanandırlar. Bu kəndin müdrik ağsaqlarının, məclislər yaraşığı ağbirçəklərinin üzü hacı Qaraman səmtədir. Tanrı müqəddəsliyinə qovuşan bu ulu ocaq kənd adamlarının iman, güvənc yeridir. Bu ocağa hamıdan artıq inananlardan biri də sən idi. Məhəmməd! Orta məktəbi qurtaranda da, əsgərliyə yolun düşəndə də Həsən kişi bu ocağın üstə qurban kəsmişdi. 1988-ci ildə ordu sıralarından qayıdıb evinizə gələndə anan Ərkinaz xala nəzir-niyaz payladı. Atan Həsən kişi qurbanlıq qoçu ayaqların altında kəsdi. Çox üzüyola, zəhmətsevər oğul idin. Qaynayıb qovuşmuşdun kənd adamlarına. Bir əlinlə beldən, yabadan, o biriylə kitabdan, dəftərdən yapışmışdın. Oxumağa yaman həvəsli idin. Bu arzu səni Gəncə şəhərindəki Kənd Təsərrüfatı Akademiyasının qiyabi zoomühəndis fakültəsinin tələbələri sırasına qoşdu. İnstituta qəbul olunmaq müjdəsiylə evinizə dönəndə el-oba, qonum-qonşu sizə göz aydınlığına yığışdılar. Ertəsi gün kəndinizdəki sürücülərin birinin maşınında Hacı Qara-

mana gəldin. Ulu ocaq daşlarını öpəndən sonra Hacı Qasım Çələbinin və bu müqəddəs məkanda uyuyanların qəbrini ziyarət edib:

– Allah qoysa institutu qurtarım, bu müqəddəs ocağın hər daşına üzümü sürtəcəyəm-dedin...

Ulu ocaq, müqəddəs məkan sözünü eşitdi. Sənə elə gəlirdi ki, hər işin qaydasında gedir. Kənddə, işlədiyin sovxozda hörmət-izzət sahibi idin. İnstitutun dördüncü kursunda oxuyurdun. 1990-cı ildə toy edib Sevda adlı bir el qızıyla ailə qurmuşdun. Qalacıqdakı ata ocağınızın işığı daha da gur yanırdı. 1991-ci ilin yayında Həmidə anadan olanda bu işığın şöləsi daha da çoxaldı. İşdən qayıdanda bu balaca qızcığaza saatlarla tamaşa etməkdən doymurdun. Həsən kişi adına torpaq sahəsi almışdı. Arzun təzə yurd yerində özünə ev-eşik tikmək idi. Həsən kişi özü də istəyirdi bunu. Ərkinaz ana ağbirçəklərə məxsus səbrlə:

– Ağrın alım –deyirdi-hələ oxu, məktəbini tamamla. Sonra hamımız yığışıb evini tikərik...

Düz deyirdi anan. O yaxşı bilirdi ki, bu ev dünyanın bütün vaxtlarında halallığa söykək olub. Bu evin urvasına haram qatılmayıb, atanın qazancı, ananın pensiyası, həyat yoldaşın Sevdanın kənd məktəbindən aldığı cüzi maaş güclə bu ailəni dolandırırdı. Elə buna görə də ev tikməyi taleyin ixtiyarına buraxmışdın. Bu yandan da lənətə gəlmiş erməni namərdliyi əl-qolumuzu işdən soyutmuşdu. Son aylar işgüzarlığını görüb vəzifəni artırmışdılar. O boyda təsərrüfatın zootexniki idin. Başı dumanlı-çənli Ziyaratın üzündən Şuşa tərəfdən gələn xəbərləri həyəcanla izləyirdin. Axşamlar işdən geri dönən kimi bircə hovur dincini alıb Sirikdə, Dolanlarda, Şıxlarda torpaqlarımızın keşiyini çəkən oğullarımızın yanına tələsirdin. Bir dəfə-onda hələ doxsanıncı il idi-erməni quldurları Şıxlar kəndinə hücum edəndə könüllü olaraq gedib qoşuldun kəndin müdafiəçilərinin sırasına. Kəndi tərk etmək istəyənlərə ürək-dirək verib:

– Tarixən Şıxlar, Sirik kəndləri həmişə ermənilərin qarşısında qala kimi dayanıb. Bu dəfə də onlar bizim meyitimizin üstündən adlaya bilərlər-dedin. Sənin kimi igid oğullarımızın hünəri sayəsində ermənilərin istəyi gözlərində qaldı o zamanlar...

Milli Ordumuzun ilk hissələri yaradılanda sənin də sevincin yerə-göyə sığmırdı. Tez-tez Dolanlarda, Nüsüsdə, Sirikdə, Şıxlarda dayanıb torpaqlarımızın keşiyini çəkən cavanların yanında olurdun. Maddi imkanın dairəsində onlara əl də tuturdun hər dəfə onlarla görüşəndə:

– Hamınızın qadasın alım – deyirdin – bu yalçın dağlara quş gəlsə qanad, qatır gəlsə dırnaq salar. Erməni dığalarının hünəri nədi Tağdan, Hozapertdən bəri boylana. Allah qoysa onları dədə-baba torpaqlarımızdan da qovub çıxaracağıq...



Vətən səninçün Qalacıq kəndindən başlasa da bu yurdun Gəncəsi, Təbrizi, Naxçıvanı, Şəkisi, Zəngəzuru, Göyçəsi var idi qəlbində. Bu ulu yurd yerlərimiz üçün canından keçməyə hazır idin. Bu torpaq sənin üçün oğul qeyrəti, ana-bacı isməti, gəlin namusu idi. Onu qorumaqdan ötəri hər bir haraya çağrışa üz tutmağı özünə borc bilirdin.

Ötən ilin mart ayının 28-də bu çağrışı eşidib Dolanlardakı posta yollanmışdın. Özünlə xeyli azuqə də aparırdın döyüşçülərimizə. Onda o müdhiş gündə ölümün sənə yaxınlaşdığından xəbərsizdin. Bu erməni sifətli ölüm Dolanlar kəndinin yanında minaya dönüb getdiyin "Kamaz"ın külünü göyə sovurdu. Səninlə bərabər iki nəfər eloğlumuz da meyitə, qana çevrildi.

Dolanlara döyüşçü kimi gedirdin, Qalacığa şəhid kimi qayıtdın. Rəhmətlik Əhmədov Zahidin ruhu dolaşan torpaq səni də ağuşuna alıb yaralarına üzünü söykədi. Ərkinaz ananın yanıqlı bir avazla söylədiyi ağının sədası Tey dağına da gedib çatdı:

*Əzizinəm tey, səni*
*Qucaqlayıb göy səni*
*Şəhid balam dinincə*
*Çağıraram hey səni...*

Bu harayı eşidirsənmi Məhəmməd? O, Ərkinaz ananın dağı-daşı yandırıb yaxan səsi-ünüdür. Bu səsdə torpaq nəfəsi, yurd harayı, ana yanğısı, bacı-qardaş həsrəti, ata nisgili var. Necə ki, torpağımızın qeyrəti yolunda şəhid olanlar var, həmişə ürəyimizi göynədəcək, bizi dirigözlü yandıracaq bu səs.

# TORPAĞI ÜRƏKDƏN QORUYAN OĞLAN



**Hüseynov Seyidli Qiyas oğlu (05.1964-12.07.1992)**

Cəbrayılın şimal-şərqində 6-7 evdən ibarət bir kənd var – Quşçular kəndi. Quldur yuvası olan Hadrutla həmsərhəddir, bədnam Sur kəndi ilə üzbəüzdür. Bir vaxtlar "sapı" özümüzdən olan başbilənlərimizin uzaqgörənliyi ilə bu kənd də Hadrut rayonunun ərazisinə daxil edilmişdir. Beş ildən bəri davam edən müharibənin sərt üzü bu kənddən də yan keçməyib. Quşçular kəndi də torpağa öz şəhidini verib. Bu, Hüseynov Seyidalı Qiyas oğludur.

1964-cü ilin may ayında Qiyas kişinin ilk övladı Seyidalı dünyaya gəldi. Ata-ananın sevincinin həddi-hüdudu yox idi. Ömrünün çoxunu dağda-aranda qoyun-quzu haylayan Qiyas kişinin ürəyində təzə-tər arzular tumurcuqlandı.

Seyidalı 1978-ci ildə Xələfli kənd orta məktəbin səkkizinci sinfini bitirib Bakı Plan-Uçot Texnikumunun yer quruluşu fakültəsinə daxil olur və təhsilini tamamlayır. 1982-1985-ci illərdə "Şanlı Sovet Ordusu"nun Murmansk donanmasında hərbi xidmətdə olur.

Sonra Cəbrayıla qayıdıb bir müddət rayon Aqrar-Sənaye Birliyində yer quruluşçusu işləyir. 1988-ci ildə hərbi işə olan maraq və istək onu yenidən Bakıya qaytarır və burada o, Bakı Dəniz Donanmasında miçman vəzifəsinə təyin edilir. Əsgərlik həyatında əldə etdiyi dözüm və çeviklik burada da onun köməyinə gəlir. Donanmada ən sayılan, sevilən matroslardan biri olur.

1986-cı ildə hələ Cəbrayılda olarkən öz obalarından sevib-seçdiyi bir el gözəli ilə ailə həyatı qurur. Həyat yoldaşı Aləmzarın da, elə Seyidalının özünün də bəxtəvər anları, sevinc, səadət dolu günləri bundan sonra başlayır...

Biz Seyidalı haqqında yazmazdan qabaq onu tanıyanlarla görüşüb söhbət etdik. Onlar bu qeyrətli şəhiddən ürək yanğısıyla və həm də fəxrlə danışırdılar. Xələfli kənd məktəbində ona dərs demiş Qədimalı Rəhimov: – Qardaş, Seyidalı bir od parçası idi. Necə deyərlər, dəyirmanın boğazına ölü salsaydın diri çıxardı. Çox həyalı, deyərdim qız kimi ismətli oğlan idi. Böyüyün-kiçiyin yerini bilən idi. Heyif ki, yaxşı oğullarımız tez gedir aramızdan həmişə.

Seyidalının dayısı Allahverdi müəllim ondan kövrələ-kövrələ söz açır:

– Seyidalı kimi oğullar az-az doğulur desəm səhv eləmərəm. Çox qorxmaz oğul idi. Heç nədən çəkinən deyildi. 20 Yanvar qırğınından sonra heç özünə gələ bilmirdi. Orduya yazılandan sonra elə bil ki, bir az sakitləşmişdi. Vzvod komandiri idi. Onun çox böyük qəhrəmanlıqla həlak olduğunu eşidib Bakıya getdik. "Şəhidlər xiyabanın"da dəfn etmək istəyirdilər onu, qəbri də hazır idi. Ancaq anası – mənim bacım razılaşmadı. Ana öz balasının meyidini məzardan çıxarıb, balamı eliмə-obama aparacağam-dedi-heç olmasa qəbri gözümün qabağında olar.



Milli ordumuz ilk addımlarını atanda Seyidalı da onun sırasına qoşuldu. Altı ay Bakıda Şıx batalyonunda qulluq etdikdən sonra Ağdərəyə yola düşür. Seyidalının əsil döyüş yolu da elə bundan sonra başlayır. Ağdərənin və onun kəndlərinin alınmasında yaxından iştirak edir. Neçə-neçə murdar erməni dığasını öz əlləri ilə qətlə yetirir. Sonra isə Kəlbəcər rayonunun Ağdaban kəndinin düşməndən geri alınmasında gücünü, qüdrətini əsirgəmir. Ağdərənin kəndləri bir-bir düşməndən azad edildikcə, quduzlaşmış ermənilər daha artıq müqavimət göstərirdilər. Seyidalının da quldurlarla son döyüşü Aterkdə oldu. Onda 1992-ci ilin iyun ayının on ikisi idi. Seyidalıgil postdan gələndən sonra məlum olur ki, altı nəfər yoldaşları qayıtmayıb. Onları axtarmaq, ölüsünü, ya da dirisini tapıb gətirmək lazım idi. Kim könüllü gedər deyəndə birinci Seyidalı qabağa çıxır, beş nəfər döyüşçü də ona qoşulur. Onlar Seyidalını-döyüşdən gəlmisən, yorğunsan –deyə dilə tuturlar. Ancaq igid eloğlumuz bu təklifləri qəbul etmir. Döyüşçü dostları ilə UAZ markalı maşına minib yola düşürlər. Bir az getdikdən sonra meşədə erməni pusqusuna düşürlər. Quldurlar hər tərəfdən onları atəşə tuturlar. Seyidalı qolundan yaralansa da yoldaşlarına deyir:

– Mən maşından düşüb onları saxlayacam. Siz tez arxaya qayıdıb hissəyə xəbər verin ki, ermənilər yolu kəsib və cəld maşından aşağı atılıb düşməni gülləyə tutmağa başlayır. Ermənilər maşını partladırlar beş nəfər döyüşçümüz elə oradaca həlak olur. Yoldaşlarının həlak olduğunu görən Seyidalı ruhdan düşmür. Sərrast atəşlə altı qulduru məhv edir. Son nəfəsinə qədər düşmənlə vuruşur.

Ömrünü, gününü torpağının azadlığı yolunda qurban verən vətən oğlu ölümüylə ürəklərdə özünün heykəlini ucaldır...

Bahar ana tez-tez Seyidalının kənd qəbiristanlığındakı məzarına baş çəkir, analı-oğullu günlərini yada salıb ağlaya-ağlaya ürəyini boşaldır, sonra elə bilirəm Seyidalı postdadır – deyir, oğlumu keşikdə qoyub arxayın gedirəm, bundan sonra heç bir düşmən bizə üstün gələ bilməz...

Bir zamanlar müharibə qurtaracaq, balaca Natiq böyüyüb Seyidalı Hüseynov adına Xələfli kənd orta məktəbinə gələcək və onda biləcək ki, onun atası qəhrəmanlıqlar göstərərək harsın oğullarına qan uddurub. Bu günkü xoşbəxt günlərimiz, xoşbəxt gələcəyimiz üçün canından keçib...

# ARİFİN ADINI YAŞADAQ GƏRƏK



**Hüseynov Arif Şamsun oğlu**
**(01.1973-28.06.1992)**

Cəbrayılda doğulan şəhid oğullarımızdan kitab yazdığımızı eşidib Rəfiqə bacının özü gəlmişdi görüşümüzə.

- Nahaq əziyyət çəkmisiniz, özümüz sizin Daşkəsən kəndinə gələcəydik – deyəndə Rəfiqə bacı:

– Nə əziyyəti var-dedi Xocalı faciəsinin ildönümünə görə şəhidlərin valideynlərini icra hakimiyyətinə dəvət etmişdilər, dedim elə gəlmişkən sizə də baş çəkim. Oğlum Arifin şəkillərini də gətirmişəm, yəqin ki, gərəyiniz olacaq...

Rəfiqə bacı oğlunn müxtəlif illərdə çəkdirdiyi şəkilləri stolun üstünə qoyub:

– Anası ölmüşü kasıbçılıqla böyüdüb boya-başa çatdırmışdım. Hündür boylu, qıvrım saçlı bir oğlan idi. Yapışıqlı sifəti, uzun kirpikləri adamı hayılmayıl edirdi. Tanrı mənə çox gördü Arif balamı. Kəramətinə şükür, yəqin ki, məsləhəti beləymiş.

Şahid Hüseynov Arifin tərcümeyi-halından sətirlər: Daşkəsən kəndinin igid oğlu Hüseynov Arif Şamxal oğlu 1973-cü ilin yanvarında doğulub. Bütün həyatını xalqımızın maariflənməsinə həsr edən unudulmaz akademik Mehdi Mehdizadənin, neçə-neçə istedadlı alimin ata ocağıdır Daşkəsən kəndi. İndi bu kənd canlarını vətən yolunda qurban verən şəhid oğullarıyla da tanınır. Bu kəndin, onun qədir-qiymət bilən adamlarının yaddaşında Ariflə bağlı düzüm-düzüm xatirələr yaşayır. Orta məktəbi bitirəndən sonra 1990-cı ilin may ayından düz oktyabra kimi Arif Sovet ordusu sıralarında olmuş və “Xilaskar ordu”-nun əsl sifətini görmüşdü...

Rəfiqə bacının dediklərindən:

– Arif Qubadlıdan olan bir əsgər yoldaşıyla bərabər əsgəri hissədən qaçıb canlarını qurtarmışdı. Əslində Arif balam ermənilərin murdar sifətini uzaq ellərdə görmüşdü. Evimizə gələndə onun qılçındakı bıçaq yaraları hələ sağalmamışdı. Başına küt alətlə vurmuşdular balamın. Canının ağrısından yata bilmirdi gecələr. Deyirdi ki, rus zabitlərinin gözləri qabağında ermənilər məni



bu kökə saldılar. Qubadlıdan olan yoldaşım məni xilas etməsəydi buraya sağ qayıda bilməzdim. Tay əlimiz hara çatacaqdı ki, Bakıdakı hərbi qospitalda yatıb müalicə olunandan sonra Nasosluda hərbi xidmətini davam etdirdi. Cəbrayıl torpaqlarına ermənilər diş qıcıdanda rayonumuzun müdafiəçilərinin sırasına qoşuldu. Evdə bizə deyirdi ki, bu mənfur ermənilərdən Xocalı müsibətində şəhid olanların qisasını almayınca ürəyim soyumaz. Bacısı Sevda deyəndə ki, qardaş, qurban olum, ehtiyatlı ol, nahaqdan güdaza gedərsən. Arif əlüstü cavab verirdi ki, ölərəm, ancaq qoymaram ki, doğma yurd-yuvamızdan didərgin düşəsiniz...

Arifin döyüş yolunun izlərindən: Milli ordumuzun Cəbrayıl batalyonunda bir qorxmaz igid kimi ad çıxarmışdı Arif. Düşmənin bu torpaqlara qan uddurmaq üçün fürsət gözlədiyini yaxşı bildiyindən həmişə ayıq-sayıq dayanırdı keşikdə. Erməni quldurlarının hər bir hərəkətini diqqətlə izləyirdi. Hər dəfə Qışlaq postuna gedəndə buradakı dağıdılan evlərə ürəyi yana-yana baxırdı. Bu kəndin perik düşüb Arazboyu kəndlərə səpələnən əlsiz-ayaqsız sakinlərini yada salanda için-için qovrulurdu.

– Sən işə bax-deyirdi-əsli-kökü bilinməyən bu qaraçı köçünə yer ver, yurd ver, sonra da səni borclu çıxarıb desinlər bura elə əvvəldən bizim olub. Belə müsibətə kim dözər, Allah... Və bu sözlərdən sonra silahdan daha möhkəm yapışırdı Arif. Hərdən icazə alıb evlərinə gələr, ata-anasıyla, qardaşları Əbülfətlə, Əlövsətlə, Asiflə, hamıdan çox istədiyi Maariflə görüşüb geri qayıdardı. Maarif hər dəfə ondan xahiş edirdi ki, avtomatdakı daraqdan bircə patron ver mənə. Arif onun saçlarına əlini çəkib:

– Qaqaş, bilirsənmi bu bir güllə bir erməninin ölümüdü, incimə, onu düşmənin başına çaxacağam - deyərdi...

1992-ci ilin iyun ayının sonralarında keçirilən Sur əməliyyatında neçə-neçə igidlik göstərmişdi Arif. Bu döyüşün qəhrəmanlarından olan Qasımov Mübarizlə birlikdə cəsarətlə düşmən səngərinə atılmışdılar. Bu döyüşdə Mübariz şəhid olsa da Arif onun qanını yerdə qoymamışdı...

Rəfiqə ananın dediklərindən: Sur döyüşündən sonra Arif evimizə gəlmişdi. Üstü-başı qan içində idi. Onda Bakıda yaşayan bacısı Sevda da üç körpəsiylə bərabər evimizə - Arifə baş çəkməyə gəlmişdi. Onu bu vəziyyətdə görəndə ünümüz qaçdı. Arif bizi sakitləşdirib:

– Müharibədə hər şey olar – dedi üst-başım şəhid oğullarımızın qanına boyanıb. Mübarizin ölümünə heç tablaşa bilmirdi. Atası Şamxal ona ürəkdirək verəndə Arif:

– Ata-dedi-kaş görəydiniz Mübariz necə qızıl kimi oğlanıydı.

Hərbi təhsil almış bu oğlanda əsl komandirlik bacarığı var idi. Şəhid ol-

mazdan qabaq neçə-neçə quldurun nəfəsini kəsdi. Döyüşlərin qızğın çağında onu vurdular.

– Arif, qisasımı özün alarsan deyib uğrunda can verdiyi torpağa səriləndə iki-üç addımlığımızdakı muzdlu zəncinin üstə atıldım. Bədheybət sifətli bu yadelli yaralansa da ayı kimi bağırır, caynağına kimisə keçirməyə çalışırdı. Mübarizin qanlı sinəsini görəndə döyüş bıcağını çıxarıb yaralı ayı kimi nərildəyən o zəncinin başını üzdüm. Söhbətin bu yerində Sudanın əti çimçəşdi Əlini üzünə atıb:

– Oyy qağa, sənin bir qarışqa ayaqlamağa ürəyin gəlməzdi, niyə belə etdin bəs?

– Axı, o heyvərənin bu torpaqda nə ölümü var idi ki, durub xaricdən basa-basa gəlmişdi bura. Xocalıda xalqımızın başına açılan müsibətdən sonra qeyrəti olan heç kəs düşmənə aman verməz...

Rəfiqə ana oğlunun son günlərini də ürəyi yana-yana, göz yaşlarında boğula-boğula xatırlayır:

– Şişdağ döyüşlərindən əvvəl evimizə gəlmişdi Arif. Gedəndə hamımızla halallaşdı. Dedi ki, bacım Sevdaya salamımı çatdırarsınız. Sonra məni qolları arasına alıb saçlarımdan öpdü.

– Yuxuda görmüşəm ki, sağ qılçımdan vurulmuşam, əl ayağım qan içindədir. Ölüb eləsəm südünü mənə halal edərsən ana. Kövrəldiyimi görəndə atası Şamxala üzünü tutub:

– Sağlıqla qalın-dedi-Allah qoysa Şişdağa bax bu əllərimlə döyüş bayrağımızı sancacağam. Bir də inşallah döyüşdən sonra görüşərik.

Arifin dalınca göz yaşlarımı səpələdim.. Bizim qeydlərimizdən: Şişdağa yaxın olan Daşkəsən camaatı güllə mıənzilindən uzaq Quycaq kəndinə pənah aparmışdılar o döyüşdən qabaq. Sıldırım yoxulu dağın sinəsi od tutub yanırdı elə bil. O uğursuz əməliyyat zamanı neçə-neçə günahsız oğullarımız hədər yerdən şəhid oldular. Əksəriyyəti də on doqquz yaşının içindəydi bu oğulların. İlk gənclik çağlarını doyunca yaşamağa macal tapmayan şəhid oğullarımızın əksəriyyətinin meyitləri düşmən caynağına kiçmişdi onda. Bəs komandirlər, döyüş planını hazırlayanlar harada idilər, bilən olmadı. Əli təzə-təzə avtomat silaha öyrəşən yeniyetmələri güllə ağzına verənlər kim idi, bu xəyanət nə məqsədlə törədilmişdi- sualına cavab verən tapılmadı...

Rəfiqə ananın dediklərindən: – Döyüşdən sonra Arifin taleyindən narahat idik. Qonşu uşağı gəlib dedi ki, Arif yaralanıb, rayon xəstəxanasına aparıblar. Özümüzü ora çatdıranda balamın sağ gözündən güllə yarası aldığını gördüm. Hələ nəfəsi var idi. Arif-deyə səslədim. Səsimi eşitdi, eşitmədi-deyə bilmərəm, iki-üç saniyədən sonra canını tapşırdı. Sonradan eşitdim ki, Arifi güllə yağışı



altında dədə-baba qəbiristanımızda dəfn ediblər. Bir sutka heç nədən xəbərim olmayıb. Balamın üstünə gələn əsgər yoldaşları heyfsilənə-heyfsilənə deyirdilər ki, Arif Şişdağda əsil igidlər kimi son nəfəsinə kimi döyüşüb. Sonralar Arifimin komandiri İlham Məmmədov deyirdi ki, Arif bizim ekipajın atıcısı idi. Döyüş zamanı atdığı güllələr düşmənə aman vermirdi. Arifin yeri həmişə görünür. Onun ölümündən sonra ekipajın heyətinə heç kimi götürməmişik. Elə biirik ki, döyüş vaxtı Arif özü də bizimlədir. Ölməzdən qabaq komandiri Mübarizin də, şəhid yoldaşlarının da qisasını alıb. Arifimin adını ağılarda əzizlədim onda:

*Haraysız-haysız öldün,*
*Qismətsiz, paysız öldün,*
*Boyuna qurban olum,*
*Arifim, toysuz öldün...*

Bizim qeydlərimizdən: Rəfiqə ana oğlunun ölümünə hələ inana bilmir. Elə bilir ki, uzaq səfərə çıxıb Arif. Nə vaxtsa qayıdıb gözləri yol çəkən doğmalarını sevindirəcək. Ananın nisgilini yüngülləşdirmək üçün heç olmasa Arifin adını yaşatmalıyıq. Arif əbədi yaşamaq haqqını torpağımızın azadlığı uğrunda tökülən qanıyla qazanıb. İstərdik ki, lap yaxın günlərdə Daşkəsən camaatı şəhid oğulları Hüseynov Arifin adının əbədiləşdirilməsi barədə arzularını həyata keçirsinlər.

# MƏN BELƏ DEMƏMİŞDİM



**Hüseynov Aydın Oqtay oğlu**
**(19.11.1973-12.02.1993)**

Daşkəsən torpağı Aydını qoynuna alıb onun şəhid məzarını bağrına basıb. Aydın bu kəndin dördüncü, axırıncı şəhid balasıdır. Hüseyndən, Vüqardan və Arifdən sonra dünyasını dəyişib. Məzarı lap təzədir, torpağı soyumayıb hələ. Bir də ki, şəhidlərin sığındığı bu torpaq heç vaxt soyuya bilməz. Ana-bacılarımızın ürəklərinin oduyla isinən şəhid məzarları həmişə hərarətli olur, təzə-tər qalır. Aydının Daşkəsən torpağındakı məzarının üstündən adam əskik olmur bu günlər. Bu məzar gözdağıdır, elə bil diri gözlü yandırır adamı. Bu məzarda nakam bir ömrün səsi-ünü kəməndə düşüb. Bu səs bir də eşidilməyəcək hec vaxt. Tay bundan sonra Aydın heç vaxt evlərinə gedə bilməyəcək. Nəcibə ana özü gələcək Aydının görüşünə. Bacıları Aynur, Aybəniz onun qara mərmərdən boylanan şəkilini öpüb oxşayacaqlar. Nəcibə ananın baxışlarıyla isinəcək bu məzar. Onun adamı yandırıb yaxan ağılarıyla gor evində rahatlıq tapacaq Aydının cavan ruhu...

Daşkəsənin üç şəhid balasından yazı yazanda demişdik ki, Tanrı bir də şəhid qismət eləməsin bu kəndə. Demə dördüncü şəhidə də göz yaşı axıdacaqmış Daşkəsən camaatı. "Tanrı dərdi çəkənə verir"-deyiblər. Böyük ürəyi, böyük dözümü var bu camaatın. Özlərində güc tapıb bu dərdi də bölüşdürdülər.

– Sonuncu qəmimiz, sonuncu şəhidimiz olsun – dedilər. Aydını dəfn edəndə. Bu yazını yazanda – "Allah, bu camaata bir də şəhid ölümü göstərmə"-dedik. İnandıq ki, ulu Tanrımıza çatacaq bizim səsimiz.

Şəhidlik on doqquz yaşlı oğulluların qismətinə düşüb elə bil. Cəbrayıllı igidlərimizin əksəriyyəti bu yaşda şəhidlik zirvəsinə yüksəliblər. Bu yaş igidlik yaşıdır, qəhrəmanlıq yaşıdır. Ölüm on doqquz yaşlıları nə yaman sevirmiş İlahi. Aydın on doqquz yaşın aşırımını təzəcə adlamışdı. İyirmi yaşıyla heç əməlli-başlı görüşməyə vaxtı da olmadı. Əcəl aman verməd ki, bu yaşın şirinliyini yaşasın. İyirmi yaşdan ona nə qaldı? Ağrılı-acılı bir ölüm. Ancaq adi ölüm deyildi bu ölüm. Aydının taleyindən keçən bu ölüm ona şəhid adı qazandırdı. İnnən belə bu adla yaşayacaq, bu adla tanınacaq Aydın...



Ömrün şəhidlik zirvəsinə çatanacan on doqquz il yol getmişdi bu oğlan. 1973-cü ilin on doqquz noyabrından başlayan bu yol 1993-cü ilin on iki fevralında əbədiyyət adlı bir dünyayla üz-üzə dayandı. Şəhid oğullarımızın ruhu dolaşan əbədiyyət dünyası Aydını da bağrına basıb əzizlədi...

Halallığı hava kimi, su kimi həyat əlaməti bilən bir ailədə böyümüşdü Aydın. Atası Oqtay kişi də, anası Nəcibə bacı da torpaq adamı idilər. Yamac boyu sıralanan üzümlüklər onların ruzusu, çörək ağacı, dolanışıq yeri idi. Ailədəki beş uşağın hər biri torpaqla ülfət bağlamışdılar. Aydın özü də bel, qayçı tutandan ata-anasının hayına çatmışdı. Ürəyində torpağa böyük məhəbbət hissi var idi onun. Yaxşı oxuduğundan müəllimlərinin sevimlisiydi. Orta məktəbi qurtaran kimi Sankt-Peterburq şəhərinə gedib Frunze adına Ali Hərbi Dəmiryol mühəndisləri məktəbinə qəbul olunmaq xəbərini eşidən kimi kənd camaatı ata-anasına gözaydınlığı vermişdilər. Onda hələ hamımız SSRİ adlı imperiyanın bayrağı altında idik. Qanlı yanvarda bu dövlətin iç üzünü görəndən sonra inamımız sarsılmışdı, müstəqilliyə, azadlığa can atırdıq. Aydın onda yaxşı bilirdi ki, gec-tez imperiya boyunduğundan çıxacağıq. O dərk edirdi ki, xalqımıza savadlı, bacarıqlı hərbi mütəxəssislər lazım olacaq. Ona görə də ali məkrtəbdə ilk gündən yaxşı oxumağa çalışırdı. Sankt-Peterburqdan yazdığı məktublar onun narahatlığından xəbər verirdi. O, torpaqlarımızın müsibətinə dözə bilmirdi. Söz düşəndə deyirdi ki, azadlıq verilmir, gərək onu canınla, qanınla əldə edəsən. Müstəqilliyə can atan respublikamızdan aldığı hər təzə xəbər onu həyəcandırırdı. Ona görə də doğma torpaqlarımızda azğınlıq edən erməni faşistlərinin vəhşiliklərinə son qoymaq üçün kursant yoldaşlarıyla ötən ilin dekabrında cəbhəyə yollandı. Aydın cəsarətli oğul idi. Düşmənin gülləsindən, mərmisindən qorxub çəkinmirdi. Ölümün üstünə gedəndə özünü yox, didərgin taleli ana-bacılarımızı əlsiz-ayaqsız qocaları düşünürdü. Gözlərindən əzab yağırdı onun. Bilirdi ki, düşməndə kişilik deyilən sifət yoxdur. Bilirdi ki, Xocalı qisasının əvəzini hələ almamışıq. Ona görə də döyüşlərdə güllə qarışıq nifrətini, qəzəbini də yağdırırdı düşmənin başına. Ağdam cəbhəsindəki döyüşlərdən sonra onların hərbi hissəsi Ağdərə ətrafında döyüşürdü. Ona elə gəlirdi ki, çoxdan gözlədiyimiz qələbə cəmisi bir addımlıqdadır. Düşməni o qarlı dağlardan o üzə aşırdınmı, catacaqsan ona. Qələbə gününü görmək arzusu ilə yaşayırdı Aydın. Bu sevinci yaşamaq qismət olmadı ona. 1993-cü ilin fevral ayının on ikisində Aterk kəndi uğrunda qeyrətlə vuruşub həlak oldu. Düşmən gülləsindən bu günahsız insanın da ömrü yarımçıq qaldı. Nə ali təhsilini tamamlaya bildi,nə də bu yurdun sabahına qovuşdu. Torpaq, aman diləyəndə bircə canı vardı onu qurban verdi ana deyib on doqquz il mehrinə sığındığı Vətənə. Bir vaxtlar beşiyiydi, yurd yeriydi,

indi məzarıdır, gor evidir Vətən torpağı...Bu torpağın qan yaddaşında Aydının da adı yaşayacaq illər uzunu. Bu ad nəğmələrdə, notlarda, şeirlərdə misralara dönəcək...

Daşkəsən kəndi dörd igid oğul itirib. Bu kəndin neçə-neçə qeyrətli balası torpaqlarımızın azadlığı uğurunda döyüşür indi. Tanrı onlara yar olsun, düşmən gülləsinə tuş gəlməsinlər...

Aydın bu kəndin sonuncu şəhididir. Hələ torpağı soyumayıb. Hələ payızdan bahara yol gələn durnalar ötməyib onun məzarı üstündən. Baharın ılıq nəfəsiylə isinəcək şəhid qəbirləri. Aydının yarımçıq ömrünün davamı kimi onun qəbrinin yan-yörəsində güllər, çiçəklər göyərəcək yarpaq-yarpaq. Nəcibə ana göz yaşlarıyla suvaracaq onları. Ana ürəyinin göynərtisi gül ətrinə, çiçək qoxusuna qarışıb ləçək-ləçək səpiləcək dünyamıza:

*Nisgilim duman oldu,*
*Həsrətim kaman oldu,*
*Mən belə deməmişdim,*
*Gedişin yaman oldu...*



# ANA OĞUL SORAQLAR

**Hüsiyev Rafiq Musa oğlu**
**(1971-28.06.1992)**



Bu dünyada Tanrı dərgahına axşam-səhər üz tutan ağzı dualı bir ana var. Allahın ən mömin, ən sakit bəndəsidir bu ana. Axşam-səhər əllərini göyə açıb:

– İlahi, hamının balasını qəfil bəladan hifz elə, mənim Rafiqimi də onların cərgəsinə qat, deyirdi bu ana. Xocalı müsibəti, Şuşa yanğısı, Qarabağ həsrəti ürəyini göynədir bu ananın. Düz səkkiz aydır ki, şəhid oğul itkisi varından yox edib bu ananı. Düz səkkiz aydır ki, Rafiq deməkdən dili-ağzı qabar olub Göyçək ananın. Bu ana şəhid balasının bir vaxt geyindiyi əsgər paltarını bağrına basıb:

*Balamı göylər ağlar,*
*Gəlinlər, qızlar ağlar.*
*Dərdim ölçüyə sığmaz,*
*Ürəyim sızlar-ağlar –*

– deyir.

Ötüb keçən günlər ananı oğlunun ölümündən uzaqlaşdırsa da onun göz yaşlarını quruda bilmir. Nə ağbirçəklərin təsəllisi, nə oğulları Rasimlə Şakirin şəhid balasını xatırladan duruşu, nə də məktəbli qız balası Könülün pərvanə kimi başına dolanması Göyçək ananın dərdini unutdura bilmir...

Tez-tez Rafiqin məzarı üstə gəlib:

– Qurban olum, ay Rafiq, anan yanına gəlib niyə səsimə səs vermirsən? – deyir. Burada, ruhların dolaşdığı bu müqəddəs yerdə ana sanki bir anlıq rahatlıq tapır, yan-yana düzülən şəhid qəbirlərinə gözünü dikib:

– Balalarım, Kazım, Zahid, Vüqar, Elşən-deyir-Rafiqim əmanəti, ondan da muğayat olun. Ana şəhid balasının gor qonşularının başdaşlarından boylanan şəkillərindən öpə-öpə:

– Ananız ölsün-deyir-axı sizin ölməli vaxtınız deyildi...

Bu dərdli ananın iyirmi bir yaşında dünyadan köçən balası Hüseynov Rafiq Musa oğlu ailənin ən sevimli övladı idi. Orta məktəbi bitirib texniki peşə təhsili almışdı. Sonra iki il Rusiyanın qarlı-buzlu bir diyarında hərbi xidmətdə olmuşdu. Kəndə qayıdandan sonra əli işə-gücə təzə-təzə yatırdı.

Uşaqlıqdan əməksevər olan Rafiqin əlləri qızıl idi. Kənddəki minik maşını emalatxanalarının birində usta köməkçisi işləyirdi. Dinc həyatdan uzaq düşməsə indi bu peşənin ən mahir bilicisi olacaq idi. Ancaq torpağımıza yağı əlləri uzananda Rafiqin də dincliyi pozuldu. Xocalıda ermənі quzğunlarının yurddaşlarımıza divan tutduqlarını eşidəndə əli işdən-gücdən soyudu. Ötən il may ayının əvvəllərində işdən çıxıb evə gəldi və atası Musa kişiyə üzünü tutub:

– Qağa, tay günü sabahdan orduya gedəcəyəm. Adam qeyrətinə sığışdırmır ki, dar ayaqda kənarda qalsın...

Rafiq dediyi kimi də etdi. Dinc peşəsi ilə vidalaşıb əlinə silah götürdü. Torpaqlarımızdan düşmən ayağını birdəfəlik kəsmək üçün yuxunu gözlərindən qovub səngərdə ayıq-sayıq dayandı...

Göyçək ananın intizarlı günləri başlanmışdı. Tez-tez oğlanları Rasimə və Şakirə üzünü tutub:

– Qardaşınızdan soraq tutun, görün ac-susuz qalmır ki! -deyirdi.

Sonra isə əllərini Tanrı dərgahına uzadır:

– Ay gözə görünməz Tanrı, millətimizi xar eləmə, düşməni xəcil elə! Ay Hacı Qaraman, nəzir-niyaz demişəm, müharibə qələbəmizlə sona çatsın, Məhəmməd Çələbinin ocağında qurban kəsdirəcəyəm! –deyirdi. Və axırda da:-Kərəminə qurban olum ay Allah,hamını salamat elə. Rafiqimi də yaddan çıxarma!...

1992-ci ilin iyun ayının iyirmi səkkizində Sur döyüşlərində ciyərparası Rafiq qəhrəmanlıqla həlak olanda ürəyi sızlaya-sızlaya:

– Rafiqimə anası qurban-dedi-torpaq qeyrəti, el dərdi çəkən idi,elə bu yolda da şəhid getdi...

Ana illər uzunu oğlunun boyunu oxşayırdı. Onun adına toy paltarı, nişan üzüyü almışdı. Arzusu payızda toy edib evə gəlin gətirmək idi. Arzusu, murazı gözündə qaldı. Gündə min yol Rafiq deyə-deyə oğlunun böyüdülmüş şəkilinə dodaqlarını söykəyib:

– Oğluma öldü deməyin, ay ellər! O, haqq yolunda şəhid gedib. Şəhid qanı müqəddəsdir-deyir...

Bu dünyada Göyçək adlı bir ana var. Səkiz aydır ki, bu ana səhər-axşam yollara boylana-boylana Rafiq adlı şəhid balasını axtarır. Ana oğlunun ölümünə inana bilmir, səkkiz aydır ki, onu dirilərin arasında axtarır:

Yağar yağış, qar yenə,
Umud yerim var yenə.
Duman çəkilib gedər,
Oğlum qayıda yenə.

deyə-deyə Rafiq adlı oğlunu axtarır ana. Və ürəkdən inanır ki, bir gün tanrı dərgahında qatil gülləsindən sinəsi parçalanan oğlunun ruhuna tapınıb əbədi rahatlıq tapacaqdır...



# O ÖLÜMDƏN QORXMURDU

**Cəbrayılov Barat Cəbrayıl oğlu**
**(23.08.1973-28.06.1992)**



Bizim Cəbrayılda hələ indiyə kimi belə qarsazaq görünməyib. Bu il qış həddən artıq sərt keçir bu torpaqda. Cəbrayıl kişiylə belə qarlı-şaxtalı bir gündə görüşdük. Sorağımızı alıb özü gəlmişdi yanımıza. Özüylə bir dünya söz-söhbət gətirmişdi. Sözünün əvvəli də şəhid oğlu Baratın adıyla bağlıydı, axırı da.

Cəbrayıl kişi özüylə xeyli yazı da gətirmişdi. Bu yazılara Barata vaxtilə orta məktəbdə dərs deyən müəllimləri Növrəstə Kərimovanın, İntiqam Əliyevin, Çapar Kazımovun ürək sözləri sığınıb. Müəllimlərinin nəzərində Cəbrayılov Barat indi cəsur bir qəhrəmandır-onlar bu gün sevimli şagirdlərinin adını daşıyan məktəbdə işlədiklərini fəxrlə yazırlar. Bu yazılar içərisində Baratın həyat yolunu xronoloji ardıcıllıqla əks etdirən, hər iki üzü yazılı bir şagird vərəqi də var. Onu nəzərdən keçirdikcə Baratın ömrünün bəzi məqamlarını yaddaşımıza köçürməyə çalışırıq.

Barat Hasanlı kəndindədir, orta təhsilini də kənd məktəbində alıb. Uşaqlıqdan sürücülüyə qızğın marağı olub, atasının minik maşınını yuyub təmizləməkdən aldığı ləzzəti heç nəyə dəyişməzdi bu oğlan. Sürücülük kursunu başa vurub şoferlik vəsiqəsi alanda elə bil dünyanı bağışlamışdılar ona. Ailədəki beş uşağın üçüncüsü olsa da Xanım ana onu gözünün işığı bilib. Baratı dünyada hamıdan çox ata nənəsi Qəndili arvad və əmiləri Tofiqlə Valeh istəyib. Kənddə traktorçu işləyən Tofiq qardaşı oğluna elə bağlanmışdı ki, onu görməyəndə az qala bağrı çatlayırdı. Barat hərdən Bakıya-Valeh əmisigilə gedəndə elə bil onlara dünyanı bağışlayırdı. Hündür boylu, yaşına görə bir az artıq çəkisi var idi. Ancaq elə cəld idi ki, deyirdin bəs qartaldır. 1992-ci ilin mart ayının ortalarından əsgəri xidmətdə idi. Postlarda dayanan zaman gözündən heç nə yayınmazdı...

1992-ci ilin iyun ayının iyirmi səkkizində döyüş meydanında başının sol tərəfindən aldığı güllə yarası onu dünyadan aparıb. Özüylə yanaşı vuruşan əsgər yoldaşlarının beşi də həmin döyüşlərdə həlak olublar. Bir qəhrəman döyüşçünün həyat yolundan bəhs edən beş-on cümləni oxuyub sona çıxanda atanın ürəyinin sözlü olduğunu duyub hiss elədik. Bəzi mətləbləri öyrənmək məqsədiylə elə ilk sualı da biz verdik Cəbrayıl kişiyə:

– Baratı orduya çəkib aparan hansı hisslər idi?

– Mən oğlumu hamıdan yaxşı tanıyıram, həmişə əlsizin-dilsizin tərəfində duran idi. Dalaşanda da zəiflərlə işi yox idi, güclülərin üstünə gedərdi. Həmişə deyərdi ki, insan şərəflə yaşayıb, qeyrətlə ölməlidir. Torpaqlarımızda savaş başlayanda hələ məktəbli idi-hadisələri dərindən izləyir, müharibənin uzanmasından narahat olurdu. Orta məktəbi qutarandan sonra sürücülük kursunu bitirdi. Əsgəri xidmətə yola düşəndə gözləri gülürdü balamın. Hərdən onu görmək üçün rayon mərkəzindəki hərbi hissəyə yollanardım, komandirləri çox razı idi Baratdan.

– Sonuncu dəfə nə vaxt görmüşdünüz rəhmətliyi?

Ata dərindən köks ötürüb:

– İyunun iyirmi beşində, ölümündən düz üç gün qabaq icazə alıb kəndə gəlmişdi. Bizə dedi ki, əmim Valehlə bacım Südabə yadıma düşüblər. Gedirəm Bakıya, onlarla görüşüb tez də qayıdacağam. Bir qoyun kəsdim, ətini götürüb getdi. İkinci gün səhər tezdən bir də gördük ki, qayıdıb gəldi. Anası Xanım:

– Bıy, başıma xeyir, ay Barat nə tez gəldin?-dedi. Barat əlini uzaqlarda görünən dumanlı dağlara tərəf uzadıb:

– Ordan, o dağlardakı postlarda dayanan uşaqlardan nigaranam-dedi. Sonra acı bir təəssüf hissiylə:

– Bakıdakı əhval-ruhiyyəni görəndə ünüm qaçdı. Orda hamı öz keyfindədir. Adama elə gəlir ki, müharibənin sədası nəinki Bakıya, heç Daşburunun özünə belə gedib çatmır. Vallah belə müharibə olmaz. Bir tərəfdə millətin say-seçmə oğulları qırılır, o biri yanda sübhədək restoranların, barların işığı öləzimir...

Cəbrayıl kişi bir anlığa dayandı, elə bil nə isə yadına salmağa çalışırdı.

– Hə yadıma düşdü-dedi-rəhmətliyə həmin gün dedim ki, a bala icazənin vaxtı hələ qurtarmayıb, qal, sonra özüm apararam səni. Razı olmadı. Vidalaşıb gedəndə son dəfə üzünü bizə tutub:

– Gedib əmimlə, bacımla görüşüb gəldim. Qoyun, sizlərə də gözüm dolusu doyunca baxım. Dünya ölüm-itim dünyasıdır. Ölüb eləsəm fikir eləməyin. Gözlərimin qabağında nər kimi oğullarımız həlak olub. Bir gün yaranan bir gün də öləcək- deyib yola düzələndə yenidən ayaq saxladı- beşincidə oxuyan qardaşı Elçini yanına çağırıb üzündən öpəndən sonra:

– Bax qəqəni,-dedi-buradakı yerimi sənə tapşırıram. Ata-anamın sözünə yaxşı baxarsan, ha...

– Elə bil ölümü ona agah olmuşdu-bu sözləri də Cəbrayıl kişi deyib dərindən köks ötürür..



Növbəti sualı verməyə macal tapmamış Cəbrayıl kişi özü sözə başlayır:

– Sonradan bildim ki, oğlum öz istəyiylə Ərəstun olan vzvoda keçibmiş. Sur yüksəkliytini ələ keçirmək üçün əməliyyat başlananda oğlum beş nəfər əsgər oldaşı ilə birlikdə lap öndə olublar. Onlar ermənilər dayanan birinci və ikinci postları alıblar. Buradakı erməni quldularını məhv edib irəli atılıblar. Oğlum sevincindən pencəyini çıxararaq başı üstə fırlamağa başlayıb. Arxadakılara işarə verib ki, tez gəlsinlər. Böyük bir daşın dalında əlverişli mövqe tutub fürsət gözləyən bir erməni qadını uşaqların altısını da vurub. Ərəstun ürəyindən, Barat başının sol tərəfindən vurulub.

Döyüşdən sonra ermənilər şəhid balalarımızın meyitlərini ələ keçirib vermək istəmirdilər. AXC-nin Cəbrayıl bölgəsi üzrə lideri Vaqif Əlisoyun ermənilərlə apardığı danışıqlar axır ki, nəticə verdi-dörd gündən sonra uşaqların meyitlərini geri alıb torpağa tapşırdıq.

– O vaxtkı batalyon rəhbərləri sizə kömək edə bildilərmi?

– Cəbrayıl kişi başını bulayıb:

– Kömək nədir, heç demədilər ki, harda qalmısınız. Aradan bir neçə gün keçəndən sonra Baratın əsgər yoldaşları, bölmə komandirləri hüzr yerinə ayaq açdılar. Anam Qəndili arvad istəkli nəvəsinin ölümünə tablaşa bilməyib dünyasını dəyişdi-yaman istəyirdi Baratı rəhmətlik. İndi yəqin ki, Allahın dərgahında ruhları birləşib. Camaatdan, kənd, kolxoz rəhbərlərindən çox razıyam. Mənə dar gündə arxa-dayaq oldular. Oğlumun adını Hasanlı kənd məktəbinə verib ruhunu şad etdilər. Baratın anası hələ də səngimir. Oğlumuz öləndən sonra əli-ayağı hüzür yerlərindən yığışmır. Deyir oğlumu hər yerdə ağıya qatıb ağlayam gərək. Belə olanda ürəyim sərinləyir bir az.

– Cəbrayıl kişi bizdən ayrılanda:

– Siz Allah, dilimdən nə çıxıbsa hamısını yazın! Qoy, oxuyanlar bilsinlər ki, oğluma ölümü agah idi. O, ölümündən qorxmurdu, onun addım-addım yaxınlaşdığını görürdü, bilirdi ki, Vətən yolunda şəhid olanlar əbədi yaşamaq haqqı qazanırlar...

# O, BİR VAXTLAR XOŞBƏXT İDİ...



***Şükürov Şərif Məhərrəm oğlu***
***(1970 – 20.08.1992)***

O bürkülü avqust gecəsində Güllü ananın yuxusu ərşə çəkilmişdi. Ordumuzun Cəbrayıl bölməsində xidmət eləyən oğlu Şərifi bircə an da olsun yadından çıxara bilmirdi. Qınayan olmasaydı oğlundan xəbər tutmaq xətrinə Dağtumasdan Cəbrayıla kimi qırx-qırx beş kilometrlik yolu qaça-qaça gedərdi. Uşaqlar oyanmasınlar deyə o, ərini astaca səslədi. Demə, Məhərrəm kişi özü də oyaq imiş, Güllü anaya ürək-dirək verib toxtaqlıqla:

– Ay arvad-dedi-bir hovur çimir elə gözlərinin acısı çıxsın. Eşitmədin bu gün Cəbrayıldan gələnlər dedilər ki, Şərifi öz gözlərilə görüblər, vəziyyəti yaxşıdır? Sonrası necə olacaq, Allaha pənah! Güllü ana bu sözün sehrindən elə bil bir azca təskinlik tapdı...

Sübhün gözü açılar-açılmaz uzaqlardan atılan top səsləri Dağtumasda da aydınca eşidilməyə başlayanda Məhərrəm kişi dedi: – Ürəyimə damıb ki, - o çönüb arxaya baxanda arvadının varından yox olduğunu anlayıb dilini çeynədi –qorxma arvad, Allahın izni ilə hər şey yaxşı olacaq. Bir tikə çörək ver yeyək, uşaqları-Əşrəflə Orucu göndərərəm gedib oradakı vəziyyətdən hal bilib qayıdarlar. Uşaqlar yola düşəndə Məhərrəm kişi üzdə özünü toxdaq saxlasa da içəridə elə bil ürəyi qırılıb ayağının altına düşdü. Elə bil axşamdan ona kimsə deyirdi ki, bu gün nəsə bir bəd xəbər eşidəcək. Nə qədər çalışsa da bu fikri özündən uzağa qova bilmədi. Əşrəfgil rayon mərkəzinə çatan kimi birbaşa batalyona yollandılar. Burada dedilər ki, Şişqaya uğrunda döyüşlər gedir, qardaşınız da oradadır.

Döyüş yerindən bir-birini təkzib edən xəbərlər gəlməkdə idi. Oruc tay dözə bilməyib: köməyə gedənlərə:

– Qardaşım Şükürov Şərifdən də bizə bir xəbər gətirin-dedi-Dağtumasdandır, qarayanız, ortaboylu, kök, gümrah bir oğlandır...Xəbərin özü öz ayağı ilə gəldi. Əşrəfgil Şərifin ağır yaralandığını eşidib mərkəzi xəstəxanaya üz tutdu. Burada iynə atsaydın yerə düşməzdi.

Şərifin üz-gözünün, sinəsinin qanlı sarığını görəndə Əşrəflə Orucun gözlərinə qaranlıq çökdü...



On beş avqustda, o barıt qoxulu gündə ölümlə əlbəyaxa olana kimi Şükürov Şərif Məhərrəm oğlu iyirmi iki illik acılı-şirinli ömür payı yaşamışdı. Kənd məktəbini qurtarandan sonra texniki peşə məktəbində oxuyub traktorçu peşəsinə yiyələnmişdi. Sonra tale onu Monqolustan torpağına aparmışdı. Buradakı iki illik əsgərlik həyatı Şərifi qaya kimi möhkəmləndirmişdi.

1990-cı ildə Vətənə qayıdıb kəndlərindəki kolxozda, sonra isə yerli rabitə şöbəsində işləməyə başlamışdı. Müharibənin əks-sədası Yuxarı Qarabağın sərhəddində yerləşən Dağtumasda daha açıq-aydın eşidilirdi. Kənd adamları səksəkə içərisində yaşayır, kəndin qeyrətli cavanları cəbhəyə getməyə can atırdılar. Bir yay səhərində Şərif üzünü evdəkilərə tutub:

– Burda əl-ayağa dolaşdığım yetər, mənim yerim oradır. Ana Vətənim imdad dilədiyi, başımızın üstündən ölüm qılıncının asıldığı bir vaxtda gendə dayanmaq kişilikdən deyil –dedi. Və sözünün üstündə kişi kimi dayanıb könüllü olaraq cəbhəyə yollandı. Evlərindən aralananda tək bircə dəfə dönüb arxaya baxdı. Anası Güllüyə, bacıları Əfruza, Züleyxaya, Qızbəsə və Çimnaza üzünü tutub:

– Allah amanında olun, darıxmayın, inşallah qələbə günü görüşüb toy bayram edəcəyik-dedi. Məndən ötrü darıxanda qardaşlarım Əşrəfə, Bayrama, Oruca baxın...

Şərif Monqolustanda əsgəri xidmətdə olanda hərbi silahlarla davranmağı yaxşı öyrənmişdi. Öyrənib bildikləri Cəbrayılda da karına gəldi. Bir neçə məhəlli döyüş əməliyyatında uğurla iştirak etdi. Sonra isə o uğursuz on beşi avqustla üz-üzə dayandı..

Bakıdakı hərbi qospitalda həkimlərin cəhdi nəticə vermədi. Ağır yaralanmış və ilk tibbi yardıma qədər çoxlu qan itirmiş Şərifin həyatını xilas etmək mümkün olmadı. Avqustun iyirmisində o, həyatla vidalaşdı. Dağtumasdan döyüşə yollanan Şərif Şükürov doğulduğu kəndə şəhid kimi qayıtdı...

Torpağın qanlı yaddaşına bir şəhid ünvanı da yazıldı. Bu şəhid məzarının başdaşındakı əsgər şəklindən dünyadan nakam gedən bir qeyrətli oğulun baxışları axşam-səhər üzüaşağı Araza qədər uzanıb gedən Gəyən çöllərinə boylanır. Elə bil bu baxışlar

"Nə xoşbəxşt imişəm bir zaman Allah!" – deyib yaşanmış illərin xatirələri ilə qızınır...

# BÖYÜ, ŞƏHİD BALASI



***Şükürov Pənah Kamran oğlu***
***(29.12.1962 – 15.08.1992)***

Qarlı-sazaqlı fevral günlərinin birində ömrün qürub çağlarını yaşayan qarayanız, ucaboy bir kişi qapını açıb:

– Çərəkənli şəhid Şükürov Pənahın atasıyam, sifarişinizi eşidib sizinlə görüşməyə gəlmişəm. Yer göstərdik, əyləşəndən sonra özüylə gətirdiyi sənədləri stolun üstünə qoydu.

Oğlum Pənahın adıyla, ömrünün son günləriylə bağlı kağızlardır – deyib dərindən köks ötürdü.

– Kamran dayı, biz özümüz gəlib sizinlə evinizdə görüşmək istəyirdik, eşitdik ki...

Kamran kişi sözümüzü yarımçıq kəsib:

– Gəlməməkdə düz iş görmüsünüz-dedi-Pənahın ölümündən sonra Gülnisə (Pənahın anası) özünü ələ ala bilmir. Oğlumun ölümüylə bağlı söz-söhbət təzələnəndə o dünyanı görüb qayıdır. Neyləsin, ana ürəyidir dayna, tablaşmır...

Kamran kişi özünü möhkəm saxlasa da tar simi kimi gərilən səsindən bilinir ki, bir himə bənddir ki, gözlərinin bulud harayı üzə çıxsın.

– Pənah kimi oğullar bu torpağın qan yaddaşında əbədi yaşamaq haqqı qazanıblar. Öz ölümüylə ürəkdən sevdiyi Vətənə şərəf-şan gətirib Pənah. Belə oğullar öləndən sonra dirilik tapırlar. Onlara öldü deməyə adamın dili var gəlməz...

– Pənah beş bacının madar qardaşı olsa da onu ərköyün, nərmənazik böyütməmişdik. Evimizin qayğısı onun çiyinlərində idi. Bacıları Zenfira, Səfurə, Esmira, Məhbubə və Lalə üçün and yeri idi onun adı. Səkkiz il qabaq toyunu edəndə elə bilmişdim məndən xoşbəxt ata, Gülnisədən bəxtəvər ana yoxdur yer üzündə... Çox abırlı, həyalı uşaq idi oğlum, bu iyirmi doqquz ildə onun yalnız xoş sözü-söhbəti gəlib qulağıma. Evimizin sütunu, dirəyi idi. Evdə olanda işsiz-gücsüz dayana bilmirdi, hər işə əl atırdı:

Pənahla bağlı söhbətimiz xeyli çəkdi. Axırda Kamran kişi özüylə gətirdiyi kağızlara işarə edib:

- Özünüz oxuyanda görəcəksiniz Pənah necə oğul idi-deyərək bizimlə sağollaşıb getdi...



Kamran kişinin gətirdiyi kağız vərəqlərini dönə-dönə gözdən keçirtdik. Beş on səhifəlik yazıya bir ömrün səsi-ünü, ağrısı və bir az da şirinliyi hopub elə bil. Əzəli beşikdən-isti ana qucağından başlayan bu yolun son ucu şəhidlik zirvəsinə söykənir. Aqillər demişkən gəlimli-gedimli, sonu ölümlü dünyamıza qovuşana qədər Pənah öz taleyini, öz alın yazısını yaşayıb. Cəbrayıl şəhərində orta təhsilini tamamlayandan sonra Sumqayıtdakı 149 nömrəli texniki peşə məktəbində qülləli kran maşinisti sənətinə yiyələnib. İki il xaricdə əsgəri xidmətdə olub. 1984-cü ildə Vətənə qayıdandan sonra tale onu Sumqayıt şəhərindəki alüminum zavoduna gətirib. Burada il yarıma yaxın kran maşinisti işləyib. Elə həmin ildə də Şükufə adlı el qızı ilə ailə həyatı qurub. Sonra yolu uzaq Kaliningrad şəhərinə düşüb. 836 nömrəli yol tikinti-təmir idarəsinin göndərişi ilə burada sürücülük peşəsinə yiyələndikdən sonra Cəbrayıla – doğma el-obaya qayıdıb. Əvvəlcə kəndlərindəki "Qarabağ" kolxozunda, sonrasa baytarlıq idarəsində düz altı il yarıma kimi sürücü işləyib. Topxana harayı xalqımızı Azadlıq meydanlarına səsləyəndə o da dönə-dönə Cəbrayılın mərkəzində keçirilən mitinqlərə üz tutub və anlayıb ki, çox məkrli və arxasında böyük dövlətlər dayanan bir düşmənlə üz-üzə qalmışıq. Və bundan sonra Pənahın da dincliyi arxada qalıb-torpaqlarımızın müdafiəsi üçün əlindən gələni əsirgəməyib. Əvvəlcə idarə etdiyi maşınla sərhədlərimizdəki postlarda dayanan qeyrətli oğullara azuqə, döyüş sursatı daşıyıb. Vətənin ağır günlərində döyüş yerlərindən uzaqda qalmağı qeyrətinə sığışdırmadığından 1992-ci ilin əvvəllərində milli ordumuzun sırasına qoşulub. Burada ilk gündən radist kimi ön cəbhədə, ən qorxulu postlarda olub. Ən çox da Qışlaq kəndinin üstündə yerləşən "Armudlu" postunda qanlı Sur döyüşlərində Tanrı onun tərəfində olub-döyüşlərdən sağ-salamat çıxıb. 1992-ci ilin 15 avqustunda keçirilən "Şişqaya" əməliyyatında igidliklə həlak olub.

Pənahın ölümünü xatırlayan komandiri Abdullayev Maarif deyir ki, əməliyyat zamanı o, bir dəqiqə də olsun radioaparatdan ayrılmır, eyni zamanda sərrast güllələrlə əsgərlərimizin irəliləməsinə şərait yaradır. Düşmən bu igid oğlanın döyüşdüyü səmti öyrənəndə Pənah yerini dəyişməyə macal tapmadı, snayper gülləsi onu yaxaladı. Rəhmətlik çox igid oğul idi. Ölüm nəydi eyninə gətirməzdi ... O qanlı "Şişqaya" döyüşündən sonra erməni quldurları leşə həris quzğunlar kimi şəhid oğullarımızın altısının meyitini ələ keçirib qaytarmaq istəmirdilər. Ölən igidlərin qohum-əqrəbası ilə yanaşı el-oba ayaq üstə idi. Ermənilər danışıqlardan min bir bəhanə ilə boyun qaçırır, meyitləri geri vermirdilər.

Həmin günlərin canlı şahidi, AXC bölgə şöbəsinin liderlərindən olan Vaqif Əlisoy deyir ki, dərdli ataların, üzünü didib tökən ana-bacıların əzabına dağ

da dözmürdü ki, həmin günlərdə biz dözdük, minalanmış yerlərin yaxınlığında meyit axtarmaqdan üzülmüşdük. Goreşən xislətli ermənilərin caynağından meyitini geri alan ata-analar elə bilirdilər ki, oğullarını təzədən tapıblar. Qardaş, bu müsibətə dözmək adamdan ürək istəyir. Şəhid olandan beş gün sonra Pənah Şükürovu doğma kəndi Çərəkəndə torpağa tapşırdılar. Gülnisə ana:

– Balama doğmalarım yanlarında yer verdilər, balam düşmən caynağından qurtardı-üstümdən dağ götürüldü, Allah! - deyib təsəlli tapdı o gün...

Şükürovlar ailəsi Pənahın şəhid adının işığına sığınıblar indi. Onlar, Pənahın ölümündən də artıq ağrıdan odur ki, bu qeyrətli oğlanın adını yaşatmaq üçün hələ bir iş görülməyib. Kamran kişi deyir ki, beş qızım qardaşsız, üç nəvəm atasız qalıb:

– Heç olmasa Pənahın adı unudulmasın. Atanı başa düşmək çətin deyil. Bəs görəsən Çərəkən camaatı, yerli rəhbərlər nə düşünürlər bu barədə? Pənah kimi oğulların taleyi şimşək ömrünə bənzəsə də torpağa axan qanlarıyla əbədi yaşamaq haqqı qazanıblar. Bu haqqı onların əlindən almaq cahillik, qeyrətsizlikdir...

Şəhid qardaşımız Pənahın yeddi yaşlı Arifəsi, beş yaşlı Muradı, yaş yarımlıq Şəhriyarı baba-nənə himayəsinə və bir də sevimli ərinin ölümündən ürəyi şan-şan olan Şükufə bacının ana istəyinə sığınıblar indi. Arifəylə Murad atasızlığın dözülməz dərd olduğunu az-çox duyub anlasalar da balaca Şəhriyar bu sitəmdən hələ uzaqdır.

Yazının sonunda üzümüzü böyük Şəhriyarın adaşı olan bu körpəyə tutub:

– Böyü, şəhid balası-deyirik-böyüyəndə biləcəksən ki, atanın qatili kim olub. Və bir də onu biləcəksən ki,atan Pənah Şükürov ömrünün otuzuncu dolayına çatanda ona görə şəhid oldu ki, torpaqlarımıza yağıların ayağı dəyməsin...



# ŞƏHİDLİK AĞRISI

***Baxşəliyev İskəndər Məhəddin oğlu***
***(12.09.1971 – 30.04.1993)***



Bu kəndin barlı-bərəkətli torpaqları Araza kimi uzanıb gedir. Üz-üzə, kürək-kürəyə dayanan kənd evləri çalxalanıb bulanan dünyamızın durulmasını həsrətlə gözləyir elə bil. Özünün müdrik ağsaqqalları ilə, dili sözlü ağbirçəkləri ilə və bir də sözü bütöv adamları ilə seçilir Əmirvarlı kəndi. Dan yerindən səhər mehi əsən bu obanın qurubundan yovşan ətri gəlir. Burada adamlar da torpağın özü kimi halallığa söykənib. İllər boyu özünün şanlı-şöhrətli akademik oğlu Əşrəf Hüseynovun adını güvənc yeri bilib bu kənd. Tanrı bu ilin aprel ayının 30-da şəhid oğul da bəxş edib Əmirvarlı kəndinə. İndi bu kəndin dərddən "beli" bükülən evləri igid oğulları İsgəndərin adını ağılarda əzizləyir...

May ayının əvvəllərində bu kəndin şəhid oğlunun sorağı ilə yolumuz düşmüşdü Əmirvarlı kənd orta məktəbinə. Hələ dünyanın düz vaxtlarında bu elm ocağının şöhrəti dildə-ağızda gəzirdi. Elə indi də Cəbrayılda öz mövqeyini əldən verməyib. Əşrəf Hüseynovun adını daşıyan bu məktəbə müqəddəs bir yer kimi baxırlar indi. Şəhid Baxşəliyev İsgəndər Məhəddin oğlunun ölümündən sonra bu elm ocağı adamlar üçün daha da doğmalaşıb. Bu bəlkə də ona görədir ki, İsgəndərin qabarlı əllərinin hərarəti bu məktəbin daşında, divarında hələ də duyulmaqdadır. Cəbhəyə düşdüyü günə kimi bir vaxtlar şagirdi olduğu bu məktəb sonralar onun iş yerinə, "çörək ağacına" dönüb. Bir neçə ay burda texnik işləyib İsgəndər. Metodist müəllim Hüseyn Hüseynovun dediklərindən:

–İsgəndərə aşağı siniflərdə dərs demişəm. Çox çalışqan, istiqanlı uşaq idi. Hər şeylə maraqlanırdı. Ailədəki altı uşağın sonbeşiyi olsa da ərköyünlük onun təbiətinə yad idi. Yaxşı əl qabiliyyəti vardı. Böyüyəndə çilingərlik, dülgərlik və sürücülük peşəsinə yiyələnmişdi. Əməksevərlikdə atası Məhəddin kişiyə çəkmişdi. Ölümüylə el-obamıza, bir vaxtlar üzvü olduğu kollektivimizə baş ucalığı gətirdi İsgəndər. Yeri behiştlik olsun...

İsgəndər Baxşəliyevin tərcümeyi-halından sətirlər:

1971-ci ildə Əmirvarlı kəndində anadan olub. Kənd orta məktəbini bitirəndən sonra düz iki il 1989-91-ci illərdə Moskva ətrafındakı hərbi hissələrin birində əsgəri xidmətdə olub. Vətənə qayıdandan sonra 1992-ci ilin noyabr ayına kimi Əmirvarlı kənd orta məktəbində işləyib. Doğma torpaqlarımızın harayına səs verib Vətənə oğulluq borcunu vermək üçün 1992-ci ilin noyabrında könüllü olaraq Milli Ordumuzun Cəbrayıldakı hərbi hissəsində döyüşürdü..

– Hərdən zarafatla deyirdim ki, ay İsgəndər, sən Allah bir toy elə, heç olmasa doyunca sevinək, eynimiz açılsın. Çoxdandır müsibətdən başımız açılmır... Qayıdıb deyirdi ki, günün bu vaxtında toy eləsəm camaat məni qınayar. Allah qoysa toyumu qələbə günü edəcəyəm. El-oba da sevinəcək-bu sözləri İsgəndərə vaxtı ilə dərs deyən Nuridə xanım kövrələ-kövrələ söyləyir bizə. Nuridə Quliyeva uzun illərdir ki, bu məktəbə rəhbərlik edir. Kollektivdə xətrini çox istəyirlər onun. Hiss olunur ki, İsgəndərin ölümü bərk sarsıdıb Nuridə xanımı.

– Əlləri qızıl idi İsgəndərin. Üzüyola uşaq kimi hara göndərsən gedərdi. Orta boylu, qarabuğdayı bir oğlan idi. İri, qara gözlərindən nədənsə həmişə qəm, qüssə yağardı. Bəlkə də ölümü özünə ayan idi, açıb ağartmırdı. Məktəbdəki uşaqlar indi istəməsinlər yaman sevirdilər onu. Ölümünü eşidəndə burda uşaqdan böyüyə hamımız ağladıq, heç ölməli oğlan deyildi..

– Tanrı dərdi də, ölümü də əvvəlcə ən çox sevdiyi bəndələrinə verir ki, onların səsini-sədasını eşitsin-bu sözü dərs hissə müdiri Yusif müəllim deyir bizə. Çoxdan tanıyırıq onu. Qabiliyyətli, nüfuzlu ziyalıdır. Ötən il keçirilən müsabiqədə "ilin ən yaxşı müəllimi" adına layiq görülüb... Araya çökən sükutu Nuridə xanımın söhbəti "hürküdüb" qaçırır yenidən:

– Məktəbimizdə əməyi çox olub İsgəndərin. Burdakı otaqlardan birində muzeyini yaradacağıq onun. Atası Məhəddin əminin, anasının da razılığını almışıq..

– İsgəndər rəhmətə gedəndən bu günə bacıları Yasəmənlə Xatirəni ovundurmaq olmur. Kənd qəbiristanındakı məzarı dirigözlü yandırır adamı. Allah mərdimazarın evini yıxsın, gül kimi oğullarımız güdaza getdi. Onların əvəzini heç nə verməz-Yusif müəllimin ürək parçalayan sözləri hamımızın qəlbində bir giziltiyə çevrilir...

– Ötən ilin noyabr ayının ortaları idi. Adətim üzrə tezdən məktəbə gələndə onu iş otağımın qapısında dayanan gördüm. Təəccübləndiyimi görüb:
– Nuridə müəllimə, gəlmişəm sizinlə vidalaşım. Bu gündən torpaqlarımızı qorumağa gedirəm. Sonra nə fikirləşdisə birdən-sən Allah zəhmətinizi halal eləyin mənə, dünya ölüm-itim dünyasıdır. Üzünü yana tutmasından hiss etdim



ki, gözləri yaşarıb. Sonra...Sonra tale onu oddan-alovdan keçirdi. Torpaqlarımıza yağı düşmənin ayağı dəyməsin deyə əlindən gələni edirdi İsgəndər. Hərdən komandirlərindən icazə alıb kəndlərinə gələrdi. Belə vaxtlarda doğma ata ocağını bağrına basırdı elə bil. Hər daşa, hər ağaca nəzər yetirər, ona doğma, əziz olan kənd adamlarının baxışları ilə isinərdi...

Bax, belə bir oğul idi İsgəndər. Demə şəhidlik zirvəsinə üz tutubmuş o. Əvvəldən qartal kimi zirvə soraqlı idi. Öləndə də zirvəyə ucalmaq eşqi ilə şəhid oldu...

Aprel ayının ortalarında Sirik ətrafında keçirilən əməliyyatda əvvəldən axıra kimi mərdliklə vuruşmuşdu. Bu döyüşdə yaralanandan sonra düz iki həftə ölümlə əlbəyaxa oldu. Yaşamaq eşqi çox güclü idi onun. Erməni daşnağının qiyafəsinə girən ölümü yaxına buraxmırdı heç. Demə 30 aprel 1993-cü ildə dünyadan köçmək İsgəndərin alın yazısıymış..

İsgəndər ölümü ilə Əmirvarlıya baş ucalığı gətirib. O, bu kəndin ilk şəhididir. Kaş həm də sonuncu şəhidi olaydı bu obanın. Şəhid ağrıları ilə yaşamaq ağırdır, heç kimə qismət olmasın bu dərd...

# AYRILIĞIN SONU YOXMUŞ...



***Misirxanov Elxan Sərxan oğlu***
***(07.06.1973 – 09.03.1993)***

Aprelin axırlarında "Torpağın qanlı köynəyi" kitabının nəşri ilə bağlı yağışlı bir gündə Bakı şəhərində nəşriyyatları gəzib dolaşırdıq. "Gənclik" dəki dostlarımızın birindən öyrəndik ki, N.Tusi adına APU-nun müəllimi tarix elmləri namizədi Əli Haqverdiyev bizimlə görüşməyi arzulayır. Ertəsi gün APU-ya gəlib Əli müəllimi soruşduq.

– Bu gün üçün dərsi yoxdur, yəqin ki, gəlməyəcək-dedilər.

Filologiya fakültəsinin yerləşdiyi üçüncü mərtəbədən aşağı düşmək istəyəndə bu sətirlərin müəlliflərindən birinin tələbə balası Ruqiyyə İsmayıqlızı yanımıza gəlib:

– Əli müəllimdən sizə çatası məktub var-deyib-əlindəki bağlı zərfi bizə uzatdı.

– Əli müəllimin özüylə görüşə bilsəydik yaxşı olardı...

– İki-üç gündür ki, işə gəlmir, yaxın qohumları şəhid olub. Məktubu qardaşı qızı Aişədən göndərib ki, sizə çatdırım. Lazımsa Aişəni çağırım gəlsin, bizim Balyand kəndindəndir, qrup yoldaşımdır...

Tələbələri auditoriyaya səsləyən zəngin titrək sədası söhbətimizi yarımçıq qoydu. Ruqiyyə balamızdan ayrılıb aşağı düşdük...

Bu zərf adi zərf deyildi. Bu zərfə ömrünün on doqquzuncu baharında dünyadan əli üzülmüş bir şəhid ömrü sığınmışdı. Bu ömrün beş-üç şagird vərəqinə sığışan cizgilərini dönə-dönə nəzərdən keçirdik. Qarşımızda bir cavanın son ucu ayrılığa söykənən ömür yolu dil açdı elə bil.

Elxan 1973-cü ilin iyun ayının 7-də Balyand kəndində anadan olub. Dünyaya beşikdən boylandığı günlərin birində ata-anası ruzu dalınca Bakıya üz tutublar. Tale bu ailəni Zabrat qəsəbəsinə gətirib çıxarıb. Sərxan kişi, Nigar bacı buranı özlərinə ikinci yurd yeri seçiblər. Elə burda da torpaqla ülfətdə olublar. Sığındıqları bir parça torpaq dirilik, ruzu gətirib onlara. Sərxan kişi qəsəbədə elektrik mantyoru, Nigar bacı isə ikinci Zabrat İsti Şitillik kombinatında fəhlə işləyir. Bu zəhmətsevər ailədə böyüyən beş uşağın beşi də



halal ruzu yetirən ana torpağın qədir-qiymətini uca tutublar. Torpaq onlar üçün yurd-yuva, dolanışıq yeri, gün-güzaran olub.

Torpaq eşqi, yurd sevgisi Elxanın ürəyinin təpəri, qolunun gücü idi. Vətənin dar günündə Elxan ana deyib uca-uca dağları ilə, mavi gözlü Göy Gölü ilə, göyərçin ləpəli Xəzəriylə, Dəli Kürü ilə, Xan Arazı ilə öyündüyü torpağımızdan qeyrətini, şirin canını əsirgəmədi. Şəhid olduğu ana qədər yaddaqalan bir ömür yaşadı. Zabrat qəsəbəsindəki 71№-li orta məktəbi bitirəndən sonra Bakıdakı 2 №-li texniki-peşə məktəbində oxumuşdu Elxan. İdmanın dzyü-do, karate və ağırlıq qaldırma növləri ilə məşğul olmuşdu. Birinci dərəcəli idmançı idi. Müxtəlif idman yarışlarında uğurlar qazanmaqda idi. Onu yaxından tanıyanlar:-"Bu oğlanın parlaq gələcəyi olacaq"-deyirdilər. Həyatda özünə və bir də ürəyinin təpərinə, istəyinə arxalanırdı Elxan. 1992-ci ilin may ayında Ukraynanın Desna şəhərindəki tank qoşunları hərbi hissəsində və sonra da Krivoy-Roqdakı hərbi hissədə qulluq etmişdi. Düz on aya yaxın uzaq Ukrayna ellərindən Zabratdakı evlərinə və bir də Balyanddakı ata ocağına Elxanın məktubları "ayaq açmaqda" idi. Bu məktublarda onun yurd yerlərimizlə bağlı nigarançılığı günbəgün tumurcuq-tumurcuq artmaqda, böyüməkdə idi.

Torpaqlarımızın müsibətli günləri barədə aldığı xəbərlər onu doğma yurd yerinə çəkib gətirdi.

Ötən il aprel ayının sonunda Bakının Sabuncu rayonunun hərbi komissarlığına gəlib könüllü olaraq cəbhəyə yola düşmək istədiyini bildirdi. May ayının əvvəllərindən daxili qoşunlarda qulluq etməyə başladı. Və bundan sonra tale onu dönə-dönə, oddan-alovdan keçirdi. İlk dəfə Ağdamın Şelli kəndi ətrafında düşmənin murdar sifətini görəndə gücü daha da artdı. Bu döyüşdə o, iki nəfər dostu ilə birgə düşmənin qarşıdakı istehkamını dağıdıb Şelli kəndini atəş altında saxlayan pulemyotu susdurdu. Buradakı döyüş hünərinə görə komandirlik tərəfindən təşəkkür və pul mükafatı verildi ona. Ağdamın Xıdırlı kəndi ətrafında gedən döyüşlərdə də Elxan mahir topçu olduğunu sübuta yetirdi. Yurd-yuvası dağılan, doğma ocaqlarından didərgin düşən soydaşlarımızın müsibəti Elxanın qəlbinə çalın-çarpaz dağ çəkdikcə onun əlləri silahdan daha möhkəm yapışmaqda idi. Şuşanın və sonra da Laçının xəyanət qurbanı olması onu dinc buraxmırdı. Ürəyində min dəfə:-"bu torpağın əhliyyəti gözünüzü kor etsin, adam da dünya malına görə qeyrətini, ismətini satarmı" – deyə-deyə için-için yanırdı. Bu xəyanət toxumunu göyərdənləri tanısaydı onları yer üzündən silərdi. Ancaq bu xəyanətkarı tapmaq müşkül idi. Bu xəyanət hardasa yuxarılara-meşin qapılar arxasındakı rahat kabinetlərdə əyləşib Elxan kimi minlərlə oğullarımızı ölüm adlı əjdahanın ağzına atanlara

söykənirdi. Bu xəyanətin "rejissoru" ermənidən də məkrli yalquzaq xislətli idi. O, Adəm, Həvva nəslindən deyildi, iblisdən, şeytandan törəmə idi. Bu xəyanətin xərcəng xislətli rişələrini tapmaqda aciz idi Elxan. Bu sözləri yazdığımız üçün qoy şəhidlərimizin ruhu bizdən incik qalmasın. Biz özümüz də bu xəyanətin əvvəlini, sonunu görməkdə acizik, gücsüzük. Onu araşdırmaq, açıqlamaq səlahiyyətində olanların ləng tərpənişi hamımızı hiddətləndirir. İlahi, görəsən bu xəyanət düyününü açan tapılacaqmı? Gözəl Şuşamızın, qartallar oylağı Laçınımızın, milli iftixarımız Kəlbəcərin alqı-satqısından şadlanıb iblisyana qəhqəhə çəkən millət xainlərinin adları aşkarlanacaqmı bir gün? Ya qismət...

Elxan bu xəyanət düyününün üstə gedə-gedə silahdan bərk-bərk yapışmaqda idi. Keçmiş Ağdərə rayonunun Canyataq, Gülyataq, Güneypəyə, Çıldıran kəndləri uğrunda vuruşduqca ürəyinin göynərtisi bir az azalırdı elə bil. Ağdam ətrafındakı döyüşlərdə ayağından və sonralar Ağdərədə qolundan qəlpə yarası almışdı. Müalicə olunduqdan sonra yenidən döyüşçü dostlarıyla birlikdə torpağımızı qoruyurdu. Onun Ağdamın Şelli, Mərzili kəndlərindən keçən döyüş yolu Ağdərənin Manikli yaşayış məntəqəsinə kimi uzanıb gedir. Sonuncu dəfə 1993-cü ilin mart ayının 9-da Manikli kəndinin ətrafındakı Sıxnaq yüksəkliyi uğrunda gedən döyüşlərdə iştirak edib və burda da həlak olub. Döyüşçü dostları onun meyitini iki gündən sonra əməliyyat meydanındakı güllə yağışı altından çıxara bilib...

Cəbrayılın şəhid balası Misirxanov Elxan Sərxan oğlu xeyli vaxtdır ki, Bakıxanov qəsəbəsindəki "Şəhidlər Xiyabanı"nda uyuyur. Onun Tanrı dərgahına üz tutan incik ruhu.

*"Ayrılıq, ayrılıq, aman ayrılıq –*
*Olur hər bir dərddən, yaman ayrılıq.."*

misralarının ovqatında saflaşır indi. Bu ovqat Elxanın ata-anasının, qardaş-bacıları Şücayətin, Sevdanın, Vətənin və bir də məktəbli Bəhruzun ürəklərini közərdir. Şəhid oğullarımızın güclü yurd sevgilərindən doğan bu od, bu ocaq "ayrılığ"ın kövrək notlarına qarışıb zaman-zaman bizi yandıracaq hələ...



## O, HƏMİŞƏ YAŞAYACAQ

***Həşimov Yasin Fehruz oğlu***
***(16.03.1973 - 02.04.1993)***



Milli Ordumuzun Cəbrayılda yerləşən alayının qərərgahında dönə-dönə olmuşuq. Hər dəfə torpaqlarımızı qorumaq üçün döyüş postlarına yollanan igid elogullarımızın qətiyyətli hərəkətlərini görəndə sevincimiz sinəmizə sığmayıb.

Ürəyimizdə «belə qoçaq, qeyrətli oğulları olan Vətən basılmaz» - demişik. Beş-altı ay qabaq torpaqlarımızı son nəfəslərinə kimi qoruyan igidlərimizdən kitab yazmaga başlayanda nəzərdə tutmuşduq ki, imkan tapan kimi alayın cəsur zabitlərindən olan Kamil bəylə görüşüb söhbət edək. Kamil Vəliyevi çoxdan hələ müəllim işlədiyi vaxtdan tanıyırdıq. BDU-nun mexanika-riyaziyyat fakültəsini bitirib. Torpaqlarmız erməni təcavüzünə məruz qalanda könüllü olaraq sərhədlərimizin keşiyində dayanıb və sonra da özü kimi qeyrətli cavanları başına toplayıb Cəbrayılda ilk batalyonun komandiri olub. İndi də alay komandirinin müavini kimi əsgəri xidmətdə olan gənclərimizlə iş aparır...

Həmişəki kimi indi də bəxtimiz gətirmədi. Alayda bizə dedilər ki, Dolanlar kəndi ətrafında əsgərlərimizdən minaya düşən olub. Kamil müəllimi tapmaq müşkül məsələdir. Yəqin ki, hadisə yerindədir. Və bir də onu dedilər ki, həlak olan əsgərlərdən biri Mərcanlıdandır. Adı Yasin, soyadı Həşimovdur.

Bir neçə gündən sonra Böyük Mərcanlı kəndinin sonuncu (kaş sonuncu olaydı) - yeddinci şəhidinin yaxın qohumları ilə görüşüb söhbət etdik. Özləri ilə Yasinin şagird dəftərinin iki vərəqinə sığışan tərcümeyi-halını da gətirmişdilər bizə. İlk dəfə kağıza nəzər yetirəndə Yasinin təvəllüdünə sataşdı gözümüz. 1973-cü ilin mart ayının 16-da doğulmuşdu. Ermənin gülləsi yetmiş üçdə doğulan uşaqları nə yaman «sevirmiş» ilahi. Cəbrayıllı şəhidlərin yarıdan çoxunun ölüm tarixi yetmiş üçdəndir. Bu qanlı-qadalı müharibədə on doqquz yaşlı nə qədər oğullarımız qanına bələnib? Hələ bilən yoxdur. Birgə onu bilirik ki, bu savaşda on doqquz

yaş ömrün «Bermud» üçbucağına bənzəyir. Mənfur erməni gülləsi on doqquz yaşlıların yamanca qanına yerikləyib. Bu yaşın səddini keçmək yaman çətinləşib son vaxtlar. Tanrı özü on doqquz yaşlı cavanlarımıza qıymasın...

Yasin on doqquz yaşın zirvəsini düz on səkkiz gün idi ki, adlayıb keçmişdi. Evlərində heç ona ad günü də keçirməmişdilər. Deyəsən bu əlamətdar gün heç yada da düşməmişdi. Atası Fehruz kişi, anası Tərlan bacı bir böyük külfətin ruzusu, qayğısı hayında idilər. Və bir də onda bildilər ki, Yasin balalarının ad günü hiss olunmadan qalıb geridə. Özlərinə təskinlik verə-verə:

- Əşi, təki canı sağ olsun. Bu il qismət olmadı, inşallah gələn il iyirmi yaşını qeyd edərik - dedilər.

Anadan olduğu gün Yasin əsgər dostları ilə səngərdə-postda dayanmışdı. Utandığından heç kimə deməmişdi ki, bu mənim anadan olduğum gündür. Sonrakı günlərdə heç özü də bilmədi ki, niyə belə etdi. Ancaq on doqquz yaşı tamam olan o ulduzlu gecədə ömür yolu gözlərinin qabağından keçdikcə boylanıb arxada qalan illərə baxdı elə bil.

Yasin 1990-cı ildə orta məktəbi bitirdikdən sonra Füzuli şəhərindəki texniki-peşə məktəbində sürücülük peşəsinə yiyələnib. Sürücü olmağı atası Fehruz kişi kimi sükan arxasında əyləşib yolları bir-birinə calamagı lap çoxdan arzulayırdı Yasin. Tale elə gətirdi ki, arzusuna nə əli, nə ünü çatdı. İmperiya qanunları 1991-ci ilin may ayında onu qabağına qatıb uzaq Leninqrada apardı. Burda düz bir ilə yaxın «şanlı» Sovet Ordusunun əsgəri öldü. Bu bir il ərzində kirpiyiylə od götürdü Yasin. Bu il əli uzalı qaldı onun, neçə-neçə məktubu «inqilab beşiyi»ndən qanadlanıb Mərcanlıya çatdı. Bu məktublardan torpaqlarımızdan ötrü ürəyi nanə yarpağı kimi əsən bir cavanın iztirabları duyulurdu. Axır ki, Yasinin özü də qayıdıb gəldi doğma ata ocağına. Və gələn kimi də rayon hərbi komissarlığına gedib Milli Ordumuzda xidmət etmək arzusunda olduğunu bildirdi...

Cəbrayıl hərbi hissəsində qabiliyyətli və cəsur bir minaaxtaran kimi tanıyırdılar Yasini. Yasin bu peşəni yaxşı öyrənmişdi. Minanı tapıb zərərsizdirmək onun əlində asanca bir iş idi. Çətini minanın yerini aşkarlamaq idi. Bundan sonra mina şəklinə düşüb fürsət gözləyən ölümü kəməndə salmağa nə vardı ki...

Demə erməni fəndgirliyi ən müasir cihazdan belə üstün imiş. Yasin o məşum gündə Dolanlar ətrafında hər cığırın, hər ağacın, kolun dibini yoxlaya-yoxlaya irəliləyirdi. Səhərdən bəri düz üç mina tapıb «kəməndə» salmışdı. Heç eyninə də gətirmirdi ki, hardasa qabaqda gizlənən ölüm onun



ata-anasını və özündən savayı altı nəfər qardaş-bacısını boynuburuq qoymaq üçün fursət gözləyir. Növbəti addımda Yasin diqqətsizlik edib fürsəti əldən verdi və ölümün iblisanə qəhqəhəsi amansız partlayış sədası içərisində eşidilməz oldu. Ömrü boyu ürəyində təmiz hisslər gəzdirən, həyətlərindəki bir parça torpaqda əkdiyi gül-çiçək kimi kövrək olan qeyrətli eloğlumuz Yasin 1993-cü ilin arel ayının dördündə şəhid oğullarımız sırasına qoşuldu...

Olüm haqdır-deyiblər. Bir gün yaranan əvvəl-axır dünyadan köçməlidir. Dünyaya gəlməyə nə var ki. Hamı doğulur və sonra da yaşayır. Ancaq şəhid olmağa hamının hünəri çatmır. Yasin ölümün üstünə kirpiyini qırpmadan getdi. Vətən onu sevənlərə əbədi yaşadır. Vətən bilib əzizlədiyi torpaqlarımızın uğrunda öldüyündən belə əbədi olaraq yaşayacaq Yasin...

## "ÖLÜM, KEÇ GÜNAHIMDAN"

***Hüseynov Vüqar Tofiq oğlu***
***(20.06.1969 - 11.06.1991)***



İnsan ömrü boyu Vətən bilib əzizlədiyi torpağın bir içim suyunu və bir də bir xışma yarpağını dünyanın ən böyük neməti" kimi qiymətləndirir. Bu varlığı yaradan ulu Tanrı, bizlərə əvəzsiz olaraq bəxş edən ana torpaqdır. «Torpaq qorunanda, seviləndə Vətən olur» - deyiblər. Anamız torpağı Vətən edən oğullardan biri də bizim Hüseynov Vüqar Tofiq oğludur. Vüqar yaşamaq üçün, valideynlərinə, qardaş-bacılarına, halallıqla yaşayan insanlara arxa-dayaq olmaq üçün doğulmuşdu. Tale elə gətirdi ki, o bir ailənin əhliyyətindən çıxa bilməsə də Vətənə oğulluq borcunu qaytardı. 1991-ci ilin iyul ayının 21-nə kimi Vüqar Sevgili ananın, Tofiq müəllimin oğlu idi. İndi Naxçıvandan Qazağacan, Qubadlıdan Xaçmazacan ellər, obalar Vüqarı öz oğlu, öz balası bilir. Əzəldən dünyanın işi belədir. Yaxşı oğulların qeyrət işığı, şöhrət payı hər obaya, hər elə yetişir...

Vüqarın ilk sevgisi Vətən idi. Onun nəzərində Vətən yurd yeri, ana südü, günəş işığı, ocaq həniri, yarpaq pıçıltısı, damla zümzüməsiydi. Vətən barədə düşünəndə hərdən yaddaşından bir şeir boylanırdı onun:

*Vətən torpaq,*
*Vətən işıq*
*Vətən daş*
*O bizlərə*
*Ümid yeri,*
*Beşik, məzar*
*Biz Vətənə*
*Səngər, qala –*
*Vətəndaş...*

Və bundan sonra Vüqarın iyirmi bir illik ömründən gəlib keçən günlər durna qatarı kimi bahardan payıza yollanırdı...

Vüqar Daşkəsən kəndində anadan olmuşdu. Bu kəndin ulu yurd daşları onun üçün hər şeydən əziz, hər şeydən qiymətli idi. Bu daşlar Tomris anadan üzü bəri yurdu yurd edən igid oğulların abidəsi idi. Bu daşlar Babək idi, Koroğu idi, Şah İsmayıl Xətai idi. Bu daşlar Vətənin bir parçası idi. Azərbaycanda işığına tapındığımız Vətənin çölü də, Vüqar üçün ulu idi, uca idi. Mayası halallıqla, saflıqla yoğrulan bir yurdda doğulduğu üçün fəxr eləyirdi, Vüqar. Vətən üçün layiqli övlad olub onun xidmətində dayansın deyə orta məktəbi qurtarandan sonra Bakıya gəlib burdakı texniki-peşə məktəblərinin birində təhsilini davam etdirirdi. Həyatın qəribə qanunları var. O hərənin qismətini özünə verir. Demə Vüqarın alın yazısı onu oddan-alovdan keçirəcəkmiş. Hələ bunlara çox var idi, hələ qabaqdaydı bunlar. Texniki-peşə məktəbini qurtarandan sonra düz iki il «şanlı Sovet Ordusunun» sıralarında qulluq etməli oldu. O vaxtlar ordudakı ayrı-seçkiliklər, haqsızlıqlar Vüqarın qəlbində şübhə doğurmuşdu. SSRİ adlı imperiyanın humanist dövlət olduğuna. Elə hey ürəyində öz-özünə deyirdi ki, «belə də dövlətmi olar - millətin birini başa çıxarır, o birini başı qapazlı, üzü danlaqlı edir»... Doxsanıncı ilin Qanlı Yanvarındam sonra Vüqarın nəzərində SSRİ kəlməsi dağılan mifə, bayquş ulartılı xarabalığa bənzəyirdi. Yetmiş il ərzində neftini, pambığını, çayırlı, üzümünü zəli kimi sorub əvəzində ona «Şəhidlər Xiyabanı» boyda ələm bağışlayan bir ölkə tay Vüqar üçün böyüklüyüylə öyündüyü Vətən deyildi. İlk dəfə «Şəhidlər Xiyabanı»na yolu düşəndən sonra anladı ki, onun əsil Vətəni səksən səkkizinci ildən üzü bəri göz yaşları içərisində boğulan Azərbaycandır. Və bu həqiqəti duyub anlayandan sonra fikrindən keçənləri atası Tofiq müəllimə də açıb söylədi:

-Günü səhərdən Xüsusi Təyinatlı Milis Dəstəsinə yazılacağam. Vətənin bu dar günündə hamımız ona dayaq olmalıyıq.



Ata son vaxtlar xeyli böyümüş, yetkinləşmiş balasını bağrına basıb xeyir-dua verdi ona. Sevgili ana göz yaşlarını oğlunun dalınca çiləyib:

- Allah amanında olun, ulu Tanrı özü sizlərə arxa-dayaq olsun-dedi...

Və bundan sonra Vüqarın səsi-sədası Xankəndindən, Xocalı aeroportundan, Şuşadan, Martunidən, Qaladərəsindən, Göytaladan gəldi. Harda oldusa dünənə kimi nanə, yarpız, kəkötu ətri qoxuyan torpağımızı od içində gördü Vüqar. Ürəyində dərd gəzdirdi, nisgil daşıdı. Bu ələm dodaqlarında yaralı misralara çevrildi onun:

*Bir məkrdən, fitnədən,*
*Aranım, dağım şəhid.*
*Heç bilmirəm ki, nədən,*
*Çəmənim, bağım şəhid.*

*İnsafını axa qanım,*
*Bu zilləti nə danım,*
*Güllələnib gümanım,*
*Ötən hər çağım şəhid.*

*Taleyin dönüb üzü,*
*Kimlər qarğadı bizi?*
*Sinəmdə güllə izi,*
*Daşım, torpağım şəhid.*

Bu sözlərdən ürəyi göynədi, qəzəbi şahə qalxdı Vüqarın. Neçə yol dağ keçidlərində, meşə yollarında düşmənlə, üz-üzə gəldi-aman vermədi Səhl Sumbat nəvələrinə.

Vüqarın saysız-hesabsız igidliklərini onun vzvod komandiri Nizami Şahmuradov daha yaxşı xatırlayır:

- Vüqarla eyni vaxtda xidmətə başlamış, keçirilən əməliyyatlarda birgə iştirak etmişəm. Xidmət etdiyi on ay ərzində sözün həqiqi mənasında Vüqar cəsurluğu ilə hamımızı heyrətdə qoydu. Komandirimiz milis podpolkovniki Əbil Rzayev onun xətrini doğma balasından artıq istəyirdilər.

Xalqımızın cəsur jumalist qızı Salatın Əsgərovanı erməni quldurları qətlə yetirəndə Vüqarın ayağı altından elə bil yer qaçdı. O, qovrula-qovrula:

- A kişilər, - dedi - harda görünüb ki, qadına-qıza güllə atıb onu qanına bələyəsən. Tay bundan sonra bu harsın dığalarına aman yoxdu...

- Vüqar ömrünün axırına kimi andına sadiq qaldı. Qala dərəsi kənd yaxınlığında keçirilən əməliyyat zamanı milis dostları ilə birgə Salatının qatillərini ələ keçirəndə ürəyi bir az dinclik tapdı elə bil.

Sonra Vüqarın səsi-sədası Goranboydan, Gülüstan torpağından gəldi. Torpaqlarımızdan erməni quldurlarının çıxarılması üçün sonuncu dəfə Vüqar on dörd nəfərlik bir dəstədə Buzluq və Erkəc kəndləri arasındakı Başkənd ətrafında mövqe tutmuşdular. Onda iyul ayının iyirmi biri idi. Vüqar iyirmi bir il beş gün idi ki, ana bilib əzizlədiyi torpağın hərarətinə sığınmışdı. Onda bir neçə saatdan sonra öləcəyindən xəbəri yox idi Vüqarın. Onda, döyüşdən xeyli qabaq hansı jurnaldansa oxuduğu bir şeirin axırıncı misraları düşmüşdü Vüqarın yadına:

Torpağım dilim-dilim,
Ömrə təsəlli dedim,
Əsgər kimi ölmədim,
Ölüm, keç günahımdan...

Bir azdan sonra qanlı bir döyüş başladı Vüqargilin mövqe tutduğu yerdə. Düşmən sayca çox üstün olsa da igid oğullarımız mərdliklə müdafiə olunurdular. Vüqar əvvəlcə dizindən və sonra da qarın nahiyəsindən üç güllə yarası aldı. Sonuncu nəfəsinə qədər Vüqar barmağını avtomatın tətiyindən çəkmədi. Axıra qədər mərdliklə döyüşdü. Və bundan sonra köməyə gələn əlavə qüvvələr hesabına milis yoldaşları Vüqarın və onunla birlikdə şəhid olan, yaralanan dostlarının düşmən əlinə keçməsinə imkan vermədilər...

İndi Vüqar Hüseynov Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli bir ad daşıyır. Bu ad ona 1992-ci ilin 5 iyununda verilib. Xalqımızsa qədirbiləndir. Qeyrətli oğullarının xidmətini, adını unutmur...

Daşkəsənin ulu kənd qəbiristanında uyuyan Vuqarın qəbrini başdaşından qaynar baxışlı bir oğlan boylanır dünyamıza. Onun işığı-hərarəti azalmayan baxışlarından yurd sevgisi və bir də «Ölüm keç günahımdan» sözləri oxunur elə bil. Bu sözlərdən Vüqarın yaşamaq amalı, şəhidlik «sevinci», ömür «bəxtəvərliyi» duyulur həmişə.



## ƏBƏDİ BAHARA QOVUŞAN ŞƏHİD

***Musayev Emin Həsən oğlu***
***(30.04.1971 - 13.04.1993)***



Cəbrayıl şəhidlərindən bəhs edən kitabımızı tamamlayıb Bakıdakı nəşriyyatları gəzib dolaşdığımız bir gündə Şükürbəyli kənd orta məktəbində müəllim işləyən dostumuz Vaqif Kərimov qarşımıza çıxdı. Hal-əhval tutandan sonra:

- Təkmilləşmə kursundaydım, deyirlər dayımoğlu şəhid olub. Axşam rayona qayıdıram - dedi.

- Harda şəhid olub, adı nədir, kimin oğludur? Bir neçə günüydü ki, rayonda olmadığımızdan xəbər bizim üçün təzə idi.

- Dayım Musayev Həsənin oğlu Emindir şəhid olan. Deyilənə görə Tağ kəndi ətrafında həlak olub...

Vaqif müəllim şəhidlər haqqında kitab yazdığımızı bildiyindən xahiş etdi ki, Musayev Emin Həsən oğlu barədə də yazı hazırlayıb verək. Vədələşib ayrıldıq. Rayona qayıdandan bir neçə gün sonra Vaqif müəllim Eminin həyat yolundan danışan iki səhifəlik yazını bizə çatdırdı...

Emin kim idi? Minlərlə, milyonlarla ürəyi vətən eşqiylə döyünən cavanlarımızdan biri. 1971-ci ilin aprel ayında Mahmudlu stansiyasında anadan olmuşdu. Şükürbəyli kənd orta məktəbini bitirəndən sonra Sumqayıt Kimya-Texnologiya texnikumunda oxuyurdu. 1989-cu ilin mayında birinci kursu başa vurmamış əsgərliyə gedəsi oldu. 1991-ci ilin iyun ayına kimi Ukrayna, Leninqrad və Sverdloyk hərbi hissələrində qulluq etdi. Tank sürücü-mexaniki hərbi texnikanın dilini. Elə bil o vaxtlar kimsə ona demişdi ki, «Emin, yaxşı öyrən bu texnikanın sirrini, Vətəndə sənə gərək olacaq bildiklərin»...

Vətənə qayıdandan sonra erməni quldurlarının günbəgün azğınlaşdığını görüb təhsilini davam etdirməyin daşını atdı. Texnikumun qiyabi şöbəsinə dəyişilən torpaqlarımızı daşnaq həmləsindən azad etmək üçün könüllü olaraq rayondakı hərbi hissəyə gəldi. Bir vaxtlar öyrəndikləri burda da karına gəldi. Orduya çağrılan cavanlara bildiklərini öyrətdi.

Tez-tez həm də döyüş postlarında olurdu Emin. Ürəyində yığın-yığın arzuları vardı. Təhsilini başa çatdırandan sonra ailə qurub ev-eşik olacaqdı. Rayonda mexanik işləyən atası Həsən kişi kimi texnikaya maraqlıydı. Çalışırdı ki, hər şeyi tez öyrənsin. Və bir də Vətən eşqi idi onun ürəyini döyündürən. Bu Vətənin Şuşa, Laçın, Kəlbəcər oymaqları əldən gedəndən sonra eyni açılmırdı onun. Od içində qovrulan Zəngilan, Füzuli torpaqlarını görəndə başının tükləri biz-biz olurdu. Gücü çatsaydı iblis, şeytan xislətli erməni quldurlarını kürüyüb tökərdi cəhənnəm alovunun içinə. Belə olsaydı bəşəriyyəti əbədi taun xəstəliyindən qurtarardı bir dəfəlik. Ancaq təkbaşına Eminin bu işi görməyə gücü çatmırdı. Qatır xislətli bu daşnaq tör-töküntülərinin Parisdən, Livandan, Koliforniyadan, Moskvadan havadarları çox idi. Bir vaxtlar biz başımızı qu tükündən olan balınca söykəyib mürgüləyəndə saqqızımızı oğurlamışdı harsın oğulları. Saqqızımızla birgə divardan asılı Xətai qılıncımızı da oğurlayıb aparmışdı bu nakişilər. Elə buna görə də üz-üzə gələndə də əliyalın qalmışdıq. Ünümüzü ünləyən, səsimizi dinləyən yox idi. Var idisə də özlərini eşitməməzliyə vururdular. Eb bil dünyanın qulağı kar, gözü kor idi. Ermənistandakı dədə-baba torpaqlarımızdan qovulanların harayı bu qan dünyanın qulaqlarına gəlib çatmamışdı. Xocalıdakı, Malıbəylidəki, Qayıblıdakı, Meşəlidəki faciələrdən kirpiyini də qırpmamışdı bu dünya. Belə ruhlu, belə xislətli bir dünyanı dəyişdirməkdə Emin gücsüz idi. Gücü çatdığı o idi ki, Ziyaratdan Xudafərinəcən Cəbrayıl torpaqlarına göz dikən erməni quldurları bu oymaqda bircə addım da irəliləyə bilmirdilər. Emin kimi oğullar kürək-kürəyə verib qoruyurdular Vətən torpağını. Hirsindən it kimi zəncir çeynəyən erməni dığaları gizlənib fürsət düşəndə od yağdırırdılar igidlərimizin üstünə. Adam ölümünə, insan qanına həris idi bu vəhşilər. Qadın-qız fəryadı qulaqlarına çatanda sevincdən atılıb düşürdülər.

Bütün bunları yaxşı bilirdi Emin. Ona görə də hər dəfə Quşçular postunda dayananda nəzərlərini qarşı tərəfdəki hər daşın, hər kolun üstündən çəkmirdi.

Cəbrayıldakı hərbi alayın Sirik kəndindəki batalyonunda xidmət edəndə də sayıq idi Emin. Dəfələrlə Sirik postunda dayanıb düşmənin hərəkətlərini izləmişdi. Ən cəsur oğullarımızla birgə düşmənin möhkəm qalaya çevirdiyi Tağ kəndi ətrafına kəşfiyyata getmişdi. Bu yerlərdə hər ağaca, hər kola, hər cığıra yaxşı bələd idi.

11 aprel 1993-cü ildə Emin öz dostlarıyla birlikdə yenə də Tağ kəndinə kəşfiyyata çıxmışdı. Düşmənin mövqeyi və döyüş texnikası barədə qiymətli məlumatlar əldə edib geri qayıdanda qəfildən pusquya düşdülər. Ermənilər onları diri tutmaq üçün hər cürə fəndə əl atırdılar. Emin yoldaşlarıyla birgə mühasirədən çıxmaq üçün mərdliklə vuruşurdular. Axıradək qeyrətlə döyüşən Eminin ağır yaralandığını görən yoldaşları onu arxaya çatdıra bildilər. Eminin qanı axan torpaqda bir neçə murdar erməni cəmdəyi qalmışdı. Və bundan sonra Emini xilas etmək üçün həkimlər düz sutka yarım cəhd göstərdilər. Ürəyi Vətən eşqiylə döyünən Musayev Emin Həsən oğlu aprel ayının on üçündə aldığı güllə yaralarından şəhid oldu.

Emin aprel ayında baharın təravətli çağlarında dünyaya gəlmişdi. Elə aprel ayında da duma harayında el-obamıza qayıdan baharın ılıq nəfəsi altında dünyadan köçdü. Bundan sonra hər dəfə aprel ayı gələndə Eminin ad gününü və bir də ölüm tarixini yada salıb kədərlənəcəyik.

Onun ürəyində balıar istəyi var idi. Sonuncu baharın nəfəsini doyunca duya bilmədi. İnnən belə Eminin əvəzindən biz yaşayacayıq hər gələn təzə baharı. Və hər gələn təzə bahar ılıq nəfəsilə Eminin doğma ata elindəki məzarına da sığal çəkəcək. Bundan sonra əbədi bahara qovuşacaq Emin.

## TORPAĞIN YASƏMƏN ƏTRİ



***Həsənov İlqar Telman oğlu***
***(07.10.1973-28.03.1993)***

Qəhrəmanlıq da, cəsarət də allah vergisidir. Həyatda hamı qəhrəman olsaydı öz dəyərini, öz qiymətini itirərdi bu ad. Qəhrəman olmaqçün dar ayaqda ölümlə üz-üzə, göz-gözə dayanmalısan, lazım gəlsə şirin candan keçməyi bacarmalısan. Və həm də bütün bunların hamısını Vətən üçün, ana torpaq üçün yüzlərlə, minlərlə insanın həyatını qorumaqdan ötrü etməlisən. Bu barədə şair özü yaxşı deyib:

*"Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir.*
*Nə də günəşlər kimi parlayıb sönməməkdir.*

*Bunun üçün ölümə bir atılış gərəkdir-*
*Atıldıqdan sonra da bir daha dönməməkdir."*

Ən qeyrətli əsgərlərimiz kimi İlqar da bu amalla xidmət edirdi havasında, suyunda, ruzusunda bal şirinliyi duyduğumuz ana Vətənimizə. Onun üçün bu ad qeyrət idi, namus idi. İlqar üçün Vətən anlayışı hər şeydən ulu idi, uca idi. Torpaqlarımız naxələf qonşularımızın təcavüzünə məruz qaldığı ilk gündən İlqarın da yuxusu, rahatlığı pozulmuşdu. Cəbhədəki uğurlarımızdan sevinir, itirdiyimiz yurd yerlərinin fəryadı dirigözlü yandırırdı onu. Gücü çatsaydı kökü-soyu bilinməyən ermənilərin axırına çıxıb tarazı, nizamı pozulan dünyamıza, türk ellərinə əbədi dinclik, əmin-amanlıq gətirərdi. Ancaq bilirdi ki, düşmən qorxaq olduğu qədər də məkrlidir, qeyrətsizdir. Söz lüğətində "namus" termini olmayan bu millət hər cür alçaqlıq etməyə, yurd dağıtmağa, baş kəsməyə hazır idi. İlqar bütün bunları yurddaşlarımızın Ermənistandakı dədə-baba yurdlarından qovulandan sonra duyub anlamışdı. Bayquş, yarasa xislətli harsın oğullarının Qarabağda törətdikləri ilk qırğınlardan sonra bu qasırğa Cəbrayıla gəlib çatmışdı. Onda hələ 1973-cü ilin oktyabr ayının yeddisində dünyaya göz açan Həsənov İlqar Telman oğlu məktəbli idi. Cəbrayıl şəhərindəki C.Əhmədov adına orta məktəbdə oxuyurdu. 1986-cı ildə ürəkdən sevdiyi bir vaxtlar həzin, kövrək laylasına sığındığı anasını itirəndən sonra qəlbi nisgillə doluydu İlqarın. Bu nisgilin nə əzəli, nə axırı görünürdü. Bu duyğuya anamız Azərbaycanın yurd harayı qarışandan sonra İlqar başa düşmüşdü ki, özümüz-özümüzə arxa-dayaq olmalıydıq. Orta məktəbi bitirəndən sonra Gəncə şəhərindəki 37 nömrəli texniki-peşə məktəbində oxuyurdu İlqar. İstəyirdi ki, əsgərlik yaşı çatana kimi oxuyub bir sənət sahibi olsun. Arabir evlərinə qayıdanda özündən kiçik qardaş-bacıları Ülviyyə, Coşqun, Ruhiyyə, Vüqar, Fəridə mehrinə, istəyinə sığınırdılar onun. İlqarın gəlişiylə Cəbrayıl şəhərinin Mirzəcanlı məhəlləsindəki bir evin işığı bir az da artıb çoxlırdı elə bil...

Əsgərlik yaşı çatanda Vətən sevgisi başqa yaşıdları kimi İlqarı da Milli Ordumuzun Cəbrayıl batalyonuna gətirib çıxardı. Ötən ilin mart ayının əvvəllərindən ta şəhid olduğu günə qədər tale İlqara möhlət verdi ki, o torpağa oğulluq borcunu qaytara bilsin. Düz bir il iyirmi yeddi gün ərzində o əlinə silah götürüb doğma yurd yerlərimizin keşiyini çəkdi. Bu müddət ərzində İlqar bərkə-boşa düşə-düşə igidləşdi, ərsədi. Qulaqları mərmi səsinə, güllə vıyıltısına alışdı. Bir il iyirmi yeddi gün ərzində ölümlə üz-üzə dayanıb vahiməli, barıt qoxulu bir ömür yaşadı İlqar. Elə bil tanrı özü vermişdi bu möhləti ona. Bu möhlətdən, bu amandan bacarıqla istifadə edib öz sözünü deyə bildi...



Ölüm heç nəyə baxmır-deyiblər. Vaxtın çatdımı getməlisən. Ötən ilin yayındakı Sur əməliyyatında igid döyüşçülərimizlə bərabər düşmənin, beş-on addımlığında olsa da heç burnu da qanamamışdı. Həmin döyüşdə şəhid olan neçə-neçə tay-tuşlarının qisasını almaq üçün sonralar silahdan daha da möhkəm yapışmışdı. Ölümü özünə heç yavutmurdı İlqar. İnanırdı ki, qələbə günümüzü görəcək. Bir dəfə əsgər yoldaşlarına demişdi ki,"Əsil igid torpaq qeyrəti yolunda canlarından keçənlərdir. Allah qoysa qələbə günümüzdən sonra gərək onların adlarını da, yarımçıq ömürlərini də yaşadaq.."

Orta məktəbdə ona dərs deyən müəllim deyir ki, çox qabiliyyətli bir oğlan idi İlqar. Məktəbdə həyata keçirilən tədbirlərdə, şeir müsabiqələrində həmişə iştirak edərdi. İdmanın güləş və yüngül atletika növləriylə məşğul olmağı xoşlayırdı. Şagird yoldaşları, məhəllə uşaqları xətrini çox istəyirdilər onun. Çox üzüyola, iş yarıdan, qanacaqlı, ədəb-ərkanlı idi. Halal ruzuyla böyümüşdü. Belə oğullar Vətənə arxa olmaqçün, yurda şərəf-şan gətirməkçün doğulurdular...

Ölümdən bir tikə də qorxusu yox idi İlqarın. Qələbə gününün yaxında olduğunu duya-duya yaşayırdı. Yaşayırdı ki, torpaqlarımızın keşiyində möhkəm dayansın, düşmən gülləsinə tuş gələn şəhid oğullarımızın qanını yerdə qoymasın. Heç eyninə də gətirmirdi ki, qarşı tərəfdə – sisli-dumanlı dağların o üzündə gizlənən düşmən onu da vurub öldürə bilər. Elə bil ölümdən qələbə günümüzə kimi möhlət, aman almışdı İlqar. Bəlkə də beləydi, 1993-cü ilin mart ayının səkkizində Sur postunda dayanarkən hardansa atılan düşmən gülləsinə hədəf olmasaydı hələ çox yaşayacaqdı. Heç olmasa qələbə günümüzü görə biləcəkdi.

Ancaq bu günü görmək qismət olmadı İlqara. İnşallah qələbə günümüzdə əsgər dostları onun əvəzindən də sevinib şadlanacaqlar. Həmin gün torpaqlarımızın azadlığı yolunda canlarından keçən şəhidlərimizlə birlikdə onun da adı əzizlənəcək. Həmin gün İlqarın Cəbrayıldakı məzarı üstə bir dəstə çiçək qoyulacaq. Bu çiçəkdən torpaqlarımızın nərgiz ətri, yasəmən qoxusu gələcək. Həmin gün Xudafərindən üzü Ziyarata kimi hər tərəf yasəmən ərtinə bürünəcək. Bu şirinliyi duyduqca Həsənov İlqar Telman oğlunun Tanrı dərgahına qovuşan şəhid ruhu da təskinlik tapıb sevinəcək həmin gün.

# TORPAQ ONU ÇƏKİRDİ

*Nəsirov Faiq Qaroğlan oğlu*
*(12.02.1970-16.04.1993)*



Ulu Tanrı Sirik torpağına hər şeyi min əlnən verib. Bu kəndin yaşıl donlu meşələri də, "durna gözlü" bulaqları da, yalçın qayalı, sərt yoxuşlu dağları da adnan deyilir. Buradakı dağlar da, sal-sal daşlar da bənzərsizdir. Kəndin üst tərəfindən üzü Laçın torpaqlarına qədər uzanıb gedən Tey və Qala dağlarına baxanda adamın qəlbi qurur hissiylə dolur. Ana yurdumuzun qüdrətdən səngərli, qalalı dağları yurdumuzun bu çətin günlərində kürək-kürəyə dayanıb yağı düşmənə meydan oxuyur elə bil. Bu torpaqdan bir az o yana - ulu Ziyarat dağına gedən yollar dığaların kəməndinə düşüb nə vaxtdır. Bahardan payıza qonağı-qarası əskik olmayan Sirik meşələri mərmi səsindən, avtomat güllələrinin vahiməsindən səksənir, üşənir indi.

Faiq havasından yarpız, kəklikotu qoxusu gələn Sirik torpağının sorağını illər boyu eşitsə də buraya yönü düşməmişdi. Ağlı kəsəndən bu cənnət məkan yerlərdə heç olmasa bircə dəfə olmağı arzulasa da təbiətin möcüzəsi sayılan Sirik torpağına ayağı dəyməmişdi. Bu da bir qismətdir, alın yazısıdır. İnsan arzuladıqlarına asanlıqla çatsaydı bəlkə də ömür-gün belə şirin olmazdı.

Tale onu bu torpaqla ölümündən düz üç ay qabaq görüşdürmüşdü. İlk dəfə üzü Ziyarata tərəf uzanan yolları keçib aranla dağların görüşdüyü yerdəki üzümlüklərdən irəlidə sola burulanda o da başqaları kimi heyrətindən donub qalmışdı. Tay burdan o yana torpağın hər qarışından bir gözəllik, bir yaraşıq boylanırdı. Heyif ki, hələ qış yuxusunda xumarlanan bu torpağın min rəngli baharını görmək Faiqə qismət olmadı. Tey dağı, Daş bulaq, Qala dağı gözlərindən qanlı yaş tökürdü elə bil. Dağların o üzündən atılan ölüm yüklü güllələr bu torpağın yuxusunu beş il idi ki, ərşə çəkmişdi. Beş il idi ki, Sirik camaatı cavanlı-qocalı bu dağları səngər edib harsın oğullarını yaxına buraxmırdı. Beş il idi ki, meşənin dərinliklərindəki qoca vələs ağacları, ildırıma can verməyən palıdlar insan hənirinə tamarzı idilər. Belə bir vaxtda Faiqin güzarı düşmüşdü Sirik torpağına. Buraya gələnə kimi iyirmi iki illik ömründə dünyanın hər üzünü görmüşdü Faiq.

1970-ci ilin 12 fevralında Araz qırağındakı Alıkeyxalı kəndində dünyaya göz açmışdı. On üç yaşı olanda atasını və ondan iki il sonra da dünyalar qədər



istədiyi anasını itirmişdi. Sayad ananın, Qaroğlan kişinin kənd qəbiristanındakı qoşa məzarları onun üçün bir qarış Vətən torpağı idi. Faiqin nəzərində Azərbaycan adlı dünyamız bu məzarlardan başlayırdı. Əzizlərinin rahat uyumaları üçün bütün varlığından keçməyə hazır idi o..

1987-ci ildə Maşanlı kənd orta məktəbini bitirəndən sonra uzağa getməyib elə öz kəndlərində gücü çatdığı işdən-gücdən yapışmışdı.

1981-91-ci illərdə Rusiyada əsgərlikdə olarkən yurdumuzun, yurddaşlarımızın sinəsinə çəkilən dağlara biganə qala bilməmişdi. Ermənistandakı dədə-baba torpaqlarından zorla qovulan soydaşlarımızın müsibəti, 1990-cı ilin Qara Yanvarında Bakıda imperiya ordusu tərəfindən edilən vəhşiliklər varından yox etmişdi onu...

Vətənə qayıdandan sonra Faiq Bakıda neft buruqlarında işləyirdi. Qabarlı fəhlə əllərinə və bir də ürəyinin təpərinə, qeyrətinə güvənirdi. Vətənin dar günündə övladlıq borcunu vermək üçün Milli Ordumuzun əsgərləri sırasına qoşulmuşdu. 1992-ci ilin mart ayından Füzuli cəbhəsində döyüşürdü. Dəfələrlə murdar xislətli erməni quldurları ilə üz-üzə gəlmişdi. Sonra döyüş yolu doğma Cəbrayıldan keçdi onun. Burada suyunu içib havasını udduğu ulu torpaqlarımızın keşiyində dayanırdı. Batalyon komandiri Şakir Abbasov da, əsgər dostları da ondan razı idilər.

Qardaşı Saday deyir ki, Faiq mehriban, istiqanlı oğlan idi. İdmana çox maraqlıydı. Ölümündən on gün qabaq evimizə gəlib bizimlə görüşdü. Və gedəndə dedi ki, əsgər dostlarımdan uzaqda özümü gücsüz hesab edirəm. Onlarla bir yerdə olanda elə bilirəm ki, kürəyimi dağa söykəmişəm. Torpaq onu çəkirdi deyə evimizdə çox qalmadı.

Faiq Sirik kəndinin müdafiəsi üçün canını əsirgəmədi. 1993-cü ilin aprel ayının 16-da keçirilən əməliyyat zamanı şəhid oldu. Yoldaşları deyir ki, öldüyü ana qədər mərdliklə vuruşdu. Faiq əsil kişi ölümüylə gözlərini yumdu dünyaya...

Hələ qırxı çıxmayıb onun. Hələ Alıkeyxalıdakı məzarında rahatlıq tapa bilmir Faiq. Hələ el-oba onun üçün göz yaşı axıdır, qardaşı Sadayın fidan balaları Günellə Bağdagül şəkilini öpüb əzizləyirlər onun...

Nə vaxtsa Sirik torpağının toylu-düyünlü günləri yenə də qayıdacaq özünə. Yaşıl libaslı meşələrdə bulaqların zümzüməsi yenə də aydın eşidiləcək. Onda ömrünün baharında dünyadan köçən Nəsirov Faiqin də adını xatırlayıb:

– Torpaqlarımızın dinciliyini qaytaran Faiq kimi oğullarımız ölümləriylə əbədi yaşamaq haqqı qazanıblar-deyəcəyik.

Onda minlərlə şəhid oğullarımız kimi Faiqin də ruhu dinclik tapacaq. İnşallah o günlərə çox qalmayıb.

# ÜRƏK DÖZƏ BİLMİR



*Şahmarov Qaçay Baxış oğlu*
*(1954 – 02.02.1993)*

Ürək yaman şeydir-o hər müsibətə, acılığa dözə bilmir. Bir də necə qınayaq axı yumruq boyda "dilsiz-ağızsız" bu ürəyi. Dost ölümündən sarsılır, yamanlıqdan büzüşüb yumağa dönür, ağrı-acıdan "əti" ürpənir. Niyə belə insafsızlıq edirik bizi yaşadan bu varlığa? Niyə qoymuruq özü öz dərdini çəkə, bir ömrün yükünü "çiyinlərində" daşıya. Onun da yaşamağa, sevib-sevilməyə haqqı var. Onun da beşikdən məzara kimi xoş sözə, hərarətli baxışa ehtiyacı var. Niyə bu qisməti, bu haqqı əlindən alırıq onun? Üzülüb əldən düşəndən sonra, işığı, işartısı kəsilən məqamda sözlər düşür yadımıza:

Nə güllləsi, nə topu var,
Nə dözümü, nə tabı var.
Bir ömürlük əzabı var-
Daşdan deyil ürək axı...

Gözəl demisən, şair qardaş, bu sözləri. Ancaq bu həqiqəti bilə-bilə od yağdırırıq bu yazıq ürəyin üstə. Bu sitəmə, bu müsibətə tablaşmaq üçün gərək fil dözümü olsun ömrü boyu qəsdinə durduğumuz ürək adlı o varlıqda.

Qaçayda belə dözüm, belə ürək yox idi. 1988-ci ilin fevralından bu yana gördükləri gücünü-qüdrətini almışdı onun əlindən. Nanə yarpağına bənzəyirdi onun yanımlı ürəyi. Qırx illik ömründə sinəsində gəzdirdiyi o bir parça varlığı dönə-dönə incitmişdi, ağır yük altına salmışdı. Bu ürəklə əlləri iş tutanda oxuyub özünə gün-güzəran düzəltmişdi. Həyat yoldaşı Şamama bacı təmiz ürəyinə görə sevmişdi onu. Oğlanları Elnur, Teymur, Səbuhi, Seymur atalarının təmiz ürəyinə, torpaq qeyrətinə sığınmışdılar. Onların nəzərində atalarından güclü kişi, qüdrətli adam yox idi yer üzündə. Elə bilirdilər ki, kürəklərini Ziyarat kimi bir dağa söykəyiblər. Təpərli, yanımlı ürəyi ilə doğulduğu Qərər kəndində hamının əzizi, doğması idi Qaçay. Bu ürəklə özünə çoxlu dost-tanış qazanmışdı. Bu "qazanc" xərclənib qurtaran deyildi.



Atanın "qazancı"– bu dünyada qoyub getdiyi dostları, indi də onun həyat yollarında ayaqları təzə-təzə yer tutan balalarının karına gəlir. Dünyada dostdan, tanışdan qiymətli nə var ki...Gərək onu da qazanmağın yolunu bacarasan. Gərək onu da əldə etməyə hünərin çata, dost sevgisiylə dolu ürəyin ola.

– Qaçay bu dünyada hamıdan varlı-dövlətliydi, dostları onun süfrəsinin bərəkəti, ruzusu-çörəyi idi. Bu sözləri bizə onun böyük qardaşı Göyüş kişi deyib. Göyüş kişi özü də Qaçay kimi torpağa can yandırandır – halallığı yüksək qiymətləndirəndir...

Şahmarov Qaçay tibb feldşeri idi. On ilə yaxın rayondakı SES-də sanitar həkim köməkçisi olmuşdu. Torpaqlarımızın müsibətli günləri başlayandan üzgözündən nisgil yağırdı. Ürəyindən elə bil daş asılmışdı onun. Bu ürək Şikar kimi, Mirələm kimi, Kazım kimi, Sahib kimi oğullarımız şəhid olanda için-için "ağlamışdı". 1988-ci ildən bu yana rahatlığını itirmişdi bu ürək. Baş verən hadisələr elə dəhşətli idi ki, özünə yer tapa bilmirdi. Axırda tale onu Milli Ordumuzun Cəbrayıl bölməsinə gətirdi. 1992-ci ilin aprelindən burda hərbi feldşer işləyirdi. Dəfələrlə döyüş yerlərində olmuşdu. Güllə yağışı altında neçə-neçə döyüşçümüzə yardım əlini uzatmışdı. 1992-ci ilin uğursuz Şişqaya və Sur əməliyyatlarında şəhid olan oğullarımızın didim-didim olan qanlı meyitlərini gözləri ilə görəndən sonra ürəyi tay sözünə baxmırdı onun. Açıb ağartmırdı, heç kimə demirdi dərdini. Fikirləşirdi ki, kimsə onu ağciyər hesab edə bilər. İçin-için əriyirdi, külə dönürdü Qaçay. Döyüş yerlərində yaralılarımızın səsi idi onu dəhşətə gətirən. Düşmənin amansızlığı, namərdliyi idi onu sarsıdan. Bu dərdə, bu müsibətə tablaşmaq hər adamın işi deyildi. Bu faciəni görəndən sonra gərək ürəyin daşdan ola ki, dözəsən. Qaçayın ürəyi adi insan ürəyi idi. Elə buna görə də dözə bilmədi ölümə, qana. Şəhid oğullarımızın üstündə saç yolan ana-bacılarımızın fəryadına dözmək çətin idi. Dözə bilmədi bunlara o. Günlərin birində - 1993-cü ilin yanvar ayında elə batalyondaca ürəyi döyünməkdən qaldı onun. Şəhid ölümünə için-için ağlayan bir ürək özüylə sonsuz dərdini-müsibətini də torpağa apardı.

Bu ürək yanımlıydı, təpərli idi. Bu ürək bir ailənin gur işığı idi. Lazım olanda, məqamı çatanda haray diləyən torpaqlarımızdan istisini, işığını əsirgəmədi bu ürək...

# DURNA KÖÇÜ

*Həşimov Yavər Əliş oğlu*
*(08.08.1973 – 29.03.1993)*



Dünyada şəhidlər barədə söz açmaqdan, beş-on kəlmə yazmaqdan da ağır işmi var? Hələ bığ yerləri tərləməmiş qızıl gülləyə tuş olan bu cavanların dərdinə tablaşmaq adamdan fil dözümü istəyir. Ana fəryadını, ata hıçqırığını eşidəndə hönkürməmək üçün gərək ürəyin daşdan, dəmirdən ola. Ulu Tanrı, nə günahın sahibiydik ki, bizə bu günü, bu müsibəti göstərdin? Ağzı dualı nənələrimizin dilində, dodağında göyərən bu ətürpədən ağıların nəhayəti, sonu olacaqmı? Görəsən sonuncu şəhid adının "səadəti" kimə qismət olacaq? Cəbrayıl şəhidləri haqqında yazdığımız kitabın sonuncu cümləsini tamamlayanda elə bilmişdik ki, üstümüzdən ağır yük götürülüb. O vaxt ürəyimizdə yüz dəfə Tanrımıza minnətdar olmuşduq ki, bizə möhlət, güc-qüvvə verdi ki, şəhid oğullarımız haqqında ürəyimizdən keçənləri qələmə ala bildik. Sonuncu cümlənin axır nöqtəsini qoyandan sonra "son qəmimiz olsun!" – deyib özümüzə təsəlli də vermişdik. Demə görəcəkli günlərimiz qabaqdaymış...

Əvvəlcə Naxçıvanda torpaqlarımızı qoruyan eloğulumuz Yavərin ölüm xəbərini eşidib sarsıldıq. Sonra da Soltanlıdan, Dağtumasdan, Hasanlıdan, Niyazqululardan, Mərcanlıdan olan yeni-yeni şəhid adlarının ağrı-acısını yaşayası olduq...

Şəhid atası Əliş kişini çoxdan tanıyırıq. Əsil zəhmət adamıdır. Neçə illərdir ki, traktorun sükanından yapışıb üzümlükləri, taxıl zəmilərini dolaşır. Elin xeyrinə-şərinə yarayan insandır. Yarı yaşını təzəcə adlayan qollu-qanadlı bu kişini dərd yumaq kimi büküb indi. Yavər gözünün ilk ovu, uşaqlarının böyüyüydü onun. 1973-cü illin səkkizi avqustundan bəri gözlərinin qabağında "buğum-buğum", "yarpaq-yarpaq" böyümüşdü Yavər balası. 1990-cı ildə orta məktəbi qurtarıb Bakı Politexnik texnikumuna daxil olanda şənliyini eləmişdi. Oğluyla bağlı ürəyində min bir arzusu-diləyi vardı Məryəm bacının. Bu lənətə gəlmiş müharibə, bu quldur sifət erməni fitnə-fəsadı olmasaydı, hər şey ata-ananın arzuladığı kimi olacaqdı. Yavər məktəbi qurtarıb kəndə qayıdacaqdı, işləyib ailəyə əl tutacaqdı. Və günlərin birində Əliş kişi, Məryəm bacı



oğullarına toy edib arzularına çatacaqdılar... Fələk arzularını gözlərində qoydu. Bu deyilənləri görmək ata-anaya qismət olmadı. Oğullarının toyunu arzulayırdılar, yasını gördülər. Gözləmədiyin halda oğul dağı görmək çətindir, çox çətindi. Oğulsan tablaş görək bu dərdə. Dərd dərd olsa çəkməyə nə var axı... Bu çəkiləsi dərd deyil. Sapsağlam oğul böyüt, əvəzində güllələrdən didim-didim olan bir cəsədə üzünü söykə. İraq olsun, adamın başında tükləri biz-biz olur. Əliş kişiylə görüşəndə onun üzünü-gözünü qarsalayan bu dərd bizim də amanımızı kəsdi. Elə bil adamın üstünə qor tökülür onun sözlərindən.

– Oğlumu erməni gülləsi öldürsəydi, bu qədər yandırmazdı məni. O, namərd gülləsinə tuş gəlib. Bu namərd kimdirsə ermənidən də, gavurdan da, yeziddən də betərdir..

Yavəri Naxçıvanda, Şərur torpağında qətlə yetiriblər. O burada ötən ilin sentyabr ayından əsgəri xidmətdə idi. Torpaqlarımızın qonşu İran ərazisi ilə qovuşduğu yerdə sərhədlərimizi qoruyurdu. Tez-tez məktub yazırdı evlərinə. Hər dəfə də ata-anasına, qardaş-bacıları Qədirə, Azərə, Adilə, Vəsiləyə toxtaqlıq verir, öz işlərindən, əsgər dostlarından söz açırdı. Evlərinə axırıncı sifarişi ölümündən düz on gün qabaq, Novruz bayramı ərəfəsində gəlib çatmışdı. Mahmudludan olan Soltan adlı əsgər yoldaşıynan xəbər göndərmişdi ki, məndən nigaran qalmayın, bayramı şadlıqla keçirin, elə bilin ki, yanınızdayam. Məryəm bacı Yavərin bayram sovqatını özü öz əliylə iri bir cantaya yığıb saxlamışdı. Ananın əli çatmırdı, ünü yetmirdi oğluna. Zəngilandan o yana daşnaq dığaları yolu-irizi kəsmişdilər. Təkcə yuxularda görüşürdü Məryəm ana oğlu Yavərlə...

Qara xəbər qasırğa küləyə bənzəyir. Bəndi-bərəni aşıb bircə saatın içində yetişir ünvanına. Əliş kişi işdən qayıdanda eşitdi Yavərin ölümünü. Əvvəlcə inanmamışdı buna. Daha doğrusu inanmaq istəməmişdi bu acı xəbərə. Ertəsi gün günortaya yaxın oğlunun tabutdakı qanlı sifətini görəndə gözlərinə tay qaranlıq çökdü...

Mart ayının 29-da Şərurda şəhid olan Həşimov Yavər bircə gün sonra ata yurdu Mərcanlıda torpağa tapşırıldı...

Yavər kövrək ürəkli bir oğul idi. Əliş kişi deyir ki, öləndən sonra bildim ki, ürəyindən keçən duyğuları şeirə çevirirmiş Yavər. Çəhrayı üzlü kiçik bir cib dəftərçəsində necə lirik duyğulardan bəhs edirdi. Bu lirik duyğulardan Yavərin özü boylanır ağlı-qaralı dünyamıza. Bu şeirlərdə onu torpağa, Vətənə, anaya və bir də ürəyində əzizlədiyi, adını hamıdan pünhan saxladığı bir el qızına məhəbbəti dil açır...

Yavərin jurnalist dayısı İsaq Əvəzoğlu doxsanıncı ildən üzü bəri neçə-neçə şəhid oğullarımızdan söz açmışdı. İndi igid bacısı oğlunun xatirəsini

yaşadır yaddaşında. Böyük Mərcanlı kəndinin şəhid oğulları Kazımın, Zahidin, Elşənin, Vüqarın, Rafiqin yasında birçəklərinə əl atan Fatma nənə indi də nəvəsi Yavəri ağılarda öpüb oxşayır...

*Bu yollar yarı yollar,*
*Əridər qarı yollar.*
*Yavərimdən söz açın –*
*Danışa barı yollar...*

Ağlama nənə, böyük elin şəhidi, dərdi böyük olur. "Şəhid ölümü" haqdan gəlir-deyiblər. Yavər kimi oğullar hamımızın əzizidir. Şəhidlər durna köçünə bənzəyir. İnşallah qələbə günümüzdə onlar bir də qayıdacaqlar bu yurda. Özləri gələ bilməsələr də, durna harayında səsləri-ünləri gəlib çatacaq bizlərə. Şəhid oğullarımızın nəğməyə dönən sədaları üfüqdən-üfüqə yayılacaq həmişə. İnşallah, tez görəcəyik o günü...

## İLAHİ SƏSİN İŞIĞI



***Məmmədov Söhrab Əhməd oğlu (01.03.1973 – 02.04.1993)***

Tumas atanın güneyinə söykənən Dağtumas kəndindən ulu bir qədimlik, təbiətin bakirəliyi boylanır dünyamıza. Bu kəndin adamları da dağların özü kimi qollu-qanadlıdır, dərdə-müsibətə dözümlüdür. Ulu yurd yerimiz Dağtumasın quzeyindən aran hərarəti duyulur. Bu kəndin camaatı torpağın ülfətinə söykənib. Onlarda yurd sevgisi, torpaq istəyi güclüdür, yenilməzdir. Ölümüylə bu torpağa ucalıq gətirən Söhrab özü də hünərli, təpərli bir oğul idi. 1990-cı ildə Dağtumas kənd orta məktəbini bitirəndən sonra Bakıdakı 5№-li texniki-peşə məktəbində oxuyub rəngsazlıq sənətinə yiyələnmişdi. Uşaqlıqdan rənglərin vurğunuydu Söhrab. Bahardan payıza qədər Tumas atanın yamaclarından boylanan al-əlvan çiçəklərə baxmaqdan yorulmazdı. Təbiətin möcüzəsi olan yalçın qayaları, sərt dağ yamaclarını gəzib dolaşmaqdan doymurdu. İşıqlı sifətindən, hərarətli gözlərindən çiçəklərin rəngi damcılayırdı



elə bil. Min bir çalarlı, baxışlı rənglərin işığına üzünü söykəmişdi bu dünyada. Və bir də musiqinin dəlisiydi.

Uzun illərdən bəri ünsiyyət bağladığı gitaranı bağrına basanda elə bilirdin barmaqlarından leysan yağır. Bu nəğmə leysanı altda "çimib" saflaşanlar gələcəyinə böyük ümid bəsləyirdilər. Qardaşı Vahid söyləyib bütün bunları bizə. İndi şəhid qardaşının xatirələrində yaşayan adın daha tez-tez gətirir dilinə. Bu ad indi onu təpədən-dırnağa yandırır. Bu adın işığı ilə biz də dönə-dönə vərəqləmişik Söhrabın əl boyda kağız vərəqlərinə sığışan ömür yolunu..

1973-cü ilin mart ayının birində dünyaya göz açıb Söhrab. Əli ruzuya çatmamış 1991-ci ilin may ayında Krasnovodsk şəhərində əsgəri xidmətdə olub. Bundan sonra doğma torpaqlarımızın harayı onu da geri qaytarıb. Uşaqlıqdan sevib oxşadığı dağlardan düşmən ayağını kəsmək üçün 1992-ci ilin əvvəllərindən rayondakı yurdsevər oğulların cərgəsinə qoşulub...

Söhrabı onun atası Əhməd kişini yaxından tanıyırdım. Ata yurdum Dağtumasda Əhməd kişinin ailə üzvlərinin yetirdiyi Söhrab əsil oğul idi. Qabiliyyətli, istedadlı uşaq idi. Deməк olar ki, musiqi alətlərinin hamısında çalmağı bacarırdı. Kənd camaatının sevimlisi idi. Elə bilirəm ki, elə indicə hardasa qarşıma çıxacaq, saçlarına sığal çəkəndən sonra gitarasıyla bizi "yandırıb yaxacaq" Bu sözləri Söhrabın həmyerlisi, qələm dostumuz, yazıçı-publisist Əlisahib İsrafilzadə söyləyib bizə. Ömrü boyu haqq-ədalət soraqlaya-soraqlaya rayonda "allahlıq" edən "kiçik padşahlarla" tutaşan və həmişə də sözü üzə şax deyən bu insan indi Söhrab kimi oğullarımızın itkisindən yanıb-yaxılır:

– Bu müharibənin uzanmasının bir təqsiri də özümüzdədir. Nə vaxtacan gül parçası kimi oğullarımızı havayıdan itirəcəyik? Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər torpaqlarının itirilməsi niyə bizə dərs olmadı? Birlik deyə-deyə niyə öz-özümüzdən uzaq düşmüşük?

– Yaxşı deyirsən, qardaş, neçə ki, tamah bizi dağdan-daşdan atır, neçə ki, ağsaqqalımızın kim olduğunu duyub dərk etməmişik, neçə ki, başımız "mənəm-mənəmlik" davasına qarışıb, hələ Söhrab kimi oğullarımızın qəbri üstə çox göz yaşı axıdacağıq...

Cəbrayıl hərbi hissəsində Söhrabın xətrini çox istəyirdilər. Motoatıcı batalyonun sayılan-seçilən bir əsgəriydi o. Bacarığını nəzərə alıb, vzvod komandirinin müavini təyin etmişdilər onu. Günbəgün döyüş təcrübəsi, əsgərlik səriştəsi artmaqda, çoxalmaqda idi. Ölümündən xeyli əvvəl baş serjant rütbəsi vermişdilər ona. Yaşasaydı şöhrəti də, şanı da artacaqdı...

Qardaşı Vahid deyir ki, Söhrab çox qürurlu oğlan idi. Özgə kölgəsində yaşamağı, özgədən minnət götürməyi rəzillik hesab edirdi. Sarıyanız, hündür

boylu bu oğlanın döyüşə gedəndə də üz-gözündən nur yağırdı. Hərdən söz düşəndə əsgər yoldaşlarına deyirdi ki, bu torpağı qorumaq haqqı bizim qismətimizə düşüb. Bu borcu yerinə yetirməsən ayağımız altdakı yer, başımız üstəki səma, suyuna, havasına ortaq olduğumuz yurd yerləri bizi bağışlamaz...

1992-ci ilin yayında keçirilən Şişqaya və Sur əməliyyatlarında fədakarlıq göstərmişdi Söhrab. Bu savaşda bəxti gətirmişdi onun. Əməliyyatlar zamanı əvvəldən axıra kimi döyüşün ən qızğın nöqtələrində olsa da heç burnu da qanamamışdı. Şişqaya və Sur döyüşlərində özü öz əlləriylə düşmənin başına od yağdırıb şəhid oğullarımızın qisasını almışdı. Tale onu yaşatsaydı qələbə günümüzü də görəcəkdi. Bu günü o çoxdan gözləyirdi. Elə bilirdi ki, o gün lap yaxındadır, əlini uzatsa çatacaq. Ancaq əlləri çatmamışdı ona. 1993-cü ilin 29 martında Sur postunda dayanarkən düşmən tankından atılan mərmi ağır yaralamışdı onu. Düz üç gün Füzulinin Qaraxanbəyli qospitalında Söhrabı həyata qaytarmaq üçün həkimlər əllərindən gələni etdilər. Demə aprel ayının birindən bu yana yaşamaq qisməti yoxumuş onun.

Dağtumas kəndindəki ulu qəbiristan bir şəhid məzarını da bağrına basdı. Məleykə bacının alnında şəhid anası olmaq yazısı da varmış demə. Şəhid Söhrabın qardaşları Vahid, Malik, bacıları Sevda, Kəmalə, Nuriyyə hələ özlərinə gələ bilməyiblər. Nuriyyə qardaşının yoxluğuna heç dözə bilmir. Onun nisgili öləziyən, avazıyan deyil. Məleykə ananın səsi dağa-daşa ün salır:

*Dağtumasda izin var,*
*Gecən var, gündüzün var.*
*Söhrabım, tez qayıt gəl,*
*Hələ sənə sözüm var!..*

İndi Dağtumasda şəhid Məmmədov Söhrabın adı bir vaxtlar çaldığı gitarasının həzin nəğmələri kimi dağı-daşı dolaşır. Bu səsdə şəhid qeyrəti, torpaq harayı, yurd şirinliyi var. Bu səsi, bu sədanı susdurmağa heç kəsin hünəri çatmaz. O, Tanrı dərgahından gələn İlahi səsdir. O, Söhrabın səsidir.



# TORPAQ MƏNƏ HALALLIQ VER

**Cavadov Əlgüşad Ağacavad oğlu**
***(1968-1992)***

1968-ci ilin iyun ayında Saatlı rayonunun Məmmədabad kəndində anadan olmuşdu. 1985-ci ildə doğma kəndlərində orta məktəbi bitirmiş, sürücülük peşəsinə yiyələnmişdi. İki il əsgəri xidmətdə olmuş, burada da əla xidməti, ağıllı davranışları ilə diqqəti cəlb etmişdi. Əsgəri xidmətini başa vurduqdan sonra yurda qayıdaraq torpaqla ülfət bağlamışdı. Kənddə sürücü işləyirdi.

1992-ci il iyun ayının 6-da Saatlı rayon hərbi komissarlığının səfərbərliyi ilə Cəbrayıl batalyonuna göndərilmişdi. Burada keçirilmiş Sur döyüşündə yaxından iştirak etmiş, 1992-ci ilin 15 avqustunda Şişqaya döyüşündə qəhrəmanlıqla həlak olmuşdur.

Ailəli idi. Bir oğlu, bir qızı yadigar qalıb.

Qəbri Məmmədəbad kəndindədir.

**Cabbarov İlham Mirəli oğlu**
***(1960-1992)***

1960-cı ilin yanvar ayında Göyçə mahalının Subatan kəndində anadan olmuşdu. Orta məktəbi doğma kəndlərində bitirdikdən sonra iki il-1988-90-cı illərdə Xabarovsk vilayətində əsgəri xidmətdə olub. Doğma respublikada ali məktəbə girə bilmədiyindən, 1987-ci ildə Özbəkistan Texnologiya İnstitutunun yüngül sənaye fakültəsinə daxil olmuşdu. Üçüncü kursda oxuyarkən artıq respublikada vəziyyət son dərəcə kəskinləşmiş, erməni quldurlarının özbaşınalığı həddini aşmışdı. Buna görə də o, öz xahişi ilə Gəncə Texnologiya İnstitutuna dəyişilir. Buradan isə könüllü olaraq 1992-ci ilin fevral ayından ordu sıralarına yazılıb, Gəncə batalyonunun tərkibində Çaykənddə, Daşaltıda, Laçında vuruşub. Tankçı idi. Laçında 16 əsgəri düşmən mühasirəsindən çıxarıb. Laçının süqutundan sonra Cəbrayılda vuruşurdu. Cəbrayılda bir sıra əməliyyatlarda yaxından iştirak edib. 1992-ci il iyunun 28-də Sur kəndi uğrundakı döyüşlərdə həlak olmuşdur. Qəbri Gəncə şəhərindəki Şəhidlər Xiyabanındadır.

Evli idi. İki övladı qalıb.

**Həşimov Ələddin Şükür oğlu**
***(1962-1992)***

1962-ci il may ayında Saatlı şəhərində anadan olmuşdu. Saatlı şəhər orta məktəbini bitirəndən sonra Rusiyada hərbi xidmətdə olub. Hərbi xidməti başa vurub Volqaqrad Politexnik İnstitutuna daxil olaraq mühəndislik ixtisasına yiyələnmişdi. Saatlı rayonundakı M. Əsədov adına kolxozda mühəndis işləyirdi.

1992-ci ilin iyununda Saatlı rayon hərbi komissarlığından səfərbər edilmişdi. Cəbrayıl batalyonunda döyüşürdü. Yüksək hərbi peşəkarlığa malik idi. İyun ayında keçirilmiş Sur döyüşündə fərqlənmişdi.

1992-ci ilin 15 avqustunda Şişqaya uğrundakı döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. Bir oğlu var.

Qəbri ata yurdu Varxankənd kəndindədir.

**Suliyev Həbubulla Musa oğlu**
***(1968-1992)***

1968-ci ilin yanvar ayında Saatlı rayonunun Smadakənd kəndində anadan olmuşdu. 1985-ci ildə orta məktəbi qurtarmış, sonra isə sürücülük peşəsinə yiyələnmişdi. İki il Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdu. Əsgəri xidmətdən sonra sürücü işləyirdi.

Erməni quldurlarının torpaqlarımıza təcavüzü Həbibullanı bir vətəndaş, bir azərbaycanlı kimi çox narahat edirdi. İgid oğullarımızın bir-birinin ardınca şəhid olması, şəhər və kəndlərimizin əldən getməsi onun qeyrətinə toxunurdu. Elə bu duyğu ilə də o, 1992-ci ilin iyun ayından könüllü olaraq Cəbrayıl batalyonuna gedərək orada vuruşurdu. Bir neçə əməliyyatda inamla iştirak etmişdi. 15 avqust 1992-ci ildə "Şişqaya" uğrundakı döyüşlərdə igidliklə şəhid olmuşdu.

Ailəli idi. Bir uşağı var.

Qəbri Smadakənd kəndindədir.



**Səmədov Əhmədağa Aslan oğlu**
***(1958-1991)***

1958-ci il fevralın 16-da Sabirabad rayonunun Narlıq kəndində anadan olub. 1975-ci ildə Qasımbəyli kənd orta məktəbini bitirib. Orta məktəbi qurtardıqdan sonra 1976-78-ci illərdə Pribaltikada hərbi xidmətdə olub, baş serjant rütbəsi ilə ordudan tərxis olunub.

1979-1985-ci illərdə respublikanın Qazax və Balakən sərhəd rayonlarında DİŞ-nin yol-patrul sahəsində çalışıb.

1986-cı ildə Mərdəkanda xüsusi milis məktəbinə daxil olub.

1988-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirib. Həmin vaxtda da Sabirabad rayonu DİŞ-ə göndərilir. Əvvəl mühafizə bölməsinin, sonra isə Azadkənd sovetliyinə sahə inspektoru təyin edilir. Baş leytenant idi. 1991-ci il Azərbaycan respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində iştirak etmək üçün Cəbrayıl rayonunda gedən döyüşlərə göndərilir. Bir neçə döyüşdə iştirak edib 15 noyabr 1991-ci ildə Şayaq yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur.

Qəbri doğma kəndindədir. Yaşadığı Narlıq kəndi və kənddəki orta məktəb indi onun adını daşıyır.

Evli idi. Üç oğlu yadigar qalıb.

**Mehbalıyev Murad İsmayılxan oğlu**
***(1968-1992)***

1968-ci ilin iyul ayında Saatlı rayonunun Musalı kəndində anadan olmuşdur.

1985-ci ildə orta təhsilini başa vuraraq iki il bədnam sovet ordusu sıralarında əsgəri xidmətdə olmuşdu. Əsgəri xidmətdən sonra kənd təsərrüfatı texnikumunu bitirərək orta ixtisas təhsili almışdı.

6 iyun 1992-ci ildə Saatlı rayon hərbi komissarlığı tərəfindən səfərbər edilərək Cəbrayıl batalyonuna göndərilmişdi. Cəbrayıl torpaqlarının erməni quldurlarından qorunmasında ürəklə, qorxmadan vuruşurdu. İyun ayının axırında keçirilmiş Sur əməliyyatında neçə-neçə düşmən əsgərini məhv etmişdi.

1992-ci il avqustun 15-də keçirilmiş Şişqaya əməliyyatında qəhrəmanlıqla həlak olmuşdur.

Qəbri doğma kəndlərindədir.

Subay idi.

**Məmmədov Əhməd Eldar oğlu**
*(1967-1991)*

1967-ci ilin dekabr ayında İmişli rayonunun Əliqulular kəndində anadan olmuşdu. 1985-ci ildə Əliqulular kənd orta məktəbini bitirmişdir. 1986-cı ilin may ayında hərbi xidmətə çağrılıb, iki il Özbəkistanın Kasan şəhərində əsgəri xidmətdə olub.

Əsgəri xidmətdən sonra İmişli Rayon Daxili İşlər şöbəsində polis nəfəri işləyirdi. Erməni quldurlarının torpaqlarımıza təcavüzündən sonra bir sıra rayonlardan polis işçiləri də köməyə gəlirdilər. Əhməd də İmişli polisləri ilə birlikdə Cəbrayıla köməyə gəlmiş, bir sıra əməliyyatlarda yaxından iştirak etmişdi. Axırıncı döyüşü 1991-ci ilin noyabrın 15-də olmuşdur. Şayaq yüksəkliyinin alınması uğrunda gedən döyüşlərdə xüsusi fərqlənmiş Məmmədov Əhməd Eldar oğlu elə burada da qəhrəmanlıqla həlak olmuşdur.

Qəbri doğma kəndlərindədir.

Subay idi.

**Məmmədov Əli Sədim oğlu**
*(1964-1992)*

1964-cü ildə Saatlı rayonunun Smadakənd kəndində anadan olmuşdu. 1971-ci ildə kəndlərində orta məktəbi başa vurduqdan sonra, keçmiş Sovet Ordusu sıralarında əsgəri xidmətdə olmuşdu. Əsgərlikdə olarkən yaxşı rabitəçi kimi tanınmışdı. Əsgəri xidmətdən sonra doğma torpağa qayıdan Əli Azərbaycan İnşaat Mühəndisləri institutuna daxil olaraq, oranın mühəndislik fakültəsini bitirmişdi.

Saatlı rayonundakı S.Vurğun adına kolxozda mühəndis-meliorator işləyirdi.

1992-ci ilin iyun ayından Milli Ordu sıralarına səfərbər edilərək Cəbrayıl batalyonuna göndərilmişdi.

1992-ci ilin 15 avqustunda Şişqaya əməliyyatında həlak olmuşdur.

Evli idi. İki övladı yadigar qalıb.

Qəbri doğma kəndlərindədir.



**Əsgərov Zahid Aydın oğlu**
*(1962-1992)*

1962-ci ilin mart ayında Saatlı rayonunun Krasnoselski (indiki Qara Nuru) kəndində anadan olub. 1979-cu ildə kənd orta məktəbini bitirmiş, 1980-82-ci illərdə keçmiş sovet ordusunda əsgəri xidmətdə olmuşdu. Zahid Gəncə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirmiş, aqronom-etimoloq ixtisası almışdı. Saatlı rayonundakı Xətai adına kolxozda aqronom-etimoloq işləyirdi.

1992-ci il may ayının 12-dən cəbhəyə səfərbər edilən Zahid elə o vaxtdan da Cəbrayıl batalyonunda vuruşaraq düşmənə qan uddururdu. 1992-ci il iyun ayının 28-də keçirilmiş Sur əməliyyatında qəhrəmanlıqla vuruşmuş, neçə-neçə murdar erməni quldurunu məhv etmişdi.

1992-ci ilin 15 avqustunda Şişqaya əməliyyatında Əsgərov Zahid Aydın oğlu da əbədiyyətə qovuşaraq qəhrəmanlıqla şəhid olmuşdu.

Subay idi.

Qəbri Qara Nuru kəndindədir.

**Əliyev İmamverdi Barat oğlu**
*(1950-1991)*

İmişli rayonunun Qulubəyli kəndində kolxozçu ailəsində anadan olub. 1969-cu ildə həmin rayonun Kürdmahmudlu kənd orta məktəbini bitirdikdən sonra İmişli rayon hərbi komissarlığının göndərişi ilə Saatlı rayon 9 nömrəli texniki-peşə məktəbinin sürücülük kursuna qəbul edilib. 1970-ci ildə kursu bitirdikdən sonra hərbi xidmətə yollanıb. 1972-ci ildə ordu sıralarından tərxis olunaraq Yasamal rayon Daxili İşlər şöbəsində sürücü-milis nəfəri kimi çalışıb. 1973-cü ildən 1977-ci ilədək Bakı Maliyyə-Kredit Texnikumunda təhsilini davam etdirib. Texnikumu bitirdiyi il Azərbaycan nəqliyyat milisinin Bakı xətt milisində işləyib. 1978-ci ildə göndərişlə Bakı Xüsusi Orta Milis Məktəbinə daxil olub. 1980-cı ildə oranı bitirdikdən sonra zabit rütbəsi alaraq DİN-nin göndərişi ilə İmişli rayon Daxili İşlər şöbəsinin nəzdindəki mühafizə bölməsində baş inspektor vəzifəsində çalışıb. 1987-ci ildən İmişli RDİŞ-də sahə ispektoru işləyib.

1991-ci ildə İmişli RDİŞ-nin bir qrup polis nəfəri Cəbrayıl RDİŞ-nin şəxsi heyətinə kömək üçün oraya ezam olunur. Onların arasında olan polis baş leytenantı İmamverdi Barat oğlu Əliyev xüsusilə fərqlənir.

Noyabrın 15-də səhər saat 6 radələrində Hadrut rayonunun Şayaq kəndi yaxınlığında yerləşən posta hücum edən yüzlərlə erməni yaraqlısı, cəmi 17

nəfərdən ibarət İmişli, Cəbrayıl və Sabirabad DİŞ-lərinin əməkdaşlarını mühasirəyə alır. On saatdan artıq davam edən qeyri-bərabər döyüşdə düşmən xeyli itki verir. Azərbaycan polisinin 4 nəfəri həlak olur, 3 nəfəri yaralanır. İ. Əliyev 2 erməni quldurunu məhv edir, özü isə qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

İmişlidə dəfn olunub.

İki övladı qalıb.

## Əzizov Cəfər Məhəmməd oğlu
## *(1971-1993)*

1971-ci ildə Xaçmaz rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra iki il keçmiş sovet ordusu sıralarında əsgəri xidmətdə olmuşdur. Cəfər ordu sıralarından qayıtdıqdan sonra bir müddət rayonda işləmişdir. 1992-ci ilin sentyabr ayından Xaçmaz rayon hərbi komissarlığından səfərbər olunmuşdur. Cəbrayıl batalyonunda vuruşurdu. Bir sıra əməliyyatlarda yaxından iştirak etmiş, təmkinli, mehriban, qayğıkeş, qorxmaz bir döyüşçü kimi tanınmışdı.

1993-cü ilin 23 yanvarında Cəbrayıl rayonundakı Sur postunda düşmən tərəfindən atılan mərmi qəlpəsindən ağır yaralanmışdır. Ağır vəziyyətdə Qaraxanbəyli (Füzuli rayonu) qospistalına aparılmış, bir gün sonra orada vəfat etmişdir.

Qəbri Xaçmaz rayonundadır.

Subay idi.

## Muradov Murad Dövlət oğlu
## *(1970-1992)*

1970-ci ildə Saatlı rayonunun Qolovino kəndində anadan olmuşdu. 1987-ci ildə Bayramovka sovetliyində orta məktəbi qurtarmış, iki il keçmiş sovet ordusunda hərbi xidmətdə olmuşdu. 184№-li texniki-peşə məktəbində traktorçu peşəsinə yiyələnmiş, elə həmin məktəbdə də işləyirdi.

1992-ci il mayın 12-də Saatlı rayon hərbi komussarlığından səfərbərliyə alınmış, könüllü batalyonun tərkibində Cəbrayıl hərbi hissəsinə göndərilmişdi. İyun ayının 28-də keçirilmiş Sur döyüşündə igidliklə vuruşmuş, bir neçə düşmən əsgərini məhv etmişdi.

1992-ci ilin 15 avqustunda Şişqaya uğrundakı döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur.

Ailəli idi. Bir qız övladı yadigar qalıb.

Qəbri Qolovino kəndindədir.



## Qasımov İlqar Məmməd oğlu
## *(1969-1992)*

1969-cu ilin oktyabr ayında Sabirabad rayonunun Qaragüney kəndində anadan olmuşdu. 1986-cı ildə Qaragüney kənd orta məktəbini bitirdikdən sonra Əli-Bayramlı şəhərindəki 15№-li TPM-nə daxil olmuş və məktəbin göndərişi ilə Xarkov şəhərinə oxumağa göndərilmişdi. 1987-ci ildə elə Xarkov şəhərindən bədnam qızıl ordu sıralarına hərbi xidmətə yola düşmüş və 1989-cu ilə qədər Belorusiyanın Qomel vilayətində əsgəri xidmət etmişdir. Artilleriya briqadasında rabitəçi hərbi peşəsinə yiyələnmişdir. Baş serjant idi. Əsgəri xidmətdən qayıtdıqdan sonra 1990-cı ildə Xarkov Dəmiryol İnstitutuna daxil olmuşdur. Torpaqlarımızın düşmən tapdağı altında olduğunu görən İlqar 1991-ci ilin aprelində məktəbi yarımçıq buraxaraq Azərbaycana qayıtmışdır. O, Vətənə gəldiyi gündən Qarabağa getmək arzusunda idi. Hər dəfə televiziya, radio, mətbuat vasitəsi ilə verilən cəbhə xəbərlərini səbirsizliklə izləyir, cəbhəyə getməyə can atırdı. Nəhayət o, 1992-ci il iyun ayının 15-də Sabirabad rayonu hərbi komissarlığına müraciət edir, rayondakı könüllülər batalyonuna yazılaraq birbaşa cəbhə xəttinə-Cəbrayıl rayonuna yola düşür. Cəbrayılda döyüşən batalyonun tərkibində başqa soydaşları kimi İlqar da qanlı döyüşlərə atılır.

Bir neçə əməliyyatlarda iştirak edir. İlqarın son döyüşü 1992-ci ilin 15 avqustunda Şişqaya əməliyyatında olmuşdu. Burada qəhrəmancasına vuruşaraq yeddi erməni banditini cəhənnəmə vasil edir, özü isə alnından güllə yarası alaraq qəhrəmancasına həlak olur.

Subay idi.

Qəbri Əli-Bayramlı şəhərindəki Şəhidlər Xiyabanındadır.

## Əliyev Ramiz Şahnur oğlu
## *(1960-1992)*

1960-cı ilin yanvar ayında İmişli şəhərində 2№-li orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra, 1974-cü ildə Bakı şəhərində19№-li TPM-nə daxil olaraq maşinist peşəsinə yiyələnmişdi. 1977-ci ildə məktəbi bitirdikdən sonra ordu sıralarına getmiş, əsgəri xidmətini başa vuraraq doğma İmişliyə qayıtmışdı. İmişli Lokomotiv Deposunda maşinist köməkçisi işləyirdi.

Erməni quldurlarının doğma torpağımıza qarşı hücumları Ramizi də rahat buraxmırdı. Elə maşinist köməkçisi işlədiyi vaxtlarda neçə dəfə Mehri ərazisində onların özbaşınalıqlarının şahidi olmuşdu. Uzun sürən narahatçılıqdan sonra Ramiz də başqa dostları ilə birlikdə könüllü olaraq ordu sıralarına yazıldı. 1992-ci ilin iyun ayından İmişli rayon hərbi komissarlığı

tərəfindən Cəbrayıl batalyonuna göndərildi. İlk günlər aparılan əməliyyatlarda Ramiz xüsusilə fərlənirdi. Nəhayət, avqustun 15-də onlarca oğullarımızı qanına qəltan edən uğursuz "Şişqaya" əməliyyatına gəlib çatdı. Ramiz bu əməliyyatda da yoldaşlarından seçildi. Döyüşlərdə iştirak etməklə bərabər, yaralıların döyüş meydanından çıxarılmasında yaxından iştirak etdi. Sonra isə yenidən döyüşlərə atılan Ramiz bir daha geri dönmədi. Döyüşdən on bir gün sonra onun meyidi Şişqaya ərazisindən tapıldı.

Subay idi.

Qəbri İmişli şəhərindədir.

**Məmmədov Alış Alışan oğlu**
***(1970-1992)***

17 yanvar 1970-ci ildə İmişli rayonunun Depo məhəlləsinin 81№-li evində anadan olmuşdur. 1977-ci ildə 4№-li məktəbin birinci sinfinə gedib. Məktəbi başa vurduqdan sonra 1988-ci ildə hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Vladovostokda başa vurub. 1990-cı ildə hərbi xidmətdən qayıtdıqdan sonra kənddə dərzi, sonra isə elektrik şəbəkəsində montyor işləyirdi. Lakin erməni quldurlarının torpaqlarımıza təcavüzü Alışı daim döyüşə səsləyirdi. Elə bu istəklə də o, 15 aprel 1992-ci il tarixdə ermənilərə qarşı vuruşmaq üçün könüllü olaraq, Cəbrayıl rayonuna getmişdir. Alış Sur kəndinin erməni quldurlarından təmizlənməsində böyük qəhrəmanlıq göstərmişdi. Alış həmişə döyüşə nədənsə Ramiz ilə qoşa gedərdi. Hər ikisi İmişli rayonundan idi. Tale onların ikisini də bir döyüşə gətirib, bir də apardı.

15 avqust 1992-ci ildə Şişqaya uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olmuşdur.

Qəbri İmişli şəhərindədir. Subay idi.

* * *

***Doğma Azərbaycanımızın bir parçası olan Cəbrayıl torpaqlarının erməni quldurlarından qorunmasında fədakarlıq göstərən şəhid eloğullarımızın sırasında Gəncədən, İmişlidən, Saatlıdan, Sabirabaddan... olan soydaşlarımızın adı da, xatirəsi də bizim üçün həmişə əzizdir. Çox istərdik ki, onların hər birinin həyat yolundan söz açaq. Təəssüf ki, respublikamızın ayrı-ayrı yerlərindən Milli Ordumuzun Cəbrayıl hərbi hissəsində və Daxili İşlər Nazirlyinin daxili qoşunlarında xidmət edərkən bizim bölgədə şəhid olan soydaşlarımızın ailə üzvləri ilə əlaqə saxlaya bilmədik. Müharibə şəraiti ilə əlaqədar şəhid oğullarımızın bəzilərinin şəkillərini və ünvanlarını da əldə edə bilmədiyimizdən onların haqqında məlumat verə bilmədik. Ona görə də bizim günahımızdan keçməyə hazır olan şəhid ailələrindən və oxucularımızdan dönə-dönə üzr istəyirik. Elə bilirik ki, ulu Tanrı özü də bizi bağışlayacaq...***



# QƏM LEYSANI

# *II hissə*

## QƏHRƏMANTƏK DOĞULMUŞDUN...



*Abbasov Şakir Hüseyn oğlu*
*Doğulub - 19.03.1955-ci il,*
*Cəbrayıl rayonu Qaracallı kəndi;*
*şəhid olub - 28.12.1993-cü il,*
*Ağdam rayonu Gullücə kəndi*

«Sağlığında xalqın sevimlisi olanlar öləndə tarixin bəzəyinə çevrilir»- Şəhid Şakirin atası Hüseyn Abbasovun dediklərindən...

Günortaya yaxın Bakıxanov qəsəbəsindəki texniki-peşə məktəbi yataqxanasının qapısı ağzında dayanan minik maşınından hərbi geyimli bir zabit düşüb üstünə yüyürən körpə balalarını bağrına basdı. Bir az aralıda bənəvşə kimi boynunu bükərək dayanan balaca Şərafəddin atasını xatırlayıb kövrəldi. Yadına düşdü ki, onun atası, baş leytenant Şakir Abbasov da hər dəfə cəbhədən evə qayıdanda illər ayrısı kimi balaları Şərafəddini, Cavidi, Nigarı bağrına basıb əzizləyər, onları oxşayardı. Doxsan üçüncü ilin dekabr ayından sonra balalarının yanına gələ bilmirdi Şakir. Uşaqlar babaları Hüseyn müəllimin, nənələri Uraynat xanımın əllərindən yapışıb Bakıxanov qəsəbəsindəki «Şəhidlər Xiyabanı»nda uyuyan atalarının məzarına baş çəkib, onun ruhu ilə görüşməyə gəlirdilər...

Sübh tezdən Salahlı-Kəngərli kəndləri istiqamətində hücuma keçən igidlərimiz qisas almaq istəyi ilə alışıb yanırdılar. Qarşı tərəfdən atılan pulemyot gülləlləri əsgərlərimizə irəliləməyə aman vermirdi. Şakir güllə yağışı altında sürünüb atəş nöqtəsinə yaxınlaşaraq əlindəki qumbaranı oraya atdı. Düşmən pulemyotu susdurulan kimi əsgərlərimiz bir həmlə ilə düşməni geri oturtdular. Döyüşün qızğın çağında Şakir qolundan yaralansa da «boş şeydir» - deyib arxaya qayıtmadı. Birdən ermənilərin sağ tərəfdən irəliləyən tankı və PDM-i göründü. Düşmənin sərrast atəşlə vurulan tankı alovlananda PDM geriyə dönüb aradan çıxdı. Erməni quldurları xeyli itki vermişdilər bu döyüşdə. Bizdən beş nəfər yaralanan var idi. Axırıncı yaralını maşına qoyanda elə bil qəfildən bir parça od basdılar Şakirin kürəyinə. Onun getgedə işığı öləziyən gözlərindən «Haydı igidlərim, haydı irəli, düşmənə aman verməyin, dostlar, qanımı yerdə qoymayın!» ifadələri oxunmaqda idi...



Abbasov Şakir Qaracallı kəndindən idi. İdman müəllimi olan Hüseyn kişi rayonumuzun sayılıb-seçilən adamlarındandır. İllər boyu idmanla ciddi məşğul olub, müxtəlif səviyyəli yarışlardan mükafatla qayıdıb... Dözümdə, bacarıqda atasına çəkmişdi Şakir. O da adlı-sanlı idmançı idi. Əvvəlcə Bakı Bədən Tərbiyəsi Texnikumunu, sonra isə ABTİ-nu bitirmişdi. İdman müəllimi kimi əməlli-başlı xətir-hörməti vardı rayonda.

«Dənizdən dənizə böyük Ermənistan» yaratmaq xülyası ilə yaşayan daşnaqların torpaqlarımıza ilk həmlələri başlayanda əliyalın camaatı ölüm təhlükəsindən qorumaq üçün o da Cəbrayılın qeyrətli oğullarına qoşulub özünümüdafiə dəstələrinə gəldi. Başsız «başçılarımız» elə bil fil qulağında yatmışdılar o vədə. Milli Ordu yaratmaq çağırışlarını qulaqardına vurub, xalqı dözümə, səbrə çağırırdılar onlar. Belə bir vaxtda Şakir əlinə silah götürüb sərhəd kəndlərini düşmən həmlələrindən qoruyurdu...

1991-ci il dekabr ayının 23-də Daşbaşı əməliyyatı baş leytenant, rota komandiri Şakir Abbasova taşpırılmışdı. Əsgərlərimiz güllə yağışı altında irəlilədikcə ətrafda mərmilər partlayırdı. «Haydı, igidlərim, haydı» deyərək əsgərləri ruhlandıran komandir dəstənin önündə gedirdi. Erməniləri qaçmağa məcbur edib, ələ keçirdikləri xeyli döyüş sursatı ilə geri qayıdan əsgərlərimizin sevincinin həddi-hüdudu yox idi. Rotanın igidləri döyüşü itkisiz başa vurmuşdular onda...

Xanış Mehdiyevin (kiçik leytenant) söhbətindən: Şakir kimi igid oğulun ölümü hələ də yandırır məni. Şişqaya, Sur, Şayaq, Göy Gədik döyüşlərində o, özünü əsl komandir kimi göstərmişdi. «Göy Gədik» əməliyyatının başlanğıcında qrantamyotla düşmənin pulemyotunu susdurmuşdu Şakir. Düşmənin movqeyi ələ keçiriləndə gördük ki, rota komandirinin sərrast atəşi ilə xeyli erməni quldurü yerə sərilib. Həmin uğurlu döyüşdən sonra hissə komandiri Şakirə bir radioqəbuledici bağışladı. O, radionu rotanın qərargahına qoyub:

- Bu mükafat əsgərlərə çatasıdır, - dedi. - əsgərsiz komandir nə edə bilər ki... Rafiq Məmmədovun (kiçik leytenant) qeydləri:

Şakirlə birlikdə Sur, Qışlaq, Quşçular, Şayaq, Məzrə, Şişqaya, Qızılqaya istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Köhnə Tağlar ətrafındakı döyüşdə batalyon komandiri kimi öz hərbi ustalığını göstərən bu igid zabit: - əsgər Vətəni qorumalı, lazım gələndə canından keçməyi bacarmalıdır, - deyib əsgərlərimizi düşmən üstünə aparmışdı...

A. Rəhimovun (Sirik kənd sakini) dedikləri:

Baş leytenant Şakir Abbasov il yarım ərzində Sirik və ətraf kəndlərin müdafiəsi üçün özünü oda-közə vurmuşdu. Uşaq da, ahıl da ona arxayın

idi. Hamı bilirdi ki, Şakir ölər, ancaq düşməni yaxın buraxmaz. El-oba qeyrəti çəkən bir oğul idi Şakir. Heyf ki, tez getdi aramızdan...

Döyüşçü dostları Məhəmməd Əhmədov, Yalçın Bəbirov, Natiq Cəfərov, Arzu İbrahimov, İlqar Mustafayev... indinin özündə də ürək dolusu danışırlar Şakirdən. Deyirlər ki, ucaboy, enlikürək, pəhləvan cüssəli bir komandir idi o. Əsgərlərə qarşı tələbkar olsa da, onların üstündə yarpaq kimi əsir, hər işdə obyektiv olmağa çalışırdı...

1993-cü ilin avqust ayında Bakı şəhərinə müalicəyə göndərmişdilər Şakiri. Ayağında aparılan ağır cərrahiyə əməliyyatı onu xeyli müddət yataqdan qalxmağa qoymadı. Cəbrayılın və onun ətraf kəndlərinin işğal olunması xəbərini eşidəndə yarası tam sağalmasa da hərbi xəstəxanadan çıxıb cəbhəyə yollandı. Tale onu Ağdam torpağında axırıncı sınağa çəkdi...

Hüseyn müəllimi, Uraynat xanımı necə ovunduraq, Şakirin sevimli qardaşı Asifə, bacıları - Səfurə, Tovuz, Tahirə, Pərişan, Gülşən, Tehranə və Nərgizə, əmisi Qəşəm müəllimə necə təsəlli verək?! Şakirsiz olan Xalidə xanıma, nisgilli gözləri yollara dikilən Şərafəddinə, Cavidə, Nigara nə deyək ki, dərdlərini unutsunlar. Belə yerdə söz də, qələm də acizdi, vallah. Yaxşı bilirik ki, Şakirin ölümü biz cəbrayıllılar üçün böyük itkidir. O, bizə hələ bundan belə çox-çox lazım idi. Bundan sonra hara getsək ürəyimiz göynəyə-göynəyə Şakirdən söz açacağıq. Harada olsaq Şakirlə bağlı nisgilimiz şeir kövrəkliyinə söykənəcək. İnnən belə Şakirin varlığını dilimizin ucundan qopan misralarda axtaracağıq:

Neçə dəfə oda düşdün,
Qayalardan yoğrulmuşdun,
Qəhrəmantək doğulmuşdun,
Arxa idin yurda, Şakir.

Qara torpaq əzir səni,
Harayımız üzür səni.
Gözlərimiz gəzir səni,
De, hardasan, harda Şakir!

Boylanırsan baş daşından,
Yaşayırsan göz yaşında.
Yurdun qeyrət savaşında,
Bir orduydun, ordu, Şakir...



## QARTALA BƏNZƏRDİN ÖMRÜN UZUNU...



***Abdullayev Zahid Əvəz oğlu***
***doğulub - 22.01.1973-cü il,***
***Cəbrayıl rayonu Daş Veysəlli kəndi;***
***şəhid olub – 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Daş Veysəlli kəndində dünyaya göz açan Zahidin tərcümeyi-halını bacısı Rəsmiyə qələmə alıb. Adi bir şagird dəftərinə sığışan bu yazının hər sətirindən ağrı-acı boylanır. Deyirlər istəkli adamın ölümündən sonra onun barəsində danışmaq çox çətindir. Rəsmiyə bacımızın yazdığı sətirləri oxuduqca qardaş itkisindən göynəyən bir ürəyin niskili bizi də yerimizdən tərpətdi. əvvəli gəlimli, sonu ölümlü bir ömrün yolları ilə irəliləmək heç də asan deyil. Allah adamın heç düşməninə də (söhbət namərd qonşularımızdan yox, mərd düşməndən gedir) oğul itkisi, qardaş dağı göstərməsin. İllah da indiki zamanda. Bir var öz torpağında olasan, yaxın-uzaq başına yığışıb təsəlli verə, əziz bildiyin adamın gor evinə baş çəkib ürəyini soyudasan. Bir də var ki, isti ocağının külünü göyə sovuralar, şəhidə dönən balanın, qardaşının uyuduğu torpağa gedən yollar üzünə bağlı ola. Bundan da müsibətli dərdmi olar dünyada? Rəsmiyə xanımın qardaşından söz açan yazısında da var bu kövrək sətirlər:

- El-obamız yerində olsaydı, nə dərdim var idi. Təkcə Zahid şəhid olmayıb ha, minlərlə ailənin oğlu Vətən yolunda candan keçib. Ancaq dözülməz dərd budur ki, qardaşımın gor evi düşmən əsirliyində qalıb. Sağlığında namərdlərə can verən deyildi Zahid. Neyləsin ki, indi üstündəki bir qarış torpağı yana atıb qəddini dikəldə bilmir. Onun Daş Veysəllidə haray çəkən ruhu ilə təkcə yuxularımda görüşürəm indi...

Biz səni yaxşı başa düşürük, Rəsmiyə bacımız. Elə biz özümüz də yurd həsrəti ilə qovrula-qovrula hər gələn sabahı dan yeri bilirik. Eybi yoxdur, gün gələcək ki, perik düşən ellərimiz yurdlarına qayıdacaq, Mərcanlıda, Qışlaqda, Daşkəsəndə, Soltanlıda, Cəbrayılda şəhid oğullarımızın ruhunu sevindirəcəyik... Ürək ağrısı ilə oxuduğumuz yazıda qardaşın Zahidin ömür

yolunu soraqlamaqdan başqa hələlik nə gəlir əlimizdən. Adamın düşməni güclü olanda Tanrıya üz tutur, ondan imdad istəyir. Ulu Tanrı hamımızın köməyi olsun...

Zahidin əsgərliyi əvvəlcə Ukrayna torpağında keçib. Ancaq o, Qarabağın harayını eşidən kimi Vətənə qayıdıb. Evlərində də çox qala bilməyib, Cəbrayıl torpaqlarını müdafiə edən igidlərin sırasına qoşulub. Doxsan ikinci ilin əvvəllərindən şəhid olduğu günə qədər Sur, Qazanzəmi, Sirik, Quşçular, Banazur, Hərəkül, Dolanlar, Daşbaşı kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Həmişə də alnıaçıq, üzüağ qayıdıb geriyə. Qorxmazlığı ilə seçilib, yoldaşlarının yanında xətir-hörməti olub...

...1993-sü ilin avqust ayının on üçü idi. Zahid evimizə baş çəkib bizimlə görüşdü. Bircə gündən artıq saxlaya bilmədik onu yanımızda. Gedəndə söz verdi ki, üç gündən sonra yenidən yanımıza gələcək. O, dediyi kimi də etdi. Üç gündən sonra onun qanlı cənazəsi qayıtdı üstümüzə. Demə axırıncı görüşdə hər şey Zahidə ayan imiş...

...Zahid Daşbaşı uğrunda gedən deyüşlərdə şəhidlik zirvəsini fəth etdi. İnnən belə Zahidi o ucalıqdan düşürməyə heç kimin qüdrəti çatmayacaq. Deyirlər igid adamlar da qartallar kimi ömrün sonunda zirvə arayır, orada dünyalarını dəyişirlər. Zahid yurd amalını zirvə sanırdı həmişə. Elə bu amalla da əbədi ünvan tapdı özünə:

Söykədin torpağa, qardaş, üzünü,
Vətəni sevimli bir ana bildin.
Qartala bənzərdin ömrün uzunu,
Zirvədə doğulub, zirvədə öldün...



# TALEYİN SON SINAĞI

***Ağayev Ramiz Eldar oğlu***
***doğulub - 31.01.1973-sü il,***
***Cəbrayıl şəhəri; şəhid olub –***
***15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***



Ömrümüzün ən ağrı-acılı vaxtlarını - bizim də payımıza düşən köçkünlük, didərginlik dərdlərini yaşadığımız günlərin birində hamımızın yaxşı tanıdığı rayon istehlak səmiyyətində sürücü işləyən İsaqla görüşdük. Sonra məlum oldu ki, o özü də bizi arayıb, dərdini, ağrılarını bölüşmək istəyib bizimlə...

Eşitmişdik ki, Cəbrayıl uğrundakı son deyüşlərdə İsaqın qardaşı Ramiz də qəhrəmanlıqla şəhid olub. Dərdli qardaşın istəyi bizə aydın idi, «Torpağın qanlı köynəyi» kitabında igid qardaşı Ağayev Ramiz Eldar oğlu haqqında yazı verməyimizi istəyirdi. Ancaq gecikmişdi, kitab artıq çapda idi. Ona söz verdik ki, bütün şəhid həmyerlilərimiz haqqında olan bu qəmli dastanı davam etdirəcək, ikinci bir kitab yazacağıq. O kitabda yenə şəhid oğullarımızdan, taleyinə didərginlik ağrısı yazılmış bütöv ellərimizin, yaralı torpaqlarımızın, dağılmış kəndlərimizin, yandırılmış evlərimizin harayından söz açacağıq...

Bu ağlı-qaralı, gəlimli-gedimli dünyamızın hər addımında bir qəribəlik, bir möcüzə boylanır. İnsan hardasa bənzərsiz yarandığından onun alın yazısı da ovucumuzdakı tale xəttləri kimi sirrini hər yetənə açmır. Hər kəs öz bəxtinə, qismətinə düşən bir baxım işıqdan boylanır bu dünyaya...

Ömrünün şəhidlik zirvəsində Tanrı dərgahına qovuşan Ağayev Ramiz Eldar oğlu da bu ulu dünyanın bir əlçim buludu, bir qarış torpağı və bir də öz ata yurdunun ocaq daşları kimi yanımlı-yatımlı, səsli-hənirli idi. Dünyaya gəlişi ilə ata ocağına bir dünya sevinc, hay-haray gətirmişdi Ramiz. Ulu dağların quzey üzündən boylanan çinarlı Cəbrayıl onun nəzərində kiçik bir əyalət şəhəri deyildi – o taylı-bu taylı Azərbaycanımızın nəğmə ilə döyünən ürəyi idi. Onun aləmində doğma ata ocağından, axşam-səhər zümzüməsi ətrafa yayılan Çinar kəhrizindən başlayırdı Azərbaycan torpağı...

1973-cü ilin 31 yanvarında Yarəhmədli məhəlləsində dünyaya gəlmişdi

Ramiz. Ömrü boyu halal zəhmətlə yaşamış atası Eldar kişinin, anası Güldəstə xalanın gözü qabağında buğum-buğum böyüyüb boya-başa çatmışdı. 1991-ci ildə C.Əhmədov adına şəhər orta məktəbini bitirəndən sonra peşəkar hərbçi olmaq istəyirdi. Elə bu istəklə də Bakıya gəlib sənədlərini ali hərbi məktəbə vermişdi. Məqsədinə nail ola bilmədikdə doğma rayona qayıdaraq hərbi komissarlığa ərizə verib əsgər getmək istədiyini bildirir. 1992-ci ilin iyul ayından Cəbrayıldakı «N» hərbi alayında xidmətə başlayır...

Ramiz ilk günlərdən böyük həvəslə postlara gedir, hərbi işə olan güclü marağı sayəsində tezliklə bütün silahların «dilini» öyrənir, rayona yenicə gətirilmiş ZP-lərin mahir atıcısı olur. 1992-ci il 28 iyunda Sur və 15 avqustda Şişqaya əməliyyatlarında yaxından iştirak edərək, düşmənə qan uddurur. Sonrakı əməliyyatlarda Nüsüs, Quşçular, Sirik postlarında döyüşür...

Ramizin son döyüşü 1993-cü ilin 15 avqustunda Daşbaşı postunda oldu. Onlar 18 nəfər idilər. Bu, o vaxt idi ki, artıq Ağdam düşmən əlinə keçmişdi, Füzuli və Cəbrayılın başı üstünü ölüm kabusu almışdı...

Ramizin qardaşı İsaq o günləri ağır kədərlə xatırlayır:

Avqustun 13-də evə gəlmişdi Ramiz. Ayın 15-də əməliyyat olacağını dəqiq bilirdi, deyirdi ki, əgər 15 avqust əməliyyatından uğurla çıxsaq, Cəbrayılı xilas edə biləcəyik. Ancaq ürəyinə dammışdı ki, nə isə olacaq. Bilirdi ki, orduda nizam-intizam zəifdir, komandirlər postları başlı-başına buraxıblar. Hər yanda özbaşınalıq ayaq tutub yeriyir...

Ermənilər gecə Daşbaşını mühasirəyə alıb postu götürdükdən sonra burada öldürülən 18 nəfərin meyitini yan-yana düzüb zəncirli traktoru onların üstündən sürüb keçmişdilər. Bizə belə gəlir ki, bu iş də xüsusi bir ustalıqla, «sapı özümüzdən olan baltaların» - xəyanətkarların köməyi ilə hazırlanmışdı. Yoxsa ermənilər bu qədər arxayınçılıqla o qanlı faciəni törədə bilməzdilər. Bu xəyanətdən hali olanların üç nəfəri gecə ikən oradan qaçmışdı o vaxt. Döyüşçü dostlarından biri Ramizə deyib ki, gəl aradan çıxaq, bu əməliyyatdan qan iyi gəlir, burada nə isə var. Ancaq Ramiz qüruruna sığışdırıb tərk etməmişdi postu...

Ramizlə birlikdə torpağın müqəddəsliyi uğrunda şəhid olmuş Etibarın, Muradın, Müslümün... meyitlərini Qubadlıdan gələn döyüşçülərin köməyi ilə quldurların əlindən alıb torpağa tapşırdılar. İndi onların gor evləri də doğma torpaqda qəriblik çəkir, bir ana hıçqırtısını, bir bacı fəryadını da çox gördülər onlara...

Ramizin anası Güldəstə xala yanaqlarında sellənən göz yaşlarını siləərək:

- Qəlbimə nəsə dammışdı o vaxtlar, - deyir, - tez evləndirmək istəyirdim Ramizi. Ürəyimdə ona gözaltı da eləmişdim. Bir dəfə dedim ki, qadan mənə gəlsin, bir aya qədər evləndirəcəyəm səni. Acığı tutdu mənə, nə danışırsan, - dedi, - indi evlənmək vaxtıdır? Bəs torpağı kim qorusun, yox belə vaxtda mən toy eləmərəm. Yəni axırı ölüm deyil, torpaq yolunda ölməyin özü də şərəfdir. Bizdən ayrılanda gedib qardaşları ilə görüşdü, elə o gedən də getdi. Güllə düz ürəyinin başına dəymişdi, yarasından öpəndə bildim ki, düşmənə arxa çevirməyib balam. Məni yandıran odur ki, toyuna saxladığım heyvanlar ehsanına da qismət olmadı.



Tanrı ölümqabağı sonuncu dəfə sınağa, imtahana çəkdi Ramizi. O, son nəfəsində də düşməndən aman diləməyib alnıaçıq getdi dünyadan...

## ÖMRÜN SON AKKORDU...



***Abdullayev Elçin Eldar oğlu***
***doğulub - 29.07.1971-ci il,***
***Cəbrayıl rayonu Qumlaq kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Sur kəndi***

Elçinin uşaqlıq illəri Qumlaq kəndində keçmişdi. 1971-ci ildə Sumqayıt şəhərində anadan olsa da, valideynləri ilə birlikdə Qumlağa getmişdi. Daim Arazın kənarında durub uşaq marağı ilə bu başıbəlalı çayın sularına saatlarla tamaşa edərdi. Beləcə doğma el-obaya mehr-məhəbbətlə 1978-1988-ci illərdə Qumlaq kənd orta məktəbində təhsil alıb oranı bitirir.

Elə həmin il Sumqayıt Politexnik Texnikumuna daxil olur. 1989-cu ildə hərbi xidmətə çağırılır. Gəncə şəhərində xidmətini başa vurub yenidən texnikumda təhsilini davam etdirir. Lakin bu illərdə erməni fitnəkarlığı artmağa başlamışdı. Elə buna görə də 1991-ci ildə Elçin Abdullayev Sumqayıt hərbi komissarlığı tərəfindən yenidən hərbi xidmətə çağırılır. Bu dəfə döyüşən orduya, cəbhə bölgələrinə göndərilir. Elçinin ilk döyüşləri Ağdərənin Çıldıran, Sırxavənd, Mehmanə kəndləri uğrunda gedən vuruşlarda olur. Döyüşlərin birində yüngül yaralansa da, az vaxt müalicədən sonra yenidən cəbhəyə yollanır. Bu dəfə Cəbrayıla gəlir, onun döyüş yolları doğma yer-

lərdə keçir. Xeyli müddət Sur postunda döyüşür, həmin vaxtlarda burada keçirilmiş bütün əməliyyatlarda yaxından iştirak edir. Elə ömrünün son akkordları da bu Sur postunda vurulur.

1993-cü ilin avqustu Cəbrayıl torpaqlarına bədbəxtlik gətirdi. Cəmisi bir neçə günün içərisində beş ildən bəri düşmənə qan udduran cəbrayıllılar doğma yerləri ürək ağrısı ilə tərk elədilər. Elə həmin günlərdə Sur ətrafında gedən qanlı döyüşlərin birində Elçin qəhrəmanlıqla həlak oldu. Avqustun 15-i onun ömrünün son günü - şəhidlik günü oldu.

## ZİRVƏYƏ QOVUŞAN ÖMÜR



***Abışov Yaşar Teymur oğlu***
***doğulub - 26.01.1972-ci il,***
***Cəbrayıl rayonu;***
***şəhid olub - 23.04.1994-cü il,***
***Fizuli bölgəsi***

«1972-ci il təvəllüdlü, sıravi Abışov Yaşar Teymur oğlu 706 saylı hərbi hissənin tərkibində xidmətə başladığı ilk gündən özünü əsl Azərbaycan əsgəri kimi tanıtmışdı. Hərbi hissənin apardığı bütün döyüş əməliyyatlarında yaxından iştirak etmiş və bir sıra qəhrəmanlıqlar göstərmişdir...»

Belə deyüşlərdən biri də 1994-cü il 23 aprel tarixində oldu. Füzuli bölgəsinin «Lələ təpəsi» yüksəkliyi uğrunda gedən döyüşlər zamanı Yaşar yeni qəhrəmanlıqlar göstərir və düşmənə amansız zərbələr endirirdi. Bu zaman rabitəçi on nəfər əsgərin mühasirədə qaldığını məlumat verdi. Yaşar ani olaraq tüstü verən şarları götürüb onların mühasirəyə düşdüyü məntəqəyə sarı irəlilədi. Şarları əsgərlərə çatdırıb özü sursat dalınca yenidən geri qayıtdı. Özünü səngərə çatdırmaq məqamında ağır güllə yarası alıb torpağa sərildi. Artıq mühasirədə olan əsgərlər onun köməyi sayəsində xilas olmuşdular. Yaşar həmin əsgərlərin qolları arasında əbədi olaraq gözlərini yumdu. Onun parlaq xatirəsi nəinki öz əsgər yoldaşlarının, eyni zamanda gələcək nəsillərin qəlbində əbədi yaşayacaqdır... Yaşarın bacısı Nuridənin dediklərindən:



– Rayonumuzun süqutundan sonra mən Sabirabadda məskunlaşmışdım. Qardaşım Arazı keçib, iki-üç günlük axtarışdan sonra bizim sorağımızı alaraq yanımıza gəlmişdi. O vaxtlar Cəbrayıl alayı dağıldığından əsgərlər perik düşmüşdülər. Yaşar ertəsi gün bizimlə vidalaşıb Saatlıya, rayon hərbi komissarlığına getdi. Nə illah etdimsə də onu yolundan döndərə bilmədim. Bilsəydim ki, bu axırıncı gedişdir, heç olmasa boyuna gözüm dolusu tamaşa edərdim. Yaşar ölümüylə sinəmizə sağalmaz dağ çəksə də, təsəllimiz odur ki, o, el yolunda şəhid olub. Nə yaxşı ki, dar ayaqda Vətənə arxa olan qala timsallı oğullarımız var. Fəxr edirəm ki, qardaşım Yaşar da onların sırasındadır...

Yaşarın qanlı tabutu Bakıda yaşayan qardaşı Teyfurun evinə gətiriləndə qəfil xəbər hamını sarsıtdı. Onu Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edib qayıdanlar bir el ağbirçəyinin ətürpədən naləsi ilə qarşı-qarşıya dayandılar:

Sən bu elin, obanın
İşığıydın, Yaşarım.
Bir ananın sonuncu
Uşağıydın, Yaşarım.

Fələk qapını kəsdi,
Üstündən yellər əsdi.
Doyunca yaşamadın.
Gor evinə tələsdin...

# NAĞILLARA SIĞAN ÖMÜR



***Ağayev Yunis Babalar oğlu***
***doğulub - 10,05.1968-ci il,***
***Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 02.07,1993-cü il,***
***Xocavənd rayonu Günəşli kəndi***

Sənin iyirmi beş illik ömür yolun nağıla bənzəyir, Yunis! Elə bir nağıla ki, onun əvvəlindən şirinlik, sonuncu kəlmələrindən nisgil yağır dünyamıza. Bu nağılın qəhrəmanı - divlərlə üz-üzə gəlib onları məğlub edən Məlikməmmədi də, mərdi-mərdanə şərin üstə gedən Ağ atlı oğlanı da sən özünsən. Ana südü kimi təmiz, saf olan bu nağıllarda buğum-buğum böyüyüb, ərsəyə çatır, işığın, suyun gözünü tutan əjdahanın üstə gedirsən. Eloğlu, sənin ömür yolunla naxışlanan bu nağılların kövrək sətirlərinə üzümüzü söykəyib onları ağ vərəqlərə köçürməkdən savayı bir hünər görmədik özümüzdə...

## Ömrün ilk nağılı

Bu nağılda sənin uşaqlıq illərin dil açır. Böyük Mərcanlı kəndinin üst tərəfindəki «Düz oba» məhəlləsindən səsin, ünün gəlir qulaqlarımıza. Uşaqlara qoşulub «Gizlən-paç» oynayır, əlinə çanta götürüb məktəbə yollanırsan bu nağılda. Atan Babalar kişinin halal zəhməti sayəsində qayğısız keçən uşaqlıq illərin evinizdən ulu yurd yerlərimiz Pəniyə, Qısıra, Erkək Çalasına, Qumlu Qayaya, Sandıqlıya, Bazarçaya qədər səninlə yanaşı addımlayır. Bu nağılda kəndinizi iki yerə bölən dəmir yolu ilə günçıxandan günbatana baş alıb gedən qatarlara əl edir, kənd klubunun nəmli salonundan «davalı» kinolara baxırsan. Bu nağılda sən evinizin üst tərəfindəki təpələrin döşündə qoyun-quzu otara-otara əllərindən yerə düşməyən kitabları acgözlüklə oxuyur, Füzulinin, Sabirin şeirlərini əzbərləyirsən. Günlə, ayla deyil, ötüşən anlarla böyüyürsən bu nağılda. Atalarımız «nağıl dili yüyrək olur», - deyiblər. Bu nağılın sonunda sən orta məktəblə, sevimli müəllimlərinlə, uşaqlıq dostlarınla vidalaşıb şəhərə üz tutursan...

## Ağıl, kamal sorağında

Burdan belə sənin ömrünün ikinci nağılı başlayır. Həkim qardaşın Alkərəm əllərindən yapışıb özü ilə birlikdə səni şəhərə aparır bu nağılda. Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunanda Alkərəmlə birlikdə qardaşların Eldarın, Əlövsətin də sevinci sinələrinə sığmır. Adın bacıların Tümənin, Durnanın dilindən düşmür. Sən bir çalışqan tələbə kimi gecəni-gündüzə qatıb qalaq-qalaq kitabları vərəqləyir, «dəstədən geri qalmamaq üçün özünü oda-közə vurursan. Bu nağılda sən o vaxtkı Sovetlər birliyinin sərt qanunlarının hökmü ilə ikinci kursda təhsilini yarımçıq qoyub əsgəri xidmətə yollanırsan. İki illik ayrılıqdan sonra tələbəlik həyatın təzədən başlayır sənin. İnstitutu bitirəndə elə bilirsən ki, dünyada səndən bəxtəvər adam yoxdur. Ancaq bu xoşbəxtliyi tale sənə çox görəsiymiş demə. 1992-ci ildə ali təhsil diplomu ilə evinizə qayıdandan sonra imdad diləyən torpaqlarımızın harayı səni rahat buraxmadı. Könüllü şəkildə rayondakı hərbi alayın əsgərləri sırasına qoşulub dağlara çəkildin. Bu nağılın sonundan güllə səsi, mərmi ulartısı gəlir qulaqlarımıza hələ də...

## Sonuncu nağıl

Yox, bu nağıl adi nağıllara bənzəmir, qardaş! Onun hər sətirindən barıt qoxusu, yurd harayı gəlir. Burada sən babamız Koroğlu kimi dumanlı, çiskinli dağlarda nərə çəkir, Nəsimi kimi dözümünə sığışıb əbədiyyətə qovuşursan. Bu nağılda döyüş yolun Surdan, Günəşlidən adlayıb, «Armudlu» postunda dağlara söykənir. Gözlərimizin qabağında qorxu bilməz bir əsgər, dəliqanlı cavanların toplaşdığı bir rotanın komandirinə çevrilirsən. Sən burada Vətəni dəlicəsinə sevən, onun yolunda hər məşəqqətə dözən bir fədai kimi gözlərimizdə ucalırsan. Bu nağıl sənin ülviliyindən, əsgər hünərindən, yurd amalından söz açır. Bu torpağın sinəsində gəzməyə haqqı olan bir insan kimi kamilliyin, bütöv şəxsiyyətin üzə çıxır burada. Yoldaş üçün candan keçməyə hardasa hər an hazır olursan. Döyüşlərdə qorxu bilməz bir igid kimi əsgərləri düşmən üstünə səsləyirsən. Hərbi əməliyyatın qızğın çağlarında ağlın ilə, fəhmin ilə mühasirə halqasını yarmağı təcrübəli bir sərkərdə duyumu ilə götür-qoy edib uğurla sona çatdırırsan...

Təkcə özünü qorumağı, qarşı tərəfdən atılan güllələrdən yayınmağı unudursan bu nağılda...

## Epiloq əvəzi

Sizə təqdim etdiyimiz bu nağılların qəhrəmanı Ağayev Yunis Babalar oğlu 02 iyul 1993-cü il tarixində «Günəşli» postu uğrunda gedən qanlı döyüşlərdə şəhid olsa da onun ömür dastanı hələ təzə-təzə el-obanı dolaşır.

Bu dastan da nağıllardakı qəhrəmanlar kimi əfsanələşir, Mərcanlı torpağında əbədiyyətə qovuşur Yunis...

Bir qəhrəman oğulsan,
Əfsanəsən, nağılsan.
Milyon dəfə doğulsan,
Ellər səni əzizlər,
- Dillər səni əzizlər.

And yerimiz - məzarın,
Təmiz ad, qeyrət varın.
Yurd sevgisi baharın,
Xatirənə söykənən
İllər əzizlər səni
Ey şəhid qardaşımız,
hünərindən söz açıb,
Ellər əzizlər səni...

## YURD HƏSRƏTİ



***Ağayev Sərvan Abbas oğlu***
***doğulub - 11.07.1972-ci il,***
***Cəbrayıl rayonu Əmirvarlı kəndi;***
***şəhid olub - 29.12.1993-cü il,***
***Ağdam rayonu Salahlı kəndi***

Ortaboylu, qarayanız bir oğlan idi Sərvan. 1972-ci ilin iyul ayının 11-də Çəbrayılın Arazboyu kəndlərindən olan Əmirvarlıda dünyaya göz açmışdı. Məşhur riyaziyyatçı, akademik Əşrəf Hüseynov da bu kənddən idi. Kənd məktəbinin aşağı siniflərində oxuyanda məşhur həmyerlisi kimi elmlərə dərin maraq göstərər, müəllimlərinin tapşırıqlarını həvəslə yerinə yetirərdi. Riyaziyyatı ürəkdən sevərək, texniki biliklərə yiyələnər, mütaliəni xoşlayardı. Müəllimləri bu dəcəl oğlanın gələcəyinə böyük ümidlə baxırdılar. Əmirvarlı kənd orta məktəbinin direktoru Nuridə müəllimə bu günlər Sərvanı yana-yana xatırlayıb:

- Çox qabiliyyətli oğlan idi - deyir, - tale ondan heç nəyini əsirgəməmişdi. Hər şeyi öyrənməyə çalışar, böyüyün-kiçiyin yolunu saxlayardı. Heyif ki, namərd gülləsi onu tez yaxaladı...



Sərvan çox yaşaya bilmədi, taledən iyirmi bir illik möhləti, amanı oldu. Ürəyində bəslədiyi qönçə arzularının heç yüzdə birinə də çata bilmədi. Ancaq torpaqlarımızın azad edilməsi üçün candan keçib ömrün şəhidlik zirvəsinə ucaldı. Bu ucalıqsa hər yetənə yox, yurdunu ürəkdən sevən cəsur oğullara qismət olur. Tanrı dərgahına qovuşduğu günə kimi Ağayev Sərvan Abbas oğlu ağrılı-acılı, güneyli-quzeyli bir ömür yolundan ötüb keçmişdir...

Orta məktəbi bitirdikdən sonra oxumağa, təhsilini davam etdirməyə güclü meyl göstərsə də ailələrində böyüyən yeddi uşağın doğurduğu maddi çətinliyə görə şəhərə gedə bilməmişdi Sərvan. Oxumaq qaçmır ha, - deyə özünə təskinlik verib - qismət olsa məktəbə gələn il gedərəm, - demişdi. Ancaq sonrakı illərdə də təhsilini davam etdirə bilmədi.

O vaxt can verməkdə olan imperiyanın hələ gücdən düşməmiş qara caynaqları Sərvanı da bir çox azərbaycanlı balası kimi cənginə keçirib yetmiş il ərzində Vətən deyib böyüklüyü ilə öyündüyümüz SSRİ-nin içərilərinə dartıb apardı. Sərvan burda xidmət etdiyi iki il ərzində qırmızı imperiyanın «xilaskar ordusu»ndakı milli ayrı-seçkiliyin və xalqımıza qarşı günbəgün qızışdırılan iyrənc təbliğatın şahidi oldu.

O, ömrünün iki ilinin hədər yerə sərf olunmasına heyfsilənə-heyfsilənə geriyə dönərkən doğma yurd yerlərini od içində gördü. Bir vaxtlar ulu çinarı ilə, büllur kəhrizi ilə öyündüyü Cəbrayılda evlərin düşmənin atdığı «qrad»larla yanıb qaraldığını görəndə qəzəbdən özünə yer tapa bilmədi. Düşmən mərmilərinin yalquzaq ulartısının artıq Arazboyu obalara da gəlib çatdığı bir gündə - 1993-cü ilin əvvəllərində könüllü olaraq gedib qoşuldu Cəbrayıldakı «N» hərbi hissəsində döyüşən igidlərin cərgəsinə.

Bir müddət Sirik batalyonunun əsgərləri ilə birlikdə rayonun dağ kəndlərini düşmən həmlələrindən qorudu. 1993-cü ilin avqust ayının 23-də Vətən torpağını hərraca qoyub milyardlar qazanan qeyrətsizlərin əli ilə Cəbrayıl şəhəri və rayonun dağ kəndləri düşmənə təhvil veriləndə Sərvanın da ürəyi göyüm-göyüm göynədi. Torpaq təəssübü çəkən igid əsgər yoldaşları ilə birlikdə rayonun Arazboyunda yerləşən torpaqlarını qoruyub saxlamaq üçün düşmənlə ölüm-dirim savaşına çıxsalar da burdakı təsərrüfatların, idarə və müəssisələrin əmlakını satıb-sovanların və qeyrətsiz komandirlərin gizli əməlləri nəticəsində erməni quldurları 1993-cü il oktyabr ayının 24-də dinc əhalini Araz çayına tökdülər...

Cəbrayıl rayonunun işğalından sonra düşməndən qisas almaq eşqi ilə alışıb-yanan Vətən oğulları Gəncə yaxınlığındakı hərbi düşərgəyə toplandılar. Cəbrayıl «N» hərbi hissəsi yenidən təşkil olundu, onun qorxaq və

dəyanətsiz komandirləri ordudan uzaqlaşdırıldı. Bir neçə həftəlik hərbi təlimdən sonra Sərvangilin batalyonu Ağdam torpaqları uğrunda döyüşə başladı. Sərvan istəyirdi ki, tezliklə düşmənə amansız zərbə endirilsin və bütün yurd yerlərimizlə yanaşı, özünün doğulduğu Əmirvarlı kəndi də yağıların caynağından azad edilsin. Elə bu arzu ilə, bu ümidlə də döyüşürdü Sərvan. 1993-cü il dekabr ayının 29-da Ağdamın Salahlı kəndi uğrunda gedən qanlı savaşda şəhid olmasaydı, istəyinə çatacaqdı, ölüm aman vermədi ona...

Dərd gələndə batmanla gəlir, - deyiblər. Abbas kişinin ailə üzvlərinin Cəbrayılın Əmirvarlı kəndindən Mingəçevirə pənah gətirdiyi gündən heç bir ay keçməmişdi ki, oğlu Sərvanın şəhid olmaq xəbəri yetişdi onlara. Oğul dağı görən Abbas kişinin bircə anın içərisində qəddi büküldü, nə edəcəyini bilmədi Tavad ana. Belə ağır bir gündə Mingəçevirin qeyrətli adamları kömək əllərini uzatdılar onlara. Şəhid Sərvan böyük ehtiramla şəhərin «Şəhidlər Xiyabanı»nda dəfn edildi. Şəhər rəhbərliyi, el ağsaqqalı Şirin kişi, xeyirxah adamlar qoymadılar bu ailəni təklənməyə...

İndi o hüznlü günlərdən xeyli keçsə də Tavad ana, Sərvanın qardaş-bacıları hələ də ovuna bilmirlər. Sərvanın gözləri yol çəkən ağbirçək anası arzulayır ki, torpaqlarımız tezliklə azad olunsun. Şəhid Sərvanın nigaran ruhu sakitcə uyusun deyə, Tavad ana istəyir ki, doğma Əmirvarlı kəndinin torpağından bir ovuc oğlunun Mingəçevirdəki məzarı üstünə səpsin. Ancaq ananın uzalı əlləri doğma torpaqlara çatmır hələ. Bu torpaqların tezliklə azad ediləcəyinə Abbas kişi də, onun ailə üzvləri də ürəkdən inanırlar. İndi şəhid Sərvanın özündən kiçik qardaşı Mübariz də igid əsgərlərimizin cərgəsindədir. Mübariz deyir ki, Allah qoysa qardaşım Sərvanın və onun şəhid dostlarının qisasını alıb geriyə qələbə ilə qayıdacağam. Biz özümüz də o müqəddəs günü intizarla gözləyir və inanırıq ki, igid oğullarımızın hünəri sayəsində tezliklə geriyə dönüb ata ocağımızın işığını gur yandıracağıq...



# ELVİN ŞƏHİD BALASIDIR



***Allahverdiyev Yusif Zeynalabdin oğlu***
***doğulub - 06.08.1968-ci il,***
***Cəbrayıl rayonu Söyüdlü kəndi;***
***şəhid olub - 12.05.1994-cü il,***
***Tərtər rayonu***

Heyf Yusif kimi oğullarımızdan. Həyat belələrini Vətən qeyrəti çəkməkdən ötrü yaradır.

Anası ölmüş nə yaşadı ki... Barı dünyaya gələn Elvin balasının üzünə doyunca da baxa bilmədi.

Deyirlər o, gün yaralı şir kimi döyüşürmüş Yusif. Düşmən Tərtərin Qaraqoyunlu kəndi ətrafında ağır texnikanın köməyi ilə igidlərimizi sıxışdıranda o qrantamyotla bir düşmən tankının külünü göyə sovurub.

O qanlı döyüşdə başından, boğazından və axırda da sinəsindən ağır yara alıb. Tabutunu gətirən əsgərlər danışırdılar ki, sonuncu nəfəsinə kimi ayağını geri qoymayıb Yusif. Ölməzdən qabaq bir neçə erməni quldurunu cəhənnəmə göndərməklə özü öz qisasını alıb.

Rəhmətlik bizim Cəbrayılda da cəsarətlə vuruşurdu. Rayonun dağlıq ərazisinin işğalı zamanı düşmənin üç yaraqlısını məhv etmişdi.

Deyirlər 1993-cü il avqustun 29-da əmisi Məhəmmədəlini duşmənlər öldürəndən sonra and içmişdi ki, dığalara aman verməyəcək. Kişi kimi axıracan sözünün üstündə durdu...

Söyüdlü Cəbrayılın kiçik dağ kəndlərindəndir. Tumas dağının quzey üzündə, yaşıl dərələrin boğazında yerləşir bu kənd. Buz kimi soyuq bulaq suyu, yaşıl meşələri, yalçın qayaları var Söyüdlünün. Aşıq Abdullayla onun ailə ocağını şöhrətləndirən tanınmış xanəndə Zahid Quliyevlə fəxr eləyir bu kəndin adamları. İnnən belə Səyüdlünün şəhid oğlu Yusifin adı da yaşayacaq onların qan yaddaşında...

Allahverdiyev Yusif altmış səkkizinci ilin uşağı idi. Zeynalabdin kişinin səkkiz övladı arasında onun öz xətiri, öz yeri var idi. Orta məktəbi qurtardıqdan sonra oxuyub sürücü olmuşdu. Əli çörəyə təzə-təzə çatan vaxtlarda Odessa şəhərinə əsgəri xidmətə göndərmişdilər onu. Vətənə qayıdan kimi Sumqayıtdakı elektrik şəbəkəsi idarəsində düz üç il sürücü işləyib ailəyə

əl tutmuşdu. Ürəyi təmiz, istiqanlı bir oğlan idi Yusif. Ata-anasının, bacı-qardaşlarının and yeri, ömür-gün yoldaşı Arifənin ümidi, dayağı idi o. Doğma torpaqlarımızın başı üstünü ölüm təhlükəsi alanda Yusif dinc peşəsi ilə vidalaşıb el-obamızın müdafiəsinə yollandı. Bir müddət Qazanzəmi, Söyüdlü cavanları ilə birlikdə Tumas atanın qala misallı qayalarının arxasına sığışıb yurda keşik çəkdi. Ermənilərin azğınlaşdığını görəndə kişi qeyrəti ilə onların qarşısına çıxdı. Rayonun dağətəyi torpaqları satqınların xəyanəti nəticəsində düşmən əlinə keçəndə Araza tərəf çəkilib polis işçisi olan qardaşı Bayramla, Cəbrayılın yurd qeyrəti çəkən igid oğulları ilə bir sırada dayandı...

Cəbrayılın Xudafərin soraqlı yurd yerləri də düşmən tapdağı altında qalandan sonra Yusif Sumqayıta pənah gətirən doğmaları ilə görüşüb onları ovundurmağa çalışıb. On beş gün qabaq burda dünyaya göz açan körpə Elvinin süd qoxulu dodaqlarından öpüb, yenidən cəbhəyə yollandı Yusif...

İstəkli balasının ölümündən sonra ağlamaqdan gözlərinə zülmət çökən Fatma ana deyir ki, nə illah elədimsə Yusifi yolundan saxlaya bilmədim onda. Dedim oğul, qurban olum, onsuz da Bayramdan ötrü əlim ürəyimin başında qalıb. Vətən qeyrəti çəkmək təkcə sənin payına düşməyib ha. Onsuz da əmin 'Məhəmmədəlinin ölümü atanın belini ikiqat edib. Qal, külfətini, əlsiz-ayaqsız ata-ananı dolandır. Qoy, indi də gəlib başqaları vuruşsunlar. İynə atsan yerə düşməz alverçinin əlindən Sumqayıtda. Məgər bu Vətən onların da deyilmi? Nə isə... Çox yalvarıb-yaxardım, inadından döndərə bilmədim Yusifi. Yola düşməzdən qabaq üz-gözümdən öpüb könlümü aldı:

- Ay ana, - dedi, - yadında saxla ki, oğrunun, cibgirin Vətəni olmur. Vətən kasıbların, halallıqla çörək yeyənlərindir. Ona görə də onu mənim kimi kasıb balaları qorumalıdır...

Doxsan dördün may ayının əvvəllərində erməni quldurları, Tərtər bölgəsini ələ keçirmək üçün hücuma keçdilər. İgid oğullarımız o qanlı döyüşlərdə düşmənin gözünün odunu alıb onları geriyə sıxışdırdılar. Qeyrətli oğullarımıza şan-şöhrət qazandırsa da ölümsüz-qansız keçmədi bu döyüşlər. Tərtərdə dünyasını dəyişənlərdən biri də Yusif oldu. Onu Sumqayıtın «Şəhidlər xiyabanı»nda dəfn etdilər.

Böyüyəndə Elvin atası Yusifin adı ilə fəxr edəcək. Şəhid balası olmaq hər yetənin qismətinə düşmür. Tanrının əli şəhid balalarının kürəyində olsun...



# QARTAL ÖMRÜ...



***Alekseyev Arif Turab oğlu***
***doğulub - 20.09.1952-ci il,***
***Cəbrayıl rayonu Quycaq kəndi;***
***şəhid olub - 02.07.1993-cu il,***
***Xocavənd rayonu Quşçular kəndi***

Zirvəyə can atan, əngin səmalara qovuşmaq amalıyla yaşayan bir insan idi Arif. Uca dağlar, dumanlı, sisli bəyaz zirvələr idi onun məskəni. Dağlara qalxanda üfüqdən-üfüqə uzanan ana torpağın tamaşasından doymazdı. Dar ayaqda hamıya əl uzatmağı, dərdli-nisgilli adamları ovundurmağı bacarırdı o. Yanımlı ata, istəkli ər idi - üç qız balasının xətrinə həyatda kipriyi ilə od götürmüşdü. Yaxşı yoldaş, sədaqətli dost, vicdanlı işçi idi, - rayon avtonəqliyyat müəssisəsində dilindən acı söz eşitməmişdilər onun. Yuxarı Mərcanlıdan olan sürücü dostu Zaman Quliyev indinin özündə də ürək yanğısı ilə danışır ondan:

- Rayon internat məktəbinin həyətinə (o vaxtlar Cəbrayıl hərbi hissəsi burada yerləşirdi) düşən «qrad»ın qəlpələri məni ölümcül hala salanda ilk dəfə harayıma yetənlərdən biri də Arif oldu. Onun başımın üstündə dayanıb hönkür-hönkür ağlamağı yadıma düşəndə indi də ürəyim sıxılır. Heç ölməli oğul deyildi Arif, Allah ona rəhmət eləsin!..

Deyirlər insan dar ayaqda tanınır, qəlbinin görünməyən tərəfləri üzə çıxır. Kimisi Vətən sevgisi ilə, kimisi lənətlənən adı ilə qalır yaddaşlarda. Diri ikən unudulanları, canlı meyit kimi ötüb keçən günlərin arxasınca sürünənləri az görməmişik həyatda...

Ölümündən sonra Tanrı dərgahında əbədiyyətə qovuşmaq istəyi ilə, təzədən doğulub Arif. Bundan belə özü ilə yox, işıqlı xatirəsi ilə, zaman-zaman yaddaşlarda «göyərən» şəhid adı ilə görüşəcəyik onun...

Dünyanın düz vaxtlarında əməlli-başlı yaşamaq istəyi ilə çox şeylərə nail olmuşdu - rahat mənzil, Məlahət bacı kimi sədaqətli ömür-gün yoldaşı, su sonası kimi üç qız balası var idi. Gecə-gündüz özünü oda-közə vurub, sükandan yapışan əlləri ilə halal ruzu qazanırdı onlara.

Arifi müharibə adlı əjdahanın üstünə aparan hansı duyğu idi? Şöhrət qa-

zanmaq istəyimi, sürücü yoldaşları arasında fərqlənmək arzusumu, gizli bir niyyətə söykənən şəxsi maraqmı? Yox, bu cür hisslərdən uzaq idi, belə şeyləri eyninə də gətirmirdi heç. Sadəcə olaraq namuslu, vicdanlı bir adam olduğundan hadisələrə soyuqqanlıqla baxa bilmirdi. Gözünün qabağında yandırılıb dağıdılan yurd yerlərimizin, öldürülən insanların naləsi həyatının sakit ritmini pozmuşdu onun. Yaşanmış illərdən təkcə mənalı anlar qalır insanın yadında. Bu meyarla yanaşanda Arifin ömrünün məna tutumu qibtə hissi oyadır adamda.

Rusiyanın Yaroslavl şəhərində sona çatan əsgəri xidmət illərində yüksək dərəcəli radio-teleqrafçı kimi tanınıb.

Rayondakı SES-də və avtonəqliyyat müəssisəsində bacarıqlı sürücü hesab ediblər onu...

Vicdanlı işçi olduğundan medallarla, fəxri-fərmanlarla təltif olunub, pul mükafatları alıb...

1991-ci ilin may-iyun aylarında Cəbrayılın dağlıq zonasındakı yaşayış məntəqələri ilə qonşu olan ondan artıq erməni kəndinin quldurlardan boşaldılmasında fəal iştirak etmişdi...

Polis işçilərinin, əsgərlərin döyüş postlarına çatdırılmasında müstəsna xidmət göstərmişdi...

Dəfələrlə ölümün cəngindən salamat çıxmışdı Arif. Gah atılan güllələr ondan yan keçmiş, gah maşını ilə üstündən adlayıb keçdiyi minalar hardasa bir az gec partlamış, gah da yaxınlığında torpağa sancılan mərmilərdən çevikliyi xilas etmişdi onu...

Ağ yol, Şişqaya, Sur əməliyyatlarında əsgərlərimizlə çiyin-çiyinə döyüşmüşdü. Tanrı o vaxtlar həyatdakı savab işlərinə görə ölümün ağzından salamat qurtarmışdı Arifi. Daşbaşı, Zamzur, Mülkədərə kəndlərində dönə-dönə güllə yağışı altında əsgərlərimizə əl uzadıb, yaralıların həyatını xilas etmişdi. Vaxt tapıb evə gələndə qız balaları - Ramilə, Zəhra, Samirə boynuna sarılırdılar onun...

Doxsan üçüncü ilin iyunundan Milli Ordunun əsgərlərinə qoşulub:

- Daha sizdən ayrılan deyiləm, - demişdi Arif. Kişi kimi sözünün üstə durub son nəfəsinə kimi torpaqlarımızı fədakarlıqla qorudu...

Quşçular kəndi uğrunda qanlı döyüşlər gedirdi o gün. Xeyli şəhid olan, yaralanan var idi orda. Arif Mehman Quliyevin və Vaqif Səfixanovun idarə etdikləri BRD-nin hədəfə alındığını görüb irəli atıldı. Polis rəisi Vaqif Məhərrəmovun:

- Arif, səni vurarlar, getmə! - sözləri də inadından döndərə bilmədi onu. Özünü döyüş maşınına yetirib yoldaşlarının harayına çatdı. BRD-dən yağdırılan güllələr düşmən mevqeyini susdurduqca Arifin qələbə əzmi artıb çoxalmaqda idi. Döyüşün qızğın çağında qarşı tərəfdəki «NRS» idarəetmə



qurğusundan atılan atəş igidlərimizin üçünü də qanına boyadı. Ariflə Mehmanın yaraları ağır olduğundan vertalyotla Bakıya yola saldılar onları. Arif səmanın maviənginliklərində dəyişdi dünyasını. Qartal kimi zirvəyə can atıb, şəhid kimi zirvələşən qeyrətli bir eloğlumuz sevdiyi ana torpaqdan çox-çox yuxarıda gözlərini yumdu həyata. Qartallar zirvədə doğulub, zirvədə köçür dünyadan - deyiblər. Arif qartal ömrü yaşadı bu dünyada:

Şöhrət igidlərin
Ömür yelkəni,
Həyatın mə'nası
Kim deyər nədir?
Şəhidlik ucalıq
Şəhidlik həyat
Şəhidlik ucadan
Uca zirvədir...

Bundan sonra səsi həmişə zirvədən gələcək, bizi oradan salamlayacaq Arif...

## «TİQANA» OD PARÇASIYDI



***Alıyev Samir Qədir oğlu***
***doğulub - 09.06.1977-çi il,***
***Cəbrayıl rayonu Qaracallı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Banazur kəndi***

Kənddə «Tiqana» deyib çağırırdılar onu. Sonralar elə bu adla da tanınmışdı Samir. Tanrı xoş çağlarında yaratmışdı onu, dəcəl, diribaş, bir az da ötkəm uşaq idi Tiqana. Qaracallı kəndində uşaqdan böyüyə hamı onun barəsində təbəssümlə danışırdı. Yaşıdları qibtə ilə, həsədlə baxırdılar ona...

Ermənilər torpaqlarımıza təcavüz edəndə on bir yaşının içində idi Tiqana. Cəbrayılın qeyrətli oğulları düşməndən müdafiə olunmaq üçün könüllü dəstələr düzəldəndə Tiqana da onların yanına ayaq açdı. Onun hər

şeylə maraqlanması bəzilərində təbəssüm doğursa da, çoxlarının xoşuna gəlmədi. Düşündülər bu yaşda uşağın ölüm saçan «oyuncaqlara» tərəf can atmasının axırı yaxşı qurtarmaz. Sonra di gəl cavab ver, bu uşağın yiyəsinə. Ona görə də Tiqanaya sərt üz göstərənlər, döyüş zonasından qovanlar oldu. Bəziləri üz-gözündə uşaq təbəssümü dolaşan bu balaca oğlanın saçlarına sığal çəkib:

- Qəqəni, get dərslərini oxu, böyüyəndə belə işlərlə məşğul olarsan, - dedilər. Elə bil daş qayaya rast gəlmişdi. Tiqàna deyilənləri qulaq ardına vurub əsgərlərin yan-yörəsində hərlənir, fürsət tapanda silahları əlinə götürüb əsgərləri təqlid edirdi. Cəbhədəki əsgərlərin yavaş-yavaş üz-gözləri öyrəşirdi Tiqanaya. Daha onu yanlarından qovmasalar da, atəş tutan yerlərdən uzaq tutmağa çalışırdılar. Əsgərlərin etibarını qazanan bu balaca oğlan artıq öz işində idi. Əvvəlcə gizli-gizli göz qoyduğu hər cürə silahdan atəş açmağı öyrəndi, sonra əməlli-başlı döyüşçüyə çevrildi. Günlər keçdikcə səngərləri, döyüş postlarını gəzib dolaşan Tiqana güllə yağışı altında bərkiyib buğum-buğum böyüdü. Döyüşlərin qızğın çağında Tiqana simurq quşu kimi əsgərlərin dadına çatardı. Kimisinə patron, kimisinə bir içim su verir, yaralıların meydandan çıxarılmasına kömək edirdi. Neçə dəfə kəşfiyyata çıxan əsgərlərə yalvarıb-yaxarandan sonra onlara qoşulub düşmənin beş-on addımlığına qədər gedib çıxmışdı. Tiqana tapdığı düşmən minasını zərərsizləşdirməyi ən təcrübəli əsgərdən də yaxşı bacarırdı. Döyüşçülər onu ürəkdən sevir, qayğısına qalırdılar...

Elə bil od parçası idi Tiqana. Əskərlərə deyirdi ki, hazırlaşın yığışıb Hadrutun üstə gedək. Bizim Cəbrayıl torpağına bəla ordan gəlib. Sonra da dumanın, çənin çəkildiyi vaxtlarda Şayaqın güclə seçilən zirvəsinə tərəf əlini uzadıb:

O xarabanı ala bilsəydik, ermənilərin axırına çıxardıq, - deyərək balaca yumruğunu düyümləyərdi...

Şayaq yüksəkliyi ölüm kabusu kimi Cəbrayılın başı üstündə dayanıb bizi hədələməkdə idi o vaxt. Tiqana hərdən uşaq sadəlövhlüyü ilə komandirlərə deyirdi ki, mənə bir bölük əsgər verin, gedib Şayaqdakı erməniləri əsir tutub yanınıza gətirim. Onun sözlərini təbəssümlə qarşılayan əsgərlərin qeyrət damarları cuşə gəlirdi belə vaxtlarda...

Tiqana döyüşə ilk dəfə 1992-ci ilin sentyabr ayında girdi. Əməliyyatdan qabaq, indiyə qədər onu döyüş meydanından çəkindirənlərə açıq-aşkar «nota» verəsi oldu.

- Daha bəsdir, - dedi Tiqana - indiyə qədər arxada saxlamısınız, köməkçi hesab etmisiniz məni. İnnən belə məni döyüş meydanına yaxın buraxmasanız, özüm bilirəm neyləyəcəm...



Tiqananın özünün bildiyi o idi ki, Vətənin dar günündə uşaq da, böyük də vuruşmalıdır düşmənlə. Döyüşdən qabaq balaca «Qəqəni»nin «etiraz notası» öz işini gördü. Komandir məcbur olub onun döyüş gedən zonaya buraxılmasına razılıq versə də gizlində əsgərlərə bərk-bərk tapşırdı ki, Tiqananı gözdən qoymasınlar. Döyüşün qızğın çağlarında bu balaca oğlanın yağış kimi səpələnən güllələrin altında səngərdən səngərə atıldığını görəndə hamını heyrət bürüdü. Güllə yağışı altda ora-bura qaçan Tiqana V. Hüqonun balaca qəhrəmanı Qavroşa bənzəyirdi. Yan-yörəsinə düşən qəlpələr, qulağının dibindən vıyıldayıb keçən güllələr vecinə deyildi onun...

Arxada anası Aminə, bacıları Xanımzər, Minəzər intizarla gözləyirdilər onu. Atası Qədirin Tiqana sarıdan əli ürəyinin üstündə qalmışdı. Yeganə oğlunun odun-alovun içərisindən gələn söz-söhbətlərindən xoşlansa da nigarançılıqdan yaxa qurtara bilmirdi...

Tanrı dahiləri və bir də igidləri az yaşadır, onlara sitəm edir, - deyirlər. Tiqana dahi kimi doğulmasa da, igid kimi tanınmışdı. Ölüm aman versəydi, qələbə gününə kimi cəbhədən ayağını çəkən deyildi. 1993-cü ilin avqust ayının 15-də Banazur ətrafında gedən döyüşlərdə son nəfəsinə kimi düşmənlə vuruşub şəhid oldu bu balaca əsgər. Samir adıyla doğulub Tiqana adı ilə əfsanələşən Qaracallı balası dar ayaqda Vətəndən canını əsirgəmədi. O, Tanrının möcüzəsi, od parçası idi. Qeyrəti ilə döyüş meydanlarında əfsanələşən Tiqana unudulan, yaddan çıxan deyil...

# MUROVDAN GƏLƏN SORAQ



*Alışov Rövşən Veysəl oğlu*
*doğulub – 28.01.1975-ci il,*
*Cəbrayıl rayonu Çapand kəndi;*
*şəhid olub - 20.04.1994-cu il,*
*Murov bölgəsi*

*Sevmişəm, Murov, səni,*
*Verməræm girov səni.*
*Od alsa dağın, daşın –*
*Söndürməz qırov səni...*

İlk dəfə başı qarlı Murova qədəm basanda Rövşənin qəlbindən keçən bu sözlər dilində nəğməyə dönmüşdü. İlk dəfə qarlı aşırımları, sazağı-şaxtası ilə adamı heyrətə salan Murov dağı Rövşəni özünə elə cəlb etmişdi ki, sözlər onun dilində uc-uca düyülmüşdü:

- İlahi, gör Vətənimizdə necə də gözəl yerlər varmış. Burdan baxanda Azərbaycanımızın az qala hər bir bucağını görmək olar. Niyyətin gözündə qalsın, ay dığa, iştahan pis deyilmiş. İstisuyu, Ceyran bulağını, Dəlidağı qara div kimi udandan sonra indi də deyəsən Gəncəyə, Tərtərə, Goranboya tamah salırsan. Gözlə boğazında qalar torpaqlarımız...

Rövşənə o gün elə bil Tanrı tərəfindən şairlik təbi verilmişdi. Ağ çalmalı yalçın qayalar, buz salxımlı çeşmələr, əsgər çəkmələri ilə naxışlanan cığırlar onu elə məftun etmişdi ki, buraya az qala nədən ötrü gəldiyini də unutmuşdu:

*Murov dağı, eşit mənim səsimi,*
*Sinən üstə od olmağa gəlmişəm.*
*Arxamdadır Qoç Koroğlu, Nəsimi –*
*Döyüşlərdə ad almağa gəlmişəm.*

*İstisuda qatlayaram dizimi,*
*Kəlbəcərdə oda vurram özümü.*
*Mən Keytidə deyəcəyəm sözümü, -*
*Qucağında şad olmağa gəlmişəm...*



Yastı təpələrin qoynundakı Çapand kəndində doğulan Rövşən qarlı-sazaqlı Murovun xilası üçün buraya gəlmişdi. O inanırdı ki, üçrəngli bayrağımız Murovda, Dəlidağda, Keytidə dalğalandığı gün doğma Cəbrayıla zəfərlə dönəcək, doxsan üçüncü ilin payızından perik düşən el-obası ilə yenidən kəndlərində görüşəcəkdir.

Doğma yerlərin həsrəti qəlbini qubarlandırdıqca Rövşən silaha daha möhkəm sarılır, erməni dığalarının zağalarını sərrast nişan almağa çalışırdı. Ailələrinə Rövşən barəsində tez-tez xoş soraqlar çatır, onlar qorxmaz əsgər balalarının yurdsevərliyi ilə təsginlik tapırdılar...

Əslində Rövşən Alışov əsgəri xidmətə yollandığı ilk gündən ailələrinin üzünü ağ etmişdi. Qusar şəhərindəki təlim-məşq toplanışını uğurla başa vurub serjant rütbəsi qazanmışdı. Doxsan üçüncü ilin payızında Füzuli bölgəsindəki uğurlu döyüşlərdə də fərqlənmiş, Horadiz qəsəbəsinin alındığı gün sevinci sinəsinə sığmamışdı...

Murovdan xoş xəbərlər gəlməkdə idi. Milli Ordumuzun əsgərləri Dəlidağa sarı irəliləməkdə idilər. Hamı Kəlbəcərin bu gün, sabah azad olunacağından danışırdı. Qəfildən qara yellər əsdi elə bil. Kimlərinsə xəyanətləri qeyrətli əsgərlərimizin uğurlarını puça çıxartdı. Rövşənin də ölüm xəbəri belə ağır günlərdə yetişdi bizə. O, Vətən uğrunda canından keçib, Murovun bir parça daşına döndü...

# VƏTƏNDƏ VƏTƏN HƏSRƏTİLƏ

***Abdullayev Şükür Həsən oğlu***
***doğulub - 1970-ci il,***
***Ermənistan SSR; şəhid olub –***
***15.11.1991-ci il,***
***Xocavənd bölgəsi, Zamzur kəndi***



Qan yaddaşımıza soyqırım kimi həkk olunan 1988-ci il dekabr hadisələri zamanı Şükürgilin ailəsi də yağıların qana batmış caynağından güc-bəla ilə qurtularaq, baş götürüb tarixi vətənləri Azərbaycana pənah gətirmişdilər. Ailə keçmiş Hadrut rayonunun Hərəkül kəndində yerləşdirilmişdi. Burada həyat şəraiti, güzəran qurmaları üçün on-

lara mümkün olan hər şey edilirdi. Qəlbən incik düşmüş didərgin qardaş-bacılarımız özlərini qərib saymırdılar. Cəbrayıl çamaatının onları öz doğmaları kimi qəbul edib həyan durması, ürəkaçıqlığı Şükürgilə toxtaqlıq verir, qəblərini isindirirdi. Min bir tellə bağlandıqları torpaqdan yana-yana ayrılan bu binəsib insanlar əzizlərinin uyuduqları, canlarından da çox sevdikləri yurdlarını bir an belə unuda bilmirdilər. Buz kimi diş göynədən bulaqları, başı göylərə dəyən vüqarlı dağları, geniş, güllü-çiçəkli həyət bağları yadına düşəndə Şükürün ürəyi sızıldayır, onları bu günə salanlara sonsuz nifrəti aşıb-daşırdı.

Nə yazıqlar ki, taleyinə didərginlik yazılmış ailənin indi-indi öyrəşdiyi təzə yurdda da rahatlığı uzun çəkmədi. Erməni quldurlarının təxribatları, iriçaplı silahlardan kəndlərimizi atəşə tutmaları qaçqın yurddaşlarımızın həyatlarını yenidən təhlükə altına aldı. Qəlbi intiqam hissilə döyünən Ş. Abdullayev Cəbrayıl Rayon Rolis Şöbəsinə gəlib kollektivə qəbul olunmasını xahiş etdi. Şöbənin rəisi V. Məhərrəmov qaynarbaxışlı gənci başdan-ayağa süzüb: - Qoçaq oğlana oxşayırsan, sənin kimi qeyrətli cavanlara hələ çox ehtiyacımız olacaq, - dedi...

Onun daxil olduğu polis bölməsinə strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Zamzur kəndini erməni quldurlarından qorumaq tapşırılmışdı. Hadrutun yaxınlığında yerləşən yaşayış məntəqəsinə terrorçular tez-tez basqınlar edir, əvvəlki mövqelərinin bərpa olunmasına çalışırdılar. Bölmənin üzvləri yağıların məqsədlərini yaxşı başa düşürdülər. Ona görə də düşmən həmləsinin qarşısını almaq üçün kəndin bütün giriş-çıxış nöqtələrini nəzarətdə saxlayırdılar. Görünür Şükürgil erməni hiyləgərliyini kifayət qədər qiymətləndirə bilməmişdilər. Fürsəti fövtə verməyən düşmənlər onların gözləmədikləri istiqamətdən böyük qüvvə ilə qəfil hücuma keçərək kəndi mühasirəyə aldılar. Vəziyyətin ağır olduğunu hiss edən polis əməkdaşları sözü bir yerə qoydular: - Bir addım da geri çəkilməyəcəyik, son patron qalanadək döyüşəcəyik. Qanlı döyüş xeyli çəkdi. Bizimkilər özlərini köməyə yetirəndə artıq iş-işdən keçmişdi. Şükür Həsən oğlu Abdullayev və onun iki polis silahdaşı qəhrəmancasına həlak olmuşdular.

Ş. Abdullayev Zəngəzurun, Göyçə mahalının qisasını almaq istəyirdi. Əfsuslar olsun ki, istəyini sona çatdıra bilmədi. 21 yaşında, həyatının ən qaynar çağında Vətənində Vətən həsrəti ilə Şəhidlik zirvəsinə ucaldı. Rahat yat Şükür, qoca tarix şahiddir ki, zaman-zaman yadelli işğalçıların hücumlarına məruz qalan torpaqlarımız onların son döyüş meydanı olub. Sözsüz bu dəfə də belə olacaq. Ərazimiz erməni işğalından azad ediləcək. Sənin kimi igid oğullarımızın qəhrəmanlıqlarını minnətdarlıq hissi ilə xatırlayacaq, ruhuna rəhmət diləyəcəklər.



## ÜRƏYİNİ MƏŞƏL ETDİ



***Aslanov Elçin Gəray oğlu***
***Doğulub - 1967-ci il,***
***Hadrut rayonu, Haxullu kəndi;***
***Şəhid olub - 15.11.1991-ci il,***
***Xocavənd bölgəsi, Zamzur kəndi***

Murdar ayaqları Qarabağ torpağına dəydiyi gündən nankor qonşular digər ərazimizdə olduğu kimi Haxullunun ətrafındakı kəndlərdə də dinc durmur, altdan-altdan öz məkrli işlərini görür, fürsət düşən kimi zəhərli xəncərlərini arxadan kürəyimizə sancmağa hazırlaşırdılar.

Elçin Aslanov Sovet ordusu sıralarından tərxis olunub doğma yurda dönəndə vəziyyət dəyişmişdi. Ətraf kəndlərin ermənilərinin Haxullulara qarşı əvvəlki münasibətlərində həddindən artıq soyuqluq hiss olunurdu. Əlaqələr az qala kəsilmək üzrə idi. Elə bil illərlə Haxulluların qapısında sülənən heç bunlar deyilmiş. Elçin hərdən keçmiş rayon mərkəzi olan Hadruta yola düşəndə bu soyuqluğu daha yaxından hiss edirdi. İstər dövlət idarələrində, istərsə də küçədə hamı ona qanlı-qanlı baxır, hədə-qorxu gəlirdi. Eşitdikləri, şahidi olduğu hadisələr ona yuxu kimi görünsə də məsələnin ciddiliyini dərk edir, öz-özünə fikirləşirdi ki, deyəsən bu xına o xınadan deyil. Əgər qudurub yolunu azmış nadürüstlərin bədnam hərəkətlərinin qarşısı alınmasa, axırı yaxşı olmayacaq.

E. Aslanov yanılmamışdı. Daşnaq yuvası olan Hadrutda əvvəllər cavanlar çox seyrək nəzərə çarpdığı halda son vaxtlar burada Yerevandan, xaricdən gəlmə çoxlu saqqallılar toplaşmışdı. Başqa sözlə, Hadrut hamının gözü qarşısında qan ocağına çevrilmişdi. İnsan cildinə girmiş bu vəhşilər vaxtaşırı Azərbaycan kəndlərinə basqınlar edir, şuluqluq salırdılar. Erməni quldurlarının zərərsizləşdirilməsində o zaman polis əsas qüvvə idi. Ona görə də torpaqlarımızın müdafiəsində yaxından iştirak etmək üçün Elçin xüsusi təyinatlı polis dəstəsində işləməyi üstün tutdu. Elçin 1991-ci ilin baharında Zamzur kəndində təşkil olunmuş polis bölməsində xidmət edərək burada məskunlaşmış əhalinin mühafizəsində yaxından iştirak etdi. Kənddə əsasən Ermənistandan zorla qovulmuş didərgin soydaşlarımız yerləşdirilmişdi. Yağılar bununla heç cür barışmaq istəmirdilər. Hər an təhlükə göz-

lənirdi. Düşmənin fitnəkarlığının qarşısı dəfələrlə alınsa da sonuncu dəfə bu, mumkün olmadı. Qeyri-bərabər döyüş başlandı. Zamzur kəndi hər tərəfdən mühasirəyə alındı. Elçingil möhkəm dayanmışdılar. Erməni faşistlərini yaxın buraxmırdılar. Cəsur polis əməkdaşları səngər seçdikləri binanın od tutmasına baxmayaraq oranı tərk etmədilər. Alovun onları bürüyən dilləri arasında atəş aça-aça son nəfəslərinədək döyüşdülər. Ürəklərini məşələ çevirərək didərgin soydaşlarımızın yollarına işıq saçdılar ki, onlar yağıların əllərinə keçməsinlər.

Ömrünün 24-cü baharında həyatdan nakam köçüb əbədiyyətə qovuşan Elçin Gəray oğlu Aslanovun nəşini doğma Haxullu kəndinə gətirib burada dəfn etdilər.

## AĞAYEV ELDƏNİZ MAQSUD OĞLU



***Ağayev Eldəniz Maqsud oğlu***
***doğulub - 01.06.1975-ci il,***
***Cəbrayıl rayonu, Süleymanlı kəndi;***
***Şəhid olub - 16.08.1995-ci il, Tərtər bölgəsi***

Süleymanlı kəndində anadan olmuşdu. Ailənin tək övladı idi. Süleymanlı kənd orta məktəbini bitirmişdi. 1994-cü ildə əsgəri xidmətə çağrılıb. Goran poliqonunda, Neftçalada hərbi təlimdə olandan sonra Tərtər döyüş bölgəsinə göndərilib. Bir müddət burada xidmət etdikdən sonra öz xahişi ilə Naftalan bölgəsinə dəyişilib. Buradakı növbəti kəşfiyyatların birində ağır yaralanaraq bir gün sonra vəfat etmişdir.



## O YAŞAMAQ İSTƏYİRDİ

***Aslanov İnqilab Məhəmməd oğlu***
***doğulub - 31,05.1973-cü il,***
***Cəbrayıl rayonu, Kavdar kəndi;***
***şəhid olub - 31.12.1993-cü il,***
***Ağdam bölgəsi***



Dünyaya yaşamaq üçün gəlmişdi İnqilab. Bir evin sevinci, bir istəyin bar çiçəyi, bir ananın ümidi, gələcəyi idi o. Yastı təpələrin quzey üzündəki Kavdar kəndindən üzü Araza baxanda yaşıl vadinin təkrarsız gözəlliyindən ürəyi dağa dönürdü adamın. Doğulduğu torpağın mehrinə uşaq kimi sığınanlardan biri də İnqilab idi. Kənd məktəbində oxuyarkən ağlına da gəlməzdi ki, tale onu sınağa çəkəcək, bir elin harayına səs verib, silaha sarılacaq, ömrün şəhidlik zirvəsində dayanıb duracaq o. Bu bir alın yazısı idi - onu Tanrıdan savayı oxuyan tapılmayıb hələ. Bu bir ömür qisməti idi - bu qəzavü-qədərin hökmü, fərmanı idi...

Qismətdən, taledən qaçmaq olmaz, - deyib ulularımız. Demə, İnqilab doğulandan ömrünün yarımçıq qırıldığı günə addımlayırmış. Hardan biləydi ki, qismətinə iyirmi illik ömür möhləti düşəcəkmiş. Bəlkə də yaşamaq istəyi güclü olduğundan insan öləcəyinə heç vaxt inanmır. Ən zillətli günlərdə belə bir tikə ümidə söykənib yaşamaq istəyir. Ömrü boyu torpağın hərarətindən, günəşin nurundan, təbiətin saflığından doymayıb insan...

İnqilab da yaşamaq istəyirdi. İstəyirdi ki, Kavdar kəndindən onun da səsi-həniri gəlsin. İstəyirdi ev-eşik sahibi olub təmiz bir məhəbbətə söykəsin üzünü. İstəyirdi ki, ata olsun, ixtiyar çağlarında «baba» deyə çağırsınlar onu. İllər uzunu yaşamaq istəyirdi İnqilab. Ancaq Vətən torpağında yağılar at oynadanda sakit keçən günləri ilə vidalaşıb ölümün üstünə yollandı. Ölümlə tutaşmaq, onunla kəllə-kəlləyə gəlmək hər oğulun işi deyil. Ölümün gözünə dik baxmaq üçün gərək cəsarətin ola. İgidlik özü də Allah vergisidir. Tanrı onu hər yetənə yox, qeyrəti ilə xalqını, millətini ürəkdən sevənə verir. İnqilab ana deyib işığından, havasından, suyundan bəhrələndiyi torpağı ilahi sevgisi hesab edirdi. Çoxlarını həyatda yaradıb xoşbəxt edən bu sevgidən ona da pay düşmüşdü. Təzə-təzə boyu çıxan bir vaxtda cəbhəyə ona görə getmişdi ki, düşmən gülləsi bu yurdun bütövlüyünü yaralayıb, el-obanı ağlar qoymasın...

Doxsan ikinci ilin iyun ayında Cəbrayıl batalyonunda hərbi xidmətə başlayanda İnqilabın bəxtindən əsgər yoldaşları qeyrətli olduqları qədər də istiqanlı idilər. Soltanlıdan olan Rantiklə, Qaracallı balası Abbasov Şakirlə, qışlaqlı vzvod komandiri Verdiyev Soltanla bircə həftənin içərisində dil tapıb dostlaşmışdı İnqilab. İnqilab hər dəfə icazə alıb Kavdardakı evlərinə gələndə özü ilə bir neçə əsgər dostunu da gətirərdi. Anası boyuna tamaşa etməkdən doymurdu onun. Bəlkə də oğlunu günlərin birində itirəcəyini fəhmlə duyub, anlayan ana onun işıqlı çöhrəsini gözlərinə köçürmək istəyirdi...

Erməni quldurları Cəbrayıla diş qıcıdanda İnqilab da silahdan yapışıb Quşçular, Süleymanlı, Horovlu, Quycaq... postlarında sübhü dirigözlü açırdı. Yoldaşları deyir ki, Süleymanlı kəndi uğrunda gedən döyüşlərin qızğın çağında atəş aça-aça irəliləyən iki düşmən tankının məhv edilməsində İnqilab da cəsurluq göstərib. Sentyabr ayının axırlarına yaxın Quycaq ətrafında doqquz saat gedən qanlı döyüşdə erməni quldurlarının ələ keçirmək istədikləri bir yaralı əsgərimizi xilas edəndən sonra İnqilab yoldaşlarının gözlərində qəhrəman kimi böyüyüb...

Cəbrayılın ağır günlərində ordudakı başıpozuqluq ürəyini göynədirdi İnqilabın. Alay komandirinin fərsizliyi ucbatından əsgərlər arasında fərarilik edənlərin sayı günbəgün artmaqda idi o vaxtlar. İnqilab doğma el-obanın yaman günündə başqaları kimi daldada baş girləməyi şəninə sığışdırmırdı. Elə ona görə də əsgərlərimiz mövqelərini tərk edib Arazın o üzü ilə İmişliyə üz tutandan bir neçə gün sonra təzə toplanış yerinə gəldi...

Doxsan üçün payızında İnqilabgilin dəstəsi Gəncəyə üz tutdu. Burada keçirilən təlimdən sonra gücü, qüvvəsi özlərinə qayıdan əsgərlərimiz yaralı yurd yerlərimizin qisasını almaq üçün düşmən üstünə atılmağa məqam gəzirdilər...

Ağdam bölgəsinə çavuş rütbəsi ilə gəlmişdi İnqilab. Salahlı yaşayış məntəqəsi ətrafında gedən döyüşlərdə o da cəsarətlə döyüşür, düşməndən şəhid oğullarımızın qisasını almağa çalışırdı...

Yeri-göyü lərzəyə salan o döyüşdə İnqilab Eldənizlə, Əliylə birgə şəhid oldu. Doxsan üçüncü ilin otuz bir dekabrı idi onda. Yeni ilə cəmisi bircə addım qalırdı o gün...

İnqilabı Daşburun qəsəbəsinin qəbiristanında dəfn etdilər. Kavdarın ilk şəhid balasının ölümündən xəbərsiz olub oraya gələ bilməyənlərin əvəzindən təbiətin özü hönkür-hönkür ağladı o gün. Bu haqsız ölümdən Tanrıya asi düşən buludlar göylərin dili ilə ağı deyirdi elə bil:

*Bu dağlar, ulu dağlar,*
*Çeşməli, sulu dağlar.*
*Burda bir qərib ölüb,*
*- Göy kişnər, bulud ağlar...*



## GÖY KİŞNƏR, BULUD AĞLAR...

***Bayramov Qədir Kərim oğlu***
***doğulub - 10.01.1966-cı il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam rayonu, Salahlı kəndi***



Ömrün ahıl çağlarında oğul itirmək ağır dərddir, Kərim kişi. Sən Qədirin ölüm xəbərini eşidənəcən yurd ağrı-acıları ilə yaşayırdın. Heç ağlına da gətirməzdin ki, bu tezliklə Tanrı sənə oğul dağı göstərə. Onda hələ İsmayıllı rayonunun Qubaxəlilli kəndinə təzəcə sığınmışdın. Bu yerlərin füsünkar gözəllikləri qəlbindəki yurd həsrətini silə bilməsə də, yerli camaatın qayğıkeşliyi dərdlərini ovundururdu. Qəriblikdə külfətini başına yığıb təzəcə təskinlik tapırdın ki, Qədirin tabutu üstünə yollandı. Demə, Tanrı səni doğma yurddan uzaqlarda sınağa, imtahana çəkəcəkmiş...

Mərcanlı camaatı səni gözü-könlü tox bir insan kimi tanıyır, ehtiramını gətirərdi. Hər yerdə qorxub çəkinmədən sözü üzə şax deməyin də var idi. Qədirin qanlı cənazəsi qəlbini parça-parça edəndə də sözünü daldalamadın. Varlığın qədər inandığın o gözəgörünməz müqəddəs Tanrıya üzünü tutub:

- Kərəminə şükür, ay Allah, - dedin. - Biz sənə neyləmişdik ki, başımıza bu müsibəti gətirdin? Öz dərdim özümə bəs idi, bir yandan da oğul dağı çəkdin sinəmə...

İsmayıllı camaatı Kərim kişinin ailə üzvlərini darda qoymadılar o gün. Vətən yolunda şəhid olan Qədiri Qubaxəlilli kəndi doğma övlad kimi bağrına basdı. Kərim kişi camaatın yanımını görüb müdrik ağsaqqal kimi dilləndi:

- Eldən əskik olmayın, ay camaat. Sizin qayğınızı görəndə elə bildim ki, balamı Mərcanlı camaatım yerdən qaldırır. Elimə qurban olum, o hər yerdə yıxılana dayaqdır...

O gün Qubaxəlillidən olan bir el ağbirçəyi Qədirin təzəcə qazılan gor evinin bir addımlığında dayanıb dilində göyərən ağıları ilə qəbiristana gələnləri kövrəltməkdə idi:

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.

Burda bir qərib yatır,
Göy kişnər, bulud ağlar.

Mərcanlım, harda qaldın,
Yurd yerim, darda qaldın.
Ay mənim Qədir balam,
Düşüb məzarda qaldın...

Kərim kişinin uşaqları içərisində Qədir ən fərasətlisi idi. Hansı sənətdən desən baş çıxarırdı. Yaxşı sürücü, qabiliyyətli çilingər, bacarıqlı traktorçu idi Qədir. Bir vaxtlar Qazaxıstanda əsgərlikdə olarkən bənnalığı, suvaqçılığı da tamam-kamal öyrənmişdi. Evlərinin divarlarına elə naxışlar vurmuşdu ki, baxan hayıl-mayıl qalırdı. Doxsanıncı illərdə Bakıya gedib Neft daşlarında işləyəndə də el-obasını bircə gün unutmamışdı. Çox yanımlı, istiqanlı bir oğlan idi. Yoldaşları başına and içirdilər onun. Bacıları Elmiranın, Səfurənin gözlərinin işığı, and yeri idi...

Cəbrayılın ən çətin günlərində Neft daşlarındakı işini buraxıb səngərə sığınmışdı Qədir. Doxsan üçün avqust ayı idi onda. Düşmən Balyand aşırımından, Qala dağından adlayıb Araza tərəf üz tutduqca camaatın arasında bir vahimə dolaşmaqdaydı. Cəbrayıllı igidlər sonuncu güclərini toplayıb düşməni Quycaqdan, Çapanddan, Fuğanlıdan, Kavdardan aşağı buraxmırdılar. Günlərin birində içimizdə göyərən xəyanətə söykənən erməni quldurları Qədirgilin dəstəsini Araz boyunda da sındırdılar...

O payız günündə ev-eşiklərini qoyub qürbətə üz tutanların ah-naləsi Arazın bulanıq sularına dəyib çiləndi...

Qədirgilin hərbi hissəsi İran səmtdən keçib İmişliyə çatandan sonra o, İsmayıllıda məskunlaşan ailələrinin görüşünə getdi. Orada ağır xəstələndiyindən bir müddət Ağsu rayon xəstəxanasında yatmalı oldu. Azacıq sağalan kimi Cəbrayıl hərbi hissəsinin Seyfəlidə yerləşdiyini eşidib oraya yollandı...

Ağdamın Salahlı-Gəngərli kəndləri uğrunda gedən döyüşlərdə düşmən gülləsi Qədirin həyatına son qoydu. Tale ömrünü yarıda qoysa da, ölüm ona şəhid adı qazandırdı. İnnən belə bu adla yaşayacaq, zaman-zaman xatırlanacaq Qədir.

Neçə vaxtdır ki, Mərcanlıda doğulub İsmayıllı torpağında uyuyan bu igid əsgərin ruhu Tanrı dərgahına qovuşub. Fəqət Qubaxəlilli ağbirçəyinin dilində dolaşan sözlər indi də bizi yandırıb-yaxır:

Göy kişnər, bulud ağlar...



# SUYUNDAN İÇƏYDİM «ÇOBAN BULAĞI»

***Bayramov Azər İsib oğlu***
***doğulub - 03.07.1972-ci il,***
***Cəbrayıl rayonu, Yuxarı Mərcanlı kəndi;***
***şəhid olub - 19.03.1994-cü il,***
***Horadiz bölgəsi***



Yuxarı Mərcanlı kəndində dünyaya göz açmışdı Azər. Taleyinə düşən bir dadım uşaq sevincinə, yaşamaq istəyinə və bir də atası İsib kişinin, anası Gülyetər bacının övlad məhəbbətinə sığınıb, buğum-buğum böyüməkdə, boy atmaqda idi. Doğulduğu kəndin qürub səmtində sıralanan təpəliklərin üstə qalxıb ilk dəfə üfüqdən-üfüqə uzanan ellərimizə baxanda heyrətdən donub qalmışdı Azər. Yovşan ətirli Cüllab düzü, yamyaşıl Araz vadisi, Cəbrayıldan o üzdə günəşin qüruba endiyi yerdə qarlı zirvəsi açıq-aydın görünən Ziyarat dağı dünyanın ən böyük möcüzəsi kimi görünmüşdü ona. Yuxarı Mərcanlının gündoğan səmtində dağların ətəyi ilə qıvrıla-qıvrıla uzanıb gedən Araz çayının tamaşasından doymamışdı Azər onda. Evlərinin üç yüz addımlığında, yamacın döşündən qaynayıb çıxan Çoban bulağı al günəşə boylandıqca sübh şəfəqlərinin saflığına boyanmaqda idi Azər...

Yuxarı Mərcanlı kənd orta məktəbində oxuduğu illərdə qeyri-adi uşaq təsiri bağışlamasa da, sinif yoldaşları Arifdən, Müslümdən, Ruqiyyədən, Solmazdan, Minayədən... hardasa fərqlənib seçilirdi. O vaxtlar gözlərinin dərinliyində nədənsə gizli bir nisgil var idi onun. Sinifdən-sinfə adladıqca sarışın sifətindən mehribanlıq yağmaqda idi. hamıya qarşı diqqətli, yanımlı idi Azər. Yaşıdları ilə səmimi davranır, muəllimləri ilə ədəb-ərkanla görüşürdü. Zəhmətkeş ailədə doğulduğundan bir çətən külfəti qabarlı əlləri ilə dolandıran atası İsib kişini dünyanın ən halal adamı hesab edirdi. Böyüdükcə üzərində addımladığı torpağı əzizləməkdə, onun hikmətinə üz tutmaqda idi...

Orta məktəbi bitirəndən sonra təhsilini davam etdirmək üçün sinif yoldaşları kimi şəhərə üz tutmamışdı. Qonşu Füzuli rayonunun Qarğabazarı kəndindəki texniki peşə məktəbində sürücülük peşəsinə yiyələnmişdi. Və bundan sonra əsgərlik həyatı başlamışdı onun. 1989-cu ilin iyun ayından Gürcüstanda əsgəri xidmətdə idi Azər. İki illik əsgəri xidmət ona çox şeylər

öyrətmişdi. Buradakı hərbi hissənin maşınlarından biri ilə tez-tez yollara çıxsa da doğulub boya-başa çatdığı doğma yerlərin həsrəti ilə yaşayır, evlərinə qayıdacağı günü səbirsizliklə gözləyirdi...

1988-ci ilin fevralından sonra Cəbrayılın təlatümlü günlərinin sonu görünmürdü. Azər doğma yurd yerlərinə qayıdanda el-obaları nizamı pozulmuş gördü. Gündüzlər və gecə sübhə kimi Balyand aşırımından ta Çulluya kimi uzanan rayon ərazisində top-tüfəng səsindən torpaq lərzəyə gəlirdi...

Onda hələ Cəbrayılın qeyrətli oğulları öz torpaqlarımızı göz bəbəyi kimi qorumaqda idilər. Süleymanlı, Qışlaq, Daşbaşı, Sirik, Dolanlar, Qazanzəmi postlarında düşmən qarşısını kəsən əsgərlərimiz kürək-kürəyə dayanıb yurda keşik çəkirdilər...

1992-ci ilin iyulunda ata-anasının xeyir-duası ilə toy edib qonşu qızı ilə vüsala yetən Azər Vətənin ağır günündə gendə dayanmağı qüruruna sığışdıra bilmədiyindən dumanlı dağların sinəsindəki səngərlərə sığınan igidlərin sırasına qoşuldu...

Doxsan ikinci ilin payızından sonra Sur, Qışlaq və Süleymanlı kəndləri ətrafında gedən döyüşlərdə dəfələrlə iştirak etmişdi Azər. 1993-cü ilin avqust ayında Cəbrayıl rayonunun dağlıq zonası düşmən əlinə keçdiyi günlərdə ayağından qəlpə yarası almışdı. O vaxtlar əsgər dostlarının fədakarlığı sayəsində döyüş meydanından çıxarılandan sonra iki ay Beyləqanda müalicə olunmuşdu...

Yarası sağalandan sonra yenidən cəbhəyə qayıdan bu igid oğlan bir müddət Ağdam ətrafında gedən döyüşlərin iştirakçısı oldu. 1994-cü ilin əvvəllərində Milli Ordumuzun Horadiz istiqamətində apardığı uğurlu əməliyyatlarda qeyrətlə vuruşan Azər Bayramov düşmən çaynağında inləyən doğma Mərcanlının külü göyə sovrulan evlərinə tərəf boylandıqca ürəyi sızlamaqda, qəzəbdən yumruqları düyülməkdə idi...

1994-cü ilin 19 mart günü al günəşin şəfəqləri ilə isinməkdə idi. Arxların üstündəki salxım söyüdlərin yenicə açan kövrək yarpaqları asta-asta titrədikcə perik düşən Arazboyu obalardan qəm-qüssə boylanırdı dünyamıza. Novruz bayramına cəmisi ikicə gün qalırdı onda. Çəbrayılın düşməndən yenicə azad edilmiş Cocuq Mərcanlı kəndi ətrafındakı postda dayanıb Lələ təpədə sığınan erməni quldurları ilə üz-üzə dayanan Azər kim bilir onda nə düşünürdü? Bəlkə də İmişli rayonu ərazisindəki çadırlarda müsibət çəkən doğmalarının yanında idi fikri. Dayandığı yerin cəmisi üç kilometrliyindəki evlərinə gedən yolun düşmən kəməndinə düşməsindən ürəyi sızlayırdı onun. Ata-anasını, üzünü doyunca görmədiyi ömür-gün yoldaşını düşündükcə başının tükləri biz-biz olurdu...



Birdən elə bil gözlərində şimşək çaxdı Azərin. Lələ yüksəkliyindən atılan düşmən gülləsi bircə anın içində qanına boyadı onu...

Qanlı dodaqları susuzluqdan çat-çat idi. İşığı öləzimekdə olan gözlərinin qabağında «Çoban bulağı»nın bir parça sal daşı dayandı. Daşın üstündəki:

Yaxşı əməl bu dünyada,
Yaşayacaq aram-aram.
Əyri yola üz tutanlar,
Suyum olsun sizə haram!

- misralarını canıyla çəkişə-çəkişə xatırlayanda «Su... su...» kəlmələrini söyləyərək baxışını bir anlığa göylərə dikdi və...

Azərin dəfnindən yeddi gün sonra üzünü innən belə heç vaxt görə bilməyəcəyi bir qızı dünyaya gəldi. Adını Nişanə qoydular onun. Körpə Nişanə şəhid atasının nişanəsi, yadigarı kimi böyüyəcək bu dünyada. Tanrı qıymasın ona...

## VƏTƏN SƏNİ UNUTMAZ



**Bayramov Cəmşid Balaqardaş oğlu doğulub - 08.03.1973-cü il, Bakı şəhəri; şəhid olub - 02.07.1993-cü il, Cəbrayıl rayonu, Süleymanlı kəndi**

1995-ci ilin əvvəllərində bizə dedilər ki, bir şəhid anası sizi axtarır. Nəhayət, günlərin bir günü həmin qadınla Dövlət Teleradio Verilişləri Şirkətinin qarşısında rastlaşdıq. Adı Firuzə idi, Bakı şəhərində yaşayırdı. Bir qədər söhbətdən sonra məqsədini açıqladı: eşitmişəm Cəbrayıl şəhidləri haqqında kitab yazırsınız. Mənim oğlum Cəmşid Bakıda yaşasa da, Cəbrayıl torpaqları uğrundakı döyüşlərdə həlak olub. İstəyirəm həmin kitabda mənim oğlum barədə də yazasız, qəbri də burada - Şəhidlər xiyabanındadır. Dərdli ananı bir qədər ovundurub sonra onunla bərabər Şəhidlər xiyabanına getdik. Cəmşidin qəbrini ziyarət etdik. Başdaşından şəkli

boylanırdı: qarayanız bir oğlan idi. 1973-cü ilin martıda Bakıda anadan olmuşdu. Ağlı kəsəndən onu canından artıq sevən nənəsi Ətirin yanına - Biləsuvar rayonuna getmiş, V sinfə qədər orada – Ş. Qurbanov adına orta məktəbdə oxumuşdu. Nənəsinin yanında olarkən kəndə, kənd həyatına, onun əsrarənkiz gözəlliklərinə o qədər alışmışdı ki, Bakıya qayıdandan sonra da bu illərin həsrətini çəkirdi. Müəllimləri şəhərdən kəlmiş bu dəcəl oğlanın gələcəyinə böyük ümidlə baxırdılar. V sinifdən sonra Cəmşid yenidən Bakıya qayıdıb 70 saylı orta məktəbdə, sonra isə 19 saylı texniki peşə məktəbində oxudu.

Cəmşid təhsilini davam etdirmək, ali təhsil almaq arzusunda idi. Lakin onu Rusiyaya hərbi xidmətə apardılar. Cəmşid orada bir ilə yaxın vaxt ərzində xalqımıza qarşı edilən ayrıseçkiliyin, özbaşınalıqların şahidi oldu. Bu vaxtlar artıq Azərbaycanda qanlı döyüşlər gedir, say-seçmə oğullar Vətən torpağı uğrunda şəhidlik zirvəsinə ucalırdılar. Cəmşid ömrünün bu bir ilinin hədər yerə sərf olunmasına heyfsiləndiyi vaxtlarda sevimli dostları Etibarın və Rüfətin Qarabağ döyüşlərində şəhid olduqlarını eşidəndən sonra daha heç bir qüvvə onu sovet ordusunda saxlaya bilmədi. Təcili Bakıya gəldi, dostlarının məzarını ziyarət etdi. Sonra könüllü olaraq cəbhədə - Cəbrayıldakı «N» hərbi hissəsində xidmətə başladı. Bir müddət Süleymanlı, Qışlaq, Quşçular kəndlərinin müdafiəsində, ən əhəmiyyətli əməliyyatlarda yaxından iştirak etdi, rayonu, onun kəndlərini düşmən hədəfindən qorudu. 1993-cü ilin yanvarında ayağından yaralandı, yarası tam sağalmasa da yenidən cəbhə dostlarının yanına qayıtdı. Cəbrayıl cəbhəsindən Cəmşidin və onun döyüş dostlarının yaxşı soraqları gəlirdi, onlar düşmənə qan uddururdular...

Ancaq atalar deyib ki, sən saydığını say, gör fələk nə sayır. Cəmşid və onun kimi yüzlərlə qeyrətli oğullarımız nə biləydilər ki, içərimizdə olan düşmənlər ermənidən də artıq bir məkrlə, xəyanətlə öz işlərini görürlər. Və belə xəyanətlərin nəticəsində gül üzlü torpaqlarımız növbə ilə düşmənə təhvil verilirdi. Buna görə idi ki, beş il düşmənə əzmlə, mətanətlə sinə gərmiş Cəbrayıl torpaqlarının müdafiəsi də get-gedə zəifləyib heçə enirdi. Cəmşid və onun döyüş dostları isə söz vermişdilər ki, son damla qanımıza qədər ana torpağın müdafiəsindən geri çəkilməyəcəyik.

Elə bu inam, bu istəklə də 1993-cü ilin iyul ayının 2-də düşmən hücumlarının qarşısını alarkən Süleymanlı kəndində mühasirəyə düşüb qəhrəmancasına həlak oldu Cəmşid. İndi Cəmşid Bakıda - Şəhidlər xiyabanında, evlərinin yaxınlığında uyuyur. Tez-tez bacı və qardaşları, anası Firuzə elə buradaca onun görüşünə gəlirlər. Cəmşidin ölümünü eşidən Ətir nənə də elə o vaxtdan iflic olub.



Cəmşid çox yaşaya bilmədi. Taledən 20 illik amanı, möhləti oldu onun. Ürəyində bəslədiyi qönçə arzuların heç yüzdə birinə də çata bilmədi. Ata adının işığında da doyunca sığına bilməmişdi, atası da həyatdan cavan getmiş, anası Firuzə bacının qayğısı, min bir əzabı sayəsində böyümüş, ərsəyə gəlmişdi. Vətənə layiq oğul kimi böyüdüyünə görəydi ki, torpaqlarımızın azad edilməsi üçün candan keçib ömrün şəhidlik zirvəsinə ucaldı. Bu ucalıq hər yetənə yox, yurdunu ürəkdən sevən cəsur oğullara qismət olur. Yurdunu ürəkdən sevənləri isə Vətən unutmaz heç vaxt...

## YURD YANĞISI



**Balakişiyev İsgəndər Baloğlan oğlu**
**doğulub - 23.11.1966-cı il,**
**Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;**
**şəhid olub - 28.12.1993-cü il,**
**Ağdam rayonu, Güllücə kəndi**

Deyirlər ulu Tanrı sevdiyi bəndələrini sınağa, imtahana çəkir. Oddan, alovdan keçirir onları. İsgəndər Allahın üzüyola bəndələrindən idi. Ağsaqqalın, ağbirçəyin ehtiramını gətirər, harada olsa özünün-sözünün yerini bilərdi. Hamının işinə yaramağa, uzanan əldən yapışmağa çalışırdı. Dilindən «yox» kəlməsi eşidən olmamışdı onun.

Böyük Mərcanlı kəndində mayası halallıqnan qoyulan bir ailədə böyümüşdü İsgəndər. Ata babası Xankişi Müsavatın igid əsgərlərindən olmuş, 1918-1920-ci illərdə Qarabağa diş qıcırdan daşnaklara qarşı vuruşmuşdu. İsgəndəri hamıdan artıq istəyirdi Xankişi baba. İgid nəvəsinin ölümündən cəmisi il yarım qabaq dünyasını dəyişib Mərcanlı qəbiristanlığında əbədiyyətə qovuşmuşdu. Onda hələ erməni qəsbkarları - NBŞ səsi Balyand dağlarının, Şiş qayanın, Ağ yolun o üzündən gəlirdi. Onda hələ İsgəndər idarə etdiyi traktorun sükanından yapışıb yollara çıxır, əkin-biçinə can atırdı...

İyirmi yeddi ilə yaxın bir ömür yaşasa da həyatın hər üzünü görmüşdü İsgəndər. Orta məktəbi bitirəndən sonra düz iki il sovet ordusu sıralarında

qulluq etmişdi. Bu iki il onu qaya kimi bərkitmiş, qüvvəsini, dözümünü sınaqdan çıxarmışdı...

Sonralar atası Baloğlan kişinin sənətini - traktorçuluq peşəsini çörək ağacı seçmişdi özünə. İstəyirdi ki, o da atası kimi el-obaya arxa, dayaq olsun. Traktorunun səsi, sədası Gəyən çölündən, Cüllab düzündən eşidilsin. İşlədiyi kolxozda yaxşı xətir-hörməti var idi. Getdiyi yerdən əli dolu qayıdar, tapşırılan işi can-başla yerinə yetirərdi. Cavanların sayılıb-seçiləni, toyların yaraşığı idi İsgəndər. Gülərüzlü, baməzə bir oğlan idi, atasından keçmişdi bu xasiyyət ona.

Harsın oğulları torpaqlarımızda kabus kimi görünən gündən hadisələri diqqətlə izləyir, cəbhəyə getməyin məqamı çatdığını hiss edirdi.

1993-cü ilin Novruz bayramı ərəfəsində traktorunu kənd yolunun üst tərəfindəki maşın parkında saxlayıb evə yollandı. Həyətlərinin giriş qapısı ağzında anası Tərgül qarşısına çıxdı:

- Bıy, başıma xeyir, ay İsgəndər, piyada niyə gəlmisən, bəs «köhlənin» harda qalıb?

- Ana, traktorumla halal-hümmət edib vidalaşmışam. Günü sabahdan, cəbhəyə gedəcəyəm.

- Ağrın alım, bəs xəstə atanı, yoldaşın Kəmaləni, körpə balan Şamili kimin umuduna qoyursan?

- Yaxşı bilirsən ki, onları hamıdan artıq istəyirəm, ana. Ancaq vəziyyət elədir ki, burada qalıb baş girləsəm töhmət yeri olaram. Fikir verirsənmi, ermənilərin atdıqları güllələr Araz boyuna, kəndimizə gəlib çatmaqdadır. Belə bir vaxtda Vətənin mənim kimi oğullara ehtiyacı var...

Tərgülün ağlayıb-sıtqamaqdan savayı əlacı qalmadı o axşam. İsgəndərin uca boyunu gözləri ilə dönə-dönə oxşadı, onun nurlu çöhrəsini ürəyinə köçürtdü, sübh tezdən süfrə açıb pərvanə kimi başına dolandı. Ciyərparasını yola salanda cəlimsiz qollarını onun enli kürəyinə dolayıb:

- İlahi, hamının balasını amanında saxla, İsgəndərimi də onlardan ayırma...

İsgəndərin arxasınca Tərgül ananın göz yaşları səpildi o gün. Cəbrayıl alayında onu xoş üzlə qarşılayıb Sirikdəki batalyona yola saldılar. Buradakı yaşıl donlu meşələr, durnagözlü bulaqlar İsgəndəri ilk gündən məftun elədi. O, bir dəfə Qala dağına tərəf uzanan yoxuşu qalxıb dərə uzunu yamaclarda sıralanan ağaclara nəzər saldı. Hər yandan torpağa yaşıl leysan yağmaqda idi elə bil. Tey dağı tərəfdən əsən meh üzü Ziyarata tərəf yol aldıqca təbiətin nəfəsi ətir qoxuyurdu. İsgəndər heyrətini gizlədə bilməyib yoldaşlarına üz tutdu:



- Pah atonnan, harsın oğullarında iştaha bax, ha. Belə gözəl torpağı əldən verməkmi olar?

Ancaq çox keçmədi ki, bəxtəvər günlərinin nizamı pozulan yurd yerlərimizdə erməni dığaları at oynatdılar. Teyin meşə çuxası atılan mərmilərdən didim-didim oldu. Fatma nənənin gor evi haray qopardı, Sirikdən başlayan didərginlərin köçü Beyləqandan o üzdə min səmtə şaxələndi...

İsgəndərgilin batalyonu 1993-cü ilin dekabr ayında Ağdam bölgəsində qərar tutmuşdu. Düşmən Qarabağın axırına çıxmaq üçün güclü hücuma hazırlaşırdı...

O gün Güllücə ətrafında yer, göy lərzəyə gəlirdi. Qeyrətli cavanlarımız sinələrini Vətən torpağına sipər edib düşmənin yolu üstə dayanmışdılar. Atılan güllələrdən biri İsgəndərin sinəsinə sancıldı o gün. Onda təzə ilə üççə gün qalırdı...

Balakişiyev İsgəndər Baloğlan oğlu 1994-cü ilin təzə ilini Beyləqanın Peyğəmbər qəbiristanındakı gor evində «qarşıladı». Onun yaralı ruhu doğma Mərcanlı torpağının vüsalından ötrü indi də çırpınmaqdadır. Tanrı onun yurd həsrəti ilə sızlayan son məkanını nurlu eləsin...

## XƏZƏRƏ BOYLANAN MƏZAR



***Balakişiyev Sərvan Fərman oğlu***
***doğulub - 28.10.1971-ci il,***
***Cəbrayıl rayonu, Dərzili kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

İlk dəfə ölümün acılığını üç yaşı olanda dadıb Sərvan. Dərzilidən olan bir həmkəndlisi deyir ki, o vaxt anasıyla pambıq tarlasına gedən üç yaşlı uşağı qəfildən ilan sancıbmış. O zamanlar göydə Allahın, yerdə rayon mərkəzi xəstəxanasında işləyən bir həkimin köməyi sayəsində Sərvan ailələrini gözüyaşlı qoymayıb. İşə bax 74-cü ildə ilanın əlindən xilas olan bu uşaq on doqquz il sonra erməni gürzəsindən yaxasını qurtara bilmədi. Bu dəfə Ağdam torpağında erməni qiyafəsinə girən gürzə mina şəklinə düşüb Sərvanı və onun igid komandiri Şakir Abbasovu qanına qəltan elədi...

...Sərvan uşaq çağlarından qatar fitinə, vaqonların aramsız taqqıltısına elə aludə olmuşdu ki, böyüyəndə dəmiryolçu peşəsindən uzaqda dayana bilmədi. Qumlaq orta məktəbini bitirəndən sonra Bakı Dəmiryol Texnikumuna daxil olub qatar maşinisti peşəsinə yiyələnmişdi. Ürəyində dönə-dönə kəndlərinin iki-üç addımlığından üzü Naxçıvana sarı uzanan dəmir yolu ötüb keçən bu cavan oğlan o vaxtlar fikrinə də gətirməzdi ki, vaxt gələcək bu yollar erməni kəməndinə düşəcək. Sərvan yiyələndiyi sənətin barını dadmamış ordu sıralarına çağrıldı... Bakının Pirəküşgül qəsəbəsindəki əsgərlik həyatı bir an kimi ötüb keçsə də, Sərvanın yuxusu ərşə çəkilmişdi onda. Ailələrində dörd qız uşağından sonra dünyaya gələn, hamının sevimlisi olan bu yarlı-yaraşıqlı oğlanın fikri-zikri həmişə kəndlərində, ata-anasının yanında idi. Erməni azğınlığı günbəgün vüsət aldıqca qeyrətli yaşıdları kimi Sərvan da bir yerdə bənd almır, sağa-sola vurnuxurdu. Doğma Cəbrayıla bir əsgər kimi gəlişi hamıdan çox Sərvanın ürəyindən idi.

...Sur istiqamətində gedən döyüşlərdə şəxsi igidlik göstərən Sərvan Balakişiyev artıq bir neçə ay idi ki, bölük komandiri kimi əsgər dostlarının diqqət mərkəzində idi. İstiqanlı və cəsur olduğundan uşaqlarla tez dil tapır, onların üstə nanə yarpağı kimi əsirdi. Elə bil anası komandir olmaq üçün doğmuşdu onu.

Rayon mərkəzi işğal olunandan sonra Şükürbəyli kəndinin üst tərəfindəki vaqon-restoranın yanındakı səngərə sığınıb yurda keşik çəkirdi Sərvan. Heyf ki, onun kimi yüzlərlə qeyrətli əsgərin zəhməti yerdə qaldı. O vaxtlar orduda baş alıb gedən pərakəndəlik, rəhbərlik edənlərin dəyanətsizliyi düşmənin çırağını gur yandırdı. Doğma elini nisgil qarışıq ağır bir sıxıntı ilə tərk edən bu igid əsgər rayonun işğalından sonra Şakirlə çiyin-çiyinə döyüşdü. Tanrı onların hər ikisini bir yerdə, bir gündə şəhidlik zirvəsinə ucaltdı. Ağdam torpağında yurdun sipərinə dönən Balakişiyev Sərvan Fərman oğlunu böyük ehtiramla Bakının «Şəhidlər xiyabanı»nda torpağa tapşırdılar. Bir vaxtlar beşiyini xan Arazın nəğmələri oxşayan Sərvanın məzarını indi də Xəzərin bir az həlim, bir az duzlu nəfəsi əzizləyir...



# VƏTƏN SƏNƏ OĞUL DEDİ



***Babaşov Həmzə Şərəfalı oğlu***
***doğulub - 1960-cı il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 25.01.1994-cü il,***
***Beyləqan bölgəsi***

Adı kimi özü də böyük olan Mərcanlı kəndi qeyrətli, namuslu oğulları ilə həmişə məşhur olub. Atalarımızın kişi sınar, amma əyilməz əqidəsini özündə yaşadan mərcanlılar nəyə qadir olduqlarını dönə-dönə sübut ediblər. Onların adları gələndə qorxudan dizləri tir-tir əsən hayklar da bunu yaxşı bilir, mərcanlılarla qarşılaşmağa heç vaxt cürət etməzdilər. Elə Həmzəni də yandırıb yaxan bu idi ki, indi necə olur, vaxtı ilə bir-iki Mərcanlı çobanının çomağının zərbindən qaçıb harsınların arxasında gizlənən dığalar bu gün meydan sulayırlar...

Alınmaz qala olan Cəbrayılımızın qarı düşmən tərəfindən işğal olunduğunu eşidəndə də o heç cür inanmaq istəmədi. «Bu mümkün olan iş deyil, - dedi, - erməni Mərcanlıda at oynatsın, vallah adama yuxu kimi gəlir. Dovşandan da qorxaq olan erməniləri mən yaxşı tanıyıram, bu onların işi deyil. Burada xəyanətkar əli var. - Həmzə haqlıydı. Məhz satqınların xəyanəti üzündən torpaqlarımızın 20 faizi düşmən tapdağına çevrilmişdi.

Quduzlaşmış düşmən artıq Beyləqanı aramsız atəşə tuturdu. İndi bir neçə rayonun deyil, bütöv Azərbaycanın taleyi təhlükə qarşısında qalmışdı. Həmzə Babaşov eşitdiyi xəbərdən yaman alınmışdı. Möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları - «Vətən dardadır, torpaqlarımız əldən gedir» - deyə xalqa müraciəti onu daha da həyəcanlandırmışdı. Hirsindən nə edəcəyini kəsdirə bilmirdi. Haçandan-haçana özünə gəldi. Ani olaraq nəzərləri uşaqları Nuranəyə, Xanalıya dikildi. Sonuncu görüş olduğunu duyurmuş kimi onların məsum baxışlarını həmişəlik qəlbinə köçürmək istəyən gənc ata gözlərini körpələrindən çəkmirdi. «Allah eləməsin, birdən bir hadisə baş versə,.. - ata qəlbi düşüncələr məngənəsində sıxıldı. Sonra da fikrindən nə keçdisə, - eh nə qoyub, nə axtarıram. Vətən, namus əldən gedir. Adını kişi qoyan da belə vaxtda evdə oturarmı? El-oba adama nə deyər? - deyə o, qəti qərara gəldi. Səhərisi hərbi komissarlığa gəlib Binəqədidə təşkil olunmuş könüllü batalyonun tərkibində cəbhə bölgəsinə yollandı...

1993-cü ilin dekabr ayının axırları idi. Düşmən nəyin bahasına olur-olsun Beyləqan rayonunu ələ keçirmək, bununla da müharibəni öz xeyrinə həll etmək istəyirdi. hiyləgər düşmənin məqsədini başa düşən cəsur oğullarımız ölüm-dirim mübarizəsinə girişdilər? Babaşov hamıdan öndə gedir, qorxu nə olduğunu bilmirdi. Yaman tələsirdi. Tələsirdi ki, düşməndən qisas alsın. Döyüş meydanından çox da uzaq olmayan doğma kəndlərini xilas edib öz oğulluq borcunu yerinə yetirsin. Nə yazıqlar ki, qəhrəman oğlumuz məqsədinə çata bilmədi. Həmzəgilin dəstəsinin igidliyi sayəsində erməni qəsbkarları Beyləqandan uzaqlaşdırıldı. Bu zaman o, 1994-cü ilin yanvar ayının 25-də Beyləqanda «Şişqaya» uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gəldi...

Həmzə Şərəfalı oğlu Babaşov 1978-ci ildə doğma kəndlərində orta məktəbi bitirmişdi. Bir il sonra sovet ordusu sıralarında xidmət etmişdi. Xidməti borcunu yerinə yetirdikdən sonra Bakı şəhərinə gəlmiş, Binəqədi rayonundakı 8 saylı Dəmir-Beton Məmulatları zavodunda işə düzəlmişdi. İşləyə- işləyə Plan-Uçot Texnikumuna qəbul olunaraq mühasib sənətinə yiyələnmişdi. Cəmi 33 il ömür sürdü Həmzə. Onun gənc qəlbi xalqı üçün böyük-böyük işlər görmək eşqilə döyünürdü. Vaxtsız ölüm buna imkan verməsə də o, əbədiyyətə qovuşması ilə ən böyük istəyinə - Vətənə əsl oğul olmaq istəyinə çatdı. Bundan da şərəfli nə ola bilər? Sevimli şairimiz Məmməd Araz demişkən, Vətən sənə oğul dedi, daha nə dərdin. Belə xoşbəxtlik hər adama nəsib olmur. Dillər əzbəri olan igidliyinlə həmişəlik heykəlləşdin. Büstün Binəqədi rayonunda ucaldılaraq müqəddəs ziyarət yerinə, and yerinə çevrildi, Doqquzuncu mikrorayonda yaşadığın küçə sənin adına verildi. Biz hamımız səninlə fəxr edirik, eloğlu, eşq olsun sənə!

*Vətənə sənintək oğul gərəkdir,*
*Dəmə qəlbin oldu viranə, Həmzə!*



## AYRILIQ YAMAN DƏRDDİ...



***Verdiyev Soltan Həsən oğlu***
***doğulub - 20.05.1968-ci il,***
***Cəbrayıl rayonu, Qışlaq kəndi;***
***şəhid olub - 04.07.1993-cü il,***
***Quşçular kəndi***

Gülzar xanımı Mingəçevirə gələndən yarım il sonra soraqlayıb tapmışam. Sonradan öyrənib bilmişəm ki, anası Sehran xala bizim Mərcanlıdandır, bir az qohumluğum da çatır ona. İlk dəfə Gülzar iki fidan balası ilə birlikdə gəlmişdi yanıma. Qışlaqlı şəhid Soltan Verdiyevin ömür-gün yoldaşı olan bu cavan gəlin Mingəçevirdə böyüsə də Cəbrayıl torpağında nəfəs alıb, o yerlərin adamlarından ehtiramla söz açır. Gülzar ərinin məktublarını (bu məktubları Soltan Sovet ordusunda xidmət etdiyi illərdə ona yazıb) müxtəlif illərdə çəkdirdiyi foto-şəkillərini və Soltanın şəhid olana qədər cibində gəzdirdiyi dəftərçəsini də gətirmişdi. Bu məktublarda onun ürəkdən sevdiyi həyat yoldaşına ünvanlanan ülvi hissləri adamı mütəəssir edir. Soltandan yadigar qalan cib dəftərçəsində əsgər dostlarının ünvanı, rus və Azərbaycan dillərində yazılmış şeirlər də var. Onlardan biri də mənim 1990-cı ildə çap etdirdiyim «Çay dənizə tələsir» adlı kitabımdakı «Yaşayır» şeiridir:

*Üzdə təbəssümün, gözdə həsrətin,*
*Ürəkdə duyğunun izi yaşayır.*
*İlk eşqin yanğısı səngiyən deyil,*
*Alovu sönsə də közü yaşayır.*

Görəsən Soltan hansı duyğunun, hansı hissin təsiri ilə dəftərçəsinə köçürüb bu şeiri? Təşnə ürəyinin həsrət odunu söndürmək üçünmü, yoxsa adi bir maraq xatirinə? Deyə bilmərik, təkcə bildiyimiz odur ki, Soltan duyumlu, hissiyyatlı bir oğlan olduğundan sözün cazibəsindən yaxa qurtara bilməyib. Uzaq diyarda əsgəri xidmətdə olanda da Gülzarı, Qorxmazı, Yeganəsi üçün burnunun ucu göynəyən kimi qələmi əlinə alıb ürəyinin kövrəkliyini misralara çevirib:

*Sənə qurban olum, ay Qorxmaz bala,*
*Gözlərin yollarda qalıbmı mənsiz?*
*Yaman dərddir atasızlıq, bilirəm,*
*Lalə yanaqların solubmu mənsiz?*

Gülzarla Soltanın bəxt ulduzları Mingəçevirdə qovuşmuşdu. O vaxtlar Soltan Boz dağın qoynundakı nəhəng AZDRES-də işləyirdi. Kollektivdə xətir-hörməti, adı-sanı var idi. Yurdumuzun başı üstünü müharibə kabusu kəsdirəndə o da Mingəçevirin ilk könüllülərinə qoşulub Vətən torpağını qorumağa getmişdi. Bir müddət səsi-sorağı Şuşadan, Ağdərədən, Çaykənddən gəlmişdi Soltanın. Arada vəziyyət bir az sakitləşəndə Mingəçevirdəki iş yerinə qayıdıb fəaliyyətini davam etdirmişdi...

...Doğma Cəbrayıldan gələn barıt qoxulu xəbərlər Soltanın da yuxusunu ərşə çəkməkdə idi. Dağlar qoynunda yerləşən Qışlağa atılan toplar Kür sahilində rahatlıq vermirdi ona. Atası Həsən kişini, anası Gülşəni, bacıları Şöləni, Şövkəti, Gülyazı, Elyazı düşündükcə odsuz-ocaqsız yanıb-qovrulurdu. Başa düşürdü ki, həyatı bu cür davam edə bilməz. Günlərin birində təzə-təzə isinişdiyi şəhərlə vidalaşıb Cəbrayıla yola düşdü...

...Ağır texnikanın, odlu silahların «dilini» yaxşı bilirdi Soltan. Elə buna görə də cəbrayıllı döyüşçülər başına pərvanə kimi dolanır, ondan çox şey öyrənməyə çalışırdılar. Ona üz tutanları Soltan naümid qoymurdu, kimisinə atəş açmağı öyrədir, kimisinə döyüş vaxtı müdafiə olunmağın, atəşdən yayınmağın sirrlərini aşılayırdı... Kiçik leytenant S.Verdiyev odlu, alovlu döyüş səngərlərində də Simurq quşu timsalında idi. Sur və Qışlaq kəndlərində «Ağ yol» əməliyyatında özünü cəsur bir əsgər kimi göstərə bilmişdi. Qeyrətli dostları Zahid, İlqar, Rantiq, Cabir, Əkbər böyük qardaşı sanırdılar onu özlərinə. On səkkiz nəfərlik bölüyə komandir təyin olunandan sonra Soltanın qayğıları bir az da artıb çoxalmışdı. Hər bir əsgərin üstündə yarpaq kimi əsir, dəliqanlı cavanları yersiz hərəkətlərdən çəkindirirdi...

...Quşçular kəndi ətrafında gedən qanlı döyüşlər bir neçə saat idi ki, ara vermirdi. Soltan daşların arası ilə irəli sürünüb ovucunun içində sıxdığı qumbaranı düşmən səngərinə atdı. Ani bir partlayışdan sonra uşaqları irəliləməyə qoymayan atəş nöqtəsi susduruldu:

- Di gəbərin köpək uşağı, axı burada nə ölümünüz var sizin.

Əsgərlərimiz ələ keçirilən düşmən postuna çatanda yerdə Soltanın əli ilə öldürülən bir neçə quldur meyiti görüb rahat nəfəs aldılar. Rantiq iri əsgər bıçağını çıxarıb meyitlərdən birinə yaxınlaşmaq istəyəndə Soltanın amiranə səsi eşidildi:



- Dayan görüm, nə etdiyindir sənin?

- Komandir, bu canilərin qulaqlarını kəsib uşaqlara ərmağan aparacağam...

- Heç utanıb qızarırsan, Azərbaycan əsgərinə belə hərəkət yaraşmaz. Onlar artıq bizə pislik etmək qüdrətindən məhrumdular. Meyitə əl vurmaq günahdır...

– Onlar azmı divan tutublar bizim şəhid meyitlərinə?

– Onlar quldurdular, iblisin, şeytanın törəməsidirlər. Yadında saxla ki, biz insanıq, goreşən deyilik.

Soltanın son sözləri Rantiqin əl-qolunu yanına saldı. Bıçağı qatlayıb cibinə qoyandan sonra dilləndi:

– Vallah, Soltan, sənin əvəzin yoxdur. Bu ürəklə Tanrı səni təkcə xəlq eləyib...

...Son dəfə ölümündən bir gün qabaq evlərinə gəlmişdi Soltan. Balalarını bağrına basıb duz kimi yalamışdı onda. Qayıdıb gedəndə Gülzara, valideynlərinə ürək-dirək verib:

- Sabah onlara yaxşıca bir ibrət dərsi verib yanınıza qayıdacağam, - demişdi...

...O gün igid əsgərlərimiz Quşçular istiqamətində güclü hücuma keçmişdilər. Bu döyüşdə dəstənin önündə gedirdi Soltan. Qeyrətli oğullarımızın həmlələrinə tab gətirməyən quldurlar xeyli itki verərək geri çəkilməkdə idilər. Döyüşün qızğın çağlarında 30-40 metr aralıdan atılan snayper gülləsi Soltanı ağır yaraladı. Yoldaşları harayına gəlsələr də onun həyatını xilas etmək mümkün olmadı. O, Vətən qarşısında sonuncu borcunu verib dünyadan köçdü. Elə bil qardaşları Elxan, Elman və Elgünün belini sındırdı...

...Doxsan üçün yayından Soltan öz nakam ömrünün davamını həzin nəğmələrdə, kövrək şeirlərdə yaşayır. İgid eloğlumuzun bacısı Şölə xanım qardaşına ünvanladığı bir şeirdə ondan məhəbbətlə söz açır:

*Yaş süzüldü yanaqlara,*
*Qəm əlindən gedim hara?*
*Qondum uca budaqlara,*
*Qövr elədi dərdim, qardaş!*

...İnnən belə Soltanın bir ömrə sığmayan müqəddəs şəhid adını həmişə əzizləyib yaşadacağıq. Şair demişkən:

*Bizdən ayrı düşənlərə,*
*Borcumuzdur bu ehtiram...*

# QAYIT, QARDAŞIM, QAYIT...



*Verdiyev Mayis Akif oğlu*
*doğulub - 20.10.1969-cu il,*
*Cəbrayıl rayonu, Soltanlı kəndi;*
*itgin düşüb - 10.04.1993-cü il,*
*Cəbrayıl rayonu, Sirik kəndi*

«Gecədən xeyli keçsə də kəndin aralığından tez-tez ötüb keçən maşınların səsi səksəkəli adamların yatağına qor calamışdı elə bil. İşığımız olmadığından anam onluq lampanı yandırıb ortaya qoymuşdu. Mən qəzet oxuyurdum, kiçik qardaşım isə sabahkı dərslərinə hazırlaşırdı. Atamla anam divanda oturub nə haqda isə yavaşdan danışırdılar. Nənəm yerə sərili döşəyin üstə oturub lal baxışlarını qapıya dikmişdi. Otaq yarıqaranlıq olduğundan üzünün ifadəsini sezmək olmurdu onun. Ara-sıra çəlimsiz əllərini tərpətməyindən hiss edirdim ki, Tanrı ilə «danışır», dua oxuyur. Hamımız bikef idik, Cəbrayıldan o üzdəki dağlarda keçirilən bugünkü əməliyyatın uğursuz sonluqla başa çatması qanımızı qaraltmışdı. Ən əsası Milli Orduda xidmət edən əmim oğlu Mayisdən səs-soraq yox idi. Adətən o, döyüşdən sonra bizə baş çəkib, həyəcanımıza son qoyardı...

Qapı aralanan kimi bibim oğlu Telman və onun bacısı Cəmilə kandara ayaq qoydular. Telman hərbi geyimdə idi. Üst-başı palçığa bulaşmış, paltarı didim-didim olmuşdu. Rənginin avazımağından hiss etdik ki, nə isə olub. Cəmilə tablaşmayıb «Mayis» deyə hönkürəndə elə bil dünya başıma hərləndi...»

Bu qeydlər Verdiyev Mayisin əmisi oğlu, Ankara Qazi Universitetinin tələbəsi Seymur Verdizadənin bizə göndərdiyi yazıdan götürülüb...

Mayis Soltanlının sayılıb-seçilən cavanlarından idi. Orta məktəbi yaxşı qiymətlərlə bitirsə də təhsilini davam etdirməyə macalı olmayıb. Əvvəlcə doğmalarından iki illiyə ayrılıb əsgəri xidmətə yola düşüb, Doğma respublikamıza qayıdandan sonra bir işin qulpundan yapışıb, kişi kimi yaşamaq istəyib. Ancaq addımbaşı ayaq tutub yeriyən haqsızlıqlar onun qarşısında sədd kimi dayanıb. İstəyib ki, ali məktəblərin birinə üz tutsun, ancaq biləndə ki, burada da rüşvətsiz heç nəyə qabil olmaq mümkün deyil, tamam əl-qolu boşalıb. Gücü ona çatıb ki, günlərin birində qürbətə üz tutub haq-



sızlığın, yiyəsizliyin meydan suladığı bir məmləkətdən uzaqda dayansın. Düz bir il uzaq Kemerovada ürəyini tuta-tuta Vətənə sarı boylanıb. Bir axşam «Zaman» xəbərlər proqramından eşidib ki, ermənilər Cəbrayıl torpaqlarına da əl uzadıblar. Doğma torpaqdan küsüb getsə də bu məşum xəbərdən sonra özü ilə bacara bilməyib. Yurd həsrəti ilə döyünən ürəyi onu Vətənə səsləyib. Ulu Azərbaycan elimizin ağır bir günündə rahat yaşamağı kişilik qüruruna sığışdıra bilməyib Mayis. Soltanlıya çatan kimi doğmaları ilə görüşərək rayondakı hərbi hissəyə yollanıb. Əlinə silah alaraq uca dağların aşırımındakı səngərlərə sığınanda ürəyi təsginlik tapıb...

Döyüşçü dostları Yelmarla, Vahidlə birlikdə itkin düşdüyü günə kimi neçə-neçə hərbi əməliyyatda iştirak edib, ölümün sağından, solundan adlayaraq düşmənin üstünə gedib. Sonuncu döyüşü doxsan üçüncü ilin 10 aprelində olub. Anası Adilə bacı o günləri indi də yaxşı xatırlayır: «Mayis neçə gün idi ki, xəstə idi. Elə hey deyirdik ki, ay oğul, get həkimdən kağız al, gəl müalicə olun. Razı olmurdu. Yanına gəlib-gedən yoldaşlarından eşitmişdi ki, yaxınlarda döyüş olacaq. Bir səhər tezdən qalxıb, gedirəm, - dedi. Çox yalvardım sözümə baxmadı. Onda heç ağlıma da gəlməzdi ki, bu balamın son gedişidir»...

Həyat yoldaşı Şəfa xanım deyir ki, yola düşməzdən qabaq məni kənara çəkib dedi ki, qızımız olsa adını Nərgiz qoyarsınız. Oğlumuz olsa... Dalını deyə bilmədi, qəhər elə bil boğazına tıxanmışdı onun...

Mayis üçün sonuncu olan o döyüşdə əsgər dostları əməliyyatda iştirak etməyinə razı olmayıblar onun. Mayis inad göstərib və elə bil ölümü öz əli ilə satın alıb...

Sirik əməliyyatının uğursuzluğu gizli bir xəyanətdən soraq verməkdə idi. Bu xəyanət Mayis kimi neçə-neçə qeyrətli Vətən oğlunun faciəsi ilə sona çatdı. Bir ana hələ də oğul gözləyir, bir gəlinin yollara boylanmaqdan gözlərinə qaranlıq çöküb. Bir qız səhər-axşam «qayıt qardaşım, qayıt!» deyə dünyaya ün salır. Ümidləri üzülməyib hələ. Ancaq... Təki bu xəbər yalan olsun...

# BİR HƏZİN NƏĞMƏSƏN...



***Vəliyev Azər Məhəmməd oğlu
doğulub - 27.05.1971-ci il,
Cəbrayıl rayonu, Xələfli kəndi;
şəhid olub - 17.05,1993-cü il,
Xocavənd rayonu, Hərəkül kəndi***

*Sınaq meydanıdır bu həyat özü,
İgidi bükülməz dizindən tanı.
Ürəyə məlhəmdir dostun hər sözü,
Namərdi sərtləşən üzündən tanı.*

Həyatda ürəyinin odu-közü ilə, tay-tuşları arasında səmimiyyəti, cəbhədə igidliyi ilə tanınan Azər, dünyaya may ayında göz açıb. Cəbrayıl torpağında mayın özgə aləmi var. İllah da Araz qırağında, Diri dağı səmtində, mayın gəlişi ilə Xudafərin korpülərindən üzü aşağı - Araz vadisinin dağların ətəyinə baş qoyduğu yerdə gül gülü, çiçək çiçəyi çağırır. Diri dağının sıldırımları üstən gündoğana boylanan Qız qalası, Mazannənə, Qurbaninin qəbrini on altıncı yüzillikdən bəri sinəsində əzizləyən yovşanlı, qaratikanlı təpə təbiətin al-əlvan renginə boyanır. Diri dağının Araza qədər uzanan torpaq ətəyinin üstən keçib gedən dəmiryol xəttinin beş-on addımlığında tikilən evlərdən baxanda elə bilirsən ki, qədim bir qalanın içərisindəsən. Bir vaxtlar Bakı-Yerevan dəmir yolu dediyimiz bu xəttin üstündə balaca bir stansiya da var idi. Sərnişin qatarlarının azacıq dayanıb nəfəsini dərdiyi bu yeri stansiya Xələfli adı ilə tanımışıq sonralar. Burda dəmir yol xətti Arazın beş-on addımlığından keçib kedir. Xələfli camaatı Yurd-yuvasından perik düşməsəydi bu bahar günlərində də çiçəyi çırtlayan Diri dağının ilahi gözəlliyinə söykənəsiydilər. Heyf ki, indi onlar doğma yerlərindən xeyli uzaqlarda bir-birini soraqlayırlar...

Azərin uşaqlıq və gənclik illərinin izləri Araz qırağında, Diri dağının yamaclarında yaşayır indi də. Bir vaxtlar uzaq Kareliyaya gedib çıxmışdı Azər. Burdakı iki illik əsgər həyatı cansıxıcı keçməsə də Vətəndən gələn dəhşətli xəbərlər üzürdü onu. Tifaqı pozulan Zəngəzur, Göyçə elimizin nisgili yerindən oynadırdı onu. Xocalı soyqırımının sədasını eşidəndə Vətənə qayıdacağı günləri sayırdı. Ata-anasından, qardaşlarından, yeganə bacısı Pərvanədən ötrü burnunun ucu göynəyirdi. Anası Göyçək tez-tez yuxularına



girirdi onun. Bilirdi ki, evdəkilər ondan ötrü bərk nigarandırlar. Evlərinə qayıdanda düşünürdü ki, çətin günlər arxada qalıb. Demə narahatlıqla dolu ömrünün təlatümləri qabaqda imiş hələ...

Göyçək ana oğlunun cəbhəyə getmək istədiyindən xəbər tutanda havalandı bir az:

- Dərdin mənə gəlsin, - deyib Azəri bağrına basdı, - neçə ildir ki, həsrətini çəkirəm. Rayonumuzda o qədər varlı uşaqlar var ki, heç əsgərliyə də getməyiblər. Eşitdiyimə görə, indi də ayaqlarını evdən kənara qoymurlar. Vətən qeyrəti çəkmək təkcə sənə qalmayıb ki...

- Nə danışırsan, ana. Mən o, dediyin uşaqlardan deyiləm. Məgər məni sən özün böyütməmisənmi? Sən mənə döşlərindən südlə bərabər qeyrət hissi də əmizdirməmisən? Sənin kimi ananın oğlu Vətənin dar günündə xəlvətdə baş girləyə bilməz. Bayaqdan bəri ana ilə balanın sözlərinə qulaq asan Məhəmməd kişi söhbətə bir növ yekun vurdu:

- Halal olsun, oğlum, - dedi, - səndən elə bu cür də cavab gözləyirdim...

Əvvəllər Azər rayonun Sur, «Armudlu» postlarında yurda keşik çəkirdi. Komandirləri Azərdən razılıq edir, döyüşçü dostları ondan məhəbbətlə söz açırdılar. Sur döyüşündən sonra Hərəküldəki postda dayanıb ermənilərin hərəkətlərinə göz qoyurdu. Evdəkilərə hərdən zarafatla deyirdi ki, qorxmayın Əzrayılla sülh bağlamışıq. O mənə dəyib-toxunmaz. Amma Azər haradan biləydi ki, torpaqlarımıza tamah salıb, günümüzü göy əskiyə bükən erməni quldurları, xəyanət yolu tutan alçaq xislətli bu yaramazlar fürsət tapan kimi...

Azərin qanı çilənən torpaqda lalələr bitir. Onların al ləçəkləri şəhid eloğlumuzun qanlı dodaqlarına bənzəyir.

Araz mənim sözlü dilim,
Dəli-dolu Kür eşqimdir.
Coşğun Xəzər ümman boyda
Gur eşqimdir.
Ürəklərdə gur nəğməyəm,
Solmaz duyğu yarpağıyam.
Ölkə-ölkə, qitə-qitə
Sözü gəzən
Azərbaycan torpağıyam...

## BİR DOĞMA MƏZAR VAR HACIQABULDA...



***Qasımov Mübariz Seyfəddin oğlu doğulub - 30.11.1969-cu il, Cəbrayıl şəhəri; şəhid olub – 10.05.1995-ci il, Murov bölgəsi***

Son iyirmi altı ildən bəri ilk dəfə idi ki, Mübarizin ad günü göz yaşları içərisində keçirilirdi. İlk dəfə idi ki, 20 noyabrdakı ad günündə Mübarizin özü yox, qara haşiyəli şəkli iştirak edirdi. Kubra ananın, Seyfəddin kişinin beli bükülmüşdü o gün. Eyvazla Bəhruzun ürəkləri sızlayır, Mina, Sona, Solmaz, Sevil, Yasəmən, Şəfa hıçqırıqlarını boğa bilmirdilər. Təkcə Könül üzdə də olsa toxdaq görünürdü. Onun şəhid qardaşına həsr etdiyi bir şeir ağlayırdı o gün:

*Adına güllərdən çələng hörərdim,*
*Şehli çiçəkləri üzüb dərərdim.*
*Canımı yolunda qurban verərdim,*
*Bircə yol danışıb, dinsən, a qardaş!*

Yox, o gün Mübariz şəkil səbrinə söykənib qulaq asır, ad günündə göz yaşları ilə «yuyunurdu», dil açıb danışan təkcə xatirələr idi. Mübarizin nəfəsi hopan xatirələr...

Mübariz igid həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun adını daşıyan şəhər orta məktəbini bitirəndən sonra Mingəçevirdəki mühasiblər hazırlayan məktəbdə oxumuşdu. Kazan və Nijnikamsk şəhərlərində keçən əsgərlik həyatı bir gün də olsa onun xəyalını Vətəndən ayıra bilməmişdi. O, yurdumuzda baş verən olayları diqqətlə izləyir, narahatlıq dolu məktubları ilə doğmalarına ürək-dirək verirdi. Vətənə qayıdandan sonra Mübariz Qasımov Cəbrayıldakı özünümüdafiə batalyonundakı könüllülərin sırasına qoşuldu. Burada baş serjant rütbəsi ilə xidmətə başlayan bu qeyrətli Vətən oğlu Sur, Şayaq, Qışlaq, Daşbaşı, Zamzur, Quşçular əməliyyatlarında fəal iştirak etdi. Bir neçə dəfə yaralansa da, ölüm qorxusu onu üstələyə bilmədi...

Doxsan ikinci ilin iyun ayında Sur kəndi uğrunda gedən qanlı döyüşlərdə göstərdiyi fədakarlığa görə leytenant rütbəsi alan Mübariz bu xəbəri minaya düşəndən bir neçə gün sonra eşitdi. Sağalıb cəbhəyə qayıdanda o, artıq komandirin arxa işlər üzrə müavini vəzifəsini daşıyırdı...



Təbiəti etibarı ilə ağır, ciddi adam təsiri bağışlayan Mübariz çox istiqanlı, deyib-gülən bir oğlan idi. Əsgərlərin rahatlığı naminə özünü odaközə vurar, döyüş günlərində onların üstə yarpaq kimi əsərdi...

Cəbrayıl şəhərindəki 3 saylı uşaq bağçasının müdiri Mahirə xanım Mübarizi yada salıb: «Bizim bağçanın qonşuluğunda olurdu Mübarizgil, - dedi. - Bir dəfə hələ orduya getməmiş mənim yanıma gəlib dedi ki, bağçanın qabağındakı boş yerdə təzəcə şəhid olmuş qonşumuz Veysəlov Əsgərin xatirəsinə bulaq tikib adını da «Əsgər bulağı» qoymaq istəyirik. Mən onun bu arzusunu alqışladım. Qısa müddətdə kərpic, daş da gətirib tökmüşdü. Lakin Cəbrayılın işğalı onun bu arzusunu da yarımçıq qoydu».

**BİR AĞRILI YADDAŞ...** Mübarizin atası Seyfəddin kişini Cəbrayıl camaatı Allah adamı kimi tanıyır. Dünyasını dəyişən onlarla şəhidin son mənzilə yola salınmasında onun böyük haqqı-sayı var. Meyitlərin yuyulub kəfənə tutulmasını Peyğəmbər dövründən qalma pak əməl bildiyindən o, Cəbrayıl bölgəsində şəhid olanlardan bu ehtiramı əsirgəməzdi. O vaxtlar Seyfəddin kişi heç ağlına da gətirməzdi ki, günlərin birində onun sevimli balası Mübariz də bu ehtiramın saflığı ilə yuyunmalı olacaqdır...

Doxsan üçüncü ilin axırlarına yaxın Mübarizin sorağı Murovdan gəlirdi. O burda da Vətən sevgisi ilə hamının hörmətini qazanmışdı. Xidmətlərini nəzərə alıb Mübarizin Türkiyədə təlim keçəcək bir qrup zabitin sırasına qatılması üçün Müdafiə Nazirliyinə təqdimat göndərilmişdi. Nazirliyin razılıq kağızını onun ölümündən üç gün sonra ailə üzvlərinə təqdim etmişdilər. Tale aman versəydi, o, ordumuz üçün gələcəkdə lazımlı bir zabit hünəri göstərəcəkdi...

Döyüş tapşırığını yerinə yetirərkən ölümü mərdliklə qəbul edən Qasımov Mübariz Seyfəddin oğlu doxsan beşinci ilin mayından Hacıqabul şəhərindəki Şəhidlər xiyabanında uyuyur. Yaxın dostları Mustafa, Namiq, Əlövsət, Ramiz və Tofiqin qəlbində həzin nəğməyə dönən qeyrətli eloğlumuz bir parça Vətən daşı kimi yurdun güvənc yerinə çevrilib. Tanrı torpağı sanı yaşatsın onun əzizlərini...

# QƏLBLƏRDƏ YAŞAYAN İGİD



***Qəhrəmanov Əkrəm Həbibulla oğlu***
***doğulub 13.06.1975-ci il,***
***Cəbrayıl rayonu, Dərzili kəndi;***
***şəhid olub – 12.01.1994-cu il,***
***Ağdərə rayonu, Gödək Burun yüksəkliyi***

«Əli, qardaşım, mənim döyüşdə olduğumu anama demə, ürəyi partlayar. Bilirəm, atamın ruhu gor evində nalə çəkir. Düşmən əsirliyində qalan atamın və ulularımızın qəbirlərini geç-tez azad edəcəyik. Vaxt gələcək ki, yenidən mənim dünyaya göz açdığım Dərzili kəndində Arazın nəğmələrini dinləyə-dinləyə gəzib, dolaşarıq... Sizə kədərli bir şeir göndərir və hamınızı bağrıma basıram:

*Uca tut başını, ölməmişəm mən,*
*Eşqimi yarıya bölməmişəm mən.*
*Doyunca sevinib gülməmişəm mən,*
*Ağlama, anacan, ağlama, yetər»...*

Bu sətirlər igid döyüşçü Qəhrəmanov Əkrəm Həbibulla oğlunun yazdığı sonuncu məktubundan götürülüb. Bu məktubu yazana qədər Əkrəm sözün həqiqi mənasında odun-alovun içərisindən adlayıb keçib. Onun igidliyinin şahidi olan əsgər dostlarının ürək sözləri də bunu təsdiq edir.

Döyüşçü Həsənəliyev Rövşən Mehman oğlunun dediklərindən:

- Əkrəmlə birlikdə birinci sinfə getmişik. O mənim uşaqlıq dostum, tələbə yoldaşım, qəlb qardaşım olub. Hələ aşağı siniflərdə oxuyanda idmana maraq göstərər, cəldliyi, çevikliyi və qətiyyəti ilə hamımızı heyrətdə qoyardı. Biz Əkrəmlə Bakıda texniki-peşə məktəbində də bir yerdə oxumuş, cəbhəyə də eyni gündə yollanmışdıq. Əkrəmin bacarığını görən komandirlərimiz onu PDM-də atıcı təyin etmişdilər. O, öz hərəkəti ilə sübut etdi ki, etimada layiqdir. Öləndə də kişi kimi düşmən qabağından qaçmadı Əkrəm. Allah ona qəni-qəni rəhmət eləsin!..

Səmədov Dəyanət Ağasoltan oğlunun qeydlərindən:

- Biz Əkrəmlə doxsan üçüncü il iyul ayının 21-də cəbhəyə yollanmışıq. İlk döyüşümüz həmin ilin oktyabr ayında Ağdərənin Talış kəndində



olub. Burada keçirilən uğurlu əməliyyat əsgərlərimizin qələbəyə inamını daha da artırdı. Sonrakı döyüş yolumuz Maqadizdən adlayıb keçdi. Qanlı-qadalı keçən bu döyüşdə də igid əsgərlərimiz qəhrəmanlıqla vuruşub düşməni qaçmağa vadar etdilər. Ağdərənin Gödək Burun yüksəkliyində gedən döyüşlər bizim nəyə qadir olduğumuzu bir daha göstərdi. Mən bu döyüşlərdə Əkrəmin qorxmazlığına, cəsarətinə heyran qaldım. Atalar belə igidləri «dörd böyrək oğul» adlandırıblar. Mənim cəsur dostum Əkrəm qurd ürəyi yemişdi elə bil. Döyüşə atılanda ölümü-zadı vecinə alan deyildi. Levonarx yaşayış məntəqəsi uğrunda göstərdiyi hünər onu gözlərimdə daha da ucaltdı. Bu döyüş onun üçün sonuncu olsa da Əkrəm axıra qədər qorxmaz bir oğul kimi davam gətirib, Tanrı dərgahına üzü ağ, alnı açıq qovuşdu...

Gizir Məhərrəmov Novruz Mahal oğlunun ürək sözlərindən:

- Mən Əkrəmlə bütün döyüşlərdə çiyin-çiyinə vuruşmuşam, onunla bərabər ən odlu nöqtələrdə olmuşam. Əkrəm sözün əsl mənasında nümunəvi, intizamlı və qoçaq bir əsgər idi. Yaxşı atıcı olduğundan iki dəfə tabor komandiri, kapitan Mirzəyev Vaqif tərəfindən pulla mükafatlandırılmışdı. O, tərkibində olduğu desant hücum bölüyü ilə birlikdə Talış yüksəkliyinin, Dədəgül, Donaşen, Maqadiz yaşayış məntəqələrinin azad edilməsində şücaət göstərib hamımızın məhəbbətini qazanmışdı. Gödək Burun əməliyyatı zamanı leytenant Ruslan Məmmədov, leytenant Həsən Seyidov, sıravi Bəybala Mirzəyevlə birlikdə düşmənin xeyli sursatını qənimət kimi ələ keçirmişdi. Döyüş vaxtı o dayandığı mövqeyi müdafiə etməklə yanaşı, yaralı əsgərlərimizə də əl tuturdu. Sonuncu döyüşdə Əkrəm şəhid əsgər dostlarının - İbadət Rüstəmovun, Oqtay Abduləliyevin meyitlərini atəş altından çıxararkən şəhid oldu. Onun xatirəsi qəlbimizdə əbədi yaşayacaq...

Bu gün Əkrəmdən təkcə döyüş yoldaşları söz açmır. Yurd-yuvalarından perik düşən Dərzili camaatı onun adını iftixarla çəkir:

- O, kəndimizə başucalığı gətirib, - deyirlər. Bu hərarətli sözlər el istəyindən güc alıb bir şəhid adının sığalına çevrilir bu gün...

## QƏHRƏMANLAR CAN VERƏR YURDU YAŞATMAQ ÜÇÜN



***Quliyev Mehman Qulu oğlu doğulub – 02.02.1968-ci il, Cəbrayıl şəhəri; şəhid olub - 05.07.1995-ci il, Quşçular kəndi***

Mehman evlərinə səhərə yaxın qayıtdı. Aşağılarda sökülən dan yerindən torpağa sübh şəfəqləri yağmaqda idi. Ziyaratın zirvəsi daha əzəmətli görünürdü bu səhər. Doqqazın qapısı ağzına çatanda ayaq saxlayaraq üst-başını qaydaya salıb barmağını zəngin düyməsinə toxundurdu. Qulu kişi qapını açıb qollarını Mehmanın boynuna doladı. Növbə Şəfiqə anaya çatanda o, başını ciyərparasının sinəsinə qoyub hıçqırdı:

- Boyuna qurban olum, ay Mehman, sən gedəndən kipriklərim qapanmayıb. Nə yaxşı gəlib çıxdın.

Mehman onları sakitləşdirib qol-budaqlı ağacın kölgəsindəki skamyada əyləşdi. Şəfiqə xanım səhər yeməyini hazırlamaq üçün mətbəxə keçdi. Əlindəki dolu padnosla geri qayıdanda Mehmanla Qulu kişini şirin söhbət edən gördü.

- Ziyaratın lap o üzünə kimi gedib çıxmışdıq, ata! Düşmən Dolanlara, Ağcakəndə, Köhnə Tağlara xeyli canlı qüvvə, ağır texnika gətirib. Süleymanlı, Qışlaq tərəfdə də hücuma möhkəm hazırlaşır onlar, Gorusdan gələn maşınların, vertalyotların ardı-arası kəsilmir.

Anasının bənizinin qaçdığını görəndə səsinin tonunu bir az yumşaltdı:

- Ziyaratın ətəyində gül-gülü, çiçək-çiçəyi çağırır. Baldırğanı, qırxbuğumu yarıb yerimək olmur. Ağcakənddən yuxarıdakı Novlu bulağın suyundan doyunca için, bizi bu günə salanları o ki var yamanladım. Köpək uşağı yaman kəsiblər başımızın üstünü. Qulu kişi dözməyib dilləndi:

- Bəs, bizimkilər nə edirlər, a bala, xəbərləri yoxdu bu hay-haraydan?

- Gördüklərimizi yerli-yataqlı danışmışıq qərargahda. Bakının da xəbəri var ermənilərin hazırlaşmağından. Bəlkə bu günlərdə nəsə etdilər...

- Eh, ay oğul, bəlkəni əkiblər bitməyib. Atalar deyir, «yasin oxumaqla donuz darıdan çıxmaz»...

Mehman atasının ruhdan düşdüyünü sezib söhbəti nikbinliklə tamamladı:



Ata, bilirsən cəbhədə kişi qeyrətli oğullarımız çoxdur, təkcə bu xalqın sərkərdəsi çatmır. İmkanım olsaydı o dil qəhrəmanlarını bir yerə toplayıb deyərdim:

- Bəsdir, bu xalqın başına tərs dəyirman açdığınız. Bir-birinizlə söz güləşdirincə gəlin bizimlə yanaşı səngərdə dayanın. Dar gündə adını kişi qoyan kəs gərək dişi ilə, dırnağı ilə də olsa düşməni didib parçalasın. Axı:

*Kişi - vüqar, əzəmət,*
*Kişi - namus, ucalıq,*
*Kişi - qeyrət deməkdir.*
*Kişi - xalqın varlığı,*
*Kişi - sərvət, səltənət,*
*Kişi - millət deməkdir.*

Ömrünün sonuna kimi kişi adının ucalığına söykəndi Mehman. Müharibə adlı əjdahanın qorxunc sifətini bir neçə il qabaq Əfqanıstan döyüşlərində görmüşdü o. Burada ağır texnikanın idarə olunmasından tutmuş, ən müasir silah növlərindən atəş açmağın sirlərinə kimi hər şeyi yerli-yerində öyrənib mənimsəmişdi. Əfqanıstan müharibəsindən dörd medalla, bir qovluq arası təşəkkürnamələrlə qayıdandan sonra rayonda sürücü işləyirdi Mehman...

Doxsan birinci ildən Cəbrayıl batalyonunun kəşfiyyat rotasında xidmət edən Mehman Quliyevin gecəsi, gündüzü seçilmirdi burada. Ən gizli yollarla düşmən arxasına keçib elə mühüm xəbərlərlə geri dönürdü ki, hamı hünərinə «əhsən» deyirdi onun...

Rayondakı batalyon təzə-təzə yarananda hərbi texnika sarıdan əsgərlər korluq çəkirdilər. Mehman komandanlıqdan icazə alıb pusquda dayandı onda. Birinci dəfə «Ural» markalı avtomaşınla geri döndü. İkinci «ovu» daha uğurlu oldu onun. Təptəzə zirehli bir maşını sürüb rayon mərkəzinə gətirdiyini eşidənlər əfsanəvi bir qəhrəman kimi baxdılar Mehmana...

Quşçular - Şayaq məntəqələri arasında Mehman üç əsgər yoldaşı ilə qeyri-bərabər döyüşdə düşmənin xeyli canlı qüvvəsini, bir neçə texnikasını vurub sıradan çıxardı. Ratsiyadan ermənilər qudurmuş it zingiltisinə bənzəyən səsləri ilə Mehmanı asıb-kəsirdilər onda. Bu igid gizir öz hərbi maşınında axıra qədər cəsarətlə döyüşdü. Yaralandığını düşmən hiss etməsin deyə döyüşə-döyüşə maşını meydandan uzaqlaşdırdı. Mehmanın həyatını ən mahir həkimlər də xilas edə bilmədilər o vaxt. Ömrünün iyirmi beşinci baharında dünyasını dəyişib haqqın dərgahına üz tutdu o...

Valideynləri, qardaş-bacıları mərdliklə dözdülər Mehmanın ölümünə. Elə indinin özündə də Şəfiqə ana oğlunun ölümünə inanmaq istəmir. Elə bilir ki, Mehman Murovda, Araz qırağında dayanıb yenə də yurda keşik çəkir. Ana onu da bilir ki, qəhrəmanlar ölümsüz olurlar. Vətəni Vətən edən Mehman kimi oğullar öləndən sonra da yaşamağa qadirdirlər...

## ÖLMƏYƏ VƏTƏN YAXŞI...



***Quliyev Elbrus Vaqif oğlu***
***doğulub - 09.05.1973-cü il,***
***Cəbrayıl şəhəri;***
***şəhid - olub 12.02.1994-cü il,***
***Mehdili kəndi***

Min illərdən bəri dağların ətəyi ilə qıvrıla-qıvrıla axıb Kürlə görüşə tələsən Araz özünün «çay ömründə» doxsan dördün o fevral günündəki qədər dəhşətli savaş görməmişdi. Cəbrayıl ərazisini işğalçılardan təmizləmək naminə Horadiz qəsəbəsindən Mehdiliyə tərəf irəliləyən igid oğullarımızın gözünü qırmaq üçün düşmən ağır texnikanın və canlı qüvvənin köməyi ilə hücuma keçmişdi. Ensiz sərhəd zolağında torpaq qarışıq hər nə var idisə alışıb yanırdı o gün. Lələ yüksəkliyindən atılan mərmilər Arazın sahillərində partladıqca türk qanına susayan qəlpələr ayna suların sinəsini didim-didim didməkdə idi. Adama elə gəlirdi ki, məhşər ayağına çəkilən dünyanın qətl günüdür burda. Mirzənağılı, Qazaxlar, Cocuq Mərcanlı kəndlərinin azad edilməsindən ruhlanan əsgərlərimiz Mehdili kəndinə inadla can atmaqda idilər. Buradakı hər qarış torpaq uğrunda gedən qanlı döyüş axşama yaxın ikidlərimizin qələbəsi ilə sona çatdı. Hərbi əməliyyat zamanı şəhid olanların sırasında Elbrus da var idi. Onun get-gedə işığı öləziyən gözlərindən:

*Gəzməyə qərib ölkə,*
*Ölməyə Vətən yaxşı - ifadəsi oxunmaqda idi...*

Quliyev Elbrus Vaqif oğlu yetmiş üçüncü ilin doqquz mayında doğulmuşdu. Ağlı kəsəndən sonra Qələbə günü dünyaya gəlməsi ilə fəxr edib, iftixar hissi keçirirdi. Bayram günlərində, oxuduğu məktəbdə keçirilən səhnəciklərdə Qələbə bayramı sevinci ilə köklənən bir şeirin ilk misraları səslənirdi onun ləhcəsində:

*Biz Qələbə fişəngləri*
*Atılanda doğulmuşuq.*
*Yer üzündə ölkə-ölkə*
*Dərdə sevinc qatılanda*
*doğulmuşuq...*

Taleyin oyunuydumu, alın yazısının qaçılmaz hökmüydümü, qələbə bayramı günü doğulan Elbrus yurdumuzun zəfər gününü görmədən dünyadan köçdü. Onun əvəzindən inşallah Elbrusu ürəkdən sevənlər qovuşacaqlar yurdumuzun qələbə sevincinə. Onda bu müqəddəs bayramdan şəhid Elbrusun ruhuna da işıq düşəcək...

Cəbrayıl şəhərində hamı Vaqif müəllimi dinc bir adam kimi tanıyıb hörmət edir. Bundan sonra hamımız Vaqifə şəhid atası kimi ehtiram göstərib, ömrünün iyirminci baharının şirinliyini duymadan Vətən üçün canından keçən Elbrus balasına rəhmət oxuyacağıq onun...

Mehdili torpağında əbədiyyətə qovuşan Elbrus doxsan ikinin dekabrından Alıkeyxalı sərhəd məntəqəsində xidmət edirdi. Arazboyu torpaqların işğalından sonra Xudafərin körpülərinin müdafiəsində iştirak etmişdi. Ermənilərin işğal olunmuş ərazilərimizdə törətdikləri vəhşilikləri gözləri ilə gördükcə ürəyi qisas hissi ilə çırpınırdı onun. Elə buna görə də ən cəsur sərhədçilərdən ibarət xüsusi döyüş qrupu təşkil ediləndə Quliyev Elbrus da daxil olmuşdu o dəstəyə. Daşburundan üzü Horadizə neçə-neçə yaşayış məntəqəsinin azad edilməsində Elbrusgil qəhrəmanlıqla döyüşmüşdülər. Cəsur əsgərlərimiz Cəbrayılın Cocuq Mərcanlı kəndini düşmən pəncəsi altdan çıxarıb azad edəndə Elbrusun sevincinin həddi-hüdudu yox idi. O vaxtlar üzü Cəbrayıla tərəf yamanca tələsirdi Elbrus. İstəyirdi ki, erməni quldurlarını Ziyaratın o üzünə qovub Cəbrayıla-Mirzəcanlı məhəlləsinə çatdırsın özünü, müəllim atasının halallıqla tikdirdiyi evlərinin qəlpələrdən didim-didim olan divarlarına əlləri ilə sığal çəkib ovundursun onu. Cəbrayıl şəhərinin dildə-ağızda gəzən Xan çinarından, büllur kəhrizindən ötrü yamanca qəribsəmişdi Elbrus. Qınayan olmasaydı, ayaqyalın, başıaçıq yüyürərdi oraya kimi...

Müqəddəs hisslərlə yaşadığı anlarda ölümə tuş gəlməsəydi əzəl-axır Cəbrayıla gedib çıxasıydı Elbrus... Qəfildən üstünə yüyürən ölüm onun arzularını yarıda qoydu...

Qələm dostumuz Şəmsi Qocanın kövrək duyğularından bir şeir dünyaya göz açdı o gün. Saatlı torpağında uyuyan Elbrusun yaralı ruhunun arxasınca düşüb oba-oba dolaşmaqdadır o şeir indi:

*Yağı gülləsindən qırılan ömrün*
*Hələ çiçək idi, təzə-tər idi.*
*Səni haqlayanda o müdhiş ölüm*
*Ayazlı, şaxtalı bir səhər idi.*

*Bir qız ağlayırdı səndən uzaqda,*
*Baxıb yollarına əl eyləyirdi.*
*Sinəni hədəfə götürən düşmən,*
*Bir dünya sevgini güllələyirdi.*

*Ananın saçları ağardı sənsiz,*
*Gülərüz atan da vaxtsız qocaldı.*
*Oğulluq borcundan Vətənə sənin,*
*Yaralı məzarın xatirə qaldı...*

## ONLARI ÖLÜM DƏ AYIRAN DEYİL



***Quliyev Cavid Əkbər oğlu***
***doğulub – 1975-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Füzuli bölgəsi***

Dərd gələndə batmanla gəlir, - deyiblər. Horovlu kəndindən olan Quliyevlər ailəsinin dərdi, müsibəti yerə-göyə sığan deyil. Əvvəlcə ailənin başçısı Əkbər müəllimi ermənilər Araz boyunda güllələyiblər, iki ay sonra Ülkər ananın ümid çırağını söndürüb düşmənlər. Oğlu Cavid Şəmkir ərazisindəki hərbi poliqonda şəhid olub. Sonra da növbə ailənin sevimli qızı Yeganəyə çatıb. Atasının faciəli ölümünə, qardaşının ələminə tablaşa bilməyən bu qız için



için əriyərək şam kimi sönüb axırda. Ailədə can deyib, can eşidən Əkbər kişi, onun övladları Cavid və Yeganə dünyadan köçəndən sonra da bir-birlərindən ayrılmayıblar. Beyləqan torpağındakı ulu bir qəbiristanda gor evləri yan-yanadır onların. Ülkər xanım istəkli ərinin və övladlarının ölümündən sonra rahatlıq tapa bilmir heç. Onun ən çox cızdağını çıxaran Cavid balasının ölümüdür. Əslində elə Əkbər müəllim özü də Cavidin sorağı ilə o böhranlı günlərdə Araz qırağındakı obaları gəzib dolaşanda düşmən əlinə keçib. Dərd adamı gilə-gilə əridir, yanıb qarsalanan ürək misra-misra sözə çevrilir bəzən. Ülkər ana ciyərparası Cavidin dilindən bir şeir də yazıb göndərmişdi bizə. Nakam bir cavanın əvəzindən dil açan bu misralar təpəsindən tüstü çıxarır adamın:

*Baxıram yollara məzar daşımdan,*
*Göz yumdum həyata cavan yaşımdan.*
*Adlaya bilmirəm ömrün qışından,*
*Dərdimi anlayıb bilən ağlasın.*

*Mənim müsibətim, ələmim sonsuz,*
*Bu qədər ağlama, ey vəfalı qız.*
*Taleyin hökmüylə qalmısan yalqız,*
*Sənin göz yaşını silən ağlasın.*

*Bilirəm, halıma çoxları yanıb,*
*Ayrılıq arada dağ tək dayanıb.*
*Bir cümə axşamı adımı anıb,*
*Qəbrimin üstünə gələn ağlasın...*

Horovlunun ümidi, sabahı idi Cavid. Altıncı sinifdə oxuyandan idmanla məşğul olur, yarışlarda iştirak edirdi. Həmişə də mükafatla, fəxri fərmanla qayıdırdı kəndlərinə. Çox diribaş, çevik olduğundan hamıya elə gəlirdi ki, təhsilini Bədən Tərbiyəsi İnstitutunda davam etdirəcək Cavid. Ancaq o, hərbçi olmaq arzusuyla yaşayırdı. Orta məktəbi də tərifnaməylə bitirmişdi. Bakıdakı ali hərbi məktəbə qəbul olunandan sonra Cavid öz həyat yolunu müəyyənləşdirmişdi. Burada da ilk gündən hamının diqqətini özünə cəlb etmişdi. Gündən-günə güclənən erməni təcavüzündən torpaqlarımızı qorumaq naminə hər şeydən keçməyə hazır idi o...

Prezident qvardiyasında iki ay xidmət etdikdən sonra öz istəyi ilə Milli Ordumuzun tərkibində döyüşməyə başladı Cavid. Mülkədərə, Daşbaşı, Sirik, Zamzur, Sur, Şişqaya postlarında xidmət edərkən özünü cəsarətli və

çevik bir əsgər kimi tanıda bilmişdi. Əsgərlərimiz Cəbrayılın dağlıq zonasından Araz qırağına çəkilərkən Quycaq ətrafında gedən döyüşlərdə igidlik göstərib dostlarıyla birlikdə düşmənin həmlələrinə kəsərli cavab vermişdi. O vaxtlar hara gedirdisə atası Əkbər müəllimi yanında görürdü Cavid. Elə vaxtlar olurdu ki, ata-oğul döyüşə birgə yollanır, səngərdə yan-yana dayanırdılar...

Yurd yerlərimiz əldən gedəndən sonra qız-gəlinlərin, ahıl qocaların Arazdan o üzə keçirilməsi üçün gecə yarıya gimi Araz qırağında əlindən gələni etmişdi. O qanlı-qadalı günlərlə atasından da, el-obasından da aralı düşmüşdü Cavid...

O zamanlar ata oğlunu soraqlaya-soraqlaya Füzulinin Arayatılı kəndinə qədər gedib çıxmış, burada da düşmən gülləsinə hədəf olmuşdu...

On gündən sonra İran ərazisindən adlayıb İmişliyə gələndə Cavid eşitdi ki, atası onun sorağıyla Araz boyu obaları gəzib-dolaşır. Həmin gün elə bil odla su arasında qalmışdı Cavid. Ata məhəbbəti Beyləqan tərəfə, Vətən istəyi cəbhəyə çəkirdi onu. Atasının taleyindən nigaran olsa da Vətənin çağırışıyla təzədən cəbhəyə üz tutdu...

Atayla oğul bir-birlərini soraqlaya-soraqlaya köçdülər dünyadan. Onlar sonuncu dəfə görüşə bilməsələr də haqqın dərgahında təzədən bir-birlərinə qovuşdular. Vətən sevgisi ilə yaşadıqlarından ölüm də ayıra bilmədi onları...

## NAĞILLAŞAN ŞƏHİD ÖMRÜ



***Quliyev Seyidağa Əbil oğlu doğulub - 22.10.1974-cü il, Cəbrayıl rayonu, Horovlu kəndi; şəhid olub - 22.12.1993-cü il, Gəncə bölgəsi***

«İgidlər nağıllarda əbədiləşir, el-obanın qəlbinə köçür», - deyiblər. Ağ atlı oğlan kimi, Beyrək kimi, Buğac kimi. Doxsan üçüncü ilin sonlarından Seyidağa əbədi ömür payını yaşayır. Bir şəhid qəlbinin səsi, həniri nağıllaşıb yurdumuzu oba-oba, oymaq-oymaq gəzib dolaşmaqdadır, hələ də...



### İLK NAĞILDAN SƏTİRLƏR

Bu nağıla Seyidağanın ömrünün ilk çağları söykəkdir. Onu Nərgiz ananın laylaları naxışlayıb. Horovlu torpağının hərarəti, Horovlu kəhrizinin sərinliyi var bu nağılda. Seyidağanın dodaqlarında «cücərən» ilk kəlmələr bal şirinliyinə qarışır burada. Əbil kişinin traktor sükanından yapışan qabarlı əlləri bu nağılda bar ağacları kimi çiçək açır. Nərgiz ananın torpaq ətirli barmaqları sünbül-sünbül dən tutur. Aybəniz kiçik qollarını madar qardaşı Seyidağanın boynuna dolayır bu nağıllaşan günlərdə...

Sonrakı nağılda aylar günləri, illər ayları arxada qoyur. Ömrün zirvə deyilən səmtinə üz tutur Seyidağa. Bu nağılın sonunda uşaqlıq illəri əl edir ona. Orta məktəbdə keçirilən «son zəng» mərasimində Seyidağanın dodaqlarından qopan bir şeir kövrəldir bizi:

*Ey Vətən, eşqinlə zirvə aşmışam,*
*Sanma ki, hardasa yolu çaşmışam.*
*Odlu nəfəsinlə yaşıllaşmışam,*
*Səndən ayrı düşsəm, solaram, Vətən!*

*Kim deyər həvəsim sinəmdə sönüb,*
*Qəlbimin rübabı səninlə dinib*
*Ölsəm də bir ovuc torpağa dönüb,*
*Qoynunda əbədi qalaram, Vətən!*

Bu nağılın sonuncu cümlələrindən barıt qoxusu, güllə səsi gəlir. Yurdumuza tuşlanan mərmilərin yolunu kəsmək üçün Seyidağa Horovludakı evləri ilə, on dörd il əvvəl dunyadan köçən atasının gor evi ilə və bir də sevimli bacısı Aybənizlə vidalaşıb cəbhəyə yollanır bu nağılda. Anası Nərgiz xanımın göz yaşları kövrək sətirlərdən boylanır burdan belə...

### SON NAĞILDAN ETÜDLƏR

Seyidağanın ömrünün son olayları od-alov içərisindən adlayıb. Özü öz əlləri ilə və bir də igidlik hünəri ilə yazıb bu nağılı. Doxsan ikinci ildən başlayan bir ömrün etüdləri doxsan üçün iyirmi iki dekabrında sonuncu akkordda başa çatır. «Nağıl atı yüyrək olur», - deyiblər. Bu iki ildə tale Seyidağanı dönə-dönə sınaqdan çıxarıb. Ölüm ölümlüyü ilə qıymayıb ona. Bəlkə də güllələr ondan yan keçib ki, bir ocağın işığı sönməsin. Bəlkə də o vaxtlar ölümün rəhmi gəlib ona. Tanrı Nərgiz ananın, Aybəniz bacının dualarını eşidərək Seyidağanın cavanlığına qıymayıb. Cəbrayılın Şayaq, Ağ

yol, Banazur torpaqları uğrunda gedən qanlı döyüşlərdə o, Vətən sevgisinə layiq olduğunu sübuta yetirib. Rayonun süqutundan bir az qabaq Daşbaşı uğrunda gedən döyüşlərdə Seyidağanın anası namaz üstündəymiş demə. O qanlı savaşda bir neçə yoldaşları ilə bərabər vuruşa-vuruşa mühasirədən çıxa bilib. Dar ayaqda soyuqqanlı olması, igidliyi köməyinə gəlib onun. Seyidağanın ömrünün sonuncu sətirləri Gəncə ətrafında nağıllara köçüb. Doxsan üçün axırına doqquz gün qalanda Seyidağanın şəhidliyi ilə bu nağıl da yarımçıq qalıb...

On doqquz yaşın şirinliyini təzəcə yaşayan Quliyev Seyidağa Əbil oğlunun nakam ömrünün ağrıları İmişlinin cadır şəhərciyində müsibətli günlərini yaşayan Nərgiz ananı odsuz- ocaqsız yandırmaqdadır hələ də. Sevimli qardaşının ölümündən sinəsi şan-şan olan Aybəniz Seyidağanın nağıllaşan şəhid ömründən yadigar xatirələrlə ovundurur özünü. Bu xatirələrdə dil açan igid eloğlumuzun səsini, avazını eşidirik indi də:

- Mən bu torpağın azadlığı naminə canımdan keçmişəm. Azadlığı qazanmaq istəyi də, onu qoruyub saxlamaq amalı da şəhid qanı ilə başa gəlir...

Elə buna görə də Azadlıq adlı neməti bizə ərmağan verib dünyadan yarımçıq köçdü Seyidağa. İndi o, yurdumuzu oymaq-oymaq gəzib dolaşan nağıllarda yaşayır...

## ƏN BÖYÜK MÜSİBƏT



***Quliyev Aydın Tapdıq oğlu***
***doğulub – 08.04.1970-ci il,***
***Cəbrayıl rayonu, Məzrə kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

«Dərd bir qapını tanıdımı, oradan çətin ayaq çəkər», - deyib dərdlilər. Doxsan üçüncü ilin avqustunda Məzrə kəndinə müsibət batmanla gəlmişdi elə bil. Camaat Yuxarı Məzrədə namərd gülləsinə tuş gələn Qönçə bacını dəfn edib təzəcə geri qayıdırdılar ki, onun bacısı oğlu Aydının da şəhid olması xəbəri kəndə yetişdi. Yas-yasa, müsibət-müsibətə qarışdı burada. Zeynəb nənə dümağ birçəklərinə əl atıb, üz-gözünə döyəclədi:



*Ay çərxi dönən canım,*
*Çırağı sönən canım.*
*Şəhid balamın üstə,*
*Saç yolub, dinən canım.*

O gün təkcə məzrəlilər yox, bütün el-oba ağlayırdı Aydını. Dəfnə özlərini çatdıran əsgər dostları onun tabutunu çiyinlərinə alıb kənd qəbiristanına yola düşəndə dünyagörmüş kənd ağsaqqallarından biri əlinin arxası ilə gözünü silib:

- Qönçəni qana boyayan, Aydını qızıl gülləyə hədəf edən bu namərd erməniləri, axı, illər boyu biz özümüzə dost bilmişdik. Niyə çörəyimiz gözlərini tutmur, haqqı-sayımız zəlil etmir onları?..

O gün Aşağı Məzrədə qurulan qoşa yas mağarında söhbət Qönçənin faciəli ölümündən, Aydının şəhid olmasından gedirdi. Adamlara bircə toxdaqlıq verən o idi ki, hər iki mərhumun qisası alınmış, qanları yerdə qalmamışdı...

Camaat danışırdı ki, Qönçə bacı səhər tezdən qalxıb mal- qaranı örüşə ötürmək üçün kəndin qırağına çıxanda erməni quldurları onu gülləyə tuturlar. Qarşı tərəfdən gələn Müzəffər anasının son nəfəsdə dediyi sözləri göz yaşı axıda-axıda dinləyir:

- Oğlum, südümü sənə halal eləmərəm, əgər qisasımı yerdə qoysan...

Müzəffər evlərinə qaçıb qoşalülə tüfəngi götürərək bayıra atılır. Kəndə doluşan ermənilərdən ikisinin ona tərəf gəldiyini görən kimi barmağını tətiyə aparır. Quldurların yerə sərildiyini görəndə anasının hələ hərarəti soyumayan cəsədinin üstə çöküb:

- Arxayın ola bilərsən, qisasını aldım, ana! - deyir...

O gün xalasının ölümündən xəbərsiz idi Aydın. Heç ağlına da gəlməzdi ki, Daşbaşı döyüşü həyatının sonuncu nöqtəsi olacaq onun. Sübhün gözü açılandan qarşı tərəfə od yağdırırdı. Arada sürünə-sürünə arxa tərəfə keçmək istəyən quldurların hənirtisini seçərək sərrast atəş ilə onları biçib tökdü. Döyüş azca səngiyəndə əsgər dostu İlqar yan tərəfdəki mövqedən onu muştuluqladı:

- Aydın, səni təbrik edirəm, atdığın güllələr quldurların beşini cəhənnəmə vasil edib...

Aydına ürəkdən sevinmək düşmədi o gün. Döyüşün sonuna yaxın qarşıdakı qayanın arxasında daldalanan quldurun atdığı güllə sinəsini qana boyadı onun...

O gün Əminə ana üzünü şəhid balasının qanı qaçmış dodaqlarına söy-

kəyib haray qopardı. Gəmaləylə İfrayənin hıçqırıqları qardaş müsibətinin ağırlığından soraq verməkdə idi. Onlara təsəlli vermək üçün kimin isə cəsarəti çatmırdı elə bil. Birdə ki, təsəlli verən adammı qalmışdı? Hamı dərd çəkən, qəm bölüşən idi burada.

## ELLƏR UNUTMAZ SƏNİ...



***Quliyev İlqar Əliş oğlu***
***doğulub - 19.01.1970-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 05.05.1994-cü il,***
***Tərtər rayonu***

Yurd yerlərimiz düşmən əlinə keçəndən sonra Cəbrayıl camaatı Azərbaycan ellərinə elə səpələnib ki, axtardığın adamı tapmaq müşkül məsələyə çevrilib. Şəhid Quliyev İlqar Əliş oğlunun doğmalarını soraqladığımız bir vaxtda Zahid həkim əlimizdən yapışdı. Horovlu kəndinin sayılıb-seçilən ziyalılarından olan Zahid İmanov neçə müddətdir ki, Bakıyla Mingəçevir arasında cığır salıb. Ruzi dalınca Bakıya yollansa da, dörd qız balası üçün qəribsəyəndə Mingəçevirə üz tutur Zahid həkim. Horovlunun qeyrətli şəhid balalarından olan İlqarın xatirəsinə həsr etdiyimiz bu yazı Zahid həkimlə görüşdən sonra qələmə alınıb...

Səksən səkkizinci ilin fevralından başlayan yurd savaşı Horovlu kəndindən də yan keçməyib. Üç-dörd ilin içərisində neçə-neçə igid balasının şəhid məzarını qucaqlayıb kənd camaatı. Ramilin, Seyidağanın, Vahidin, Vüqarın, Cavidin, Nəsirin... ölümü horovluların amanını qırıb. Doğma yerlərindən perik düşəndən sonra Tanrı onlara qalaq-qalaq müsibətli günlər verib. Gəncə ətrafında, Seyfəli poliqonunda həlak olanların ili çıxmamış Quliyev İlqarın şəhidlik xəbərini eşidiblər...

Zahid həkimin dediklərindən:

İlqarı uşaq çağlarından tanıyırdım. Atası Əliş kişi uzun illər boyu Beyləqanda, Mil üzümçülük sovxozunda müəllim işləmişdi. İlqar ata-baba ocaqları Horovluya tez-tez gələrdi. Əliş müəllim dünyasını dəyişəndən sonra Qəmzə bacı uşaqları ilə birlikdə kəndimizə qayıtdı. Uşaqlarını ərsəyə çatdırmaq üçün kipriyi ilə od götürən bu qadının əlləri cadar-cadar idi. Uşaqları ağıllı-fərasətli çıxdılar Qəmzə ananın. Böyük oğlu Kazım Kursk vilayətində böyük bir təsərrüfata sədr seçildi, elə indi də orada yaşayır. Nazim sürücü, Zəminə mühasib, Cəmilə müəllimə oldu. Qardaşların ən kiçiyi olan İlqar da aman tapsaydı, bir sənətin yiyəsi olmalıydı...



Bizim qeydlərimizdən:

Deyirlər Allah hər yetəni sevmədiyi kimi, hər adama da şəhidlik haqqı vermir. Bu haqqa o kəsləri çatdırır ki, onlar öz sevgiləri ilə mənsub olduqları el-obaya başucalığı gətirirlər. Horovlunun son şəhidlərindən olan İlqar Quliyevi könüllü olaraq cəbhəyə çəkib aparan Vətən sevgisi idi. Əslində o, əsgəri xidmətini başa vurandan sonra Rusiyada yaşayırdı. Arada evlərinə baş çəkib yenidən oraya qayıtmaq niyyətində idi. Ancaq Horovluya gələndə camaatın necə təlaş keçirdiyini görüb, geriyə qayıtmağı qeyrətinə sığışdırmadı, barıt qoxulu səngərləri özünə məskən seçdi...

Cəbrayıl torpaqları uğrunda gedən son döyüşlərdə də iradəli bir əsgər olduğunu göstərmişdi İlqar. Ulu yurd yerlərimiz əsirlikdə qalandan ən çox yanıb qovrulan əsgərlərdən biri də İlqar idi. O, düşmənin bu cür uğurlu əməliyyatlar keçirəcəyini heç cürə ağlına sığışdıra bilmirdi. Elə hey deyirdi ki, bizi ermənilər yox, xəyanətkarlar və bir də dovşan kimi qorxaq olan bəzi komandirlər bu günə qoyurlar...

İlqar dünyaya yaşamaq istəyi ilə gəlmişdi. Müharibə olmasaydı, o özünü başqa bir sənətdə sınayacaqdı. Zəhmətsevər olduğundan hansı sahəyə üz tutsa uğur qazanası idi İlqar. Ancaq Vətənin dar günündə o əsgərliyi seçdi. Və son nəfəsinə kimi əsgər şərəfini ləyaqətlə qorudu. Quliyev İlqar Əliş oğlu doxsan dördüncü ilin mayından Beyləqan torpağında uyusa da, onun şəhidlik zirvəsindən gələn səsi heç vaxt itən deyil:

*Torpaqda göyərdəcək,*
*Gələn bahar, yaz məni.*
*Mən bu yurdun oğluyam,*
*Ellər unutmaz məni...*

# TANRININ SEVİMLİSİ



***Quliyev Əhməd Nəsib oğlu***
***doğulub - 10.1969-cu il,***
***Cəbrayıl rayonu, Niyazqulular kəndi;***
***şəhid olub - 16.04.1993-cü il,***
***Cəbrayıl bölgəsi***

Əhməd Həbibə bacının iyirmi dörd yaşında dünyasını dəyişmiş qardaşının adını daşıyırdı. Elə buna görə Həbibə ana Əhmədi həm uşağı, həm də qardaşı kimi çox istəyir, onu «oğlum-qardaşım» - deyə çağırırdı. Hərdən Əhmədin özü də anasının dən düşən saçlarından öpüb:

- Ay ana, mən sənin üçün iki adam əvəziyəm, həm oğlun, həm də qardaşınam, - deyərdi. Bu sözlərin şirinliyi Həbibə bacının qəlbini dağa döndərər, oğlunun yaraşıqlı boyunu oxşayıb əzizləməkdən yorulmazdı. Bacıları Zərövşan, Şəkurə, Göyərçin, Firəngiz və Pərvanə gecə-gündüz Əhmədin başına dolanar, onun hər bir istəyinə sözsüz əməl edərdilər. Evdəkilərin nəvazişləri qəlbinə yağ kimi yayılsa da ərköyünlüyün nə olduğunu bilməzdi Əhməd. Yanımlı olduğu qədər də sadə idi, kimsə dilindən acı söz eşitməmişdi onun. Kəndlərinin üst tərəfinə söykənən Gəyən düzlərinin yovşan qoxusunu ciyərlərinə çəkdikcə barı-bərəkəti tükənməyən torpağın qüdrətinə «əhsən» deyirdi ürəyində:

*Gözlərimdə Şah dağımdı, Dirimdi,*
*Ürəyimdə Qurbanimdi, Pirimdi.*
*«Hacı Qaraman»da qibləm, pirimdi, -*
*Halal ruzum, çörəyimdi bu torpaq.*

Bu misralar Əhmədin Vətən sevgisindən, yurd istəyindən doğulmuşdu. Gündoğandan günbatana qədər üfüq-üfüq uzanıb gedən bu torpaq ona anasının südü, bacılarının şirin kəlmələri qədər əziz idi...

Orta məktəbi qurtarandan sonra da Əhməd ana torpağın cazibəsindən uzaqda dayana bilməmişdi. Litva şəhərində keçən iki illik əsgərlik dövründə də evlərinə qanad açan məktublarında Diri dağını, Gəyən çöllərini, Xudafərin körpüsünü və doğma kəndləri Niyazquluların üst tərəfindəki büllur kəhrizi həsrətlə yad edər, evlərindən ötrü burnunun ucu göynəyərdi...



Bacısı Firəngizin dediklərindən:

- Tula şəhərindəki Politexnik İnstitutuna imtahan verəndən sonra nəticəsini gözləməyə səbri çatmadığından qardaşım birbaşa Vətənə qayıtmışdı. Evimizə gələndən bir həftə sonra xəbər tutduq ki, instituta qəbul olunub. Həmin günlərdə Moskva-Bakı qatarındakı vaqonlardan birinin partladılması evimizdə xeyli söz-söhbətə səbəb oldu. Anam tələbə adının sevinci ilə yaşayan qardaşıma üz tutub:

- Qadan canıma, - dedi. - Görürsən ki, aləm bir-birinə qarışıb. hər yanda dərəbəylik baş alıb gedir. İnsanın ölümü bir içim sudan da asan olub. Belə bir vaxtda səni gözlərimdən uzağa qoya bilmərəm. Oxumaq qaçmır ha, nə çoxdur Bakıda institut. Qismət olsa, orada oxuyarsan...

Bacım Pərvanə də eyni istəklə Əhmədə üz tutdu:

- Qaqaşımı heç yana buraxan deyiləm. Sən getsən bizdən kim muğayat olar, kim qeydimizə qalar burada?..

Balaca Təhminə bizim dediklərimizi anlayıbmış kimi əl atıb Əhmədin pencəyinin ətəyindən yapışdı:

- Dayı, mən istəyirəm burada qalasan...

Evdə Əhmədi Tula şəhərinə getməyə qoymasalar da, cəbhəyə getmək arzusundan döndərə bilmədilər. O, qəlbi ilə, canı ilə bağlandığı ana Vətənin müdafiəsi üçün özünü odun-alovun içərisinə atdı. Yurdumuzun dilbər guşələrindən olan Cəbrayıl ellərinin düşmən əlinə keçməməsi üçün son nəfəsinə kimi qeyrətlə döyüşdü Əhməd. Taleyinə düşən şəhidlik adının işığı ilə addımlayıb özündən xeyli qabaq dünyasını dəyişən Şikarın, Mirələmin, Kazımın, Vüqarın... yanına tələsdi. Vətən sevgisi ilə, ulu Tanrı mərhəməti ilə mükafatlandırdı onu...

## BİZ ŞƏHİD BALASIYIQ...



***Quliyev Valeh Məhəmmədəli oğlu***
***doğulub - 1965-ci il,***
***Cəbrayıl rayonu, Niyazqulular kəndi;***
***şəhid olub - 28.12.1993-cu il,***
***Ağdam rayonu, Şahbulaq kəndi***

O gün Ağdam torpağı alışıb yanırdı elə bil. Mərmi yağışı altda irəliləmək çətin olsa da leytenant Valehin vzvodu Şahbulaq kəndi uğrunda gedən döyüşlərdə əsl fədakarlıq göstərməkdə, düşmənin yolu üstə köklü qaya kimi dayanıb durmaqda idi. Təpədən-dırnağa kimi silahlanan düşmən canlı sipərə dönən igidlərimizin inadını sındıra bilməyib hiyləyə əl atdı. Valehgilin başı vuruşmaya qarışdığından bir də onda gördülər ki, mühasirəyə düşüblər. Təbiəti etibarilə soyuqqanlı olan və ən çətin məqamlarda belə özünü itirməyən Valeh Quliyev ani olaraq mühasirə həlqəsini yarmağı, həyatı bahasına olsa belə yoldaşlarını xilas etməyi ən düzgün yol hesab etdi:

- Qardaşlarım, igidlərim, mən düşmənin sol cinahını atəş altda saxlamaqla onların başını qatacağam, siz sağ tərəfdən hücuma keçib xilas olmağa çalışın.

Valehin mərmi sədaları içərisindən eşidilən səsi əsgərlərimizə qüvvət, təpər verdi elə bil. Düşmənlər igidlərimizin qəfil hücumunu gözləmədiklərindən özlərini itirib pərən-pərən düşdülər...

O qanlı döyüşdə Valehin sərrast güllələri ondan artıq erməni quldurunu qanına qəltan elədi. Onun iti ağlı sayəsində neçə-neçə əsgərimiz ölümün pəncəsindən xilas oldu həmin gün. Fəqət, təkcə Valeh özü üstünə gələn ölümdən qoruna bilmədi. Ürəyini dəlib keçən sərrast bir güllə onu torpağa sərsə də gözlərindəki məmnunluq hissini yox etməkdə aciz idi...

Ölümü ilə neçə-neçə Vətən oğluna həyat bəxş edən bu igid komandiri dostları Bakıdakı Şəhidlər xiyabanında torpağa tapşırdılar. Həmin gün Valehin dəfnində yaxın, uzaq adamlar, o cümlədən o vaxtlar Azərbaycan Respublikasının Dövlət katibi işləyən Lalə-Şövkət Hacıyeva da yaxından iştirak etdi...

Niyazqulular kəndi Quliyev Valeh Məhəmmədəli oğlunun ata ocağıdır. O bu kənddə böyümüş, pərvazlanıb qanad açmışdı. Zəhmətkeş ailədə doğulduğundan ürəyi təpərli, işə-gücə həvəsli idi. Orta məktəbi bitirəndən sonra Qazaxıstan Respublikasında əsgəri xidmətdə olmuş, geriyə qayıdan kimi rayondakı 836 saylı yol-tikinti idarəsində əmək fəaliyyətinə başlamışdı...



Arzuları böyük idi Valehin. 1987-ci ildə İnşaat Mühəndisləri İnstitutunun qiyabi şöbəsinə qəbul olunanda elə bil dünyanı bağışlamışdılar ona. İstəyirdi ki, ali təhsilli bir mühəndis kimi abad yollar çəkib körpülər qursun. Torpağı torpağa, ürəkləri ürəklərə calasın. Elə bu həvəslə də peşəsinin kamil ustadı olmaq üçün gecə-gündüz kitabları əlindən yerə qoymur, biliyini, təcrübəsini artırırdı.

Sonuncu kursda oxuyanda erməni təcavüzkarlarının quduğanlığına dözməyib cəbhəyə üz tutdu. Həyat yoldaşı onun qarşısında dayanıb:

Qurban olum, ay Valeh, - dedi. - Səni yaxşı tanıdığımdan qərarına etiraz etməyi heç ağlıma da gətirmirəm. Get, uğur olsun, ancaq yadında saxla ki, arxada səni bütün varlığı ilə istəyən bir qadın və iki körpə qız balan var...

Bilirdim ki, belə deyəcəksən, əzizim. Arxayın ol, mən gülləbatmazam, düşmən heç yel olub yanımdan da ötə bilməz.

- Təki belə olsun, ancaq atalar deyib ki, ehtayatlı igidin anası ağlar qalmaz. Qurban olum, ölüm qaşla göz arasındadır. Bir az ehtiyatlı ol...

Rayon ərazisi işğal olunan günə qədər Valeh ana deyib məhəbbətinə sığındığı Cəbrayıl torpaqlarına sinəsini sipər etdi. Düşmən gülləleri Arazın sularını çilikləyəndə o da doğma yerlərdən ağlar gözlə uzaqlaşdı...

Valehin ölümündən sonra onun fidan balaları Əfsanə və Aysel hələ də ovunmurlar. Onlara elə gəlir ki, ataları nağılların qəhrəmanları kimi günlərin birində gəlib çıxacaq, onları bağrına basacaq. Ancaq vaxt gələcək ki, Valehin yadigarları onun hünərindən xəbər tutub, ataları haqqında fəxrlə danışanda: Biz şəhid balalarıyıq, atamız torpaqlarımızın azadlığı uğrunda canından keçib, - deyəcəklər. O vaxtlar şəhid Valehin sığındığı bir şeir də səslənəcək onların dilində:

*İgidlər son qoyubdu,*
*Bu yurdun fəryadına.*
*Sığınmışıq həyatda,*
*Atamızın adına.*

*Onun amalı böyük,*
*Onun sevgisi dərin.*
*Şöhrəti solmur heç vaxt,*
*Torpağı sevənlərin.*

# İGİD ÖLƏR, ADI QALAR



***Quliyev Araz Həsən oğlu***
***doğulub - 22.08.1973-cü il,***
***Cəbrayıl rayonu, Maralyan kəndi;***
***şəhid olub - 03.07.1994-cü il,***
***Füzuli bölgəsi***

Çərxin dönsün fələk, mənim Araz balam nə günahın sahibi idi ki, onu yağı gülləsinə tuş gətirdin. Axı o, qız kimi həyalı, mələk kimi günahsız idi. Ömründə kimsənin toyuğuna da kiş deməmişdi. Tifaqın dağılsın erməni, Arazım sənə nə etmişdi ki, onun sevgilisini boynuburuq, bizi gözüyaşlı qoydun. Bu dərdi, bu sitəmi qurban olduğum Allah götürməz...

Doxsan dördüncü ilin iyul ayında Xavər ananın dilindən qopan bu kəlmələr aləmdən qəddi bükülən el-obamızı dolaşdıqca bizi odsuz-ocaqsız yandırır. Ciyəri dağlı ananın çərxifələyə ünvanlanan sonsuz qarğışları Tanrı səbrini belə lərzəyə salır, ləyaqəti tapdanan xalqımızı qisasa, cihada çağırır...

Quliyev Araz Həsən oğlunun cəbhəyə yolu doxsan ikinin on beş martından başlayır. Mingəçevir şəhərindəki Cəbrayıl rayon müstəqil orta məktəbinin direktoru Mehrac Dadaşovun yaddaş notlarından: Araza Maralyan kənd orta məktəbində bir neçə il dərs demişəm. Çox fərasətli, diribaş uşaq idi. Günlərin birində qəfildən Milli Ordu sıralarına könüllü olaraq getdiyini eşidəndə təəccüblənmədim. Bilirdim ki, elə əzəldən torpaq yolunda nəyə desən hazırdır...

Araz ilk dəfə barıt qoxusunu Sur döyüşlərində ciyərlərinə çəkib. Doxsan ikinin iyununda seçmə oğullarımızın qanına qəltan edilməsi ilə nəticələnən bu əməliyyat zamanı o, cəsur bir pulemyotçu kimi neçə-neçə quldurun anasını ağlar qoyub. Şəhid olan əsgər yoldaşlarının qisasını aldığı üçün ürəyində öz- özünə təsəlli verib...

Həmin ilin avqustunda Şişqaya uğrunda gedən qanlı vuruş- mada Araz qeyrətini sipərə döndərsə də məkrli düşmən gülləsi onu uzun müddət əsgər dostlarının sırasından uzaq salıb. Bəlkə də müdhiş anlarda igid komandir Tahir Əliyev öz həyatı bahasına (Arazı xilas edərkən komandir özü də ağır



yara almışdı) onu döyüş meydanından çıxarmasaydı Araz düşmən əlinə keçəsi idi...

Xəstəxanada yatdığı üç ay ərzində elə gün olmurdu ki, Araz döyüş yerlərini, əsgər yoldaşlarını, könül verdiyi sevgilisini xatırlamasın. Evlərinə qayıdanda onun cərrahiyyə aparılan sol ayağı sağ ayağına nisbətən bir qədər qısalsa da, o bunu büruzə verməməyə çalışır, cəbhəyə yola düşəcəyi günü səbirsizliklə gözləyirdi...

Nə anası Xavər bacının yalvarışları, nə kənddəki sevgilisinin göz yaşları, nə də ki, həkimlərin «bu ayaqla əsgəri xidmətə yaramırsan» sözləri Arazı inadından döndərə bilmədi. O, doxsan dördüncü ilin aprelində yenidən döyüşçü dostlarının sırasına qoşuldu. Milli Ordunun əsgəri, Arazın döyüş yoldaşı Niyazinin dediklərindən:

- Araz sözün əsl mənasında igid oğul idi. Sur və Şişqaya döyüşlərindəki hünəri hələ də yadımdadır. Arazboyu torpaqlar uğrunda gedən qanlı vuruşlarda göstərdiyi şəxsi igidliyi onu hamımızın gözündə ucaltdı. Ona yanıram ki, Araz atəşkəs dövründə namərd gülləsinə tuş gəldi...

Aşağı Əbdülrəhmanlı kəndi ətrafında şəhid olan bu igid oğlanın Əlibayramlıdakı Şəhidlər xiyabanında uyuduğunu bilsək də uzun müddət ailə üzvlərini tapmadıq. Maralyanlı dostumuz Cahangir Məmmədovun yazdığı əl boyda məktub son məqamda harayımıza çatdı. Cahangir Arazın ömür yolundan söz açan sətirlərə onun sevgilisinin dilindən deyilən qəmli bir şeirin dörd misrasını da əlavə edib göndərmişdi:

Ömrüm boyu ürəyimdə,
Sənə nəğmə deyəcəyəm.
Səni sənsiz, gizli-gizli
Mən öləncə sevəcəyəm...

Şəhidlər ölümsüz olur, deyiblər. Araz kimi oğullar əbədi sevgiyə layiqdirlər...

## ŞƏHİD OCAĞINDA BÖYÜYƏN OĞUL



***Quliyev Rövşən Nadir oğlu***
***doğulub - 20.06.1967-ci il,***
***Sumqayıt şəhəri;***
***şəhid olub - 26.02.1994-cü il,***
***Kəlbəcər bölgəsi***

Quliyev Rövşən 1967-ci ildə Sumqayıt şəhərində anadan olmuşdu. Orta məktəbi də orada bitirmişdi. Şəhərdə yaşamasına baxmayaraq ürəyi rayonumuzla döyünürdü. Hər yay çinarlı Cəbrayıla qonaq gəlir, yaylaq havalı bu şəhəri gəzib dolaşmaqdan doymurdu. Onların ailələri anası Elmiranın arzusu ilə 1990-cı ildə doğma Cəbrayıla köçüb gələndə Rövşənə elə bil dünyanı bağışladılar. Rövşən qollarını çırmayıb anasına yaraşıqlı həyət-bacası olan bir ev tikdi. Rəhmətliyin əlləri hər şeyə qadir idi, bütün tikinti işlərini özü görmüşdü burada. Xocalı soyqırımı baş verəndə onun qabarlı əlləri yanına düşdü. Gecə-gündüz dil boğaza qoymadan deyirdi ki, daha dözə bilmirəm, döyüşə getməsəm ömrüm boyu özümü bağışlamayacağam. Axır ki, Rövşən dediyini etdi. Doxsan ikinci ilin aprelində əyninə əsgər paltarı geyinib dağlara üz tutdu.

Rövşən ağciyər oğul deyildi. Nə qışın şaxtası, nə də yayın bürküsü ona təsir edirdi. Şəhərdə böyüməsinə baxmayaraq Cəbrayılın dağını-daşını elə tanıyırdı ki, elə bil göbəyi burada kəsilmişdi. Bir gün anası dedi ki, Rövşən, qadan canıma, gəl toyunu edək. Rövşən əvvəlcə razılıq vermədi, anasının qayınana olmasını müharibə qurtaran vaxta saxlamaq istədi, amma onun qüssələndiyini görüb yumşaldı.

Rövşən bəylik paltarında iki-üç gün gəzdi. Sonra əsgər libasında yenidən postlara getdi...

Taleyin işinə bax, Rövşənin şəhidliyindən altı gün qabaq dünyaya bir körpəsi gəlmişdi. Cavan ata oğlunun gəlişindən xəbərsiz idi o vaxt. Evdəkilər bu xoş xəbəri ona çatdırmağa macal tapmamışdılar. İnnən belə hər dəfə 1994-cü ilin 20 fevralında dünyaya göz açan oğlu Rövşənin ad gününü qeyd edəndən altı gün sonra şəhid atanın - Quliyev Rövşən Nadir oğlunun da ölüm gününü sükut dolu hüznlə keçirəcəklər. Körpə Rövşən bir şeirin kövrək misralarına sığınıb Sumqayıtın Şəhidlər xiyabanında uyuyan atasına baş çəkəcək, Elmira nənəsinin dilində göyərən sözlərə üzünü söykəyəcəkdir:



*Sən şəhid bir atanın,*
*Daşıyırsan adını.*
*Eşitməyək dilindən,*
*Naləni, fəryadını.*

*Böyük arzularınla,*
*Əzizləyək boyunu.*
*Nənən Elmira görsün,*
*Büsatını, toyunu...*

## ONUN YERİ ZİRVƏDƏDİR

***Qurbanov Dədəkişi Əhməd oğlu***
***doğulub - 21.04.1961-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub – 18.04.1994-cu il,***
***Füzuli bölgəsi***



Deyirlər hardasa ölümün də qəribə xisləti var. Xoşladığı adamı dilə tutub özü ilə aparmayınca yaxasından əl çəkmir onun. Ölümün Dədəkişidə çoxdan gözü var idi. Uşaq çağlarından boyunu oxşayır, axşam, səhər yanından əskik olmurdu. Yaxşını yamandan tez girinə keçirən, qarıyıb qartıyan bu ölümün Tanrıdan qorxusu olmasaydı, Dədəkişinin anasını çoxdan ağlar qoyardı. Ancaq Tanrının bu cavana qıymağa əli gəlmirdi. İstəyirdi ki, o, bütöv ömür yaşasın, ürəyində gəzdirdiyi arzuları ilə vüsala yetsin. Ulu Tanrının qırımını görəndən sonra ölüm qiyafəsini dəyişib erməni cildinə girdi. Əlinə silah götürüb Kürd Mahmudludan o üzdəki təpələrin arxasında gizləndi. Bilirdi ki, Dədəkişi gec-tez üstünə gələcək. Əvvəlcə kəmənd atıb onu əsir almaq fikrinə düşdü. Ancaq döyüş postlarında ayıq-sayıq dayanan bu oğlanın ağlını, fərasətini görəndən sonra erməni fəndgirliyi ilə fikrini dəyişib Dədəkişini qarabaqara izləməyə başladı. Əlinə ilk fürsət düşən kimi onun sinəsini nişan aldı. Sinəsi didim-didim olan bu igid əsgərin bir daha ayağa qalxmayacağını yəqin edəndən sonra ölüm erməni qiyafəsindən çıxıb muştuluq üçün Əzrayılın üstə qaçdı...

Ulu Füzulinin adını daşıyan torpaq günahsız bir insanın faciəli ölümünə göz yaşı axıtdı o gün. Hönkür-hönkür ağlayan ana torpaq dilə gəldi bir an içində:

*Mən aranam, mən dağam,*
*Solğun üzlü yarpağam.*
*Mən Vətənəm, torpağam,*
*Bu sayaq sitəm olmaz.*

Böyük Mərcanlı camaatı Dədəkişini sakit, ifallı bir cavan kimi qiymətləndirib xətrini istəyirdi. Pirani qocalar onun arxasınca baxaraq: «Ağılda, kamalda atası Əhməd kişiyə çəkib», - deyirdilər. Dədəkişi zəhmətkeş ailədə böyüdüyündən halal ruzu soraqlısı idi. İki illik əsgərlik həyatı da sonralar onu kənddən qopara bilməmişdi. Əsgərlikdən qayıdan kimi gücü çatdığı işdən yapışaraq minnətsiz çörək yemişdi. Mərcanlının yovşan ətirli torpaqlarına elə aludə olmuşdu ki, özünü bu yerlərdən uzaqlarda təsəvvür edə bilmirdi. Taleyini doğma kəndi ilə bağlayandan sonra oxumaq fikrinə düşmüşdü Dədəkişi. 1987-ci ildə Şuşa Kənd Təsərrüfatı Texnikumunu zootexnik ixtisası üzrə bitirən kimi Mərcanlıya qayıdıb el-obasının xidmətində dayanmışdı...

Doxsan üçün payızında el-obalarımızın üstündən ötüb keçən qara yel Dədəkişinin də növrağını pozdu. O, ailə üzvləri ilə birlikdə doğma yerləri ağlar gözlə tərk edib özgələrin mərhəmətinə sığışmalı oldu. Günlərin birində öz-özünə dedi ki, daha bundan betər qara günlərimiz olmayacaq. Qəlbinin hökmü ilə Vətən deyib istəyinə sığındığı torpağın müdafiəsinə yollananda vicdanı da, duyğuları da sakitlik tapdı onun...

Taleyin işinə bax ki, o Dədəkişiyə əsgərlik həyatını da çox gördü. Bu igid oğlan cəbhəyə getmişdi ki, yurd yerlərini viranə qoyub el-obanı perik salanlardan qisas alsın. Bizə oba-oba məzarlar «bəxş» edən düşmənləri diz çökdürüb nigaran ruhları sevindirsin. Ancaq ölüm onun bu müqəddəs arzusunu gözündə qoydu. Cəmisi ay yarım Azərbaycan əsgəri adını daşıyan bu oğlan taleyin hökmünə boyun əyib şəhidlərin cərgəsində dayandı. Bundan sonra Dədəkişini o zirvədən düşürməyə heç kəsin gücü çatan deyil...



# QARDAŞ NİSGİLİ



***Qurbanov Qürbət Mustafa oğlu***
***doğulub - 25.03.1974-cu il,***
***Cəbrayıl rayonu, Minbaşılı kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Füzuli rayonu, Böyük Bəhmənli kəndi***

Vətənimizin sinəsinə düşmən gülləsi tuşlananda igid oğullarımız onun müdafiəsinə qalxdılar. Namusumuzu qorumaq, müqəddəs torpaqlarımızın yadelli işğalçıların tapdağına çevrilməməsi üçün ölüm-dirim savaşına girdilər ki, yurda atılan gülləlləri öz sinələrində soyutsunlar. Onlardan biri də elimizin igid oğlu Qürbət Qurbanov idi. On uşaq böyüdüb ərsəyə çatdıran Qəmzə xala ciyərparasını orduya yola salanda onu qucaqlayaraq üzündən-gözündən öpüb: «Get, oğlum, səni o bir Allaha tapşırıram. Ancaq bir məsləhətimi yaddan çıxarma. Çalış ki, düşmən səni arxadan vurmasın», - deyə xeyir-dua verdi.

Q. Qurbanov 1991-ci ildə kəndlərindəki orta məktəbi bitirdikdən sonra rayon hərbi komissarlığı onu Füzulinin Qarğabazar kəndindəki sürücülük kursuna göndərdi. Kursu müvəffəqiyyətlə başa vuran Qürbət 1992-ci ildə həqiqi hərbi xidmətə çağırıldı. O, hərbi xidmətə daxili qoşunların tərkibində başladı. İlk günlər ordu həyatı Qürbətə ağır gəlsə də ən çətin anlarda anasının öyüdünü xatırlayar, elə bil qollarına yeni qüvvət gələr, əhvalı durular, özünü çox gümrah hiss edərdi. Ancaq respublikamızın müstəqilliyini təhlükə altına alan Surət Hüseynovun qiyamçı dəstəsinin tərkisilah olunmasında iştirak edəndə çox təəssüflənmişdi. Düşünmüşdü ki, belə də iş olar? Birləşib düşmənlərimizi məhv etmək əvəzinə bir-birimizə qənim kəsilmişik. Elə onda da başa düşmüşdü ki, torpaqlarımız niyə asanlıqla düşmən əlinə keçir...

Q. Qurbanov özünü həmişə intizamlı, nümunəvi bir əsgər kimi göstərir, komandirlərinin tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirərdi. Ən başlıcası isə qorxu nə olduğunu bilmirdi. Erməni başkəsənlərinin ağlasığmaz vəhşiliklərini görən gənc əsgər daha da hiddətlənər, onlarla layiqli haqq-hesab çəkməyə can atardı. Qürbətlə bir hissədə xidmət edən yoldaşları belə söyləyirlər ki, erməni faşistləri Füzuli rayonunun Böyük Bəhmənli kəndinə güclü hücuma keçmişdilər. Olduqca təhlükəli vəziyyət yaranmışdı. Qürbət

cəsarətlə döyüşür, ermənilərі göz açmağa qoymurdu. Hətta, atışma zamanı qolundan yaralansa da səngəri tərk etmirdi. Döyüşün qızğın çağında namərd gülləsi Qürbətin sinəsini parçaladı.

Qürbətin həyatdan vaxtsız köçməsi Qurbanovlar ailəsini dərindən sarsıtdı. Şəhidin bacısı Gülpəri xanım yana-yana deyir:

- Qürbətin nakam ölümü ailəmizin ürəyinə ikinci dəfə şəhid dağı çəkdi. Ondan böyük qardaşım Sabir 1990-cı ilin Qara yanvarında həlak olmuşdu. Ümidimiz, təsəllimiz Qürbət idi. Bir bacı kimi məni yandırıb yaxan odur ki, ömrünün 19-cu baharını görmək ona nəsib olmadı. Gülpəri xanım qardaş nisgilinin ağırlığını ürəyinin qübarı, gözünün həsrətilə Qüdrətin ad gününə xatirə olaraq həsr etdiyi şeirdə belə ifadə edir:

*Sənin mərdliyinə heyran olmuşam,*
*Sənsiz də səninlə hər an olmuşam.*
*Sənin tək adına qurban olmuşam,*
*Ey şəhid qardaşım, igid qardaşım!*

*Düşmənin üstünə ürəklə getdin,*
*Vicdanla, namusla, qeyrətlə getdin.*
*Qorxunu özündən sən uzaq etdin,*
*Ey şəhid qardaşım, igid qardaşım!*

*Ömrünə yazıldı on doqquz bahar,*
*Bu dərd ruhumuzu yandırıb-yaxar.*
*Şəklin qəmli-qəmli üzümə baxar,*
*Ey şəhid qardaşım, igid qardaşım!*

*Adın Qürbət idi, qürbətdə qaldın,*
*Yurdu qorumaqdı inamın, andın.*
*Vətəni hər şeydən müqəddəs sandın,*
*Ey şəhid qardaşım, igid qardaşım!*



## QULİYEV YASİF CƏMİL OĞLU



***Quliyev Yasif Cəmil oğlu***
***doğulub - 17.06.1977-ci il,***
***Cəbrayıl rayonu, Soltanlı kəndi;***
***şəhid olub - 19.02.1996-cı il,***
***Naxçıvan Muxtar Respublikası,***
***Sədərək rayonu***

Soltanlı kəndində anadan olmuşdu. 1984-cü ildə kənd orta məktəbinin birinci sinfinə daxil olmuş, 1993-cü ilin təlatümlü günlərində IX sinfi başa vurmuşdu. Avqust ayında Yasif valideynləri ilə birlikdə doğma kəndi ağlar gözlə tərk edərək Kürdəmir şəhərində məskunlaşmışdı. 1995-ci ildə Kürdəmir şəhərindəki 3 saylı orta məktəbi bitirmiş, elə həmin ilin iyul ayında hərbi xidmətə çağrılmışdı. Yasif əsgəri xidmətə Naxçıvanın Şərur rayonunun Qıvraq kəndində yerləşən hərbi hissədə başlamışdı. Onun əsgəri xidməti atəşkəs rejiminin davam etdiyi bir dövrə təsadüf etdiyindən valideynləri ondan tam arxayın idilər. Ancaq atalar deyib sən saydığını say...

Atəşkəs rejimi davam etsə də azğın ermənilər hər yerdə tez-tez sakitliyi pozur, bizim postları atəşə tuturdular. Belə hadisələr Sədərəkdə də vaxtaşırı təkrar olunurdu. Və belə atəşlərin birində 1996-cı il fevralın 19-da Yasif Cəmil oğlu Quliyev namərd düşmənin gülləsinə tuş gəldi. Kaş sonuncu şəhidimiz olaydı.

# YARAŞMAYIR ÖLÜM SƏNƏ...



*Eyvazov Teymur Eyvaz oğlu*
*doğulub - 1967-ci il,*
*Cəbrayıl rayonu, Soltanlı kəndi;*
*şəhid olub - 15.08.1993-ci il,*
*Xocavənd rayonu, Daşbaşı kəndi*

Soltanlı camaatı torpağa yanımlı, dosta sədaqətli olurlar. Mərd, ərən kişiləri ilə, dili bayatılı-ağılı ağbirçəkləri və bir də dəliqanlı cavanları ilə tanınır bu kənd. Soltanlını ölkəmizdə oba-oba, oymaq-oymaq şöhrətləndirən ağsaqqalları, ziyalıları da say-seçmədir. Əllinci illərdən üzü bəri Həsən Həsənov, Bəkir Abbasov, Əfsər Hüseynov, Allahverdi Verdizadə, Tofiq Hacıyev, Qəzənfər Kazımov, Sərdar Əsəd, Nailə xanım Verdizadə, Vaqif Məhərrəmov, Tahir Kazımov, Gülövşə xanım Məmmədova, Həsən Verdiyev... Soltanlıya başucalığı gətiriblər həmişə. Bu kəndin qan yaddaşında şəhid Rufizin, Maisin, Yelmarın, Elmanın, Faiqin, Rantiqin, Əlinin, İlqarın, Qüdrətin, Teymurun müqəddəs adları da əbədi ömür tapıb. Böyük elin dərdi dağ boyda olur, - deyiblər. Soltanlı camaatı Şah İsmayıl Xətai zamanından üzü bu yana dərdə, müsibətə sinə gəriblər. Qarabağ elimizin Xudafərin üzündə Tanrı mərhəmətinə söykənən soltanlılar bir vaxtlar Ağa Məhəmməd Şah Qacarın, Fətəli xanın, Abbas Mirzənin sərbazlarının döyənək etdikləri Topcaq düzünə zaman-zaman əlləri ilə sığal çəkib, özlərinin çörək təhnəsinə döndəriblər bu yeri. Yurd savaşı başlayan günlərə kimi Soltanlı əməkçilərinin hünəri dildə-ağızda gəzib dolaşıb...

Teymur həyatın mənasını halallıqda görən Eyvaz kişinin ocağında böyümuşdü. Anası Hamayıl bacı Teyyub, Teyfur və Şəfəqdən artıq istəyirdi Teymur balasının xətrini. Teymur ailənin çörək ağacı idi. Ayağı yer tutandan valideynlərinin qolundan yapışıb, evin hər işinə əl atmışdı. Yaşadığı kənddə üzüyola bir cavan kimi tanınmışdı Teymur. Yaşıdlarının sevimlisi, istəklisi idi. Qəlbə dəyməyi, kimisə incitməyi dünyada ən böyük günah hesab edirdi. 1985-87-ci illərdə uzaq Kalininqrad şəhərində əsgəri xidmətdə olanda da valideynlərinə xoş sözü, sorağı çatmışdı onun. Kəndə qayıdandan sonra əmək adamlarının sırasına qoşulmuşdu. Hərdən zarafatla Teymura deyirdilər ki, ayağın sayalıdır, sən təsərrüfata gələndən Topcağın taxılını,



üzümünü, biçənəklərin otunu-ələfini yığıb-yığışdırmaq olmur. Belə vaxtlarda ürəyi dağa dönür, duyğuları təlatümə gəlirdi onun. Hərdən duyğuları köklənəndə yadına neçə il qabaq əzbərlədiyi bir şeirin ilk misralarını təkrarlayırdı ürəyində:

*Soltanlıda igidləri soraqla, -*
*Xudafərin bir dastandır, varaqla,*
*Gəyəndəki büsata bax maraqla,*
*Dağ Tumasda yaşıl bağım tamaşa...*

Soltanlının sayılıb-seçilən cavanlarından idi Teymur. Orduya getməzdən bir il qabaq Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun mexanikləşdirmə şöbəsinə qəbul olunub təhsilini qiyabi yolla davam etdirirdi. Vətən deyib mehrinə-məhəbbətinə sığındığı torpaqdan elə yapışmışdı ki, ondan ayrılmağı ağlına belə sığışdırmırdı. Elə axırda torpaq yolunda da canından keçdi...

Cəbrayıl şəhərindəki yarlı-yaraşıqlı evlərini bayquş ulartılı düşmən «qrad»ları yandırıb külə döndərəndə işini-gücünü buraxaraq avtomat silahdan yapışdı. Milli Ordumuzun cavan əsgərlərinə təzə-təzə üzü-gözü öyrəşən Teymura Tanrı iki aylıq möhlət-aman verdi. Bu iki ayda o bütöv bir ömrün işığını- duyumunu yaşaya bildi. Bu iki ayda o Vətənə oğulluq borcunu qaytardı, əbədiyyət adlı yolun işıq ucunu soraqlayıb tapdı, yağı düşmənin gözünü yaşlı qoydu. Yaşasaydı, hələ neçə-neçə döyüş səngərindən səsi-sorağı gələsiydi onun. Demə, doğulandan alnına Daşbaşıda ölmək yazılıbmış onun. Tale axırıncı sınaqdan üzüağ çıxardı Teymuru. Daşbaşıdakı o qanlı gecədə son nəfəsinə kimi çarpışıb qəhrəmanlıqla həlak olsa da adını ölülərin cərgəsinə yazmadılar onun. Elə indinin özündə də Teymura heç kəs «ölüb» demir. Biz də igid eloğlumuzun nurlu xatirəsi önündə baş əyib:
- Qardaş, ölüm sənə yaraşmayır, - deyirik□

## ONUN QƏLBİ BÖLÜNMƏZDİR...



*Eyvazov Məzahir Sərməst oğlu doğulub - 17.05.1971-ci il, Cəbrayıl rayonu, Məzrə kəndi; şəhid olub - 07.05.1994-cü il, Füzuli rayonu, Kərimbəyli kəndi*

Sərməst kişi Bakı Dəmiryol Nəqliyyatı Texnikumunun həyətinə çatıb, bir-iki dəqiqəliyə nəfəsini dərdi. Qatardan düşüb istəkli oğlunu görmək üçün birbaşa buraya gəldiyindən evdən göndərilən sovqatı da özü ilə gətirməli olmuşdu. Pilləkənlə yuxarı qalxanda qoluna qırmızı lent bağlayan cavan bir oğlan qarşısına çıxdı:

- Sizə kim lazımdı, ay əmi?

- Oğlum burada oxuyur, təzə qəbul olunub, onu görməyə gəlmişəm.

- Adı, soyadı nədir oğlunuzun?

- Eyvazov Məzahir Sərməst oğlu, Cəbrayıl rayonundandır...

- Əmi, yaxşı tanıyırdım oğlunuzu, çox diribaş tələbə idi, mənimlə qonşu qrupda oxuyurdu. İki aya yaxındır ki... - tələbə oğlan sözünə ara verib həyəcandan haldan-hala düşən kişiyə fikir verib tələsik əlavə etdi: - Oğlunuz daha oxumur, iki ay əvvəl öz xoşu ilə cəbhəyə yollanıb...

- Nə danışırsan, a bala, bəs bizə niyə bu barədə xəbər verməyib?

Oğlan çiyinlərini çəkib:

- Əmi, istəyirsən qalx yuxarı, direktorun özü ilə söhbət elə, mənim bildiklərim bunlardır...

Sərməst kişi Bakıdan evə qayıtmayıb, oğlunun sorağı ilə birbaşa Ağdərəyə yollandı. Gəzmədiyi yer, üz tutmadığı məkan qalmasa da, oğlunu gördüm deyən olmadı. Vaysına-vaysına, kor-peşman qayıdıb gəldi Məzrə kəndinə. Suruş bacı, qızları Püstə, Qətibə, Məhbubə, Məlahət «Məzahir necədir?» deyəndə elə bil üstünə bir qazan qaynar su ələndi. O, evdəkiləri dilə tutub:

- Özünüzü üzməyin görək, bir yandan bağlayan fələk, bir yandan da açar, - dedi.

Suruş ana göynəyə-göynəyə:

- Nə danışırsan, ay kişi, bəs o məktəbin böyüklərinə demədinmi, biz sənə uşaq vermişik ki, oxudasan. Daha deməmişdik ki, onu əlimizdən alıb odun içinə atasan...

- Vallah, bu sözləri mən özüm də onlara dedim. Mənə cavabları bu



oldu ki, ağsaqqal, oğlunun öhdəsindən gələ bilmədik. Dərslər başlanar-başlanmaz bir bölük tələbə ilə yanımıza gəlib - cəbhəyə getmək istəyirik, - dedi. Onları dilə tutsam da, xeyiri olmadı...

Suruş ana sağ əlini dizinə çırpıb:

- Anası ölmüş elə əzəldən el qəhri çəkən idi, neyləsin, fəğan qoparan qız-gəlinlərimizin, ana-bacılarımızın göz yaşlarına dözə bilməyib yeqin...

Bir aydan sonra Məzahir öz ayağı ilə gəlib çıxdı evlərinə. Qohum-qardaş illər ayrısı kimi boynuna sarıldılar onun. Bacısı Qətibə qardaşının enli kürəklərinə iftixarla baxıb:

- Bacın ölsün, ay Məzahir, - dedi, - gör sifətin nə gündədir, elə bil yanar kürədən çıxmısan...

Beşcə gündən sonra doğmaları ona uğur diləyib yenidən cəbhəyə yola saldılar. Bu dəfə Məzahirin sorağı Zəngilandan, Qubadlının Çay Tumas səmtindən gəldi. Evdəkilər sonradan öyrənib bildilər ki, Qubadlının işğalından bir az qabaq Məzahir bir qrup əsgərlə Çay Tumasda mühasirəyə düşərək dörd günlük ağır döyüşdən sonra düşmən qüvvələrini pərən-pərən salıb geriyə çəkiliblər...

Məzahiri yaxından tanıyan həmyerlisi Məhəmməd müəllim ondan həmişə məhəbbətlə söz açır:

- Məzahirə Məzrə kənd orta məktəbində dərs demişəm, çox ağıllı, düşüncəli bir uşaq idi. Böyüyüb el təəssübü çəkən bu igid oğlan təkcə ailələrinə deyil, ona dərs deyən müəllimlərə də, doğulduğu torpağa da başucalığı gətirdi...

Doxsan üçüncü ilin axırlarında Horadiz qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlərdə misilsiz hünər göstərdiyinə görə komandanlıq Məzahiri «hərbi xidmətlərinə görə» medalına təqdim etmişdi. Bu yüksək mükafatı sinəsində gəzdirmək ona qismət olmadı. Doxsan dördün yeddi may günü Füzuli rayonunun Kərimbəyli kəndində postda dayanarkən düşmənin atdığı güllə Məzahirin Vətən eşqi ilə döyünən ürəyini dayandırsa da, onun Vətən sevgisini yaralaya bilmədi. Bütöv bir ürəklə anamız torpağa qovuşdu Məzahir...

# ERGİDƏ SÖNƏN HƏYAT



***Əbilov Əhəd Məti oğlu***
***doğulub - 26.01.1973-cü il,***
***Cəbrayıl rayonu, Çullu kəndi;***
***şəhid olub - 28.12.1994-cü il,***
***Ağcabədi rayonu, Ergi düzənliyi***

Hardasa təsadüflər də insanın taleyində mühüm rol oynaya bilir - bəzən onu ya faciə ilə, ya da xoş aqibətlə üzləşdirir. Əhəd o gün təsadüfün qurbanı olmasaydı, ertəsi gün ailə üzvləri ilə görüşəcək, yeni ili onlarla birlikdə keçirəcəkdi. Evlərinə getməyə hazırlaşdığı yerdə ölüm onu caynağına çəkdi. Əhəd Ergi düzündəki ön postda yurda keşik çəkən dostları ilə sağollaşıb geri qayıdanda erməni qiyafəsinə girən minanın girinə keçib həlak oldu...

Əsgər dostları Əhədin parça-parça olmuş cəsədini tabuta qoyanda qarayanız komandir özünü saxlaya bilmədi:

- Ay qardaş, belə qəfil gedişmi olar. Axı, mən səni evinizə xoş məramla göndərmək istəyirdim ki, doğmaların hünərindən xəbər tutub sevinsinlər. Yeni ili birlikdə keçirib, yanımıza şadlıqla qayıdasan. Bu necə ölüm idi, bu necə gediş idi, ay Əhəd?..

Yoldaşlarının ah-naləsindən xəbərsiz olan Əhəd yeni ilin ilk günü ailələrinin qapısını qara tabutuyla döydü. Didərgin bir atanın fəryadı ürək parçaladı o gün:

*Oğul, çərxi-fələyin*
*Sözünə niyə uydun?*
*Namərd, əlin qurusun –*
*Balama necə qıydın?*

*Sən bizim gözümüzdə*
*Bir parça işıq idin.*
*Sən bizə qəriblikdə*
*Arxa, yaraşıq idin.*



*İnnən belə qəddimiz,*
*Düzəlməz bir də, oğul!*
*Sənsiz döşəli qallıq*
*Torpaqda, yerdə, oğul!..*

Yetmiş üçüncü ilin 26 yanvarında Çullu kəndində dünyaya göz açan Əbilov Əhəd Məti oğlu üstündə ayaq tutub gəzdiyi torpağı həyatı qədər sevirdi. Kənddəki səkkizillik məktəbi bitirib, rayon mərkəzində orta təhsil alandan sonra dünya onun gözlərində üfüq-üfüq genişlənmişdi. Doxsan birinci ilin may ayında hərbi xidmət üçün Moskva şəhərinə getsə də burada çox bənd ala bilməmişdi. Düz beş aydan sonra Vətənə qayıdıb, imdad diləyən torpaqlarımızın müdafiəsinə yollanmışdı...

Rayonun ən mənzərəli guşələrindən olan Qazanzəmi kəndinin başının üstünü düşmən kəsdirəndə yağıların qarşısında ərən kimi dayanmışdı. «Vətəni sevmək imandandır» - deyən ulu peyğəmbərimizin müdrik kəlamları Əhədi qələbəyə səsləyirdi o vaxt. Ancaq türk qanına susayan qarı düşmənin məkrli planları Əhədin arzularını gözündə qoydu. Ordumuzun pərakəndəliyindən istifadə edib Dağtuması qana çalxaladı yağılar. Əhəd ağlar gözlə yurd yerini tərk etdi. O gün düşmən mühasirəsindən çıxan əsgərlərimiz Arazı o üzə keçəndə: - Heyf sənə Cəbrayıl, – dedilər, – sən xəyanətin qurbanı oldun...

Hər bahar Ağcabədinin Ergi düzündə al-qırmızı lalələr açır. O lalələrin rənginə Əhədin də qanı hopub...

# YUXUN ÇİN OLDU, BALA...



***Əzimov Namiq Əfsər oğlu***
***doğulub - 24.03.1974-cü il,***
***Cəbrayıl rayonu, Daşkəsən kəndi;***
***şəhid olub - 24.12,1993-cu il,***
***Füzuli rayonu, Böyük Bəhmənli kəndi***

Dağların ətəyinə sığınan Daşkəsən kəndi məşhur alimləri ilə, ürəyi təpərli adamları ilə və bir də barlı-bəhərli torpaqları ilə tanınıb zaman-zaman. Bu kəndin ulu keçmişi, müdrik ağsaqqalı-ağbirçəyi, Aşıq Humay kimi şöhrəti bir el-obaya sığmayan sənətkarı olub. Daşkəsən camaatı Azərbaycan pedaqoji elminin korifeyi akademik Mehdi Mehdizadə, Oruc Qüdrətov, Zəkəriyyə Mehdizadə, Dərgah Qüdrətov, Novruz Hüseynov kimi alim övladları ilə fəxr edib, onların adı ilə öyünüblər. Yurd savaşında neçə-neçə say-seçmə oğullarını itirən daşkəsənlilər dünyadan nakam gedən Arifin, Eldənizin, Elçinin, Aydının, Vüqarın, Hüseynin... adını ağılarda əzizləyir, onların ruhu qarşısında səcdə edirlər...

Namiq də Daşkəsəndə böyüyüb boya-başa çatmışdı. Əfsər kişi yetmiş dördüncü ilin baharında dünyaya gələn oğlunu dizinin taqəti, gözünün işığı bilirdi. Ömrünün on doqquzuncu baharını görmədən dünyadan köçən Namiq atasının neçə-neçə arzularını da özü ilə bərabər gor evinə apardı. O vaxtdan ata şəhid oğlunu xatirələrində gəzib arayır, onun parlaq surətini yaddaşında canlandırır:

- Bir dəfə yaxın qohumumuz Vüqar Hüseynov (bu igid oğlan 1990-ci ildə şəhid olduqdan sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb) kəndə gəlmişdi. Onda hələ Namiq Daşkəsən kənd məktəbində oxuyurdu. Vüqarın polis geyiminə həsədlə baxan oğlum üzünü ona tutub demişdi ki, qağa mən də sənin kimi yurdumuzun keşiyində dayanacağam. Onda Vüqar özündən dörd yaş kiçik olan dostunun kürəyinə əlini vurub:

- Hələ dərslərini oxu, Allah qoysa sən məktəbi qurtarana kimi bu harsın dığalarının öhdəsindən biz özümüz gələrik. Bunun əvəzinə yaxşı bir sənət qazanıb Əfsər əmimin hayına çatarsan, - demişdi.

Üz-gözündən təbəssüm yağan Namiq balam söz altda qalmamışdı onda:

- Qağa, özün bilirsən ki, uşaqlıqdan hərbçi olmaq arzusundayam. Onsuz da gec-tez bu peşəyə yiyələnəcəyəm, - söyləmişdi.



Vüqarın dəfnində Namiq də iştirak edirdi. O, dostunun qəbri üstə and içdi ki, onun qisasını özü alacaq. Bakıya qayıdan kimi (Namiq səkkizinci sinfi bitirəndən sonra təhsilini on dörd saylı TPM-də davam etdirirdi) hərbi komissarlığa müraciət edib doxsan ikinci ilin əvvəllərində cəbhəyə yollandı...

Namiqin döyüş yolu Ağdamın Qərvənd kəndindən başlayıb. O, burada:

*Vətən, dağın, daşın ollam,*
*Yazın ollam, qışın ollam.*
*Dar gündə sirdaşın ollam,*
*Təki unutma məni!*

*Düşmən üstə od ələrəm,*
*Sənə xoş günlər dilərəm.*
*Ölsəm qeyrətlə öləram, -*
*Təki unutma məni!*

- deyib səngərlərə sığındıqca qürur hissi keçirir, qələbə gününün sevinci ilə ovundururdu özünü. Hərdən od-alov içərisində dostlaşdığı lənkaranlı Rəhimov Qalibə, sumqayıtlı Hüseynov Məşdiyə deyirdi ki, Allah qoysa müharibədən sonra sizi Cəbrayıla qonaq aparacağam. Onda görəcəksiniz ki, bizim tərəflərin əvəzi yoxdur. Elə bu ümidlə də günü-günə calayardı Namiq...

Doxsan üçün martında ad gününü qeyd etmək üçün anası Gülxarla birlikdə Qərvəndə getmişdik. Bacıları Ramilə, Könül və qardaşı Ramin də dəstəmizdə idilər. Yaxın qohumlarımız Faiq, Şair, Fiday, Əvəz Namiqi öpüb oxşayanda elə bil dünyanı bağışladılar bizə. Onda hələ döyüş səngərlərində nisbi sakitlik idi. Hardasa uzaqlardan gələn təkəm-seyrək güllə səsləri nəzərə alınmasa, cəbhə özünün dinc günlərini yaşayırdı. Namiqin, onun dostlarının şərəfinə yaxşı bir məclis quruldu onda. Axşamüstu əsgərlərimizə xeyir-dua verib geri döndük...

Füzulinin Ərgünəş dağında topdan açdığı atəşlə düşmənin bir tankını vurduğuna görə Namiqə beşgünlük məzuniyyət vermişdilər. O, yoldaşlarından onda da ayrılıb geriyə dönməmişdi. Onu qınayanlara cavab verib demişdi ki, Vətəni və yoldaşlarımı dar ayaqda qoyub nəinki beş günlüyə, heç bir saatlığa da burdan gedən deyiləm. Belə ürəyin, belə təpərin yiyəsi idi o...

Daşkəsən kəndinin işğalından xeyli sonra bizimlə görüşməyə gəlmişdi Namiq. Komandirləri ona demişdilər ki, atan xəstədir, get ona baş çək,

sonra qayıdarsan. Cəmisi üççə gün yanımızda qalandan sonra, qohum-əqraba ilə sağollaşıb yenidən cəbhəyə qayıtdı o. Onda ailəlikcə Beyləqanın Mil üzümçülük sovxozunda yaşayan bir qohumumuzun evinə sığınmışdıq. Sonradan köçüb Bakıya gedəsi olduq...

Namiqin qara xəbəri Bakıda gəlib çatdı bizə. İşdən qayıdanda qardaşım oğlanları Arzu və Yavər boynumu qucaqlayıb dedilər ki, eşitmişik Namiq ağır yaralanıb. Beyləqandan zəng vurublar ki, özünüzü bura yetirin... O gecəni dirigözlü açdıq. Səhər tezdən yola çıxmaq istəyəndə bir oğlan maşını yanımızda saxlayıb:

- Əmi, - dedi, - mən Ağdamdanam, adım da Rəşiddir. Oğlunuz Namiqlə duz-çörək kəsmişik. Sizi Beyləqana özüm aparacağam...

Mənzil başına çatanda ilk dəfə bizi qarşılayanlardan biri oğlumun cəbhə dostu, lənkəranlı Rəhimov Qalib oldu. O ağlaya-ağlaya xəbər verdi ki, Namiqi Böyük Bəhmənli kəndində vurublar, meyitini döyüş meydanından çıxarmaq mümkün olmayıb...

O qarlı-sazaqlı dekabr günü düşmən Arazboyu obaların külünü göyə sovurub Daşburuna doğru irəliləməkdə idi. Yoldaşları ilə bərabər səngərə daldalanıb yağıların qarşısını kəsməyə çalışan Namiq düşmən tankının yaxınlaşdığını görəndə qranatamyotdan atəş açaraq onu darmadağın etdi. Az keçməmiş yan tərəfdən sürətlə yaxınlaşan BMP minaya toxunub havaya sovruldu. Sevincdən ürəyi köksünə sığmayan Namiq qəddini dikəldib yana çevriləndə düşmən snayperi onu hədəfə aldı...

Əfsər kişi bizimlə söhbətində onu da dedi ki, dekabrın 24-nə keçən gecə Namiq bir yuxu görüb. Döyüşdən qabaq yuxusunu burada yaşayan Adilə adlı bir qadına danışıb. Yuxusunda görüb ki, səngərdədir, əlində də bir topa ağ kağız. Birdən bir canavar onun üstünə atılıb yerə yıxır, ağ kağızları cırıb-dağıdır... Həmin qadın ona məsləhət görür ki, bu gün sən döyüşə getmə. Ancaq Namiq onun sözünü eşitmir, döyüşə gedir və elə həmin gün şəhid olur.

Doxsan dördüncü ilin yanvar ayının əvvəllərində igid əsgərlərimizin uğurlu hücumları düşməni geri çəkilməyə məcbur etdi. Böyük Bəhmənli azad olunandan sonra Namiqin meyidini gətirib Bakının Şəhidlər xiyabanında dəfn etdilər. Doğma yurd yerlərimizi azad etmək naminə candan keçən eloğlumuz Əzimov Namiq Əfsər oğlu qəlbimizdə həzin bir nəğməyə döndü. İnnən belə bu qeyrətli Vətən oğlunun adını nəğmələrdə arayacağıq...



# ŞƏHİD ATANIN YADİGARI



***Əliyev Etibar İslam oğlu***
***doğulub - 12.12.1966-cı il,***
***Cəbrayıl şəhəri;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

O gecə Daşbaşı postunda qanlı bir faciə ayaq tutub yeriyirdi. Gecə yarısı insan ovuna çıxan erməni quldurları cavan əsgərlərimizi edam kötüyünə tərəf sürükləyirdilər. O gecə Müslümün, Cəbrayılın, Mətləbin, Arifin... ruhu çarmıxa çəkilirdi burada. Başlar kəsilir, gözlər oyulur, qollar sındırılır, sinələr parça-parça edilirdi. Tanrıdan əlləri üzülən çavanlarımızın ət ürpədən harayı havadan asılıb qalırdı o gecə. On beş avqust axşamı edama məhkum edilənlərdən biri də Əliyev Etibar İslam oğlu idi. Neçə ildən bəri alınmaz qala kimi düşmənin yolu üstə dayanıb duran Daşbaşı postunda iyirmiyə yaxın cavan əsgərin ələ keçirilib amansızlıqla öldürülməsində kimlər idi müqəssir? Hansı bir işdən ötrü isə gündüzdən uşaqları başsız qoyub Cəbrayıl şəhərinə gedən komandirmi? Başıpozuq hərbi hissənin «ipini» yığa bilməyən bacarıqsız alay rəhbərliyimi? Yoxsa o yay gecəsində ehtiyatı əldən verib öz analarını ağlar qoyan əsgərlərin özlərimi? Bizə elə gəlir ki, burada xəyanət adlı amilin əli də ola bilər. İnanmaq istərdik ki, bu qətl düyünü nə vaxtsa çözələnib açılsın, bu faciədə azacıq da olsa təqsiri olanlar haqq divanına sürüklənsinlər...

On altı avqust günü Mərcanlıda, Məzrədə, Cəbrayılda, Soltanlıda, Kavdarda... qurulan yas mağarlarında bu qanlı faciədən xəbər tutanların tükləri biz-biz oldu. O dəhşətli gecənin səhər üzündə bir el ağbirçəyinin naləsinə bükülən yaralı misralar indi də göynədir bizi:

*Düşmən kəsib yolu, izi,*
*Yadlar oda yaxır bizi.*
*Eşidən yox naləmizi –*
*Allah, qıyma cavanlara.*

*Bu müsibət hardan gəldi,*
*Sızlayırıq neçə ildi.*

*Öldürürsən bizi öldür, -*
*Allah, qıyma cavanlara...*

Bu bir ana qəlbindən qopan ağı deyildi, Tanrıya üz tutan insan naləsiydi. Daşbaşı zülmətində çarmıxa çəkilən ruhların yalvarışı idi.

O müsibətdən sonra Cəbrayıl camaatının iradəsini sındırıb, dözümünü ovxaladılar elə bil. Şayiələr, təxribatlar günbəgün artıb çoxaldı burada. Bircə həftə keçmədi ki, harsın dığaları yaylaq havalı, dağ vüqarlı Cəbrayılımızın küçələrində meydan sulamağa başladılar...

Etibar o qanlı faciəyə qədər acılı-şirinli bir ömür yaşamışdı. Bir zamanlar ADR-də əsgəri xidmətdə olmuş, şəhər uşaq bağçasında sürücü, əmanət bankında gecə növbətçisi olmuşdu. Harda olmuşdusa özündən sonra xoş xatirələr qoyub getmişdi Etibar. Doxsan birinci ildə onu özünümüdafiə dəstələrinə çəkib aparan da yurd sevgisi, torpaq qeyrəti idi. Milli Ordumuz yaradılanda Etibar onun ən çevik, ən cəsur üzvlərindən biri oldu. Qışlaq, Süleymanlı, Quşçular, Sur, Şayaq uğrunda gedən döyüşlərdə gözünü qırpmadan düşmən üstünə getmişdi. Onda yəqin ki, anası Mədinə xanım namaz üstə imiş. Yağış kimi yağan mərmilər, leysan sürəti ilə başının üstən ötüb keçən güllələr toxunmurdu ona. Elə bil «gülləbatmaz» idi Etibar. Hərdən əsgər dostları onu bu adla da çağırırdılar...

Ölümündən düz bir il qabaq (onda da avqustun on beşi idi) toyu olmuşdu onun. Arzusuna-kamına axıradək yetə bilməsə də özündən sonra təmiz ad qoyub getdi. Yoldaşlarının dediyinə görə, o, mahir topçu idi. Qazanzəmi, Sur, Daşbaşı əməliyyatlarında düşmənin başına od yağdırırdı...

Deyirlər Daşbaşı postuna təzəcə göndəriblərmiş Etibarı. Ölümdən qaçmaq olmur, - deyiblər. Görünür alın yazısı Daşbaşıda sona yetəsiymiş onun...

Etibarın şəhid olduğu gecədən beş ay yarım sonra İslam kişinin, Mədinə ananın çırağı nurlandı təzədən. Sevimli həyat yoldaşını itirən Qətibə xanıma gəlişi ilə bir dünya bağışlayan körpəyə atası Etibarın adını qoydular. 1994-cü il fevralın beşindən ata Etibarın yarımçıq ömrünü oğul Etibar yaşamaqdadır. Tanrı onu analı, nənəli, babalı böyütsün...



# NAKAM ÖMRÜN SƏDASI



***Əliyev Elmar Qələbə oğlu***
***doğulub - 15.03.1968-ci il,***
***Cəbrayıl şəhəri;***
***şəhid olub - 26.12,1993-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

Göyçək bacı adəti üzrə sübh tezdən ayağa qalxıb ailə üzvlərinin sığındıqları otaqlarda yır-yığış etsə də, gördüyü yuxunun təsirindən qurtara bilməmişdi hələ. Könül anasının gözlərindəki nigarançılıq hisslərini anlayıb:

- Xeyir ola, ana? - dedi, - harasa getməyə hazırlaşan adama oxşayırsan bu gün.

Göyçək bacı kövrəldiyini gizlətməyə çalışsa da, titrək səsi evdəkilərin də qulaqlarına çatdı:

- Bu gecə yuxuda Elmar balamı görmüşəm. Nə qədər səslədimsə də yaxına gəlmədi. Bilirəm ki, nədənsə nigarandı, gərək bir azdan qəbri üstə gedəm.

- Məni də özünlə apar, ana, neçə vaxtdır ki, qardaşımın üstə getməmişəm, dilim-dodağım alışıb-yanır ondan ötrü.

Ana Samirəyə tərəf dönüb:

- Bax, keçən dəfəki kimi orda ağlayıb üz-gözünü didəcəksənsə, aparmayacağam...

- İnsafın olsun, ana! Məgər qardaşım uyuyan o məzarın üstündə sakit dayanmaq mümkündürmü? Mən özüm sənə yalvarıb deyəcəkdim ki, özünü üzüb əldən salma, onsuz da gecə-gündüz ağlamaqdan gözlərinin yaşı da quruyub...

- Siz mənə baxmayın, özünüzü toxdaq saxlayın! Bir də ki, təkcə sizin qardaşınız ölməyib ki. Yeddi ildən bəri camaat yasda, ələmdədir...

Göyçək ana o gün qızları Samirə və Könüllə birlikdə Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında uyuyan çiyərparasına baş çəkib onun qəbrini bağrına basdı. Oğlu uyuyan torpaqdakı şəhid qəbirlərini oxşaya-oxşaya elə bil toxdaqlıq tapdı ana:

- Qurbanı olduğum həyatda dostcanlı idi, öləndə də dostları ilə yanyana, kürək-kürəyədir...

Elmar Cəbrayıl şəhər orta məktəbini bitirəndən sonra düz üç il Tallin şəhərindəki hərbi dəniz donanmasında qulluq etmişdi. Baltikin mavi suları Xəzərin özü kimi doğma gəlmişdi ona. Qayıdandan sonra da mavi sulara olan istəyini çıxara bilməmişdi ürəyindən. İmtahan verib Bakı Dənizçilik Məktəbinə qəbul olmuşdu. İstəyi bu idi ki, Xəzərlə əbədi ülfət bağlayıb onun ayna sularının qoynunda dolaşıb gəzsin. Hələ ürəyində bir həzin nəğmə də qoşmuşdu Xəzərə:

*Sənin şəffaf suların,*
*Bir ləkəsiz aynadır.*
*Qırçınlı ləpələrin,*
*Gözümdə bir dünyadır.*
*Axşam, səhər mən sənin*
*Sahilində gəzərəm.*
*Mənim könül sirdaşım, -*
*Xəzərim, ay Xəzərim...*

Ana Vətənimizin başı üstünü ölüm kabusu kəsdirəndə Elmar könül verdiyi Xəzərlə vidalaşıb doğma Cəbrayıla qayıtdı. Evdəkilər Elmarın yurd istəyinə bələd olduqlarından onu yolundan saxlamadılar...

Elmar Sur, Şişqaya, Quşçular, Hintağlar əməliyyatlarında fədakarlıq göstərib öz həyatına şanlı səhifələr yazdı. Döyüşçü yoldaşı - xalası oğlu Müşfiq Almənmədov deyir ki, hərbi əməliyyatlarda igidlik göstərdiyindən ona kiçik leytenant rütbəsi verib vzvod komandiri təyin etmişdilər. Hünərinə verilən qiymət onun məsuliyyətini daha da artırmışdı. Elmar torpaqlarımızı udmaq həvəsinə düşən quldurların dərsini vermək üçün bir yerdə qərar tuta bilmirdi...

...Cəbrayılın işğalından sarsılsa da, silahı əlindən yerə qoymdı Elmar. Sonuncu dəfə doğmalarına baş çəkib cəbhəyə yola düşəndə bacısı Sevinc:

- Qağa, qurban olum, - dedi, - özündən muğayat ol, düşmən çox hiyləgərdir. Yadında saxla ki, ata-anamız da, qardaşlarımız Anar, Arif də, biz bacıların da yoluna göz dikmişik. Bizi boynuburuq qoyma...

Demə Ağdam torpağında düşmən tərəfdə dayanan ölüm nə vaxtdan bəri həsrətlə gözləyirmiş yolunu onun. Salahlı, Kəngərli-Güllücə istiqamətində gedən döyüşlərdə hünərlə vuruşsa da, düşmən gülləsindən yayına bilmədi Elmar. İgid komandiri Şakir Abbasovla bir yerdə vuruşub, bir yerdə də şəhid oldu. «Namərdlər məni vurdular, irəli gedin qardaşlar!» - bu sözlər onun yaralı sinəsindən qopan sonuncu nidası oldu. Elmarın nakam ömrünün son sədası dünyamızı hələ də gəzib dolaşmaqdadır. Heç vaxt itən, unudulan deyil bu səda...



# LALƏLƏR BİTƏCƏK QƏBRİNİN ÜSTƏ



***Əliyev Babək Famil oğlu***
***Doğulub – 21.05.1971-ci il,***
***Cəbrayıl rayonu, Daşkəsən kəndi;***
***Şəhid olub – 04.03.1994-cü il,***
***Füzuli rayonu, Horadiz kəndi***

Sən Azərbaycan ellərinin ürəyi, təpərli balası idin, Babək. Ağlın kəsəndə adını daşıdığın qəhrəmanın qeyrət simvolumuz olduğunu biləndən sonra iftixar hissi keçirirdin. Sənin nəzərində Azərbaycan torpağı dünyanın möcüzəsi idi. Elə zənn edirdin ki, doğulduğun ata ocağından başlayır Vətənin yol ayrıcları. Burada dayanıb payızdan bahara üz tutan durna qatarına tamaşa etdikcə qollarını geniş açıb aranlı-dağlı Azərbaycan torpağını bağrına basmaq istəyirdin. Dilində, dodağında bu torpağın nəğmə kövrəkliyi dil açırdı sənin:

*Bir dünyayam, təbiətin*
*Nəfəsindən yaranmışam.*
*Gözlərindən alov yağan*
*Bir şimşəyin həvəsindən*
*Yaranmışam.*
*Anam günəş başım üstə*
*Nur çələngi.*
*Zaman-zaman igidlərə*
*Bayraq olub «Yallı», «Cəngi»...*
*Xəritədə bir nöqtəyə bənzəsəm də,*
*Ürəklərdə gur nəğməyəm,*
*Solmaz duyğu yarpağıyam.*
*Ölkə-ölkə, qitə-qitə*
*Sözü gəzən*
*Azərbaycan torpağıyam...*

Bu torpaq sənin varlığın, hissiyatın, can evin idi, Babək. Onun cazibəsindən uzaqda yaşaya bilmirdin. Səksən səkkizinci ildə əsgəri xidmət illərini də doğma Vətəndə, Bakıda başa vurmuşdun. Tanrı valideynlərini övlad

sarıdan yarıtmışdı. Yeddi qardaş, üç bacı böyütmüşdü ata ocağının başında. Hamınız atanız Famil kişi, ananız Şükufə xanım kimi torpağa yanımlı idiniz. Atanız ölənə kimi boyunuzu oxşayıb sizinlə nəfəs almışdı. Şükufə ana kiprikləri ilə od götürmüşdü sizi böyüdənə kimi. Onun əhliyyətindən çıxmaq üçün od içindən keçməyə belə hazır idiniz...

Əsgərlikdən sonra Bakının Binəqədi rayonu ərazisindəki evtikmə kombinatında işə girmişdin, Babək. Tale aman versəydi, xeyirxah əməllərində çoxlarını sevindirib özünə də ev-eşik düzəldəsi idin. O vaxtlar qardaşlarından ikisi Milli Orduda qeyrətlə döyüşür, düşmənə qan uddururdu. Onların taleyindən narahat olduğundan tez-tez evinizə baş çəkib təsəlli verirdin anana. Od içində yanan Cəbrayıl torpaqlarından uzaqda yaşamağı kişi qeyrətinə sığışdırmadığından doxsan üçüncü ilin mayında qayıdıb gəldin kəndinizə. Rayondakı ziyalılar batalyonunda xidmət etdiyin günlərdə dərdin bir az yüngülləşmişdi elə bil, hər dəfə döyüş postuna yollananda anan Şükufənin yanımlı, qayğılı səsi çatırdı qulaqlarına:

- Qadan mənə gəlsin, Babək, ehtiyatlı ol, gözümü yaşlı qoyma mənim! Belə vaxtlarda ucadan dediyin sözlər səhər mehinə qarışıb üz tuturdu evinizə tərəf:

- Qorxma, ay ana, düşmənə asanlıqla can verən deyiləm. Bir də ki, ölümdən qaçmağın nə mənası, ölüb-itənlərdən artıq deyiləm ki, mən...

Doğma yurd yerlərimiz düşmən tapdağı altda qalanda dünya gözlərində zülmətə dönmüşdü sənin. Yaralı şir kimi hayqırırdın o günlərdə. Yağılardan qisas almaq üçün fürsət gözləyirdin. Arazı adlayıb İran ərazisi ilə İmişliyə gələndə qismətinə qaçqınlıq əzabı düşən soydaşlarımızın müsibətli günləri ilə üzləşdi. Hara üz tutdunsa, yurd yerlərindən əli çıxan ana-bacılarımızın fəryadını, körpələrin naləsini eşidirdin...

Gəncə ətrafındakı hərbi təlim günləri başa çatandan sonra Qarabağın qala qapısı Ağdamı düşmən caynağından xilas etmək naminə vuruşurdun. Füzuli torpaqlarına ayağın dəyəndə ata ocağına qovuşmaq ümidi ilə silahı yerə qoymurdun. Uğurlu döyüş yollarınız Horadiz qəsəbəsində üzü Xudafərinə tərəf uzananda sevincin köksünə sığmırdı sənin. Yoldaşlarına üz tutub:

- Allah qoysa, bu gün-sabah Cəbrayıldayıq, – deyirdin. Ürəyindən Xan çinarla, Diri dağı ilə, Ziyaratla, müqəddəs Hacı Qaraman ocağı ilə görüşmək arzusu keçirdi o günlərdə. Quş kimi qanad açıb doğma Daşkəsənə, ata ocağınıza uçmaq istəyirdin onda. Lələ təpəsində dayanıb qarı düşmən yolları kəsməsəydi yoxuşu birnəfəsə qalxıb özünü Quycaq kəhrizinə çatdırasıydın. Burdan Daşkəsənə daha nə qalırdı ki...

Şirin xəyallarla yaşadığın günlərdə erməni gülləsinə tuş gəldin, Babək. Sənin qanın çilənən torpaqda hər bahar günəşə boylanan qızıl lalələr sənin ruhun kimi dil açacaq hər zaman...



# BİR EVİN GUR İŞIĞIYDIN...



***Əliyev Rövşən Talış oğlu***
***doğulub - 16.06.1974-cü il,***
***Mingəçevir şəhəri;***
***şəhid olub - 16.07.1993-cü il,***
***Ağdam bölgəsi***

Doxsan üçüncü il iyul ayının on altısı axşamı cəbhə bölgəsindən gələn müdhiş bir xəbər Talış kişinin evində qəm leysanına çevrildi. Rövşənin qanlı tabutunu bağrına basan Durna bacının alışıb yanan dilində bir düzüm ağı göyərdi:

*Ocaqda köz qalmadı,*
*Cığırda iz qalmadı.*
*Sənə ağı deməkdən*
*Dilimdə söz qalmadı.*

*Qanı sel olan balam,*
*Dili lal olan balam,*
*Dünyadan nakam getdin,*
*Bəxti gül olan balam.*

*Yaz idin, qışa döndün,*
*Bir qara daşa döndün.*
*Ürəyimdə nisgilə,*
*Gözümdə yaşa döndün...*

...Qızmar yay günlərinin birində Mingəçevirin Şəhidlər xiyabanında torpağa qovuşan Rövşənin valideynləri Cəbrayılda dünyaya göz açmışdılar. Talış kişi Horovludan, Durna bacı isə Qışlaq kəndindəndir. Əllinci illərin sonlarına yaxın tale onları Mingəçevirdə qovuşdurmuş, ailə qurub oğul-uşaq sahibi olmuşdular. Halal ruzi soraqlı ürəklərinə söykənib nur timsallı övladlarını - Vidadi, Nizami, Eyvaz, Şahbaz, Bahar, Dünya, Rövşən, Gülayə, Ceyhun və Cavanşiri böyütdükcə kiprikləri ilə od daşımalı olmuşdular...

...Talış kişinin ocağında dünyaya göz açan on uşağın içərisində elə ən istəklisi, ən fərasətlisi Rövşən idi. Mingəçevirdəki 11 saylı orta məktəbin

səkkizinci sinfini bitirəndən sonra şəhərin qonşuluğunda yerləşən sovxozdakı 39 saylı texniki-peşə məktəbini bitirərək qaynaqçı peşəsinə yiyələnmişdi...

...Vətən sevgisini hər şeydən uca tutan bu qıvrımsaç, qaraqaş oğlan 1992-ci ilin sonlarında ürəyinin hökmüylə cəbhəyə yollandı. Güzdəkdəki hərbi təlimlərdə yüksək hazırlığı ilə fərqlənən Rövşən Əliyev doxsan üçüncü ilin əvvəllərində Ağdam-Şelli-Naxçıvanik istiqamətində gedən döyüşlərdə sinəsini torpağa sipər etdi. Bir vaxtlar idmanın üzgüçülük və ağırlıqqaldırma növləri ilə məşğul olan sağlam görkəmli bu igid əsgər barıt qoxulu səngərlərdə də hamının diqqətini cəlb etdi. Dəfələrlə erməni quldurlarının həmlələrinin dəf edilməsində qeyrətlə vuruşaraq düşmənin atəş nöqtələrini susdurdu. Şellidəki 20 Yanvar batalyonunun ən cəsur əsgərlərindən sayılan cəbrayıllı balası Vətən amalını, yurd qeyrətini ana-bacı namusu kimi uca tutdu. Elə buna görə də təxribatın, xəyanət və fərariliyin ayaq tutub yeridiyi günlərdə bəziləri kimi döyüşdən yayınmır, düşmən qarşısında mərdi-mərdanə dayanırdı...

Ağdamlı döyüşçü Bayramın dediklərindən: «Rövşən sözün həqiqi mənasında cəsur oğlan idi. Döyüş zamanı sərrast atəşlə düşmənə qan uddurur, şəhid oğullarımızın qisasını alırdı. Səngərdən-səngərə şığıyan igid dostumun ölümü gözlənilməz olduğu qədər də şərəfli idi. O, ölümü ilə şəhid adına layiq olduğunu hamıya sübut etdi»...

Talış kişinin ağrılı-acılı xatirələrindən: «Rövşən evimizin işığı, ümidi, dayağıydı. Anası Durnadan, qardaş-bacılarından ötrü od içindən belə keçməyə hazır idi. Taleyin hökmüylə Vətən yolunda şəhid olması demə onun alın yazısıymış. Sonradan eşitdik ki, Şelli uğrunda gedən döyüşlərdə Naxçıvanik istiqamətindən atılan tank mərmisi doqquz əsgər yoldaşı ilə birlikdə Rövşəni də qanına qəltan edib. Başından və sinəsindən aldığı yaralar onun həyatına son qoysa da onun ölümünə hələ də inana bilmirik. Bircə təsəllimiz budur ki, Rövşən Vətən yolunda şəhid olub. Belə igidləri olan yurdun cənnət timsallı torpaqlarının düşmən caynağında qalması ağlasığan deyil...

...Bu işıqlı dünyada Rövşən on doqquz yaşının aşırımından adlasa da, iyirminci baharının səddini keçə bilmədi. Deyirlər ulu Tanrı sevdiyi bəndələrini dərgahına daha tez aparır. Rövşən doxsan üçüncü ilin iyul ayından ölməz ruhuna sığışaraq qəlbimizdə misra-misra dil açmaqda, əbədiyyətə gedən yolla addımlamaqdadır:

*Hünərin həyatda pozulmaz yazı,*
*Günəştək doğuldun, şimşəktək çaxdın.*



*Üçrəngli müqəddəs bayrağımızı,*
*Qələbə rəmzitək zirvəyə taxdın.*

*Bir evin gur yanan işığı idin,*
*Bir elin sevimli balası oldun.*
*Hünərin göylərə ucaltdı səni,*
*Yurdumun alınmaz qalası oldun...*

## ADİL İGİD OĞUL İDİ

***Əliyev Adil İsrafil Oğlu***
***doğulub - 24.11.1969-cu il,***
***Cəbrayıl rayonu, Karxulu kəndi;***
***şəhid olub - 22.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Qaracallı kəndi***



Dağların güney üzündə sal daşlara sığınan Qaracallı kəndinin zaman-zaman başı çox bəlalar çəkib. Əsrimizin on səkkiz-iyirminci illərində Doşulunu oda qalayıb üzü aşağı Arpa dərəsinə qədər irəliləyən erməni daşnakları bu kənddə də neçə evin işığını söndürüblər. Yetmiş illik zaman kəsiyi arxasında tarixin zülmətinə qərq olan o dəhşətli illəri unutduğumuz bir vaxtda qanımıza yerikləyən Andronik nəvələri qeyrətimizi yenidən sınağa çəkdilər. Qaracallı, Balyand, Doşulu, Süleymanlı camaatı yurd sevgisinə, torpaq namusuna sığınıb səksən səkkizinci ildən bu yana doğma obalarının müdafiəsinə qalxdılar. Düşmən üç-dörd il ərzində ordu ilə xalqın vəhdətini qıra bilməsə də öz məkrli niyyətindən əl çəkmədi. O vaxtlar Hadrut tərəfdən atılan top və qrad mərmiləri dağ kəndlərində yaşayan camaatın dincliyini pozsa da, onlar doğma ev-eşiklərini tərk etməyi heç ağıllarına da gətirmirdilər. Qaracallı kəndi Qala qapısı kimi düşmənin üzünə bağlı idi o vaxtlar...

O bürkülü yay səhərində (15 avqust 1993-cü ildə) düşmən igidlərimizin fədakarlıqla müdafiə etdikləri Quşçular kəndinə hücuma keçmişdi. Sübhün gözü açılan kimi qızğın döyüşlər başlamışdı dağlar qoynunda. Sayca bizim-

kilərdən üstün olan canlı qüvvənin və ağır texnikanın gücü ilə irəli soxulan quldurları əsgərlərimiz çətinliklə dəf edirdilər. Günortaya yaxın daşnaklar şəhid oğullarımızın cəsədləri üstən adlayıb Quşçuları kəməndə saldılar. Qaracallı postunda keşik çəkən əsgərlərimizin Quşçular kəndinin süqutundan xəbərləri yox idi onda. Ermənilərin üç tankı və bir neçə PDM-i arxadan hücuma keçəndə igidlərimiz məsələnin nə yerdə olduğunu bilsələr də özlərini itirmədilər. Cəbrayıl «N» hərbi hissəsində xidmət etdiyi yarım il ərzində qorxmazlığı və şücaəti ilə tanınan vzvod komandiri Adil bir anın içərisində top mərmiləri ilə düşmən tanklarından birini vurdu. Quldurların ikinci tankı növbəti atəşlə zədələnib sıradan çıxdı. Bu zaman qarşı tərəfdəki tankdan atılan atəş igid komandiri ağır yaraladı. Onu od-alov içərisindən çıxaran döyüşçülərə Adilin sonuncu sözü bu oldu:

- Qoymayın postumuza düşmən ayağı dəyə...

Araz vadisində yerləşən Karxulu kəndindən idi Adil. Uşaq vaxtlarında ulu Maymağan çinarının yaşıl çətirləri altda dayanıb torpaqlarımızın əsrarəngiz gözəlliklərinə tamaşa etdikcə qəlbi fərəh hissi ilə döyünərdi onun. Onda həyat Adilin nəzərində mahir rəssam fırçası ilə işlənən romantik bir tabloya bənzəyirdi. Bu lövhənin ən gözəgəlimli naxışı Adilin ata ocağı Karxulu kəndi, bir az aşağıda dağların ətəyi ilə qıvrıla-qıvrıla axıb gedən Xan Araz idi. O vaxtlar Daşburundan Diri dağına kimi uzanıb gedən bu yamyaşıl vadidə torpaq cazibədar, ürəkaçan görünüşü ilə göz oxşayırdı. Adil belə bir oymaqda dünyaya göz açmışdı. Sonralar tale onu uzaq Çexoslovakiya Respublikasına aparıb çıxarmışdı. Burada iki il əsgəri müddətini başa vurandan sonra bir il də praporşik kimi qulluq etmişdi. O uzaq diyarda olarkən bir an da olsun doğma Vətənini unutmamışdı Adil. Karxuluya ayaq açan məktubların hər sətirindən yurd həsrəti damcılayırdı. Çexoslovakiyada yaşadığı illərdə yurdumuzda baş verən olaylardan narahatçılıq hissi keçirir, erməni işğalçılarının bəşəri dəyərləri üstələyən mənfur hərəkətlərini lənətləyirdi. Zəngəzur, Göyçə elimizdən soydaşlarımızın qovulması xəbərini eşidəndə o vaxtlar qəzəbdən yumruğu düyünlənmişdi Adilin. Xocalı soyqırımından bəhs edən videolentlərə tamaşa edəndən sonra səbri, dözümü bircə tikə olmuşdu onun. İstəyirdi ki, Vətənə qayıdıb düşmənə həddini bildirsin. Onun doğmalarına yazdığı məktublardan da duyulurdu bu həsrət, bu yanğı:

*Torpağından öpüm deyə,*
*Yollarından ötüm deyə,*
*Sinən üstə bitim deyə,*
*Qayıdaram yanına mən...*



Adil yurdumuzun qışını yad ellərin baharından üstün tutub Vətənə qayıtdı. Çox keçmədi ki, əsgərlərimiz arasında mahir topçu kimi tanınan Adilin atdığı mərmilər düşmən məntəqələrinin külünü havaya sovurdu. Yoldaşları deyirlər ki, Adil tələbkar olduğu qədər də qayğıkeş bir komandir idi. Döyüşdən qabaq həmişə əsgərləri ruhlandırardı:

- Əzizlərim, yadınızda saxlayın ki, torpaq ana-bacı namusumuz, kişi vüqarımızdır. Dünyada onu itirməkdən ağır faciə yoxdur...

Elə bu amalla da son nəfəsinə kimi düşmənlə kişi kimi vuruşdu Adil. Yaralanandan bir həftə sonra Bakıdakı hərbi qospitalda ölümündən qabaq dediyi sözlər bu oldu: «Kaş ayağa qalxıb yenidən torpaqlarımızın keşiyində dayana biləydim»...

Adilin Bakıda yaşayan yaxın qohumu Süleyman onun haqqında ürək dolusu danışır:

- Qospitalda yatanda tez-tez yanına gedirdik. Ümumiyyətlə, o, yaxşılığı ən böyük meyar hesab eləyirdi. Deyirdi çalışın ki, hamıya yaxşılıq edin. Həm də o uşaqlıqdan çox mərd, qeyrətli, şir ürəkli idi. Heç nədən qorxmazdı, ölümün gözünə dik baxardı. Bir də torpağa həddən artıq bağlı idi. Nə edəsən ki, yaxşı adamlar həmişə həyatdan tez gedir...

Adil arzuladığı günləri görə bilmədi. İndi onun əvəzindən əsgər dostları sinələrini Vətən torpağına qalxan ediblər. Vaxt gələcək ki, onların qələbə sevincindən Adilin də şəhid ünvanına pay düşəcək...

# TORPAQ ƏTİRLİ ƏLLƏR



***Əliyev Müşfiq Hilal Oğlu***
***doğulub - 15.09.1969-cu il,***
***Cəbrayıl rayonu, Çərəkən kəndi;***
***şəhid olub - 08.01.1994-cü il, Fuzuli bölgəsi***

Müşfiqin əlləri torpaq qoxulu, çörək ətirli idi. O, dünyaya halallıq üçün gəlmişdi. Ağlı kəsəndən ana torpaqla ülfət bağlayıb Çərəkən camaatının güvənc yeri olmuşdu. Yaşadığı illərdə şöhrət barədə fikirləşib baş sındırmamışdı Müşfiq. Sarıcallıda mexanizator peşəsinə yiyələnəndən sonra qayıdıb üz tutmuşdu yovşan ətirli ana torpağın qoynuna. «Dəmir atı ilə» üzümlüklərin, taxıl zəmilərinin arası ilə sağa-sola adlayıb keçdikcə elə bil dünyanı bağışlayırdılar ona. Hərdən yaşıdları ona deyəndə ki, ay Müşfiq, bu qabiliyyət ki, səndə var, oxusaydın indi əməlli-başlı bir peşəyə yiyələnərdin. Qəlbini sızladan belə sözlərə əlüstü cavab verərdi:

- İnsanlıq vəzifədə, ali təhsil diplomunda deyil, mənim kimi adicə traktorçu da Vətənin borcunu ləyaqətlə qaytara bilər. Bir də ki, şairin sözü olmasın:

*Şöhrəti gəzməzlər demiş babalar,*
*O özü adamı axtarıb tapar...*

Müşfiq həyatda heç vaxt, özü demişkən, ad-san sorağında olmasa da, halallığı ilə şöhrətə qovuşmuşdu. Doğma Çərəkən kəndində, qonşuluqdakı Horovluda onu bacarıqlı bir kombaynçı kimi tanıyırdılar. İyun ayı çatar-çatmaz Müşfiqin sorağı dəmyə torpaqlarda sarı kəhrəba kimi dalğalanan zəmilərdən gələrdi. Topladığı taxıl kəndin üst tərəfindəki xırmanda qalaqlandıqca ürəyi sinəsinə sığmazdı onun. Bərəkət qoxulu qabarlı əllərinə baxdıqca Tanrısına gündə min dəfə şükür edirdi. Evlərindəki dolu təknə, camaatın günü-güzəranı qəlbini dağa döndərirdi...

Müşfiqin əlləri silahdan yapışmaq istəyindən uzaq olsa da, səksən yeddinci ildə dinc peşəsi ilə vidalaşıb əsgərliyə yollanmışdı. Ukraynanın Kiyev vilayətində keçirdiyi iki il onu bir az qollu-qanadlı etmişdi. Halallığı,



düzlüyü burda da karına gəlmişdi. Üzüyola olduğundan xətrini çox istəyirdilər Müşfiqin. Əsgərlikdə də vaxtını havayı keçirməmişdi, gecəni-gündüzə qatıb bir neçə peşəyə yiyələnmişdi. Səksən doqquzuncu ildə doğma kəndlərinə qayıdanda Müşfiqin əl qabiliyyəti çoxlarını heyrətdə qoymuşdu. Maşını xarab olan, «məişət cihazı» kökdən düşən üstünə qaçırdı onun. Heç kimi naümid qaytarmadığından hamının sevimlisi idi. Onun halallığa söykək olan çörək ətirli əlləri bol ruzu sorağında idi. Taleyin hökmü ilə günlərin bir günündə bu əllər silahdan yapışmalı oldu. Harayı ərşə çatan torpaqlarımızın sızıltıları onu odlu-alovlu səngərlərə, döyüş postlarına çəkib apardı. Getməzdən bir gün qabaq bərəkət timsallı kombaynı təhvil verib, unudulmaz şairimiz Səməd Vurğunun poetik misralarını dilinə gətirdi:

Bilsin ana torpaq, eşitsin Vətən, -
Müsəlləh əsgərəm mən də bu gündən...

Ulu Sirik torpaqlarında yurda keşik çəkən bu yanımlı oğlan başından dumanı, çəni əskik olmayan dağlara, yaşıl donlu meşələrə, lilparlı bulaqlara baxıb heyrətlə dillənmişdi o vaxt:

- Gör, əclaflarda iştaha bax, ha! İstəyirlər ki, bu cür yerləri alsınlar. Ölsəniz də bir addım qırağa qoyan deyilik...

Müşfiq dilində and kimi səslənən bu sözlərə son nəfəsinə kimi sadiq qaldı. Doxsan üçün aprelində yaralansa da, iki aylıq ayrılıqdan sonra yenidən əsgər dostlarının yanına qayıtdı...

Cəbrayılın işğalı onun qəlbini sızlatsa da, düşməndən qisas alsın deyə Ağdam ətrafında, Füzuli istiqamətində gedən döyüşlərdə yaxından iştirak etdi. Şəhidliyə qovuşanda da düşmən gülləsinə arxa çevirmədi...

Müşfiqin əlləri torpaq nəfəsli, çörək ətirli idi. Barıt qoxusu onun üzgözündə kölgələnsə də bərəkətə söykənən əllərinə yaxın düşə bilmirdi. Torpaq ətirli bu əllər özü ilə gor evinə ulu bir müqəddəslik apardı...

# QATİL, ƏLİN QURUSUN...



*Əliyev Zahid Səttar oğlu*
*doğulub - 29.07.1972-ci il,*
*Cəbrayıl rayonu, Qışlaq kəndi;*
*şəhid olub – 19.04.1994-cü il,*
*Füzuli rayonu, Horadiz bölgəsi*

«Müəllimlik həyatımda neçə-neçə uşaqla rastlaşmışam, onların xarakterinə, qabiliyyətinə bələd olmuşam. Zahid tanıdığım, dərs dediyim uşaqların heç birinə bənzəmirdi. O, qabiliyyətli olduğu qədər də ürəyiaçıq, doğru danışan, yurdu candan sevən bir oğul idi. Heyf ki, namərd düşmən gülləsi onu tez yaxaladı». Bu sözləri bir vaxtlar Qışlaq məktəbində Əliyev Zahid Səttar oğluna dərs deyən Misirxan müəllimin dilindən eşitmişik.

Sadə bir ailədə boya-başa çatan Zahid də şəhid həmyerliləri Pəhlivan, Əkbər və Soltan kimi Qışlaq kəndini əvəzsiz bir məkan, ulu yurd yeri bilirdi özünə. Ürəyinin dərinliklərində hələ ona bir şeir də qoşmuşdu:

*Bu kənd mənim qeyrətim,*
*Hünərim, - ad-sanımdı.*
*Dünyamıza ün salan,*
*Əbədi ünvanımdı...*

Zahid kənd səkkizillik məktəbini bitirəndən sonra Beyləqanın Mil üzümçülük sovxozunda yaşayan qardaşı İsrafilin yanına köçüb orta təhsilini orada başa vurmuşdu. Sovxozdakı texniki-peşə məktəbində oxuyanda çilingər olmağı, əllərinin zəhməti ilə ruzu qazanmağı arzulayırdı. Sevdiyi peşəyə yiyələnsə də, bu sənətin vüsalına yetişməyə tale ona macal vermədi. Ermənilərin qonşuluğundakı kəndlərinin rahatlığı pozulduğundan Zahidin ürəyi doğmalarının yanında qalmışdı. Qardaşı Rasimin yaralandığını eşidəndən sonra əli işdən tamam soyumuşdu onun. Doxsan ikinci ilin payızında cəbhəyə getmək istəyini evdəkilərə bildirəndə etiraz etdilər ona:

- Onsuz da daha Qışlaq xarabalığa dönüb.
- Daha orda nəyimiz qalıb ki...



- Vətənə arxa durmaq təkcə sənin payına düşməyib ha. Nə çoxdur daldada baş girləyən varlı uşaqları. Onlar nə vaxt cəbhəyə getsələr, sən hamıdan qabaq üz tutarsan oraya...

Zahid deyilənlərə axıra qədər qulaq asıb, ürəyindən keçənləri dilinə gətirdi:

- Siz nə danışırsınız, məgər Vətən təkcə bizim Qışlaqdımı? Əgər belədirsə, bəs indiyə qədər bizim kəndimizdə şəhid olanlar nədən ötrü candan keçiblər? Axı, bu günün sabahı da var. Vətənin ağır günündə onun harayına arxa çevirənlər nə xalqın, nə də vicdanlarının ittihamından qaça bilməyəcəklər...

Bir müddət Zahidin sorağı Ağdərənin odlu nöqtələrindən gəldi. Səttar kişi, Suqra bacı bir qayda olaraq sübhü diri-gözlü açır, cəbhə xəttindən gələn barıt qoxulu xəbərləri ürək çırpıntısı ilə izləyirdilər.

Zahid Cəbrayıl hərbi alayına dəyişiləndə evdəkilər bir azca yüngülləşdilər. İndi daha uzaqda deyildi, gözlərinin qabağında vuruşurdu. Cəbhədə kəşfiyyatçı peşəsinə yiyələnən Zahid Əliyev Sur, Şişqaya, Günəşli, Quşçular əməliyyatlarında yaxından iştirak edib, cəsurluğu ilə hamının hörmətini qazandı. Qardaş-bacıları onun adı ilə öyünür, dostları iftixar hissi keçirirdilər. Tanrı özü də elə bil onun tərəfində idi. Ən qızğın döyüşlərdə belə düşmən gülləsindən salamat qurtaran bu igid əsgəri dostları zarafatla «güllə batmaz» adlandırırdılar...

Doxsan dördüncü ilin baharı Zahidgilin ailəsinə dərd-ələm gətirdi özü ilə. Cəbrayılın Füzuli torpağı ilə qovuşduğu yerdə – Lələ təpəsi ətrafında gedən qanlı döyüşlər Zahidin də həyatını sona çatdırdı. Dumanlı-sisli dağlara bürünən ata ocağına tərəf boylanan qışlaqlı igidi yağı gülləsi çoxdan güdürmüş demə. Bir neçə yaralı döyüşçünün həyatını sönməyə qoymayan eloğlumuz, özünü namərd gülləsindən qoruya bilmədi. 'Qatil, əlin qurusun», - sözləri dodaqlarında donub qaldı onun...

## SƏN VƏTƏN ÜÇÜN DOĞULMUŞDUN...



***Əliyev Qüdrət Səfər oğlu***
***doğulub - 23.12.1965-ci il,***
***Cəbrayıl rayonu, Soltanlı kəndi;***
***şəhid olub - 18.05.1994-cu il,***
***Füzuli rayonu, Aşağı Əbdülrəhmanlı kəndi***

Soltanlı kəndində dünyaya göz açıb, ömrünün iyirmi doqquzuncu pilləsində şəhidlik adını «qazanan» Əliyev Qüdrət Səfər oğlu didərginlik dövründə doğmalarının sinəsinə çalçarpaz dağ çəkib. Qüdrət 1983-cü ildə orta məktəbi bitirəndən sonra sovet ordusu sıralarında qulluq etmişdi. İkiillik əsgər həyatı onun gözünü elə açmışdı ki, o ətrafda cövlan edən hadisələrə yetkin ağılla qiymət verə bilirdi.

Bədnam yenidənqurmanın fitnə-fəsad törədəcəyini fəhm etmişdi. Riyakar Qorbaçovun aşkarlığı başımızda çatlayanda Qüdrət yanılmadığını başa düşdü. O, bildi ki, Dağlıq Qarabağ məsələsini ortaya atmaqla SSRİ-ni dağıtmağı qarşılarına məqsəd qoyanlar yurdumuzu qana çalxayacaqlar. Əsgərlikdən qayıdandan sonra doğma Soltanlı kəndində işləyib özünə güngüzəran düzəldən bu oğlanın əndişəsi yerə-göyə sığmırdı. Arazboyu obalarda nisbi sakitlik hökm sürsə də, o vaxtlar rayonun dağ kəndləri oda qalanır, şəhid tabutları gündə bir oymağa üz tuturdu. Yaxından tanıdığı Rufizin, Maisin, Yelmarın, Elmarın, Faiqin, Rantiqin ölümü onu kipriklərindən dara çəkdikçə Qüdrət öz-özünü bağışlaya bilmirdi. Belə ağır bir gündə Vətən qeyrəti çəkən oğul kənardamı qala bilərdi? Bu hisslərin təsiri ilə Qüdrət könüllü şəkildə yurdun qala timsallı oğullarının sırasına qoşuldu...

Onda Cəbrayıl elimiz öz gücü ilə düşmən qarşısında duruş gətirir, qeyrətli oğullarımızın enli kürəklərinə sığınaraq torpağı əkib-becərir, yurd-yuva qəhri çəkirdilər...

Doxsan üçüncü ilin payızında başımız üstən ötüb keçən qara tufan bizi didərgin salandan sonra da Qüdrət silahı yerə qoymadı. Füzuli rayonundakı Arazboyu və dağətəyi kəndlərin azad edilməsində yaxından iştirak edib, minlərlə ailənin çırağını sönməyə qoymadı...

1994-cü ilin 18 mayı yurd savaşında ad-san qazanan bir eloğlumuzun da həyatına son nöqtə qoydu. Aşağı Əbdülrəhmanlı kəndi ətrafında döyüş postunda olarkən düşmən gülləsi Qüdrəti qəfil haqladı. Qüdrətdən söz açan bu yazıda onun adını kövrək misralarla anıb, cəmi şəhidlərimizə rəhmət diləyirik:

*Sığınmışdın təmiz ada,*
*Niyə qəfil düşdün oda?*
*Vətən üçün doğulanlar,*
*Unudulmur bu dünyada...*



## «QİSAS GÜNÜ DİRİLƏRİK...»



***Əliyev Vahid Balaca oğlu***
***doğulub – 16.04.1970-ci il,***
***Cəbrayıl şəhəri;***
***itkin düşüb***
***Cəbrayıl rayonu, Sirik kəndi***

«Mənim doxsana yaxın yaşım var. Dünyanın hər üzünü görüb, həyatın hər sınağından çıxmışam. Ancaq hələ indiyə kimi erməni nankorluğu qədər dəhşətli bir hadisənin şahidi olmamışam. İllər boyu qonşuluq edib, duz-çörək kəsdiyimiz bu yaramaz millətin demə buynuzu qarnındaymış. Fürsət ələ keçən kimi igid oğullarımızın meyitləri üstündən adlayaraq, bizi el- obamızdan perik saldılar. Allah baisin evini yıxsın, bu ahıl çağımda məni gorgahımdan didərgin salıb, Vahid balamı əlimdən aldı. O, mənim üçün təkcə istəkli nəvə deyildi, evimizin dirəyi, arxamız-dayağımız idi».

Doğma torpaq və nəvə itkisinə dözməyərək bu yaxınlarda dünyasını dəyişmiş Mürşüd babayla görüşəndə ürək yanğısı ilə demişdi o, bu sözləri...

O nisgilli görüşdən sonra Əliyevlər ailəsi ilə vidalaşıb yola çıxanda Minə ana sonuncu arzusunu da bildirmişdi bizə: «Sizin qadanızı alım, Vahiddən yazanda mənim ürəyimdən keçən bir qatar sözü də qatın kitabınıza. Ürəyimi dara çəkən bu ağıda balalarım Vaqifin, Zahidin, Vəfanın qardaş həsrəti var». Bunları deyəndən sonra Minə ana ürəyinin nisgilini sözə çevirib səpmişdi arxamızca:

*Tayada bəlim yandı,*
*Əl atdım, əlim yandı.*
*Oğul-oğul deməkdən,*
*Ağzımda dilim yandı.*

*Apardı çaylar məni,*
*Həftələr, aylar məni.*
*Yüküm qurğuşun yükü,*
*Yordu bu taylar məni.*

*Ürəyimdə dağım var,*
*Talan olmuş bağım var.*
*Allah, görən qabaqda –*
*Daha hansı çağım var...*

Cəbrayıl camaatının halal bir insan kimi tanıdığı Balaca kişinin ocağında dünyaya göz açmışdı Vahid. Cəbrayıl şəhərini üç tərəfdən ağuşuna alan dağların özü kimi vüqarlı böyüyüb, Xan Çinara, büllur kəhrizə baxmaqdan doymayan bu oğlan doğulduğu elin ilahi gözəlliyi ilə fəxr edirdi. Namərd qonşularımızın atdıqları «qradlar» suyumuzu bulandıranda Vahid daha dözə bilmədi. 1992-ci ilin oktyabr ayında işlədiyi idarədəki rabitəçi peşəsi ilə vidalaşıb, silaha sarıldı...

Qarabağ savaşından qabaq ürəyində çox şeylər arzulayırdı Vahid. Gəncə şəhərindəki 37 saylı TPM-də toxuculuq sənətinə yiyələnmişdi. İstəyirdi ki, şərəfli peşəsi ilə insanların karına gəlsin, ailənin halallıq üstə köklənən ənənəsini davam etdirsin. Evlənib ailə-uşaq sahibi olsun. İxtiyar Mürşüd babasının, atası Balaca kişinin, anası Minənin qulluğunda dursun, onların əhliyyətinin azacıq da olsa əvəzini qaytarsın...

Vahidin həyatda arzuları çox olsa da, heç vaxt şöhrət barədə düşünməmişdi. Heç ağlına da gəlməzdi ki, ürəkdən sevdiyi, bəyaz çalmalı zirvələrinə, yamyaşıl yamaclarına heyranlıqla baxdığı Vətən torpağı onu nə vaxtsa şəhidlik şöhrətinə qovuşduracaq...

Onun döyüş yolu Sirik batalyonundan başlamış, Ziyarat dağının o üzündə sona çatmışdı. Vahid düz altı aya yaxın ulu Sirik dağlarının yaşıl çuxasına bənzəyən meşələrin qoynuna sığınıb, düşmənin başına od yağdırmışdı. O, qanlı-qadalı döyüşlərin birində yaxın dostları Mayis Verdiyev və Yelmar Əliyevlə birlikdə geri qayıtmamışdı. İndiyə kimi onları gah itkin, gah da şəhid deyə soraqlasaq da, öldü-qaldılarından xəbər tuta bilməmişik



hələ də. İtkin olsaydılar bəlkə də hardasa soraqlarını eşidər, özümüzü şirin bir gümanla ovundurardıq. İndiyə kimi səslərini eşidə bilməsək də, qələm dostumuz Hürriyətin bir şeirinə sığınıb elə bil onlar:

*Koroğlu kimi ərlərik,*
*Bu torpağa sərilərik.*
*Qisas günü dirilərik,*
*Dayaz qazın qəbrimizi...*

## ULU TURAN ƏSGƏRİYƏM

***Əmirov Xıdır İsmayıl oğlu***
***doğulub - 01.05.1975-ci il,***
***Cəbrayıl rayonu, Xələfli kəndi;***
***şəhid olub - 10.01.1994-cü il,***
***Füzuli rayonu, Qaraxanbəyli kəndi***



Dağ Xələfli Cəbrayılın şimali-qərb səmtində, Hadrutun erməni kəndlərinin əhatəsində yerləşir. Dan yeri sökülləndə al günəşin ilk şəfəqlərindən bu kəndə pay düşür. Yayın qora bişirən çağlarında da Ziyaratın nəfəsi bu oylağa dağ sərinliyi gətirirdi...

Xıdırın ata ocağı, nənnisi, beşiyi idi Dağ Xələfli kəndi. O, burda böyümüş, dağlara diklənən cığırları birnəfəsə qalxıb kəndlərinin böyründəki zirvədən üfüqlərə boylanmışdı. Dağ Xələflidən baxanda üzü Araza sarı uzanıb gedən barlı-bəhərli torpaqlar, bir-birinə söykənən tənəklər göz oxşayır. Gün çıxan tərəfdə dağların ətəyi ilə qıvrıla-qıvrıla axıb gedən Arazın suları bəyaz lentə bənzəyir. Dağ Xələfli kəndinin daşlı-çınqıllı torpaqlarına dirilik verən kənd adamları dağların özü kimi əzəmətli, vüqarlıdır. Xıdır bu kəndin daşına, torpağına bənzəyirdi - yalçın qayaların özü kimi köklü-köməcli idi. Doğulandan on üç il sonra qonşuluqlarındakı ermənilərin sərsəm «miatsum» çağırışlarını eşidəndə uşaq fəhmi ilə duyub anlayırdı ki, ata-babalarımızın fağır hesab edib mərhəmət göstərdikləri bu məxluqların iblis sifətləri üzə çıxmaqdadır. Onda hələ parta arxasında əyləşərək ucu-bucağı bilinməyən SSRİ adlı bir diyarı Vətən bilib, onun şəninə uşaq ləhc-

əsi ilə şeirlər söyləyirdi Xıdır. Onda hələ ulu Göyçədən, Zəngəzurdan, Zəngibasardan, Dilicandan qovulan soydaşlarımızın müsibətini bütövlükdə duyub dərk edə bilmirdi. Yurdsuzluq faciəsinin, didərginlik əzabının nə olduğunu sonradan biləsiydi Xıdır. Ona qədər hələ beş bahar, beş qış yaşamalıydı. Cəbrayıl camaatının bir yay axşamından başlayıb payızın ortasında sona çatan didərginlik köçü başlayanda köçgünlüyün nə olduğunu anlayıb başa düşdü...

Onda cəmisi üç ay bir həftə idi ki, Milli Ordumuzun əsgəri idi Xıdır. Onu qeyrətli oğullarımızın cərgəsinə yurd sevgisi, bayquş xislətli düşməndən qisas almaq istəyi gətirmişdi. Orduya gəldiyi gündən gizli bir iftixar hissi ilə əynindəki əsgər geyiminə, əlindəki avtomat silahına nəzər salıb, sinəsində dolaşan kövrək hisslərin misra pıçıltısı ilə sabaha boylanırdı:

*Bu torpağın yad önündə,*
*Məğrur duran əsgəriyəm.*
*Düşmənləri nişan alıb,*
*Gözdən vuran əsgəriyəm.*

*Xətainin nəvəsiyəm,*
*Yerin, göyün nəfəsiyəm.*
*Bu torpağın gur səsiyəm,*
*Ulu Turan əsgəriyəm...*

Müstəqil respublikamızın təzə-təzə qəddini düzəltməyə çalışan Milli Ordusunda əsgər olması ilə öyünüb fəxr edirdi Xıdır. Ona elə gəlirdi ki, yan-yörəsindəki igid oğlanlar Koroğlu hayqırtılı bir sərkərdənin bircə nərəsi ilə şir kimi düşmən üstünə atılmağa hazırdılar. Ancaq onda orduya başçılıq edənlərin bəziləri Qoç Koroğlunun yox, keçəl Həmzənin, Qıpçaq Məliyin, Səhl Sumbatın belindən gələnlər idi. Doğma torpaqlarımızın müdafiəsindən çox var-dövlət toplamaq, şəhid meyitindən, yaralı fəğanından qazanc əldə etmək düşündürürdü onları. Elə buna görə də bu naxələflər Cəbrayıl torpaqlarını qoruyub saxlamaq üçün canından keçməyə hazır olan qeyrətli oğullarımızın zəhmətini yerə vurub dədələrimizin gor evlərini düşmən tapdağı altda qoydular. Onda Xıdır yurdsevər oğullarımızla birlikdə Vətənin o biri səmtində - Ağdamda döyüşürdü. El-obasının doğma torpağı ağlar gözlə tərk etdiyini eşidəndə damarlarındakı qanı dondu elə bil onun.

Vətənin yaxını-uzağı olmur, - deyiblər. Laçın da, Kəlbəcər, Zəngilan da... Cəbrayıl qədər doğma idi Xıdıra. Ağdamın Papravənd, Boyəhmədli



Qaraçinar kəndləri uğrundakı döyüşlərdə də vuruşub sinəsini Vətən torpağına sipər edirdi...

Füzuli cəbhəsinə gələndə doğma yurd yerlərinə boylandıqca ürəyi qubarlanırdı onun. Gücü çatsaydı, düşməni pərən-pərən salıb üzü Cəbrayıla tərəf bir nəfəsə qaçar, Cəbrayıl çinarının kökləri ilə daranan büllur kəhrizin sularını alışıb-yanan sinəsinə çiləyərdi. Ancaq o ulu torpaqlara uzanıb gedən düşmən məkrli olduğu qədər də güclü idi. Xaç qardaşlarının köməyinə bel bağlayan bu arxalı köpəklər quzğun kimi leş sorağında idilər. Onları kürüyüb atmaq üçün Vətənin qeyrətli oğullara ehtiyacı var idi. Xıdır bütün bunları bildiyindən intiqam hissi ilə alışıb yanırdı...

Qaraxanbəylidə gedən döyüşlər səngiyəndə Əmirov Xıdır İsmayıl oğlunu da üzlərini Vətən torpağına söykəyən şəhid oğullarımızın yanında yerə sərili gördülər. Onun ruhu snayper gülləsi ilə vurulan andan İmam Hüseyn ucalığına üz tutmuşdu. Yerdə al qanına bələnən cəsəd bir qulac gor evi soraqlayırdı özünə. Cəbrayıldan xeyli uzaqdakı bir aramgahda onu torpağa tapşıranda Xıdırın göyləri dolaşan ruhuna bir sərinlik səpildi elə bil...

## TORPAĞIN MƏZAR NAXIŞI



***Əmiraslanov Süleyman İbrahim oğlu***
***doğulub - 06.01,1973-cü il,***
***Cəbrayıl rayonu, Kavdar kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

O gecə təbiət ayın işığında yuyunurdu elə bil. Göylərin ulduz atəşfəşanlığı dağların üstünə işıq səpirdi o gecə. Ziyaratın sərin mehi yarpız ətrinə, çiçək qoxusuna qarışıb torpağın üstə çilənməkdə idi. On beş avqust axşamı Daşbaşı kəndi səssizlik sorağı ilə özünün gecə ömrünün şirinliyinə tələsirdi. O gecə açıq havada ulduzlara tamaşa edən cavanlar qarabaqara üstlərinə gələn ölümdən xəbərsiz idilər. Süleymanlı Arifin gecənin səssizliyini diksindirən söhbəti dağların yaddaşına yazılmaqda idi o gecə:

- Bilirsən, Arif, mənə elə gəlir ki, son günlər düşmən nə isə çox məkrli bir plan hazırlayır.

- Dostum, düşmən onsuz da həmişə məkrlidir. Ancaq onu de ki, bizim Cəbrayıl alayı get-gedə didilib parçalanmaqdadır. Fikir verirsənmi bəzi komandirləri orduya Vətən sevgisi yox, var-dövlət tamahı gətirib.

- Bunları yaxşı bilirəm, əzizim. Dava günü bəzi qorxaq komandirlərin dalda-bucaqda baş girləmələri adamı iyrəndirir.

- Kinolarda görmüşük ki, döyüş vaxtı zabit öz dəstəsinin önündə gedib əsgərləri ruhlandırar. Bizdə isə əksinədir. Hamısını demirəm, komandir var ki, hələ burnuna barıt iyi dəyməyən uşağı qabağa buraxıb özü müxtəlif bəhanələrlə aradan çıxır...

- Bütün bunları görəndə bilirsən ağlıma nə gəlir? - Süleyman söhbətə bir azca ara verib sualına cavabı özü verdi: - Mənə elə gəlir ki, bələlərinin günahı ucbatından bizim Cəbrayılı da Laçının, Şuşanın, Kəlbəcərin aqibəti gözləyir...

- Ağzını xeyirliyə aç, qardaş. Allah o günü bizə göstərməsin... Bilirsən, Süleyman, gələcəkdə nə edəcəyik?

- Səni demirəm, ancaq, Arif, mən müharibə qurtaran kimi Kavdardakı evimizə qayıdıb oturacağam bir maşının sükanı arxasında. Heç bilirsən şofer olmağı necə arzulamışam? Sarıcallıdakı məktəbi qurtarıb əlimə vəsiqə alanda elə bilmişəm bax, bu Daşbaşı dağlarını mən yaratmışam...

- Süleyman, Allah qoysa dava qurtarandan sonra fırçanı əlimə götürüb birinci dəfə Daşbaşının gecə mənzərəsini yaradacağam. Özü də necə var o şəkildə. Bir tərəfdə özümüzü söhbət eləyən vəziyyətdə təsvir edəcəyəm, o biri yanda dostlarımız Müslümü, Fərhadı, Mətləbi, Nurəddini... çəkəcəyəm...

- Ay aman, bir tabloya bu qədər əsgəri necə yerləşdirəcəksən? Yaxşı, gecə keçir, get, bir azca çimir elə, mən postdakı uşaqların yanında dayanaram...

O gecə Daşbaşı dağları, yalçın qayalara sığınan cavan əsgərlər düşmənin niyyətindən xəbərsiz idilər. Bir azdan amansız bir döyüş başlamalıydı burda. Ölümə tərəf addımlayanların içərisində Süleyman da var idi o gecə...

Ailədə yeddi uşağın dördüncüsü idi Süleyman. Səksən doqquzuncu ildə anası Elmira dünyasını dəyişəndə qəlbinin telləri qırılmışdı elə bil onun. Harada olsa için-için ağlayıb həsrətini göz yaşlarına çevirərdi. Hərdən kəndlərindəki qəbiristana gedib Elmira ananın ruhu ilə üz-üzə dayanardı. Belə vaxtlarında sözlər qəhərə çevrilib boğazına tıxanardı onun:



*Dünyamız dərdinə darlıq edərdi,*
*Sən necə məzara sığırsan, ana...*

Doxsanıncı ilin mayında Sovet ordusu sıralarına çağırılsa da, qürbətdə çox qala bilməmişdi. Qayıdıb anasının məzarına baş çəkəndən sonra torpaqlarımızı qorumağa getmişdi. Süleymanlı, Quşçular, Mülkədərə postlarında dönə-dönə bərkdən-boşdan çıxmışdı...

Anasının qəbri ondan ötrü ən əziz and yeri idi. Süleyman ürəyində Elmira ananın ruhuna and içmişdi ki, son nəfəsinə kimi torpağa sədaqətli olacaq. O müdhiş Daşbaşı gecəsində amansızlıqla qətlə yetiriləndə də son nəfəsinə kimi sözünün üstə durdu...

İbrahim kişi neçə vaxtdır ki, yönünü şəhid oğlunun əsirlikdə qalan qəbri səmtdən çevirə bilmir. Ata yaxşı bilir ki, şəhid məzarları Kəbəyə gedən yolun naxışları kimi heç vaxt saralıb-solan deyil...

## ZİRVƏYƏ GEDƏN YOL



***Əsgərov Elxan Şamil oğlu***
***doğulub - 30.05.1972-ci il,***
***Cəbrayıl rayonu, Hacılı kəndi;***
***şəhid olub - 20.01.1994-cü il,***
***Fuzuli rayonu, Qorqan kəndi***

Şəhidlik əlçatmaz, ünyetməz zirvəyə bənzəyir. O ucalığa qovuşmaq yalnız cəsarətli, qeyrətli adamlara qismət olur. Şəhidliyə gedən yol Vətən sevgisindən, yurd istəyindən, qəlbin ümman məhəbbətindən keçib gedir. Şəhidlər Tanrının ən sevimli bəndələridir - deyiblər.

Bu müqəddəs yolun yolçularından biri də Əsgərov Elxan Şamil oğludur. Elxan 1972-ci ildə Cəbrayıl rayonundakı Hacılı kəndində anadan olmuşdu. Ata ocağına bütün varlığı ilə bağlı olan Elxan illər keçdikcə duyub anlamışdı ki, Vətən qeyrət, namusdur, insanın gücü, qüdrəti, ürəyin təpəridir. Elxan bütün bunları ilk növbədə ailə üzvlərinin, xüsusi ilə atası Şamilin timsalında duyub anlamışdı. Aran torpaqların dağətəyinə baş qoyduğu yerdə

binə-binə böyüyən Hacılı kəndində Şamil kişini halal bir insan kimi tanımışdı el-obası. Bəlkə elə buna görədir ki, torpaqlarımıza düşmən diş qıcadanda ilk dəfə silaha sarılanlardan biri də Şamil olmuşdu. Onda hələ Elxan keçmiş imperiyanın Vladiqafqaz şəhərində əsgəri xidmətdə idi. Buradakı motoatıcı alayda Elxanı bacarıqlı bir əsgər kimi tanıyırdılar. Xidmət etdiyi hərbi hissədə qabiliyyətini nəzərə alıb ona baş serjant rütbəsi vermişdilər. Elxan doğma elimizdən uzaqlarda olsa da Qarabağ elimizdə baş verən hadisələrdən xəbər tutduqca ürəkdən yanıb-yaxılırdı. O, ilk cavanlıq fəhmiylə duyub anlayırdı ki, üzləşdiyimiz faciənin kökləri çox-çox uzaqlara üz tutub gedir. Və bir də Elxan onu bilirdi ki, torpaqlarımızı yalquzaq iştahıyla udmağa hazır olan düşmən məkrli, hiyləgər və amansız bir məxluqdur. O iblis qan tökməkdən həzz alır, xaraba qoyduğu yurd-yuvamızın ərşə qalxan tüstüsünü ciyərlərinə çəkdikcə bayquş xislətiylə qəhqəhə çəkib sevinir. İllər boyu çörəyimizi yeyib üzümüzə gülən bu düşmən demə ayağımız altda quyu qazırmış bizlərə. Zəngəzur mahalındakı, Göyçə elindəki torpaqlarımızı qamarlayıb ələ keçirəndən sonra ulu yurdumuzun hesabına «dənizdən dənizə» uzanan bir dövlət yaratmaq xülyasına düşən qaniçən ermənilər əllərinə fürsət keçən kimi üstümüzə atıldılar...

Bu dərdə, müsibətə dözməyib düşmənin nankorluğunu həzm edə bilməyən oğullarımız sinələrini Vətən torpağına sipər etdilər. Laçında, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda, Elxanın ata ocağı Cəbrayılda bayquş ulartılı mərmilər torpaqlarımıza sancılanda dünyagörmüş ağsaqqal-ağbirçəklərimiz dedilər ki, bu xəmir hələ çox su aparacaq...

Əsgəri xidmətdən yenicə qayıdıb el-obasını ağlar gündə görən Elxan Əsgərov qəlbinin hökmü ilə gedib igid oğullarımızın sırasına qoşuldu. Cəbrayıl alayının igid bir əsgəri kimi ulu torpaqlarımız Quşçuların, Surun, Qışlağın müdafiəsində yaxından iştirak etdi Elxan. Əzəldən dözümlü və cəsarətli olduğundan gülləni gözünə sıxsaydın kipriyini qırpan deyildi. Postlarda dayananda da, soyuq səngərlərə sığınıb düşmənin başına od-alov yağdıranda da sayıqlığını itirən deyildi. Bilirdi ki, qarşıdakı insan qanına susayan məkrli bir düşməndir. O, uşağa, qocaya rəhm etmədən qarşısına çıxan hər şeyi məhv etməyə, insan əlləri ilə tikilənləri oda yaxmağa hazırdır. Bütün bunları varlığı ilə duyub hiss etdiyindən Elxan döyüş zamanı təkcə özünü deyil, çiyin-çiyinə dayanıb Vətənə sipər olan oğullarımızı da sayıqlıqla qorumağa çalışırdı. Deyirlər insan çətin anda sınanır, onun qəlbi, mənəviyyatı üzə çıxır. Elxan dönə-dönə düşmənlə üz-üzə dayandıqca silahdan daha möhkəm yapışır, həmlələri cəsarətlə dəf edirdi. Əslində ölümə həmişə hazırdı o. Yeri düşəndə deyirdi ki, biz ölüb-itən şəhid oğullarımızdan artıq deyilik. Elə bir vaxt gəlib çatıb ki, ana deyib mehrinə-məhəbbətinə sığındığımız Vətən torpağının yolunda «uf» demədən ölməyə hazır olmalıyıq...



Ancaq ölmək üçün doğulmamışdı Elxan. Yaşamaq üçün, döyüşmək üçün, qələbə günümüzün sevincini görmək üçün dünyaya gəlmişdi o. Ayrı-ayrı döyüşlər zamanı düşmən əsgərlərini məhv etdigcə qələbə günümüzün yaxınlıqda olduğunu hiss edirdi. Belə vaxtlarda yenilməz bir əsgərə, qeyrətli bir igidə dönürdü. Döyüşlərdən birində qolundan yaralansa da səngərdən, düşmən qabağından uzaqlaşmamışdı... 1993-cü il oktyabr ayının 24-də Vətənin bir parçası olan doğma torpaqları ağlar gözlə tərk etmişdi Elxan. Və o vaxtlar qeyrətli oğullarımızla birlikdə Elxan da and içmişdi ki, günahsız yerə qanına qəltan olan, yurd-yuvası dağılan insanların qisasını almayınca silahı yerə qoymayacaq. Şəhid olduğu son ana kimi sözünün üstə kişi kimi dayandı Elxan. Əvvəlcə Ağdam bölgəsində düşmənin başına od yağdıran bu igid oğlan döyüş zamanı altı erməni quldurunu məhv etdi. Bundan sonra Elxanın və onun döyüşçü dostlarının səsi, sədası Füzuli cəbhəsindən eşidildi. Horadiz əməliyyatında özünün qeyrətli bir igid olduğunu bir daha sübut edən eloğlumuz Qorqan uğrundakı döyüşlərdə də fərqləndi. İgidliyini nəzərə alıb bir nömrəli batalyonun 3-cü rotasında vzvod komandirinin müavini təyin etdilər onu. Elxan duyub-anlayırdı ki, onun üzərinə böyük məsuliyyət hissi düşür. Döyüş zamanı az itki ilə məqsədə çatmaq istəyi onu daha cəsarətli edirdi. Yoldaşlarını gözbəbəyi kimi qorumağa çalışan Elxan Əsgərov Qorqan uğrundakı döyüşlərin birində özünü qorumağı yaddan çıxardı. Düşmən fürsət tapıb cəsarəti ilə yoldaşlarına ürək-dirək verən bu qeyrətli oğlanın odlu ürəyini nişan aldı. Əsgərov Elxan Şamil oğlu 1994-cü ilin 20 yanvarında şəhidlik zirvəsinə ucaldı...

Cəbrayılda dünyaya göz açan bu igid Saatlı rayonunun Şirinbəyli kənd qəbiristanında özü boyda Vətən torpağını gor evi seçdi...

Bu gün Elxanın ölümündən xeyli keçsə də el-obası onu bir an da olsun yaddan çıxarmayıb. Vətən yolunda şəhid olanlar əbədi yaşamaq haqqı qazanırdı. Elxan illər boyu bizim qan yaddaşımızda özünün igidliyi ilə həmişə xatırlanıb əzizlənəcək. Allah ona və cəmi şəhidlərə rəhmət eləsin...

# KİŞİ ÖMRÜ YAŞAMISAN



***Əsgərov Xurşud Əsgər oğlu***
***doğulub - 06.06.1974-cü il,***
***Cəbrayıl rayonu, Dağ Xələfli kəndi;***
***şəhid olub - 04.03.1994-cu il,***
***Füzuli rayonu, Horadiz qəsəbəsi***

Səndən əvvəl həmkəndlin Xıdırdan söhbət açmışıq, qardaş. O səndən cəmisi ikicə ay qabaq dunyasını dəyişib. O da sənin kimi Dağ Xələflinin təmiz havası ilə nəfəs alıb, sərin çeşmələrindən su içib, kəndinizin qürub səmtindəki Ziyaratın bəyaz zirvəsinə gözü dolusu tamaşa edib. Qoy ruhun bizdən inciməsin Xurşud, səndən yazmaq istəyi ilə yaşadığımız anlarda əlimizin altında olan vərəq yarım kağıza sığışan ömür yoluna dönə-dönə üz tutduq. Doğulduğun gündən şəhid olduğun anadək keçdiyin iyirmi illik ömür yolunu axtarıb tapa bilmədik bu kağızda. Titrək xətlə qələmə alınan ömürnaməni kim yazıb görəsən? Atanmı, ananmı, qardaş-bacınmı, dostun-doğmanmı? Nə qədər baş sındırdıqsa da sualımızın işıq ucu görünmədi, Xurşud. Didərginlik əzabı ilə yaşadığımız günlərdə əlimiz çatmadı ki, doğmalarınla görüşüb onların nisgilli baxışlarından arayıb tapaq səni. Ona görə də bağışla bizi, eloğlu, ünvanımıza üz tutan bu bir parça kağızdan axtarmalı olduq səni. Adi şagird dəftərinin damalı vərəqində sənin həyat yolundan söz açılır:

Əsgərov Xurşud Əsgər oğlu 1974-cü il iyunun 6-da Cəbrayıl rayonunun Dağ Xələfli kəndində anadan olmuş, 1991-ci ildə orta məktəbi bitirmişdir...

Bundan sonra sənin odlu-alovlu cəbhəyə uzanan ömür yolundan qısaca söz açılır. Bildiyimiz odur ki, səni cəbhəyə qeyrətin gətirib, Vətən yaşasın deyə dar ayaqda canından keçmisən. Sənin barəndə düşündükcə beş-on il qabaq yazılmış bir şeiri xatırladıq:

*Bircə əsim küləyini ver mənə,*
*Bircə ovuc torpağına qısılım.*
*Nəğmə dolu ürəyini ver mənə,*
*Qayalaşan kipriyindən asılım...*

Vətən hissi gur çaylara, zümzüməli çeşmələrə, durna qatarına, səhər mehinə qarışıb sənin ürəyindən adlayıb keçirdi, Xurşud. Elə ona görə də



günəş ziyası, damla saflığı var idi səndə. Belə amalla doğulanlar şimşək ömürlü olsalar da, əbədi yaşamaq səadətinə qovuşurlar. Ömrün dəyəri yaşanmış illərin uzunluğu ilə yox, həyatda qalan izləri ilə ölçülür. Sən iyirmi illik ömrünlə həyatda elə iz qoyubsan ki, əsrlərin tufanı, qasırğası onu yaddaşımızdan silməyə qadir deyil. Sən sözün əsl mənasında kişi ömrü yaşamısan. Belə ömür yaşamağa çoxunun hünəri çatmadı, qardaş... Sən torpaqlarımızın barıt qoxulu günlərində Sur, Quşçular, Daşbaşı postlarında yurda keşik çəkmisən. Sonralar Tey və Qala dağlarının ağuşuna Sirik kəndinin üst tərəfindəki meşəlikləri səngər edib Ziyaratın o üzündən atılan mərmilərin yolunu kəsmisən. Dağ kəndlərinin camaatı ev-eşiklərini tərk edib Arazboyuna pənah gətirəndə, o vaxtlar sıralanan obalarımızı qoruyub saxlamaq üçün silahdan yapışmısan. Erməni quldurları Horadizdə yolu bağlayarkən Araz çayını o üzə keçib Mildə, Muğanda sıralanan qaçqın çadırlarında daldalanan ailə üzvlərini, qohumlarını soraqlamısan...

Noyabrın ilk günlərində respublika prezidentinin çağırışı ilə yenidən ordu sıralarına qayıdıb Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmisən...

Əsgəri olduğun hərbi hissə Horadiz qəsəbəsinə doğru uğurla irəliləyəndə sevincindən qanadın olmayıb uçmağa. Cəbrayılın düşmən caynağından geri alınan Cocuq Mərcanlı kəndinə ayağın dəyəndə elə bilmisən ki, doğulduğun Dağ Xələfli kəndinə qədəm qoymusan. Araz kənarında yerləşən bu kənddən baxanda doğma kəndinizi görə bilməsən də Ziyaratın qarlı zirvəsinə uzaqdan da olsa tamaşa edib, yurd həsrətini söndürmüsən. İnanmısan ki, tezliklə torpaqlarımız azad ediləcək... Belə duyğularla yaşadığın günlərin birində Lələ təpəsinə sığınan düşmənlərin atdığı gülldən sinən parçalanıb. Saleh adlı bir igid əsgərin başçılığı ilə döyüşçü dostların səni çətinliklə arxaya gətiriblər. Və bundan sonra əbədiyyət adlı Tanrı məkanına səfərin başlayıb sənin. Getdiyin o sirli dünyadan bir daha qayıtmasan da, Vətən torpağını gəzib dolaşan müqəddəs ruhun həmişə bizimlə olacaq...

# «ATA, MƏN GETDİM»...



***Əhmədov Məhəmməd Sabir oğlu***
***doğulub - 12.02.1970-ci il,***
***Bakı şəhəri;***
***şəhid olub - 12.02.1994-cü il,***
***Kəlbəcər rayonu, Yanşaq kəndi***

Məhəmməd haqqında məlumat almaq üçün onun atası, elimizin ağsaqqalı, görkəmli xalq yazıçısı Sabir Əhmədlinin qonağı olduq. Onunla söhbətimizi bütövlükdə diktafon lentinə aldıq. Sonra da qərara gəldik ki, bu söhbəti olduğu kimi oxucularımıza çatdıraq. Deyəsən Sabir müəllimin söhbəti bütün şəhid atalarının qəlbindən axıb gələn isti, səmimi, qüssəli ürək sözləri idi...

- Sabir müəllim, istəkli oğlunuz Məhəmməd haqqında söhbət etmək üçün gəlmişik. Sizin üçün nə qədər ağır olsa da biz o günləri - Məhəmmədli günlərinizi yada salmaq istədik.

- Məhəmmədin Murov dağlarında, Yanşaqda ömrünün bitməsindən üç il keçir. 1994-cü il fevralın 12-də gecə ikidən üçə işləyəndə o, Yanşaq yaxınlığında, Kəlbəcər dağlarında, qara qırova bürünmüş dağ yamaclarının birində tək bir güllə ilə şəhid olub. Sonra öyrəndim, mən bildim ki, gecə görən nişançılar - snayperlər vurublar onu. Bu hadisə baş verib. Amma hələ indiyə qədər mən, onun anası, ailə bunu gerçəklik kimi ağlımıza sığışdıra bilmirik. Əyləşmişik, bu stoldu, həyətdi, bağçadı, həmişəki kimidi, həmişəki qaydasındadı. Gün doğur, gün batır, işə gedən işə gedir, adi həyatdı və burada heç bir ağrı duymursan. Birdən yadına düşür ki, bu oğlan yoxdu. Onun 24 yaşı hələ tamam olmamışdı. Özü də həyat eşqi güclü, yaşamaq həvəsi aşıb-daşan bir oğlan idi. Yoxdu indi o. Bu həyatla çox bağlı olan, həyatı sevən əziz bir adamın yoxluğu ağır olur. Bütün bunları başına gəlməyən bilməz. Doğma adamın, gənc adamın, hələ bu həyatdan kam almamış adamın yoxluğu - bunu demək, təsvir eləmək çox çətindir. Məhəmməd və xatirə; mən bunu ağlıma sığışdıra bilmirəm. İlk vaxtlarda, ilk günlərdə o yas, o çadır, gəlib-gedən camaat, qohum-əqrəba - bütün bunların hamısı elə bilginən ki, bir qarabasma idi. Amma həqiqətdi bu. Bir dənə təsellimiz, bu ağır dərdin qabağında az-çox özümüzü sakitləşdirməyimiz odur ki, o, doğrudan da, müqəddəs bir iş yolunda - Vətən yolunda gedib. Onun təmiz, sədaqətli qəlbi vardı, qəlbinin çağırışı ilə gedibdi.



Siz bilirsiniz ki, o, Cəbrayılı çox az görmüşdü, Bakıda doğulmuşdu, amma avqustun 23-də məlum olanda ki, Cəbrayıl işğal olunub - axşam dedi ki, mən qala bilmərəm. Ondan sonra elə bil ki, heç evə yovuşmadı. Bir neçə dəfə hərbi komissarlığa gedir bizdən xəbərsiz. Deyirlər ki, hələ çağırış dəstəsi yığışmayıb. Axırı Pirəküşgülə getdi. Oradan onları apardılar Goran hərbi hissəsinə. Gorandan da bir gün yoldaşları ilə gəldi. Bir gün qaldı. Anası dedi ki, iki-üç gün də qal, qabaqdan fevralın 12-si gəlir - bu həm də onun doğum günüdür - sənin təvəllüd gününü də burada qeyd edək, sonra get! Dedi: «Yox, yoldaşlarımla danışmışam, səhər saat 7 tamamda mən vağzalda olmalıyam». Və obaşdan evdən çıxdı. Onun mənim qulaqlarımda qalan axırıncı sözləri bu oldu: «Ata, mən getdim...» - başını mənim otağıma salıb dedi.

O vaxtları - 1994-cü ilin yanvar ayında bizim hissələr Kəlbəcəri almaq üçün əməliyyat hazırlayırdılar. Gorandan 20-yə yaxın batalyon anarmışdılar ora. Sonradan da, bilirsiniz ki, dövlət səviyyəsində də bu əməliyyatın düzgün olmadığı təsdiqləndi. Mənim yaxşı tanıdığım bir adam bu barədə söhbət elədi. Şamil Əsgərov Kəlbəcərlidir, özü də yaxşı adamdır. O mənə dedi ki, mənim əlimdə avtomat hərbi geyimdə döyüşürdüm. Elə ki, mən eşitdim ki, Kəlbəcərə qışın o vaxtında hücum eləmək istəyirlər, getdim avtomatı qoydum qərargahda, paltarlarımı soyundum, dedim ki, mən bu qana qoşulmaq istəmirəm. Kəlbəcəri ala bilməyəcəksiniz bu havada, bu sırsırada, bütün yüksəkliklərdə ermənilər oturublar. Baxmayıblar belə söhbətlərə, belə əsaslara qulaq asmayıblar. Gediblər hücuma, özü də ora hücuma aparılanların əksəriyyəti təlim görməmiş, təcili, əlüstü Bakıdan, rayonlardan yığılmış, dağ döyüşündə yox, heç adi döyüşlərdə də olmamış cavanlar, uşaqlar olublar. Və təzədən bizim neçə kəndlərimizi ermənilər alıblar. Yanşaq da - Məhəmmədin həlak olduğu Yanşaq da həmin kəndlərin biri idi. Mən indi Məhəmmədin taleyindən artıq oradakı bizim itkilərimizin - oğullarımızın taleyini düşünürəm. Mən Yanşağı görmək istəyirdim. Məhəmmədin səngərini görmək istəyirdim. O gedəndən sonra mən onun arxasınca getmişdim. Məhəmməd hərbidə olmuşdu - Litvada xidmət etmişdi, amma onda onlar inşaat batalyonunda olmuşdular. Və bu oğlan Kəlbəcərə hücumdan 3 gün qabaq ki, ona silah vermişdilər, ona qədər silah görməmişdi, eləcə də o biri əsgərlər. Nə isə, onun ardınca getdim - həftənin 2-ci günü o gedib, 5-ci günü mən çıxmışam. Getməkdə də niyyətim bu idi ki, görüm onun vəziyyəti nə təhərdir. Mən gedən günü o şəhid olub, anadan olduğu gün - fevralın 12-sində!

- Sabir müəllim, Siz elə adamlardansınız ki, - belə adamlar indi tək-tək var. - Hər iki müharibənin, yəni 2-ci dünya müharibəsinin və indiki Ermənistan-Azərbaycan müharibəsinin dağı Sizin sevimli qardaşınız, bizim hamımızın fəxri, vüqarı olan Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov müharibənin lap sonuna yaxın qəhrəmancasına həlak oldu. 2-ci müharibədə isə Sizin ciyərparanız, istəkli balanız Məhəmməd Əhmədov «atəşkəs» dediyimiz o sakit vaxta 2 ay qalmış Murovda şəhid oldu...

- Ümumiyyətlə, müharibələri müqayisə etmək lazımdır. O müharibə bizim tariximiz idi, bizim şan-şöhrət tariximiz idi və faşizmə qarşı aparılan müharibə idi. O müharibənin əks-sədası Azərbaycanda idi, özü yox. Və bizdən təxminən 800-1000 km kənarda gedirdi. O müharibədə həlak olanların heç birinin öz vətənində, torpağında qəbri yox idi. Döyüş meydanında kim harada həlak olurdusa, orada da dəfn olunurdu. Amma indi Azərbaycanın hər kəndində, hər şəhərində, hər obasında köhnə qəbiristanlıq qədər təzə bir qəbiristanlıq yaranıb. Bu bizim öz ərazimizdə gedən müharibənin nişanələridir. Müharibə bizim torpağımızda gedir, bizim evimizin içində gedir.

O vaxt 41-45-ci illərdə 3 ayın içində almanlar böyük coğrafi ərazi olan SSRİ-nin qərb sərhəddindən girdilər, gəlib bir tərəfdən Moskvaya, digər tərəfdən Stalinqrada çatdılar. 41 keçdi ağır məğlubiyyətlərlə, amma 42-nin qışından başlayaraq bütün bu nəhəng ölkəni yenidən hərbi tərəfdən, müharibə qayda-qanunu əsasında qura bildilər və Avropanı az qala bir ayın içində qarmalamış Alman faşist ordularını ağır məğlubiyyətlərə uğratdılar. Yəni bütün ölkə təzədən hərbi yola, hərbi qayda-qanuna, hərbi şərtlərə uyğun qurula bildi. Biz bu işi 8-9 ildir qura bilmirik. Hələ o vaxt Cəbrayıl alınan günlərdə ki, biz gedirdik Cəbrayıla tərəf, - Əhmədbəylidə 4 yol ayrıcını erməni topları vururdu, dağıdırdı, ondan 30-40 km bu tərəfdə –Beyləqanda əbrişim ağaclarının altında çayxanalarda, pavilyonlarda oturub kabab yeyirdilər, araq içirdilər. Elə bil ki, bu müharibənin bunlara dəxli yox idi. Bir halda ki, millətin taleyi, dövlətin taleyi ortaya qoyulur, müharibədir bu. Burada bir millət kimi, ölkə kimi sıradan çıxa da bilərdik. Burada körpəsindən tutmuş böyüyünədək, aşağı vəzifədən tutmuş ən yüksək vəzifəyə qədər bütün millət müharibənin tələbləri əsasında səfərbər olmalı idi. Mən açıq deyirəm: tez-tez orduya gedirəm, bu yaxınlarda da Murova getmişdim. Gecə-gündüz orada əsgərlərlə söhbət elədik. Orada yenə mən bir şeyi hiss elədim: ordu ancaq fəhlələrin, kəndçilərin, yoxsulların balalarınındır. Yuxarı təbəqələrin, o əmr, göstəriş verənlərin birinin uşağı orada yoxdur. Bu məsələyə adi yanaşmaq lazım deyil. O səngərdəki fəhlə balası, kəndçi balası



baxıb görəndə ki, sağında bir nazirin uşağı, solunda bir deputatın uşağı var, onda bu uşaq da ürəklənər. Müharibə vaxtı Kiyev, Leninqrad və başqa şəhərlər dağılmış və alt-üst olmuşdu. İndi özündən 10 dəfə artıq gözəl tikiliblər. Bizdə də bu dağıntılar, o yurd, o ev-eşik düzələcək hamısı. Amma insan gedir, cavan oğlanlar gedir, bunun dağı, bunun ağrısı illər uzunu qalacaq.

Əlbəttə, necə deyərlər, dişimizi dişimizə qıcayıb məyusluğa, ümidsizliyə də qapılmaq düz olmaz. Azərbaycanın, mən əminəm ki, həmin o nakam oğlanlarının da qisası alınacaqdır, işğal olunan torpaqlar da qaytarılacaqdır.

- Sabir müəllim, yenə də Məhəmmədlə bağlı söhbətə qayıdırıq. Hər bir adamın uşaqlıqdan sənətə, peşəyə meyli olur. O mənada Məhəmmədin də yəqin ki, nəyəsə meyli, marağı var idi.

- Bu oğlanın xasiyyətində, ruhunda qəribəliklər var idi. Cəmilin əsgər gedəndə 17 yaşı var idi. İki il də müxtəlif cəbhələrdə döyüşmüşdü. Bu isə ondan bir neçə yaş böyük idi, amma heç bir həftə vuruşmadı. Döyüş barədə də nakam oldu o. Özünün elə həyatdan, yaşamaqdan xoşu gəlirdi, şən, şux boylu-buxunlu qəşəng bir oğlan idi. Çox mənalı, insani baxışları vardı. Mən indi fikir verirəm, görürəm ki, Cəmilə oxşayır, sifətcən də, ruhən də Cəmilə oxşayır. Mən bir az ağıl, intellekt tərəfləri də görürəm adamlarda. O da özbaşına imtahan verdi, getdi Moskva poliqrafiya institutuna girdi. Ondan sonra gəldi, bir də təzədən imtahan verib burada Neft Akademiyasına girdi. Beşinci kursda oxuyurdu. Bir az düşünürəm onun taleyi haqda, mənə belə gəlir ki, o da nəsə bu həyatda özünü axtarırdı. Çox az danışan idi.

Bir dəfə qəribə bir iş olmuşdu. Goranda əsgər kazarmasında gecə yatdıqları yerdə bu görür ki, kürəyini nəsə bir şey əzir. Baxır ki, bir patrondur, götürüb cibinə qoyur. Arada bir gün ki, evə gəlmişdi, anası döş cibində onu görür, deyir ki, bu nədir? Məhəmməd deyir, bu mənim taleyimdir, sonra həmin hadisəni danışır. Anası deyir at bunu. Deyir yox, bu mənim taleyimdir, saxlayacam onu. Nə isə... Görünür, burada da bir əlamət var, nə bilim. Bax, həmişə gedirdim onun dalınca, elə bil ki, əlim ona çatdığı yerdə yenə də əlimdən çıxırdı. Bir dəfə də onunla ikilikdə oturub televizora baxırdıq. Bir rus zabiti idi, əsir düşmüşdü. Erməni tərəfdə muzdlu vuruşan snayper qızlardan danışırdı və deyirdi ki, onların atdığı güllə yayınmır, bir güllə atdısa bir adam ölməlidir. Məhəmmədi də bax beləcə tək bir güllə ilə vurmuşdular.

- Siz ötən müharibəni öz əsərlərinizdə əks etdirmisiniz. Bu əsərlərin bəzilərində Cəmil Əhmədovun da obrazı yaradılıbdır. Bir yazıçı kimi bu

müharibə və Məhəmməd barədə... bax, bugünkü müharibə və bu müharibədə Məhəmməd obrazı...

- Bilirsinizmi, bir var insanın öz canında, vücudunda, qanında olan o yüksək keyfiyyətlərin ona layiq şəkildə açılması, bir də var ki, elə bil ki, gül açılmamış getdi. Amma onun oxuduğu orta məktəbdə onlara həsr olunmuş gecə də keçirilib Yasamalda, mən də iştirak eləmişəm. Müəllimləri onu necə tanıyırmışlar, məktəbdə açılıb onun xüsusiyyətləri. Qaldı onu yazı masasının üstünə ədəbi əsər materialı kimi gətirmək mənim üçün çox ağırdır. Bu mümkün deyil, çünki o yadıma düşəndə mənim bütün ürəyim parçalanır. Bir də ki, onu mövzuya çevirmək, kitaba gətirmək onun varlığı, onun xatirəsi, taleyi önündə xırda gəlir mənə, nəsə yovuşdura bilmirəm hələlik. Amma görünür təkcə onun barəsində yox, onların hamısı barəsində yazmalı olacam. İnandırıram sizi, ilk günlərdən başlayaraq məzarıstana gedirəm, baxıram, elə bilirəm orada yatanların hamısı Məhəmmədin qardaşlarıdır, mənim övladlarımdır. Yəni onun ruhu onlarla qovuşubdur. Mən belə duyğuları bir dəfə yaşamışam. Cəmilin qəbrini gedib Varşava yaxınlığında qardaşlıq məzarlığında axtaranda və buz altında tapanda yaşamışam. Ümumiyyətlə, bu müharibə barədə yazılmalıdır, biz onu yaşamışıq.

## ÖLÜMDƏN GÜCLÜ OĞLAN



*Əhmədov Zülfəli İbrahim oğlu*
*doğulub - 01.04.1972-ci il,*
*Cəbrayıl rayonu, Çaxırlı kəndi;*
*şəhid olub - 28.12.1993-cu il,*
*Ağdam bölgəsi*

O gün top-tüfəng səsindən, qrad partlayışından qulaq tutulurdu Ağdam torpağında. Salahlı - Kəngərli istiqamətində irəliləyən düşmənlər gecəyə qədər burada səngərə sığınıb neçə gündən bəri inadla müdafiə olunan igid komandir Şakir Abbasovun döyüşçülərini mühasirəyə almışdılar. Anlar keçdikcə mühasirə həlqəsi daralmaqda, igidlərimizin sırası get-gedə seyrəlməkdə idi. Hər tərəf açıqlıq olduğundan və dəstə qəfildən düşmənlə üz-üzə gəldiyindən vəziyyət çıxılmaz idi. Göz işlədikcə uzanıb gedən üzümlüklərin arasında daldalanmağa dəyməzdi - tənəklərin yarpağı



töküldüyündən burda hər bir tərəf açıq-aydın görünürdü. Arxadan kömək gələcəyini təsəvvür belə etmək olmurdu. Demək, dəstə taleyin ümidinə buraxılmışdı - ya axıracan vuruşub məhv olmalı, ya da... Yox, onsuz da burda istəsən də, istəməsən də ölümü gözünün altına almalı idin...

Zülfəli ölümün bircə addımlığında olsa da ondan qorxub eləmirdi. Bilirdi ki, onsuz da elə vəziyyətdədirlər ki, qorxunun, filanın xeyri yoxdur. Bir də döyüşün elə vaxtı idi ki, düşmən baş qaldırmağa belə macal vermirdi. Əslində ölüm barədə fikirləşməyə kiminsə vaxtı yox idi burda. Deyəsən vəziyyətin çıxılmaz olduğunu elə hamıdan qabaq komandir Şakir Abbasov özü duyub dərk etmişdi. O uşaqlara sonuncu taşrırığını verdi:

- Mümkün qədər düşmənin diqqətini cəlb etmədən arxaya çəkilin. Mən erməniləri bir az ləngitməyə çalışacağam.

- Komandir mən səni tək buraxmayacağam. Sən harda, mən Zülfəli Əhmədov da orada...

- Şakir, mən də səninləyəm.

- Mən də...

Komandir, inadın yersiz olduğunu və dar ayaqda dəstəsində yaxşı tanıdığı uşaqların ondan ayrılmaq istəmədiklərini görüb:

- Di yaxşı, uşaqlar, hava qaralana kimi düşmənin qarşısını saxlaya bilsək, axşam mühasirədən çıxmaq barədə fikirləşib bir yol tapmaq olar...

O gün Zülfəli elə bil ölümün özünə də meydan oxuyurdu. Deyəsən fəhmlə anlamışdı ki, bu döyüşdən sağ çıxa bilməyəcək. Ona görə də ölümü eyninə almırdı. Düşünürdü ki, onsuz da bir gün yaranan, bir gün də dünyadan köçəcək. Belə yerdə ölümü kişi kimi qarşılamaqdan özgə yol yoxdur. Hardansa yadına doxsan üçüncü ilin may ayında ilk dəfə yaralanmağı düşdü. Onda düşmən gülləsi sinəsinin sağ tərəfindən keçib kürəyindən çıxmışdı. Bu yaradan o vaxtlar düz üç ay yatası oldu Zülfəli. Sağalıb geri dönəndə əvvəlcə Çaxırlı kəndindəki evlərinə, qohum-əqrabasına baş çəkib yenidən cəbhəyə yola düşdü. Birdən Zülfəlinin qulaqlarına neçə-neçə insanın ətürpədən harayı yetişdi. Cəbrayılın işğalı günlərində canını götürüb qaçan adamların vahiməli səslərini elə bil təzədən eşitdi. Yana çevrilib baxanda igid döyüş yoldaşlarından birini al-qan içərisində gördü...

Qəribədir, o qanlı-qadalı gündə Zülfəli elə bil ölümü əyninə geymişdi. Düşmənin yolu üstə dayanıb durduqca ölümün özü də ona kömək etməkdə idi. Elə bil son nəfəsdə onu səbirsizliklə gözləyən ölümlə dostlaşmışdı Zülfəli. Ölümün gözlərinə dik baxa-baxa onu bir şeirin ofsununa salmaq istəyirdi elə bil:

*Zəmi kimi biçilmərəm,*
*Bir dəryayam keçilmərəm.*

*Oda düşsəm, kiçilmərəm –*
*Nəyindən qorxum ölümün.*

*Qəlbim bilməz hədə nədir,*
*Yaşamaq bir möcüzədir.*
*Bir gün gələn bir gün gedir –*
*Nəyindən qorxum ölümün...*

Səhərdən bəri Zülfəlinin hünərinə mat-məəttəl tamaşa edən ölüm ona qıya bilmirdi. Ölümün insaf damarı üzdə idi. İstəmirdi ki, Zülfəlidən ötrü ürəyi nanə yarpağı kimi titrəyən Simuzər ananı gözləri yaşlı qoysun. Ölüm əl qaldıra bilmirdi ona, istəyirdi ki, hələ yaşasın...

Ölüm aman versə də mənfur erməni gülləsi qanına qəltan etdi Zülfəlini. Doxsan üçüncü ilin 28 dekabr günü igid yoldaşları ilə birlikdə əbədiyyətə üz tutanların cərgəsinə qoşuldu o...

Beyləqan şəhərindəki Şəhidlər xiyabanı xeyli vaxtdır ki, hamımızın qibləgahına dönüb. Orda bizim igid həmyerlimiz Əhmədov Zülfəli İbrahim oğlu da uyuyur indi. Tanrı onun gor evini şəfqəti ilə işıqlandırsın...

## BİZİM QƏLBİMİZDƏ YAŞAYAN ELŞƏN



***Əhmədov Elşən Soltan oğlu***
***Doğulub – 11.11.1967-ci il,***
***Cəbrayıl rayonu, Alıkeyxalı kəndi;***
***Şəhid olub – 31.12.1993-cü il,***
***Ağdam bölgəsi***

Alıkeyxalı camaatı müsibətli illərin ağır sınağından mərdliklə çıxıblar həmişə. Böyük Vətən Müharibəsi adı ilə tarixə düşən qanlı savaşdan kəndin altmışa yaxın övladı qayıtmayıb. Əsrin sonuncu onilliyi ərəfəsində alıkeyxalılar da yurd ağrıları ilə üz-üzə dayanıblar. Rayon ərazisinin işğalından bir neçə ay qabaq kəndin ilk şəhidi Faiq ağılarda əzizlənib. O vaxtlar heç kimin ağlına gəlməzdi ki, Faiqin ölümündən sarsılıb, ürəyində onun qisasını almağa and içən Elşən özü də dekabrın (1993) sonuncu günü şəhid olacaq.



Adi bir ömür yolu keçmişdi Elşən. O da öz yaşıdları kimi orta məktəbdə oxumuş, o vaxtlar Vətən deyib böyüklüyü ilə öyündüyümüz SSRİ-nin Pribaltika səmtində əsgəri xidmətini başa vurmuşdu. Əsgərdən qayıdanda kənd camaatı Elşəngilə toplaşıb Soltan kişiyə, Bənövşə bacıya gözaydınlığı vermişdilər. Soltanlı üzüm emalı zavodunda işlədiyi illərdə ailənin qayğısını yüngülləşdirməyə çalışsa da, cəbhə bölgələrindən gələn həyəcanlı xəbərlərə biganə qala bilmirdi Elşən. Əsgəri xidmətdə olarkən hərbi-təlimi yaxşı mənimsədiyindən duyub dərk edirdi ki, gündən-günə odu-alovu güclənən döyüş yerlərində onun kimilərinə böyük ehtiyac var. Bəlkə də elə buna görə də hərbi komissarlığın çağırışını gözləmədən rahat və sərfəli işini buraxıb dumanlı-çənli dağların qoynunda yurda keşik çəkən igidlərin yanına yollandı...

Döyüş postlarında sübhü diri gözlə açan qeyrətli oğullara tez isnişdi Elşən. Od-alov içərisində neçə dost, tanış qazandı. Həmişə öndə getməyə can atan Alıkeyxalı balası ən ağır məqamlarda da, yoldaşlarının harayına çatdı. Deyirlər yaman gün adamın gözünü açır, onu qaya kimi dözümlü edir. Hərbi əməliyyatlar keçiriləndə ölümü eyninə də almırdı Elşən. Əslində heç ölüm barədə düşünməyə vaxtı da olmurdu onun. Deyirdi ki, Tanrı istəsə, adamı ilan ağzından da salamat qurtarar...

**AĞRILI BİR XATİRƏ** - Elşənin cəbhə dostu Babək deyir ki, bir dəfə komandirimizdən icazə alıb Alıkeyxalıya gəlmişdik. Elşəngildə bizi sevinclə qarşılayıb əzizlədilər. Elşən bu dar macalda belə evlərinin işinə-gücünə əl atmaq üçün tez-tez həyətə göz gəzdirirdi. Soltan kişi Elşənin xasiyyətinə bələd olduğundan:

- Hə bilirəm, burada da bekar dura bilmirsən, - dedi, - biçənəkdəki otu vurmuşam, indi topalamaq lazımdır onu.

Yabaları götürüb yay günəşinin şəfəqləri altında quruyub saralan otu qalaqlamağa başladıq.

İşin qızğın yerində birdən: «Babək, məni nəsə sancdı», – deyən Elşənə sarı yüyürdüm. Ona çatanda xallı bir gürzənin daş qalağına tərəf süründüyünü görüb, cəld ilanın başını əzdim. Elşənin zəhərli barmağının qanını bir neçə dəfə sümürüb yerə tüpürdüm.

Onda Tanrı Elşəni ilan ağzından qurtarıb yurdumuzu udmağa çalışan erməni timsahlarının üstünə göndərmişdi...

Elşənin cəbhə dostu Elşən Əliyevin yazdıqlarından: «Cəbrayılın işğalından sonra Xudafərin elimizin qeyrətli cavanları Ağdam bölgəsinə toplaşmışdılar. Səhərə yaxın kəşfiyyatçılar məlumat verdilər ki, düşmən ağır texnikanın köməyi ilə üstümüzə gəlir. Uşaqlar tez döyüş mövqeyi tutdular.

Elşən orduya təzə çağrılan uşaqların avazıyan sifətinə baxıb: «Onlarla işiniz olmasın, - dedi, - hələ təzə-təzə güllə səsinə alışırlar»...

Döyüş başlananda Elşən əlindəki qrantamyotla əsgərlərimizin üstə gələn tanklardan ikisini vurdu. Yan tərəfdən gələn tanka sarı yönəlib atəş açmaq istəyəndə: «Namərdlər məni vurdular, kömək edin», - deyib yerə çökdü...

Döyüş meydanında ağır yaralar almış Elşəni hərbi xəstəxanada xilas etmək mümkün olmadı. O, həkimlərin qolları üstə keçindi. Təzə ilə cəmisi bir neçə saat qalırdı onda...

Elşənin iş yoldaşı Rəhmanın (Soltanlı üzüm emalı zavodunun direktoru) söylədikləri: «Elşən ürəyitəmiz oğlan idi. Əməkçi ailəsində böyümüşdü, düz danışmağı xoşlayırdı. Onun kimi oğulların yeri tez-tez görünəcək hələ»...

Vaxt gələcək ki, bu qanlı-qadalı illər tarixə dönəcək. Torpaqlarımızın azadlığı naminə şəhid olan Əhmədov Elşən Soltan oğlunun insan hünərinə söykənən şərəfli adı qan yaddaşımızda yaşayacaq həmişə...

## TORPAQ, MƏNDƏN ÜZ DÖNDƏRMƏ



***Əhmədov Pənah Çərkəz oğlu doğulub - 16.09.1968-ci il, Cəbrayıl rayonu, Yuxarı Mərcanlı kəndi; şəhid olub - 02.07.1993-cü il, Xocavənd rayonu, Quşçular kəndi***

Yuxarı Mərcanlı kəndində dünyaya gəlmişdi Pənah. Məktəbə ilk gəlişini bu günün özündə də yaxşı xatırlayır müəllimləri. Sısqa, çəlimsiz bir uşaq idi. Atası Çərkəz kişi kimi üz-gözündən məsumluq yağırdı. Elə uşaqlıq çağlarından evlərinin işinə-gücünə yanımlı idi...

Bir neçə il qabaq anası Bafəzər bacının faciəli ölümündən sonra - onda hələ Pənah orta məktəb şagirdi idi, gözlərindən çəkilib getməyən bir həsrət boylanmaqda idi...

Məktəbi qurtardıqdan sonra traktorçu peşəsi ilə ülfət bağlayıb əlini bir tikə çörəyə çatdırmışdı. Cavanlığında işləməkdən canı üzülən atasının əvəzindən ailəyə sahiblik edirdi Pənah. Uzaq Amur vilayətinin Tında şəhərində əsgəri xidmətdə olarkən evlərini bircə an da olsa unuda bilmirdi. Yazdığı məktublara ürəyinin odunu, közünü büküb yollayırdı evlərinə. Bacıları onun sorağını gətirən əl boyda kağızla təsəlli tapırdılar...



Pənah o uzaq qürbət eldə 20 Yanvar faciəsinin dəhşətli olaylarını eşidib sarsılmışdı onda. Əsgərlik həyatı büsbütün gözündən düşmüşdü. Geriyə qayıtmağa can atsa da Amurdan bu yana yollar üzünə bağlıydı onun. Doxsanıncı ilin payızında əsgərlik həyatı sona çatanda elə bil qəfəsdən buraxdılar Pənahı. Ayağı Vətən torpağına dəyəndə elə bildi ki, dünyaya təzədən gəlib...

Mərcanlıya qayıdandan sonra ailəni dolandırmaq üçün özünü oda-közə vururdu Pənah. Ağır bir külfətin ümid yeri, çörək ağacı idi o. Hər səhər kəndin üst tərəfindən keçən asfalt yola çıxıb Mahmudludakı iş yerinə - qaçqınlar üçün ev-eşik tikilən idarəyə yollanardı. Onda hələ Cəbrayılın sərhəd kəndlərinə düşmən mərmiləri atılsa da, quldurlar igid oğullarımızın qabağına çıxmağa cəsarət etmirdilər. Onda hələ Cəbrayıl ulu yurd yerlərimiz Göyçədən, Zəngəzurdan buraya pənah gətirən qaçqın soydaşlarımızla dolu idi. İş yoldaşları ilə birlikdə onlara yurd-yuva tikən Pənah bu xeyirxah işlə Tanrı yanında savab qazandıqlarını bildiyindən can-başla çalışırdı. Talesiz soydaşlarımıza arxa durduqca özünün şəxsi həyatından doğan sevincə qovuşmuşdu Pənah. Çərkəz kişinin xeyir-duası ilə ailə qurub bacılarını yasdan çıxarmışdı...

Doxsan ikinci ilin 26 fevral gecəsi erməni quldurlarının Xocalıda törətdikləri soyqırımın sədası Araz qırağına gəlib çatanda odlanıb-qovrulmuşdu Pənah. Bu qanlı faciədən sonra dinc peşəsini atıb torpaqlarımızın müdafiəsinə yollandı...

Əvvəllər Sirik tərəfdə vuruşan bu sakit təbiətli oğlanın sorağı üç-dörd aydan sonra Süleymanlı batalyonundan gəldi. Hər dəfə Qışlaq, Quşçular, Sur, Doşulu səmtindən top-tüfəng səsi Araz qırağına gəlib çatanda əli ürəyinin üstündə olurdu Çərkəz kişinin. Əlacı olsaydı oğlunun yerinə özü gedərdi düşmənin üstünə. O vaxtlar Pənah çox nadir hallarda gəlirdi evlərinə. Kəndə çatmağı ilə geriyə qayıtmağı bir olurdu. Yurdun ağır günlərində yoldaşlarından uzaq olmağı özünə sığışdıra bilmirdi...

Cəbhə yoldaşları xətrini çox istəyirdilər Pənahın. Dəfnində gözlərindən qanlı yaş axıdırdılar onlar...

Doxsan üçüncü ilin iyun ayının ilk günlərində şəhid oldu Pənah. Quşçular kəndi uğrunda gedən döyüşlər onun həyatının sonuncu nöqtəsi idi. Mərcanlı kənd qəbiristanında torpağa tapşırılan Əhmədov Pənah Çərkəz oğlunun gor evindən hüzn qarışıq yanıqlı bir şeir dil açdı o gün:

*Bircə parça daşın ollam,*
*Dil-dil ötən quşun ollam.*
*Yazın ollam, qışın ollam, -*
*Torpaq, məndən üz döndərmə.*

Pənah kimi oğullarımızdan uğrunda can verdikləri Vətən torpağı heç vaxt üz döndərən deyil. Torpaq ilahi sevgisi ilə onların adlarını zaman-zaman əzizləyib yaşadacaq...

## ARAZI AYIRDILAR



***Əhmədov Anar Bilal oğlu***
***doğulub - 12.11.1973-cü il,***
***Cəbrayıl rayonu, Məstalıbəyli kəndi;***
***şəhid olub - 09.01.1994-cü il,***
***Ağdam rayonu, Salahlı kəndi***

Anarın uşaqlıq və ilk gənclik illəri Xan Arazın sahillərində keçmişdi. Anadan olduğu Məstalıbəyli kəndi Arazın lap iki addımlığında idi. Di gəl ki, bu qədər yaxınlıqda olan Arazın hay-küylü sularına yaxınlaşa bilmirdi o vaxt. Uşaq ağlıyla ha figirləşirdisə də dünyanın bu qəribə işlərindən baş çıxartmırdı Anar. Sonralar ağlı kəsdikcə çox şeyləri düşünüb anladı. 1979-cu ildə Qumlaq kənd orta məktəbinə daxil olub, 1989-cu ildə 10-cu sinfi bitirmişdi. Elə məktəbi qurtaran ili də Füzulidə sürücülük kursunu bitirib, sevib-seçdiyi peşənin sahibi olmuşdu. Bu illərdə artıq respublikanın hər yerində əks-səda verən Qarabağ hadisələri geniş vüsət almışdı. Elə buna görə də 1991-ci ilin martında Cəbrayılda yaradılmış «N» hərbi hissəsinin əsgərlərinin cərgəsinə qoşulmuşdu. Üç ildən artıq qanlı döyüşlərdə çarpışan Əhmədov Anar Bilal oğlunun qəhrəmanlıqlarla dolu cəbhə həyatı da elə buradan başlamışdı.

İlk əvvəllər Anar döyüşçü dostları ilə Xocavənd (keçmiş Hadrut) rayonunun kəndlərinin ermənilərdən təmizlənməsində yaxından iştirak etmiş, sonralar Süleymanlı, Quşçular, Sirik postlarında döyüşlərdə vuruşmuşdu.



1992-ci ilin Sur və Şişqaya döyüşlərində fərqlənmişdir. 1993-cü ildəki uğursuzluqlar Anarı varından yox edirdi. Lakin buna baxmayaraq o, döyüşlərdə əzmlə vuruşurdu. 1993-cü ilin oktyabrında vuruşa-vuruşa Xudafərin körpüsünə gələn Anar yoldaşları ilə İran sərhədini keçərək, oradan da İmişliyə gəlir. Buradan isə yenidən Gəncəyə yollanır. Bir az sonra Cəbrayıl batalyonu döyüşçülərinin bir hissəsi Gəncədən Ağdama döyüşlərə yola salınır. Və bu döyüşlərin birində - Salahlı-Kəngərli uğrundakı döyüşdə Anar Əhmədov qəhrəmancasına şəhid oldu. Vətənin müqəddəsliyi yolunda daha bir Vətən oğlu ömrünü doğma torpağa bağışladı.

## QƏFİL GÜLLƏ

***Əhmədov Yaqub Rza oğlu***
***doğulub - 12.1972-ci il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***şəhid olub - 13.04.1994-cü il,***
***Ağdam bölgəsi***



Keçmiş Sovet ordusunda əvvəlki nizam-intizam yox idi. Hər addımbaşı milli ayrı-seçkilik aydınca hiss edilirdi. Lakin hər cür çətinliklərə baxmayaraq gənc Yaqubun nümunəvi xidməti rus zabitlərinin diqqətini cəlb etmişdi. Dəfələrlə komandanlıq, onun valideynlərinə təşəkkür məktubu göndərmişdi. Hərbi xidmətin başa çatmasına 6 ay qalmış Xocalı soyqırımı haqqında eşitdiyi dəhşətli xəbər onu bütün varlığı ilə sarsıtdı. Daha qırmızı imperiya ordusunda xidmət etməyi mənasız hesab edərək yubanmadan darda qalan Vətənin harayına çatmağı qərarlaşdırdı.

Y. Əhmədov evlərinə dönəndə erməni quldurları çox fəallaşmışdılar. Rayonumuzun onlarla həmsərhəd olan ətraf kəndlərinə tez-tez basqın edirdilər. Yaqubun gəlişindən anası Şərqiyyənin sevinci yerə-göyə sığmamışdı. Onun üz-gözündən öpə-öpə: «Allaha çox şükür ay oğul, nə yaxşı gəlib çıxdın, - demişdi. - Zəmanə çox qarışıqdı, bala, bu gündən sabaha etibar qalmayıb. Bir tərəfdən də bu erməni yanmışlar halal çörəyimizi haram ediblər».

- Qorxma, ay ana, o dığalara bir toy tutacağıq ki, ağılları başlarına gəlsin. Onda bilərlər ki, qonşuluq haqq-sayını itirmək necə olur, - deyə

Yaqub anasına toxtaqlıq verdi. Yaqubun nə demək istədiyini başa düşən ana çox yalvarıb-yaxardı. Dedi ki, qardaşları Nəcməddin, Ədalət könüllülər dəstəsindədi, heç olmasa o, evdə qalsın. Yolunu gözləməkdən gözlərinin kökü saralan qoca atasının, bacılarının vəziyyətini nəzərə alsın. Ancaq heç nə Yaqubu fikrindən döndərə bilmədi. Rayon hərbi komissarlığına gedib könüllü olaraq milli ordu sıralarına yazıldı.

O, Sur, Şayaq, Daşbaşı, Sirik, Süleymanlı postlarında düşmənlə üz-üzə dayandı. Harada oldusa geniş hərbi biliyi, ən başlıçası isə qoçaqlığı ilə komandirlərin, əsgər yoldaşlarının sevimlisinə çevrilmişdi. Həmin kəndlərin müdafiəsi zamanı dəfələrlə igidlik göstərdi, çoxlu erməni dığasını məhv etdi. Əfsuslar olsun ki, Yaqub kimi oğullarımızın igidliklərinə baxmayaraq, Cəbrayıl yağı düşmənin qanlı caynağına keçdi.

Y. Əhmədov 1993-cü ilin noyabrın 21-də Ağdam rayonuna göndərildi. 708 saylı hərbi hissənin komandirinin əmrilə 26-cı MAT-un tərkibinə daxil edildi. O vaxtdan da taborun 1-ci bölüyündə pulemyotçu oldu. Qəlbi gedən torpaqlarımızın intiqamını almaq hissilə döyünən igid eloğlumuz öz pulemyotu ilə erməni cəlladlarının başına od ələyirdi. Yaqub əsl qəhrəman kimi döyüşər, hamıdan öndə gedər, yoldaşlarını da arxasınca aparardı. 26-cı MAT komandirinin müavini, leytenant M. Alışovun dediglərindən: «Y. Əhmədov dərin hərbi biliyi, cəsurluğu, mərdliyi, yüksək mədəniyyəti və qayğıkeşliyi sayəsində təkcə xidmət etdiyi bölüyün deyil, bütün taborun rəğbətini qazanmışdı. O istər hücum əməliyyatlarında, istərsə də müdafiə döyüşlərində hamıdan öndə gedir, yoldaşlarını hücuma ruhlandırır, pulemyotu ilə düşmənə baş qaldırmağa imkan vermirdi».

1994-cü il aprel ayının 13-ü idi. Erməni hərbi birləşmələri bütün cəbhə boyu hücuma keçmişdilər. Daşnak quldurları ön mövqelərimizə soxula bilmişdilər. Yaqub həmişə olduğu kimi yenə də qabaqda gedənlər sırasında ərənlərsayağı döyüşür, düşmənə qan uddururdu. Əfsuslar olsun ki, bu, Yaqubun sonuncu döyüşü oldu. Qəfil güllə cəsur igidimizin gənc həyatına son qoydu. Şəhidlik zirvəsinə ucalan Y. Əhmədov Sumqayıt şəhərində dəfn edilib. Yaqubun valideynləri kimi didərgin düşmüş nigaran ruhu torpaq həsrəti ilə narahat-narahat başımız üstündə dolanaraq qələbə müjdəsini səbirsizliklə gözləyir. Rahat yat, igid eloğlu, rahat yat, çox qalmayıb o günə. Tezliklə torpaqlarımız yağılardan təmizlənərək tariximizdən qara ləkə silinər, xalqımız azad nəfəs alar. O zaman sənin kimi igid oğullarımızın da ruhu şad olar.



## QƏLƏBƏYƏ GEDƏN YOLDA



***Əliyev Pənah Babakişi oğlu***
***doğulub - 21.05.1969-cu il,***
***Cəbrayıl rayonu, Göyərçin Veysəlli kəndi;***
***şəhid olub - 28.01.1994-cü il,***
***Cəbrayıl rayonu, Cocuq Mərcanlı gəndi***

Son hadisələr qədim Cəbrayıl elinin qara günlərinin başlanmasından xəbər verirdi. Deyəsən camaat arasında gəzən söz-söhbətlər gerçəkləşirdi. 1993-cü il iyul ayının əvvəllərində erməni quldurlarının güclü qüvvə ilə sərhəd kəndlərimizə soxulmağa cəhd etmələri də şübhələrin yersiz olmadığını təsdiqləyirdi. Pənah Əliyev orduya səfərbər edildiyi 7 ay ərzində hələ belə dəhşətli hücumun şahidi olmamışdı. Yalnız igid əsgərlərimizin dəyanəti sayəsində düşmən niyyətinin qarşısı alınırdı. Pənah o zaman yenilməz komandir Şakir Abbasovun başçısı olduğu Sirik batalyonunda xidmət edirdi. Erməni faşistləri aldıqları zərbədən geri oturdurulsalar da məqsədlərindən əl çəkmirdilər. Ordudakı ab-hava da Pənahın xoşuna gəlmirdi. Vəziyyətin gündən-günə gərginləşməsi Cəbrayılın süqutu ilə nəticələndi. P. Əliyev kimi qeyrətli oğullarımız bu ağır məğlubiyyəti özləri üçün təhqir saysalar da geri çəkilməyə məcbur oldular...

Müvəqqəti uğursuzluqdan sonra özünə gələn milli ordumuzda döyüş hazırlığı çox yüksək idi. Qəzəbi yerə-göyə sığmayan əsgərlərimizin hər biri yaralı aslanı andırırdı. Millətimizin qanına yerikləyən erməni cəlladlarını didib-parçalamağa hazır idilər. Hücum əmri veriləndə Göyərçin Veysəllinin mətin oğlu öndə gedənlər sırasında idi. Ordumuzun ilk həmləsinə davam gətirməyən erməni işğalçıları qaçmağa üz tutdular. Qarşılaşdığı mənzərədən ruhlanan Pənah yandırılıb külə döndərilən kəndlərimizin, qanına qəltan edilən günahsız adamlarımızın qisasını almağa tələsərək, ürəyində hayqırmışdı:

- «Əclaflar, özgə torpaqlarına göz dikməyin nə demək olduğunu indi sizə göstərərik. Onda bilərsiniz ki, tünbətün babalarınızın da leşinin qurdaquşa yem olduğu Babəklər, Koroğlular yurduna kəm baxanların aqibətləri necə olur!»

Rəşadətli ordumuz sürətlə irəliləyərək Füzuli rayonunun Arazboyu kəndlərini dığalardan tamamilə təmizləmişdi. Döyüşlər artıq rayonumuzun

Cocuq Mərcanlı kəndi ətrafında gedəndə Pənahın ürəyi atlandı. Xəyalən özünü Çinar kəhrizinin üstündə zənn etdi. Ağrılar üzərində köklənən qəlbində baş qaldırmış kövrək hisslərdən təsirlənərək pıçıldadı: «Bağışla, yaralı çinarımız, bağışla, ulularımızın üz qoyduqları ana torpaq! Sizi qarı düşmənlərdən qoruya bilmədik, bizi bağışla!»

Qələbə elə yaxındaydı ki, Cocuq Mərcanlı işğalçılardan təmizlənəndə gecə-gündüz rahatlıq verməyən istəyinin tezliklə reallaşacağına P. Əliyev də tam əminlik yaranmışdı. Mehdili kəndi uğrunda yurd yanğısı ilə vuruşduğu döyüş meydanında qəfildən düşmən tərəfdən açılan güclü atəş cəsur əsgərin Vətənin azadlığı naminə döyünən qəlbini həmişəlik dayandırdı. Faciəli surətdə şəhid olan elimizin igid oğlu Beyləqan rayonundakı Şəhidlər xiyabanında dəfn olundu.

P. Əliyev dövrün gəncliyinə məxsus sadə, lakin mənalı həyat yolu keçmişdi. O da orta təhsil almış, Sovet ordusunda xidmət etmişdi. Ordu sıralarından tərxis edildikdən sonra kəndlərindəki Sabir adına kolxozda işləmişdi. Pənahgil 7 qardaş, iki bacı idilər. Ailənin böyüklüyünə baxmayaraq əlsiz-ayaqsızlara kömək edən, imkansızlara əl tutan mexanizator ataları Babakişi, kəndin xeyir-şərinə yarayan Xədicə xala övladlarını da torpağa, el-obaya məhəbbət ruhunda tərbiyə etmişdilər. Təsadüfi deyildi ki, başımızın üstünü duman-çən bürüyəndə Pənah da torpaqlarımızın müdafiəsinə ilkin qalxanlardan olmuşdu. Kəndlərimizin müdafiəsi zamanı yaralansa da müalicə olunub yenidən döyüş meydanına qayıtmışdı. O, son damla qanı qalanadək döyüşdü. Yurdumuzu işğalçılardan xilas etmək üçün ölümün gözünə dik baxaraq qələbəyə gedən yolda canını qurban verdi. İnanırıq ki, Pənah Əliyev kimi qəhrəman oğullarımızın qanları ilə sulanmış bu yol Cəbrayıla, Şuşaya, Xankəndinə, Laçına, Kəlbəcərə... gedəcək, uzanaraq uzanacaq, Zəngəzurda, Göyçədə başa çatacaq.



## SAĞALAN DEYİL

***Əhmədov Əhliman Cəbrayıl oğlu***
***doğulub - 1974-cü il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 01.1995-ci il,***
***Bakı şəhəri***



O, kiçik yaşlarından Xan Arazın nəğmələrini dinləməkdən doymazdı. Bu nəğmələrdən bir həsrət, bir hicran boylanırdı. Sonralar Əhliman böyüdükcə o taydan eşitdiyi sözlərin doğmalığını görüb təəccüblənərdi. Kəndin kənarı ilə çəkilən tikanlı məftillər imkan vermirdi ki, həsrətində olduğu Arazla görüşə. Əhliman get-gedə anlayırdı ki, o məftillər iki qardaşı bir-birinə həsrət qoyub. Bir Vətən, bir torpaq iki yerə parçalanıb. Hərdən Əhliman bir quş olub o taya uçmaq, Üçqardaş deyilən dağın zirvəsinə qonub hər iki sahili seyr etmək istəyirdi.

İllər bir-birini əvəz edir, Əhliman böyüyürdü. 1992-ci ildə orta məktəbi bitirdi, Ağdam mexanizasiya texnikumuna daxil oldu. Bu elə vaxt idi ki, artıq erməni faşistləri yurdumuzu çapıb-talayır, adamları öz doğma evlərindən didərgin salırdılar. Əhliman Cəbrayıl batalyonunda xain qonşularla döyüşə başlamaq məcburiyyətində qaldı. Yanıb talanan kəndlərin ermənilər tərəfindən işğal olması igid döyüşçünün qəlbini ağrıdırdı. Yalançı vədlər, xəyanət və satqınlıq baş alıb gedirdi. Məhz belə xəyanətlərin nəticəsində Cəbrayıl işğal olundu. Əhliman və döyüş dostları İran ərazisindən keçərək Gəncədəki Nizami poliqonuna yola düşdülər.

Həsrətin üstünə ağır bir həsrət də əlavə olundu. Doğma yurd, el-oba həsrəti Murov dağı uğrunda gedən döyüşlərdə Əhliman düşmənlərlə dəfələrlə qarşı-qarşıya gəlmişdi. Topçu kimi Əhlimanın atdığı mərmilər sərrast və dəqiq idi. Neçə-neçə yağı qanına qəltan edilmişdi.

1994-cü ilin mart ayında döyüş postundan qayıdıb çadırda dincələn zaman ermənilərin atdığı mərmi çadıra düşüb. Yanğın bir anda hər yanı bürüyüb. 4 nəfər yoldaşı ilə birlikdə ağır dərəcədə xəsarət alan Əhliman bir ay hosbitalda yatdıqdan sonra təzədən Murov dağına döyüşə yollanmışdı. Elə o vaxtdan ürəyində ağrılar başlamışdı. Bu ağrı gündən-günə daha da şiddətlənirdi.

Əhliman tez-tez öz yoldaşlarına doğma Cəbrayıldan söhbət açır, bu ağrıya dözə bilmədiyini söyləyirdi. Qəm-qüssə pəhləvan kimi döyüşçünü şam kimi əridirdi. Yox, Əhliman xəyanətlə, satqınlıqla barışa bilmirdi. Son vaxtlar onda haqsızlığa qarşı bir üsyan baş verirdi. Xəstəliyi getdikcə ağırlaşırdı. Həkimlərin səyinə baxmayaraq, sağalmaz dərdə düçar olan Əhliman axır ki, ordudan tərxis olundu. Həsrətə, qəmə dözə bilməyən Əhliman 1995-ci ilin yanvar ayında gözlərini həmişəlik yumdu. İndi Əhlimanın ruhu doğma Cəbrayıldan uzaqlarda nigaran-nigaran dolaşır.

## ZƏFƏRLƏ ÇIXDI



***Əhmədov Baxış Oruc oğlu***
***doğulub - 02.05.1966-cı il,***
***Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;***
***şəhid olub - 16.03.1995-ci il,***
***Füzuli rayonu, Əbdürrəhmanlı kəndi***

Komandanlığa məlumat daxil olmuşdu ki, erməni yaraqlıları hücuma keçməyə hazırlaşırlar. Hətta, hücumun vaxtı da dəqiq müəyyənləşdirilmişdi. Yağıların basqınının qarşısını almaq üçün əməliyyat planı hazırlandı. Postları möhkəmləndirmək üçün buraya nisbətən hərbi hazırlıqlı gənclərdən ibarət əlavə qüvvə göndərildi. Baxış da onların arasındaydı. Erməni quldurlarını yaxına buraxmamaq üçün kəndin ətrafında pusqu quruldu. Gecədən xeyli keçmiş yaxınlaşan ermənilər atəşə tutularaq darmadağın edildi. 15-20 nəfər yaraqlının murdar meyiti döyüş meydanında qaldı. Qalanları isə qaçıb aradan çıxa bildi. Əməliyyatın itkisiz başa çatmasında Baxış Əhmədov da əsl mərdlik nümayiş etdirdi.

B. Əhmədov 1983-cü ildə Minbaşılı kənd orta məktəbini bitirmişdi. Bir il sonra Sovet ordusu sıralarına çağrılmışdı. Baxış çox istəyirdi ki, ali təhsil alsın. Vətəninə, xalqına gərəkli bir mütəxəssis olsun. Tale elə gətirdi ki, o, hərbi xidməti başa vurduqdan sonra Bakı Sənaye Pedaqoji Texnikumuna qəbul edildi. Orta ixtisas təhsilini müvəffəqiyyətlə başa vurub ölkəmizin paytaxtında işləməyi üstün tutdu. Bu o illərə təsadüf edirdi ki, Bakı dəniz kimi dalğalanırdı. Xalq öz azadlığı uğrunda mübarizəyə qalxmışdı.



Gənc Baxış da xalq hərəkatından kənarda qalmamışdı. Qırmızı imperiya ordusunun vəhşiliyinin, onun törətdiyi qanlı yanvar hadisəsinin şahidi olmuşdu. Qəlbi el-oba üçün döyünən gənc 1992-ci ildə doğma kəndlərinə qayıdır və çoxdan gözaltı etdiyi Növrəstə xanımla ailə həyatı qurur. Lakin tale gənc ailənin üzünə gülmədi. Başımızın üstündə cövlan edən qara yel bu iki gəncin yenicə qovuşduğu səadəti əlindən aldı...

1993-cü ilin ortalarında xəyanətkar qonşularımız işğalçılıq fəaliyyətini genişləndirərək kəndlərimizi təhlükə altına almaları bütün qeyrətli oğullarımız kimi B. Əhmədovu da silaha sarılmağa məcbur etdi. Torpaqlarımızın hər qarışı uğrunda gedən qanlı savaşlarda igidliklə döyüşdü. Yaralanmış və şəhid olmuş əsgərlərimizin döyüş meydanından uzaqlaşdırılmasında həyatını təhlükə qarşısında qoymuşdu. Dəfələrlə yağılarla üz-üzə gəlmiş, mühasirəyə düşmüşdü. İgid eloğlumuz hamısından ərənlər sayağı zəfərlə çıxdı. Bütün döyüş boyu bir dəfə də olsun namərd gülləsi yaxın düşməyən bir vaxtda minaya düşərək min bir arzu ilə döyünən qəlbi həmişəlik dayandı. 8 övlad böyüdüb ərsəyə çatdıran Sitarə ana sonbeşiyinin faciəli ölümünə dözə bilməyərək dünyasını dəyişdi. Şəhidin Biləsuvar rayonu ərazisindəki 4 saylı çadır düşərgəsində məskunlaşan atası Oruc kişi, həyat yoldaşı Növrəstə və üzünü doyunca görmədiyi 5 yaşlı qızı Sara, qardaşları tezliklə torpaqlarımızın işğaldan azad edilərək əzizlərinin qisasının alınacağı günü görmək ümidi ilə yaşayırlar. Biz də bu inamla yaşayır və qətiyyətlə bildiririk ki, o gün mütləq gələcək.

## ÖMRÜN ŞƏRƏFLİ ANLARI

***Əzizov Sədi Ələkbər oğlu***
***doğulub - 01.04.1965-ci il,***
***Cəbrayıl rayonu, Nüzgar kəndi;***
***şəhid olub - 07.05.1994-cü il,***
***Ağdərə bölgəsi***



Sədi 1972-82-ci illərdə kənd orta məktəbində oxumuş, 1983-1985-ci illərdə hərbi xidmətdə olmuşdu. Əsgəri xidmətdən sonra Sumqayıt Politexnik Texnikumuna daxil olmuş, 1989-cu ildə texnikumu qurtarmış, texnik-inşaatçı peşəsinə yiyələnmişdi. Bir vaxt Cəbrayıl

rayonundakı 16 saylı SMD-də fəhlə işləmiş, 1991-ci ildən Sumqayıta köçərək, Kompressorlar zavodunda çalışmışdı.

1994-cü ilin martından Sədi Əzizov Milli Ordu sıralarına çağırılmış, bir müddət Füzuli bölgəsində - Seyidəhmədli, Şükürbəyli, Əbdürrəhmanlı kəndlərinin alınması uğrunda qanlı döyüşlərdə yaxından iştirak etmişdir.

1994-cü il mayın 7-də Ağdərə uğrundakı döyüşdə qəhrəmanlıqla vuruşmuş və şəhid olmuşdur. Ailəli idi, ata üzünə həsrət bir oğlu yadigar qalıb.

## TORPAQ ONU ƏZİZLƏYİR



***İbayev Şaiq Sevdimalı oğlu***
***doğulub - 25.12.1965-ci il,***
***Cəbrayıl rayonu, Quycaq kəndi;***
***şəhid olub - 22,12.1993-cu il,***
***Cəbrayıl bölgəsi***

O payız günlərində camaatı perik düşən obalarımızı görən gözlər qan ağlayırdı. O payız günlərində ulu Sirik meşələri, Tey və Qala dağları, Tumas ata, Süleymanlı çinarları, Balyand aşırımı, Teşdək dərələri, Cəbrayıldakı Dədə Çinar düşmən umuduna qalmışdı. Batmanqılınc oğullarımız dişinə, dırnağına qədər silahlı yağıların qarşısını Çapand, Kavdar, Quycaq istiqamətində kəsib, Araz vadisinə tərəf uzanan yollarda canlı səd kimi dayanmışdılar...

Doxsan üçüncü ilin 10 oktyabrında erməni quldurları gözlənildiyi səmtdən Quycaq kəndinin üzərinə hücuma keçdilər. Daşkəsən tərəfdən irəliləyən düşmən tanklarının qarşısını kəsən əsgərlərimiz quldurların canlı qüvvəsini təlafata uğradaraq kəndi qoruyub saxlaya bildilər. Bir neçə saatdan sonra azğınlaşan yağılar daha böyük qüvvə ilə hücuma keçdilər. Qeyri-bərabər döyüşdə igid əsgərlərimiz inadla vuruşsalar da, düşmənin təzyiqi qarşısında geriyə çəkilməli oldular.

Bu qanlı döyüşdə sübhün gözü açılandan toran düşənə kimi vuruşanlardan biri də Quycaq kəndinin qeyrətli balası İbayev Şaiq Sevdimalı oğlu idi. Şaiq doğma kəndində yanıb külə dönən evləri gördükcə acığından yerə-



göyə sığmasa da, əsgər yoldaşları ilə bərabər geriyə çəkilmirdi. Kəndin yan tərəfindəki təpəni adlayanda birdən gözləri od tutub yanan evlərinə sataşdı. Burda yaşadığı illər kino lenti kimi gözlərinin qabağından ötüb keçdi. Orta məktəbdəki qayğısız uşaqlıq çağları, Şuşa Kənd Təsərrüfatı Texnikumundakı tələbəlik həyatı, yaddaşının dərinliklərindən oyanıb onu səslədi. Xəyalən Rusiyada keçən əsgərlik günləri ilə görüşüb, kəndlərinin yan tərəfindən dumanlı-çənli dağlara tərəf uzanan kövşənliklərlə üz-üzə dayandı. Qarşı tərəfdən atılan güllələrdən diksinib ətrafına baxanda yoldaşları gözünə dəymədi. Sürünə-sürünə geriyə çəkiləndə bələnin o üzündə iki yaralı ilə rastlaşdı. Yaxından tanıdığı komandirinin və cavan bir kapitanın yerdə qıvrıldıqlarını görüb ürəyində:

- Heç kişilikdən deyil ki, onları qan içində qoyub canımı qurtarım. Ani olaraq özlüyündə qərar qəbul edib, əvvəlcə Bayramov soyadlı komandirini sürüyə-sürüyə qaratikan kollarının daldasındakı iri bir çuxura apardı. Sonra geriyə qayıdaraq kapitanı da eyni üsulla atəş altından çıxarıb oraya gətirdi. Artıq qaranlıq düşdüyündən demək olar ki, göz-gözü görmürdü. Şaiq onların paltarını cırıb yaralarını möhkəm bağladı. Artıq taqəti elə tükənmişdi ki, ayaq üstə güclə dayanırdı. Buna baxmayaraq yaralıları növbə ilə xeyli uzaqlaşdırıb, Qurdlu dərənin dibindəki çaylağa çatanda rahat nəfəs aldı. Bir azdan sonra əsgər yoldaşlarının yanına gedib, yaralıların vəziyyətini onlara söyləyəndə elə bil üstündən ağır yük götürüldü...

Şaiq sonrakı günlərdə rayonun Çapand, Safarşa, Cəfərabad, Maralyan və Mahmudlu kəndləri uğrunda gedən döyüşlərdə də yaxından iştirak edib, Vətən qarşısında xəcalətli qalmadı...

Dünyaya qurub-yaratmaq eşqi ilə, torpağa dirilik gətirmək həvəsi ilə göz açmışdı Şaiq. Düşmən bizi qeyrət sınağına çəkəndən sonra, yurdumuzu qorumağa məcbur olmuşduq. Yanıb qaralan taxıl zəmilərini, tankların tırtılları ilə əzilən üzümlükləri görəndə ürəyi göynəyirdi onun. Bütün bu müsibətlərə son qoymaq üçün haqq yolunda axıra kimi vuruşmağa and içsə də, tanrı onu öz dərgahına çağırdı. Seyfəlidə qəfildən ölümün cənginə keçən qeyrətli eloğlumuz əbədiyyətə qovuşub, bir parça Vətən torpağına qarışdı. Torpaqsa onun yolunda can verənləri heç vaxt unudan, yaddan çıxaran deyil...

# ANA TORPAQ ÇAĞIRIRDI...



***İbrahimov Mirbəşir Bağır oğlu***
***doğulub - 2.09.1974-cü il,***
***Cəbrayıl rayonu, Maralyan kəndi;***
***şəhid olub - 06.05.1994-cü il,***
***Füzuli bölgəsi, Arayatlı kəndi***

Mirbəşir Maralyan kəndində anadan olmuşdu, amma uşaqlıq illəri Şəkidə keçmişdi. Tale ona lap uşaqlığından kəm baxmışdı. Beş yaşında ikən anası vəfat etmiş, buna görə də onu Şəki şəhərindəki uşaq evinə vermişdilər. 1982-ci ildə Şəkidəki 2 saylı internat məktəbinə daxil olmuş, 1992-ci ildə isə həmin məktəbi bitirmişdi. İdmanı çox sevirdi. Sənədlərini Bədən Tərbiyəsi İnstitutuna versə də, qəbul ola bilməmiş, arzusu ürəyində qalmışdı. Bundan sonra Maralyana - atası Bağır kişinin yanına qayıdan Mirbəşir 1993-cü ilin aprelindən hərbi xidmətə yollanmışdı. Sanki ana torpaq özü onu buraya öz harayına çağırmışdı. Sumqayıtda iki ay hərbi təlim keçdikdən sonra Ağdam cəbhəsinə göndərilmişdi. Ağdamın bir sıra kəndlərindəki döyüşlərdə yaxından iştirak edib, sonra Füzulinin Dilağarda, Əhmədbəyli, Qaraxanbəyli, Kürdmahmudlu kəndlərində döyüşmüşdü.

1993-cü ilin axırlarında Mirbəşir İbrahimov xüsusi döyüş təlimi kursu keçmək üçün Əlibayramlı şəhərinə göndərilir. Əlbəttə, idmana olan ciddi marağı və fiziki hazırlığı təlim prosesində də özünü büruzə verirdi. Əlibayramlıdakı kursu başa vurduqdan sonra onu yenidən Füzuli bölgəsinə - Arayatlıya göndərirlər. Növbəti döyüş postuna gedən Mirbəşir yanına düşən düşmən mərmisindən ağır yaralanır və elə həmin gün də dünyasını dəyişir.

Qəlbi torpaq eşqi, Vətən həsrətilə deyünən Mirbəşirin məzarı Sumqayıtın Şəhidlər xiyabanındadır.



# O GÜNLƏRİ TEZ GÖRƏYDİK...

***İmanov Müslüm Cəmil oğlu***
***doğulub - 24.09.1969-cu il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***



Cəbrayıl torpağı səksən səkkizdən üzü bəri 1993-cü il avqust ayının on beşi gecəsindəki qədər ağır müsibəti, faciəni görməmişdi hələ. O bürkülü yay axşamı son beş il ərzində düşmən qarşısında alınmaz qala kimi dayanan Daşbaşı postu ilk dəfə idi ki, yağı tapdağı altda qalmışdı.

O gün ağır elli Böyük Mərcanlının səkkiz igid oğlu şəhid olandan sonra, düşmənin caynağına keçmiş, vətən qeyrəti çəkən bu cavanların cəsədləri tanınmaz hala salınmışdı. Səkkiz atanın bir anın içərisində beli bükülmüş, oğul deyib nalə çəkən səkkiz ananın dili-ağzı qabar bağlamışdı o gün. Səkkiz evin illərdən bəri gur yanan işığını fələk bir anda söndürmüşdü öz əli ilə. Yox, bu, fələyin işi deyildi. Cəmil kişiylə, Suqra anayla fələyin nə düşmənçiliyi vardı, axı. Nə qədər insafsız olsaydı belə onların Müslüm adlı balasına qıyıb əl qaldırmazdı fələk. O gecə Daşbaşıda Müslümün və onun əsgər dostlarının - uşaqlıq yoldaşları Arifin, Fərhadın, Cəbrayılın... qanını axıdan fələk deyildi - iblis cildinə, şümür qiyafəsinə girən erməni quldurları idi...

O gecə Suqra ana çimir eləməmişdi, gözünü yummamışdı sübhə kimi. Ürəyi dinclik tapmırdı sinəsində. Gözlərini yuman kimi Müslümün iniltisi gəlirdi qulaqlarına. Elə bil oğlunun öldürüldüyü əyan olmuşdu ona. Eyninə gələnləri açıb söyləyə bilmirdi qorxusundan kiməsə. Axşama yaxın Müslümün qanlı cəsədini gətirən maşın həyətdə dayananda varından yox oldu bu qadın...

Müslümün dayısı Yaqub Xudiyevin dediklərindən:

- O gün bacım oğlunun qanlı cəsədi evə gətiriləndə onun cənazəsindən yapışanlardan biri də mən idim. İçəridə Müslümün al-qana boyanmış əsgər paltarını əynindən çıxaranda dəhşətdən tüklərim biz-biz oldu. İyirmi dörd yaşlı bu cavanın bədənində güllə yerlərinin, zədələrin sayı-hesabı bilin-

mirdi. Hiss olunurdu ki, o yaralanıb düşmən əlinə keçəndən sonra dəhşətli bir işgəncəylə qətlə yetirilib. Başının arxa hissəsi küt bir alətlə xıncım-xıncım edilmiş, boğazı boynunun ardına kimi kəsilmiş, sağ qolu sındırılmış, aşağı nahiyələrinə ağır zərbələr endirilmişdi. Bir vaxtlar onun saçlarını sığallayan əllərim yaralarına toxunduqca ürəyimdən qara qanlar axırdı o gün...

Müslüm Cəmil müəllimin yeddi övladının ən istiqanlısı idi. Sözündən, söhbətindən şirinlik yağırdı onun. Ömründə bir qarışqanı belə ayaqlamamışdı Müslüm. 1969-cu il sentyabr ayının 24-də Mərcanlı kəndində anadan olmuşdu. Ailədə qardaş-bacılarının, məktəbdə şagird yoldaşlarının, müəllimlərin sevimlisi idi. Orta məktəbdə oxuduğu illərdə dram dərnəyinin ən fəal üzvlərindən idi. Çoxlarına elə gəlirdi ki, o, qeyri-adi uşaqdı. Müxtəlif fənlərə ürəkdən bağlandığı kimi incəsənətə də həvəsi sonsuz idi. Orta məktəbi bitirəndən sonra İncəsənət İnstitutuna qəbul olmaq arzusu ilə imtahan vermişdi. Kim bilir, o ili müsabiqədən keçsəydi, bəlkə də həyatı özgə səmtə, ayrı axara düşəcəydi...

Amma 1987-ci ildən 1989-cu ilə kimi qırmızı imperiyanın ordusu sıralarında xidmət etməli olmuş, onun əsgərlik yolu Xarkovdan başlayıb Saratovda sona çatmışdı...

Bir vaxtlar böyük arzularla, xəyallarla yaşayırdı. Ali təhsil almaq ən ülvi istəyi idi onun. Nə yaxşı ki, bu dünyada tələbə həyatının şirinliyini də dadıb duya bilmişdi. Bakıda menecer hazırlayan məktəbin ikinci kursunda oxuyurdu o. Doğma torpaqlarımız erməni quldurlarının həmləsinə məruz qalanda daha dözmədi Müslüm. Özünün uşaqlıq dostları Ariflə, Fərhadla, Qorxmazla birlikdə gedib qoşuldular Cəbrayıldakı «N» hərbi hissəsinin əsgərlərinə. İgidlikdə tayı-bərabəri yox idi onun. Əsgər yoldaşları arasında mahir topçu sayılırdı. Şəhid olduğu günə kimi Cəbrayıl torpaqlarındakı Əfəndilər, Balyand, Mülkədərə, Quşçular, Sirik, Daşbaşı postlarında el-obamızı etibarla qoruyur, döyüşlərdə düşmənin başına od yağdırırdı...

Müslümün bacısı Şəfiqə müəllimə deyir ki, qardaşım çox həssas idi. Onun adı ilə öyünürdük həmişə. Məni və bacılarım Şükufəni, Səadəti, Afəti qardaşlarım Nizamidən və Niyazidən artıq istəyərdi. Qardaşımız Nizaminin fidan balası Ülvini oxşamaqdan yorulmaz, vaxtı oldu-olmadı evimizdə hər işə əl atardı...

Toyların, məclislərin yaraşığı idi Müslüm. Nurlu baxışlarından, ifadəli üz-gözlərindən təbəssüm əskik olmazdı onun. Ürəyindən ata-ana məhəbbəti, Vətən qeyrəti və bir də doğma el-obasına ülvi sevgi hissləri var idi. Çətinə düşəndə arzularına, ümidlərinə söykənirdi.

Şəhid olmazdan beş gün qabaq komandirlərindən icazə alıb evlərinə



gəlmişdi. Qayıdıb gedəndə Müslüm evdəkilərə demişdi ki, dayandığımız Daşbaşı postu Cəbrayıl torpaqlarının qala qapısıdır. Biz bu qapını yağıların üzünə möhkəm bağlaya bilsək, düşmən biz səmtə bircə addım da ata bilməz. O gün bütün varlığı ilə öz torpağına bağlı olan bu igid oğlan hardan biləydi ki, topların, mərmilərin aça bilmədiyi qala qapılarını xəyanətin gizli əlləri düşmənin üzünə taybatay aça bilər. Və Cəbrayıldakı Daşbaşı xəyanətindən düz bir həftə sonra düşmən öz niyyətinə çata bildi. Altı il ərzində igidlərimizin qanı bahasına etibarla qorunan torpaqlarımız düşmən tapdağı altda qaldı...

Xeyli vaxtdır Suqra ananın uzalı əlləri oğlu Müslümün Mərcanlı qəbiristanındakı gor evinə çatmır. Xeyli vaxtdır torpaq niskili, oğul dərdi göynədir bu ananı. Bu həsrət onun dodaqlarında tumurcuq-tumurcuq ağıya çevrilir elə hey:

***Ay gedib batmır, Allah,***
***Dərdilər yatmır, Allah,***
***Müslümün məzarına***
***Əllərim çatmır, Allah...***

Ərlərimiz, ərənlərimiz, hər zülmət gecənin bir nurlu, işıqlı sabahı olur, deyiblər. Ulu Tanrının və bir də əlləri silah tutan igid oğullarımızın sayəsində inşallah torpaqlarımız tezliklə azad olacaq. Bax, onda Suqra ana da öz doğma el-obasına qayıdıb, oğlu Müslümün şəhid qəbrini bağrına basıb ürəkdən deyəcək:

- Əsgər yoldaşların doğma yurd yerlərimizdən düşməni qovub sənin və şəhid dostlarının qisasını aldılar.

Təki tez görəydik o günü...

# ANA YOLA BAXIR



***İmanov Həbib Yusif oğlu***
***doğulub - 12.1968-ci il,***
***Cəbrayıl rayonu, Mehdili kəndi;***
***şəhid olub - 23.04.1994-cü il,***
***Füzuli bölgəsi***

Araz kənarındakı obalardan olan Mehdili kəndində dünyaya göz açmışdı Həbib. Atası Yusif kişi, anası Xanxanım ana bir-birinin dalınca dünyaya göz açan on bir uşağı böyüdə-böyüdə kiprikləri ilə od götürmüşdülər. Həbib Yusif kişinin sonbeşiyiydi. Ata onu hamıdan artıq istəyir, adıyla öyünürdü. Bacıları Gülzar, Gülnar, Vəsilə, Şükufə, Pərvanə və Dürdanə Həbibin boyunu əzizləyir, heç bir sözünü yerə salmırdılar.

Ürəyi təpərli, qeyrətli bir oğul idi Həbib. Vətən deyib mehrinə sığındığı Cəbrayıl torpağı Araz kənarından ta Ziyarata kimi onun sevinc, güvənc yeriydi. Bu torpağın Xudafərin körpüsüylə, Araz boyu uzanan yamyaşıl vadisiylə, Tey, Diri, Tumas ata, Üçoğlan dağlarıyla, yovşan ətirli Gəyən düzüylə öyünürdü Həbib. Durnagözlü bulaqların, büllur sinəli kəhrizlərin bir içim suyunu dirilik rəmzi hesab edir, ulu çinarların örkən dolanmayan gövdəsinə heyranlıqla tamaşa edir, doğma ata ocağının səsinə-hənirinə tapınırdı. Həbibin qəlbində möcüzəli, sirli-soraqlı bir dünyaydı Araz. Onun bulanıq sularına illər boyu tamaşa eləyə-eləyə buğum-buğum böyümüşdü o.

Həbib 1988-ci ildə bir vaxtlar böyüklüyü ilə öyündüyümüz imperiyanın ordusunda əsgəri xidmətini başa vurub geri qayıdanda ulu yurd yerlərimizi od içində gördü. Doğma torpaqlarımızın harayını eşidəndə əli işə-gücə yatmadı onun. Rayonda o vaxt yenicə yaranan xüsusi təyinatlı polis dəstəsinə yazılanda elə bildi ki, dünyanı bağışladılar ona. Əlinə silah alandan azğın düşmənlə ər kimi vuruşurdu. Cəbrayılın sərhəd kəndlərinin düşməndən qorunması naminə özünü oda-közə vurdu. Sal qaya kimi dayandı ermənilərin yolu üstə. Cəbrayılın igid oğulları Mirələmlə, Zahidlə, Şikarla, Faiqlə birgə döyüşüb Sur, Şişqaya, Şayaq, Daşbaşı, Sirik əməliyyatlarında uğurla vuruşdu. Belə qeyrətli, belə cəsur bir əsgər idi Həbib.

1993-cü ilin oktyabr ayının 24-də Cəbrayıl torpaqları bütövlükdə



düşmənə təhvil veriləndə ürəkdən sarsılmış, özünə yer tapa bilməmişdi. Araz qırağında ölüb-itənləri, suda qərq olanları gözləriylə görə-görə içində hönkür-hönkür ağlamış, Vətən torpağı ilə alver edənləri ürəkdən lənətləmişdi. Bundan sonra da düşmənlə son nəfəsinə qədər vuruşmuşdu Həbib. 1993-cü ilin dekabr ayında ermənilərlə qanlı döyüşlər aparan igid eloğlanlarımız Horadiz-Cocuq Mərcanlı istiqamətində irəliləyərək bir sıra yaşayış məntəqələrini azad etmişdilər. Həbib bu döyüşlərdə daha da mətinləşmiş, qorxmazlığı ilə ad çıxarmışdı. Ölümündən bir az qabaq məzuniyyət alıb bir həftəliyə İmişlinin Göbəktala kəndində məskunlaşmış qaçqın ata-anasına, bacı-qardaşlarına baş çəkmişdi. Sonra yenidən Araz kənarındakı döyüş mövqelərinə qayıtmışdı. Cocuq Mərcanlıdakı postun cəmisi bircə kilometrliyindəki doğma kəndlərinə ermənilər nəzarət edirdi. 1994-cü il aprel ayının 23-ü idi, onun dayandığı yerin dörd addımlığına düşən düşmən mərmisindən aldığı yara ömrün şəhidlik zirvəsinə ucaltdı Həbibi...

İmişli camaatı dərin ehtiramla dəfn etdilər bu igid oğlanı. Doğma torpaqlarımızın azad olunması naminə canından keçən Həbibin şəhid məzarı Muğan torpağından Arazboyu obalarımıza nigaran-nigaran boylanmaqdadır bu gün. Necə ki, ulu yurd yerlərimiz düşmən caynağındadır, İmanov Həbib Yusif oğlunun qəriblikdə qalan məzarı od tutub yanacaq, torpağı sızlayacaq onun...

Xanxanım ana, Yusif kişi Həbibin ölümünə inana bilmirlər hələ də. 1994-cü ilin yanvar ayında dünyaya gələn Rəşid Həbibin canlı yadigarı kimi daha çox əzizlənir, sevilir bu gün. Onlara elə gəlir ki, bu körpə Həbibin yarımçıq ömrünün davamı kimi gəlib dünyaya. Elə ona görə də onlar Həbibin ölümünə inanmır, onun nə vaxtsa geri qayıdacağını gözləyirlər. Xanxanım ana səhər-axşam yollara boylana-boylana Həbib adında, Həbib nişanında bir oğul gözləyir...

# HALAL PEŞƏ SAHİBİ İDİN...

***İmanov Allahverdi Xudaverdi oğlu***
***doğulub - 25.03.1962-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 29.06.1994-cü il,***
***Tərtər bölgəsi***

Allahverdi, eloğlu, bağışla ki, yaşadığın illərdə səni yaxından tanıya bilməmişik. Nə etməli, bu da taleyin bir qəribəliyidir. Eloğlu, həyatda yollarımız kəsişməsə də, atan Xudaverdi kişini yaxşı tanıyırdıq. Halal ruzulu, halal diləkli bir kişini kim tanımırdı ki, bizim rayonda?

Nə qohum-əqrabanın təsəlli dolu sözləri, nə də bir cüt fidan balanın - İlkinlə Aqilin uşaq dəcəllikləri ovundura bilir atanı. İgid oğul itirib onun qara haşiyəli çərçivəyə sığınan iri şəklini əzizləyən anan Fitat xanımın çəkdiyi sitəmlərin əks-sədası qulağına çatırmı sənin? Bəs, ömür-gün yoldaşın Zöhrə xanımın sızıltılarını necə, duyursanmı, Allahverdi? İki fidan balasının sual dolu baxışları altda varından yox olan bu qadının ah-naləsi gor evinə yetişirmi, eloğlu?

*Fələk, səni yarıma,*
*Necə qıydın barıma?*
*Nə vaxtdır ki, yetişmir*
*Səsim, sədam yarıma...*

Şəkildən də təsəllimi olar, ay Allah? İlkinlə, Aqil əl boyda şəkil əvəzinə atalarını istəyirlər, atalarını...

Bu nizamı-tarazı pozulan dünyamızda qəfil gedişinlə sinələrinə dağ çəkdiyin doğmalarından xəbərin varmı? Bəlkə də xəbərin olsaydı, ölüm yuxusundan ayılıb, gor evində qəddini dikəldər, onlara xitabən deyərdin:

– Mənim əzizlərim, özünüzü ələ alın, biz şəhidlərə «öldü» deməyin. Biz elə bir məkandayıq ki, orada ancaq müqəddəs ruhlara, Tanrı tərəfindən sevilənlərə yer var.

Eloğlu, eşitdiyimizə görə sən həyatda cəfakeş adam olmusan. Əlin işə yatandan ağır zəhmətə qatlaşıb halal ruzu qazanmısan. El-obada ulu peşə sayılan kankanlığı öyrənəndən sonra ömrün su saflığına qovuşub. Horovlu camaatı sənin əllərinlə gurlaşan kəhrizdən su içəndə:



- Allah canını sağ eləsin, ay Allahverdi, - deyiblər, - əllərinin tayı-bərabəri yoxdur...

Halallığına sığındığın qabarlı əllərin sənə başuçalığı gətirdiyi kimi, güngüzaran da verib. Bu əllərlə özün üçün ev-eşik tikib balalarını başına toplamısan. Doxsan üçüncü ilin avqustunda erməni işğalçıları Horovluya divan tutanda ilk dəfə yandırılan kəndlərdən biri də səninki olub. Sən o gün and içmişdin ki, düşmənə son nəfəsinə kimi amansız olacaqsan. Kişi kimi axıradək sözünün üstündə dayandın. Doxsan dördün yayında Tərtər bölgəsində atılan düşmən gülləsi köksünü parçalamasaydı, sən ölümə bac verəsi deyildin...

Ulularımız «Vətən oğulsuz qalmaz» - deyiblər. Sən şəhid kimi dünyadan köçsən də ailə ocağında bir cüt oğul balan - İlkinlə Aqilin böyüyür. Torpağın sanı yaşasınlar onları...

# QEYRƏTƏ SÖYKƏNƏN ƏSGƏR ANDI



***İsmayılov Taleh İldırım oğlu***
***doğulub - 02.02.1967-ci il,***
***Cəbrayıl şəhəri;***
***şəhid olub - 02.03.1995-ci il,***
***Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi***

Talehin qara xəbərini Şəkidə çatdırdılar İldırım kişiyə. O, Saatlıda sığınacaq tapan ailə üzvlərinin yanına qayıdanda yol uzunu azı min dəfə ölüb-dirildi. Sevimli balası Talehin ömür yolu gözlərinin qabağından ötüb keçdikçə arxada qalan illərin xatirəsi atanın göz yaşları ilə yuyundu...

Xan Çinarlı, büllur kəhrizli Cəbrayılda dünyaya göz açmışdı Taleh. Heç nəyini əsirgəməmişdi Tanrı ondan. Yarlı-yaraşıqlı, sayılıb seçilən bir oğlan idi. Şəhər internat məktəbini əla qiymətlərlə başa vurmuş, anası Tamara müəllimənin də şagirdi olmuşdu. Diribaş, qollu-qanadlı, sağlam görünüşlü bu oğlanı Polşaya əsgəri xidmətə göndərmişdilər (o vaxtlar Sovetlər İttifaqında belə şeylər nəzərə alınırdı). Varşava ətrafından Cəbrayıla ünvanlanan əsgər məktublarından Talehin xoş səsi, sədası gəlirdi. Komandirləri Talehə görə

dəfələrlə təşəkkür məktubları göndərmişdilər onun valideynlərinə. İldırım kişi xoşbəxt ata, Tamara xanım bəxtəvər ana hesab edirdilər özlərini. Talehin əsgər geyimində çəkdirdiyi şəkillər əllərdə əzizlənir, gözlərdə oxşanırdı...

Əsgərlikdən qayıdanda Polşada uyuyan Sovet İttifaqı Qəhrəmanı, həmyerlisi, Cəmil Əhmədovun məzarını ziyarət etmiş, oradan bir ovuc torpaq da gətirib Vətən torpağına qatmışdı. Bax belə vətəncanlı, torpaqcanlı oğul idi Taleh...

Evlərinə qayıdandan sonra valideynlərinin xeyir-duası ilə Taleh Donetsk vilayətinə gedib oradakı Ümumqoşun komandirləri məktəbinin məzunu olan qardaşı Salehlə görüşdü. Onun məsləhəti ilə buradakı sənaye-texnologiya texnikumunda oxudu. Dostu, həmyerlisi Hüseynov Elşad da burada onunla idi...

Doxsan ikinci ildə Cəbrayıla qayıdanda şəhərin nizamını pozulmuş gördü Taleh. Qürbətdə keçirdiyi illərdə burada neçə-neçə ev-eşik dağılmış, günahsız adamlar şəhid olmuşdu. Adamların üz-gözündən hüzn qarışıq həyəcan yağırdı. Atasını hərbi geyimdə görəndə məsələnin nə yerdə olduğunu duyub anladı. Rayondakı ziyalı batalyonunun təşkilatçılarından biri olan İldırım kişi açıb-ağartmasa da Taleh başa düşdü ki, Cəbrayılın taleyi tükdən asılıdır. Ertəsi gün sübh tezdən ayağa durub səngərə getməyə hazırlaşan atasına yanaşdı:

- Sən daş qoyan yerə mən baş qoymalıyam. Elimizin bu ağır günündə evdə sakit oturub qala bilmərəm. Sən hara, mən də ora...

O gün ata-bala döyüş postuna birlikdə yollandılar. Günlərin birində İldırım kişi oğlu Talehə ürəyindən keçən arzusunu bildirdi:

- Oğlum, dünya ölüm-itim dünyasıdır. Sabah nə olacaq, onu təkcə bizi yaradan bilir. Anan da, mən də, elə qardaşların da istəyirik toyunu eləyək. Razı olsan Südabəni alardıq sənə. O, özgəsi deyil, halal süd əmmiş uşaqdır, əmisi Quliyev Səxavət 20 Yanvarda şəhid olub, yəqin ki, görmüsən qəbiri Bakının «Şəhidlər xiyabanı»ndadır. Taleh valideynlərinin arzusuna xilaf çıxmadı onda...

Bir ildən sonra dünyaya gələn körpə İldırım kişiyə baba, Tamara xanıma nənə olma səadəti gətirdi. Uşağı ulu nənəsinin adı ilə - Fatma - deyə çağırdılar...

Tanrı bu xoşbəxtliyi axıradək qismət edə bilmədi onlara. Əvvəlcə bürkülü avqust axşamında vahimə ilə yurd yerlərindən perik düşənlərə qoşulub Cəbrayıldakı evlərini tərk etdilər. Sonra Taleh adlı ümid çıraqları söndü onların...

Taleh öləcəyi gündən xeyli uzaqda idi onda. Odun-alovun içərisindən sağ çıxarmaqla Tanrı onu neçə-neçə ağır sınaqdan çıxarası idi hələ...



Cəbrayılın böhranlı çağları məhşər gününə söykənmişdi elə bil. Kimisi var-dövlətinin, kimisi əldən gedən torpağın hayında idi onda:

*Dağlar diksinirdi bu qəfil səsdən,*
*Ölüm yol gəlirdi dumanda, sisdə.*
*Torpağın yaralı sinəsi üstə,*
*Bir niskil göyərib bitirdi o gün.*

*Üfüqlər heyrətdən çatdı «qaşını»,*
*Buludlar gözünün tökdü yaşını.*
*Kimi sərvətini, kimi başını, -*
*Kimi vicdanını itirdi o gün...*

Dar ayaqda nə başını, nə yurd sevgisini, nə də dözümünü itirdi İldırım kişi. İtirdiyi təkcə illər boyu halallıqla tikdirdiyi topdağıtmaz ev-eşiyi oldu onun. «Elnən gələn, toy-bayramdır» - deyib təsəlli verdi özünə. Və yurd ağrıları ilə yaşadığı günlərin birində oğlu Talehi Cəbrayıl polisinin sıralarına qoşub xeyir-dua verdi ona. Taleh Vətənə layiqli oğul olduğunu döyüş postlarında da sübut etdi...

Ömrü boyu xəyanət girdabında baş girləyən erməni dığaları atəşkəsin hökm sürdüyü bir vaxtda İldırım kişini, Tamara ananı gözüyaşlı qoydular. Mart ayının 2-də (1995), gecəyarı döyüş postunda keşik çəkməyə gedən Taleh qəfildən atılan güllənin qurbanı oldu. Cavan bir ailə başsız, iki yaşlı bir körpə atasız qaldı o gecə...

Talehin dəfnində qarlı-sazaqlı Murovda taqım komandiri olan qardaşı Valeh də iştirak edirdi o gün. O, Talehin qəbiri üstə and içib dedi: «Qardaş, sənin və dünyadan nakam gedən cavanlarımızın qisasını yerdə qoymayacağam». Azərbaycan əsgərinin Vətən qarşısında şərəfə, amala söykənən bu andı igid oğullarımızı cihada səsləyir hələ də...

# DÜNYANIN QƏM LEYSANI



***İsmayılov Mehdi Lətif oğlu***
***doğulub - 19.05.1972-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 23.12.1993-cü il,***
***Gəncə bölgəsi***

1993-cü ilin dekabr ayının sonlarında eşitdik ki, Gəncə ətrafındakı hərbi düşərgələrin birində həmyerlilərimizdən bir neçəsi həlak olub. Şəhid olan cavanların altı nəfəri Horovlu kəndindən idi. Qəfil xəbər qəm leysanına dönüb didərginlik ağrıları ilə yaşadığımız neçə-neçə el-obada yağdı üstümüzə. Qismətimizə düşən təzə niskil payı idi, nizamı pozulan Azərbaycan elimizdə dünyanın bizi üşüdən dərd yükü, qəm dəryası idi bu faciə. Hamımız qəfil xəbərdən yerimizdə donmuşduq elə bil. Kimimiz günahkarları lənətləyir, kimimiz göz yaşları içərisində gilə-gilə əriyirdik...

O gün şəhid olanlardan biri də Mehdi idi. Horovlu kəndində doğulub boya-başa çatan bu oğlan orta məktəbi qurtarandan sonra iki il keçmiş sovetlər ordusunda əsgər olmuşdu. Doğma el-obadan uzaqlarda da ürəyi Vətən hissi ilə döyünürdü Mehdinin. Yazdığı məktublarında narahatçılığı açıq-aşkar bilinirdi onun...

Əsgərlikdən qayıdandan sonra Mahmudlu dəmiryol stansiyasında, atası Lətifin yanında işləyirdi. Rayonun Hadrutla sərhəd kəndlərində erməni quldurlarının törətdiyi azğınlıqlar onu da dinc buraxmırdı. Günlərin birində cəbhə xəttindən xeyli aralı olan iş yerini tərk edib döyüşçülərin sırasına qoşuldu. Evdəkilər Mehdinin hərəkətindən narazı qalsalar da, onu inadından döndərə bilmədilər.

- El-obamızın bu ağır günündə cəbhədə vuruşan tay-tuşlarımın gözünə düz baxa bilmirəm, - deyə Mehdi özünə bəraət qazandırdı...

Onda hələ Cəbrayıl torpaqları düşmən caynağına keçməmişdi. Onda hələ Şuşanı, Laçını, Kəlbəcəri düşmənə «peşkəş» verən xəyanətkar əllər Cəbrayıl elimizə çatmırdı. Bu torpağın şir ürəkli oğulları erməni quldurlarının yolu üstə köklü qaya kimi dayanıb hər dağı, dərəni alınmaz qalaya çevirmişdilər. Mehdi qeyrətinə güvəndiyi yaşıdları ilə birlikdə torpaqlarımızı qoruyurdu...



Əvvəllər Sur postunda, ondan sonra isə Qışlaq kəndinin üst tərəfindəki «Armudlu» postunda dayanan bu igid oğlan döyüşlərdə qorxmaz bir əsgər kimi tanınmışdı. Rayonun işğalından qabaq Mehdigilin dəstəsi Daşbaşı və Mülkədərə postlarında bir neçə dəfə düşmənlə üz-üzə gəlmiş, döyüşlərin birində mühasirəyə düşmüşdülər. O vaxtlar Mehdinin soyuqqanlığı və qorxmazlığı yoldaşlarına da ürək-dirək vermiş, onlar uzun müddət davam edən atışmadan sonra, itki vermədən mühasirədən çıxa bilmişdilər...

1993-cü ilin avqust ayının 23-də rayonun dağlıq zonasında yerləşən yaşayış məntəqələri işğal olunandan sonra Mehdigilin dəstəsi Çapand kəndi ətrafındakı postda dayanıb düşmənin qarşısını kəsmişdi. Düşmən kəməndinə düşən obaların tüstüsü ərşə qalxdıqca Mehdi qəzəbindən tir-tir əsir, özünə yol tapa bilmirdi. Dayandıqları postun iki-üç kilometrliyindəki doğma ata ocağı Horovlunun od tutub yanan evlərini gördükcə yaralı şir kimi düşmən üstünə atılmağa hazır idi Mehdi...

Qarabağ ellərinə səpilən xəyanət toxumu axır ki, Cəbrayılda da göyərdi o payız. 1993-cü ilin 23 oktyabrında beş ildən bəri düşmənlə ölüm-dirim savaşına qalxan igid oğullarımız elləri perik düşən Cəbrayıl torpaqlarını ağlar gözlə tərk etdilər. Səriştəsiz komandirlərin qorxaqlığı düşmənin əl-qolunu açdı burada. İşğaldan bir neçə gün qabaq Quycaq kəndi ətrafında gedən döyüşlərdə düşməni əməlli-başlı əzən igidlərimiz köməksiz qaldıqlarından öz mövqelərini tərk edib geri çəkilməyə məcbur oldular.

Quycaqda gedən ağır döyüşlər zamanı qulaqları tutulmuşdu Mehdinin. Beyləqandakı hərbi qospitalda müalicə olunduqdan sonra İmişli ərazisində məskunlaşan doğmalarına baş çəkib yenidən cəbhəyə qayıtmaq istəyəndə ona:

- Onsuz da Cəbrayıl batalyonu dağılıb, bir də ki, qeyrət çəkmək təkcə sənə qalmayıb ki, - dedilər. - Görürsənmi, bəziləri orda-burda daldalanıb başlarını girləyirlər...

Mehdiyə elə bil od vurdular. Qəzəblə yumruğunu düyünləyib:

- Vətənin bu ağır günündə mən xəlvətdə qalıb baş girləyə bilmərəm. Qoy, kim nə edir etsin - öz işidir. Mən sabah camaatımın qarşısına alnıaçıq çıxmaq istəyirəm, - dedi...

Və bir neçə gündən sonra Mehdi Gəncədəki hərbi hissəyə gedib yoldaşlarına qoşuldu...

Dekabrın 23-də Gəncə ətrafında şəhid olmasa idi, qələbə gününə kimi döyüşəsi idi Mehdi. Tale ona bu amanı, möhləti çox gördü. Qanlı bir tabuta sığınıb didərginlik əzabını yaşayan doğmalarının üstünə gəldi o. Beyləqanın 3 Saylı sovxozunun qəbiristanında uyuyan əmək qəhrəmanı, əslən Horovludan olan Sərdar İmrəliyevlə gor qonşusu olmaq demə İsmayılov Mehdi Lətif oğlunun alın yazısı imiş...

O müdhiş xəbərin elləri, obaları yorta-yorta dolaşıb üstümüzə yüyürdüyü gün dünyanın qəm leysanı içimizə yağmaqda idi. Bulud hönkürtülü bu leysan təpədən-dırnağacan bizi göynətdikcə şəhid Mehdinin ruhu ilə qovuşan nisgilimizdən hüzn dolu bir ağının ilk misraları puçurlanmaqda idi...

*Bu, əcəl daşıdımı,*
*Ömrün yağışıdımı?*
*Tale qarğışıdımı? –*
*Sənə kim qıydı oğul?*

*Tabutun qan içində,*
*Üzüldü can içimdə...*
*Dərd varmı bu biçimdə? –*
*Qismətin buydu, oğul...*

## BİR SƏSİN HARAYI



***İsgəndərov Nəbi Məhəmməd oğlu doğulub - 01.02.1969-cu il, Cəbrayıl rayonu, Tatar kəndi; şəhid olub - 22.12.1993-cü il, Gəncə bölgəsi***

Qara xəbər yel qanadlı olur - deyiblər. Bircə günün içərisində neçə-neçə obaları, elləri dolaşıb bir dünya nisgili ilə qapıları döyür, ürəkləri parçalayır. Məhəmməd kişi o qarlı-şaxtalı dekabr ayında oğlu Nəbinin şəhid olduğunu eşitdikcə sinəsindən elə bil daş asıldı. Dərdin ağırlığı onun cüssəli qamətini büküb yumağa döndərdi. Dəli bir harayla hönkürüb qışqırmaq istədisə də, bir anın içində səsini itirdi elə bil. Onun muğam üstə köklənən yanıqlı səsini illər boyu el-oba şənliklərindən çox eşitmişdik. «Qarabağ Şikəstəsi» onun dilində gur şəlalə kimi çağlayıb daşanda adama elə gəlirdi ki, möcüzələr aləminə düşüb. Tey dağı, Sirik meşələri, Daş bulaq, Hacı Qaraman müqəddəsliyi, Qalacıq kəndinin tunc



sinəli qayaları, «Divlər sarayı», Tumas ata bu səsin işığında açıq, aydın görünürdü...

O gün müdhiş xəbər Məhəmməd kişinin təkcə belini bükməmişdi, səsini, avazını da almışdı əlindən. Ata dərdin oduyla qarsalandıqca oğlunun qanlı cənazəsini bağrına basıb yanıqlı səsi ilə oxşamaq istəyirdi onu. O, Nəbi balasını sonuncu dəfə «Qarabağ şikəstəsi»nə bələmək istəyirdi, ancaq səsini, avazını axtarıb tapa bilmirdi bu dar macalda. Birdən elə bil möcüzə baş verdi, onun işığı öləziyən sifəti şəhid balasının üzünə yaxınlaşanda sinəsində qəhərə çevrilən səsi vulkan kimi püskürməyə başladı. Onun bircə anın içində çat-çat olan dodaqlarında qəmli bir nəğmə göyərməyə başladı:

*Sinəmin odu, oğul*
*Ağzımın dadı, oğul.*
*Yerə, göyə sığmayır,*
*Səsim, fəryadım oğul.*

*Bağrım başı qan oldu,*
*Ürəyim şan-şan oldu.*
*Baxdım qanlı saçına,*
*Halım pərişan oldu...*

Nəbi o iztirablı dəqiqələrdə atasının ürək parçalayan səsinə bürünüb dərin yuxuya getmişdi elə bil. Onu bu «yuxudan» oyatmağa kiminsə cəsarəti, hünəri çatmırdı...

Tatar kəndinin şirbiləkli oğullarından idi Nəbi. Dağların saf havası onun sinəsinə, təbəssümlü sifətinə köçmüşdü elə bil. Ürəyi çeşmə kimi qaynar idi Nəbinin. Kənd adamları, tay-tuşları arasında özünün sadəliyi ilə seçilirdi. Mülayim xarakterli olsa da ağciyər deyildi. Məqamı çatanda dağ adamlarına məxsus dəliqanlılığı üzə çıxırdı. Bəlkə elə ona görə də erməni mərmilərinin bayquş ulartısı doğma kəndlərinin yuxusunu ərşə çəkəndə həmyerliləri arasında dayanan yaşıdlarına üzünü tutub:

- Hə, deyin görək nəyi gözləyirik? - demişdi. – Əlimizi əlimizin üstə qoyub dayansaq, bu əclaflar bizim axırımıza çıxacaqlar.

Elə oradaca ürəyindən keçənləri dilinə gətirmişdi Nəbi:

- Günü sabahdan o dağlardakı səngərlərə qalxıb qoşulacağam qeyrətli oğullarımıza. – Sonra əlini dumanlı-sisli Ziyarata sarı uzadıb:

- Kişilik yolu bax, oradan başlayır. Kim bir qaşıq qanından qorxmursa, mənə qoşulsun...

Nəbinin sözləri çoxlarını tərpətmişdi onda. Tatarın qeyrətli cavanları ona qoşulub bir qarlı yanvar günü soyuq səngərlərə sığındılar...

O, həyatın istisini-soyuğunu təzə-təzə duyub dərk edirdi.

İki il Qazaxıstanda keçən əsgərlik həyatından çox şeylər öyrənmişdi.

Doğma kəndlərində sürücü işləyərkən dolanbac dağ yolları ilə ülfət bağlamışdı.

Rayon mərkəzindəki elektrik şəbəkəsində çalışdığı günlərdə qollarını işıq tellərinə döndərib el-obanı bağrına basmışdı.

Anası Hürü bacının gözlərinin işığı, Malikin, Fikrətin sevimli qardaşı, bacıları Adilənin, Şahnazın, Təranənin, Rəbiyənin and-aman yeri idi Nəbi.

Ömür-gün yoldaşı Validənin adını dönə-dönə əzizləyir, fidan balası Xəyyamın görüşünə tələsirdi həmişə...

O gün Məhəmməd kişinin içindən soyuq bir sazaq əsməkdə idi. Təkcə öz səsini, hönkürtüsünü eşidirdi o gün:

Qarabağım - qara baxtım,
Qalmaz belə, qalmaz dünya...

O gün Beyləqan torpağındakı ulu bir qəbiristanda İsgəndərov Nəbi Məhəmməd oğlu özünün gor evinə sığınmaqda idi... İnnən belə Məhəmməd kişinin səsi səhər mehinə qarışaraq şəhid oğlunun qəbiri üstən keçib, Ziyarat dağına, doğma ocaqlarımıza yayılacaq...



## ÖLÜMÜNDƏN QORXMAYAN İGİD



***Yusifov Cabbar Mürsəl oğlu***
***doğulub - 19.05.1965-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 10.12.1993-cü il,***
***Beyləqan rayonu***

Doxsan üçüncü ilin payızında elə bil oğuz elimizin üstən qara yellər əsib keçmişdi. Qubadlı da düşmən caynağına keçmiş, Zəngilanın naləsi ərşə qalxmışdı. Cəbrayılın Arazboyu obalarını ağlar qoyan quldurlar Füzuli torpaqlarını ələ keçirib, qanlı caynaqlarını Beyləqana tərəf uzatmaqda idilər.

...O qanlı-qadalı günlərdə respublika Prezidentinin çağırışı yüz minlərlə soydaşımızı ayağa qaldırdı. Vətən qeyrətini yaşamaq istəyindən üstün tutanlar silah götürüb yurdu qorumağı özlərinə borc bildilər...

...O gün Cabbar dördaylıq körpəsini, balaca Rəşidi bağrına basıb, onun süd qoxulu dodaqlarından öpdü. Cəbhəyə gedəcəyi xəbərini evdəkilərə bildirəndə araya sükut çökdü. Cabbar anladı ki, həyat yoldaşı bu çətin günlərdə onun evdən uzaqda olmağını istəmir. Ancaq Cabbarın vətənpərvərliyinə yaxşı bələd olduğundan ürəyindən keçənləri dilinə gətirməkdə çətinlik çəkir.

- Əzizim, bilirəm, deyəcəksən ki, bizi kimin umuduna qoyub gedirsən axı? Rəşidin üzünü heç doyunca da görməmisən...

- Elədir, Cabbar, axı, sən ailəlisən, körpən var, nə çoxdur Bakının küçələrini boş-boşuna dolaşan cavanlar. Onlar dura-dura özünü odun-alovun içinə atmağın nəyə lazımdır?

- Yox, əvvəla, mənim ata ocağım Cəbrayılın bu ağır günlərində yaxamı kənara çəkməyim heç Tanrıya da xoş getməz. İkincisi, orada döyüşüb şəhid olanlardan nəyim artıqdır. Şükür Allaha, heç olmasa yurdumda nişanəm var, ölsəm, Rəşid çırağımı yandıracaq...

...Cabbar Yusifov Böyük Mərcanlı kəndində doğulmuşdu. 1982-ci ildə Quycaq kənd orta məktəbini bitirəndən sonra Bakı Neft Texnikumunda oxuyub neftçi peşəsinə yiyələnmişdi. Səksən yeddinci ilin sentyabrından Binəqədi Neft və Qazçıxarma idarəsində quyuların əsaslı təmiri sexində

usta vəzifəsində işləyirdi. M.Ə.Rəsulzadə qəsəbəsində yaşasa da ata yurdu Cəbrayıla arabir baş çəkər, onun dilbər guşələrinə heyranlıqla baxardı. Yaxşı qarmon çalmağı, şeir deməyi də vardı Cabbarın...

...Düşmən Beyləqana sarı inadla irəliləməyə cəhd etsə də, əsgərlərimiz onun qarşısını nəyin bahasına olur-olsun almağa çalışırdılar. Yer-göy lərzəyə gəlmişdi o gün. Cabbarın komandirlik etdiyi bölük düşmənə inadla müqavimət göstərsə də qeyri-bərabər döyüşdə neçə-neçə igid əsgər itirdi. Üç saat ərzində düşməni yaxına buraxmayan Cabbar ağır yaralansa da son nəfəsinə kimi silahı əldən yerə qoymadı. Lap axırda qumbaraya əl atıb onu əsir almaq istəyən erməni quldurları ilə bərabər özünü də partlatdı...

«Azərbaycan Respublikası Prezidentinə

...1993-cü ilin 10 dekabrında Binəqədi batalyonunun döyüşçüləri son nəfəsinədək erməni piyada qoşunları ilə vuruşmuşlar. Bu qəhrəmanlardan biri də bölmə komandiri Yusifov Cabbar Mürsəl oğlu olmuşdur. O, üç saat ərzində düşmənlə vuruşmuş, yüzlərlə əsgər və zabitlərin sağ qalmasına səbəb olmuşdur. Son nəfəsində əsir düşməmək üçün özünü və bir neçə düşmən əsgərini qumbara ilə partlatmışdır... Biz Cabbarın bu qəhrəmanlığını təsdiq edir və ona Azərbaycanın Milli Qəhrəmanı adı verilməsini xahiş edirik...»

...Bölmə komandirləri F. Lətifovun, M. Lətifovun, taqım komandiri N. Atakişiyevin imzası ilə təsdiq olunan bu məktub Cabbarın döyüş rəşadətinin sonuncu akkordudur. İnnən sonra da onun adı dilimizdə tez-tez səslənəcək...



## QƏHRƏMANLIQ ZİRVƏSİ...



***Yolçuzadə Kamal Məhəmməd oğlu***
***doğulub - 13.06.1975-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 27.01.1994-cü il,***
***Füzuli bölgəsi***

Ailənin böyük övladı idi Kamal. Atalıq sevincini bəxş edən ilkinə - oğluna çağırış vərəqi gələndə Məhəmməd müəllim çox həyəcanlandı. Dünənəcən uşaq saydığı Kamalın böyüyüb Milli Ordu sıralarına çağırılmasından qəlbində sevinc qarışıq bir narahatlıq da baş qaldırdı. Bu da təbiidir. Bir ata kimi o da valideynlərin hamısına xas olan hisslərin təsiri altındaydı. Bununla belə başımızın üstünü alan təhlükəni göz önünə gətirərək təkrar-təkrar şagirdlərinə söylədiyi «oğul Vətəni qorumaq üçündür» sözlərini xatırlayanda sanki özündə bir yüngüllük hiss etdi. Övlad ayrılığına dözmək onun üçün nə qədər ağır olsa da, torpağı düşmənlərdən qorumağı daha vacib sanırdı.

1993-cü il iyul ayının 7-si idi. Qohum-əqraba, qonum-qonşu Kamalı yola salmağa gəlmişdilər. Xudafisləşmə anı çatanda Məhəmməd müəllim istəkli oğlunun boynunu qucaqlayıb:

- Özündən muğayat ol, oğlum! Unutma ki, Vətən, torpaq namusumuzdur. Onun bir qarışını da yağılara verməк olmaz! - deyə ona ata xeyir-duasını verdi. Anası Səyyarə müəllimə arxasınca su atdı ki, ciyərparasının həyatı həmişə aydınlıq içində olsun...

Kamal Yolçuzadə ordu həyatının ilk günlərindən xoş xasiyyəti, üzüyolalığı ilə komandirlərin, əsgər yoldaşlarının rəğbətini qazanmışdı. Bilik və bacarığı, dünyagörüşü ilə də başqalarından fərqlənirdi. Andiçmə möhləti çox çəkmədi. Hərbi təlim başa çatdıqdan sonra Zəngilan rayonuna göndərdilər. O, Zəngilanın müdafiəsində yaxından iştirak etdi. Rayon erməni qəsbkarları tərəfindən işğal edildikdən sonra Kamalın xidmət etdiyi hissə Beyləqanda yerləşdi. O, görmə qabiliyyəti zəif olduğu üçün mühəndis istehkamçı peşəsinə yiyələndi. Kamal burada xüsusi qabiliyyət nümayiş etdirdi. Gənc əsgər harada olur-olsun, istər postda dayananda, istərsə də döyüş meydanında bir an da atasının nəsihətlərini yaddan çıxarmır, koman-

dirlərin əmrlərini sözsüz yerinə yetirirdi. Başa düşürdü ki, itirilmiş torpaqlarımızdan işğalçıların çıxarılıb qovulması hər bir əsgərin cəsurluğu ilə yanaşı, intizamlı olmasından da çox asılıdır. 1994-cü ilin əvvəllərindən başlayaraq ordumuzun qazandığı uğurlar zamanı o, bir daha bunun canlı şahidi olmuşdu.

Füzuli rayonunun Arazboyu kəndləri bir-birinin ardınca ermənilərin birləşmiş hərbi qüvvələrindən azad olunurdu. Hücumu davam etdirmək üçün əsgərlərimizin keçəcəyi yerləri ermənilərin basdırdıqları minadan təmizləmək lazım idi. Bu işin yerinə yetirilməsi cəsarət, hünər tələb edirdi. Minaların partlaması ordumuza böyük itki gətirərdi.

Son dərəcə dəqiqlik tələb edən məsuliyyətli tapşırığın öhdəsindən gəlməyə hər adamın qabiliyyəti çatmazdı. Əsgər yoldaşlarının bir-birinin üzünə baxdığını hiss edən K. Yolçuzadə bilərəkdən riskə gedərək təhlükəli işi öz öhdəsinə götürdü. Qorxu nə olduğunu eyninə belə gətirməyən igid əsgər çox ustalıqla minaları zərərsizləşdirə bildi. Lakin adamın dili də gəlmir desin, igid əsgər tapşırığı uğurla yerinə yetirib geri qayıdanda düşmən gülləsinə tuş gəldi. Onun cəsədini döyüş meydanından çıxarmaq mümkün olmadı. Çünki ora düşmənə çox yaxın idi. Nə etmək olar. Dəhşətli hadisə baş vermişdi. Yurdumuzun cəsur oğlu öz həyatı bahasına onlarla əsgərin ölümünün qarşısını almaqla yanaşı hazırlanmış əməliyyatın müvəffəqiyyətlə başa çatmasını təmin etdi. Bu hər adama nəsib olmayan əsl qəhrəmanlıqdır. Yalnız Vətənini, xalqını sevənlər belə hərəkət edə bilərlər.

K. Yolçuzadə ziyalı ailəsində dünyaya göz açmışdı. Mərhum babası Malçı uzun illər məktəb direktoru işləmişdi, anası Səyyarə riyaziyyat, atası Məhəmməd isə ədəbiyyat müəllimidir. Kamal da ailə ənənəsini davam etdirmək arzusu ilə yaşayırdı. Fəqət amansız ölüm həvəsini köksündə qoydu. Ömrünün çox erkən çağlarında şəhidlik zirvəsinə ucaldı.

Bilirik Səyyarə bacı, Məhəmməd müəllim, ömrünün 19-cu baharını yaşamaq qisməti olmayan Kamal kimi bir igid itirmək ağır dərddir. Bala dağına dözmək, tab gətirmək o qədər də asan iş deyil. Bircə təsəlli ondadır ki, oğlunuz ərazi bütövlüyümüz uğrunda gedən ölüm-dirim savaşında qəhrəmanlıq zirvəsini fəth edib. Qəhrəmanlar isə ölmürlər. Sizin belə oğulla ancaq öyünməyə, fəxr etməyə haqqınız var.

Allah rəhmət eləsin!



# BİR GECƏNİN FACİƏSİ

***Yusifov Elman Bəhram oğlu***
***doğulub - 17.06.1974-cü il,***
***Cəbrayıl rayonu Soltanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd bölgəsi, Daşbaşı kəndi***



Son vaxtlar ermənilər yaman quduzlaşmışdılar. Kəndlərimizi, rayon mərkəzini raketdən, iriçaplı silahlardan aramsız atəşə tuturdular. Ancaq niyyətlərini həyata keçirmək üçün strateji əhəmiyyət kəsb edən yüksəklikləri, ilk öncə isə Cəbrayılın giriş qapısı olan Daşbaşını tutmağa çalışır, ağlasığmaz fitnəkarlıqlara əl atırdılar. Düşmənin məkrli niyyəti əsgərlərimizi daha diqqətli olmağa, təhlükə gözlənən postları daim nəzarət altında saxlamağa sövq edirdi. Ancaq heç kimin ağlına gəlmirdi ki, namərd düşmən zərbəni arxadan vurmağa girəvə bilər...

Avqust ayının 14-ü idi. Gündüzdən ara-sıra atışmalar olsa da axşamüstü nisbi sakitlik yaranmışdı. Həmin gün Elmangil Daşbaşı postunda dayanmışdılar. Birdən erməni quldurlarının ən çox cəmləşdikləri Şayaq tərəfdən işıq gəldiyini görüb şübhələndilər. Dərhal komandirə xəbər verdilər. Əsgərlərimizə həmin nöqtəni atəşə tutmaq əmri verildi. Güclü atəşdən sonra işıqdan əsər-əlamət qalmadı. Bununla belə uşaqlara tapşırıldı ki, sayıq olsunlar, qarşı tərəfi gözdən qoymasınlar. Düşmən qan içən olduğu qədər də hiyləgərdir. Ehtiyatı qətiyyən əldən vermək olmaz.

Gecə yarıdan keçmişdi. Ətrafda dağların qaraltısından başqa heç nə görünmürdü. Adama elə gəlirdi ki, qara pərdəyə bürünmüş təbiətdə həyat dayanıb. Gecənin zülmət qaranlığının doğurduğu ətürpədici vahimə Elman Yusifovu və onun döyüşçü yoldaşlarını əsla qorxutmur, əksinə onları postlarında daha ayıq və ehtiyatlı edirdi. Qəfildən qulaqlarına gələn hənirti onları elə bil yuxudan oyatdı. Səs gələn tərəfi diqqətlə nəzərdən keçirəndə artıq gec idi. Erməni yırtıcıları böyük bir qüvvə ilə onları arxa tərəfdən mühasirəyə almışdılar. Qanlı döyüş başladı, əsgərlərimiz inadla döyüşürdülər. Vəziyyət barədə hava telefonu ilə alay komandanlığına xəbər verilsə də göməyə gələn olmadı. Döyüş 4-5 saat davam etdi. Səhərə yaxın göndərilən kömək gələndə iş-işdən keçmişdi. O avqust gecəsində ağlasığmaz

faciə baş verdi. Hələ həyatın acısını-şirinini əməlli-başlı dadmayan Elman Yusifovun və onun 17 nəfər döyüşçü yoldaşlarının gənc ömrünə nöqtə qoyuldu.

Müqəddəs torpaqlarımızın müdafiəsi uğrunda əbədiyyətə qovuşan igid oğullarımızın ruhları indi girov düşən qanlı məzarları üstündə narahat-narahat dolanaraq bizi yağı düşməndən intiqam almağa haraylayır.

## ELLƏR, SİZDƏ NƏYİM QALDI...



*Kazımov Vahab Yaşar oğlu*
*doğulub - 1974-cu il,*
*Cəbrayıl rayonu, Mahmudlu kəndi;*
*şəhid olub - 15,08.1993-cü il,*
*Xocavənd rayonu, Daşbaşı kəndi*

Bu işıqlı dünyada ömür möhləti on doqquz il imiş Vahabın. Ulu Tanrı bundan artıq yaşamasını məsləhət bilməyib onun. Bunun əvəzində yeri-göyü xəlq edən o ucalardan-uca Allah şəhidlik bəxş edib Vahaba. Deyirlər Tanrı sevdiyi bəndələri cavankən dünyadan aparır. Və bunun müqabilində nakam bəndələrinə əbədi olaraq xatırlanmaq haqqı verir...

Kazımov Vahab Mahmudlu stansiyasında doqulub yaşadığı illərdə çevikliyi ilə tanınıb. Bu istiqanlı oğlan oxuduğu məktəbdə müəllimlərinin də diqqətini özünə çəkmişdi. Şükürbəyli kənd orta məktəbinin idman şərəfini ləyaqətlə qoruyan Vahab ara-sıra keçirilən yarışlardan qalib kimi qayıtdıqca məktəb yoldaşlarının həsəd dolu baxışlarını hiss etsə də, hər yerdə özünü sadə aparırdı. Elə buna görə də çoxlarının sevimlisi idi o. Orta məktəbin yuxarı siniflərində Vahab gələcək sənətini də sevib-seçmişdi - ali pedaqoji məktəbin idman fakültəsində oxumaq istəyi ilə yaşayırdı bu yeniyetmə oğlan. Tanrı aman versəydi, xoş bir gələcək gözləyirdi onu...

Gündən-günə yurdumuzda miqyasını genişləndirən qanlı-qadalı müharibə Vahabı da yolundan saxladı. O, yurd sevgisini oxumaqdan üstün tutub 1992-ci il iyunun 26-da cəbhədə döyüşən igidlərimizin cərgəsinə qoşuldu...



Milli Ordumuzun Cəbrayıl hərbi hissəsində Vahabın böyük qardaşı İlqar da döyüşürdü onda. Keçirilən hərbi əməliyyatlarda hər iki qardaş bəzən birlikdə iştirak edir, yan-yana dayanıb düşmənin üstünə od yağdırırdılar. Bir dəfə, deyəsən «Göy Gədik» əməliyyatından bir az əvvəl, İlqar Vahaba demişdi ki, qardaş, hər ikimizin bu əməliyyatda iştirak etməyimiz düzgün deyil. Atalar demişkən, şər deməsən xeyir gəlməz. Vahab əlüstü ona etiraz edib:

– Mən səni tək buraxa bilmərəm. Anama söz vermişəm, necə ki, canımda can var səninlə döyüşə birlikdə gedəcəyəm...

Xoşbəxtlikdən o döyüşdə hər iki qardaş axıra kimi cəsarətlə vuruşub sağ-salamat geri dönmüşdülər...

Anası Şəfiqə xanım deyir ki, Vahab martın əvvəllərində icazə alıb bir-iki günlüyə evimizə gəlmişdi. Qonşuluqdakı Sabir adlı bir oğlandan Vahab üçün aldığım bir dəst xarici kostyumu onun əyninə geyindirib;

– Mübarəkdir, Vahab, – dedim. – Gün o gün olsun ki, bu kostyumu ali məktəbə geyəsən.

Vahab heç özü də bilmədən ürəyimi qırdı onda:

– Eh, ay ana, görək hələ bu dava nə vaxt başa çatır. Ona qədər ya qismət, kimi yaşaya, kim qala...

– Qurban olum, ay Vahab, belə deyib ürəyimi üzmə. Allah qoysa institutda oxuyacaqsan da, toyunu da eləyəcəyik...

Vahab elə bil «səhvini» anlayıb mənə ürək-dirək verdi:

– Qorxma ana, mən sözgəlişi dedim bunları, hələ ölümə qədər görüləsi işlər çoxdur. Bir də ki, kimin alnına nə yazılıbsa, o da olacaq...

– Elə bil ölümü özünə ayan olmuşdu o gün. Birdən nə desə yaxşıdır mənə?

– Ana, gəl bəri başdan şərt kəsək, ölüb-eləsəm, ağlayıb özünü üzmə. Yadında saxla ki, taleyin verdiyindən qaçmaq olmaz...

Və səhərisi gün anası ilə, atası Yaşarla, kiçik qardaşı Anarla sağollaşıb yenidən cəbhəyə qayıtdı Vahab...

Allahverdiyeva Rəfiqə müəllimənin dediklərindən: iyul ayının (1992) əvvəllərində Sumqayıt şəhərindəki iş yerimdən evə dönəndə eşitdim ki, bacım oğlu Vahabı ağır vəziyyətdə Bakıya gətiriblər. Tez özümü çatdırdım ona...

Həkimlərin qayğısı sayəsində üç aydan sonra yaraları sağalmağa başladı Vahabın. Ayağa duran kimi təzədən cəbhəyə can atdı. İstəyirdi ki, Qışlaq postunda dayanarkən onu yaralayan düşmənlərdən xəstəxanada yatarkən üç ay ərzində çəkdiyi əziyyətlərin əvəzini çıxsın...

Şəfiqə bacı deyir ki, avqust ayının 13-də (1993) evimizə gəlmişdi Vahab. İşdən qayıdanda onu divanın üstə uzanan görüb ehtiyatla yan otağa keçdim.

Hənirimi eşidib ayağa qalxaraq boynuma sarıldı. Sabahısı gün gedəndə dedi ki, arxayın olun iki-üç gündən sonra yenidən sizə baş çəkəcəyəm...

O son görüşdən bircə gün sonra Daşbaşı postundan cənazəsini gətirdilər Vahabın. On doqquz yaşlı bu cavanın yarıaçıq gözlərindən elə bil, «illər, sizdə nəyim qaldı?» sualı asılıb qalmışdı. Bu cavabsız sual el-obanın çiyinlərində gor evinə yollanan Vahabın arxasınca boylanıb hönkürə-hönkürə misralara çevrilməkdəydi o gün:

*Bu dünyanın yolu uzun,*
*Duyğularım qışım, yazım.*
*Ömür mənim qarım, buzum –*
*İllər, sizdə nəyim qaldı?*

## ÖMRÜN ŞƏHİDLİK YOLU



***Kalbalıyev Vahid Famil oğlu***
***doğulub - 13.06.1969-cu il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***

Şəhidlərin ömür yolu paralel tale xətlərinə bənzəyir. Alın yazıları kimi qeyrətdə də bir-birilərinə oxşarı var onların. Hardasa ömür yolları bir nöqtədə uc-uca düyünlənib Tanrı qapısına üz tutur. Bəlkə elə buna görə də şəhidlərimizdən söz açan yazılarımızda hardasa oxşarlıq, üst-üstə düşən məqamlar açıq-aydın hiss olunur. Bu bizdən asılı deyil, bu işdə istedadı, qələmi günahlandırmaq əbəsdir. Bəzən taleyi, alın yazısı al günəşin zərrəsi kimi oxşar olan igid oğullarımızın döyüş yolları da paralel xətlərə bənzəyir. Cəbrayıl elimizin perik düşüb yurda səpələndiyi bir vaxtda şəhid ailələri ilə görüşüb onların qeyrətli balalarının ömür cizgilərini aramaq istəyimiz təkcə bizdən asılı deyil...

Vahidin ömür yolu altmış doqquzuncu ilin on üç iyunundan başlayıb. Valideynləri Famil kişini (atası bir neçə il qabaq dünyasını dəyişib), Gülü



bacını Horovluda zəhmət adamları kimi tanıyıblar. 1987-1989-cu illərdə Primorsk diyarında əsgəri xidmətdə olub Vahid. İllər boyu əsgər - Azərbaycan balalarını Amurda, Qazağıstan çöllərində, Uzaq Şərqdə... fəhlə kimi işlədib müasir silahlara yaxın buraxmayan imperiyanın məkrli sifəti doxsanıncı illərdən sonra bəlli oldu bizə. Üstümüzə yağılar ayaq açanda əsgəri xidmətlərini fəhlə batalyonlarında başa vuran ürəyi təpərli oğullarımız adicə avtomat silahın belə «dilini» döyüş meydanlarında öyrənməli oldular. Vahid də aldadılan, imperiya hərbi qanunlarının hökmü ilə ömrünün iki ilini havayıdan itirən cavanlarımızdan idi...

Horovluya qayıdandan sonra Cəbrayıl şəhərindəki çörək zavodunda fəhlə işləyirdi Famil. El-obamızın dincliyi pozulub, tifaqı dağılanda çörək ətirli əlləri ilə silahdan yapışmalı oldu. Kəndlərində deyiklisi olsa da, müharibə qurtarandan sonra evlənmək arzusunda idi. Onu hamıdan artıq istəyən bacısı Tamellanın:

– Ay qağa, icazə ver xeyir işini eləyək, vallah toyunda qol götürüb oynamaqdan ötrü neçə ildir yolunu gözləyirəm – sözlərini eşidəndə qarayanız sifətindən boylanan təbəssümlə:

– Darıxmayın, hələ evlənmək vədəsi deyil. Kəndimizdə o qədər namərd gülləsinə tuş gələn cavanlarımız var ki, onların qanını almayınca evlənmək fikrinə düşən deyiləm, – deyirdi.

Belə vaxtlarda anası Gülsümün bulud kimi dolan gözlərindən öpüb:

– Qurban olum ay ana, – deyirdi. – Allah qoysa evlənəcəyəm də, nəvələrin də olacaq. Bir azca səbir edin, müharibə bu gün, sabah başa çatasıdır...

Vahid bu sözləri deyəndə hardan biləydi ki, bu müharibə bəzi üzdəniraq soydaşlarımızın qazanc yeri, gəlir mənbəyidir. Beləsi heç vaxt müharibənin qurtarmasını istəməzlər. Əslində müharibəyə-zada oxşamırdı bu savaş. Surda hərbi əməliyyat keçiriləndə Füzuli bölgəsindəki hərbi hissədən səs gəlmirdi. Qubadlıda ərənlərimiz düşmən üstünə yeriyəndə Zəngilanın başbilənləri düşmənlə «sülh» danışıqları aparırdı. Şınıx od tutub yananda Qazax, Tovuz topa tutulanda Tərtər, Ağdam susurdu. Bu gizli oyunların mənasını, mahiyyətini bir tərəfə yozub çıxara bilmirdi Vahid. Əslində bu onun əsgəri borcuna aid deyildi. Bircə onu bilirdi ki, qarşı tərəfdə arxalı köpək timsallı düşmən timsah kimi ağzını açıb Horovlunu, Qışlağı, Dağ Tuması, Mərcanlını, Daşkəsəni... udmağa hazırlaşır. Onun qarşısında tab gətirmək üçün gərək ağıllı sərkərdən, güclü arxan ola. O vaxtlar hər yerindən duran özünü millət qəhrəmanı kimi qələmə verib, populist şüarlarla meydana atılırdı. Dünyanın düz vaxtlarında başlarını girləyə bilməyənlər

yenicə ayaq tutan Milli Ordumuzun mühüm vəzifələrini qamarlayıb Allaha bəndəlik etmirdilər. Cəbrayıl hərbi alayında da belə idi o vaxtlar. İt yiyəsini, yiyəsi itini tanımırdı burda. Harınlaşdıqca ayağı gözlərinin altını görməyən bəzi zabitlər orduya yenicə gəlib möhkəmlənməmiş uşaqları qızıl gülləyə qurban verirdilər...

Vahid Cəbrayılın süqutuna qədər qeyrətlə vuruşurdu cəbhədə. Xudafərin sədalı torpaqlarımız harsın oğullarına «bəxşiş» veriləndən sonra Arazı o üzə adlayıb İmişliyə gəldi...

Cəbrayılın igid oğullarını hərbi təlim keçmək üçün Gəncə ətrafına aparmışdılar onda. Cavan əsgərlərimiz yenidən düşmənlə üz-üzə gəlmək üçün güc, qüvvə toplayırdılar. Doxsan üçüncü ilin qışı təzəcə başlayırdı Gəncədə. Hərbi təlimin qızğın çağında mərmi partlayışı neçə-neçə qeyrətli əsgərlərimizlə yanaşı Kalbalıyev Vahid Famil oğlunun da Vətən üçün döyünən ürəyini əbədi olaraq susdurdu. Bu, Haqdan gələn ölüm deyildi. Bəlkə də erməni xəyanətinə söykənənlərin qanlı bir addımı idi. Vahid dağılmış yurd yerlərimizin qisasını almadan dünyadan köçdü. Vaxt gələcək ki, lay divar kürəkli oğullarımız onun incik ruhunu sevindirəcəklər...

## İGİDLƏR ELDƏN GEDƏR



***Kəlbəliyev Cavid Möhübbət oğlu***
***doğulub - 03.10.1975-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 25.04.1994-cü il,***
***Ağdam rayonu, Gülləcə kəndi***

Cəbrayıldan Füzuliyə tərəf uzanan dağ yolundan bir az aşağıda yaşıl dərələrin ağuşuna sığınan Horovlu kəndində doğulmuşdu Cavid. İstiqanlı, mərd adamları ilə, büllur kəhrizi ilə, qədim bağ-bağatıyla və bir də min bir nemət yetirən torpağı ilə tanınırdı bu kənd. 1988-ci ilin fevralından sonra Cəbrayıldan o üzdəki dağların yüksəkliyini ələ keçirən erməni işğalçıları Horovlunu hədəf seçmişdilər özlərinə. Kəndin üç-dörd kilometrliyində qanlı-qadalı müharibə getsə də, doxsan üçüncü ilin avqustuna kimi horovluların əlləri işdən soyumamışdı. Kəndin qeyrətli oğulları düşmənin qarşısında qala kimi dayanıb doğma torpaqlarını qoruyurdular onda. Camaat arasında ölüb-itənlərin sayı günbəgün artsa da, igid oğullarımız qeyrətlərinə sığınıb düşməni aşağı enməyə qoymurdular...



Cavid doxsan ikinci ildə kəndlərindəki orta məktəbi bitirəndən sonra sənədlərini Bakı dənizçilik məktəbinə vermişdi. İstəyirdi ki, gələcəkdə dənizçi olub nəhəng bir gəmidə uzaq-uzaq ölkələri gəzib-dolaşsın. İmtahanların sonunda müsabiqədən keçə bilməsə də ruhdan düşmədi Cavid. Doğma kəndlərinə qayıdıb sovxoz fəhlələri ilə çiyin-çiyinə işləməyə başladı...

Doxsan üçüncü ilin yazı yağıntılı keçdiyindən Horovlunun taxıl zəmilərindən məhsulu yığıb-yığışdırmaq olmurdu o yay. Cavid qabarlı əllərinə baxdıqca gizli fərəh hissi keçirir, xırmanda qalaqlanan ruzunun bolluğundan ürəyi atlanırdı. Uca dağların haça belində gizlənib Horovlunu hədəfə alan düşmənin atdığı qradlar arabir camaatın dincliyini pozsa da, heç kəsin ağlına da gəlmirdi ki, bir azdan sonra təpənin üstündəki dolu xırman da, illərdən bəri kənd adamlarının qabarlı əlləri ilə aşağı sıralanan yarlı-yaraşıqlı evləri də düşmən kəməndinə keçəcəkdir...

Onda hələ cəbrayıllı igidlərin dözümü ovxardan düşməmişdi. Onda hələ yurda sipər oğullar Qışlaqda, Süleymanlıda, Daşbaşıda, Dolanlarda, Sirikdə, Qazanzəmi ətrafında düşmənin üzü Araza gələn yollarında sədd kimi dayanmışdılar...

Cəbrayıl əlimizə bəla qəfildən gəldi o yay. Avqustun on beşində Daşbaşı postunda dayanan on səkkiz igid əsgərin amansızlıqla qətlə yetirilməsi xəbəri bu torpağın əzmini sındırdı elə bil. Şəxsi qazanc məqsədi ilə orduya doluşan bir sıra səriştəsiz zabitlərin qorxaqlığı (bəlkə də gizli xəyanəti) ucbatından düşmən bircə həftənin içində alınmaz qala hesab edilən Süleymanlı, Qışlaq, Sirik, Cəbrayıl, Dağ Xələfli, Qazanzəmi, Hovuslu, İsaxlı, Dağtumas yaşayış məntəqələrini işğal edib Arazboyu torpaqları hədələməyə başladı...

O müdhiş günlərdə Horovlu kəndi də erməni təcavüzünün qurbanı oldu. Dövlət səviyyəsində etibarlı kömək görmədiyindən vahiməyə düşüb doğma torpaqlarını tərk edib qaçanların Gəyən çöllərindən üzü Daşburunadək köçü başladı...

O boranlı günlərdə Cavidgilin ailəsi də yurdundan perik düşənlərin köçünə qoşulub minbir əziyyətlə Biləsuvara gəlib çıxdılar. Rahat ev-eşiklərindən əlləri üzülənlər Muğan düzündə talelərinə düşən ağrı-acıları dəf etmək üçün Tanrıya üz tutub ondan imdad dilədilər...

1993-cü ilin dekabr ayında Cavidə çağırış vərəqəsi gələndə o, ləngimədən hərbi komissarlığa üz tutdu. Biləcəri çağırış məntəqəsində onu

cavan əsgərlərlə birlikdə Nasoslu qəsəbəsindəki hərbi təlim məntəqəsinə gətirdilər. Bir neçə gündən sonra N. Tusi adına ADPU-da işləyən əmisi Əhməd Kəlbəliyev də onun görüşünə gəldi. Ağsaçlı alim qardaşı oğlundan ayrılanda əlini onun kürəyinə vurub:

– Cavid, oğlum, – dedi, – yadında saxla ki, özümüzə ana bildiyimiz Vətən torpağı bu gün sənin kimi qeyrətli oğullardan imdad diləyir. Arzum budur ki, qələbə sevinci ilə geri dönəsən. Allah qoysa o vaxt ayaqların altında qurban kəsəcəyəm...

Əmisinin sözlərindən kövrəlsə də Cavid onunla vidalaşıb mətin addımlarla əsgər yoldaşlarına tərəf üz tutdu...

Və bundan sonra Cavidin cəbhə həyatı başladı...

Bakıdan ayrılanda Cavid çoxdan bəri üzlərini görmədiyi atası Möhübbət kişini, anası Gülbəs xalanı, qardaşı Fazili, bacıları Təranəni, Firuzə və Təricəni düşünə-düşünə öz-özünə təsəlli verdi ki, eybi yoxdur, Allah qoysa komandirlərimdən icazə alıb bir gün gedib onlarla da görüşərəm...

Nisgilində yaşamaqdan bezmişəm,
Həsrətinə tablaşmışam, dözmüşəm.
Demə səndən əllərimi üzmüşəm,
Qoynuna yenidən gələydim barı...

Ancaq Güllücədəki qanlı döyüşlərdən sonra Cəbrayıl torpaqlarına qədəm basmaq istəyi də Cavidin ürəyində getdi. Onu Mil düzünün məşhur əmək qəhrəmanı Sərdar İmrəliyevin uyuduğu kənd qəbiristanında torpağa tapşırdılar. Atalar «igidlər eldən gedər», – deyiblər. Cavid kimi eldən gedən qeyrətli oğulların Tanrı əvəzini versin...



## DAĞLARA SIĞINAN ÖMÜR



***Kəlbəliyev Nəsir Sirac oğlu***
***doğulub - 09.07.1967-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***Şəhid olub - 18.04.1994-cu il,***
***Fuzuli bölgəsi***

Ulu dağların, durna gözlü bulaqların həsrətinə dözməyən Sirac hər il yayın əvvəllərində Gəyəndən adlayıb Həkəri çayı boyunca üzüyuxarı Laçına tərəf diklənər, Hoçazdan keçib Fərməştəpədə dincini alardı. Erməni vəhşiləri Laçını kəməndə salandan sonra qəfəsə salınmış şirə bənzəyirdi Nəsir. Rayonun şimalında yüksələn dağlara üz tutsa da, buradan atılan qradların vahiməli səsləri dağı-daşı lərzəyə salır, sürünü hürküdüb əlindən çıxarırdı...

Qarabağ savaşı başlayandan sonra bəlkə də hamıdan artıq Nəsirin növrağı pozulmuşdu. Aranın istisinə dözməyə tabı-taqəti qalmamışdı heç. Bir yandan da dilsiz-ağızsız qoyun-quzunun örüşünün kasadlığı Nəsiri yandırıb tökürdü. Şayaq yuksəkliyi ermənilər tərəfindən ələ keçiriləndən sonra dərdinin üstə təzə dərd gəlmişdi onun. Erməni vəhşiliyi ilə dönə-dönə üzləşən camaatın dözümü-tavanı qalmamışdı daha. Çoxlarının bir ayağı qaçaqaçda idi...

İllər boyu köç yolu ilə dağa-arana gedib şad-xürrəm evinə qayıdan Nəsir o müdhiş oktyabr günlərində ilk dəfə idi ki, erməni vəhşiliyi ilə üzbəüz dayanmışdı. Nəsir dilini dişi ilə tutub ürəyindən: «Öldü var, qoyun-quzunu bu köpək uşağına verdi yoxdur!», – dedi. – «Qoy, düşmən əlinə keçincə elin bərəkəti sulara qərq olsun!». O, dediyi kimi də etdi. Arazdan o üzə keçəndə özü ilə təkcə çomağını çıxara bilmişdi. Hirsindən onu da qolu gəldikcə qolaylayıb Cəbrayıl rayonunun Saatlı şəhərində yerləşən hərbi komissarlığına gəldi...

«Anam on uşaq doğub, biri olmasa da keçinər, ancaq Vətənsiz yaşamaq olmaz...» Bu, Nəsirin öz sözləridir, cəbhəyə yollananda deyib. İllər boyu halal bir sənətin qulpundan yapışan Nəsir çomağını yerə sancıb, avtomat silahdan yapışmalı oldu. Doxsan dördüncü ilin aprel ayının on səkkizinə kimi qeyrətlə vuruşub, heç kimdən əskik olmadığını sübuta yetirdi...

Beyləqanın 3 saylı sovxozundakı qəbiristanda ölüm yuxusuna gedən Nəsirin ailə ocağında Sevil adlı qız balası böyüyür. Tanrı onu yaman gözdən qorusun!..

# NAMƏRD, ƏLİN QURUSUN!



*Kərimov Elçin Ataş oğlu*
*doğulub - 15.03.1975-ci il,*
*Bakı şəhəri;*
*şəhid olub - 31.12.1993-cu il,*
*Ağdam rayonu, Salahlı kəndi*

Yayın qızmar günlərinin birində Ruqiyyə nənə «Səda» qəzeti redaksiyasına gəlib bizimlə görüşdü. Özü ilə gətirdiyi şəkli əzizləyə-əzizləyə:

– Namərd, əlin qurusun, belə oğula da qıyarlarmı!? – dedi. – Anası ölmüş nə görmüşdü dünyada? On səkkiz yaşı hələ tamam olmamışdı Elçin balamın. Körpə uşağa bənzəyirdi...

Ruqiyyə nənə şəklə maraqla baxdığımızı görüb təzədən odlandı elə bil:

– Elçini tanıyırdınızmı?

Susduğumuzu görüb sualına özü cavab verməli oldu:

– Eh, hardan tanıya bilərdiniz onu. Təzə-təzə boyu çıxırdı. Uşaq olmasına baxmayın, çinar kimi qollu-qanadlı idi. Anası ölmüş Dilşad balamın gözünün ilk ovu idi Elçin. Atası Ataş gözləri üstə saxlayırdı onu. Bir yanımlı, istəkli oğul idi ki, günün günorta çağı əli çıraqlı gəzsəydin, tayınıbərabərini tapmazdın onun. Əlin qurusun, namərd, niyə qıydın Elçinimə!?..

Ruqiyyə nənə o gün elə kövrəlmişdi ki, onu ovundurmağa hünərimiz çatmırdı. Ürəyimizdən keçən nisgilli duyğular kövrək misralara çevrildikcə Elçin barmaq boyda şəklindən boylanmaqdaydı dünyamıza:

*Düşmənin qarşısında,*
*Nə sındın, nə əyildin.*
*On səkkiz yaş nədir ki,*
*Sən ölməli deyildin.*

Novruz bayramına beş gün qalmış Bakı şəhərində doğulmuşdu Elçin. Valideynləri doğma Daşkəsən kəndinə üz tutanda o, təzə-təzə ayaq açıb yeriyirdi. Ağlı kəsəndən ana təbiətin vurğunu idi. Kəndlərindən yuxarıdakı dağlara, Araza tərəf sıralanan kündə-kündə təpələrə baxmaqdan doymurdu. Baharın ilk çağlarından yayın ortalarınadək çiçəyi əskik olmayan yaşıl yamacları gəzib dolandıqca cənnət hesab edirdi Daşkəsən torpağını. Orta məktəbin son sinfində oxuyarkən ürəyində qət etmişdi ki, hərbçi olacaq. Bəlkə elə buna görə də əli attestata çatan kimi sənədlərini Bakıdakı hərbi məktəbə verdi. Müsabiqədən keçə bilməsə də özünü sındırmadı. Buradakı tikinti idarələrinin birində çilingər işləməyə başladı. Niyyəti növbəti dəfə hərbi məktəbə üz tutub təzədən bəxtini sınamaq idi.



Hərbi komissarlıqdan çağırış vərəqəsi gəldiyini eşidən kimi yubanmadan doğma Cəbrayıla qayıtdı Elçin. İki gündən sonra onun səsi, sədası Murovdan eşidildi. Talemi, yoxsa torpaq istəyimi onun yolunu yenidən Cəbrayıl torpaqlarından saldı. Elçin burada cəbrayıllı igidlərə qoşulub düşmənlə üzüzə dayandı. 1993-cü ilin avqust ayında Quşçular, Qaracallı, Süleymanlı kəndləri uğrunda gedən döyüşlərdə fəal iştirak edib oddan, alovdan keçdi. Bədəninin sol tərəfindən qəlpə yarası alsa da döyüşün axırına kimi mövqeyini tərk etmədi...

1993-cü ilin payızında Kərimov Elçin Ataş oğlu artıq Ağdam bölgəsində idi. Ata ocağı Daşkəsənə əlləri yetişməsə də Vətən torpağının bir parçası bildiyi Salahlını qorumaq üçün son gücünü toplamaqda, iradəsini köməyə çağırmaqda idi. Hələ çox cavan olsa da, döyüşlərdə xeyli təcrübə qazanmış, düşmən həmlələrindən qorunmağın yolunu öyrənmişdi. Bəlkə ona görə də ölümü eyninə gətirmir, döyüşə ürəklə atılırdı.

Deyirlər düşmən adətən ən igid əsgərləri birinci novbədə susdurmağa çalışır. O, qarlı-boranlı dekabrda yağı gülləsi Elçini tez haqladı. Onun al-qanı Ağdam torpağına çilənəndə ruhu Tanrı dərgahına üz tutdu. Ulu varlıq Elçinin gəlişini gözləyirdi elə bil, qollarını geniş açıb onu məhəbbətlə bağrına basdı. Elçin Tanrı dərgahının əbədi sakinlərindən biri oldu həmin gün...

Elçinin Bakıxanov qəsəbəsindəki qəbiristanda əzizlənən gor evi torpağımızın qürub üzünə boylanmaqdadır hələ də. Orada viran qalan yurd yerlərimiz haray çəkir, igid oğullarımızı qisasa çağırır. Ulularımız «qisas qiyamətə qalmaz», – deyiblər...

Hər dəfə Elçin yadımıza düşəndə Ruqiyyə nənənin bir az kövrək, bir az üzüntülu səsi gəlir qulaqlarımıza;

– Namərd, əlin qurusun, Elçinimə niyə qıydın!?.. Bu səs yaxamızdan yapışıb bizə:

- Ölümə ölüm, qana qan, – deyir. - Ulu yurd yerlərimizi azad edib şəhid oğullarımızın qisasını almayınca yaxamızdan əl çəkən deyil bu səs...

# SƏN ŞƏMKİRDƏ DOĞULMUŞDUN...



***Gülməmmədov Rəfayıl Məhəmməd oğlu***
***doğulub - 10.11.1966-cı il,***
***Şəmkir rayonu, Tatar kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xoçavənd rayonu, Daşbaşı kəndi***

Dünyaya Şəmkir rayonundakı Tatar kəndində göz açmışdı Rəfayıl. Yaşıdları kimi hər şeyə maraq göstərir, şirin arzularla yaşayırdı. Uşaqlıqdan könlünü zəhmətə vermiş, həyatın şirinliyini onda gəzib aramışdı. Orta təhsilini tamamlayandan sonra texniki-peşə məktəbində oxuyub kran sürücüsü peşəsinə yiyələnmişdi. Arzusu ev tikmək, yol çəkmək, körpü salmaq idi onun. Üzüyola geniş qəlbli cavan bir oğlan idi Rəfayıl. Ona ağız açanların heç birindən köməyini əsirgəməz, tay-tuşlarına can deyib, can eşidərdi...

1984-cü ildə Qorki vilayətindəki hərbi hissədə əsgəri xidmət borcunu başa vurub Vətənə qayıdandan sonra ona elə gəlirdi ki, daha həyatda elə bir müşkül işi qalmayıb. İndi o, ev-eşik barədə fikirləşir, doğmalarına kömək etməyi, valideynlərinin qolundan yapışmağı özünün müqəddəs borcu hesab edirdi...

Bakıdakı maşınqayırma zavodunda kranҫı işləyəndə elə bilirdi ki, dünyada ondan xoşbəxt adam yoxdur. Rəfayılın burda xətrini istəyir, əməyini yüksək qiymətləndirirdilər. O, şəhərdə yaşasa da doğma kəndləri ilə nəfəs alır, fürsət düşən kimi el-obaya baş çəkib, camaatla hal-əhval tuturdu. Beləcə bir ömür yaşayır, ürəyində həyatından razılıq edirdi. Demə, qarşıda keçilməz sədlər, taleyin şıltaqlıqları da var imiş. Eh, bunları o, hardan biləydi ki, onda...

Vətənimizdə gedən müharibə bütün qeyrətli adamlar kimi Rə¬fayılın da yuxusunu ərşə çəkmiş, yatağına qor ələmişdi. Hiss edirdi ki, ürəyi onu döyüş meydanlarına çəkir. Bığ yerləri təzə-təzə tərləyən cavanlarımız qızıl gülləyə tuş gəldikcə ürəyi qisas hissi ilə alışıb-yanırdı. Axı, o hər şeydən qabaq əla zenitçi idi. Düşünürdü ki, daha zavodda qalması əbəsdir, indi onun kimilərinin yeri cəbhədir. Axır ki, ürəyinin hökmünə boyun əyib cəbhəyə üz tutdu Rəfayıl.



1993-cü ilin may ayında Cəbrayıldakı hərbi hissədə xidmət edən leytenant qardaşı Nurəddin Gülməmmədovun xeyir-duası ilə igid oğullarımızın sırasına qoşuldu. Onun məharəti sayəsində hərbi əməliyyatlar zamanı düşmənə layiqli cavablar verilir, Rəfayıl əsgər yoldaşları arasında cəsur bir atıcı kimi şöhrətlənirdi...

Quşçular, Günəşli, Banazur, Daşbaşı və Mülkədərə yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə onun nəyə qadir olduğu üzə çıxdı. Burada əsl igidlik, qəhrəmanlıq göstərən bu igid əsgər şəhid oğullarımızın dönə-dönə qisasını alıb düşmənin anasını ağlar qoydu...

Rəfayılgilin qoruduğu postu düşmən çoxdan idi ki, ələ keçirmək istəyirdi. Ancaq igid zenitçilərimiz quldurlara aman vermir, güclü zərbələr endirməklə onları əvvəlki mövqelərinə çəkilməyə məcbur edirdilər. Bu igid oğlanın döyüş yolu 1993-cü il avqustun 15-də sona çatdı. Əsgərlərimizdən sayca qat-qat artıq olan düşmənlər Daşbaşı postunda yurda keşik çəkən igidlərimizi gecənin bir aləmində mühasirəyə aldılar. Qeyri-bərabər vuruşda əsgərlərimiz sonuncu nəfəslərinə qədər mərdliklə vuruşub bir addım da geri çəkilmədilər. On səkkiz nəfər şəhidin arasında şəmkirli balası Rəfayıl da var idi o gecə...

Cəbrayıl camaatı Rəfayılın tabutunu al-qumaşa tutub ehtiramla yola saldılar o səhər. Məmməd kişinin, Zərəngiz ananın qeyrətli balası Rəfayıl Gülməmmədov Şəmkir torpağına şəhid kimi qayıtdı. Daşbaşı faciəsi yada düşəndə Rəfayılın adı da ehtiramla anılır, cəbrayıllı şəhid anaları onu da ağılara qatıb əzizləyirlər:

*Vətən üçün oddan keçdin,*
*Bir qeyrətli igid oldun.*
*Sən Şəmkirdə doğulmuşdun,*
*Cəbrayılda şəhid oldun...*

# MƏNİ UNUTMAYIN...



*Mehdiyev Zaur Murad oğlu*
*doğulub - 19.05.1975-ci il,*
*Bakı şəhəri;*
*şəhid olub - 25,04.1994-cü il,*
*Tərtər bölgəsi*

Doxsan beşinci ilin yanvar ayının ilk günlərində Bakıda olarkən taleyin didərginlik ağrıacıları ilə üzləşən həmyerlilərimizdən eşitdik ki, Etibar müəllim neçə vaxtdır ki, bizimlə görüşmək arzusundadır. Ertəsi gün soraqlayıb tapdıq. Cəbrayıl ərazisi düşmən əlinə keçəndən sonra Binəqədi rayonu ərazisində yaşayan qohumlarına pənah gətirib Etibar. Dağlar qoynundakı Qaracallı kəndindən sonra sığındığı qohum evi onu sıxsa da taleyin qəfil sınağına sinə gərib gec-tez doğma yurd yerlərinə qayıdacağı ümidi ilə yaşayır Etibar. İl yarım ayrılıqdan doğan həsrətlə görüşəndən sonra ona:

– Eşitdik yaxın qohumlarından şəhid olan var. Allah rəhmət eləsin, torpağı sanı yaşayasınız...

Etibar dərindən köksünü ötürüb:

– Elə buna görə sizi axtarıram. Aydın kişi mənə bərk-bərk tapşırıb ki, harda tapsam sizi onun yanına aparım, – dedi...

Yarım saatdan sonra Koroğlu küçəsində «Qaraçallı məhləsi» adı ilə tanınan evlərdən birinin qapısını döyüb içəri keçdik...

Aydın dayı Cəbrayıl rayonunun Qaracallı kəndində dünyaya göz açıb. Bu oymağın dağına, yamacına, hər qarış torpağına belə bələddir. 1941-ci ilin hərb tufanı onu da doğma el-obasından perik salıb. İştirakçısı olduğu Böyük Vətən müharibəsindən sonra başı müsibətlər çəkib. Stalin repressiyasının cəhənnəm əzablarını gözü ilə görüb «o dünyadan» sınıb-sıxçalanmış vəziyyətdə qayıdan bu zəhmətkeş kişi axır ki, Bakıda qərar tutub. Ağır illərdə ona arxa-dayaq olan alman qızı Ella xanımla əl-ələ verib özlərinə ev-eşik düzəldiblər. Cəbrayılın işğalından sonra Qaracallıdan olan yaxın qohumlarına əl uzadıb onları isti ocaqlarının başında əyləşdirib...

Demə illər boyu kipriyi ilə od daşıyan Aydın dayının görəcəkli günləri arxadaymış. Ömrünün ahıl çağlarında yurd ağrısı çəkmək bir yana, şəhid oğul itkisi ilə göz yaşları axıtmalıymış o da...



Zaur babası Aydın kişinin himayəsində böyüyüb. Dünyanın min bir üzünü görən Aydın dayı onu özünə nəvə yox, oğul payı hesab edib. Zaur 1992-ci ildə Binəqədi rayonundakı 276 saylı orta məktəbi bitirəndə Aydın babanın, Ella nənənin uçmağa qanadı olmayıb. Doğma ata ocağı ilə qırılmaz tellərlə bağlı olan Aydın kişi dünyanın düz vaxtlarında Zaurun əllərindən tutub dönə-dönə Qaracallıya aparıb. İndi özünün kövrələ-kövrələ dediyi kimi, ürəyində tutubmuş ki, Zaur böyüyüb ərsəyə yetəndən sonra onunla birlikdə doğma kəndinə qayıdıb ömrünün qalan illərini burada yaşasın...

Ella nənə deyir ki, fərasətli uşaq idi Zaur. Orta məktəbdə oxuduğu illərdə idmanın karate növü ilə məşğul olmuşdu. İngilis dili ilə dərindən maraqlandığından hələ aşağı siniflərdə oxuyarkən bu dildə sərbəst danışıb yazırdı. Orta məktəb müəlliməsi Zərifə xanım onu öz oğlu kimi sevir, gələcəyinə böyük ümid bəsləyirdi. Özündən kiçik qardaşı Emin, xalası qızı Könül adı ilə öyünürdülər Zaurun...

Torpaqlarımızda müharibə getdiyi bir zamanda yurdunu ürəkdən sevən Mehdiyev Zaur Murad oğlu da əlinə silah alıb düşmən qabağına çıxdı. Yaşıdları arasında həlim xasiyyətli bir oğlan kimi tanınan Zaur soyuq səngərlərə sığınıb Vətən torpağını qeyrətlə qoruyurdu. Ən çətin dəqiqələrdə belə qarabuğdayı sifətindən təbəssüm əskik olmurdu. Məkrli düşmən cildinə girib onu qarabaqara izləyən ölümü yaxına buraxmırdı Zaur. Ella nənə, yaxın qohumları deyirlər ki, hər dəfə görüşəndə ona deyirdik ki, Zaur, amandır, özünü qoru, girəvəni əldən vermə. Uca qamətini şax tutub təbəssümlə deyirdi ki, qorxmayın, mən gülləbatmazam. Düşmənə asanlıqla can verən deyiləm...

Sözünün üstə möhkəm duran idi Zaur. Böyük arzuları var idi balamızın. İngilis dilini elə-belə öyrənməmişdi. Müharibə qurtarandan sonra təhsilini davam etdirməli idi. Fələk arzumuzu gözümüzdə qoydu...

Ölümündən düz bir ay qabaq ailə üzvləri - qardaşı Emil və üç yaşlı xalası qızı Könül Murov dağına onun görüşünə getmişdilər. Komandirləri o vaxt Zaura beş günlüyə icazə vermişdi ki, qohum-əqrabasıyla görüşüb geriyə qayıtsın. Novruz bayramını Bakıdakı doğma ata evində qarşılayan Zaur martın 27-də bayram sovqatı ilə əsgər dostlarının yanına qayıtdı. Onda hələ aşağılarda yazın ılıq nəfəsi duyulsa da, Murovda soyuq adamı qılınc kimi kəsirdi...

Erməni quldurlarının Tərtər bölgəsindəki yeni hücumlarının qarşısını kəsən qeyrətli oğullarımızdan biri də Zaur idi. Qırmızıkənd ətrafında gedən qanlı döyüşlərdə sinəsini Vətən torpağına sipər edən bu igid əsgər aprel ayının 27-də düşmən gülləsinə tuş gəldi. Son nəfəsində onu qolları üstə arxaya gətirən əsgər yoldaşlarına:

– Düşməndən qisasımı alın, məni unutmayın!, – deyib gözlərini yumdu...

Zaurun ölüm xəbərini eşidəndə Aydın babanın, Ella nənənin gözlərinə zülmət çökdü elə bil. Bakının ikinci Şəhidlər xiyabanında torpağa əmanət verilən sevimli nəvələrinin evdəki şəklindən onlara tərəf boylanan baxışları ilə qarşılaşanda sinələrindən qopan ah-nalə dodaqlarında misra-misra göyərdi:

*Arxa idin bizə, oğul,*
*Niyə gəldin gözə, oğul,*
*Döndün oda, közə, oğul,*
*Hardan tapaq səni, Zaur!*

*Gözümüzdə yaş qurumaz,*
*Taledən çoxu yarımaz.*
*Sağalan deyil yaramız,*
*– Hardan tapaq səni, Zaur!..*

## ELLƏR XƏBƏRSİZ QALIB...



***Mehdixanov Rəfayıl Çərkəz oğlu***
***doğulub - 16.03.1972-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 08.01.1994-cü il,***
***Füzuli bölgəsi***

O gün Çərkəz kişi kənd qəbiristanından beli bükülmüş halda geri qayıdırdı. Şəhid balasının dərdindən artıq yurdsuzluq ağrıları onu üzüb əldən salırdı. Yol uzunu oğlunu ehtiramla dəfn edən İmişli camaatına, Çaxırlı kəndinin ağsaqqallarına dönə-dönə razılığını bildirdikcə gözləri el-obanı, yaxın-uzaqları arayıb axtarırdı. Ürəyinin dərinliklərində qövr eləyən dərdləri sözə çevrilib dilini, dodağını yandırmaqda idi: «Sizə qurban olum, ay elim, obam. Hara dağıldınız, hara getdiniz. Axı, yerimizdə, yurdumuzda olsaydınız, bu müsibətli günümdə məni tək-tənha qoymazdınız.



Haradasan, ay Mərcanlı elim, xəbərin varmı Rəfayıl balamın faciəsindən? Ay Allah, nə günahın yiyəsiydik ki, bizə belə zülm elədin?»

Heç bir günahı-zadı yox idi Çərkəz kişinin. Dünyanın ən fağır, başıaşağı bəndələrindən biri idi. Özgənin toyuğuna «kiş» deməmiş, bircə qarışqanı da ayaqlamamışdı bu yaşacan. Yaz, qış qabarlı əlləri ilə yer belləmiş, torpaq suvarmış, zəmi əkib biçmişdi. Əli iş tutandan halallığı ilə tanınmış, əməksevərliyi ilə başqalarına nümunə göstərilmişdi. Xasiyyətdə oğlu Rəfayıl da tamam-kamal atasına çəkmişdi. Dinc, üzüyola bir uşaq idi. Boş vaxtlarında həyət-bacalarına baş çəkib, gücü çatan bir işin qulpundan yapışırdı. Orta məktəbi bitirib, təhsil dalınca şəhərə getməyi sonraya saxlayıb kəndlərindəki təsərrüfata üz tutmuşdu. Cavan olmasına baxmayaraq, zəhmət adamları xətrini çox istəyirdilər onun...

1990-92-ci illərdə Sovet ordusunda qulluq edəndə də həmyerlilərinə xoş sədası çatmışdı Rəfayılın. Uzaq Rusiyadan bir-birinə düyülüb gələn əsgər məktublarında narahatlığı, həyəcanı duyulmaqda idi onun. Evlərinə qayıdıb gələndən sonra əndişəsi daha da artıb çoxalmışdı. Fasiləsiz olaraq davam edən düşmən hücumları hövsələdən çıxarmaqda idi onu. Mərcanlının tən ortasından keçib gedən dəmir yolu ilə addımlayanda elə bilirdi ki, arxasınca baxanlar ürəklərində ona deyirlər: «Sənin tay-tuşların düşmən qabağında dayanıb, bəs Vətənin dar günündə sən kimi gözləyirsən?»

Rəfayıl onsuz da çoxdan cəbhəyə can atırdı. Anlayırdı ki, Vətənin nicatı onun kimi cavanlardan asılıdır. Doxsan ikinci ilin sentyabrında evdəkilərlə vidalaşıb Cəbrayıl şəhərindəki hərbi hissəyə üz tutdu...

Rəfayıl düz bir ildən artıq oğuz elimiz Cəbrayılın yalçın qayalarına sığınıb sinəsini Vətən torpağına sipər etdi. Qışlaq, Süleymanlı, Sirik postlarında kipriyini qırpmadan torpaqlarımıza keşik çəkdi. İştirakçısı olduğu qanlı döyüşlərdə qeyrətlə vuruşub, Vətənə oğulluq borcunu qaytardı...

Cəbrayıl torpaqları bütünlüklə düşmənin girinə keçəndən sonra Çərkəz kişi Rəfayıldan bərk nigaran idi. Daşburundakı yol ayrıcında dayanıb gəlib-gedənlərdən oğlunu soraqladıqca qəlbindən qara qanlar axırdı onun. Axırda öyrəndi ki, Rəfayıl əsgər yoldaşları ilə birlikdə Füzuli torpaqları uğrunda gedən döyüşlərdədir. Yol kənarında dayanmaqdan yorulub bezikən ata axırda əllərini göyə qaldırıb:

– Allaha pənah, daha əlimizdən nə gəlir, – deyib qaçqın komasına qayıtdı...

Çərkəz kişi evdəkilərin yanında özünü toxtaq tutmağa çalışsa da, ürəyi ram olmurdu. Elə bil oğlunun şəhid olacağı ayan idi ona. Səhər, axşam yollara boylana-boylana qalmışdı. Və günlərin birində Rəfayılın tabutu ilə qarşılaşıb hönkür-hönkür ağladı:

Deyirlər insan dərdli olanda, tez dil açır. Dərd onun ürəyində sözə çevrilir. O gün Çərkəz kişi oğlu Rəfayılı təzə-təzə oxşayıb əzizləyirdi:

*Vətənin daşı oğul,*
*Baharı, qışı oğul.*
*Sənsiz daha qurumaz*
*Gözümün yaşı, oğul!*

*Ürəyimdə köz qalıb,*
*Sinəmdə bir iz qalıb.*
*Rəfayıl, ölümündən*
*Elim xəbərsiz qalıb...*

## ÖMRÜN LAYLA ŞİRİNLİYİ



***Mehmanəliyev Vüsal Rəfəddin oğlu doğulub - 19.10.1975-ci il, Cəbrayıl rayonu, Hovuslu kəndi; şəhid olub - 19.12.1993-cü il, Gədəbəy rayonu***

Güləndam ana Şəhidlər xiyabanına çatanda bir anlığa ayaq saxlayıb göz işlədikcə sıralanan əsgər məzarlarına baxdı. Qəhər dolu bir səslə:
– Ananız ölsün, sizin nə vaxtınızdır ki, işıqlı dünyadan əllərinizi üzüb qara torpağa qarışmısınız – deyib, sonra yanaqları ilə üzü aşağı gilələnən göz yaşlarını başındakı qara örpəyin ucu ilə silib təzə bir qəbrin ayaq tərəfində dayandı. Nəmli gözlərini dəmir haşiyəyə bənd edilən iri bir şəklə dikib hönkür-hönkür ağladı. Dayandığı yerdən iki addım qabağa gedib dizləri üstə yerə çökəndən sonra qara haşiyəli şəkli öpüb oxşamağa başladı,
– Vüsal, oğlum, eşidirsənmi, görüşünə gəlmişəm sənin. Niyə dillənmirsən, gözümün işığı, adam anasını beləmi qarşılayar? Səndən sonra dünya gözlərimdə zülmətə dönüb. Günün hardan çıxıb harda batdığından xəbərim olmur.



*Viran qalmış bağım var,*
*Gör nə qəmli çağım var.*
*Dilim-ağzım quruyub,*
*Ürəyimdə dağım var.*

Dağların daş sinəsinə baş qoyan Hovuslu kəndinin ətəkləri Gəyən çöllərinə, quzey səmti Ziyaratın sərinliyinə söykənir. Kəndin üst tərəfindəki dağın zirvəsindən Çaxmaq dərəsi aşağı baxanda adama elə gəlir ki, burda təbiətin heyrətdən əli üzündə qalıb. Belə bir möcüzəli yerdə doğulub böyümüşdü Vüsal. Burda torpaq təbiətin su saflığına, günəş ziyasına, qol-budaqlı ağacların yaşıl yelpiyinə heyran-heyran boylanmaqda idi. Vüsalın nəzərində Hovuslunun ulduzlu gecələrinin tayı-bərabəri yox idi. Ağlı kəsəndən sonra anlamışdı ki, buranın daşı da, kəsəyi də Vətən rəmzi, yurd nişanəsidir. Ağlına da belə gətirmək istəmirdi ki, nə vaxtsa düşmənin ayağı bu torpağa dəyə bilər. Erməni dığalarının yalquzaq ulartısı Qala dağının o üzündən açıq-aşkar eşidiləndə Vüsalın on səkkiz yaşı təzəcə tamam olmuşdu. Hərbi komissarlığın çağırışı ilə Bakı şəhərinə yola düşəndə ona elə gəlirdi ki, bir-iki aylıq hərbi təlimdən sonra qayıdıb Cəbrayılın qeyrətli oğulları ilə birlikdə Vətən torpağının keşiyində dayanacaq...

Bakıda olarkən müdhiş bir xəbərdən damarlarında qanı dondu elə bil. Doğma kəndlərinin düşmən əlinə keçdiyini eşidib biləndə varından yox oldu Vüsal. Öyrəndi ki, əmisi Aydın kişi düşmən kəndə soxulanda hovusluların xilası naminə özünü oda-közə atmış arvadı ilə birlikdə izsiz-soraqsız yoxa çıxmışdır...

Müqəddəs «Şıx babanın», Hacı Qaramanın əsirlikdə qaldığını öyrənəndə elə bil üstündən qara yellər əsdi onun...

O müdhiş günlərdə qardaşı Aydını, onun həyat yoldaşını gəzib soraqlamaqda idi Rəfiyəddin kişi. Əllərini onlardan üzüb İmişlidəki qaçqın çadırlarına gələndən sonra eşitdi ki, oğlu Vüsalı Sınıx zonasına göndəriblər. Öz-özünə təskinlik verib dedi ki, Gədəbəy də, Qazax da, Tərtər də, bizim Cəbrayıl torpaqları kimi od içindədir, təki oğlum zəfərlə geri dönsün...

Cəbhə bölgələrindən gələn həyəcanlı xəbərlər Güləndam ananın yuxusunu ərşə çəkmişdi. Doğma od-ocağının istisini itirəndən sonra darısqal «çadır evinə» sığa bilmirdi Rəfiyəddin kişi. Düşmən əsarətində qalan torpaqlarımızın həsrəti göynədirdi onu. İmkanı olsaydı, heç vaxt üzünü görmədiyi Şınıx dağlarına qədər yüyürüb oğlundan xəbər tutardı...

Qarlı-sazaqlı qış günlərinin birində Vüsalın özü gəldi ata-anasının görüşünə. Əsgər tabutuna sığınan oğul əbədi yuxuya getmişdi o gün. Güləndam ananın Muğanı lərzəyə salan naləsi də «yuxusundan» oyada bilmədi onu...

İgid eloğlumuzun tabutunu gətirən əsgər yoldaşları dedilər ki, gecə səngərdə dayanıb yurda keşik çəkdiyi yerdə düşmən alnından vurub Vüsalı. Cəbrayılda doğulub Gədəbəydə əbədiyyətə qovuşan Mehmanəliyev Vüsalı Bakının Şəhidlər Xiyabanında torpağa tapşırdılar. İnnən belə mavi Xəzər Vüsala da layla çalacaq. İnnən belə o nəğmə kövrəkliyinə, layla şirinliyinə qarışıb Tanrı dərgahında yarımçıq ömrünün davamını yaşayacaq...

## VƏTƏN NAMUSDU, QEYRƏTDİ...



***Mehralıyev Sərxan Yusif oğlu doğulub - 1968-ci il, Cəbrayıl rayonu, Dağmaşanlı kəndi; şəhid olub - 05.01.1994-cu il, Ağdam rayonu***

Doxsan dördüncü ilin yanvarı özü ilə bir dünya qəm, kədər gətirmişdi elimizə. Füzulinin Horadiz qəsəbəsindən Murova qədər uzanan cəbhə yolları ilə arxaya üz tutan şəhid tabutları yeni ilin gəlişini elə bil unutdurmuşdu adamlara. Milli Ordumuzun uğurlu hücumları nəticəsində ayrı-ayrı döyüş bölgələrində düşmənin gözünün odu alınsa da, yurdumuzdakı qana-qadaya son qoyulmamışdı. O böhranlı günlərdə düşmən inadla irəliyə can atır, yurda sipər oğullarımız onun yolu üstə köklü qaya kimi dayanıb yurd sevgilərinə söykənmişdilər. Yanvarın ilk günlərində Ağdam torpağında gedən döyüşlər səngimək bilmirdi hələ...

O gün burada dünyanın axırı idi elə bil. Göydən yağan mərmilər torpağı havaya sovurur, qrad səslərindən yer-göy dillənirdi elə bil. Axşama yaxın döyüşlər ara verən kimi əməliyyat meydanında şəhid olanların cəsədlərini arxaya gətirib, şəxsiyyətlərini müəyyən etməyə başladılar. Meyitləri kənd məscidində yuyub kəfənə büküləndən sonra tabuta qoyub müxtəlif ünvanlara yola salır, elə bil bir azca yüngüllük tapırdılar...

Səhərdən bəri sol tərəfdəki döşəmənin üstə adyala bükülən meyitin kimliyindən soraq verən tapılmırdı hələ. Axşama yaxın üz-gözü qarsalanan cavan bir əsgər içəri girib meyitə tərəf addımladı. Aşağı əyilib onun qanlı saçlarına, işığı sönmüş gözlərinə, sifətinin cizgilərinə bir neçə dəqiqəliyə nəzər saldı. Birdən qətiyyətlə ayağa qalxıb:



Hə, tanıdım onu. Bu, cəbrayıllı balası Mehralıyev Sərxan Yusif oğludur. Bir aya yaxın idi ki, mənimlə birlikdə qulluq edirdi. Rəhmətlik sol cibində, ürəyinin üstündə gəzdirdiyi dəftərçəsinin arasındakı şəklə baxmaqdan doymazdı. Həmişə döyüşə getməzdən qabaq ömür-gün yoldaşının şəklini gözlərinin qabağında tutar, ondan elə bil xeyir-dua alardı...

Bəlkə deyəsən, onun ailə üzvləri indi harada yaşayırlar?

- Yox, qardaş, bu suala cavab verə bilməyəcəyəm. Düşmən Cəbrayılın tifaqını elə dağıtmayıb ki, kimin harada məskunlaşdığını ayırd etmək mümkün olsun. Rəhmətlik hərdən yana-yana deyərdi ki, dünyanın düz vaxtlarında bir-birindən ayrılmağı ölümdən betər sayan Cəbrayıl camaatı indi ölkəmizin altmışa yaxın rayonuna, üç min yaşayış məntəqəsinə səpələnib. Allah heç kəsə bu sitəmi göstərməsin...

Xeyli arayıb axtarandan sonra Sərxanın doğmalarının sorağını Sumqayıtdan aldılar...

Ertəsi gun Sumqayıtın Şəhidlər Xiyabanı bir şəhid qəbrini də qoynuna aldı. Cəbrayıl rayonunun Dağmaşanlı kəndində dünyaya gələn Mehralıyev Sərxan Yusif oğlu Xəzər sahilindəki şəhəri özünə əbədi məskən seçdi...

Orta məktəbi Dağtumasda bitirib, 1987-1989-cu illərdə Sovet ordusunda xidmət edib. Şəkildən boylanan yaraşıqlı çöhrəsindən hiss edirsən ki, yaşamaq amalı güclü olub. Həmkəndliləri onu diribaş, çevik bir oğlan kimi xatırlayır, vaxtsız ölümünə vaysınırlar. Tale onu ölümdən bir neçə il qabaq vüsala çatdırıb. Toy edib, ev-eşik sahibi olub.

Dünyasını dəyişdiyi ana qədər şərəfli bir ömür yaşayıb Sərxan. 1991-ci ildə könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollanıb. Balyand-Qaracallı-Sur uğrunda gedən döyüşlərdə kipriyini də qırpmayıb. Şişdağ əməliyyatında əzəldən axıradək ürəklə vuruşaraq düşmənin başına od yağdırıb. 1993-cü ilin oktyabrında Horadiz yolu kəsiləndən sonra Arazı keçərək yenidən öz hərbi hissəsinə üz tutub. Son arzusu düşməndən qisas almaq olsa da, tale ona axıradək bu imkanı verməyib...

Sərxan dünyasını dəyişdiyi gündən Tanrı dərgahının «sakinlərinə» qoşulub əbədi ömür payını yaşayır. Onun yurd yerlərimizdən nigaran ruhu Dağmaşanlıdan uzaqlarda iztirab çəkən doğmalarını soraqlayır hələ də:

*Ruhum incik, sinəm qanlı,*
*Bir igidəm adlı, sanlı.*
*Haray çəkir Dağmaşanlım,*
*Ellər, torpaq amanatı.*

# YARALI SƏSİN İŞIĞI



***Məlikov Qədir Sərxan oğlu***
***doğulub - 15.10.1966-cı il,***
***Cəbrayıl rayonu, Tinli kəndi;***
***şəhid olub - 15.08.1993-cu il,***
***Xocavənd rayonu, Sur kəndi***

Səs Tanrı möcüzəsi, ömür harayıdır. Səsdə bulud kövrəkliyi, yarpaq pıçıltısı, günəş ziyası, ulduz işartısı var. Səs ürəyin döyüntüsü, damarlardan axan qanın həniri, işıq cığırıdır. Yapışıqlı, bənzərsiz səsi var idi Qədirin. Yovşan ətirli Gəyən düzünün hərarətindən süzülən bu səs varı-dövləti idi onun. Boğazında çeşmə kimi qaynayan titrək səsinin üstə əsməsə də nəğmə ilə bələyib yazın gürşadından, qışın qırovundan qoruyub saxlayırdı onu. El-oba şənliklərinin, çeşmə kənarında qurulan məclislərin bəzəyi, naxışı idi bu səs. Sonralar bu səsdən döyüş səngərlərinə də işıq düşdü. Burda barıt qoxusu gəlirdi onun səsindən. Qədirin dağa-daşa ün salan «Qarabağ şikəstəsi»ndən mərmi yağışı, güllə leysanı yağırdı elə bil düşmənin başına. Erməni quldurları vahiməyə düşüb gülləyə tuturdular onun səsini. Yaralı səsin işığı hayqırıb igidlərimizi duşmən üstünə aparırdı. Qədirin sinəsi səs dənizi, nəğmə ümmanıydı...

Gəyən düzünün ətəyinə sığınan Tinli kəndində doğulmuşdu Qədir.

Elat yolunun üst tərəfində sıralanan evlərə kəhriz suyunun sərinliyindən düşən bir xışma işığa üzünü söykəyirdi bu kənd. Qədirin çeşnili-naxışlı nəğmələrimiz üstə köklənən yanıqlı avazı Tinlinin aylı-ulduzlu gecələrinin, günəşli sabahlarının yarı-yaraşığı idi. Buğum-buğum böyüdükcə əllərindən yapışıb kövşənliklərə, sinif otaqlarına, kəhriz üstü qatarlanan qızların yanına aparırdı bu səs onu. Səsinin işığı ilə gedib mədəni-maarif texnikumuna qəbul olunmuşdu Qədir. Sevimli bacıları Atlas, Firuzə, Gülüzə, Elza onun səsi ilə ovunur, avazı ilə nəfəs alırdılar...

Cəbrayıl rayon mədəniyyət evində işləyəndə Qədirin yanıqlı, yapışıqlı səsi Xan Çinarın köklərindən süzülüb axan büllur kəhrizin sərinliyinə qarışaraq həyətləri dolaşırdı. Şahvəlli Hüseynin, mərcanlı Sədaqətin, Orucun nəğmələri üçün qəribsəyənlər Qədirin səsinin «tamaşasına» yığışırdılar...

Qarabağ elimizin dan yerinə qırov düşəndə səsini də götürüb cəbhəyə



yollandı Qədir. Bir neçə gündən sonra mərcanlı Bayramov Şakirin dəstəsindəki uşaqlar onun cəsarətli bir əsgər olduğundan iftixar hissiylə danışdılar. Döyüşçü dostları burada da sinələrini qabağa verib qoruyurdular onun səsini. Qədir dostlarına borclu qalmayıb «Qarabağ şikəstəsi»ylə yaralı yurd yerlərimizi ovunduranda yarasa kimi daşların çatında, selabların oyuğunda gizlənən Andranik nəvələri güllələyirdilər bu səsi...

20 Yanvar şəhidləri azadlıq toxumu kimi onun sevgisində, istəyində göyərmişdi. Onların ruhu Qədirin harayında dil açıb, dirilik tapmışdı. Onun üçün şəhid adı Kərbəla ucalığı, Hacı Qaraman müqəddəsliyi, Nəsimi dönməzliyi idi. Bəlkə elə buna görə də ömrünün iyirmi yeddinci baharında şəhidlik zirvəsinə ucalıb Tanrı məkanına üz tutub.

Yoldaşları deyirlər ki, döyüş meydanında yaralansa da geriyə qayıtmaq istəməyib Qədir. Surun yoxuşuna çilənən qanıyla yamacı dan yerinə döndərib o. Yalnız heydən düşəndən sonra silahı yerə qoyaraq canının ağrısını yaralı səsi ilə ovundurmağa başlayıb. Qardaşı Nadir deyir ki, sinəsindən ağır yara alan Qədiri əvvəlcə Qaraxanbəyliyə və oradan da Bakıya apardılar. Sinəsi xıncım-xıncım olan bu igid əsgəri burda xilas edə bilməyiblər.

Cəbrayıl rayon mədəniyyət şöbəsinin müdiri Fikrət Məmmədov dərin bir kədərlə yada salır Qədiri:

– Çox səmimi, mehriban oğlan idi. Rayon səviyyəli bütün tədbirlərdə yaxından iştirak edər, məşqlərdən bir gün də olsun qalmazdı. Qara çatma qaşları var idi. Əsl mədəniyyət işçisi idi. Mənim ona çox boyük ümidim var idi. Heyf Qədirdən...

Puta qəsəbəsində müəllim işləyən qardaşı Mərkəz deyir ki, qospitalda Qədirin cibindən çıxarılan dəftərçədə bir şeirin:

*Ulu Tanrı Sən şərəfli bir ölümə öyrət məni,*
*Ölsəm əgər torpdğımda öz qanımdan göyərt məni –*

misralarına qan çiləndiyini görəndə dodaqlarımı söykədim o sətirlərə. Qədirin səsinin işığından süzülən qan idi bu...

Qədirin səsi Tanrı möcüzəsi, ömür harayı idi. İndi bir şəhid ruhuna sığınıb bu səs. Yaralı yurdumuzun, əsirlikdə qalan obalarımızın məlhəmidir şəhid eloğlumuzun oba-oba işıq soraqlayan avazı...

# SƏN HƏMİŞƏ BİZİMLƏSƏN...



***Məmmədov Murad Məhəmməd oğlu***
***doğulub - 08.09.1968-ci il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi;***
***şəhid olub - 28,12.1993-cü il,***
***Ağdam rayonu, Papravənd kəndi***

Kamil insan daşdan çörək çıxarar,
El-obada sənətindən tanınar...

Bu misralar Muradın zəhmət soraqlı ömrünün arxada qalan fərəhli illərindən soraq verir elə bil. Onda Məmmədov Murad Mingəçevirin - bütovlükdə Azərbaycan elimizin nəhəng tikintilərindən sayılan DRES-in qazan-turbin sexində işləyirdi. Buraya gəlməmişdən öncə Mingəçevir şəhərindəki 39 saylı texniki-peşə məktəbində qaz qaynaqçısı peşəsinə yiyələnmişdi...

Boz dağın ağuşuna sığınan Mingəçevirdə indi də yaxşı xatırlayırlar Muradı. DRES-də işlədiyi illərdə halallığı ilə ad çıxaran bu yanımlı-yapışıqlı oğlan çoxlarının diqqətini cəlb etməkdə idi. Qabiliyyətli və vicdanlı olduğunu görüb şəklini «Şərəf lövhəsinə» vurmuşdular onun. Elə Mingəçevirdən də əsgəri xidmətə yollanmışdı Murad. İki ildən sonra əvvəlki iş yerinə qayıdıb, Mingəçevirin zəhmət adamlarının sırasında özünəlayiq yer tutmuşdu. Böyük arzuları, dünyaya sığmayan diləkləri var idi onun. İstəyirdi ki, ailə-uşaq sahibi olub Pəri ananı, qardaş-bacılarını sevindirsin. İstəyirdi ki, öz əlləri ilə bir ev tikib onun işığını gur yandırsın. Yayın tüğyanında Mingəçevirdən buraya gəlib məzuniyyət günlərini yaşıl meşənin qoynuna sığınan doğma kəndlərində keçirsin. İstəyirdi ki...

1988-ci ilin fevralından sonra tarazı-nizamı pozulan el-obamıza dinclik, əmin-amanlıq arzulayırdı Murad. İstəyirdi ki, şəhid ağıları ilə gözlərindən qanlı-yaş tökən el-obamıza toy-düyün qismət olsun...

Qazanzəmidən gəlib Mingəçevirə çatan qorxunc xəbərlər Muradın yuxusunu ərşə çəkmişdi. Doğma kəndindən uzaqda yaşasa da Hintağlardan atılan mərmilərin harayı qulaqlarına çatırdı elə bil...

Doğma torpaqlarımızda baş verən qanlı hadisələrə biganə qala bilmirdi Murad. Buna görə də o, 1991-ci ilin əvvəllərində Ana Kürün mavi sularına sonuncu dəfə baxıb, od-alov içərisində qovrulan Cəbrayıla qayıtdı...



Qazanzəmi camaatı xilaskar kimi baxırdılar Murada. Kəndə gələn kimi rayonda yenicə yaradılan özünümüdafiə taburuna üzv yazılan bu hünərli oğlan cəbhədən bircə gün də olsa ayağını geri qoymadı. Döyüşlərdə qəhrəmanlıqla vuruşduğundan çavuş rütbəsi vermişdilər ona. Postlarda dayananda bilirdi ki, təkcə qoruduğu mövqe üçün yox, döyüşçü dostlarının həyatına da cavabdehdir o. Hərbi əməliyyatlar qızışanda həmişə öndə gedən görürdülər Muradı. Cəbrayıl hərbi alayında xətrini çox istəyirdilər onun. Doxsan üçün aprelində Hintağlar istiqamətindən irəliləyən düşmənə yaxşıca dərs vermiş, quldurları qaçmağa məcbur etmişdi. O vaxt və sonrakı iyun-iyul döyüşlərində əsgər dostları Muradın «PK»-sı ilə cəhənnəmə vasil olan yeddi düşmən cəsədi saymışdılar yamacda...

Quycaq kəndi uğrunda gedən döyüşlərdə Murad üç düşmən yaraqlısını məhv edərək şəhidlərimizin qisasını almışdı...

Rayonun işğalından sonra Cəbrayılın qeyrətli əsgər oğulları Ağdam torpağını qoruyurdular. Onların sırasında şəxsi şücaəti ilə fərqlənən qazanzəmili çavuş Məmmədov Murad Məhəmməd oğlu da inadla vuruşurdu... Döyüşün qızğın çağlarında əlindən yerə qoymadığı «PK»-sıyla beş erməni quldurunu məhv edib, düşmənin gözətçi məntəqəsini qumbara ilə darmadağın edən bu cəngavər oğlan son anda həyatı bahasına yaralı əsgər dostunu xilas etdi.

Azərbaycan Respublikası Prezidentinin 09 oktyabr 1994-cü il tarixli fərmanı ilə bir qrup Vətən qeyrətli əsgər və zabitlərimiz orden və medallara layiq görülüb. Təltif olunanların sırasında Məmmədov Murad Məhəmməd oğlunun da adı var. Ölümündən sonra «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunan igid eloğlumuzun Vətən qarşısındakı xidmətləri illər keçdikcə öz həqiqi qiymətini alıb onun adını əzizləyənləri sevindirəcək...

Papravənd döyüşlərində şəhidlik zirvəsinə qalxıb ucalan Murad Məmmədov neçə vaxtdır ki, Qazanzəmidən uzaqlarda – bir parça Vətən torpağında uyuyur. Onun qəhrəmanlıqla, misilsiz şücaətlə dolu döyüş yolunu nəzərdən keçirərkən o gözlərimizdə əbədi bir zirvəyə çevrildi. Onun bu yazını yazdığımız anlarda bizimlə birgə olan ruhuna üzümüzü tutub:

– Sən öz igidliyində ata elimiz Cəbrayıla başucalığı gətirmisən eloğlu! – dedik. Cənnət qapıları həmişə sənin kimi oğulların üzünə açılır. Sənin müqəddəs adını nəsil-nəsil ürəyimizdə yaşadacağıq. Sən həmişə bizimləsən, Murad!..

# VƏTƏN, TƏKİ SƏN YAŞA...



***Məmmədov Adil Hüseyn oğlu***
***doğulub - 18.09.1967-ci il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam bölgəsi***

*Vətən dara düşəndə,*
*Zirvə qarından keçər.*
*Çəmən gül-çiçəyindən*
*Torpaq barından keçər.*

Vətənə görə şirin canından, neçə-neçə arzularından keçib Adil. İstəyib ki, özündən sonra da Vətən yaşasın, Azərbaycan elimizin səması açıq-aydın olsun. Ömrünün son günlərində məkrli düşmən tərəfdən üstünə gələn ölümün qarşısına çıxmaqla əbədi olaraq yaşamaq haqqı qazanıb...

– Narıngül, Çulludan olan şəhidlərimizdən kimi daha yaxşı tanıyırsan, - bu sualı biz vermişdik Mingəçevirə gələndə ona. Bircə anın içərisində elə bil onun gözlərindən bahar yağışı ələndi sarışın sifətinə, hiss etdik ki, qızın yaralı yerinə toxunmuşuq...

Adilin can-ciyəri, bacı əvəzi baldızıdır Narıngül. Deyir ki, Adil də, onun qardaşları Telman, Elman, Nəriman ve Sərməst də məni özlərinə bacı biliblər həmişə. Elə Adil şəhid olanda da onun cənazəsi üstə sərilib olmayan bacısının əvəzindən öpüb oxşamışam onu. Mingəçevirin toxuculuq kombinatında çəlimsiz, qabarlı əlləri ilə halallıqla ruzu tapan bu qızın Adillə bağlı söhbətləri göyərib yaddaşımda...

1985-ci ilin payızında əsgərliyə getməzdən qabaq traktorçu peşəsinə yiyələnmişdi Adil. Kalininqradda keçən ikiillik əsgərlik həyatı onun xarakterini dəyişdirməsə də ömründən sazaqlı qış küləyi kimi adlayıb keçmişdi. Doxsanıncı ildə toy edib yaxın qohumları Gülsümü özünə ömür-gün yoldaşı seçmişdi. Aygün dünyaya gələndə özünü xoşbəxtlərin xoşbəxti hesab edirdi. Kəndlərinin yaxınlığındakı Dərviş Pirimin, Şıxazəddin babanın türbələrini dolanıb Tanrıdan dilək diləmişdi ki, yurdumuzun səmasında gündən-günə tündləşən qara buludları yox edib, Aygün balasına arxa-dayaq olsun...

Tanrı gözə görünməz səltənətində minillik səbrinə söykənib dünyanın



gərdişinə tamaşa etməkdəydi onda. Erməni dığaları bu uludan ulu, ucadan uca Varlığın səbri üstən adlayıb yurdumuzu oba-oba qana çalxamaqda idilər. Səksən səkkizin fevralından başlayan erməni qasırğası Qarabağ elimizin çırağını söndürüb, Cəbrayıl camaatını da kürüyüb Araza tökdü. Şeytanın, iblisin özündən də fəndgir olan erməni dığalarının quduruğanlığı Adilin qəlbində kükrəyən qəzəb selinə döndü o payız. Əlinə silah götürüb düşmən qabağına çıxdı. Cəbhəyə yola düşəndə anası Gülxanım bacıya üzünü tutub:

– Atamın gor evi, ulularımızın qəbri əsirlikdə qalıb ana, – dedi. – Özümə sığışdıra bilmirəm ki, Qızıl qayada, Həmzəli döşündə, Mərək yerində dığalar meydan sulasın. Gülsümü, Aygünü göydə Allaha, yerdə sənə tapşırıb gedirəm. Məndən nigaran qalmayın, qardaşım Sərməstin, qaynım Xudaverdinin döyüşdüyü yerlərdə onlarla birlikdə olacağam...

Narıngül kövrələ-kövrələ deyir ki, ölümündən on bir gün qabaq Mingəçevirə, mənə baş çəkməyə gəlmişdi. Gecəni bibim qızı Ülkərgildə qalıb anamgilə baş çəkməkdən ötrü Bakıya getdi. Ayrılanda halal-hümbət etdi bizimlə. Heç ağlıma da gəlməzdi ki, bu, Adilin son gedişidir...

Ağdam torpağı od içində yanırdı o gün. Ağır texnikanın köməyi ilə üç tərəfdən hücuma keçən erməni quldurları nəyin hesabına olur-olsun yeni torpaqlar ələ keçirmək istəyirdilər. Əsgərlərimiz düşmən qabağında qala kimi dayanıb, onların həmlələrini dəf etməyə çalışırdılar...

O qanlı savaşda Vətən yolunda qurban gedənlərdən biri də Adil oldu. İyirmi yeddi yaşın şirinliyini yaşayıb duymayan bu igid oğlan şirin canından keçdi ki, Vətən dünya durduqca yaşasın. Vətən yolunda şəhid olanlarısa el-oba əbədi olaraq yaşatmağı bacarır. Şair demişkən:

*Torpağın gor evimdə,*
*Yada düşüb sevindim.*
*Bir şəhidəm mən indi*
*– Vətən, təki sən yaşa...*

# ANA, MƏNİ AĞLAMA...



***Məmmədov Hikmət Həsən oğlu***
***doğulub - 28.02.1974-cü il,***
***Cəbrayıl rayonu, Dağtumas kəndi;***
***şəhid olub - 31.12.1993-cu il,***
***Ağdam rayonu, Salahlı kəndi***

Komandirdən uç-dörd günlüyə evə getmək üçün razılıq alandan sonra bir yerdə qərar tuta bilmirdi Hikmət. Ürəyində ötən dəqiqələri, saatları saydıqca, onları bir-birinə düyüb calayırdı. Yola çıxacağı vaxta üç gün qalsa da səfərə ciddi hazırlaşır, üst-başını qaydaya salırdı. Valideynlərinə xəbər göndərmişdi ki, doxsan dördün biri yanvarında yanınızdayam. Həsən kişinin, Şövkət ananın, qardaşı Məhəmmədin, bacıları Məryəmin, Məlahətin, Lətafətin gözləri yolda, qulaqları səsdə idi. Bu sorağı alanda Hikmətin ürəyinə dammışdı ki, yeni ili əzizləri ilə birlikdə qarşılayacaq.

Hikmətin döyüş yoldaşı Rafiq Cəbrayılovun dediklərindən: «Ermənilərin qəfil hücumu başlayanda Hikmət pulemyotun arxasına keçib düşmənin yolu üstə dayandı. Səhər saat altıya yaxın döyüşlər səngidiyindən əsgərlərimiz bir-birlərini soraqlayır, yaralıları və şəhidləri arxaya aparırdılar. Uşaqların mərd bir əsgər kimi tanıdıqları Hikmət gözə dəyməyəndə hamımızın qəlbini nigarançılıq hissi bürüdü. Çulludan və Karxuludan olan döyüşçülərimiz Əbilov Üzeyirlə Bəhlulov Bəhram Hikmətin sorağı ilə təzədən üz tutdular döyüş yerinə. Ağdamın Salahlı-Kəngərli istiqamətində gedən bu savaşda demə düşmən snayperi sağ gözündən vurubmuş onu. Üzeyirlə Bəhram köməkləşib onu arxaya gətirəndə gözlərini aça bilməsə də, Üzeyiri hənirindən tanıyan Hikmətin sözləri bağırlarını qana döndərdi onların:

– Həyat nə yaman şirinmiş, heç ölmək istəmirəm, Üzeyir. Ölsəm anama çatdırın ki, məndən ötrü ağlayıb özünü üzməsin. Ölüm Allah əmridir!..

Onda Hikməti Mingəçevir şəhər xəstəxanasına gətirdilər. Həkimlər əllərindən gələni etsələr də üç gündən sonra Hikmət dünyasını dəyişdi...

Rota komandiri İlham Məmmədovun qeydlərindən: «Hikmət hamımızın sevimlisi idi. Mülayim xasiyyətli, bir qədər utancaq olan bu oğlan elə bil od parçası idi. Banazur, Quşçular, Daşbaşı postlarında qorxmaz bir cəngavər kimi özünü göstərə bilmişdi. Pulemyot və topdan da yaxşı baş çıxarırdı Hikmət. Cəbrayılın dağlıq ərazisini düşmən işğal edəndən sonra (avqust 1993) düz üç gün topçu dostları ilə Tumas ataya sığınıb qalmışdılar. Yollar bağlı olduğundan Həkəriyə tərəf üz tutub Qubadlı batalyonuna qoşulmuşdular o vaxt. Mühasirədən sağ-salamat qurtarsalar da doğma torpaqların əldən çıxması dirigözlü yandırırdı Hikməti...

Bacısı Lətafətin sözləri: «Hikmət evə gələndə avtomatını mənə verər, sonra da «Bacı, sabah tezdən qayıdacağam», – deyərdi. Mən onu tez-tez dilə tutardım:

– Ay Hikmət, bacı qurban, onsuz da həftələrlə üzünü görmürük. Nə olar, gəlmisən iki-üç gün qal yanımızda...

– Sən nə danışırsan, Lətafət, evdə qalmaqmı olar indi?

– Onda, qaqaş, razı ol, toyunu eləyək, – dedim. Hikmət zarafatla dediyim sözləri ciddi qəbul edib qeyzləndi:

– Başınıza at təpib, nədir? Vahidin, Şərifin, Zöhrabın valideynlərini görəndə ürəyimdən qara qanlar axır. Belə bir gündə toy mənim harama yaraşır axı?..

Heyf ki, Hikmət qardaşımın toyunu görmək qismət olmadı bizə. İndi Əli Bayramlının Şəhidlər xiyabanındakı qəbri ilə və bir də bizə yadigar qalan şəkilləri ilə ovundururuq özümüzü...

Həsən kişinin söylədikləri: «Hikmət fərasətli oğul idi. Evimizdəki məişət cihazlarını özü təmir edər, maşın və motosikletdən yaxşı baş çıxarardı. Bizim Dağtumas camaatı Hikmətdən çox razı idilər. Müharibədən sonra ali hərbi məktəbdə oxumaq ümidi ilə yaşayırdı oğlum. Onun arzularını, bizim Hikmətin adı ilə bağlı ümidlərimizi gözümüzdə qoydu Tanrı. Anası Şövkətin gözlərinin yaşı ovcundadır hələ də. Hikmət yadına düşən kimi bahar buluduna dönüb haray qoparır...

Şövkət ana səngiyib sakitləşən deyil hələ. Necə ki, dünyadadır, oğlunu nisgilli ağılara qatıb gözlərinin yaşını axıdacaq torpağın üstə. Hikməti hər yerdə göz yaşlarıyla gəzib-soraqlayacaq ana...

*Ayrılmışam elimdən,*
*Çəmənimdən, çölümdən.*
*Hikmət, boyuna qurban,*
*– Adın düşməz dilimdən...*

# ONUN RUHU ŞAD OLDU...



***Məmmədov İlqar Əsgər oğlu***
***doğulub - 25.06.1969-cu il,***
***Cəbrayıl rayonu, Soltanlı kəndi;***
***şəhid olub - 20.04.1994-cü il,***
***Füzuli rayonu, Horadiz qəsəbəsi***

– Danılmaz bir həqiqətdir ki, torpağa möhkəm bağlı olanlar da, onun uğrunda hər şeyindən keçənlər də «qara camaatın» içərisindən çıxanlar olubdur. Başımız əhlət daşına dəyəndən sonra duyub anladıq ki, Vətənin taleyini ali kreslolarda qartıyanlara etibar etməkdə, onlardan imdad gözləməkdə yanılmışıq. Vətəni biz özümüz qorumalı, onun uğrunda şəhidlərimiz kimi candan keçməli idik. Pul hərisindən, sərvət düşgünündən, kreslo acından, vəzifə ölüsündən torpaq qoruyan olmaz, atam. Əsl oğullar o «qara camaat» hesab edilən zümrənin içərisindən çıxır. Ərənlər demişkən:

*Oğullar beldən gələr,*
*İgidlər eldən gələr.*
*Yurda nisgil həmişə*
*Uğursuz ildən gələr...*

Doxsan dördüncü ilin baharından şəhidlik adının ucalığına sığınan İlqar Vətən uğrunda canından keçən minlərlə kasıb balalarından biri idi. Soltanlı kəndində dünyaya göz açdığı gündən evlərində halallıq görmüşdü. Anasının döşlərindən halal süd əmdiyindən qanına, iliyinə kimi Haqqın tərəfində idi.

Bəlkə də elə buna görə idi ki, düşmən igid oğul və qızlarımızın qanını axıdanda «Ölümə ölüm, qana qan» – deyib meydana çıxmışdı İlqar. Bu meydanın quzey üzündə dayanan düşmən şeytan kimi məkrli, iblis qədər fəndkir idi. O, təpəgöz yeddibaşlı əjdaha kimi bir məxluqa bənzəyirdi. Onun qarşısında yalnız ölümdən qorxub çəkinməyən igid oğullar dayana bilərdi...

İyirmi beş baharlı ömründə ağlı-qaralı illər yaşamışdı İlqar. Orta təhsil alandan sonra əsgəri xidmətə yollanmışdı. İrkutsk şəhərində keçirdiyi iki il ona çox şeylər öyrətmişdi. Hər şeydən qabaq gözüaçıq, səmimi bir gənc



idi o. Yalanı, boş yerə hay-küy qaldırmağı xoşlamırdı. Yeri düşəndə deyirdi ki, insan gərək dili ilə yox, əməlləri ilə tanınsın. Tanrı onu el-obasında halallığı ilə ucaltmışdı...

Əsgəri xidmətdən qayıdandan sonra kəndlərindəki süd emalı zavodunda çilingər işləyirdi İlqar. Doxsan birinci ildə rayon daxili işlər şöbəsinin mühafizə idarəsinə əməkdaş kimi qəbul etmişdilər onu. Ermənilərin hücumu güclənəndə idarənin işçiləri ilə birlikdə o da silaha sarılıb torpaqlarımızın müdafiəsinə yollandı...

O vaxtlar İlqarın sorağı ən odlu nöqtələrden gəlirdi. Düşmən qarşısında yenilməyən oğullarla birlikdə canlı sipərə döndərmişdi sinəsini. Beş il yarım ərzində düşmənin gözünün odunu alan Cəbrayıl torpağında xəyanət ayaq tutub yeriməsəydi, harsın oğlanlarının Şayaqdan, Günəşlidən, Qala dağından, Tumas atadan bu üzə adlamağa hünəri çatmazdı...

O qanlı-qadalı doxsan üçün payızında fitnə-fəsadlı əllərlə sındırılan oğullar özlərinə gələn kimi yenidən səf-səf düzüldülər. Onların sırasında Soltanlının igid balası Məmmədov İlqar Əsgər oğlu da var idi. Daşburundan üzü Horadizə başlayan uğurlu əməliyyat düşməni geri qaçmağa vadar etməkdə idi. Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərin qızğın çağında İlqar düşmən gülləsinə tuş gəldi. Onun al qanı çilənən torpaq azad olan kimi rahat nəfəs aldı. Bu qələbədən İlqara da sevinc payı düşürdü. Heyf ki, təkcə onun ruhu şad oldu həmin gün...

# TALEYİN QEYRƏT SINAĞI



***Məmmədov Tural Elşad oğlu***
***doğulub - 06.04.1973-cu il,***
***Cəbrayıl rayonu, Balyand kəndi;***
***şəhid olub - 02.07.1993-cu il,***
***Xocavənd rayonu, Quşçular kəndi***

Cəbrayıl hərbi alayının ilk əsgərləri Turalı yaxşı xatırlayır, onun şəhid adını hörmətlə anırlar. Bu ehtiramı o, sağlığında igidliyi, cəsurluğu və qeyrəti ilə qazanıb. Deyirlər insan ömrü boyu tale işığına, alın yazısına üz tutur, hardasa ürəyinin hökmü ilə hərəkət edir. Həyatda qa-

zandıqları ölümündən sonra yaşadığı illərin dəyərinə, ölçüsünə çevrilir. Bu reallıqla hesablaşan adamlar həyatda özlərindən sonra yaşayacaq bir iz qoymağa çalışır, öləndən sonra axirət evində rahat yatırlar.

Tural dünyaya yaxşılıq toxumu əkmək üçün gəlmişdi. Onun böyüyüb boya-başa çatdığı ailədə halal əmək insanın ziynəti hesab edilir, minnətsiz yavan çörək hər şeydən üstün tutulurdu:

*Minnətli çörəyi balla yemərəm,*
*Minnətsiz bir dadım duz verin mənə...*

Nə vaxtsa oxuyub yadda saxladığı bu misralar Turalın dilinin əzbəri idi həmişə. Bəlkə də ağlı kəsəndən hər işdə halallıq axtardığından, orta məktəbi qurtarandan sonra halal bir peşəyə könül vermişdi. Qonşu Qarğabazar kəndində oxuyub, sürücülük vəsiqəsini əlinə alanda Tural elə bilmişdi ki, həyat yolları üzünə açılıb. Ancaq bu peşənin şirinliyini dadmaq qismət olmadı ona. Bunun əvəzində yenicə qədəm qoyduğu cəbhədə «ZEPO» qurğusunda işləməyi öyrənəsi oldu...

O, cəbhəyə ürəyinin hökmü ilə gəlmişdi. Kəndlərinin söykəndiyi Balyand dağının o üzündən uçub gələn mərmilər camaatın gününü göy əsgiyə düyəndən sonra Tural əlinə silah alıb səngərə tərəf addımlamışdı. İlk vaxtlar atılan qradların, topların səsindən vahiməyə düşsə də, çox keçmədi ki, cəbhədə hər şeyə üzü öyrəşdi. Çox cavan olmasına baxmayaraq yoldaşları hünərini görüb, ürəklərində əzizləməyə başladılar onu. Ən çətin məqamlarda Tural yada düşür, onun zəkası ilə nizamlanan «ZEPO» qurğusu düşmənin başına od ələyirdi...

Doxsan üçüncü ilin yayında düşmən Daşbaşı dağlarında qanlı qırğın törədib, əsgərlərimizi mühasirədə saxlayanda, hamıdan qabaq oraya üz tutanlardan biri də Tural idi. Daşbaşıda inadı ovxalanan düşmən əsgərləri Sirik postlarına hücuma keçəndə Tural yenidən öz silahı ilə qeyrətli oğullarımızın köməyinə tələsdi. Gizli yollarla Tey dağının zirvəsinə qaldırılan «ZEPO»dan açılan ilk atəşlər düşməni pərən-pərən salıb, əsgərlərimiz üçün irəliyə yol açdı. Rayonun qaynar nöqtələrindən olan Quşçular postu düşmənin qarşısında canlı sipərə döndüyü günlərdə Tural əlindən gələni edirdi ki, erməni quldurları yaxına gəlməsin. Belə gərgin günlərin birində qəlpə yarası aldığından o, Bakı şəhərindəki qospitalda düz qırx gün yatmalı oldu.

Tural Bakıda olanda da döyüş xəbərlərini diqqətlə izləyir, yoldaşları barədə narahat olurdu. O, doxsan üçüncü ilin fevralında yenidən hərbi hissəyə qayıdıb, əsgər dostlarını sevindirdi. Düşmənin Cəbrayıla yolu Quşçular



tərəfdən olduğundan bura strateji məntəqə sayılırdı. O vaxtlar erməni quldurlarının diqqəti bu posta yönəldiyindən, burada tez-tez qanlı döyüşlər getsə də Quşçular düşmən qabağında qeyrəq qalası kimi dayanırdı. Tural qızğın döyüşlərdə üzünü quldurlara tərəf tutub deyirdi:

– Siz ançaq bizim meyitimizin üstündən adlayıb bu üzə keçə bilərsiniz. Bizimsə ölməyə hələ vaxtımız yoxdur...

Ancaq ölüm vaxta, vədəyə baxmırmış demə. Bir yay günü düşmən gülləsi Turalı haqlayıb qanına qəltan etsə də, əsgər dostları onun qisasını yerdə qoymadılar. Tural doğulduğu torpaqda əbədiyyətə çevrilib, şəhid ucalığına yüksəldi...

## QƏLBİMİZDƏ YAŞAYIRSAN...



***Məmmədov Rantiq Novruz oğlu***
***doğulub - 14.10.1971-ci il,***
***Cəbrayıl rayonu, Soltanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cu il,***
***Xocavənd rayonu, Sur kəndi***

Tarixin qan yaddaşında o adamlar qalır ki, onlar qeyri-adi hunərləri ilə mənsub olduqları xalqa baş ucalığı gətirir, öləndən sonra da yaşamaq haqqı qazanırlar. Ulu Tanrı belələrinə sonsuz iltifat göstərir, ruhlarına əbədi ucalıq bəxş edir. Və bir də onların adını zaman-zaman yaşadır. Müsəlman dünyasının nur timsallı şəxsiyyətlərindən olan İmam Hüseynə və onun yetmiş iki nəfər əqidə dostlarına göstərilən ehtiramın arxasında ilahi bir istək, əqidə, amal saflığı dayanır. Yüz illər keçsə də, bu ulu insan şəhidlik zirvəsində dayanıb insanlığı mənəvi ucalığa, şərəfə, ləyaqətə səsləyir...

Bizim Vətən Şəhidləri də İmam Hüseyn zirvəsində dayanmağa qüdrəti çatan və elə buna görə də Tanrının sevgisi ilə mükafatlandırılan igid oğullardır...

Rantiq 1993-cü ilin avqustundan şəhidlik zirvəsinin sakinidir. O bu haqqı Vətən sevgisi ilə və bir də şərəfli ölümü ilə qazanıb...

Deyirlər ölüm birinin eybini, yaramaz xislətini gizlətmək baxımından harada isə kara gəlir. Ömrünü yaramaz işlərə, ləyaqətsiz əməllərə sərf

edənlər torpağa quylanan kimi unudulur, ən yaxşı halda lənətlə xatırlanır. Şərəfli ölüm zaman-zaman insana baş ucalığı, millətə şərəf gətirir. Bəlkə elə buna görədir ki, ulu ərənlərimizlə – Babəklə, Nəsimi ilə, Qaçaq Nəbi ilə... fəxr edir, onların adlarını qan yaddaşımızda nəsil-nəsil təzələyirik...

Soltanlı camaatına baş ucalığı gətirən Məmmədov Rantiq Novruz oğlu bir vaxtlar bu kəndin yüzlərlə dəli-dolu cavanlarından biri idi. Bəlkə də çox yerdə təkcə qeyri-adi səslənən adı ilə diqqəti cəlb edirdi. Orta məktəbdə oxuyarkən yaşıdlarından o qədər də fərqlənməmiş, müəllimləri onu adi bir kənd uşağı hesab etmişdilər...

Deyirlər heç kim dünyaya qəhrəman kimi gəlmir. Ancaq ulularımız onu da xatırladırlar ki, həyat bəzən çoxlarına qəhrəman olmaq imkanı yaradır...

Ulu Tanrı iyirminci əsrin sonlarına yaxın xalqımızı ağır sınağa çəkməklə bir millət kimi bizi xəlbirdən keçirib saf çürük etdi. Başımız əhlət daşına dəyəndən sonra meydan qəhrəmanlarının, ekran-efir «bülbüllərinin» xislətindən, iç üzündən halı olduq. Kimisi yaranmış şansı əldən buraxmayıb sərvət toplamağa, kimisi silah götürüb düşmən qabağına çıxmağa tələsdi. Halal bir kişinin saf ürəkli balası olan Rantiq ikinci yolun ağına düşüb Şəhidlik Zirvəsinə üz tutdu...

Tale ona uzun ömür bəxş etməsə də nəyə qadir olduğunu göstərmək üçün möhlət, aman verdi. Rantiq Sarıcallı texniki-peşə məktəbini bitirəndən sonra uzaq Rusiyada əsgəri xidmətdə oldu. 20 Yanvar faciəsini də elə orada eşidib hiddətləndi. Bəlkə də həyatında ilk dəfə olaraq anlayıb dərk etdi ki, onun Vətəni Uzaq Şərq, Sibir deyil, Azərbaycandır. Qürbətdə olanda hərdən yaddaşında oyanıb haray qoparan misralar bu torpağın əzəmətini xatırladardı ona:

*Bir dünyayam, təbiətin,*
*Nəfəsindən yaranmışam.*
*Gözlərindən alov yağan*
*Bir şimşəyin həvəsindən*
*Yaranmışam.*
*Nəsimilər dönməzliyim,*
*Dədəm Qorqud ağlım mənim.*
*Zaman-zaman igidlərə*
*Bayraq olub*
*Babək adlı oğlum mənim...*
*Xəritədə bir nöqtəyə*
*Bənzəsəm də,*



*Ürəklərdə gur nəğməyəm,*
*Solmaz duyğu yarpağıyam.*
*Ölkə-ölkə, qitə-qitə*
*Sözü gəzən*
*Azərbaycan torpağıyam...*

Rantiq doğma anası Zərəngül qədər sevib əzizlədiyi bu torpağın xilası naminə şirin canından keçdi. Ölümündən xeyli əvvəl 1992-ci ilin yazında könüllü olaraq hərbi xidmətə getdi. Əsgər kimi vuruşa-vuruşa son anda serjant kimi dünyadan köçdü. Ondan bizə əbədi əsgər hünəri, torpaq sevgisi və bir də həmişə ehtiramla anılacaq şəhid adı yadigar qaldı. Rantiqi təkcə Soltanlıda deyil, yurdumuzun hər bir oymağında dönə-dönə xatırlayacaqlar.

## O GÜN UZAQDA DEYİL...

***Məmmədov Rüfət Rəvan oğlu***
***doğulub - 30.03.1970-ci il,***
***Cəbrayıl rayonu, Maralyan kəndi;***
***şəhid olub - 15.08.1995-ci il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***



Daşbaşıdan gələn qorxunc xəbər Maralyan kəndinin üstündən qara yel kimi ötüb keçdi. Əsgər anaları bircə anın içərisində o dünyanı görüb qayıtdılar. Dərddən çoxlarının beli büküldü. Günortaya yaxın rayon mərkəzinə gedib qayıdanlar xəbər gətirdilər ki, Daşbaşıda ölənlərin şəxsiyyəti hələ məlum olmasa da, deyilənə görə, oradakı müsibət ölçüyə gəlməzdi. Qubadlıdan gələn əsgərlərin köməyi ilə Daşbaşıdakı mövqelərimizi geri almaq üçün orada qanlı döyüşlər gedir. Bir az keçmiş xəbər çıxdı ki, şəhid olanların meyitlərini mərkəzi xəstəxanaya gətiriblər. Hamının gözləri yollara dikilmişdi burada. Asfalt yoldan üzü kəndə doğru irəliləyən hərbi maşın dəmiryol xəttini adlayanda çoxlarına ayan oldu ki, Rəvan kişinin oğlu Rüfət də Daşbaşıda şəhid olub...

Rəvan orta məktəbi bitirəndən sonra iki il sovet ordusu sıralarında əsgəri xidmətdə olmuş, qayıdıb gələndə doğma yurd yerlərimizin nizamını

pozulan görmüşdü. O, Bakıda olarkən şəhərin küçələrində cövlan edən tankları görəndə əvvəlcə təəccüblənmiş, Şəhidlər xiyabanına baş çəkəndən sonra vəziyyətin ciddiliyini duyub dərk etmişdi. Yeniyetmə fəhmi ilə anlamışdı ki, torpaqlarımızın başı üstən Domokl qılıncı asılıb, bütün dünyada təklənən, harayı Xəzərdən, Dərbənddən o tərəfə yetişməyən Azərbaycan ağır sınaq qarşısındadır. Onda hələ Xocalıda qızğın tikinti işləri gedir, Kərkicahan buğum-buğum böyüyür, Cəbrayıl camaatı barlı-bərəkətli tarlaları əkib-becərirdi. Sərhəd kəndlərindən arabir qorxunc xəbərlər gəlsə də vəziyyət o qədər də pis deyildi onda. Meydan qəhrəmanları tribunalarda ermənilərі asıb-kəsir, kütlə qarşısında əsib-coşan şairlər düşməni həcvləri ilə «güllələyirdilər». Millətin başı altına yastıq qoyan başsız başçıların təmkinli davranışları çoxlarını süstləşdirməkdə, əl-qolunu bağlamaqda idi...

Rüfət əsgəri xidmətdən qayıdandan sonra Saatlı şəhərindəki şəkil qalereyasında işə girmişdi. Əli çörəyə çatandan sonra üz-gözündən bəxtiyarlıq yağırdı onun. Qardaşının Saatlıdakı qohumlarına tez-tez baş çəkir, Muğan torpağının hərarəti ilə qəlbini isindirirdi. Arabir yolu Maralyana düşəndə atası Rəvanın, anası Tehranın qulluğunda dayanır, qardaşları ilə kəndin kövşənlərini gəzib-dolaşır, bacılarını əzizləyirdi. Axşamüstü kəndin ortasından keçən dəmiryolu ilə üzü yuxarı addımladıqca qarşısına çıxan kənd adamları ilə hal-əhval edib, yaşıdlarının yanına tələsirdi...

Kəndlərinə yolu düşəndə ən çox cəbhədəki vəziyyətlə maraqlanırdı Rüfət. O vaxtlar Dolanlar, Zamzur, Ağcakənd, Mülkədərə, Daşbaşıda yurda sipər oğulların hünərindən soraq tutduqca ürəyi dağa dönür, ağlına da gəlmirdi ki, bir neçə aydan sonra özü də Ziyaratın ətəyində sıralanan dağlara gedib çıxacaq, düşmənlə üz-üzə dayanacaqdır...

Hərbi çağırış vərəqi Rüfətə çatdırılan kimi o, Saatlıdakı iş yoldaşları ilə vidalaşıb, torpaqlarımızın müdafiəsinə yollandı. Artıq düşmən qapının ağzını kəsmiş, Şayaqdan atılan «qradlar» Cəbrayılı qana çalxamışdı. Adamlar özlərini toxdaq göstərməyə çalışsalar da, üzlərdən həyəcan oxunmaqda idi. Elə bil hamı bir möcüzə baş verəcəyini gözləyirdi burada. Düşmənin aşağı enəcəyinə çoxlarının inanmağı gəlmirdi. Cəbrayıl alayındakı bir sıra səriştəsiz, naşı komandirlər ölümün ağzına tərəf itələdikləri cavan uşaqların halına yanmaqdan artıq var-dövlətlərinin, yaxın qohum-əqrabalarının hayında idilər. Gündən-günə kəsərsizliyi açıq-aydın hiss olunan ordunun bir sıra işbazları qandan, faciədən qazanc götürmək üçün gizlində baş sındırır, aşkarda özlərini yenilməz qəhrəman hesab edirdilər...

Daşbaşı faciəsi məhz bu cür yaramazların ucbatından baş verdi. 15 avqust 1993-cü il tarixindən sonra əslində Cəbrayılın qala qapıları düşmənin üzünə açılmış, «açarlar» könüllü surətdə yağılara ərmağan edilmişdi.



Maralyan kənd orta məktəbinin müəllimi Mehrac Dadaşovun dediklərindən:

– Rüfəti kiçik yaşlarından tanıyırdım. Başıaşağı, əməksevər bir adam idi. Atası Rəvan kimi zəhməti ilə dolanır, əllərinin qabarı ilə öyünürdü. Rüfətin şəhid olması mənim də qəlbimi dara çəkdi. Bircə onunla təsəlli tapırıq ki, şəhidlər təkcə öz ailə üzvlərinə deyil, bütövlükdə Azərbaycan xalqına ləyaqət gətirirlər. Rüfət kimi oğulları olan camaatın yurd yerlərindən didərgin düşməsi ən böyük günahdır...

Bu qınağın alovunda közərə-közərə doxsan üçüncü ilin payızından zillət çəksək də, doğma torpaqlarımıza qayıdacağımıza, Rüfətin, Müslümün, Cəbrayılın, Rəfayılın, Rantiqin, Arifin... qanı tökülən Daşbaşıda düşmənə ibrət dərsi verəcəyimizə hamılıqla inanırıq. O gün uzaqda deyil...

## SƏNİN ATAN QƏHRƏMANDIR



***Məmmədov Mütəllim Kərim oğlu***
***doğulub - 08.1968-ci il,***
***Cəbrayıl rayonu, Balyand kəndi;***
***şəhid olub - 18.02.1993-cü il,***
***Füzuli bölgəsi***

– Nənə, ay nənə, bəs atam nə vaxt gələcək? Axı, demişdi ki, o mənə şəkilli kitablar alıb gətirəcək?

– Dərdin mənə gəlsin, tələsmə, atan Allah qoysa tezliklə işdən qayıdacaq, sənə ürəyin istəyən hər şeyi alıb gətirəcək.

– Daha heç nə istəmirəm, nənə. Bircə atamın evimizə gəlməyini istəyirəm. Görürsən hamının atası evindədir, bircə mənim atamdan başqa. Bəs, nə vaxt gələcək atam?

– Mənim körpə quzum, Günel balam, bir də yatıb durandan sonra görəcəksən ki, atan evimizdədir.

– Nənə, istəyirəm ki, o lap tez gəlsin. Bəs, mənim Kərim babam haradadır. Axı, sən deyirdin ki, iki gündən sonra o da gələcək...

Şövkət nənə oğlu Mütəllimin yadigarı olan balaca Günelə özünü şən göstərməyə çalışsa da, qızcığaz elə bil onun gözlərindəki bulud harayını eşidib yatağına uzandı. Üzünü doyunca görə bilmədiyi atasının sabah qayıdacağı fikri ilə yuxuya getdi...

Nənə ilə nəvə arasında bu sual-cavablar iki ilə yaxındır ki, davam edir, Günel başqa uşaqlar kimi atasının sinəsinə sığınmaq istəyir, nənəsi əsl həqiqəti açıb söyləməkdə çətinlik çəkir. O, Günelə deyə bilmir ki, qızım, sənin atan daha bu evə qayıda bilməyəcək. Yox, bu kəlmələri heç vaxt söyləməyəcək Şövkət ana. Ürəyində düşünür ki, onsuz da balamın yadigarı böyüyəndə biləcək ki, atası torpaq uğrunda şəhid olub...

Dağların ağuşuna sığınan Balyand kəndi Mütəllimin ilk beşiyi, ilk ünvanı olub, o buradan dünyaya boylanıb, uzaq-yaxın ellərə ayaq açıb. 1984-cü ildə kənd orta məktəbini bitirəndən sonra hərbi xidmətə yollanıb. İki il davam edən əsgərliyini Balyanddakı ata ocağından çox-çox uzaqlarda keçirsə də doğmalarını, uşaqlıq dostlarını yadından çıxarmayıb...

Vətənə qayıdan kimi Mütəllim bir parça ruzi dalınca Bakıya üz tutub. Dağlar qoynunda böyüyən bu gənc Xəzər sahilindəki şəhərin qələbəliklərinə tez öyrəşib.

Bəlkə də o vaxtlar yurd çağırışı, Vətən harayı onu yerindən tərpətməsə idi, Mütəllimi Bakıdan heç nəyin cazibəsi ayıra bilməzdi. Vətənin dar günündə rahat işini, sərfəli dolanışığını buraxıb rayona gələndə, onun bu hərəkətindən heyrətə gələnlər də olub.

1993-cü ilin may ayından başlayaraq, Cəbrayılın yaşayış məntəqələri uğrunda gedən döyüşlərin hamısında iştirak edib Mütəllim. Bir dəfə başından yara alsa da, yoldaşlarını tərk etməyib. Cəbrayılın süqutundan sonra Gəncəyə yollanıb. Sonra Milli Ordunun sıralarında Ağdamda gedən döyüşlərdə iştirak edib. Füzuli bölgəsindəki yaşayış məntəqələri uğrunda gedən vuruşmalarda şəhid olub...

Kərim kişi oğlunun ölümündən sonra onun yadigarı olan Güneli qayğısız böyütməyi qarşısına məqsəd qoymuşdu. Ancaq ata oğlunun ölümünə tablaşa bilməyib, dunyadan nisgilli getdi. Şövkət ana balasının canlı nişanəsini böyütmək üçün dərdə-ələmə tablaşa-tablaşa günü-günə calayaraq balaca Günelin suallarına ürəyi göynəyə-göynəyə cavab verir. Qoy, Günel balamız böyüyəndə bilsin ki, onun şəhid atası Mütəllim Məmmədov Vətəni ürəkdən sevdiyi üçün əbədiyyət adlı səfərə çıxıb. Oradan hələ indiyə kimi geri qayıdan olmasa da, Mütəllim kimi el qeyrəti çəkənlərin hər yerdə xoş sözünü, sorağını eşidirik. Dünyada şərə, nəğməyə çevrilən şəhid ömründən uca zirvəmi var?

*Sənin atan qeyrətli,*
*Bir insandır, Günelim.*
*Sənin atan bir igid,*
*Qəhrəmandır, Günelim.*



*Ömrün boyu həmişə,*
*Sığın onun adına!*
*Harda olsan yetəcək,*
*O, sənin imdadına...*

## O, SƏMƏNDƏR QUŞU İDİ...



***Məmmədov Faiq Fərman oğlu***
***doğulub - 24.07.1971-ci il,***
***Cəbrayıl rayonu, Soltanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Yurd savaşında xeyli say-seçmə oğul itirən Soltanlı camaatı bu gün ölkəmizin müxtəlif regionlarına səpələnsələr də, doğma ocaqlarına qayıdacaqları günün vüsalına söykənib Faiq kimi şəhid oğullarımızın adlarını ehtiramla anır, onların əsirlikdə qalan gor evlərinin salamatlığı üçün Tanrıdan aman diləyirlər. Ulu Tanrı səbrli olduğu qədər də haqqa dayaq duran, mərhəmətini əsirgəməyəndir. Bəs, düşmən necə? Ondan insaf-aman ummağa dəyərmi? Yox, Xocalını qana çalxayan, Qaradağlını odda yandıran, Daşbaşıda gecə yarı balalarımızı bağrı dalaq edən mənfur ermənilərdən mərhəmət gözləməyə dəyməz. Təsəllimiz təkcə budur ki, qaçqınlıq əzabına qatlaşan ellərimiz ruzi sınağına dözə-dözə yurd savaşında şəhid olan oğullarının adını ehtiramla anır, onların xatirəsini nağıllaşan söhbətlərində göyərdir. Faiqə həsr etdiyimiz bu yazı el-oba istəyindən doğan sətirlərlə səsləndikcə qəlbimizdə rahatlıq tapır, bir dərdli ailəyə azacıq da olsa təskinlik vermək borcundan çıxırıq...

Faiq Soltanlıda orta məktəbi bitirəndən sonra «qırmızı imperiya»nın ordusunda xidmət etsə də öz ana Vətənini bir an da olsun unutmurdu. Onun uzaq Belorusiyanın Kobrin şəhərindən «uçub» gələn göyərçin qanadlı məktublarından duyulurdu bu istək. Oradakı hərbi hava qüvvələrindən müdafiə hissəsində qulluq etdiyindən, demək olar ki, müasir silahların hamısı ilə tanış ola bilmişdi. Doxsan birinci ilin noyabr ayında evlərinə qayıdanda az qala çoxları onu tanımaqda çətinlik çəkdi. Kənddən yeniyetmə kimi gedən

Faiqin uzaq eldəki əsgərlik həyatı onu köklü qaya kimi bərkitmiş, qollu-qanadlı etmişdi. Boy-buxunu, yerişi-duruşu göz oxşayırdı onun.

Faiq yurdsevər olduğundan Araz kənarındakı kəndlərindən baxanda açıq-aşkar görünən dağlardakı savaşa biganə qala bilmədi. Könüllü surətdə rayondakı batalyona gedib, əlinə təzədən silah aldı. Həmin gun dilində səslənən bir şeirlə döyüşə gəlmişdi Faiq...

*Ana torpaq, pozulubdu dincliyin,*
*Hər işinə yarımağa gəlmişəm.*
*Səndən ötrü qurban verrəm gəncliyi,*
*Vətən, səni qorumağa gəlmişəm...*

Faiqin dilində əsgər andı kimi səslənən bu kəlmələr hər addımda onun harayına, köməyinə çatdı. Cəbrayılın Quşçular, Şişqaya torpaqları uğrundakı qanlı döyüşlərə cəsarətlə atılan bu igid ölümü eyninə də gətirmədi. Cəbhəyə gəldiyi gündən onu qarabaqara izləyən ölüm mələyi onu Daşbaşı uğrunda gedən döyüşlərdə ağuşuna alıb əbədiyyətə apardı. İki gündən sonra onun yandırılmış cəsədini tapan əsgər dostları:

– Gorun nurlu olsun, Faiq, – dedilər. – Sən Vətən yolunda özünü Səməndər quşu kimi oda-alova atdın...

## GÖZÜ YOLDA QALAN VAR...



***Məhərrəmov Rahib Böyükkişi oğlu***
***doğulub - 1970-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 25.08.1993-cü il, Fuzuli bölgəsi***

Rahib Horovlu kənd orta məktəbini bitirən kimi rayon polis şöbəsində polis nəfəri kimi işə başlamışdı. Onu bu sahəyə gətirən şəxsi arzuları, qəlbinin başında illərdən bəri böyütdüyü amalları idi. Camaatın asayişi keşiyində dayanıb haqqın tapdanmasına yol verməmək Rahibin lap uşaqlıq arzusu idi. Bəlkə də oxuduğu kitabların, baxdığı kino-filmlərin təsiri ilə bu çətin sahədə işləməyi özünə borc bilmişdi. Bəlkə də bu eləcə adi uşaq marağından doğan bir hal idi ki, Rahibi böyüyəndə də tərk etməmişdi. O ilk gündən arzulamışdı ki, yoldaşları arasında gücü ilə, cəsarəti və ədaləti ilə seçilsin. Ürəyində tutmuşdu ki, ara səngiyən kimi fürsət tapıb bu sahədə təhsilini davam etdirsin...

Heyf ki, bütün arzuları ürəyində qaldı Rahibin. Nə sevdiyi peşənin fərəhini axıra kimi yaşadı, nə könül verdiyi qıza qovuşa bildi, nə də bir insan ömründən doyunca kam aldı. Rahibin ilk gəncliyi təlatümlü illərə təsadüf etdiyindən o, bütün arzuları ilə vidalaşıb Vətənə oğulluq borcunu verməyi üstün tutdu. Əslində onun işi elə idi ki, onsuz da hər gün odun-alovun içindən keçməli olurdu. Sözün həqiqi mənasında 1990-1992-ci illərdə Cəbrayıl polisi demək olar ki, bütün heyəti ilə ən qaynar nöqtələrdə dayanır, camaatın dincliyini qorumaqla yanaşı həm də erməni quldurlarına qan uddururdu. O qanlı-qadalı günləri yada salanda Cəbrayıl polis idarəsi rəisinin müavini Firat Hüseynov varından yox olur həmişə. Firat müəllim yurd savaşı başlananda – 1992-ci ildən Bakıdakı rahat işini, evini, dolanışığını qoyub, doğma rayona, doğulub boya-başa çatdığı Süleymanlıya gəlmişdi. İlk günlər şəxsi heyətin əlbəyaxa fəndlərlə döyüşə hazırlanmasında yaxından iştirak etmiş, sonralar isə cəbhələrdə döyüşə rəhbərlik etmişdi. Rahibi də elə o vaxtdan tanıyırdı. Firat müəllim Rahibi dərin bir kədərlə xatırladı:

– Yoldaşları arasında sərrast atəş açmaq məharəti ilə fərqlənən Rahib o vaxtlar Banazur, Daşbaşı, Hərəkül, Sur əməliyyatlarında əməlli-başlı fərqlənmiş, polis şöbəsində ad-san çıxarmışdı. Ən çətin döyüşlərdə belə o, özünü itirmir, düşmən üstünə şahin kimi şığıyırdı...

Cəbrayılın işğalından sonra düşmən azğınlaşaraq Beyləqan istiqamətinə doğru irəliləməkdə idi. O vaxt Rahib üç nəfərlə birlikdə ön postda dayanmışdı, o, qəddini azca dikəldib əlindəki qumbaranı yaxınlaşan tankın üstünə atdı. Dəhşətli partlayış dalğası onu silkələsə də Rahib irəli şığıyan ikinci tankı da nişan aldı. Elə bu zaman açılan namərd gülləsi onun sinəsini parçaladı...

Dünyalar qədər sevdiyi, könül verdiyi qızın halından xəbərdar olmadan dunyasını dəyişdi Rahib. O qızın səhər mehinə qarışan səsi o vaxtdan nalə qoparır hələ də:

*Qarabağda talan var,*
*Zülfün üzə salan var.*
*Rahibim, tez qayıt gəl,*
*Gözü yolda qalan var...*

# DOSTLAR MƏNİ GÖZLƏYİR...



***Məhərrəmov Rauf Allahverdi oğlu***
***doğulub - 04.05.1971-ci il,***
***Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi;***
***şəhid olub - 19.03.1994-cü il,***
***Fuzuli rayonu, Horadiz kəndi***

Rauf haqqında məlumat axtararkən onun Bakıda yaşayan əmisi Seyidəli müəllimi nişan verdilər bizə. Seyidəli müəllim özü də bir müddət Cəbrayılda rayon partiya komitəsində işləmişdi. İndi şəhərdə yaşasa da rayon mühitinə, kənd həyatına bələd adam idi. Onun üçün kədərli də olsa, Rauf haqqında qısa məlumatları bizə çatdırdı: Rauf 1988-ci ildə kənd orta məktəbini bitirmişdi. Orta məktəbi bitirən ili hərbi xidmətə çağırılmış, Rusiyanın Kaluqa şəhərində əsgəri xidmətini başa vurmuşdu. Əsgərlikdən qayıdandan sonra bir müddət kənddə mühasib işləyir. 1992-ci ildən cəbhəyə – döyüşə yollanır. İki il – 1994-cü ilin martına kimi odlu-alovlu cəbhələrdə vuruşur. Cəbrayıl torpaqları düşmən işğalına keçəndən sonra Rauf Füzuli cəbhəsində döyüşürdü. Son döyüşdən qabaq atası Allahverdi ona «Rauf, bir-iki gün də evdə qalsan rahat olarıq. Bala, sonra gedərsən», – demişdi. Onda Rauf cavab vermişdi ki, yox, ata, məni cəbhə dostlarım gözləyir, bəs mən onlara nə deyərəm? Yox, mən getməliyəm. Allah qoysa müharibə qurtarandan sonra həmişə bir yerdə olacağıq, salamat qalın.

Bu Raufun son sözləri, son gedişi oldu. 1994-cü il martın 19-da Horadiz istiqamətindəki ağır döyüşdə qəhrəmanlıqla həlak oldu. Doğma torpaqlara qayıtmağa tələsən Rauf Məhərrəmov Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edildi.



# ÖLÜMÜNƏ İNANMIRAM...

***Mirzəyev Elsevər Kalbalı oğlu***
***doğulub - 22.06.1975-ci il,***
***Cəbrayıl rayonu, Quycaq kəndi;***
***şəhid olub- 15.08.1993-cü il***
***Xocavənd rayonu, Sur kəndi***



Elə bil o gün Elsevərin ürəyinə dammışdı ki, bir daha geri qayıtmayacaq. Elə bil ölümü ayan olmuşdu ona. Sonuncu dəfə evlərindən çıxanda qarşılaşdığı adamlarla sağollaşıb demişdi: «Mənə halallıq verin, dünyanın işini bilmək olmaz. Ölüb eləsəm, bilin ki, son nəfəsimə kimi Vətənə sədaqətli olmuşam»...

Görəsən hansı hisslərin təsiri ilə deyilmişdi bu sözlər. Elsevər ağciyər oğul deyildi, onu tanıyanlar bilirdilər ki, bütün ömrü boyu qorxunu-hürkünü vecinə alan olmayıb. Səngərə ayaq basdığı gündən ölümün qaşla-göz arasında gizləndiyini bilsə də dediyindən dönməyib...

O gün hiss edirdi ki, Quycaq kəndindəki həyətlərindən sonuncu dəfə aralanır. Bir də bu evə qədəm basmayacaq. İnnən belə ruha çevrilib bu kəndin başı üstə gəzib dolanacaq. O gün ölümü özünə ayan olsa da yolunu dəyişmədi, Daşbaşını dolanıb Banazur kəndi yaxınlığındakı posta xoş ovqatla qədəm qoydu. Əsgər yoldaşları ilə illər ayrısı kimi görüşüb, evlərindən gətirdiyi ləziz xörəkləri onlarla birlikdə yedi...

Ertəsi gün sübh tezdən, saat beş-altı radələrində erməni tərəfdən atılan qradlar Banazur postunun külünü havaya sovurdu. Qismətə bax ki, orada olan əsgərlərin hamısı salamat qalsa da, səngəri son nəfəsinə kimi tərk etməyib müdafiə mövqeyi tutan Elsevər qəlpələrdən didim-didim oldu...

Döyüşçü dostlarının cəhdlərinə baxmayaraq, bu cəsur oğlanın meyitini səngərdən çıxarmaq mümkün olmayıb...

Səmayə ana oğlunun ölüm sorağını eşitsə də bu acı xəbərə inanmayıb. Ona bu qara xəbəri çatdıranlara:

- Elsevərim öləsi oğul deyildi, əgər o, şəhid olubsa, meyitini gətirin, gözlərimlə görüm, – deyib...

İndinin özündə də bu dərdli ana ciyərparasının ölümünə inana bilmir, hər dəfə qapı açılanda elə bilir ki, indicə Elsevər içəriyə girib boynuna sarılacaq onun...

Mirzəyev Elsevər Kalbalı oğlu Quycaqda böyüyüb boya-başa çatandan sonra orta məktəbi bitirmiş, sovet ordusu sıralarında qulluq etmişdi. Ancaq çox qala bilməmişdi orada. Erməni quldurlarının vəhşiliyini eşidib Vətənə qayıtmışdı. Onu qınayanlara:

– Mən öz torpağımı, öz ana-bacımı burada yalqız qoyub yadların Vətənini qoruyan deyiləm, – demişdi. Sonra da əlavə etmişdi ki, günü sabahdan torpaqlarımızı azad etməyə yollanacağam. Bu yoldan bircə addım geri çəkilsəm, anamın südü mənə haram olsun...

Kənd camaatının Eldəniz adı ilə tanıdıqları Elsevər axıracan sözünün üstə durdu. O, ölümün soyuq üzünü görəndə də dilini çeynəyib sözünü geri götürmədi...

Elsevərin yaxın qohumu Akif Əhmədov deyir ki, rayonda vəziyyət gərginləşəndə Elsevərə baş çəkməyə getmişdim. Onun mərdliyi və cəsarəti məndə qibtə hissləri oyatdı. Hələ onda o, mənə demişdi ki, mən heç vaxt səngəri tərk etməyəcəyəm. Belə oğulları torpaq da sevdiyindən qoynuna tez aparır.

Hər səhər Səmayə ana yuxudan duran kimi gözünü uzaqdakı Cəbrayıl dağlarına sarı yönəldib oğlunu səsləyir:

*Niyə xəyala dalmısan,*
*Yoxsa saralıb-solmusan?*
*Ürəyimdə dərd olmusan,*
*Ölümünə inanmıram.*



## SƏNSİZ YAMAN DARIXMIŞIQ...



***Mirimov Qərib Mehdi oğlu***
***doğulub - 11.08.1950-ci il,***
***Beyləqan rayonu, Maşqara kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Qərib Beyləqan rayonunun Maşqara kəndində dünyaya göz açsa da dədə-baba yurdu Cəbrayıl elimizlə sıx bağlı idi. Onun burada doğmaları, əzizləri yaşayır, Qəribi öz övladları hesab edirdilər. Tale elə gətirdi ki, o, ölüb bu torpaqda qalası oldu. Pirəsəd kəndindəki gor evi Qəribi bağrına basıb, onun yaraları üstə məlhəmə döndü...

Orta məktəbi bitirdiyi ilin payızında sovet ordusunda əsgərlik etmişdi. Vətənə qayıdanda doğulduğu kənddə bənd olmayıb Sumqayıt şəhərinə gələrək burada işə düzəlmişdi. Bir vaxtlar mahnılarla vəsf olunan bu şəhər onun idmana olan sonsuz istəyi qarşısında yaşıl işıq yandırmışdı. Qərib ağırlıq qaldırma üzrə şəhərin sayılıb-seçilən idmançılarından biri idi. Qazaxıstan Respublikasında, Həştərxan, Quryev, Kuybışev, Moskva, Leninqrad və s. şəhərlərdə keçirilən idman yarışlarından parlaq nəticələrlə qayıtmışdı. Ağırlıq qaldırmaq üzrə respublika çempionu idi Qərib...

Əslən Zəngilandan olan Xanım adlı qızla ailə qurandan sonra Bəsit çayı, misli-bərabəri olmayan çinar meşələri onu ağuşuna çəkmişdi. Zəngilanda yaşadığı illərdə həyatını idmançı gənclərin hazırlanmasına sərf etmişdi. Bir məşqçi kimi uğurları dildə-ağızda gəzirdi onun. 1988-ci ildə Cəbrayılın Pirəsəd kəndinə köçüb ulu babalarının uyuduğu torpaqda özünə ev-eşik düzəltmişdi...

Doxsan ikinci ilin payızından Cəbrayıl rayon milis şöbəsinin əməkdaşı kimi torpaqlarımızın keşiyində dayanırdı Qərib. İndinin özündə belə igidliyi yaddaşlarda təzələnən bu qeyrətli eloğlumuz keçirilən bütün əməliyyatlarda fəal iştirak edir, ölümün gözünə dik baxırdı...

Cəbrayılı süquta sürükləyən Daşbaşı qırğınından sonra strateji əhəmiyyəti olan bu kənd ermənilər tərəfindən işğal olunmuşdu. Kəndi erməni quldurlarından təmizləmək üçün qonşu bölgələrdən də xeyli qüvvə gəlmişdi. Sübhün gözü açılandan başlayan qanlı döyüşlər axşama yaxın Milli Ordu-

muzun qələbəsi ilə sona çatdı. Rayon polis şöbəsi əməkdaşlarının da iştirak etdiyi bu döyüşdə Qərib əvvəldən-axıra kimi inadla vuruşdu. Əlbəyaxa döyüşdə üç erməni yaraqlısını məhv edən bu igid oğlan həmin gün bir daha geriyə dönmədi. Onun vaxtsız ölümünə vaysınanların çiyinlərində gor evinə yollanan bu qeyrətli eloğlumuzun adı ürəklərə həkk oldu...

Doqquz övladın ümid yeri olan bir ata doğma torpağın ağuşuna sığındığı gündən bəri Xanım bacı sevimli ərini ürəyinin dərinliyində arayır, onun qeybə çıxan varlığını dərdə, ələmə çevirib sinəsinin üstə gəzdirir:

*Doqquz balan göz dikib,*
*Yollarına, ay Qərib,*
*Fələkmi qandal vurub,*
*Qollarına, ay Qərib?*

*Sənsiz yaman darıxıb,*
*Qız balan, sonbeşiyin.*
*Qayıt, viran qalmasın,*
*Təzədən ev-eşiyin...*

## BOZ AT MURAD DEYİLMİŞ



***Məmmədov Ədalət Ramazan oğlu***
***doğulub - 02.02.1977-ci il,***
***Cəbrayıl rayonu, Balyand kəndi;***
***şəhid olub - 30.09.1996-cı il,***
***Tərtər bölgəsi***

Rəna xala yuxudan hövlnak qalxdı. Onu tər basmışdı. «Allah sən saxla, Allah sən saxla!» – deyərək çırpınırdı. Qızı İradə anasına yaxınlaşdı. «Nə olub, ay ana, niyə belə həyəcanlısan?» – deyə onu dindirdi. Anası onun boynunu qucaqladı. «Pis yuxu görmüşəm, ay bala» – deyib ağladı. «Gördüm ki, dilim-ağzım qurusun, Ədalət bir boz at minib çapır. At onu aparır. Ədalət nə qədər çalışsa da atı saxlaya bilmir. At birdən dəlicəsinə kişnəyib Ədaləti yerə çırpır». İradə anasına toxtaqlıq verdi. Nə olsun, ay ana, yuxudu da,



yuxuların hamısı çin olmur axı. Anası dedi: – Yox bala, yuxuda boz at minmək pis əlamətdir, üstəlik Ədalətin yıxılması... Vallah qızım, Ədalətin başında nə isə var.

Ədalət Rəna xalanın hərbi hissədə qulluq edən oğluydu. Atası çoxdan vəfat etmişdi. Yazıq arvad altı övladı güc-bəla ilə böyütmüşdü. Ədaləti hamısından çox istəyirdi. O, istiqanlı, zirək oğlan idi. Qohum-əqraba da onun xətrini istəyirdi. Anadan olduğu Balyand kəndində təhsili yarımçıq qaldı. Cəbrayılın işğalından sonra Biləsuvar rayonu ərazisindəki I saylı çadır şəhərciyində məskunlaşmışdı. Orta təhsilini də şəhərcikdəki Cəbrayıl müstəqil orta məktəbində başa vurdu. Dil-ədəbiyyat müəllimi Rəhimov Rəhimin dediklərindən: «On birinci sinifdə inşa yazı aparırdım. Mövzu belə idi: «Vətənə xidməti nədə görürsən?» Ədalətin yazısında kövrək notlar vardı. O, yazısını belə qurtarmışdı: «Şəhidlik Vətənə xidmətin kulminasiya nöqtəsidir. Əgər lazım olsa, mən bu nöqtədən keçəcəyəm». İnşa yazıdan bir il keçdi. Ədalət də vacib sandığı Şəhidlik Zirvəsinə ucaldı. Vətən Şəhid Ədalətlərin çiyinlərində Vətəndir!

Ədalət Məmmədov respublikamızın dilbər guşələrindən olan Tərtər rayonunun Qapanlı kəndində «N» hərbi hissəsində qulluq edirdi. Komandir Xəlilov onun intizamlı, vətənpərvər, qorxmaz, qeyrətli olmasından ürəkdolusu danışır:

– Ədalət hərbi hissənin ən nümunəvi əsgərlərindən biri idi. Hərbin sirlərini öyrənməyə ciddi səy göstərirdi. Fərarilik edən əsgərlərə qarşı barışmaz idi. Ən yaxın dostları Zəfər və Mirzalı idi. Mirzalı deyir ki, tez-tez anasını xatırlayırdı. Anasının onları necə çətinliklə böyütməsindən, atasızlığın məhrumiyyətlərindən yana-yana danışırdı.

Ədalətin ürəyində bir sevgi də vardı. Bu sevgini qəbir evinə apardı. Evlərində heç kimə açmadığı bu munis duyğunu yalnız dostlarına demişdi. S. Vurğunun dediyi bu bəndi tez-tez, həm də kövrək hisslərlə yada salırdı:

*O qız yoldan tək aşanda,*
*Saç kəmərə dolaşanda.*
*Atdan düşüb yol çaşanda,*
*Mən olum zəvvarın, dağlar.*

O yol Balyandda qalmışdı. Saç kəmərə dolaşmadı. Bir qız ömrü qarıdı. Sevən odlu bir ürək nakam əbədiyyətə qovuşdu.

Hadisə belə oldu. Ədalətgil postda idilər. Onlar ətrafı yoxladılar. Elə bu vaxt qulaqbatırıcı, vahiməli bir səs Mirzalını və Zəfəri diksindirdi. Partlayan mina Ədaləti həyatdan apardı...

Nə yaxşı ki, Ədalət anasının doqquz gün əvvəl rəhmətə get-məsindən xəbər tutmadı. Nə yaxşı ki, Rəna xala şəhid balası Ədalətin qəbri üstündə saç yolmadı. Bir-birindən xəbərsiz bu dünyaya göz yumdular. Muğan çöllərindəki qəbiristanlıqların birində iki qərib məzar baş-başa verib uyuyur. Balyandın Lalavacandakı qəbiristanlığında iki məzar yeri boş qaldı. Bu qərib məzarlar üstündə bir ruh narahat-narahat dolaşaraq fəryad edir. O, Ramazan kişinin nigaran ruhudur. Rənanın ömür-gün yoldaşı, Ədalətin atası Ramazan kişinin ruhu...

Rəhmətlik Rəna xalanın yuxusu çin oldu. Doğrudan da, boz at yuxuda pis əlamət sayılır. Boz at yuxuda murad deyilmiş.

## SON DÖYÜŞ



***Məmişov Qədir Bəylər oğlu***
***doğulub - 11.02.1974-cü il,***
***Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi;***
***şəhid olub - 08.09.1994-cü il,***
***Cəbrayıl rayonu, Quycaq kəndi***

Rayon mərkəzini, dağ və dağətəyi kəndlərimizi işğal edən erməni təcavüzkarları indi Araza tərəf üz tutmuşdular. Məqsədləri Mahmudlu-Horadiz makistral yolunu tutmaq idi. Ona görə də ilk gündə öncə Quycaq, Şəybəy kəndlərini ələ keçirmək üçün böyük bir qüvvə ilə həmin istiqamətdə geniş hücuma keçdilər. Quduzlaşmış ermənilər elə zənn edirdilər ki, artıq pərən-pərən düşmüş Milli Ordumuz ilk zərbəyə tab gətirməyəcək, onlar asanlıqla məqsədlərinə çatacaqlar. Ancaq hiyləgərliyi ilə müvəqqəti uğur qazanmış qaniçənlər çox ciddi maneəyə rast gəldilər. Cəbrayıl alayının igid əsgərlərindən aldıqları ölümcül zərbədən özlərini itirdilər, döyüş meydanlarından qaçmağa çalışdılar. Qədirgilin dəstəsi düşmən əsgərlərinə göz açmağa macal vermirdi. Döyüşdə yüzdən çox erməni hərbçisi məhv edildi. Ermənilər münaqişə başlanandan bəri belə döyüş görməmişdilər.

Qədirgil möhkəm dayanmışdılar. Son nəfəsimizədək vuruşacağıq deyirdilər, öldü var, döndü yox. Düşmən yalnız sinəmizin üstündən keçib



kəndə gedə bilər. Lakin satqınlıq öz işini görmüşdü. Maneəsiz hücuma keçən düşmənin çoxsaylı müasir texnikasının qarşısında tab gətirmək o qədər də asan məsələ deyildi. Bu dəhşətli döyüşdə Qədir ağır yaralandı. Bu onun son döyüşü oldu... İgid əsgəri müalicə etmək üçün qospitala apardılar.

Q. Məmişov 1991-ci ildə kəndlərindəki orta məktəbi bitirdikdən sonra rayonumuzun Sarıcallıdakı 131 saylı texniki peşə məktəbinə daxil olmuş, traktorçu-maşinist peşəsinə yiyələnmişdi. 1992-ci il iyunun 26-da isə Milli Ordumuza hərbi xidmətə çağırıldı. O, torpaqdarımızın işğalçılardan müdafiəsində yaxından iştirak etdi. Xocavənd rayonunun Sur kəndində minaya düşüb yaralandı və 2 ay xəstəxanada müalicədə olduqdan sonra yenidən döyüş meydanına qayıtdı.

İkinci dəfə yaralananda həkimlər nə qədər cəhd etsələr də onu xilas edə bilmədilər. Aldığı yaradan Bakıdakı qospitalda gözlərini həmişəlik yumdu.

## QOCADAĞ DA QƏHƏRLƏNDİ



***Misirxanov Çingiz Səyyaf oğlu***
***doğulub - 23.06.1977-ci il,***
***Cəbrayıl rayonu, Sofulu kəndi;***
***şəhid olub - 15.06.1998-ci il,***
***Gədəbəy bölgəsi***

Qışın oğlan çağı olmasına baxmayaraq, Muğanda havalar o qədər də sərt keçmirdi. Həmin gün səmanın üzü də tərtəmiz görünürdü.

Özündən böyük qardaşı Valehin qəfil gəlişi Çingizə hər şeyi unutdurmuşdu. Axı, əziz qardaşı 1990-1992-ci illərdə keçmiş SSRİ ordusu sıralarında xidmət etdikdən sonra torpaqlarımızın oda qalandığını görüb düşmənlərdən müdafiə edənlərin cərgəsinə qoşulmuşdu. Cəbrayıl, Füzuli və Ağdam bölgələrində gedən döyüşlərdə iştirak etmiş, ağır yaralansa da, mualicə olunaraq yenidən ön cəbhəyə qayıtmışdı. Uzun ayrılıqdan sonra Valeh erməni kəşfiyyatçısını

tutub briqadaya təhvil verdiyinə görə komandanlıqdan təşəkkür almış, valideynləri ilə görüşmək üçün 15 günlük məzuniyyətə buraxılmışdı. Çingizin qəlbinə axan fərəh və qürur hissi aşıb-daşırdı. Öz-özünə söz verdi ki, qardaşı kimi olacaq. Qaniçən yağılardan xarabazarlığa çevirilmiş şəhər və kəndlərimizin, yandırılıb külə döndərilmiş evlərimizin, yurd uğrunda canından keçən şəhid oğullarımızın intiqamını alacaq.

Ataları Səyyaf kişi də, anaları Həqiqət bacı da məcburi köçkünlükdən sonra heç belə ürəkdən sevinib, şadlanmamışdılar. Sanki dünyaya yenidən gəlmişdilər.

Çingiz özü çağırışçı idi. Hərbi komissarlığın göndərişi ilə Sabirabad şəhərindəki sürücülük kursunu da bitirmişdi. O, 1995-ci ilin oktyabr ayında ordu sıralarına çağırıldı. Əvvəlcə «N» hərbi hissəsində döyüş təlimi keçir, sərrast atıcılığa yiyələnir, mahir qumbaraatan kimi çevikləşir. Komandirləri sərrast atmaq məharətinə görə onu birinci əsgər kimi tanıyırdılar. Görünür, elə əsgərlər arasında sərrast atəş təlim məşqlərində seçilib-fərqləndiyindən ruhlandığı üçün də gündəliyində yazmışdı:

*Üç min metrliyi dəqiq vururuq,*
*Erməninin anasın ağlar qoyuruq.*
*Minbatın adını əziz tuturuq,*
*Düşmənin başını əzər bu minbat.*

Qulluq etdiyi Vətən ordusunun şərəfini yüksəltmək üçün ləyaqətli əsgər kimi formalaşmağı özünə məram seçmişdi.

1997-ci ilin payızı arxada qalmışdı, yeni təqvim ili çata-çatda idi, dekabrın 30-da döyüş mövqeyində düşmənlə sərhəd postlarında dayanıb mərdmərdanə qisas gününü gözləyir, böyük qardaşı Valehin hərbi şücaətini təkrar etmək – «düşmən dili gətirmək» üçün fürsət-məqam gəzirdi.

Nəhayət, 1998-ci ilin iyunun 15-də düşmən tərəfə kəşfiyyata gedərkən, taleyin acı hökmü onun qızğın, ehtiraslı gənc ömrünə qatil kəsildi – Gədəbəyin Qocadağ yüksəkliyi ətrafında ölümün sərt gülləsinə tuş gəldi. Daha bir igidimiz də şəhidlik piyaləsini nuş etdi. Və Çingiz Misirxanov bununla sübut etdi ki, Vətənimiz Azərbaycanı qorumaq uğrunda şəhid gedəcək oğullar var və olacaq, babalarımızın ulu cəngavərlikləri bu gün nəvələrin qanında-iliyində yaşamaqdadır. Mərdlikləri, igidlikləri babalar özləri ilə aparmayıblar ki! Axı, igidlik ölmür, qəbrə gömülmür!



# QƏLPƏ YARASI



***Muradov Elşən Mürvət oğlu***
***doğulub - 1975-ci il,***
***Cəbrayıl rayonu, Mahmudlu kəndi;***
***şəhid olub - 05.10.1995-ci il,***
***Qazıməmməd şəhər xəstəxanası***

Üç ay idi ki, Şərqiyə oğlunu əsgərliyə yola salmışdı. O vaxtdan da rahatlığı pozulmuş ana özünü heç cür ələ ala bilmirdi. Hər gün üzünü göylərə tutub yalvarırdı: «İlahi, sən bircə balama qıyma, heç olmasa atasız böyüyən üç qıza rəhmin gəlsin!» Son günlər isə nə gecəsi gecəydi, nə də gündüzü gündüz. Yuxusu ərşə çəkilmişdi. Ürəyinə dammışdı ki, nə isə bədbəxt hadisə üz verəcək. Bala sızıltısı ilə döyünən qəlbində cürbəcür fikirlər dolaşırdı. Tez-tez xəlvətə çəkilib için-için ağlayır, ürəyini boşaldırdı.

1994-cü il yanvar ayının 15-də ordu sıralarına çağırılan Elşən Muradov əvvəlcə Qusar rayonundakı «N» hərbi hissəsində xidmət edir. Burada hərbi təlim keçdikdən sonra Tərtərə - cəbhə bölgəsinə göndərilir. Elşən ilk dəfə cəbhədə erməni faşistləri ilə üz-üzə dayananda ani olaraq qarət edilib yandırılan kəndləri, atasının girov düşmüş məzarı, bir də doğma yurd-yuvasından perik salınıb qürbətdə didərginliyin ağır məngənəsində sıxılaraq olmazın əziyyətlərini çəkən anası, bacıları heç fikrindən çıxmır. Bir dəfə hiddətindən özünü başkəsən dığaların üstünə necə atıbsa bir də onda hiss edir ki, namərd düşmənlər onu əhatəyə alıblar. O özünü itirmir, yaxın məsafədən açdığı atəşlə onlardan bir neçəsini yerə sərir. Az sonra köməyə gələn yoldaşları quduzlaşmış yağılara əməlli-başlı dərs verib geri oturdurlar. Qorxmazlığı, cəsurluğu ilə fərqlənən Elşən sonralar da böyük şüçaət göstərib. Əfsuslar olsun ki, Qarabağımızın bir parçası olan Tərtər uğrunda gedən ölüm-dirim savaşı onun son döyüşü oldu.

1994-cü ilin aprel ayının 26-da, bir bahar günündə o, ağır yaralandı. Elşən təcili Bakıdakı hərbi qospitala aparılır. Ağxalatlılar nə qədər ciddi-cəhd etsələr də xəstənin müalicəsinə çarə tapa bilmirlər.

Yataq xəstəsinə çevrilən E. Muradovu ailələri məskunlaşdığı Hacıqabul rayonunun həkimləri daim nəzarətdə saxlayır, ona hər cür tibbi xidmət gö-

stərirdilər. Lakin mərmi qəlpəsindən aldığı yara getdikcə şiddətlənir, Elşəni daha çox incidirdi. Ölümlə həyat uğrunda gedən ilyarımlıq mübarizədən sönra Elşən 1995-ci il oktyabrın 5-də Qazıməmməd şəhər xəstəxanasında gözlərini həmişəlik yumdu. O, Qazıməmməd şəhərindəki Şəhidlər Xiyabanında dəfn edildi.

İndi qürbət eldə bir didərgin ananın vaxtlı-vaxtsız şəhid balasının məzarını qucaqlayıb ürək dağlayan kədərli naləsi hamını mütəəssir edir:

*Allah, günahım nəydi,*
*Zaman qəddimi əydi.*
*Yağı atdığı güllə,*
*Qəfil balama dəydi.*

*Üç bacının qardaşı,*
*Qurumur gözüm yaşı.*
*Gücüm çatmır qaldırım,*
*Fələk atdığı daşı.*

Qəddini düz tut, sınma Şərqiyə bacı! Sənin dərdin hamımızın dərdidi. Düşmənin atdığı ölüm saçan mərmi qəlpəsi təkcə Elşən balamızın deyil, bütövlükdə Vətənimizin köksünə sancılaraq Qarabağ boyda bir yaraya çevrilib. Hələlik kökü çox dərinlərə işləyən bu ağır yara hər birimizi incidir. İnşallah düşmənin bizə uzanan xain əlləri tezliklə dibindən kəsilər, qövr eləyən yaralarımız sağalar, torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş minlərlə Elşən kimi yurd həsrətli oğullarımızın ruhları dinclik tapar. O zaman siz də, biz də rahat nəfəs alarıq.



## ÖZÜNÜ XİLAS EDƏ BİLMƏDİ



***Nəsirov Azər Nəriman oğlu***
***doğulub - 02.1961-ci il,***
***Cəbrayıl rayonu, Şıxalıağalı kəndi;***
***şəhid olub - 05.01.1994-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

Həmin gün Azər evə gec gəlmişdi. Həddindən artıq yorğun və qayğılı görünürdü. Həyat yoldaşını həmişə şən, zarafatcıl görməyə vərdiş edən Elmira xanım onun bikef olduğunu, nə isə ciddi hadisə baş verdiyini duyub soruşdu:

– Səndən çıxmayan iş, qurban olum Azər, sən Allah nə olub belə qaşqabağını sallamısan? Gəmisi dəryada qərq olan adama oxşayırsan.

– Daha bundan artıq nə olacaq? Dağ kəndlərimizdən, elə Cəbrayılın özündən dəstə-dəstə adamların Arazboyuna axışıb gəldiyini görmürsən? İndicə dedilər ki, ermənilər Fuğanlını da götürdülər. Düşmən iki addımlığımızdadı...

– Nə etmək fikrindəsən?

– Günü sabahdan gedəcəyəm hərbi komissarlığa, kəndlərimiz bir-bir əldən gedir. Səncə, mənim kimilərin evdə oturmağa haqqı var? Mən getməyim, başqası getməsin, bəs torpağımızı kim qorumalıdır?

Azər Nəriman oğlu Nəsirov 1976-cı ildə kəndlərindəki səkkizillik məktəbi bitirdikdən sonra respublikamızda adlı-sanlı sədr kimi tanınan Sosialist Əməyi Qəhrəmanı Köçəri Babayevin başçılıq etdiyi təsərrüfatda çalışırdı. Bir il sonra Ağdamda sürücülük peşəsinə yiyələndi. 1979-cu ildə sovet ordusu sıralarına çağırıldı. İki il əsgəri xidmətini başa vurduqdan sonra RTS-də sürücü işlədi. Üzüyolalığı, işgüzarlığı onu kollektivin sevimlisinə çevirdi. Hansı işin arxasınca göndərilirdisə onu layiqincə yerinə yetirirdi.

1993-cü il sentyabr ayında könüllü olaraq Milli Ordumuzun sıralarına daxil oldu. Peşəsi burda da onun karına gəldi. Usta sürücü olduğunu görüb, hərbi hissənin təcili yardım maşınını idarə etməyi ona tapşırdılar. Komandir maşının açarını Azərə verəndə dedi:

– İşin çox məsuliyyətlidir, sən burada daha çox xeyir verərsən. Unutma ki, yaralanmış əsgərlərimizin həyatını xilas etmək səndən də çox asılı olacaq.

Azər o gündən gecəli-gündüzlü təcili yardım maşınının sükanı arxasından düşmədi. Döyüş meydanlarından çıxarılmış yaralı əsgərlərimizi xəstəxanalara, qospitallara çatdırdı. Dəfələrlə ölüm təhlükəsi ilə üzləşməsinə baxmayaraq, işinin öhdəsindən bacarıqla gəlir, yaralı əsgərlərimizi, tibb işçilərini dardan qurtarırdı. Əfsuslar olsun ki, növbəti risqi faciə ilə nəticələndi. 1994-cü ilin yanvar ayının 5-də Ağdam rayonunun Güllücə kəndində yaralıları döyüş meydanından çıxararkən erməni faşistlərinin iriçaplı silahlardan atdıqları atəş nəticəsində şəhid oldu. Azər yüzlərlə yaralı döyüşçülərimizin həyatını xilas etsə də, özünü xilas edə bilmədi. İndi, Bakı şəhərində Şəhidlər Xiyabanında uyuyur.

## SƏN MƏNİ AĞLAR QOYDUN...



***Nəcəfov Pəhlivan Şərfalı oğlu***
***doğulub - 01.01.1968-ci il,***
***Cəbrayıl rayonu, Balyand kəndi;***
***şəhid olub - 25.05.1994-cü il,***
***Kəlbəcər rayonu***

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Qəfil yıxdın evimi,
Qapımı bağlar qoydun.

Pəhlivanın ölümündən sonra bu kəlmələr Gülçöhrə bacının dilindən düşməyib hələ də. Cəmisi üç il yarımın gəlini olan bu qız ömür-gün yoldaşının ölümündən sonra qara geyib, gözlərindən qan ağlayır. Onun səadətini matəmə çevirənlər Tanrı cəzasına məhkum olacaqlarmı görəsən? Yoxsa tökülən bu nahaq qanlar cavabsız qalacaq? Ulularımız təsəlli üçünmü deyiblər: «Tanrı gec eləyər - güc eləyər»... Nə eybi var, onsuz da dərdə tablaşmağı həyat öyrədib bizə. Təki gözəgörünməz o varlığın gücünün düşmən başında sındığını görək. Təki Gülçöhrə kimi qız-gəlinlərimiz qisasın yerdə qalmadığını görüb toxdaqlıq tapsınlar. Ulu Tanrı yurd savaşında Pəhlivan kimi şəhid olan oğullarımızın ruhunu sevindirsin...

Balyand camaatı Pəhlivanı yaxşı tanıyırdı. O, sözübütöv, cəsur bir oğlan idi. Orta məktəbdə müəllimləri, sinif yoldaşları, həyatda tay-tuşları, qanlı



səngərlərdə əsgər dostları adı ilə öyünürdülər onun. Dünyanın güneyli-quzeyli üzündə mənalı bir ömür yaşamışdı Pəhlivan. Yeniyetmə çağlarında qaynaqçı peşəsinə yiyələnmişdi. İstəyirdi ki, həyatda əlinin zəhməti ilə yaşayıb, heç kimdən minnət götürməsin. Arada iki il Vətəndən uzaqlarda yaşamalı olmuşdu. Omsk şəhərində keçən əsgərlik həyatı sakit axarla adlayıb keçsə də, arxada qalan o iki il qəlbinin dərinliklərində səsi ilə, həniri ilə qalmışdı. Doğma el-obaya qayıdandan sonra bir müddət Qaradağ sement zavodunda işləmişdi. Torpaqlarımızın imdad dilədiyi bir vaxtda Pəhlivan dinc peşəsi ilə vidalaşıb cəbhəyə üz tutdu. Doxsan ikinci ilin yazında Füzuli bölgəsində başlayan döyüş yolu soyuq səngərləri dolaşa-dolaşa Murova uzandı. Arazboyu torpaqlar uğrunda gedən hərbi əməliyyatlarda bərkdən-boşdan çıxan bu igid əsgər Murovun qışına, boranına da mərdliklə tablaşdı. O vaxtlar qarlı dağ zirvəsindən üzü Kəlbəcərə doğru başlayan uğurlu hücum düşmənləri elə çaşdırmışdı ki, onlar dabanlarına tüpürüb qaçmaqda idilər. Kəlbəcərin yaşayış məntəqələrini azad etdikcə qələbədən ruhlanan əsgərlərimiz azərbaycanlı adının şərəfini qaytarmaq naminə candan keçməyə belə hazır idilər. Onların sırasında cəbrayıllı balası Nəcəfov Pəhlivan Şərfalı oğlu da hünərlə addımlayırdı. O vaxtlar hamıya elə gəlirdi ki, müharibə bu gün, sabahlıqdı. Yurd yerlərindən perik düşənlər doğma ocaqlarına tezliklə qayıdacaqlarını düşünürdülər. Ancaq...

Ancaq həmişə olduğu kimi bu dəfə də kimlərin isə məkrli əlləri öz işini gördü. Yanşağa qədər gedib çıxan, İstisuyun, Kəlbəcərin bir addımlığında qərar tutan ordumuz elə bil Tanrı qəzəbinə gəldi. Qısa vaxt ərzində demək olar ki, az bir itki ilə qaytarılan torpaqlarımız təzədən düşmən pəncəsinə keçdi...

O müdhiş günlərdə bir az aşağıda şaxələnən yollarla müxtəlif ünvanlara üz tutan şəhid tabutlarının arxasınca hönkür-hönkür ağladı qoca Murov...

Azərbaycan adlı tarazı-mizanı pozulan dünyamızda neçə-neçə gözüyaşlı ana-bacılarımız, neçə-neçə qız-gəlinlərimiz var. Oğul soraqlayan, qardaş haraylayan, ər yolu gözləyən bu qadınların cərgəsində Gülçöhrənin də nisgilli səsi nə vaxtdır ki, eşidilməkdədir: «Sən məni ağlar qoydun...»

# DƏRDİN ÇOXDUR, XATIN NƏNƏ



*Nəcəfov Əbil İbi oğlu*
*doğulub - 1968-ci il,*
*Cəbrayıl rayonu, Balyand kəndi;*
*şəhid olub – 10.12.1993-cü il,*
*Beyləqan bölgəsi*

Doxsan üçüncü ilin qarlı-sazaqlı dekabr ayının əvvəllərində erməni quldurları Beyləqan ərazisinə daxil olmağa can atırdılar. Düşmənin həmlələrinə mərdliklə sinə gərən qeyrətli oğullarımız Arazboyu obaları zəbt edəndən sonra dişlərində şirə qalan yağıların qarşısında canlı sədd kimi dayanaraq ona irəliləməyə imkan vermirdilər. O qanlı döyüşlərdə Binəqədi rayonunun könüllülərindən ibarət batalyonun tərkibində vuruşanların sırasında balyandlı eloğlumuz Əbil Nəcəfov da var idi. O gün erməni quldurları həmyerlimizin həyatına son qoysa da, onun şəhidliyə gedən yolunu qanlı caynaqlarına keçirə bilmədi. Əbil Şəhidlər Xiyabanında onu bağrına basan bir parça Vətən torpağına alnıaçıq, üzüağ qayıtdı.

Deyirlər insan ömrü boyu alın yazısının hökmü ilə hərəkət edir, hardasa taleyin istəyinə baş əyməli olur. Əbil Balyand kəndində anadan olanda kimlərin isə ağlına gəlməzdi ki, o, bir vaxtlar həyatını şəhərlə bağlayacaq. Kəndli balası üçün qeyri-adi görünən bir peşəyə meylini salacaq. Balyand kənd orta məktəbini bitirib orduda xidmət edəndən sonra Əbil Bakıya üz tutdu. Buradakı 14 saylı texniki-peşə məktəbində təhsilini tamamlayıb Binəqədi NQÇİ-də operator işlədi. Kənddən təzə gəlməsinə baxmayaraq, öz bacarığı ilə çoxlarını təəccübləndirdi. Əbil elə bil gözünü açandan neftçi ailəsində böyümüşdü. Hər şeyə diqqət edir, gündən-günə ustalığını artırırdı...

İdarənin yataqxanasında yaşasa da, gələcəyə nikbinliklə baxırdı Əbil. Düşünürdü ki, nə vaxtsa onun da Bakıda öz mənzili olacaq, ailə qurub uşaqları ilə xoş günlərə qovuşacaq. Ancaq...

Ancaq ata yurdu Cəbrayıldan gələn qorxunc xəbərlər varlığını dara çəkməkdə idi onun. Hər qarışına bələd olduğu, yamacında, dərəsində gəzib dolaşdığı doğma torpaqlar düşmən əlinə keçəndən sonra elə bil yuxuları göyə çəkilmişdi. Bir gün tezdən işə gedəndə idarənin qabağındakı qələbəliyi görüb ayaq saxladı. Öyrəndi ki, onunla çiyin-çiyinə çalışan cavanların böyük bir dəstəsi könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollanırlar. O, yaxındakılara:

– Necə yəni mən Cəbrayıldan olam, torpağım düşmən tapdağında inləyə, özüm də Bakıda rahat günlər keçirəm. Yox, bu, dünyasında mümkün olan iş deyil...

O gün Əbil Nəcəfov da binəqədililərin cərgəsinə qoşulub cəbhəyə yollandı. O, düşmən gülləsinə tuş gəlməsəydi, qələbə gününə kimi addımını geri atmayacaqdı...

Həyat yoldaşının qırxı çıxmamış Xatın ana oğlu Əbilin tabutu üstə də saçını yolmalı olub. Ömrünün ixtiyar çağlarında bu dərd onun qəddini əyib...

Əbilin yaxın qohumu Məcid kişi deyir ki, şəhidlik bu xalqın alın yazısıdır. Gərək düşmən qabağında qəddimizi dikəldib, özümüzü şux tutaq. Qoy namərdlər görsünlər ki, biz Vətən yolunda şəhid olan balalarımız üçün göz yaşı axıtsaq da, sabaha inamımızı itirməmişik...

Bizsə Əbil kimi igid oğullarımıza rəhmət diləyib, yazımızı Xatın nənəyə ünvanlanan bir şeirlə bitiririk:

*Bizə qəfil gələr qada,*
*Neçə vaxtdı, Xatın nənə.*
*Bilirik ki, bu dünyada*
*Dərdin çoxdu, Xatın nənə.*

*Yağı düşmən görə-görə,*
*Yasa batdın neçə kərə.*
*Gəl, qınama əbəs yerə,*
*Ömrü, baxtı, Xatın nənə.*

# BİR OĞUL BÖYÜYÜR OCAQ BAŞINDA...



***Novruzov Əkbər Ələkbər oğlu***
***doğulub - 15.12.1968-ci il,***
***Cəbrayıl rayonu, Qışlaq kəndi;***
***şəhid olub - 02.07.1993-cü il,***
***Xocavənd rayonu, Quşçular kəndi***

Qarşı tərəfdən dolu kimi yağan güllələr əsgərlərimizə göz açmağa imkan vermirdi. Döyüşçülərimiz nəyin bahasına olursa-olsun düşmənin atəş nöqtələrini susdurmaq barədə əmr almışdılar. Quldurların daldalandığı səngərdən bir az aşağıda özlərinə əlverişli yer seçən igidlərimiz qəfildən irəli şığıdılar. Əkbər əlindəki qumbaranı düşmən səngərinə tullayıb iri qaya parçasının arxasında yerə uzandı. Güclü partlayış torpağı, daşı havaya sovuranda əsgərlərimiz fürsət tapıb sıçradılar. Düşmən səngəri yanında açıq döyüşə girən əsgərlərimiz erməni quldurlarını yalın o üzünə aşıranda yaxınlıqda partlayan mərminin qəlpələri Əkbərin bədəninə sancıldı. Başından, qolundan və ayağından ağır yaralanan döyüşçümüzü güllə tutmayan yerə çəkib apardılar. Yaralarından axan al qan torpaqda gölləndikcə Əkbərin sifətinə ölüm kölgəsi qonurdu. O, son nəfəsində gözlərini geniş açıb: «Ölmək istəmirəm, – dedi, – məni həkimə çatdırın. Amandır, bərk durun, torpaqlarımızı düşmənə verməyin. Onlardan mənim də qisasımı alın!..»

Əkbərin dəfnində Qışlaq camaatı ilə birlikdə əsgər yoldaşları da iştirak etdilər. Onun cənazəsi məzara sallananda bacıları Sədaqətin, Tellinin, Səmayənin naləsi ərşə qalxdı. Döyuşçü dostları Əkbərin qəbri üstə and içdilər ki, onun qisasını yerdə qoymayacaqlar...

Qışlaq kəndindən idi Əkbər. Bu kəndin camaatı erməni təcavüzü başlayan gündən sabahı dirigözlu açıblar. Hadrut rayonunun sərhəd kəndləri ilə qonşu olan Qışlaq kəndi yerlə-yeksan olsa da əsgərlərimiz onu qoruyub-saxlaya bilmişdilər. Bu kəndin qeyrətli oğulları Pəhləvan, Zahid, Soltan, Əkbər torpağı ana-bacı namusu bilib sinələrini sipər etmişdilər ona. Elə qeyrət yolunda da şəhid oldular onlar...

Hərbi xidməti Tambov vilayətində başa vurmuşdu Əkbər. Geri qayıdanda doğma kəndi Qışlağı növrağı pozulan görmüşdü. İgid həmkəndlisi Pəhləvana qoşulub torpaqlarımızın müdafiəsinə yollanmışdı. İstəyirdi ki, kənd qəbiristanında uyuyan anasının gor evinə düşmən ayağı dəyməsin. Banazur, Sur, Şişqaya ətrafında gedən döyüşlərdə qorxmaz bir əsgər kimi tanınmışdı. Bir dəfə dayandığı yüksəklikdən göz işlədikcə uzanıb gedən Cəbrayıl torpaqlarına baxıb:

– Tanrı bizə cənnət kimi yer qismət edib. Onu düşmənə versək, anamızdan əmdiyimiz süd bizə haram olar, – demişdi.

Ölümündən on ay qabaq toyu olmuşdu Əkbərin. Həmin gün əsgər dostları onu ürəkdən təbrik etmiş, qol götürüb doyunca oynamışdılar. Atası Ələkbər kişi kövrələ-kövrələ ömür-gün yoldaşının qara haşiyəli iri şəklinə üz tutub:

- Gözün aydın olsun, ay arvad, – dedi, – oğlumuz ev-eşik sahibi olur. Sən özün də çox arzulamışdın bu günü. Oğlunun toy evinə gələ bilməsən də, qoy ruhun ona xeyir-dua versin.

O, toy axşamında bacıları Sədaqətin, Tellinin, Samayanın sevincləri yerə-göyə sığmırdı...

Ölümündən on gün qabaq bir oğlu dünyaya gəlmişdi. Hələ ad verməmişdilər uşağa. Demişdilər ki, Əkbər evə gələndən sonra körpəyə ad verik. Əkbərin özü yox, ölüm xəbəri gəldi evlərinə. Ələkbər kişinin istəyi ilə onun ölümündən sonra Əkbər deyə çağırdılar uşağı. Dedilər ki, şəhid atasının yarımçıq qalmış ömür payını öz ömür qisməti ilə birlikdə yaşasın balaca Əkbər...

Cəbrayıl camaatı Şəhid Əkbəri torpağa əmanət verən gün el ağsaqqalı Nəriman Hüseynovun qəlbində dil açan «Vəsiyyət» şeirinin misraları yanıqlı bir ağıya dönüb ruhumuzu çarmıxa çəkdi. Qışlaq elimizin qeyrətli balası Əkbərin adından yazıldı o şeir:

*Ay sevgilim, nə pis gəldi ilimiz,*
*Qara geydi ulusumuz, elimiz.*
*Bir də açmaz çiçəyimiz, gülümüz –*
*Məndən sonra nalə çəkib ağlama!*

*Gülüm, demə, qəlbim sönüb ölmüşəm,*
*Bu dünyanı mən əbədi bilmişəm.*
*Gözün aydın, görüşünə gəlmişəm,*
*Qəddimizi fələk büküb, ağlama!*

*Gözlə bir gün qayıdaram yenə mən,*
*Bürünmüşəm dumana mən, çənə mən.*

*Qəfil ölüb həsrət qaldım sənə mən,*
*Gözlərini yola dikib ağlama!*

Körpə Əkbər tumurcuq-tumurcuq boy atmaqdadır indi. O, bir şəhid ömrünün canlı yadigarı, işığı sönən bir evin balaca kişisidir. Vaxt gələcək ki, atasının yurdunda şam yandıracaq, ocaq göyərdəcək o. Tanrı özü arxa-kömək olsun ona...

## TANRININ UCALMAQ PAYI



***Nuriyev Kazım Təbriz oğlu***
***doğulub - 1966-cı il,***
***Cəbrayıl rayonu, Yanarxac kəndi;***
***şəhid olub - 31.01.1994-cü il,***
***Füzuli bölgəsi, Horadiz qəsəbəsi***

Bu fani dünyada bəxtdən, taledən gileyliyik hamımız. Unuduruq ki, insana ömrü-günü, beşikdən məzara uzanan həyat yolunu bəxş edən ulu Tanrıdır. O, elə bir ucalıqda dayanıb ki, onun işlərinə əl aparmaq, hökmünə etiraz etmək sadəcə olaraq mümkün deyil. Bəlkə elə buna görə də ulularımız, ağzıdualı müdriklərimiz ən böyük müsibəti belə qəzavü-qədərin məsləhəti kimi qarşılayaraq:

– Tanrının böyüklüyünə, onun işlərinə qarışmaq bəndənin işi deyil, – deyə özlərinə toxdaqlıq veriblər...

Kazımın şəhidlik xəbəri Yanarxaç camaatına yetişəndə yaxın-uzaq onun anası İmarət bacının başına toplaşıb bircə anın içində bel sütunu qırılan bu ailəyə arxa durmağa çalışdılar. Deyirlər dərd birinci növbədə yiyəsini ağrıdır. İmarət ana el-obanın yanımını duyub hiss etsə də, ürəyini yandırıb-yaxan ələmdən qıraqda dayana bilmədi o gün. Şəhid balasının tabutu önündə diz çöküb üz-gözünə əl atdı:

– Bəs, deyirdin ki, düşmən gülləsi mənə yaxın düşməz. Ay oğul, bu nə müsibət idi başımıza gətirdin? Gözü yaşlı gəlinimə, ata deyib üstümə yüyürən oğluna indi nə cavab verim axı...

İmarət ana Kazımın güllələrdən didim-didim olan sinəsinə ağ birçəklərini töküb fəryad qoparırdı o gün. Tale xəcalətindən özünə yer tapa bilmirdi elə bil. Yurd yerlərindən uzaq düşən bir ailənin ümid çırağını söndürdüyü üçün fələk bəlkə də ilk dəfə idi ki, peşiman olmuşdu. İmarət ana saçına, birçəyinə əl atıb qarğış-nifrin eləyirdi bu qansız fələyin işləklərinə:

*Fitnəyə, felə uydun,*
*Məni arxasız qoydun.*
*Fələk, əlin qurusun –*
*Balama niyə qıydın?!*

*Halıma yanan ağlar,*
*Nisgilli sanan ağlar.*
*Dərdimi, ələmimi*
*Eşidib qanan ağlar...*

Topcaq düzünün Gəyənlə qovuşduğu yerdə üzümlüklərin dövrələdiyi bir kənd var. Soltanlı camaatı ilə qaynayıb qovuşan bu kənd dünyanın düz vaxtlarında ev-ev, məhəllə-məhəllə böyüməkdə idi. Günü-güzəranı abad ev-eşiklərindən bilinən Yanarxac ərən kişilərin, igid oğulların məskəni idi. İmarət ananın, Təbriz kişinin ocağında doqquz uşaq böyüyüb ərsəyə çatmışdı. Təbriz kişi dünyadan vaxtsız köçsə də, uşaqlarından arxayın idi. Bilirdi ki, sağlığında onlara halallıq «dərsi» verib. İnsafən elə uşaqlar özləri də fərasətli idilər. Əlləri bir parça çörəyə çatandan sonra özlərinə gün-güzəran düzəltmiş, ev-eşik tikmişdilər. Telman kombaynçı idi, işi adınan deyilirdi. Qızlardan üzümçü olanları da, başqa peşələrə yiyələnləri də vardı. Kazım əkin-biçin vaxtı Telmana qoşulub əlindən gələn köməyi göstərirdi ona. Həmişə evlərində dolu təknə, bol süfrə gördüklərindən ürəkli böyümüşdü uşaqlar. Soltanlı camaatı halal adamlar kimi tanıyırdı onları...

Kazım orta məktəbi bitirəndən sonra Moskva şəhərində əsgəri xidmətdə olmuş, şirin arzularla qayıtmışdı kəndlərinə. Ailənin sonbeşiyi olsa da, ərköyün böyüməmişdi. Atası rəhmətə gedəndən sonra evin qayğıları üstünə tökülsə də, taleyindən gileyli deyildi...

Vətənin ağır günündə ömür-gün yoldaşı ilə, oğul balası ilə və bir də onu qəmli baxışları ilə öpüb oxşayan anası ilə halallaşıb cəbhəyə getmişdi Kazım. Döyüşlərdən macal tapanda evlərinə baş çəkib yenidən od-alovun içinə qayıdırdı. Dedikcə ailəcanlı, yanımllı, yapışıqlı bir insan idi. Anasına dönə-dönə söz vermişdi ki, təsadüfi güllədən qorunacaq. Evlərində hamını

inandırmışdı ki, yuxuda nurani bir kişi ona yetmiş beş il yaşayacağını bildirib. Anasıgillə görüşəndə elə arxayınlıqla danışırdı ki, heç kəs onun öləcəyini eyninə də gətirmirdi...

Amma doxsan dördüncü ilin sonuncu günü Kazım bu həyatdan köçəsiymiş. Bircə təsəllimiz budur ki, o, Vətənin sinəsinə tuşlanan güllənin qurbanı oldu. Vətən isə onun yolunda şəhid olanları yaşatmağa var olur. Nuriyev Kazım Təbriz oğlu bu şərəfə, bu etimada layiq oğuldur...

## TƏKİ VƏTƏN YAŞASIN...



*Piriyev Faiq Sədi oğlu*
*doğulub - 14.09.1973-cu il,*
*Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;*
*şəhid olub - 02.01.1994-cü il,*
*Ağdam rayonu, Güllücə kəndi*

Bu dünyada cəmisi iyirmi il yaşayıb Faiq. Heç bu iyirmi yaşın üzünü axıracan yerli-yataqlı görə bilməyib. Ölüm aman verməyib ki, iyirmi yaşın zirvəsindən dünyanın dan üzünə baxa-baxa ürəyini təlatümə gətirən ilk sevgisini o qıza söyləsin. Qırova, sazağa düşmüş qönçə kimi dünyadan vaxtsız, vədəsiz köçüb. Bunun müqabilində tale ona Şəhidlik Zirvəsində əbədi yaşamaq səadəti bəxş edib. Bu haqqı o, həyatını Vətən yolunda qurban vermək bahasına qazanıb...

Faiqin şəklinə baxanda Əli Kərimin kövrək duyğularla yoğrulan misraları düşür adamın yadına:

*Ana oğul böyütdü,*
*Oğul deyirəm sənə.*
*Ana oğul böyütdü,*
*Gur çatmaqaş, gen sinə...*

Sona bacı, Sədi qağa sözün əsl mənasında köklü qaya misallı oğul böyütmüşdülər. Elə bir oğul ki, kürəyi alınmaz qala divarlarına, sinəsi igid



qalxanına bənzəyirdi onun. Qatlanmayan qolları, bükülməyən dizləri var idi Faiqin. Açıq-aşkar hiss olunan qabarıq əzələləri qeyri-adi gücündən, qüdrətindən xəbər verirdi. Tanrı ona həm də kövrək bir ürək bəxş eləmişdi. Faiq uşaq kimi sadəlövh, duyğulu-yanımlı idi...

Deyirlər igid adamlar fiziki gücləri ilə yox, el-oba qeyrətini qorumaq amalları ilə mənsub olduqları xalqın sevgisini qazanırlar. Zaman-zaman Tomris ana da, Cavanşir, Babək, Şah İsmayıl Xətai də bu istəklə əbədiləşiblər. Nəsimini dönməzliyi, Dədə Qorqudu ağlı, idrakı yaşadıb tarixin yaddaşında. Bizim Vətən şəhidləri qeyrətdə, təpərdə ulu babalarına çəkiblər. Köhnə kişilər çörəksiz, susuz yaşamağı harda isə bir müddət mümkün hesab etsələr də, namussuzluğu baş qaxıncı, dil gödəkliyi sayıblar...

Faiqin damarlarından köhnə kişilərin, ərlərin, ərənlərin qanı axırdı. O, zaman-zaman erməniləri atdöşü edib Qubadlının Yazı düzündən Pəni, Qısır dağlarına kimi (Ermənistan ərazisindəki ulu yurd yerlərimiz, yaylaqlarımız olub bura) çomağı ilə özünə yol açan Böyük Mərcanlı nəslinin yadigarı idi. Ulu babaları kəndin sayılıb-seçilən adamlarından olub. Atası Sədinin, əmisi Pəlinin, ən çətin məqamlarda belə dilini çeynəməyi, sözünü udmağı bacarmayan yaxın qan qohumu Əli Şamıyevin dağdan ağır xətir-hörməti var camaat arasında...

Qoçaq adamların, mərd kişilərin öyüdünü, xeyir-duasını eşidə-eşidə böyümüşdü Faiq. Ermənilərin Şayaq zirvəsini ələ keçirib Cəbrayıla meydan oxuduqları günlərdə atası əlini saçlarına çəkib demişdi:

– Oğlum, fikrin nədir, mənə elə gəlir ki, daha bundan da ağır günümüz olmayacaq. Vətən dara düşəndə damarlarında qeyrət qanı olan oğullar onu qorumalıdır...

Faiq atasının sözlərini mərdliklə qarşıladı:

– Düz deyirsən, ata, elə mən özüm də bu fikirdəyəm. İcazə versəniz, günü sabahdan qeyrətli əsgərlərimizin sırasına qoşularam...

Onun cəbhə həyatı doxsan ikinci ilin dekabrından başladı. Cəbrayıldakı hərbi alayda tibb təlimatçısı kimi xidmətə başlayan Piriyev Faiq az vaxt ərzində yoldaşlarının nəzərində cəsur bir əsgər kimi tanındı...

Doxsan üçüncü ilin mart ayının 28-də erməni quldurları Sur kəndindəki mövqelərimizə qəfildən hücuma keçdilər. İgid əsgərlərimiz düşmənin həmlələrinə mətanətlə sinə gərib onları yaxına buraxmadılar. Faiq güllə yağışı altında səngərdən-səngərə keçərək, yaralı döyüşçülərimizi xilas etmək üçün əlindən gələni etdi. Ağır yaralı vəziyyətdə olan Həsənov İlqara birinci olaraq öz damarlarından çəkdiyi qanı vuraraq onu təzədən həyata qaytardı...

İyulun ilk günlərində ermənilər güclü hücuma keçərək Günəşli və Quş-

çular postlarını zəbt etmişdilər. Əsgərlərimiz nəyin bahasına olur-olsun itirilmiş mövqeyi geri almaq üçün axşamüstü düşmənin üstə yeridilər. Faiqin də yaxından iştirak etdiyi bu əməliyyat uğurlu sonluqla başa çatdı. Döyüş meydanında iyirmi yeddi quldurun meyitinin qalması igid oğullarımızın hünərindən soraq verməkdə idi. Bu cəsur oğlan ölümü gözünün altına alıb atəş altda qalan yaralı taqım komandiri Verdiyev Soltanı döyüş meydanından çıxarandan sonra əsgərlərimiz ona daha inamla baxmağa başladılar...

On beş avqustda ağır texnikanın, uzaqvuran topların və zirehli maşınların köməyi ilə Hadrut istiqamətindən hücuma keçən düşmən Cəbrayıl ərazisinə soxulmağa çalışır, yaşayış məntəqələrimizə od yağdırırdı. Faiq o döyüşdə yaralılara tibb xidməti göstərməklə yanaşı, axıradək silahı yerə qoymadı...

Avqustun 18-də Balyand kəndinə qədər irəliləyən erməni quldurları aşağıdakı asfalt yola çıxmaq üçün tankların köməyi ilə hücuma keçməyə cəhd edirdilər. Faiq körpünün altında döyüş mövqeyi tutduğundan düşmən qarşıdakı təhlükədən xəbərsiz idi. Faiq əlindəki qumbaraları yaxınlaşan tanklardan birinin üstünə atdı. Tankın dayanmağı ilə onun arxasınca gələn altı erməni quldurunun qaçması bir oldu. Faiq düşmənə aman verməyib avtomat silahı ilə onların hamısını məhv etdi...

Quycaq kəndi uğrunda gedən döyüşlərdə də müstəsna igidlik göstərib, döyüş meydanında qalan yaralı əsgəri – Məmişov Qədiri xilas edərkən erməni quldurlarından ikisini cəhənnəmə göndərməli oldu. Qeyri-bərabər döyüşlərdə bizlərdən xeyli əsgər və zabit yaralansa da onları atəş altdan çıxarmaq çox çətin idi. Gecə saat iyirmi bir radələrində Faiq on iki nəfər əsgərlə irəli sürünüb yaralıları arxaya gətirə bildi...

Cəbrayıl elimiz düşmənə əsir düşəndən sonra Faiqin sorağı Ağdam bölgəsindən gəlməkdə idi. Dekabrın sonlarına yaxın cəbrayıllı igidlər Güllücə ətrafında qərar tutmuşdular. Ayın 31-də, sübh tezdən erməni birləşmiş qoşunları 14 ədəd T-72 tankının, 3 ədəd PDM-in, uzaq vuran topların və canlı qüvvənin köməyi ilə Güllücə istiqamətində hücuma keçdilər.

Düşmən yeddi tankını və xeyli canlı qüvvəsini itirib geri çəkilsə də, Salahlı tərəfdən irəliləməkdə idi. O qanlı-qadalı döyüşdə həkim aradan çıxdığından Faiqin şəxsi igidliyi sayəsində 27 nəfər şəhid və yaralı döyüşçünü atəş altından çıxarmaq mümkün oldu...

Doxsan dördüncü il yanvar ayının 2-də ermənilər yenidən hücuma keçmişdilər. Faiq döyüş meydanındakı yaralıları xilas etmək üçün tez-tez irəli şığıyıb, səngərdən-səngərə atılırdı. O, əvvəlcə Bəhram adlı bir əsgərə ilk tibbi yardım göstərib, onu arxaya göndərdi. Bu vaxt Məhəmmədin yaralandığını görüb ona tərəf sürünməyə başladı. Yaralı əsgərə yardım edib, onu arxaya çəkərkən yaxınlıqda partlayan mərmi onların hər ikisini ölümcül yaraladı. Həyatının son anlarında belə üz-gözündən təbəssüm əskik olmayan bu cəsur əsgəri xilas etmək mümkün olmadı...



Faiqin ölümündən sonra Cəbrayıl hərbi alayının keçmiş tabur komandiri Maarif Novruzov onun qəhrəmanlığından bəhs edən ürək sözlərini kağıza köçürmüş, əsgər dostunun adını hörmətlə yad etmişdir...

Faiqin yaxın qohumlarından olan və hazırda Mingəçevirdə yaşayan Şamıyev Rasim onun ölümünə elə heyfsilənir ki, dilində göyərən hər söz adamın cızdanağını çıxarır:

– Faiq kimi oğullar hər ailənin, hər nəslin qismətinə düşmür. O, bizim Böyük Mərcanlı kəndinin taleyinə yazılan qeyrətli bir oğul idi. Dilim var gəlmir ki, ona «ölüb» deyəm. Belə oğullar ölmək üçün yox, əbədi yaşamaq üçün həyata gəlirlər...

Oğul itkisi Sədinin belini qırmışdı o gün. İllərdən bəri böyük bir elin işığını gur yandırmaq üçün özünü oda-közə vuran (Faiqin atası Sədi Piriyev uzun illərdən bəridir ki, rayon elektrik şəbəkəsinə rəhbərlik etmişdi) bu insanın gözlərinin nurunu söndürmüşdü düşmən. Yanaqlarında gilələnən göz yaşları ilə oğlunu soraqlayır, gizli-gizli haray çəkirdi o gün. Sona bacı Faiqin cənazəsi üstən qalxıb ömür-gün yoldaşına yaxınlaşdı o müdhiş anlarda. Yas mərasiminə toplaşanlar gözünün ilk ovunu itirən ananın sözlərini eşidib yerlərində dondular:

– Başını uca tut, sənin oğlun Vətən yolunda, qeyrət-namus yolunda şəhid olub. Sən elə övladlar böyütmüsən ki, lazım gəlsə onların hamısı o cümlədən Şaiq balam da Vətəndən canını əsirgəməz. Təki Vətən yaşasın, yurd yerlərimiz düşmən əsirliyindən qurtarsın...

Faiqin ölümündən sonra komandirləri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmək üçün onun sənədlərini Müdafiə Nazirliyinə təqdim ediblər. Gün o gün olsun ki, onun hünərini bu adda əbədiləşən görək...

Ulu «Peyğəmbər» qəbiristanında təzəcə qazılan bir gor evi şəhid qardaşımız Faiqin hərarətli ürəyi ilə isindi o gün. Bu ürəyin odu-közü heç vaxt sönən deyil...

# TALEYİN OD KÖZƏRTİSİ...



***Rəhimov Mətləb Əvəz oğlu***
***doğulub - 01.02.1969-cu il,***
***Cəbrayıl rayonu, Məzrə kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Qara zurnanın dağa-düzə yayılan səsi ürəkləri cuşa gətirməkdə idi. Məzrəli cavanlar ortada «Yallı» gedir, kənd gözəlləri zərif kəpənəklər kimi qanad açırdılar o gün. Gözaydınlığı verirdi hamı Əvəz kişiyə. Xanəndənin məlahətli səsi Arazdan əsən mehə qarışıb ətrafa yayılmaqda idi:

*Əzizlərim, qəlbə yatan söz deyək,*
*Xoş məramlı sağlıqları biz deyək.*
*Könlümüzdən keçənləri düz deyək,*
*Bu məclisdə od almağa gəlmişik.*

*Əcəl oxu hazır durub kamanda,*
*Sabahımız mürgüləyir gümanda.*
*Tanrı bizi saxlayıbdır amanda,*
*Belə vaxta, belə çağa gəlmişik.*

*Şirinlik var dostun sevgi payında,*
*Arif olan uduzmayır oyunda.*
*Mətləb, sənin büsatında, toyunda*
*Söz deməyə, şadlanmağa gəlmişik...*

O gün Mətləb dünyanın ən bəxtəvər adamlarından biri idi. O gün Məzrə kəndi özünün ən xoşbəxt günlərindən birini yaşayırdı. Ananın sevincinin həddi-hüdudu yox idi o toy günü. Ana Mətləbin və mələk timsallı gəlininin alnından öpüb:

– Balalarım, qoşa qarıyasınız, qollu-budaqlı olasınız, – dedi...

Onda dünya Mətləbin gözlərində cənnətə bənzəyirdi. Yer-göy bəyazlığa, maviliyə söykəmişdi üzünü. Sonra hardasa şüşədən çıxarılan cinlər erməni qiyafəsinə girib dünyamızın yuxusunu ərşə çəkdilər. Yox, deyəsən burda bir az səhv elədik. O vaxtlar vicdanı kəsərdən, sözü ovxardan düşən dünya özü də bu cinlərin-daşnakların tərəfində durdu. Arxalı köpək olduqlarından Azərbaycan elimizi didib dağıtmağa başladı bu murdarlar. Kreslo davasına, söz güləşinə aludə olan başçılarımızın maymaqlığı daha da şirnikdirdi onları. Meydan «qəhrəmanları» efirdən, ekrandan erməniləri «güllələyəndə» onların topları, «qradları» Şuşanı, Laçını, Kəlbəcəri qanına qəltan etdi. Daşaltıda əkilən xəyanət toxumları Meşəlidə, Cəmillidə, Qaybalıda, Xocalıda... cücərdi. Onun xərçəngə bənzəyən rişələri Cəbrayıl torpaqlarına da gəlib çatdı...

O qanlı-qadalı günlərə qədər Mətləb taleyinə düşən illəri mənalı yaşamışdı. Orta məktəbi bitirəndən sonra Əli Bayramlı Sənaye texnikumuna qəbul olunmuş, Qazaxıstan Respublikasında keçən ikiillik əsgəri xidmət illərini arxada qoymuşdu...

Xudafərin körpüləri yaxınlığında tikilən Araz SES-də işləməyə gələndə dünyanı Mətləbə bağışlamışdılar elə bil. Tikintinin təməl daşları üst-üstə qoyulduqca gələcək qəsəbənin küçələri kərpic-kərpic sıralanmaqda idi. Gəyən çöllərinin gələcək büsatını gözlərinin önünə gətirdikcə sevinci köksünə sığmırdı onun. Doğma torpaqda gündən-günə vüsət alan tikintidə çalışdığı üçün fərəhi gözlərindən açıq-aydın sezilirdi...

Bu sevinci axıra qədər yaşamaq qismət olmadı Mətləbə. Erməni quldurlarının tamah dişini sındırmaq üçün doxsan ikinci ilin yanvarında cəbhəyə yollandı. Sur əməliyyatında əvvəldən axıradək iştirak edib odun-alovun içərisindən salamat çıxdı...

Daşbaşıdakı o qanlı gecədə Mətləb də xəyanətin qurbanı oldu. Onun fidan balaları Orxan, Aynur «ata» deyib nalə çəkdilər...

Məzrənin ağbirçəklərindən olan Hüseynova Saray Mətləbdən ürəyi odlana-odlana danışır:

– Tanrının işıq payı, taleyin od közərtisi idi Mətləb. Həmişə xoş sözünü, xoş sorağını eşitmişdik onun. Harada qarşılaşsaq ayaq saxlayıb hal-əhval tutardı mənimlə. İşıqlı çöhrəsi, nurlu baxışları indi gözlərimin qabağındadır. Allah torpağını yumşaq, gorunu nurlu eləsin onun...

Mətləbin ata ocağında balaları böyüyür indi. Orxan və Aynur vaxt gələcək ki, atalarının macal tapıb yaşada bilmədiyi arzularını pöhrə-pöhrə göyərdəcəklər. Onda Mətləbin də ruhu şad olub, sevinəcək...

## TOYUNU GÖRƏ BİLMƏDİK



***Rəhimov Eldəniz Şükür oğlu***
***doğulub - 05.01.1965-ci il,***
***Cəbrayıl rayonu, Çərəkən kəndi;***
***şəhid olub - 01.01.1994-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

Rayon mərkəzindəki orta məktəbi bitirəndən sonra Eldəniz Rəhimov Bakıdakı texniki-peşə məktəblərinin birində oxuyub saatsaz peşəsinə yiyələnmişdi. 1983-85-ci illərdə əsgəri xidmətdə olarkən diribaş və üzüyola olması ilə hərbi hissədəki komandirlərinin diqqətini cəlb etmişdi. Evlərinə gələn təşəkkür məktublarından bilinirdi ki, Eldənizin əsgərliyi o uzaq diyarda çoxlarını razı salıb...

Vətənə qayıtdıqdan sonra Eldəniz yenidən Bakıya üz tutdu. Bu dəfə Bakı soyuducular zavodunda işə girib, işləyə-işləyə oxuyaraq soyuducuların təmiri ixtisasını qazandı. Buradakı işi elə cəlbedici idi ki, çox keçmədi ki, onu nəzarətçi usta vəzifəsinə irəli çəkdilər...

Vətənimizin başı üstünü qara buludlar alanda Eldəniz Rəhimov Nizami rayon hərbi komissarlığına müraciət edərək könüllülərlə birlikdə Laçına yola düşdü. Doxsan birinci ilin dekabr ayının 28-dən yurdun canlı sipərinə dönən bu qeyrətli oğlan ayağından yüngül yara alıb sağalandan sonra Cəbrayıldakı hərbi hissəyə dəyişildi. Burada kiçik leytenant rütbəsi ilə döyüşə başlayan Eldənizə rota komandirliyini də etibar etdilər...

Bir dəfə ağır döyüşdən gülümsünə-gülümsünə qayıdan Eldənizi qəfil ağlamaq tutdu. Yoldaşları ona ürək-dirək verərək:

– Allaha şükür, sağ-salamat qayıtmısan, daha ağlamaq nədən ötrüdür?

– Ona görə ağlayıram ki, bu döyüşdə heç nahaqdan 60-dan artıq döyüşçü itirdik. Çoxdan bəri üzümüz-gözümüz öyrəşən uşaqları itirmək sizə asan gəlməsin...

Belə bir ürəyin yiyəsi idi Eldəniz. Əlacı olsaydı, ölən igidlərin əvəzindən özü şəhidliyi qəbul edər, kimin isə qanının axmasına razı olmazdı. Deməonun özünün də şəhidlik növbəsi çatmaqda imiş...

Rayonun işğalından sonra Ağdam bölgəsində döyüşən Rəhimov Eldəniz Şükür oğlu Güllücə-Salahlı istiqamətində gedən döyüşlər zamanı qəfil gülləyə tuş gəldi...



Bakı soyuducular zavodunun kollektivi Eldənizi ehtiramla torpağa tapşırıb onun ailə üzvlərini himayəyə götürdülər. İgid eloğlumuzun dəfnində və yas mərasimində canıyananlıq göstərən Əli Atayev kollektivin ağsaqqalı kimi Eldənizgilin ailəsini darda qoymadı. Yurd itkisindən və sevimli oğullarının qəfil ölümündən özlərinə gələ bilməyən Rəhimovlar ailəsi zavodun yataqxanasına sığındılar...

Toy edib ailə-uşaq sahibi olmaq istəyirdi Eldəniz. Fələk onun arzu-muradını gözündə qoydu, dostları toyunu, büsatını görə bilmədilər onun. Bu nisgil neçə-neçə ürəkləri yandırır hələ də. Dünyadan nakam gedən Eldəniz Rəhimovun adını hər dəfə ananda təəssüf hissi keçiririk:

*Niyə getdin qəfil axı,*
*Boyunu görə bilmədik.*
*Pozuldu növrağın sənin*
*Toyunu görə bilmədik.*

## OT KÖKÜ ÜSTƏ BİTƏR...

***Rüstəmov Mədət Mürşüd oğlu***
***doğulub - 05.11.1973-cü il,***
***Cəbrayıl rayonu, Fuğanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Quşçular kəndi***



Fuğanlının şəhid balası Mədətdən söz açan sətirləri oxuyub başa çatandan sonra soykököyülə maraqlandıq onun. Tanıyanlar dedilər ki, Fuğanlı Mürşüdün oğlu, Rüstəmova Kamılxanın yaxın qohumlarındandır. Mürşüd kişinin adını eşitsək də, tanışlığımız yox idi onunla. Dilli-dilavər bir qadın olan Kamılxanı isə çox yaxşı tanıyırdıq. İllər boyu halal zəhməti ilə elə-obaya səs salan bu qadının böyük xətir-hörməti var idi yanımızda...

Atalar «ot kökü üstə bitər» deyiblər. Mədət halallığı Tanrı payı bilən bir ocaqda böyümüşdü. Elə bir ocaqda ki, onun işığı da, havası da, suyu da Vətən sevgisindən, yurd istəyindən soraq verirdi. Mədətin Hacılı kənd orta məktəbində oxuyarkən əzbərlədiyi şeirlər də Vətən ovqatlı, yurd ünvanlı idi:

*Qəlbimi isidən ocağım, odum,*
*Dünyaya sığmayan şöhrətim, adım,*
*Mənim bükülməyən qolum, qanadım –*
*Tükənməz saflığım, heyrətim Vətən.*

*Qarqarım, Arazım, Kürüm də sənsən,*
*Gor evim, ocağım, pirim də sənsən,*
*Kəpəzim, Murovum, Dirim də sənsən –*
*Namusum, ismətim, qeyrətim Vətən...*

Mədətin həyatda arzuları ulduz sayında idi. Oxuyub traktorçu olmuşdu ki, atası Mürşüd kişi kimi torpaqdan çıxartsın çörəyini. İstəyirdi ki, Fuğanlının xan çinarının yanında öz əlləri ilə bir ev tikib ata ocağının işığından bir qol ayırsın bura. Niyyətində tutmuşdu ki, sevgisini ürəyində yaşatdığı qonşu qızı ilə vüsala çatıb ömrün şirinliyinə söykəsin üzünü. Mədətin ürəyinin işığı, təpəri idi bu arzular. Ömrü yarıda qırılmasaydı, gec-tez diləyinə, istəyinə çatasıydı o. Ancaq demə doğulandan alnına şəhid olmaq yazılıbmış onun. Alın yazısı, Tanrı hökmü, tale yazısıdır – onu dəyişdirmək heç kimə müyəssər olmayıb hələ. Qismətinə düşən ömrün harada qırılacağından xəbərsiz idi Mədət. Xəbəri olsaydı belə, bəxtinə bəxt calamağı, taleyin xəttini dəyişdirməyi bacarmazdı. «Fələyin yazdığını pozan tapılmaz» - deyiblər. Mədət taleyin ixtiyarındaydı onda, – üzüyola uşaqlar kimi hara səsləsə, oraya tuturdu üzünü...

Doxsan ikinci ilin yayında ürəyinin hökmü ilə cəbhəyə getmişdi Mədət. İstəyirdi ki, torpaqlarımızdan düşməni qovub çıxarsın, Fuğanlının gecələrini diksindirən atəş səsləri kəsilsin. Elə bu istəklə də Sur, Qışlaq postlarında düşmənlə üz-üzə dayanıb, arabir evlərinə qayıdanda kəndlərinin üst tərəfindəki təpədə dayanan uşaqlar birinci olaraq qarşılayırdılar onu:

– Mədət, ver silahını, götürək!..

– Zəhmət çəkməyin, evimizə çatmağa nə qalıb ki...

– Qaqaş, keçən dəfə söz vermişdin ki, sizə güllə gətirəcəyəm... Mədət onunla yanaşı addımlayan uşağın qıvrım saçlarına sığal çəkib:

– Qəqəni, o bizim özümüzə də indi çox lazımdır. Bir də ki, hələ dərslərinizi oxuyun, patronu, silahı neynirsiniz ki... Allah qoysa böyüyüb əsgər gedəndə silahınız da olar, gülləniz də...

– Mədət əmi, anam deyir ki, ermənilər adamları öldürmək üçün hər şəklə düşürlər...

– Düz deyir anan, onlar insan deyil. Təpəgözdür, cindir, şeytandır...



– Oyy, mən qorxuram cindən...

– Qorxma, necə ki, o quldurların qarşısında biz dayanmışıq, qələt eləyib buralara gələ bilməzlər...

Bir il qabaq əsgər andı mərasimində üçrəngli bayrağımızı öpüb demişdi ki, son nəfəsimə kimi Vətənə sədaqətli olacaq, düşmən qarşısından geri çəkilməyəcəyəm. Kişi kimi andına, sözünə əməl edib ölümü mərdliklə qəbul etdi Mədət. Quşçular kəndi ətrafında şəhid olanda da müqəddəs əsgər andı dodaqlarında səsləndi onun. Anda sədaqət insanın böyüklüyündən xəbər verir. Vətən sevgisinə tapınanlar yenilməz olurlar həyatda. Belə bir əsgər, belə bir igid idi Mədət...

## SƏN VƏTƏNİN İMDADIYDIN...

***Rüstəmov Məhəmməd Xasay oğlu***
***doğulub - 18.08.1969-cu il,***
***Cəbrayıl rayonu, Şukurbəyli kəndi;***
***şəhid olub - 03.08.1993-cü il,***
***Xocavənd rayonu, Quşçular kəndi***



Uzun müddət Məhəmmədin valideynlərindən soraq tutub onun haqqında bir şey öyrənə bilmədik. Sonradan öyrəndik ki, Məhəmməd Şükürbəyli kənd orta məktəbini bitirdikdən sonra İrkutskda və Litvada əsgəri xidmətdə olub. İki il ərzində Vətəndən uzaqda dolaşsa da, Şükürbəyli kəndində yaşayan ailə üzvlərini xoş sorağıyla sevindirib. Hərbi hissənin komandirlərinin imzasıyla evlərinə ünvanlanan təşəkkür məktubları atası Xasay kişini, anası Qızbəs bacını, qardaş-bacıları Qaraşı, Xəyyamı, Pərvanə və Mətanəti qanadlandırıb.

Vətənə qayıdandan sonra Məhəmməd bir müddət rayondakı təmir-tikinti idarəsində işləyib. Sonra tale onu sərhəd qoşunları sisteminə aparıb. 1991-92-ci illərdə burada çavuş rütbəsiylə qulluq edən Məhəmməd Rüstəmov erməni işğalçılarından qisas almaq üçün rayon hərbi alayına üz tutub...

1993-cü ilin yanvarından başlayan cəbhə yolları Məhəmmədi dəfələrlə sınağa çəkib. O, ilk «imtahandan» uğurla çıxıb. Sirik, Quşçular, Sur, Daşbaşı, Dolanlar kəndləri uğrunda gedən döyüşlərdə də Məhəmməd qeyrətinə sığınaraq düşmən qarşısında mərdliklə dayanıb.

Doxsan üçüncü ilin avqust ayının 3-də tale onun ömur kitabına son nöqtə qoyub. Döyüşdə ayağının birini itirən və bədəni qəlpələrdən didim-didim olan bu cəsur oğlan xəstəxanaya çatmamış dünyasını dəyişib...

1993-cü ilin payızından Nəvai qəsəbəsində qaçqınlıq taleyinə sığınan Rüstəmovlar ailəsi Şükürbəyli kənd qəbiristanında torpağa tapşırdıqları oğullarından ötrü hələ də göz yaşları axıdır, onu ürək parçalayan ağılara qatıb ağlayırlar:

*Bizim şəhid balamız,*
*Sığınırıq adına,*
*Tanrı özü yetişsin*
*O dünyada dadına.*

*Sən bizim qəlbimizin*
*İşığıydın, oduydun,*
*Sən torpağın harayı,*
*Vətənin imdadıydın...*

## TANRININ HAQQ İŞIĞI



***Sadıqov Qafil Qabil oğlu***
***doğulub - 25.06.1974-cü il,***
***Cəbrayıl rayonu, Mehdili kəndi;***
***şəhid olub - 14.02.1994-cü il,***
***Kəlbəcər rayonu, Yanşaq kəndi***

Mehdili camaatı o gün ağlar gözlə doğma ev-eşiklərini tərk edirdilər. Lələ təpəsinin üstündəki düşmən tanklarından atılan mərmilər yerə düşüb torpağı havaya sovurduqca adamlar vahimə içərisində kənddən Araz qırağına qaçıb canlarını qurtarmağa çalışırdılar. Araz qırağındakı ensiz sərhəd zolağına toplaşan maşın karvanı Horadizə tərəf üz tutan kimi adamların toplaşdığı yerlərə düşmən mərmiləri leysan kimi yağmağa başladı. Kimisi özünü Arazın gur sularına atır, kimisi ilğın kollarının arxasında daldalanmağa, hədəfdən yayınmağa çalışırdı.



O gün sanki Kərbəla müsibəti başlamışdı burada. İrəli gedənlər xəbər gətirdilər ki, erməni tankları Horadiz su bəndinin üstündəki körpünü bağlayıb. Arxadan gələnlər düşmənin günortaya yaxın Mahmudlu stansiyasındakı qanlı divanından soraq gətirdilər. Minlərlə qız-gəlin, ahıl-uşaq ayaqyalın, başıaçıq ora-bura qaçıb nicat yolu axtarırdılar özlərinə. Yaralıların ah-naləsi, atəş altda qalanların imdad səsi ərşə bülənd olmuşdu. Doxsan üçüncü ilin oktyabr ayının iyirmi üçü idi onda. Cənublu soydaşlarımız o taydan imdad əllərini uzatsalar da, Arazdan o üzə sancılan güllələr camaatın amanını qırmaqda idi...

Gecə yarı iranlıların motorlu qayıqlarında çayı adlayıb keçənlər tüstüsü ərşə qalxan obalara ürək yanğısı ilə tamaşa edir, göz yaşları içərisində boğulurdular...

O qanlı-qadalı gündə Qafil əlsiz-ayaqsız qocaların, bağrı qan olan körpələrin Arazdan adlayıb keçmələri üçün həyatını dönə-dönə təhlükədə qoymuşdu. Həmin gün başını qaldırıb adamların üzünə baxmaqdan çəkinirdi Qafil. Milli Orduda qulluq edən əsgərlərin son ayaqda dəyanətsizliyi varından yox etmişdi onu. O vaxt başıpozuq dəstələrin ünvanına söylənən acı kəlmələri eşitdikcə içində qovrulur, qəzəbdən yumruqları düyünlənirdi. Cəbrayıl hərbi hissəsində xidmət etməsə də, doğma torpaqların müqavimətsiz düşmənə təhvil verilməsində özünü də günahkar hesab edirdi...

O böhranlı payız günündən düz bir il əvvəl hərbi xidmətə çağırmışdılar Qafili. Bakının «Salyanski» kazarmasında keçən əsgərlik həyatı səksəkəli cəbhə bölgələrindən uzaq olsa da Arazboyu torpaqlardan gələn təlaş dolu xəbərlər yuxusunu ərşə çəkmişdi onun. Doxsan üçün yayında məzuniyyətə çıxıb doğma yurd yerlərinə qayıtsa da, təkidli xahişlərinə baxmayaraq, rayondakı hərbi hissəyə yaxın buraxmamışdılar onu. Kənddə olanda bir neçə dəfə könüllü surətdə hərbi əməliyyatlarda iştirak etməyə cəhd göstərmiş, yoldaşlarını tək buraxmamışdı. O müsibətli payız günündə güllə yağışı altda inləyənlərin Tanrıya uzalı əllərini gördükcə «dəli bir ağlamaq» keçirdi Qafilin könlündən. Onu ən çox göynədən o idi ki, dar ayaqda imkanlılar kasıbları, əlsiz-ayaqsızları Tanrı umuduna qoyub çıxmışdılar aradan.

Onda elə bil İlahi vəhyi ilə doğulan bir şeirin qan rəngli misraları hönkür-hönkür ağlayırdı Qafilin ürəyində:

*Sevdiyim ana torpaq,*
*Saçların qan içində.*
*İslaq kipriklərinin*
*Ucları qan içində.*

*Ağla, dərdin ərisin,*
*Ağla, qəlbin kirisin.*
*Toxların pul hərisin,*
*Acların qan içində...*

Cəbrayıl torpaqları düşmən caynağına keçəndən sonra Qafil Sabirabad rayonu ərazisinə sığınan valideynləri və qardaş-bacıları ilə görüşüb xidmət etdiyi hərbi hissəyə qayıtdı. Tale onu heç vaxt üzünü görmədiyi Kəlbəcər torpaqları ilə görüşdürdü onda. Murovun qarlı aşırımlarından başlanan uğurlu hücum əməliyyatları erməni dığalarını vahiməyə saldıqca Qafilin çiçəyi çırtlayırdı elə bil. Susuzluq və Yanşaq ətrafında gedən döyüşlərdə yurda sipər oğullar hər qayanı, hər daşı səngərə çevirib düşməni öz zağasına tərəf sıxışdırmaqda idilər. Heyf ki, o vaxtlar qışın oğlan çağı olsa da, burada da əkilən xəyanət toxumları cücərib boy atdı. İgid oğullarımızın qanı bahasına əldə edilən qələbə sevincinin axırını yasa döndərdilər yenidən...

Bənövşə dağı uğrunda gedən döyüşlərdə igid həmyerlimiz Sadıqov Qafil Qabil oğlu canını əsirgəmədi Kəlbəcər elimizdən. Afərim ana oğlunun ölüm xəbərini eşidəndə neçə-neçə kövrək ağı üstə köklədi ürəyini. Bakının Şəhidlər Xiyabanında torpağa qovuşan Qafilin məzarı üstə Tanrının haqq işığı şəfəq saçdı. Haqqa tapınanları, yurd sevgisinə üz tutanları Tanrı heç vaxt unudan deyil...



# BİR ELİN YARPAQ TÖKÜMÜ



***Sevdimalıyev Cəbrayıl Əli oğlu***
***doğulub - 20.11.1966-cı il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

O gün ağır Mərcanlı elimizin yarpaq tökümü başlamışdı. O gün ulu kənd qəbiristanına şəhid tabutları dalbadal yan almaqda idi. Neçə-neçə həyətdə müdhiş xəbərin gəlişi ilə qurulan yas çadırları ağlaşma, şivən səsləri ilə dolub boşaldıqca adamların tüstüsü təpəsindən çıxırdı. Kəndin qeyrətli cavanlarından olan Müslümün, Arifin, Fərhadın, Cəbrayılın... ruhu Tanrı ucalığında işığa qovuşmaqda idi o gün. Daşbaşıdan üzü Araza əsən ölüm küləyi Böyük Mərcanlı camaatını ağır sınağa, imtahana çəkirdi elə bil.

Daşbaşıdan gələn ağır xəbər Böyük Mərcanlıya çatana qədər neçə-neçə oymağı silkələyib ayağa qaldırdı. Can hayında olanlar yurd harayına sığınanların gözündən yayınıb aradan çıxdılar. Dünya malına hərislər şələlərini çiyinlərinə atıb fəlakətə uğrayan gəmini birinci olaraq tərk edən siçovullar kimi doğma yurd yerlərindən qaçıb uzaqlaşdılar...

Həmin gün axşamüstü Cəbrayılın qanlı tabutu ata ocağına gətiriləndə Mərcanlının səmasında dolaşan erməni sifətli ölüm kabusu adamları vahiməyə salmaqda idi. Uzaq dağ kəndi Sirikdən, Cəbrayılın qala qapısı Quşçulardan, Qazanzəmidən gələn qorxunc xəbərlər əsəbləri dara çəkirdi elə bil. Daşbaşı faciəsi görünməmiş sitəm idi bu yerlərdə...

Rayon camaatının el ağsaqqalı kimi tanıdığı Əli kişi o gün için-için yanıb-qovrulsa da, Cəbrayılın ölümünü müdrik insan dözümü ilə qarşıladı:

- Ay camaat, çox sağ olun ki, oğlumun adını belə əziz tutursunuz. Onun ölümü belimi qırsa da, təsəllim odur ki, Cəbrayıl torpaq yolunda şəhid olub. Bu yolda canını qurban verənlərin hamısı mənim balalarımdı...

Ata özünü toxdaq saxlasa da Fatma ananın gözlərindən qanlı yaş axırdı o gün. Cəbrayılın bacıları Şamama, Səlbi, Tərlan, Mələykə, Almaz, Məlahət pəhləvan cüssəli qardaşlarının didim-didim olan cəsədinə baxdıqca fəryadları ərşə çatırdı. Hüseyn, Həsən və Tehran dərd əlindən bir-birlərinə sarmaşıb şəhid qardaş itkisinin alovunda qıvrılırdılar. Afət həyalı kənd

qızlarına xas olan bir utancaqlıqla cənazədən bir az uzaqda dayanıb gizli-gizli göz yaşı axıdır, ömür-gün yoldaşı ilə ürəyində vidalaşırdı...

Boylu-buxunlu, yaraşıqlı bir igid idi Cəbrayıl. Yaşıdları arasında qollarını qatlayan olmasa da, heç kimin xətrinə dəyən deyildi. Çoxuşaqlı ailədə böyüdüyündən ehtiyacın dadını yaxşı bilir, halal duz-çörəyin qüdrətinə arxalanırdı həmişə. Onun nəzərində torpaq gor evi, ad-san yeri idi. Harda olsa Mərcanlıdakı ata ocağından ötrü burnunun ucu göynəyirdi. Bəlkə elə ona görə də İranı, Turanı gəzib-dolaşsa da, ata elindən uzaqda yaşaya bilməmişdi. Ulu yurd yerlərimiz onun gözlərində ayrıca bir planetə bənzəyirdi. O bu «planetin» cazibəsindən uzaqda yaşamağı heç eyninə də gətirməmişdi...

Hələ 1985-87-ci illərdə uzaq Almaniyada əsgəri xidmətdən sonra el-obaya qayıdan gündən rayon məişət xidməti kombinatında sex rəisi işləyirdi. Gənc olmasına baxmayaraq, ağsaqqalın, cavanın yerini bilən idi...

Cəbrayıl 1993-cü ilin aprelində yurda sipər oğulların cərgəsinə qoşulmuşdu. Əsgər yoldaşları arasında topçu kimi tanınırdı. Əfəndilər kəndi uğrunda gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi. Ölümündən xeyli qabaq rayonun ən odlu döyüş nöqtələrindən olan Daşbaşı postunda yurda keşik çəkirdi. Gecənin zülmətində hər səsə, hər səmirə diqqət yetirir, barmağını tətikdən uzaqda saxlamırdı...

Daşbaşı postunda həmişə ayıq-sayıq dayanan igidlərimiz o gecə elə bil tilsimə düşüb fürsəti əldən vermişdilər. Ölümün beş-on addımlıqda olduğundan Cəbrayılgil tamam xəbərsiz idi o gecə...

Düşmən qətlə yetirdiyi cavanlarımıza divan tutmuşdu. Bu müdhiş faciədən dağlar, daşlar hönkürür, şivən qoparırdı. Daşbaşı qayaları bir gecənin içində qəddarlıqla qətlə yetirilən on səkkiz cavanın ölümündə özünü günahkar sayırdı elə bil...



## QƏFİL ÖLÜM YAMAN OLUR



***Səmədov Sabir Əvəz oğlu***
***doğulub - 28.05.1973-cü il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub -28.01.1996-cı il, Qazax bölgəsi***

Birsifətli, lap uzağı iki-üçsifətli adamla dil tapmağa, onu hardasa ram eləyib yola gətirməyə nə var ki. Vay o gündən ki, qarşındakı buqələmun kimi cilddən-cildə düşüb, iblis törəməsi kimi qırx qazanın mayası ola. Bəlalərinin qarşısında gərək duruş gətirməyi bacarasan, yoxsa kəfəni boynuna dolayıb ölümə tərəf üz tutmalı, əzrayılı soraqlamalısan. O gün Sabir haradan biləydi ki, namərd düşmən iblis cildinə girib onu qəfildən yaxalayacaq. Düşmənin fitnəsindən xəbəri olsaydı, ölümün üstə gedərdimi heç. Ona elə gəlirdi ki, atəşkəs olduğundan namərd ermənilər ona əl qaldırmaz, ata-anasını ağlar qoymazlar. O haradan biləydi ki, düşmən məqamı yetəndə quzu cildinə düşən qurd kimi adamı yaxalayır. Erməni bicliyindən xəbəri olsaydı, Sabir o gün Ağstafanın Köhnə Qışlaq kəndindəki posta gedərkən girəvəni əldən verib, namərd gülləsinə tuş gəlməzdi. Yox, Sabir düşmənin məkrli olmasını dönə-dönə görüb, sınaqdan keçirmişdi. Birinci dəfə deyildi ki, erməni quldurlarının üzünü görürdü. Düz dörd il on ay idi ki, kürəyini səngərə söykəyib qarşı tərəfdə dayanan düşmənin hərəkətlərinə göz qoymaqda idi. O gün, heç özü də bilmədi ki, ehtiyatı niyə əldən verdi. Görünür bu da bir sirri-Xudadır. Görünür Sabirin o yanvar günündə ömrünün axırı çatası imiş. O günə kimi iyirmi üç illik bir ömür yolu keçmişdi Sabir...

...Böyük Mərcanlı kəndində dünyaya göz açmışdı. Orta məktəbi bitirəndən sonra Ukraynanın Desna şəhərində əsgəri xidmətdə olmuşdu. Keçmiş SSRİ məkanında milli münaqişələr başlayandan sonra yurdumuza qayıdıb, torpaqlarımızın müdafiəsinə yollanmışdı. Doxsan ikinci ilin aprelindən cəbrayıllı igidlərin sırasında idi. Şayaq döyüşündə yaralansa da onlardan ayrılmamışdı. Yaraları hələ qaysaq bağlamamış Qışlaq postuna üz tutmuşdu. Cəbrayılın düşmənə təhvil verildiyi günə kimi bu postda bir əsgər kimi dayanmışdı...

...Doxsan dördüncü ilin yanvarında Arazboyu torpaqların düşməndən təmizlənməsində yaxından iştirak etmiş, ikinci dəfə yaralanmışdı...

Müalicə olunandan sonra Sabirin yenə də cəbhədən səsi gəlməkdə idi. Bu dəfə o, Qazaxdakı hərbi hissədə qulluq edib, torpaqlarımızın müdafiəsində dayanmışdı. Heç eyninə gətirməzdi ki, müharibənin səngidiyi bir vaxtda gülləyə tuş gələ bilər...

...Əvəz kişini Mərcanlılar halal bir adam kimi tanıyırdılar, indi o, şəhid atası kimi anılıb, yada düşür...

...Gülzar bacı elin xeyir-şərində yaxından iştirak edib, yıxılı qəlbə dayaq durmağa çalışardı, indi camaat onun başına toplaşıb dərdinə şərik olur...

...Vidadi döyüşə yollananda elə bilirdi ki, Sabirlə kürək-kürəyə dayanıb. Qardaşı şəhid olandan sonra elə bilir ki, dünya üstünə uçub...

Yurd savaşında neçə-neçə say-seçmə oğlunu itirən, var-dövləti yağmalanan, içimizdə göyərən xəyanətin qurbanı olan Mərcanlı camaatı Sabir adlı şəhid balasına da göz yaşı axıtdı. Onun dəfninə gəlməyə imkanı olmayanlar dizlərinə döyüb heyfsiləndilər o gün. Ağzıdualı İsa kişi mərcanlıların sırasını seyrək görəndə əllərini göyə qaldırıb:

– Bizi eldən ayıranların tifaqı dağılsın, – dedi. – Yadınızda saxlayın, ay camaat, Tanrı bu zülmü götürən deyil.

- Təki belə olsun, ay İsa dayı. Gün o gün olsun ki, yurdumuza qayıdıb şəhidlərimizin ruhunu sevindirək...



# QANA BOYANMIŞ BİLET

*Surxayev Arif Əbil oğlu*
*doğulub - 12.11.1965-ci il,*
*Cəbrayıl rayonu, Çullu kəndi;*
*şəhid olub - 19.03.1994-cü il,*
*Füzuli bölgəsi, Horadiz kəndi*



Erməni dığaları orda-burda baş qaldırır, yavaş-yavaş hədlərini aşırdılar. «Myatsum» nidası daha ucadan səslənməyə başlamışdı. Saqqallıların təhriki və təzyiqi ilə təşkil olunan mitinqlər Arifə gülünc görünür, ona ağılsız, düşünülməmiş hərəkət təsiri bağışlayırdı. Axı hayların qeyrətsiz millət olduqlarına yaxşı bələd idi. Hələ kiçik yaşlarında çoban atası ilə arana-dağa gedəndə onların qorxaqlığının, ikiüzlüyünün çox şahidi olmuşdu. Zatı-kökü bilinməyən yastı-başların indi öz torpağımızda bizə qarşı meydan sulamalarını o, ötəri şıltaqlıq sanır, «dığalar od olub kimə nə edəndilər, olsa-olsa öz odları özlərini yandıracaq» – deyirdi.

Qarabağ səmasında əsən tufan isə getdikcə şiddətlənirdi. Kəndlərimiz güclü atəşə tutulur, evlər yandırılıb yerlə-yeksan edilir, günahsız adamlar öldürülürdü. Daha gözləməyin vaxtı deyildi. Arif Surxayev 1992-ci ilin əvvəllərində rayon hərbi komissarlığına gələrək könüllülər dəstəsinə yazıldı. Əldə silah gecə-gündüz torpağımızın keşiyini çəkdi. O, zahirən sakit görünsə də olduqca güclü və qorxmaz idi. Gülləni gözünün içinə sıxsan çəkinən deyildi. Ən çətin əməliyyatlarda özünü irəli verər, təhlükə gözlənilən yerlərdə postda dayanardı. Dəfələrlə düşmən arxasınca kəşfiyyata gedərək onun canlı qüvvəsi, texnikası haqqında qiymətli məlumatlar gətirmişdi. Hücumda da hamıdan öndə gedərdi...

1994-cü ilin əvvəlləri idi. Özünə gələn Milli Ordumuz Füzuli istiqamətində əks-hücuma keçərək düşmən qüvvəsini darmadağın etdi. Quldurlar silahlarını atıb qaçırdılar. Rayonun bütün Arazboyu kəndləri işğalçılardan azad olundu. Döyüşlər artıq kənd Horadizin ətrafında gedirdi. Arif yaman həyəcanlanmışdı. Bu, səbəbsiz deyildi. Çünki doğma Cəbrayıl torpağı o qədər yaxınlıqdaydı ki, əl uzatsan çatardı. Ona görə də gənc əsgər daha ürəklə döyüşür, canından da çox sevdiyi ata-baba yurdunu qarı düşməndən təmizləməyə can atırdı. Nə heyf ki, Horadiz kəndi ətrafında gedən qanlı

savaşda düşmən gülləsi onun minbir arzuyla döyünən qəlbini həmişəlik dayandırdı.

Arif orta təhsil almışdı. 17 yaşında ikən anası Ceyran dünyasını dəyişmişdi. Atası Əbil kişi yaşa dolduğundan dörd qardaş və iki bacısının əsas ağırlığı Arifin üstünə düşmüşdü. Ona görə də sovet ordusundan tərxis olunandan dərhal sonra kəndlərindəki sovxozda təsərrüfatın müxtəlif sahələrində fəhlə işləmişdi. 1988-ci ildə əmisi qızı İradə ilə ailə həyatı qurmuşdu. Arif Milli Ordumuza səfərbər olunanda Şəlalə və Ələsgər adlı iki uşaq atasıydı. O, ömrünün 29-cu baharında əbədiyyətə qovuşandan bir qədər sonra bir qızı da dünyaya gəldi. Atasının xatirəsini yaşatmaq üçün körpənin adını Arifə qoydular. Altı yaşlı Ələsgər isə şəhid atasının qana boyanmış hərbi biletini ürəyinin üstündə gəzdirir. Deyir ki, böyüyəndə atamın intiqamını alacam. Elədir, Ələsgər bala, Arif kimi igid, yenilməz ataların intiqamını sənin kimi oğulların alacağı şəksizdir. Geçi-tezi var.

## DAĞLAR ONA ARXA İDİ



***Səfiquliyev Məzahir Ağakişi oğlu***
***doğulub - 10.07.1971-ci il,***
***Cəbrayıl rayonu, Şıxlar kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

Dumanlı, çənli dağların qoynunda dunyaya göz açmışdı Məzahir. Tey dağının Güney üzünə söykənən Şıxlar kəndi bir vaxtlar özünün ən bəxtəvər çağlarını yaşamaqda idi. Kəklikotu, yarpız qoxusu və bir də solmaz çiçəklərin ürəklərdə zərif duyğular oyadan ətri səhər mehinə qarışıb dolaşırdı bu yeri. Qışından bəyaz təmizlik, baharından ilahi gözəllik yağırdı Şıxlar kəndinin. Daşdan daşa qonan xınalı kəkliklərin qaqqıltısı həzin bir nəğmənin dil açan notlarına bənzəyirdi. Məzahir belə bir obada dil açıb böyümüşdü. Dağ adamları mətin, dəyanətli olur, – deyirlər. Dağlar onun söykəyi, dözümü, vüqarı idi. Kürəyini sal daşlara söykəyəndə özünü hamıdan güclü, çevik hesab edirdi Məzahir. Anası Suqra xala, bacısı Mədinə onun vüqarına, adına sığınırdılar. Torpaq sevgisi, yurd istəyi



ürəyinin özəyi, dizlərinin taqəti idi. Qız-gəlindən abırlı, həyalı bir oğlan idi. Kənddə gözaltısı, deyiklisi var idi Məzahirin. Ata-anası, qohum-əqrabası toyuna hazırlaşırdılar onun. Qəfildən əsən qara yellər növrağını pozdu bu yerlərin. Qonşuluqdakı Dolanlar ermənilərinin boz sifətini görəndə Şıxlar camaatı da hamılıqla ayağa qalxdı. Onda səksən səkkizinci ilin baharına lap az qalırdı...

Məzahir sovet ordusunda əsgəri xidmət illərini başa vurub qayıdanda el-obasını həyəcan içində gördü. Yamac boyu uzanıb gedən kövşənliklərin, zümzüməli bulaqların üstündən əsən qara yellər kənd evlərinin yuxusunu ərşə çəkmişdi. Kəndin kişiləri sübhə kimi oyaq qalıb düşmənin qarşısında köklü qaya kimi dayanmışdılar. Məzahir tərəddüd etmədən könüllü müdafiəçilərin sırasına qoşulub qoynunda böyüdüyü dağların harayına səs verdi. Tbilisi şəhərində əsgəri xidmətdə olarkən təcrübəli bir serjant kimi hərbi silahlarla davranmağı məharətlə oyrəndiyindən kənd cavanları bir sözünü iki eləmirdilər onun...

Cəbrayıl hərbi hissəsi yaradılanda Milli Ordumuzun ilk əsgərləri sırasına qoşulub Məzahir. Sirik batalyonunda hamı onu zenit silahının mahir atıcısı hesab edirdi. Dağlıq Qarabağa üz tutan quldur vertolyotlarının uçuşunu dayandırmaq üçün açdığı sərrast atəşlər qüdrətindən soraq verməkdə idi onun...

O, azğın düşmənlərlə dəfələrlə üz-üzə dayanmış, onların məkrli planlarını pozmuşdu. Doxsan üçüncü ilin mayında keçirilən «Göy gədik» əməliyyatı uğursuzluqla nəticələnsə də bu döyüşdən üzüağ çıxmışdı Məzahir. O qanlı-qadalı savaşda xeyli itki verərək geriyə çəkilən Sirik batalyonunun ən cəsarətli əsgərləri şəhid olsalar da Məzahir kimi igidlərimizin sayəsində dəstənin səfi pozulmadı. Əsgər dostları deyirlər ki, bu döyüşdən sonra Məzahiri tanımaq olmurdu elə bil. Yaxın dostlarının ölümündən ürəyi göynəyən bu dağlar oğlu onda and içmişdi ki, şəhidlərimizin qisasını yerdə qoymayacaq...

Doxsan üçün 22 avqust gecəsi nizamı pozuldu Cəbrayıl elimizin. O məsum gecədə üzüaşağı, Araza tərəf köçü başladı dağ adamlarının. Bircə həftənin içərisində şaxı sındırılan, ocağı söndürülən camaatın ev-eşiyini tərk etməkdən savayı ayrı yolu, özgə çarəsi qalmadı. Vahimə ilə, təxribatla işığı söndürülən obaları erməni bayquşları xarabalıqlara çevirdilər. Köç edib uzaqlaşan kənd adamlarının dalınca Şıx babanın ruhu fəğan qopardı. Hacı Qaraman ocağı, Fatma nənənin, Suqra çələbinin gor evləri əsirlikdə qaldı...

Məzahir dirigözlü alışıb yanırdı onda. Hovusludan üzüaşağı, Gəyənə tərəf enəndə ürəyi qubar elədi. Dönüb arxada qalan Qala dağına ha boy-

landısa da, aranı kəsən Niftalılar kəndinin qollu-budaqlı çinarlarından o yanı görə bilmədi.

Ata-anasını, qardaş-bacısını xeyli axtarandan sonra İsmayıllı rayonunda tapdı. Onların boynuna sarılandan sonra yenidən cəbhəyə qayıdacağını söylədi Məzahir. Anası onu yolundan döndərmək üçün ağlayıb sıtqasa da, dumanlı çiskinli bir payız günündə yenidən cəbhəyə yollandı Məzahir. 1993-cü ilin 28 dekabrında Ağdamın Güllücə kəndində gedən döyüşlərdə düşmən gülləsi onun həyatına son qoydu. Bir dağ qartalının iyirmi iki illik ömrü yarıda qırıldı...

Kürdəmirin Şəhidlər Xiyabanında qərib bir şəhid məzarı da var. Bu, ruhu Cəbrayılın Xan Çinarlarını, Hacı Qaraman ziyarətgahını və odu-ocağı söndürülən Şıxlar kəndini soraqlayan Məzahirin gor evidir. O, hər səhər başdaşından boylanan şəklindən gözlərini uzaqlara dikib dağları səsləyir elə bil:

*Bəlkə o yerlərə bir də gəlmədim,*
*Duman salamat qal, dağ, salamat qal!..*

## GÜLLÜCƏDƏ QIRILAN ÖMÜR



***Süleymanov Azad Əhməd oğlu***
***doğulub - 1975-ci il,***
***Cəbrayıl rayonu, Göyərçin Veysəlli kəndi;***
***şəhid olub - 04.1994-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***

Kəndlərini tərk edəndən bəri ilk dəfə idi ki, evləri, güllü-çiçəkli geniş bağ-bağçaları yadına düşmüşdü Azadın. Qəlbindən qara qanlar axdı. Bilmədi nə etsin. Bir yerdə qərar tuta bilmirdi. Çox düşündü, götür-qoy etdi, özü-özünə sual verdi: «Görəsən, isti ocağımızdan, doğma el-obadan dərbədər olmağımızın səbəbi nədir? İnsanlar niyə belə bir-birlərinə qənim kəsiliblər?» Necə oldusa iki il əvvəl sevimli müəlliminin dediyi sözləri xatırladı. «Vətənimiz təbii sərvətlərlə olduqca zəngindir». Ona görə də xalqımızın başı çox bəlalar çəkib. Əsrlər boyu yadelli işğalçıların basqınına məruz qalmışıq. Torpaqlarımızda şırımlar açılıb. Aşıq Ələsgər, Aşıq



Alı... kimi söz ustaları yetişdirən Göyçə, Zəngəzur... əlimizdən gedib. Xain erməni qonşularımız indi də Qarabağımızı bizdən qoparmaq istəyir. Gərəkdir ki, hamımız ayağa qalxıb torpaqlarımızı müdafiə edək. Bu bizim hər birimizin Vətən qarşısında övladlıq borcumuz – vətəndaşlıq borcumuzdur. Dədəmiz Qorqud demişkən «torpağı qoruya bilmirsənsə, onu əkib becərməyə dəyməz, əkib-becərməyi bacarmırsansa, onu qorumağına dəyməz». Məsələnin əsl mahiyyətini yalnız indi dərindən dərk etdi Azad. Zamanın ədalətsizliyinə qarşı qəlbində etiraz nidaları ucaldı. Torpaq hərislərini, insan cəlladlarını o ki var lənətlədi...

Hərbi komissarlıqdan çağırış vərəqi alanda müstəqil həyata yenicə qədəm qoymuş bu gənc rahat nəfəs aldı. «Hə, düşmənlə hesablaşmağın vaxtı gəlib çatdı», – deyə özündə bir yüngüllük hiss etdi.

1993-cü ilin noyabr ayında Milli Ordumuzun sıralarına çağırılaraq əsgər paltarı geydi. Döyüş yolu Ağdam istiqamətində başladı. Ürəyində erməni qaniçənlərinə sonsuz nifrət bəsləyən cəsur döyüşçü əsgəri andına axıradək sadiq qaldı. Torpaqlarımızın qəsbkarlardan təmizlənməsi uğrunda gedən döyüşlərdə fəal iştirak etdi, dəfələrlə igidlik göstərdi. Nə heyif ki, Ağdamın Güllücə kəndində mühasirəyə düşdü. Düşmənin əlinə keçməmək üçün son nəfəsinədək döyüşdü. Həyatdan nakam gedən 19 yaşlı gəncin ömrü Güllücə kəndində qırılaraq Şəhidlik Zirvəsinə ucaldı.

## İGİD ÖLƏR, ADI QALAR...

***Süleymanov Məhəmməd Əhməd oğlu***
***doğulub - 30.06.1974-cü il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 02.01.1994-cü il,***
***Ağdam rayonu, Güllücə kəndi***



Sağlığında Məhəmməddən soruşsaydılar, Vətən hardan başlayır, o tərəddüd etmədən cavab verərdi ki, mənim dünyaya göz açdığım Böyük Mərcanlı kəndindən, atam Əhmədin ulu ocağından. Ancaq onun nəzərində doğma kəndlərindən başlayan bu Vətənin Bakısı, Gəncəsi, Şəkisi, Naxçıvanı, Lənkəranı, Gədəbəyi... də var idi. O, ata yurdu Cəbrayılı sevdiyi qədər Balakəni, Qubadlını, Ağdamı, Tovuzu, Laçını əziz-

ləyib uca tuturdu. Oğuz elimiz Azərbaycan başdan-başa onun üçün yurd yeri, yurd işığı idi. Bəlkə elə buna görə də o, Vətənin işığının, odunun keşiyində son nəfəsinə kimi qeyrətlə dayanıb, cavan ömrünü ona qurban verdi...

Əhməd kişinin, Pəri bacının uşaqlarının sonbeşiyi olan Məhəmməd dünyaya gələndə anası Nargilə arvadın arzusu ilə ona bu adı verdilər. Məhəmməd Nargilə nənənin Böyük Vətən müharibəsində həlak olan oğlunun adını daşıya-daşıya böyüdü. Sadə peşə adamı olan Əhməd kişi sonbeşiyini ali təhsilli mütəxəssis kimi görmək arzusunda idi. Ancaq bığ yeri təzəcə tərləyən bu oğlan Vətənin dar günündə təhsil dalınca getməyi qüruruna sığışdırmadı. Atasının niyyətini bilən kimi:

– İncimə, ata, – dedi, – indi elə bir vaxtdır ki, hamı Vətənin çağırışına getməli, onun harayına səs verməlidir. Sağlıq olsun, müharibə qurtarar, ondan sonra oxuyub ali təhsil alaram. Bir də ki, yaxşı əsgər olmağın özü də adamdan qeyrət tələb edir. Allah qoysa, özünüz görəcəksiniz, sizə necə baş ucalığı gətirəcəyəm...

Məhəmməd sözünə xilaf çıxan oğullardan deyildi. Ayağını cəbhəyə qoyan kimi cəsarəti ilə başqalarına nümunə oldu. Şayaq, Sur, Ağyol, Armudlu əməliyyatlarında bərkə-boşa düşən bu igid oğlan Azərbaycan əsgəri adına layiq olduğunu dönə-dönə sübut etdi. Doxsan üçüncü ilin oktyabr ayında Quycaq uğrunda kedən döyüşlər Məhəmmədi bir qəhrəman kimi tanıtdı. Onda elə vaxtlar idi ki, düşmən ordumuzun başıpozuqluğundan istifadə edərək, adamları kürüyüb Araza tökmək üçün son günlərini yaşayan obalarımızın üstə mərmi yağışı yağdırırdı. Məhəmməd və onun döyüş dostları düşmən hücumlarına çətinliklə tab gətirsələr də, öz mövqelərini vuruşa-vuruşa tərk edirdilər. Heyf ki, o vaxtlar Cəbrayıl hərbi hissəsinə rəhbərlik edən bir sıra naşı və qorxaq komandirlər Məhəmməd kimi əsgərlərimizin əzminə söykək durmadılar...

O qanlı-qadalı döyüşlərdən sonra Cəbrayıl hərbi hissəsi demək olar ki, dağılmış vəziyyətdə idi. Vətənin çağırışı ilə yenidən səf-səf düzülən igidlərimiz Gəncə ətrafında təlim keçdikdən sonra müxtəlif cəbhə bölgələrinə üz tutdular...

Məhəmməd və onun köhnə döyüşçü yoldaşları Elşən Behbudov, Sirac Mirzəliyev, Elşən Əhmədov... neçə vaxt idi ki, Ağdam bölgəsində yurda keşik çəkirdilər. Araz boyunda dişi qana batan erməni quldurları igid əsgərlərimizi Qarabağ düzlərində qəfildən sınağa çəkdilər. Güllücə istiqamətində irəliləyən ilk düşmən tankları görünəndə Məhəmmədin gur səsi eşidildi:



– Qardaşlar, daha bizim geriyə çəkilməyə yerimiz yoxdur. İrəlidə qələbə, arxada şərəfsizlik gözləyir bizi. Bu vuruşmada bir qaşıq qanından qorxub geriyə çəkilən kişi deyil. Ölümə ölüm, qana qan...

Məhəmmədin dilində əsgər andı kimi səslənən bu sözlər əsgərlərimizi elə ruhlandırdı ki, onlar düşmən önündə canlı sipərə dönüb quldurların yolunu kəsdilər...

Məhəmməd o döyüşdə düşmənin bir neçə tankını, bir ədəd BTR-ni və bir hərbi yük maşınını məhv etdi. O özü bu döyüşlərdə şəhid olsa da axıracan andına, məsləkinə sadiq qaldı. Vətən belə oğullarla zaman-zaman fəxr edəcək hələ. Aqillərimiz «İgid ölər, adı qalar» – deyiblər. Məhəmməddən bu dünyada şərəfli ad, qəhrəmanlıq qalıb bizlərə...

## BİZ ONA BORCLUYUQ...



***Talıbov Zahid Kamran oğlu***
***doğulub - 01.02.1965-ci il,***
***Cəbrayıl rayonu, Şıxalıağalı kəndi;***
***şəhid olub - 10.1993-cü il,***
***Cəbrayıl bölgəsi***

Gilə nənə şəhid oğlunun yadigar balası Mətanətin əl boyda şəkli dodaqlarına söykədiyini görəndə ürəyi təzədən göynədi. Göz yaşlarını yaylığının ucu ilə silib, uşağı bağrına basdı;

– Gözümün işığı, atanın şəklini ver, qoy nənə saxlasın.

– Yox, nənə, qoy özümdə qalsın. Ata gələndən sonra sənə qaytararam...

Uşaq nənəsinin kövrəldiyini görəndə, ona bir az da qısıldı:

– Nənə, ay nənə, niyə ağlayırsan? Hə, bilirəm atam üçün qəribsəmisən. Nənə, bəs nə vaxt gələcək atam? Bilirsən, o gələndə ona hansı şeiri deyəcəyəm?

– Hə, bilirəm «Uşaq və buz» şeirini deyəcəksən ataya.

– Yox, nənə, bilmədin, ona deyəcəyəm ki:

*Mənim atam qəhrəmandır,*
*Qorxu bilməz bir insandır.*
*Gəzir adı dilimizdə,*
*O, yaşayır elimizdə...*

Hə, necə şeirdir, nənə? Bunu mənə Kamran baba özü öyrədib... Gilə nənə göz yaşlarında boğula-boğula nəvəsinin qönçə dodaqlarından öpüb:

– Göyçək balam, çiçək balam, sənin atan doğrudan da qəhrəmandır, ancaq...

Nənə uşağın kövrəldiyini görub tez sözünü dəyişdi:

– Hə, indi get oyna. Qayıdandan sonra sənə təzə nağıl danışacam...

Gilə ananın dilində, dodağında göyərən bu nağıldan Zahid balası boylanırdı dünyaya...

Zahid Şıxalıağalı kəndində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra sovet ordusu sıralarında qulluq etmiş, kiçik komandirlər hazırlayan məktəbi bitirmişdi. Düşmən torpaqlarımızı cənginə keçirməsəydi, o, heç vaxt hərbçi peşəsinin arxasınca getməyəcəkdi. Doğma kəndlərinə sığınaraq, halal bir işin qulpundan yapışıb ömür sürəcəkdi. Başqa vaxtlar olsaydı, ailə şirinliyini təzəcə duyan Zahid Talıbovu odlu-alovlu nöqtələrə heç bir qüvvə çəkə bilməzdi. Ancaq nankor qonşularımızın «dənizdən dənizə» istəyini anlayan kimi o, şirin arzuları ilə vidalaşıb Cəbrayıldan o üzdəki dumanlı-çənli dağlara üz tutdu...

O vaxtlar hələ Milli Ordu yaranmadığından torpaqlarımız könüllülər tərəfindən qorunurdu. Doxsan birinci ildə Zahid Talıbov Cəbrayılın ilk müdafiəçiləri sırasına qoşulub düşmən qabağına çıxdı. Hərəkül, Daşbaşı, Şayaq, Dolanlar, Zamzur, Mülkədərə, Banazur kəndlərinin düşməndən təmizlənməsində fəal iştirak etdi. Milli Ordu yaranandan sonra onun fəaliyyət dairəsi daha da genişləndi. Ağdərə, Tərtər, Goranboy, Ağdam bölgələrində gedən döyüşlərdə özünü igid bir əsgər kimi göstərən eloğlumuz 1993-cü ilin oktyabr ayında erməni faşistləri tərəfindən qətlə yetirildi...

Zahidin döyüşçü dostu Fazil Məstəliyevin dediklərindən:

– Deyirlər şəhidlik alın yazısı, Tanrı hökmüdür. Ancaq bu ada hər yetən yox, ən say-seçmə oğullar layiq olur. Zahid sözün həqiqi mənasında elini, torpağını sevən igid bir oğul idi. Onun komandirlik məharəti, əsgər hünəri daha çox diqqəti cəlb edirdi. Belə oğullar həmişə dünyaya gəlmirlər...

Ulularımız deyiblər ki, o adamlar Tanrının sevgisini qazanırlar ki, onlarda Vətən qeyrəti yaşamaq istəyindən üstün olur. Dar ayaqda özlərini oda-közə vurub, kimlərinsə həyatını xilas edirlər.



Zahid Vətənin sabahı naminə candan keçib, biz yaşayaq deyə həyatla vidalaşdı. Məhz bu qəhrəmanlığına görə biz ona və minlərlə şəhidlərimizə həmişə borcluyuq. Bu elə bir mənəvi borcdur ki, onu istəsək də heç vaxt şəhid oğullarımıza qaytara bilməyəcəyik:

*Hər yetən üz tutmaz zirvəyə, göyə,*
*İgidlər qovuşar ilahi səsə.*
*Yaxşılıq borc kimi verilmir deyə,*
*Qaytara bilmirik onu kiməsə...*

## BİR PAYIZ GÜNÜ...

***Təhməzov Oruc Nüsrət oğlu***
***doğulub - 01.10.1974-cü il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 09.10.1994-cü il,***
***Füzuli rayonu, Horadiz qəsəbəsi***



Böyük Yaradan Təhməz kişinin törəmələrindən öz kəramətini əsirgəmədi o payız. Yeddi qızdan sonra bir oğul payı da əta elədi onlara. Öz gəlişi ilə ailənin sonsuz sevincinə səbəb olan körpənin adını Oruc qoydular. Qohum-qardaş, qonum-qonşu bu münasibətlə Durna anaya, Nüsrət kişiyə gözaydınlığı verdilər. Fərəhi yerə-göyə sığmayan ailənin səadət çırağı - daha gur şölə saçdı o payız. Oğul həsrətilə illər boyu qəlbində gəzdirdiyi arzusuna çatan ana taleyindən razı qalaraq Allaha şükür etdi ki, muradını gözündə qoymadı.

Qayğısız böyüyürdü Oruc. Təhməz kişinin nəsil davamçısının torpağa, Vətənə layiqli övlad kimi yetişməsindən ötrü hər şey edilirdi. Balaca Oruc ilk dəfə əlinə çanta götürüb məktəbə yollananda gözlərində sevinc yaşı parladı Durna ananın, fərəhinin üstünə bir fərəh də gəldi. Sevinc dolu günlər beləcə bir-birini əvəz etdikcə ailənin əziz xələfi də ərsəyə çatır, kişiləşirdi. O, artıq kəndin gözəgəlimli, sayılıb-seçilən cavanlarından olmuşdu. Ucaboy, enlikürək, yaraşığı ilə diqqəti çəkən bu oğlan hamının hörmətini qazanmışdı. Mehribanlığı, şən və zarafatcıllığı da onu tay-tuşlarından fərq-

ləndirirdi. Kənddə bir toy-düyün onsuz keçməzdi. Bütün məclislərin yaraşığıydı Oruc.

Durna bacı hərdən ciyərparasını başdan-ayağa süzər, özünü xoşbəxtlərin xoşbəxti sanar, bir anlığa şirin düşüncələrə dalardı. Xəyalən evlərinə gəlin gətirər, qol götürüb istəkli balasının toyunda oynayardı da. Ananın niyyətinin çin olması o qədər yaxın idi ki...

Oruc Təhməzov Milli Ordu sıralarına çağırıldı 1992-ci ilin bir payız günü. O, hərbi xidmətə ölkəmizin paytaxtı Bakı şəhərində başladı. Burada hərbi and içdikdən sonra onu rayonumuzdakı sərhəd qoşunları hissəsinə göndərdilər. Əsgəri xidmətinin nisbətən sakit keçməsinə baxmayaraq, Oruc Təhməzov özünü çox narahat hiss edirdi. Xüsusilə namərd qonşuların xaincəsinə sərhəd kəndlərimizə basqınları barədə eşitdiyi dəhşətli xəbərlər gənc əsgəri qəzəbləndirir, torpaqlarımızı erməni qəsbkarlarından qoruyan igid oğullarımızla bir cərgədə olmağa can atırdı.

Orucun birinci döyüşü Füzuli rayonunda oldu. Qızıl qaya adlanan yerdə ermənilərin güclü basqınları qarşısının alınmasında iştirak etdi. Quldur dəstələrinin ciddi itki verərək geri oturdulmasında Orucun qoçaqlığı xüsusi qeyd edildi. Qorxmaz döyüşçü cəsurluğunu rayonumuzun Sirik, Süleymanlı, Qaracallı, Qışlağ kəndləri uğrunda gedən savaşlarda, Şişqaya əməliyyatında bir daha təkrar etdi.

Oruc Horadiz qəsəbəsində soyuq səngərdə gecə-gündüz torpaqlarımızın müdafiəsində dayanmışdı. Cəbhə bölgələrində atəşkəs elan olunsa da yağılar dinc durmur, sakitliyi tez-tez pozurdular.

Durna bacının ürəyi durmur, əsgər balasına baş çəkməsə, rahat ola bilmirdi. Növbəti dəfə Orucu yoxlamağa gələndə onun həyəcanlı olduğunu hiss edən zabit: «Nahaq zəhmət çəkmisiniz anacan. Oruc sarıdan qətiyyən nigaran olmayın. O, hissəmizin ən intizamlı, həm də igid əsgəridir. Onunla fəxr edə bilərsiniz», – dedi. Oğlunun ünvanına söylənilən tərifli sözlər əsgər anasının ürəyini dağa döndərdi. Gətirdiyi sovqatı verib geri qayıdanda Oruc anasından xahiş etdi ki, bir də gəlməsin, yol uzaqdı, əziyyət çəkir. İmkan tapan kimi özü evə gələcək.

Zavallı ana haradan biləydi ki, bu, canından çox sevib əzizlədiyi balası ilə sonuncu görüşdü. Elə hey intizarla ciyərparasının yolunu gözləyirdi. Gözləri yolda, qulağı səsdəydi. «Görəsən nə vaxt gələcək?» – deyə səksəkəli halda öz-özündən soruşurdu. Gəldi də Oruc bir payız günü. Fəqət bu gəliş o gelişə bənzəmirdi. Soyuq tabutunu gətirdilər Biləsuvar rayonu ərazisindəki 4 saylı çadır düşərgəsində məskunlaşan didərgin valideynlərinin üstünə. 20 il öncə payızda ailəyə bəxş etdiyi sevinc nurunu da özü ilə birlikdə əbədiyyət dünyasına apardı Oruc.



## «ÜZÜM ELƏ SARIDIR»...

***Təhməzov Səid Turuş oğlu***
***doğulub - 11.02.1972-ci il,***
***Cəbrayıl rayonu, Mehdili kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***



Ulu Tanrının sevimlisinə çevrilən insanlar nədənsə bütöv ömür paylarını axıra kimi yaşaya bilmirlər həyatda. Bəlkə də səslərini eşidib, üzlərini yaxından görmək məqsədilə onları özünün ucadan uca olan dərgahına hamıdan tez çağırır. Bu danılmaz həqiqəti bildiyimizdən, dünyanı cavan yaşlarında tərk edən əzizlərimizin gedişinin də hardasa Tanrı məsləhəti olduğuna özümüzü inandırıb toxtaqlıq tapırıq.

Xan Arazın həzin nəğmələri dolaşan Mehdili kəndində dünyaya göz açıb, Şəmkir torpağında dünyasını dəyişən Səid Təhməzov da Tanrıya yaxın adam idi. Camaatın yaddaşında üzüyola, istiqanlı, çevik bir uşaq kimi qalan Səid, halallığı hər şeydən qiymətli bilən bir ocaqda böyümüşdü. Atası Turuş kişi bir vaxtlar canının yarısını müharibədə qoyub qayıtmışdı. Kənddə Böyük Vətən müharibəsinin qəhrəmanı kimi tanıyırdılar onu. Səidin yaddaşında atasının dilindən eşitdiyi neçə-neçə barıt qoxulu əhvalat nağıllaşıb qalmaqda idi. Turuş kişi bədənində gəzdirdiyi qəlpələrlə birlikdə torpağa qovuşandan sonra Zülfünaz ana beş qız balasının madar qardaşı Səidi evin başıpapaqlısı kimi əzizləyib böyüdürdü. Bacıları pərvanə kimi başına dolanır, hər istəyinə əlüstü əməl edirdilər. Addımbaşı əzizlənsə də o, nərmənazik cavanlara bənzəmirdi. Bir tikə vaxtından ailənin qayğısını çəlimsiz çiyinlərinə götürəndə çoxları üzünə qarşı:

– Halal olsun sənə, Səid, atanın yurdunda işıq yandıran oğul olacaqsan, - deyirdilər...

Bu sözləri deyənlərə qarşı Zülfünaz ana dil-ağız etsə də, xəlvətdə oğlunun başına duz hərləyib, onu bədnəzərdən qorumaq üçün Allahdan dilək diləyərdi...

Kənddəki yaşıdları, məktəb yoldaşları Səidin xətrini çox istəyirdilər. Saatlarla onun başına yığışıb maraqlı söhbətlərini dinləyər, sinəsinə sıxdığı

tarın simlərində tufan qoparan «Rast»a, «Segah»a qulaq asardılar. Belə vaxtlarda uşaqlardan biri heyrətini gizlədə bilməyib:

– Səid, vallah Tanrı səni təkcə yaradıb, - deyərdi.

Orta məktəbi qurtarandan sonra dünyanın işləri düyünə düşdüyündən Zülfünaz bacı gözündən qırağa getməyə qoymamışdı onu. Boyunu əzizləyib:

– Ana qurban, – demişdi, – görürsən ki, ümidimiz təkcə sənədir, dilim-ağzım qurusun, sən olmasan gözümüzü kimə dikərik?

...Yurd savaşı güclənəndə Səid kənarda dayanmağı qüruruna sığışdıra bilmədi. Doxsan ikinci ilin noyabrında Vətən torpağının çağırışı ilə igid oğulların sırasına qoşuldu. Onun kövrək ürəyində yurd sevgisi və bir də cəbhəyə yollanmazdan qabaq, aylı bir gecədə əhdi-peyman bağladığı qızın ülvi məhəbbəti dil açdıqca özünü yenilməz hesab edirdi...

Evdə yolunu intizarla gözləyən bacılarına, ağzıdualı anasına və bir də barmaq boyda şəklini ürəyinin üstündə gəzdirdiyi o kənd gözəlinə cəbhədən xoş sorağı gəlirdi Səidin. Cəsur əsgər olduğundan hərbi hissədə onu bölmə komandiri təyin etmişdilər. Bundan sonra məsuliyyəti daha da artmışdı onun. Bilirdi ki, təkcə özünün yox, başqalarının da həyatına cavabdehdir...

Cəbrayılın işğalından sonra düşməndən qisas almaq üçün bir himə bənd idi, döyüşə girəcəyi günü səbirsizliklə gözləyirdi. Onun ömür yolu Seyfəlidəki hərbi poliqonda düyün düşub qırılmasaydı, Səid şəhid oğullarımızın ruhunu sevindirib, günlərin birində doğma ata ocağına zəfərlə qayıdası idi. Doxsan üçün axırlarından Sumqayıtın Şəhidlər Xiyabanında uyuyan bu igid oğlanın məzarı üstə indi onun yaralı ruhu dil açır:

*Yönüm mavi Xəzərə,*
*Üzüm elə sarıdır...*



# O GÜN TƏBİƏT DƏ QAN AĞLAYIRDI



***Feyzullayev Yusif Süleyman oğlu***
***doğulub - 1968-ci il,***
***Cəbrayıl rayonu, Sədi kəndi;***
***şəhid olub - 15.01.1994-cü il,***
***Füzuli rayonu, Qorqan kəndi***

Dağtumaslı müəllim, cavan qələm dostumuz Şakir Albalıyevin makina vərəqinin yarısına sığışan qeydləri Yusif haqqında idi. Belə ağır məqamda, el-obamızın ünvanı bəlli olmadığı bir vaxtda şəhid haqqında bircə sətir söz yazmaq da savab işdir...

Minbaşılı kəndi yaxınlığındakı Sədidə doğulan Feyzullayev Yusif Süleyman oğlu ailələrindəki doqquz uşağın sonuncusudur. Sonbeşik olduğundan həmişə evdə xətrini əziz tutublar onun. Qardaş-bacılarının sevimlisi, ata-anasının and yeri olub. Ancaq heç vaxt cızığından çıxmayıb Yusif. Evdəkilərə ürək yandırıb, tay-tuşlarına yanımlı münasibət göstərib. Orta məktəbi bitirəndən sonra texniki-peşə məktəbində oxuyaraq qaynaqçı peşəsinə yiyələnib. Ömür yolu onu Moskva şəhərindəki fəhlə batalyonuna aparıb çıxaranda Yusif həyatın qəribəliklərindən hələ baş çıxarmasa da hər şeyə biganə qalan da deyildi. Uzaq eldə keçən əsgərlik həyatı onun gözlərini açdıqca Yusif yaxşını yamandan seçib ayırd etməyi öyrəndi. Moskvada olarkən komandirlərin ayrı-seçkilik salması, azərbaycanlı uşaqların yersiz olaraq tez-tez incidilməsi onda «əməyi bir, diləyi bir olan» SSRİ-nin «qardaşlıq dünyasına» şübhə oyatdı...

Yusif əsgərliyə getməzdən qabaq ata-anası ona layiqli bir toy etmişdilər. Bir-birinin dalınca dünyaya göz açan Günel, Bəhruz, Fəridə adlı balaları - bar çiçəkləri ona sonsuz sevinc gətirdi. Fidan balalarının yuxusunu qaçırıb, yurdun dincliyini pozan erməni qəsbkarlarının sonsuz vəhşilikləri onu da cəbhəyə – sınağa çəkdi. 1993-cü ildən Cəbrayıldakı alayda cəsur bir əsgər kimi tanınan eloğlumuz düşmənlə üz-üzə gəldikcə qəzəbi şahə qalxır, onlara aman vermirdi. Yusifin döyüş yoldaşı, dağtumaslı birinci qrup əlil Rövşən Məmmədovun dediklərindən:

- Mən dəfələrlə Yusifin döyüş hünərinin şahidi olmuş, onunla çiyin-çiyinə səngərdə dayanmışam. O hər şeydən qabaq qorxmaz və cəsur idi.

Döyüşə atılanda nəinki qorxunu, hətta özünü belə unudurdu. Heyf ki, namərd gülləsi onu girinə tez çəkdi. Əsgər dostumun ömür-gün yoldaşı Xatirə bacı ərsiz, Günel, Bəhruz, Fərida atasız qaldılar...

Yusifin ölümü Süleyman kişinin və Həmayıl ananın qəddini bükdü. Bacıları Şövkət, Pərzad, Hürzad, Tamam, Şənsuma, qardaşları Elman, Telman və Fərman «nakam qardaş» deyib fəryad qoparırdılar...

Füzulinin Qorqan kəndi ətrafında gedən döyüşlərdə sağ gicgahından ağır yara alıb həyatla vidalaşan Yusifi Pirşağıdakı Şəhidiər Xiyabanı qoynuna aldı. O qarlı yanvar günü elə bil təbiət də Yusifin ölümünə ağlayır, Bakı küləyi fələyin işləklərinə etirazını bildirirdi. Torpağın özü də bu haqsız ölümdən yanıb yaxılırdı...

## AYDIN ÜFÜQ SORAĞINDA...



***Fərhadov Fərhad İdris oğlu***
***doğulub - 20.06.1968-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Dərd-bəla bizi elə yerdə yaxaladı ki, ay İdris kişi, nə əlimiz, nə ünümüz yetişdi sənə. Ulu Tanrı, niyə belə urvatsız olduq, dünyadan köçənlərimizin tabutundan yapışmağı da çoxmu gördün bizə? Özgə vaxtlar ölüsünü ehtiramla əzizləyib minlərlə adamın müşayiəti ilə dəfn edən Mərcanlı elimizin üstündən elə bil güclü bir qasırğa keçmişdi. Bu kəndin demə görəcəkli günləri qabaqda imiş hələ. Bir gündə neçə şəhidini ağlamalı, neçə tabutu çiyninə qaldırmalıymış bu kəndin camaatı. Dərd çoxlarının içindən qış sazağı kimi adlayıb keçmişdi o gün. Sözlərin nizamı elə pozulmuşdu ki, təsəlli üçün bircə cümlə də tapmaq olmurdu. Bir də təsəlli kimə veriləsi idi axı. Hamı ölü yiyəsi, hamı itik axtaran idi burada. Bəla qəfil leysan kimi yağmışdı bir elin üstünə. Adamların əlləri havadan asılı qalmışdı o avqust günlərində. Bölük-bölük dayanıb Daşbaşı faciəsinin göynərtiləri ilə sızlayan adamların baxışlarından nisgil qarışıq bir təlaş boylanmaqda idi...



Günortaya yaxın Müslümün, Arifin, Cəbrayılın, Fərhadın... tabutları qəbiristana gətirildi. Təzəcə qazılmış qəbirlər səhərdən bəri «gözlərini» yola dikib öz sahiblərini gözləməkdə idi. Kəndin dünyagörmüş ağsaqqallarından olan İsa kişinin "Fatihə" vermək üçün qabağa çıxdığını görəndə izdiham uğultuya ara verdi:

– Ay camaat, bizim bundan da böyük müsibətimiz olmayacaq. Neçə vaxtdır ki, düşmən qapının ağzını kəsdirib, qocalı, cavanlı əlimizə silah alıb torpağımızı qorumasaq, yaman günə qalacağıq. Dediyim budur ki, möhkəm olun, dədə-babalarımız erməninin qabağından heç vaxt qaçmayıblar. İndicə Mərcanlı torpağına və Tanrının mərhəmətinə tapşırdığımız bu şəhid balalar Vətənin azadlığı üçün canlarından keçiblər. Allah onlara rəhmət eləsin!

– Allah rəhmət eləsin, qəbirləri nurlu olsun! Yüzlərlə adamın eyni vaxtda dilindən qopan bu kəlmələr qəmli bir nəğmənin ürək parçalayan notları kimi ətrafa yayıldı o gün. Şəhid oğulların yaraları üstə məlhəm kimi yaxılan torpaqda misra-misra bir şeir cücərirdi elə bil:

*Həyat bizi gah oxşayır, gah didir,*
*Kövrək ömür beşik-məzar səddidir.*
*Alın yazım taleyimin xəttidir,*
*Gücüm çatmır onu pozam, neyləyim?*

*Nisgil payım uralanıb sovuşmaz,*
*İztirabım qəlpələnməz, ovulmaz.*
*Ürəyimi ha dilə tut, ovunmaz*
*Dərdə dözmək deyil asan - neyləyim?*

İlahi bir səsə, avaza çevrilməkdə idi bu şeir. O, Daşbaşıda qanına qəltan olan on səkkiz igidə göz yaşı axıdan rekviyem idi. Mərcanlının «Qara arxac» və «Cüllab» düzlərindəki qəbiristanlarında ruhları nalə çəkən Müslümün, Cəbrayılın, Arifin, Fərhadın səsi idi o səs...

İdris kişi o səslərin içərisindən Fərhad balasının hənirini seçib aramaq üçün lal-dinməz dayanmışdı ayaq üstə. Ürəyini şəhid oğlunun səsi ilə kökləməkdə, onun qaçıb uzaqlaşmaqda olan avazının dalınca yüyürməkdə idi. Yorulub süstləşəndən sonra əlləri yanına düşdü onun. İndi təkcə dodaqları tərpənməkdə idi. Orada közərən kəlmələrin işığı adamları dirigözlü yandırıb-yaxırdı:

– Ay oğul, sənə babamın adını vermişdim ki, onun kimi qollu-qanadlı olasan. Uzun ömür yaşayıb evimin çırağını sönməyə qoymayasan. Bizi niyə boynuburuq qoyub getdin, ay Fərhad?

Fitat ananın ağlamaqdan közlərinə qara su enmişdi o gün. Xətrini dünyalarca istədiyi balasının ölümünə tablaşa bilmədi ana. İnana bilmirdi Fərhadın ölümünə. Hər şey ona yuxu kimi gəlirdi. Elə bilirdi ki, əsgər geyimli balası günlərin birində üstünə yüyürüb həmişə olduğu kimi bağrına basacaq onu...

İdris kişi əməksevərliyini görüb öz peşəsini, sənətini öyrətmişdi Fərhada. Oğlunun dülgərliyindən də, sürücülüyündən də razı idi. Niyyət eləmişdi ki, günlərin birində idarə etdiyi «samasval» maşının açarını birdəfəlik versin ona. Ata oğluna peşə öyrətmişdi ki, ixtiyar çağlarında dünyadan arxayın köçüb ketsin. Ancaq tale ayrı sənət, ayrı peşə öyrədəsi oldu Fərhada. Vətənin dar günündə əsgər adının ucalığında axtardı sabahını. Xoş günlərin sorağı ilə səngərdən-səngərə, döyüşdən-döyüşə atıldı. Bu dünyada Daşbaşı postu sonuncu dayaq nöqtəsi oldu onun. O müdhiş on beş avqust gecəsi düşmən gülləsinə tuş gəlməsəydi, ayağını bir addım geri qoyası deyildi. Öləndə də irəli sıçrayıb bir parça Vətən torpağını bağrına basdı Fərhad. İgidlər geriyə yox, qabağa boylanırlar, – deyiblər. Fərhadın şəhid ruhu nə vaxtdır ki, yurdumuzun sabahına üz tutmaqdadır. Tanrı onun şəhid istəyini aydın bir üfüqdə vüsala yetirsin...

## YARALI YURD SEVGİSİ



***Fərhadov Arif Maşallah oğlu***
***doğulub - 10.10.1973-cü il,***
***Cəbrayıl rayonu, Çocuq Mərcanlı kəndi;***
***şəhid olub - 08.03.1994-cü il,***
***Füzuli rayonu, Horadiz qəsəbəsi***

Gülcahan bacı gözünün ilk ovu olan Arif balasından xoş xəbər gözləyirdi səkkiz mart günündə. Elə bilirdi ki, oğlu həmişə olduğu kimi qapını açaraq onun boynuna sarılacaq, anasının təzəcə dən düşən saclarından öpüb:

– Bayramını təbrik etməyə gəlmişəm, ana, – deyəcək, bacıları Arifəylə Akifəni bağrına basacaq, onlara bir dünya sevinc bağışlayacaqdı.

Dünyada qara xəbər söyləməkdən ağır iş yoxdur bəlkə də. Allah heç



kimə göstərməsin. Səhərdən bəri İbadov İlyas eşitdiyi acı xəbəri həmkəndlilərinə necə çatdıracağı barədə baş sındırır, onların evlərinə tərəf ayaqlarını güclə sürüyürdü. Onun qırımından Gülcahan ana fəhmlə də olsa anladı ki, Arifin başında nə isə bir qəza var. Hadisənin ağırlığını duyar-duymaz dünya gözlərində qaraldı onun...

Arifin atası Maşallah kişinin dediklərindən:

Arifi qorxmaz oğul kimi böyütmüşdük. O, evimizin ümidi, qolumuz, qanadımız idi. Neçə ilin əsgəriydi oğlum. Əsgər yoldaşları arasında xətirhörmət qazanmışdı özünə.

Arif sonuncu dəfə bizimlə görüşüb ayrılanda əkiz qardaş-bacısı Akiflə Akifəyə demişdi ki, gedirəm sizə məktəbli paltarı, çanta, kitab alıb gətirməyə. O vaxt körpə balalarım inanmışdılar qardaşlarına. Arifin ölümünün ağırlığını duyub dərk etməyən uşaqlar hərdən sual dolu nəzərlərini mənə dikib: «Ata, bəs Arif qaqaşımız deyirdi ki, sizə kitab, dəftər alıb gətirəcəyəm, niyə gəlib çıxmır?» - deyəndə gen dünya başıma fırlanır, qüssədən özümə yer tapa bilmirəm...

...Çocuq Mərcanlı kəndində böyümüşdü Arif. Gözəl musiqi duyumu var idi onun. Kənd məktəbində oxuduğu illərdə Böyük Mərcanlı uşaq məktəbinin qarmon sinfində də bu ecazkar aləmin «dilini» öyrənirdi Arif. Hərdən qarmonu sinəsinə götürüb çalanda şümal barmaqlarından adamın sümüklərini oynadan nəğmə damcılayırdı. Onun istedadının şahidi olanlar düşünürdülər ki, Arif gələcəkdə yaxşı musiqiçi olasıdır.

Arif 1992-ci ilin martında getmişdi cəbhəyə. Leytenant əmisi oğlu Fərhadov Sarvanla birlikdə dönə-dönə döyüş səngərlərindən düşmənin başına od-alov yağdırmışdı. Əvvəlcə rabitəçilərin və sonra isə minamyotçuların dəstəsində qulluq etmişdi Vətənə.

1992-ci ilin 28 iyun günü Sur kəndi düşməndən azad edildə buradakı postda dayanmağın çox təhlükəli olduğunu bilsə də Arif könüllü olaraq bir neçə cəsur əsgər yoldaşları ilə bu vəzifəni öhdəsinə götürmüşdü. İgid əsgərlərimizin o vaxt kənddən vurub çıxardıqları quldurlar dönə-dönə oraya həmlə etsələr də Arifgil tutduqları mövqelərini əldən verməmişdilər onda...

Cəbrayıl torpaqları uğrunda gedən son döyüşlərdə igidlərimiz fədakarlıqla müdafiə olunsalar da nizamı pozulan ordunun müqavimətini qıran düşmən o payız günlərində Araz çayının sahillərinə kimi irəliləyə bilmişdi□

İşğaldan sonra Arif yurd yerindən didərgin düşən doğmalarını soraqlayıb taparaq onlarla vidalaşıb yenidən ordu sıralarına qayıtmışdı...

Gəncə ətrafında qısa müddətli təlimdən keçən əsgərlər 1993-cü ilin sonlarında Ağdamın Güllücə-Salahlı kəndləri istiqamətində hücuma keçən

düşməni dayandırmağa müvəffəq oldular. Bu savaşda Arif də qeyrətlə vuruşdu...

1994-cü il yanvar ayının 23-dən sonra Arifgilin dəstəsi Füzuli istiqamətində güclü hücuma keçib Əhmədallar, Qazax, Mirzənağlı və Çocuq Mərcanlı kəndlərini düşməndən təmizlədilər. Doğulduğu kənd quldurların caynağından geri alınanda Arifə elə bil dünyanı bağışladılar. Yadına kövrək bir şeirin ilk misraları düşdü onun:

*Həm aranı, həm dağıyam,*
*Beş-on qarış torpağıyam.*
*Yaşıl üzlü yarpağıyam,*
*Ünvanımdır bu yurd, ocaq.*

*Onun yazı, qışı da mən,*
*Çöpü də mən, daşı da mən.*
*Gözlərinin yaşı da mən,*
*Səsim gəlsə ovunacaq...*

Yaralı yurd sevgisindən doğulan misralar onun gücünü, qüdrətini artırırdı elə bil. Martın ilk günlərində Horadiz qəsəbəsinə inadla can atan düşmən bu sevgininümman dərinliyində qərq olsa da neçə-neçə igid oğullarımız şəhid oldu o döyüşlərdə. Onlardan biri də Fərhadov Arif Maşallah oğlu idi. Tanrı onun gor evini nurlu etsin.



## «YENƏ DƏ YANINIZA QAYIDACAĞAM...»



***Fərhadov Bayram Məhyəddin oğlu***
***doqulub - 15.10.1970-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

– Boyuna qurban olduğum doxsan üçüncü ilin avqust ayının onunda komandirlərindən icazə alıb bizimlə görüşməyə gəlmişdi. Üz-gözündən yorğunluq tökülsə də, düşmən şaxını sındıra bilməmişdi balamın. Həmişəki kimi yenə də şən, şux idi. Bizimlə görüşüb, həyətbacanı göz dolusu seyr elədi, elə bil nəyin isə sahmanda, nizamda olmadığından narahat idi. O, çay içib rahatlanana kimi su qızdırdım ki, əyin-başını dəyişib rahatlansın...

Axşam gecə yarıya kimi söhbətləşdik. Atası Məhyəddinə dedi ki, düşmənin son hərəkətlərindən gözüm heç su içmir. Deyəsən quldurlar indi də bizim obalara göz dikiblər...

Səhər alatoran olmamış yatağından qalxıb yola hazırlaşanda təzədən boynunu qucaqladım:

– Atam-anam, nolar bircə gün də qal, sən orada olmasan dünya dağılmaz ki, - dedim.

Məni sinəsinə sıxıb təsəlli verdi bizə:

– Qorxmayın, – dedi, – düşmən nə qədər hiyləgər olsa da, bizi tapdayıb keçə bilməz...

Şamama bacının kövrələ-kövrələ dedikləri bu sözlərə dözmək üçün adamdan dağ boyda hünər istəyir. O, oğlu ilə son görüşünü bütün incəlikləri ilə xatırladıqca göz yaşlarını saxlaya bilmirdi. Axırda qəhərdən boğula-boğula sözünü davam etdi:

– Bizdən ayrılıb gedəndə demişdi ki, narahat olmayın, yenə də qayıdacağam. Oğlum sözünə xilaf çıxmadı, beş gündən sonra yenidən evimizə üz tutdu. Ançaq bu dəfə üstümüzə qayıdan bağrımızı qana döndərən onun tabutu idi...

Dünyada ana üçün bala dağı görməkdən də ağır dərdmi var? Analar oğullarını əzizləyib oxşayanda onlara: «Dünyadan çiynində gedim», deyər-

lər. Şamama ana Bayramın beşiyi başında yuxusuz gecələr keçirib onu böyütmüşdü ki, bir gün dünyasını dəyişəndə oğlunun çiyinlərində getsin. Amma çərxi-fələyin hökmü ilə o gün oğul tabutdan qəddini dikəldib qalxa bilmirdi...

Bundan sonra Vətən adlı müqəddəs anamızın gözlərinə Bayram həmişə dik baxa biləcək. O, Şamama ananı o dünyaya çiynində apara bilməsə də, Vətənə son nəfəsədək xidmət göstərə bildi:

*Qara torpaq hamını,*
*Çürüdüb udan deyil.*
*Qeyrətli oğulları*
*Vətən unudan deyil...*

Bayram dünyaya Böyük Mərcanlı kəndindən pərvazlanmışdı. Kənddəki orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirməyə macal tapmamışdı. Sovet imperiyası qanunlarının hökmü ilə əsgəri xidmətə – Almaniyaya üz tutmuşdu. Burada iki il ərzində həyatın neçə-neçə sınağından uğurla çıxan bu igid oğlan doxsanıncı ilin payızında evlərinə qayıdanda el-obanı yas içərisində gördü. 20 Yanvar qırğınına mərdliklə tablaşan soydalşarımız siyasi burulğanların fonunda başlarını itirmişdilər elə bil. Namərd ermənilərin gülləsi ilə qətlə yetirilənlərin yası, şivəni el-obanın qəddini günbəgün əyməkdə idi...

Gözləri ilə gördüyü müsibətlərə dözə bilməyən Mərcanlı balası yurd harayına üz tutub, doxsan ikinci ilin yazında Cəbrayılın Güney üzündəki dağlara sığındı...

Bayram Sur döyüşündən və Qışlaqdakı əməliyyatlardan uğurla çıxıb özünün Vətənə sədaqətini sübuta yetirdi. Qışlaqda düz üç saat atəş altında qalsa da, axıra qədər əsgər andına sadiq qaldı. Onun cəsarəti əsgər dostlarına da qol-qanad verdi o gün...

On beş avqust gecəsi düşmən bütün istiqamətlərdən Daşbaşı postunu atəşə tutmuşdu. Yaxınlıqda partlayan mərminin ölüm saçan qəlpələri qayalara dəyib çiliklənəndə Bayramın səsi eşidildi:

– Köməyə gəlin, namərdlər məni vurdular.

Onu rayon xəstəxanasına yola salanda gözlərini açıb əsgər dostlarına;

– Möhkəm durun, sağalıb yenə də yanınıza qayıdacağam, – dedi...

İndi o dağlarda Bayramın şəhid ruhu dolaşır. Perik düşən el-obanın arxasınca onun həsrətli baxışları boylanır hələ də...



# BARIT QOXULU ŞƏKİL

***Fərhadov Arif Məhəmməd oğlu***
***doğulub - 1974-cu il,***
***Cəbrayıl rayonu, Yuxarı Mərcanlı kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***



Yuxarı Mərcanlıda Məhəmməd kişini zəhmətkeş, sözü bütöv bir insan kimi tanıyırlar. O, əllinci illərin axırlarında ali təhsilli zootexnik diplomuna yiyələndikdən sonra rayonda ən yaxşı kənd təsərrüfatı mütəxəssislərindən hesab edilmiş, illər boyu öz vəzifəsini vicdanla yerinə yetirmişdi. Onun övladları da bilikdə, bacarıqda atalarına çəkmişdilər. Kənd məktəbində işləyən müəllimlərin bu uşaqlardan narazılıqları olmamışdı heç vaxt. Əksinə yeri düşəndə Hümbətin bacarığından, Arifin qabiliyyətindən, Aybənizlə Sevincin ayrı-ayrı fənnlərə göstərdikləri həvəsdən söz açıb, onları başqalarına nümunə göstərirdilər. Övladları barəsində deyilən xoş sözlər Zeynəb bacının ürəyini dağa döndərir, Məhəmməd kişiyə qol-qanad verirdi.

Arif bu ailədə böyüyən uşaqların ən istəklisi, ən istedadlısı idi. Birinci sinfə qədəm qoyandan sonra onun xüsusi qabiliyyəti daha qabarıq şəkildə üzə çıxdı. Üç yaşından başlayaraq rəngli karandaşlarla ünsiyyət bağlayan bu balaca oğlan çox keçmədi ki, birincilərin sevimlisinə çevrildi. Arif təxəyyülündə iz salan təbiət lövhələrinin, məişət əşyalarının şəklini elə məharətlə çəkirdi ki, baxan heyran qalırdı. Yuxarı siniflərdə oxuyanda onun rəsm dəftəri əldən-ələ gəzir, buradakı tanış üzlər adama təbəssümlə boylanırdı. Arifin rəssamlığa olan sonsuz həvəsi Zeynəb bacının qəlbini fərəhlə doldursa da, o, ciyərparasının bu sahədəki qabiliyyətini təbii hesab edirdi. Hərdən söz düşəndə Arifin rəsmlərinə iftixar hissi ilə baxıb ürəyindən keçənləri dilinə gətirərdi:

– Atalar demişkən, igid dayısına, qız bibisinə oxşar. Mənim Arif balam rəssam dayısına çəkib qabiliyyətdə. Zeynəb bacı bunları deyəndə ağac və daş üzərində oyma üzrə mahir rəssam, Respublika Əlyazmalar İnstitutunun əməkdaşı Seyfəddin Məmmədvəliyevi nəzərdə tuturdu. Doğrudan da həm Seyfəddin müəllim və həm də onun doxsanıncı illərin təlatümündə müəm-

malı şəkildə «qeybə» çıxan oğlu Fəxrəddin Məmmədvəliyev Arifin sənət ustadları idilər...

Həyat öz rahat məcrası ilə axıb getməkdə, Arif arzularının dalınca addımlamaqda idi. Adama elə gəlirdi ki, Tanrı onu bu əməksevər ailəyə şərəfşan gətirmək üçün bəxş eləyib. Hamı Arifin gələcəkdə böyük rəssam olacağından söz açır, yaşıdları ona həsəd qarışıq qibtə hissi ilə baxırdılar. Məhəmməd kişinin həyət darvazasının yanından ötüb keçənlər Arifin divarlara, qapı laylarına çəkdiyi təbiət mənzərələrinə biganə qala bilmirdilər. Onun rəsm bloknotu əldən-ələ gəzir, rəngli karandaş və tuşla çəkdiyi şəkillər adamlarda təbəssüm doğururdu. Rəsmləri heç kimdən gizlətmirdi Arif. Tək bircə əsərini hamıdan gizlində saxlayır, xəlvətə düşəndə tamaşasından doymurdu. Bu onun bir yay axşamı könül verdiyi, əhdi-peyman bağladığı qızın şəkli idi. Sevgilisinin şəklini o, əvvəlcə xəyalında canlandırmış, sonra əl boyda kağıza köçürmüşdü. Şəkil elə canlı, elə təbii alınmışdı ki, sanki romantik duyğuların qanadları üstə uçan o qız dil açıb Arifə:

Qurban olum, – deyirdi, – qorxuram yaman gözə gələsən. Axı, istedad adama həmişə xoşbəxtlik gətirmir...

Arif ana təbiətin – lilparlı bulaqların, baldırğanlı dərələrin, kəkotulu yamacların, qartallı zirvələrin aşiqi idi. Erməni gülləsləri qızıl lalələri «qanına» boyayanda, nərgizin, bənövşənin bənizi avazıyanda daha dözə bilmədi o. Rəssam dayısının bağışladığı molbertini anasına əmanət verib avtomat silahdan yapışdı. Uşaqlıq dostları – Müslüm, Fərhad, Cəbrayıl... da ona qoşulub cəbhəyə getdilər. Harda olsalar bir oturub, bir dururdular onlar. Döyüşə birlikdə yollanır, səngərdə yanyana dayanırdılar...

Sevgilisinin öz əli ilə çəkdiyi balaca şəklini də cəbhəyə aparmışdı Arif. Xəlvətə düşəndə qoltuq cibindəki bloknotun arasındakı şəklə baxmaqdan doya bilmirdi. Elə bil bu qızın baxışları dil açıb dinirdi belə vaxtlarda:

– Qurban olum, Arif, özünü yerli-yersiz qabağa atma, axı düşmən gülləsi yaxşı ilə pisə fərq qoymur...

Yoldaşları odun-alovun içində də başına and içirdilər Arifin. Yaxşı nişan almağı, sərrast atmağı var idi onun. Ən qorxulu anlarda belə ayağını qaçaq qoyan deyildi. Kömək lazım olanda ölümü vecinə almadan yoldaşlarının harayına tələsirdi...

Daşbaşı postuna gələndən sonra Arifin heyrətdən əli üzündə qalmışdı. Yalçın qayalara, təbiətin ilahi qüdrəti ilə cilalanan daşlara, min bir naxışlı ota-çiçəyə baxmaqdan doya bilmirdi o. Hərdən üzünü uşaqlara tutub:

– İnsafdırmı bu cür gözəl yerlər harsın dığalarına qala? Gəlin kişi kimi and içək ki, sonuncu damla qanımızadək düşmənin qarşısında dayanacağıq.



Əsgər dostları Arifin sözlərindən vəcdə gəldilər bir anda. On səkkiz dəliqanlı Azərbaycan əsgərinin səsi qayalara toxunub uzaqlarda əks-səda verdi:

- And içirik!..

Uşaqlar son nəfəslərinə kimi andlarına sadiq qaldılar. Daşbaşı qayaları gecə yarısı şəhid olan on səkkiz qeyrətli oğulun ləyaqətli ölümünün şahidi oldu...

Sübh şəfəqləri ətrafa yayılanda Müslümün, Fərhadın, Rafaelin, Rüfətin, Arifin... qanı ilə al rəngə boyanan daşlar əlvan bir rəsm əsərinin naxışlarına bənzəyirdi. Bu «tablo» Arifin ölümündən bir gün qabaq çəkdiyi şəkil kimi barıt qoxulu idi...

## İŞIĞA DÖNƏN ÖMÜR

***Fətəliyev Hafiz Məhəmməd oğlu***
***doğulub - 07.08.1969-cu il,***
***Cəbrayıl rayonu, Şahvəlli kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***



Şəhid məzarlarından biri də Şahvəllinin Hacıisaqlı qəbiristanında idi. Burada kəndin qeyrətli oğul balası Hafiz uyuyurdu. Şəhid Zirvəsinə o, yeddiaylıq döyüş yolu keçib çatmışdı...

Doxsan üçüncü ilin on beş yanvarında orduya getmişdi hafiz. Onda hələ Cəbrayıl elimiz isti yurd-yuvasından perik düşməmişdi. Onda hələ Şuşada, Laçında göyərən xəyanətin rişələri bu torpağa gəlib çatmamışdı. Onda hələ Hafizin ata ocağı Şahvəllidə camaatın əlləri əkin-biçindən soyumamışdı. O vaxtlar Hafizi Gəyəndəki kəndlərindən qanlı-qadalı səngərlərə çəkib aparan yurd istəyi, torpaq məhəbbəti idi...

Rəhmətlik Fərman Kərimzadənin dilindən eşitdiyimiz bir cümləni indi də olduğu kimi xatırlayırıq:

– Anasını sevdiyinə görə, övlada sağ ol deməzlər, – yəni oğulun, qızın borcu ananın haqqını qaytarıb, onu gözləri üstə yaşatmaqdır. Ölüm yüklü «qrad»ların Cəbrayıl torpağına sancıldığı günlərdə cəbhəyə getdiyi üçün

kimlərəsə minnət qoymaq fikrindən uzaq idi Hafiz. Özünə oğulluq borcu hesab edirdi bu işi...

Məhəmməd kişinin ailəsindəki altı uşağın hamısı yurd təəssübü çəkən idilər. Əkbər kolxozda, Fətəli, Vaqif Sverdlovsk şəhərində işləyirdilər. Mehparəylə Yaşar orta məktəbdə oxusalar da, Cəbrayıldan o üzdə gedən döyüşlərin kəndlərinə gəlib çatan barıt qoxusunu duyduqca qardaşları Hafizin taleyindən narahat olurdular...

Hafiz zəhmətə erkən yaşlarından könül vermişdi. Sürücülük peşəsinə yiyələnsə də, yaxşı bənnalığı, mala çəkməyi də vardı. Sovet ordusunda xidmət etdiyi illərdə əlləri dadına çatmışdı onun. Uzaq diyarda daşdan çörək çıxarıb. başını dolandırırdı. Əsgərlikdən qayıdanda anası Laləyə, qardaşlarına, bacısı Mehparəyə xeyli pal-paltar alıb gətirmişdi. Kənddə olanda qardaşı Əkbərin evini öz əlləri ilə tikmişdi. Qardaşının üç yaşlı oğlu Vamiq elə hey onun qabarlı əllərindən yapışıb:

– Əmi, babagilə getmə, qal mənə də ev tik, – deyirdi. Belə vaxtlarda Hafiz onun totuq yanaqlarından dönə-dönə öpürdü:

– Sağlıq olsun, sənə də, Vaqifə də özüm ev tikəcəyəm. Qardaşının sözlərini eşidəndə Mehparə zarafatından qalmırdı:

– Bıy, başıma xeyir, ay Hafiz, özünü niyə yaddan çıxarırsan? Sənə ev-eşik lazım deyilmi?

– Özüm ata-anamın yanından heç hara gedən deyiləm. Allaha şükür, ev-eşiyimizə nə gəlib...

Sahib müəllim deyir ki, hafiz Şahvəlli məktəbinin ən nümunəvi şagirdlərindən olub. Cəbhəyə yola düşəndə ondan arxayın idik – bilirdik ki, bizə baş ucalığı gətirəcək... Ölümü ilə təkcə müəllimlərinə yox, Şahvəlli camaatının hamısına söykək yeri oldu Hafiz...

N.Tusi adına APU-nun müəllimi, tarix elmlər doktoru Əli Məmmədov Hafizi ehtiramla xatırlayıb ondan məhəbbətlə söz açır:

– Hafizin nənəsi Gülarə xala, atası Məhəmməd kişi, rəhmətlik anası Lalə bacı bizim Şahvəlli kəndinin halal adamları sayılıblar. Vətənə məhəbbəti hər şeydən üstün bilən bu igid oğlan qeyrət sınağından uğurla çıxıb Şəhidlik Zirvəsinin əbədi sakini oldu. Belə igidlərə arxalanan Vətən gec-tez öz qəddini düzəldəcək...

Döyüşə yollananda Babəkin bir kəlamını xatırlayırdı həmişə – qırx il qul olunca bircə gün azad yaşamaq hər şeyə dəyər. Yenicə müstəqillik qazanan respublikamızın xoş gələcəyini düşündükcə ürəyi dağa dönürdü onun. Hərəkül, Banazur postlarında keşik çəkəndə də, Qaracallı uğrunda gedən döyüşlərdə də bilirdi ki, azadlığımızı qoruyur. Və onu da duyub dərk edirdi



ki, azadlıq verilmir, igidlərin qanı bahasına qazanılır. Ona görə də bu yolda ölümə belə hazır idi...

Son günlər Daşbaşıdakı döyüş postunda yurda keşik çəkirdi Hafiz. Ömrünün sonuncu gecəsini də burda – dumanlı, sisli dağların qoynunda keçirmişdi. O gecə qəribə bir fikir gəlmişdi ağlına. Ürəyində tutmuşdu ki, evlərinə qayıdan kimi gedib Hacı Qaraman babanın ocağını ziyarət eləsin. Sonra da bacısının qulağına astadan pıçıldasın:

– Mehparə, anama de ki, mən... əmimin qızını istəyirəm. Bacısına o «əmi»nin də, ürəyində əzizlədiyi qızının da adını deyəsi idi Hafiz. Bircə bu sabah açılsaydı...

O zülmət gecə Hafizin və onun cavan əsgər yoldaşlarının qanına boyandı. O sabah dağlara üz tutmadı bir də, daha doğrusu Hafizsiz açıldı o səhər. İnnən belə hər gələn səhərdə Hafizin gor evinə bir xışma işıq düşəcək. O, işıq ömrü yaşayacaq bundan sonra.

## ...ATA OCAĞINDAN NİGARAN ŞƏHİD

***Fətullayev Nurəddin Məhəmmədəli oğlu***
***doğulub – 30.06.1973-cü il, Cəbrayıl şəhəri;***
***şəhid olub – 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Quşçular kəndi***



Torpaqlarımızın azadlığı uğrunda şirin canından keçib Şəhidlik Zirvəsinə ucalan Fətullayev Nurəddin Məhəmmədəli oğlu dünyaya yaşamaq arzusuyla gəlmişdi. O, 1973-cu ilin 30 iyu1unda Cəbrayıl şəhərində doğulmuş, böyüyüb boya-başa çatmışdı. Uşaq vaxtlarından istiqanlı olmasıyla seçilirdi Nurəddin. Halallığı insan ömrünə söykək bilən bir ailədə böyüdüyündən ürəyi kövrək idi, ailə üzvlərinə, şagird yoldaşlarına, yeniyetmə dostlarına yanımlı idi. Cəbrayılın qartallı dağlarıyla, buluddan nəm çəkən ulu çinarlarıyla, büllur kəhrizləri ilə öyünür, ürək saflığına, mənəvi təmizliyə təpinə-təpinə kamilləşirdi günbəgün.

Nurəddinin nəzərində dünyada ata ocağından ülvi heç nə yox idi. Elə buna görə də o, Cəbrayılın Ağoğlan dağını, Dəyirman dərəsini, Quru çayını, Ulu Çinarını İlahi məhəbbətlə sevirdi. Bu sevgi idi onu torpağa, yurda bağ-

layan. Bu sevgi idi onu məkrli düşmən üstünə aparan. Nurəddin yeniyetmə bir oğlan kimi ilk gənclik illərinin sevincinə, duyğusuna təzəcə qovuşmuşdu. Neçə-neçə arzusu, diləyi var idi. Taleh aman verdiyi illərdə bir ocağın ümidi, fərəhiydi Nurəddin. Böyüdükcə ailədə saylıb seçilir, tay-tuşları arasında nüfuzu artırdı...

Nurəddini yaxından tanıyanlar, onun qeyrətinə, təpərinə bələd olanlar gələcəyinə ürəkdən inanırdılar onun. Nurəddin Şəhidlik Zirvəsinə yüksələndən sonra onun ölümünə – yoxluğuna dözə bilməyənlər indinin özündə də göynəyirlər hələ də. Onlardan biri də Nurəddinin xalası, tanınmış müğənni, respublikamızın əməkdar artisti Yaqut xanım Abdullayevadır. O, bacısı oğlunu ürək yanğısı ilə xatırlayıb:

– Nurəddinin xətrini çox istəyirdim. Çox istiqanlı, qeyrətli bir uşaq idi. Özüm bilərəkdən uşaq deyirəm ona, axı iyirmi yaşına təzəcə adlamışdı o. İyirmi yaş nədir ki... Bu yaşda şəhid olub Tanrı dərgahına qovuşanlara ürəyim yanıb həmişə. Eh, nə isə, görünür qismətimizə düşən bu ömür payını özümüz istəsək də, istəməsək də yaşamalı, onun ağrı-acıları içərisindən keçməliyik...

Nurəddin Cəbrayıl rayon mərkəzində Cəmil Əhmədov adına orta məktəbi bitirəndən sonra Gəncə şəhərindəki 37 saylı texniki peşə məktəbinə daxil olmuşdu. Arzusu halallıqla ruzi qazanmaq idi. Erməni quldurları Cəbrayılın keçmiş vilayətlə həmsərhəd kəndlərini mərmi atəşinə tutanda Nurəddin təhsilini yarımçıq qoyub geriyə qayıtdı. Evdəkilərə bildirdi ki, günü sabahdan könüllü olaraq döyüşçülərimizin sırasına qoşulacaq. Atası Məhəmmədəli kişi oğlunun dediyindən dönməyəcəyini bildiyindən ona uğurlu yol arzuladı. Anası Gövhər ana ilk gəncliyin təravətli sifətinin cizgilərindən açıq sezilən oğlunu iftixarla süzüb:

– Boyuna qurban olum, Nurəddin, Vətən torpağını ürəkdən qo-ruyacağına inanıram, özündən muğayat ol. Yadında saxla ki, düşmən hiyləgər və məkrlidir.

1992-ci ilin mart ayının 15-dən Nurəddinin döyüş yolu odlu-alovlu torpaqlarımızdan keçdi. O, 1992-ci ilin iyun-avqust aylarında həyata keçirilən Şişqaya əməliyyatlarında igidliklə vuruşub cəsur bir əsgər olduğunu nümayiş etdirdi. Sur ətrafında qolundan və ayağından yaralansa da, savaş meydanını tərk etməyərək axıra qədər döyüşdü. Bir neçə həftəlik müalicədən sonra Nurəddin yenidən əsgər yoldaşlarının sırasına qayıtdı. Və bundan sonra da 1993-cü ilin 15 avqustuna kimi düşmənlə üz-üzə dayandı. Avqust ayının 15-də Cəbrayılın Quşçular postunda aparılan şiddətli döyüşlər zamanı qəhrəmanlıqla həlak oldu. Tanrı dərgahına qovuşan şəhid Fətullayev Nu-



rəddin Məhəmmədəli oğlunun ölümü çoxlarını ürəkdən yandırdı. Gövhər ana oğlunun qanlı tabutu üstə ağ saçlarını töküb hönkür-hönkür ağlaya-ağlaya ürək parçalayan bir ağıya tutdu üzünü:

*Düşmənə uyan fələk,*
*Bir azca dayan, fələk!*
*Ürəyimə dağ çəkib,*
*Oğluma qıyan fələk!*

Nurəddinin düşmən caynağında qalan məzarı gecə-gündüz qan ağlayır indi. Nə vaxtdır ki, Məhəmmədəli kişi, Gövhör ana şəhid oğulları ilə yuxularda görüşürlər. Onların qaçqınlıq taleyindən yaxşı ki, Nurəddin soraq tuta bilmir. Yoxsa Cəbrayılın Araz səmtə boylanan təpələrindən birinin yamacındakı məzarında odsuz-ocaqsız yanardı Nurəddin. Onun Tanrı dərgahına qovuşan ruhu nə vaxtdır ki, dünyamıza nigaran-nigaran boylanmaqdadır...

## QƏLBLƏRDƏ YAŞAYIR



***Xanməmmədov İlqar Paşa oğlu***
***doğulub - 09.10.1969-cu il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***şəhid olub - 23.10.1993-cü il,***
***Cəbrayıl rayonu, Şükürbəyli kəndi***

Qan yaddaşımıza millətimizin soyqırımı kimi daxil olan 1988-ci ilin dekabr ayında qarlı-şaxtalı keçən günləri idi. Erməni daşnaqları azərbaycanlıları (Azərbaycan türklərini), tarixi dədə-baba torpaqlarından zorla çıxararaq, başlarına olmazın müsibətini açırdılar. Yurd-yuvasından, didərgin salınan soydaşlarımızın respublikamıza ilk axını başlamışdı. İlqar belə bir qarışıq vaxtda Sovet ordusuna hərbi xidmətə çağırıldı. O zaman müstəqil həyata yenicə qədəm qoymuş gəncin ağlına da gəlmirdi ki, xalqımıza qarşı xəyanətkar planlar hazırlanır. Ordu sıralarında xidmət edəndə rus zabitlərinin azərbaycanlı əsgərlərə qarşı bəslədikləri həqarətli münasibətlərindən də heç nə başa düşməmişdi. Hətta, son günlərini yaşayan

qırmızı imperiyanın Bakıda törətdiyi qara yanvar faciəsi barədə mərkəzi televiziya vasitəsilə verilən müəmmalı xəbərlərin arxasında gizlənən məqsədləri də anlaya bilməmişdi.

İlqar Xanməmmədov iki illik əsgəri xidmətini başa vurub, doğma yurda qayıtdıqdan sonra ona hər şey aydın oldu. Anladı ki, əsrlərlə qəlbi azadlıq təşnəsinə çevrilən xalqımızın müstəqilliyi uğrunda apardığı mübarizənin qarşısını heç bir qüvvə ilə almaq mümkün deyil, öz miqyası ilə bütün imperiyanı titrədən azadlıq hərəkatı qurbansız da ötüşməyəcək. Damarlarında azərbaycanlı qanı axan hər kəs buna hər an hazır olmalı, lazım gəlsə canından keçməyi bacarmalıdır.

İlqar əsgərlikdən qayıdıb dinc əməklə məşğul oldu. Sonsuz həvəslə kəndlərindəki H.Aslanov adına kolxozda çalışdı. Bu¬rulğanlar içində çarpışan respublikamızda baş verən proseslərə də biganə qalmırdı. Günlər, aylar bir-birinə qovuşduqca xalqımızı izləyən gərginlik də son həddə çatırdı. Lakin nə ətrafda baş verən dəhşətli hadisələr, nə də zamanın ədalətsizliyi bəşər övladının arzularının qarşısına sədd çəkə bilirdi...

Süreyya bacı bir gün ürəyini İlqara açdı: – Oğlum, dedi. – Allaha çox şükür ki, əsgərliyini sağ-salamat başa vurubsan. İşin-gücün də öz qaydasında. Bilirsən ki, heç nədən çəkəcəyimiz yoxdur. Əsl vaxtdır. İstəyirəm ki, evimizə gəlin gətirək, nə deyirsən? Bu gündən sabaha etibar yoxdur. İlqar utandığından heç bilmədi anasına nə cavab versin. Ailə məsləhətləşməsindən sonra qardaşları yığışıb ona yaxşı bir toy elədilər.

1992-ci ildə dünyaya gələn ilk körpələrinin adını Sevinc qoydular. Gənc ailənin arzusunun çiçək açdığının rəmzi olan körpəni yaman çox istəyirdi İlqar. Hər dəfə qızcığazının qışqırtısını eşidəndə elə bil bütün dünyanı bağışlayırdılar ona.

1992-ci ilin noyabr ayı idi. Erməni quldurları tez-tez kəndlərimizə basğın edir, iri çaplı silahlardan, raketlərdən açdıqları atəşlə yaşayış məntəqələrimizi viran qoyur, Günahsız insanları qətlə yetirirdilər. İlqarın əvvəlcədən hiss etdiyi təhlükə son həddə çatmışdı. Ona görə də tərəddüd etmədən rayon hərbi komissarlığına getdi. Könüllü olaraq cəsur komandir Şakir Abbasovun başçılıq etdiyi Sirik batalyonuna yazıldı. Yenilməz batalyonun tərkibində torpaqlarımızı zəbt etmək istəyən ermənilərə qarşı hazırlanan əməliyyatlarda iştirak etdi. Bu qanlı döyüşlərdə o, özünü əsl igid kimi göstərdi. Əfsuslar olsun ki, güclü himayədarlarının köməyi sayəsində müasir texnika ilə silahlanmış erməni qəsbkarları, əsgərlərimizin müqavimətlərinə baxmayaraq, dağ və dağətəyi kəndlərimizi, rayon mərkəzini zəbt edə bildilər. 1993-cü ilin oktyabr ayının 23-də Şükürbəyli kəndi yaxınlığındakı



«Sayaq» adlanan yerdə gedən döyüş zamanı İ. Xanməmmədov düşmən gülləsinə tuş gələrək şəhid oldu. Deyilənlərə görə, döyüş yoldaşları onun cəsədini döyüş meydanından çıxarmağa cəhd etsələr də aramsız atəş buna imkan verməyib.

O vaxtdan neçə-neçə il keçib. Amma İlqar Xanməmmədovun Biləsuvar rayonu ərazisindəki 4 saylı çadır düşərgəsində məskunlaşmış anası Süreyya Hüseynova, həyat yoldaşı Səidə İbrahimova, qardaşları onun yoxluğuna inanmırlar. İlqarın qızları – Sevincin, üzünü doyunca görmədiyi Günelin gözləri hələ də yol çəkir. Axı, el-oba yolunda canlarından keçənlər ölmürlər. Cismən həyatdan köçsələr də ruhən həmişə qəlblərdə yaşayırlar.

## YURDUN QEYRƏT QALASI...

*Xankişiyev Mübariz Rəsul oğlu*
*doğulub - 10.01.1972-ci il,*
*Cəbrayıl rayonu, Karxulu kəndi;*
*şəhid olub - 15.06.1994-cü il,*
*Füzuli rayonu, Aşağı Veysəlli kəndi*



– Camaatın balaları ilin, günün bu vədəsində Rusiyada başını girləyir, sən də gəlib öz ayağınla odun-alovun içinə atılırsan. Yusif müəllimin oğlu rəhmətlik Mübariz də sənin kimi ali hərbi məktəbi bitirib gəlmişdi Vətəni müdafiə etməyə, axırı nə oldu? Qoymadılar yazığı Sur döyüşündən bu yana çıxa. Kimin zavalına gəldi, kimin gülləsi ilə öldürüldü, hələ də bilən yoxdur. Neçə ildir Yusif müəllimin dəymədiyi idarə qapısı qalmayıb, quruca bir adı da çox görürlər Qasımov Mübarizə, – Eyzangül ana qorlana-qorlana danışsa da, Mübariz Xankişiyev anasının sözlərini yarıda kəsmədi, ürəyində dedi ki, Moskvaya gedəndən üzümü görmür, qoy danışıb həsrətini qovuşdursun.

– Bilirsən, ana, sənin kimi qadının südünü əmən oğul Vətənin dar günündə qürbətdə daldalana bilməz. Mən hərbçi peşəsini ona görə seçməmişəm ki, min bir bəhanə ilə böyük şəhərlərdə ilişib qalım. Mən əsgərəm,

Azərbaycan əsgəri, hara göndərsələr orda da əynimdəki zabit mundirinin şərəfini qorumalıyam. Anasının solğun bənizinin saraldığını görəndə səsinin tonu mülayimləşdi bir az:

– Hələlik Müdafiə Nazirliyi Bakı Ali hərbi məktəbində müəllim işləməyimi məsləhət görüb. Sabah lazım gəlsə mən də başqaları kimi döyüşə yollanacağam. Deyirsən ki, adaşım Mübarizin qədrini bilmədilər, onu xəyanətin cəngindən qurtaran olmadı. Bu barədə mən də eşitmişəm. Ancaq yadında saxla ki, müharibədə hər şey ola bilər. Vaxtilə igid oğullarımıza arxadan güllə atanlar gec-tez haqq divanı qarşısında cavab verməli olacaqlar. Tanrı nahaq qanı yerdə qoymaz...

Rəsul kişi Mahmudlu dəmir yol stansiyasında Mübarizi bağrına basıb:

– Oğlum, səni boya-başa çatdıranacan zillət çəkmişəm, – dedi. İndi Vətənin elə günüdür ki, sənə cəbhəyə getmə desəm Allah qarşısında günah işlətmiş olaram. Təsadüfi ölümdən, satqın yoldaş xəyanətindən özünü gözlə!..

Yaxınlaşan sərnişin qatarı dayandı. Ata-bala quçaqlaşıb ayrıldılar...

Bakı hərbi məktəbində cəmisi altı ay muəllim işlədi Mübariz. Doxsan ikinci ilin yayında Şəmkirdəki «N» hərbi hissəsinə rota komandiri göndərdilər onu. Bir müddət Qubadlı, Zəngilan, Cəbrayıl bölgələrindən, Tərtər, Ağdərə cəbhələrindən sorağı gəldi. Yüksək hazırlıq keçdiyindən harda olursa qorxmazlığı və çevikliyi ilə tanındı. Mübarizin döyüş qabiliyyətini, komandirlik istedadını yüksək qiymətləndirənlər ölümündən sonra da ürək dolusu söz açırlar ondan...

Qubadlının Novlu kənd sakini Elman deyir ki, rayonumuz yerində olarkən bir cavan oğlanın öz dəstəsi ilə qorxmadan düşmən üstünə güllə yağdırdığının şahidi olmuşam. Şəxsiyyəti ilə maraqlananda öyrəndim ki, o, Cəbrayıl rayonunun Karxulu kəndindəndir. O vaxtdan baş leytenant Mübariz Xankişiyevin adı dilimin əzbəri olub...

Zəngilan rayonunun Bartaz kənd sakini, hərbçi zabit Telman Məmmədov: «Zəngilanda Mehriylə sərhəd olan yaşayış məntəqələrinin qorunmasında Mübarizin əməyi çox olub. Çox cavan olmasına baxmayaraq heç nədən qorxub-çəkinən deyildi o. Mübarizi yanımızda görəndə gücümüz-qüvvəmiz birə-beş artırdı. Yurdun qeyrət qalasıydı o»...

Azərbaycan Respublikası Prezidenti əsgərlərimizin hünərindən danışarkən igidlərimizin cərgəsində Mübariz Xankişiyevin də adını xatırlatmış, Vətən təəssübü çəkən bu igid oğlanın ünvanına xoş sözlər söyləmişdi. Onda hələ Füzuli torpaqlarında düşmənin üstünə güllə yağdırır, şəhidlərimizin qisasını alırdı Mübariz...



Aşağı Veysəlli kəndi uğrunda gedən amansız döyüşlər neçə saat idi ki, ara vermədən davam edirdi. Mübariz qumbaraatanla qarşıdakı atəş nöqtəsini susdurub irəli şığıdı. Düşmən geri çəkilsə də öz məkrli niyyətinə çatdı onda. Mübarizin əsgərlərimizə xitabən dediyi: – İgidlərim, bu gün tale bizim tərəfimizdədir, harsın dığalarına göz açmağa imkan verməyin!.. Sözləri elə bil havadan asılı qaldı. Doxsan dördüncü ilin iyun ayının on altısında bir qarış Vətən torpağı al qanına boyandı onun...

Son nəfəsində Mübarizin göyərib qanı qaçmış dodaqlarında Vətən sevgisinə söykənən bir şeirin yaralı misraları dil açmaqda idi elə bil:

*Anam Qarabağım dumanda, sisdə, -*
*Doğma Cəbrayılım həzin şikəstə.*
*Sən məni böyütdün qolların üstə,*
*Mən sənin yolunda neylədim, Vətən?*

Mübariz Vətən yolunda oddan-alovdan keçib, onun azadlığı naminə şəhid oldu. Onun hünərinə söykənən şeirlər, nəğmələr bundan sonra dil açacaq hələ...

## TORPAĞA MƏHƏBBƏT ÖLMÜR

***Hacıyev Xəzər Qurban oğlu***
***doğulub - 03.09.1971-ci il,***
***Cəbrayıl rayonu, Maşanlı kəndi;***
***şəhid olub - 09.04.1995-ci il, Füzuli bölgəsi***



«Qəm leysanı» kitabını yekunlaşdırdığımız vaxtlarda bir nəfər eloğlumuzun da qüssə, kədər dolu tərcümeyi-halını əks etdirən bir parça kağız və şəkli bizə çatdı. Hacıyev Xəzər Qurban oğlu, ölüm tarixi 9 aprel 1995-ci il. Atəşkəs dediyimiz və davam edən bu dövr ərzində neçə-neçə oğullarımız düşmənin qəfil gülləsinə tuş gəldi. Yəni bu illərdə də namərd düşmən öz ermənliyini, öz nakəsliyini sübut edirdi...

Xəzər Araz Maşanlı kəndində anadan olmuşdu. 1986-cı ildə kənd mək-

təbinin 8-ci sinfini bitirmiş, sonra isə Sarıçallı TPM-də traktorçuluq peşəsinə yiyələnmişdi. 1990-cı ildə Uzaq Sibirə – Kemerovo şəhərinə əskəri xidmətə yollanmış, heç bir il keçməmiş doğma Vətənin səsinə səs verərək geri qayıtmış, Cəbrayıl ərazi müdafiə batalyonuna qoşulmuşdu.

Sonralar Xəzər igid komandir Şakir Abbasovun batalyonunda döyüşmüş, Şişqaya, Sur, Şayaq döyüşlərində iştirak etmişdir.

Xəzər hara gedirdisə qoca ata-anasını, doğma el-obasını düşünürdü. Elə buna görə də doğma yurd yerləri düşmən tapdağına keçəndən sonra da o silahı yerə qoymadı. Bu dəfə o, Füzuli bölgəsində – Horadiz istiqamətində döyüşürdü. Döyüş əməliyyatlarında Əhmədbəyli, Yağlıvənd, Aşağı Əbdülrəhmanlı kəndlərinin müdafiəsində əzmlə, qeyrətlə vuruşmuşdu. Son vaxtlar atəşkəs yaranmış olsa da Xəzər bir an belə ehtiyatı əldən vermirdi. Ancaq doğma torpağa qayıtmaq istəyi və sevgisi onun fikrini çaşdırdı. Ehtiyatsız hərəkət edən Xəzərin köksünə qəfil düşmən gülləsi sancıldı. Onda 1995-ci il aprelin 9-u idi...

## ONA QƏRİB DEMƏYİN...



***Xudiyev İldırım Təşkilat oğlu***
***doğulub - 01.06.1975-ci il,***
***Cəbrayıl rayonu, Şəybəy kəndi;***
***şəhid olub - 30.01.1994-cü il,***
***Tərtər bölgəsi***

Şəxsi igidliyinə görə «Azərbaycan Bayrağı» ordeni almağa layiq görülən (ölümündən sonra) Xudiyev İldırım Təşkilat oğlu haqqında yazılmış vəsadətdən sətirlər; «...hərbi hissədə xidmət etdiyi müddət ərzində sıravi Xudiyev İldırım Təşkilat oğlu özünü yaxşı cəhətdən göstərmişdir. İlk gündən intizamlı, bacarıqlı olduğunu sübuta yetirən bu igid əsgər qısa müddət ərzində döyüşçü yoddaşlarının və komandirlərin hörmətini qazanmışdır...

O, çox mehriban və zarafatcıl bir əsgər idi. Çətinə düşən əsgər yoldaşlarına öz köməyini əsirgəməzdi. 30 yanvar 1994-cü ildə Ağdərə bölgəsində gedən döyüşlərdə xüsusi təyinatlı ikinci bölüyün tərkibində sıravi Xudiyev



İldırım Təşkilat oğlu da iştirak edirdi. O, pulemyotçu kimi bundan əvvəl də döyüşlərdə hünər göstərmiş, düşmənin həmlələrinə igidliklə cavab vermişdi. Həmin gün düşmənlə qeyri-bərabər döyüşdə əsgərlərimiz geri çəkilməli oldular. Bu vaxt o, əsl qəhrəmanlıq göstərərək bölüyün müdafiəsini öz üzərinə götürdü. Döyüşçü yoldaşlarının geriyə çəkilməsi üçün mövqe tutub, pulemyotu ilə düşmənin irəliləməsinə ciddi surətdə mane olmağa başladı. Erməni quldurlarından 10-15 nəfərini məhv edərək, onları geri çəkilməyə məcbur etdi. Döyüş zamanı yaralansa da, İldırım axıra qədər atəş nöqtəsindən geriyə çəkilmədi. Sinəsinə sıxdığı pulemyotla düşmənin başına od yağdıran bu igid əsgər son nəfəsinə kimi dostlarını və sığındığı Vətən torpağını mərdliklə qorudu...

Onun şəhid olmasından sarsılsaq da, İldırımın qəhrəmanlığı hamımızın qəlbini iftixar hissi ilə doldurdu...

776 saylı Hh-nin komandiri, polkovnik-leytenant Ağayev 19 sentyabr 1994-cü il».

...İldırımın şəhid olduğu vaxtdan yeddi ay iyirmi gün sonra yazılan bu təqdimat igid eloğlumuzun döyüş hünərinin təkcə bir səhnəsindən söz açsa da qəlbimizi riqqətə gətirir. Bəs, həyatda necə insan olub İldırım? Yaşıdlarından hansı cəhətcə seçilib, həmyerliləri onu necə xatırlayırlar?

Sədətqulu Hüseynov, Əsgər Yusifov:

– Çox qabiliyyətli uşaq kimi tanıyırdıq İldırımı. Atası Təşkilat kişi yanımlı, el qeyrəti çəkən bir insan idi. Onun ölüm xəbərinə ürəkdən vaysındıq, Biz Şəybəy camaatı həmişə onun adı ilə fəxr edib, öyünəcəyik...

...İldırım fitrən istedadlı bir cavan idi. Təbii danışığı, şux zarafatı, duzlu söhbətləri ilə hamını məftun etməyi bacarırdı. Döyüşün ən qızğın çağlarında belə üzündən əskik olmayan təbəssümü ilə yoldaşlarına ürək-dirək verər, heç vaxt özünü itirməzdi. Yaxşı şəkil çəkməyi də var imiş onun. Əsgər dostlarının bloknotlarına və özünün dəftərçələrinə çəkdiyi şəkillər İldırımın sənət amalından xəbər verməkdədir...

...Həyatda adi bir insan ömrü yaşayıb İldırım. Orta məktəbi bitirəndən sonra Sarıcallı TPM-də oxuyaraq qaynaqçı peşəsinə yiyələnib. Bu sənətin incəliklərinə vaqif olmağa tale ona aman verməyib. Doxsan üçüncü ilin iyul ayında torpaqlarımızın müdafiəsinə yollanıb. Tərtər və Ağdərə bölgələrində bir döyüşçü kimi nəyə qadir olduğunu göstərib. Son anda əsgər dostlarının həyatını qorumaq üçün sinəsini torpağa sipər edərək əbədiyyətə şəhid kimi yollanıb...

...Doxsan dördüncü ilin qışından üzü bəri Tərtər şəhərindəki Şəhidlər Xiyabanında uyuyan İldırım Xudiyevin məzarı üstə dərdli bir ananın harayı dil açmaqdadır hələ də:

*Gözlərim ağlar qalıb,*
*Bizə bu çağlar qalıb.*
*Sinəmdə dağlar qalıb,*
*Tərtər, oğlum əmanəti.*

*Yandım aləmin oduna,*
*Tanrı yetişsin dadına.*
*Qərib deməyin adına,*
*Tərtər, oğlum əmanəti...*

## QİSMƏTDƏN QAÇMAQ OLMAZ

***Həsənov Əli İbrahim oğlu***
***doğulub - 25.02.1967-ci il,***
***Cəbrayıl rayonu, Şükürbəyli kəndi;***
***şəhid olub - 23.05.1994-cü il,***
***Füzuli rayonu, Aşağı Əbdülrəhmanlı kəndi***



Əlibayramlı şəhərinin Şəhidlər Xiyabanına toplaşanlar yenicə dəfn edilən mərhumun ruhuna oxunan surələri dərin hüznlə dinləyir, Qurani-Şərifdən olan kəlmələri ürəklərində təkrarlayırdılar. «Fatihə» – nidası ilə mərhumun şəninə sonuncu dua oxunandan sonra dəfn mərasiminə rəhbərlik edən ortayaşlı kişi üzünü izdihama tutub:

Camaat, – dedi, – Peyğəmbər Əleyhissəlam özü buyurub ki, «Sizinlə hərb edənlərlə Siz də Allah yolunda hərb edin. Müqəddəs ruhların toplandığı bu xiyabanda dəfn etdiyimiz cavan bizim Çəbrayıl elimizdən olan şəhid Həsənov Əli İbrahim oğludur. O, Peyğəmbərimizin buyurduqlarına əməl edərək – düşmənlə son nəfəsinə kimi döyüşərək şəhid olmuşdur. Şəhid adı Tanrı dərgahında həmişə uca tutulur. Allah Əlinin qohum əqrəbalarına səbir, dözüm versin. Bu gündən sonra Əlinin mübarək adı bizim şəhərdə də həmişə əzizlənəcək. Allah ona və cəmi şəhidlərimizə rəhmət eləsin. Minlərlə insanın dodaqlarında səslənən «Allah rəhmət eləsin» kəlməsi qəmli bir nəğmənin sonuncu notları kimi ətrafa yayıldı...

Əli Şükürbəylinin təpərli cavanlarından idi. Dünyanın «düz» vaxtlarında



bu kəndin şöhrəti sovetlər ittifaqını gəzib dolaşmaqda idi. Kənddəki təsərrüfata otuz ildən artıq rəhbərlik edən Əmək Qəhrəmanı Köçəri Babayevin və bir neçə il öncə respublikanın baş prokuroru olmuş Murad Babayevin adları Azərbaycan elimizdə Şükürbəylini oba-oba tanıtmışdı. Üç səmtə uzanan yolların qovuşduğu yerdə kürəyini dağlara söykəyən bu kənd Çəbrayılın Araza açılan qapısı sayılırdı. Nankor Gorus, Sisian, Hadrut... erməniləri illər boyu Şükürbəyli kəndində el ağsaqqalı Köçəri Babayevin səxavətinə söykənmiş, onunla bir batman duz-çörək kəsmişdilər. Gözləri ayaqlarının altını seçməyən bu nankorlar axırda haqq-sayı tapdalayıb yurdumuzu qana çalxadılar.

Cəbhəyə getməzdən qabaq iyirmi altı illik ömür möhləti olmuşdu Əlinin. İzsiz, soraqsız keçməmişdi bu illər. Orta məktəbi bitirəndən sonra Ukraynanın Çernikov şəhərində əsgəri xidmətdə olmuş, Sumqayıt Kimya-Texnologiya texnikumunun diplomu ilə Superfosfat zavodunda əmək fəaliyyətinə başlamışdı. Bircə toy edib ev-eşik sahibi olmağa macal tapmamışdı. O, hər dəfə evlərində söz düşəndə deyirdi ki, darıxmayın, qoyun bu lənətə gəlmiş müharibə qurtarsın, ondan sonra elə bir toy edəcəyəm ki, «Vağzalı»nın səsi Arazın o üzünə kimi yayılacaq...

Sumqayıtda dolanışığı yaxşı olsa da doğma yerlər özünə çəkirdi Əlini. Xudafərin su bəndinin tikintisi xəbərini eşidən kimi gəlib burada işləməyə başladı. Burada da qazancından narazılıq eləmirdi. Bircə Cəbrayıldan o üzdəki dumanlı-sisli dağlardan gələn aramsız atəş səsləri rahatlığını pozurdu onun. Vətənin ağır günündə günbəgün artan ana-bacı naləsinə dözmədiyindən doxsan üçüncü ilin iyul ayında cəbhəyə yollandı. Bir müddət Hərəkül, Quşçular, Süleymanlı, Quyçaq, Nüzgar, Horovlu kəndləri ətrafında, sonra isə Arazboyu obalarda düşmənlə üz-üzə dayandı...

Cəbrayılın qala qapısını xəyanətkarlar düşmən üzünə açandan sonra Əli Şəmkirdə döyüş hazırlığı keçib yoldaşları ilə birlikdə Ağdam torpaqlarının müdafiəsində dayandı...

Ölümündən bir neçə ay qabaq tale onu doğma torpaqlarla təzədən görüşdürdü. Horadizin, Çocuq Mərcanlının düşməndən azad edilməsində fədakarlıq göstərən Əli Həsənov Şükürbəylidən keçən asfalt yola qədəm basanda ürəyi sızladı. Doğma yurd yerlərinin barıt qoxulu havasını ciyərlərinə çəkəndə Şükürbəylidəki evləri düşdü yadına...

Sonradan Füzuli şəhəri istiqamətində gedən uğurlu döyüşlərin iştirakçısı oldu Əli. Aşağı Əbdülrəhmanlı kəndi ətrafında bir neçə əsgər dostu ilə qəfildən minaya düşməsəydi, müharibədən sonra Şükürbəyliyə qalib əsgər kimi qayıtmalıydı. Bu səadət qismət olmadı ona. Bunun əvəzində ulu Tanrı Əlini Şəhid adı ilə mükafaqlandırdı... Bu ad yurdunu ürəkdən sevənlərin qismətinə düşən Tanrı payıdır. Əli bu rütbəyə, bu ada layiq oğul idi...

# BİR ÖMRÜN ÜÇ PÖHRƏSİ



***Həsənov Asif Hüseyn oğlu***
***doğulub - 03.01.1962-ci il,***
***Cəbrayıl rayonu, Şıxalıağalı kəndi;***
***şəhid olub - 06.05.1994-cü il, Tərtər bölgəsi***

Doğma yurd yerlərimizin işğalından sonra Asiflə görüşümü indinin özündə də yaxşı xatırlayıram...

1993-cü ilin çiskinli payız günlərinin birində Asifin böyük qardaşı Sahibin avtobusu ilə Mingəçevirdən Saatlıya gedirdik. Kürdəmirin Karrar dəmiryol stansiyasına çatanda Sahibin təklifi ilə küknar ağaclarının əhatəsindəki birmərtəbəli evlərdən birinə – Asifgilin yaşadığı yerə dönəsi olduq. Asifin, onun yaxın qohumları, əmiləri ilə illər ayrısı kimi səmimi görüşündən gözlərim yaşardı. Gecə yarıya kimi uzanan söhbətimiz yurd ağrıları ilə yoğrulsa da, odun peçi ilə qızdırılan darısqal otaqda rahat yuxuya getdik...

Dan yeri ağaranda qalxıb yolumuza davam edərkən Asifdən, onun ailə üzvlərindən xoş təəssüratla ayrıldıq. O zaman heç eynimə də gətirməzdim ki, bu mənim Asiflə sonuncu görüşümdür...

Aprelin axırlarında eşitmişdim ki, üç övlad atası Həsənov Asif erməni işğalçılarının yurdmuzda törətdikləri azğınlıqlarına dözmədiyindən cəbhəyə yollanıb. Mingəçevirdə hər dəfə sahildə görüşəndə Asifi, onun ailə üzvlərini soruşar, cəbhə bölgələrindən gələn müdhiş xəbərlərdən həyəcan hissi keçirərdim...

1994-cü ilin may ayının əvvəllərində eşitdiyim acı bir xəbər varımdan yox etdi məni. Səhər-səhər Cəbrayıllı qaçqınlardan hansı isə işlədiyim qəzetdəki iş otağıma gəlib:

– Şıxalıağalı Sahibin qardaşı Asif şəhid olub, – dedi. Müdhiş xəbərin təsiri ilə ürəyim sızlaya-sızlaya üzümü ona tutdum:

– Nə vaxt eşidibsən, dedilərmi harada vurublar onu?

– Deyirlər, Tərtər ətrafında yoldaşları ilə mühasirəyə düşüblərmiş. Son nəfəslərinə kimi düşmənlə qeyrətlə vuruşub həlak olublar.

Deyəsən bu vuruşmadan heç sağ çıxanları olmayıb. Eşitdiyim acı xəbərdən özümü küclə ələ alıb ürəyim sızlaya-sızlaya:



- Heyf səndən, Asif, - dedim. Heç ölməli oğlan deyildin... Axşam yarım ildən bəri məskunlaşdığım fəhlə yataqxanasında hara üz tuqdumsa Asifi, onun işıqlı çöhrəsini gözlərimin qabağında gördüm. Qələm-kağız götürüb ürəyimin nisgilini misralara çevirdim:

*Qoymadın Vətəni çətində, darda,*
*Arxa-dayaq oldun sən ana yurda.*
*Qəbrini axtarım de, indi harda?*
*Sönübdü ocağım, közüm, ay Asif.*

*Hönkürər hələ də doğma elimiz,*
*Araz qırağımız, Gəyən çölümüz.*
*Uzalı qalıbdır sənə əlimiz,*
*Qan ağlar elə hey közüm, ay Asif.*

Həsənov Asif Hüseyn oğlu 1962-ci ilin yanvar ayının 3-də Şıxalıağalı kəndində anadan olmuşdu. Həmkəndliləri onu istiqanlı bir cavan kimi tanıyırdılar. Kənd məktəbinin səkkizinci sinfini bitirəndən sonra mexanizator peşəsinə yiyələnmişdi. 1982-84-cü illərdə Rusiyada hərbi xidmətdə olmuş, orda da bacarığı ilə çoxlarından seçilmişdi. Əsgərlikdən qayıdandan sonra Mahmudlu stansiyasındakı yol tikinti idarəsində halal zəhməti ilə ad-san qazanmışdı Asif.

Ailə həyatı qurandan sonra ömür-gün yoldaşı ilə birlikdə özünə ev-eşik düzəltmişdi. Bir-birinin dalınca dünyaya gələn üç fidan oğul balasının xətrinə od içindən keçməyə hazır idi...

1993-cü ilin payızında erməni quldurları Araz boyunu işğal edəndən sonra Asif doğma ev-eşiyini ağlar gözlə tərk edib Kürdəmirin Karrar kəndinə pənah gətirmişdi. O vaxtlar kəndin ortasından ötüb keçən dəmiryol stansiyasında elektrik montyoru işləsə də, günbəgün azğınlaşan erməni işğalçılarının həyasızlığı cəbhəyə gətirdi onu...

Hərbi xidmətə çağrıldığını eşidəndə tərəddüd etmədən qeyrətli oğulların cərgəsinə qoşuldu. Sonuncu dəfə bir-birindən yaraşıqlı balaları Rusifin, Rüstəmin və Afiqin üzündən öpüb onu ağlar gözlə yola salan həyat yoldaşına:

– Əzizim, ürəyini sıxma, – dedi. – İnşallah sağ-salamat qayıdaram. Əgər şəhid olsam, balalarımız əmanəti. Qoyma onlar ürəksiz böyüsünlər...

Və bundan düz on beş gün sonra Asifin qanlı tabutu gəldi Karrar kəndinə. Araz vadisində dünyaya göz açan Asif Şirvan torpağında əbədiyyətə qovuşdu...

Şəhid eloğlumuz Asifin ailə ocağında üç pöhrə böyüyür indi. Gün gələcək ki, onlar doğma Şıxalıağalıya qayıdıb atalarının viran qalmış yurdunda işıq yandıracaqlar. Bu pöhrələr buğum-buğum, yarpaq-yarpaq böyüməkdədirlər hələ. Tanrının nəzəri onların üstündə olsun...

## QİSMƏTDƏN QAÇMAQ OLMAZ...



***Həsənov Elcan Xasay oğlu***
***doğulub - 03.08.1969-cu il,***
***Cəbrayıl rayonu, Tinli kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***

Aqillərimiz «yazıya pozu yoxdur», – deyiblər. Elcan alın yazısının sonuncu sətrini pozub taleyin ona bəxş etdiyi ömür payından bircə gün artıq yaşaya bilmədi. Deme, o qarlı-çovğunlu dekabr günündə şəhid olmaq Elcanın son qisməti imiş. Bəxti də, qisməti də verən ulu Tanrıdır, onun məsləhətindən çıxmaqmı olar?

Elcan qismətinə düşən ömür payını havayıdan səpələməmişdi. Ötüb keçən illər onun arzularının dan yerinə dönmüş, torpaq istəyini, yurd amalını pöhrə-pöhrə göyərtmişdi. 1993-cü il dekabr ayının 22-də sona çatan bu ömür yoluna-ürəyi Vətən eşqi ilə döyünən bir gəncin kövrək səsi, harayı sığınıb. Bu ömrün hər anından bir həzin xatirə boylanır dünyamıza...

Gəyənin sinəsinə sığınan Tinli kəndində bir dünya söz-söhbəti yaşayır Elcanın. Bu kənd doxsan üçüncü ilin payızında düşmən əlinə keçsə də, nə Elcanın yovşan ətirli izlərinə yağan leysan yağışlar, nə də torpağımızı gorəşən kimi dağım-dağım edən quldurlar poza bilməyib...

Kənd məktəbinin səkkizinci sinfini bitirəndən sonra Sarıcallıdakı texniki-peşə məktəbində təhsilini davam etdirmişdi Elcan. İstəyirdi ki, valideynləri kimi halal zəhmətlə dolansın, Gəyən düzlərinin yaraşığı olan kəndlərində onun da öz evi, öz ünvanı olsun...

«Qırmızı imperiya» dövründə 1987-89-cu illərdə Novosibirsk şəhərində əsgəri xidmətdə olanda da el-obasını yaddan çıxarmamışdı. Evlərinə ayaq açan əsgər məktublarından hiss olunurdu ki, doğma yerlər üçün burnunun



ucu göynəyir...

Kəndlərinə qayıdan kimi kolxozda işə girmiş, evlərinə ilk qazanc gətirmişdi. Atası Xasay kişi dünyasını dəyişəndən sonra ailənin dolanışığına cavabdeh olduğunu bildiyindən özünü oda-közə vururdu...

Kiçik qardaşı Elşad cəbhədə döyüşsə də, özünü Vətən qarşısında borclu bilirdi. Bəlkə elə buna görə də 1992-ci ildə dinc işini buraxıb döyüşə yollandı. Nə anası Güllərin yalvarışları, nə də bacısı Vəsilənin göz yaşları onu yolundan saxlaya bildi. Hər dağına, qayasına bələd olduğu Cəbrayıl torpaqları ona səngər oldu, qala oldu. Elcanın döyüş yolları Daşbaşıdan, Nüsüsdən, Sirikdən adlayıb keçdikcə o, dəfələrlə ölümlə üz-üzə dayandı...

Cəbrayıl torpaqlarının süqutundan sonra Elcan əsgər dostları ilə Gəncə şəhərindəki hərbi hissəyə yollandı. O, əldən gedən yurd yerlərimizin harayını eşitdikcə qəzəbindən yay kimi gərilirdi. İstəyirdi ki, təzədən düşmən üstünə gedib şəhid olan əsgər yoldaşlarının, külü göyə sovrulan ulu yurd yerlərimizin qisasını, intiqamını alsın. Elə bu məqsədlə də hərbi təlimlərdə canıdildən iştirak edir, döyüş zamanı hücum etməyin və müdafiə olunmağın sirlərini öyrənirdi...

O müdhiş qış günündə təlim zamanı həlak olmasaydı, indi onun səsi hələ də cəbhə bölgələrinə gələrdi. Dəmə, qismətdən qaçmaq olmazmış. Elcanın alın yazısı Gəncə ətrafında tamam olmalıymış. Tinlidə doğulan bu igid oğlan ulu Nizaminin doğma şəhərində əbədiyyətə qovuşdu, ikinci ömür payını yaşayır Elcan:

*Anan, bacın hələ də,*
*Gəlişini gözləyir.*
*Bu yurdun el qızları,*
*Qəbrini əzizləyir...*

# VƏTƏN ONU UNUTMAZ



***Həsənov Kamal Şəmil oğlu***
***doğulub - 20.04.1970-ci il,***
***Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi;***
***şəhid olub - 02.04.1993-cü il,***
***Füzuli rayonu, Govşadlı kəndi***

İnsan həyatında elə anlar olur ki, adam öz iradəsinə söykənib qəlbinin hökmü ilə hərəkət edir. Kamal torpaqlarımızın müdafiəsinə vicdanının səsi ilə getmişdi. O, Vətənin ağır günlərində kənarda qalmağı qüruruna sığışdırmadığından könüllü olaraq özünü odun, alovun içərisinə atmışdı. Atalarımız yaxşı deyiblər ki, igid dar gündə tanınar. Cocuq Mərcanlı kəndində böyüyüb boya-başa çatan Kamal Həsənov həyatda olduğu kimi, cəbhədə də özünün igidliyi ilə yaddaşlarda iz saldı. Deyirlər insanın qəhrəman olması üçün bəzən hardasa bir an da kifayət edir. Bu şərtlə ki, ölümdən qorxub çəkinməyəsən, onunla əlbəyaxa vuruşmağı bacarasan. Kamalın nəzərində erməninin ölümdən fərqi yox idi. O, insan qanına susadığından harada olur-olsun öldürmək barədə düşünür. Bu xislət erməni psixologiyasından, erməni mənəviyyatından doğan adi haldır, anormallıqdır. O, yeri gələndə yalquzağa, quzğuna, goreşənə çevrilməyi, yeri gələndə quzu cildinə girməyi yaxşı bacarır. Bayquş xarabalıqda vəcdə gəldiyi kimi, erməni də tökülən qanlardan həzz alır, yandırılan yurd yerlərində iblisanə qəhqəhə çəkir. Kamal bütün bunları yaxşı bildiyindən cəbhəyə ayaq açan kimi düşmənin niyyətini puça çıxarmaqdan ötrü fürsəti əldən vermirdi. Səngərdə dayandığı vaxtlarda daim sayıq olub ətrafı diqqət mərkəzində saxlayır, barmağını tətikdən ayırmırdı. Bir dəfə əsgər yoldaşlarından biri onun hərəkətlərinə nəzər salıb demişdi:

– Kamal, sənin sayıqlığın ulu Əmir Teymurun bir kəlamını xatırladır. Bilirsənmi, o nə deyib?

– Yox, yaxşısı budur danış görək, nə deyib o kişi?

– Bizim türk dünyasının ulu hökmdarlarından olan Əmir Teymur həm də çox igid sərkərdə olub. Deyirlər o, yatanda da heç vaxt gözlərini yummazmış. Bir dəfə əsgərlərinə üzünü tutaraq: «Əgər kipriklərimi qapasam, düşmən macal tapıb yaxına gələ bilər», – deyib.



Kamal ilk dəfə eşitdiyi bu əfsanənin həyatiliyinə şübhə etmədən dilləndi:

– Düz deyib, qardaş, o kişi. Əgər ermənilər ilk dəfə yerlərində qurcalanıb «miatsum» kəlməsi ilə üstümüzə ayaq açanda fil yuxusuna gedən «baş bilənlər» tədbir töksəydilər, düşməni elə öz zağasında məhv edərdik. Gəlin heç olmasa indi fürsəti əldən verməyək. Deyirlər yuxu pəhləvana da qalib gəlir. Əgər dayandığımız postlarda mürgüləsək düşmən axırımıza çıxacaq...

Kamal imperiya ordusunda əsgəri xidmətini başa vurandan sonra həmyerlilərinə qoşulub Türkmənistana işləməyə getmişdi. Vətənin ağır günündə qürbət eldə baş girləməyi şəninə sığışdırmadığından günlərin birində qayıdıb birbaşa hərbi komissarlığa üz tutmuşdu. Onun niyyətini biləndə böyük qardaşı Kamran Kamalı bağrına basıb:

– Qardaş, – demişdi, – səndən qabaq mən Vətənin əsgəri olmuş və ayaqlarımı onun yolunda qoymuşam. Səni yolundan saxlamıram, ancaq yadından çıxarma ki, düşmən kinli olduğu qədər də kəmfürsətdir, onu gözdən qoysan, gərək özünü gorda hesab edəsən...

Kamalgilin hərbi hissəsi Gəncədə təlim keçəndən sonra Füzuli torpaqları uğrunda ölüm-dirim savaşı aparırdı. Bu döyüşlərdə qeyrətinə sığınıb, Ana torpağa sinəsini sipər edən Həsənov Kamal Şəmil oğlu bir neçə dəfə yaralansa da silahı yerə qoymadı. Bədənini dəlib keçən güllə və qəlpə yaraları sağalan kimi yenidən döyüşə atıldı. Füzuli rayonunun Govşadlı kəndi uğrunda gedən döyüşlərdə şəhid olan bu igid oğlan axıra qədər andına, amalına sadiq qaldı. O, şərəfli ölümü ilə əbədi yaşamaq haqqı qazandı. Vətən belələrini heç vaxt unudan deyil...

## ANA OĞUL GƏZİR...



***Hüseynov Vüqar Arif oğlu***
***doğulub - 08.05.1973-cü il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***

Rəsmiyyə Vüqarın dilindən «hə» kəlməsini alanda sevincindən uşaq kimi qaçıb anasının boynuna sarıldı:

– Qağam evlənməyə razıdır, ana. Deyir ki, üç gündən sonra komandirimdən icazə alıb qayıdacağam. Ona qədər əyri-əskik nə varsa alıb düzəldərsiniz.

Sücaət xanıma dunyanı bağışladılar elə bil. Əllərini səfərə hazırlaşan oğlunun enli kürəyində daraqlayıb başını sinəsinə qoydu onun.

– Ana qurban, Vüqar, mənim ümid çırağım, özündən muğayat ol. Yola düşmək istəyəndə bacısı Cəmilə əlində hazır saxladığı bir parça suyu dalınca atdı:

– Bacın boyuna qurban, tez qayıt, gözümüzü yolda qoyma...

Üç günlüyə gedən Vüqar səkkiz gündən sonra qara bir tabutda qayıtdı evlərinə. Sübh tezdən toy tədarükü üçün Cəlilabad bazarına gedən Sücaət ana qayıdıb gələndə qapılarının ağzında şivən qopduğunu görüb bayıldı...

Tanrı Vüqardan heç nəyi əsirgəməmişdi, ömür payından savayı. Ona duyumlu barmaqlar vermişdi – Cəbrayıl musiqi məktəbinin məzunları arasında mahir qarmonçu sayılırdı. Boş vaxtlarında rəsmlər çəkir, palçıqdan, gildən müxtəlif fiqurlar düzəldirdi. Hamı deyirdi ki, Vüqar yaxşı sənətkar olacaq. Ancaq o, İncəsənət İnstitutuna yox, Gəncə Kənd Təsərrüfatı Akademiyasının mexanizasiya fakültəsinə qəbul olundu. Nədənsə özü belə istəmişdi. Üçüncü kursda qiyabi şöbəyə keçib kəndlərinə qayıtmışdı. Soruşanlara deyirdi ki, anam¬dan, bacılarımdan uzaqda dözə bilmirəm. İstəyirəm ki, cəbhəyə gedib Xocalıda namusumuzu ləkələyən erməni dığalarına «toy» tutum. Anası Sücaət xanım yeganə oğlunu nə qədər dilə tutdusa da, qərarından döndərə bilmədi. Oğluna xeyir-dua verməkdən savayı çarəsi qalmadı onun...

Bir müddət Günəşli və Qışlaq postlarından sorağı gəldi Vüqarın. Sonradan öyrəndilər ki, Sur və Sirik kəndlərində keçirilən hərbi əməliyyatlarda da iştirak edib. Ermənilər Süleymanlı kəndindən üzü aşağı enib Cəbrayıl-Füzuli asfalt yolunu ələ keçirəndən sonra Vüqar doğma kəndləri Horovlunun müdafiəsində dayanırdı. Düşmən ağır hərbi texnikanın və canlı qüvvənin üstünlüyünə güvənib günbəgün Araz çayına tərəf irəliləməkdə idi...



Horovlunun üst tərəfindəki postda dayanmışdılar onlar. Aşağıda camaatı perik düşən kəndin zülmətə qərq olan evləri gözə çarpırdı. Vüqarın yadına hardansa ötən ilin noyabr ayının altısında Şayaq kəndi ətrafında gedən döyüşlər düşmüşdü. O vaxt yaralı bir əsgəri ölümün cəngindən qurtarıb xilas etmişdi Vüqar. Axşamüstü evlərinə qayıdanda üst-başı qan içində idi. Evdəkilər elə bildilər yaralanıbdır, sağ-salamat olduğunu görəndə Allaha şükür etdilər...

Ermənilər Horovlu postuna hücum edəndə əsgərlərimiz atışa-atışa geri çəkilməli oldular. Birdən Vüqar baxıb gördü ki, əsgər dostlarından biri arxada qalıb. Geriyə dönüb ona sarı qaçdı...

Hər ikisi mühasirəyə düşmüşdülər onda. İki saatlıq döyüşdən sonra yaylaq aşağı sürünə-sürünə gəlib Çapandda əsgərlərimizə çatdılar. Həmin döyüşdə sağ qolundan qəlpə yarası almışdı Vüqar...

Horadiz qəsəbəsi yaxınlığında Arazı keçərkən əsgərlərimizdən biri burulğana düşüb boğulmaqda idi. Güllə yağışı altda o tərəfə adlayan əsgərlərimiz onu ucadan səsləsələr də ayrı cür kömək edə bilmirdilər. Elə bu zaman Vüqar canını dişinə tutub suya atıldı. Üzə-üzə artıq son anlarını yaşayan əsgərə çatıb onu çayın sahilinə tərəf çəkməyə başladı. Bir ananın ümid çırağını sönməyə qoymadı Vüqar onda.

1994-cü ilin payızında özü ilə Mingəçevirə bir dünya qəm-kədər gətirmişdi Sücaət xanım. Sözünün əvvəli də, axırı da Vüqar idi. Deyirdi ki, onu illər boyu gözümün üstə saxlamışam. İstidən, soyuqdan qorumuşam. Hər il Hacı Qaraman ocağında Vüqarın adına qurban kəsdirib, nəzir-niyaz vermişəm. Onu da deyirdi ki, Vüqarın toy mağarı qurulu qalandan bəri dünya gözlərimdə tərs dəyirman kimi fırlanır. Sücaət xanım göz yaşları içərisində bizdən ayrılanda xahiş etdi ki, Vüqarın adı ilə bağlı bir şeir yazıb göndərim ona. Ana istəyirdi ki, bu şeiri ürəyinin başından qopan yanıqlı ağılara qatıb Vüqarın Beyləqan torpağındakı qəbri üstə səpsin. Vüqardan hazırladığımız yazını yazıb sona çatdıranda Sücaət xanımın arzusunu xatırlayıb ona əməl etdik:

*Toyun yasa döndü, oğul,*
*İşığımız söndü, oğul.*

*Bu dərd qəfil dindi, oğul –*
*Qara gəldi günüm, Vüqar.*

*Öldü - deməz dilim sənə,*
*Yaraşmayır ölüm sənə.*
*Uzalıdır əlim sənə –*
*Batıb səsim, ünüm Vüqar.*

*Sinəmə dağ çəkib fələk,*
*Üstümə od töküb fələk.*
*Qamətimi büküb fələk, –*
*Sənsiz necə dinim, Vüqar...*

## ÖMÜR MUNCUQ DÜZÜMÜDÜR...



***Hüseynov Əli Səfər oğlu***
***doğulub - 12.03.1955-ci il,***
***Ermənistan Respublikası, Masis rayonu,***
***Yuxarı Necili kəndi;***
***şəhid olub - 31.12.1993-cü il,***
***Ağdam rayonu, Salahlı kəndi***

Doxsan üçüncü ilin sonuncu günü Tanrı dərgahına üz tutan Hüseynov Əlini səksəninci ilin əvvəllərindən tanıyırdım. Rəhmətliklə bir batman duz-çörək kəsmişdik. Taleyin hökmü idimi, yoxsa xoş təsadüf idimi, deyə bilmərəm, onunla 1983-cü ilin fevral-mart aylarında turist səfərində olmuş, Rumıniya-Macarıstanı birgə gəzib dolaşmışdıq. Dunyanın o vaxtkı düz vaxtlarında Əliylə Karpat dağlarının qarlı aşırımına qalxmış, Baloton gölünün mavi rəngli sularına gözümüz dolusu tamaşa etmiş, Dunay çayının Buda ilə Peşti (Budapeşt şəhərində) birləşdirən yaraşıqlı körpüləri üzərindən dönə-dönə ötüb keçmişdik. Onda Əlini lap yaxından tanıyırdım. Bilirdim ki, dar ayaqda yoldaş üçün nə desən edəndir. Musiqi, şeir aludəsiydi Əli. Bir dəfə məndən xahiş etdi ki, onun üçün təzə şeirlərimdən birini oxuyum. Dostum Əlinin duyumuna bələd olduğumdan onun istəyi ilə aşağıdakı şeiri əzbərdən dedim:



*Məhəbbətim qibləm, andım,*
*Onun alovunda yandım.*
*Misra-misra sıralandım,*
*Sözə vurula-vurula.*

*Bir nəşəli dodaq oldum,*
*Tumurcuqlu budaq oldum.*
*Qaynar gözlü bulaq oldum,*
*Axıb durula-durula.*

*Duyğu qəlbin gözümüdü,*
*Kövrəkliyin özümüdü.*
*Ömür muncuq düzümüdü,*
*Harda qırıla-qırıla...*

Əli dərindən köksünü ötürüb:

– Düz deyirsən, qardaş, – dedi, – ömür doğrudan da muncuq düzümünə oxşayır...

Sonralar Əliylə hər dəfə görüşəndə o, özünə məxsus şirin bir ləhcəylə: Ömür muncuq düzümüdür,

Harda qırıla-qırıla, – deyib mənimlə hal-əhval tutar, birgə keçirdiyimiz günlərin şirinliyinə üz tutardı...

Əli Gəncədəki Kənd Təsərrüfatı Akademiyasını bitirib Naxçıvan Kənd Təsərrüfatı Nazirliyində yarım il işləyəndən sonra Cəbrayıla gəlmişdi.

Buradakı ən böyük təsərrüfatlardan birində (S. Vurğun adına kolxozda) iki il baş aqronom işləyəndən sonra 1981-1987-ci illərdə «Araz» kolxozuna rəhbərlik etmişdi. Camaat arasında yaxşı xətir-hörməti var idi Əlinin. Ermənistanda yaşayan soydaşlarımız ulu torpaqlarımızdan qovulanda Əlinin bacısı Sara və bacısı qızı Natəvan Xocalıya pənah gətirmişdilər. O vaxtlar Əli tez-tez Xocalıya gedib onlara baş çəkər, dərdlərini yüngülləşdirməyə çalışardı...

1992-ci ilin 26 fevral gecəsi Xocalı faciəsi baş verəndə Sarayla Natəvan da erməni vəhşiliyinin güdazına getdilər. Onların taleyindən kimsənin xəbəri olmadı...

Xocalı soyqırımından sonra Əli Hüseynov o müdhiş gecədə vəhşicəsinə öldürülənlərin qisasını almaq üçün könüllü olaraq orduya getdi. Yaxından tanıyanlar deyirlər ki, hər dəfə uğurlu əməliyyatdan qayıdanda elə bil dünyanı ona bağışlayırdılar.

Əlinin ömür-gün yoldaşı Vahimə xanım söyləyir ki, Xocalı müsibəti onu varından-yox etmişdi. Yeri düşəndə deyirdi ki, qeyrəti olan kəs ana-bacılarımızın düşmən əlində əsir-yesir olduğu bir vaxtda gərək küncdə-bucaqda daldalanmasın...

Qorxaqları, fərarilik edənləri görən gözü yox idi onun. Cəbrayıl alayının Quycaq batalyonunda motoatıcı taburun qərargah rəisi işlədiyi vaxtlarda hər bir əsgərin üstündə yarpaq kimi əsir, döyüş vaxtı vahiməyə düşənlərə rişxəndlə baxıb:

- Adını kişi qoyan kəs ölümdən qorxmasın gərək. Onsuz da yaranan bir gün dünyadan getməlidir, – deyirdi. Sonra cavan əsgərlərə ürək-dirək verib, onları qanadlandırardı:

– Sizin kimi cəngavərləri olan Vətən basılmaz, qardaşlarım. İnsan gərək öləndə də şərəflə ölsün...

Cəbrayılın suqutu yamanca yer eləmişdi Əliyə. Heç özünə gələ bilmirdi. Yanıb yaxıla-yaxıla:

– Əşi, sən işə bax ey, – deyirdi, – necə düzüb-qoşdularsa bircə həftənin içində topdağıtmaz bir rayonu hərraca qoyub satdılar. Əlidən soruşanda ki, görəsən, kim idi bu torpaqları düşmənə ərmağan verən? O, göynəyə-göynəyə:

– Anasının əmcəyini kəsib, erməni südü əmən azmıdır bu məmləkətdə?

Sonra da fikirli-fikirli əlavə edərdi:

- Bilirsinizmi, əgər erməni Cəbrayıl torpaqlarını işğal etməsəydi, burdakı kolxoz-sovxozların, üzüm zavodlarının sərvətlərini, idarələrin əmlakını havaya sovuranları məhşər ayağı gözləyirdi. O şərəfsizlər ermənilərin gəlişini ürəklərində toy-bayram edirdilər...

Cəbrayıl torpaqları düşmən əlinə keçəndən sonra Əlinin qərargah rəisi olduğu batalyonun əsgərləri Ağdamın Salahlı yaşayış məntəqəsi ətrafında döyüşürdülər. Ölümü ərəfəsində mayor rütbəsi aldığından xəbəri yoxmuş onun. Ağstafadan olan Ceyhun adlı bir əsgər nağıl edir ki, Salahlıdakı qızğın döyüşlərdə Əli Hüseynov əsgərlərlə yanaşı vuruşurdu. On iki saat idi ki, atəş səsindən yer-göy lərzəyə gəlirdi. Alıkeyxalıdan olan igid əsgər Elşən düşmənin irəli şığıyan iki tankını dalbalal açdığı atəşlə darmadağın edəndə uşaqların elə bil qırışığı açıldı. Başımız düşmənə qarışdığından Əlinin yaralandığından xəbərimiz olmadı. Döyüş səngiyəndə onun meyitinin düşmən mövqeyi yaxınlığında qaldığını bilib gözümüzdən qanlı yaş axıtdıq. Yalnız üç gündən sonra onu geri ala bildik...

Yanvarın üçündə Hüseynov Əli Səfər oğlunu Bakıdakı Şəhidlər Xiyabanında torpağa tapşırdılar. Üç oğul balası - Elmir, Eldar və Elçin igid atalarının Tanrı dərgahına yollanan ruhu ilə vidalaşdılar o gün. O hüznlü dəqiqələrdə göyün yeddinci qatından Şəhid eloğlumuzun qaibanə səsi gəldi elə bil:

*Ömür muncuq düzümüdür,*
*Harda qırıla-qırıla – ...*

Bu səsi hələ innən belə tez-tez eşidib qovrulacağıq içimizdə. Bu Şəhid qardaşımız Əlinin varlığından qopan haraydır...

## HƏR ŞEYDƏN UCADIR VƏTƏN SEVGİSİ

***Hüseynov Dərgah Səttar oğlu***
***doğulub - 27.10.1973-cu il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***şəhid olub - 26.01.1994-cü il,***
***Füzuli rayonu, Horadiz qəsəbəsi***



Şəhidlik uçalığın yolayrıcıdır. Buradan o yana ölümsüzlüyə qovuşanların əbədiyyət yolu başlayır. Bu yolun haqq qapısı dünyanın qan yaddaşında zaman-zaman yaşamaq səadəti qazananların üzünə açılır ancaq. Bu yol qeyrət, amal yolu, şəhidlik yoludur. Horovlu camaatının sevimlisi Hüseynov Dərgahın da ömrünün işıq üzünü innən belə Tanrı məkanına qovuşan əbədiyyət yollarında gəzib arayacağıq. Onu Şəhidlik Zirvəsinə ucaldan taleyin hökmü, yoxsa alın yazısı idi? Bunların heç biri deyildi Dərgaha əbədiyyətin «dirilik suyunu» içirdən. Onu ölümdən güclü edən Vətən sevgisi idi, yurd məhəbbəti idi. Dünyaya göz açdığı gün bu sevgiylə mayalanmış, iliyində, qanında Vətən məhəbbəti puçurlayıb göz tutmuşdu. Məktəbli olanda da Vətən sevgisi üstə köklənən şeirlər dilinin əzbəri idi:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, Vətənimdir, Vətənim...

Vətən sevgisi gözünün ilk ovu, ürəyinin səsi-həniri idi onun. Onun nəzərində Leyli-Məcnun istəyi də, Fərhad-Şirin məhəbbəti də Vətən sevgisinin bir damlası, bir zərrəsiydi.

Yurd sevgimiz Sədərəkdə, Laçında, Qazaxda, Qarabağ ellərimizdə çarmıxa çəkiləndə Dərgah da qeyrətli cavanlarımızın sırasında düşmən üstə getdi. Doxsan ikinci ilin martından başladı onun cəbhə həyatı. O burada da uşaqlıqdan könül verdiyi ilk sevgisinin keşiyində dayandı. Canını sipər elədi ulu dağlara, quşqonmaz qayalara. Cəbrayıl torpaqları od-alov içərisində qovrulanda Dərgah qəlbinin yurd sevgisini bir içim su kimi səpdi torpağın üstə. Duşmənin qarşısında köklü qayaya, uçurumlu dərəyə, qol-budaqlı çinara döndü Dərgah. Vətənin dar günündə qeyrətli əsgərlərimiz: «Düşmən bizim ancaq meyitimizin üstündən adlayıb Horovluya, Cəbrayıla, Siriyə, Tumasa... yiyələnə bilər», – dedilər. Məkrli düşmən Dərgah kimi igid oğullarımızın qoruduqları bəndin, bərənin üstündən yox, qorxaqların, şərəfsizlərin taybatay açdıqları xəyanət qapısından içəri təpilib Cəbrayılın Xan Çinarını, büllur çeşmələrini, qartallar oylağı Teyi, Tumas atanı kəməndə saldılar. Cəbrayıl şəhərinin işğalı zamanı Dərgah və onun dərd qeyrətli əsgər yoldaşı axşam toranlığında iyirmidən artıq erməni quldurunu məhv edərək mühasirədən çıxıb geri çəkildilər. Şəybəy, Nüzgar və Quycaq kəndləri ətrafında gedən qanlı döyüşlərdə də Dərgah Vətən sevgisinə sadiq qaldı. O vaxtlar hərbi intizamın zəifliyi Cəbrayıl alayında ayaq tutub yeriyən təxribata, fərariliyə, dönüklüyə rəvac verməkdə idi. Doxsan üçün payızında əsgəri andlarına sadiq qalan igidlərimizlə birlikdə Dərgah da axıradək döyüş postunu tərk etmədi...

Cəbrayılın süqutundan sonra bu elin şir ürəkli oğulları Ağdam ətrafında düşmənlə ölüm-dirim savaşında idilər. Dərgah burada da elə hey irəli can atır, ürəyində təlatümə gələn Vətən sevgisinə söykənirdi. Döyüşün qızğın çağlarında yoldaşlarından hansı isə Dərgahın özünü unutduğunu görüb qışqırdı:

– Ehtiyatlı ol, Dərgah, dəstədən qabağa çıxma, səni vura bilərlər...

Dərgah əzrayılla «çiling-ağac» oynayan adamlar kimi arxayınlıqla əlini yellədi:

– Qorxmayın, güllə mənə yaxın gəlməz, mən Vətən sevgisinin Tanrı amanındayam...

Onu ölümün gözündən yayındıran da, oddan-alovdan keçirib möhlət-aman verən də sevgi idi, Vətən istəyi idi. Dərgah bu hikməti dərk etdiyindən hər yerdə arxayınlıqla gəzib-dolaşır, ölümü eyninə belə gətirmirdi...

Milli Ordumuzun əsgərləri uğurlu hərbi əməliyyatlar sayəsində Araz-



boyu kəndləri azad edib Horadiz qəsəbəsindən üzü Xudafərinə irəliləyəndə Dərgaha dünyanı verdilər elə bil:

- Ay Allah, şükür sənə, burnuma Vətən havası dəyir. Daşına, torpağına qurban olum, ay Cəbrayıl. Səndən harda var.

Doğma kəndləri Horovluya yaman tələsirdi Dərgah. Elə bilirdi ki, Lələ yüksəkliyində mövqe tutan düşməni o üzə aşırsalar, torpaqlarımızı əsirlikdən azad etmək olar. Elə bu istəklə də qeyrətli Vətən oğulları kabusa çevrilən o təpəyə can atmaqda idilər. Barıt qoxusu ilə nəfəsi təntiyən anların birində qəfildən aydın səmada şimşək çaxdı elə bil. Düşmən səngərindən atılan snayper gülləsi Dərgahın Vətən sevgisi ilə döyünən ürəyini parçaladı. Tanrı sevib-seçdiyi şəhid oğullarımızın cərgəsinə qoşdu onu. Əbədiyyət yoluna Vətən sevgisi ilə birlikdə qədəm qoydu Dərgah...

## QARTAL ÖMRÜ YAŞAYIR O



***Hüseynov Yusif Musa oğlu***
***doğulub - 1966-cı il,***
***Cəbrayıl rayonu, Xələfli kəndi;***
***şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Mayın (1995) əvvəllərində güzarım Bakıya düşmüşdü. Günortaya yaxın N. Tusi adına APU-nin qarşısındakı ağaclardan birinin kölgəsində dayanıb məni səhərdən bəri üzən bir qayğının işıq ucunu aramaqda idim. Birdən kiminsə ərkyanalıqla qoluma toxunduğunu hiss edib başımı qaldıranda APU-nin Azərbaycan tarixi kafedrasının baş müəllimi, alim dostum Əjdər Yunisovu qarşımda dayanan gördüm. İyirmi beş il əvvəl Şükürbəyli kənd orta məktəbində işlədiyim vaxtlardan tanıyırdım Əjdəri. Bakıya yolum düşəndə arabir onunla görüşüb arxada qalan illəri birlikdə xatırlayırdıq. Əjdər müəllim hal-əhval tutandan sonra təkidlə evinə dəvət etdi məni. Axşam süfrə arxasında doğma yurd yerlərimizlə bağlı söhbətimiz neçə səmtə, neçə yana şaxələndi. Cəbrayılın düşmən əlinə keçdiyi günləri Vətən naminə candan keçən şəhidlərimizi xatırladıq. Cəbrayıllı şəhidlərin xatirəsini əbədiləşdirən «Dünyanın qəm leysanı» kitabının taleyi ilə maraqlananda mən ona;

– Sizin Xələflidən şəhid olan eloğullarımız var, bilmirəm onları nə dərəcədə tanıyırdın, – dedim.

Əjdər müəllim əlüstü dilləndi:

– Yəqin Xıdırı, Xurşudu və Yusifi deyirsiniz. Onların hər üçü -canlara dəyən oğlanlar idi. Yusifi lap yaxından tanıyırdım. Zəhmətkeş bir ailədə böyümüşdü. Xələfliyə yolum düşəndə hər dəfə mehribanlıqla görüşərdi mənimlə. Kəndin xeyirinə yarayan oğul idi Yusif. Heyf ki, çox yaşayammadı. Əjdər müəllim mənim xahişimlə Cəbrayıllı igidlərə həsr etdiyi bir şeirini də oxudu o gecə:

*Qeyrətiniz elə bəlli,*
*Basılarmı bu yurd, Vətən?*
*Sizə zəfər, hünər dilər*
*Ulu Dədəm Qorqud, Vətən!..*

Bir yay axşamı Xələflidən olan qeyrətli şəhidimiz Hüseynov Yusif Musa oğlunun ömür yolunun cizgilərini xəyalımda canlandıranda Əjdərin bu cəsur oğlan barədə söylədiklərini yenidən xatırladım...

Yusif Hadrutda doğulsa da ata ocağı Xələfliylə qaynayıb qarışmışdı. Yurd savaşında xalqımız ilk şəhidlərini verəndə o, sovet ordusunda əsgəri xidmət illərini arxada qoyub qayıtmışdı Dağ Xələfliyə. Kəndlərində yaxşı bir mexanizator kimi tanınmışdı Yusif. O vaxtlar hələ əkin-biçindən əlləri soyumamışdı onun. Ayağı dəyən yerdə pöhrə göyərir, sünbül dən tuturdu. Xələflidən o üzdəki dağların arxasından atılan qradlar şumladığı torpağa sancılsa da canının harayında deyildi. Təkcə Vətənin sabahkı günlərindən narahat idi.

Oğlu Xəyalın laylalarını çilikləyən güllələrin qarşısını kəsmək üçün doxsan üçüncü ilin əvvəllərindən sinəsini torpağa sipər etmişdi Yusif. Qardaşları İxtiyar və Etibarla birlikdə düşmənin üstünə gedirdi. Belə vaxtlarında üz-gözündən qəzəb, kin yağırdı onun. Əlacı olsaydı, bircə anın içərisində yalçın qayaları ovxalayıb sal daşları düşmənin başına yağdırardı. Döyüşlərə yollananda ulu ozanımız Dədə Qorqudun məşhur kəlamı qulaqlarında səslənirdi onun: «Kürəyini yox, sinəni düşmənə çevir, oğlum». Bu müdrik sözlərin işığı ilə erməni quldurlarının gözlərini qamaşdırıb, onların qarşısında köklü qaya kimi dayanırdı Yusif.

Doxsan üçüncü ilin on beş avqustunda qeyrətli eloğlumuzun sinəsini qəlpələdi düşmən gülləsi. Yusifin qəbrini Xələflidə qayaların üstə qazdılar. Hər cığırına, hər izinə bələd olduğu dağlar məzarının daşı oldu onun. O vaxtdan Azərbaycan ellərimizin ən uca bir zirvəsi üstə qartal ömrü yaşamaqdadır Yusif...



## CAVİDİN ŞÖHRƏT YOLU

***Hüseynov Cavid Əlfət oğlu***
***doğulub - 1974-cü il,***
***Sumqayıt şəhəri;***
***şəhid olub - 13.05.1992-ci il,***
***Ağdam rayonu, Xramort kəndi***



Ömür illərlə ölçülmür, – deyiblər. Cavid taleyin ona bəxş elədiyi bir ömrün on səkkiz ilini yaşadı. Ancaq bu qısa ömür ona əbədi yaşamaq, yaddaşlarda xatırlanmaq haqqı qazandırdı. O, dünyaya qəhrəman olmaq arzusu ilə gəlməmişdi. Qismətinə düşən illəri mənalı yaşamaq istəyirdi. Tale elə gətirdi ki, o Vətəni yaşatmaq naminə şirin canından, neçə-neçə arzularından keçib Şəhidlik Zirvəsinə üz tutdu. Bu zirvə onun son ünvanı, son məkanı oldu...

Cavid Sumqayıtda doğulsa da ata yurdu Cəbrayılla bağlı idi. Dağların döşünə söykənən Süleymanlı kəndi, onun büllur kəhrizi Cavidi özünə elə bağlamışdı ki, o bu yerlərə qədəm basanda hesab edirdi ki, dünyanın ən dilbər guşəsi ilə üz-üzə dayanıb. Təbiətin özü kimi kövrək olan Cavid ana torpağın saflığına qarışırdı elə bil. Başı ağ çalmalı dağlar, laləli yamaclar onun nəzərində Tanrı möcüzəsi idi. Bu möcüzəni bəxş eləyən ana təbiət bir əlçim bulud kimi gözləri önündə dayanmışdı onun. Bu gözəlliyin keşiyində dayanmaq üçün hər şeydən keçməyə hazır idi Cavid...

Tanrı yanımlı ürək versə də, axıra qədər yarıda bilmədi onu. Pərvanə şamın ətrafına dövrə vurub özünü oda-alova çırpdığı kimi Cavid də erkən yaşlarından ölümün üstünə kipriyini qırpmadan gedirdi. 1988-ci ilin Sumqayıt hadisələrində on üç yaşlı Cavid həyatın ilk sınağından çıxdı. Əliyalın camaatın üstünə yeriyən imperiya tanklarının vahiməsi onu qorxuda bilmədi. Hadisələrin ən qızğın çağında əlindəki benzinlə dolu butulkanı tanklardan birinə atıb, onu yandıran bu yeniyetmə oğlan ələ keçsə də, fərasəti sayəsində qaçıb aradan çıxa bildi. General-mayor Krayev biləndə ki, bu uşağın cəmisi on üç yaşı var, heyrətini gizlədə bilmədi:

– Belə qoçaq uşaqlarla Əfqanıstan kimi ram olunmaz bir ölkəni diz çökdürə bilərdim...

Xocalı faciəsi ürəyimizi göynədəndə Cavid qəzəbindən özünə yer tapa bilmirdi. Bir gecənin içində minlərlə günahsız insanın qəddarlıqla qətlə ye-

tirilməsi, qız-gəlinlərin düşmən qabağında əsir-yesir olması onu rahat buraxmadığından Cavid evdə hamıdan gizli cəbhəyə üz tutdu...

Cavidin atası Əlfət kişinin dediklərindən:

– Oğlumun əl boyda kağıza əsəbi xətlə yazdıqlarını oxuyanda başımın tükləri biz-biz oldu. «Xocalı soyqırımından sonra damarlarında təmiz türk qanı axan kişilər! Namusu, isməti tapdalanan bir məmləkət gərək ya ölümü, ya da azadlığı qəbul etsin. Mən ana-bacılarımızın qisasını almaq üçün cəbhəyə gedirəm. Qalsam sizin, ölsəm torpağın oğluyam...»

Doxsan ikinci ilin aprelindən şərəfli andına sığınan Cavid dəfələrlə düşmənlə üz-üzə gəlsə də özünü itirmədi. Qəzəbini, nifrətini mərmiyə döndərib yağıların üstə yağdırdı. Xocalıda şəhid olanların qisasını aldıqca ürəyinin təşnəsi bir azca səngidi elə bil. Gözü yolda qalan əzizlərinə sifariş göndərdi ki, «məndən narahat olmayın, ölsəm şəhidliyimlə, qalsam əsgər hünərimlə başınızı uca edəcəyəm»...

Cavid şərəfli ölümü ilə həm özünün, həm doğmalarının və həm də Vətənin şərəfini qorudu. Xramort ətrafında gedən döyüşlərdə dostlarının mühasirəyə düşdüyünü görəndə irəli şığıyıb, üstlərinə gələn düşmən tankını nişan aldı. Tankın külü göyə sovrulan kimi quldurlar fürsəti əldən verdilər. Əsgərlərimiz mühasirəni yarıb, yeni mövqeyə çəkiləndə özləri ilə bərabər Cavidin al-qana boyanan meyitini də apardılar. Sonuncu nəfəsinə kimi Vətən qarşısında verdiyi sözə sadiq qalan Cavid Hüseynov bir parça torpağı öz şəhid qəbri ilə naxışladı...

*Bu məzarda bir igid,*
*Yatır Vətən soraqlı.*
*Onu öpüb oxşayır,*
*Bu yurd aranlı, dağlı..*

Ölkə-ölkö, qitə-qitə Azərbaycan elimiz dildə-ağızda gəzdikcə onun şöhrətini dünyaya yayan oğullarımızın sırasında Cavid də olacaq. Bu ölümsüzlüyü o, əsgər hünəri ilə, Vətən sevgisi ilə qazanıb. Tanrı bu haqqı heç vaxt onun əlindən alan deyil...



# SƏN HAQQIN ELÇİSİSƏN



***Hüseynov İsmayıl Qədir oğlu***
***doğulub - 25.10.1971-ci il,***
***Cəbrayıl rayonu, Dağmaşanlı kəndi;***
***şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam rayonu, Papravənd kəndi***

Bağışla, eloğlu, bağışla, İsmayıl, sağlığında səninlə tanış ola bilməmişik. Ola bilsin ki, hardasa üz-üzə gəlmişik, hansı səfərdəsə yol yoldaşı olmuşuq, ancaq tale bizi görüşdürə bilməyib. Görünür, bu da bir alın yazısıdır, fələyin işindən kim baş çıxarıb ki. Yəqin Tanrının məsləhəti belə imiş ki, biz səni ölümündən sonra tanımalı, əl boyda vərəqə sığınan ömür yolundan söz açmalıyıqmış. Bəlkə də təəssüflənməyə dəyməz, bu gəlimli-gedimli dünyada ömür elə qısa, elə davamsızdır ki...

Yurd yerlərimizdən perik düşəndən sonra nəinki bir vaxtlar üz-üzə gəlib görüşdüyümüz adamlara, heç dost doğmalarımıza da əllərimiz çatmır. Ona görə də, eloğlu, bizim cavan şəhid qardaşımız, sənin yurd amalından soraq tutmaqda çətinlik çəkdiyimiz üçün şəhid ruhun qoy bizi bağışlasın. İstərdik ki, sənin valideynlərin, yaxın qohumların da bizim günahımızdan keçsinlər. Biz onlarla görüşməyə, səninlə bağlı söhbətlərini dinləməyə can atsaq da üzürlü, üzürsüz səbəblərə görə nail ola bilmədik istəyimizə. Əllərimiz hər şeydən üzüləndən sonra sənin odlu qəlbini tərcümeyi-halından arayıb-axtardıq...

Sənin ata elin Dağmaşanlı ərən kişilərin, qeyrətli cavanların məskənidir. Aranla dağ, yaylaq havası ilə Gəyənin odlu nəfəsi bir-birinə söykənir burada. Baharda Tumas atanın zirvəsinə qalxıb üzü Araza tərəf dayananda aşağıda əlvan xalıya bənzəyir əkin yerləri. Yamacda gül-gülü, çiçək-çiçəyi çağırır. Çeşmələrin diş göynədən suları təbiətin saflığından bitib tükənməz bir nağıl, əfsanə danışır. Sən belə nağılların bal şirinliyini uşaqlıq çağlarında çox dadmısan, İsmayıl. Bu nağıllar qəlbini torpağa bağlayıb, ürəyini yurd sevgisi ilə naxışlayıb. Sən nağılların içərisindən keçib həyat reallığı ilə üzləşəndə dünyamızın müvazinəti artıq pozulmaqda, iblis qəhqəhəsi ucadan eşidilməkdə idi. Sən onda Dağtumasdakı orta məktəbin sonuncu sinfində oxuyurdun. Hadisələrin mahiyyətini duyub anlamaq üçün saatlarla baş sın-

dırır, erməni xəbisliyinin kökünü arayıb tapmağa çalışırdın. 1990-cı ilin 20 Yanvar faciəsindən sonra bütün varlığınla hiss etdin ki, «böyük qardaşlarımızın» əlləri daşnaqların kürəyindədir. Sonralar bu əllər Xocalını qana çalxadı, qala timsallı Şuşanı yerindən tərpətdi, Laçının külünü göyə sovurdu, Xocavəndi ağlar qoydu. Sən bu əlləri heydən salmaq üçün doxsanıncı ildə yurdun müdafiəsinə qalxdın.

Aylarla ev-eşik üzü görmədin. Qazanzəmi ərazisindəki rotanın igid əsgərləri ilə kürək-kürəyə verib sinənlə düşmən tərəfdən atılan mərmilərin yolunu kəsdin. 1993-cü il avqust ayının 25-də hərbi hissəniz mühasirəyə düşəndə ölümün caynaqlarından xilas olub döyüşə-döyüşə Qubadlı torpağına qədəm basdın. Yoldaşların o vaxt səni ölmüş bildiklərindən atan Qədir kişinin, anan Səmayənin gözlərinə dik baxa bilmirdilər. Elə bil möcüzə baş verdi o günlərdə. Sən sağ-salamat qayıdıb yenidən hərbi hissəyə qoşulanda hamıdan çox əsgər dostların sevindilər. Tanıyanlar valideynlərinə gözaydınlığı verdilər. Ancaq onlar doyunca sevinə bilmədilər onda. Artıq abad obalarda erməni dığaları gəzib dolaşır, dağlar qoynunda yaşayanlar Araz qırağında dayanıb tüstüsü ərşə ucalan evlərə ürək yanğısı ilə tamaşa edirdilər.

Demə, tale səni ölümündən qabaq ikinci dəfə sınağa çəkəsi imiş. Oktyabr ayının 24-də sən əsgər dostlarınla birlikdə yenidən mühasirəyə düşdün. Bu dəfə səni gecənin zülməti və bir də Arazın lilli suları xilas etdi. Arazdan İran səmtinə çıxandan sonra xeyli yol gəlib yenidən öz hərbi hissənizə qovuşdun. Burada olduğun son aylarda istəyirdin ki, qarşıdakı dağları aşıb özünü Cəbrayıla, onun əsirlikdə qalan cənnət timsallı torpaqlarına çatdırasan. Elə buna görə də döyüşlərə ürəklə gedir, ölümün gözünə dik baxırdın.

1993-cü ilin dekabrında düşmən gülləsi səni susdurmasaydı, o qanlı döyüşlərdən uğurla geri dönəsiydin. Papravənd döyüşündə sənin əvəzindən al-qumaşa tutulan tabutun geri qayıtdı o gün. Ömür yolun elə qısa oldu ki, macal tapıb sevgini çoxdan bəri gözaltı etdiyin bir gözələ açıb deyə bilmədin. İlk məhəbbətinlə birlikdə Sumqayıtın Şəhidlər xiyabanındakı gor evinə sığındın. Hüseynov İsmayıl Qədir oğlu kəlmələri qəbrinin naxışına, bəzəyinə çevrildi. İnnən belə xatirələrdə, tumurcuq-tumurcuq göz açan şeirlərdə yaşayacaq adın:

*Adın elə yaraşıq,*
*Hünərin sönməz işıq.*
*Ömür yolun qarışıq,*
*Nə gördün, nə yaşadın.*



# ƏN BÖYÜK SƏADƏT



***Hüseynov Sərhəd Zakir oğlu***
***doğulub - 10.01.1974-cü il,***
***Cəbrayıl rayonu, Hasanlı kəndi;***
***Şəhid olub - 11.04.1993-cü il,***
***Xocavənd rayonu, Mülkədərə kəndi***

Səksən səkkizinci ilin fevralından başlayan qara yel Hasanlı kəndinin üstündən də keçib. Dincliyini, rahatlığını və bir də sayseçmə oğullarını itirib bu kənd. Hasanlı camaatı kəndin ilk şəhid oğulları Barata, Rama yas tutub, onların müqəddəs adlarının ucalığına söykənərək ovundurublar özlərini. Tanrı hasanlılara dərdi, ələmi min ələnən verib deyəsən. Camaatın yaraları qaysaq bağlamamış bu kənd üçüncü şəhid oğlunu – Hüseynov Sərhədi də göz yaşları ilə torpağa tapşırıb. Bir ana naləsi Diri dağını yerindən silkələyib, bir ata fəryadı Arazın ayna sularını çilikləyib. Dünyagörmüş qocaların belə heyrətdən əlləri üzlərində qalıb. Bir kənd ağbirçəyinin dedikləri ürəklərə bir tikə toxdaqlıq gətirib:

– Özünüzü üzməyin, ay camaat, görünür Tanrının məsləhəti belə imiş. Allah bundan betər dərddən saxlasın bizi. Barat da, Ram da, bu gün ağlar gözlə torpağa tapşırdığımız Sərhəd də namus, qeyrət yolunda şəhid olublar. Gəlin hamımız birlikdə dua edək ki, Tanrı haqq dünyasında onlardan mərhəmətini əsirgəməsin...

Sərhədin şəhid olduğu, torpağa tapşırıldığı gün çoxlarının heç ağlına da gəlməzdi ki, bundan da betər dərd ola bilər. O vaxtlar kiminsə yuxusuna da girməzdi ki, il yarımdan sonra Şikarın, Kazımın, Mirələmin, Baratın, Sərhədin... uğrunda can verdiyi bu torpaqlar düşmən əsarətində qalacaq. Gəyən düzündə, Diri dağında, Sirik meşələrində, ağır elli Mərcanlıda erməni dığaları at oynadacaq...

Onda camaat sabahkı aqibətlərindən xəbərsiz idi. Bir əllə şəhid oğullarının tabutundan yapışır, o biri əli ilə torpağı əkib becərir, yurda sipər olan igidlərimizə urək-dirək verirdilər. Kiminsə doğma yurd yerlərini tərk etmək fikri yox idi onda. Hamıya elə gəlirdi ki, müharibə bu gün-sabahlıqdı. Ona görə də Cəbrayıl camaatı mərmi yağışı altda uçuq divarları təmir edir, yolları abadlaşdırır, Şəhid qəbirləri üstə abidələr ucaldırdılar...

Sərhədin ölümü təkcə doğmalarını deyil, bütövlükdə Hasanlı camaatını dirigözlü yandırmışdı. Bir üzü Araza, bir səmti Diri dağına söykənən bu kəndin cavanları ürəklərində yığılıb qalan qəzəbi düşmənin başına çaxmaq istəyi ilə Vətənin harayına tələsirdilər. Ustad aşıq Qurbaninin Diri dağın zirvəsindəki gor evi hamını qisasa, cihada səsləyirdi elə bil:

*Zülm evi bərbad olur,*
*Gər ki, bədullah olsa da.*
*Qan içən şəxsin içərlər*
*Qanın, Allah olsa da...*

Sadə qəlbli, yurdsevər bir oğlan idi Sərhəd. Yaşıdları kimi qısa bir həyat yolu keçmişdi – səkkizinci sinfi bitirəndən sonra Sarıcallı kəndindəki texniki-peşə məktəbində oxumuş, traktorçu peşəsinə yiyələnmişdi. Arzusu torpaqla ülfət bağlamaq idi onun. İstəyirdi ki, valideynlərinin əhliyyətindən çıxıb özünə gün ağlasın, ev-eşik sahibi olsun. Ancaq arzularının heç mində birini də həyata keçirə bilmədi Sərhəd. Ürəyindəki Vətən məhəbbəti şəxsi istəklərini üstələdi. Ana yurdumuzun harayını eşidib, torpaqlarımızın imdadına tələsdi. Yaxşı bilirdi ki, bu yol ölümə, qana aparır adamı. Bununla belə ayağını qaçaq qoymağı, hardasa baş girləməyi şəninə sığışdırmadı. Ağ yol, Şayaq, Nüsüs, Sirik, Mülkədərə əməliyyatlarında qorxmaz bir igid olduğunu dönə-dönə sübut etdi. Komandirləri cəsarətini, şəxsi hünərini yüksək qiymətləndirdilər onun. Günlərin birində vzvod komandirinin köməkçisi təyin etdilər Sərhədi. Bu onu daha da qanadlandırdı, hardasa cəsarətini, məsuliyyətini artırdı. Sərhəd yaxşı bilirdi ki, o, təkcə özü üçün deyil, əsgər yoldaşlarının həyatı üçün də cavabdehdir. Ona görə də hər bir əsgərin üstə yarpaq kimi əsir, onları təsadüfi ölümdən qorumağa çalışırdı...

Başqaları üçün candan keçməyə hər dəqiqə hazır olan bu cəsur oğlan təkcə öz həyatı barədə düşünməkdən, özünü qorumaqdan uzaq idi. Ən təhlükəli anlarda belə risqə gedir, necə deyərlər ölümün üstünə atılırdı. Dəfələrlə yanından ötüb keçən ölüm 1993-cü ilin aprelində axır ki, onu haqladı. Yoldaşları ilə Mülkədərə postuna yollanan Sərhəd Hüseynov ayaqları altında mina olduğunu hiss edən kimi haray qopardı:

– Tez olun, aralaşın burdan. Bu iblis köpək uşağı bizə tor qurublar, barı heç olmasa siz canınızı qurtarın...

Bir neçə saniyədən sonra güclü mina partlayışı Sərhədin sağ ayağını və bel nahiyəsini möhkəm yaraladı. Sumqayıtdakı hərbi xəstəxanadakı həkimlər nə qədər çalışsalar da onun həyatını xilas etmək mümkün olmadı. Bir şəhid tabutu da üz tutdu Hasanlı kəndinə. Bir Vətən övladı doğulduğu torpağa başucalığı gətirdi. Bundan da böyük səadət varmı bu dünyada?..



## ÖMRÜMDƏN ÖMRÜNƏ CALARDIM...



***Hüseynov Həsən Hüseyn oğlu***
***doğulub - 01.04.1963-cü il,***
***Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;***
***Şəhid olub - 15.08.1993-cu il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Cəbrayıl rayon icra hakimiyyətinin Bakı şəhərində yerləşən qərargahında olarkən cavan bir gəlinin yanında beş-altı yaşlı bir uşaqla bizi soruşduğunu gördük. Çəkinə-çəkinə: «Hüseynov Həsənin yoldaşıyam», – dedi. Şəhidlər kitabı üçün şəkil və tərcümeyi-halını gətirmişəm. Doğrusu, neçə vaxt idi ki, Həsənin haqqında material əldə edə bilmirdik.

«Həsən 1963-cü ildə Daş Veysəlli kəndində anadan olmuşdu. 1970-80-ci illərdə Minbaşılı kənd orta məktəbində oxumuş, bir müddət kolxozda işləmişdi. 1981-1983-cü illərdə Sovet Ordusu tərkibində Almaniyada əsgəri xidmətini başa vurmuşdu. Əsgərlikdən sonra doğma rayona qayıdan Həsən kolxozda mexanizator işləməyə başladı. 1986-cı ildə toy edib ailə həyatı qurdu.

Hamı kimi Həsən də öz kiçik ailə dünyası ilə sakitcə dolanırdı, çoxlu arzuları var idi. Balalarını gələcəyin qayğısız uşaqları kimi görmək istəyirdi. Ancaq sən saydığını say...

1993-cü ilin fevralında Həsəni ordu sıralarına çağırdılar. Sərrast atıcı idi. Almaniyada yaxşı təlim keçmişdi. Bütün silahların dilini bilirdi. Cəbhədə olduğu beş-altı ay müddətində çox əməliyyatlarda iştirak etmişdi. Çox vaxt isə Banazur postunda olurdu.

...1993-cü ilin avqust ayı Cəbrayılın tarixində qanlı yaddaş kimi qaldı. Daşbaşı postu alınaraq buradakı 18 döyüşçü qətlə yetiriləndən sonra əlavə köməyə gedən qüvvələrin içərisində Həsən də var idi. Həmin qanlı döyüşdə də şəhid oldu Həsən. Vətəni ürəkdən sevən daha bir igid eloğlumuz əbədiyyətə qovuşdu.

Pəri xanım göz yaşlarını boğaraq sanki pıçıltı ilə danışırdı:

- Cəbhəyə gedəndən sonra Həsəni itirəcəyimdən qorxurdum, hərdən evə gəlirdi. Gözlərində bir kədər var idi. Elə həsrətlə baxardı ki, bizə. Həmişə soruşanda deyirdi: «Hər şey yaxşı olacaq». Axırıncı dəfə evə gələndə

uşaqları mənə tapşırdı. Elə bil ürəyinə nəsə dammışdı. Raminin 10 yaşı var. O bilir ki, atası daha gəlməyəcək. Fuad isə hələ də gözləyir».

Pəri xanımın yanında cavan bir oğlan da var idi. Onu dindirmək istədik: «Həsən mənim həm yeznəm, həm də xalam oğlu idi, – dedi. Çox yanımlı oğlan idi. Dosta da, qohuma da, bütün adamlara da. Yaxşı adamlar həyatdan həmişə tez köçür».

Həsənin kiçik oğlu altı yaşlı Fuadı yaxına çəkirik. Atası haqqında əzbərlədiyi hansısa şeirin bir bəndi ürəklərimizi parça-parça edir:

*Satın alınsaydı həyat, ömür, il,*
*Qanım bahasına alardım, ata!*
*Hədiyyə olsaydı ömürdən əgər,*
*Ömrümdən ömrünə calardım, ata!*

## VƏTƏN SƏNİ UNUTMAZ



***Hüseynov Nazim Bayram oğlu***
***doğulub - 01.10.1971-ci il,***
***Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;***
***Şəhid olub - 30.12.1993-cü il,***
***Ağdam rayonu, Salahlı kəndi***

Daş Veysəlli kəndi Cəbrayılın cənubunda, şəhərin lap iki addımlığında yerləşir. Çox vaxt rayon mərkəzinə gəlmək üçün maşına da o qədər ehtiyac olmurdu. Elə ona görə də kənd və şəhər camaatı bir-birini yaxşı tanıyırdı. Son vaxtlar ölkəmizi bürümüş bu amansız müharibədə Daş Veysəlli camaatı şir ürəkli oğulları ilə seçilmiş, on nəfər şəhid vermişdi.

Tale 22 il ömür payı qismət eləmişdi Nazimə. Kənd camaatının böyük hörməti vardı ona. İstər kənddə, istərsə də kənddən kənarda hamının, hər şeyin yerini bilən idi. Köməyə ehtiyacı olanlara əlindən gələni əsirgəməzdi.

1989-cu ildə orta məktəbini bitirmiş, 1991-ci ildə sovet ordusu sıralarında əsgəri xidmətini başa vurub doğma elinə qayıtmış, bacardığı işlərin qulpundan yapışmışdı.



1988-ci ildən başlanmış erməni fitnəsi ayaq tutub yeridikcə Nazimin dişi bağırsağını kəsirdi. 1992-ci ilin iyun-avqust aylarında qəhrəmancasına şəhid olan həmkəndliləri Azərin, Savalanın, Ramizin faciəli ölümü yaman təsir eləmişdi ona. Elə bu nigarançılıqla, bu ürək ağrıları ilə də 1992-ci ilin sentyabr ayından döyüşən orduya yollandı Nazim. Həmin vaxt artıq genişlənməkdə olan Qarabağ müharibəsi getdikcə şiddətlənirdi. Nazim Daşbaşı, Bağnazur, Qışlaq postlarında, Sirik cəbhəsindəki əməliyyatlarda yaxından iştirak edirdi. 1993-cü ilin avqustunda Cəbrayıl rayonu və ətraf kəndləri də düşmən işğalına məruz qalandan sonra Nazim Hüseynov Ağdam cəbhələrinə yollandı. Dekabrın 30-da Salahlı-Kəngərli uğrundakı qanlı döyüşlərin birində Nazim qəhrəmancasına Şəhid oldu. Düşmənlə aparılmış qeyri-bərabər döyüşdən sonra yanvarın 5-də onun cənazəsi düşmən tərəfdən alınaraq, Beyləqan rayonunda torpağa tapşırıldı.

Nazimin anası Anaqız ana oğlunu yada salıb deyir: «Min bir zəhmətlə böyütmüşdüm onu. Vətənə layiq övlad idi, Vətənə də qurban verdi özünü. Bircə torpaqlarımıza qayıtsaydıq, elə bilərdim ki, heç Nazimim ölməyib. Bircə o günü görə bilsəydim...»

## DÜNYAYA MEHMAN GƏLDİ...

***Həsənov Mehman Məhərrəm oğlu***
***doğulub - 22.07.1967-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***Şəhid olub - 03.09.1993-cü il,***
***Füzuli bölgəsi, Aşağı Əbdürrəhmanlı kəndi***



Erməni quldurları Cəbrayıl şəhərini işğal etdikdən sonra Arazboyu kəndlərinə tərəf irəliləməyə cəhd edirdilər. Mərd oğullarımız düşmənin niyyətini başa düşür, torpaqlarımızın hər qarışı uğrunda ölüm-dirim mübarizəsinə girişərək inadla vuruşurdular. Mehman Həsənovun komandirlik etdiyi tank əleyhinə bölməyə isə Safarşa kəndini müdafiə etmək tapşırılşmışdı. Bölüyə qəti əmr verilmişdi ki, hər necə olursa-olsun erməni faşistlərinin hücumlarının qarşısı alınmalıdır. Mehman səngərdən-səngərə atılır, «möhkəm dayanın uşaqlar, öldü var, döndü yoxdur, bu köpək

uşaqlarının hamısını it kimi gəbərdəcəyik», - deyir, göstərdiyi misilsiz igidliyi ilə tabeliyində olan əsgərləri ruhlandırırdı. Qanlı döyüşdə bölmə saqqallı dığalara elə bir sarsıdıcı zərbə endirdi ki, dadı yəqin ki, ömürləri boyu damaqlarından getməyəcək. İgid komandir tək özü sərrast atəşlə 13 başkəsən ermənini gəbərdərək cəhənnəmə vasil etdi. Mehman qolundan yaralansa da döyüş meydanını tərk etmədi. Döyüşün son dəqiqələrinədək əsgərləri ilə bir yerdə oldu. Böyük komandirlər Mehmanın mərdliyindən, döyüş qabiliyyətindən, qorxmazlığından ürəkdolusu söhbət açır, onu həmişə şəxsi heyətə nümunə göstərirdilər. Yaxşısı budur komandirlərin özlərini dinləyək. C. İmanquliyev («N» hərbi hissəsinin 6-cı motoatıcı taborunun komandiri, baş leytenant):

– Mehman cəsur, qorxmaz əsgər idi. Bütün döyüşlərdə yaxından iştirak edir, məğlubiyyətin nə olduğunu bilmirdi. Tabeliyində olan əsgərlərə müntəzəm təlim keçir, hərbin sirlərini onlara öyrədirdi. Cəbrayıl uğrunda gedən döyüşlərdə o xüsusi şücaət göstərdi. Mehman həm də tez-tez kəşfiyyata gedir, düşmənin canlı qüvvəsi haqqında qiymətli məlumatlar gətirirdi. Döyüşlərdə fərqləndiyinə görə o, dəfələrlə komandir heyəti tərəfindən mükafatlandırılmışdı.

S. Paşayev (batalyon komandiri):

– M. Həsənov batalyonun fəxri idi. O, qoçaq, təşəbbüskar komandir olduğu kimi, bütün hərbi texnikanın dilini də gözəl bilirdi. Əsgərlər zarafatla Mehmanı texnikanın həkimi adlandırırdılar. Bir dəfə ona təklif etdim ki, gəl mənim sürücüm ol, sənə çox ehtiyacım var, – mənə nə cavab versə yaxşıdır, «Komandir kimi əmrinizi yerinə yetirməyə borcluyam, – dedi. Ancaq əsgərlərim deməzlər ki, Mehman qaçıb arxada baş girləyir. Bu, mənim üçün ölümdən betərdir».

H. Yəhyazadə (qərargah rəisi): - Mehmanı yaxşı tanıyırdım. Ucaboy, enlikürək bir oğlan idi. Mehriban olduğu qədər də ciddi və qeyrətli oğul idi. Əsgərlər arasında xüsusi hörməti vardı. Hansı döyüşdə M. Həsənov vardısa, orada qələbə təmin olunurdu. Batalyonda 5-10 belə əsgərlərimiz olsaydı, çoxdan düşməni məhv edərdik.

Mehmanın komandirlik etdiyi bölük Ağdam rayonunun Salahlı, Kəngərli, Güllücə kəndləri uğrunda gedən döyüşlərdə də iştirak etmiş, düşmənin bir neçə zirehli texnikasını sıradan çıxarmışdı. Təsadüfi deyildi ki, bölüyün adı komandir heyəti tərəfindən xüsusi çəkilirdi. Hər dəfə döyüşə gedəndə nədənsə üzünə doyunca baxmadığı körpə balası gəlib dururdu həmişə Mehmanın gözləri önündə. Qəzəbindən əlləri titrəyər, erməni cəlladlarına qarşı nifrəti birə-beş artar, qollarına yeni qüvvət gələrdi. Mehman deyirdi ki, bu



qaniçən cəlladları məhv etməyincə bizə rahatlıq yoxdur. Fəqət torpaqlarımızı işğalçılardan təmizləmək istəyi ona qismət olmadı. 1993-cü ilin sentyabr ayının 3-də, məxfi post müşahidə məntəqəsini əvəz edən zaman mina partlayışından ağır yara alaraq, yoldaşlarının qolları arasında əbədi olaraq gözlərini yumdu. Onun faciəli surətdə həlak olması cəsur eloğlumuzu tanıyanların hamısını dərindən sarsıtdı. Mehmanın ölümü başçılıq etdiyi bölüyün əsgərlərinə daha çox təsir etmişdi.

Mehman Məhərrəm oğlu Həsənov orta məktəbi bitirdikdən sonra mexanizatorluq peşəsinə yiyələnmişdi. Erkən yaşlarından taleyini zəhmətlə bağlamışdı. Gənc olmasına baxmayaraq, böyük-kiçik yeri bilən idi. Qısa vaxtda kolxozda hamının dərin hörmət və məhəbbətini qazanmışdı. Keçmiş Sovet ordusunda xidmət etmişdi. Xoşbəxt ailə həyatı qurmuşdu. 1991-ci ildə başımızın üstünü alan təhlükənin getdikcə gücləndiyini hiss edən M. Həsənov başqa həmyaşıdları kimi könüllü olaraq silaha sarıldı. Qəlbində min bir arzusu var idi Mehmanın. Lakin amansız ölüm istəyini köksündə qoydu. Nə yaxşı ki, bir arzusunun həyata keçməsi reallaşdı. Rəhmətlik sağlığında həyat yoldaşı Xalidə xanıma demişdi ki, işdir, oğlum olsa adını mütləq Mehman qoyarsan. İstəkli ömür-gün yoldaşı onun arzusuna əməl etdi. Dünyaya yeni bir Mehman gəldi. M. Həsənov əbədiyyətə qovuşandan sonra bir qızı da dünyaya göz açdı. Onun da adını Mehmanə qoydular. Yəqin ki, dünyaya Mehman kimi gəlib Vətən; torpaq yolunda igid əsgər kimi əbədiyyətə qovuşan atanın ruhu indi rahatlıq tapsa da üzlərini doyunca görmədiyi fidanlarının taleləri üçün narahatdır. Narahat olma, Mehman, heç nədən xəbəri olmayan övladların qayğıkeş əllərdədir. Əmin ola bilərsən ki, onlar da sənin kimi vətənpərvər, qeyrətli övlad kimi böyüyəcək, düşmənlərimizdən sənin və ömrü yarımçıq qalmış yüzlərlə digər şəhidlərimizin qisasını alacaqlar. Allah sənə qəni-qəni rəhmət eləsin, qəbrin nurla dolsun!..

# O BİZİ BELƏ QORUYURDU



*Heydərov Əbdürrəhman Muxran oğlu*
*doğulub - 1957-ci il,*
*Füzuli rayonu, Yuxarı Seyidəhmədli kəndi;*
*Şəhid olub - 15.05.1992-ci il,*
*Xocavənd bölgəsi*

Avqustun isti günlərindən biri idi. Ermәni yaraqlılarının Dolanlar kəndinə basqınlarının arası kəsilmirdi. Növbəti hücumların birində Əbdürrəhman şəxsi nümunə göstərərək, düşmənin arxasına keçib atəş nöqtələrini susdurdu. Komandirin igidliyi quldurları çaşbaş salmış, onları pərakəndə halda qaçmağa məcbur etmişdi. Qaniçənlərin hәmlələri dəf edildikdən sonra Ə. Heydərov yeni postlar qoyarkən kəndin çıxacağında minaya düşür. Partlayış nəticəsində iki nəfər həlak olur. Əbdürrəhman isə ağır yaralanır. Ciddi xəsarət almasına baxmayaraq, o, müalicə olunub yenidən xidməti borcunu yerinə yetirməyə qayıdır...

Ə. Heydərov özünəməxsus zəngin həyat yolu keçmişdir. Kəndlərindəki orta məktəbi bitirmiş, iki il sovet ordusunda xidmət etmişdi. Yaşadığı cəmiyyətdə öz yerini tutmaq üçün daim arayıb-axtaran narahat gənc 1984-cü ildə komsomol göndərişi ilə Norilsk şəhərinə tikintidə işləməyə gedir. Əbdürrəhman işləyə-işləyə təhsilini də unutmur. Həmin il Krasnoyarsk şəhərindəki xüsusi orta milis məktəbinə daxil olur. Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra onu Dikson şəhər milis idarəsində sahə müvəkkili vəzifəsinə təyin edirlər. Gənc zabit dəfələrlə mükafata layiq görülmüş, «DİN-də əla xidmətə görə» medalı ilə təltif edilmişdi. Məlum Qarabağ hadisələri barədə də Ə. Heydərov burada eşitmişdi. Ermәni faşistlərinin özbaşınalığı, südəmər körpələrə, əlsiz-ayaqsız qocalara divan tutmaları onu qəzəbləndirmiş, dar gündə Vətəninin harayına tələsmişdi.

Ə. Heydərov doğma Azərbaycana qayıdaraq, 1991-ci ilin mayında Daxili İşlər Nazirliyi tərəfindən keçmiş Hadrut rayonunda Tuğ polis bölməsinə rəis təyin edilir. O, ətraf ərazilərin, ermәni terrorçularından təmizlənməsi məqsədilə pasport rejiminin yoxlanmasında, qanunsuz silahların yığılıb təhvil verilməsində, 12 kəndin ermәni yağılarından azad edilməsində fəal iştirak edir. Komandirlik qabiliyyətini, yüksək təşkilatçılıq bacarığını nəzərə



alaraq, onu ermәni quldurlarından yenicə təmizlənmiş Dolanlar kəndində yaradılmış polis bölməsinə rəis göndərirlər. Həmin ilin dekabr ayının 23-də Daşbaşı kəndi uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərir. O, həyatını təhlükə altında qoyaraq işğalçıların əlverişli mövqedə yerləşən atəş nöqqələrinin darmadağın edilməsində yaxından iştirak edir. Müvəffəqiyyətlə keçən əməliyyat zamanı Əbdürrəhman polis yoldaşları ilə birlikdə iriçaplı pulemyotun atıcısı Samvel Ohanesyan adlı ermәni quldurunu tərksilah edərək Cəbrayıl rayon polis şöbəsinə təhvil verilməsində də yoldaşlarının köməyinə çatıb. 1992-ci ilin aprel ayında Respublika DİN Ə. Heydərova vaxtından əvvəl kapitan rütbəsi vermiş və 300 manat pulla mükafatlandırmışdı.

Ə. Heydərov heç vaxt ölümündən qorxmazdı. Həmişə düşmənin üstünə qartalsayağı şığıyardı. Bu xasiyyəti tabeliyində olan polis nəfərlərinə də aşılamağa çalışardı. Deyərdi ki, kişi qorxaq olmaz. Polis qorxaqları sevmir. Torpaqlarımızın taleyinin həll olunduğu indiki vaxtda bu daha vacibdir. Xalq bizə arxayındır. Bizim isə büdrəməyə haqqımız yoxdur.

Əbdürrəhman Muxran oğlu Heydərov bizi belə qoruyurdu. Sinəsini Vətən yolunda sipər edərək düşməni baş qaldırmağa aman vermirdi. Heyf ki, xalqımızın igid oğlu xidməti vəzifəsini yerinə yetirərkən mina partlayışı nəticəsində faciəli surətdə həlak oldu. Ərazi bütövlüyümüz uğrunda Şəhid olan gənc polis kapitanının igidliyi tariximizin qəhrəmanlıq səhifələrinə əbədi həkk ediləcək. Keçdiyi mənalı həyat yolu gənc nəsil üçün əsl örnək olacaq.

# VƏTƏN DARA DÜŞƏNDƏ



***Hüseynov Məhyəddin Qiyas oğlu***
***doğulub - 1972-ci il,***
***Cəbrayıl rayonu, Quşçular kəndi;***
***Şəhid olub - 1994-cü il,***
***İran hərbi xəstəxanası***

Müharibə qurbansız olmur, – deyiblər. Şər qanad açan kimi yurd-yuvanı viranə, gözləri yaşlı qoyur. Bir oğul itirməyə nə var ki, iki oğulun sovxasına göz dikib dərdə tablaşmaq adamlardan dağ boyda dözüm istəyir. Bahar ana doxsan ikinin payızından gözü yaşlıdır. Əvvəlcə şir biləkli ciyərparası Seyidalı Ağdərədə Şəhid oldu. Onun ilini təzəcə verib qurtarmışdılar ki, Məhyəddinin ölüm xəbərini eşidib əllərini üzünə atdı. Seyidalı Şəhid olanda Bahar ana gözünün ilk ovu olan balasını gecə-gündüz ağlara qatıb oxşaya-oxşaya adını əzizlədi onun. Xələfli kənd orta məktəbinə Seyidalının adı verildi.

Ana yavaş-yavaş dərdə öyrəşir, balasının adı ilə ünvan tapan məktəbin daşını, divarını gözlərinə təpmək istəyirdi. Ona demişdilər ki, Seyidalının büstünü hazırladıb məktəbin həyətində qoyacağıq. O günü səbirsizliklə gözləyən ana daşa dönən balasının görüşünə hazırlaşırdı...

Fələyin çarxı qəfildən tərsinə hərləndi elə bil. Bahar ana oğlunun gor evini ağlar gözlə tərk edib qürbət obalara üz tutmalı oldu. Günlərin birində Məhyəddin balasının da tabutunu İmişliyə gətirəndə dünya-aləm gözlərində zülmətə döndü onun...

Məhyəddin Quşçular kəndində boya-başa çatmış, Süleymanlı kənd məktəbinin səkkizinci sinfini bitirəndən sonra Sarıcallıdakı texniki-peşə məktəbində oxumuşdu. Ermənilərin torpaqlarımızı yalquzaq iştahası ilə udmaq istədiyini görəndən sonra oxumağın daşını atıb qeyrətli oğullarımıza qoşulmuşdu. Onun bu hərəkətinə evlərində etiraz edənlər də olmuşdu. Məhyəddinə demişdilər ki, onsuz da qardaşın Seyidalı cəbhədədir, evdə qalsan səni heç kəs qınamaz. Məhyəddinin cavabı qəti olmuşdu:

– Vətən dara düşəndə oğulun vəzifəsi onu qorumaq olmalıdır. Əlim silah tutursa, evdə qalıb niyə baş girləməliyəm axı...

Məhyəddin əvvəlcə Sur kəndində düşmənə qan uddurdu. Sonra komandirlərinə ağız açıb, doğma Quşçular kəndinin müdafiəsinə yollandı. O vaxtlar buradakı post mühüm olduğu qədər də təhlükəli idi. Düşmən dəfələrlə Quşçular postunu ələ keçirmək üçün həmlələr etmiş, igidlərimiz onların burnunu ovub geri qaytarmışdılar...

Seyidalı doxsan ikinci ilin payızında Şəhid olandan sonra, əslində Məhyəddinin ordudan azad edilməyə həm mənəvi və həm də hüquqi haqqı var idi. Ancaq o, Şəhid ailəsinin üzvü kimi bu imtiyazdan könüllü surətdə imtina etdi. Bu hərəkətinə görə onu tanıyanların yanında özünə haqq qazandırmaq üçün:

– Qardaşımın qisasını almayınca ürəyim sakitləşməz – dedi. –Sinəmdəki çal-çarpaz dağı düşmən qanı ilə yuyandan sonra sakitləşəcəyəm...

Şişqaya, Sur, Günəşli əməliyyatlarında yaxından iştirak etmişdi Məhyəddin. Döyüş meydanlarında murdar erməni cəsədlərinə rast gəldikcə iyrənib üzünü yana çevirsə də, dilini dinc saxlamırdı:

- Ay nacinslər, elə bilirsiniz ki, bu torpaqda başıpapaqlı yoxdur? Elə bilirsiniz Seyidalının qisası yerdə qalacaq? Di, it leşi kimi düşüb ortada qalın görüm, harayınıza Zori Balayanlar, Silva Kaputikyanlar çatacaqmı?

Cəbrayılın torpaqları uğrunda gedən sonuncu döyüşlərdə Məhyəddini də düşmən gülləsi haqladı. Yoldaşları onu ağır yaralı halda döyüş meydanından çıxarıb Arazın o üzünə keçirsələr də, bundan artıq heç nə edə bilmədilər. Hüseynov Məhyəddin Qiyas oğlu İran torpağında dünyasını dəyişib həyatla vidalaşdı. İmişli torpağında dəfn elədilər onu. O gün ulu Muğan elləri Azərbaycanın hünərli bir balasının məzarı üstə göz yaşı axıtdı, adını oxşadı, əzizlədi onun:

*Torpaq haraylayanda*
*İgid qanından keçər.*
*Vətən yaşasın deyə,*
*Şirin canından keçər...*

# DÜNYANIN DAĞ BOYDA QƏMİ



***Cabbarov Cabbar Səməd oğlu***
***doğulub - 26.08.1969-cu il,***
***Cəbrayıl rayonu, Nüzgar kəndi;***
***Şəhid olub - 25.12.1993-cü il,***
***Füzuli bölgəsi***

Minarə ana sübh tezdən qonşu otaqda işığın yandırıldığını görüb ehtiyatla qapını açdı. Cabbar yataqda balınca dirsəklənmiş vəziyyətdə gözlərini qalın bir kitaba dikmişdi.

– Bıy, başıma xeyir, a bala, səhərin bu şirin yuxusundan belə erkən oyanmaqda xeyir ola?

Oğlunun yuxusuzluqdan qızarıb işığı öləziyən gözlərinə baxanda dözəmmədi ana:

– Qadan mənə gəlsin, səhər-səhər nə tapmısan bu kitablardan, gecə yarıya kimi oxuduqların bəs etmədimi sənə?

– Ay ana, ali məktəbdə qiyabi oxumaq asan iş deyil. İllah da bizim İnşaat Mühəndisləri İnstitutunda. Özün ki, xasiyyətimə yaxşı bələdsən, imtahan zamanı dünya dağılsa da «dayı», filan axtaran deyiləm...

– Bilirəm, oğul, bilirəm, - bu xasiyyət müəllim atandan keçib sənə. O da çətinliyə boyun əyib hər yetənə sınan deyil.

– Ay ana, bunun nəyi pisdir ki, insan gərək özünə, öz ləyaqətinə arxalansın. Ömür insana bircə dəfə verilir. İki yüz il qarğa kimi peyinlikdə eşələnincə beş-on il kişi kimi yaşamaq dünyada hər şeyə dəyər.

Minarə ana yaxına gedib oğlunun boynunu qucaqladı:

– Dərdin mənə gəlsin, ay Cabbar. Ancaq...

– Bilirəm fikrindən keçənləri, ana. Deyəcəksən ki, sözümüzə baxıb təhsilini əyani davam etdirsəydin, sən də bu odun-alovun içərisindən uzaqda olardın. Ancaq təəssüflənmirəm mən buna. Vətənin dar günündə başqaları kimi yurd yerindən yayınmaq fikrinə düşsəydim, Cəbrayıl polisinə üz tutardımmı heç?

– Ağrın alım, incisən də, deyəcəyəm, Vətən qeyrəti çəkmək təkcə sənəmi qalıb?

– Təkcə niyə oluram, ay ana. Cəbrayıl polisində elə şir ürəkli oğullar var ki, gündə yüz yol kipriyini qırpmadan ölümlə üz-üzə dayanır. Rəisimiz



Vaqif Məhərrəmov səksən səkkizinci ildən ermənisifət ölümlə səngərlərdə əlbəyaxadır.

– Tanrı qıymasın ona, ay Cabbar, çox mərifətli, qanacaqlı oğlandır. O gün bizim Nüzgara gəlmişdi. Camaatı başına toplayıb dedi ki, əliniz işdən-gücdən soyumasın. Düşməni yaxına buraxan deyilik. Sənin barəndə də ürəkdolusu danışıb: «Cabbara süd verən anaya halal olsun», – dedi...

Cabbar doxsan ikinin dekabr ayından polisdə xidmət edirdi. Onu ürəyində coşub-çağlayan Vətən hissi gətirmişdi bura. Döyüş postlarına üz tutmazdan əvvəl ömrünün arxada qalan illərini də şərəflə yaşamışdı. Moskva şəhərində əsgəri xidmətdə olmuş, kəndlərindəki təsərrüfatda mülki-müdafiə işlərinə rəhbərlik etmişdi. Cəbrayıl polisi sıralarında qeyrətlə döyüşüb qəhrəmanlıqla həlak olan Zahidin, Şikarın, Kazımın, Zakirin, Mirələmin, Faiqin, Vüqarın... adları düşmürdü dilindən...

Balyandın işğalı zamanı iki polis yoldaşı ilə mühasirəyə düşmüşdü Cabbar. O vaxtlar hamı əllərini onlardan üzmüşdü. Üç gündən sonra üst-başları didilmiş halda şöbəyə gəlib çıxdılar onlar. Avtomat silahlarında özləri üçün bircə patron saxlamışdılar onda. Yoldaşları sonradan bildilər ki, Cabbargil o vaxt əsir düşsəydilər, özlərini vurasıymışlar...

Cəbrayıl polisi axıra kimi Araz qırağında düşmənlə üz-üzə dayandı. O vaxtkı başıpozuq ordudan fərqli olaraq, vətəndaşların xilası naminə əllərindən gələni edib yurd yerlərimiz əldən gedəndə mütəşəkkil şəkildə geri çəkildilər...

Cabbarı erməni gülləsi doxsan üçüncü ilin dekabr ayının 22-də haqladı. Araz qırağındakı döyüş postunu yoldaşları ilə qəbul edəndən az sonra düşmən ağır texnikanın həmləsi ilə üstlərinə gəldilər onların. Cabbar özünü itirməyib qrantamyotla birinci tankı vurub yandırdı. İkinci dəfə atəş açmaq istəyəndə Cabbarın qəzəblə alışıb-yanan sinəsi düşmən əsgərinin gözündən yayınmadı...

Minarə ana o qarlı-sazaqlı dekabr günündə oğlunun qara tabutunun üstə saçlarını töküb şivən qoparmaqda idi:

*Fikrim çəndi, dumandı,*
*Sığındığım gümandı.*
*İllərlə oda yandım,*
*Gülməyir üzüm, Allah!*

*Torpağım od içində,*
*Qalmışam yad içində.*

*Dərd varmı bu biçimdə,*
*Mən necə dözüm, Allah!..*

Minarə ana, Səməd müəllim dərdlərinə söykənib dözürlər hələ. Dözürlər ki, bir gün Nüzgara qayıdaraq Cabbarın izlərini sinəsində yaşadan torpağa təzə həyat bəxş edib qəhrəman oğullarının ruhunu şad etsinlər...

## QEYRƏTLİ ANANIN HÜNƏRLİ OĞLU



***Cabbarov Rabil Alim oğlu***
***doğulub - 20.12.1975-ci il,***
***Bakı şəhəri;***
***Şəhid olub - 09.09.1993-cü il,***
***Tərtər bölgəsi***

Gülnaz ananın həyatda başı çox müsibətlər çəkib. Erkən yaşlarında valideynlərini itirib, Bakıdakı uşaq evinin himayəsinə sığınıb. Dünyaya göz açdığı Qumlaq kəndi onun ürəyində həzin bir xatirə kimi illər boyu yaşayıb. Ailə vəziyyəti ilə əlaqədar bir vaxtlar Xarəzm şəhərində yaşayıb. Həyat yoldaşını itirəndən sonra dörd uşağı ilə birlikdə Vətənə qayıdıb. Ana yurdun təlatümlü günlərində hadisələrə biganə qala bilməyib. Bakının Azadlıq meydanından başlayan xalq hərəkatı onun da ürəyində təzadlı duyğular oyadıb. Ancaq harda olsa dörd balasının fikri ilə yaşayıb. Onların xatirinə yuxusuz gecələr keçirib. 1990-cı ildə Bakıda sərnişin qatarlarında vaqon bələdçisi işləyib. Bakıdan Moskvaya üz tutan qatarlarda min kilometrlərlə yolu qət etsə də, Vətənin harayını bircə anlıq da olsun unuda bilməyib...

1988-ci ildə Azərbaycana qayıdan kimi Rabilin boynunu qucaqlayaraq:

– Ana qurban, – deyib, – yadında saxla ki, bizim ulu kökümüz Cəbrayıl rayonunun Qumlaq kəndindəndir. Orada ata-anamın gor evi, bizim yaxın-uzaq qohumlarımız yaşayır. Qismət olsa Arazın qırağındakı o kənddə yurd-yuva tikib səni orada ev-eşik sahibi edəcəyəm...

Gülnaz ananın söhbətindən sonra Rabil günlərin birində yolunu Qumlaq kəndindən salıb. Onu burada əzizləyib günlərlə qonaq saxlayıblar. Qumlaq



camaatının mehribanlığı Rabilin qəlbini ovsunlayıb. Ömründə ilk dəfə görüşdüyü Xudafərin körpüsünün qədimliyi heyrətdə qoyub onu. Diri dağını, Mazan nənəni, Qurbaninin məzarını ziyarət edəndən sonra Bakıya – anasının yanına qayıdıb. Ançaq anası ilə görüşə bilməyib, evlərində qardaşları İlhamla Etibar, bacısı Bahar kövrələ-kövrələ ona deyiblər ki, anamız cəbhəyə yollanıb. Əsl həqiqəti anasının iş yerindən öyrənib Rabil. Ona burada danışıblar ki, Xocalı müsibətindən sonra anan Gülnaz Rüstəmova düşməndən qisas almaq üçün Ağdam cəbhəsinə yola düşüb. Rabil anasını tək buraxmağı qeyrətinə sığışdırmadığından elə o gün Ağdama yola düşüb. Burada Gülnaz ana on yeddi yaşlı ciyərparasına nə qədər yalvarıb-yaxarsa da onu geriyə qaytara bilməyib. Bir müddət anası ilə birlikdə yaralı əsgərlərə xidmət edib. Yeri gəldikcə burada dostlaşdığı əsgərlərdən döyüş silahlarının «dilini» də öyrənib...

Gülnaz bacı Gülablı, Şelli, Naxçıvanik döyüşlərində fəal iştirak edib. 1992-ci ilin martında Naxçıvanikə kəşfiyyata gedərək oradan beş nəfər erməni qızını əsir gətirib. Həmin əsir qadınların hesabına Xocalı faciəsi zamanı ələ keçirilən 15 nəfər qız-gəlin xilas edilib.

1992-ci il iyulun 5-də döyüşlər zamanı başından ağır yara alan Gülnaz xanımı arxaya yollasalar da onun doqquzuncu sinifdə oxuyan balasını – Cabbarov Rabili döyüş meydanından uzaqlaşdıra bilməyiblər. Rabil yeniyetmə inadı ilə sübut edib ki, o heç də cəbhədəkilərdən pis döyüşmür. Ağdam bölgəsində igidliyi ilə ad çıxaran Şirin Mirzəyevin (ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb) batalyonunda hamının cəsur bir əsgər kimi tanıdığı Rabilin son döyüşü Tərtər ətrafında olub. Burada ölümü ilə əbədi yaşamaq haqqı qazanıb o...

Bakıdakı Şəhidlər Xiyabanı neçə illərdi ki, Rabili də qoynuna alıb. Həcər hünərli Gülnaz ana hər dəfə oğlunun məzarı üstə gələndə buradakı tər qərənfillərlə qarşılaşır. Sübhün şəfəqləri ilə nurlanan bu çiçəklər ona igid balasından söz açır:

*Burda bir igid yatır,*
*Hünəri elə bəlli.*
*Burda bir Şəhid yatır,*
*Gülərüz, şirin dilli.*

*Onun amalı Vətən,*
*Onun sevgisi torpaq.*
*Məzara sığınsa da,*
*Göyərir yarpaq-yarpaq.*

# DÜŞMƏNİ SARSIDAN ÖLÜM



***Cavadov Fariz Şamil oğlu***
***doğulub - 10.09.1975-ci il,***
***Cəbrayıl rayonu, Çaxırlı kəndi;***
***Şəhid olub - 07.04.1997-ci il,***
***Füzuli bölgəsi***

Toy-düyün fəsli olan payız, o ili Dədə Qurbani, Aşıq Pəri yurduna özü boyda qəm-kədər gətirdi. Öz dəliqanlı, qeyrətli oğulları ilə həmişə öyünən, fəxr edən Xan çinarlı Cəbrayıl bir az əvvəl yağıların caynağına keçmişdi. Həmin hadisədən 2 ay sonra isə Arazboyu kəndlərimiz erməni quldurları tərəfindən işğal edildi. Qəlb göynədən bu xəbəri Fariz ordu sıralarına çağırıldığının 5-ci günü Səngəçalda eşidəndə elə bil ildırım vurdu onu. Bir anlığa həzin nəğməli Arazın sol sahilində, yaşıllıqlar içində qərar tutmuş doğma Çaxırlı kəndi kino lenti kimi gözləri önündən gəlib keçdi. Ata-anasının, qohum-qardaşlarının taleyini düşünəndə az qaldı ürəyi köksündən çıxsın. Hiddətindən bir yerdə qərar tuta bilmədi.

Dekabrın əvvəlləri idi. Eşidəndə ki, xidmət etdiyi hərbi hissəni Ağdama döyüşə aparırlar, Fariz rahat nəfəs aldı. Hücum əmrini intizarla gözləyən igid əsgərin qəlbi qisas hissilə alışıb-yanırdı. Gözlənilən an gəlib çatdı. İlk dəfə düşmənlə üz-üzə gəldiyi bu qanlı döyüşdə xeyli erməni quldurunu məhv etsə də sakit ola bilmirdi. Yanan evlərimizin, var-dövləti qarət edilib dağıdılan kəndlərimizin heyfini daha tez almağa can atırdı. O, Füzuli rayonunun Arazboyu kəndləri uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunələri göstərdi. Horadiz qəsəbəşinin və rayonumuzun Cocuq Mərcanlı kəndinin düşməndən azad edilməsinin ən fəal iştirakçılarından oldu. Döyüş zamanı göstərdiyi şücaətə görə komandanlıq tərəfindən dəfələrlə valideynlərinə təşəkkür məktubu göndərildi.

Farizin igidliyi təkcə xidmət etdiyi hərbi hissədə deyil, bütün briqadaya yayılmış, öz qoçaqlığı ilə əsgərlər arasında ad-san çıxarmışdı. Hamı bu hündürboy, enlikürək, gülərüz oğlanı sevir, ona ehtiramla yanaşırdı. Komandirlər Farizə möhkəm inanırdılar. Bilirdilər ki, harada Fariz var, deməli orada qələbə var. Ona görə də ən çətin tapşırıqları ona həvalə edirdilər. Bu etibarlı cəsur əsgər azad edilmiş kəndlərimizin minadan təmizlənməsində, düşmən arxasına kəşfiyyata göndəriləndə nəyə qadir olduğunu dönə-dönə sübut etmişdir.



Sonuncu kəşfiyyatı Farizin qəhrəmanlığının əlçatmaz zirvəsi kimi dediklərimizə bir daha parlaq misal ola bilər. Farizgilin dəstəsinə vacib tapşırıq verilmişdi. Cəsur kəşfiyyatçılar lazım olan məlumatları toplayıb, geri dönəndə düşmənlər duyuq düşdülər. Qeyri-bərabər döyüş başlandı. Onlar özlərindən sayca qat-qat çox olan erməni quldur dəstəsini darmadağın etdilər. Öz murdar yoldaşlarının köməyinə gələn yağıların yeni qüvvəsi də məhv olmaqdan yaxalarını qurtara bilmədi. İgid oğullarımızın qəhrəmanlığı qaniçən düşməni çaşbaş salmışdı. Kəşfiyyatçılarımızın azərbaycanlı olmalarına heç cür inanmaq istəmirdilər. Bunlar çeçendirlər, öz din qardaşlarına köməyə gəliblər, deyirdilər. Əsgərlərimizi diri tutmaq, bütün dünyaya car çəkmək üçün tanklarla, BTR-lərlə onları mühasirəyə aldılar. Ancaq milli düşmənlərimiz bizim kimliyimizi tez unutmuşdular. Unutmuşdular ki, türk ölər, amma məğlub olmaz.

Uşaqlar son nəfəslərinədək döyüşərək ermənilərə ağır itki verdilər. Düşmənlərin əlinə diri keçməmək üçün son gülləni özlərinə vurdular. Farizgilin qəhrəmancasına ölümü düşməni yandırıb yaxdı. Üstəlik müəyyən olunanda ki, onlar azərbaycanlıdırlar, elə bil üstlərinə qaynar su tökdülər...

Göstərdiyi şücaətə görə igid eloğlumuz Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölümündən sonra «Azərbaycan Bayrağı Ordeni» ilə təltif olunmuşdur.

Fariz və onun dostları da Vətənin şərəfini üstün tutaraq ölümləri ilə düşmənə anlatdılar ki, xalqımızı heç bir qüvvə məğlub edə bilməz. Çünki, onu canından əziz tutan belə igid oğulları var. Aparılan uzun danışıqlardan sonra Fariz Şamil oğlu və onun döyüş yoldaşlarının cəsədlərini düşməndən almaq mümkün oldu. Öz igidlikləri ilə adları xalqımızın qəhrəmanlıq tarixinə həkk ediləcək oğullarımız Bakıda Şəhidlər Xiyabanında dəfn olundular. Bəli, Vətəni sevənlər sevilməklə yanaşı, qəlblərdə özlərinin əbədi heykəllərini ucaldırlar, Fariz Cavadov kimi.

## BU AD ONA YARAŞIR



***Cəbrayılov Saday Misirxan oğlu***
***doğulub - 1963-cü il,***
***Cəbrayıl rayonu, Süleymanlı kəndi;***
***Şəhid olub - 17.08.1993-cü il, Cəbrayıl bölgəsi***

Ana torpaq Sadayın nəzərində namus, qeyrət rəmzi idi. O, havasını udub, suyunu içdiyi bu torpaqdan ötrü 1991-ci ildə İmişlidəki iş yerini tərk edib doğma Süleymanlı kəndinə üz tutmuşdu. O vaxtlar bu kəndin səksəkəli, müsibətli günləri uc-uca düyünlənməkdə idi. Saday qoynunda boya-başa çatdığı kəndlərinin harayına üz tutanda nə vaxtsa əzbərlədiyi bir şeirin ilk misraları dodaqlarında əsgər andı kimi səslənməkdə idi:

*Çəmənimdə ətir, sünbülümdə dən,*
*Dönübdü süfrəmdə çörəyə torpaq.*
*Özü böyüklükdə Vətəndir, Vətən –*
*Çevrilib sinəmdə ürəyə torpaq...*

Doxsan birinci ilin qarlı-sazaqlı bir günündə «sinəsində ürəyə çevrilən» Vətən torpağı köməyə səsləmişdi Sadayı. Onda Saday iyirmi səkkiz yaşının içində idi. Hər gələn təzə il ona bir dünya qayğı, əndişə gətirdiyindən bu iyirmi səkkiz ildə işlərini sahmanlayıb qurtara bilməmişdi. Son illərdə ürəyindən evlənmək fikri keçsə də, Sədərəkdən Şınıxa, Qubadlıdan Kəlbəcərə, Tumas atadan Murova qədər imdad diləyən ana torpağın harayını qulaqardına vura bilməmişdi. Ürəyində öz-özünə təsəlli verib demişdi ki, «inşallah, müharibədən sonra toy edib, əzizlərimi, doğmalarımı sevindirərəm». Bəlkə də şəhid ağrı-acıları ilə sızlayan bir eldə toy-büsat qurmağı şəninə sığışdırmamışdı...

Dünyanın elə sirləri, elə möcüzələri var ki, ondan fələyin özü də baş açan deyil. Allah bilir Cəbrayıl ellərinin müdafiəsinə yollandığı o şaxtalı gündə daha nələr keçmişdi ürəyindən. Bircə onu bilirik ki, ana torpağın keşiyində dayanmağa heç kəs məcbur etməmişdi Sadayı. «Qüdrətdən səngərli-qalalı dağlarla» onu görüşdürən ürəyinin təpəri, damarlarındakı qeyrət qanı idi. Bir vaxtlar o bu dağların ən uca zirvəsinə qalxaraq gündoğandan günbatana qədər gözlə seçilən Araz vadisinə, başı bəyaz çalmalı Ziyarat dağına, Tanrı möcüzəsi Qarabağın qartal yuvasına bənzər obalarına heyrətlə baxar, gözəllik önündə sal qaya kimi donub qalardı. Cənnət misallı bu yerlərin saf havası, diş göynədən durna gözlü bulaqları və bir də ruzusunu daş altdan çıxarmağı bacaran sadə ürəkli adamları onu elə ovsunlamışdı ki, dünyada ata ocağı Süleymanlıdan gözəl bir yer təsəvvür edə bilmirdi...



Rayon mülki-müdafiə idarəsində çalışsa da, Sadayın «iş yeri» düşmənin bir addımlığında yerləşən döyüş postları, barıt qoxulu səngərlər idi. Kürəyini dağlara söykəyən kimi qollarında yenilməz bir gücün olduğunu açıq-aşkar hiss edib duyurdu Saday...

Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Mərkəz Paşayevin dediklərindən:

– Müqəddəs Şəhid adıyla Tanrı dərgahına üz tutan Sadayı halal bir insan kimi tanıyırdım. Bir müddət mənim Cəbrayılda rəhbərlik etdiyim 16 saylı SMD-də çilingər işləyən bu qeyrətli oğlan Şikar kimi, Mətləb kimi Vətən uğrunda gedən döyüşlərdə iştirak etməyi özünə borc bildi. Sıradan çıxan hərbi texnikanı döyüşə hazırlamaqda misli-bərabəri olmayan Saday son məqamda şəhid oldu...

Doxsan üçüncü ilin 15 avqust günü Süleymanlının ölüm-dirim məsələsi həll olunurdu. Səriştəsiz komandirlərin naşılığından məharətlə istifadə edən düşmən silahlı qüvvələri o gün Ağ yoldan üzü aşağıdakı obalarımızı qana çalxayıb Qışlaq, Süleymanlı, Doşulu, Qaracallı, Balyand kəndlərini ələ keçirdilər. Axıra qədər qeyrətlə vuruşub ağır yaralanan bu igid əsgəri o qanlı-qadalı gündə Bakıdakı hərbi qospitala çatdırsalar da, Vətənin ağır günündə ürəyi şan-şan olan Cəbrayılov Saday Misirxan oğlu Şəhid adının əbədi şöhrətinə sığındı. Tanrı uçalığına söykənən bu ad onun yarı-yaraşığıdır indi...

# IŞIĞA QƏRQ OLAN MƏZAR



***Cəbrayılov Vüqar Vəli oğlu***
***doğulub - 10.05,1969-cu il,***
***Cəbrayıl rayonu, Dağ Tumas kəndi;***
***Şəhid olub - 28.12.1993-cü il,***
***Ağdam rayonu, Papravənd kəndi***

Sübhə yaxın düşmən Dağ Tumas kəndini odlara qaladı. Doxsan üçün 25 avqustu yaddaşlarda ağrı-açılı bir gün kimi qaldı. Onda heç kimin ağlına gəlməzdi ki, erməni quldurları belə asanlıqla kəndə soxulub camaata qanlı divan tutacaqlar. Əyin paltarlarını belə geyinməyə macal tapmayanlar qaçıb canlarını birtəhər qurtarsalar da, neçələri qanına qəltan olundu burada. Ulu Tumas ata bu qədər vəhşilik, bu qədər qan-qada görməmişdi öz tarixində. Qaçmağa amanı olmayanlara qanlı divan tutulur, evlər yandırılır, Yenikəndin, Dağ Maşanlının, Dağ Tumasın tüstüsü gözləri acışdırırdı...

O müdhiş dəqiqələrdə mühasirəyə düşmüş Qazanzəmi batalyonunun əsgərləri ölümün pəncəsindən qurtarmaq üçün ölüm-dirim savaşına çıxmışdılar. Bu yerlərin hər qarışına bələd olan düşmən bəndi-bərəni elə kəsmişdi ki, quş-quşluğu ilə uçmağa ürək etmirdi. Axşama yaxın döyüşçülərimiz qəti qərara gəldilər: ya hamılıqla birlikdə məhv olacaq, ya da düşmən əsarətindən qurtaracağıq. Mühasirənin ən zəif həlqəsi Qubadlı üzünə diklənən yoxuş idi.

Gecənin bir aləmində əsgərlərimiz düşmənin arxayınlaşdığını hiss edib qəfildən hücuma keçdilər. Ölümə bərabər risq qələbə ilə başa çatdı. Dağtumasın hər qarış torpağını əlinin içi kimi tanıyan Vüqarın da iştirak etdiyi bu əməliyyat sona çatanda sübhün gözü təzəcə açılırdı...

Vüqar Dağ Tumasda anadan olmuş, burada boya-başa çatmışdı. Atası Vəli kişi kimi zəhmətə erkən yaşlarından alışmışdı. Səkkizinci sinfi bitirəndən sonra Sarıcallı texniki-peşə məktəbində qaynaqçı peşəsinə yiyələnib kəndlərinə qayıtmışdı. 1987-1989-cu illərdə Sovet ordusunda xidmət etmiş, doğmalarını əsgər məktubları ilə ovundurmuşdu. Evlərinə qayıdandan sonra anası Güllü bacı onu dilə tutsa da toy söhbətini yaxına qoymurdu. Evdəkilər üzə duranda zarafata salıb:



– Ay ana, – deyirdi, – neynirsən gəlini-zadı, göydən yağan bu bəlanı görmürsünüzmü? Darıxmayın, qoyun müharibə qurtarsın.

Hərdən Vüqarın özünün də könlündən toy həvəsi keçsə də, tale onu bu arzusuna qovuşdurmadı. 1992-ci ilin dekabrında ordu sıralarına səfərbər olunub igid əsgərlərimizə qoşuldu...

Doxsan üçüncü ilin martında Hintağlar istiqamətində gedən döyüşlərdə Vüqar Cəbrayılov nəyə qadir olduğunu göstərdi. Burada o, qarın nahiyəsindən yara alsa da, axıra kimi bir addım da geri çəkilmədi...

Cəbrayılın süqutu yaxınlaşdıqca düşmən qudurmuş it kimi havalanır, camaatı vahiməyə salıb, yurd-yuvasından qovmaq üçün gecə-gündüz öz şeytan dəyirmanını işlədirdi. Həmin günlərdə Vüqar yurda sipər oğullarımızın cərgəsində düşmənə inadla müqavimət göstərir, Quycaq və Horovlu istiqamətində vuruşurdu...

Oktyabrın axırlarına yaxın Cəbrayılın sonuncu sığınacaq yeri olan Arazboyu torpaqların üstündən qara yellər əsdi elə bil. Düşmən qəfildən həmlə edərək əliyalın camaatı aramsız tank atəşi ilə qorxudub Araza tökdü. Doğma elləri ürək ağrısı ilə tərk edənlər özlərini sərhəd zolağına çatdırıb İran tərəfə keçməli oldular...

O məhşər günündə Vüqarın gözündə dünya-aləm zülmətə dönmüşdü. Arazı o üzə adlayandan sonra həsrətlə dönüb arxaya baxdı. Od tutub yanan evləri görəndə ürəyindən qara qanlar axdı onun. Sanki qaibanə bir səs ona deyirdi ki, Vüqar, bu doğma yerlərə doyunca bax, bir də ayağın buralara dəyməyəcək...

Ağdam rayonunun Papravənd kəndi uğrunda gedən döyüşlərdə yaralı əsgər yoldaşının həyatını xilas edərkən gülləyə hədəf oldu Vüqar. Üççə gün artıq yaşasaydı, doxsan dördüncü ilə qədəm qoyub, yeni il münasibəti ilə dostlarına gözaydınlığı verəsi idi...

Təzə ili Əli Bayramlı şəhərindəki Şəhidlər Xiyabanında qarşıladı Vüqar. Buradakı gor evi onun təzə ünvanına çevrilib o vaxtdan. Tanrı onun ruhunu şad etsin...

## ŞƏHİD QƏBRİ - AND YERİMİZ



***Cəfərov Murad Hafiz oğlu***
***doğulub - 23.04.1971-ci il,***
***Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Günortaya yaxın mərkəzi xəstəxananın geniş həyətində iynə atsaydın yerə düşməzdi. Daşbaşı postundakı qanlı faciədən xəbər tutanlar hər tərəfdən axışıb buraya gəlməkdə idilər. Nalə-nifrin ərşə qalxdığından ağız deyəni qulaq eşitmirdi burada. Xəstəxananın zirzəmisindəki bir neçə meyitin kimliyini səhərdən bəri müəyyən etmək mümkün olmadığından içəridəkilər çıxılmaz vəziyyətdə qalmışdılar. Bayırda toplaşanların sayı artdıqca uğultudan qulaq tutulurdu;

– Hardadır bu façiənin günahkarları, gəlib camaata cavab versinlər?

– Deyirlər yanlarında komandirlərdən heç kim olmayıb bu uşaqların.

– Hə, mən də belə eşitmişəm. Əşşi, bu cür də özbaşınalıq olar, hanı bu rayonun yiyələri?

– Hanı özgə vaxtı ağızlarına çullu dovşan sığmayan o nadürüstlər?

– Hanı bu uşaqları gecənin zülmətində ölümün ağzında köməksiz qoyan bişərəflər?

– Hanı, hanı, hanı???

Dərd içində qovrulan bu adamların dəniz kimi təlatümə gəldiyini görəndə baş həkim onların qarşısına çıxıb:

– Ay camaat, – dedi, – xahiş edirəm sakit olun, bu facia hamımızın belini qırıb. Gəlin, bir-birimizi yamanlamayaq. Bizim bir düşmənimiz var, – o da balalarımızı bu kökə qoyanlardır□

Hüseyn həkimin sözləri deyəsən adamların qəlbində közərən qəzəb odunun üstünə bir az su çilədi...

Daşbaşı postunda dayanan uşaqları yaxşı tanıyan iki cavan əsgər içəri girən kimi zirzəmidəki meyitlərə yanaşıb onların qanlı sifətlərinə nəzər saldılar:

– Bu rəhmətlik Cəbrayıldır, – özü də Mərcanlı kəndindəndir, yaxşı tanıyırdım onu...



– Bu da bizim Müslümdür...

– Məzrəli balası Mətləbdir bu oğlan da...

– Bəs, bu? Göz yaşları içərisində deyilən iki kəlmə söz cavan əsgəri divara qısnamışdı elə bil. O əyilib meyitin yarıaçıq gözlərinə, qanlı sifətinə diqqətlə baxdı. Bir az tərəddüdlə:

– Mənə elə gəlir ki, Muraddır bu oğlanın adı. Yoldaşı onun sözünü təsdiqlədi:

– Hə, düz deyirsən, Cəfərov Murad Hafiz oğludur bu. Rəhmətlik Müslümlə bir gəzib-dolanırdılar. Özü də Daş Veysəlli kəndindəndir...

Tanınmaz hala salınan meyitlərə baxanda Əjdər həkimin ürəyi qırıldı elə bil:

– Alçaqlar, insan qanına susayan manyaklar, gör, gül kimi uşaqları nə kökə salıblar...

– Ay camaat, vallah Tanrı bu zülmü götürməz...

Sovet ordusu sıralarında iki il qulluq edib geriyə qayıdanda Murad torpaqlarımızı od içində yanan gördü. Sürücü işləmək fikrindən daşınıb könüllü olaraq yurda qeyrət sipəri olan oğulların dəstəsinə qoşuldu. Yaxşı idmançı, əla atıcı idi Murad. Əsgərliyini «stroybatda» başa vursa da, cəldlikdə, hədəfi dəqiq nişan almaqda tayı-bərabəri yox idi. Sirik, Quşçular, Hərəkül, Daşbaşı döyüşlərində əsgər dostlarının rəğbətini qazanmışdı. Döyüşə atılanda ölüm barədə fikirləşməyə heç vaxtı da olmurdu onun. Hərdən deyirdi ki, uşaqlar, ölümdən-filandan qorxmağa dəyməz, onsuz da kimin vədəsi çatsa, onu bu dünyada bircə gün də olsun saxlamaq olmaz. Ən çox ölüm barədə deyil, gələcək günlər haqqında düşünürdü Murad. Bir dəfə döyüşdən qabaq əsgər yoldaşlarını başına yığıb onlara demişdi:

– Uşaqlar, bilirsinizmi Peyğəmbər əleyhissəlamın mübarək ifadəsi ilə Quranda nə yazılıb?

Yoldaşlarının təəccüb dolu nəzərləri ilə qarşılaşanda əlavə etmişdi:

– O müqəddəs kitabda deyilir ki, «Sizinlə döyüşənlərlə Allah yolunda siz də hərb edin. Ancaq təcavüz etməyin. Allah təcavüzkarı heç sevməz».

Mərcanlıdan olan Fərhadov Arif Muradın sözlərinə qüvvət vermişdi:

– Deməli, biz haqq yolunda döyüşürük. Bu yolda, Məhəmməd Əmin babamız demişkən, Şəhid olmaq da, qazilik də şərəfli işdir...

Vətənimizin qaziliyi naminə Daşbaşı döyüşündə son nəfəsinə kimi çarpışıb şəhid oldu Murad. Onun Daş Veysəlli torpağındakı gor evi and yerimizə çevrildi bizim...

Muradın böyük qardaşı Muxtar neçə aylar araşdırmalar, sorğular aparmış, istəkli qardaşının tam xarakteristikasını əks etdirən 25-30 səhifəlik bir

material-məlumat göndərmişdi bizə. Bu məlumatda Muradın əsgər dostlarının, komandirlərinin, ailə üzvlərinin ürək sözləri, igid eloğlumuz haqqında fikirləri öz əksini tapıb. Kitabın həcminə görə həmin materialdan geniş şəkildə istifadə edə bilməsək də, gələcəkdə Daşbaşı döyüşlərinin geniş bədii əksi öz ifadəsini taparsa, həmin materiallar ən yaxşı sənədli mənbə olacaqdır. Hələlik isə şəhid eloğlumuz Muradın bir şeirin kövrək misralarına sığınan yaralı ruhu yurd yerlərimizi dolaşmaqdadır:

*O gecə düşmənlə gəldin üz-üzə,*
*Əsib titrəmədi dizlərin, Murad.*
*Ülvi istəyinlə döndün dənizə,*
*Durur Daşbaşıda izlərin, Murad.*

*O gecə yağılar durdu qəsdinə,*
*O gecə od-alov yağdı üstünə.*
*Ziyarat bələndi sənin tüstünə,*
*Dondu dodağında sözlərin, Murad.*

*Baş qoydun məzarda torpaq balınca,*
*Nigaran ruhun da dönüb qılınca,*
*Qəfil perik düşən elin dalınca,*
*Hələ də yol çəkir gözlərin, Murad.*



## SÜSƏN, VÜSAL ƏMANƏTİ



***Cəfərov Akif İsmiyəli oğlu***
***Doğulub – 30.07.1968-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***Şəhid olub – 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***

Doxsanıncı ilin 20 Yanvar gecəsi Akif də Bakıda imperiyanın tankları qarşısına çıxan əliyalın adamların arasında idi. Onda Nadir qardaşını şəhəri ələk-vələk eləyəndən sonra güclə axtarıb tapmışdı. O müdhiş gecədə baş verən qanlı hadisələri öz gözləri ilə görən Akifin yorğunluq və sarsıntıdan qaməti bükülmüşdü elə bil. Hadisələrin qızğın çağlarında yaralıları xilas etmək üçün özünü oda-közə vuran bu qeyrətli cəbrayıllı balasından yağış kimi yağan güllələr yan keçmişdi o gecə...

O vaxt Akif Bakı dənizçilik məktəbini bitirəndən sonra Bakı ilə Krasnovodsk arasında üzən gəmilərin birində işləyirdi. Mavi Xəzərin qırçınlı sularının tamaşasından doymasa da, doğulduğu Horovlu kəndi onu özünə çəkirdi...

Doxsan birinci ilin sentyabr ayında atası İsmiyəli kişi Akifin toyunda qol götürüb doyunca oynadı. Səmayə bacı gəlini ilə oğlunun alnından öpüb onlara xeyir-dua verdi. Akif özünü dünyanın ən xoşbəxti hesab edirdi onda. Vüsal dünyaya gələndə uçmağa qanadı yox idi onun. İş vaxtı sona çatan kimi kənddəki rabitə şöbəsindən evlərinə tələsir, balaca oğlunu atıb-tutmaqdan doymurdu...

Erməni quldurlarının günbəgün azğınlaşması Akifin də fərəhli günlərinə son qoydu. Kəndlərinin qarşı tərəfindəki dumanlı, çənli dağların o üzündə gedən savaşlara biganə qala bilmədiyindən 1992-ci ilin payızında cəbhəyə yollandı Akif. Günlər keçdikcə Süleymanlı, Sirik, Mülkədərə postlarından, Ağ yol ətrafında gedən döyüşlərdən gəldi onun səsi. Bir dəfə (1993-cü il aprelin 3-də) Mülkədərə postundan qayıdarkən Akifgili gətirən hərbi maşın dağ yamacından aşağı yuvarlandı. Qəza vaxtı qolundan və başından ağır yaralanmasına baxmayaraq min bir əziyyətlə dostu Rəşidi maşının altından çıxarıb onu xilas etmişdi Akif...

Doxsan üçüncü ilin avqust ayının 23-də Cəbrayılın üstünü qara buludlar

alanda yaralı döyüşçülərlə birlikdə Akifi də Beyləqan xəstəxanasına gətirmişdilər. Onda bu cəsur oğlanı yaralarından çox doğma yerlərin düşmən əlinə keçməsi ağrıtmışdı...

Yaraları qaysaq bağlayan kimi Akif ayağa qalxıb ailə üzvlərini kəndbəkənd gəzib soraqladı. Onları Beyləqandan İmişli ərazisinə köçürüb rahat nəfəs aldı. Ayrılıq anları yaxınlaşanda doğmaları ilə qucaqlaşıb balaca Vüsalın süd qoxulu dodaqlarından öpdü. Həyətdən çıxanda ömür-gün yoldaşına xitabən:

– Süsən, Vüsal əmanəti! – dedi...

Onda hələ Cəbrayılın Arazboyu torpaqları düşmən əlinə keçməmişdi. İgid oğullarımız rayon çamaatının sonuncu ümid yeri olan Quycağı, Şəybəyi, Böyük Mərcanlını, Maralyanı, Soltanlını... qorumaq üçün kiprikləri ilə od götürürdülər. Akif də onun üçün əziz olan yurd yerlərinin müdafiəsinə qoşulub Çapand, Quycaq və Şəybəy kəndləri uğrunda gedən döyüşlərin iştirakçısı oldu. O boranlı günlərdə Cəbrayıl alayının naşı komandirlərinin günahı ucbatından başıpozuq dəstələrə bölünən əsgərlər Araz qırağına toplaşan mülki əhalini taleyin ixtiyarına buraxıb çayı adlayaraq o üzə keçdilər...

Zəngilandan üzü Beyləqana kimi geniş bir ərazinin düşmənə verilməsi odsuz-ocaqsız yandırırdı Akifi. Vətən təəssübü çəkən igid oğullar - Akifin döyüş yoldaşları Bəhramtəpəyə toplaşandan sonra, onları Gəncəyə ¬– Seyfəli poliqonuna köçürdülər. Akifin cəbhədə dostlaşdığı Vüqar, Cavid, Vahid, Mehdi və Seyidağa da onunla birlikdə idilər. Yaralı yurd yerimizdən olan Cəbrayılın harayı bu cavanları təpədən-dırnağa qədər yandırsa da, qələbədən ümidlərini üzmürdülər onlar. Elə buna görə də düşməndən qisas alacaqları günü səbirsizliklə gözləyirdilər...

Bu qəfil bəla hardan gəldi görəsən? Akifi və onun ürəkləri qeyrət hissi ilə döyünən dostlarını bircə anın içində al-qana boyayan bu ölüm pusqudamı dayanmışdı? Onların ölümündə kim idi günahkar? Ehtiyatsızlıqdanmı, təxribatdanmı doğulmuşdu bu müdhiş hadisə? Yoxsa Şuşadakı, Laçındakı, Daşaltıdakı xəyanətin Gəncə ətrafındakı cücərtisi, işartısı idimi bu müəmmalı ölüm?

Beyləqanın Şəhidlər Xiyabanında dəfn etdilər Akifi. Bir ocaq ağlar qaldı onun ölümündən sonra. Bacıları Aygün, Almaz, Şəhla, Tahirə öyrəşə bilmədilər qardaşlarının yoxluğuna. Akifin ölümündən sonra dünyaya gələn körpəsinə Akifə adı verdilər. Böyüyəndə o, öz adının müqəddəsliyini anlayıb iftixar hissi keçirəcək. Şəhid eloğlumuz Cəfərov Akif İsmiyəli oğlunun ailə ocağında böyüyən Vüsalın və Akifənin ağlı kəsəndən sonra Şəhid



atalarının necə böyük ürək sahibi olduğunu oyrənib biləcəklər. Bir vaxtlar məktəbə gedəndə bu körpələr Akifin böyüdülmüş şəklinin qarşısında ayaq saxlayıb iftixar hissiylə: «Bu bizim atamızdır, – deyəcəklər. O, torpaqlarımızın azadlığı uğrunda canından keçib». Və bundan sonra onlar qəhərdən titrəyən dodaqlarında yenicə əzbərlədikləri şeirin ilk düzümünü söyləyəcəklər:

*Bu torpaqda igidləri soraqla,*
*Xudafərin bir dastandır, varaqla.*
*Gəyəndəki büsata bax, maraqla –*
*Horovluda solum, sağım tamaşa...*

## YARALI ÜRƏYİN NALƏSİ...

***Cəlilov Məzahir Əli oğlu***
***doğulub - 1970-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***Şəhid olub - 18.07.1995-ci il,***
***Füzuli bölgəsi***



Məzahir Böyük Mərcanlı kəndində anadan olmuş, ömrünün ən dəyərli illəri - uşaqlıq və erkən gəncliyi də məhz doğma kəndlərində keçmişdi. O, 1987-ci ildə Böyük Mərcanlıdakı orta məktəbi bitirmiş, 1989-1991-ci illərdə keçmiş sovet ordusu sıralarında əsgəri xidmətdə olmuşdu.

Doğma ellərin başı üstünü almış təhlükə onu əsgərlikdən sonra rahat buraxmadığı üçün Vətənin müdafiəsinə qalxan könüllülərə qoşulur və 1992-ci ildən başlayaraq erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edir. Cəbrayıl batalyonu tərkibində Şayaq, Sur, Armudlu postlarındakı əməliyyatları həyata keçirənlərin fəallarından biri olur. Sur ətrafındakı döyüşlərin birində Məzahir köksündən qəlpə yarası alır. Bir müddət hərbi qosbitalda müalicə olunub yenə də cəbhəyə – döyüş dostlarının yanına qayıdır. Bu vaxt isə artıq Cəbrayıl torpaqları düşmən əlinə keçmişdi. Ona görə Məzahirin yeni döyüş yolu Füzuli bölgəsindən keçir...

Amma sinəsi Məzahiri çox incidirdi, bu ağrı-acıları o, atasından, istəkli həyat yoldaşından gizlətməyə çalışırdı. Nəhayət, ciddi həkim müayinəsindən sonra məlum oldu ki, onun köks qəfəsində qəlpələr var. Ürəyində cərrahiyyə əməliyyatı aparılmalı idi. Cərrahiyyə əməliyyatından sonra 1995-ci ilin iyul ayında onun böyük arzularla yaşayan yaralı ürəyi əbədi olaraq susdu. Vətəni canından da artıq sevən bir Vətən oğlu ana torpağa qovuşdu.

Məzahirin üç yaşlı oğlu Sərvər hələ də «ata» – deyə yol gözləyir, elə bilir ki, atası haradasa uzaq, lap uzaq bir səfərdədir, amma gec-tez qayıdacaq...

## O, YADDAN ÇIXAN DEYİL...



***Cəfərov Rövşən Əziz oğlu***
***doğulub - 01.11.1969-cu il,***
***Cəbrayıl rayonu Əmirvarlı kəndi;***
***şəhid olub - 22.12.1993-cü il,***
***Gəncə bölgəsi***

Sübhün gözü açılan kimi Arazboyu obalara elə bir mərmi leysanı yağdı ki, gözlülər baxıb qan ağlayırdı. Nəriltidən qulaq tutulur, vahiməyə düşən adamlar Araz kənarına qaçır, buraya toplaşanlar ölümdən necə qurtaracaqları barədə baş sındırırdılar. Ara-sıra eşidilən sözlər xilas olmaq ümidi ilə buraya üz tutanları daha da vahiməyə salırdı:

– Deyəsən dünyanın axırı çatıb, qardaş!

– Rəhmətliyin oğlu, dünyanın dərdləri sənə qalmayıb ha. Bir de görək, bu qan çanağından necə qaçıb qurtarmalıyıq?

– Horadiz keçidini düşmən üzümüzə bağlayıb. Xudafərin tərəfə getməyə dəyməz, gərək özümüzü Araza vuraq.

– Elə danışırsan ki, elə bil bu boyda Araz kiçik su arxıdır, hopp eləyib o tərəfə adlamaq olar.

– Lap tutaq ki, üzməyi bacaran on-on beş adam canını qurtardı. Bəs, yerdə qalan əlsiz-ayaqsızlar, uşaqlı qadınlar nə etsin?

Narahat olmayın, ay camaat, biz özümüz sizə kömək edəcəyik. Hamı yana çevrilib bu səsin gəldiyi səmtə boylandı. Üç nəfər cavan əsgərin adamlara yaxınlaşdığını görən tösmərək kişi qəzəbindən kükrədi:

– Ə, nə axmaq-axmaq danışırsınız, elə igidliyiniz vardı, düşməni yaxına buraxmayaydınız.



– Düz deyir, camaatı yaman günə qoyandan sonra, ürəyiniz yanır bizə. Çıxın yolunuzla gedin. Onsuz da camaata olan olub.

– A qardaş, niyə insafsız danışırsınız, mən bu uşaqları çox yaxşı tanıyıram. Bax, o sizə köməyini təklif edən oğlanı görürsünüzmü, Əmirvarlı Əziz kişinin oğlu Rövşəndir. 1992-ci ildən qeyrətlə vuruşur. O biriləri də onun kimi. Yazıqlar neyləsinlər, belə başıpozuq ordu ilə düşmən qabağında dayanmaqmı olar?

Kişinin sözləri elə bil Rövşənin yarasının gözünə duz basdı:

– Cəbrayılın süqutundan sonra bizim heç birimizin yaşamağa haqqı yoxdur. Yadda saxlayın ki, doxsan üçün iyirmi dörd oktyabrı bizim qara günümüzdür.

- Bizi bu günə salanların Tanrı xanimanını dağıtsın, oğul! Daha onlardan keçib, kömək edin üstümüzə tuşlanan ölümdən yaxamızı qurtaraq...

Rövşən Cəfərov cəbhəyə gəldiyi gündən qeyrətlə vuruşur, yoldaşlarına ürək-dirək verirdi. Bilirdi ki, Vətənin sabahı qeyrətli əsgərlərimizdən asılıdır. Və onu da bilirdi ki, camaat illərlə min bir zillətə dözüb özlərinə ev-eşik düzəldiblər. Heç kəs isti yuvasından perik düşmək istəmir. Bu yurdu qorumaq məsuliyyəti Azərbaycan əsgərinin üzərinə düşür. Bütün bunları yaxşı duyub dərk edirdi Rövşən. Elə buna görə də düşmənlə üz-üzə gələndə barmağını tətikdən ayırmadan irəli şığıyırdı. Mülkədərə, Qışlaq, Süleymanlı, Balyand və Sirik döyüşlərində əsl qəhrəmanlıq göstərmiş, özünü oda-közə vurmuşdu. Bəzən postlara qardaşı Həsənlə birlikdə gedir, dərdini-sərini onunla bölüşürdü. Bir dəfə döyüş tapşırığını yerinə yetirməyə gedərkən mindikləri maşın minaya toxunmuş, Həsən ağır zədə alaraq, uzun müddət Bakıdakı xəstəxanaların birində yatmalı olmuşdu. O gün Rövşən zədələnsə də tezliklə ayağa qalxıb əsgər dostlarının yanına qayıtmışdı...

Sur və Daşbaşı əməliyyatlarında da mərdliklə vuruşmuşdu Rövşən.

Daşbaşı faciəsini eşidən kimi Qubadlıdan gələn batalyonun döyüşçülərinə bələdçilik edərək, itirilən mövqeyin qaytarılmasında və on yeddi Şəhid meyitinin geri alınmasında fədakarlıq göstərmişdi.

1993-cü ilin aprelində ürəkdən sevdiyi İlhamə adlı bir qızla ailə həyatı qurmuşdu.

1993-cü ilin 22 dekabrı Rövşənin ömrünün sonuncu nidası oldu. Seyfəli poliqonunda Şəhid olan bu igid oğlanı İmişlinin Çaxırlı kəndində torpağa tapşırdılar. Rövşənin ölümündən doqquz gün sonra dünyaya gələn oğul balasına Yadigar adı verdilər. İndi Şəfiqə ana oğlunun nişanəsi ilə ovundurur özünü...

Rövşən dünyadan köçsə də Əmirvarlı camaatı xatirəsini əziz tutur, tez-tez ondan söz açırlar.

Məmmədov Mirzə Məhəmməd oğlu (kənd ağsaqqalı): – «Kəndimizin cavanları arasında Rövşən mərdliyi, qoçaqlığı ilə seçilirdi. Bunu cəbhədə olarkən dönə-dönə sübut etdi. Allah ona rəhmət eləsin!..»

Mahmudov Vidadi Məhəmməd oğlu (Rövşənin müəllimi): «O, biz müəllimlərin sevimlisi, güvənc yeri idi. Qismiəti elə gətirdi ki, torpaq namusu uğrunda candan keçməli oldu... O, yaddan çıxan, unudulan oğul deyil....

# VƏTƏN UNUTMAZ SƏNİ...



***Şəmilov Rövşən Bəhlul oğlu***
***doğulub - 12.04.1974-cü il,***
***Cəbrayıl rayonu, Qumlaq kəndi;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Daşbaşı kəndi***

Dədə Qorqud zəmanəsindən üzü bəri ellərimizdə dünyaya göz açan oğlan uşaqları «düşmən toxmağı», hesab edilmişlər. Bu kəlamın mayasındakı həqiqət ondan ibarətdir ki, oğlan uşaqları dar ayaqda Vətəni müdafiə etməyə, onun yolunda candan keçməyə borcludurlar. Yaşadıqları illərdə bu amala söykənənlər hardasa ölümün gözlərinə dik baxmağı, onun üstünə yeriməyi də bacarırlar. Bütün bunların əvəzində Tanrı onları özünün sevgisi ilə mükafatlandırır, ulu dərgahının işığına pay edir...

Bu gün Şəhidlik Zirvəsində qartala bənzəyən qeyrətli oğulların sırasında Şəmilov Rövşən Bəhlul oğlu da özünəlayiq yer tutub. Bu haqqı o, torpaq yolunda ölmək istəyi hesabına qazanıb. Bir vaxtlar Rövşən Qumlaq cavanlarından heç nə ilə fərqlənməsə də, indi o bu kəndin and-aman yeridir...

Taleyin qəribə oyunları var. İyirmi beş, otuz il qabaq kim deyə bilərdi ki, o illərdə doğulan uşaqların üstündən qara yel keçəcək, cavanlar ürəklərində gəzdirdikləri arzularla vidalaşıb odun, alovun içərisindən keçməli olacaqlar.

Rövşən orta məktəbdə oxuyanda yaşıdları kimi romantik bir dünyanın qayğısız sakini idi. Evlərinin üst tərəfində nizamla sıralanan Xudafərin SES tikililəri onu qanadlarına alıb gələcək illərə aparırdı. O illərdən səsi-sorağı



gəlirdi Rövşənin. Bəlkə də müharibə olmasaydı, orta məktəbdən ayrılan kimi tikintiyə üz tutub, dinc peşə adamlarının sırasına qoşular, gələcəkdə iftixar hissi ilə öyünüb: «Burada mənim də əməyim var», – deyərdi...

Ancaq tale başqa yaşıdları kimi onun da arzularını gözündə qoydu. Rövşən Xudafərin su qovşağının tikintisinə yox, barıt qoxulu səngərlərə üz tutdu. Artıq onda elə vaxtlar idi ki, Vətən torpağı imdad diləyir, qeyrətli oğulları köməyə çağırırdı. Gendə də qalıb baş girləmək Rövşənin təbiəti ilə uyuşmayan bir iş idi. Ölüm adlı əjdahanın geniş açılmış caynaqlarına tərəf irəliləyəndə də Rövşən doğulduğu ailənin şərəfini qorumaq, ümidini doğrultmaq barədə düşünürdü. Sur, Banazur, Günəşli yaşayış məntəqələri uğrunda gedən qanlı döyüşlərdə əsl əsgər hünəri göstərən bu igid oğlan Daşbaşıda düşmən güllələrindən yayına bilmədi. Ürəkdən sevdiyi Vətən torpağında ölümü mərdliklə qarşılayan əsgər dostları ilə birlikdə əbədiyyətə qovuşdu. Bu ölüm ona şərəf, mənsub olduğu ailəyə başucalığı gətirdi...

İnnən belə Rövşənin müqəddəs Şəhid adı nəğmələrin, kövrək misraların bəzəyinə çevriləcək. Onun varlığını qəlbimizin istəyində gəzib arayacağıq həmişə:

*Sənin igidliyindən*
*Söz açır, dağ da, düz də.*
*Əbədi yaşayırsan*
*Bizim ürəyimizdə.*

*Bənövşətək göyərdər,*
*Gələn təzə yaz səni.*
*Əməlin çiçək açar,*
*Vətən unutmaz səni...*

# DÜNYANIN QAR İŞIĞI



*Şirinov Bayram İsmayıl oğlu*
*doğulub - 1975-ci il,*
*Cəbrayıl rayonu, Tatar kəndi;*
*Şəhid olub - 28.01.1994-cu il,*
*Füzuli rayonu, Kürdlər kəndi*

Ana təbiətin dilbər guşələrindən olan Cəbrayıl torpağının vurğunu idi Bayram. Yalçın qayaların, yaşıl yamacların qoynunda doğulduğundan mayasında, iliyində zümzüməli çeşmələrin su saflığı, şehli çəmənlərin çiçək qoxusu, dumanlı-çənli dağların hayı-harayı yaşayırdı...

Kürdlər kəndinnn dan üzü biçənəkli, ruzulu yamaclara, qürub yönü Sirik dağlarınadək uzanıb gedən bağ-bağat və meşələrə söykənirdi. Hərdən təbiətin büllur saflığı qəlbini riqqətə gətirəndə yaddaşında iz salan bir şeirin misra pıçıltısı ayırırdı onu xəyallardan:

*Bu diyarın yolu yoxuş,*
*Daşlarını yuyar yağış.*
*Sinəsindən təzə naxış*
*Salasıyam Cəbrayılın.*

*Burda lalə odum, közüm,*
*Bulaqlar avazım, sözüm.*
*Bir az kövrək, bir az həzin*
*Balasıyam Cəbrayılın...*

Ulu dağların dili sözlü, ürəyi dolu oğul balası idi Bayram. Böyük qardaşı Rza, bacıları Zinyət, Telli boyunu əzizləyər, atası İsmayıl kişi dizinin taqəti, ürəyinin təpəri hesab edərdi onu. Qardaşı Qurbanın nəzərində Bayram güclü, qüdrətli bir igid idi. Doxsan üçüncü ilin mayında cəbhəyə yollanarkən Bayram evlərindən uzaqlaşıb rayon mərkəzinə yollananda da, arabir macal tapıb ata ocağına baş çəkəndə də Qurbanın baxışları ilə rastlaşır, onun sonsuz səmimiyyətindən məmnunluq duyurdu...

Deyirlər dağ adamları qaya dözümlü, saf ürəkli, qorxmaz, cəsur olurlar. Bayram dünyaya göz açdığı gündən halal adamların, torpağın özü kimi sədaqətli, səxavətli insanların əhatəsində yaşamışdı. Dan yeri qızarandan toran düşənə kimi torpaqla ülfət bağlayan bu insanların çörəyi daşdan çıxsa da,



bir şirinlik, bərəkət var idi bu ruzidə. Bəlkə elə buna görə də o, məktəbli olanda da, yeniyetmə çağlarında da evlərinin qayğı yükünü çiyinlərində daşımaqdan xüsusi zövq alır, halallıqdan doğan saf duyğular üstə qəlbini kökləyirdi...

Bayramı yaxşı tanıyan dostlarından biri, Tatar kənd sakini Əsədov Nadir indinin özündə də ondan söz açanda ürək yanğısı ilə danışır:

– Mən kəndimizdə üzümçülük briqadiri işləyəndə Bayramla yaxından tanış olmuş, onun qabarlı əllərinin qüdrətinə heyran qalmışdım. O, sadə olduğu qədər də düz danışan, təpərli, el-oba qəhri çəkən bir yeniyetmə idi. Vətən imdad diləyəndə Bayram dinc peşəsi ilə vidalaşıb qartal kimi dağların zirvəsinə də cövlan etdi. O, elə bir oğul idi ki, qeyrət, namus yolunda oddan, alovdan belə keçərdi. Vətənin şərəfi üçün dar ayaqda kipriklərini qırpmadan canını qurban verdi...

Bayram Şəhidlik Zirvəsinə qədəm qoyduğu ana qədər barıt qoxulu döyüş yolu ilə irəliləmiş, düşmənin murdar sifətini dönə-dönə görmüşdü. Ona elə gəlirdi ki, elimizi qana çalxayan, lay divar sinəli oğullarımızı əjdaha iştahıyla udmağa hazır olan ermənilərin kökü kəsilməyincə, dünyanın qırışığı açılmayacaq. Abad kəndlər, şəhərlər xarabalığa döndükcə erməni xisləti qəhqəhə çəkə-çəkə yer üzünü dolaşaçaq. Əlacı olsaydı, bircə günün içində Ziyaratdan o üzə aşıb bayquş yuvası Xankəndini düşməndən təmizləyər, Şuşanı, Laçını əsirlikdən azad edər, Ağdərədən Kəlbəcərə uzanan yolların dincliyini özünə qaytarardı.

O qanlı-qadalı günlərdə təkcə özünə və bir də yurd istəyi ilə silaha sarılan cavanlara gümanı yetirdi Bayramın. Doxsan üçün avqust-oktyabr aylarında uğursuzluqdan başını itirən Milli Ordumuzun halına ürəkdən acısa da qələbəyə ümidini itirməmişdi...

Doxsan dördüncü ilin yanvar günlərində Füzuli torpağında gedən döyüşlərə inamla qədəm qoymuş, qələbənin yaxınlıqda olduğuna ürəkdən inanmışdı. Ona elə gəlirdi ki, Xankəndində tezliklə üçrəngli bayrağımız dalğalanacaq. Cəbrayılın Xan çinarı ilə görüşüb, dağlar qoynundan nisgilli baxışları ilə yollara boylanan doğma Kürdlər kəndini bağrına basacaqdır...

«Qızıl Qaya» əməliyyatında sinəsini parçalayan güllə onun şirin arzularına son qoydu. Yanvarın iyirmi səkkizi idi onda. Bayramı ağır yaralı halda Bakıdakı qospitala çatdırsalar da, həyatını xilas etmək mümkün olmadı onun...

Yanvarın otuzunda Beyləqandakı «Peyğəmbər» qəbiristanında dəfn etdilər Bayramı. O gün yerin, göyün qaş-qabağı açılmaq bilmirdi. Qəfildən yağan güclü qar onun gor evini ağ ləçəklə naxışlayırdı. Yurdun cavan bir şəhid balası dünyanın bəyaz rənginə qovuşmaqda idi o gün. Elə bil qar işığında yuyunmağa tələsirdi bu məzar...

# ÖMRÜN BULUD HARAYI



***Şükürov Nüsrət Əli oğlu***
***doğulub - 14.02.1973-cü il,***
***Cəbrayıl rayonu, Dağ Tumas kəndi;***
***Şəhid olub - 31.12.1995-ci il, Ağdam bölgəsi***

O gün mərmi leysanı, qəlpə yağışı yağırdı torpağa. O gün dünya məhvərindən qopmuşdu elə bil. Şəhid qanı çilənən Qarabağ ellərimiz hönkür-hönkür ağlayırdı. Işığı, həniri güllələnən edilən yurd yerlərimizin əlləri Tanrıya uzalı qalmışdı. Laçının, Kəlbəcərin, Cəbrayılın... yaralı daşında, torpağında qan rəngli misralar qatara düzülürdü:

*Bir məkrdən, fitnədən*
*Aranım, dağım Şəhid.*
*Heç bilmirəm ki, nədən*
*Çəmənim, bağım Şəhid.*

*İnsafmı axa qanım,*
*Bu zilləti nə danım.*
*Güllələnib gümanım –*
*Ötən hər anım Şəhid.*

*Taleyin dönüb üzü,*
*Kimlər qarğadı bizi?*
*Sinəmdə güllə izi –*
*Daşım, torpağım Şəhid...*

Ağdamın qaysaqlanmayan yaralarından qan sızırdı o gün. Səxavətin, Qədirin səsinin yanğısı adamın iliyinə işləyirdi onda. Bir əsgər tabutu yola hazırlaşırdı. Bir Şəhid özünə gor evi soraqlayırdı dekabrın sonuncu günündə. Nüsrətin qara tabuta sığışan cənazəsi Tumas atanın güney üzündə uyuyan doğmalarının yanında torpağa qovuşmaq istəyirdi. Düşmən kəməndində çapalayan yollar bağlı idi onun tabutunun üzünə...

Ertəsi günü cəbrayıllı Şəhidi Sabunçu ərazisindəki qəbiristanda torpağa tapşırdılar. Mavi Xəzərin sinəsindən qopub sahillərə çırpılan dalğaların harayı dağtumaslı balasının ruhuna sərinlik gətirdi...



Şükürov Nüsrət Əli oğlunun ömür yolu qoca dünyanın zaman axımına 1973-cü ilin fevralından qoşulmuşdu. Dağ Tumas camaatı gözlərinin qabağında böyüyən bu dilli-dilavər uşağın həyatındakı hər çəhlimə, hər «naxışa» bələd idilər. Əsgər yaşı çatanda Sankt-Peterburqdan gəlirdi onun məktubları. Əl boyda vərəqlərə bükülüb gələn ürək çırpıntılarından hiss olunurdu ki, Nüsrət qürbət eldə doğma Vətəni ilə nəfəs alır. Yurdumuzu ölümə, qana sürükləyən erməni işğalçılarının qarşısına çıxmaq üçün günlərini sayırdı o. 1992-ci ilin fevralında qısamüddətli məzuniyyətə buraxılandan sonra bir də geriyə qayıtmadı Nüsrət. Bu ordunun məkrli sifəti, 20 Yanvarda soydaşlarımızın üstünə silah çəkən qanlı əlləri yaxşı tanış idi ona...

Nüsrətin Cəbrayıla qayıtmağı ilə cəbhəyə getməyi bir oldu. Bilirdi ki, el-obanın onun kimi oğulların köməyinə ehtiyacı var...

Döyüş yolu Sur əməliyyatından başlandı onun. Neçə-neçə igid oğullarımızın qanı hesabına illər boyu daşnaq yuvasına dönən bu kənd düşmənlərdən təmizləndi onda. Atışmanın qızğın çağlarında ayağından və döş nahiyəsindən yaralanan Nüsrət bir neçə aylıq müalicədən sonra Bakıdan geri dönüb yenidən döyüşçülərimizin cərgəsinə qoşuldu...

Cəbrayılı ağlar gözlə tərk edənlərdən biri də Nüsrət idi onda. Onu ən çox yandıran doğma torpaqların dar günündə bir ayağı qaçaq olan bəzi komandirlərin qorxaqlığı, yurda arxa çevirməsi idi. Əlacı olsaydı, onları yerindəcə güllələyər, qeyrəti ovxardan düşən nankorların kökünü kəsərdi...

O vaxtlar düşmənin əlindən yaman yanıqlı idi Nüsrət. Rayonun qətl günündən sonra Sabunçuda məskunlaşan ailə üzvlərinə baş çəkib cəbhəyə yola düşmək üçün hərbi komissarlığa müraciət etdi...

Düşmənin gözünün odunu almaq üçün Cəbrayılın qeyrətli əsgər oğulları onda Ağdam torpaqlarında dayanıb fürsət gözləyirdilər. Buradan baxanda qaraltısı görünən Qarabağ dağlarının güney üzündə yağıların pəncəsi altda olan Dağ Tumas torpaqlarının harayını eşidirdi elə bil. Bu qaibanə səsin bulud kövrəkliyinə qovuşmaq üçün qarşısındakı səddi adlayıb keçmək istəyəndə qarşı tərəfdən atılan güllə sinəsinə sancıldı. Cəbrayıldan ötrü burnunun ucu göynəyən Nüsrətin Ağdam torpağında urəyi şan-şan oldu...

Dağtumaslı balasının tabutunu əsgər dostları çiyinlərinə götürəndə kiminsə dilindən:

*Min il bar gətirsə, bu qara tabut,*
*Bir də sənin kimi meyvə yetirməz!*

sözləri qopub bulud harayına döndü...

# QİSAS QİYAMƏTƏ QALMAZ...



***Şükürov Fikrət Sədətqulu oğlu***
***doğulub - 20.05.1970-ci il,***
***Cəbrayıl rayonu, Qumlaq kəndi;***
***Şəhid olub - 26.11.1995-ci il, Füzuli bölgəsi***

*Yaman günə qaldı elim,*
*Qan ağlayır dağım, çölüm.*
*Haray çəkir, ayım, ilim –*
*Tanrı, bizə kömək eylə!..*

Arazdan o üzə keçəndən sonra üzünü Diri dağına, Qurbani qəbrinə, Mazan nənəyə tutub hönkür-hönkür ağlayanda demişdi bu sözləri Fikrət. Gözlərinin qabağında yanıb külə dönən ata ocağına əlləri çatmamışdı onda. Xudafərindən o üzdəki dağın üstünə çıxıb viran qalmış obalara baxanda ürəyi şan-şan olmuşdu Fikrətin. Tanrının işinə mat-məəttəl qalmışdı elə bil. Harayı ərşə qalxan Gəyən düzündə tüstülənən taxıl kövşənləri, talanıb dağıdılan Xudafərin SES tikintilərini görəndə əli üzündə qalmışdı onun.

Elə bil qəlbinin dərinliyivdən gələn qaibanə bir səs ona: «Dön, yaxşı bax, bu yerlərlə, bir də ata ocağınla qiyamət günü görüşəcəksən». Bu sözləri eşidəndə Fikrətin elə bil ürəyi qırılıb ayağının altına düşdü. Ömrünün arxada qalan illəri gözlərinin qabağından gəlib keçdi. Qumlaqdan şaxələnən ömür yolu uzaq Rusiyada keçən əsgərlik həyatının ağrı-acılarına bükülüb onunla üzbəüz dayandı. Yadına Xudafərin su-elektrik stansiyasındakı zəhmət soraqlı günlər düşdü. Qulağına idarə etdiyi nəhəng buldozerin harayı çatanda qumlağın üst tərəfində tüstülənən vaqon evlərin görünüşü ürəyini göynətdi. Göz yaşlarında boğula-boğula:

– Ay namərdlər, atalar qisas qiyamətə qalmaz deyiblər. Qismət olsa, Allahın köməkliyi ilə sizə borclu qalmarıq, – dedi...

Doxsan üçüncü ilin mart ayında ürəkdən sevdiyi peşəsi ilə vidalaşıb, Vətən torpağının çağırışı ilə cəbhəyə yollanmışdı Fikrət. Quşçular, Süleymanlı və Cəbrayıl şəhəri uğrunda gedən döyüşlər onun dözümünü sınağa-imtahana çəkmişdi. İçimizdə göyərən xəyanətin məkrli əlləri Cəbrayılın qala qapılarını düşmənlərin üzünə taybatay açandan sonra, doğma yurd yerlərimizi tərk edib, döyüşən əsgərlərimizin sırasına təzədən qoşulmuşdu. İstəyirdi ki, odlara qalanan obalarımızın, qanına qəltan edilən soydaşlarımızın qisasını alıb, ürəyində toxdaqlıq tapsın. Tərtərdə və sonra da Ağdamda gedən döyüşlərdə yaxından iştirak etməsi də bu arzu ilə bağlı idi. Cəbrayılda ağlar qalan yurd yerlərimizdən ötrü burnunun ucu elə göynəyirdi ki, qüdrəti olsaydı, quşa dönüb oraya baş çəkər, qəlbinin təşnəsini Vətən havası ilə söndürərdi. Füzuli cəbhəsinə gələndən sonra ümidi daha da artmışdı onun. Arabir Ziyarata tərəf əlini uzadıb:

– Düşmənin axırına çıxmağa az qalıb, bu gün, sabah Allah qoysa onlara əlimizin suyunu göstərəcəyik, – deyirdi.

Atəşkəs olmasına baxmayaraq namərd düşmən fürsət gözləyirmiş demə. Doxsan beşinci ilin 24 noyabrında atılan snayper gülləsi Fikrəti al-qana boyadı. İki gündən sonra yeganə övladının adını dilinə gətirib:

– Qisas qiyamətə qalmaz, – deyərək gözlərini əbədi yumdu...

# BİR ƏBƏDİ SƏFƏRDƏYƏM...

***Şükürov Vilayət Kərəm oğlu***
***doğulub - 21.10.1972-ci il,***
***Cəbrayıl rayonu, Şıxalıağalı kəndi;***
***Şəhid olub - 23.08.1993-cü il,***
***Cəbrayıl şəhəri***



Erməni quldurları Cəbrayıl şəhərini üç istiqamətdən atəşə tutduqlarından əsgərlərimiz geri çəkilib El yolunda mövqe tutmuşdular. Komandanlıqdan əmr gəldi ki, ən cəsur əsgərlərin bir qrupu şəhərin şimal hissəsinə yollanıb düşmənin qarşısını kəsməlidir. Əmr elan olunan kimi bir dəstə dəliqanlı gənc qabağa çıxdı. Onların arasında Şükürov Vilayət də var idi...

Vzvod komandirinin dediklərindən: «Vilayət Şükürovu xeyli vaxt idi ki, tanıyırdım. Daşbaşı, Quşçular, Qışlaq, Sur və Hərəkül ətrafındakı döyüşlərdən sonra bilirdim ki, o, gülləni gözünə sıxsan da geri dönən deyil. Biz şəhərin üst tərəfinə yollananda Vilayəti də könüllülər arasında görüb sevindim. Ürəyimdə; «Sənin kimi oğullarla dağı-dağ üstə qoymaq olar», –

dedim. Döyüş mövqeyinə çatanda Zəngilandan gələn batalyonun uşaqlarını orada gördüm. Ermənilər psixoloji və canlı qüvvənin hesabına inadla irəliyə can atırdılar. Düşmən tankları Xubyarlı və Hərəkül tərəfdən şəhərə daxil olanda qeyri-bərabər qüvvə ilə müdafiə olunmağın mümkünsüzlüyünü anlayıb atışa-atışa geri çəkildik. Şəhər polis idarəsinin yeni binasının yanına gəlib çıxanda artıq düşmən Cəbrayılı demək olar ki, ələ keçirmişdi. El yoluna tərəf uçan mərmilərin sayı-hesabı yox idi. Birdən uzaqdan Vilayətin səsi qulaqlarıma çatdı: «Komandir, məni vurdular!..» Vəziyyət elə idi ki, ona komək göstərə bilmədik...

Zəngilan batalyonunun döyüşçüsü Əsgər Quliyevin söhbətlərindən: «Arxaya çəkilib polisin binasının yanına çatanda küçədə üzüquylu düşmüş yaralı bir əsgərlə qarşılaşdıq. Belindəki aparatı açıb cibindən pasportunu, qeyd dəftərçəsini çıxarandan sonra al-qan içərisində sonuncu dəqiqələrini yaşayan bu əsgəri sürüyə-sürüyə şəhərin çıxacağındakı nəhəng qoz ağacının altına gətirdik. Güclü atəş altına düşdüyümüzdən onun meyitini kənara çıxara bilmədik. Arxaya çəkilib, onun pasportunun ilk vərəqəsinə yazılanları oxudum: – Şükürov Vilayət Kərəm oğlu, 21 noyabr 1972-ci il, Şıxalıağalı kəndi.

Vilayət Şükürovlar ailəsinin ən sevimli uşağı idi. Orta məktəbi bitirib Sarıcallı texniki-peşə məktəbində oxumuş, oradan da əsgəri xidmətə yollanmışdı. Ukraynanın Desna şəhərində keçən altıaylıq əsgərlik həyatı onun ən təlatümlü günlərinə təsadüf etmişdi. Doxsan birinci ilin payızında Vətəndən aldığı qara xəbərlər Vilayətin yuxusunu ərşə çəkmişdi. İl sona çatarçatmaz o, bir qrup azərbaycanlı balası ilə sözü bir yerə qoyub doğma Vətənə qayıtdı. Evlərinə gələn kimi: – Əsgərliyimin qalan hissəsini burada çəkəcəyəm, – dedi...

Vilayətin müəllim qardaşı Məzahir Şükürovun dediklərindən: «Deyirlər, «sonunu düşünən cəsur olmaz». Qardaşım Vilayət rahatlıq bilməyən, işinə tələbkar, torpağına bağlı bir adam idi. Bir gün cəbhədən evimizə gəlmişdi. Hamımız başına yığışmışdıq onun. Nağıl edirdi ki, yanında təzə bir əsgər var. Gecə düşəndə deyir ki, Vilayət, gərək gələn dəfə balta, dəhrə gətirəm özümlə. Bu qaratikan kolları gecələr gözümdə əjdahaya dönür. Qardaşım bu sözləri danışandan sonra əlini-əlinə sürtüb elə ləzzətlə gülürdü ki, hamımızın keyfi açılırdı. O, evə gələndə çəkdiyi əziyyətlər barədə bircə kəlmə də danışmaz, özünü şən göstərməyə çalışardı. Bütün döyüşdüyü yerləri, dayandığı postları əzbərdən tanıyırdım. Uğurlu Sur əməliyyatından sonra Vilayətdən bir soraq çıxmadı. Eşitmişdim ki, orada xeyli ölən və yaralananlar olub. Onu axtara-axtara gedib Qışlaq kən-



dinə çıxdım. Ağır döyüşdən sonra yorğun düşən əsgərlərimiz iki bir-üç bir yerə uzanıb mürgü vururdular. Onların arası ilə dolaşa-dolaşa Vilayəti soraqladım. Qardaşımı «gördüm» deyən olmadı. On iki gundən sonra Quşçular postunda Vilayətlə görüşəndə illər ayrısı kimi onun boynuna sarıldım. Heyf ki, tale ona nakam ömür verdi. İndi düşmən əsarətində qalan məzarına da baş çəkə bilmirəm, deyə ürəyimdən qara qanlar axır...

Doxsan üçün payızından yurd yerlərindən perik düşüb İsmayıllının Hapıtdı kəndinə pənah aparan Kərəm kişi və Suqra bacı hələ də Vilayətdən əllərini üzməyiblər. Onlara elə gəlir ki, igid oğulları günlərin birində dumanlı-çənli dağları aşıb yanlarına gələcək, onları dərdin, ələmin əlindən alacaqdır. Suqra ana sübhün gözü açılar-açılmaz ayağa qalxıb öz duaları ilə oğlunu soraqlayanda hər dəfə qaibanə səsi gəlir qulaqlarına:

*Bizim Şəhid adımız,*
*Solan deyil, ay ana!*
*Bu qisas qiyamətə,*
*Qalan deyil, ay ana!*

Vilayət unudulmaq üçün ölməyib. O, Vətən yolunda Şəhid olub ki, torpağı ümman sevgisi ilə qiymətə mindirsin. O, indi də əbədi bir səfərdədir. Vilayətin yaralı ruhu igidlərimizi hələ də cihada, qələbəyə səsləməkdədir...

## SƏNDƏN ÖTRÜ GÖZLƏRİMİZ YOLDADIR...



***Şükürov Elşad Camal oğlu***
***doğulub - 04.03.1971-ci il,***
***Cəbrayıl rayonu, Alıkeyxalı kəndi;***
***itkin düşüb - 10.10.1992-ci il,***
***Laçın rayonu, Səfiyan kəndi***

Şəhid oğullarımızın ünvanımıza ayaq açan izləri ilə tanış olarkən dörd səhifəyə sığınan bir yazı ilə rastlaşdıq. Araz Maşanlının igid balası Elşad Şükürovdan söz açan bu yazı elə yanğılı bir istəklə yazılmışdı ki, onu diqqətdən kənarda saxlamağa əlimiz gəlmədi. Şükürovlar ailəsinə dərin məhəbbəti olan bu müəllifin - Soltanlı orta məktəbinin direktoru Bayram Quliyevin qabiliyyətinə ürəyimizdə «əhsən» deməklə yazının ayrı-ayrı məqamlarını diqqətinizə çatdırırıq.

«Bir oğul tanıyırdım – sarıbəniz, ucaboy, enlikürək - göy-ala gözləri vardı. Boy-buxununa baxan onunla ciddi tonda danışmağa ehtiyat edərdi, ancaq Elşadın pilə kimi yumşaq qəlbinə bələd olanlar onun görkəmi ilə təzad təşkil edən xarakterinə heyran qalardılar...

Elşadın atası Camal kişi kolxoz mühasibi idi, hər səhər yolu Araz Maşanlı kənd orta məktəbinin önündən düşərdi. Bu müdrik kişi adəti üzrə uşaqdan böyüyə hamı ilə «salam, sabahınız xeyir», – deyib işə yollanar, ən geçi iki həftədən bir məktəbə üz tutub uşaqlarının bilik və davranışları ilə maraqlanardı...

Camal kişi həmişə deyərdi ki, ağlı başında olan adam unutmamalıdır ki, ona qələm tutmağı müəllim öyrədibdir...

Belə bir kişinin çörəyi ilə, duzu ilə, qibtə olunası tərbiyəsi ilə böyümüşdü Elşad.

Məktəbin yaxşı idmançılarından sayılırdı – kənd meydançasındakı yarışlarda müəllimi İsmixan Mehrəliyevin köməkçisinə çevrilməsi onu yaşıdlarının gözündə bir boy ucaldardı. Hakimliyinə də söz yox idi onun. 1988-1992-ci illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun sayılıb-seçilən idmançılarından olan Elşad dövlət imtahanını verib qurtaran kimi Milli Ordu sıralarına yazılmaq çağırışını hamıdan əvvəl qəbul edib.

– Bizi Vətən çağırır, - dedi, - o Vətən ki, onun hər qarışı qızıldan qiymətlidir. Onu bu ağır gündə qorumaq biz gənclərin borcudur...

Elşadın cəbhəyə yolu həmin gündən - doxsan ikinin iyun ayından başladı. Camal kişiyə bu xəbər çatanda o, fərəhindən yerə-göyə sığmayıb, oğluna uğur dilədi...



Doxsan ikinci ilin 17 oktyabrında Sumqayıtdan Laçına yola düşən könüllü əsgərlər arasında Elşad da var idi. Səfiyandakı Lənkəran alayının komandiri Əvəz Ramazanov üz-gözlərindən igidlik yağan cavan əsgərlərlə tanışlıqdan sonra onlara üzünü tutub:

– Sizin kimi övladı olan Vətən mənfur ermənilərə basılmaz, – dedi...

Ertəsi gün alayın 18 nəfər cəsur əsgəri xüsusi tapşırıqla, düşmənə arxadan zərbə vurmaq üçün Səfiyan meşəsinə göndərildi. Dəstəyə komandirlik edən leytenant Şükürov Elşad Camal oğlu sərt dağ yamacları ilə irəlilədikcə ətrafa göz qoyur, ehtiyatla addım atırdı...

Məkrli düşmən Elşadın dəstəsini sıx meşəlikdə gözlənilmədən «qarşıladı». Burada gedən qısa, lakin çox amansız döyüşdə düşmən sayca çox olsa da, igidlərimiz son nəfəslərinə kimi Vətənə sadiq qalıb, düşmənin başına od yağdırdılar...

Acı xəbər Alıkeyxalıya beş-on gündən sonra çatdı. Camal kişi oğlundan dəqiq bir xəbər eşitmək ümidi ilə hər yana ün saldı. Qardaşlarını ağılarda gəzib axtaran Şeyda və Dürrətülün ah-naləsi ürəkləri parçaladı...

Gövhər ana hələ də inana bilmir ki, onun nər biləkli oğluna düşmən gülləsi dəyər. Ana indinin özündə də yollara boylana-boylana igid balasının gəlişini gözləyir...

Elşadın Səfiyan meşəsində izsiz-soraqsız yoxa çıxmasından sonra onun qardaşları Elmanla Gürşad da Vətənə oğulluq borclarını veriblər. Elman rayon polis şöbəsində fəaliyyətə başlayandan bu günə kimi torpaqlarımızın müdafiəsində dayanıb qardaşının qisasını alacağı günü gözləyir. Elşadın sevimli bacısı Dürrətül Cəbrayılda qrad atəşi ilə qətlə yetirilən əri Ramazanı ağlayanda Elşadı da ağılara qatıb ürəkləri göynədir...

Yurd nisgili ilə yaşadığımız bu günlərdə Şəhid olan minlərlə eloğlumuzun cərgəsində dayanan Elşadın ürək parçalayan qaibanə səsi gəlir qulaqlarımıza:

*Balıqçıyam torum yox,*
*Ocağımda qorum yox.*
*Yurdum-yuvam dağılıb –*
*Kəfənim yox, gorum yox...*

Bircə təsəllimiz budur ki, Elşad kimi qeyrət mücəssəməsi olan oğullarımızın kəfəni də, goru da sevgi dolu qəlbimizdir. Təki Vətənsiz olmayaq, Camal kişi, Gövhər ana, Allah səbir versin sizə»...

# BİZ, SİZDƏN AYRILMAZDIQ



***Allahverdiyev Məhəmmədəli Həmid oğlu***
***doğulub - 1937-ci il.***
***Şəhid olub - 25.08.1993-cü il***

1937-ci ildə Söyüdlü kəndində anadan olmuşdu. Zəngilan Meşə Təsərrüfatı İdarəsində meşəbəyi işləyirdi. 1993-cü ilin avqustunda Söyüdlünü müdafiə edən hərbi bölmə heç bir müqavimət göstərmədən kəndi tərk edir. Avqustun 25-dən 26-na keçən gecə ermənilər Söyüdlüyə hücum edirlər. Məhəmməd kişi də düşmənə müqavimət göstərənlərdən biri idi və həmin döyüşdə qəhrəmanlıqla həlak oldu.



## ALLAHVERDİYEV LOĞMAN HƏBİB OĞLU
**doğulub - 1977, Şəhid olub - 1993-cü il**

1977-ci il fevralın 19-da Çullu kəndində anadan olmuşdu. 1983-cü ildə doğma kəndlərindəki səkkizillik məktəbə daxil olmuş, 1993-cü ildə Yenikənd orta məktəbini bitirmişdi.

Böyük qardaşı Mahmud Allahverdiyev 1992-ci il iyunun 28-də Sur döyüşündə igidliklə həlak olmuşdu. Loğman da qardaşı kimi cəbhələrdə döyüşmək istəyirdi. Lakin 1993-cü il avqustun 25-də düşmən hücumları zamanı Loğman erməni gülləsinə tuş gəldi. Oğlunu doğma torpağa tapşırmağa da macal tapa bilməyən Fatma ana onun meyitini min bir əziyyətlə Bakıya gətirərək «Mexkolon» deyilən yerdə dəfn etmişdir.



# HARAY ÇƏKİR GOR EVİN



***Verdiyev Famil Möyüş oğlu***
***doğulub - 1956-cı il, Cəbrayıl rayonu, Göyərçin Veysəlli kəndi;***
***Şəhid olub - 23.08.1993-cü il, Cəbrayıl rayonu***

Göyərçin Veysəlli kəndində anadan olmuşdu. Cəbrayıl şəhərində C. Əhmədov adına orta məktəbi, 1978-ci ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdi. Rayon məişət xidməti kombinatında işləyirdi. 1993-cü ilin avqust ayında Cəbrayılın işğalı zamanı güllə yarasından həlak olmuşdur. Ailəli idi. İki övladı yadigar qalıb...

Əgər bu lənətə gəlmiş ermənilər olmasaydı, Famil illər boyu ürəyində yaşatdığı arzularına qovuşar, balalarının nəfəsilə isinərdi. Göyərçin Veysəlli camaatının Allah adamı kimi tanıdıqları Famil Verdiyevin heç vaxt ağlına da gəlməzdi ki, illər boyu özlərini fağır bir məxluq kimi aparan ermənilər onu qanına bələyə bilərlər...

O, ali təhsilli bir mühəndis kimi qurub-yaratmaq əzmində idi. Oğuz elimiz Cəbrayılı daha da yarlı-yaraşıqlı görmək arzusu ilə əlindən gələni əsirgəmirdi...

Xan Çinarın sinəsinə qrad qəlpələri sancılandan sonra Familin də dincliyi, rahatlığı yağlı əppək kimi göyə çəkildi. Erməni quldurlarının əllərilə atılan güllələr ürəyi Vətən eşqilə döyünən Famil Verdiyevi qanına boyadı. Ömür-gün yoldaşı, bir cüt fidan balası ağlar qaldı...

...Beş ildir ki, Familin əsirlikdə haray çəkən gor evi perik düşən ellərimizin yanğısıyla qovrulur. Gün o gün olsun ki, doğma ocaqlarımıza qayıdıb onun da ruhunu nigarançılıqdan qurtaraq.

## BİR HƏZİN XATİRƏSƏN



***Babaşov Oruc Həmzə oğlu***
***doğulub - 1933-cu il,***
***Cəbrayıl rayonu, Balyand kəndi;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Balyand kəndi***

*Deyirlər ölüm haqdı,*
*Bu hikmətə inandıq.*
*Bəs, sənin ölümünə*
*Niyə bu qədər yandıq?...*

Sənin faciəli ölümün təpədən-dırnağacan yandırırdı bizi, Oruc müəllim. Allah günahsız bəndələrinə bunca zülm etməz. Sənin ölümün haqdan gələn ölüm deyildi. O qanlı-qadalı günlərdə Tanrı səni belə ölümlə «mükafatlandırmazdı». Sən iblisin-şeytanın girinə keçdin, qatil gülləsinə tuş gəldin o vaxt. Bəlkə də başqaları kimi doğma ocağını vaxtında tərk etsəydin, altı balanı gözüyaşlı qoymazdın. Ancaq sən düşmən qabağından qaçmağı ağlına belə sığışdırmadın. Balyand kəndi sənin üçün səngər idi, qala idi. Üç il idi ki, buraya sığınıb səhəri diri gözlü açırdın. Topdağıtmaz qayaları yenilməz qala sanırdın burada. Haradan biləydin ki, bir gün xəyanətin məkrli əlləri bu qalanın qapılarını düşmənin üzünə taybatay açacaq. Sənin kimi yurdsevər adamlar düşmən gülləsinə hədəf olacaq burada...

Sən gözəl bir insan idin, Oruc müəllim. Üz-gözündən təbəssüm yağırdı dünyamıza. Ən çətin anlarda belə dözümünü, təmkinini itirmirdin. Həyatda hər şeyi zəhmətin sayəsində əldə etmişdin. Əllərin həmişə qabar-qabar, cadar-cadar idi. Sən o əllərinlə ailənin toxluq dünyasını qurar, övladlarının taleyinə bəxtəvərlik gətirər, gecə-gündüz əlləşib-vuruşar, yorulmaq bilməzdin...

1957-ci ildə APİ-ni bitirib ali təhsil almışdın, kimya-biologiya müəllimi idin.

Beyləqan rayonundakı 3 saylı sovxozda işlədiyin üç il ərzində sadə sənətinlə çoxlarının məhəbbətini qazanmışdın. Orada indi də səni yaxşı xatırlayırlar...

Altmışıncı illərdə əvvəlcə Böyük Mərcanlıda və sonra Soltanlı kəndində məktəblilərin sevimlisi olmuşdun. Hər iki kəndin camaatı indinin özündə də adını əzizləyir, ölümünə yanıb heyfsilənir...



1975-ci ildən həyatını doğma kəndinizdəki orta məktəblə bağlamışdın. Balyand kəndində sən rayonun böyük təcrübəli, ixtisasının əsl ustası olan adlı-sanlı bir müəllim, tədbirli, təmkinli bir ziyalı idin. Burada camaatın ümid yeri idin, Oruc müəllim. Uşaqdan-böyüyə hamı adını ehtiramla anır, xeyir-şər məclislərində ağlına, düşüncənə söykənirdilər...

Bir az gec ailə qursan da Tanrı sənə altı yanımlı övlad bəxş etmişdi. Qızın Şəlalə N. Tusi adına APU-nun kimya-biologiya fakültəsini bitirəndə ruhun sevinmişdi. Ölüm macal versəydi qalan övladlarını da boya-başa çatdırıb ömrünü rahatlıqla başa vurasıydın...

Ancaq sən dünyamızdan nisgilli getdin. Sağlığında Balyanddan o üzdəki dağlara sığınan əsgərlərimizə tez-tez baş çəkib onlara ürək-dirək verərdin. İndi el-oba balalarına təsəlli verib, onları ovundurmağa çalışır...

Sən belə ölümə layiq deyildin. Oruc müəllim. Sən həmişə qəlbimizdə həzin bir xatirə kimi qalıb yaşayacaqsan. Tanrı ruhunu şad etsin!..

## SUYA QƏRQ OLAN OĞLAN

***Qarayev Allahyar İsrafil oğlu***

Qarayev Allahyar İsrafil oğlu Böyük Mərcanlı kəndində anadan olmuşdu. Mərcanlı camaatı onu sakit, üzüyola bir oğlan kimi tanıyırdı. Halal bir əkinçiyə bənzəyən Allahyar bahardan qışa qədər torpaqla, zəhmətlə nəfəs alırdı. Ağsaqqal sözünü, ağbirçək ehtiramını həmişə uca tutar, həmyaşıdları arasında ağlıyla, fərasətiylə seçilərdi. Ailəyə, iki körpə balasına elə bağlanmışdı ki, onlardan üç-beş gün ayrı yaşamağı təsəvvürünə belə gətirmirdi...

Sən demə hələ görəcəkli günləri qabaqdaymış onun. Arazboyu ellərimiz düşməndən yaxa qurtarmaq üçün İran səmtə üz tutanda qəfil ölüm Allahyarın yaxasından yapışdı. Arazın gur sularında qərq olan Allahyarın meyitini otuz səkkiz gündən sonra tapıb torpağa tapşırdılar. Son sədası, ünü Arazın bulanıq sularına qarışsa da, namərd gülləsinə tuş gələnlərin sırasında əbədi olaraq yaşamaq haqqı qazandı Allahyar. İnnən belə Araz yada düşəndə Allahyarı da xatırlayacaq, ona ürəkdən «torpağın nurlu olsun» deyəcəyik.

# İLAHİ ATA SEVGİSİ



***Quliyev Əkbər Məhəmməd oğlu***
***doğulub - 1935-ci il,***
***Cəbrayıl rayonu, Horovlu kəndi;***
***Şəhid olub - 23.10.1993-cü il,***
***Füzuli rayonu, Arayatlı kəndi***

Cavid Əkbər müəllimin dizinin taqəti, ürəyinin odu-közü idi. Həyatda oğlundan ötrü hər əzaba, məşəqqətə dözmüşdü o. Cavid Milli Orduda xidmət edəndə ciyərparasına tez-tez baş çəkib onun dayandığı döyüş postlarına üz tuturdu Əkbər müəllim. Cavid atasını ölüm kabusu dolaşan yerlərdən uzaqlaşdırmağa çalışırdısa da, müvəffəq ola bilmirdi buna. O, belə vaxtlarda atasını dilə tutub:

– Onsuz da mən odun içərisindəyəm. Evdə iki xəstə uşağın var. Yaxşısı budur ki, onların qeydinə qal. Anamı dərd onsuz da üzür. Sən onların yanına qayıtsan evimizdən nigaran qalmaram, – deyirdi.

Əkbər müəllim oğlunun həyəcanını duyub anlasa da fikrindən daşınmırdı yenə:

- Vallah, Cavid, özümlə, sənə bağlı ürəyimlə bacara bilmirəm. Mənə elə gəlir ki, yanından uzaqlaşsam sənə xətər toxunacaq...

Düşmən əlinə keçən Cəbrayıl torpaqlarının son harayını ata-bala birlikdə eşitdilər o payız. Araz boyunda qopan hərb qasırğası onları ayırdı bir-birindən. Cavid düşmən mərmiləri altda təntiyib səmti itirən əsgərlərimizlə birlikdə Arazın o üzünə adladı. Qarışıqlıqda oğlunu itirən ata «Cavid» – deyə nalə çəkib Horadizdən Beyləqana uzanan yollarda aradı onu. Füzulinin Arayatlı kəndi ətrafında Əkbər müəllimin ürəyində sızıldayan «oğul» kəlməsi gülləyə tuş gəldi. Ata oğuldan, oğul atadan xəbərsiz köçdülər dünyadan. Əkbər müəllim oğlundan ötrü canından keçdi, Cavid Vətən yolunda Şəhid oldu. Ata məhəbbəti, oğul istəyi bir cüt qoşa qəbirdə əbədiyyətə söykəndi. Bu İlahi sevgiyə göylərin özü də qibtə ilə baxır indi...



# QƏRİBLİKDƏ QALAN MƏZAR

***Quliyev Əli Surxay oğlu***
***doğulub - 1926-cı il,***
***Cəbrayıl rayonu, Dağ Tumas kəndi;***
***Şəhid olub - 25.08.1993-cu il,***
***Cəbrayıl rayonu, Dağ Tumas kəndi***



Ömrünün ahıl çağlarında sinəsi düşmən gülləsi ilə parçalandı Əli müəllimin. Onun yurd sevgisi ilə döyünən ürəyi bircə anın içərisində didim-didim oldu. O, neçə-neçə insana arxa, həyan olmuşdu həyatda. Təlatümlü, qovğalı bir ömür yaşamışdı, tale sınağa çəkmişdi onu hər yerdə...

Dörd yaşı olanda atası Surxay kişini bolşeviklər gedər-gəlməzə yola salmışdılar. Əmisi Məhəmməd kişinin himayəsində dirçəlib ayaq üstə qalxmışdı Əli müəllim...

Hərb küləyi onu da yeniyetmə çağında Dağ Maşanlı kəndindən qoparıb odun-alovun içərisinə atmışdı. Orconikidze şəhərindən başlayan döyüş yolu Ukrayna torpağında sona çatmışdı. O qanlı-qadalı illərdən yadigar döyüş medalları, təşəkkürnamələri var idi onun...

1951-ci ildən başlayaraq düz on dörd il Böyük Mərcanlıdakı orta məktəbdə müəllim işləmiş, yetmişinci ildə qiyabi yolla ali təhsil almışdı...

Yenikənd məktəbinə rəhbərlik etdiyi illərdə camaatın iman inanc yerinə dönmüşdü. Pensiyaya çıxandan sonra da məktəbin pedaqoji kollektivindən ağsaqqal məsləhətlərini əsirgəmirdi...

Cəbrayıl torpaqları hücuma məruz qalandan sonra cavanlarla birlikdə yurda keşik çəkir, Şəhid ailələrinin dərdini bölüşürdü...

Avqustun 25-də axşamüstü düşmən Tumas atanın həndəvərinə gəlib çıxanda qız-gəlinin ələ keçməməsi üçün özünü Səməndər quşu kimi oda-közə vurub, çoxlarını ölümdən xilas etdi Əli müəllim. Bircə özünü qorumağa macalı olmadı onun. Güllə sinəsini parçalayanda da ölümü mərdliklə qarşılayıb düşmən qarşısında sındırmadı özünü. Ömrü boyu insanlara saf duyğular aşılayan bu gözəl insanı Qubadlının Əfəndilər kənd qəbiristanında torpağa tapşırdılar. İndi yad əllərdə qalan Həkərinin nisgilli nəğmələri ruhunu ovundurur onun. O vaxtdan bəri doğma yerlərdən perik düşən obaların arxasınca boylanıb baxmaqdadır o. Onun qərib bir məzara sığmayan ruhu hər axşam səsə, ünə çevrilib əsən küləklərə qarışır. Əli müəllimin bizə doğma olan çöhrəsini xatırlayıb qovruluruq hələ də...

# DÜNYADAN KƏFƏNSİZ KÖÇƏNİMİZ VAR



***Quliyev Novruz Şəmil oğlu***
***doğulub - 1930-cu il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi;***
***Şəhid olub - 25.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi***

Novruz doğulduğu Qazanzəmi kəndində böyüyüb boya-başa çatmışdı. Yeniyetməlik illəri Vətən müharibəsi dövrünə düşmüş, müharibədən sonra da ağır güzəran keçirmişdi. Sonralar halal zəhmət hesabına özünə ev-eşik, gün-güzəran düzəltmişdi. Novruz kişinin 3 qızı, 2 oğlu var idi. Qızları Fatmanı, Gülüzəni, Əminəni yerbəyer eləmişdi...

Xalqımızın başının üstünü almış qəfil bəla onu da varından yox eləmişdi. Fikrinə, xəyalına daim Dolanlar ermənilərinə elədikləri yaxşılıqlar gəlirdi. «Bu zatıqırıqlar niyə belə eləsinlər?» – deyə soruşurdu. Sonra da öz-özünə cavab verirdi: «Bir adama ki, zatıqırıq deyəsən, daha ondan nə gözləmək olar?» Beləcə günlər, aylar keçirdi. Nəhayət, o məşum avqust günləri və çoxlu soydaşlarımızın ömrünə nöqtə qoymuş 25 avqust günü... Həmin gün Novruz kişi də bir dəstə həmkəndlisi ilə doğma yurd yerlərini məcburi tərk edərkən ermənilərin gülləsinə hədəf oldu. Beləliklə, ömrünün ixtiyar çağında gorsuz, kəfənsiz bu dünyadan getdi. Allah rəhmət eləsin, ruhu şad olsun!

Oğlanları Əli və Məhəmməd uzun müddət hərbi qüvvələrin tərkibində düşmənə qarşı vuruşmuşlar.



# ATA ÖLƏR, YURDU QALAR OĞLUNA



***Quliyev Sövdəyar Nəcəf oğlu***
***doğulub - 01.12.1958-ci il,***
***Cəbrayıl rayonu, Çullu kəndi;***
***Şəhid olub - 20.05.1991-ci il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi***

Sövdəyar Çullu kəndinin həyata yeni atılan gənclərindən idi. Çulludakı səkkizillik məktəbi, 1976-cı ildə isə Qubadlı rayonu Xanlıq kəndindəki orta məktəbi qurtardıqdan sonra Göyçayda kənd təsərrüfatı texnikumunun mexanizasiya şöbəsini bitirmişdi. O vaxtkı kənd cavanlarının əksəriyyətində texnikaya olan maraq onu çəkib buraya gətirmişdi. Texnikumu qurtardıqdan sonra hələlik bacardığı işlərin qulpundan yapışırdı. Bir müddət Beyləqan rayon suvarma idarəsinin Cəbrayıl sahəsində mexanik işləmişdi.

Atası Nəcəf kişi Çullu kəndinin sayılan ağsaqqallarından hesab olunurdu. Müəyyən məsələlərdə kənd adamları onunla məsləhətləşirdilər. Yaxın qohumlarından birinin qızı ilə evləndirmişdi böyük oğlunu. Oğul toyundan sonra ürəyi dağa dönmüşdü onun. Bacıları, kiçik qardaşı Rza başına pərvanə kimi dolanırdılar Sövdəyarın...

1991-ci ildən sonra doğma kəndlərinin və ətraf kəndlərin cavanları kimi o da postlara, əsgərlərin yanına, könüllü müdafiə batalyonlarına gedib-gəlir, onlara hayan olub ürək-dirək verir, onların bir çatışmazlığı olanda karlarına gəlirdi. Qəlbində düşmənə qarşı sonsuz kin və qəzəb kükrəyib daşırdı. Ancaq hələ sovet hökuməti var idi, hirsindən dişi bağırsağını kəssə də əlindən nə gəlirdi ki. Düşmənlə savaşa çıxacağı günü gözləyirdi. Amma...

1991-cü il may ayının 20-də Qazanzəmi postundan kəndlərinə gəlirdi, meşəlikdən keçərkən qəflətən düşmən pusqusuna rast gəldi. Elə o andaca namərd erməninin atdığı güllələr onun Vətən məhəbbəti, torpaq istəyilə döyünən qəlbini əbədi susdurlu. Çullu camaatı onu böyük hörmət və ehtiramla dəfn etdi. O, kəndin ilk şəhidi, ilk qurbanı idi. Qəbri doğma kəndindəki qəbiristanlıqdadır.

Üç oğlu Sərvəri, Asəfi, Rüfəti yadigar qalıb. Ömür-gün yoldaşı Hüseynova Nailə Cəmil qızı Sövdəyarın hənirini balalarından alır indi.



## QALMAZ BELƏ DÜNYA

***Dünyamalıyev İmran Cavanşir oğlu***
***doğulub - 25.04.1960-cı il,***
***Ermənistan SSR, Qafan rayonu,***
***Qacaran kəndi;***
***Şəhid olub - Xocavənd rayonu,***
***Zamzur kəndi***

80-ci illərin ortaları idi. Erməni millətçiləri qədim Azərbaycan torpağında açıq-açığına meydan sulayır, dədə-baba torpaqlarında məskunlaşıb çörəyi ilə böyüdükləri yerli əhaliyə – Azərbaycan türklərinə qarşı özbaşınalıq edirdilər. Girəvələyib onları hər addımbaşı sıxışdırır, təhqirə məruz qoyurdular. Qacaran kəndində zülm ərşə dirənmişdi. Erməni daşnaqlarının alçaq hərəkətlərinə daha dözmək olmurdu. Vəziyyət gündən-günə pisləşirdi. Dığaların ağlasığmaz sitəmi kənd camaatını təngə gətirmişdi. İş o yerə gəlib çatmışdı ki, qaniçənlər: «Nə qədər gec deyil, rədd olub gedin, onsuz da axırınıza çıxacağıq» – deyə kənd sakinlərinə hədə-qorxu gəlir, yeri gəldikcə gah hiylə və xəyanətə, gah da zora əl atırdılar. Onların bu vəhşiliyinə kəndin İmran kimi qeyrətli cavanları dözmür, tez-tez ermənilərlə əlbəyaxa olurdular. Qarşıdurmanın nahaq qanla nəticələnəcəyini hiss edən ağsaqqallar cavanları sakitləşdirməyə, ehtiyatlı hərəkət etməyə çalışırdılar:

– Səbirli olun, bala, deyirdilər. – Allah var, rəhmi var. Zülmü yerdə qoymaz. Geci-tezi var. Birinci dəfə ha deyil, nadürüstlərdə bu bir xəstəlikdir. Qanları çoxaldımı, gözləri ayaqlarının altını görmür. Ta, o vaxta qədər ki, gərək o murdar qan bədənlərindən çıxsın, sonra sakitləşirlər.

Ancaq ixtiyarlar millətimizə qarşı edilən soyqırımdan, ermənilərin minlərlə günahsız müsəlmanları məscidlərə doldurub diri-diri yandırmalarından, qundaqda olan körpələri tüfənglərinin süngüsünə taxıb öldürmələrindən söhbət açmağa ehtiyat etdilər. Çünki sovet rejimi idi və onun ermənilərə əl verməsi soydaşlarımıza yaxşı bəlli idi. Bu rejimin erməni əli ilə axıtdığı türk-müsəlman qanının xofu hələ qalırdı...

Qulağıkəsik Andranik kimi babalarının dərslərini keçən, Azərbaycana düşmən olan qüvvələrdən dəstək alıb şirnikərək silaha əl atan ermənilər



əliyalın Qacaran camaatını yurd-yuvalarından, isti ocaqlarından perik düşməyə məcbur etdilər. İmrangil Cəbrayıla pənah gətirdilər. Vətəndən Vətənə gələn İmran Dünyamalıyevi burada öz doğmaları kimi qarşıladılar. Korluq çəkməyə qoymadılar. Yaşamaları üçün hər cür şərait yaradıldı. Bu yerlərin təbiəti, ab-havası İmranın çox xoşuna gəlirdi. Diş göynədən bulaqları, uca dağları, yaşıllıqları İmrana doğma kəndlərini xatırladırdı. O, yerli camaata tez mehr saldı, burda ailə həyatı da qurdu. Bununla belə hərdən doğulub ərsəyə çatdığı yerlər yadına düşəndə kövrəlir, onları tərki-vətən edənlərə nifrəti birə-beş artırdı. Amma heç yuxusuna da girməzdi ki, düşmən əlindən qaçıb sığındığı Qarabağ torpağında düşmənin gülləsinə tuş gələr...

Ermənistandan soydaşlarımızı qovandan sonra Qarabağda da saqqallılar cövlən edirdilər. Tez-tez ermənilərlə həmsərhəd olan kəndlərimizə basqın edir, murdar niyyətlərini həyata keçirməyə çalışırdılar. Cəbrayıl əhalisi uşaqdan-böyüyə hamı bir nəfər kimi torpağımızın müdafiəsinə qalxaraq 12 kəndi ermənilərdən təmizləmişdilər də. İmran Dünyamalıyev də silaha sarılmışdı. Onun qəlbi qarı düşməndən qisas almaq atəşi ilə alışıb-yanırdı. Lakin tale İmrana yar olmadı. Düşməndən intiqam almağı sona çatdıra bilmədi. Xocavənd rayonunun Zamzur kəndi uğrunda gedən qanlı döyüşlərdə həlak oldu. Nə etməli İmran, arxalı düşmənin havadarları hələ çoxdur. Amma bu dünya belə qalmaz. Bir gün gələr, haqq yerini tapar. Sənin yeganə oğlun Zəngəzura qayıdaraq ata yurdunun sönmüş ocağını yenidən yandırar.

# HEÇ KƏSİN ƏLİ ÇATMADI ONA



***Əzimov Əşrəf Məhəmməd oğlu***
***doğulub - 1937-ci il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi;***
***Şəhid olub - 25.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Qazanzəmi kəndi***

Həyatın qəribə işləri var. Əşrəf kişinin ağlına da gəlməzdi ki, bir vaxtlar doğulub boya-başa çatdığı Qazanzəmi kəndi nə vaxtsa döyüş meydanına çevriləcək, burada elin sayseçmə oğulları namərd və nankor ermənilərin fitnə-fəsadına güdaz olacaq, elə buradaca yurdun neçə-neçə övladı itkin düşəcək, girova çevriləcək.

Bunlar hamısı sonralar baş verəcəkdi. Orta məktəb təhsili almış Əşrəf Əzimov hələlikdə isə o vaxtlar Cəbrayılda üzüm istehsalına görə öndə gedən sovxozda çalışır. Həm işdə, həm də camaat içində sayılıb-seçilən adamlardan hesab olunurdu.

Hələ lap çoxdan gizli-gizli hazırlanan erməni məkri 1988-ci ildə üzə çıxır, addım-addım irəliləyərək Qazanzəmiyə və ətraf kəndlərə gəlib çıxdı. Kəndin təkcə cavanları yox, yaşlı adamları, ağsaqqalları da silaha sarılıb yurdu qorumağa qalxmışdılar. Əşrəf də ömrünün 50-ci baharından sonra bu yolu tutmuşdu, kənd soveti yanında yaradılmış özünümüdafiə dəstəsinin üzvü idi. Gündüzlər təsərrüfatın müxtəlif sahələrində, gecələr isə postlarda kəndin müdafiəsində idi. Hələ heç nə öz axarından çıxmamışdı. Hələ Moskva baş qatmaqla məşğul olurdu...

Lakin 1993-cü ilin avqustu sanki Cəbrayıla və onun kəndlərinə bəla gətirdi. Bir həftə içərisində rayonun 50-yə yaxın kəndi düşmən işğalına keçdi. Qazanzəmi də bu kəndlərdən biri idi. Avqust ayının 25-də erməni silahlı birləşmələri Dağ Tumas, Çullu, Qazanzəmi kəndlərini də yerlə yeksan elədi. Düşmənin qarşısını kəsib camaatın kənddən çıxmasına kömək edən Əşrəf Əzimov və neçə-neçə digər qazanzəmili həmin gün düşmənin xain gülləsinə tuş gəldi. Ölümcül yaralanmış Əşrəf düşmən ermənilərin əhatəsinə düşdü. Ona doğmalarından, yaxınlarından, el-obasından heç kəsin əli çatmadı, ünü yetmədi. Çünki onlar təhlükədən can qurtarmaq üçün artıq kənddən uzaqlaşmışdılar və Əşrəfin itkisindən sonra xəbər tutacaqdılar.



Əşrəf Əzimovdan bu dünyada yadigar üç qızı, bir oğlu qaldı. İndi onlar ailə həyatı qurublar. Sumqayıt şəhərində müvəqqəti məskunlaşıblar. Oğlu Adışirin əsgəri xidmətini başa vurduqdan sonra Sumqayıt Politexnik Texnikumunda oxuyur...

# YURDDA QƏRİBSƏYƏN MƏZAR SAKİNİ



***Əliyev Nizam Fili oğlu***
***doğulub - 14.09.1949-cu il,***
***Cəbrayıl şəhəri;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Cəbrayıl şəhəri***

Taleyin qəribə, həm də amansız işləri var. Həmin gün başına nə iş gələcəyini bilsəydi, heç olmasa uşaqlarını yerbəyer edərdi Nizam. Ən azı Cəbrayıl camaatının kiçicik təhlükə zamanı yığışdığı Mahmudlu kəndinə gedərdi bir neçə gün əvvəl. Amma o hər şeydən xəbərsiz idi. Xəyalında yalnız bircə fikir dolanırdı: Cəbrayılı heç vaxt düşmənə vermək olmaz. Rayonun işğal oluna biləcəyi heç onun ağlına da gəlmirdi. Ona görə də daim rayon mərkəzində, adamların arasında idi...

Əliyev Nizam Fili oğlu 1949-cu ildə Cəbrayılın Mirzəcanlı kəndində anadan olmuşdu. 1966-cı ildə M. Qorki adına şəhər orta məktəbini bitirmiş, iki il keçmiş Sovet ordusu sıralarında əsgəri xidmətdə olmuşdu. Əsgəri xidmətdən sonra bütün ömrü boyu rayonun ticarət və ictimai iaşə təşkilatlarında çalışmışdı.

1988-ci ildən sonra başlamış erməni məkri, erməni hiyləsi Nizamı da varından yox eləmişdi. Ermənistandan başlamış ilk qaçqınlar dəstəsinin yerləşdirilməsində, onların hər cür qayğısının çəkilməsində o da yaxından iştirak edir, insanlıq, vətəndaşlıq borcunu yerinə yetirirdi. Lakin sonralar hadisələr öz məcrasından çıxdıqca vəziyyət də dəyişirdi. Artıq Cəbrayılın başı üstünü təhlükə almaqda idi. 1992-ci ilin əvvəllərində yaradılmış ziyalı batalyonunda Nizam da fəallıq göstərir, postlara gedirdi. Son vaxtlar bu batalyonun fəaliyyəti dayandırılsa da, Nizam öz məsləkdaşları ilə məsləhətləşir, postlardakı əsgərlərə hər cür kömək etməyə çalışırdı...

Elə 1993-cü il avqustun 15-də də belə bir istəklə evdən çıxmışdı. Birdən sanki göy gurladı, ildırım çaxdı, yer-göy birləşdi. Güclü mərmi yağışı şəhəri ağzına götürmüşdü. Belə təlatümlü anların birində ermənilər tərəfindən atılan qrad mərmilərinin biri onun yaxınlığında partladı. Mərmi qəlpəsindən ağır yaralanmış Nizam Əliyev xəstəxanada dəhşətli bir faciə, sonsuz bir nigaranlıqla dünyasını dəyişdi.

Həyat yoldaşı Cəmilə xanım istəkli ömür-gün yoldaşının ölümündən sonra onun varlığını doğma balalarından - Zamiqdən, Namiqdən, balaca Günaydan alır. İndi onlar Saatlıdakı çadır şəhərciyində məskunlaşıblar. Atalarının doğma yurdda onlar üçün qəribsəyən məzarını ziyarət edəcəkləri günü həsrətlə gözləyirlər.

## TƏNHA MƏZAR



***Əmrahova Xanım Qərib qızı***
***doğulub - 15.07.1966-cı il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***Şəhid olub - 22.10.1993-cü il,***
***Füzuli bölgəsi, Qazaxlar kəndi***

O ili payız çox barlı-bəhərli gəlmişdi. Araz vadisinin bərəkətli torpaqlarında bol məhsul yetişdirilmişdi. Erməni qəsbkarları rayon mərkəzini, dağ və dağətəyi kəndlərimizi işğal etsələr də aran təsərrüfatlarında, illah da Böyük Mərcanlıda iş əvvəlki ahəngini dəyişməmişdi. Camaat çəkdiyi zəhmətin bəhrəsini toplamaqla məşğul idi, hamı kimi Quliyevlər də öz iş-gücündən qalmırdı. Evin gəlini Xanım isə tikiş sexində daha ürəklə çalışır, işindən həqiqi mənada zövq alırdı. Axı, o, hələ məktəbli yaşlarından bu peşəni sevib¬ seçmişdi. Ona görə də orta təhsili başa vurandan sonra 90 saylı texniki peşə məktəbini bitirmişdi. 1986-cı ildə doğma kəndlərinə qayıdaraq Yuxarı Mərcanlı kəndindəki tikiş sexində fəaliyyətə başlamışdı.

1991-ci ildə ailə səadətinə qovuşdu. İlk körpəsi dünyaya gələndə isə gənc ananın fərəhi yerə-göyə sığmır, özünü xoşbəxtlərin xoşbəxti sanırdı. Beləcə xoş duyğuların təsiri altında yenicə dünyaya gəlmiş körpəsinin sabahı barədə şirin xəyallara dalardı. Fəqət heç ağlına da gəlmirdi ki, qarşıda onu dəhşətli faciə gözləyir. Haradan biləydi ki, insanlıq simasını itirmiş erməni işğalçıları bütün beynəlxalq normalara məhəl qoymayaraq İran İslam Respublikası ilə həmsərhəd olan kəndlərimizi yerlə-yeksan edəcək, dinc əhaliyə amansızcasına divan tutacaqlar.



Xatırlamaq nə qədər acı olsa da, milli düşmənlərimiz Arazboyu kəndlərimizi də oda qaladılar. İriçaplı silahlardan, qradlardan atılan mərmilər digər kəndlərimiz kimi Böyük Mərcanlının da külünü göyə sovurur, vahiməyə düşmüş əhali hara gəldi qaçır, təhlükədən xilas olmağa çalışırdı. Xanımgil də Arazın sol sahili ilə sərhəd boyu Füzuli rayonunun Horadiz qəsəbəsi səmtə üz tutmuşdular.

Düşmənlərin təqiblərindən yaxa qurtarmağa ciddi-cəhdlə çalışsalar da, qaniçən erməni əsgərlərinin avtomatdan açdıqları atəşə hələ bala qığıltısından doymamış ananı bağrına basdığı günahsız körpəsi ilə birlikdə qanına qəltan etdi. Qəddarcasına qətlə yetirilən Xanım Əmrahovanı körpəsi ilə birlikdə Qazaxlar kəndində yerləşən sərhəd zastavasının yanında dəfn etdilər. İndi iki tənha məzar yaxınlıqdakı Böyük Mərcanlı kəndinə həsrətlə boylanaraq sanki bizlərə üz tutub deyir: Tənhalıq bizi yaman sıxır. Nə vaxt düşməndən qisas alıb bizi bu sıxıntıdan qurtaracaqsınız? Doğma yerlərdən ötrü elə qəribsəmişik ki!..

***ƏMRAHOVA MAHNİSƏ ŞIXALI QIZI***
***doğulub - 1939-cu il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***Şəhid olub - 25.08.1993-cu il,***
***Hovuslu kəndi***



İnsanları sevən, hamıya hörmət bəsləyən, tanıdığı adamın uğurlarına sevinən bir insan idi Mahnisə ana. Anadan olub boya-başa çatdığı Hovuslu kəndində ailə həyatı qurmuş, 4 oğul, 3 qız böyütmüşdü. Övladları da özü kimi eləobaya yanımlı idi. Mahnisə ana övladlarını ərsəyə gətirmək üçün kiprikləri ilə od götürmüşdü.

Qarabağ savaşı başlayandan sonra Mahnisə ananın və onun ailə üzvlərinin də gün-güzəranı yox idi. Torpaqlarımıza göz dikən yağı düşmənin hücumu gün-gündən güclənirdi. 1993-cü ilin avqust ayı gəlib çatmışdı.

Cəbrayılı və onun ətraf kəndlərini işğal qorxusu sarsa da yerli camaat, kənd əhalisi öz doğma yurd-yuvasından, ev-eşiyindən ayrılmaq istəmirdi. Elə bu vaxtlarda Mahnisə anaya xəbər gəldi ki, onun Milli Ordu tərkibində vuruşan oğlu Nuşirəvan Əfəndilər kəndi uğrunda döyüşlərdə ağır yaralanıb və onu Bakıya aparıblar. Ana Bakıya yollanır, bir neçə gün doğma balasının yanında qalır. Nuşirəvanın vəziyyəti bir az yaxşı olan kimi geriyə qayıdır, doğmalarına bir xəbər aparmaq istəyir.

Öz kəndlərinə gəlib çıxan Mahnisə ana kənddə heç kəsi görmür. Geri qayıdarkən isə kəndə doluşan ermənilərin namərd gülləsinə düçar olur. Yol yoldaşları yaralansalar da düşmənin əlindən qurtula bilirlər. Mahnisə ananın cəsədi isə elə orada – daim mehrinə, məhəbbətinə sığındığı doğma torpaqda qalır...



***ZALOVA ZABITA ƏHMƏDXAN QIZI***
***doğulub - 08.1907-ci il,***
***Cəbrayıl rayonu, Dəjəl kəndi;***
***Şəhid olub - 23.10.1993-cu il,***
***Şıxalıağalı kəndi***

Ömrünün çox hissəsini kolxozda sağıcı işləmişdi. Altı övlad anası idi. 1993-cü ilin avqust ayında rayonu - yaşadığı Şıxalıağalı kəndini tərk etməyən oğlu Təbrizin ardınca gedərkən düşmən gülləsinə tuş olmuşdur...





***İSGƏNDƏROV TƏBRİZ NOVRUZ OĞLU***
***doğulub - 1939-cu il,***
***Cəbrayıl rayonu, Dəjəl kəndi;***
***Şəhid olub - 1994-cu il, Xocavənd rayonu***

Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdi. Bir müddət Quycaq kəndində, sonradan isə Mahmudlu kənd xəstəxanasında həkim işləmişdi. Üç övlad atası idi. 1993-cü ilin avqustunda erməni faşistlərinin Cəbrayıla hücumları zamanı o öz əzizlərindən həmişəlik ayrı düşmüş, doğma torpaqda qalıb ölməyi hər şeydən üstün tutmuşdu.

Əhali rayonu tərk edəndən sonra o, ermənilər tərəfindən girov götürülmüş, min bir əzab-əziyyət çəkmişdi. Ailə üzvlərinin verdiyi məlumata görə, 1994-cü ilin yanvar ayının 5-də Qırmızı Xaç Cəmiyyətinin vasitəsilə alınan məlumatlara əsasən, 1993-cü il 8 noyabrdan 1994-cü il 14 dekabradək Hadrutdakı türmədə saxlanmışdı. Buradakı girov və əsirlərə vəhşicəsinə verilən işgəncə və əzablara etiraz əlaməti olaraq, bir həkim kimi aclıq elan etmiş və elə oradaca 1994-cü ildə vəfat etmişdir.



***İBİŞOV BAXŞI ZEYNAL OĞLU***
***(1946-1993)***

Qışlaq kəndində anadan olmuşdu. 1962-ci ildə Süleymanlı kənd səkkizillik məktəbini, 1965-ci ildə Balyand kənd orta məktəbini, 1968-ci ildə isə Bakı Plan-Uçot Texnikumunu bitirmişdi. Süleymanlı kolxozunda mühasib işləyirdi.

18 avqust 1993-cu ildə erməni quldurlarının atdığı qrad mərmisindən aldığı ağır yaradan həlak olmuşdur. 7 övladı var.

## O, YAXŞI OĞLAN İDİ...



***İbrahimov Rəsul Bəyqulu oğlu***
***doğulub - 1956-cı il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***Şəhid olub – 24.08.1993-cü il,***
***Füzuli rayonu, Əhmədbəyli kəndi***

Rəsul qabarlı əllərinə, təmiz ürəyinə güvənən bir oğlan idi. Böyük Mərcanlı kəndində hamı onu açıqürək, zarafatcıl bir oğlan kimi tanıyırdı. Dünyaya göz açdığı 1956-cı ildən öldüyü günə kimi bir kimsənin xətrinə dəyməmişdi. Elə ona görə də dost-tanışları çox idi. Təkcə mərcanlılar yox, eyni zamanda bütün Cəbrayıl camaatı onu yaxşı bir maşın ustası kimi tanıyırdılar. Qapısına gələn adamı darda qoyan deyildi. Dörd övladından ötrü od içindən keçməyə hazır idi. Ölüm mələyi onu yolda, – Birinci Mahmudlu kəndində yaxaladı. İdarə etdiyi «Jiquli» maşınının üstünə düşən qraddan həlak olan Rəsulun ölümü hamımızı yandırdı.

## GÖZƏLİM HANI, ARAZ?!



***İmanova Gözəl Mehdi qızı***
***doğulub - 1972-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***Şəhid olub – 24.10.1993-cü il,***
***Cocuq Mərcanlı kəndi***

Doxsan üçüncü ilin payızından üzü bəri Muğandakı çadır komasında gözlərinin yuxusu ərşə çəkilib Ceyran ananın. Gözəl deyib nalə çəkməkdən dili-ağzı qabar bağlayıb onun. Mehdi kişi Araz qırağındakı sərhəd zolağında düşmən gülləsinə hədəf olan qız balasının cəsədini arayıb tapmaq üçün Horadizdən o üzə adlaya bilmir hələ də. O vaxtdan yarlı-yaraşıqlı Gözəlin üşüyən ruhunu ana torpaq isindirir, pərişan xurmayı saçlarını Arazın səhər mehi darayır...



Pəri bacının hekayətindən:

O gün bizim mindiyimiz traktorun lafetinə özünü son anda çatdırmış Gözəllə yanaşı oturub göz yaşları içərisində arxada qalan kəndimizə tərəf boylanırdıq. Cocuq Mərcanlının tuşuna çatanda üstümüzə od yağmağa başladı. Bir-birimizə söykənib səsimizi çıxarmırdıq. Birdən elə bil başımın üstə şimşək çaxdı. Yana çevriləndə Gözəli qan içində gördüm. Ha səslədimsə cavab vermədi. Düşmən bizi elə karıxdırmışdı ki, qızın cəsədini lafetdən belə düşürə bilmədik...

Ceyran ananın Gözəldən əlləri üzülmüşdü onda. İki gün qabaq üstünə «qrad» düşən qaynanası Lala bibimin ölümündən başını itirmişdi. Arazın gur sularını keçib o taya adlayanda ağlına da gəlməzdi ki, sevimli balasını düşmənlər qanına qəltan ediblər. Bilsəydi ayağını bircə qarış o yana atmaz, yaralı balasının üstə yüyürüb duz kimi yalayardı onu. Ancaq qızının ölümündən xəbərsiz idi Ceyran ana. Bir çiskinli payız günü qaçqın çadırlarına gəlib-gedənlərin üstə qaçaraq:

– Gözəlimi görmədiniz? – deyə soraqlayırdı onu...

Axır ki, Gözəlin ölüm xəbərini çatdırdılar anaya. Bir müddət inanmadı deyilənlərə. Elə bildi ki, düşmən yaralı halda girov aparıb onu. O qanlı hadisəni görənləri tapıb, anda çəkdi onları. Balasından əlləri üzüləndə göylərə tutdu üzünü:

– Kəráminə şükür, ay gözəgörünməz ulu Tanrı, nə günahı vardı ki, beş arşın kəfəni, bir qarış gor evini əsirgədin ondan?..

Heç bir günahı yox idi, mələk simalı bir qaz idi Gözəl. Ruqiyyə balamla bir məhəllədə böyüyüb, bir yerdə məktəbə getmişdilər. Barmağına təzəcə nişan üzüyü taxılmışdı, payızda toyu olasıydı...

Ceyran ana Gözəlin sorağı ilə dolaşır el-obanı. Ancaq balasının yaralı qaldığı Araz qırağına əlləri yetməsə də, fəryadlı naləsi gəlir hələ də:

*Balamın sorağıyla*
*Gəzdim hər yanı, Araz!*
*Axşam, səhər yol üstə*
*Üzülüb canım, Araz!*
*Gözəlim harda qalıb,*
*Gözəlim hanı, Araz?!*

*Üşüdür məni sazaq,*
*Kim bizə qurdu duzaq.*
*Kimin adına yazaq,*
*Ələmi, qanı, Araz?!*
*Gözəlimdən soraq ver,*
*Gözəlim hanı, Araz?!.*

# SƏN BİR ELİN ÜMİDİYDİN...



***Mehdiyev İlqar Ərşad oğlu***
***doğulub - 24.10.1958-ci il,***
***Cəbrayıl şəhəri;***
***Şəhid olub - 05.02.1997-ci il,***
***Sumqayıt şəhəri***

Sənin son ucu məşəqqətli taleyə söykənən ömür yolunu xatırlayanda ulu dədələrimizin bir deyimi yada düşür: «Ölüm var ki, ölümdü, ölüm də var zülümdü». Sənin ölümün yerə-göyə sığmayan bir zülmə üsyan idi, İlqar. Sən yaşamaq üçün, ürəyindəki yığın-yığın arzuların hənirinə, ülviyyətinə sığınmaq üçün doğulmuşdun. Bu arzular ürəyində pöhrə-pöhrə böyüdükcə sabaha üz tutmuşdun. Ancaq ölüm kabusuna bənzəyən yağılar səni elə məqamda haqladılar ki, ömrünün otuz altıncı ilindən otuz doqquzuncu aşırımına qədər məşəqqətli günlər keçirsən də, qəlbində çiçəklənən arzularına, diləklərinə qovuşa bilmədin...

Sən o müdhiş avqust günündə, yerin-göyün od tutub alışdığı bir vaxtda ellər yaraşığı Cəbrayıl yurdunun sonuncu dəfə görüşünə getmişdin. El-obanın perik düşdüyü bir gündə səni yağı umuduna qalan o ulu yurda çəkən hansı hisslər idi? Büllur kəhrizlə halallaşmaqmı istəyirdin? Dədə Çinara sözünmü var idi? Yoxsa qala timsallı bir şəhərin «qollarına» vurulan əsarət qandallarını gözlərinlə görmək istəyirdin? Bəlkə də qəzavü-qədər səni çəkib oraya aparmışdı ki, düşmən əlinə keçəndən sonra dözümünü, iradəni sınağa çəksin. O müdhiş yay günündə sənə yol yoldaşlığı edib düşmən caynağında məşəqqətli günlər keçirən Üzeyir sonralar yana-yana deyirdi ki, sən yağıların əhatəsində də başını dik tutmuş, əsirlik əzabına əyilməmiş, mərdliklə qatlaşmısan.

AĞRILI BİR XATİRƏ: Bu əhvalatı səninlə birlikdə erməni vəhşiliklərinin hər üzünü görən və sonralar Tanrının möcüzəsi sayəsində əsirlikdən xilas olan beyləqanlı Yusif həkimin dilindən eşitmişik. O səndən söz düşəndə iftixar hissilə deyirdi ki, bir dəfə ermənilər İlqara təklif etdilər ki, dövlətimizin üçrəngli bayrağını tapdalayıb ayaq altına salsın. İlqar nəinki daşnakların təklifini qəbul etdi, əksinə o, bayrağımızı sinəsinə sıxıb ay-ulduz nişanını dodaqlarına yaxınlaşdırdı. Bu hərəkətinə görə İlqar o gün



ölümcül vəziyyətə salınsa da, dişini dişinə sıxıb düşmən qarşısında sınmadı...

...Sən əsirlikdə olduğun ayların sayı artıb-çoxaldıqca atan Ərşad müəllimin, anan Zoya xanımın, əmilərinin, qohum-əqrəbanın yuxusu ərşə çəkildi. Elə-obaya ün sala-sala səni soraqlayan doğmaların dünyanın mərhəmət işığına üz tutub nicat yollarını bir-birinə caladılar. Axır ki, göydə Tanrının, yerdə isə insaflı adamların köməyilə bəxtinə işıq düşdü. Sən düşmən caynağından qurtulub yurdundan perik düşmüş doğmalarının yanına qayıtdın...

İlqar, səni görən gözlər qan ağladı o gün. Əsir düşdüyün günlərdə səni xəyallarında yaşadanların o gün əlləri üzlərində qaldı. Aman Allah, düşmən nə qədər əzazil olarmış? Adama da belə işgəncəmi verərlər? Nə el-obanın səndə xoş ovqat doğuran həlim sözləri, nə anan Zoya xanımın nəvazişləri, nə də ata vüsalına sığınan körpələrinin təbəssümü düşmən zülmündən nişanə qalan mərəzi canından çıxara bilmədi. Sən əsirlikdən qayıdıb gələndən az sonra ölümün ağuşuna sığındın. Cəbrayıl şəhərinin meri vəzifəsini icra etmək sənə bir də qismət olmadı...

...Ani bir ölümün ağrısına dözməyə nə var ki? Sən gor əzabı görə-görə ölümə qovuşdun. Sən yurd sevgisinin şirinliyi ilə ovuna-ovuna şəhidləşdin. Sən üçrəngli bayrağımızın əzəmətinə sığınıb tale sınağından şərəflə çıxdın, inam, dəyanət, əyilməzlik rəmzi olaraq heykəlləşdin ürəklərdə. Belə tale hər adamın qismətinə düşmür, İlqar!

*Sən düşmən qarşısında*
*Dayandın bir dağ kimi,*
*Zirvədə dalğalandın*
*Üçrəngli bayraq kimi.*

*Düşmən əhatəsində*
*Dözsən də hər çətinə,*
*Çoxları qibtə etdi*
*Sənin ləyaqətinə.*

*Qorxu bilməz ər kimi*
*Ürəkdə qaldın, İlqar!*
*Bir alınmaz qalatək*
*Yenilməz oldun, İlqar!*

# TƏMİZ ADIN İŞIĞINDA



***Məmmədov Məhərrəm Fehruz oğlu***
***doğulub - 24.08.1955-ci il,***
***Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi;***
***Şəhid olub – 24.08.1993-cü il,***
***Füzuli rayonu, Əhmədbəyli kəndi***

Yeksarə xanım divardan asılan qara haşiyəli şəklin qarşısında dayanıb ömür-gün yoldaşının bir nöqtəyə zillənən baxışlarına dönə-dönə tamaşa etdi. Xəyallanıb-xəyallanıb şəkillə danışmağa başladı:

– Balalarımız Adəmin, Xəyyamın, Ulduzla Nərgizin nəmli baxışları məni varımdan yox edir. Onları ovundurmaqda çətinlik çəkirəm... Amma elə bilirəm ki, hər dəqiqə yanımızdasan, Mehriban səsin hələ də qulaqlarımdadır. Özün bu dünyada olmasan da, təmiz adının ucalığına, saf əməllərinin işığına sığınıb yaşayırıq.

*Sən gedəndən elə hey*
*Məni boğsa da qəhər.*
*Nəfəsini duyuram,*
*Əzizim, axşam, səhər.*

*Həyatda tək deyiləm,*
*Sığınmışam adına.*
*Balaların qızınır,*
*Ürəyimin oduna...*

Məhərrəm hərbi xidmətdən sonra BDU-nun hüquq fakültəsini bitirmişdi. Rayondakı aqrar-sənaye birliyində hüquqşünas işlədiyi illərdə rayon camaatı ilə qaynayıb-qarışmış, yıxılanın, haqqı tapdananın tərəfində dayanmışdı. O, hamıya xoş üzlə kömək göstərməyi, dost-tanış qazanmağı bacaran adam idi. 1987-ci ildə Zərdab rayon xalq hakimi seçiləndən sonra Məhərrəmin fəaliyyət dairəsi, səlahiyyəti genişlənsə də o, yenə də öz sadəliyi ilə seçilirdi. Arabir iş-gücdən baş tapıb kəndə qayıdanda camaat arasına çıxaraq hamı ilə görüşür, yas yerlərinə üz tutub könlü qubarlı ailələri ovundurardı. Qardaşları Tofiqin, Əbilin nəzərində Məhərrəm adicə qardaş deyildi, - ata kimi yanımlı, sirdaş kimi ürəkdən keçəni duyan idi. Bacısı Suqradan ötrü kəndin ayağından başına payı-piyada gəlib onunla əhval tutar, bacısı uşaqlarını öpüb-oxşayardı. Cavan olmasına baxmayaraq üzündən nuranilik yağırdı onun. Zərdab camaatının nəzərində Məhərrəm Simurq quşu timsalında idi. Tələm-tələsik hökmlər çıxarmağı səriştəsizlik hesab edən bu yanımlı hakim həmişə vicdanın səsinə arxalanar, adamları islah etməyə, düz yola qaytarmağa çalışardı. Cavan ailələr bəzən ayrılmaq üçün ona üz tutanda vüsal şirinliyini hələ lazımınca dərk etməyən gəncləri təzədən qovuşdurmağı ən böyük savab hesab edirdi. Ürəyində öz-özünə deyərdi ki, «dünyada könül sındırmaqdan, nifaq toxumu səpməkdən ağır günah yoxdur.

Hakim qərar çıxararkən gərək yüz ölçüb, bir biçsin». Mühakimə etdiyi adamlara elə həssaslıqla yanaşardı ki, onun hökmündən heç kəs incik qalmazdı...

Şirvan torpağında yaşasa da, ürəyi Qarabağda, Cəbrayılın barıt qoxulu obalarında qalmışdı. Doxsan üçüncü ilin əvvəllərindən başlayaraq tez-tez doğma ata ocağına baş çəkər, imkanı dairəsində döyüşən orduya maddi və mənəvi kömək göstərərdi. Səksəkə içərisində sabaha boylanan həmyerlilərinə üz tutub:

– Əzizlərim, – deyərdi – möhkəm olun, yadda saxlayın ki, ata ocağının əvəzini heç nə verməz. Allah eləməmiş bu yerlərdən əliniz çıxsa, qərib obalarda göz yaşı axıtmalı olacaqsınız...

...O məşum gündə yenidən Böyük Morcanlıya üz tutmuşdu. İstəyirdi ki, anası Səfurəni, əlsiz-ayaqsız uşaqları atəş altdan çıxarıb arxaya aparsın. Yola düşməzdən bir gün qabaq adəti üzrə kənddəki dəmir yol stansiyasına baş çəkib həmyerliləri ilə hal-xoş etdi. «Ağlın nə kəsir, indi biz nə edək?» – sualı ilə ona üz tutanlara:

Vəziyyət elədir ki, qız-gəlini, uşaq və qocaları burada saxlamaq ölümü havayıdan qazanmaqdır, – dedi...

Avqustun 24-də anası Səfurəylə, yaxın qohumları Rəsul və Aminə ilə öz şəxsi maşınında yola çıxan Məhərrəm Məmmədov Əhmədbəylinin yol ayrıcından bəridə, «Gültəpə» deyilən yerdə düşmən «qrad»ına tuş gəldi. Bircə anın içərisində od alan maşında yanıb külə döndülər onlar...

Dünyada Simurq quşu kimi yanımlı bir insan idi Məhərrəm. Elə anadan olduğu gündə də Simurq quşu kimi yanıb dünyasını dəyişdi. Ondan bizə el qeyrəti və bir də təmiz ad qaldı...

...Bir dəfə zərdablı bir dostumun dilindən qopan: «-Məhərrəm müəllim heç öləsi oğul deyildi. Onu biz Cəbrayıl camaatından da çox istəyirdik...» kəlmələrini eşidəndə ürəyim yenidən şan-şan oldu...

...Sonralar Məhərrəm müəllimin gözünün ilk ovu olan oğul balasıyla, Adəmlə də rastlaşdım. Mingəçevirdəki özəl ali məktəbdə oxuyan bu cavan oğlanı görəndə elə bil bir anlıq təsəlli tapdım. Dünyadan nakam gedən atasının arzularını yaşatmaq naminə gələcəkdə hüquqşünas olmağı qət edən Adəm elə indidən el-oba üçün yanımlı-yapışıqlıdır. Şəhid atasının torpağı sanı yaşasın...

...İllər boyu Məhərrəmin boyunu oxşamaqdan doymayan Səfurə bacı haqq dünyasına oğluyla birlikdə qovuşdu. Onları bir-birlərindən ayırmağa ölümün də gücü çatmadı. Səfurə ana gor evində də sevimli övladını bağrına basdı. Dünyada ana sevgisindən güclü nə var ki?!

## YOLLAR ONU SORAQLAYIR...



*Məmmədov Musa Maqsud oğlu*
*doğulub - 27.02.1930-cu il,*
*Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;*
*Şəhid olub - 04.05.1993-cü il, Cəbrayıl bölgəsi*

Torpaq uğrunda candan keçənlərin adlarını el-oba əzizləyib gözləri üstə yaşadır. Vətən sevgisini əsirgəmir onlardan. Musa kişi sözün əsl mənasında yurd əsgəri, Vətən fədaisi idi. Qocalıq üstünü alsa da gözlərinin nuru, ürəyinin təpəri, dizlərinin taqəti yerindəydi. Qışın oğlan çağlarında buldozeri ilə cəbhəyə uzanan dağ yollarını qardan, buzdan təmizləyəndə də, yayın tüğyanında əsgərlərə döyüş sursatı, ərzaq aparanda da Vətənə gərəkli olduğunu duyub iftixar hissi keçirirdi. Kimlərinsə təşəkkürü, sağolu naminə yox, ürəyinin hökmü ilə görürdü bu ilşəri...

Cavan yaşlarından ailəcanlı, işgüzar idi. Kasıblığın sərt üzünü çox gördüyündən özünü oda-közə vurub doqquz nəfərdən ibarət ailəsini dolandırmışdı illər boyu. Qızların dördünü köçürəndən sonra çiyinlərindəki qayğı yükü azalmışdı bir az. Axırıncı qız balasının nişanına gələnləri ürəkaçıqlığı



ilə qarşılamış, gülərüzlə yola salmışdı...

Günbəgün səsi, harayı güclənən müharibə olmasaydı, günlərin birində traktorunu təhvil verib Daş Veysəllidəki evində ayaqlarını rahat uzadardı...

Həyatda qovğalı, qasırğalı bir ömür yaşamışdı Musa kişi. Müharibədən sonra bir müddət neft buruqlarında işləmiş, əllinci illərdə rayona qayıdıb traktorun sükanından yapışmışdı. Bu qazanclı peşə ağır külfətini dolandırmaqda əllərindən tutmuşdu onun...

Xocalı hadisələri, Şuşa və Laçın xəyanətləri yamanca sarsıtmışdı Musa kişini. Kiçik oğlu Aşırı cəbhəyə yola salıb xeyir-dua vermişdi ona. Sonra da özü demişkən traktoruyla birlikdə döyüşə yollanmışdı...

Yollar qar bağlayanda Musa kişi yada düşürdü... Dağların zirvəsindəki postlara qalxmaq lazım gələndə Musa Məmmədovun adına putyovka yazılırdı... Leysan güclənəndə Musa kişinin traktoru yoxuşu üzüyuxarı çıxırdı...

Neçə dəfə ölümün üstündən adlayıb keçmişdi o. Düşmən minası bir dağ aşırımında traktorunun «ayağına» dolaşmasaydı, bu yollarla hələ çox görüşəsiydi...

O laləli dağ yamacları Musa kişidən ötrü yaman qəribsəyir hər bahar. Düşmən kəməndində çapalayan enişli-yoxuşlu dağ yolu onu soraqlayır hələ də...

## ARZU ÜRƏKDƏ QALDI

*Məmmədov Məmməd Yunis oğlu*
*doğulub - 1950-ci il,*
*Cəbrayıl rayonu, Nüzgar kəndi;*
*Şəhid olub - 23.10.1993-cü il,*
*Cəbrayıl rayonu, Mahmudlu stansiyası*



Cəbrayıl şəhərinin erməni qəsbkarları tərəfindən işğal olunmasından bir ay keçirdi. Təcavüzkarlar Fuğanlı kəndinə kimi rayonumuzun bütün dağ və dağətəyi yaşayış məntəqələrini nəzarət altında saxlamalarına baxmayaraq, yaranmış təhlükə Arazboyu kəndlərinin camaatını qətiyyən qorxutmurdu. Hamı öz işi ilə məşğul idi, heç kim doğma torpaqdan ayrılmaq istəmirdi. Rayon rəhbərliyi də Mahmudlu stansiyasında yerləşdiyindən burada bir qaynarlıq hiss olunurdu.

Başqa sözlə sanki həyat öz axarında idi. Bütün bunlar ilk baxışda belə idi. Əslində isə təhlükə mexanizminin yayları yenidən açılmaq üçün təzədən sıxılırdı. Hadisələrin sonrakı davamı bir daha göstərdi ki, öndəki təhlükəni zərərsizləşdirməyə çalışmamaq və bunun üçün təşkilatlanmamaq, sabah partlayacaq mərmi, açılacaq atəş qarşısında ölməkdən və ya qaçmaqdan savayı əlacı olmayacaq mülki əhalinin taleyinə məsuliyyət daşımamaq torpaqlarımızın eyni ssenari ilə işğal edilməsinə şərait yaradan amillərdən, bəlkə də xəyanət zənciri həlqələrindən biri idi. Sabah atəşə tutulacaq və ya işğal ediləcək kəndin qocasını, uşağını, hamilə qadınını, əlsiz-ayaqsızını təhlükəsiz yerə çəkmək çox ağır bir işdir. Bu işi görməyənlər, sabah Tanrıdan başqa üz tutmağa yeri qalmayacaq adamların qorxaq olmadığından danışır, beləliklə fəaliyyətsizliyə haqq qazandırırdılar...

Həmin gün, 1993-cü il oktyabrın 23-də Məmməd Məmmədov anasıgildən bir xəbər tutmaq məqsədilə Zəngilandan Mahmudlu stansiyasındakı qərargaha yollanmışdı. Qərargahdan geri qayıdıb yolun kənarında saxladığı «Jiquli» maşınına tərəf yaxınlaşanda artıq «qrad»lardan, digər iri çaplı silahlardan açılan atəş səsləri hər tərəfi bürümüşdü. Erməni faşistlərinin avtomatdan açdıqları atəş Məmməd müəllimdən yan keçmədi. Köməyə gələnlər faciəli surətdə həlak olmuş Məmməd müəllimin cəsədini güllə yağışı altında çətinliklə də olsa aradan çıxara bildilər.

Məmməd Məmmədov 1957-ci ildə kəndlərindəki natamam orta məktəbə daxil olmuş, oranı bitirdikdən sonra orta təhsilini 1967-ci ildə qonşuluqdakı Horadiz kəndində başa vurmuşdu. Bakıdakı pedaqoji institutun fizika-riyaziyyat fakültəsini bitirib, 1971-ci ildən Zəngilan rayonunda müəllim işləyirdi.

43 illik ömrünün 22 ilini yetişməkdə olan nəslə elmlərin sirlərini öyrətməyə həsr etmiş M. Məmmədov həm də mehriban ailə başçısı idi. Dörd övlad böyütmüşdü. Lakin ortancıl oğlu Radimin çox erkən - 15 yaşında dünyadan köçməsi Məmməd müəllimə ağır dərd olmuşdu. İstəkli balasını heç cür unuda bilmirdi. Hərdən də ciyərparaları Nadimin, Xəyalənin, Pərvizin layiqli övladlar kimi böyüdüklərini görəndə bir təskinlik tapar, qəlbində yeni-yeni arzular baş qaldırardı. Məmməd müəllim çox istəyirdi ki, uşaqları ali təhsil alsınlar, həyatda aciz qalmayıb xoşbəxt olsunlar. Ancaq ömür vəfa etmədi. Məmməd müəllimin arzuları ürəyində qaldı.

İndi o, Cəbrayılın Çaxırlı kəndində uyuyur. Xan Arazın kədərli nəğmələri ilə ovunmayan narahat məzarı yollara boylanaraq, sanki müqəddəs torpaqlarımızın yağı tapdağından azad ediləcəyi gününün nigarançılığını çəkir.



# MƏNİM LALA BİBİM

***Məmmədzamanova Lala Ağahüseyn qızı***
***doğulub - 1902-ci il, Cəbrayıl rayonu,***
***Böyük Mərcanlı kəndi;***
***Şəhid olub - 22.10.1993-cu il,***
***Böyük Mərcanlı kəndi***



Doxsan üçün 22 oktyabr gününün bütün cizgilərini ağrılı yaddaşımda saxlayıram hələ də. Şıxalıağalı kənd mədəniyyət evinə toplaşanlar ağızlarına çullu dovşan sığmayan rayon rəhbərlərinin pafos dolu çıxışlarını dinlədikcə iki-üç kilometr aralıdakı yüksəkliklərdə dayanıb məqam gözləyən düşməni unutmuşdular sanki. Axşamüstü dostum Elbrusla Yuxarı Mərcanlıya qayıdanda kəndin girəcəyində qarşıma çıxan bir uşaq bəd xəbərlə qarşıladı məni:

– Dayı, deyirlər, aşağı başda, Böyük Mərcanlıda Lala nənəmin üstə qrad düşüb...

Dünya tərs dəyirman kimi başına hərləndi elə bil. Özümü Mürsəl oğlu Füzuliyə çatdırıb onun maşınında Çaxırlı zastavasının yanına gəldim. Lala bibimin qanlı cəsədi su dəyirmanının həyətində dayanan bir lafetin üstündə idi...

Gözümü dünyaya açandan bu qadını Lala bibi deyə çağırırdım. Böyük Vətən müharibəsində həlak olan əmimin namuslu, ismətli ömür-gün yoldaşı idi o. Cavan yaşlarından dul qalsa da saçını, birçəyini Mehdinin, Zibeydənin yolunda ağartmış, onlara ana, ata olmuşdu. Təzə-təzə üzü gülürdü Lala bibimin. Nəvə-nəticələrini çəlimsiz qolları ilə qucaqladıqca, çəkdiyi müsibətləri yaddan çıxarmağa, unutmağa çalışırdı...

O gün Böyük Mərcanlıdakı nəvəsi Naridənin evində oturub çay içdiyi yerdə üstünə «qrad» düşmüşdü onun. Böyük Mərcanlı dəmiryol stansiyasındakı yük vaqonlarından (mərcanlıların var-dövləti yığılan bu vaqonlar vaxtında çəkilib aparılmadığından düşmən əlinə keçdi) əli üzülməsin deyə neçə gün idi ki, nəvəsinin evində gecələyirdi Lala bibim...

O gecə gəlini Ceyranın, nəvəsi Gözəlin (dünya gözəli olan bu qızın özü də iki gün sonra Araz qırağında düşmən gülləsinə tuş gəldi) naləsi ərşə qalxmışdı. Ulu Tanrı və bir də Lala bibimin ruhu şahiddir ki, o gecə Quli-

yev Mahmudla yüz yerə üz tutandan sonra axır ki, Dəyirman körpüsünün yanındakı hərbçilərdən üç qrad yeşiyi alıb usta Fikrətə tabut düzəltdirdik.

Səhərisi gün Hümbətalı qəbiristanında Şəybəy tərəfdən atılan mərmilərin harayı altda doğma torpaqda dəfn elədik onu. Lala bibimin qrad yeşiyindən düzəldilən barıt qoxulu tabutunu məzara sallayanda yan-yörəmdəkilərin avazımış sifətinə baxdım - Pəlinin, Şahinin, Həsənin, Şəmilin, Hətəmin çiyinlərindən dağ götürülmüşdü elə bil. Əzizlərimin uyuduğu qəbiristandan aralananda nisgilli bir şeirin misraları için-için hönkürdü içimdə:

*Məzarında ağ saçların*
*Tamam qandı, Lala bibi!*
*Dodağımda qəm alışdı,*
*Nisgil yandı, Lala bibi!*

*Elim, obam dərd içində,*
*Qalmışıq namərd içində,*
*Ölüm varmı bu biçimdə,*
*Şaxım sındı, Lala bibi!..*



# TANRI BU ZÜLMÜ GÖTÜRMƏZ



***Məmmədov Vəliş Allahverdi oğlu doğulub - 1929-cu il, Cəbrayıl rayonu, Şəybəy kəndi; Şəhid olub - 23.10.1993-cü il, Füzuli rayonu, Qazaxlar kəndi***



***Məmmədova Fatma Əli qızı doğulub - 1936-cı il, Cəbrayıl rayonu, Şəybəy kəndi; Şəhid olub - 23.10.1993-cü il. Füzuli rayonu, Qazaxlar kəndi***

Xudavəndi-aləmin elə sirləri var ki, onları görəndə adam varından yox olur, heyrətdən əlləri üzündə qalır insan oğlunun. İndinin özündə də çoxlarımıza elə gəlir ki, erməni fitnə-fəsadı şeytan əməlidir, Allah-təalanın bu zülmdən, bu müsibətdən xəbəri yoxdur. Yurdumuzu qana çalxayan, uşağa, qocaya, qız-gəlinə aman verməyən bu namərdlərin əməllərindən xəbər tutsaydı Allah, yer üzünü zülmətə qərq edər, dəryaları yatağından çıxarar, günahsız bəndələrini qanına qəltan edən ermənilərin başına daş yağdırardı...

Amma o payız günündə o, çox uzaqda idi. Tanrı qəzəbindən qorxub çəkinməyən murdar xislətli düşmən Allahın günahsız bəndələrini burnuna leş iyi dəyən quzğun kimi bircə-bircə dənləməyə başladı. O gün Vəliş kişi, ömür-gün yoldaşı Fatma bacı ilə birlikdə vəhşiliklə qətlə yetirildilər...

Vəliş kişi və ölümü onunla birlikdə qəbul edən Fatma bacı Şəybəy kəndindən idilər. Allah-təaladan övlad payları olmadığından bir-birlərinə sığınıb bu fani dünyada ömür sürürdülər. Şəybəy kəndi işğal olunandan sonra da doğma torpağı tərk etməyib, Arazqırağı obaları özlərinə məskən seçmişdilər. Yurddan perik düşməyi heç ağıllarına belə gətirmirdilər. Gümanları göydə Allaha, yerdə illər boyu qəpik-qəpik yığıb aldıqları minik

maşınlarına gəlirdi. Düşünürdülər ki, bərk ayaqda bu maşın onların xilaskarına çevrilə bilər. Doxsan üçün iyirmi dörd oktyabrında Arazboyu obalara qrad leysanı yağanda Zəngilan-Beyləqan yolu bağlandığından sərhəd zolağı ilə Horadiz qəsəbəsinə tərəf üz tutdular. Qazaxlar kəndinin tuşunda əli avtomatlı quldurlar onların qarşısını kəsdilər. «Jiquli»nin açarını tutub əlindən alan erməni dığası sükan arxasına keçərək maşını işə salanda ürəyi tab gətirmədi Vəliş kişinin. Ona tərəf əlini uzadıb:

– Səni and verirəm Allaha, qoy yolumuzla çıxıb gedək, – dedi. Onsuz da bu maşından başqa gümanımız heç nəyə gəlmir. O olmasa bu xəstə canımızla beşcə addım da ata bilmərik...

Qəfildən atılan güllələr yazıq kişinin sözlərini yarıda kəsdi. Ərinin yerə yıxıldığını görən Fatma arvad yaxınlıqdakı quldurun üstünə şığıdı:

– Görüm əllərin qurusun, ay namərd, o, sənə neyləmişdi? Sizə nə pisliyimiz keçib ki, bizi bu hala salırsınız?

Arvadın dillənməyi ilə gözlərini qan örtən quldurun onu gülləyə tutması bir oldu. Dərdli bir qadının ağ birçəkləri bircə anın içərisində qızıl gül ləçəyinə döndü. Öz «qəhrəmanlıqlarından» həzz alan yağılar ələ keçirdikləri «Jiquli»yə doluşaraq iki günahsız insanın meyitini tapdayıb keçdilər...

Düz dörd ay sonra əsgərlərimiz düşməni geri sıxışdıranda o günahsız insanların tanınmaz hala düşən meyitləri də bir parça torpaqda rahatlıq tapdı...

Ancaq Vəliş kişinin və Fatma bacının yaralı ruhları heç vaxt sakitləşməyəcək. Onların ruhu qiyamət gününə qədər haray çəkib, nifrin qoparacaq. Onların nahaqdan axıdılan qanları erməni qatillərinin boynunda qalacaq həmişə. Araz bu qanlı faciənin şahidi kimi o qaniçən quldurları lənətləyəcək innən belə...



# O GÜNAHSIZ İDİ...



***Muradov Misir Əbil oğlu***
***doğulub - 25.08.1926-cı il,***
***Cəbrayıl rayonu, Çapand kəndi;***
***Şəhid olub - 23.08.1993-cü il,***
***Füzuli rayonu, Əhmədbəyli kəndi***

Dünyanın qəribə işləri, ağlasığmayan olayları var həyatda. Kimisi əcəllə yatağında görüşür, kimisi yolda-izdə dəyişir dünyasını. Bir il qabaq Misir kişiyə desəydilər ki, ölüm səni elat köçündə yaxalayacaq, inanmazdı. Hələ bir gülüb deyəcəkdi ki, ay saqqalı ağarmışlar, mənim elatla, köçlə nə işim var ki, orda əzrayılla üz-üzə gəlim. Qoca kişiyəm, əl-ayağımı yığıb oturmuşam kasıb komamda. Üçdə alacağım yox, beşdə verəcəyim. Sonra da zarafatından qalmayıb əlavə edəcəkdi ki, arığın qoruqda nə işi var ki, vurub qıçını sındıralar...

Demə tale onun üçün gizli-gizli tor qururmuş, bundan xəbəri yox idi Misir kişinin.

Doxsan üçüncü ilin 22 avqust gecəsi camaatı vahiməyə salıb yurd yerindən qaçıranlar iblissayağı qəhqəhə çəkirdilər perik düşənlərin dalınca. Misir Muradov da dişi-dırnağı ilə tikib başa gətirdiyi ev-eşiyini, olan-qalanını qoyub canını götürüb qaçırdı o gecə. Beyləqan səmtə üz tutan yollar elat köçünə bənzəyirdi. Maşın səsi qoyun-quzu mələşməsinə, insan naləsi mal-qara böyürtüsünə qarışmışdı. Ağız deyəni qulaq eşitmirdi. O müdhiş gecənin dan üzündə yol yoldaşları qəfildən itirdilər onu. Axtarmadıqları yer, soraqlamadıqları elat köçü qalmadı. Elə bil yağlı əppək olub göyə çəkilmişdi kişi. On gündən sonra onun meyitini xeyli uzaqlarda tapıb torpağa tapşırdılar. Kimisi dedi Əhmədbəylinin yol ayrıcında hərbçilərlə dolu maşın vurub, kimisi də düşmən güdazına getdiyini söylədi onun. Hər iki halda müharibə yerindən-yurdundan didərgin saldı, ahıl yaşlarında qanına boyadı Misir kişini...

Ağzı dualı, üzü nurlu bir insan idi o. Doğulduğu Çapand kəndində, yaşayıb işlədiyi Mahmudlu stansiyasında ömrü boyu qarışqanı da ayaqlamamışdı bu kişi. Nəydi günahı, niyə taleyin qarğışına tuş gəldi, bilən olmadı...

# BU AD ONA YARAŞIRDI...



***Nəsibov Yolçu Bilal oğlu***
***doğulub - 1940-cı il,***
***Ermənistan Respublikası,***
***Krasnoselsk rayonu,***
***Gölkənd kəndi;***
***Şəhid olub - 11.1991-ci il,***
***Xocavənd rayonu, Zamzur kəndi***

Dağlar qoynunda yerləşən Zamzur kəndi doxsan birinci ilin 15 noyabrında od tutub yanırdı. Burada ruhlar dara çəkilir, insan ahları gülləyə tutulur, yaralılar əzabla öldürülürdü. Yezid qiyafəsində, şümür donundaydı düşmən. Qeyrətli eloğullarımız – Kazım, Şükür, Elçin, Akif sübhün gözü açılandan düşmənlə üz-üzə dayanıb yaxına buraxmırdılar onları. Həcər qeyrətli Faziləylə Müşgünaz əsgərlərimizin yanından uzaqlaşmağı ağıllarına da gətirmirdilər o gün. Qeyri-bərabər döyüşdə son nəfəslərinə kimi vuruşub Şəhid olanların cərgəsində Nəsibov Yolçu Bilal oğlu da var idi o gün...

Yolçu kişi Ermənistanın Krasnoselsk rayonunun Gölkənd oymağında dünyaya göz açmışdı. Səksən səkkizinci ilin payızına kimi o yerlərdə yaşamışdı. Dədə-baba yurdundan qovulandan sonra Bakıya pənah gətirmiş, ordan zorla Hadrutun ermənilərdən boşaldılan Zamzur kəndinə köçürülmüşdü. Kəndin Yalçın qayaları, sərin çeşmələri torpaq ağrısını, yurd göynərtisini az da olsa unutdurmuşdu ona. Ömür-gün yoldaşı Müşgünazla balaları Namiq və Şəlaləylə əl-ələ verib isinişmişdilər təzə yurd yerlərinə. Əlləri əkin-biçindəydi Yolçu kişinin. Belə bir vaxtda ermənilər ikinci dəfə növrağını pozub, işığını həmişəlik söndürdülər onun.

Polis mayoru Qəhrəman Həmidovun dediklərindən: «Yolçu kişi əvəzsiz adam idi, – desəm, yanılmaram. Hər şeydən qabaq onun ölüm qarşısındakı mərdliyi adamı valeh edir. İstəsəydi, o da vaxtında tərk edə bilərdi Zamzuru. Ancaq o axıra qədər namusunu, qeyrətini kişi kimi qoruyub dünyadan köçdü. Nə yaxşı ki, balaları Namiq, Şəlalə, ömür-gün yoldaşı Müşgünaz xanım yaşayırlar həyatda. Yolçu kişinin xatirəsini cəbrayıllılar həmişə əziz tuturlar».

Cəbrayılda ona Ağsaqqal Yolçu, Koroğlu Yolçu deyə müraciət edirdilər. Ölümündən sonra da bu adla xatırlayırlar Yolçu Nəsibovu. Bu ad qeyrətindən, hünərindən soraq verirdi onun. Bu ad yaraşırdı Yolçu kişiyə...



# DÜNYA YAXŞILARINDIR...

***Əsgərov Müzəffər Qəzənfər oğlu***
***doğulub - 15.02.1952-ci il,***
***Cəbrayıl rayonu, Süleymanlı kəndi;***
***itkin düşüb - 15.08.1993-cü il,***
***Süleymanlı kəndi***



Müzəffər müəllimi yaxşı tanıyırdıq. Təkcə biz yox, rayonda çoxları onu yaxşı dost, sözübütöv bir adam kimi qiymətləndirir, adıyla bağlı iftixar hissi keçirirdilər. Onun iri vücudu, əzələli əl-qolu, gur danışıq tərzi, bir sözlə, yerişi-duruşu indinin özündə də bütün cizgiləriylə yadımızdadır. Müzəffər müəllimlə halal duz-çörək kəsmiş, neçə-neçə məclislərdə üz-üzə oturmuşuq. Atası Qəzənfər müəllimlə yaxın münasibətimiz olduğundan Müzəffərin xarakterindəki xoşa gələn duyumların ünvanı, rişələri bizə məlum idi...

Süleymanlı camaatı Müzəffərin yoxluğuna hələ də vaysınır, son nəfəsinə kimi kəndi tərk etməyib, qızıl gülləyə tuş gələn eloğlularına Tanrıdan imdad diləyirlər.

Tanrı ona kövrək insan ürəyi, şir dözümü vermişdi. Həyatın isti-soyuğunu ömrünün lap ilk vədələrindən duymuşdu. Kənddəki orta məktəbin səkkizinci sinfini bitirəndən sonra Bakıdakı riyaziyyat təmayüllü 1 saylı orta məktəbdə oxumuşdu. Hüquqşünas olmaq arzusuyla Süleymanlıdan getsə də, kəndə ədəbiyyat müəllimi kimi qayıtmışdı. Bir müddət rayondakı qiyabi orta məktəbin direktoru işləmiş, camaatla qaynayıb-qarışmışdı. Həmkəndliləri fərasətini görüb Müzəffər müəllimi özlərinə ağsaqqal seçmişdilər. Rayon İcra Hakimiyyətinin Süleymanlı, Qışlaq, Sur, Quşçular kəndlərinə tez-tez baş çəkir, burada səngərə sığınan oğullarımıza ürək-dirək verirdi. Əslində camaat Müzəffər müəllimin qoçaqlığına və təşkilatçılığına görə çətin bir məqamda onu özlərinə başçı seçmişdilər. O bu vəzifəni daşıdığı gündən daha tez-tez barıt qoxulu səngərlərə üz tutur.

Döyüş postlarındakı əsgərlərin döyüş ruhunu yüksəltmək üçün şəxsi nümunə göstərirdi. Kəndin atəş altında olduğu günlərdə çoxları məcburən isti yuvalarını tərk etsə də, o, ölümün gözlərinə dik baxa-baxa yuxusuz gecələr keçirir, qrad səslərinə bələnən bir ömür yaşayırdı...

Deyirlər cəsur adamlar ölümü mərdliklə qəbul edir, onun ən şərəflisini seçirlər. Cəbrayıl camaatının yaddaşında ağrı-açılarıyla yaşayan doxsan üçün

16 avqustunda qeybə çəkildi Müzəffər müəllim. Həmin gün kəndin ətrafında gedən qanlı döyüşlərdə ağır yaralanan bu igid oğlanın sonrakı taleyindən kimsənin xəbəri olmadı.

Bədir ana oğlunun yoxluğuna hələ də inana bilmir. Umeyla xanım bürc timsallı ərinin nə vaxtsa geri dönəcəyinə hələ də ümidini itirməyib. Etibar və Bəxtiyar atalarının adına tapınıb onun yolunu həsrətlə gözləyirlər. Qəzənfər müəllim oğlu Zəfərlə birlikdə Müzəffər müəllimdən bir soraq eşitmək ümidiylə neçə-neçə ünvana üz tutub. Biz özümüz də dost bilib adını həsrətlə andığımız Müzəffərin sağ-salamat geri qayıtmasına Tanrıdan iltimas diləyirik. Dünya yaxşılarındır, – deyən müdriklərimizin bu hikmətli kəlmələrindən Müzəffərin də adı üzərinə işıq düşür. O öz mərdliyi və yenilməzliyi ilə ölməzliyə getdi. Bələlərini nə ulu Tanrı, nə də el-oba yaddan çıxarmaz. Elə onu tanıyanlara və ailə üzvlərinə təsəlli verən də budur...

P.S. Kitab çapa hazırlanarkən Müzəffər müəllimin doğmaları ilə bir daha əlaqə saxladıq. Onlar pəhləvan cüssəli övladlarından əllərini üzə bilməsələr də, qəlblərindən boylanan gümanlarına deyəsən xəfif bir duman çökməkdədir. Elə buna görə də Müzəffər müəllim barədə yazdığımız yazını kənara qoymağa, adını itginlərin cərgəsinə daxil etməyə əlimiz var gəlmədi. Qoy Müzəffər müəllimin, varsa özü, yoxsa, ruhu bizi bağışlasın...



## NƏNƏ QƏBİR SORAQLAYIR



*Seyidəliyev Göyçə Xəlil qızı (1931 - 24.10.93)*



*Məmmədova Təranə İsmayıl qızı (15.04.1974-24.10.1993)*



*Məmmədova Tamilə Fərmayıl qızı (1970-24.10.1993)*



*Məmmədov Mübariz Fərmayıl oğlu (1980-24.10.1993)*



*Məmmədov Seyidəli İsmayıl oğlu (12.11.1982-24.10.1993)*



*Seyidəliyev Faiq Fazil oğlu (27.09.1986-24.10.1993)*

– Nənə, su istəyirəm, suu...
– Bizi evimizə apar, Göyçə nənə, burda üşüyürük...
– Hardasan, ataaaa, gəl, bizi düşmənin əlindən qurtar...
– Mən anamı istəyirəm, ay Allah, o harda qalıb...
– Yaralarım incidir nənə, mənə, kömək elə...

Göyçə nənə torpaq üstə Qıvrılan beş körpə nəvəsinin naləsini eşitsə

də yerindən tərpənə bilmirdi o gün. Düşmən gülləsi ahıl çağında qanına qəltan eləmişdi onu. İstəyirdi Tamiləyə Arazdan bir ovuc su gətirsin, barmaqları açılmırdı, Mübarizi bağrına basmaq arzusu ilə alışıb-yanırdı, qolları sözünə baxmırdı. Seyidəlini, Təranəni ovundurmaq üçün dili söz tutmurdu nənənin. Yeddi yaşlı Faiqi nəfəsi ilə qızdırsın deyə yaxına can atırdı, ayaqları açılmırdı. Aman Allah, bu necə dərd idi, nənə körpələrin harayını eşitsə də, əl uzada bilmirdi onlara. Yaralarından qan sızırdı Göyçə nənənin. Anlar ötüb keçdikcə dünya gözlərində zülmətə dönürdü elə bil. Bircə ovuc Vətən torpağı, bircə qarış gor evi istəyirdi Göyçə nənə. Arazın bircə addımlığında qanına bələnən beş nəvəsindən ötrü iynəynən gor qazmağa hazır idi, ancaq nə bu iynəni tutan əli, nə də gücü, taqəti var idi...

Balalarını səma altda qoyub ölə bilmirdi Göyçə nənə. Düşmən əlində qalan doğma ocağına üzünü tutub haray çəksə də Lələ təpəsindən atılan qradlar çilik-çilik ələməkdəydi səsini...

Dağların dibi ilə qıvrıla-qıvrıla axan Arazın da elə bil dili lal olmuşdu o gün. Arazda hünər nə gəzirdi ki, sahilləri aşıb nənənin harayına yetirsin özünü. O da canının harayın¬daydı. Düşmən gülləri onun da sinəsini parça-parça eləmişdi o payız günü...

Göyçə nənə sonuncu gücünü toplayıb təzədən dağa-daşa ün saldı:

– İsmayıl, Təranən, Seyidəlin qan içindədir, köməyə gəl!..

– Fərmayıl, düşmən Tamiləni, Mübarizi qanına bələyib, hardasan?..

– Anan qurban, ay Fazil, Faiq balan son nəfəsindədir, özünü yetir!

– Nənə, atamı çağırma, o gəlsə düşmən əlinə keçəcək!..

– Bəs, başıma haranın külünü töküm, ay bala? Bəs, bizə kim qəbir qazacaq?

– Qəbir nəyimizə gərəkdir, nənə, biz hələ ölmək istəmirik...

– Su istəyirəm, nənə, ciyərim od tutub yanır...

– Mən də istəyirəm...

– Mən də...

– Mən dəə...

O müdhiş payız günündə Göyçə nənə nəvələrinin səsinə bürünə-bürünə dünyanın quzey üzünə tərəf yol getməkdə idi. Arazın qırağındakı yaşıl bir talada balıq kimi çapalayan nəvələrinə kömək soraqlayırdı nənə...

Beş körpə nəvəsinin tükürpədən harayı Göyçə nənənin ruhuna qısılıb əbədi bir rahatlığa, ölüm yuxusuna bürünməkdə idi...

– Bizi Mərcanlıya, evimizə apar, burda üşüyürük nənə!..

– Ay Allah, günahı nə idi bu tifillərin, biz kimə neyləmişdik, axı?..

Tanrının haqq qapısına qədər ucalan bu nalə budaqdan asılıb qalan sonuncu payız yarpağı kimi əsib titrəməkdədir hələ də. Doxsan üçün payızından Göyçə nənənin çarmıxa çəkilən yaralı ruhu dünyamıza qarğış, nifrin yağdırmaqdadır. Milyon illərdən bəri özünün ümman səbrinə söykənən ulu Tanrının bu müsibətdən xəbəri oldumu görən? Ömrünün ahıl çağlarında ağ birçəklərinə qan çilənən Göyçə ananın qiyamət gününə kimi eşidiləcək naləsi zaman-zaman səslənəcək hələ. Bu dərdli ana günahsız nəvələrinin əllərindən yapışıb nigaran ruhu ilə haqq divanı soraqlayacaq və dilində, dodağında göyərən bir ağı ilə Tanrıya üz tutacaq həmişə:

*Balıqçıyam torum yox,*
*Ocağımda qorum yox.*
*Yurdum, yuvam dağılıb –*
*Kəfənim yox, gorum yox...*



## AĞ SAÇLARIN HARAYI



***Təhməzova Qönçə Səfəralı qızı***
***doğulub - 1928-ci il,***
***Cəbrayıl rayonu, Yuxarı Məzrə kəndi;***
***Şəhid olub - 18.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Yuxarı Məzrə kəndi***

Yuxarı Məzrə camaatı Allah adamı kimi tanıyırdılar Qönçə ananı. Tapdıq kişi müharibə əlili olduğundan ağır bir külfətin qayğıları üstünə düşmüşdü illər uzunu. Qızları Gülşən, Həlimə, Püstə, Salatın, oğlanları Xeyrulla, Müzəffər böyüyəndən sonra təzə-təzə rahat nəfəs alırdı. Erməni quldurları yurdumuza diş qıcıdanda Yuxarı Məzrənin də növrağı pozuldu. Hadrutun sərhəd kəndləri ilə qonşu olan kənd camaatı silaha sarılıb əsgərlərimizlə birlikdə gecə-gündüz ayaq üstə idilər.

Qönçə ana ulu dağların zirvəsini səngər edib, yurdu qoruyan bu oğulların hünəri sayəsində tərk etməmişdi ev-eşiyini.

Avqustun 15-də səhərə yaxın ermənilər kəndə doluşanda xəbəri yox idi ki, o zülmət gecədə Daşbaşı cavanlarımızın edam yerinə dönüb. Bir

gecənin içərisində on səkkiz nəfər əsgəri qətlə yetirən əli qanlı dığalar sübhün gözü açılmamış məzrəlilərə də divan tutdular...

...Müzəffər ağır yaralanan məzrəli Nurəddini qonşu kəndə yola salıb geriyə qayıdanda anası Qönçənin ağ saçlarını qana boyanmış gördü. Özünü itirmədən çiynindəki qoşalülə tüfəngi sinəsinə sıxıb hadisə yerindən uzaqlaşan erməni əsgərinin kürəyini nişan aldı. Qatilin ölümündən sevinsə də anasının yerdə düşüb qalan meyitini bağrına basıb hönkür-hönkür ağladı Müzəffər...

Heyrətdən əlləri üzündə qalan dünya amansız bir faciənin şahidi oldu o gün. Qönçə ananın qanlı saçlarını dağlardan əsən səhər mehi daradı. Düşmən gülləsinə tuş gələn ağbirçək bir qadının qanlı saçlarının harayı Azərbaycan ellərini qisasa, intiqama çağırdı o gün...



***XANƏLİYEV PÜNHAN BƏYİŞ OĞLU***
***doğulub - 1982-ci il,***
***Sumqayıt şəhəri;***
***Şəhid olub - 29.07.1992-ci il,***
***Cəbrayıl rayonu***

Həyatın qəribə işləkləri var. Bir vaxtlar müharibə sözünün yalnız adını eşitmiş bizlər müharibə səhnələrinə də kino-filmlərdə baxmış, bəzən də bunları özümüzə bir əyləncə sanmışdıq. Deyəsən, balaca Pünhana da bu müharibə bir əyləncə təsiri bağışlayırdı. Ona görə də 1992-ci ilin tətil günlərində xalası Sərmayəgilə gəlmişdi. Atası Bəyiş Süleymanlı kəndindən, anası Sarıgül Sofulu kəndindən idilər. Sumqayıt şəhərindəki 22 saylı məktəbin V sinfində oxuyurdu. Özünün dediyi kimi istəyirdi ki, müharibəni lap yaxından görsün, elə bilirdi ki, bu müharibə də kinolarda əyləncə xatirinə baxdığı döyüş səhnələri kimidir...

1992-ci ilin iyun ayının 28-də belə «əyləncəli» döyüş səhnələrindən biri başlamışdı. Erməni vəhşilərinin bir-birinin ardınca atdığı qrad mərmiləri şəhərin üzərinə yağış kimi yağırdı. Birdən mərmilərin biri Pünhanın olduğu həyətin lap yaxınlığında partladı. Mərmi qəlpəsindən ağır yaralanan balaca Pünhan iyunun 29-da Mərcanlı kənd xəstəxanasında valideynlərindən punhan bir şəkildə dünyasını dəyişdi.



## ANALAR ANAR AĞLAR



***Hacıyev Vüqar Əli oğlu***
***doğulub - 1976-cı il,***
***Cəbrayıl rayonu, Sirik kəndi;***
***Şəhid olub - 1992-ci il, Sirik kəndi***

Sirik kəndi keçmiş vilayətin ermənilər yaşayan bir neçə kəndi ilə torpaq-torpağa olduğundan xəyanətkar qonşuların xaincəsinə hücumuna ilkin məruz qaldı. Kəndin başının üstünü təhlükə alanda uşaqdan-böyüyə hamı bir nəfər kimi torpağımızın müdafiəsinə qalxdı. Vüqar da onların arasında idi. Qorxu nə olduğunu bilməyən qeyrətli balamız postlarda gecə-gündüz keşik çəkən özündən qat-qat böyük cavanlarla yanaşı, kişilərlə daim təmasda olur, onlara su, çörək, sursat daşıyır, bəzən döyüşlərdə də iştirak edirdi.

Ermənilərin Tağ kəndi istiqamətindən növbəti hücumları zamanı Vüqar ön xətdə idi. Onu geri qaytarmaq üçün çox cəhd edilsə də, inadından döndərmək mümkün olmadı. Əks hücum zamanı düşmənin atəş nöqtələrinin susdurulmasında böyüklərə məxsus əsl şücaət göstərdi.

Lakin bir dəfə... Hadisə belə olmuşdu. Erməni yırtıcıları Aybasanlı dağı istiqamətindən Sirik kəndini sürətli artilleriya atəşinə tutdular, toplardan, qradlardan atılan mərmilər kəndə ciddi ziyan vurdu. Vüqar bizim mövqedəki «ZPU» qurğusuna patron aparanlara qoşuldu. Elə bu zaman o, mərmi qəlpəsindən ciddi yara aldı. Həkimlərin səylərinə baxmayaraq onu xilas etmək mümkün olmadı. Bu, Vüqar balamızın son döyüşü oldu.

Vüqar Hacıyev böyük arzularla yaşayırdı. Orta məktəbi başa vurduqdan sonra ali məktəbə qəbul olmaq, elinə-obasına xeyir verən mütəxəssis kimi yetişmək istəyirdi.

Ölümündən sonra Vüqara Cəbrayılın ilk gənc Şəhidi statusu verildi. Onun qəbirüstü qraniti rayon İcra Hakimiyyətinin hesabına maliyyələşdirildi. Oğul dərdi 35 yaşlı Mahirənin saçlarına vaxtından əvvəl dən saldı. Gecə-gündüz oğul-oğul deməkdən dili-ağzı qabar olmuş bir didərgin ana naləsi, ana fəryadı indi onu eşidənlərin qəlblərini yandırıb-yaxır:

*Durna sanınan keçər,*
*Ötər, sanınan keçər.*
*İgid vətən yolunda*
*Ölər canından keçər.*

Ağlama, bacım, ağlama! Vüqar kimi oğulun anası ağlamaz. Vətən onun kimi igid oğulların çiynində Vətəndir. Gün o gün olsun ki, torpaqlarımız yağılardan azad edilsin. Qayıdıb istəkli oğlunun qəbrini ziyarət edə, məzarına bənövşə çiçəkləri düzəsən. Amin!



*ƏKBƏROVA CƏMİLƏ YAQUB QIZI (1955-23.10.1993)*



*HƏSƏNQULİYEV SABİR HÜSEYN OĞLU (1950-23.10.1993)*

Hər ikisi Safarşa kəndində anadan olmuşdu. Ər-arvad idilər. M. F. Axundov adına kolxozda fəhlə işləyirdilər. 1993-cü il oktyabrın 23-də Mahmudlu kəndini ermənilər işğal edərkən onlar özlərini coşqun Araz çayının sularına vurmuşlar. Çayın axarına nabələd olan bu talesiz adamlar Arazın sularında qərq olmuş, faciəli bir surətdə həlak olmuşlar.



**HƏSƏNOV XƏLİL BALACA OĞLU**
**(1934-23.08.1993)**



Cəbrayılın Papı kəndində anadan olmuşdu. 1951-ci ildən traktorçu kimi kolxozda əmək fəaliyyətinə başlamışdı. Həmişə, hər yerdə yaxşı işi qeyd edilmişdi. Ömrünün sonuna kimi M. F. Axundov adına kolxozda traktor briqadiri kimi fəaliyyətini davam etdirmişdi. 1993-cü il avqustun 23-də ermənilərin atdığı qrad mərmisindən həlak olmuşdur.

## BU QAN YERDƏ QALMAZ



***Həsrətov Səxavət Möhübbət oğlu***
***doğulub - 02.05.1958-ci il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Hərəkül kəndi***

Ataları dunyasını erkən dəyişdiyindən ailənin əsas ağırlığı Səxavətin üstünə düşmüşdü. Xüsusilə dünyalar qədər istədiyi kiçik qardaşı Mürvətin tay-tuşlarından keri qalmaması üçün özünü oda-közə vurar, onun hər əziyyətinə qatlaşardı.

Əməyinin hədər getmədiyini, Mürvətin ağıllı-kamallı cavan kimi ərsəyə çatdığını görüncə fərəhi yerə-göyə sığmazdı.

S. Həsrətov doğma kəndlərindəki orta məktəbdə müəllim işləyirdi. Sənətinə ürəkdən bağlı idi. Çalışırdı ki, kiçik qardaşı da qəlbindən keçən bir peşəyə sahib olsun.

Başımızın üstündə əsən qara yel getdikcə güclənir, el-oba təhlükə qarşısında qalırdı. Ermənilərin hücumları durmadan genişlənirdi. Camaat arasında bir-birindən dəhşətli xəbərlər yayılırdı. Eşidəndə ki, döyüş zamanı Mürvət itgin düşüb dünya Səxavətin başına fırlandı.

Artıq 1993-cü ilin avqust ayının əvvəlləri idi. Bu o vaxt idi ki, bir il

öncə erməni yaşayan 12 kəndi saqqallı dığalardan təmizləyən cəbrayıllı igidlər satqınlıq, xəyanət üzündən geri çəkilməyə məcbur olmuşdular. Döyüş Cəbrayılın lap yaxınlığında gedirdi. Belə bir gündə Vətən, torpaq qeyrətini, ana-bacı namusunu öz varlığından üstün tutan Səxavət Həsrətov könüllü silaha sarıldı. Dəfələrlə erməni faşistləri ilə üz-üzə gəldi. Səxavətgil az qüvvə ilə azğınlaşmış düşmənə əməlli-başlı dərs verdi. Bu qanlı döyüşdə Səxavət özü neçə-neçə erməni cəlladını gəbərtmişdi.

Heyhat, quduz ermənilərin atdığı mərminin qəlpəsi onun həvəsini gözündə qoyaraq gənc ömrünü yarımçıq qırdı.

S. Həsrətovun özündən sonra bir qızı, bir oğlu yadigar qalıb. İndi təkcə iki gülüzlü balasının gözləri ata intizarında deyil, sinəsinə dağ üstündən dağ çəkilən, hazırda Biləsuvar rayonu ərazisindəki 3 saylı çadır düşərgəsində yaşayan, gecə-gündüz oğul-oğul deyib, yanıqlı-yanıqlı haray çəkən Təbriz ananın ürək göynədən ah-naləsi Muğan çöllərini titrədir.

Ağlama, Təbriz ana, ağlama! Bil ki, bu qan yerdə qalmaz. Qoca tarix özü şahiddir ki, zaman-zaman torpaqlarımıza təcavüz edən yadelli işğalçılar son nəticədə başlarını burada qoyub gediblər. Çox çəkməz, yüzlərlə qəhrəman oğlumuzun qanı axıdılmış torpaqlarımız qarı düşməndən təmizlənər, Səxavət kimi cəsur ərənlərimizin qəlblərdə yandırdıqları qələbə məşəli müstəqil Vətənimizin hər guşəsinə nur saçar. İnşallah!

## YAŞAMAQ HAQQI



***Həsrətov Məhəmmədəli Səməd oğlu***
***doğulub - 05.10.1965-ci il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***Şəhid olub - 15.08.1993-cü il,***
***Xocavənd rayonu, Hərəkül kəndi***

Ömrün ən xoş çağları olan tələbəlik illəri artıq kövrək xatirələrə dönmüşdü. Məhəmmədəli Gəncədəki Kənd Təsərrüfatı Akademiyasını yenicə bitirib tələsik doğma kəndlərinə qayıtmışdı. O qədər tələsmişdi ki, heç diplomunu almağa belə səbri çatmamışdı. Bu, səbəbsiz deyildi. Sonuncu dəfə aldığı xəbərdən aydın hiss etmişdi ki, canından çox sevdiyi ata yurdunda vəziyyət son dərəcə gərgindir. Ona görə də köməyə tələsmişdi. Tələsmişdi ki, yurdun harayına oğul cavabını versin...



1993-cü ilin iyun ayı idi. Erməni qəsbkarlarının hücumları ara vermirdi. Başqa kəndlərimizdə olduğu kimi, Hovuslunun da qeyrətli cavanları düşmənlə ölüm-dirim mübarizəsinə qalxmışdılar. Onların arasında Şəhid olan, itgin düşənlər də var idi. Üz vermiş faciə Məhəmmədəligildən də yan keçməmişdi. Məhəmmədəli qəlbində yağılardan intiqam almaq hissi ilə cəbhəyə yollandı.

Məhəmmədəli Həsrətov döyüşlərin ən qaynar yerlərində olurdu. Vaxtilə sovet ordusunda əsgərlik etməsi, hərbi qayda-qanunlarına bələd olması onun karına gəlirdi. Özü də ehtiyatda olan leytenant idi. O, Hərəkül batalyonunun tərkibində Cəbrayılımızın müdafiəsində əsl fədakarlıq göstərirdi. Elin igid balası oğulluq borcunu son nəfəsinədək şərəflə yerinə yetirdi. Əfsuslar olsun ki, düşmənin qəfil gülləsi Məhəmmədəliyə qələbə gününə qədər vuruşmağa imkan vermədi...

Vətənpərvərlikdən söhbət düşəndə Məhəmmədəli Həsrətov boğazdan yuxarı danışan, əslində isə ondan çox-çox uzaq bəzi tay-tuşlarına irad tutub deyərdi: «Gərək elə edəsən ki, qoynunda böyüdüyün torpağın üstündə gəzməyə haqqın olsun». Haqlısan, Məhəmmədəli, çox haqlısan! Vətən sevgisini, torpağa bağlılıq hissini həyatını qurban verməklə sübut edib gənclərimiz üçün örnək oldun.

## ÖLÜM YOLDA HAQLADI

***Huseynova Əminə Ədil qızı***
***(1960 – 23.10.1993)***



Hüseynova Əminə Ədil qızı 1960-cı ildə Mehdili kəndində anadan olmuşdu. Ömür boyu çalışıb qabarlı əlləriylə özünə gün-güzəran düzəltmişdi. Erməni quldurları cənnət timsallı Cəbrayılımızın külünü göyə sovuranda onun da qara günləri başlamışdı. Doğma ata ocağını tərk etməyə məcbur olanda Füzuli rayonundakı Birinci Mahmudlu kəndi yaxınlığında düşmənin qrad mərmisinə tuş gələrək, yanıb külə döndü...

## *CƏFƏROV NAİL FEHRUZ OĞLU*
## *(1966-28.06.1993)*



Süleymanlı kəndində anadan olmuşdu. Doğma kənddə orta məktəbi bitirmiş, keçmiş sovet ordusu sıralarında xidmət etmişdir. Hərbi xidmətdən sonra kolxozda traktorçu, rayon yol-istismar sahəsində fəhlə işləmişdi. Sonuncu iş yeri İmişli dəmiryolu deposunda hərbiləşdirimiş mühafizə dəstəsi idi.

İmişlidə işləməsinə baxmayaraq tez-tez doğma kəndin müdafiəsində iştirak edirdi. Belə günlərin birində 1993-cü il iyun ayının 28-də Sur əməliyyatı zamanı həlak olmuşdur. Nargilə və Türkan adlı iki qızı yadigar qalıb.



# QƏTL GÜNÜ



***Məmmədova Şövkət Məmməd qızı***
***doğulub - 1957-ci il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***Şəhid olub - 25.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi***



***Cavadov Aydın Adışirin oğlu***
***doğulub - 1953-cü il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi;***
***Şəhid olub - 25.08.1993-cü il,***
***Cəbrayıl rayonu, Hovuslu kəndi***

Hər şey gözlənilmədən baş verdi. Sanki tufan qopdu. Ara verməyən atəş səslərindən qulaq tutulurdu. Ətrafa od-alov saçılırdı. Adamlar pərən-pərən düşərək başlarının üstünü almış qorxulu təhlükədən xilas olmaq üçün canlarını götürüb hara gəldi qaçırdılar. Aləm bir-birinə qarışmışdı. Anaların ürək dağlayan naləsi, qız-gəlinlərin imdad diləyən fəryadları ərşə qalxmışdı...

Erməni faşistləri ac canavar kimi Hovuslu kəndinə doluşanda Aydın həyat yoldaşı Şövkətlə birlikdə macal tapıb evdən uzaqlaşa bilməmişdilər. Daha gec idi. Addım belə atmaq mümkün deyildi. Ancaq onlara tərəf gələn əlisilahlı saqqallıları görəndə Aydın gözlərinə inanmadı. Onların arasında bir neçə «tanışı» olduğundan bir qədər toxtadı da. Axı, dəfələrlə hər birini əziz qonağı kimi süfrəsinin başında əyləşdirmiş, ürəkləri istəyən kimi yedizdirib-içirtmiş, sonra da mexanizator kimi karlarına gəlmişdi. Hamıdan qabaqda gələn alçaqboy, qırmızısifət ermənini görəndə yanılmadığını bir daha yəqin etdi. Fikirləşdi ki, uzun illər gediş-gəlişləri olub, necə deyərlər, bir yerdə putnan duz-çörək kəsiblər. Yəqin ki, köhnə haqq-hesabı unutmayıblar. Onu saqqallıların əlinə verməzlər. Qırmızısifətin cəld addımlarla

Aydıngilə tərəf irəliləməsini də o, fikrində belə yozdu. Ancaq Aydın bilmirdi ki, şirin dillərinə aldandığı bu qaniçənlər süfrəmizin başında əyləşə-əyləşə bizə xəyanət tələsi hazırlayırmışlar. «Tanış» erməni çatan kimi Aydını ağzını açmağa belə imkan vermədi. Əvvəllər bic-bic gülümsəyən gözləri indi qan çanağına bənzəyən qırmızısifətin avtomatından açılan atəş Aydın Cavadovun sinəsini parçaladı. Aydının bir qədər kənarda dayanan həyat yoldaşı Şövkət bir çikkə çəkdi ki, qan hərisi olan erməni özü də bir anlığa çaşıb qaldı.

– A binamus, qədir bilməyən bişərəf! Bu da yaxşılığımızın əvəzi...

Vəhşiləşmiş erməninin ikinci atəşi günlərlə qapısında süləndiyi günahsız qadını da ərinin yanına yıxaraq, sözünü axıradək deməyə qoymadı.

Bu faciə təkcə Aydın Cavadovun və onun ömür-gün yoldaşı Şövkət Məmmədovanın faciəsi deyildi. Hər birimizin - bizim hamımızın faciəsi idi. Hələ iki əsr öncə haykların murdar ayaqları torpaqlarımıza dəydiyi gündən başlamışdı. O gündən ki, Qarabağın dilbər guşələri onların iblis qiyafəli babalarına peşkəş verilmişdi...



***XUDİYEV AYAZ VƏLİ OĞLU***
***doğulub - 1962-ci il,***
***Cəbrayıl rayonu, Daş Veysəlli kəndi;***
***Şəhid olub - 23.10.1993-cü il,***
***Cəbrayıl rayonu***

Ayaz Vəli oğlu 1962-ci ildə Daş Veysəlli kəndində anadan olmuşdu. Taleyi elə anadan olandan onun üzünə gülməmişdi. Gözləri görmürdü, işığa həsrət idi. Amma tale nə qədər amansız olsa da yaşamaq eşqi, yaşamaq ehtirası onu tərk etməmiş, dünyadan giley-güzar edə-edə 31 yaşına gəlib çatmışdı. Erməni quldurlarının vəhşi həmlələrindən qurtarmaq üçün ailə üzvləri və qohum-əqrəbası ilə Araz istiqamətinə üz tutmuşdular...

Çoxlarına nicat verən Arazın coşqun suları neçə-neçə soydaşlarımız kimi Ayazı da öz ağuşuna alaraq əbədiyyətə, sonsuzluğa qovuşdurdu. Bir gün sonra suda boğulmuş Ayazın cəsədini taparaq İmişli rayonunda torpağa tapşırdılar.





***HÜSEYNOV İSAX MUSA OĞLU***
***doğulub - 1982-ci il,***
***Cəbrayıl rayonu, Xələfli kəndi;***
***Şəhid olub - 23.08.1993-cü il,***
***Bəhmənli kəndi***

İsax nə yaşamışdı ki, cəmi 11 yaşı var idi. Xələfli kənd orta məktəbinin 5-ci sinfində oxuyurdu. Əcəl aman versəydi, 1993-cü ilin sentyabr ayında 6-cı sinfə qədəm qoyasıydı.

Quldur erməni birləşmələri Cəbrayılı və onun yuxarı kəndlərini işğal edərkən əhali əlinə keçən dəyər-dəyməzi götürüb bir az aşağılara – Arazboyu ərazilərə çəkilmişdi. İsaxın atası «Şərq» kolxozunun qaramal fermasında işləyirdi. Erməni hücumları ərəfəsində onlar fermanın qaramalını Arazboyu zonaya qovmuşdular.

Vəziyyətin burada da yaxşı olmadığını görən Musa oğlu İsaxla mal-qaranı Beyləqan istiqamətinə sürməyə başladı. Bəhmənli kəndi ərazisindən keçərkən düşmənin atdığı top mərmisi lap onların böyründə partladı. Ağır qəlpə yarası alan İsax elə oradaca 11 yaşında canını tapşırdı.

Həmin vaxta qədər Musa kişinin oğlu Yusif 1993-cü il avqustun 14-15-də Daşbaşı kəndi uğrunda gedən qanlı döyüşlərdə qəhrəmanlıqla vuruşaraq Şəhid olmuşdu.

İkinci oğlu Etibar da erməni quldurlarına qarşı vuruşlarda əzmkarlıq nümunəsi göstərmişdir. 1992-ci ildə Sur kəndi və «Ağ yol» uğrunda gedən döyüşlərdə inamla vuruşmuş, döyüşlərin birində başından yara almış, sonralar ordudan tərxis olunmuşdu.

Üçüncü oğlu İxtiyar isə müxtəlif yerlərdə vuruşmuş, bir neçə qəlpə yarası almışdı. Lakin atəşkəs rejimi başlayanadək müxtəlif yaralar almasına baxmayaraq, orduda xidmətini davam etdirmişdi.

Bəli, dəhşətli Qarabağ müharibəsinin bir ailəyə vurduğu yaralar nə qədər də amansızdır: bir ailədən 4 nəfər - 2-si şəhid, 2-si isə ömürlük şikəst, əlil olub. Ancaq Musa kişi öz əzmini, mətanətini itirmir. Doğma yurduna qayıdacağı günü həsrət və intizarla gözləyir...

# SİZDƏN ÖTRÜ GÖZLƏRİMİZ YOLDADIR...

***Dünyada yol gözləməkdən, itik axtarıb iztirab çəkməkdən ağır nə var? Üç ildən çoxdur ki, düşmən girinə keçəndən sonra öldü-qaldısı bilinməyən onlarca adamın yolunu gözləməkdən gözümüzdə işıq, dizimizdə taqət qalmayıb. Dumanlı-çənli dağların quzey üzündən səs-soraq eşidəndə qəlbimiz gümana düşür, hələ də «öldü» deməyə dilimiz var gəlməyən itgin və girovlarımızın qəfildən qayıdıb gələcəklərinə ümidimiz artır. Haqqında az da olsa məlumat ala bilmədiyimiz itginlərimizin aşağıda adlarını anır, onlara üz tutub «sağsınızsa, səsimizə səs verin!» – deyirik.***




*Abbasov Cəfər*
Dadaş oğlu
Maralyan kəndi


*Abbasov Elməddin*
*Şirxan oğlu*
*Nüzgar kəndi*


*Abdullayev Mehman*
*Musa oğlu*
*Karxulu kəndi.*


*Vəliyeva Səkinə*
*Heydər qızı*
*Balyand kəndi.*


*Allahverdiyev Mahir*
*Məhəmməd oğlu*
*Dağtumas kəndi*


*Alışov Nizam*
*Cümşüd oğlu*
*Qaracallı kəndi.*


Babaşov Şakir
Əhməd oğlu
Böyük Mərcanlı kəndi


*Bayramov Şakir*
*Balakişi oğlu*
*Böyük Mərcanlı kəndi*


*Bəbirova Manya*
*Məmmədalı qızı*
*Daşkəsən kəndi*


*Vəliyev Çingiz*
*İdris oğlu*
*Qumlaq kəndi.*



*Quliyev İxtiyar*
*Atakişi oğlu*
*Araz Maşanlı kəndi*


*Quliyev Muşfiq*
*İbrahim oğlu*
*Horovlu kəndi*



**Soldan:** *Quliyev Ceyhun Mehdiqulu oğlu, Quliyev Mehdiqulu Mədət oğlu, Quliyeva Ceyhunə Mehdiqulu qızı, Quliyeva Ofelya Məmiş qızı, Quliyev Xürrəm Mehdiqulu oğlu*
*Niyazqulular kəndi.*



***Qurbanov Mürvət***
***Əmrah oğlu***
***Şahvəlli kəndi***



***Vəliyev Vidadi***
***Xanmurad oğlu***
***Şahvəlli kəndi.***



***Əliyev Yurik***
***Bəhlul oğlu***
***Mahmudlu kəndi***



***Əliyeva Nisə***
***Xanlar qızı***
***Məzrə kəndi***





***Əliyev Piri***
***Dilavər oğlu***
***Sarıcallı kəndi***



***Əliyev Bilal***
***Hasanalı oğlu***
***Mahmudlu kəndi***



***Əliyev Elmar***
***Rza oğlu***
***Soltanlı kəndi***



***Əliyev Məhəmməd***
***Hümbət oğlu***
***Dağ Tumas kəndi***



***Əzizov Baha***
***Məhəmməd oğlu***
***Böyük Mərcanlı kəndi***



***İbrahimov Sərvər***
***Rəşid oğlu***
***Dağ Tumas kəndi***



***İsaqov Elbrus***
***İsaq oğlu***
***Böyük Mərcanlı kəndi***



***İsmayılov Ramazan***
***Məhəmməd oğlu***
***Şahvəlli kəndi***



***İsgəndərov Məhəmməd***
***Burxan oğlu***
***Böyük Mərcanlı kəndi***



***Yəhyayev Şəmil***
***Səlim oğlu***
***Mahmudlu kəndi***



***Mahmudov Yaqub***
***Mahmud oğlu***
***Böyük Mərcanlı kəndi***



***Mahmudov Əli***
***Murtuza oğlu***
***Dağ Tumas kəndi***



Məmmədov Məzahir
Məhəmməd oğlu
Dağ Tumas kəndi



Məmmədov Həsən
Məhəmməd oğlu
Dağ Tumas kəndi



Məmmədov Məhəmməd
Əvəz oğlu
Dağ Tumas kəndi



Məmmədov Səxavət
Məhəmməd oğlu
Dağ Tumas kəndi



Məmmədov Xıdır
Əziz oğlu
Dağ Tumas kəndi



Quliyev Məhəmməd
İbrahim oğlu
Böyük Mərcanlı kəndi



Məhərrəmov Namiq
Həsənalı oğlu
Böyük Mərcanlı kəndi



Məhərrəmov Pənah
Ağa oğlu
Dağ Tumas kəndi



Musayev Eldar
Musa oğlu
Çərəkən kəndi



Nəcəfova Gülarə
İsmayıl qızı
Qazanzəmi kəndi



Paşayev Oruc
Əziz oğlu
Quycaq kəndi



Rüstəmov Qədir
Məhəmməd oğlu
Cəbrayıl şəhəri





Rüstəmov Arif
Ağa oğlu
Dağ Tumas kəndi



Rüstəmov Abbas
Abbas oğlu
Dağ Tumas kəndi



Rüstəmov Novruz
İbiş oğlu
Dağ Tumas kəndi



Rüstəmov Qüdrət
Abbas oğlu
Dağ Tumas kəndi



Rüstəmov İlham
Qüdrət oğlu
Dağ Tumas kəndi



Səfərov Bəxtiyar
Zülfüqar oğlu
Maralyan kəndi



Xudiyev Əyyub
Şərif oğlu
Süleymanlı kəndi



Hacıyev Ramiz
Əyyub oğlu
Sarıcallı kəndi



Hacıyev Məhəmmədəli
Ədil oğlu
Qazanzəmi kəndi



Heydərov Zaur
Muxtar oğlu
Böyük Mərcanlı kəndi



Həmidov Şəmsi
Məhəmməd oğlu
Dağ Tumas kəndi



Həsrətov Mürvət
Möhübbət oğlu
Dağ Tumas kəndi



*Hüseynov Hüseyn*
*Ataş oğlu*
*Daş Veysəlli kəndi*



*Hüseynov Maqsud*
*Oruc oğlu*
*Cəbrayıl şəhəri*



*Hüseynov Cavanşir*
*Ərşad oğlu*
*Doşulu kəndi*



*Hüseynov Vüqar*
*Dərgah oğlu*
*Şıxalıağalı kəndi*



*Hüseynov İsmət*
*Məhəmməd oğlu*
*Sarıcallı kəndi*



*Hüseynov Əzizağa*
*Məhəmmədəli oğlu*
*Hacılı kəndi*



*Hüseynov İsa*
*Surxay oğlu*
*Balyand kəndi*



*Cəfərov Taleh*
*İldırım oğlu*
*Qərər kəndi*



*Şirinov Şirin*
*Bilal oğlu*
*Doşulu kəndi*



*Şirinov Kazım*
*Şirin oğlu*
*Doşulu kəndi*



*Şirinov Tahir*
*Şirin oğlu*
*Doşulu kəndi*



***Quliyev Habil***
***Əhməd oğlu***
***Böyük Mərcanlı kəndi.***

***Quliyev Oruc***
***Məhəmməd oğlu***
***Böyük Mərcanlı kəndi***

***Mehdiyev İsmayıl***
***Şükür oğlu***
***Böyük Mərcanlı kəndi***

***Mehrəliyev Əziz***
***Salman oğlu***
***Dağ Maşanlı kəndi***

***Məmmədov Sabit***
***Əmirxan oğlu***
***C. Mərcanlı kəndi***

***Məmmədov Səftər***
***Novruz oğlu***
***Xanağabulağı kəndi***

***Məmmədova***
***Narxanım***
***Məmməd qızı***
***Hovuslu kəndi.***

***Məmmədov***
***Məmiş***
***Məmmədalı oğlu***
***Maralyan kəndi***

***Mirzəliyev Ələsgər***
***Fərzalı oğlu***
***Cocuq Mərcanlı kəndi***

***Osmanova Bənövşə***
***İbrahim qızı***
***Dağ Tumas kəndi***

***Piralıyeva***
***Nənəxanım***
***Məhəmməd qızı***
***Hovuslu kəndi.***

***Xanməmmədov***
***İlqar Paşa oğlu***
***Böyük Mərcanlı kəndi***

***Haqverdiyeva***
***Şura Cəmil qızı***
***Daş Veysəlli kəndi***

***Hüseynov Şakir***
***Məhəmməd oğlu***
***Daş Veysəlli kəndi***

***Şükürov İlyas***
***İsmayıl oğlu***
***Böyük Mərcanlı kəndi***

***Şükürov Salman***
***Salman oğlu***
***Çərəkən kəndi***

***Quliyev Elvin***
***Hüseyn oğlu***
***Böyük Mərcanlı kəndi***

***Quliyev Elgün***
***Hüseyn oğlu***
***Böyük Mərcanlı kəndi***

***İsgəndərov Rasim***
***Yolçu oğlu***
***Böyük Mərcanlı kəndi***

## BİZİM ELLƏR ƏMANƏTİ...

Biz Sizə gəlimli-gedimli, ölümlü-itimli dünyamızın qəm leysanında haray qoparan qəlbimizin nisgilindən, qubarından söz açdıq. Yurd savaşında torpağa qanı çilənən həmyerlilərimizin Vətən sevgisi üstə köklənmiş amallarına söykənən qəmli bir dastandan ağrı-acılı hekayətləri diqqətinizə təqdim etdik...

...Beş ildən bəri doğma yurd-yuvalarımızın həsrətiylə qovrulan ürəyimiz dumanlı-çənli dağların ağuşuna sığınan obalarımıza tərəf boylanan baxışlarımız bir tikə ümiddən asılı qalıb. Ermənі quldurlarının qanlı əlləriylə külü havaya sovrulan ata ocaqlarımızın qəlbimizdəki közərtisinə isinə-isinə şəhidlərimizin yaralı ruhu dolaşan o müqəddəs məkana qayıdacağımız günün vüsal şirinliyi ilə özümüzü ovundurduq. İtginlərimizin adlarını birlikdə andıq...

...Yurd savaşı zamanı öz hünərləriylə Şəhidlik Zirvəsində dayanan igid oğullarımızın Vətən sevgisi hamımız üçün bir örnəyə çevrildi. Öz hayqırtıları bizi işıqlı sabahlara səsləyən şəhidlərimiz qan yaddaşımızda əbədi olaraq yaşamaq haqqı qazandılar. İndən belə qala timsallı oğullarımızı həmişə ucalıq simvolu kimi yad edəcək, onların müqəddəs adlarını üçrəngli bayrağımız kimi əzizləyəcəyik...

İstərdik ki, bu kitabda xatirələri əbədiləşən, söz heykəlinə çevrilən Şəhidlərimizin mənalı həyatlarının ayrı-ayrı məqamlarından danışarkən hiss olunan fakt qıtlığı «xəta»sına və bir də atəşkəs dövründə soyuq səngərlərdə düşmən gülləsinə tuş olmuş bəzi şəhidlərimizdən söz açmadığımıza görə istəkli oxucularımız bizi qınamasınlar. Gəlin hamılıqla bu iradları, bu qınağı zalım zəmanənin, çərxi dönmüş fələyin ayağına yazaq.

...Ruhların diliylə «ölümə-ölüm», «qana-qan» deyə-deyə bizi cihada səsləyən qeyrətli Vətən oğulları zamanın əbədiyyət qatarında «bizim ellər əmanəti» deyə-deyə Tanrı dərgahına üz tutmaqdadırlar. Bu gün «Vətəni sevmək imandandır» – deyən ulu Peyğəmbərimizin sevgisinə bələnən Şəhidlərimizin barıt qoxulu gor evləri də səngərə, qalaya bənzəyir. Ulu Tanrıdan Şəhidlərimizə ruh dincliyi, qəni-qəni rəhmət diləməklə onların xatirələrini süsləyən bir şeirin işığında Sizinlə sağollaşırıq;

*Ümidlər, baxışlar yarıyuxulu,*
*Soraqlar yerini dəyişir hələ.*
*Əsgər məzarları barıt qoxulu,*
*Əsgər məzarları döyüşür hələ.*



*Hardasa torpağa qoyub başını,*
*Neçə ünvan yatar, neçə yer yatar.*
*Sinəsi üstəki qəbir daşını,*
*Düşmənə tuşlayan snayper yatar.*

*Analar bir doğma ünvan soraqlar,*
*İtgin məzarların üzləri bəri,*
*Şəhid əsgərlərin dünya durunca,*
*Döyüş yerlərindən gələr səsləri.*

*Bir vaxt sipər olub təpə, dağ üçün,*
*Odların içində diniblər onlar.*
*Bəlkə də dünyanı qorumaq üçü+n,*
*Məzar səngərlərə eniblər onlar...*

# Mündəricat


Alın yazısı ....4
Tanrı bizi bağışlamaz ....6
Şəhid ölümünə deyilən ağı ....10
Qəhrəmanlıq haqqında hekayət ....12
Kimin qarğışına gəldi bu torpaq ....15
Ağrılı qan yaddaşı ....17
Yüz illərin yaddaşı ....18
Dağlar... Dağ kimi insanlar! ....22
Onlar bu obalardan döyüşə yollandılar ....25
Qanlı xronika ....26
Vətən, dağın-daşın ollam ....31
Oğul, oğul deməkdən ....32


## Torpağın qanlı köynəyi


Qara xaç yağışı ....42
Sən yada düşəndə ....45
Ölümünü görən adam ....48
Ömrün son harayı ....51
Vətən üçün doğulmuşuq ....54
Ölüm aman versəydi ....57
Üzü bəri baxan dağlar ....59
Torpağın qanlı köynəyi ....62
Ömrün şəhidlik çağı ....65
Bir həzin nəğməyə bənzəyən oğlan ....68
Yurdunu ürəkdən sevənlər ölmür ....70
Ana məni səsləmə ....74
On doqquz yaş nədir ki ....78
Nağıllara sığan ömür ....81
Şəhidlik zirvəyə bənzər həyatda ....83
Onun adı yaşayacaq ....88
Ad günü ....91
Ağlama şəhid anası ....95





Bu ana hələ də oğul soraqlar ....97
Heykələ dönən şəhid ....99
Duman, gəl get bu dağlardan ....103
Ata oğul gəzirdi ....106
Təki Vətən sağ olsun ....110
Gəncliyin yol yoldaşı ....113
Ömür yolu damar-damar ....115
Vüqar igid oğul idi ....117
Kamil yaddan çıxan deyil ....121
Bu ad qeyrət simvoludur ....125
Ürəklərə düşən işıq ....128
Üzündən nur yağan şəhid ....131
Ölümə tələsən oğlan ....134
Mən sizdən ayrılmazdım ....139
Bu qan yerdə qalan deyil ....143
Adi ölüm deyildi bu ....146
Ata hünərinə sığınan uşaq ....147
Bir ocağın hərarəti ....150
Dərd var ki, dözmək olmur ....153
O, günahsız insan idi ....156
Bir elin arxası ....158
Onu unutmaq olmur ....161
Mərcalının ilk şəhidi ....163
O, yaşamaq istəyirdi ....166
Ram heç vaxt unudulmayacaq ....169
Dağtumasda bir məzar var ....172
Ömrün qu nəğməsi ....174
Tanrı dərgahına qovuşan şəhid ....177
O ölümdən güclü idi ....180
Bu yol hara gedir görən ....183
Bir güman yaşayır ürəyimizdə ....185
O gün uzaqda deyil ....188
Burdan qatarlar keçər ....191
Ata nisgilinə sığışan ömür ....194
Lalələr boylanır burdan hər bahar ....197

Torpağın dan yeri ....................200
Dünyanın ən ağır yükü ....................202
Bir elə sığmayan ömür ....................205
Bu dağlar, ulu dağlar ....................208
Səsimizə səs ver, qardaş! ....................211
Dağlara çən düşəndə ....................214
Elin yaddaşında yaşayan oğlan ....................217
Bilsəydim ayrılıqdı ....................220
Bir şirin nağıla dönüb Ramiz ....................223
Bizim qəlbimizi göynədir o səs ....................225
Torpağı ürəkdən qoruyan oğlan ....................228
Arifin adını yaşadaq gərək ....................230
Mən belə deməmişdim ....................234
Ana oğul soraqlar ....................237
O, ölümdən qorxmurdu ....................239
O, bir vaxtlar xoşbəxt idi ....................242
Böyü, şəhid balası ....................244
Şəhidlik ağrısı ....................247
Ayrılığın sonu yoxmuş ....................250
O, həmişə yaşayacaq ....................253
Ölüm, keç günahımdan ....................255
Əbədi bahara qovuşan şəhid ....................259
Torpağın yasəmən ətri ....................261
Torpaq onu çəkirdi ....................264
Ürək dözə bilmir ....................266
Durna köçü ....................268
İlahi səsin işığı ....................270

## Torpaq mənə halallıq ver

Cavadov Əlgüşad Ağacavad oğlu ....................273
Cabbarov İlham Mirəli oğlu ....................273
Həşimov Ələddin Şükür oğlu ....................274
Suliyev Həbubulla Musa oğlu ....................274
Səmədov Əhmədağa Aslan oğlu ....................275



Mehbalıyev Murad İsmayılxan oğlu ....................275
Məmmədov Əhməd Eldar oğlu ....................276
Məmmədov Əli Sədim oğlu ....................276
Əsgərov Zahid Aydın oğlu ....................277
Əliyev İmamverdi Barat oğlu ....................277
Əzizov Cəfər Məhəmməd oğlu ....................278
Muradov Murad Dövlət oğlu ....................278
Qasımov İlqar Məmməd oğlu ....................279
Əliyev Ramiz Şahnur oğlu ....................279
Məmmədov Alış Alışan oğlu ....................280

## Qəm leysanı

Qəhrəmantək doğulmuşdun ....................282
Qartala bənzərdin ömrün uzunu ....................285
Taleyin son sınağı ....................287
Ömrün son akkordu ....................289
Zirvəyə qovuşan ömür ....................290
Nağıllara sığan ömür ....................292
Yurd həsrəti ....................294
Elvin şəhid balasıdır ....................297
Qartal ömrü ....................299
«Tiqana» od parçasıydı ....................301
Murovdan gələn soraq ....................304
Vətəndə vətən həsrətilə ....................305
Ürəyini məşəl etdi ....................307
Ağayev Eldəniz Maqsud oğlu ....................308
O, yaşamaq istəyirdi ....................309
Göy kişnər, bulud ağlar ....................311
Suyundan içəydim «Çoban bulağı» ....................313
Vətən səni unutmaz ....................315
Yurd yanğısı ....................317
Xəzərə boylanan məzar ....................319
Vətən sənə oğul dedi ....................321
Ayrılıq yaman dərddi ....................323

Qayıt, qardaşım, qayıt.....326
Bir həzin nəğməsən.....328
Bir doğma məzar var Hacıqabulda.....330
Qəlblərdə yaşayan igid.....332
Qəhrəmanlar can verər yurdu yaşatmaq üçün.....334
Ölməyə vətən yaxşı.....336
Onları ölüm də ayıran deyil.....338
Nağıllaşan şəhid ömrü.....340
Ən böyük müsibət.....342
Ellər unutmaz səni.....344
Tanrının sevimlisi.....346
Biz şəhid balasıyıq.....348
İgid ölər, adı qalar.....350
Şəhid ocağında böyüyən oğul.....352
Onun yeri zirvədədir.....353
Qardaş nisgili.....355
Quliyev Yasif Cəmil oğlu.....357
Yaraşmayır ölüm sənə.....258
Onun qəlbi bölünməzdir.....360
Ergidə sönən həyat.....362
Yuxun çin oldu, bala.....364
Şəhid atanın yadigarı.....367
Nakam ömrün sədası.....369
Lalələr bitəcək qəbrinin üstə.....371
Bir evin gur işığıydın.....373
Adil igid oğul idi.....375
Torpaq ətirli əllər.....378
Qatil, əlin qurusun.....380
Sən vətən üçün doğulmuşdun.....382
Ulu turan əsgəriyəm.....385
Torpağın məzar naxışı.....387
Zirvəyə gedən yol.....389
Kişi ömrü yaşamısan.....392
Ata, mən getdim.....394
Ölümdən güclü oğlan.....398



Bizim qəlbimizdə yaşayan Elşən.....400
Torpaq, məndən üz döndərmə.....402
Arazı ayırdılar.....404
Qəfil güllə.....405
Qələbəyə gedən yolda.....407
Sağalan deyil.....409
Zəfərlə çıxdı.....410
Ömrün şərəfli anları.....411
Torpaq onu əzizləyir.....412
Ana torpaq çağırırdı.....414
O günləri tez görəydik.....415
Ana yola baxır.....418
Halal peşə sahibi idin.....420
Qeyrətə söykənən əsgər andı.....421
Dünyanın qəm leysanı.....424
Bir səsin harayı.....426
Ölümündən qorxmayan igid.....429
Qəhrəmanlıq zirvəsi.....431
Bir gecənin faciəsi.....433
Ellər, sizdə nəyim qaldı.....434
Ömrün şəhidlik yolu.....436
İgidlər eldən gedər.....438
Dağlara sığınan ömür.....441
Namərd, əlin qurusun!.....442
Sən şəmkirdə doğulmuşdun.....444
Məni unutmayın.....446
Ellər xəbərsiz qalıb.....448
Ömrün layla şirinliyi.....450
Vətən namusdu, qeyrətdi.....452
Yaralı səsin işığı.....454
Sən həmişə bizimləsən.....456
Vətən, təki sən yaşa.....458
Ana, məni ağlama.....460
Onun ruhu şad oldu.....462
Taleyin qeyrət sınağı.....463

Qəlbimizdə yaşayırsan....465
O gün uzaqda deyil....467
Sənin atan qəhrəmandır....469
O, səməndər quşu idi....471
Gözü yolda qalan var....472
Dostlar məni gözləyir....474
Ölümünə inanmıram....475
Sənsiz yaman darıxmışıq....477
Boz at murad deyilmiş....478
Son döyüş....480
Qocadağ da qəhərləndi....481
Qəlpə yarası....483
Özünü xilas edə bilmədi....485
Sən məni ağlar qoydun....486
Dərdin çoxdur, Xatın nənə....488
Bir oğul böyüyür ocaq başında....490
Tanrının ucalmaq payı....492
Təki Vətən yaşasın....494
Taleyin od közərtisi....498
Toyunu görə bilmədik....500
Ot kökü üstə bitər....501
Sən vətənin imdadıydın....503
Tanrının haqq işığı....504
Bir elin yarpaq tökümü....507
Qəfil ölüm yaman olur....509
Qana boyanmış bilet....511
Dağlar ona arxa idi....512
Güllücədə qırılan ömür....514
İgid ölər, adı qalar....515
Biz ona borcluyuq....517
Bir payız günü....519
Üzüm elə sarıdır....521
O gün təbiət də qan ağlayırdı....523
Aydın üfüq sorağında....524
Yaralı yurd sevgisi....526



Yenə də yanınıza qayıdacağam....529
Barıt qoxulu şəkil....531
İşığa dönən ömür....533
Ata ocağından nigaran şəhid....535
Qəlblərdə yaşayır....537
Yurdun qeyrət qalası....539
Torpağa məhəbbət ölmür....541
Ona qərib deməyin....542
Qismətdən qaçmaq olmaz....544
Bir ömrün üç pöhrəsi....546
Qismətdən qaçmaq olmaz....548
Vətən onu unutmaz....550
Ana oğul gəzir....552
Ömür muncuq düzümüdür....554
Hər şeydən ucadır Vətən sevgisi....557
Qartal ömrü yaşayır o....559
Cavidin şöhrət yolu....561
Sən haqqın elçisisən....563
Ən böyük səadət....565
Ömrümdən ömrünə calardım....567
Vətən səni unutmaz....568
Dünyaya Mehman gəldi....569
O bizi belə qoruyurdu....572
Vətən dara düşəndə....574
Dünyanın dağ boyda qəmi....576
Qeyrətli ananın hünərli oğlu....578
Düşməni sarsıdan ölüm....580
Bu ad ona yaraşır....582
İşığa qərq olan məzar....584
Şəhid qəbri – and yerimiz....586
Süsən, Vüsal əmanəti....589
Yaralı ürəyin naləsi....591
O, yaddan çıxan deyil....592
Vətən unutmaz səni....594
Dünyanın qar işığı....596

Ömrün bulud harayı ....................598
Qisas qiyamətə qalmaz ....................600
Bir əbədi səfərdəyəm ....................601
Səndən ötrü gözlərimiz yoldadır ....................604
Biz, sizdən ayrılmazdıq ....................606
Allahverdiyev Loğman Həbib oğlu ....................606
Haray çəkir gor evin ....................607
Bir həzin xatirəsən ....................608
Suya qərq olan oğlan ....................609
İlahi ata sevgisi ....................610
Qəriblikdə qalan məzar ....................611
Dünyadan kəfənsiz köçənimiz var ....................612
Ata ölər, yurdu qalar oğluna ....................613
Qalmaz belə dünya ....................614
Heç kəsin əli çatmadı ona ....................616
Yurdda qəribsəyən məzar sakini ....................617
Tənha məzar ....................618
Əmrahova Mahnisə Şıxalı qızı ....................619
Alova Zabıta Əhmədxan qızı ....................620
İsgəndərov Təbriz Novruz oğlu ....................621
İbişov Baxşı Zeynal oğlu ....................621
O, yaxşı oğlan idi ....................622
Gözəlim hanı, Araz ....................622
Sən bir elin ümidiydin ....................624
Təmiz adın işığında ....................626
Yollar onu soraqlayır ....................628
Arzu ürəkdə qaldı ....................629
Mənim Lala bibim ....................631
Tanrı bu zülmü götürməz ....................633
O, günahsız idi ....................635
Bu ad ona yaraşırdı ....................636
Dünya yaxşılarındır ....................637
Nənə qəbir soraqlayır ....................639
Ağ saçların harayı ....................641
Xanəliyev Pünhan Bəyiş oğlu ....................642



Analar anar ağlar ....................643
Həsənov Xəlil Balaca oğlu ....................645
Bu qan yerdə qalmaz ....................645
Yaşamaq haqqı ....................646
Ölüm yolda haqladı ....................647
Cəfərov Nail Fehruz oğlu ....................648
Qətl günü ....................649
Xudiyev Ayaz Vəli oğlu ....................650
Hüseynov İsax Musa oğlu ....................651
Sizdən ötrü gözlərimiz yoldadır ....................652
Bizim ellər əmanəti ....................660

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 11.10.2013.
Formatı: 60x84 1/16. Həcmi: 42 ç.v.
Sifariş 31. Tiraj 1000.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəənin direktoru: Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30.

